*Müasir Azərbaycan Dövlətinin banisi,*
*Azərbaycanın ilk xalq müəllimi,*
*təhsilimizin daimi himayəçisi*
*Azərbaycan xalqının Ümummilli Lideri,*
*HEYDƏR ƏLİYEVİN*
*əziz xatirəsinə ithaf edirəm.*

MİSİR MƏRDANOV

# AZƏRBAYCAN TƏHSİL TARİXİ

Təhsil NƏŞRİYYAT POLİQRAFİYA MMC
BAKI–2011



*«Azərbaycanın təhsili, məktəbləri sona çatan XX əsrdə çox böyük nailiyyətlər əldə edib. Əsrin əvvəllərində Azərbaycanın mütəfəkkir şəxsləri, maarifçiləri, ziyalıları, müəllimləri xalqımızı savadsızlıqdan, ətalətdən çıxarmaq, maarifləndirmək, təhsili inkişaf etdirmək üçün çox işlər görmüşlər. Əgər Azərbaycan Respublikasının təhsil tarixi yazılsa (bu tarix yazılmalıdır), şübhəsiz ki, hər mərhələdə görülən işlər orada əksini tapacaq və öz qiymətini alacaqdır».*

***HEYDƏR ƏLİYEV***

MİSİR MƏRDANOV

# AZƏRBAYCAN TƏHSİL TARİXİ

## II CİLD

«TƏHSİL» NƏŞRİYYATI
BAKI – 2011

Elmi redaktor: **Fərrux Rüstəmov,**
*pedaqoji elmlər doktoru, professor*

Redaktorlar: **Gülər Mehdiyeva**

**Leyla İmaməliyeva,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Mərdanov M.**
M54 **Azərbaycan təhsil tarixi. II cild.** ***(1920–1991-ci illər).*** Bakı, «Təhsil», 2011, 704 səh.

Oxuculara təqdim etdiyimiz «Azərbaycan təhsil tarixi» adlı kitabın II cildində 1920–1991-ci illərdə Azərbaycanda təhsil quruculuğundan, təhsil sisteminin mahiyyətindən, həmin dövrün təhsil-tərbiyə ilə bağlı konseptual problemlərindən bəhs olunur.

Sovet hakimiyyəti illərində Azərbaycanın iqtisadiyyatı ilə yanaşı, təhsili, elmi və mədəniyyəti də böyük inkişaf yolu keçmişdir. Bu dövrdə 70 ildə ölkəmizdə savadsızlıq ləğv olunmuş, tam orta icbari təhsil tətbiq edilmiş, təhsil müəssisələrinin, o cümlədən ali məktəblərin inkişaf etmiş şəbəkəsi yaranmış, Elmlər Akademiyası formalaşmış, çoxlu sayda qəzet və jurnal çap olunmağa başlamışdır. Kitabda bütün bu fakt və hadisələr 6 fəsildə şərh olunur. Müvafiq fəsillərdə təhsilin ayrı-ayrı pillələrinin inkişaf tarixi, bu tarixi yaradan insanlar, həmin dövrün təhsillə bağlı mühüm dövlət sənədləri, pedaqoji mətbuat, elmi-pedaqoji kitabxana və Xalq Maarifi Muzeyi barədə məlumat öz əksini tapmışdır.

Kitab tədqiqatçılar, müəllimlər, tələbələr və geniş pedaqoji ictimaiyyət üçün nəzərdə tutulmuşdur.

M $\frac{4301000000}{053}$ 2011

© Misir Mərdanov, 2011

# ÖN SÖZ

Oxuculara təqdim etdiyimiz «Azərbaycan təhsil tarixi» adlı kitabın II cildi sovet hakimiyyəti illərində Azərbaycanda təhsil quruculuğundan, təhsil sisteminin mahiyyətindən bəhs edir.

Bəzən mətbuatda təhsil tarixi ilə bağlı elmi dəlillərə və mənbələrə əsaslanmayan subyektiv fikirlər səsləndirilir. Bu fikirlərdən biri də odur ki, sovet məktəbi milli ruhu olmayan nəsil yetişdirməyə xidmət etmişdir. Sovet təhsil sisteminin bütün məqsəd və məramı insanları soykökündən uzaqlaşdırmaq, dili, məsləki bir olan vahid sovet xalqı formalaşdırmaq olmuşdur. Ancaq təhsil tariximizə belə nihilist meyillərlə yanaşmaq qətiyyən düzgün deyil. Sovet təhsil sisteminin əsasında, əslində, o dövr üçün çox mütərəqqi olan alman təhsil modeli dayanmışdı. Lakin bu mütərəqqi sistem sovet ideologiyası, vahid yanaşmalar və ciddi məhdudiyyətlərin təsirinə məruz qalmışdı. Bu təsirlərin nəticəsində sovet hakimiyyəti illərində müstəqil dövlət siyasətimiz, milli ideologiyamız olmayıb, xalqın milli təfəkkürünün daşıyıcıları olan on minlərlə ziyalı günahsız ittiham edilib. Ancaq bu, heç də o demək deyil ki, sovet dövründə məktəbimiz, təhsilimiz inkişaf etməyib. Əks halda 90-cı illərdə imperiya hakimiyyətinin təzyiqi bir az zəifləyən kimi zamanın diktə etdiyi təhsil siyasəti əsasında tərbiyə almış millətimizin indiki nəsli milli ruhla azadlıq mübarizəsinə qalxardımı? Milli ruhu olmayan nəsil yetişdirməyə xidmət edən məktəb gəncliyi bu mübarizəyə hazırlaya bilərdimi? Əlbəttə, yox! Ulu öndər Heydər Əliyevin təbirincə desək: ***«Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı, belə güclü inkişaf edə bilməzdi. Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq».***

Kitabda 70 illik təhsil tariximizi obyektiv öyrənmək məqsədilə Ulu öndərin bu nəzəri tezislərinə metodoloji əsas kimi yanaşmış, o dövrün təhsil-tərbiyə ilə bağlı konseptual problemlərini həmin müstəvidən araşdırmağa çalışmışam. Bu mənada məsuliyyətlə demək olar ki, sizə təqdim olunan bu kitab təhsilimizin sovet dövrünü əhatə edən 70 illik tarixinin salnaməsidir. Burada dövrün, zamanın diktəsi ilə yazılan, ruhumuza yad səhifələr olsa da, insanın ağlına, zəkasına qida və qüvvət verən, gələcək perspektivləri görməyə kömək edən işıqlı cəhətlər daha çoxdur.

Mən Azərbaycanın təhsil tarixinin I cildi üzərində işləyərkən materialların əldə edilməsində müəyyən çətinliklərlə üzləşdim. Arxiv materiallarının azlığı məni daha dərin tədqiqatlara sövq edirdi. O zaman düşünürdüm ki, sovet dövrünün təhsil tarixi üzərində işləyərkən belə problemlərlə az üzləşəcəyəm, çünki bu bizim ən yaxın keçmişimizdir və həmin illərə dair kifayət qədər materiallar vardır. Lakin işə başlayarkən əmin oldum ki, düşüncələrimdə yanılmışam. Xüsusilə sovet hakimiyyətinin ilk illərinə dair arxiv sənədlərinin, statistik məlumatların çox pərakəndə, sistemsiz tərtib olunması əlavə çətinliklər yaratdı. Aşkar oldu ki, Azərbaycan təhsilinin sovet dövrünün aydın mənzərəsini yaratmaq üçün 1-ci kitabda olduğundan da çox iş tələb olunur və bu dövrün tarixini

ciddi şəkildə sistemləşdirməyə böyük ehtiyac var. Çünki indiyə qədər təhsil tariximizə aid xeyli kitab nəşr edilsə də, bu kitablar, əsasən, Azərbaycanda pedaqoji fikir tarixinə, ayrı-ayrı təhsil müəssisələrinin keçdiyi inkişaf yoluna həsr olunmuşdur. Bu baxımdan təhsil tariximizin salnaməsi olaraq təhsilin hər bir pilləsinin inkişaf mərhələlərini özündə əks etdirən bu kitab quruluşu və mahiyyəti etibarilə ilk təşəbbüsdür. Çoxcildlikdə istifadə edilən materiallar tarixi faktlardan və elmi mənbələrdən qaynaqlanmışdır. Azərbaycanın ictimai-siyasi həyatının, təhsilinin real mənzərəsini tam şəkildə təsəvvür etməkdə və onu oxucuların nəzərinə çatdırmaqda akademiklər Mehdi Mehdizadənin, İsmayıl İbrahimovun, İsa Həbibbəylinin, Abel Məhərrəmovun, Əhliman Əmiraslanovun, professorlar Əhməd Seyidovun, Əjdər Ağayevin, Fərrux Rüstəmovun, Xəlil Əlimirzəyevin, Aslan Atakişiyevin, Səfər İbrahimovun, Əsgər Zeynalovun, Əmrulla Paşayevin, Nəzər Paşayevin, Bağır Bağırovun, keçmiş Ali və Orta İxtisas Təhsili naziri Qurban Əliyevin və başqa alimlərin gərgin əməyinin bəhrəsi olan kitablar mənə xeyli yardımçı oldu. Kitabda bəzi qeyri-dəqiqliklərin ola biləcəyini də istisna etmirəm. Belə hallarla rastlaşdıqda öz iradlarını çəkinmədən söyləyəcək diqqətli oxuculara əvvəlcədən minnətdarlığımı bildirirəm.

1920–1991-ci illəri əhatə edən «Azərbaycan təhsil tarixi» kitabında Azərbaycan təhsilinin inkişaf istiqamətlərini altı fəsildə şərh etməyə çalışmışam. I fəsil «Azərbaycanda ümumi orta təhsilin inkişafı» adlanır. Burada Azərbaycanda icbari ibtidai (1930–1934), natamam orta (1935–1966) və orta təhsilin (1967–1975) həyata keçirilməsi sahəsində qısa bir müddətdə qazanılan uğurlar dövrün ictimai-siyasi hadisələrinin fonunda təhlil olunur.

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi respublikada xalq maarif sistemi sosializmin yeni prinsip və ideologiyası əsasında təşkil edilməyə başlandı. Bu işdə sovet Rusiyasının ümumi təhsil modeli əsas götürüldü. Əhali arasında savadsızlığı ləğv etmək maarifin təməl prinsiplərindən biri sayıldı. I və II pillə məktəbləri ilə yanaşı, kəndli gənclər məktəbi təşkil olundu. İlk sovet dərslikləri meydana gəldi. Dinə qarşı mübarizə adı altında min illik ənənəsi olan klassik müsəlman təhsil müəssisələri – məktəb və mədrəsələr tamamilə ləğv olundu. Bununla belə, bolşeviklər bəzi güzəştlərə də getdilər. Azərbaycan dili məktəblərdə əsas təlim dili kimi təsdiq olundu. Bu illərdə təhsilin məzmunu dəfələrlə ciddi dəyişikliyə məruz qaldı, tədris plan və proqramları təkmilləşdirildi.

Sovet hakimiyyətinin elə ilk günlərində, Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmış əlifba islahatı ilə bağlı işlər yenidən canlandı. Latın qrafikalı əlifbaya keçmək sahəsində Azərbaycanda diqqətəlayiq təcrübə qazanıldı. Ona görə də 1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda çağırılmış I Beynəlxalq Türkoloji Qurultayda SSRİ-nin respublikalarında və vilayətlərində bütün türk-tatar xalqlarına Azərbaycanın təcrübəsini öyrənib təbliğ etmək tövsiyə edildi. Yeni türk əlifbasına keçmək üçün ittifaq miqyasında böyük işlər görüldü. 1929-cu il fevralın 1-dən Azərbaycanda yeni əlifbaya keçildi. Dərsliklərin latın qrafikalı əlifba ilə hazırlanması və nəşri tam reallaşdı.

Çox təəssüf ki, sərt və ciddi qanunların tətbiqi ilə səciyyəvi olan 30-cu illərdə məktəblə bağlı qəbul olunmuş qərarlar, sinfi mübarizənin gücləndirilməsi haqqında Stalin ideyası təhsildə demokratik ənənələrin inkişafını ləngitdi və yeni arzuolunmaz istiqamət formalaşdırdı. Bu qərarlar pedaqoji prosesə partiyalı rəhbərliyi təmin edən metodoloji proqram idi. Milli dəyərlər sərt şəkildə arxa plana keçirildi, saxta beynəlmiləlçilik aparıcı amilə çevrildi, təhsilin məzmunu tamamilə sovet ideologiyasının prinsiplərinə tabe edildi.

Azərbaycan KP MK və Azərbaycan Xalq Maarif Komissarlığı (XMK) 20 may 1933-cü ildə «Proqramlar və dərs kitablarının ümumiləşdirilməsi haqqında» qərar qəbul etdi. Bu qərara əsasən respublika məktəblərinin riyaziyyat, fizika, kimya, təbiət, tarix, ictimaiyyət, coğrafiya, əmək və rəsmxət üzrə proqram və dərs kitabları RSFSR Xalq Maarif Komissarlığı tərəfindən hazırlanan proqram və stabil dərs kitabları ilə eyniləşdirildi. Təlim rus dilində olan məktəblərdə azərbaycanlı uşaqlara Azərbaycan ədəbiyyatı əvəzinə rus ədəbiyyatı tədris edildi. Şagirdlər milli-mənəvi dəyərlərdən tamamilə xəbərsiz qaldılar, «özgə paltarlarını geyinib toya gedən adamlara» (Firidun bəy Köçərli) döndülər.

Təsadüfi deyil ki, hələ vaxtilə görkəmli rus pedaqoqu Pavel Petroviç Blonski yazırdı: «Bizim nəsillər pedaqoji fikir tariximizi öyrənərkən görəcəklər ki, Odessadan tutmuş Vladivostokadək uşaqlar eyni dərsliklə oxuyurlar və bizə güləcəklər ki, biz eyni Ümumittifaq tədris proqramları ilə dərs keçirik. Amma bu işdə hər bir şəhərin, kəndin, rayonun xüsusiyyətlərini nəzərə almaq elə gözəl, rəngarəng proqramların, forma və metodların meydana gəlməsinə səbəb olar ki, bunu heç yuxumuzda da görmərik».

Hələ bu azmış kimi, 30-cu illərdə başlanan repressiya dalğası insanların həyatını qaraltdı. Milli pedaqoqların ən yaxşıları pantürkist, panislamist kimi damğalandı, cismən məhv edildi. Səlahiyyət sahibi olan erməni əsilli məmurların əli ilə Azərbaycanın təxminən 70–80 min nəfər ziyalı nümayəndəsi – alim, yazıçı, artist, müəllim, din xadimi, sovet və partiya işçisi, hərbçi məhv edildi.

Mən həmin dövrə aid materiallarla yaxından tanış olarkən diqqətimi bir fakt cəlb elədi: Dadaş Bünyadzadə, Mustafa Quliyev, Ruhulla Axundov, Ayna Sultanova, Mahmud Ağayev, Maqsud Məmmədov, Məmməd Cuvarlinski, Müseyib Şahbazov... Bu şəxslər Azərbaycan xalq maarifinə, Azərbaycanın təhsilinə rəhbərlik eləmiş insanlardır və onların hamısı 1938-ci ildə «xalq düşməni» kimi mühakimə edilib, repressiyaya məruz qalmışlar. Yalnız maarif nazirləri deyil, bir çox ali məktəb rəhbərləri, məktəb direktorları, tanınmış pedaqoqlar da bu acı taleyə tuş gəldilər.

1939-cu ildə latın qrafikalı əlifbanın tətbiqinə son verildi. Birdən-birə onillik dövrün gərgin zəhmətinin üstündən çox asanlıqla qələm çəkildi – həmin il iyulun 11-də Azərbaycanda latın əlifbasının dəyişdirilməsi barədə qərar qəbul edildi. Heç bir hazırlıq işi aparılmadan 1940-cı il yanvarın 1-dən bütün təhsil müəssisələrində kiril (rus) qrafikalı Azərbaycan əlifbasının tətbiqinə başlandı.

50-ci illərin II yarısı və 60-cı illər keçmiş SSRİ-nin həyatında «mülayimləşmə» dövrü kimi səciyyəvidir. XX əsrin 50-ci illərinin ortalarında Azərbaycan dilinə dövlət dili statusu verilməsi istiqamətində atılan addımlar siyasi hadisələrin mərkəzi məsələsinə çevrilmişdi. Bu sahədə Azərbaycan ziyalılarının, xüsusilə görkəmli yazıçı və dövlət xadimi Mirzə İbrahimovun fəaliyyəti mənəvi mədəniyyət tariximizdə, o cümlədən təhsil salnaməmizdə işıqlı bir iz qoymuşdur.

Bu dövrdə Azərbaycan təhsilində nəzərəçarpacaq yeniliklər baş verdi. Stalin şəxsiyyətinə pərəstişin tənqidi, sosialist cəmiyyətinin potensial imkanlarına inamın stimullaşdırılması, pedaqoji işə yaradıcı proses kimi baxılması, məktəblə bağlı qəbul edilən yeni demokratik məzmunlu qərar və sərəncamlar Azərbaycanda təhsilin inkişafında yeni istiqamətləri müəyyənləşdirdi. Tədris proqramları və dərsliklər məzmun və forma etibarilə yeniləşdirildi, məktəbdə təlim-tərbiyənin səviyyəsi yüksəldi.

Kitabın ilk fəslinin böyük bir hissəsi ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyəti illərində Azərbaycanda ümumi orta təhsilin inkişaf istiqamətlərinin təhlilinə həsr olunmuşdur.

Heydər Əliyevin rəhbərliyi dövründə respublikada geniş məktəb quruculuğu işləri aparıldı. 1970–1980-ci illərdə 683,1 min şagird yerlik 1191 ümumtəhsil məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946–1970-ci illərdəki göstəricilərdən (520 məktəb) iki dəfə çox idi.

I fəsildə geniş şərh olunan məsələlərdən biri də sovet hakimiyyəti illərində yaradılan məktəbdənkənar tərbiyə müəssisələrinin fəaliyyətinin təhlilidir. Bu müəssisələr uşaq, yeniyetmə və gənclərin maraq və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı və fiziki cəhətdən sağlam böyüməları üçün əlverişli şərait yaratmağa xidmət edirdi. Kitabda respublikamızda həmin dövrdə yaranan və fəaliyyət göstərən müxtəlif profilli məktəbdənkənar müəssisələr haqqında ətraflı məlumat verməyə çalışmışam.

Kitabda Ermənistan, Gürcüstan və Dağıstan azərbaycanlılarının sovet hakimiyyəti illərində ümumi təhsil sahəsində qazandığı nailiyyətləri də mümkün qədər işıqlandırmağa çalışmışam. Qeyd etmək lazımdır ki, bu respublikalarda sovet hakimiyyəti illərində Azərbaycan məktəblərinin geniş şəbəkəsi yaranmışdı. Amma 80-ci illərin sonundan etibarən vəziyyət dəyişdi. 1988-ci ildə Ermənistandakı azərbaycanlılar son nəfərinə kimi ata-baba torpaqlarından qovuldular. 200 mindən artıq soydaşımız mənəvi repressiyanın qurbanı oldu. 48681 şagird, onların təlim-tərbiyəsi ilə məşğul olan 3992 müəllim el-obasını tərk etdi. 192 Azərbaycan məktəbi bağlandı. Həmin məktəblərin, həm də 300-dən yuxarı kəndin kitabxanası dağıdıldı, 100 minlərlə kitab yandırıldı, xalqın min illərlə qoruyub saxladığı abidələr yerlə yeksan edildi.

80-ci illərin axırlarında Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında da müəyyən hadisələr baş verdi. Bu hadisələr əhalinin mənəvi-psixoloji durumunda ciddi narahatlıqlar yaratdı. Dmanisi, Bolnisi şəhərlərindən azərbaycanlılar bütünlüklə çıxarıldı. Həmin rayon mərkəzlərindəki Azərbaycan məktəbləri bağlandı. Qeyri-sabit ictimai-siyasi vəziyyət nəticəsində Gürcüstanda Azərbaycan məktəblərinin şagird kontingenti və müəllimlərin sayı kəskin azaldı.

Dağıstandakı Azərbaycan məktəbləri isə hələ keçən əsrin 30-cu illərində bağlanmışdı. Kitabda bunun səbəbləri göstərilmiş, bu vəziyyəti şərtləndirən ictimai-siyasi amillər şərh olunmuşdur.

Kitabın II fəsli Azərbaycanda internat tipli təhsil müəssisələrinin, xüsusi məktəblərin təşəkkülündən və inkişafından bəhs edir. Azərbaycanda, internat məktəblərin tarixi 20-ci illərdən başlanır. Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1926-cı il 6 yanvar tarixli qərarı ilə qəbul edilmiş «Kəndli gənclər məktəbləri haqqında» Əsasnaməyə görə məktəblərin nəzdində kəndlərdən gələn uşaqlar üçün internat tipli yataqxanalar təşkil edilməsi nəzərdə tutulmuşdu. Sonralar bu tipli məktəblərin təcrübəsi əsasında internat məktəblər yaradıldı.

50-ci illərdən ümumtəhsil internat məktəblərin təşkilinə başlanıldı. Respublikamızda fizika-riyaziyyat, kimya-biologiya, fars dili, ərəb dili, humanitar fənlər, idman, incəsənət və hərbi təmayüllü internat məktəblərin yaranması həmin dövrə təsadüf edir.

Sovet hakimiyyəti illərində Azərbaycanda yetim və valideyn himayəsindən məhrum olmuş və sağlamlıq imkanları məhdud olan uşaqların yaşaması və tərbiyə alması üçün uşaq evləri, ümumi orta təhsilə yiyələnmələri üçün də internat və xüsusi məktəblər təşkil olunmuşdu. Oxucular kitabın internat məktəblərə həsr olunmuş fəslində bütün bu tipli məktəblər haqqında geniş məlumatla tanış olacaqlar.

Sovet dövründə ümumi orta təhsil sahəsində yüksək nailiyyətlərin qazanılmasında 70 il ərzində respublikanın maarif naziri vəzifəsində çalışmış

şəxslərin hər birinin: Dadaş Bünyadzadə, Mustafa Quliyev, Ruhulla Axundov, Ağa Sultanov, Ayna Sultanova, Məmməd Cuvarlinski, Müseyib Şahbazov, Məmmədsadıq Əfəndiyev, Mirzə Məmmədov, Mirzə İbrahimov, Məmməd Ələkbərov, Rəhim Rəhimov, Mehdi Mehdizadə, Elmira Qafarova və Kamran Rəhimovun ayrı-ayrılıqda öz xidməti vardır. Kitabda onların fotoşəkli və qısa tərcümeyi-halı verilmişdir.

Kitabın III fəslində sovet hakimiyyəti illərində Azərbaycanda texniki peşə təhsilinin inkişaf istiqamətlərindən bəhs olunur. Faktların təhlili göstərir ki, sovet hakimiyyətinin ilk illərindən hökumət texniki peşə təhsilinə xüsusi diqqət yetirmişdir. Texniki peşə təhsilinin təşkili, xalq təsərrüfatının müxtəlif sahələrinin ixtisaslı fəhlə kadrları ilə təmin edilməsi, fəhlələr arasında texniki savadsızlığın aradan qaldırılması məqsədilə Fabrik-Zavod Şagirdliyi məktəbi təşkil edilmişdi. Bunun nəticəsində Azərbaycanda texniki peşə təhsili müəssisələrinin və orada təhsil alan şagirdlərin sayı əhəmiyyətli dərəcədə artmışdı.

Sovet hakimiyyəti illərində texniki peşə təhsilinin idarə olunması üçün Əmək Ehtiyatları Baş İdarəsi, sonra Texniki Peşə Təhsili üzrə Dövlət Komitəsi, daha sonra Texniki Peşə Təhsili Komitəsi kimi dövlət strukturları yaradılmışdı. Peşə təhsili sahəsində əldə olunmuş nailiyyətlər ayrı-ayrı vaxtlarda həmin quruma rəhbərlik etmiş Əkbər Ənnağıyev, Musa Ağayev, Tofiq Allahverdiyev, Heydər İsayevin adı ilə bağlıdır. Kitabda onların fotoşəkilləri və qısa tərcümeyi-halı öz əksini tapmışdır.

Respublikamızda texniki peşə təhsilinin sürətli inkişafı 70-ci illərə təsadüf edir. Həmin dövrdə ulu öndər Heydər Əliyevin göstərişi ilə 1971–1975-ci illər üçün Azərbaycanda texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafına dair strategiya hazırlandı. Bu strategiyaya uyğun olaraq texniki peşə təhsili qısa bir zamanda sürətli inkişaf yolu keçdi. Əgər 1970-ci ildə respublikada 76 texniki peşə məktəbində 40,9 min şagird təhsil alırdısa, 1987-ci ildə 186 texniki peşə məktəbində 200-dən artıq peşə üzrə 115 min şagird təhsil alırdı.

Kitabın «Azərbaycanda orta ixtisas təhsilinin inkişafı» adlanan IV fəsli orta ixtisas təhsilinin sovet hakimiyyəti illərindəki inkişaf mərhələlərindən bəhs edir. Qori Müəllimlər Seminariyasının ənənələrini Azərbaycanda yaşadanların taleyinə və pedaqoji fəaliyyətlərinə işıq salınır. Qazax, Nuxa (Şəki), Bakı və Gəncədə fəaliyyət göstərən, tədrisin milli dildə aparıldığı ilk pedaqoji seminariyaların işindən, onların müəllim kadrların hazırlığındakı rolundan danışılır. Kitabda Naxçıvan Müəllimlər Seminariyası, Mirzə Ələkbər Sabir adına Bakı Pedaqoji Texnikumu, Bakı Məktəbəqədər Pedaqoji Texnikumu, Şuşa Mədəni Maarif Texnikumu, İncəsənət təmayüllü orta ixtisas məktəbləri (Asəf Zeynallı adına orta ixtisas musiqi məktəbi, Gəncə, Ağdam, Şəki, Xankəndi, Sumqayıt, Lənkəran, Naxçıvan orta ixtisas musiqi məktəbləri), Teatr Texnikumu, Xoreoqrafiya məktəblərinin hər biri haqqında ayrıca oçerk verilmişdir.

Orta ixtisas təhsilinin idarə olunması ilə bağlı dövlət qərar və sərəncamları da diqqətdən kənarda qalmamışdır. Belə qərarlardan biri də 50-ci illərin sonuna təsadüf edir. 1959-cu ilin iyununda SSRİ Nazirlər Soveti «SSRİ-nin ali və orta ixtisas təhsili müəssisələrinə rəhbərliyin yenidən qurulması haqqında» qərar qəbul etdi. Azərbaycan SSR Nazirlər Sovetinin həmin qərara uyğun olaraq, verdiyi digər bir qərarla Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsi yaradıldı. 10 ali və 48 orta ixtisas müəssisəsi həmin Komitənin tabeliyinə verildi. 1962-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Komitəsi Nazirliyə çevrildi. Həmin vaxtdan etibarən Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsi də nazirlik adlandırıldı.

Bu fəsildə sənaye, kənd təsərrüfatı və tibb kadrları hazırlayan orta ixtisas məktəblərinin onilliklər üzrə inkişaf dinamikası və həmin məktəblərdə digər müttəfiq respublikalar və xarici ölkələr üçün kadr hazırlığı ilə bağlı **kifayət qədər** ətraflı məlumat verməyə çalışmışam.

Kitabın V fəsli Azərbaycanda ali təhsilin və ali məktəb elminin inkişafına həsr olunmuşdur.

Təhsil ilə elmin inkişafı bir-biri ilə sıx bağlıdır və biri digərinin inkişafını stimullaşdırır. Çünki təhsil müəssisələrində elmi tədqiqat işi aparılmadan müasir tələblərə cavab verən kadr hazırlığının həyata keçirilməsi mümkün deyil. Bu baxımdan kitabda təhsil və elm vəhdətdə verilmişdir, başqa sözlə, təhsilin elmdə yaratdığı yeni istiqamətlər, ali məktəb elminin təşəkkülü və inkişafı ardıcıllıqla izlənmişdir. Əsaslandırılmışdır ki, bir sıra elmi sahələrin yaranmasına səbəb olan ilk araşdırmalar respublikanın ali məktəblərində həyata keçirilmişdir.

Kitabda ali təhsil ocaqlarında yaranan elmi məktəblər, onların əsasını qoyan, tədqiqatları ilə Azərbaycanın sərhədlərindən kənarda da tanınan elm xadimlərimiz haqqında mümkün qədər məlumat verməyə çalışmışam.

Müharibə illərində ali məktəblərin fəaliyyətində xüsusi canlanma yarandı. Bu illərdə elmi-tədqiqat işlərində əsas diqqət vətənin müdafiəsi ilə bağlı olan məsələlərə yönəldildi. Alimlər təbiət və texniki elm sahələrində mühüm qələbələr əldə etdilər. Bu alimlərin köməyi ilə respublikada qısa müddətdə güclü elmi potensial formalaşdırıldı. Bunun nəticəsində 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyası təşkil olundu. Sevindirici haldır ki, akademiyanı təşkil edən 15 nəfərdən 12-si azərbaycanlı idi. Azərbaycanda elmi tədqiqat işlərinin dövrün tələblərinə uyğun formalaşmasında, ümumiyyətlə, elmi mühitin yaranmasında Azərbaycan Elmlər Akademiyası mühüm rol oynadı.

1946–1950-ci illər xalq təsərrüfatının bərpa illəri oldu. Həmin dövrdə Azərbaycanın onlarla nüfuzlu alimi əldə etdikləri yüksək nəticələrə görə dövlət tərəfindən müxtəlif mükafatlara layiq görüldü.

Gəncliyi 60-cı illərə təsadüf edən insanlar həmin dövrdə Azərbaycanın bütün mədəni həyatında baş verən canlanmanı yaxşı xatırlayırlar. Bu canlanma təhsil sahəsində də özünü büruzə verirdi. Ali təhsilin 1969–1982-ci illərdəki inkişafı isə ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. O, Azərbaycan KP MK-nın avqust (1969) plenumunda digər məsələlərlə yanaşı, ali təhsil müəssisələrində mənəvi iqlimin sağlamlaşdırılması və neqativ halların aradan qaldırılması yollarının geniş təhlilini vermişdi. Ali və Orta İxtisas Təhsili Nazirliyinin və ali məktəb rektorlarının qarşısında ali təhsil müəssisələrinin fəaliyyətinin köklü şəkildə yenidən qurulması kimi ciddi və təxirəsalınmaz vəzifələr qoymuş, ali təhsilin inkişafının əsas istiqamətlərini müəyyənləşdirmişdi.

1971–1975-ci illər üçün Azərbaycanın xalq təsərrüfatının inkişaf planında 85 min 900 ali təhsilli mütəxəssis hazırlanması nəzərdə tutulmuşdu ki, bu da 1966–1970-ci illərdəkindən 33 min 400 nəfər çox idi.

70–80-ci illərdə SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox nüfuzlu ali məktəblərində respublikamız üçün zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gənc təhsil almış, yüksəkixtisaslı kadr kimi formalaşmışdı.

Kitabda, həmçinin respublikamızdakı təhsil ocaqlarının hər birinin təhsil tariximizdəki yerindən, onların yüksəkixtisaslı kadr hazırlığındakı nailiyyətlərindən də bəhs edən oçerklər vardır.

Məlumdur ki, sovet hakimiyyəti qurulanda Bakı Dövlət Universiteti respublikada yeganə ali təhsil müəssisəsi idi. 1919-cu ildə yaranmış bu təhsil ocağı yeni hökumətin siyasi ideologiyasına uyğun olaraq yenidən təşkil edildi.

1920-ci il noyabrın 13-də Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov «Bakı

Politexnik İnstitutunun təsis edilməsi barədə» dekret imzaladı. Bir-birinin ardınca Azərbaycan Dövlət Konservatoriyası, Azərbaycan Kişi Pedaqoji İnstitutu və Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutu, Azərbaycan Kənd Təsərrüfatı İnstitutu təşkil edildi. 1926-cı ildə ali məktəblərin nəzdində aspirantura, 1934-cü ildə elmi-pedaqoji kadrların attestasiya sistemi yaradıldı.

Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə əlaqədar 1930-cu ildə Azərbaycan Dövlət Universiteti bağlandı. Bu hadisə təhsil tariximizin bu gün müxtəlif mövqelərdən şərh olunan mürəkkəb səhifələrindən biridir. Lakin danılmaz faktdır ki, Universitetin bazasında yaranan sahə institutları ali təhsilimizin inkişafında yeni mərhələ oldu. Bundan sonra gələn hər onillik yeni-yeni ali təhsil ocaqlarının yaranması ilə əlamətdardır: 30–40-cı illərdə Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutu, Azərbaycan Ticarət-Kooperativ İnstitutu və Azərbaycan Dövlət Tibb İnstitutu, müstəqil Qiyabi Pedaqoji İnstitut, Xəzər Ali Hərbi Dənizçilik məktəbi, Mirzə Fətəli Axundov adına ikiillik Azərbaycan Müəllimlər İnstitutu, Dövlət Pedaqoji Xarici Dillər İnstitutu təşkil olundu.

50-ci illərdə Azərbaycan Politexnik İnstitutu, Bakı Ali Partiya Məktəbi, Ali Ümumqoşun Komandirləri Məktəbi, Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu yaradıldı.

60-cı illərdə Sumqayıt Ali Texniki Məktəbi, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan, Xankəndi filialları yaradıldı.

1970–1975-ci illərdə 4 ali məktəb təşkil olundu: SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (1972), Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu (1972), Xankəndi Dövlət Pedaqoji İnstitutu (1973), Azərbaycan İnşaat Mühəndisləri İnstitutu (1975). 1981-ci ildə Azərbaycan Texnologiya İnstitutu, 1991-ci ildə isə Bakı Ali Partiya Məktəbinin bazasında Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu yaradıldı.

Azərbaycanda ali və orta ixtisas təhsilinin inkişafında ayrı-ayrı vaxtlarda nazir vəzifəsində çalışmış Şirəli Məmmədov, Abdulla Qarayev, Züleyxa Hüseynova, Danil Quliyev, Qurban Əliyevin və həmin dövrdə ali məktəblərə rəhbərlik etmiş şəxslərin böyük xidmətləri olmuşdur. Kitabda onların da hər birinin qısa tərcümeyi-halı öz əksini tapmışdır.

80-ci illərin sonuna yaxın ali və orta ixtisas təhsilinin idarə olunmasında müəyyən islahatlar aparıldı. 1988-ci ildə Ali və Orta İxtisas Təhsili Maarif nazirlikləri, Dövlət Peşə Təhsili Komitəsi ləğv edildi, onların bazasında Xalq Təhsili Nazirliyi yaradıldı və bütün ali və orta ixtisas təhsili müəssisələri həmin nazirliyin tabeliyinə verildi. Üç nazirliyin birləşdirilməsi ilk vaxtlar, təbii ki, müəyyən çətinliklər yaratdı, amma sonrakı illərdə idarəetmə sahəsində böyük təcrübə qazanıldı və işlər yoluna düşdü.

Kitabda qonşu Gürcüstan və Ermənistan respublikalarında Azərbaycan dilində ali pedaqoji təhsilin inkişafı və problemləri ilə bağlı məsələlərə toxunmuş, yüksəkixtisaslı azərbaycandilli mütəxəssislərə olan tələbatın ödənilməsi üçün sovet hakimiyyəti tərəfindən görülən işlərdən, bu sahədə milli zəmində yaradılan subyektiv maneələrdən də söz açmışam.

Kitabın V fəslində sovet dövründə Azərbaycanda pedaqoji kadrların ixtisaslarının artırılması və yenidən hazırlanmasını həyata keçirən təhsil müəssisələrinin inkişaf mərhələləri pedaqogika, psixologiya və ayrı-ayrı fənlərin tədrisi metodikası sahəsində aparılan tədqiqatlar da öz əksini tapmışdır.

Azərbaycanda ali siyasi və ali hərbi təhsilin təşəkkülü və inkişafı məsələləri də diqqətdən kənarda qalmamışdır. V fəslin müvafiq bölmələrində bu təhsil sahələri barədə də zəruri məlumatı oxucuların nəzərinə çatdırmağa çalışmışam.

Əminəm ki, sovet hakimiyyəti illərində Azərbaycanda pedaqoji mətbuatın («Xalq maarifi», «Maarif və mədəniyyət», «Yeni məktəb», «Maarif işçisi», «Azərbaycan məktəbi», «Müəllimə kömək», «Kommunist tərbiyəsi uğrunda», «Kommunist maarifi», «Müəllim qəzeti», «Azərbaycan müəllimi» və s.), respublika elmi-pedaqoji kitabxanasının və Xalq Maarif Muzeyinin yaranmasına və inkişafına həsr olunmuş VI fəsil də oxucuların marağına səbəb olacaq.

70 ildə təhsilimiz çox ziddiyyətli inkişaf yolu keçib. Bu tarixi yaradan, həyatını xalqın maariflənməsi kimi nəcib işə həsr edən minlərlə ziyalının adı Azərbaycanın tarixinə, onun təhsil salnaməsinə əbədi həkk olunub. Bu gün Azərbaycanın təhsilinə rəhbərlik edən şəxs kimi, bir ziyalı kimi, nəhayət, bir vətəndaş kimi istəmişəm ki, gələcək nəsil bu insanların vətənimiz qarşısındakı xidmətlərindən xəbərsiz qalmasın. Kitabın bu cildində Azərbaycanda sovet dövründə təhsilin inkişafında xüsusi xidmətləri olmuş bütün şəxsiyyətlərin şəkli və qısa tərcümeyi-halı verilmişdir. Hamısı haqqında ayrı-ayrılıqda geniş söhbət aça bilməsəm də, kitabın ad göstəricisində qeyd olunan 1700-dən çox ziyalımız barədə mümkün qədər məlumat verməyə çalışmışam.

Sözümün sonunda onu demək istəyirəm ki, düzdür, sovet dövründə müəyyən itkilərimiz olub, amma qazandıqlarımız itirdiklərimizdən çoxdur. Mən təhsil naziri kimi müxtəlif ölkələrdə, o cümlədən qonşu İran və Türkiyə respublikalarında dəfələrlə xidməti səfərlərdə olmuşam. Bu səfərlər zamanı bir fakt məni həmişə qürurlandırıb: Azərbaycanda insanların təhsil səviyyəsi hər iki ölkədəkindən qat-qat yüksəkdir. Sovet dövründə ən ucqar kəndlərimizdə belə, məktəblər fəaliyyət göstərib və Azərbaycanda savadsız adam yoxdur. Elə ona görə də biz öz müstəqilliyimizi bərpa edib Azərbaycanımızı uğurla irəli apara bildik. Sonra da daha böyük nailiyyətlərə, cəsarətli islahatlara imza atdıq. Təhsilimizi, mədəniyyətimizi, iqtisadiyyatımızı müasir standartlar səviyyəsinə qədər inkişaf etdirdik. Dünənimiz, bu günümüz üçün etibarlı bünövrə oldu. İndi dünənimizin qiymətini düzgün verməsək, sabahımıza möhkəm özül yarada bilmərik.

Kitabın hazırlanması üçün vacib materialların əldə olunmasına gəldikdə, düşünürəm ki, təhsil naziri vəzifəsində çalışmasaydım, Azərbaycanın təhsil tarixi haqqında belə fundamental kitabın yazılması çox çətin və qeyri-mümkün olardı. Çünki bəzən müəyyən materialları axtararkən vəzifə səlahiyyətlərimdən istifadə etmişəm.

Bu kitabın yazılmasında mənə yaxından kömək etmiş hər kəsə: Təhsil Nazirliyinin işçilərinə və kitabı nəşrə hazırlayan nəşriyyatın əməkdaşlarına öz təşəkkürümü bildirirəm.

**MİSİR MƏRDANOV**

# I FƏSİL

## AZƏRBAYCANDA ÜMUMİ ORTA TƏHSİLİN İNKİŞAFI

Azərbaycanda sovet hakimiyyəti dövründə təhsil tamamilə yeni məzmun kəsb etdi. Sovet dövrünün təhsil siyasəti «sosializm və kommunizm quruculuğu» işinə istiqamətlənmiş nəsil yetişdirməyə yönəlmişdi. Bu məqsədlə bütün sovet respublikalarında, o cümlədən Azərbaycanda geniş məktəb şəbəkəsi yaradıldı, onların tədris-maddi bazasının möhkəmləndirilməsi, pedaqoji kadrlarla təmin edilməsi, dərslik və dərs vəsaitləri ilə pulsuz təchiz olunması sahəsində müvafiq tədbirlər həyata keçirildi, məktəbyaşlı uşaqların hamılıqla icbari ümumi orta təhsillə əhatə olunmasına şərait yaradıldı. Qısa bir müddət ərzində *icbari ibtidai təhsil* (1930–1934-cü illər), *icbari natamam orta təhsil* (yeddiillik – 1935–1958-ci illər, səkkizillik – 1959–1966-cı illər), *icbari ümumi orta təhsil* (1967–1975-ci illər) həyata keçirildi.

### 1.1. Ümumtəhsil məktəbinin təşkili

1920-ci il aprelin 28-də XI Qızıl Ordu Azərbaycanı işğal etdi. Milli hökumət devrildi. Süngülər üstündə hakimiyyətə gələn bolşeviklər Milli hökumət üzvlərinin böyük əksəriyyətini cismən məhv etdilər. Ölümdən qurtulanlar isə mənəvi terrora məruz qaldılar. İctimai-siyasi və mədəni həyatda köklü dəyişikliklərin əsası qoyuldu. O dövrdə Rusiyada olduğu kimi, Azərbaycanda da ictimai fikrə təsir göstərə biləcək insanların böyük əksəriyyəti sosialist inqilabını dərhal qəbul etmədilər. Sovet hökumətinin təhsil sahəsinə dair göstərişlərini utopiya, yaxud da şüurlu yalan hesab edərək bolşeviklərlə əməkdaşlıq etməkdən qəti imtina etdilər. Hələ o dövrdə görkəmli rus mütəfəkkiri Georgi Valentinoviç Plexanov uzaqgörənliklə yazırdı: *«Baş vermiş inqilab (Böyük Oktyabr sosialist inqilabı nəzərdə tutulur – M.M.) qədim Çin və Peruvin imperiyaları kimi siyasi eybəcərliyə, yəni kommunizm zəminində təzələnmiş çar despotizminə gətirib çıxara bilər».*

Bir qrup pedaqoq isə sovet hakimiyyətinin ideyalarını qəbul etməsə də, onunla əməkdaşlıq etmək məcburiyyətində qaldı. «Mədəni inqilab»ın həyata keçirilməsində də məhz bu pedaqoqlar mühüm rol oynadılar.

Bolşeviklər Beynəlmiləlçi Müəllimlərin Ümumrusiya qurultayında «Xalq müəllimi burjua cəmiyyətində heç bir zaman qalxmamış olduğu, qalxmadığı və qalxa bilməyəcəyi bir yüksəkliyə qaldırılmalıdır» – şüarını irəli sürmüşdülər. Çünki bolşeviklər məktəbdən öz hakimiyyətləri üçün alət kimi istifadə edirdilər.



**Dadaş Bünyadzadə (1888–1938)**

**Bünyadzadə Dadaş Xoca oğlu** Bakıda anadan olmuşdur. Sovet partiya və dövlət xadimi kimi tanınmışdır. Bolşevik «Hümmət» təşkilatının, Bakı qəza Kəndli Deputatları Sovetinin işində fəal iştirak etmiş, əks-inqilaba və banditizmə qarşı mübarizə üzrə fövqəladə müvəkkil işləmişdir (1917–1918). Bakı kommunasının süqutundan sonra Həştərxana getmiş, RK(b)P Həştərxan quberniya komitəsinin üzvü olmuş, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlığın sədri vəzifəsində işləmişdir.

Dadaş Bünyadzadə Azərbaycan SSR xalq maarif, ərzaq, torpaq komissarı, Dövlət Plan Komissiyasının sədri, Azərbaycan SSR XKS sədrinin müavini və sədri, ZSFSR xalq torpaq komissarı vəzifələrində çalışmışdır. «Qırmızı terror»un qurbanı olmuşdur (1938).

Onlar bilirdilər ki, *inqilabın taleyi müəllim ordusunun sovet hakimiyyəti tərəfində olmasından birbaşa asılıdır.*

Azərbaycanda sovet hakimiyyəti qurulan kimi respublikada xalq maarif sistemi sosializm ideologiyası əsasında təşkil edilməyə başlandı. Bu işdə Sovet Rusiyasının ümumi təhsil modeli əsas götürüldü. *Vahid dünyəvi əmək məktəbi, oğlanlarla qızların birgə təhsili, pulsuz təhsil, təhsildə hüquq bərabərliyi* prinsipləri ön plana çəkildi. Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin 28 aprel 1920-ci il tarixli dekreti ilə Xalq Cümhuriyyətinin Xalq Maarif Nazirliyi ləğv olundu, onun yerinə Xalq Maarif Komissarlığı yaradıldı. ***Dadaş Bünyadzadə*** ilk xalq maarif komissarı təyin edildi.

Respublikadakı bütün mədəni-maarif işlərinə (təhsil, elm, mədəniyyət) rəhbərlik etmək səlahiyyəti Xalq Maarif Komissarlığına həvalə edildi. Xalq Maarif Komissarlığının qarşısına sovet ideologiyasının mahiyyətinə uyğun yeni tip məktəblər təşkil etmək vəzifəsi qoyuldu. Bunu nəzərə alaraq, Azərbaycan hökuməti ilk günlərdən sovet xalq maarifinin yeni istiqamətlərini müəyyən edən bir sıra dekret və sərəncamlar verdi.

**10 may 1920-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən Azərbaycanda sovet maarif sisteminin qurulmasının hüquqi əsaslarını müəyyən edən *«Yeni sovet məktəbi yaratmaq haqqında»* dekret verildi.** Həmin dekretdə yeni sovet məktəbini yaratmaq sahəsində aşağıdakı başlıca istiqamətlər müəyyən edilmişdi:

- köhnə ibtidai və orta məktəblərin politexnik məktəblərlə əvəz olunması;
- yeni sovet məktəbinin iki pillədən – beşillik I pillə (I–V siniflər) və dördillik II pillədən (VI–IX siniflər) ibarət təşkil edilməsi;
- tədrisin ana dilində aparılması;
- hər iki pillədə tədrisin icbari olması;
- təhsilin hamı üçün pulsuz olması;
- yaxın gələcəkdə şagirdlərin yemək və geyimlə də dövlət tərəfindən təmin edilməsi və s.

*(bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.13–14).*

Bu istiqamətdə görüləcək bütün işlərə nəzarət etmək üçün Xalq Maarif Komissarlığının qərarı ilə (15 may 1920-ci il) Azərbaycanın müxtəlif qəzalarında yerli inqilab komitələrinin tərkibində xalq maarif şöbələri yaradıldı.

**1920-ci il mayın 26-da Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyası tərəfindən *«Azərbaycan SSR vahid əmək məktəbi***

*haqqında» Əsasnamə* **təsdiq edildi.** Həmin Əsasnamədə kütləvi məktəblərin əsas tipləri aşağıdakı qaydada müəyyənləşdirildi:

- ibtidai məktəb tipi olaraq beşillik (I–V siniflər) I pillə məktəbləri (8–13 yaş);
- orta məktəb tipi olaraq dördillik (VI–IX siniflər) II pillə məktəbləri (13–17 yaş).

*I pillə məktəblərdə* şagirdlərə ana dilində oxumaq, yazmaq, sadə hesab əməlləri öyrədilirdi, mədəni və ictimai vərdişlər, təbiət və əmək haqqında müəyyən biliklər verilirdi.

*II pillə məktəblərin* təhsil vəzifəsi gənclərə ali məktəbdə oxuya bilmək üçün lazım olan bilik və vərdişlər verməkdən ibarət idi.

Hər iki sənəddə («Dekret» və «Əsasnamə»də) təlimin ana dilində və pulsuz aparılacağı, məktəbin zəhmətkeş balalarının üzünə açıq olacağı, sovet əmək məktəbinin din və dini qurumların təsirindən uzaqlaşdırılacağı, cinsi fərq qoyulmadan hamının birgə (oğlan və qızların bir yerdə) təhsil alacağı hüquqi cəhətdən təsbit edilmişdi *(bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.14–19).*

20-ci illərin əvvəllərində Azərbaycan sovet məktəbinin ideya və təşkilati əsası olan bu prinsiplər sovet pedaqogikasının ilk manifesti hesab edilə bilər. Burada nəinki siyasiləşmə, hətta partiya tabeliyi haqda işarə belə yox idi. «Dekret» və «Əsasnamə»də sosializm cəmiyyəti qurucusunun tərbiyə edilməsi vəzifələri irəli sürülmüş və sovet insanına xas olan ən səciyyəvi əxlaqi keyfiyyətlər (əməksevərlik, həmrəylik, beynəlmiləlçilik) müəyyən edilmişdi. Belə hesab edilirdi ki, sovet insanı özünü cəmiyyətə qarşı qoymamalı, onun fəal qurucusu olmalı, yalnız öz rifahı üçün deyil, bütün insanların rifahı üçün çalışmalıdır. Böyüyən




*I pillə məktəbi qurtarmaq haqqında şəhadətnamə*

nəslin əxlaq tərbiyəsi ön plana çəkilsə də, Azərbaycan SSR xalq maarif komissarının dekreti ilə məktəblərdə din dərslərinin keçilməsi, dini dəyərlərin öyrədilməsi, dini ayin və mərasimlərin icrası qadağan edildi. Məsələ çox kəskin qoyulmuşdu: savadlı adamların, xüsusilə gənclərin məscidə getməsi, ibadət etməsi yasaq idi. Bu yasağı pozanların aqibəti yaxşı olmurdu. İnsanlığın əsas mənəvi təkamül

yollarından biri olan dinin təbliğinə qadağa qoyuldu.

İnsanlara cənnət deyil, «işıqlı sabah» vəd olundu. Dinə qarşı mübarizə adı altında min illik ənənəsi olan klassik müsəlman təhsil müəssisələri – məktəb və mədrəsələr tamamilə ləğv edildi. Məktəblərdə ateizm təbliğ olunmağa başlandı. Bu sahədə aparılan məqsədyönlü siyasət ölkəmizdə onlarla məscidin sökülməsinə, tarixi keçmişimizin yadigarı olan abidələrin məhvinə rəvac verdi. Bu mənəvi terrorda məqsəd xalqı uzun illər ərzində islam dəyərləri üzərində formalaşmış milli dəyərlərindən uzaqlaşdırmağa yönəlmişdi.

Azərbaycan İnqilab Komitəsi 1920-ci ilin sentyabr ayında «I və II dərəcəli məktəblərdə dil dərsləri keçirilməsi haqqında» xüsusi dekret verdi. Bu dekretlə Azərbaycan (türk) dili I və II pillə məktəblərdə əsas təlim dili kimi təsdiq olundu.



*I pillə məktəbi qurtarmış şagirdlərin bir qrupu*

Xalq maarif komissarı Dadaş Bünyadzadə I Ümumazərbaycan maarif və mədəniyyət işçilərinin qurultayındakı çıxışında bu münasibətlə deyirdi: *«Əvvəlki stupendə (pillədə – M.M.) Azərbaycanda yaşayan hər millət beş il öz ana dilində təhsil almalıdır. Türk (azərbaycanlı – M.M.) türk (Azərbaycan) dilində, digər millətlər isə öz dilində oxumalıdır... İkinci stupendə (pillədə – M.M.) iki dil məcburi olur: həm türk (Azərbaycan), həm rus dili bərabərcəsinə öyrədilməlidir» (bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.13–14).* Görünür, bolşeviklər insanların üzünün onlardan tamam dönəcəyindən ehtiyat edib, güzəştlərə də gedirdilər.

## 1.2. Sovet məktəbinin ilk tədris planları

20-ci illərdə Azərbaycanda təhsilin məzmunu ciddi dəyişikliyə məruz qalmış, tədris planları dəfələrlə dəyişdirilmiş və təkmilləşdirilmişdi.

Ölkədə hökm sürən ictimai-siyasi vəziyyət nəticə etibarilə təhsilə öz təsirini göstərirdi. Elə bu səbəbdən də Azərbaycanda siyasi-ideoloji prinsiplər əsasında qurulan vahid ümumi təhsil sisteminin yaradılmasına başlandı. Proqram və dərsliklərin məzmununda əmək, cəmiyyət və təbiət mövzularına geniş yer verildi. Təhsilin məzmunundan milli dəyərlər çıxarıldı, onların yerini saxta beynəlmiləlçilik tutdu.

Azərbaycan Xalq Maarif Komissarlığının fənn komissiyaları Sovet Rusiyasının vahid əmək məktəbləri proqramlarından istifadə edərək I və II pillə məktəblərində öyrədilən bütün əsas fənlər üzrə proqram layihələri hazırladı. Xalq Maarif Komissarlığı tərəfindən təsdiq edilən həmin proqramlar istifadə üçün maarif şöbələrinə göndərildi. Bu, mühüm pedaqoji hadisə idi. Çünki bu proqramlar məktəblərdə tədris edilən fənlərin məzmununu müəyyənləşdirməklə bərabər, müəllimlərə lazımi istiqamətlər və metodik göstərişlər verirdi *(bax: Mehdi Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, «Azərtədrisnəşr», 1958, səh.51–52).*

**1920-ci ilin payızında Azərbaycanın I və II pillə məktəblər üçün ilk tədris planları təsdiq və nəşr edildi.** 1920/21-ci tədris ili üçün I və II pillə məktəblərin tədris planları aşağıdakı kimi idi.

*I pillə məktəblərin tədris planı*

| № | Fənlər | Qruplar (siniflər) | | | | |
|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V |
| 1. | Ana dili | 8 | 8 | 8 | 6 | 6 |
| 2. | Riyaziyyat | 6 | 6 | 6 | 5 | 5 |
| 3. | Təbiət və ölkəşünaslıq | 1 | 3 | 4 | 5 | 5 |
| 4. | Coğrafiya | – | – | – | 3 | 3 |
| 5. | Mədəniyyət tarixi | – | – | – | 2 | 2 |
| 6. | Əl işi | 2 | 2 | 2 | 2 | 2 |
| 7. | Rəsm | 2 | 2 | 2 | 2 | 2 |
| 8. | Nəğmə | 2 | 2 | 2 | 2 | 2 |
| 9. | Bədən tərbiyəsi | 2 | 2 | 2 | 2 | 2 |
| **Həftəlik saatların cəmi:** | | **23** | **25** | **26** | **29** | **29** |

Azərbaycan sovet məktəblərində tətbiq edilən ilk tədris planlarının təhlili göstərir ki, I pillə məktəblərdə təlimin ağırlıq mərkəzi «Ana dili» və «Riyaziyyat» fənlərinin üzərinə düşürdü. İbtidai məktəbin IV və V siniflərində

«Təbiət və ölkəşünaslıq», «Coğrafiya» və «Mədəniyyət tarixi» fənlərinin tədrisinə də kifayət qədər saat ayrılmışdı. II pillə məktəblərin 3-cü və 4-cü qruplarının (VIII–IX siniflər) tədris planlarında fənlər elmi istiqamətlər üzrə şöbələrə (humanitar, bioloji və fiziki-texniki) bölünmüşdü.

*II pillə məktəblərin tədris planı*

| № | Fənlər | Qruplar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | III | | | IV | | |
| | | I | II | Humanitar şöbə | Bioloji şöbə | Fiziki-texniki şöbə | Humanitar şöbə | Bioloji şöbə | Fiziki-texniki şöbə |
| 1. | Rus dili | 4 | 4 | 4 | 2 | 2 | 4 | 2 | 2 |
| 2. | Azərbaycan dili | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 |
| 3. | Riyaziyyat | 4 | 4 | 3 | 4 | 5 | 3 | 4 | 5 |
| 4. | Fizika | 3 | 3 | 2 | 4 | 4 | 2 | 4 | 4 |
| 5. | Mexanika | – | – | – | – | 2 | – | – | 2 |
| 6. | Təbiət | 2 | 2 | 2 | 4 | 2 | 2 | 4 | – |
| 7. | Kimya | – | 2 | 2 | 2 | 2 | – | – | – |
| 8. | Kosmoqrafiya | – | – | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 9. | Mədəniyyət tarixi | 3 | 3 | 4 | 3 | 3 | 4 | 3 | 3 |
| 10. | Coğrafiya | 3 | 3 | – | – | – | – | – | – |
| 11. | Siyasi iqtisad | – | – | – | – | – | 2 | 2 | 2 |
| 12. | Psixologiya | – | – | 2 | – | – | 2 | – | – |
| 13. | Rəsmxət | 2 | 2 | 2 | 2 | 4 | 2 | 2 | 4 |
| 14. | Texnologiya | – | – | – | – | – | – | 2 | 2 |
| 15. | Əmtəəşünaslıq | – | – | – | – | – | – | 2 | 2 |
| **Həftəlik saatların cəmi:** | | **25** | **27** | **27** | **27** | **30** | **27** | **31** | **32** |

Burada əsas məqsəd keçmiş realni məktəb, gimnaziya və ticarət məktəblərinin son siniflərində oxuyan şagirdlərin yeni II pillə sovet məktəblərində təhsillərini davam etdirməsinə şərait yaratmaq idi. II pillə məktəblərin dördüncü qrupunun (IX sinif) bioloji və fiziki-texniki şöbələrində «Texnologiya», «Əmtəəşünaslıq», «Siyasi iqtisad» fənlərinin tədrisi keçmiş kommersiya məktəbində təhsil almış şagirdlərə yeni məktəbdə oxumaq imkanı yaradırdı. II pillə məktəblərin 3-cü və 4-cü qruplarının bütün şöbələrində (VIII–IX siniflərdə) tədris edilən «Kosmoqrafiya» («Yerin və göyün quruluşundan bəhs edən elm») fənni də elə bu məqsədlə tədris olunurdu *(bax: Mehdi Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, 1958, səh. 37–39).*

Lakin bu tədris planları dövrün tələblərinə tam cavab vermirdi. Onların çatışmayan əsas cəhətlərindən biri təqribi xarakterdə olmaları idi. Xalq Maarif Komissarlığının qərarı ilə məktəb pedaqoji şuralarına fənlərin tədrisinə ayrılan həftəlik saatların miqdarını dəyişdirmək səlahiyyəti verilmişdi.

1922-ci ildə ümumtəhsil məktəbləri üçün yeni Əsasnamə təsdiq edildi. Əsasnaməyə görə, ev tapşırıqları, buraxılış və sinifdən-sinfə keçmə imtahanları ləğv edildi.

1923-cü ildə tədris planlarına yenidən baxıldı, bəzi düzəlişlər edilərək təsdiq olundu. Ayrı-ayrı fənlərin proqramlarında və tədris saatlarında kiçik dəyişikliklər edildi.

I pillə məktəblərin yeni tədris planında «Mədəniyyət tarixi» əvəzinə, «İctimaiyyat» (IV–V siniflərdə) fənni, eləcə də təlim Azərbaycan dilində olmayan məktəblər üçün «Azərbaycan dili» (III–V siniflərdə) fənninin tədrisi nəzərdə tutuldu, riyaziyyat fənninə ayrılan saatların miqdarı IV–V siniflərdə artırıldı.

II pillə məktəblərin yeni tədris planlarında ana dili, riyaziyyat və təbiət fənlərinin tədrisinə üstünlük verilirdi. Yeni tədris planında II pillə məktəblərin 3-cü və 4-cü qruplarında (VIII–IX siniflərdə) fənlərin üç təmayül üzrə

*I pillə məktəblər üçün*
*1923/24-cü ilin tədris planı*

| № | Fənlər | Qruplar | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1 | 2 | 3 | 4 | 5 |
| 1. | Ana dili | 8 | 8 | 8 | 6 | 6 |
| 2. | Riyaziyyat | 6 | 6 | 6 | 6 | 6 |
| 3. | Təbiət | – | 3 | 3/4* | 3/4 | 3/4 |
| 4. | Coğrafiya | – | – | – | 3 | 3 |
| 5. | İctimaiyyat | – | – | – | 2/3 | 2/3 |
| 6. | Əl işi | 2 | 2 | 2 | 2 | 2 |
| 7. | Cizgi savadı | 2 | 2 | 2 | 2 | 2 |
| 8. | Nəğmə və musiqi | 2 | 2 | 1/2* | 1/2 | 1/2 |
| 9. | Bədən tərbiyəsi | 2 | 2 | 2 | 1 | 1 |
| 10. | Azərbaycan dili** | – | – | 4 | 4 | 4 |
| **Həftəlik saatların cəmi:** | | **22** | **25** | **24/26+4** | **26/29+4** | **26/29+4** |

* Təbiət fənni 3–5-ci siniflərdə tədris ilinin birinci yarısında 3, ikinci yarısında 4 saat, nəğmə və musiqi fənni isə müvafiq olaraq, 1 və 2 saat tədris olunurdu.

** Qeyri-Azərbaycan məktəbləri üçün Azərbaycan dili əsas fənn hesab olunmurdu. Ona görə də 4 saat əlavə kimi verilirdi.

*II pillə məktəblər üçün*

| № | Fənlər | Qruplar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | III | | | IV | | |
| | | I | II | Humanitar | Fizika-riyaziyyat | Biologiya | Humanitar | Fizika-riyaziyyat | Biologiya |
| 1. | Ana dili | 4 | 4 | 4 | 3 | 3 | 4 | 3 | 3 |
| 2. | İkinci dil | 4 | 4 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| 3. | Riyaziyyat | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 |
| 4. | Fizika | 3 | 3 | 2 | 4 | 2 | 2 | 4 | 2 |
| 5. | Kimya | – | – | – | 2 | 2 | – | 2 | 2 |
| 6. | Təbiət | 3 | 3 | 3 | 3 | 5 | 3 | 3 | 5 |
| 7. | Coğrafiya | 2 | 2 | 2 | 2 | 2 | – | – | – |
| 8. | Geologiya və kosmoqrafiya | – | – | – | – | – | 2 | 2 | 2 |
| 9. | İctimaiyyat | 3 | 3 | 3 | 3 | 3 | 4 | 4 | 4 |
| 10. | Psixologiya | – | – | 2 | – | – | – | – | – |
| 11. | Rəsm və rəsmxət | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 12. | Bədən tərbiyəsi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 13. | Xarici dil*** | 4 | 4 | 4 | 2 | 2 | 4 | 2 | 2 |
| **Həftəlik saatların cəmi:** | | **26+4** | **26+4** | **26+4** | **27+2** | **27+2** | **25+4** | **28+2** | **28+2** |

(humanitar, fizika-riyaziyyat və biologiya) öyrədilməsi nəzərdə tutulmuş, «İctimaiyyat» fənninə, rus dilinə və xarici dilin tədrisinə geniş yer ayrılmışdı. «Texnologiya», «Siyasi iqtisad» və «Əmtəəşünaslıq» fənləri isə tədris planından çıxarılmışdı.

1924-cü ildə yeni ümumtəhsil proqramları təsdiq olundu. Bu proqramlar təhsil tariximizə «kompleks təlim proqramları» kimi daxil olmuşdur. Xarici ölkələrdən götürülərək mexaniki surətdə Azərbaycan məktəblərinə şamil edilən həmin proqramlarda şagirdlərin təbiət və cəmiyyət hadisələrini ayrı-ayrılıqda deyil, kompleks şəkildə öyrənmələri nəzərdə tutulmuşdu. Bu proqramın tərəfdarları fakt və hadisələrə yalnız əlaqəli şəkildə baxmağı tələb edirdilər. Proqram mövzularının siniflər üzrə bölünməsində sadədən mürəkkəbə qaydası bu şəkildə gözlənilirdi: birinci sinifdə məktəbin yerləşdiyi kənd və şəhərə aid, ikinci sinifdə kənd və şəhərin daxil olduğu inzibati rayona aid, üçüncü sinifdə respublikaya aid kompleks mövzular keçilirdi. Məsələn, ibtidai məktəblərin 1-ci sinfində «yaz əkini kampaniyası və yaz əkini işləri» mövzusunun 80 saata öyrədilməsi nəzərdə tutulurdu *(bax: «Müəllimə kömək» jurnalı, 1931, №3, səh.31–49)*.

Kompleks proqramın mənfi cəhəti onda idi ki, hadisələr və təlim materialları arasında üzvi əlaqə süni yolla yaradılırdı. Bu isə, təbii ki, öyrənməni və öyrətməni çətinləşdirirdi. Kompleks proqramların real həyatı əks etdirməməsi kənd və şəhər şəraitində təhsil alan şagirdlərin hazırlığı arasında kəskin fərqlərin yaranmasına gətirib çıxarırdı.

*** Xarici dil əsas fənn hesab edilmədiyindən əlavə saat kimi göstərilmişdir.

1926-cı ildə Xalq Maarif Komissarlığı I və II pillə məktəblər üçün yeni tədris planları təsdiq etdi. Bu planlar 1924-cü ilin kompleks proqramlarının bir qədər dəyişdirilmiş variantı idi. II pillə məktəblərin yeni tədris planında «Ana dili»nin tədrisinə ayrılan saat (1 s.) artmış, III sinifdən başlayaraq «Rus dili»nin tədrisinə geniş yer verilmiş, kompleks təlimin tələbi ilə

*1926/27-ci ilin tədris planı*
*I pillə məktəblər üçün*

| № | Fənlər | Qruplar | | | | |
|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V |
| 1. | Ana dili | 10 | 8 | 8 | 6 | 6 |
| 2. | Riyaziyyat | 6 | 6 | 6 | 6 | 6 |
| 3. | Təbiət | – | 3 | 4 | 5 | 5 |
| 4. | Coğrafiya | – | – | – | 3 | 3 |
| 5. | İctimaiyyat | – | – | – | 3 | 3 |
| 6. | Cizgi savadı və əl işi | 3 | 4 | 4 | 2 | 2 |
| 7. | Rus dili | – | – | 3 | 4 | 4 |
| 8. | Bədən tərbiyəsi və nəğmə | 3 | 3 | 2 | 1 | 1 |
| **Cəmi:** | | **22** | **24** | **27** | **30** | **30** |

*II pillə məktəblər üçün*

| № | Fənlər | Qruplar | | | |
|---|---|---|---|---|---|
| | | I | II | III | IV |
| 1. | Ana dili | 5 | 5 | 4 | 4 |
| 2. | Rus dili | 5 | 5 | 5 | 5 |
| 3. | Riyaziyyat | 5 | 5 | 5 | 5 |
| 4. | Təbiət | 3 | 3 | 3 | 3 |
| 5. | Fizika | 3 | 3 | 3 | 4 |
| 6. | Kimya | 2 | 2 | – | – |
| 7. | İctimaiyyat | 4 | 4 | 4 | 3 |
| 8. | Coğrafiya | 2 | 2 | 2 | 2 |
| 9. | Cizgi savadı | 2 | 2 | – | – |
| 10. | Bədən tərbiyəsi | 1 | 1 | 1 | 1 |
| 11. | Yeni dil | – | – | 4 | 4 |
| 12. | Kosmoqrafiya | – | – | – | 2 |
| **Cəmi:** | | **32** | **32** | **31** | **33** |

«Cizgi savadı» (rəsm) ilə «Əl işi» (əmək) fənni, «Nəğmə» ilə «Bədən tərbiyəsi» fənləri birləşdirilmişdi. II pillə məktəblərin tədris planından isə «Geologiya» və «Psixologiya» fənləri çıxarılmış, 3-cü və 4-cü qruplarda (VIII–IX siniflərdə) müxtəlif elmi istiqamətlər – «şöbələr» (humanitar, fizika-riyaziyyat və biologiya) ləğv edilmiş, «Rus dili»nə ayrılan saatların miqdarı əhəmiyyətli dərəcədə artırılmışdı. Bu, hər şeydən öncə, rus dilinin tədrisinə üstünlük verilməsi ilə bağlı idi və siyasi-ideoloji məqsəd daşıyırdı.

Əvvəlki tədris planından fərqli olaraq, bu tədris planında II pillə məktəblərin yalnız 3-cü və 4-cü qruplarında (VIII–IX siniflərdə) xarici dil fənninin (yeni dil) tədrisi nəzərdə tutulmuşdu.

Göründüyü kimi, bu illərdə ümumtəhsil məktəbləri üçün tədris planlarının ildən-ilə təkmilləşdirilməsi istiqamətində eksperiment xarakterli işlər aparılırdı. Hər bir yeni siyasi dövlət quruculuğunun ilk illərində olduğu kimi, bu şəraitdə də eksperimentlər həm ümumilikdə cəmiyyətin, həm də başqa-başqa sahələrin fəaliyyətinə təsirsiz ötüşmürdü. Təhsil sahəsində tətbiq olunan həmin eksperimentlər tədrisin keyfiyyətinə heç də həmişə müsbət təsir göstərmirdi. O dövrdəki pərakəndə və sistemsiz axtarışların nəticəsində təhsilin məzmunu üç dəfə əsaslı dəyişikliyə uğradı:

1. 1920/21–1923/24-cü tədris illərində məktəblər öz işini fənlərin tədrisi əsasında qurmuşdu. Məktəblərdə ayrı-ayrı fənlər üzrə stabil dərsliklərdən istifadə olunurdu. Öz dövrü üçün tamlığı, sistemliliyi, anlaşıqlılığı ilə seçilən bu proqram ibtidai təhsilin yeni tələblərinə cavab verməklə yanaşı, şagirdlərin nitqinin inkişafında, sürətli oxu vərdişlərinə yiyələnmələrində,

təbiət və cəmiyyət hadisələrini dərk etmələrində mühüm rol oynayırdı.

2. 1924/25-ci tədris ilində müxtəlif fənlərin təlim materialları arasında təbii əlaqə yaradılmasını irəli sürən kompleks proqramlar tətbiq edildi. Qeyd etmək lazımdır ki, təlim materialları arasında təbii əlaqə yaratmaq həmişə mümkün olmurdu.

3. Az sonra kompleks proqramlar kompleks–layihələr ilə əvəz olundu. Bu proqramlar şagirdlərin ictimai-faydalı işlərinə daha çox vaxt ayırır, onların istehsalat mühitini öyrənmələrinə geniş yer verirdi. Başqa sözlə, bu proqramlar şagirdlərə fənlər üzrə verilən biliyi deyil, uşaqların ictimai-faydalı işlərini təlimin mərkəzinə keçirirdi. Bu kimi eksperimentlər Azərbaycan ümumtəhsil məktəblərində proqramların sistemli və ardıcıl tətbiqinə imkan vermirdi. Bu isə təbii ki, tədrisin keyfiyyətinə daha çox mənfi təsir göstərirdi.

Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda ümumtəhsil xarakterli başqa tipli məktəblər də təsis edildi. Yaranan yeni məktəb tiplərindən biri də ***yeddiillik məktəblər*** idi. Bu tip məktəblər 1921-ci ildən Rusiyada, 1924/25-ci tədris ilindən Azərbaycanda yaradılmışdı. Yeddiillik məktəblərin əsas vəzifəsi yeniyetmələri orta ixtisas məktəblərinə qəbula hazırlamaqdan ibarət idi.

1926/27-ci tədris ilindən fəaliyyətə başlayan *doqquzillik məktəblər* isə I və II pillə məktəblərin birləşməsindən təşkil edilmişdi.




*II pillə məktəbin ilk məzunlarından bir qrupu*

### 1.3. Əlifba islahatı

20-ci illərin əvvəllərində hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə başlanmış ***əlifba islahatı*** sahəsində işlər yenidən canlandı. 1921-ci ilin yanvarında Xalq Maarif Komissarlığı yanında *Əlifba İslahatı üzrə Komissiya*, 1922-ci ilin mayında Azərbaycan MİK yanında *Yeni Türk Əlifbası Komitəsi* yaradıldı. Səmədağa Ağamalıoğlu komitənin sədri, Xudadat bəy Məlikaslanov (AXC dövründə Əlifba üzrə İslahat Komissiyasının sədri olmuşdu), Əhməd bəy Pepinov, Əli Tağızadə, Soltan Məcid Əfəndiyev, Fərhad Ağazadə, Vəli Xuluflu, Teymur Hüseynov və digərləri isə üzvü seçildilər.

1923-cü ilin martında Azərbaycan MİK Rəyasət Heyətinin iclasında tədris Azərbaycan dilində olan bütün məktəblərdə məcburi olaraq yeni əlifbanın tətbiq olunması barədə qərar qəbul edildi. Yeni əlifbaya keçid başlandı. 1923-cü ilin oktyabr ayında əhalinin yeni əlifbanı hələ tam mənimsəmədiyi nəzərə alınaraq, rəsmi yazışmalarda yeni latın qrafikalı əlifba ilə yanaşı, əski ərəb əlifbasından da istifadəyə icazə verildi.

1924-cü il 24 apreldə İrəvan şəhəri azərbaycanlı ziyalılarının iclası yeni latın əlifbasına keçmək haqqında qətnamə qəbul etdi. Bu dövrdə digər türk xalqları da yeni əlifbaya keçmək barədə təşəbbüs qaldırdılar.

1924–1925-ci illərdə Daşkənd, Poltarask (Aşqabad – *M.M.*) şəhərlərində, Şimali Qafqazda Yeni Türk Əlifbası Komitəsinin şöbələri, Türküstanda Yeni Əlifbanın Dostları Cəmiyyəti yaradıldı. Qazaxıstanın Xalq Maarif Komissarlığı, Orta Asiya RK(b)P MK bürosu təşkilatı-bölgə şöbəsi, Yeni Türk Balkar Əlifbası Komitəsi əlifba islahatı sahəsində təcrübə mübadiləsi etmək üçün Azərbaycan Yeni Türk Əlifbası Komitəsinə məktub göndərdilər *(bax: Azərbaycan arxivi, 1980, №1, səh.14–15, 37)*.

Azərbaycanda latın qrafikalı əlifbaya keçid prosesində 1926-cı ilin 26 fevral – 6 mart tarixlərində Bakıda keçirilmiş I Beynəlxalq Türkoloji Qurultay müstəsna rol oynadı. Qurultay ərəfəsində «Bakinski raboçi» qəzeti yazırdı: «... *Bakıda açılan birinci Ümumittifaq Türkoloji Qurultay türk əlifbasının islahatı, türk xalqları arasında elmi-maarifçilik işlərinin vəziyyəti və s. məsələlərin həlli üçün çağırılmışdır.*

*...Qurultayda latın əlifbasına keçilməsi məsələsi qaldırılacaqdır. Qeyd edək ki, latın əlifbası artıq Şimali Qafqazın bir çox xalqları, qırğızlar və türkmənlər tərəfindən qəbul edilmişdir. Hazırda SSRİ ərazisində 24 milyona yaxın türk xalqları yaşayır»*.

Uzun müzakirələrdən sonra Qurultayın latın qrafikalı əlifbaya keçidlə bağlı qətnaməsi (latın qrafikalı əlifbanın lehinə 101 səs, islah olunmuş ərəb əlifbasının lehinə 7 səs, bitərəf 9 səs olmaqla) qəbul edildi. Bu qətnamə respublikada latın qrafikalı Azərbaycan əlifbasına keçid prosesini sürətləndirdi.

Azərbaycanın bu sahədə gördüyü böyük işlər təqdir olundu və SSRİ-nin digər respublika və vilayətlərinin bütün türk-tatar xalqlarına Azərbaycanın təcrübəsini öyrənib tətbiq etmək tövsiyə edildi. 1926-cı ilin iyununda Ümumittifaq Yeni Türk Əlifbası Mərkəzi Komitəsi yaradılması haqqında qərar qəbul edildi. Qərarda göstərilirdi ki, bu Komitə türkdilli əhalinin yaşadığı bütün respublikalarda, yəni Özbəkistan, Türkmənistan, Başqırdıstan, Qaraçay,



*I Ümumittifaq Türkoloji Qurultayın nümayəndələri*

Balkar, Dağıstan, Noqay, Krım, Oyrot, Qaraqalpaqda filiallarını yaratmalı və onların vasitəsilə iş aparmalıdır *(bax: Azərbaycan arxivi, 1980, № 1)*.

Yeni türk əlifbasına keçmək üçün ittifaq miqyasında böyük işlər görüldü. Bu işlərlə bağlı Səmədağa Ağamalıoğlu 1927-ci ilin yanvarında «Kommunist» qəzetində dərc etdirdiyi «Lenin və türk əlifbası» adlı məqaləsində yazırdı: «*... Şuralar İttifaqının başqa xalqları ilə mədəni cəhətdən bərabərləşmək üçün türklərə bir də mədəni inqilab lazımdır. Bizdə indiyə qədər türk xalqını mədəni cəhətdən yüksəltmək üçün sırf texniki mahiyyətdə olan böyük çətinliklər vardır. Bunların ən böyüyü ərəblərdən din ilə bərabər, bizə keçən köhnə ərəb əlifbasıdır. Azərbaycanın mərkəzi təşkilatları latın üsulu ilə yeni əlifba tətbiqinə qərar vermişlər.*

*İliç məni dinlədi və bir neçə sual verdikdən sonra dedi:*

*– Sizə qəlbən müvəffəqiyyətlər arzu edirəm. Yeni əlifba Şərqdə böyük inqilab olacaqdır.*

*Etiraf etməliyəm ki, o vaxtlar nikbin olmağıma baxmayaraq, «Yeni əlifba Şərqdə böyük inqilab olacaqdır» sözləri mənə bir az mübaliğəli görünmüşdü. Bizim başladığımız bu işin bütün müsəlman Şərqində həyata keçiriləcəyini güman etmirdim. Ancaq indi səhvimi etiraf edərək yeni əlifbaya Leninin verdiyi son dərəcə dahiyanə əhəmiyyət qarşısında baş*

*əyirəm. Yeni əlifbanı yalnız ittifaqımızda ərəb əlifbası ilə yazan xalqlar deyil, hətta bəlli olduğu üzrə Türkiyə də qəbul etmişdir. İranda yeni əlifbaya bəslənən rəğbət gündən-günə artır. Əfqanıstanda da yeni əlifba barəsində təşəbbüslər yapılmaqdadır» (bax: Azərbaycan arxivi, 1980, № 1, səh. 37).*

Burada bir haşiyə çıxmaq istəyirəm: sovet hakimiyyətinin qurulması ərəfəsində və onun ilk illərində bolşeviklərin belə cazibədar vədlərinə çoxları inanmışdı. Alovun şöləsi pərvanəni cəzb edən kimi, bu yalançı vədlər də çoxlarını cəlb edirdi. Xalqını qəlbən sevən neçə-neçə ziyalı, o cümlədən Nəriman Nərimanov bu ideyanın işığına yaxın gəlib tora düşdülər.

Xalqın işıqlı gələcəyini bolşevizmin qələbəsində görən və bu gələcəyin həqiqiliyinə ürəkdən inanan ziyalılar öz məqsədlərini həyata keçirməkdə bolşeviklərə yaxından kömək etdilər. Amma sonralar zaman onlara yanıldıqlarını sübut etdi.

1929-cu il yanvarın 1-də Azərbaycanda yeni əlifbaya tam keçid rəsmən elan edildi.

30-cu illərdə latın qrafikalı əlifba ilə dərsliklərin hazırlanması və nəşri tam reallaşdı. Respublikada latın əlifbasına keçməklə bağlı Azərbaycan MİK Rəyasət Heyəti iclasının protokolunda (22 may 1932-ci il) göstərilirdi ki, *«Sovet Azərbaycanı ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsinin pioneri və təşəbbüskarı olmuşdur. Azərbaycanın ardınca 40-dan artıq SSRİ xalqı latın əlifbasına keçmişdir. Bu xalqlar arasında Azərbaycanda azlıq təşkil edən ləzgilər, tatlar, kürdlər, avarlar, tatarlar, özbəklər də var».*

Düşünmək olar ki, əgər bu işlər hələ o zamandan belə yüksək templə irəliləsəydi, türk dünyası çox şeyə nail ola bilərdi. Amma Sovet İmperiyası buna imkan vermədi. Birdən-birə onillik dövrün gərgin zəhmətinin üstündən çox asanlıqla xətt çəkildi – 1939-cu il iyulun 11-də Azərbaycanda latın əlifbasının dəyişdirilməsi barədə qərar qəbul edildi.

Heç bir hazırlıq işi aparılmadan 1940-cı il yanvarın 1-dən bütün təhsil müəssisələrində kiril (rus) qrafikalı Azərbaycan əlifbasının tətbiqinə başlandı. Xalqı həm keçmişindən, həm də soykökündən təcrid etmək üçün atılan bu addım SSRİ hökumətinin türkdilli respublikalarda, o cümlədən Azərbaycanda həyata keçirdiyi imperiya siyasətinin tərkib hissəsi idi.

### 1.4. İlk sovet dərslikləri

20-ci illərdə stabil dərs kitablarının hazırlanması da problem idi. Proqram və dərsliklər arasındakı uyğunsuzluq halları, təcrübəli müəllimlərin və tərcüməçilərin olmaması, nəşriyyat-poliqrafiya bazasının zəifliyi, elm sahələri üzrə terminoloji lüğətlərin yoxluğu dərs kitablarının hazırlanmasında və nəşrində çətinliklər yaradırdı. **Bu çətinliklərə baxmayaraq, həmin illərdə məktəbləri dərsliklərlə təmin etmək sahəsində müəyyən uğurlar da qazanıldı. Bu məqsədlə Xalq Maarif Komissarlığı nəzdində (1921, iyun) nəşriyyat şöbəsi yaradılmışdı. Həmin şöbə əsasında 1924-cü ildə Xalq Maarif Komissarlığının tabeliyində Azərbaycan Dövlət Nəşriyyatı – Azərnəşr təsis edilmişdi.** Onun əsas missiyası ümumtəhsil məktəbləri üçün dərslik və dərs vəsaitlərinin, digər tədris-metodik ədəbiyyatın nəşrini təşkil etməkdən ibarət idi.

Məktəbdə tədris olunan fənlər üzrə Azərbaycan dilində elmi terminologiya yaratmaq

məqsədilə **Azərbaycan SSR Xalq Komissarları Soveti yanında 1922-ci ildə xüsusi Terminologiya Komissiyası yaradıldı.** Bu, fizika-riyaziyyat, biologiya və humanitar elmlər üzrə terminlər lüğətinin nəşrini təmin edən əsas amillərdən biri oldu.

Mövcud dərsliklərin bəziləri (Abdulla Şaiq Talıbzadənin «Uşaq gözlüyü», Mahmudbəy Mahmudbəyovun «Türk əlifbası və ilk qiraət», Mahmudbəy Mahmudbəyov, Süleyman Sani Axundov, Süleyman Əbdürrəhmanzadə, Fərhad Ağazadə, Abdulla Şaiq Talıbzadə və Abdulla Əfəndizadənin birlikdə yazdıqları «İkinci il», Mahmudbəy Mahmudbəyov və Abbas Səhhətin «Üçüncü ilə məxsus qiraət», Abdulla Şaiqin IV–V siniflər üçün «Qiraət kitabı», Abdulla Əfəndizadənin «Türk əlifbası» və s.) sovet məktəbinin məqsəd və vəzifəsinə uyğunlaşdırılaraq yenidən çap olundu.

1922-ci ildə Fərhad Ağazadə, Süleyman Sani Axundov və Mirzə Cabbar Məhəmmədzadə ərəb və latın əlifbalarının qarşılıqlı təliminə imkan verən «Yeni türk əlifbası» dərsliyini hazırladılar. Xalq Maarif Komissarlığının yaratdığı «Ana dili» komissiyasının üzvləri İsmayıl Hikmət, Abdulla Şaiq, Seyid Mirqasımzadə, Cavad Axundzadə, Cabbar Əfəndizadə və Mustafa Tofiq tərəfindən hazırlanmış «Türkcə sərf-nəhv» («Azərbaycan dilinin qrammatikası») dərsliyi 1924-cü ildə nəşr edildi. Vaxtilə İrəvan gimnaziyasında və İrəvan Müəllimlər Seminariyasında fəaliyyət göstərən Mirzə Cabbar Məhəmmədzadənin orta məktəblər üçün Azərbaycan və rus dillərində 20-yə yaxın dərsliyi meydana gəldi.

20-ci illərdə oxu dərslikləri iki variantda (şəhər və kənd məktəbləri üçün) nəşr edilirdi. Riyaziyyat və təbiət elmlərinə aid dərsliklər rus dilindən tərcümə edilirdi. Nəşr edilən ibtidai məktəb dərsliklərinin sayı və tirajı ilbəil artırdı. Məsələn, Azərbaycan MİK yanında Yeni Türk Əlifbası Komitəsi 1922-ci ilin aprelindən 1925-ci ilin oktyabrına qədər 12 adda 337 min tirajla 64,25 çap vərəqi həcmində dərslik, 52 adda 240 min tirajla 55,5 çap vərəqi həcmində uşaq ədəbiyyatı, Azdiviziya siyasi şöbəsi isə 2 adda 3500 tirajla 14 çap vərəqi həcmində dərslik nəşr etmişdi *(bax: Azərbaycan arxivi, 1980, №2, səh.25)*.

20-ci illərin ikinci yarısında tədris müəssisələrində kompleks proqramların tətbiqi ilə bağlı stabil dərs kitablarını «iş kitabları» ilə dəyişdirmək tendensiyası yarandı. Ümumiyyətlə, həmin dövrdə pedaqoji elmdə dərsliklərlə bağlı iki mövqe vardı: dərslik şagird əməyinin silahıdır və dərslik iş kitabıdır. «İş kitabı» termininin ehtiva etdiyi məzmun təkcə dərsliyin yox, həm də məktəbdə pedaqoji prosesin mahiyyətini dəyişirdi. Materialların yerləşdirilməsi prinsipində hər mövzunun 4 istiqamətdə işlənməsi tələb olunurdu:

- mövzuya stimullaşdırılmış maraq;
- mövzu ilə bağlı əmək tapşırığı;
- tapşırığa aid məlumat materialı;
- ümumiləşdirmə.

Bundan başqa, bəzi tələblər də irəli sürülürdü:

a) şərh edilən materialın uşaqların yaşına uyğun olması;
b) asan və anlaşıqlı olması;
c) şərhetmənin sistemlilik və ardıcıllıq prinsipi ilə qurulması və s.

«İş kitabları»na materiallar kompleks seçilirdi. Bu prinsip bir sıra səhvlərin və nöqsanların



*İlk sovet dərsliyinin müəlliflərindən: Camo Cəbrayılbəyli, Abdulla Şaiq, Səməd bəy Acalov*





Butun elqelerin isçilari, birlesin!

JENI TURQ ƏLIFBASI

يڭى تورك الفباسى

Jazanları: F. Agazada
S. b. Axyndzada
M. C. Məhəmmədzada

„Jeni turq əlifba" komitəsinin nəşri.

UÇUNCU BASLLLƏL.

BAQI.
1924-ncu ilda
X. S. T. K. Azpoligraftrestin „Kızıl Şərk" mətbəəsi.

*Abdulla Şaiqin «Qiraət kitabı» və Fərhad Ağazadə, Süleyman Sani Axundov və Mirzə Cabbar Məhəmmədzadənin «Yeni türk əlifbası». 1924-cü il*

yaranmasına səbəb olurdu. Bir qədər əvvəldə deyildiyi kimi, materiallar arasında üzvi əlaqə süni şəkildə yaradılırdı. Sistemlilik və ardıcıllıq pozulur, dərslikdə tələb olunan elmilik prinsipi yerinə yetirilmirdi. Professor Fərrux Rüstəmovun təbirincə desək, XX əsrin 20-ci illərinin əvvəllərində klassik funksiyasını yerinə yetirən dərsliklər tədricən stabilliyini itirir və «iş kitabları»na çevrilirdi. Dərsliklərin müəyyən dövr üçün sabit elmi məzmuna malik olmasını təmin etməkdənsə, onların tez-tez dəyişdirilməsi fikri irəli sürülür, hətta dərsliklərin səhifələri arasına boş (ağ) səhifələrin yerləşdirilməsi tələb olunurdu *(bax: Fərrux Rüstəmov. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri (1920–1991-ci illər). Bakı, 1998, səh. 188)*.

Ayrı-ayrı fənlərin öyrədilməsində istifadə olunan iş dəftərlərinin funksiyasının dərsliklərin üzərinə köçürülməsi həlli o qədər də asan olmayan problemlər yaratmışdı.

### 1.5. Azərbaycan müəllimlərinin IV (I) qurultayı

1925-ci il mayın 25-dən iyunun 1-dək Bakıda Azərbaycan müəllimlərinin IV (I) qurultayı keçirildi. Bu ali məclis sovet hakimiyyəti dövründə keçirilən birinci qurultay olduğu üçün mənbələrdə Ümumazərbaycan müəllimlərinin I qurultayı kimi qeyd olunur.

Qurultayda 250 nümayəndə iştirak edirdi. Onların 130 nəfəri qəzalardan gələn müəllimlər idi. Dadaş Bünyadzadə, Xavər xanım Şabanova, Məryəm xanım Bayraməlibəyova kimi ictimai xadimlər də iştirakçılar arasında idilər.

Qurultayı Maarif İşçiləri Həmkarlar İttifaqının sədri Pənah Qasımov açdı, sonra qurultayda Azərbaycan Xalq Komissarları Şurası sədrinin müavini Möhsün Qədirli (İsrafilbəyov) tərəfindən imzalanmış təbrik məktubu oxundu. Qurultayın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdi:

1) Şuralar İttifaqının beynəlxalq vəziyyəti;
2) Şura quruluşunda maarif məsələləri;
3) müəllimin ictimai rolu;
4) müəllimlər və Lenin Kommunist Gənclər İttifaqı;
5) müəllimlər və həmkarlar hərəkatı.

Qurultayda Azərbaycan SSR-də ötən 5 il (1920–1925) müddətində məktəb quruculuğu sahəsində qazanılmış nailiyyətlərə yekun vuruldu və qarşıda duran vəzifələr müəyyənləşdirildi. Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov respublikada mədəni quruculuq sahəsində Azərbaycan müəllimlərinin vəzifələri barədə çıxış etdi. Onun çıxışı müəllimləri öz fəaliyyətini mədəniyyətin inkişafına, cəhalətlə mübarizəyə, zəhmətkeş balalarının savadlandırılması işinə həsr etməyə çağırırdı. Qurultayda tez-tez vurğulanan məsələlərdən biri də fəhlələrlə kəndlilərin, şəhərlə kəndin əlaqəsinin möhkəmləndirilməsi məsələsi idi. Hökumətin «Kəndə doğru» şüarını rəhbər tutaraq kənddə təhsilin inkişafının ön plana çəkilməsi zərurəti qurultayda faktlarla sübuta yetirildi. Pənah Qasımovun məruzəsində belə bir çağırış səsləndi: «Bu gün müəllim əvvəlki kimi çinovnik deyil, şura cümhuriyyətinin azad bir üzvü, kəndlərdə firqə məfkurəsi saçan təşkilatçı olmalıdır».

Qurultayda xalq maarif komissarı **Mustafa Quliyev** dörd saatlıq (iki saat Azərbaycan, iki saat rus dilində) hesabat məruzəsi ilə çıxış etdi. Həmin məruzə əsasında IV(I) Ümumazərbaycan



**Mustafa Quliyev (1893–1938)**

**Quliyev Mustafa Zəkəriyyə oğlu** Nuxa (Şəki) şəhərində anadan olmuşdur. Tiflis gimnaziyasını bitirmiş (1913) və Kiyev Universitetinə daxil olmuşdur. Tələbə ikən inqilabi hərəkata qoşulmuşdur.

Lənkəran qəza inqilab komitəsinin sədri (1920), Azərbaycan K(b)P Qaraşəhər rayon komitəsinin katibi (1921–1922), «Maarif və mədəniyyət» (1923–1926), «İnqilab və mədəniyyət» (1929–1932) jurnalının məsul redaktoru vəzifələrində çalışmışdır. Azərbaycan SSR-in xalq maarif komissarı (1922–1927) vəzifələrində işləmişdir.

Azərbaycanda ədəbi tənqidin yaranmasında və inkişafında böyük xidməti var. Klassik və müasir Azərbaycan ədəbiyyatına dair elmi-tənqidi məqalələri, «Oktyabr və türk ədəbiyyatı» monoqrafiyası Azərbaycan ədəbi tənqid və ədəbiyyatşünaslığının ilk nümunələrindəndir.

1923-cü ildə onun səyi nəticəsində müəllim çatışmazlığını aradan qaldırmaq məqsədilə müəllim hazırlayan 9 ali və orta ixtisas təhsili müəssisəsi təşkil olunmuşdur.

Repressiyaya məruz qalmışdır (1938).

müəllimlər qurultayının geniş qətnaməsi (1 iyun 1925-ci il) qəbul edildi.

Qətnamədə yeni sovet məktəbinin gələcək inkişaf yolları müəyyənləşdirildi, ötən illərdə (1920–1925-ci illər) məktəb quruculuğu sahəsində görülmüş işlərə qiymət verildi, gələcəkdə məktəb şəbəkəsinin daha da genişləndirilməsi, qadın təhsili prioritet məsələlərdən biri kimi ön plana çəkildi. Məktəb tikintisi, yeni tipli maarif ocaqlarının yaradılması, savadsızlığa qarşı mübarizə, dərslik nəşrinin genişləndirilməsi və digər mədəni-maarif məsələlərinin həlli yolları barədə də tövsiyələr verildi (*bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.108–110; Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.56–66*).

## 1.6. Savadsızlığın ləğvi uğrunda mübarizə

20-ci illərdə əhali arasında *savadsızlığı ləğv etmək* maarifin təməl prinsiplərindən biri sayılırdı. Azərbaycan SSR-də bu hərəkata respublikanın Xalq Maarif Komissarlığı nəzdində yaradılmış Savadsızlığı Ləğvetmə üzrə Mərkəzi Komissiya rəhbərlik edirdi. Bu istiqamətdə aparılan işləri həyata keçirmək üçün «Savadsızlıqla mübarizə» komitəsi (sədri XKS-nin başçısı Qəzənfər Musabəyov idi) və «Rədd olsun savadsızlıq» cəmiyyəti (sədri daxili işlər naziri Həmid Sultanov idi) təsis edilmişdi.

Azərbaycan MİK-in 1923-cü ildə qəbul etdiyi dekretdə respublikada savadsızlığı ləğvetmə üzrə işlərin sovet hakimiyyəti qurulmasının 10-cu ildönümünə qədər görülüb qurtarması nəzərdə tutulurdu.

Azərbaycan SSR XKS və MİK-in 18 mart 1924-cü il tarixli **«Azərbaycan SSR əhalisi içərisində savadsızlığın ləğvi haqqında»** qərarında yazmağı və oxumağı bacarmayan 15–25 yaş arasında bütün əhaliyə savad öyrənmək bir vəzifə – mükəlləfiyyət kimi tapşırılmışdı. Respublikanın bölgələrində əhalinin bütün yaş qruplarını əhatə edən savadsızlığı ləğvetmə məktəbləri və kursları açılmışdı. Savad məktəblərində oxuyan fəhlələrin əmək haqqı saxlanılmaqla 8 saatlıq iş günü bütün təhsil müddətində iki saat ixtisar edilmişdi.

1924/25-ci tədris ilində Azərbaycan üzrə savadsızlığın ləğvi üçün 1522 məktəb açılmışdı. Bununla yanaşı, respublika üzrə savadsızlığı ləğvetmə məntəqələri yaradılmışdı. İşləri elə təşkil etmək nəzərdə tutulmuşdu ki, bu məntəqələrin köməyi ilə hər il ən azı 116000 nəfər



*Zabratdakı qazançı emalatxanasının işçiləri savadsızlığı ləğvetmə kursunda*



*Quba şəhərində savadsızlığı ləğvetmə kursu*



*Qusarda savadsızlığı ləğvetmə kursunda oxuyan qadınlar*



*I pillə məktəbin şagirdləri ekskursiya zamanı*

savadsızlığı aradan qaldırsın. Dörd il ərzində məntəqələrdə 464000 nəfərə yazıb-oxumaq öyrədilməsi planlaşdırılmışdı. Lakin nəticələr gözlənildiyi kimi olmadı. Bu məntəqələrdən, nəzərdə tutulduğu kimi, dörd il ərzində 464000 nəfər əvəzinə, altı il ərzində 102370 nəfər keçə bildi.

*1921/22–1926/27-ci tədris illərində savadsızlığı ləğvetmə məntəqələri haqqında məlumat*

| Tədris illəri | Bakı və Bakıətrafı rayonlar | Digər rayonlar | Cəmi |
|---|---|---|---|
| 1921/22 | 2010 | – | 2010 |
| 1922/23 | 4845 | 1596 | 6441 |
| 1923/24 | 6352 | 7171 | 13523 |
| 1924/25 | 11141 | 19074 | 30215 |
| 1925/26 | 13178 | 19869 | 33047 |
| 1926/27 | 5148 | 11986 | 17134 |
| **Cəmi:** | **42674** | **59696** | **102370** |

O dövrdə kəndlilər arasında savadsızlığın ləğv edilməsi sahəsində də məqsədyönlü işlər görülürdü. Rusiyada hazırlanan «Muzdur əlifbası» adlı dərs vəsaiti milli xüsusiyyətlər nəzərə alınmaqla, 1929-cu ildə Azərbaycan dilinə tərcümə olunaraq nəşr edildi. Həmin kitab əsasında kəndlərdə mədəni-maarif tədbirləri aparıldı və nəticədə kəndlilər arasında savadsızlığın ləğvi sahəsində müəyyən irəliləyişlər əldə olundu.

Savadsızlığa qarşı mübarizə 30-cu illərdə də davam etdirildi. Bu hərəkatda Azərbaycanın qabaqcıl maarif işçiləri müstəsna rol oynadılar.

## 1.7. Kəndli gənclər məktəbləri

20-ci illərdə Azərbaycanda sırf siyasi-ideoloji xarakterli, yeni tipli üçillik kəndli gənclər məktəbləri yaradıldı. Azərbaycan K(b)P Mərkəzi Komitəsi Rəyasət Heyətinin 10 avqust 1925-ci il tarixli qərarı ilə respublikada kəndli gənclər üçün 5 məktəb fəaliyyətə başladı. Xalq Maarif Komissarlığı kəndli gənclər məktəbləri üçün pedaqoji kadrlar hazırlanması məqsədilə müəllimlər seminariyalarında müvafiq şöbələrin açılmasını təmin etdi *(bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.110)*.

Sonralar həmin məktəblər kənd əhalisinin yaddaşında «Şakayim» («ŞKM» – «Şkola krestyansko-molodyojnaya»nın danışıq şəkli) məktəbləri kimi qaldı.

Azərbaycan SSR Xalq Maarif Komissarlığının 6 yanvar 1926-cı il tarixli Kollegiya qərarı ilə təsdiq edilmiş «Kəndli gənclər məktəbləri haqqında Əsasnamə»yə görə, kəndli gənclər məktəblərinin vəzifəsi kənd təsərrüfatının müxtəlif sahələri üçün mədəni işçilər hazırlamaqdan, onlara aqronomluq təhsili verməkdən, kənddə sosializm quruculuğuna kömək edəcək kadrlar yetişdirməkdən ibarət idi. Kəndli gənclər məktəbləri kəndin mədəni-ideoloji mərkəzinə çevrilməli, kəndli gənclərin ideya-siyasi tərbiyəsi məsələlərini təşkil etməli idi. Məktəblərin işinə siyasi-ideoloji nəzarət komsomol təşkilatları tərəfindən həyata keçirilirdi. Həmin məktəblərə, əsasən, I pillə məktəblərini bitirən, yaxud həmin səviyyəyə yaxın bilik nümayiş etdirən 12 yaşdan 17 yaşadək kəndli gənclər qəbul edilirdi.

Kəndli gənclər məktəbində təhsil müddəti 3 il idi. Bu məktəbi bitirənlərin texnikumlara

*1926–1929-cu illərdə respublikada fəaliyyət göstərən kəndli gənclər məktəbləri*

| S/ № | Dairənin (rayonun adı) | Məktəbin yerləşdiyi məntəqə | Şagirdlərin sayı | Məktəbin yaradıldığı tədris ili |
|---|---|---|---|---|
| 1. | Ağdam | Tərtər qəsəbəsi | 75 | 1926/27 |
| 2. | Ağdam | Alpout kəndi | 21 | 1928/29 |
| 3. | Gəncə | Şəmkir qəsəbəsi | 30 | 1928/29 |
| 4. | Gəncə | Goranboy Əhmədli kəndi | 61 | 1927/28 |
| 5. | Gəncə | Çardaxlı kəndi | 69 | 1927/28 |
| 6. | Göyçay | Ağdaş kəndi | 82 | 1926/27 |
| 7. | Göyçay | Qaraməryəm qəsəbəsi | 30 | 1928/29 |
| 8. | Cəbrayıl | Qaryagin qəsəbəsi | 110 | 1926/27 |
| 9. | Zaqatala | Balakən kəndi | 28 | 1928/29 |
| 10. | Qazax | Tovuz qəsəbəsi | 64 | 1927/28 |
| 11. | Qazax | Daşsalahlı kəndi | 32 | 1928/29 |
| 12. | Quba | Hil kəndi | 32 | 1928/29 |
| 13. | Quba | Nügədi kəndi | 60 | 1927/28 |
| 14. | Laçın | Laçın şəhəri | 63 | 1927/28 |
| 15. | Lənkəran | Lənkəran şəhəri | 75 | 1927/28 |
| 16. | Lənkəran | Privolnı kəndi | 30 | 1928/29 |
| 17. | Dağlıq Qarabağ Muxtar Vilayəti | Arçadzor kəndi | 59 | 1927/28 |
| 18. | Nax. MSSR | Vənənd kəndi | 69 | 1926/27 |
| 19. | Nuxa | Vartaşen kəndi | 27 | 1927/28 |
| 20. | Nuxa | Balacıq kəndi | 50 | 1927/28 |
| 21. | Salyan | Sabirabad qəsəbəsi | 29 | 1928/29 |
| 22. | Salyan | Xıllı kəndi | 83 | 1926/27 |
| 23. | Şamaxı | Ağsu kəndi | 46 | 1927/28 |
| 24. | Bakı | Maştağa, Qala kəndi | 30 | 1928/29 |

və II pillə məktəblərinin müvafiq siniflərinə qəbul olunmaq hüququ var idi. Məktəblərin nəzdində kəndlərdən təhsilə cəlb edilənlər üçün internat tipli yataqxanalar təşkil edilirdi. Bu tipli məktəblərin təcrübəsi sonralar ***internat məktəblərin*** yaranmasına gətirib çıxardı.

Müvafiq hüquqi-normativ və təşkilati işlər aparıldıqdan sonra 1926/27-ci tədris ilindən başlayaraq respublikanın müxtəlif rayonlarında daha 5 kəndli gənclər məktəbi (Tərtər qəsəbəsi, Ağdaş qəsəbəsi, Qaryagin (indiki Füzuli ş.) qəsəbəsi, Naxçıvan MSSR-in Vənənd kəndi, Xıllı (indiki Neftçala ş.) kəndi) fəaliyyətə başladı. 1927/28-ci tədris ilində respublikada 10, 1928/29-cu tədris ilində isə 9 kəndli gənclər məktəbi yaradıldı.

Soldakı cədvəldə 1926/27–1928/29-cu tədris illərində respublikada fəaliyyət göstərən kəndli gənclər məktəblərinin və onlarda oxuyan şagirdlərin sayı verilmişdir.

Göründüyü kimi, 20-ci illərin sonunda Azərbaycanın müxtəlif bölgələrində 24 kəndli gənclər məktəbi fəaliyyət göstərirdi. Bütövlükdə onlarda 1255 şagird təhsil alırdı ki, onların təlim-tərbiyəsi ilə 109 müəllim məşğul olurdu *(bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh. 186)*.

30-cu illərdə geniş vüsət alan kollektivləşmə dövründə kəndli gənclər məktəbləri kolxozçu gənclər məktəbi adlandırıldı.

### 1.8. Məktəb quruculuğu

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində məktəb quruculuğunun qarşısında duran ciddi problemlərdən biri məktəb tikintisi, yeni açılan təhsil müəssisələrinin müvafiq bina ilə təmin edilməsi idi.



*Şagird konfransı iştirakçılarından bir qrupu. 1923-cü il*

20-ci illərin əvvəllərində məktəb tikintisi respublikanın iqtisadi potensialının və maliyyə imkanlarının məhdudluğu səbəbindən, demək olar ki, aparılmırdı. Yeni açılan məktəblər başlıca olaraq sovet hakimiyyəti orqanlarının «milliləşdirmə» adı ilə varlı adamların əlindən aldığı tikililərdə (əsasən, şəxsi mülklərdə) və ya uyğunlaşdırılmış köhnə binalarda yerləşdirilirdi. Respublikanın ağır maliyyə çətinliklərinə baxmayaraq, xalq maarifi işçilərinin təşəbbüsü və yerli əhalinin köməyi ilə şəhər və qəzalarda (rayonlarda), əsasən, ibtidai məktəblər üçün yeni məktəb binaları tikilir, yaxud tədrisə yararlı köhnə binalar təmir edilirdi.

1923-cü ildə Zaqatala qəzasında 10, Ağdaş qəzasında 4, 1924-cü ildə Gəncə qəzasında 2, Qazax qəzasında isə 5 yeni ibtidai məktəb binası tikilib istifadəyə verilmişdi. Təkcə 1924/25-ci tədris ilində Azərbaycanda 34 yeni məktəb fəaliyyətə başlamış və növbəti tədris ilinə qədər 13 məktəbin tikintisi başa çatdırılmışdı. 20–30-cu illərdə məktəb tikintisinin inkişaf dinamikasının təhlili göstərir ki, həmin illərdə Azərbaycanda məktəb tikintisi daha da intensivləşmişdir.

Mənbələr göstərir ki, 1920–1924-cü illərdə 41 yeni məktəb binası tikilmişdi. Həmin məktəblərin 40-ı respublikanın müxtəlif şəhər

və qəzalarında, təkcə 1-i isə Bakı şəhərində tikilmişdi. Məktəb tikintisi üzrə göstərici 1924–1928-ci illərdə əvvəlki dörd illə müqayisədə 3 dəfədən çox artaraq 144-ə yüksəlmişdi *(bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh. 266).*

1928-ci ildən başlayaraq, məktəb tikintisi hökumətin qəbul etdiyi beşillik planlar əsasında dövlət vəsaiti hesabına həyata keçirilməyə başladı. Sovet dövləti bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də dünya kapitalist ölkələrini ötüb keçmək üçün planlı şəkildə məktəblərin sayını artırırdı.

Azərbaycan SSR hökuməti tərəfindən ilk beşillik (1928–1932) planda respublikada 918 məktəb binasının tikintisi nəzərdə tutulsa da, 1928–1932-ci illərdə 244 yeni məktəb binası tikilib istifadəyə verilmişdi *(bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.243).*

Ümumiyyətlə, 1928/29-cu tədris ilindən başlayaraq Azərbaycanın maarif sistemində məktəb tikintisi bütövlükdə respublikada mədəni quruculuğun əsas probleminə çevrilmişdi. Ümumi icbari ibtidai təhsilə keçidi təmin etmək məqsədilə hökumət 1931/32 və 1932/33-cü tədris illərində 600-dən çox yeni məktəb binasının inşasını, 500-dək binanı məktəb üçün icarəyə götürməyi planlaşdırmışdı *(bax: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.203–204).*

30-cu illərdən başlayaraq dövlət planına əsasən yeni məktəb binaları təkcə ibtidai məktəblər üçün deyil, həm də natamam orta və orta məktəblər üçün də tikilməyə başlandı. Azərbaycan SSR-də ikinci (1933–1937) beşillikdə 108090 şagird yerlik 336 yeni məktəb binası, üçüncü beşilliyin ilk üç ili (1938–1940) ərzində isə 29530 şagird yerlik 103 yeni məktəb binası tikilib istifadəyə verilmişdi *(bax: Культурное строительство Азербайджанской ССР. Статистический сборник. Баку, 1961, стр.20).*

Aşağıdakı cədvəldə Azərbaycan SSR-də 20–40-cı illərdə məktəb tikintisi haqda statistik məlumat verilmişdir:

*20–40-cı illərdə respublikada məktəb tikintisi*

| **İllər** | **Yeni tikilən məktəblərin ümumi sayı** | **O cümlədən: Bakıda** |
|---|---|---|
| 1920–1924 | 41 | 1 |
| 1924–1928 | 144 | 9 |
| 1928–1932 | 244 | 10 |
| 1932–1937 | 336 | 62 |
| 1938–1940 | 103 | 60 (digər şəhərlərlə birlikdə) |
| **Cəmi:** | **868** | **142** |

*(Məlumat aşağıdakı mənbələr əsasında hazırlanmışdır: Azərbaycan arxivi. Bakı, 1975, №1–2, səh.266; Azərbaycan arxivi. Bakı, 1987, №1, səh.86.)*

20–30-cu illərdə məktəb tikintisinin inkişaf dinamikasının təhlili göstərir ki, 20-ci illərin sonu və 30-cu illərdə Azərbaycanda məktəb tikintisinin intensiv artımı, hər şeydən əvvəl, respublikada əvvəlcə ümumi icbari ibtidai, sonralar isə ümumi icbari yeddiillik təhsilə keçilməsi yolunda aparılan maarif siyasəti və məktəb quruculuğu ilə bağlı olmuşdur.




*Azərbaycan Maarif İşçilərinin II Qurultayının nümayəndələrindən bir qrupu*



*Əli Bayramov adına fabrikin savad kursuna cəlb olunmuş qadınlarından bir qrupu*

*1920–1928-ci illərdə respublikada məktəb şəbəkəsi*

| Tədris illəri | I pillə məktəblər | II pillə məktəblər | Kəndli gənclər məktəbləri | Yeddiillik məktəblər | Doqquzillik və orta təhsil müəssisələri | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1920/21 | 911 | 28 | – | – | – | **939** |
| 1921/22 | 1176 | 39 | – | – | – | **1215** |
| 1922/23 | 997 | 35 | – | – | – | **1032** |
| 1923/24 | 1180 | 45 | – | – | – | **1225** |
| 1924/25 | 1323 | 52 | – | 1 | – | **1376** |
| 1925/26 | 1437 | 52 | – | 4 | – | **1493** |
| 1926/27 | 1420 | 48 | 6 | 13 | 1 | **1488** |
| 1927/28 | 1381 | 35 | 24 | 39 | 8 | **1487** |

Bütün siyasi və ideoloji məzmununa baxmayaraq, əhalinin savadlanmasına yönəlmiş bu siyasətin yerinə yetirilməsi nəticəsində 20-ci illərdə məktəb şəbəkəsi sürətlə genişləndi. İbtidai təhsil müəssisələrinin şəbəkəsinin genişlənməsi və şagirdlərin sayının dinamik artımı respublikada ümumi icbari yeddiillik təhsilə keçidi reallaşdırdı.

Bu mərhələnin sonunda ümumtəhsil məktəbləri şəbəkəsində icbari ibtidai məktəblərin real çəkisi 1929/30-cu tədris ilində 87% təşkil edirdi.

Ümumtəhsil məktəblərində təhsil alan şagird kontingentində ibtidai məktəblərdə oxuyanların real çəkisi 65,5% təşkil edirdi.

*1920–1928-ci illərdə respublikada şagirdlərin sayı*

| Tədris illəri | I pillə məktəblər | II pillə məktəblər | Kəndli-gənclər məktəbləri | Yeddiillik məktəblər | Doqquzillik və orta təhsil müəssisələri | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1920/21 | 75512 | 3887 | – | – | – | **79399** |
| 1921/22 | 84705 | 4450 | – | – | – | **89155** |
| 1922/23 | 82978 | 5248 | – | – | – | **88226** |
| 1923/24 | 108134 | 6629 | – | – | – | **114763** |
| 1924/25 | 128900 | 8133 | - | 485 | - | **137518** |
| 1925/26 | 149502 | 9899 | - | 1485 | - | **160886** |
| 1926/27 | 146113 | 11268 | 214 | 4712 | 706 | **163013** |
| 1927/28 | 139530 | 10222 | 642 | 14956 | 5749 | **171099** |

*(Bax: Azərbaycan arxivi. Bakı, 1975, №1-2, səh.140–141).*

Bu dövrdə qızların təhsilə cəlb edilməsi sahəsində də böyük irəliləyişlər əldə edildi.

*Qadınların məktəblərə cəlb edilməsi haqqında Azərbaycan SSR XMK-nın məlumatları*

| Tədris müəssisələrinin adı | Hesabat nəticələri | | | | |
|---|---|---|---|---|---|
| | 1926/27 | 1927/28 | qadınların xüsusi çəkisi | 1928/29 | qadınların xüsusi çəkisi |
| **I. I pillə məktəblər** | | | | | |
| *Şagirdlər* | 150154 | 155585 | | 171981 | |
| O cümlədən qadınlar | 41583 | 42841 | 28 | 50221 | 29 |
| *Şəhərlər üzrə* | | | | | |
| *Şagirdlər* | 60152 | 63046 | | 65392 | |
| O cümlədən qadınlar | 22964 | 23490 | 37 | 25406 | 39 |
| *Kəndlər üzrə* | | | | | |
| *Şagirdlər* | 90002 | 92539 | | 106589 | |
| O cümlədən qadınlar | 18619 | 19351 | 21 | 24815 | 23 |
| **II. Yüksək təhsil məktəbləri** | | | | | |
| *Şagirdlər* | 11873 | 14642 | | 15494 | |
| O cümlədən qadınlar | 5191 | 6021 | 41 | 5867 | 38 |
| *Şəhərlər üzrə* | | | | | |
| *Şagirdlər* | 11311 | 13812 | | 13810 | |
| O cümlədən qadınlar | 5050 | 5893 | 43 | 5615 | 41 |
| *Kəndlər üzrə* | | | | | |
| *Şagirdlər* | 562 | 830 | | 1684 | |
| O cümlədən qadınlar | 141 | 128 | 15 | 252 | 15 |
| **III.Kəndli gənclər məktəbləri** | | | | | |
| *Şagirdlər* | 214 | 642 | | 1203 | |
| O cümlədən qadınlar | – | 4 | 1 | 46 | 4 |
| **IV. Savadsızlığın ləğvi kursları** | | | | | |
| *Şagirdlər* | 31208 | 32182 | | 49941 | |
| O cümlədən qadınlar | 3197 | 5383 | 17 | 5832 | 12 |

## 1.9. Ümumi icbari ibtidai təhsilə keçidin başlanması

1927-ci ilin noyabrında Azərbaycan Kommunist Partiyasının VIII qurultayı oldu. Qurultay xalq maarifinin vəziyyəti haqqında xalq maarif komissarı **Ruhulla Axundovun** məruzəsini dinləyib müzakirə etdi. Müzakirələrdən sonra xalq təsərrüfatının yenidən qurulması ilə əlaqədar xalq maarifi sahəsində qarşıya aşağıdakı vəzifələr qoyuldu:

1. Bu il (1927-ci il nəzərdə tutulur - *M.M.*) pulsuz ümumi ibtidai təhsilə keçilməsi üçün əməli hazırlığa başlansın və nəzərdə tutulmuş bütün plan 10 il ərzində yerinə yetirilsin.

2. Xalq maarifinin sonrakı iş planı və məktəb şəbəkəsinin genişləndirilməsi işi ölkənin təsərrüfat inkişafının tələblərinə tam uyğun şəkildə qurulsun. Bütün diqqət tədris işinin keyfiyyətinin yaxşılaşdırılmasına verilsin *(bax: Azərbaycan KP VIII qurultayının qərar və qətnamələri. Bakı, 1928).*

Bu məsələ Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1928-ci ilin may ayında keçirilmiş 3-cü sessiyasında geniş müzakirə olundu. 1928-ci il iyunun 9-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi və Xalq Komissarları Soveti respublikada ümumi ibtidai təhsilin mövcud vəziyyətini müzakirə edərək **«Azərbaycan SSR-də ümumi ibtidai təhsilin tətbiqi və şəbəkə komissiyaları haqqında»** xüsusi qərar qəbul etdi. Həmin qərarda xalq maarifi orqanları qarşısında 1928/29-cu tədris ilindən etibarən on il müddətində ümumi icbari ibtidai təhsili həyata keçirmək, 8–12 yaşlı bütün uşaqları ibtidai təhsilə cəlb etmək vəzifəsi qoyuldu.



**Ruhulla Axundov (1897–1938)**

**Axundov Ruhulla Әli oğlu** Bakının Şüvәlan qәsәbәsindә anadan olmuşdur. Mәdrәsәdә, realni mәktәbdә, ticarәt mәktәbindә tәhsil almışdır. İngilis, fransız, fars dillәrini yaxşı bilirdi. Azәrbaycan dilindә çıxan bolşevik «Kommunist», «Hürriyyәt» qәzetlәrinin redaktorlarından biri olmuşdur (1919). Azәrbaycan K(b)P MK-da şöbә müdiri, «Bakinski raboçi» qәzetinin redaktoru, Azәrbaycan K(b)P MK katibi (1924–1930), xalq maarif komissarı (1928–1930) vәzifәlәrindә çalışmışdır.

Respublikanın bir sıra maarif orqanları ümumi icbari ibtidai tәhsil haqqında hәmin qәrarı tәxirә salmadan hәyata keçirmәyә başladı. İlk olaraq Bakı şәhәrinin rayonları vә Salyan rayonu 1928/29-cu tәdris ilindәn ümumi icbari ibtidai tәhsilә keçdi. Respublikanın digәr rayon vә şәhәrlәri dә bu sahәdә әmәli hazırlıq işlәrinә başladılar. Lakin 1928–1930-cu illәrdә respublikada ümumi icbari tәhsilә keçid sahәsindә ciddi irәlilәyiş mümkün olmadı. Kәnd yerlәrindә 8–12 yaşlı uşaqların, xüsusәn qızların tәhsilә cәlb edilmәsi sәviyyәsi aşağı idi. Respublikanın iqtisadi potensialı da ümumi icbari ibtidai tәhsilә keçidin intensiv xarakter almasına imkan vermirdi.

1930-cu ildә ümumi icbari ibtidai tәhsilә keçidin ölkә miqyasında reallaşdırılması üçün SSRİ rәhbәrliyi tәrәfindәn geniş tәdbirlәr planı hazırlandı. SSRİ MİK vә XKS ***«Ümumi icbari ibtidai tәhsilә keçilmәsi haqqında»*** 14 avqust 1930-cu il tarixli qәrar verdi. Bu qәrara uyğun olaraq, Azәrbaycan SSR XKS-nin dә *«Azәrbaycan SSR-dә ümumi icbari ibtidai tәhsilә keçilmәsi haqqında»* 29 avqust 1930-cu il tarixli qәrarı oldu. Respublikada ümumi icbari ibtidai tәhsilә keçidin hüquqi әsasları bir daha tәsbit edildi. 1930/31-ci tәdris ilindәn bütün respublika üzrә 8–12 yaşlı uşaqların beşillik ibtidai tәhsilә cәlb edilmәsi işinә başlandı. Bu işlәrә rәhbәrlik vә nәzarәt etmәk mәqsәdilә Azәrbaycan SSR Xalq Komissarları Soveti yanında ümumi icbari ibtidai tәhsil üzrә xüsusi komitә tәşkil edildi.

30-cu illәrin әvvәllәrindә Ümumtәhsil mәktәblәri üçün yeni Әsasnamә tәsdiq edildi. Hәmin «Әsasnamә»yә görә, tәdris ili **rüblәrә**, yarımillәrә deyil, **sülslәrә** («Süls» әrәbcә «üçdә bir» demәkdir. Әsrin üçdә biri «qәrinә» adlandırıldığı kimi, tәdris ilinin dә üçdә birinә «süls» deyilirdi – *M.M.*) bölünürdü. Tәdris ili 3 sülsdәn ibarәt idi. Bu



**Maqsud Mәmmәdov (1897–1937)**

**Mәmmәdov Maqsud Mәmmәd oğlu** İrәvan şәhәrindә anadan olmuşdur. İrәvandakı kişi gimnaziyasını bitirdikdәn sonra bir müddәt İrәvan xüsusi mәktәbindә müәllim işlәmişdir. Gәncә şәhәrindә qaçqınların işi üzrә komitәdә kiçik nәzarәtçi vәzifәsindә çalışmış (1918), Gәncә şәhәrindәki Yunker hәrbi mәktәbindә (1918–1919), BDU-da (1919–1920) tәhsil almışdır. 1920–1923-cü illәrdә Azәrbaycanın әrzaq naziri vәzifәsindә, sonra isә Naxçıvanda Fövqәladә Xalq Maliyyә Komissarlığında işlәmişdir.

1930-cu ildә BDU-nun rektorluğundan Azәrbaycan SSR xalq maarif komissarı vәzifәsinә irәli çәkilmiş vә bu vәzifәdә bir il çalışmışdır.

Azәrbaycan K(b)P MK-nın katibi (1931–1933), Partiya tarixi institutunun direktoru vәzifәsindә işlәmiş (1933–1934), Moskvada Qırmızı Professorlar İnstitutunda tәhsil almışdır (1934–1936).

Repressiyaya mәruz qalmışdır (1937).



*İlk sovet məktəbi müəllimlərindən bir qrupu: A.Ağabəyov, S.Hacıyev, A.Dadaşov, M.Mütəllimov, H.Əzizov, A.Nazim, İ.Əhmədov, E.Eminzadə, A.Mustafayev, M.Əsgərbəyli, A.Əhmədov, N.Əmirov*

əsasnamədə şagird biliyinin qiymətləndirilməsi qaydaları, sinifdən-sinfə keçmə və buraxılış imtahanları, eləcə də hər **sülsün yekununda** şagird biliyinin qiymətləndirilməsinin nəticələri ilə valideynlərin tanış edilməsi kimi məsələlər təsbit olunmuşdu *(bax: Mehdi Mehdizadə. Azərbaycan sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, 1958, səh.67).*

## 1.10. Azərbaycan müəllimlərinin V(II) qurultayı

Azərbaycan SSR MİK Rəyasət Heyətinin və XKS-nin 3 yanvar 1931-ci il tarixli **«Ümumazərbaycan müəllimlərinin II qurultayının çağırılması haqqında»** qərarı əsasında 1931-ci il yanvarın 25–27-də Türk Mədəniyyət



**Ağa Sultanov**
**(1901–1936)**

**Sultanov Ağa İsmayıl oğlu** Gürcüstanın Axalsixe şəhərində anadan olmuşdur. Hacıqabul və Şamxor qəza inqilab komitələrinin sədri (1920–1930), Azərbaycan diviziyasında şöbə rəisi, Gəncə mahal partiya komitəsinin katibi, Azərbaycan K(b)P MK-nın ikinci katibi, Azərbaycan SSR xalq maarif komissarı (1930–1934) vəzifələrində işləmişdir.

Sarayında (indiki AMEA-nın Rəyasət Heyətinin binası) Ümumazərbaycan müəllimlərinin V(II) qurultayı keçirildi. Azərbaycanın bütün bölgələrindən 700 nümayəndə, bütövlükdə 1000 nəfərdən çox təhsil işçisinin iştirak etdiyi qurultayda SSRİ XKS və ÜİK(b)P MK-nın məktəb haqqında qərarlarının icra vəziyyəti, kənd müəllimlərinin ictimai və mədəni fəaliyyətləri haqqında məsələlər, bütövlükdə respublikada mədəni quruculuq sahəsində vəzifələr müzakirə edildi. Qurultayın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdi:

1. Şuralar İttifaqı və Azərbaycanın beynəlxalq və daxili vəziyyəti.
2. Sosializm quruculuğu və mədəni inqilabda müəllimlərin rolu.

Qurultayda Azərbaycan SSR MİK-in sədri Qəzənfər Musabəyov və Azərbaycan SSR XKS-nin sədri Dadaş Bünyadzadə məruzə etdilər.

Qəzənfər Musabəyov mədəni inqilabın həyata keçirilməsində Azərbaycan müəllimlərinin qarşısında aşağıdakı vəzifələri qoydu: *«Mədəni inqilabı həyata keçirmədən xalq təsərrüfatının planlı şəkildə inkişafından söz gedə bilməz. Biz insanları yenidən tərbiyələndirməli, daxilən dəyişməli, proletariatın içindən sosializm quruculuğu üçün yeni kadrlar hazırlamalı, kommunist tərbiyəsini daha da dərinləşdirməliyik».*

Qurultayda Azərbaycan SSR Xalq Maarif Komissarlığı adından xalq maarif komissarının müavini **Ayna Sultanova** çıxış etdi.

Ayna Sultanova hökumətin qərarına əsasən 1932/33-cü tədris ilində ümumi icbari ibtidai təhsilə keçidin başa çatdırılması zərurətini xüsusi vurğuladı, ümumi təhsilə cəlbolunma işində mövcud olan nöqsanlardan və qızların təhsilə cəlb edilməsi sahəsindəki çətinliklərdən danışdı və sonunda mədəni inqilabın həyata keçirilməsində kənd müəlliminin sosial vəziyyətinin yaxşılaşdırılmasının mühüm şərt olduğunu qeyd



**Ayna Sultanova**
**(1895–1938)**

**Sultanova Ayna Mahmud qızı** Dəvəçi rayonunun Pirəbədil kəndində anadan olmuşdur. «Müqəddəs Nina» gimnaziyasını bitirmiş və həmin məktəbdə dərs demişdir (1912).

RK(b)P Həştərxan qubernıyası komitəsinin müsəlman bölməsi Rəyasət Heyətinin üzvü olmuş, Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlıqda maarif şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Azərbaycan K(b)P MK aparatında qadınlar şöbəsində təlimatçı, fəhlə və kəndli qadınlar şöbəsində müdir müavini və müdir, «Şərq qadını» jurnalının ilk redaktoru olmuşdur. Azərbaycan SSR xalq maarif komissarının müavini, Zaqafqaziya Həmkarlar İttifaqları Şurası mədəniyyət bölməsinin müdiri, Üİ(b)P Zaqafqaziya Ölkə Komitəsində qadınlar bölməsinin müdiri və kütləvi təşviqat şöbəsi müdirinin müavini, Azərbaycan SSR xalq maarif komissarı, xalq ədliyyə komissarı vəzifələrində işləmişdir (1930–1937).

etdi. Qurultayda respublikada 1920–1931-ci illərdə mədəni quruculuq, yeni maarif ocaqlarının yaradılması, savadsızlığın aradan qaldırılması, ümumi icbari təhsil haqqında qanunun icra vəziyyəti və gedişi sahəsində qazanılan nailiyyətlərə yekun vuruldu, ümumi icbari təhsilin reallaşdırılması və savadsızlığın tezliklə aradan qaldırılması təxirəsalınmaz vəzifə kimi qarşıya qoyuldu. Qurultayın açılış günü Azərbaycan XKS və MİK **«Kənd müəllimləri üçün əlavə güzəştlər haqqında»** qərar vermişdi. Həmin qərarda kənd müəllimlərinə aşağıdakı güzəştlərin tətbiq edilməsi nəzərdə tutulmuşdu:

- 20 il maarifçilik fəaliyyəti ilə məşğul olan və bunun beş ilini Azərbaycanın kənd məktəblərində işləyən bütün müəllimlərə 25 illik müəllimlik fəaliyyətinə görə sosial sığortada nəzərdə tutulan qədər təqaüd verilməsi;
- 25 illik əmək stajı olan, bunun 5 ilini kənddə işləyən müəllimlərə ümumi təqaüddən yüksək, yəni I pillə məktəblərdə işləyən müəllimlərin əmək haqqı qədər təqaüd verilməsi;
- kənd məktəblərində 3 il müəllim işləyən hər bir kəsin Xalq Maarif Komissarlığının göndərişi ilə ölkənin istənilən təhsil ocağına təhsilini davam etdirməyə göndərilməsi və təqaüdlə təmin olunması;
- ali pedaqoji məktəblərə qəbul olunan kənd müəllimlərinin maddi təminatının sənaye institutlarının tələbələri ilə bərabər səviyyədə götürülməsi;
- qocaman müəllimlər üçün nəzərdə tutulan 25 daimi fərdi təqaüdü saxlamaq şərti ilə kənddə fəaliyyət göstərən və sovet hakimiyyəti qarşısında xüsusi xidmətləri olan kənd müəllimləri üçün əlavə 25 daimi fərdi təqaüd təyin edilməsi və s. *(bax: Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.67–85).*

### 1.11. 30-cu illərin təhsil islahatları

30-cu illərdə Azərbaycan SSR-də ümumi təhsil məktəblərinin strukturunda əsaslı dəyişikliklər baş verdi.

**Belə ki, icbari təhsilə keçidlə bağlı 1932/33-cü tədris ilindən etibarən respublikanın ibtidai məktəblərində təhsil müddəti beş ildən dörd ilə endirildi.** Məktəb sistemində baş verən digər mühüm yenilik ÜİK(b)P MK-nın 25 avqust 1932-ci il tarixli **«İbtidai və orta məktəblərin rejim və tədris proqramları haqqında»** qərarı ilə 1932/33-cü tədris ilindən yeddiillik və doqquzillik məktəblər əsasında onillik orta məktəblərin yaradılması oldu. Bu yenilik orta məktəb şagirdlərinin ümumi təhsil və politexnik hazırlığının yüksəldilməsinə xidmət etməli idi. Bu tarixi missiyanın yerinə yetirilməsini təmin etmək məqsədilə respublikada məktəb şəbəkəsi genişləndirildi, xüsusilə ibtidai məktəblərin sayı sürətlə artırıldı. Nəticədə, ümumi icbari ibtidai təhsilə keçid 1933/34-cü tədris ilində, əsasən, başa çatdırıldı. İbtidai məktəblərin sayı 1930/31-ci tədris ilindəki 1779-dan 2383-ə yüksəldi. Ümumi ibtidai təhsillə əhatə edilməli 429785 nəfər məktəbyaşlı uşaqdan 387107 nəfəri, yəni 90,8%-i məktəblərə cəlb edildi.

16 may 1934-cü ildə SSRİ XKS-i xüsusi qərarla SSRİ-də ibtidai və orta məktəblərin yeni strukturunu təsdiq etdi. Həmin qərara əsasən Azərbaycan SSR-də ümumi təhsil məktəblərinin aşağıdakı tipləri müəyyənləşdirildi:



**Mahmud Ağayev (1897–1937)**

**Ağayev Mahmud Səfər oğlu** Bakıda anadan olmuşdur. İbtidai rus-tatar (rus–Azərbaycan) məktəbini bitirmişdir (1910). Dərzi sənətinə yiyələnmiş, bolşevik partiyasına üzv olmuşdur (1917). Moskvada Kommunist Universitetində (1922–1925), Qırmızı Professorlar İnstitutunda (1929–1933) təhsil almışdır.

AK(b)P MK-nın orqanı «Bolşevik» jurnalının, «Kommunist» qəzetinin redaktoru, AK(b)P Bakı Komitəsinin şöbə müdiri, respublika marksizm-leninizm kurslarının direktoru, Azərbaycanın xalq maarif komissarı vəzifəsində işləmişdir (1934). Xalq maarif komissarı işlədiyi dövrdə məktəblərdə bədən tərbiyəsi dərsləri, davamiyyət, şagirdlərin ictimai işləri, dərsin müddəti, tənəffüslər, ev tapşırıqlarının həcmi və s. məsələlərlə əlaqədar mühüm sənədlər qəbul edilmişdir.

- ibtidai məktəb (I–IV siniflər);
- yeddiillik məktəb (I–VII siniflər);
- orta məktəb (I–X siniflər).

Ümumi təhsil məktəblərinin yeni sistemi o dövrdə irəliyə doğru böyük bir addım idi.

Ümumi icbari ibtidai təhsilin reallaşdırılmasından sonra qarşıda ümumi icbari yeddiillik təhsilə keçid məsələsi dururdu. Əslində, Azərbaycanın Bakı, Gəncə, Nuxa (Şəki), Xankəndi və Naxçıvan şəhərlərində artıq yeddiillik ümumi təhsilə keçilmişdi. Çünki bu şəhərlərdə yeddiillik ümumi təhsilə tam keçid prosesinə 1930/31-ci tədris ilindən başlanmışdı.

1934/35-ci tədris ilindən isə Azərbaycan SSR-in bütün şəhər və kəndlərində ümumi icbari yeddiillik təhsilə keçilməsinə başlandı.

1934/35-ci tədris ilində respublikada yeddiillik məktəblərin sayı 1930/31-ci tədris ilindəki 259-dan 942-yə yüksəldi.

Bu tələsik addımların mənfi tərəfləri də qeyd olunmalıdır. Şərait, mühit və müəllim kadrları olmadan belə addımların atılması sonralar öz mənfi təsirini göstərdi. Yeddiillik icbari təhsilə keçid o dövr üçün olduqca mütərəqqi hal idi. Lakin yeddiillik təhsillə bağlı islahatın həyata keçirilməsinə nə müəllimlər, nə də məktəblər hazır idi. İxtisaslı müəllim kadrları çatışmırdı, məktəblərin maddi-texniki bazası olduqca zəif idi. Əksər məktəblər uyğunlaşdırılmış binalarda yerləşirdi. Tələsik həyata keçirilən bu tədbir kadr və maliyyə ehtiyatları ilə təmin edilmədiyindən, səmərəsi o qədər də yüksək olmadı. Kəmiyyət artdıqca keyfiyyət daha da aşağı düşdü.



**Məmməd Cuvarlinski (1900–1938)**

**Cuvarlinski (Çuvarlı) Məmməd İsmayıl oğlu** Füzuli rayonunun Cuvarlı kəndində anadan olmuşdur.

Cuvarlı kənd inqilab komitəsinin katibi, Qaryagin (Füzuli) və Lənkəran qəza partiya komitələrində şöbə müdiri, Gəncə və Quba dairə partiya komitələrində şöbə müdiri vəzifələrində işləmişdir.

1931–1936-cı illərdə Respublika maarif komissarı, eyni zamanda APİ-də kafedra müdiri vəzifəsində çalışmışdır.

Azərbaycanda ali təhsilli kadrların yetişməsində Məmməd Cuvarlinskinin böyük əməyi olmuşdur.

1938-ci ildə repressiyaya məruz qalmışdır.

30-cu illərdə *təhsilin məzmununda* da müəyyən islahatlar aparıldı. Milli dəyərlər 20-ci illərdə olduğundan daha sərt şəkildə arxa plana keçirildi, saxta beynəlmiləlçilik aparıcı amilə çevrildi, təhsilin məzmunu tamamilə sovet ideologiyasının prinsiplərinə tabe edildi.

ÜİK(b)P MK-nın 25 avqust 1932-ci il tarixli **«İbtidai və orta məktəblərdə rejim və tədris proqramları haqqında»** və 12 fevral 1933-cü il tarixli **«İbtidai və orta məktəblər üçün dərsliklər haqqında»** qərarları əsasında ümumi təhsilin tədris planları, tədris proqramları, dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyat yeniləşdirildi və onlarda əsaslı dəyişikliklər edildi. Tədris planlarında çoxfənliliyə, şagirdlərin yaş xüsusiyyətlərinin kifayət qədər nəzərə alınmaması kimi neqativ hallara yol verilsə də, bu planların bəzi müsbət cəhətləri də var idi.

Tarix və coğrafiyanın müstəqil fənn kimi tədrisinin bərpa edilməsi yeni tədris planlarının pozitiv əlamətlərindən idi. Bir müsbət cəhət də ondan ibarət idi ki, ilk dəfə olaraq bu tədris proqramlarında hər bir fənn üzrə şagirdlərin öyrənməli olduqları biliklərin həcmi müəyyənləşdirilmişdi.

Xatırlatmaq yerinə düşər ki, hökumətin ümumi təhsil məktəblərinin politexnikləşdirilməsi sahəsində əvvəlki islahatları o qədər də müsbət qarşılanmamışdı. Məktəbin politexnikləşdirilməsindəki sərtliyi, istehsalat mühitinə daha çox vaxt ayrılmasını çoxları «məktəbin ölümü» kimi qiymətləndirirdi *(bax: Azərbaycan arxivi. Bakı, 1987, №1, səh.150).*

Təhsil sistemi qarşısında 20-ci illərdə tətbiq edilmiş «kompleks proqramlar»dan, dərslik kimi istifadə edilən «iş kitabları»ndan imtina etmək, bütün fənlər üzrə sabit tədris proqramı və dərsliklərin hazırlanmasını təşkil etmək vəzifəsi qoyuldu.



*Azərbaycan müəllimləri Moskvada Ümumittifaq tədbirində Mixail Kalininlə birlikdə*

Bu göstərişləri yerinə yetirmək məqsədilə Azərbaycan SSR Xalq Maarif Komissarlığı yanında xüsusi fənn komissiyaları yaradıldı və onlara respublikada fəaliyyət göstərən bütün tipdən olan ümumi təhsil müəssisələri üçün tədris proqramları hazırlamaq, yaxud rus dilindən tərcümə etmək tapşırığı verildi.

Azərbaycan dilində ibtidai və orta məktəblər üçün yeni dərsliklərin hazırlanmasının başlanğıcı qoyuldu. Lakin həm tədris proqramlarından, həm də respublikada hazırlanan dərsliklərdən milli-mənəvi dəyərləri əks etdirən materiallar tamamilə çıxarıldı. Proqram və dərsliklərdə sosializm ideallarına sadiq gənclər yetişdirilməsinə xidmət edən saxta beynəlmiləlçilik, yalançı xalqlar dostluğu ideyalarına üstünlük verildi. Proqram və dərsliklərdə bu tələbin yerinə yetirilməsinə hüquqi zəmin yaratmaq məqsədilə ÜİK(b)P MK və SSRİ XKS-i 16 may 1934-cü ildə xüsusi qərar verdi. Həmin qərarda ümumi təhsil məktəblərində tarix və coğrafiyanın tədrisi partiya nəzarəti altında olub, sovet vətəndaşının formalaşdırılmasında ideoloji vasitə hesab edilirdi.

Əslində, bir-birini təkrarlayan «SSRİ tarixi», «İctimaiyyat» və «Partiya tarixi»nin tədrisinə həddən artıq saat ayrılmışdı. Tarix fənni «SSRİ tarixi» adı altında Rusiyanın tarixinin öyrədilməsinə xidmət edirdi, milli tarix – Azərbaycan tarixi haqqında epizodik məlumatlar «SSRİ tarixi»nə əlavə şəklində verilirdi.

*Azərbaycan məktəblərində 1934/35-ci tədris ili üçün tədris planı*

| № | Fənlər | I sinif | II sinif | III sinif | IV sinif | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Ana dili və ədəbiyyat | 12(11) | 11(10) | 9 | 9 | 9 | 6 | 5 | 5 | 3 | 5 |
| 2. | Riyaziyyat | 6 | 6 | 6 | 7 | 7(6) | 6 | 6 | 6(5) | 6 | 6 |
| 3. | Təbiət | 1(2) | 2(3) | 2(3) | 3(4) | 3 | 3 | 2(3) | 3(4) | 3(4) | – |
| 4. | Geologiya və mineralogiya | – | – | – | – | – | – | – | – | – | 2 |
| 5. | Coğrafiya | – | – | 3(2) | 4(3) | 3(2) | 3(2) | 3(2) | 3(2) | 3(2) | – |
| 6. | Tarix | – | – | – | – | 2(3) | 2(3) | 3(2) | 4(5) | 4(5) | – |
| 7. | ÜİK(b)P tarixi | – | – | – | – | – | – | – | – | – | 2 |
| 8. | İctimaiyyat | – | – | 1 | 2(1) | 1 | 1 | 1 | – | – | – |
| 9. | Fizika | – | – | – | – | – | 4 | 4(3) | 4 | 3 | 4 |
| 10. | Astronomiya | – | – | – | – | – | – | – | – | | 2 |
| 11. | Kimya | – | – | – | – | – | – | 2(3) | 3(2) | 2(3) | 4 |
| 12. | İkinci dil | – | – | 4 | 4 | 5 | 4(3) | 3(4) | 4 | 5(4) | 5(4) |
| 13. | Əmək, rəsm və modelqayırma | 3 | 3 | 1 | 1(2) | – | – | – | – | – | – |
| 14. | Əmək | – | – | – | – | 3(4) | 3(4) | 3(4) | 3(4) | 4(3) | 3(4) |
| 15. | Rəsm | – | – | – | – | 1 | 1 | 1 | – | – | – |
| 16. | Rəsmxət | – | – | – | – | – | 1 | 1 | 1 | 1 | 1 |
| 17. | Bədən tərbiyəsi | 1 | 1 | 1 | 1 | 2 | 1 | 1 | 1 | 1 | 1 |
| 18. | Nəğmə və musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | – | – | – |
| **Cəmi:** | | **24** | **24** | **28** | **32** | **37** | **36** | **36** | **37** | **35** | **35** |

***Qeyd:*** *mötərizədə göstərilən saatlar ikinci yarımildə tədris olunurdu.*



**Müseyib Şahbazov (1898–1938)**

**Şahbazov Müseyib Əli oğlu** Dağıstan Respublikasının Mahaçqala şəhərində anadan olmuşdur. 13-cü Qırmızı Ordunun siyasi şöbəsində təbliğatçı (1918–1921), Həştərxanda «Hümmət» təşkilatının katibi, Dərbənd inqilab komitəsinin sədri, RK(b)P Cənubi Dağıstan və Qaytaq-Tabasaran dairə komitələrinin katibi, Azərbaycan fövqəladə komissiyasında idarə rəisi, Gəncə qəza İcraiyyə Komitəsinin sədri, Azərbaycan SSR xalq ədliyyə komissarının muavini, Azərbaycan K(b)P MK-da şöbə müdiri, Gəncə qəza komitəsinin məsul katibi, Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR xalq maarif komissarı (1921–1937) vəzifələrində çalışmışdır.

Azərbaycan K(b)P MK Azərbaycan SSR, ZSFSR MİK-lərinin üzvü olmuşdur.

Repressiyaya məruz qalmışdır.

Siniflər üzrə həftəlik dərs saatlarının düzgün bölünməməsi də həmin tədris planının neqativ xüsusiyyətlərindən idi. Çünki burada şagirdlərin yaş xüsusiyyətləri nəzərə alınmamışdı.

SSRİ XKS-i və ÜİK(b)P MK-nın 3 sentyabr 1935-ci il tarixli **«İbtidai, natamam orta və orta məktəblərdə tədris işinin təşkili və məktəbdaxili qaydalar haqqında»** qərarında mövcud tədris planlarının nöqsanları, xüsusən şagirdlərin həddən artıq yüklənməsi faktları (gündə 6–7 saat) ciddi tənqid edildi. Həmin qərara əsasən 1935/36-cı tədris ilindən tədris planlarında müəyyən düzəlişlər edildi: I–IV siniflərdə gündə dörd saat (yalnız IV sinifdə həftədə iki dəfə, beş saat olmaqla), V–X siniflərdə isə gündə beş saat (həftədə üç gün, altı saat olmaqla) dərs normativi müəyyən edildi. Dərs müddətinin 45 dəqiqəlik, şagirdlərin biliyinin qiymətləndirilməsinin 5 ballıq sistemi təsdiq olundu: «əla» (5), «yaxşı» (4), «orta» (3), «pis» (2), «çox pis» (1) *(bax: Azərbaycan arxivi. Bakı, 1987, №1, səh.71)*.

1938/39-cu tədris ilindən qeyri-rus məktəblərində rus dilinin icbari öyrədilməsinə keçilməsi ilə əlaqədar mövcud tədris planlarında müəyyən dəyişikliklər aparıldı. Azərbaycan SSR-in təlim ana dilində olan məktəblərinin 1939/40-cı tədris ili üçün nəzərdə tutulmuş tədris planında həmin dəyişikliklər aydın nəzərə çarpır. Tədris planının təhlili göstərir ki, 13 mart 1938-ci il tarixli **«Qeyri-rus məktəblərində rus dilinin icbari öyrədilməsi haqqında»** qərarın əsas tələbi nəzərə alınmış, tədris planına «Rus dili və ədəbi qiraət», «Rus ədəbiyyatı» fənləri daxil edilmişdi. Həmin tədris ilindən başlayaraq proqrama «SSRİ Konstitusiyası» adlı yeni fənn də



**Məmmədsadıq Əfəndiyev (1902–1942)**

**Əfəndiyev Məmmədsadıq Əhməd oğlu** Aşqabad şəhərində anadan olmuşdur. Azərbaycan Fövqəladə Komissiyasında işləmiş, Bakı Türk İşçi Teatrının direktoru vəzifəsində çalışmışdır (1925–1929). 30-cu illərdə Moskva Dövlət Konservatoriyasında, Moskva Dövlət Kinemotoqrafiya İnstitutunda və Kommunist Universitetində işləmişdir.

Azərbaycan SSR Baş siyasi idarənin rəisi (1935–1942), Azərbaycan KP MK-nın təbliğat və təşviqat, mətbuat və nəşriyyat şöbələrinin müdiri, xalq maarif komissarı (1938), Azərbaycan SSR Xalq Komissarları Sovetinin sosial-mədəni qrupunun rəhbəri, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru vəzifələrində işləmişdir.

1942-ci ildə cəbhəyə göndərilmiş və həmin il igidliklə həlak olmuşdur.

*Azərbaycan məktəblərində 1939/40-cı tədris ili üçün tədris planı*

| № | Fənlər | I sinif | II sinif | III sinif | IV sinif | V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif | X sinif |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan dili | 14 | 9 | 6(4) | 6 | 6 | 5 | 3(2) | 1 | – | – |
| 2. | Ədəbi qiraət | – | – | – | – | 3 | 2 | 2 | – | – | – |
| 3. | Hüsnxət | – | 2 | 1 | – | – | – | – | – | – | – |
| 4. | Ədəbiyyat | – | – | – | – | – | – | – | 2 | 3 | 3 |
| 5. | Rus dili və ədəbi qiraət | – | 3 | 5 | 5 | 6 | 6 | 6 | 3 | 3 | 3 |
| 6. | Rus ədəbiyyatı | – | – | – | – | – | – | – | 2 | 2 | 2 |
| 7. | Hesab | 7 | 7 | 6 | 6 | 7 | – | – | – | – | – |
| 8. | Cəbr, həndəsə və triqonometriya | – | – | – | – | – | 6 | 5(6) | 6 | 6 | 6 |
| 9. | Təbiət | – | – | 2(1) | 2 | 3 | 3 | 2 | 3 | 2(3) | 1 |
| 10. | Tarix | – | – | 0(3) | 2(3) | 3(2) | 3(2) | 2(3) | 4(5) | 5 | 5(4) |
| 11. | SSRİ Konstitusiyası | – | – | – | – | – | – | 2 | – | – | – |
| 12. | Coğrafiya | – | – | 2 | 3(2) | 2(3) | 2(3) | 2 | (3) | 3(2) | – |
| 13. | Fizika | – | – | – | – | – | 2(3) | 4 | 3 | 3(2) | 4 |
| 14. | Astronomiya | – | – | – | – | – | – | – | – | – | 1 |
| 15. | Kimya | – | – | – | – | – | – | 3(2) | 3(2) | 2(3) | 3(4) |
| 16. | Xarici dil | – | – | – | – | 2 | 2(1) | 1 | 1 | 2 | 2 |
| 17. | Rəsm | 1 | 1 | 1/2 | 1/2 | – | – | – | – | – | – |
| 18. | Nəğmə | 1 | 1 | 1/2 | 1/2 | – | – | – | – | – | – |
| 19. | Rəsmxət | – | – | – | – | – | 1 | 1 | 1 | 1 | 1 |
| 20. | Bədən tərbiyəsi | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| **Cəmi:** | | **24** | **24** | **24** | **26** | **33** | **33** | **34** | **33** | **33** | **32** |

***Qeyd:** mötərizədə göstərilən saatlar ikinci yarımildə tədris olunurdu.*

salınmışdı. Proqram və dərsliklər Moskvada tərtib edilir, sonradan Azərbaycan dilinə tərcümə olunurdu. Respublikada yalnız ana dili və ədəbiyyatı üzrə proqram və dərsliklərin hazırlanmasına icazə verilirdi.

## 1.12. İlk stabil dərsliklərin yaranması

1931/32-ci tədris ilində Azərbaycan məktəblərində tədris işlərinin yenidən qurulması, yəni *kompleks sistemin fənn sistemi* ilə əvəz edilməsi, dərs kitablarının tamamilə yenidən yazılması məsələsini irəli sürdü. ÜİK(b)P MK-nın **«İbtidai və orta məktəblər üçün dərs kitabları haqqında»** 12 fevral 1933-cü il tarixli qərarı fənlər üzrə stabil dərs kitablarının hazırlanması prosesini sürətləndirdi. Həmin qərarda 1928–1931-ci illərdə dərs kitablarının əvəzinə müxtəlif fənlər üzrə nəşr edilən «iş kitabları» pisləndi.

Azərbaycanda ümumtəhsil məktəblərinin proqram və dərsliklərini RSFSR-də (Moskvada) hazırlanan proqram və dərsliklərlə əlaqələndirmək və birləşdirmək məqsədilə Azərbaycan KP MK **«Proqram və dərs kitablarının ümumiləşdirilməsi haqqında»** (20 may 1933-cü il) qərar verdi. Həmin qərara əsasən respublika ümumi təhsil məktəblərinin riyaziyyat, fizika, kimya, təbiət, tarix, ictimaiyyat, coğrafiya, əmək və rəsmxət üzrə proqram və dərslikləri RSFSR Xalq Maarif Komissarlığı tərəfindən hazırlanan proqram və dərsliklərlə eyniləşdirildi. Bütün proqram və dərsliklərdən yalnız Azərbaycan məktəbləri üçün ana dili və ədəbiyyat, qeyri-Azərbaycan məktəbləri üçün Azərbaycan dili üzrə proqram və dərs kitablarının respublikada orijinal tərtibinə icazə verildi *(bax: Mehdi Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, 1958, səh.185).*

İbtidai məktəblər üçün orijinal dərsliklərin tərtibinə başlandı. Azərbaycanda milli müəlliflər tərəfindən hazırlanmış stabil dərs kitabları meydana gəldi. Burada bir haşiyə çıxaraq qeyd etmək yerinə düşər ki, həmin ildə nəşr olunan kitablardan yalnız Veysəl Mustafazadənin «Əlifba» dərsliyi stabil dərslik kimi buraxıldı. 1933–1936-cı illərdə onun müəllifliyi ilə nəşr edilən bu «Əlifba» 1937-ci ildən Yusif Zeynalov və Əli Məsrur Qafarlının müəllifliyi ilə (çünki Veysəl Mustafazadə 1937-ci ildə repressiya olundu) 1946-cı ilə kimi, 1946-cı ildən 1962-ci ilə kimi yalnız Yusif Zeynalovun müəllifliyi ilə, 1962-ci ildən isə Yusif Zeynalov və Yəhya Kərimovun müəllifliyi ilə nəşr edildi.

Bu illərdə Yusif Zeynalovun «Ana dili» («Oxu») (I s.), «Oxu kitabı» (I s.), Əli Məsrur Qafarlının «Ana dili» (II s.), Feyzulla Qasımzadənin «Oxu kitabı» (III s.) (sonralar Ağaməd Abdullayev və Feyzulla Qasımzadənin müəllifliyi ilə «Ana dili» adı ilə nəşr edilib), Ələkbər Babazadənin «Türk (Azərbaycan) dili» (II s.), «Türk (Azərbaycan) dili» (III s.), Qulam Ələkbərlinin «Türk (Azərbaycan) dilinin qrammatikası və yazı qaydaları» (II s.), Əbdüləzəl Dəmirçizadənin «Türk (Azərbaycan) dili» (IV s.) dərslikləri nəşr edildi.

30-cu illərdə ibtidai məktəblər üçün ana dili üzrə yaradılan bu orijinal dərsliklər Azərbaycan məktəbində ana dilinin tədrisində müstəsna rol oynadı və gələcəkdə bu istiqamətdə aparılan



















*30-cu illərin dərslikləri*

dərslik yaradıcılığında təməl missiyasını yerinə yetirdi.

Beləliklə, 30-cu illərin əvvəllərində Azərbaycanın təhsil sistemində mərkəzçilik və məzmunda eynilik prinsipləri bərqərar oldu.

Az sonra bunlar Azərbaycan məktəbləri üçün böyük problemlər yaratdı. Təsadüfi deyil ki, o dövrdə görkəmli rus pedaqoqu Pavel Petroviç Blonski bu eyniliyə, unifikasiyaya qarşı çıxaraq yazırdı: *«Bizim nəsillər pedaqoji fikir tariximizi öyrənərkən güləcəklər ki, Odessadan tutmuş Vladivostokadək uşaqlar eyni dərsliklə oxuyurlar. Və bizə güləcəklər ki, biz eyni Ümumittifaq tədris proqramları ilə dərs keçirik. Amma bu işdə hər bir şəhərin, kəndin, rayonun xüsusiyyətlərini nəzərə almaq, elə gözəl, rəngarəng proqramların, forma və metodların meydana gəlməsinə səbəb olar ki, bunu heç yuxumuzda da görməmişik» (bax: «Azərbaycan məktəbi» jurnalı, 1990, №1–12, səh.8).*

Azərbaycan SSR ümumtəhsil məktəbləri üçün nəzərdə tutulan fizika, kimya, cəbr, həndəsə, ibtidai siniflər üçün hesab kitabları rus dilindən olduğu kimi tərcümə edilirdi. Həmin dərslikləri yüksək elmi səviyyədə dilimizə Bəylər Ağayev, Camo Cəbrayılbəyli, Nigar Ağayeva, Abdulla bəy Əfəndiyev və b. tərcümə etmişdilər. Tərcümə olunmuş təbiət, coğrafiya, ictimaiyyat, tarix kitablarının müvafiq fəsillərinə Azərbaycan tarixi və ölkəşünaslıq materialları əlavə edilmişdi. Etiraf edək ki, bu materiallar kifayət qədər olmadığından, Azərbaycan tarixini, coğrafiyasını tam əhatə etmirdi. Bu kitablarda Azərbaycanla bağlı ən mühüm məqamlar bəzən unudulur (təbii ki, bilərəkdən), bəzən də təhrif olunurdu. «SSRİ tarixi» dərsliyi Azərbaycan məktəblərini, ümumiyyətlə, qane etmirdi. Burada, əsasən, slavyan xalqlarının (xüsusilə rusların) tarixi öyrənilir, türk xalqlarının, o cümlədən Azərbaycan xalqının tarixinə toxunulmurdu. Elə buna görə də görkəmli yazıçı və ictimai-siyasi xadim Mirzə İbrahimov totalitar dövlət maşınının təzyiqindən qorxmayaraq cəsarətlə yazırdı: *«Balalarımız Yunanıstanın, İtaliyanın, İngiltərənin, Rusiyanın tarixini keçir, lakin üzərində doğulduğu torpağın və qucağında pərvəriş tapdığı xalqın tarixindən xəbərsiz qalaraq məktəbi bitirirlər» (bax: Mirzə İbrahimov. Yüksək təlim-tərbiyə keyfiyyəti uğrunda. «Azərbaycan məktəbi» jurnalı, 1944, №4–5, səh.6).*

20-ci illərdə geniş tətbiq olunan «vahid əmək məktəbi» ideyası 1937-ci ildən tədris planlarından tamamilə çıxarıldı.

Bu illərdə icbari ibtidai təhsilə keçid uğurla başa çatdı, ümumi icbari yeddiillik təhsilə keçidə başlandı, savadsızlığın kütləvi ləğvi sahəsində uğurlar qazanıldı. Lakin bütün bunlar təhsil sisteminə siyasi nəzarət, təhsilin məzmununun siyasi ideologiyaya daha güclü şəkildə tabe etdirilməsi fonunda baş verirdi. Həyatın bütün sahələrində olduğu kimi, təhsildə də Stalin siyasəti bərqərar olmuşdu. Cəmiyyət bürokratik avtoritarizmin məngənəsində idi.

Rus dilinin məktəbdə icbari tədrisinə başlandı ki, bu da birbaşa ruslaşdırma siyasətinə xidmət edirdi. Eyni məqsədli siyasi qərarla Azərbaycanda latın qrafikalı əlifbadan kiril (rus) əlifbasına keçildi. Bu mərhələdə Xalq Maarif Komissarlığı təhsili idarə edən orqandan çox, kommunist partiyasının mərkəzi və yerli orqanlarının sifarişini yerinə yetirən quruma çevrilmişdi.

Belə bir çətin şəraitdə, qısa bir vaxtda pedaqoji-psixoloji, elmi-nəzəri tələblərə cavab verən, tərtibatı ilə seçilən, məktəblinin və

müəllimin tələbini ödəyən, mövcud ideoloji prinsiplərin tələblərinə uyğun dərsliklər yaratmaq çətin idi. Obyektiv və subyektiv amillərlə şərtlənən bu çətinliklər, stabil dərsliklərin yaradılmasında buraxılan səhvlər az sonra rəsmi dövlət orqanlarının tənqid obyektinə çevrildi. Bu məsələ ilə bağlı SSRİ XMK və ÜİK(b)P MK **«İbtidai, natamam, orta məktəblər üçün dərs kitablarının nəşri və satışı haqqında»** 7 avqust 1935-ci ildə xüsusi qərar qəbul etdi.

Həmin illərdə Azərbaycanda da bu məsələ xüsusi diqqət mərkəzində idi. Ölkə rəhbərliyi səviyyəsində dərsliklərin, xüsusən türk dilində dərsliklərin nəşri birbaşa Respublika K(b)P MK-nın diqqət mərkəzində idi. Bu baxımdan Azərbaycan K(b)P MK-nın bir qərarını oxucuların diqqətinə çatdırmağı məqsədəuyğun hesab edirəm.

1936-cı ilin mayında 31 yaşlı Mikayıl Rəfili Leninqradda (Sankt-Peterburq ) idi. Bu zaman onun AzFAN-dakı (SSRİ EA-nın Azərbaycan filialı nəzərdə tutulur – *red.*) əqidədaşları Azərbaycan K(b)P MK-da, Mircəfər Bağırovun yanında idilər. Müşavirə türk dilində dərsliklərin hazırlanmasına həsr olunmuşdu. Mircəfər Bağırov adlı-sanlı alim və yazıçıların təkliflərini nəzərə alaraq, həmin il may ayının 21-də Mərkəzi Komitə Bürosunun qərarına imza atmışdı:

***«Azərbaycan ədəbiyyatı üzrə dərsliklərin hazırlanması haqqında»***

**I.** Azərbaycan ədəbiyyatı və Azərbaycan ədəbiyyatı tarixinə dair türk məktəbləri üçün mükəmməl dərsliklər hazırlamaq məqsədilə aşağıdakı müəllif briqadaları yaradılsın:

1. Beşinci sinif üçün dərslik
Briqadir – redaktor Məmməd Arif
Briqada üzvləri – Həmid Araslı, Mir Cəlal, Abdulla Şaiq

2. Altıncı sinif üçün dərslik
Briqadir – redaktor – Hacıbaba Nəzərli
Briqada üzvləri – Hənəfi Zeynallı,
Mikayıl Rzaquluzadə

3. Yeddinci sinif üçün dərslik
Briqadir – redaktor – Əli Sultanlı
Briqada üzvləri – Həbibulla Səmədzadə,
Hidayət Əfəndiyev

4. Yeddinci sinif üçün dərslik
(XIV əsrdən XIX əsrin 60-cı illərinədək)
Briqadir – redaktor – Tağı Şahbazi
Müəlliflər – Həbibulla Səmədzadə,
Mərdan Muradxanlı

5. Doqquzuncu sinif üçün ədəbiyyat tarixi oçerkləri
(XIX əsrin 70-ci illərindən XX əsrədək)
Müasir Azərbaycan ədəbiyyatı
Briqadir – redaktor – Məmmədkazım
Ələkbərli
Briqada üzvləri – Mehdi Hüseyn,
Məmməd Arif

**II.** Məmmədkazım Ələkbərli (sədr), Tağı Şahbazi, Hacıbaba Nəzərli, Mehdi Hüseyn və Bəkir Çobanzadə yoldaşdan ibarət komissiyaya tapşırılsın ki, bütün müəllif və redaktorları işə cəlb etməklə, 10 gün ərzində ədəbiyyat və ədəbiyyat tarixi üzrə proqramları dəqiqləşdirsinlər və təsdiq üçün Azərbaycan K(b)P MK-nın məktəb və elm şöbəsinə təqdim etsinlər.

**III.** Müəlliflər tərəfindən dərsliklərin təhvil verilməsinin son müddəti 1936-cı il oktyabrın 5-i müəyyən edilsin. Azərnəşrə (Əsəd Axundov) bir vəzifə olaraq tapşırılsın ki, dərslikləri 1937-ci ilin yanvarın 1-dək nəşr etsin.

**IV.** Ədəbiyyat və ədəbiyyat tarixi üzrə dərsliklərin hazırlanması zərurətini nəzərə alaraq, Azərbaycan K(b)P MK-nın məktəb və elm şöbəsinə tapşırılsın ki, dərsliklərin yazılması və tərtib edilməsi ilə məşğul olan müəlliflərin göstərilən müddətdə əsas iş yerlərində bütün digər iş və tapşırıqlardan azad edilməsini təmin etsin.

**V.** Xalq Maarif Komissarlığına və Azərnəşrə tapşırılsın ki, müəlliflərin səmərəli fəaliyyəti üçün lazımi iş şəraiti yaratsınlar.

**VI.** Xalq Maarif Komissarlığına və Azərnəşrə tapşırılsın ki, işdə ən çox fərqlənən müəllif və redaktorları mükafatlandırmaq məqsədilə xüsusi fond ayırsınlar.

*Azərbaycan K(b)P MK katibi*
*M.Bağırov*

Stabil dərs kitablarının yaradılmasının birinci mərhələsi daha çox eksperiment xarakteri daşısa da, dərsliklərin elmi-metodik əsasları möhkəmləndi və məzmunu zənginləşdi. Sovet hökuməti o dövrdə təhsil islahatlarının uğurla aparılmasında yaxından iştirak edən müəllimlərin əməyini çox yüksək qiymətləndirdi.

SSRİ MİK və XKS-nin 11 aprel 1936-cı il tarixli qərarı ilə «Əməkdar ibtidai və orta məktəb müəllimi» fəxri adları təsis edildi. Azərbaycanda ibtidai və orta məktəb müəllimlərinə fəxri adların verilməsinə başlandı *(bax: Azərbaycan tarixi. Bakı, 2000, VI cild, səh.315)*.

1936–1939-cu illərdə yüzə qədər müəllimə «Respublikanın Əməkdar müəllimi» fəxri adı verildi. 1939-cu ildə isə respublika müəllimlərinin böyük bir qrupu SSRİ-nin orden və medalları ilə təltif edildi *(bax: Mehdi Mehdizadə. Azərbaycanda sovet məktəbinin tarixinə dair xülasələr. Bakı, «Azərtədrisnəşr», 1958, səh.229)*.

Azərbaycan SSR XKS-nin 31 dekabr 1939-cu il tarixli **«Respublikanın kütləvi məktəblərində və digər təhsil müəssisələrində təlimin yeni Azərbaycan əlifbasına keçirilməsi haqqında»** və **«İbtidai məktəblərin dərslik və dərs vəsaitlərinin yeni Azərbaycan əlifbasında nəşri haqqında»** qərarları ilə təhsil müəssisələrində tədris yeni əlifbaya keçirildi.

## 1.13. 30-cu illərdə musiqi təhsili

### Bülbül adına Orta İxtisas Musiqi Məktəbi

1928-ci ildə ümumsovet məkanında, o cümlədən Azərbaycanda aparılan islahatlarla bağlı Xalq Maarif Komissarlığı tərəfindən yeni musiqi tədris üsulu tətbiq olunmağa başladı. Məhz həmin ildən Azərbaycan Dövlət Konservatoriyasının nəzdində uşaq musiqi məktəbi formalaşdı.

1930-cu ildə məktəbin proqramı təkmilləşdirildi. İstedadlı uşaqlar təhsilə cəlb olundu. Qara Qarayev, Cövdət Hacıyev, Tofiq Quliyev, Məmmədsadıq İsmayılov, Fəridə xanım Quliyeva, Məmməd İsrafilzadə və milli musiqimizin bir sıra görkəmli nümayəndələri bu dövrün şagirdləri oldular.

1931-ci ildə məktəbin I pilləsinin bazasında 60 şagirddən ibarət olan uşaq musiqi qrupu təşkil edildi. 1933/34-cü tədris ilində məktəbdə yüksək musiqi qabiliyyəti nümayiş etdirən şagirdlərdən ibarət «Gənc istedadlar qrupu» formalaşdırıldı. Bu qrupda 44 uşaq təhsil alırdı.



**Kövkəb Səfərəliyeva**
**(1907–1985)**

**Səfərəliyeva Kövkəb Kamil qızı** Bakıda anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasını bitirmiş (1932), həmin tədris müəssisəsinin professoru olmuş (1952) və Azərbaycan Respublikasının xalq artisti (1972) adına layiq görülmüşdür.

1937-ci ildə Konservatoriyanın nəzdində yaradılan orta ixtisas musiqi məktəbinə direktor təyin olunmuş, 1954-cü ilə qədər həmin vəzifədə müvəffəqiyyətlə çalışmışdır.

Bir sıra elmi-metodik vəsaitlərin, dərsliklərin, fortepiano üçün külliyyatın tərtibçisi, musiqi nəzəriyyəsi və praktik problemləri ilə bağlı bir çox məqalənin müəllifidir.

SSRİ Ali Sovetinin (3-cü çağırış) deputatı olmuş, Şərəf nişanı ordeni və müxtəlif medallarla təltif edilmişdir.

Üzeyir bəy Hacıbəylinin şəxsi təqdimatı və Xalq Maarif Komissarlığının incəsənət şöbəsinin 13 sentyabr 1937-ci il tarixli qərarı ilə **Kövkəb xanım Səfərəliyeva** bu məktəbə direktor təyin edildi. Öz işinə ciddi və prinsipial mövqedən yanaşan, yüksək peşəkarlığa, məsuliyyət hissinə malik olan Kövkəb xanım Üzeyir bəy Hacıbəylinin dəstəyinə arxalanaraq məktəbin fəaliyyətini daha da canlandırdı.

İlkin tədris planına musiqi tərbiyəsi, ritmika, musiqi savadı, elementar nəzəriyyə, harmoniya fənninin hazırlıq dövrü, ümumi fortepiano, fortepiano ansamblı dərsləri daxil idi. Üzeyir bəy Hacıbəyli bu onillik musiqi məktəbini Konservatoriyanın «kadr təchizatçısı» adlandırırdı.

1937/38-ci tədris ilində Azərbaycan SSR-in Xalq Maarif Komissarlığı incəsənət şöbəsinin qərarı ilə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində yeni tipli (Moskva və Leninqrad (Sankt-Peterburq) konservatoriyalarının nəzdindəki Mərkəzi Musiqi Məktəbi tipli) təhsil müəssisəsi yaradıldı. «Gənc istedadlar qrupu» yeni yaranan Mərkəzi Musiqi Məktəbinin özəyini təşkil etdi.

Mərkəzi Musiqi Məktəbində fortepiano və orkestr alətləri (arfa da daxil olmaqla) şöbəsi fəaliyyətə başladı. Bu şöbəyə simli ağac və mis alətləri daxil edildi. 1938-ci ildə dərs planına kamera ansamblı sinfi və musiqinin nəzəriyyəsi və tarixi kursu da əlavə olundu.

1938-ci ildə məktəbdə «Unison» simli alətlər ansamblı fəaliyyətə başladı. Təcrübəli müəllim M.V.Reytix ansambla rəhbərliyi öz üzərinə götürdü.

1939/40-cı illərdə aparılan əsaslı islahatlardan biri məktəbdə Azərbaycan və rus bölmələrindən ibarət ümumtəhsil şöbəsinin açılışı idi. Mərkəzi Musiqi Məktəbində təhsil müddəti on il müəyyən edildi. Məktəb ADK-nın nəzdində «Onillik musiqi məktəbi» adlanaraq müstəqil fəaliyyətə başladı.

Məktəbin adındakı orta ixtisas sözlərinə görə bu təhsil ocağını bəzən ümumtəhsil məktəbləri siyahısından çıxarırlar. Amma nəzərə alınsa ki, Bülbül adına Orta İxtisas Musiqi Məktəbi məzunlarına ümumtəhsil və musiqi məktəbini bitirmələri haqda diplom deyil, attestat verir, o zaman bu məktəb haqqında məhz bu bölmədə söz açmağımız təəccüb doğurmamalıdır.

1948–1958-ci illərdə məktəbin şagirdləri arasında gələcəyin tanınmış musiqi xadimləri və yazarları Xəyyam Mirzəzadə, Vasif Adıgözəlov, Anar Rzayev, Rauf Abdullayev, Aqşin Əlizadə, Yusif Səmədoğlu, Vaqif Səmədoğlu, Sərvər Qəniyev, Emin Mahmudov – Sabitoğlu, Rəfiq Zəka, Zöhrab Adıgözəlzadə olmuşlar.



*Kövkəb xanım Səfərəliyeva «Gənc istedadlar qrupu»nun şagirdləri arasında*



*«Unison» skripkaçılar ansamblı*



*Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 1959-cu il məzunları*



*Bülbül adına Orta İxtisas Musiqi Məktəbində məşğələ zamanı*



**Niyazi**
**(1912–1984)**

**Tağızadə – Hacıbəyov Niyazi Zülfüqar oğlu** Tiflis şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijoru (1937–1948; 1951–1952), direktoru, bədii rəhbəri və baş dirijoru (1958–1959; 1961–1965), S.M.Kirov adına Leninqrad (Sankt-Peterburq) Opera və Balet Teatrının baş dirijoru (1961), Azərbaycan Dövlət Filarmoniyasının direktoru (1979) vəzifələrində çalışmışdır.

Azərbaycan musiqisində milli simfonizmin təşəkkülü və inkişafında əhəmiyyətli rol oynamışdır. SSRİ xalq artisti (1959), Sosialist Əməyi Qəhrəmanı (1982), Dirijorların Ümumittifaq baxışının laureatı (1946), SSRİ Dövlət mükafatı laureatı (1951; 1952) Üzeyir Hacıbəyov adına Azərbaycan SSR Dövlət mükafatı laureatı (1974) adlarına layiq görülmüşdür.

İki dəfə Lenin ordeni, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri və digər medallarla təltif edilmişdir.

Azərbaycan SSR Ali Sovetinin (4–10-cu çağırış) deputatı olmuşdur.

1952–1962-ci illərdə məktəbə Pyotr İliç Çaykovski adına Moskva Konservatoriyasının məzunu Tahir Atakişiyev rəhbərlik etmişdir.

Bu illərdə Zaqafqaziya respublikaları arasında dostluq münasibətləri genişlənir, musiqi təhsili ocaqları arasında təcrübə mübadiləsi yaranırdı. Məktəbin istedadlı şagirdlərinin hesabat konsertlərində iştirakı, seçilənlərin bilavasitə maestro **Niyazinin** rəhbərlik etdiyi Dövlət Simfonik orkestri ilə çıxış etmək hüququna malik olması ənənəyə çevrildi.

70-ci illərdə məktəbdə fortepiano, nəzəriyyə, simli və xalq çalğı alətləri şöbələri fəaliyyət göstərirdi. Simli alətlər şöbəsinə nəfəsli alətlər, nəzəriyyə şöbəsinə xor dirijoru bölmələri əlavə olunmuşdu. Orkestr şöbəsinə və bilavasitə «Unison» skripka ansamblına İ.Spivak rəhbərlik edirdi.

1980-ci ildə məktəbin milli çalğı alətləri şöbəsində xanəndəlik bölməsi yaradıldı. Bura respublika müsabiqələrində iştirak edib qalib gələn balaca xanəndələr qəbul olunurdu. Şagirdlərə xalq artistləri Şövkət xanım Ələkbərova, Arif Babayev, İslam Rzayev, Əlibaba Məmmədov kimi tanınmış sənətkarlar dərs deyirdilər.

80-ci illərin sonunda uydurma «Qarabağ problemi» respublikada dinc həyatın ritmini pozdu. Bu, təhsil müəssisələrinin, incəsənət və mədəniyyət ocaqlarının fəaliyyətinə də öz təsirini göstərdi. Məktəbdən müəllim kontingentinin xarici ölkələrə axını başladı. Bununla belə, bir çox vətənpərvər müəllimlər çətinliklərə sinə gərib məktəbin iş ahəngini pozulmağa qoymadılar.

## 1.14. 30-cu illərdə məktəbəqədər tərbiyə

Azərbaycanda sovet hakimiyyətinin qurulması təhsilin digər pillələri ilə yanaşı, **məktəbəqədər tərbiyə** sahəsində də yeni mərhələnin əsasını qoydu. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış dövlət məktəbəqədər tərbiyə müəssisələri 20-ci illərdə ümumi təhsil sisteminin tərkib hissəsinə çevrildi.

20-ci illərdə uşaq bağçaları və uşaq evləri ilə yanaşı, fabrik və zavodlarda çalışan fəhlələrin uşaqları üçün «uşaq ocaqları», kənd yerlərində isə kəndli uşaqları üçün mövsümi «uşaq meydançaları» təşkil edildi.

1921-ci il yanvarın 10-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin iclasında məruzə edən Dadaş Bünyadzadə çıxışında göstərirdi ki, qısa

bir müddət ərzində Bakıda 35 uşaq bağçası təşkil edilmişdir. Bunlarda 2400 uşaq tərbiyə alır. Bu dövrdə Gəncədə 8, Nuxada (Şəkidə) 6, Şuşada 5, Qubada 1, Qazaxda 3, Göyçayda 3, Lənkəranda 2, Şamaxıda 1, Zaqatalada 1, Şamxorda (Şəmkirdə) 2, Salyanda 1 uşaq bağçası açılmışdır. 1921–1922-ci illərdə respublikada 4 mindən çox uşağı əhatə edən 76 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərirdi. Məktəbəqədər tərbiyə müəssisələrinin fəaliyyətini tənzimləmək məqsədilə 1926-cı ildə dövlət tərəfindən uşaq bağçaları üçün «Nizamnamə» təsdiq edildi. Nizamnamədə məktəbəqədər tərbiyənin məqsəd və vəzifələrindən, məktəbəqədər yaşlı uşaqlarla aparılan işin məzmunundan, təlim-tərbiyə işlərinin ana dilində aparılmasından, qəbul qaydalarından (bu tip müəssisələrə, ilk növbədə yetim və anası dövlət müəssisələrində işləyən uşaqlar, qızıl əsgər və yoxsul kəndli balaları qəbul edilirdi), tərbiyə müəssisələrinin idarə olunmasından bəhs edilirdi. Uşaq bağçalarında uşaqların qidalanması, tərbiyəçinin vəzifələri, daxili nizam-intizam qaydaları və digər məsələlərə də aydınlıq gətirilirdi.

20-ci illərdə və 30-cu illərin əvvəlində respublikada məktəbəqədər tərbiyə müəssisələrində təlim-tərbiyə işinin dövrün tələbləri səviyyəsində qurulmasında bu nizamnamə əhəmiyyətli rol oynadı *(bax: Əfşan Qədimbəyova. Azərbaycanda məktəbəqədər tərbiyənin inkişafı tarixindən (1920–1940-cı illər). Namizədlik dissertasiyası, Bakı, 1965, səh.23).*

30-cu illərdə məktəbəqədər tərbiyə sahəsində ixtisaslı kadrlar az idi. Təkcə bir faktı qeyd edək ki, 1929–1930-cu illərdə 213 uşaq müəssisəsində pedaqoji texnikumu və qısamüddətli kursları bitirən cəmi 235 tərbiyəçi işləyirdi. 1930/31-ci tədris ilində respublikaya 451 ixtisaslı kadr tələb olunurdusa, 1931/32-ci tədris ilində 657, 1932/33-cü tədris ilində isə 831 ixtisaslı kadra ehtiyac var idi. Məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsi həm şəhərdə, həm də kənddə intensiv artırdı. Bu illərdə məktəbəqədər yaşlı uşaqların (4 yaşdan 7 yaşadək) ictimai tərbiyəyə cəlbolunma göstəricisi 1,75%-dən 11,02%-ə yüksəlmişdi.

*1927–1932-ci illərdə Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələri şəbəkəsi haqqında məlumat*

| | İllər | | | | |
|---|---|---|---|---|---|
| | **1927/28** | **1928/29** | **1929/30** | **1930/31** | **1931/32** |
| **Məktəbəqədər tərbiyə müəssisələrinin sayı** | | | | | |
| **Cəmi:** | **76** | **118** | **257** | **914** | **1593** |
| O cümlədən | | | | | |
| Şəhərdə: | 71 | 101 | 165 | 664 | 1269 |
| Kənddə: | 5 | 17 | 92 | 250 | 324 |
| **Məktəbəqədər tərbiyə müəssisələrində uşaqların sayı (nəfərlə):** | | | | | |
| **Cəmi:** | **2669** | **5214** | **10967** | **25978** | **48339** |
| O cümlədən | | | | | |
| Şəhərdə: | 2501 | 4768 | 8627 | 19800 | 38176 |
| Kənddə: | 168 | 446 | 2340 | 6178 | 10163 |

***Qeyd:*** *Məlumat aşağıdakı mənbə əsasında hazırlanmışdır: Azərbaycan arxivi. Bakı, 1975, №1-2, səh.246–247.*

1932-ci ildə SSRİ-də məktəbəqədər tərbiyə müəssisələri üçün ilk nümunəvi Vahid Tərbiyə Proqramı qəbul edildi. Həmin Proqram eynilə Azərbaycanda fəaliyyət göstərən məktəbəqədər tərbiyə müəssisələrinə də şamil edildi.

Bu Proqramda uşaq bağçası və körpələr evinin məktəblə əlaqəsi, uşaqların ictimai tərbiyəsi və s. məsələlər öz əksini tapmışdı. Proqram məktəbəqədər təhsil-tərbiyənin məzmununun



*Bakıda açılmış ilk uşaq bağçası «Laləcik». 1920-ci il*



*«Oktyabr» uşaq bağçasında uşaqların məktəbə getməsi ilə bağlı tədbir. 1929-cu il*



*Məktəbəqədər müəssisələr üçün tərbiyəçilər hazırlayan kursların dinləyiciləri. 1932-ci il*



*«Qırmızı ulduz» uşaq bağçasının işçiləri. 1934-cü il*



*Azərbaycan SSR-in bir qrup məktəbəqədər müəssisə işçiləri Nadejda Konstantinovna Krupskaya ilə birlikdə. Moskva, 1937-ci il*

müəyyənləşdirilməsində mühüm rol oynasa da, nöqsanlardan da xali deyildi. Ən əsası burada təlim-tərbiyə işlərində uşaqların yaş xüsusiyyətləri nəzərə alınmırdı.

1934-cü ildə RSFSR Maarif Komissarlığının uşaq bağçaları üçün hazırladığı yeni proqram Azərbaycan dilinə tərcümə edildi. Bu proqram bütün parametrləri ilə əvvəlkilərdən müsbət mənada seçilirdi və məktəbəqədər tərbiyə müəssisələrində təlim-tərbiyə işlərinin təşkilində əməli rol oynaya bilərdi. Təəssüf ki, proqram qısa müddətdə tətbiq olundu.

ÜİK(b)P MK-nın 4 iyun 1936-cı il tarixli qərarı ilə pedologiya burjua elmi adlandırılaraq ləğv olundu. Pedaqogikanın antropoloji əsaslandırılması ideyası tənqid edildi, şəxsiyyət və mühit, uşağın inkişafı, məktəb və cəmiyyət mövzularının tədqiqinə son qoyuldu. Test metodu tənqid edildi. Bütün bunlar onunla nəticələndi ki, mütərəqqi və demokratik xarakteri ilə seçilən həmin proqramın tətbiqi dayandırıldı. 1938-ci ildə hakim ideologiyanın prinsipləri əsasında hazırlanan «Uşaq bağçasının tərbiyəçisi üçün rəhbərlik» adlı yeni proqram nəşr olundu.

*30-cu illərdə uşaq bağçalarının inkişaf dinamikası*

| İllər | Bağçaların sayı | Burada tərbiyə alan uşaqların sayı | Kolxoz uşaq bağçalarının sayı |
|---|---|---|---|
| 1933 | 1060 | 46494 | – |
| 1934 | 1113 | 49831 | – |
| 1935 | 1345 | 63273 | – |
| 1936 | 1359 | 64893 | – |
| 1937 | 1170 | 55197 | 336 |
| 1938 | 1476 | 67524 | 500 |
| 1940 | 1520 | 70856 | 544 |

1938-ci ildə Uşaq Bağçalarının Nümunəvi Əsasnaməsi – tərbiyəçilər üçün məktəbəqədər tərbiyənin rəsmi tələb və prinsiplərini müəyyən edən metodik rəhbərlik təsdiq edildi. Bu sənədlər Azərbaycanda məktəbəqədər tərbiyə şəbəkəsinin sonrakı inkişafında, məktəbəqədər yaşlı uşaqların ictimai tərbiyəyə cəlb olunmasında əhəmiyyətli rol oynadı.

## 1.15. 30-cu illərdə tərbiyənin siyasiləşdirilməsi

Sərt və ciddi qanunların tətbiqi ilə səciyyəvi olan 30-cu illərdə məktəblə bağlı qəbul olunmuş qərarlar, sinfi mübarizənin gücləndirilməsi haqqında Stalin ideyası məktəb həyatında demokratik ənənələrin inkişafını ləngitməklə yanaşı, həm də yeni arzuolunmaz istiqamətin formalaşmasına səbəb oldu. Məktəb tədricən demokratik ənənələrdən uzaqlaşmağa başladı. Bu isə təlim-tərbiyənin də istiqamətini dəyişdi.

*«Məktəb haqqında 30-cu illərdə qəbul edilən qərarlar təkcə siyasi sənəd deyil, həm də pedaqoji prosesə partiyalı rəhbərliyi təmin edən metodoloji proqram idi» (bax: Fərrux Rüstəmov. Azərbaycanda pedaqogika elminin inkişaf yolları (1920–1991-ci illər). Doktorluq dissertasiyası. Bakı, 2003, səh.38).*

30-cu illərdə başlanan repressiya dalğası, ifşa iclasları, «izhari-nifrət» mitinqləri, Türkiyədən hələ 1918-ci ildə dəvət olunmuş pedaqoqları (Xəlil Fikrət, Əhməd Cövdət və b.) pantürkist, panislamist kimi damğaladı. Milli pedaqoqların ən yaxşıları cismən məhv edildi. Azərbaycan xalqının milli təfəkkürünün flaqmanları olan yüzlərlə ziyalı bu amansız terrordan qurtula bilmədi. Neçə-neçə şair, yazıçı, alim, həyatının və yaradıcılığının çiçəklənən vaxtında özünü onları qəddarlıqla biçib-tökən ölüm maşınının qarşısında gördü.

Görkəmli tarixçi-alim, akademik Ziya Bünyadovun «Qırmızı terror» kitabında Azərbaycan xalqının həmin illərdə məruz qaldığı məhrumiyyət və işgəncələr fakt və rəqəmlərdə öz əksini tapmışdır: *«Azərbaycan xalqının həqiqi faciəsi 1936-cı ildən başlandı. Xalqın, xüsusilə də ziyalıların əleyhinə cəza tədbirləri 1937/38-ci illərdə daha da amansızlaşdı, hakimiyyətdə oturmuş dövlət quldur dəstəsi Sumbatovun, Borşovun, Gerasimovun, Sinmanın, Şerin, Qriqoryanın, Markaryanın, Qalstyanın, Ohanesyanın, Avanesyanın və onların Atakişiyev kimi nökərlərinin və qeyrilərinin əli ilə görünməmiş vəhşiliklə təxminən 70–80 min Azərbaycan ziyalı nümayəndəsi – alim, yazıçı, artist, müəllim, din xadimi, Sovet və partiya idarəsi əməkdaşı, hərbçi – bir sözlə, bütün düşünən beyinlər, qeyri-adi təfəkkür sahibləri birucdan məhv edildi. Tək bircə xarici dil bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir «xalq düşməni»nə «məhkəmə» zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı (tək-tək hallarda 20 dəqiqə). İndi qoy oxucu özü 1936–1937-ci illərdə bir saatda nə qədər adamın güllələnməyə məhkum edildiyini, zəka sahibi azərbaycanlıların güllələndiyini özü hesablasın. Bir gündə 24 saat (96 nəfər), ayda 30 gün (2880 nəfər), 2 il yarımda isə 80 mindən çox. Bakıda bütün bu quldur tribunal iclaslarını Vışinskinin müavini, bəşər övladının qatili Matuleviç öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı. Biz ancaq Bakıdan danışırıq! Azərbaycanın*

*kənd rayonlarında bu fövqəladə üçlüklərin xüsusi iclaslarının qərarları ilə neçə min günahsız adamı məhv etdiyini, xüsusi düşərgələrə sürgün edilmiş «xalq düşmənləri»nin ailə üzvlərinin təxmini sayını kim deyə bilər?»*

*Mən həmin dövrə aid materiallara baxarkən diqqətimi bir fakt cəlb elədi: Dadaş Bünyadzadə, Mustafa Quliyev, Ruhulla Axundov, Ayna xanım Sultanova, Məmməd Cuvarlinski, Müseyib Şahbazov... Bu şəxslər Azərbaycan xalq maarifinə, Azərbaycanın müəllim ordusuna rəhbərlik eləmiş insanlardır və onların hamısı 1938-ci ildə «xalq düşməni» kimi mühakimə edilib, repressiyaya məruz qalmışlar. Fikrimcə, xalqın mənəviyyatına bundan daha artıq zərbə vurmaq mümkün deyil.*

*Bu illərin gənclik fanatizmi inqilabi fanatizmlə yoğrulub, guya, həyatın yeniləşdirilməsi uğrunda siyasi axına çevrilmişdi. Siyasət yalnız məktəbin deyil, habelə ailə tərbiyəsinin də əsası hesab olunurdu. Siyasiləşdirilmiş uşaq yeni və qabaqcıl ideologiyanın (kommunizm ideologiyasının) daşıyıcısı kimi valideynlərə qarşı qoyulurdu.*

*Atasını güdaza vermiş Pavlik Morozovun naqis hərəkətləri təriflənir, dini ayinləri icra edən baba və nənələri haqqında pioner və komsomol özəklərinə xəbər verən məktəblilər «siyasi sayıqlığı»na görə nümunə göstərilirdi. Bu cür hərəkətlər məktəblilərin əxlaq normasına çevrilir, «oğul ataya cavabdeh deyildir» kimi məkrli formul böyüyən nəslin mənəviyyatını pozurdu. Pavlik Morozovdan ibrət götürən gənc nəsil atalarından, bütövlükdə cəmiyyət bəşəri-dini və əxlaqi-mənəvi dəyərlərindən imtina etdi. Pedaqoji fəaliyyətin bütün sahələrində milli düşüncə kütləvi kollektivləşmənin təsirinə məruz qaldı (bax: Fərrux Rüstəmov. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri. Bakı, 1998, səh.39–41).*

## 1.16. Ümumtəhsil sovet məktəbi müharibə illərində

İkinci Dünya müharibəsinin başlanması ölkənin təhsil sisteminə, o cümlədən ümumi təhsil məktəblərinin fəaliyyətinə təsirsiz ötüşmədi. Bu illər Azərbaycanda ümumi təhsilin inkişafında çətin və böhranlı bir mərhələ oldu. Məktəblərdə işin ahəngi pozuldu, müəllimlərin bir hissəsi səfərbərliyə alındı, məktəb binaları hərbi məqsədlər üçün istifadə edildiyindən respublikanın məktəb şəbəkəsi xeyli azaldı. Məktəblərin müəllim kadrları, dərslik və dərs vəsaitləri ilə təminatında ciddi problemlər yarandı. Sayı və tərkibi 37-ci ilin «qırmızı terror»undan, repressiyadan sonra ciddi dəyişikliklərə məruz qalmış Azərbaycan müəllimlərinin əksəriyyətinin cəbhəyə getməsi ilə məktəblər çox ağır vəziyyətə düşdü.

Həmin dövrdə şagird kontingenti də, ibtidai və orta məktəblərin sayı da xeyli azaldı. İbtidai məktəblərin sayının azalması, bir tərəfdən ümumi icbari yeddiillik təhsilə keçməklə bağlı olmuşdusa, digər tərəfdən müharibənin doğurduğu fövqəladə vəziyyətlə əlaqədar idi. Orta məktəblərin sayının azalması isə həmin məktəblərdə təhsil alan şagirdlərin istehsalata cəlb edilməsi, məktəb binalarının hərbi məqsədlər üçün istifadə olunması (şəhər məktəblərinin çoxu hərbi hospitallara çevrilmişdi) ilə bağlı idi.

*Müharibə illərində Azərbaycanda məktəb şəbəkəsi*

| İllər | İbtidai məktəblər | Yeddiillik məktəblər | Orta məktəblər | Digər məktəblər | Cəmi |
|---|---|---|---|---|---|
| 1941/42 | 1558 | 1257 | 639 | 9 | 3463 |
| 1942/43 | 1373 | 1259 | 585 | 8 | 3225 |
| 1943/44 | 1371 | 1251 | 529 | 8 | 3159 |
| 1944/45 | 1428 | 1263 | 536 | 6 | 3233 |

*Müharibə illərində ümumtəhsil məktəb şagirdlərinin sayı*

| İllər | I–IV sinif | V–VII sinif | VIII–X sinif | Cəmi |
|---|---|---|---|---|
| 1941/42 | 357 304 | 174 527 | 38 019 | 569 850 |
| 1942/43 | 291 962 | 148 575 | 26 032 | 466 569 |
| 1943/44 | 288 418 | 136 304 | 27 984 | 452 706 |
| 1944/45 | 321 444 | 129 314 | 31 962 | 482 720 |

*Müharibə illərində ümumtəhsil məktəb müəllimlərinin sayı*

| İllər | Müəllimlərin sayı |
|---|---|
| 1941/42 | 20 000 |
| 1942/43 | 16 704 |
| 1943/44 | 16 531 |
| 1944/45 | 18 293 |
| 1945/46 | 18 831 |

Müharibə illərində müəllim və şagirdlərin sosial müdafiəsini təmin etməkdə Azərbaycan KP MK və XKS-nin 1942-ci ildə qəbul etdiyi **«Müəllimlərin və şagirdlərin mədəni-yaşayış şəraitini yaxşılaşdırmaq haqqında»** qərarı əhəmiyyətli rol oynadı. Həmin qərara əsasən ehtiyacı olan məktəblilərə yardım məqsədilə məktəb nəzdində internatların şəbəkəsi genişləndirildi. Belə məktəblərin sayı müharibədən sonra valideynləri həlak olan uşaqların hesabına xeyli artdı.

**Müharibə illərində SSRİ XKS-nin məktəb təhsili haqqında xüsusi qərarı (1943) ilə şagirdlərin 7 yaşdan məktəbə qəbuluna başlandı.** Həmin ildə təsdiq olunan «Şagirdlər üçün qaydalar» şagirdlərin məktəbdə davranış normalarını müəyyən etdi. **SSRİ hökumətinin digər bir qərarı (1944) ilə şagirdlərin biliyinin qiymətləndirilməsinin 5 ballıq (1,2,3,4,5) sistemi, ibtidai, yeddiillik və orta məktəbin buraxılış imtahanları müəyyən edildi. Orta məktəbi əla qiymət və nümunəvi əxlaqla bitirənlərə qızıl və gümüş medal verilməsi qaydaları təsdiq olundu** *(bax: Енциклопедия Российской Федерации. Москва, 2003, статья «Образование», стр. 682)*.

Müharibə illərində ümumtəhsil məktəblərinin tədris planlarında iki dəfə (1942/43 və 1944/45-ci tədris illəri) dəyişikliklər aparıldı. «Bədən tərbiyəsi» fənninə ayrılan saatların miqdarı VIII–X siniflərdə (həftədə 4–5 saat) xeyli artırılmışdı ki, bu da yuxarı sinif şagirdlərinin fiziki hazırlığını yüksəltməyə xidmət edirdi. Təhsilin məzmununda müharibə mövzusuna daha geniş yer verilirdi.

1943/44-cü tədris ilindən SSRİ XKS-nin qərarı (1943) ilə respublikanın böyük şəhərlərində (Bakı, Gəncə, Şəki, Xankəndi, Naxçıvan) qızlar və oğlanlar üçün ayrıca məktəblər təşkil edildi. Bu təhsil forması, əslində, sovet hakimiyyətinə qədər mövcud olmuş klassik gimnaziyaların «bərpası» idi. Lakin



Mirzə Məmmədov
(1909–1973)

Məmmədov Mirzə Rəhim oğlu Lerik rayonunun Siodi (Siyov) kəndində anadan olmuşdur. Moskvada N.K.Krupskaya adına Kommunist Tərbiyəsi Akademiyasının pedaqoji fakültəsini bitirmişdir (1932). Azərbaycan LKGİ MK-da bir sıra məsul vəzifələrdə çalışmışdır (1932–1937). Dəfələrlə SSRİ və Azərbaycan SSR Ali Sovetlərinə deputat seçilmişdir. Azərbaycan Respublikası xalq maarif komissarı (1938–1942), Respublika maarif naziri (1955–1959), Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktoru (1959–1973) vəzifələrində işləmişdir.

bu addım özünü doğrultmadı və 1954-cü ildə qız və oğlan məktəbləri yenidən birləşdirildi.

SSRİ dövləti tərəfindən müharibədən sonrakı illərdə müəllimlərin maddi-məişət şəraitini yaxşılaşdırmaq üçün ciddi tədbirlər görüldü. SSRİ Nazirlər Sovetinin və Sov. İKP MK-nın xüsusi qərarına əsasən 1948-ci ildə müəllimlərin maaşları, həmçinin uzunmüddətli xidmətlərinə görə maaşdan əlavə aldıqları təqaüd xeyli artırıldı.

Bu qərar kənd yerlərində işləyən müəllimlərin dövlət hesabına mənzil, yanacaq və elektrik enerjisi ilə təmin edilməsini, onlara həyətyanı sahələr ayrılmasını və fərdi mənzil tikmək üçün borc pul verilməsini nəzərdə tuturdu.

**12 fevral 1948-ci ildə müəllimin şərəfli əməyini qiymətləndirmək məqsədilə SSRİ Ali Soveti Rəyasət Heyəti tərəfindən onları SSRİ orden və medalları ilə təltif etmək qaydaları müəyyənləşdirildi.** Həmin fərmana əsasən qısa bir müddət ərzində 6 minə yaxın müəllim müxtəlif orden və medallarla təltif olundu. Müəllim əməyinin stimullaşdırılması, onun dövlət tərəfindən hər cür qayğı ilə əhatə olunması bu əvəzedilməz peşə sahiblərinə cəmiyyətdə hörmət və ehtiramı artırdı.

## 1.17. Azərbaycan müəllimlərinin VI(III) qurultayı

40-cı illərin əvvəllərində respublikanın təhsil sistemində baş verən prosesləri təhlil etmək, təhsil müəssisələrinin bərpa və inkişaf yollarını müəyyənləşdirmək məqsədilə **Azərbaycan müəllimlərinin VI(III) qurultayı** çağırıldı. Azərbaycan SSR müəllimlərinin VI(III) qurultayı 1946-cı il avqust ayının 26-dan 28-dək Azərbaycan Dövlət Filarmoniyasında keçirildi. Qurultayın gündəliyinə aşağıdakı məsələlər salınmışdı:

1) Azərbaycan məktəblərində təlim və tərbiyə işlərinin yüksəliş yolları;
2) müəllim kadrlarının hazırlanması və ixtisaslarının artırılması işinin yaxşılaşdırılması.

Qurultayda 450 nümayəndə və 300 qonaq iştirak edirdi. Maarif naziri, görkəmli siyasi xadim **Mirzə İbrahimov** çıxış edərək məktəblərdə təlim-tərbiyə işinin keyfiyyətinin yaxşılaşdırılması yollarından, maarif sisteminin perspektivlərindən danışdı. Məruzədə Azərbaycan maarifinin 1921–1946-cı illərdə əldə etdiyi nailiyyətlərə yekun vuruldu, ibtidai icbari təhsilin yerinə yetirilməsi və yeddiillik icbari təhsilə keçilməsi perspektivləri müəyyənləşdirildi. Məktəblərdə kamal attestatının verilməsi üçün keçirilən buraxılış imtahanlarının yekunları, məktəbə rəhbərlik və idarəetmənin



Mirzə İbrahimov
(1911–1993)

**İbrahimov Mirzə Əjdər oğlu** Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olmuşdur. 1918-ci ildə Bakıya köçmüş və fabrik-zavod şagirdliyi məktəbində təhsil almışdır.

Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini (1946–1950), Azərbaycan Yazıçılar İttifaqının sədri (1946–1954), Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri (1954–1958), SSRİ Yazıçılar İttifaqı İdarə Heyətinin katibi (1965–1975), Azərbaycan SSR maarif naziri (1942–1946), Yazıçılar İttifaqının birinci katibi (1965–1975), Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin (1-5-ci, 7-8-ci və 10-cu çağırış) və Azərbaycan SSR Ali Sovetinin (3-4-cü, 6-7-ci və 9-cu çağırış) deputatı olmuşdur.

Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1941), Azərbaycan SSR EA-nın akademiki (1945), SSRİ Dövlət mükafatı laureatı (1950), Azərbaycan SSR xalq yazıçısı (1961), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1965) adlarına layiq görülmüşdür.

təkmilləşdirilməsi istiqamətləri təhlil olundu. Məktəblərlə xalq maarif orqanlarının əməkdaşları arasında vaxtaşırı canlı ünsiyyət qurulmasının, metodbirləşmələr və pedaqoji sovetlərin keçirilməsinin əhəmiyyəti ön plana çəkildi.

Qurultay öz qətnaməsində Azərbaycanda maarif sisteminin sonrakı dövrlər üçün strateji istiqamətlərini (ümumi icbari yeddiillik təhsilin reallaşdırılması, təlim-tərbiyənin, təhsilin keyfiyyətinin yaxşılaşdırılması, sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərinin genişləndirilməsi, hərtərəfli inkişaf etmiş, yüksəkixtisaslı yeni pedaqoji kadrların hazırlanması və mövcud müəllim kadrlarının ixtisasının artırılması, müəllimlərə metodik yardımın gücləndirilməsi və s.) müəyyən etdi, yeni dövrün tələblərinə uyğun xalq maarifinin vəzifələrini konkretləşdirdi. Qurultayın işində Azərbaycan KP MK-nın I katibi Mircəfər Bağırov və Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev iştirak edirdilər.

Qurultaydan sonrakı illərdə Azərbaycanda maarif sisteminin inkişafında həmin vəzifələr ardıcıl olaraq həyata keçirildi *(bax: Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.86–124).*

## 1.18. Müharibədən sonrakı illərdə təhsilin vəziyyəti

Müharibədən sonrakı illərdə qəbul edilən tədris planlarında əsaslı dəyişiklik edilməsə də, bir sıra vaxtı çatmış məsələlərin həlli istiqamətində real addımlar atıldı. Belə ki,













*40–50-ci illərin dərslikləri*



**Məmməd Ələkbərov (1899–1959)**

**Ələkbərov Məmməd Həmid oğlu** Lənkəran rayonunun Sütəmirdov kəndində anadan olmuşdur. Lənkəranda, Bakıda müəllimlik kursunu (1922), Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-ədəbiyyat fakültəsini (1926) bitirmişdir.

20-ci illərdə Balaxanıda, Borçalı qəzasının Başkeçid kəndində müəllimlik etmiş, Quba qəza maarif şöbəsinin müdiri vəzifəsində işləmişdir. Azərbaycan Pedaqoji İnstitutunda müəllim (1932–1937), elmi işçi (1937–1941), Müəllimləri Təkmilləşdirmə İnstitutunda direktor müavini (1942), Xalq Maarif Komissarlığında kadrlar idarəsinin rəisi (1943–1946), Respublikanın maarif naziri (1946–1952), 50-ci illərdə Nazirlər Soveti sədrinin müavini və respublikanın ilk mədəniyyət naziri vəzifələrində işləmişdir.

**III sinifdə şagirdlərin yaş xüsusiyyətlərinə və mənimsəmə imkanlarına uyğun olmayan tarix, coğrafiya və təbiət fənlərinin tədrisi dayandırıldı,** ana dilinin tədrisinə verilən saatların miqdarı isə artırıldı. VII–X siniflərdə ana dilinə və ədəbiyyata, xarici dilə, bədən tərbiyəsinə ayrılan saatlar artırıldı. IX– X siniflərin tədris planına psixologiya və məntiq fənləri daxil edildi.

1949/50-ci tədris ilindən ümumi icbari yeddiillik təhsilə keçid prosesi sürətləndirildi və keçid 50-ci illərdə, əsasən, başa çatdırıldı.

50-ci illərin əvvəllərində ümumtəhsil məktəblərində tətbiq olunan tədris planlarında humanitar fənlərə ayrılan vaxtın həcminin artırılması meyili müşahidə olunur.

Həmin illərdə həftəlik saatların 54%-i humanitar fənlərə, 36%-i təbiət-riyaziyyat, 10%-i əmək təlimi, musiqi və bədən tərbiyəsi fənlərinə ayrılmışdı. Elmi-texniki inqilabın həyatın bütün sahələrinə nüfuz etdiyi bu dövrdə humanitar fənlərə üstünlük verilməsi təbii ki, özünü doğrultmurdu. Buna görə də 50-ci illərin ikinci yarısında tədris planları təkmilləşdirilərkən ciddi və prinsipial dəyişikliklər həyata keçirildi.

50-ci illərin ortalarında təhsilin yenidən politexnik təlimlə əlaqələndirilməsi konsepsiyası irəli sürüldü. Nəticədə 1955/56-cı tədris ilində Azərbaycan SSR-in ibtidai, yeddiillik və orta məktəbləri üçün politexnik təlim prinsiplərinə əsaslanan yeni tədris planı təsdiq edildi.

Tədris planında texniki fənlərə, xüsusilə də riyaziyyat fənninə ayrılan saatlar əhəmiyyətli dərəcədə artırıldı. Bu tədris planında politexnik təlimin tələblərinə uyğun olaraq I–IV siniflərdə «Əl əməyi», V–VII siniflərdə emalatxana və tədris-təcrübə sahəsində aparılan «Praktik əmək məşğələləri», VIII–X siniflərdə isə istehsalatla əlaqədar aparılan «Kənd təsərrüfatı, maşınşünaslıq və elektrotexnika üzrə praktikumlar»ın öyrədilməsi nəzərdə tutulurdu.

Tədris planında humanitar fənlərə ümumi həftəlik dərs yükünün 40%-i, təbiət-riyaziyyat fənlərinə 32%-i, əmək təlimi və ictimai faydalı əməyə 15%-i, musiqi və bədən tərbiyəsinə 13%-i ayrılmışdı. Orta ümumtəhsil məktəblərinin ikinci mərhələsinin tədris planında humanitar fənlərə ümumi saatların 30%-i, təbiət-riyaziyyat fənlərinə 32%-i, ümumi texniki fənlərə, istehsalat təlimi və məhsuldar əməyə 33%-i, bədən tərbiyəsinə 5%-i ayrılmışdı.

*1955/56-cı tədris ilində ibtidai, yeddiillik və orta məktəblər üçün tədris planı*

| № | Fənlərin adı | Siniflər üzrə həftəlik saatların miqdarı | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X |
| 1. | Ana dili və ədəbiyyat | 13 | 8 | 8 | 6 | 7 | 7 | 5 | 4 | 4 | 4 |
| 2. | Rus dili və ədəbiyyatı | – | 5 | 5 | 5 | 6 | 6 | 6 | 5 | 5 | 5 |
| 3. | Riyaziyyat | 6 | 6 | 6 | 6 | 6 | 6 | 6 | 6 | 6 | 6 |
| 4. | Tarix | – | – | – | 2(1) | 2 | 2 | 2 | 3 | 3 | 3(4) |
| 5. | SSRİ Konstitusiyası | – | – | – | – | – | – | – | – | – | – |
| 6. | Coğrafiya | – | – | – | 1(2) | 3 | 2 | 2 | 3 | 2(3) | – |
| 7. | Biologiya | – | – | – | 2 | 2 | 2 | 2 | 2 | 2(1) | – |
| 8. | Fizika | – | – | – | – | – | 2 | 3 | 3 | 4(3) | 5(4) |
| 9. | Astronomiya | – | – | – | – | – | – | – | – | – | 1 |
| 10. | Kimya | – | – | – | – | – | – | 2 | 2 | 2(3) | 3 |
| 11. | Xarici dil | – | – | – | – | – | – | 2 | 3 | 3 | 3 |
| 12. | Bədən tərbiyəsi | 2 | 2 | 2 | 2 | 2 | – | 1 | 2 | 2 | 2 |
| 13. | Rəsm | 1 | 1 | 1 | 1 | 1 | 1 | – | – | – | – |
| 14. | Rəsmxət | – | – | – | – | – | – | – | 1 | 1 | 1 |
| 15. | Nəğmə | 1 | 1 | 1 | 1 | – | – | – | – | – | – |
| 16. | Əl əməyi | 1 | 1 | 1 | 1 | – | – | – | – | – | – |
| 17. | Əmək və praktik məşğələlər | 1 | 1 | 1 | 1 | 2 | 2 | 1 | – | – | – |
| 18. | Kənd təsərrüfatı, maşınşünaslıq və elektrotexnika üzrə praktikumlar | – | – | – | – | – | – | – | 1 | 1 | 2 |
| | **Yekunu** | **25** | **25** | **25** | **28** | **31** | **30** | **32** | **35** | **35** | **35** |

Müharibədən sonrakı on il ərzində Azərbaycanın ümumi təhsil şəbəkəsində ibtidai məktəblərin real çəkisində azalma, yeddiillik və orta məktəblərdə isə artım baş verdi.

*1945/46–1955/56-cı tədris illərində məktəb şəbəkəsi*

| İllər | İbtidai | Yeddiillik məktəblər | Orta | Qeyri | Cəmi |
|---|---|---|---|---|---|
| 1945/46 | 1492 | 1290 | 470 | 6 | 3258 |
| 1946/47 | 1579 | 1323 | 448 | 8 | 3358 |
| 1947/48 | 1649 | 1351 | 445 | 9 | 3454 |
| 1948/49 | 1717 | 1376 | 424 | 8 | 3525 |
| 1949/50 | 1710 | 1378 | 434 | 8 | 3530 |
| 1950/51 | 1669 | 1509 | 444 | 8 | 3630 |
| 1951/52 | 1542 | 1571 | 488 | 7 | 3608 |
| 1952/53 | 1499 | 1553 | 560 | 7 | 3619 |
| 1953/54 | 1455 | 1532 | 605 | 7 | 3599 |
| 1954/55 | 1383 | 1512 | 727 | 7 | 3629 |
| 1955/56 | 1345 | 1513 | 751 | 7 | 3616 |

*1945/46–1955/56-cı tədris illərində şagirdlərin sayı*

| İllər | I–IV sinif | V–VII sinif | VIII–X sinif | Cəmi |
|---|---|---|---|---|
| 1945/46 | 342304 | 114853 | 28342 | 485499 |
| 1946/47 | 391399 | 111619 | 29520 | 532538 |
| 1947/48 | 431196 | 115005 | 30057 | 576258 |
| 1948/49 | 436214 | 128327 | 30455 | 594996 |
| 1949/50 | 426510 | 154645 | 33562 | 614717 |
| 1950/51 | 391284 | 190237 | 39152 | 620673 |
| 1951/52 | 339417 | 218457 | 50260 | 608134 |
| 1952/53 | 293796 | 234233 | 64873 | 592902 |
| 1953/54 | 270351 | 237133 | 83218 | 590702 |
| 1954/55 | 269979 | 220055 | 99517 | 589551 |
| 1955/56 | 286167 | 197075 | 108834 | 592076 |

Cədvəllərdən göründüyü kimi, müharibədən sonrakı 10 il ərzində ibtidai məktəblərin sayı qismən azalmış, orta və yeddiillik məktəblərin sayı müvafiq olaraq 281 və 223 vahid artmışdır. Şagirdlərin ümumi sayı isə 485499 nəfərdən 592076 nəfərə yüksəlmişdir.

**Sov.İKP və SSRİ Nazirlər Soveti 15 sentyabr 1956-cı ildə «İnternat tipli məktəblərin təşkili haqqında» xüsusi qərar qəbul etdi.**

15 fevral 1960-cı ildə isə işləyən valideynlərə şərait yaratmaq məqsədilə onların uşaqlarının təlim-tərbiyəsinin təşkilini həyata keçirən yeni tipli maarif müəssisələri – günüuzadılmış məktəblərin (qrupların) təsis edilməsi haqqında qərar qəbul olundu.

## 1.19. Milli dilin nüfuzunun yüksəldilməsi uğrunda mübarizə

XX əsrin 50-ci illərinin ortalarında Azərbaycan dilinə dövlət dili statusu verilməsi istiqamətində atılan addımlar siyasi hadisələrin mərkəzi məsələsinə çevrilmişdi. Dil məsələsi ilə bağlı ziyalılar arasında narazılıq getdikcə artırdı. Azərbaycan EA-nın Ədəbiyyat və Dil İnstitutunun elmi işçisi Rəmzi Yüzbaşovun Moskvaya – Nikita Xruşşova, Nikolay Bulqaninə göndərdiyi məktubda yazılırdı: *«İndi Bakıda heç bir idarə ana dilində işləmir. Bakıda Azərbaycan məktəblərinin sayı ilbəil azalır. Azərbaycan dilində danışan adama bir növ avam, qeyri-mədəni adam kimi baxılır. Özünü sevən heç bir xalq, nə qədər balaca olmuş olsa da, bu vəziyyətdən xoşlanmaz...»*

Avqust ayının 1-də respublika Nazirlər Sovetinin sədri Sadıq Rəhimova Azərbaycan klassikləri və Azərbaycan xalqı adından göndərilən məktubda yazılırdı ki, kommunizmin prinsipləri və Lenin yolu tələbini nəzərə alaraq Azərbaycanda xalqların dili haqqında Lenin milli siyasətini bərpa etmək lazımdır. Yaranmış indiki vəziyyət tələb edir ki, yaxın vaxtlarda bu məsələ xalqın gələcəyi naminə həll edilsin, əks təqdirdə sonra gec və mümkünsüz olacaq... Bu məktubun imza yerində «Nizami, Füzuli, Nərimanov və bütün Azərbaycan xalqı» sözləri yazılmışdı. Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən aparılan əməliyyat tədbirləri nəticəsində müəyyən edildi ki, bu məktub da elə Rəmzi Yüzbaşov tərəfindən yazılıb *(bax: Cəmil Həsənli. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar. 1954–1959, Bakı, «Adiloğlu», 2008).*

Azərbaycan dilinin dövlət dili olması tələbi ilə partiya və hökumət rəhbərlərinə ünvanlanan açıq və anonim müraciətlərin sayı get-gedə artırdı. Azərbaycanla qonşu olan iki sovet respublikası – Gürcüstan və Ermənistanın bu sahədə Azərbaycandan irəlidə olması da Azərbaycan ziyalılarını və Azərbaycan rəhbərliyini daha cəsarətli addım atmağa sövq etdi. Çünki Gürcüstan SSR-in və Ermənistan SSR-in Konstitusiyalarında milli dilin dövlət dili olması haqqında maddə hələ 1937-ci ildə təsbit edilmişdi. İttifaq üzrə yalnız bu iki respublikanın Konstitusiyasında dil haqqında maddə var idi. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, görkəmli yazıçı Mirzə İbrahimov bu məsələni İmam Mustafayevlə ikilikdə müzakirə etdi. İmam Mustafayev məsələni MK bürosunda müzakirəyə çıxarmağa razılıq verdi.

**1956-cı ilin iyulunda Azərbaycan dilinin dövlət dili olması ilə bağlı Konstitusiyaya təklif edilən dəyişikliklərin layihəsi Azərbaycan**



*Görkəmli Azərbaycan musiqiçiləri: Cahangir Cahangirov, Tofiq Quliyev, Azər Rzayev, Səid Rüstəmov, Soltan Hacıbəyov, Niyazi, Qara Qarayev*



*50-ci illərin görkəmli ziyalıları: Əşrəf Hüseynov, Muxtar Hüseynzadə, Cəfər Xəndan, Konstantin Simonov, Mir Cəlal, Ənvər Ağayev, Yusif Şirvan, Heydər Əfəndiyev və başqaları*

**KP MK-da müzakirə edilib yekdilliklə bəyənildi** və Mirzə İbrahimova məsələni SSRİ Ali Sovetinin Rəyasət Heyəti ilə razılaşdırmaq tapşırığı verildi. Mirzə İbrahimov məsələni təxirə salmadan SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri Klement Voroşilovla razılaşdırdı.

20 avqust 1956-cı ildə Azərbaycan SSR Ali Sovetinin Qanunvericilik Komissiyasının iclası keçirildi. Komissiya üzvləri yekdilliklə «Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanununa) Azərbaycan SSR-in Dövlət dili haqqında maddə əlavə edilməsi» barədə qanun layihəsinin Ali Sovetin 3-cü sessiyasının gündəliyinə salınmasını təklif etdilər. Komissiyanın iclasından sonra Ali Sovetin 3-cü sessiyası işə başladı. Ali Sovetin deputatı, Stalin mükafatı laureatı, şair Rəsul Rza həyəcanlı bir çıxış etdi. O dedi: *«...Azərbaycan dili qədim babalarımızın danışdığı, əsrlərdən bəri inkişaf edən, zəngin, geniş imkanlara malik gözəl bir dildir. Ölməz Füzuli öz şeirlərini bu dildə yazmış, böyük Mirzə Fətəli bu dildə yaratmışdır. Sovet hakimiyyəti illərində Azərbaycan dili sürətlə inkişaf etmiş, zənginləşmiş, saflaşmışdır. Bu dildə milyon-milyon siyasi, elmi, bədii əsərlər nəşr edilmişdir. Hələ bəzi idarə və müəssisələrdə bu dilə lazımi diqqət və etina yoxdur. Elə bir vəziyyət yaratmaq lazımdır ki, Azərbaycan dilinin gərəkliliyini, onun dövlət əhəmiyyətini hamı dərk etsin...»*

Sessiyada çıxış edən Mirzə İbrahimov bu məsələ ilə əlaqədar bildirdi: *«Ayrı-ayrı idarələrimizdə Azərbaycan dilinə etinasız yanaşmaq kimi hallara yol vermək olmaz. Təəssüf ki, belə hallara bəzən yol verilir. Məsələn, Azərnəşrdə 25 ildən artıq hesabat işləri Azərbaycan dilində aparılmışdır. Mühasibin dəyişməsi üzündən bir müddət işlər burada Azərbaycan dilində aparılmadı. Əlbəttə, belə şeylər səhvdir və görünür ki, Mədəniyyət Nazirliyi məsələnin kəskinliyini dərk edə bilmədiyindən buna yol vermişdir. Respublika təşkilatları vaxtında bunun qarşısını aldı. Biz hamımız, bütün məsul işçilərimiz ana dilini mükəmməl surətdə bilməlidir və ana dilini bilməmək eyibdir» (bax: Cəmil Həsənli. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar. 1954–1959. Bakı, «Adiloğlu», 2008).*

Bu müzakirələrdən sonra sessiya «Azərbaycan SSR Konstitusiyasına (Əsas Qanuna) maddə əlavə edilməsi haqqında» qanun qəbul etdi. Bununla da, **1956-cı ilin avqustunda Azərbaycan dili Dövlət dili statusu aldı,** eyni zamanda bu dildə təhsil almağın Konstitusiya əsasları möhkəmləndirildi və məktəblərdə ana dilində oxumağın hüquqi bazası gücləndirildi.

**14 avqust 1956-cı ildə Azərbaycan KP MK bürosu Azərbaycan SSR-də fəaliyyət göstərən tədris rus, erməni və gürcü dillərində olan məktəblərin 3-cü sinfindən başlayaraq Azərbaycan dili dərslərinin keçirilməsi barədə qərar qəbul etdi.** Bu qərardan sonra qeyri-azərbaycanlılar Moskvaya çoxlu sayda şikayət məktubları göndərdilər. Nəticədə Moskvadan Azərbaycan KP MK-ya təzyiqlər edildi. Təzyiqlər qarşısında Azərbaycan KP MK bürosu elə həmin ilin oktyabrında 14 avqust qərarında dəyişikliklər etdi. Qərarda göstərilirdi ki, tədris planlarının həddindən çox yüklənməsini nəzərə alaraq Azərbaycan KP MK bürosunun 14 avqust 1956-cı il tarixli **«Azərbaycan SSR-in rus, erməni və gürcü dilli məktəblərində Azərbaycan dilinin tədrisi haqqında»** qərarının Azərbaycan dilinin erməni və gürcü dilli məktəblərdə tədrisi haqqında olan



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev «Oraq və çəkic» qızıl medalını xalq yazıçısı Mirzə İbrahimova təqdim edir. 1981-ci il*

hissəsi ləğv edilir. Bu məktəblərdə Azərbaycan dilinin öyrənilməsi şagirdlərin və onların valideynlərinin arzusu ilə təşkil edilir.

Azərbaycan Ali Soveti Dövlət dili haqqında qanunu qəbul etdikdən sonra onu bütün müttəfiq respublikalara göndərmişdi. Bir sıra respublikalar, xüsusilə Pribaltika (Baltikyanı – *M.M.*) respublikalarının rəhbərliklərində təmsil olunan bəzi adamlar buna bənzər qanunlar tətbiq etmək haqqında danışmağa başlamışdılar. Bütün bunlar təbii ki, SSRİ rəhbərliyinin xoşuna gəlmədi. Moskva respublika rəhbərliyinin nəzərinə çatdırdı ki, məsələni Sov.İKP MK ilə məsləhətləşməməkdə Azərbaycan KP MK və respublika Ali Soveti səhv hərəkət edib və bu məsələyə yenidən baxılmalıdır. Lakin Ali Sovetin Rəyasət Heyətinin sədri kimi Mirzə İbrahimov qanunun tətbiqinə əməli xarakter verməkdə qərarlı idi. Onun bu mövqeyi Azərbaycanda ana dilinə keçilməsinə dönməz xarakter verdi və milli ideyanın inkişafında mühüm rol oynadı.

1957-ci il dekabrın 4–5-də respublika fəallarının «Ədəbiyyat və incəsənətin xalqın həyatı ilə sıx əlaqəsi uğrunda» mövzusuna həsr edilmiş yığıncağı keçirildi. Yığıncaqda Yazıçılar İttifaqının sədri Süleyman Rəhimov, Bəstəkarlar İttifaqının sədri Qara Qarayev, Rəssamlar İttifaqının sədri Məmmədağa Tərlanov, yazıçılar Əli Vəliyev, Mirzə İbrahimov, Mehdi Hüseyn, dirijor Niyazi, digər mədəniyyət və incəsənət xadimləri çıxış etdilər.

Mirzə İbrahimov bu yığıncaqda da öz mövqeyindən geri çəkilmədi. O, hətta Qara Qarayevin rus dilində məruzə etməsinə irad tutaraq dedi ki, mən Qara Qarayevi xalqın fəxr edə biləcəyi istedad sayıram və ondan çox şey gözləyirəm. Buna görə də istərdim ki, o burada Azərbaycan dilində məruzə edəydi. Sonra üzünü zala tutaraq davam etdi: *«Yoldaşlar, onu bilin, xalqımız balaca xalqdır, lakin nəcib, təmiz, qəhrəman xalqdır. Xalqımızı bir zaman çoban-çoluq deyə ayaqlar altına atırdılar. İndi elə qrup ziyalılar yetişməkdədir ki, onlar öz dilini bilmirlər. Bu, eybəcər hadisədir. Bu, onun təsdiqidir ki, ruslar başqa xalqları əzirlər. Buna görə o adamlar ki, başa düşmürlər və öz dillərinə qarşı etinasızlıq edirlər, onlar xalqlar arasında uçurum yaradırlar və o uçuruma özləri düşürlər. Biz rus dilini sevirik. Mən Çernışevskini tərcümə etmişəm və onu sevə-sevə etmişəm. O dil bizə Avropanın qapılarını*

*açmışdır. Ancaq bununla bərabər, nə üçün ana dili yaddan çıxsın?..» (bax: Cəmil Həsənli. Azərbaycanda milli məsələ: siyasi rəhbərlik və ziyalılar. 1954–1959, Bakı, «Adiloğlu», 2008).*

Mirzə İbrahimovun fəallar yığıncağındakı bu çıxışı onun siyasi taleyini həll etdi. 1957-ci ilin sonlarında «öz xahişi ilə» onu ədəbiyyat və incəsənət sahəsində SSRİ Lenin mükafatları komitəsi üzvlüyündən azad etdilər. 1958-ci ilin yanvar ayında isə «səhhəti ilə bağlı» ərizəsini əsas götürərək Ali Sovetin Rəyasət Heyətinin sədri vəzifəsindən azad etdilər.

Mirzə İbrahimov 50-ci illərdə respublikada gedən ictimai-siyasi proseslərdə milli ideyanın və milli təəssübkeşliyin əsas daşıyıcısı kimi xalq arasında böyük nüfuz qazandı. O, 1958-ci ildə vəzifədən getsə də, ictimai fikirdə böyük nüfuz sahibi kimi siyasi səhnədən getmədi. Sonralar Yazıçılar İttifaqının birinci katibi seçildi, Asiya və Afrika ölkələri ilə Sovet Həmrəylik Komitəsinin sədri oldu. 1981-ci ildə isə Mirzə İbrahimova Sosialist Əməyi Qəhrəmanı adı verildi.

## 1.20. 50-ci illərdə xalq maarifi haqqında qanunlar

**SSRİ Ali Soveti 1958-ci il dekabrın 24-də «Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq maarifi sisteminin daha da inkişaf etdirilməsi haqqında» Qanun qəbul etdi.** Təhsilin əməklə əlaqələndirilməsi, təhsilin politexnikləşdirilməsi, məktəbin həyatla əlaqələndirilməsi Qanunun əsas tələbləri idi.

Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Nikita Xruşşovun yeritdiyi siyasətə uyğun olaraq bu Qanun sovet məktəbinin yeni inkişaf mərhələsinin əsasını qoydu. Yeni Qanuna əsasən ibtidai siniflərdən etibarən əmək tərbiyəsinə diqqətin artırılması, uşaqlarda fiziki əməyə tələbat tərbiyə edilməsi nəzərdə tutulmuşdu. *Qanunda natamam orta məktəblərin yeddiillikdən səkkizilliyə çevrilməsi, orta təhsilin əvvəlki kimi 10 il deyil, 11 il olması, birinci mərhələnin I–VIII sinifləri, ikinci mərhələnin isə IX–XI sinifləri əhatə etməsi nəzərdə tutulurdu.* Qərarın ilk ilində ölkəmizdə 40 məktəb onbirilliyə çevrildi.

1959-cu il sentyabrın 1-dən başlayaraq hər yerdə 7 yaşından 16 yaşınadək olan bütün uşaq və yeniyetmələr üçün icbari səkkizillik təhsilin həyata keçirilməsinə başlandı. Səkkizillik təhsildə yuxarı siniflərdə şagirdlərə sadə alətlərlə rəftar etmək bacarığı



**Rəhim Rəhimov (1920–2009)**

**Rəhimov Rəhim Kərəm oğlu** Naxçıvan MR Şərur rayonu Qıvraq kəndində anadan olmuşdur. Naxçıvan Müəllimlər İnstitutunu bitirmişdir. Naxçıvan MR Nazirlər Soveti sədrinin müavini, sədri, Azərbaycan SSR maarif naziri (1959–1960), Azərbaycan Dövlət Plan Komitəsində idarə rəisi, Azərbaycan Texnologiya Universitetinin rektoru (1981–1987), Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun rektoru (1987–2001) vəzifələrində çalışmışdır. 2001-ci ildən ömrünün sonuna qədər İqtisad Universitetində kafedra müdiri vəzifəsində işləmişdir.

Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olmuşdur. Azərbaycan Texnologiya Universitetinin və Azərbaycan Respublikası Nazirlər Kabineti nəzdində Xalq Təsərrüfatını İdarəetmə İnstitutunun yaranmasında Rəhim Rəhimovun xüsusi əməyi vardır.

verən əmək məşğələləri keçilirdi. Məşğələlər məktəb emalatxanalarında, kənd təsərrüfatı sahələrində, idman meydançalarında təşkil olunurdu.

Qızların əməyə hazırlanmasında qadın əməyinin xüsusiyyətləri nəzərə alınır, onlar üçün evdarlıq məşğələləri keçilirdi. Səkkizillik məktəbin əmək məşğələləri peşə xarakteri daşımırdı. Məşğələlərdə şagirdlərə bu və ya digər istehsalat peşəsi öyrədilmirdi. Bu məşğələlər şagirdləri cəmiyyətimizdəki əməyin müxtəlif növləri ilə tanış etməklə onların peşələrə meyillərini büruzə vermələrinə və gələcək üçün şüurlu peşə seçmələrinə kömək etməli idi.

Səkkizillik məktəbi qurtaran gənclər bilavasitə məhsuldar əməyə qoşulmalı və sonradan ictimai-faydalı əməklə bağlı olan peşə və ümumi orta təhsil almalı idilər.

1958/59-cu tədris ilindən orta məktəblərdə «SSRİ tarixi» fənni daxilində 40 saatlıq Azərbaycan tarixi materiallarının da tədrisinə icazə verildi. 1960-cı ildən isə orta məktəblərin tədris planında yenidən «İctimaiyyat» fənni bərpa olundu. Eyni zamanda respublikanın təlim Azərbaycan dilində olan məktəblərinin II–X siniflərində rus dili və ədəbiyyatının tədrisinə ayrılan saatlar artırıldı.

Onbirillik orta təhsilin birinci mərhələsinə I–VIII sinifləri əhatə edən icbari səkkizillik təhsil daxil idi.

Orta təhsilin ikinci mərhələsi IX–XI sinifləri əhatə edirdi. Təhsilin bu mərhələsində gənclərin elmlərin əsaslarını, təbiət və cəmiyyətin inkişaf qanunlarını yaxşı öyrənmələri, müasir istehsalatın əsaslarını bilmələri, müəyyən sənətə yiyələnmələri planlaşdırılmışdı.

Tam orta təhsil almağın dörd yolu var idi. *Birinci yolu* gündüz ümumtəhsil məktəblərində orta təhsili tamamlamaqdan ibarət idi.

*İkinci yol*, istehsalatda çalışmaq və işləməklə yanaşı, axşam fəhlə və kəndli gənclər ümumtəhsil məktəblərində orta təhsil almaq idi.

*Üçüncü yol*, səkkizillik məktəbi bitirdikdən sonra texnikumda oxuyaraq həm tam orta təhsil, həm də orta ixtisaslı mütəxəssis adı almaqdan ibarət idi.

*Dördüncü yol*, səkkizillik məktəbi bitirdikdən sonra texniki peşə təhsili müəssisələrində həm orta təhsil almaq, həm də müvafiq sənətə, peşəyə yiyələnmək idi.

İcbari səkkizillik təhsili başa vuran gənclərin qeyd edilən yollardan hər hansı biri vasitəsilə təhsilini davam etdirməyə imkanı olmadıqda, onlara eksternat yolu ilə imtahan verməyə şərait yaradılırdı.

İndi bu sətirləri yazarkən xatırlayıram ki, mən özüm də bu yolu keçmişəm: 1964-cü ildə qonşu Polad kəndində X sinifdə təhsil alırdım. On yeddi yaşım tamam olub, on səkkiz yaşa keçmişdim. Eşitdim ki, Bakıda XI sinfi oxumadan eksternat yolu ilə imtahan verib orta məktəbi bitirmək olar. Bakıya gəldim. Uğurla imtahan verib orta məktəbi bitirdim. İndiki kimi yadımdadır, imtahan Bayıldakı 49 nömrəli məktəbdə keçirilirdi.

1958-ci il Qanunundan irəli gələn vəzifələrdən biri də politexnik fənn müəllimlərinin hazırlığına ciddi fikir vermək idi.

Qanun təlimin keyfiyyətinin əsaslı surətdə yüksəldilməsi ilə yanaşı, məktəbdə tərbiyə işinin də yaxşılaşdırılması zəruriliyini irəli sürdü.

## 1.21. Azərbaycan müəllimlərinin VII (IV) qurultayı

«Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq maarifi sisteminin daha da inkişaf etdirilməsi» haqqında 1958-ci il Qanununun tələbləri əsasında ümumi təhsil məktəblərinin yenidən qurulması işinin gedişi və qarşıda duran vəzifələr Azərbaycan müəllimlərinin 1960-cı il noyabrın 14–16-da Bakıda Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin binasında (keçmiş «İsmailiyyə»də) keçirilmiş VII(IV) qurultayında da geniş müzakirə edildi. Qurultayda 652 nəfər nümayəndə iştirak edirdi. Qurultayı giriş sözü ilə Azərbaycan SSR Nazirlər Sovetinin sədri Məmməd İsgəndərov açdı. Azərbaycan KP MK, Azərbaycan SSR Ali Soveti və Azərbaycan SSR Nazirlər Sovetinin müəllimlər qurultayına təbrik məktubu oxundu. Sonra qurultayın gündəliyi təsdiq edildi.

Qurultayda maarif naziri **Mehdi Mehdizadə** «Məktəblərin yenidən qurulmasının ilk yekunları və respublika müəllimlərinin növbəti vəzifələri» mövzusunda geniş məruzə edib, respublikanın maarif sistemində baş verən yeniliklərdən, aparılan islahatlardan, həlli vacib olan məsələlərdən danışdı. Mehdi Mehdizadə qurultaya hesabat məruzəsində «*Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və Azərbaycan SSR-də xalq maarifi sistemini daha da inkişaf etdirmək haqqında*» Qanuna əsasən dörd il ərzində bütünlüklə ümumi icbari səkkizillik təhsilə keçilməsi, istehsalat təlimi keçən orta politexnik əmək məktəblərinin yaradılması, internat məktəblər,



**Mehdi Mehdizadə**
**(1903–1984)**

**Mehdizadə Mehdi Məmməd oğlu** Cəbrayıl rayonunun Daşkəsən kəndində anadan olmuşdur. İbtidai və orta məktəblərdə müəllim (1921–1930), V.İ.Lenin adına APİ-də dosent, professor, kafedra müdiri, dekan, prorektor (1932–1937) və rektor (1950–1951), Azərbaycan SSR maarif naziri (1952–1954; 1960–1980) vəzifələrində işləmişdir. UNESCO-da müxtəlif illərdə yaşlıların təhsil işləri üzrə məsləhət komitəsinin daimi üzvü (1961–1965) olmuş, UNESCO konfranslarında iştirak etmişdir.

Qısa fasilələrlə «Azərbaycan məktəbi» jurnalı redaksiya heyətinin üzvü (1952–1984), ASE-nin baş redaksiya heyətinin üzvü (1976–1984) olmuşdur.

1980-ci ildə həmmüəllifi olduğu «Azərbaycanda xalq maarifinin sürətli inkişafı» adlı monoqrafiyası Azərbaycan və rus dillərində nəşr edilmişdir. 1982-ci ildə ona Əməkdar elm xadimi fəxri adı verilmişdir. 1984-cü ildə müəlliflərindən biri olduğu «Xalq maarifinin inkişafında sovet Azərbaycanının təcrübəsi» kitabı UNESCO tərəfindən ingilis və fransız dillərində kütləvi tirajla nəşr edilmişdir.

Azərbaycanda məktəb təhsilinin tarixi və inkişafı problemlərinin tədqiq edilməsində, xalq maarifi və pedaqogikanın inkişafında, yüksəkixtisaslı müəllim və elmi kadrlar hazırlanmasında böyük xidmətləri vardır.



*Mehdi Mehdizadə Sovet nümayəndə heyətinin üzvləri arasında UNESCO-nun II konfransında. Paris, 1960-cı il*




*Mehdi Mehdizadə Beynəlxalq məşvərətçi komitənin yaşlıların təhsili məsələsi üzrə yığıncağında. UNESCO, Paris, 1965-ci il*

günüuzadılmış məktəblər şəbəkəsinin genişləndirilməsi, işləyən gəncləri təhsilə cəlb etməkdən ötrü axşam və qiyabi tədris ocaqları şəbəkəsinin genişləndirilməsi, təlimin yenidən qurulması, məktəbli gəncləri gələcək müstəqil həyata və səmərəli əməyə hazırlamaq işinin kökündən yaxşılaşdırılması sahəsində respublika xalq maarifi sisteminin qarşısında duran təxirəsalınmaz vəzifələrdən ətraflı danışdı *(bax: Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.125–249).*

*«Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq maarifi sisteminin daha da inkişaf etdirilməsi haqqında»* Qanunun tələblərinə uyğun olaraq 50-ci illərin sonu – 60-cı illərin birinci yarısında respublikamızda məktəb şəbəkəsi yenidən quruldu.

*1958/59–1965/66-cı tədris illərində məktəb şəbəkəsi və şagirdlərin sayı*

| Tədris illəri | Məktəblərin sayı | O cümlədən | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | İbtidai | Yeddiillik | Səkkizillik | Orta | Digər | Şagirdlərin sayı (nəfərlə) |
| 1958/59 | 3682 | 1370 | 1491 | – | 816 | 5 | 612336 |
| 1959/60 | 3749 | 1409 | 1494 | – | 841 | 5 | 634672 |
| 1960/61 | 3837 | 1466 | 1261 | 300 | 805 | 5 | 672436 |
| 1961/62 | 3918 | 1510 | 748 | 876 | 779 | 5 | 719564 |
| 1962/63 | 3974 | 1539 | – | 1697 | 733 | 5 | 798012 |
| 1963/64 | 4061 | 1552 | – | 1748 | 756 | 5 | 874667 |
| 1964/65 | 4116 | 1549 | – | 1814 | 744 | 5 | 955138 |
| 1965/66 | 4195 | 1540 | – | 1881 | 765 | 5 | 1035846 |

*(Вах: Мехти Мехтизаде. Школьное образование в Азербайджанской ССР на новом подъеме. Баку, 1967, стр.7.)*

*Azərbaycan SSR-də fəaliyyət göstərən fəhlə-kəndli məktəblərinin şəbəkəsi və orada təhsil alanların sayı (1958/59–1965/66-cı tədris illəri)*

| Tədris illəri | 1958/59 | 1959/60 | 1960/61 | 1961/62 | 1962/63 | 1963/64 | 1964/65 | 1965/66 |
|---|---|---|---|---|---|---|---|---|
| Fəhlə gənclər məktəblərinin sayı | 178 | 186 | 199 | 209 | 224 | 246 | 266 | 270 |
| O cümlədən növbəli məktəblər | – | – | – | 23 | 27 | 31 | 28 | 32 |
| Şagirdlərin sayı (min nəfər) | 33,4 | 34,7 | 36,3 | 39,1 | 44,7 | 50,0 | 58,2 | 60,5 |
| Kəndli-gənclər axşam məktəblərinin sayı | 349 | 362 | 394 | 439 | 654 | 876 | 993 | 1023 |
| O cümlədən müstəqil məktəblər | – | – | – | – | – | – | 281 | 306 |
| Şagird kontingenti (min nəfər) | 12,0 | 13,2 | 13,5 | 13,9 | 21,7 | 28,8 | 35,9 | 37,0 |
| Qiyabi-orta məktəblərin sayı | 2 | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 |
| Orta məktəbdə qiyabi şöbələrin sayı | – | – | – | – | 5 | 15 | 19 | 30 |
| Onlarda təhsil alan şagirdlər | 1,9 | 2,0 | 2,0 | 2,14 | 2,65 | 5,33 | 7,0 | 8,08 |
| **İşləyən gənclər üçün məktəblərin və şöbələrin cəmi** | **529** | **550** | **595** | **650** | **885** | **1140** | **1281** | **1326** |
| **Şagirdlərin cəmi (min nəfər)** | **48,1** | **49,9** | **51,8** | **55,14** | **69,03** | **84,13** | **101,1** | **105,58** |

*(Вах: Мехти Мехтизаде. Школьное образование в Азербайджанской ССР на новом подъеме. Баку, 1967, стр. 33.)*



*Neft daşlarında fəhlə gənclər məktəbinin IX sinfində fizika dərsi zamanı*



*Salyan şəhərindəki qiyabi orta məktəbdə kimya dərsi zamanı*

Bu illərdə əhalinin savadlılıq səviyyəsinin yüksəldilməsində, işləyən gənclərin orta təhsil alması məqsədilə yaradılmış fəhlə və kəndli gənclər axşam (növbəli), qiyabi məktəblərin böyük rolu oldu. Respublikada axşam (növbəli) və qiyabi məktəblərin və günüuzadılmış məktəblərin şəbəkəsi xeyli genişləndi, burada təhsil alan şagird kontingentinin də sayı artdı.

*1958–1966-cı illərdə günüuzadılmış məktəb şəbəkəsi və şagird kontingenti*

| Tədris illəri | 1958/59 | 1959/60 | 1960/61 | 1961/62 | 1962/63 | 1963/64 | 1964/65 | 1965/66 |
|---|---|---|---|---|---|---|---|---|
| Məktəblərin sayı | – | – | 3 | 4 | 11 | 19 | 39 | 33 |
| Qrupların sayı | – | 103 | 200 | 349 | 610 | 1019 | 1814 | 2281 |
| Şagird kontingenti (min nəfər) | – | 2,3 | 6,0 | 10,0 | 18,4 | 30,4 | 54,07 | 71,0 |

*(Бах: Мехти Мехтизаде. Школьное образование в Азербайджанской ССР на новом подъеме. Баку, 1967, стр.30.)*

**Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi və SSRİ Nazirlər Sovetinin 10 noyabr 1966-cı il «Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında»** qərarında 1970-ci ilə kimi icbari ümumi orta təhsilə keçilməsi, ölkədə məktəb şəbəkəsinin təkmilləşdirilməsi, I–IV və V–X (XI) siniflərdə həftəlik dərs saatlarının maksimum miqdarının (I–IV siniflərdə həftədə – 24 saat; V–X (XI) siniflərdə həftədə – 30 saat) müəyyənləşdirilməsi, şagirdlərin marağına əsasən qabiliyyətlərini inkişaf etdirmək üçün VII sinifdən başlayaraq fakültativ məşğələlərin aparılması, ayrı-ayrı fənləri nəzəri və praktik cəhətdən dərindən öyrədən müəyyən fənn təmayüllü məktəb və siniflərin (IX–X(XI)) açılması, politexnik təlim ideyasının məktəb təhsilində əsas götürülməsi məqsədəuyğun hesab edildi.

## 1.22. Azərbaycan müəllimlərinin VIII(V) qurultayı

**1967-ci il yanvarın 26–27-də Bakıda Feliks Dzerjinski adına klubda (indiki Milli Təhlükəsizlik Nazirliyinin mədəniyyət sarayı) Azərbaycan müəllimlərinin VIII(V) qurultayı keçirildi.** Qurultayın gündəliyində duran əsas məsələ Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin *«Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında»* (1966) qərarının icrası ilə əlaqədar Azərbaycan maarifinin perspektiv vəzifələrinin müzakirəsi, bu yöndə aparılacaq islahatların başlıca istiqamətlərinin müəyyənləşdirilməsi idi. Qurultayda 887 nəfər nümayəndə, SSRİ-nin müxtəlif müttəfiq respublikalarından qonaqlar, o cümlədən SSRİ maarif naziri Mixail Prokofyev də iştirak edirdi.

Qurultayda maarif naziri Mehdi Mehdizadənin *«Sov.İKP XXIII Qurultayının qərarları ilə əlaqədar olaraq Azərbaycan SSR-də ümumtəhsil məktəblərinin işinin daha da yaxşılaşdırılması haqqında»* hesabat məruzəsi dinlənildi. Hesabat məruzəsində VIII qurultayın əsas missiyası bu cür müəyyənləşdirilmişdi: *«Qurultayımızın vəzifəsi maarif sahəsində gördüyümüz işlərə yekun vurmaqdan və*



*Maarif naziri Mehdi Mehdizadə VIII(V) qurultayın iştirakçılarına hədiyyə vermək üçün müəllifi olduğu kitablara avtoqraf yazır. 1967-ci il*

*«Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarını və bununla əlaqədar olaraq, Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdikləri qərarı yerinə yetirmək üçün əməli yollar müəyyənləşdirməkdən ibarətdir. Qərar Sov.İKP XXIII Qurultayının məktəb təhsili haqqındakı direktivlərinin həyata keçirilməsi yollarını tam aydınlığı ilə göstərir. Qərarda müəllimlərin və xalq maarifi orqanlarının gələcək fəaliyyətini, məktəb işini kökündən yaxşılaşdırmağa doğru yönəldilmiş prosesin tam proqramı verilmişdir. Azərbaycan müəllimləri tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanmış həmin qərar maarif işçilərini uzun illər üçün konkret göstərişlərlə silahlandırır ki, bunların da həyata keçirilməsi sovet məktəbini müasir tələblər səviyyəsinə qaldıracaqdır» (bax: Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.254).* Məruzədə qarşıda duran çətinliklərə toxunulur və onların həlli yolları göstərilirdi. Günüuzadılmış məktəb və qrupların, internat məktəblərinin, xəstə uşaqlar üçün xüsusi və köməkçi məktəblərin, işləyən gəncləri təhsilə cəlb edən axşam və qiyabi ümumtəhsil məktəblərinin, məktəbdənkənar uşaq tərbiyə ocaqlarının işinə nəzarəti artırmaq lazım gəldiyi bir daha vurğulanırdı.

Qurultayda Azərbaycan KP MK-nın ideologiya üzrə katibi *Şıxəli Qurbanovun* məruzəsi dinlənildi.

Azərbaycan SSR-də ümumi təhsil məktəblərinin 40–60-cı illərdəki inkişaf yollarının araşdırılması və təhlili göstərir ki, təhsilin bu pilləsində bir sıra əsaslı islahatlar aparılmış, əvvəl ümumi icbari yeddiillik, sonra ümumi icbari səkkizillik təhsilə keçid başa çatmış, ümumi icbari orta təhsilə keçidə (1966) başlanılmış, xalq maarifi sisteminə dair müxtəlif qanun və qərarlarla (1958; 1966) ümumi təhsilin quruluşunda və



*SSRİ maarif naziri, professor Mixail Prokofyev və Azərbaycan SSR maarif naziri, akademik Mehdi Mehdizadə Azərbaycan müəllimlərinin VIII (V) qurultayının iştirakçıları arasında. 1967-ci il 26–27 yanvar*




*Azərbaycan nümayəndələri II Ümumittifaq Müəllimlər qurultayında. 1968-ci il*



**Məsmə Atakişiyeva (1924–1998)**

**Atakişiyeva Məsmə Əlimərdan qızı** Şamaxıda anadan olmuşdur. Pedaqoji fəaliyyətə Kürdəmir rayonunda başlamışdır (1940). Ağsu şəhər orta məktəbində (1943–1968), Bakının Nərimanov rayonunda ibtidai sinif müəllimi işləmişdir (1969–1998). Azərbaycan SSR-in Əməkdar müəllimi (1960), Sosialist Əməyi Qəhrəmanı (1968) fəxri adlarına layiq görülmüşdür.

məzmununda müəyyən dəyişikliklər edilmiş, bütövlükdə ümumi təhsil məktəbləri şəbəkəsinin dinamik inkişafı təmin edilmişdir.

40–60-cı illərdə Azərbaycan SSR-də **məktəb tikintisi** respublikanın iqtisadi imkanları daxilində dövlət tərəfindən, eləcə də kənd yerlərində kolxoz və sovxozların vəsaiti hesabına aparılmışdı. Müharibənin doğurduğu çətinliklər səbəbindən 1941–1945-ci illərdə məktəb tikintisi, demək olar ki, tamamilə dayandırılmışdı. Statistik məlumatlara görə, Azərbaycanda məktəb tikintisinə 1946-cı ildən başlandı. **1946–1970-ci illərdə respublikanın şəhər və kəndlərində dövlət və kolxozların vəsaiti hesabına 444 min şagird yerlik 520 ümumtəhsil məktəb binası tikilib istifadəyə verildi.**

Təhsilin yeni məzmununa keçidə 1967/68-ci tədris ilindən başlandı. Bu proses on il davam etdi. Bu on ili təhsilin məzmununun nisbətən sabitlik mərhələsi kimi səciyyələndirmək mümkündür. Bu dövrdə zaman-zaman tədris proqramları və dərsliklər məzmun və forma etibarilə yeniləşdirildi.

*Azərbaycan SSR-in ümumtəhsil məktəblərinin tədris planı (1967/68-ci tədris ili)*

| № | Fənlərin adı | Siniflər üzrə həftəlik saatların miqdarı | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X |
| 1. | Azərbaycan dili | 12/10 | 10 | 9 | 5 | 6 | 4 | 2 | 2 | – | – |
| 2. | Azərbaycan ədəbiyyatı | – | – | – | 2 | 2 | 2 | 2 | 2/3 | 4 | 3 |
| 3. | Rus dili və ədəbiyyatı | 0/3 | 5/4 | 5/6 | 5 | 5 | 5 | 5 | 5/4 | 5 | 4 |
| 4. | Riyaziyyat | 6 | 6 | 6 | 6 | 5 | 5 | 6 | 6 | 5 | 5 |
| 5. | Tarix | – | – | – | 2 | 2 | 2 | 3/2 | 3 | 4 | 4 |
| 6. | Sovet dövlət və hüququnun əsasları | – | – | – | – | – | – | – | 1 | – | – |
| 7. | İctimaiyyat | – | – | – | – | – | – | – | – | – | 2 |
| 8. | Təbiətşünaslıq | – | 1 | 1 | 1 | – | – | – | – | – | – |
| 9. | Coğrafiya | – | – | – | – | 2 | 3 | 2/3 | 2 | 2 | – |
| 10. | Biologiya | – | – | – | – | 2 | 2 | 2 | 2 | 1 | 2 |
| 11. | Fizika | – | – | – | – | – | 2 | 2 | 3 | 4 | 5 |
| 12. | Kimya | – | – | – | – | – | – | 2 | 2 | 3 | 3 |
| 13. | Astronomiya | – | – | – | – | – | – | – | – | – | 1 |
| 14. | Xarici dil | – | – | – | – | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 15. | Rəsmxət | – | – | – | – | – | – | 1 | 1 | – | – |
| 16. | Təsviri sənət | 1 | 1 | 1 | 1 | 1 | – | – | – | – | – |
| 17. | Nəğmə və musiqi | 1 | 1 | 1 | 1 | 1 | 1 | – | – | – | – |
| 18. | Bədən tərbiyəsi | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 19. | İbtidai hərbi hazırlıq | – | – | – | – | – | – | – | – | 2 | 2 |
| 20. | Əmək təlimi | 2 | 1/2 | 1/2 | 2 | 2 | 2 | 2 | 1 | 1 | 1 |
| | **Cəmi:** | **24/25** | **27** | **27** | **27** | **32** | **32** | **33** | **34** | **35** | **36** |
| 21. | Təcrübə | – | – | – | – | 4 | 4 | 4 | – | 17 | – |
| 22. | Fakültativ məşğələ | – | – | – | – | – | – | 2 | 3 | 4 | 4 |

*(Bax: Mehdi Mehdizadə, Tofiq Allahverdiyev, Qurban Əliyev. Azərbaycanda xalq maarifinin sürətli inkişafı. (Rus dilində) Bakı, 1980, səh.32.)*



**Zərbəli Səmədov (1908–1979)**

**Səmədov Zərbəli Mirzağa oğlu** Bakıda anadan olmuşdur. Pedaqoji məktəbi (1927), APİ-nin dil-ədəbiyyat fakültəsini bitirmişdir (1941). Bakı məktəblərində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləmişdir (1929–1979).

Lenin ordeni, 2 dəfə Şərəf nişanı ordeni və medallarla təltif olunmuşdur.

Azərbaycan SSR-in Əməkdar müəllimi (1960), Sosialist Əməyi Qəhrəmanı (1968) fəxri adlarına layiq görülmüşdür.

Həm fənlərin siyahısı («Sovet dövləti və hüququnun əsasları», «İbtidai hərbi hazırlıq» fənləri istisna edilməklə), həm də ayrı-ayrı fənlər blokuna ayrılan saatların ümumi sayı uzun müddət öz sabitliyini qoruyub saxladı, yeni dərslik və dərs vəsaitləri yaradıldı, məktəbdə təlim-tərbiyənin səviyyəsi yüksəldildi.

Təlimin əməklə, həyatla, cəmiyyətdəki quruculuq işləri ilə əlaqəsinin gücləndirilməsi təlim-tərbiyənin əsas prinsipi hesab olundu. Təlim (öyrənmə və öyrətmə prosesi) insanın formalaşmasının, mənəvi cəhətdən kamilləşməsinin mühüm amili kimi tədqiqata cəlb edildi, zəngin mənəviyyata, əxlaqi saflığa və fiziki sağlamlığa malik insan tərbiyəsinin əsas şərti kimi səciyyələndirildi. Əsaslandırıldı ki, təlim insanda əqidə formalaşdırır, intellektual inkişafı təmin edir, hər kəsə peşəyə yiyələnmək bacarığı verir və onu faydalı əməyə qoşur.

1968-ci ildə maarif sahəsindəki fədakar işinə görə respublika müəllimlərindən iki nəfəri – **Məsmə xanım Atakişiyeva** və **Zərbəli Səmədov** Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldülər.

## 1.23. Ümumi orta təhsil inkişaf və sabitlik dövründə (70–80-ci illər)

### 1.23.1. Ümumi icbari orta təhsilə keçidin başa çatdırılması

Müasir Azərbaycan tarixinin dönüş nöqtələrindən biri sayılan 14 iyul 1969-cu il milli tariximizə Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi böyük bir tarixi dövrün başlanğıcı kimi daxil olub. Azərbaycana rəhbər seçildiyi 14 iyul 1969-cu ildən 20 gün sonra keçirilmiş Azərbaycan KP MK-nın avqust plenumunda Heydər Əliyevin məruzəsində qarşıdakı illərdə Azərbaycanın sosial-iqtisadi və mədəni inkişafı sahəsində uzunmüddətli strategiyasının aydın proqramı verildi. Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ildən başlanan tarixi mərhələ bu gün Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin intibah dövrü kimi qəbul olunur. Ümumilikdə onun Azərbaycan təhsili qarşısındakı tarixi xidmətlərini üç mərhələyə bölmək olar. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin I dövrü Azərbaycan təhsilinin milli tariximizə coşqun yüksəliş dövrü kimi daxil olmuşdur.

İkinci mərhələ Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyində çalışdığı 1982–1987-ci illəri əhatə edir. Bu, o illər idi ki, digər sahələrlə yanaşı, Heydər Əliyev yalnız Azərbaycanın deyil, bütövlükdə super dövlətin təhsil sisteminə rəhbərlik edirdi. Sonralar o özü bu barədə demişdi: «*Mənim bir çox vəzifələrim var idi, bir çox nazirliklərə bilavasitə rəhbərlik edirdim. Onların içərisində Sovet İttifaqının Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi də var idi. Mən Sovet*

*İttifaqında bu üç təhsilə aid olan nazirliklərə 5 il rəhbərlik etmişəm, onların işində bilavasitə iştirak etmişəm. Mən onların məsələlərini həll etmişəm, məruzələrini dinləmişəm, kollegiyalarında, böyük iclaslarında iştirak etmişəm, nitq söyləmişəm, söz demişəm və bir çox qərarlar qəbul etmişəm».*

Üçüncü mərhələ (1993–2003) müstəqil ölkənin, milli tarixinin formalaşdığı illəri əhatə edir.

**Sov.İKP MK və SSRİ Nazirlər Soveti «Gənclərin hamılıqla ümumi orta təhsilə keçidinin başa çatdırılması və ümumtəhsil məktəbinin daha da inkişaf etdirilməsi haqqında» 20 iyun 1972-ci il tarixli qərar qəbul etdi.** Qərara uyğun olaraq aparılan genişmiqyaslı işlər nəticəsində 70-ci illərin axırlarında orta ümumtəhsil məktəbləri şəbəkəsi 1965-ci illə müqayisədə 2,6 dəfədən çox artdı. 1145 ibtidai və natamam orta məktəb orta ümumtəhsil məktəbinə çevrildi. Bu dəyişiklik orta məktəb şəbəkəsinin genişlənməsinə səbəb olsa da, təhsilin keyfiyyətinə əsaslı təsir göstərmədi. Çünki həmin məktəblərin mövcud maddi-texniki bazası və pedaqoji heyətinin səviyyəsi bu dəyişikliyin tələblərinə cavab vermirdi. Məktəblərdə ixtisaslı müəllimlər, zəngin laboratoriyalar, kitabxanalar çatışmırdı.

Bu problemləri həll etmək məqsədilə **Sov.İKP MK və SSRİ Nazirlər Soveti «Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» 6 iyul 1973-cü ildə xüsusi qərar qəbul etdi.** Həmin qərarla əlaqədar 1974–1980-ci illər üzrə xüsusi plan təsdiq edildi. Planda kənd yerlərində yeni məktəb və məktəbyanı internatların tikintisinin sürətləndirilməsi, onların inventar-avadanlıqla təchizi, ixtisaslı müəllimlərlə təmin olunması, şagirdlərin daşınması üçün avtobusların ayrılması və digər məsələlər öz əksini tapdı. Qərarın icrası kənd ümumtəhsil məktəblərinin iş şəraitinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynadı.

**19 iyul 1973-cü il tarixində SSRİ Ali Soveti tərəfindən «Xalq maarifi haqqında» Qanun qəbul edildi. Bunun ardınca «Xalq maarifi haqqında» Azərbaycan SSR-in 27 dekabr 1974-cü il tarixli Qanunu qəbul olundu.** 14 bölmə, 93 maddədən ibarət olan Qanunda təsbit edilən konseptual müddəalar aşağıdakılar idi:

1) irqi və milli mənsubiyyətindən, cinsindən, dinə münasibətindən, əmlak və ictimai vəziyyətindən asılı olmayaraq, təhsil almaqda SSRİ-nin bütün vətəndaşlarının bərabər olması;
2) bütün uşaqlar və yeniyetmələr üçün ümumi orta təhsilin icbari olması;
3) bütün təlim-tərbiyə müəssisələrinin dövlət və ictimai xarakterdə olması;
4) təhsil üçün dil seçməyin azad olması; təhsilin ana dilində və ya SSRİ-nin başqa bir xalqının dilində olması;
5) bütün təhsil növlərinin pulsuz olması, şagirdlərin bir qisminin tamamilə dövlət təminatında saxlanması, şagirdlərin və tələbələrin təqaüdlə təmin edilməsi və onlara digər maddi yardım göstərilməsi;
6) xalq maarifi sisteminin vahidliyi və bütün tədris müəssisələrinin ardıcıl olması; bu, təlimin aşağı pillələrindən yuxarı pillələrinə keçilməsini təmin edir;
7) təlimlə kommunist tərbiyəsinin vəhdəti; uşaqların və gənclərin tərbiyəsində məktəbin, ailənin və ictimaiyyətin əməkdaşlığı;

8) böyüməkdə olan nəslin təlim və tərbiyəsinin həyatla, kommunizm quruculuğu təcrübəsi ilə əlaqəli olması;
9) təhsilin elmi xarakter daşıması, onun elm, texnika və mədəniyyətin ən yeni nailiyyətləri əsasında daim təkmilləşdirilməsi;
10) təhsilin və tərbiyənin humanist və yüksək mənəvi xarakterdə olması;
11) hər iki cinsdən olan şəxslərin birgə təhsil alması;
12) təhsilin din təsirinə yol verməyən dünyəvi xarakterdə olması.

Azərbaycan SSR-də təhsil sisteminin qanunvericilik əsaslarını müəyyənləşdirən *«Xalq maarifi haqqında»* Azərbaycan SSR Qanunu on ildən artıq bir müddətdə qüvvədə qaldı.

70–80-ci illərdə respublikada aparılan genişmiqyaslı məktəb tikintisi ümumtəhsil məktəblərində təhsil şəraitinin yaxşılaşdırılmasına imkan yaratdı. Bütövlükdə, 70–80-ci illərdə 683,1 min şagird yerlik 1191 ümumtəhsil məktəb binası tikilib istifadəyə verildi ki, bu da 1946–1970-ci illərdəki müvafiq göstəricidən (520 məktəb) iki dəfə çox idi. 70-ci illərin sonunda gündüz ümumtəhsil məktəblərində təhsil alanların sayı 1436096 nəfərə çatdı.

1970-ci ildə Azərbaycanın ümumtəhsil məktəblərində şagirdlərin 40,2%-i ikinci növbədə oxuyurdu. Bu göstərici 1978-ci ildə 30,8%, 1980-ci ildə 28,1% oldu.

70–80-ci illərdə Azərbaycanda məktəblərin tədris, maddi-texniki və kadr təminatı da əsaslı şəkildə yaxşılaşdı. Məktəblərin fizika və kimya kabinetləri ilə təminatı 99%-ə, məktəb kitabxanalarının bədii ədəbiyyat və dərsliklərlə təminatı isə 97,9%-ə çatdı.

1978-ci ildə gündüz ümumtəhsil məktəblərində çalışan 94 min müəllimdən (əvəzçiliklə işləyənlər nəzərə alınmır) 68,3%-nin, 5–10-cu siniflərdə çalışan müəllimlərin isə 83,7%-nin ali təhsili var idi (1970-ci ildə 51,2% idi) *(bax: Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР. Баку, 1982, стр.254; 258).*

Həmin dövrdə ümumi təhsil sistemində ən mürəkkəb məsələlərdən biri ümumtəhsil məktəb şagirdlərinin dərsliklərlə tam təmin edilməsi idi.

**Sov.İKP MK və SSRİ Nazirlər Soveti 24 noyabr 1977-ci il tarixdə «Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərdən pulsuz istifadəsinə keçmək haqqında» qərar qəbul etdi.** Həmin qərarın ardınca Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1978-ci ilin mayında eyniadlı müvafiq qərar qəbul etdilər.

70–80-ci illərdə Azərbaycanın ümumi təhsil sistemində şagirdlərin əmək təlimi və tərbiyəsi, onların peşəyə istiqamətləndirilməsi, peşə seçiminin düzgün müəyyənləşdirilməsi məktəbin aparıcı problemlərindən hesab olunurdu. **Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkmilləşdirmək haqqında» 22 dekabr 1977-ci il tarixli qərarı** bu sahədə aparılacaq islahatların hüquqi əsaslarını müəyyən etdi. Qərar orta məktəb məzunlarının məktəbdə oxuduqları müddətdə elmlərin əsaslarına dərindən yiyələnmələri ilə yanaşı, xalq təsərrüfatında işləmək üçün əmək vərdişləri qazanmalarını, müəyyən peşələri öyrənmələrini də tələb edirdi. Bu qərarın icrası ilə bağlı

yuxarı sinif şagirdlərinin əmək hazırlığını təşkil etmək məqsədilə respublikamızda 86 məktəblərarası tədris-istehsalat kombinatı yaradıldı. Kombinatlar zəruri istehsalat və təlim avadanlığı ilə təmin edildi, peşə məşğələləri mütəxəssislərə və xüsusi hazırlıq görmüş müəllimlərə həvalə edildi.

1978-ci ildən başlayaraq orijinal tədris proqramlarının hazırlanması və mövcud proqramların təkmilləşdirilməsi üzrə müntəzəm iş başlandı. Orijinal proqramların metodik aparatı tamamilə yenidən quruldu. Proqramlarda təlimin məqsədi və məzmunu müəyyənləşdirildi. 1978-ci ildən «Maarif» nəşriyyatı bu proqramların şərhinə həsr olunan metodik ədəbiyyatın nəşrinə başladı.

### 1.23.2. Azərbaycan müəllimlərinin IX(VI) qurultayı

Azərbaycan SSR-də SSRİ hökumətinin 22 dekabr 1977-ci il tarixli qərarının yerinə yetirilməsi vəziyyəti və maarif işçilərinin bu istiqamətdə vəzifələri **Azərbaycan müəllimlərinin IX(VI) qurultayında** ətraflı müzakirə edildi. Azərbaycan müəllimlərinin IX qurultayı 1978-ci il may ayının 18–19-da Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) keçirildi. Azərbaycan KP MK-nın qurultayda təbrik məktubu oxundu.

Sonra Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev proqram xarakterli nitq söylədi. O, bütövlükdə maarif sisteminin qarşısında duran vəzifələri aşağıdakı kimi müəyyənləşdirdi: «*Məktəbimiz təbiət və cəmiyyətin inkişaf qanunlarını yaxşı başa düşən, yaradıcı təfəkkür vərdişləri olan bilikli adamlar hazırlamalıdır. Bu gün faktların müəyyən məcmusunun şagirdlər tərəfindən mənimsənilməsi ilə kifayətlənmək olmaz. Şagirdlərə öz biliklərini müstəqil surətdə artırmaq, elmi informasiyanın sürətli axınından baş çıxarmaq vərdişi aşılanmalıdır. Bu mürəkkəb və məsul vəzifənin yerinə yetirilməsi hər bir pedaqoji kollektivin, hər bir müəllimin fəaliyyəti ilə, müəllimlərin hazırlıq səviyyəsi ilə, təlim metodlarının həyat tələblərinə uyğunlaşdırılması ilə sıx əlaqədardır...*

*Çox uzun bir müddət ərzində məktəbin işinə yalnız bir göstəriciyə – əsas hesab edilən göstəriciyə görə qiymət verilirdi: məktəbin nə qədər məzunu tələbə olmuş, ali məktəb diplomu almışdır. Bu nöqteyi-nəzəri dəyişdirmək vaxtı gəlib çatmışdır. Bilikli, bacarıqlı, əməksevər vətəndaşlar yetişdirmək məktəbin ən birinci borcudur. «Məzun əməyə hazırdırmı?» bu gün məktəbin işinin, bütün xalq maarifi sisteminin səmərəliliyi bax, bu meyarla müəyyən edilir*» (*bax: Azərbaycan SSR müəllimlərinin VI qurultayı. Bakı, 1980, səh.21*).

Göründüyü kimi, ulu öndərimiz Heydər Əliyev hələ o vaxt təhsilin səmərəliliyinin artırılmasının əsas istiqamətini çox aydın təsəvvür edir, məktəbin gənc şəxsiyyətin təşəkkülündə oynadığı böyük rolu düzgün qiymətləndirirdi. O, məktəblə ailənin qarşılıqlı münasibətlərinin düzgün qurulmasının əhəmiyyətindən danışarkən deyirdi: «*Məktəb və ailə qarşılıqlı münasibətlərdə prinsipial, pedaqoji cəhətdən düzgün mövqe tutmalıdır.*

*Məktəblə ailənin sıx, qarşılıqlı əlaqəsi olmadan mükəmməl tərbiyə ola bilməz. Çünki bu proses kompleks prosesdir və onun səmərəliliyini*



Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Azərbaycan müəllimlərinin IX(VI) qurultayında çıxış edərkən. 1978-ci il

*validеynlərlə pedaqoqların birgə səyi ilə yüksəltmək lazımdır».*

Hazırda Azərbaycanda təhsilin məzmun, texnologiya, qiymətləndirmə, idarəolunma, maliyyələşmə və sair sahələrində geniş islahatlar aparılır. Bu islahatlar da son nəticədə məhz Ulu öndərimizin söylədiyi kimi, «şagirdlərə öz biliklərini müstəqil surətdə artırmaq, elmi informasiyanın sürətli axınından baş çıxarmaq vərdişi aşılamağı, bilikli, bacarıqlı, əməksevər vətəndaşlar yetişdirməyi» nəzərdə tutur. «Məzun əməyə hazırdırmı» sualı bu gün də aktualdır.

Heydər Əliyev öz çıxışında məktəblərimizdə ictimai fənlərin, ana dili və ədəbiyyatın tədrisi formalarını və metodlarını daim təkmilləşdirməyin vacib olduğunu, böyüməkdə olan nəslin bir vətəndaş kimi yetişməsində vətənpərvərlik təbliğatının, fiziki və mənəvi tərbiyənin böyük rol oynadığını da xüsusilə qeyd etdi. O, müəllim peşəsinə, müəllim əməyinə yüksək qiymət verərək dedi: «*Tarixi proses olan əsl ümumxalq maarifi prosesində əsas sima müəllimdir. Məktəblərimizin bütün yetişdirmələrinə həyat vəsiqəsini müəllim vermişdir. Cəmiyyətimizin ümidi, gələcəyi olan uşaqların*



*Xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan müəllimlərinin IX(VI) qurultayında çıxış edərkən. 1978-ci il*



*Məktəblilər Azərbaycan müəllimlərinin IX(VI) qurultayını təbrik edirlər. 1978-ci il. İndiki Heydər Əliyev Sarayı*

*təlim-tərbiyəsi kimi ən mühüm, ən vacib iş müəllimə etibar edilmişdir. Müəllim öz biliyini, təcrübəsini, qüvvəsini, qiymətli nəyi varsa, hamısını şagirdlərinə, xalqa bəxş edir. Rəşadətə bərabər bu nəcib, fədakar əməyinə görə müəllimin yetişdirmələri, valideynlər, bütün cəmiyyət ona hədsiz dərəcədə minnətdardırlar.*

*Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi bizə müdrikliklə və səbirlə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq» (bax: Azərbaycan SSR müəllimlərinin VI qurultayı. Bakı, 1980, səh.21–41).*

Azərbaycan müəllimlərinin IX (VI) qurultayında maarif naziri Mehdi Mehdizadənin məruzəsi *«Ümumtəhsil məktəbləri şagirdlərinin təlimini, tərbiyəsini və əməyə hazırlanmasını daha da təkmilləşdirmək haqqında»* Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarının (22 dekabr 1977-ci il) yerinə yetirilməsi sahəsində respublika xalq maarifi orqanlarının vəzifələrinə həsr olunmuşdu. Hesabat məruzəsində VIII(V) qurultaydan sonrakı müddətdə xalq maarifi sahəsində qazanılan nailiyyətlər bu cür ümumiləşdirildi:

- Respublikada gənclərin hamılıqla orta təhsilə keçməsi, əsasən, yerinə yetirilmişdir. İndi bütün gənclər müstəqil əmək həyatına orta təhsil almaqla başlayacaqlar. Qızların təhsilə cəlb olunması sahəsində bəzi kənd rayonlarında olan ciddi nöqsanlar aradan qaldırılmışdır;
- təhsilin yeni məzmununa keçmək başa çatdırılmışdır ki, bu da məktəblərdə tədrisin ideya-elmi səviyyəsini xeyli yüksəltmişdir;
- məktəb işləri, tədris metodları sürətlə modernləşdirilir. Məktəbdə təhsil və tərbiyənin səviyyəsi yüksəlmişdir, məktəblilərin ictimai-faydalı istehsalat əməyində iştirakları artır;
- məktəblərdə yüksəkixtisaslı müəllim kadrlarının sayı çoxalmış, tərkibi yaxşılaşmışdır;
- maarif ocaqlarının tədris-maddi və texniki bazası xeyli möhkəmlənmişdir *(bax: Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.405).*

Maarif naziri Mehdi Mehdizadənin hesabat məruzəsində qarşıda duran vəzifələrdən də danışıldı: qeyd olundu ki, ümumtəhsil məktəblərinin xalq maarifi sahəsində bugünkü vəzifəsi kommunizm cəmiyyətinin hərtərəfli inkişaf etmiş qurucularını tərbiyə etmək üçün Sov.İKP-nin XXV qurultayının qərarlarını, yeni Konstitusiyanın hamılıqla icbari orta təhsilə keçmək haqqındakı müddəasını ardıcıl surətdə həyata keçirməkdən, təlim-tərbiyə işlərini daha da təkmilləşdirməkdən ibarət olmalıdır.

Maarif naziri Mehdi Mehdizadə çıxışında dedi: *«Son 10 il ərzində gündüz orta məktəblərinin sayı 77% artaraq 1837-yə çatmışdır. Kənd yerlərində orta məktəblərin şəbəkəsi xüsusilə intensiv şəkildə genişlənir. Onların sayı 1264-ə çatmış, yəni 86% artmışdır. Məmnuniyyət hissi ilə qeyd etməliyəm ki, hər bir sovxozda və iri kolxozda orta məktəb açmaq haqqında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarı respublikada yerinə yetirilmişdir. Məktəblərin iriləşdirilməsi və onların şəbəkəsinin qaydaya salınması sahəsində böyük*



**Zahid Şöyübov (1924–2006)**

**Şöyübov Zahid Həmid oğlu** Ağdaş rayonunun Ərəbbəsərə kəndində anadan olmuşdur. Şəki Pedaqoji məktəbini (1949), APİ-nin fizika-riyaziyyat fakültəsini bitirmişdir (1954). Xaldan orta məktəbində fizika-riyaziyyat müəllimi, dərs hissə müdiri, direktor (1949–1955), Xaldan rayon, Mingəçevir şəhər Maarif şöbələrində müdir vəzifəsində işləmişdir (1955–1962).

1962-ci ildə Xaldan orta məktəbinə müəllim kimi qayıdaraq 3 il sonra həmin məktəbə direktor təyin olunmuş və ömrünün sonuna kimi bu məktəbdə çalışmışdır. Azərbaycan SSR-in Əməkdar müəllimi (1960), SSRİ Xalq müəllimi (1981) fəxri adlarına layiq görülmüşdür.

Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur.

*iş görülmüşdür. İndi 4046 gündüz məktəbində 1 mln. 454 min nəfər təhsil alır ki, bu da 10 il bundan əvvələ nisbətən 18,4% çoxdur. İnternat məktəblərdə və günüuzadılmış məktəb və qruplarda tərbiyə alan şagirdlərin sayı 2,5 dəfə artaraq 2453 min nəfərə çatmışdır. Bu isə işləyən valideynlərə, onların uşaqlarını tərbiyə etməkdə dövlətin böyük yardımıdır.*

*Hamılıqla orta təhsilin həyata keçirilməsində axşam (qiyabi) məktəbləri də mühüm rol oynayır. İndi respublikada 1474 nəfər gənc fəhlə və kolxozçunu əhatə edən 264 müstəqil axşam (qiyabi) məktəbləri vardır. Həmin məktəblərdə gənc fəhlə və kolxozçular oxuyurlar ki, bu da çox vacibdir.*

*Hamılıqla orta təhsilin tətbiqində orta texniki peşə məktəbləri müstəsna əhəmiyyət kəsb edir. Onların sayı indi respublikada 72-yə çatmışdır. Bu məktəblərdə 41,5 gənc oxumaqla həm müasir fəhlə peşələrinə yiyələnir, həm də təhsil alır.*

*...İcbari səkkizillik təhsil hamılıqla orta təhsilin bazasıdır. Hələ Azərbaycan KP MK-nın oktyabr (1971) plenumunda Mərkəzi Komitənin birinci katibi Heydər Əliyev yoldaş səkkizillik icbari təhsilin həyata keçirilməsində ciddi nöqsanlar olduğuna görə Maarif Nazirliyini haqlı olaraq kəskin tənqid etmişdi.*

*Biz bu tənqiddən lazımi nəticə çıxarıb öz işimizi xeyli yaxşılaşdırdıq. Nəticədə səkkizinci sinifləri vaxtında bitirən şagirdlərin sayı 1971-ci ildəki 77% əvəzinə, 1977-ci ildə 93,4% oldu. Bu il isə, biz həmin göstəricinin 95%-ə çatacağını gözləyirik. İşləyən gənclərin tam orta təhsilə malik olmayanlarını təhsilə cəlb etmək icbari orta təhsil sahəsində ən mürəkkəb vəzifədir. Respublikada belə oğlan və qızların sayı, Mərkəzi Statistika İdarəsinin məlumatına görə, indi 30 yaşınadək olanlar arasında 76,6 min nəfərdir. Bunların əksəriyyəti kəndlərdədir və çoxu 3–4 uşağı olan gənc analardır (bax: Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.406).*

Qurultayda SSRİ xalq müəllimi **Zahid Şöyübov** da çıxış etdi. Onun başçılıq etdiyi Xaldan kənd məktəbi dövrünə görə çox qabaqcıl, inkişaf etmiş tədris texnika və texnologiyalarına malik bir məktəb idi. Məktəbin təcrübəsi respublikanın digər məktəblərində geniş yayılmışdı. Bu məktəbin qabaqcıl təcrübəsi ilə tanış olmaq məqsədilə Moskva, Volqoqrad vilayətlərindən, Stavropol diyarından, Ukrayna, Qazaxıstan, Gürcüstan və digər Sovet respublikalarından buraya çoxlu nümayəndələr gəlirdilər. Məktəbin direktoru Zahid Şöyübov qurultaydakı çıxışında dedi: «*...Məktəbimizin şagirdləri keçən beşillikdə (1971–1975-ci illər – M.M.) 500 min ədəd meyvə və bəzək ağacı*



*Heydər Əliyev Yevlax rayonunun Xaldan kənd məktəbinə başqa respublikalardan gələn məktublarla tanış olur. 1981-ci il 20 oktyabr*



*Heydər Əliyev Yevlax rayonunun Xaldan məktəbində. 1981-ci il 20 oktyabr*

*əkib becərmişlər. Məktəbin pioner və komsomolçuları son dərəcə faydalı bir təşəbbüs irəli sürmüşlər; Kürboyu Tuqay meşələrini bərpa etmək!*

*On hektarlıq sahə artıq bərpa olunmuşdur.*

*...Hazırda Xaldan kənd orta məktəbində müasir avadanlıq və mebellə təchiz olunmuş 27 fənn kabineti, laboratoriya və emalatxana, habelə bir sıra digər təlim-tərbiyə mərkəzi fəaliyyət göstərir. Təlim-tərbiyə işlərinin təşkilində məktəbdə yaradılan televiziya mərkəzi xüsusi rol oynayır. Məktəbin bütün fənn kabinetlərinə, emalatxana və laboratoriyalarına telefon çəkilmiş, onlar radiolaşdırılmışdır. Burada aparılan işlər televiziyada əks etdirilir. Müəllim telefon vasitəsilə zəng vurur, bu və ya digər tədris filminin mavi ekrana buraxılmasını xahiş edir. Göstəriş dərhal yerinə yetirilir. Teleməkəz məktəbin təşəbbüsü və tədris-təcrübə sahəsindən əldə edilən vəsait hesabına*



*Heydər Əliyev Xaldan məktəbliləri ilə. 1981-ci il 20 oktyabr*



*Heydər Əliyev Azərbaycan müəllimlərinin IX(VI) qurultayına həsr olunmuş sərgidə. 1978-ci il*

*yaradılmışdır. Yeri gəlmişkən, onu da qeyd edək ki, Xaldandakı televiziya mərkəzi respublikada, bəlkə də, ölkəmizdə (SSRİ-də – M.M.) kənd məktəbləri arasında ilk başlanğıcdır».*

Qurultayın işində 1865 nümayəndə iştirak edirdi. Müzakirə olunan məsələlərlə bağlı müvafiq qətnamə, respublikanın bütün müəllimlərinə və ictimaiyyətinə müraciət qəbul edildi. Müraciətdə deyilirdi: *«IX və X beşilliklər Sovet Azərbaycanı üçün iqtisadiyyatın, elmin, mədəniyyətin sürətli yüksəliş illəri olmuşdur. Məhz bu illərdə respublikada xalq maarifini daha da inkişaf etdirmək və təkmilləşdirmək üçün ən əlverişli şərait yaradılmışdır. Lakin biz yaxşı başa düşürük ki, xalq maarifi sahəsində qazanılmış nailiyyətlər daha da inkişaf etdirilməli və artırılmalıdır. Hər bir pedaqoji kollektivin, xalq maarifi orqanlarının vəzifəsi nailiyyətləri möhkəmləndirməkdən və böyüməkdə olan nəslin təlim-tərbiyəsi sahəsində işi keyfiyyətcə*

*yeni səviyyəyə, gözəl zamanəmizin tələblərinə uyğun səviyyəyə qaldırmaqdan ibarətdir...*

*...Müəllimləri Təkmilləşdirmə institutları, Elmi-Tədqiqat Pedaqogika İnstitutu müəllimlərə böyük yardım göstərməlidirlər. Onlar pedaqogikanın və psixologiyanın aktual problemlərini daha dərindən tətbiq etməli, müəllim əməyinin keyfiyyətini yüksəltməyi, gənclərin təlim və tərbiyəsi metodikasını təkmilləşdirməyin yollarını yaradıcı şəkildə axtarmalıdırlar.*

*Bütün təlim-tərbiyə prosesinin keyfiyyətini və səmərəsini yüksəltmək tədris müəssisələrində təlimin peşəyə istiqamətləndirilməsini yaxşılaşdırmaq, hər bir məzunda müəllimlik peşəsinə dərin məhəbbət təlqin etmək respublika tədris müəssisələrinin pedaqoji kollektivlərinin ən mühüm vəzifəsidir.*

*Qurultay mətbuat, televiziya və radio işçilərini, bütün kütləvi informasiya vasitələrinin işçilərini məktəbli gənclərin təlimi və tərbiyəsi ilə əlaqədar vəzifələrin yerinə yetirilməsində, qabaqcıl pedaqoji təcrübənin geniş təbliğində məktəbə, xalq maarifi orqanlarına öz köməyini artırmağa çağırır».*

Respublika müəllimlərinin IX(VI) qurultayı münasibəti ilə Azərbaycan SSR Maarif Nazirliyi Xalq Maarifi Muzeyi ilə birlikdə «Qurultaydan qurultaya» (1967–1978) adlı sərgi təşkil etmişdi. Sərginin stendlərində **«Səkkizillik icbari təhsil haqqında»** Qanunun yerinə yetirilməsi üzrə görülən işlər, məktəblərin və şagird kontingentinin artımı, gənclərin hamılıqla orta təhsilə keçməsi vəziyyətini əks etdirən sənədlər, diaqramlar, fotoşəkillər, cədvəllər nümayiş olunurdu. Aşağıda həmin cədvəllərdən bəzi nümunələr verilmişdir:

*Səkkizillik icbari təhsilin yerinə yetirilməsi*

| İllər | Yerinə yetirilmə faizi |
|---|---|
| 1967 | 73,7 |
| 1977 | 93,2 |

*Məktəblərin və şagird kontingentinin artımı (gündüz məktəbləri)*

| Tədris illəri | Məktəblərin sayı | o cümlədən: | | | Şagirdlərin sayı | o cümlədən kənd yerlərində | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | İbtidai | Səkkizillik | Orta | | Məktəblərin sayı | İbtidai | Səkkizillik | Orta | Şagirdlərin sayı |
| 1967/68 | 4317 | 1460 | 1937 | 920 | 1162726 | 3498 | 1346 | 1552 | 600 | 622418 |
| 1977/78 | 4046 | 519 | 1691 | 1836 | 1454014 | 3205 | 490 | 1452 | 1263 | 833464 |

*Gənclərin hamılıqla orta təhsilə keçməsi*

| İllər | Gündüz, axşam və qiyabi məktəbləri üzrə VII sinfi qurtaranlar | Orta təhsilə cəlbolunma faizi | Ümumtəhsil məktəblərinin X (XI) sinif məzunları |
|---|---|---|---|
| 1967 | 83699 | 89,4 | 60087 |
| 1977 | 162789 | 95,8 | 123185 |

*Respublika məktəblərində fənn kabinetlərinin artımı*

| № | Kabinetlərin adı | 1967 | 1977 |
|---|---|---|---|
| 1. | Fizika | 790 | 3434 |
| 2. | Kimya | 641 | 3277 |
| 3. | Biologiya | 353 | 3320 |
| 4. | Riyaziyyat | – | 2798 |
| 5. | Tarix | – | 2521 |
| 6. | Linqafon | – | 403 |
| 7. | Digər kabinetlər | 752 | 6843 |
| Cəmi: | | 2536 | 22596 |

*Respublika məktəblərinin təlimin texniki vasitələri ilə təchiz olunması*

| № | Texniki vasitələrin adı | 1967 | 1977 |
|---|---|---|---|
| 1. | Kino qurğuları | 562 | 2486 |
| 2. | Televizor | 111 | 1133 |
| 3. | Maqnitofon | 657 | 2181 |
| 4. | Radio qovşağı | 377 | 1462 |
| 5. | Filmoteka | – | 67 |
| Cəmi: | | 1707 | 7329 |

### 1.23.3. Azərbaycan dilinin siyasi nüfuzunun yüksəldilməsi

70-ci illərdə respublikada rus dilinin mövqeyi çox güclü idi. Dövlət idarəçilik, təsərrüfat, sənaye sahələrində rus dilindən geniş istifadə olunurdu. Kənddən şəhərə gələn gənclər bu baxımdan böyük çətinliklərlə rastlaşırdılar. Azərbaycan KP-nin qurultayları, MK-nın plenumları, bir qayda olaraq, rus dilində aparılırdı. Hakimiyyətə gəlişi ilə respublika həyatının bütün sahələrində dirçəlişə nail olan Heydər Əliyev, heç şübhəsiz, dil məsələsinə də laqeyd qala bilməzdi. Heydər Əliyev xalqla ancaq qurultay saraylarında, müşavirələrdə, müxtəlif yığıncaqlarda əlaqə saxlamırdı. O, Azərbaycanı qarış-qarış gəzir, sadə insanlarla görüşür, sadə xalq dilini eşidirdi. Xalqla bir nəfəs almağın nəticəsi idi ki, Heydər Əliyev əsl Azərbaycan ziyalısının, ümumən qələm sahiblərinin ana dili ilə bağlı narahatlıqlarını daha dərindən hiss edirdi.

O dövrdə Azərbaycan cəmiyyətinin reallığı elə idi ki, bütünlüklə Azərbaycan dilinə keçmək, rusdilli əhaliyə, Moskvaya meydan oxumaq olardı. Artıq bu işdə müəyyən təcrübə var idi. 1956-cı ildə Azərbaycan SSR-in Konstitusiyasına Azərbaycan dili haqqında maddə əlavə edilərkən Moskvanın buna münasibəti heç də yaxşı olmamışdı. Qarşıda yeni Konstitusiyanın qəbul olunması məsələsi dururdu. Konstitusiyaya dövlət dili barədə maddə əlavə etmək təşəbbüsü yenə də Moskva tərəfindən müqavimətlə qarşılana bilərdi. Bu isə Azərbaycan Respublikasının rəhbərini ehtiyatlı siyasətə məcbur edirdi.

Azərbaycan SSR-in Konstitusiyası (Əsas Qanunu) hazırlanarkən Heydər Əliyev özü yaradıcı ittifaqlara xəbər göndərdi ki, Konstitusiyaya Azərbaycan SSR-in dövlət dilinin Azərbaycan dili olması barədə xüsusi maddə salınmasını tələb etsinlər. Sovet İttifaqının Mərkəzi Komitəsinin rəhbərliyi dəfələrlə Heydər Əliyevi mövqeyindən çəkindirməyə cəhd etsə də o, müxtəlif yollarla onları başa saldı ki, Azərbaycan SSR Konstitusiyasında (Əsas Qanununda) Azərbaycan dili barədə ayrıca maddə olmalıdır. Uzaqgörən siyasəti nəticəsində respublikanın rəhbəri Azərbaycan

SSR-in Konstitusiyasına dövlət dili barədə ayrıca maddənin qəbul edilməsi uğrunda mübarizədə qalib gəldi.

1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul olundu. Bu Konstitusiyanın 73-cü maddəsi respublikada Azərbaycan dilinin dövlət dili olmasını təsbit etdi.

73-cü maddənin qəbulundan sonra Heydər Əliyev bu maddənin həyata keçirilməsi, Azərbaycan dilinin ictimai-siyasi nüfuzunun yüksəldilməsi üçün bütün imkanlardan istifadə etdi.

1982-ci ildə Heydər Əliyev İttifaq rəhbərliyində vəzifəyə irəli çəkiləndən sonra Azərbaycanda onun başladığı işlərə müəyyən qüvvələr mane oldular. 80-ci illərin ortalarında respublikada rus dilinin fəaliyyət sahələrini genişləndirmək barədə müəyyən göstərişlər verildi. Lakin Heydər Əliyevin səpdiyi toxumlar artıq cücərmişdi. Ona görə də respublikada Moskvanın ruslaşdırma siyasətinə qarşı ciddi etirazlar başladı. Bir qrup dilçi «1989–1990-cı dərs ili üçün tədris planları»nda rus dilinin tədrisinə ana dilindən daha çox yer verilməsinə etiraz edərək MK-ya xüsusi məktubla müraciət etdi. Həmin məktubda bu cür suallar qoyulurdu: Nə üçün təlim rus dilində olan orta məktəblərdə Azərbaycan dilinin tədrisi III sinifdən, təlim Azərbaycan dilində olan məktəblərdə isə rus dilinin tədrisi I sinifdən başlayır?



*Heydər Əliyev bir qrup Azərbaycan ziyalısı ilə. 1978-ci il*

Nə üçün rus dilinin tədrisinə Azərbaycan dilinin tədrisindən daha çox saat ayrılır? Nəyə görə təlim rus dilində olan məktəblərdə Azərbaycan dili fakültativ fənn səviyyəsinə endirilmişdir?

Bu çıxışlar nəticəsiz qalmadı. Ziyalıların haqlı iradlarına cavab olaraq Təhsil Nazirliyi dillərin tədrisinə ayrılmış saatlar arasındakı fərqi aradan qaldırmalı oldu.

### 1.23.4. 80-ci illərin təhsil islahatları

1979/80-ci tədris ilindən I siniflərdən başlayaraq tədricən şagirdlərin dərsliklərlə pulsuz təminatına keçildi.

1982-ci ildə Azərbaycanda 4267 ümumtəhsil məktəbi fəaliyyət göstərirdi. Məktəbəqədər tərbiyə müəssisələrinin sayı isə 1969–1982-ci illərdə 1600-dən 1875-ə, orada tərbiyə alanların sayı isə müvafiq olaraq 110 mindən 147 min nəfərə yüksəlmişdi.

1982-ci ilin sonunda Heydər Əliyevin SSRİ-nin ali rəhbərliyinə irəli çəkilməsi, super dövlətin təhsil siyasətinə, təhsil islahatlarına rəhbərlik etməsi ittifaq miqyasında olduğu kimi, Azərbaycanda da geniş islahatlar aparılmasına zəmin yaratdı.

1984-cü ildə keçmiş SSRİ-də ümumi təhsil və peşə təhsili üzrə islahatın əsas istiqamətlərinin müəyyənləşdirilməsi və yerinə yetirilməsi mexanizminin işlənib hazırlanması məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bundan əlavə, SSRİ-də fəaliyyət göstərən internat tipli müəssisələrin işinin yaxşılaşdırılmasını təmin edən 3 qərar (1984, 1985 və 1987-ci illərdə) da bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmişdir. «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında» Sov.İKP MK plenumunun 10 aprel 1984-cü il tarixli və SSRİ Ali Sovetinin 12 aprel 1984-cü il tarixli qərarları, eləcə də həmin qərarlar əsasında ümumi təhsilə və texniki peşə məktəbinə dair qəbul edilən çoxsaylı qərarlar İslahat Komissiyasının sədri olmuş Heydər Əliyevin fikir və müddəaları əsas götürülməklə qəbul edilmişdir.

Ümumi orta təhsilə 6 yaşdan başlamaq və onun müddətinin onbirillik olması haqqında təklifdə məhz Heydər Əliyev tərəfindən irəli sürülmüşdü. Hər il sentyabrın 1-nin ümumxalq bayramı – «Bilik günü» kimi qeyd edilməsi təşəbbüsü də məhz Heydər Əliyevə məxsusdur.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, ümumtəhsil və peşə məktəbi üzrə İslahat Komissiyasının sədri kimi XI çağırış SSRİ Ali Sovetinin sessiyasında ümumtəhsil və peşə məktəbi islahatının əsas



**Elmira Qafarova (1934–1993)**

Qafarova Elmira Mikayıl qızı Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş (1958), filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır (1961). Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində ali təhsil və məktəb şöbəsinə işə cəlb edilmiş (1962–1966), Respublika Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinə birinci katib vəzifəsinə təyin olunmuşdur (1966–1970).

Bakı Şəhər Partiya Komitəsinin katibi (1971–1980), Azərbaycan SSR-in maarif naziri (1980–1983), Azərbaycan SSR-in xarici işlər naziri (1983–1987), Azərbaycan SSR Ali Sovetinin Sədri (1987–1991) vəzifələrində işləmişdir.

istiqamətləri haqqında məruzəsində ümumtəhsil və peşə məktəblərinin sosial rolunun gücləndirilməsi yollarından danışarkən demişdir:

*«...Bu gün müzakirə olunan sənəd Sovet məktəbinin... məhsuldar əməklə birləşdirilməsi prinsipini yetkin sosializm şəraitinə və onun təkmilləşdirilməsi vəzifələrinə uyğun olaraq konkretləşdirir. Sənəddə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məktəbdə təlim və tərbiyə işini real istehsalla daha dolğun şəkildə əlaqələndirməyə imkan verəcək, əməyi məktəb həyatının təsadüfi, ikinci dərəcəli komponentindən müntəzəm komponentinə, onun əsas komponentlərindən birinə çevirəcəkdir.*

*...İslahat müasir Sovet məktəbini məhz əmək tərbiyəsinin gücləndirilməsinə yönəldir. Bütün gənclərin, o cümlədən orta ümumtəhsil məktəbləri məzunlarının əmək fəaliyyətinə başlamazdan əvvəl müəyyən bir peşəyə yiyələnməsinə nail olmaq vəzifəsi qarşıya qoyulur. Bu bizim sosial nailiyyətimiz olacaq, nəinki xalq təsərrüfatı üçün kadr hazırlığı işini yaxşılaşdırmağa imkan verəcək, həm də gənclərə dərk olunmuş əmək tələbatı yaradılmasına, onların öz həyat perspektivlərini düzgün seçmələrinə kömək edəcək, ümumtəhsil məktəbinin sosial funksiyalarının və rolunun nəzərəçarpacaq dərəcədə zənginləşməsinə gətirib çıxaracaqdır».*

1984–1987-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə «Ümumtəhsil və peşə məktəbi islahatının istiqamətləri»ndə nəzərdə tutulan bir çox məsələlər həyata keçirilmişdir. Bu gün Azərbaycanda uğurla reallaşdırılmaqda olan bir çox mütərəqqi islahatların əsası hələ o zaman Heydər Əliyev tərəfindən qoyulmuşdur. Yeri gəlmişkən deyək ki, ümumi orta təhsilə 6 yaşdan başlamaq və onun müddətinin onbirillik olması haqqında Heydər Əliyevin təklifi bu gün müstəqil Azərbaycanın təhsil quruculuğunda reallığa çevrilmişdir.

O dövrdə Azərbaycanda məktəb islahatının mərhələlərlə həyata keçirilməsini təmin etməyin mexanizminə dair Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHİŞ 6 qərar qəbul etmişdi:

1) ***«Uşaqların məktəbəqədər ictimai tərbiyəsini daha da yaxşılaşdırmaq və onları məktəbdə təlimə hazırlamaq haqqında»*** **Azərbaycan SSR Nazirlər Sovetinin 21 may 1984-cü il tarixli qərarı;**

2) ***«Texniki peşə təhsili sistemini daha da inkişaf etdirmək və ixtisaslı fəhlə kadrları hazırlanmasında onun rolunu yüksəltmək haqqında»*** **Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 29 may 1984-cü il tarixli qərarı;**

3) ***«Gənclərin ümumi orta təhsilini daha da təkmilləşdirmək və ümumtəhsil məktəbinin iş şəraitini yaxşılaşdırmaq haqqında»*** **Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 10 iyul 1984-cü il tarixli qərarı;**

4) ***«Məktəblilərin əmək tərbiyəsini, təlimini, peşəyönümünü yaxşılaşdırmaq və onların ictimai-faydalı, məhsuldar əməyini təşkil etmək haqqında»*** **Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 10 iyul 1984-cü il tarixli qərarı;**

5) ***«Maarif və texniki peşə təhsili sistemi pedaqoji kadrlarının hazırlanmasını təkmilləşdirmək, ixtisasını artırmaq, onların əmək və məişət şəraitini yaxşılaşdırmaq tədbirləri***

***haqqında»*** **Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin 10 iyul 1984-cü il tarixli qərarı;**

**6)** ***«Müəllimlərin və digər xalq maarifi işçilərinin əmək haqqını artırmaq barədə»*** **Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti və AHİŞ-in 10 iyul 1984-cü il tarixli qərarı** *(bax: Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri. Rəsmi materiallar məcmuəsi. Bakı, 1984).*

Sonrakı illərdə bu qərarların icrası ilə bağlı əsaslı addımlar atıldı. O dövrdə ümumi orta təhsilin həyata keçirilməsi ilə bağlı digər məsələlərin həllinə də diqqət artırıldı. Ehtiyacı olan uşaqların internat məktəblərə və məktəbyanı internatlara cəlb edilməsi, günüuzadılmış qrup və məktəblərin təşkili, ehtiyacı olan uşaqlara maddi kömək edilməsi, əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün xüsusi məktəb və siniflərin yaradılması, uzaq məsafələrdə yaşayan şagirdlərin məktəblərə avtobusla daşınması, onların dərsliklərlə pulsuz təmin olunması və digər məsələləri xüsusilə qeyd etmək lazımdır. Təkcə 1975–1980-ci illərdə uşaqların məktəblərə daşınması üçün baza müəssisələrinə 700-dən artıq avtobus verilmişdi.

İcbari təhsil fondu üçün hər il orta hesabla 2 mln. 430 min rubl pul vəsaiti ayrılırdı.

Günüuzadılmış qrup və məktəblərin təşkili sahəsində də ardıcıl və səmərəli iş aparılırdı.

70-ci illərdə uşağın məktəbə hazırlanması üzrə aparılan tədqiqatlar gələcəkdə altı yaşdan təlimə başlayacaq I siniflərdə müxtəlif fənlər üzrə təlimin məzmununu müəyyənləşdirməyə imkan verdi. 1985/86-cı tədris ilindən altı yaşlıların təliminə başlandı və 10 min altıyaşlı uşaq I siniflərdə təhsilə cəlb edildi. Onu da qeyd edək ki, respublikada bu işin nəzəriyyəsi hələ 70-ci illərdən hazırlanmış və 10 ildən artıq aparılan eksperimentlə əsaslandırılmışdı.



Məhər Quliyev
(1924–2010)

**Quliyev Məhər Mustafa oğlu** Tovuz rayonu Bozalqanlı kəndində anadan olmuşdur. V.İ.Lenin adına APİ-nin kimya-biologiya fakültəsini bitirmişdir (1951). Bozalqanlı kənd yeddiillik (1946–1949), Yuxarı Öysüzlü kənd (1950–1951), Tovuz şəhər (1952–1970), Bozalqanlı kənd orta məktəblərində kimya müəllimi işləmişdir. Azərbaycan SSR-in Əməkdar müəllimi (1966), Sosialist Əməyi Qəhrəmanı (1978) fəxri adlarını almışdır. Təhsil sahəsindəki nailiyyətlərinə görə müxtəlif orden və medallarla təltif olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə məktəbə, müəllimə diqqət və qayğı daha da artırılırdı. Məhz bu illərdə respublikanın 8718 nəfər maarif işçisi SSRİ-nin orden və medalları ilə təltif olundu. Onların içərisindən daha fəal və çoxillik iş təcrübəsinə malik olan müəllimlər **«Sosialist Əməyi Qəhrəmanı»** (Məhər Quliyev), **«SSRİ xalq müəllimi»** (Zahid Şöyübov, İsrafil Şükürov, Cəbrayıl Zəkiyev) adlarına layiq görüldü, 817 nəfərə isə Respublikanın Əməkdar müəllimi fəxri adı verildi. Maarif sahəsində fədakar işinə görə minlərlə müəllim Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə, 5 mindən artıq müəllim İttifaq Maarif Nazirliyinin və Azərbaycan SSR Maarif Nazirliyinin «Maarif əlaçısı» döş nişanı ilə, 3500 nəfər Respublika Maarif Nazirliyinin,



**Cəbrayıl Zəkiyev (1927–2007)**

**Zəkiyev Cəbrayıl Nemət oğlu** Qonaqkənd rayonunun (indiki Quba rayonu) Cimi kəndində anadan olmuşdur. Quba Pedaqoji Texnikumunu bitirmiş, ikiillik müəllimlər institutunda və APİ-də ali təhsil almışdır. Qonaqkənd Partiya Komitəsində təbliğatçı, «Staxanovçu-maldar» qəzetinin redaktoru, Qonaqkənd rayon Xalq Maarif Şöbəsinin müdiri və Rayon Partiya Komitəsinin katibi vəzifələrində çalışmışdır. Qonaqkənd rayonunun ləğvi ilə əlaqədar Quba Rayon Partiya Komitəsinə təbliğatçı vəzifəsinə köçürülmüşdür (1959). Quba rayonundakı 103№-li texniki-peşə məktəbinə direktor təyin edilmiş (1960), 25 il həmin vəzifədə çalışmışdır. Azərbaycan SSR-in Əməkdar müəllimi (1973), SSRİ Xalq müəllimi (1980) fəxri adlarını almışdır.

Maarif, Ali Məktəb və Elmi İdarə Həmkarlar İttifaqı Respublika Komitəsinin Fəxri fərmanları ilə təltif edildi.

1974-cü ildən fəaliyyətdə olan «Xalq maarifi haqqında» Qanunda dəyişiklik edildi. **12 iyul 1986-cı il tarixilə *«Xalq maarifi haqqında»* Qanun yeni redaksiyada qəbul olundu** *(bax: «Xalq maarifi haqqında» Qanun. Bakı, 1987, səh.48–101).*

Yeni qəbul olunmuş qanunun uşaqların və yeniyetmələrin cansağlığının möhkəmləndirilməsinə və mühafizəsinə həsr olunmuş 63-cü maddəsində sağlam, ahəngdar inkişaf etmiş gənc nəsil tərbiyələndirmək məqsədilə dövlət orqanlarının, müəssisə, idarə və təşkilatların, həmkarlar ittifaqları təşkilatları və digər ictimai təşkilatların qarşısında təlim-tərbiyə müəssisələrində uşaqların və yeniyetmələrin cansağlığını qorumaq və möhkəmləndirmək, onların gigiyena tərbiyəsi üçün lazımi şərait yaratmaq tələbləri qoyuldu. Səhiyyə orqanlarına təhsil müəssisələrində müalicə-profilaktika və sanitar-gigiyena işini təşkil etmək barədə müvafiq tapşırıqlar verildi.

Qanunun istehsalatda peşə təliminin təşkili haqqında maddəsində azadlıqdan məhrum edilmiş şəxslərin ümumi orta təhsili, texniki peşə təhsili və ya istehsalatda peşə təliminin təşkili haqqında maddələri də yeni redaksiyada verildi. Maddənin yeni redaksiyası məhkumları ümumi orta təhsilə həvəsləndirir, peşəsi olmayan məhkumların peşə təhsili almasını, onların imtahan vermək üçün əmək qanunvericiliyində nəzərdə tutulmuş müddətə işdən azad edilməsini də təsbit edirdi.



**İsrafil Şükürov (1924–1994)**

**Şükürov İsrafil Xudaverdi oğlu** Ermənistan SSR-in Əzizbəyov rayonunda anadan olmuşdur. Naxçıvan Müəllimlər İnstitutunu (1948), V.İ.Lenin adına APİ-ni (1954) bitirmişdir. Naxçıvan MSSR-in Babək rayonunun Şıxmahmud və Təzəkənd kənd məktəblərində müəllim (1948–1957), Payız və Süst kənd məktəblərində direktor vəzifəsində işləmişdir. Ömrünün sonuna kimi Babək rayonunun Didavar kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi kimi fəaliyyət göstərmişdir (1957). Naxçıvan MSSR-in Əməkdar müəllimi (1980), SSRİ Xalq müəllimi (1984) fəxri adlarına layiq görülmüşdür.

Ümumilikdə, 70–80-ci illər təhsilin, elm və mədəniyyətin inkişafında böyük tərəqqi və irəliləyiş dövrü oldu. Bu dövrdə ümumi təhsil müəssisələrinin maddi-texniki bazası möhkəmləndirildi, məktəb tikintisi intensiv xarakter aldı.

*1978–1986-cı illərdə Azərbaycan SSR-də gündüz ümumtəhsil məktəblərinin əsas göstəriciləri*

| Məktəblər | Tədris illəri | | |
|---|---|---|---|
| | 1978/79 | 1985/86 | 1986/87 |
| Gündüz ümumtəhsil məktəblərinin sayı | 3993 | 4237 | 4253 |
| O cümlədən: İbtidai məktəb | 474 | 602 | 593 |
| % | 11,9 | 14,2 | 13,9 |
| Səkkizillik məktəb | 1647 | 1386 | 1353 |
| % | 41,2 | 32,7 | 31,8 |
| Orta məktəb | 1872 | 2249 | 2307 |
| % | 46,9 | 53,1 | 54,3 |
| Gündüz məktəblərində oxuyan şagirdlərin sayı (min nəfərlə) | 1418,6 | 1319,2 | 1292,8 |
| I siniflərə qəbul | 136,5 | 140,7 | 182,2 |
| O cümlədən: | | | |
| 6 yaşlı | – | 10,1 | 59,1 |
| 7 yaşlı | 136,5 | 4556,2 | 123,1 |
| IX siniflərə qəbul | 103,8 | 96,3 | 92,4 |
| Günüuzadılmış qruplara cəlb edilmiş şagirdlər | 250,0 | 401,2 | 390,9 |
| Məktəbyanı internatlara cəlb edilmiş şagirdlər | 6,3 | 3,1 | 2,5 |
| İki növbədə dərs aparılan məktəblər (%-lə) | 66,5 | 53,4 | 58,2 |
| İkinci növbədə oxuyan şagirdlər (%-lə) | 30,7 | 24,9 | 25,3 |
| İnternat məktəblərində oxuyan şagirdlər | 21,2 | 20,6 | 21,1 |

*(Bax: Qurultaydan-qurultaya. Azərbaycanda xalq maarifinin inkişafı (1978–1987). Bakı, 1987, səh.10.)*

**Ümumi icbari orta təhsilə keçid başa çatdırıldı və ümumi təhsilin inkişafında nəzərə çarpan yüksəlişə nail olundu. Bu illər Azərbaycanın təhsil tarixinə sonrakı onilliklərdə reallaşacaq bir çox islahatların planlaşdırıldığı dövr kimi daxil oldu.**

### 1.24. Azərbaycan müəllimlərinin X(VII) qurultayı. Azərbaycan təhsili müstəqillik ərəfəsində

80-ci illərin ortalarından **«Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında»** Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin 12 aprel 1984-cü il tarixli, həmçinin Azərbaycan KP MK və Nazirlər Sovetinin 10 iyul 1984-cü il tarixli eyniadlı qərarları ilə respublikada başlanan islahat prosesinin gedişi məsələləri Azərbaycan müəllimlərinin X (VII) qurultayında geniş müzakirə edildi. Qurultay 1987-ci il may ayının 23-də Bakıda Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) keçirildi. Qurultayı giriş sözü ilə Yevlax rayonunun Xaldan kənd orta məktəbinin direktoru, SSRİ Xalq müəllimi Zahid Şöyübov açdı. Qurultayın gündəliyi təsdiq olunduqdan sonra «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətlərinin yerinə yetirilməsinin gedişi haqqında» Azərbaycan SSR-in maarif naziri **Kamran Rəhimovun** və Respublika Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri Heydər İsayevin məruzələri dinlənildi. Qurultayda Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov geniş məruzə ilə çıxış etdi. O, qurultayı müəllimlərin böyük pedaqoji şurası kimi dəyərləndirdi, müəllimlərin gənc nəslin təlim



**Kamran Rəhimov (1928–2006)**

**Rəhimov Kamran Nəbi oğlu** Naxçıvan MR Noraşen rayonunun (indiki Şərur) Qarabağlar kəndində anadan olmuşdur. Bakı Dövlət Universitetinin tarix fakültəsini bitirmiş (1945-1950). tarix elmləri doktoru alimlik dərəcəsi almışdır (1967).

«Təbliğatçı», «Azərbaycan kommunisti» jurnallarında şöbə müdiri. baş redaktorun müavini və baş redaktor (1956-1975; 1988--1991), Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin birinci katibi (1975-1983). Azərbaycan Respublikasının maarif naziri. təhsil nazirinin birinci müavini (1983-1988) vəzifələrində işləmişdir. O, otuz il fasiləsiz olaraq Bakı Sovetinin. Naxçıvan MSSR-in, Azərbaycan SSR və SSRİ Ali Sovetinin deputatı olmuşdur.

və tərbiyəsindəki rolunu yüksək qiymətləndirdi. Qurultay öz qətnaməsində təhsil işçilərinə ümumtəhsil və peşə məktəbi islahatının sürətləndirilməsini, böyüməkdə olan gənc nəslin təhsil və tərbiyəsinin keyfiyyətinin yüksəldilməsinə diqqətin artırılmasını tövsiyə etdi. xalq maarifi və texniki peşə təhsili işçilərinə müraciət qəbul etdi *(bax: Azərbaycan müəllimlərinin qurultayları (I–XII). Bakı, 2008, səh.510–528).*

1988-ci ildə digər Sovet respublikalarında olduğu kimi, Azərbaycan SSR-də də Maarif, Ali və Orta İxtisas Təhsili nazirlikləri və Dövlət Peşə Təhsili Komitəsi ləğv edildi. Onların bazasında Azərbaycan SSR Xalq Təhsili Nazirliyi yaradıldı. Ölkənin bütün təhsil-tərbiyə müəssisələrinə rəhbərlik Azərbaycan SSR Xalq Təhsili Nazirliyinə həvalə edildi.

Təbii ki, üç nazirliyin birləşdirilməsi ilk vaxtlarda ciddi çətinliklərə səbəb oldu. Təhsilin üç sahəsinin bir mərkəzdən idarə olunması böyük struktur dəyişiklikləri aparılmasını tələb edirdi. Belə struktur dəyişikliklərinin aparılması üçün isə vaxt lazım idi. Həmin dövrdə artıq ölkə ictimaiyyətinin dincliyini pozan siyasi proseslər başlamışdı.

Onu da qeyd edək ki, 1987-ci ilin sonunda Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılması «Əsas istiqamətlər»də qarşıya qoyulan bir çox məsələlərin həllini yarımçıq qoydu...

1988-ci ildən başlayaraq həm SSRİ-də, həm də Azərbaycanda gedən ictimai-siyasi proseslər təhsildən də yan keçmədi. SSRİ-nin dağılması və Azərbaycanda baş verən Qarabağ müharibəsi, eləcə də siyasi hadisələr ümumi təhsilin inkişafında geriləməyə, böhrana səbəb oldu.

1988-ci ilin əvvəllərində Azərbaycan KP MK-nın birinci katibi Kamran Bağırov öz ərizəsinə əsasən tutduğu vəzifədən azad edildi, ölkə rəhbəri vəzifəsinə Əbdürrəhman Vəzirov təyin edildi. Artıq Azərbaycan siyasi hadisələrin xaotik axınına düşmüşdü. Belə bir şəraitdə təhsilə xüsusi diqqət ayırmaq çətin idi. Ermənistan–Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, respublikada dövlət idarəçiliyində tez-tez baş verən dəyişikliklər təhsil sistemində geriləmələrə səbəb oldu.

Dağlıq Qarabağ Muxtar Vilayətində erməni separatçıları Rusiyanın təhriki və Ermənistanın birbaşa hərbi müdaxiləsi ilə 1987-ci ilin sonu – 1988-ci ilin əvvəllərində Azərbaycanın tərkibindən çıxıb, müstəqil «respublika» yaratmaq xülyasına düşdülər. 1988-ci il fevralın 20-də DQMV Xalq Deputatları Sovetinin sessiyası bütün beynəlxalq hüquq normalarını pozaraq vilayətin Azərbaycanın tərkibindən çıxdığını elan etdi.



*Azərbaycan müəllimlərinin X(VII) qurultayının nümayəndələrindən bir qrupu. 1978-ci il 23 may*



*Azərbaycan müəllimlərinin X(VII) qurultayının nümayəndələri fasilə zamanı.*
*1978-ci il 23 may*



**Müslüm Məmmədov (1931–1999)**

**Məmmədov Müslüm Rəcəb oğlu** İsmayıllı rayonunun Lahıc qəsəbəsində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olmuş (1949). Mixail Lomonosov adına MDU-ya köçürülmüşdür (1950).

Cəlilabadda müəllim, rayon Xalq Maarif Şöbəsində inspektor (1954–1960). Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşı olmuş (1960–1962). Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin mühazirəçisi, mühazirəçilər qrupunun rəhbəri (1962–1963) vəzifələrində işləmişdir. Tarix elmləri namizədi alimlik dərəcəsi almışdır (1966).

Azərbaycan KP MK-nın aparatında işləmiş (1966–1969). Bakı şəhəri Nəsimi rayon PK-nın I katibi (1969–1975). Məşədi Əzizbəyov adına Azərbaycan Neft-Kimya İnstitutunda partiya tarixi kafedrasında baş müəllim, dosent, kafedra müdiri əvəzi (1976–1988), Azərbaycan SSR xalq təhsili naziri (1988), Bakı şəhər PK-nın I katibi (1989–1991) vəzifələrində çalışmışdır.

Həmin dövrdə, yəni 1989-cu ilin iyunundan mən Xalq Təhsili Nazirliyində Ali Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışırdım. O illər ölkənin ən çətin illəri idi. Sovet İttifaqı hələ dağılmasa da, ölkə daxilində Xalq Cəbhəsi və onun liderlərinin böyük nüfuzu var idi. Əksəriyyət inanırdı ki, Xalq Cəbhəsi hakimiyyətə gəlsə, bütün problemlər öz həllini tapacaqdır. Milli hərəkat geniş vüsət almışdı, Azadlıq meydanında davamlı mitinqlər keçirilirdi. Xalq Təhsili Nazirliyi Hökumət evinin 7-ci mərtəbəsində yerləşirdi. Biz hər gün meydandakı izdihamı seyr edirdik. Xalqın həyəcanı səngimirdi.

1989-cu ildən DQMV təhsil şöbəsi vilayətdə fəaliyyət göstərən təhsil müəssisələri haqqında respublika Xalq Təhsili Nazirliyinə, hesabat verməkdən imtina etdi. Yalnız Şuşa Rayon Təhsil Şöbəsi Xalq Təhsili Nazirliyi ilə əlaqələri davam etdirirdi. Vilayətin digər rayonlarının ərazisində yerləşən, təlim Azərbaycan dilində olan məktəblərin vəziyyəti günü-gündən ağırlaşırdı. Yaranmış şəraiti nəzərə alan respublika hökuməti Xalq Təhsili Nazirliyinin təklifi ilə həmin məktəblərə rəhbərlik və nəzarəti həyata keçirmək məqsədilə 1990-cı ildə tabeliyində 37 məktəb olan Xocalı Rayon Təhsil Şöbəsini yaratdı. Lakin hadisələr get-gedə öz məcrasından daha çox çıxır, respublikada vəziyyət daha da mürəkkəbləşirdi. Bu illər müstəqillik uğrunda çarpışan Azərbaycanın həyatında ən ağır dövr idi. Xalqın həyəcanları, mitinqlər ara vermirdi. İqtisadiyyat iflic vəziyyətə düşmüşdü. Məktəblərdə, demək olar ki, dərs keçilmirdi. Respublikamız çətin sınaq ərəfəsində idi. Siyasi hadisələrin xaotik axını hakimiyyət orqanlarını tamam çaşdırmışdı.

1990-cı ilin 20 yanvarı Sovet imperiyasının Azərbaycan xalqına divan tutduğu dəhşətli bir gün kimi tariximizə qara hərflərlə yazıldı. Azərbaycan KP MK-nın birinci katibi Əbdürrəhman Vəzirov xalqın qəzəbindən qorxub Moskvaya – öz himayədarlarının yanına qaçdı. Şəhid qanlarının üzərinə düzülmüş qərənfillər Bakının küçələrini al rəngə boyamışdı. Azərbaycan xalqı belə bir çətin məqamda ağıllı, uzaqgörən rəhbərə ehtiyac duyurdu. Hakimiyyət kürsüsündə bir-birini əvəz edən Ayaz Mütəllibov, Əbülfəz Elçibəy isə respublikanı bu çətin vəziyyətdən çıxarmaqda aciz idilər...

**Bütün bunlara baxmayaraq, demək lazımdır ki, 80-ci illərin sonunda Azərbaycanda əhalinin savadlılıq səviyyəsi kifayət qədər yüksək idi. Yaşı 15-dən yuxarı olan**



Rafiq Feyzullayev
(1943–2000)

**Feyzullayev Rafiq Babaş oğlu** Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsini bitirmişdir (1965). Xarkov Radiotexnika İnstitutunun aspiranturasında təhsil almışdır (1967–1970). Namizədlik (1971), doktorluq dissertasiyası (1985) müdafiə etmişdir. Azərbaycan Ali və Orta İxtisas Təhsili nazirinin müavini, xalq təhsili nazirinin müavini (1983–1989) və təhsil naziri (1989–1992). Respublika müdafiə nazirinin müavini, Elm və Texnika Komitəsinin sədr müavini (1992–1996) vəzifələrində işləmişdir.

Əməkdar elm xadimi fəxri adını almışdır.

42 elmi əsərin müəllifidir.

**əhalinin hər min nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumi orta, 190-ı natamam orta təhsilli idi. 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində respublikadakı 4356 ümumtəhsil məktəbində hər il orta hesabla 1,4 milyon şagird təhsil alırdı. Müəllimlərin sayı 1981/82-ci tədris ilində 101,4 min idisə, 1990-cı ilin əvvəlində 132 min nəfərə qədər artmışdı** *(bax: Народное хозяйство Азербайджанской ССР. Баку, 1982, стр. 261; Azərbaycan Milli Ensiklopediyası. «Azərbaycan» cildi. Bakı, 2007, səh.694).*

**80-ci illərin sonu, 90-cı illərin əvvəllərində baş verən siyasi proseslər qarşıya qoyulan islahatların tam reallaşmasına imkan vermədi.**

**Bununla belə, «Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»nin tələblərinə uyğun olaraq, tədris planlarında müəyyən dəyişikliklər edildi. 1985/86-cı tədris ilindən Azərbaycanın ümumtəhsil məktəblərinin X–XI siniflərində «İnformatika və hesablama texnikasının əsasları» fənninin tədrisinə başlandı.**

*«Xalq maarifi haqqında»* **Qanunun yeni redaksiyasında nəzərdə tutulan bir çox məsələlər (təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsi, əmək tərbiyəsi, əmək təlimi və peşəyönümü işinin kökündən yaxşılaşdırılması, təhsilin keyfiyyəti ilə bağlı şagirdlərin məsuliyyətinin artırılması, tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimin ictimai nüfuzunun yüksəldilməsi, ümumi orta təhsildə tədrisin təmayüllər və dərinləşdirilmiş siniflər əsasında qurulması, məktəbin strukturunun və xalq təhsilinin idarə edilməsinin təkmilləşdirilməsi) ümumi orta təhsilə 6 yaşdan başlanması, ümumi orta təhsilin müddətinin onbirillik olması, «Bilik günü»nün təsis edilməsi haqqında təkliflərin icrası həyata keçirildi.**

### 1.25. 40–80-ci illərdə məktəbəqədər tərbiyə müəssisələrinin inkişafı

40–60-cı illərdə SSRİ Ali Soveti Rəyasət Heyətinin qəbul etdiyi qərarlar SSRİ-nin bütün müttəfiq respublikalarında, o cümlədən Azərbaycanda məktəbəqədər tərbiyə müəssisələrinin inkişafına böyük təkan verdi. **«Hamilə qadınlara, çoxuşaqlı və tək analara dövlət qayğısının gücləndirilməsi və «Qəhrəman ana» fəxri adının təsis edilməsi haqqında»** (1944), **«Müəssisə və təşkilatlarda çalışan analara kömək göstərilməsi tədbirləri haqqında»** (1956), **«Uşaq məktəbəqədər müəssisələrinin inkişafı, məktəbəqədər**

**yaşlı uşaqların tərbiyəsinin və onlara göstərilən tibbi xidmətin yaxşılaşdırılması haqqında»** (1959) qərarlara uyğun olaraq, respublikamızda da ehtiyacı olan hamilə qadınlar üçün xüsusi istirahət, ana və uşaq evləri təşkil edildi. Fəhlə və qulluqçuların uşaqlarına xidmət göstərən körpələr evləri müvafiq səhiyyə nazirlikləri və idarələrin sərəncamına verildi.

1959-cu il qərarına əsasən körpələr evləri və uşaq bağçaları birləşdirildi, vahid uşaq məktəbəqədər təhsil müəssisələri yaradıldı.

*1940–1960-cı illərdə respublikada məktəbəqədər tərbiyə müəssisələri və bu müəssisələrdəki uşaqların sayı*

| İllər | Məktəbəqədər tərbiyə müəssisələri | Uşaqların sayı |
|---|---|---|
| 1940 | 1298 | 56900 |
| 1950 | 850 | 30951 |
| 1960 | 1006 | 53000 |

Cədvəldən də göründüyü kimi, 1940-cı ildən 1960-cı ilə qədərki dövrdə məktəbəqədər tərbiyə müəssisələrinin artım dinamikası çox qeyri-stabil olmuşdur. Məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1950-ci ildə 40-cı ilə nisbətən 448 vahid azalmış, bu müəssisələrdə tərbiyə alan uşaqların sayı isə 56900 nəfərdən 30951 nəfərə enmişdir. 1960-cı ilin göstəriciləri isə 50-ci ilə nisbətən yüksək olsa da, 1940-cı ilin göstəricilərindən xeyli aşağı olmuşdur.

50-ci illərin əvvəllərində müşahidə olunan kəskin azalma İkinci Dünya müharibəsinin yaratdığı çətinliklərlə bağlı idi.

60-cı illərin ikinci yarısında məktəbəqədər tərbiyə müəssisələrinin inkişafında müəyyən irəliləyişlər oldu.

**1973-cü ildə SSRİ Ali Soveti Rəyasət Heyəti «Kolxozlarda uşaq məktəbəqədər müəssisələri şəbəkəsinin inkişaf tədbirləri haqqında» qərar qəbul etdi.** Bu qərara əsasən kolxozçuların bu tipli müəssisələrə olan tələbatının ən qısa müddətdə maksimum ödənilməsi nəzərdə tutulurdu.

Azərbaycan SSR Ali Sovetinin 1974-cü ildə qəbul etdiyi *«Xalq maarifi haqqında»* Qanun məktəbəqədər tərbiyənin inkişafında böyük rol oynadı. Qanunun 2-ci bölməsi məktəbəqədər tərbiyəyə həsr olunmuşdu. Burada məktəbəqədər tərbiyənin vəzifələri, məktəbəqədər uşaq tərbiyə müəssisələrinin təşkili, bu tipli müəssisələrə pedaqoji rəhbərlik və tibbi xidmət barədə xüsusi maddələr var idi. Qanun, həmçinin fiziki və ya zehni inkişafında qüsurlar olan uşaqların tərbiyəsi və təlimi üçün məktəbəqədər xüsusi uşaq tərbiyə müəssisələri yaradılmasını nəzərdə tuturdu.

Məktəbəqədər təhsil müəssisələrinin və onlarda tərbiyə olunan uşaqların inkişaf dinamikası göstərir ki, 70–80-ci illər stabil, dinamik və intensiv yüksəliş dövrü olmuşdur. Müqayisə üçün deməliyik ki, əgər 1971-ci ildə respublikada 110300 uşağı əhatə edən 1529 məktəbəqədər tərbiyə müəssisəsi fəaliyyət göstərirdisə, 1979-cu ildə onların sayı 1824-ə, burada tərbiyə alan uşaqların sayı isə 139600 nəfərə çatmışdı. Göstərilən müddət ərzində 295 yeni müəssisə fəaliyyətə başlamış, uşaqların sayı 29300 nəfər artmışdı. Məktəbəqədər müəssisələrdə çalışan 11700 tərbiyəçinin 74%-i ali və orta pedaqoji təhsilli idi.



*Bakı şəhər 59 №-li uşaq bağçasının linqafon otağında məşğələ*



*Şuşa şəhər körpələr evində nahar*



*Gəncə şəhərindəki uşaq bağçasında məşğələ*



*Gəncə uşaq bağçasının avtoşəhərciyində*

*70–80-ci illərdə məktəbəqədər müəssisələr*

| | 1970 | 1980 | 1985 | 1986 | 1987 | 1988 |
|---|---|---|---|---|---|---|
| Daimi məktəbəqədər müəssisələrin sayı | 1600 | 1875 | 2001 | 2075 | 2074 | 2088 |
| Onlardan: | | | | | | |
| Körpələr evi – cəmi | 350 | 289 | 242 | 206 | 181 | 172 |
| O cümlədən: şəhərlərdə | 160 | 124 | 101 | 79 | 72 | 65 |
| kəndlərdə | 190 | 165 | 141 | 127 | 109 | 107 |
| uşaq bağçaları - cəmi | 666 | 640 | 616 | 682 | 620 | 636 |
| O cümlədən: şəhərlərdə | 458 | 376 | 340 | 370 | 327 | 331 |
| kəndlərdə | 208 | 264 | 276 | 312 | 293 | 305 |
| körpələr evi, uşaq bağçaları | 584 | 946 | 1143 | 1187 | 1273 | 1280 |
| O cümlədən: şəhərlərdə | 457 | 676 | 774 | 778 | 818 | 818 |
| kəndlərdə | 127 | 271 | 369 | 409 | 455 | 462 |
| Daimi məktəbəqədər müəssisələrdə uşaqların sayı (min nəfərlə) | 110,6 | 147,1 | 165,5 | 175,5 | 181,3 | 182,6 |
| Onlardan: | | | | | | |
| körpələr evində – cəmi: | 10,6 | 8,4 | 6,4 | 5,8 | 5,5 | 4,8 |
| O cümlədən: şəhərlərdə | 7,4 | 5,6 | 4,0 | 3,8 | 3,7 | 2,8 |
| kəndlərdə | 3,2 | 2,8 | 2,4 | 2,0 | 1,8 | 2,0 |
| uşaq bağçalarında – cəmi: | 51,0 | 36,7 | 33,5 | 37,3 | 34,0 | 35,0 |
| O cümlədən: şəhərlərdə | 45,7 | 29,9 | 26,0 | 28,6 | 25,8 | 26,3 |
| kəndlərdə | 5,3 | 6,8 | 7,5 | 8,7 | 8,2 | 8,7 |
| uşaq bağçaları - cəmi | 49,0 | 102,0 | 125,6 | 132,0 | 141,8 | 142,8 |
| O cümlədən: şəhərlərdə | 44,3 | 90,3 | 107,1 | 110,9 | 118,7 | 117,3 |
| kəndlərdə | 4,7 | 11,7 | 18,5 | 21,1 | 23,1 | 25,5 |
| Müvafiq yaşda olan uşaqların daimi məktəbəqədər müəssisələrlə təmin olunması (faizlə) | 12 | 19 | 20 | 20 | 20 | 20 |
| şəhərlərdə | 27 | 33 | 32 | 32 | 32 | 32 |
| kəndlərdə | 2 | 6 | 7 | 7 | 7 | 7 |

***Qeyd:*** *Daimi məktəbəqədər müəssisələrdən başqa, yay aylarında mövsümi müəssisələr də təşkil olunurdu.*

Həmin dövrdə məktəbəqədər tərbiyə müəssisələrinin maddi-texniki bazası da xeyli möhkəmləndirilmiş, 35200 yerlik məktəbəqədər tərbiyə müəssisəsi tikilib istifadəyə verilmişdi. Bunlar, əsasən, yeni tipli – 140 və 280 yerlik körpələr evi, uşaq bağçaları idi.

**Azərbaycan SSR Nazirlər Soveti «Respublikada məktəbəqədər müəssisələrin vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlər haqqında» 30 may 1975-ci il tarixli qərar qəbul etdi.** Həmin qərarda məktəbəqədər təhsil müəssisələrinin inkişafı, fəaliyyətlərinin yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi üzrə tədbirlər müəyyən edilmişdi.

Azərbaycan SSR Nazirlər Soveti *«Uşaqların məktəbəqədər tərbiyəsini daha da yaxşılaşdırmaq və onların məktəb təliminə hazırlanması haqqında»* 21 may 1984-cü il tarixli qərarında yeni tipli «Bağça-məktəb» komplekslərinin yaradılması, kolxoz və sovxozların hesabına məktəbəqədər tərbiyə müəssisələri üçün yeni tipli binaların tikilməsi, onlara sənaye, kənd təsərrüfatı müəssisələrinin hamilik işinin təşkili, paylanması məsələlərinə xüsusi diqqət yetirilirdi.

*Azərbaycan SSR-də 1987–1991-ci illərdə məktəbəqədər tərbiyə müəssisələri, oradakı uşaqların və pedaqoji işçilərin sayı*

| İllər | Məktəbəqədər tərbiyə müəssisələrinin sayı | Uşaqların sayı | Pedaqoji işçilərin sayı |
|---|---|---|---|
| 1987 | 2074 | 181300 | 17907 |
| 1988 | 2088 | 182500 | 18842 |
| 1989 | 2195 | 190600 | 19089 |
| 1990 | 2185 | 180800 | 19700 |
| 1991 | 2168 | 173000 | 19846 |

*Azərbaycan SSR-də 1987–1991-ci illərdə inşa edilən məktəbəqədər tərbiyə müəssisələrinin sayı*

| İllər | Məktəbəqədər tərbiyə müəssisələrinin sayı | Neçə yerlik |
|---|---|---|
| 1987 | 86 | 10246 |
| 1988 | 83 | 8533 |
| 1989 | 66 | 6255 |
| 1990 | 58 | 5595 |
| 1991 | 56 | 5275 |

80-ci illərin sonu, 90-cı illərin əvvəllərində respublikada 2185 məktəbəqədər təhsil müəssisəsində 180800 uşaq tərbiyə olunurdu.

### 1.26. Məktəbdənkənar təhsil müəssisələrinin yaranması və inkişafı (1920–1991-ci illər)

Təhsil sisteminin tərkib hissəsi olan məktəbdənkənar təhsil müəssisələrinin sistemli şəkildə təşkilinə Azərbaycanda 1920-ci ildə başlandı. Məktəbdənkənar təhsil müəssisələri uşaq, yeniyetmə və gənclərin maraq və bacarıqlarının, intellektual səviyyələrinin və yaradıcılıq qabiliyyətlərinin inkişafı və fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaratmaq, onların istirahətlərini, asudə vaxtlarını, əyləncələrini təşkil etməyə xidmət edir.

Yeni yaradılmış bu tipli tərbiyə müəssisələrinin fəaliyyətini tənzimləmək məqsədilə Azərbaycan SSR Xalq Maarif Komissarlığı strukturunda «Məktəbdənkənar təhsil» şöbəsi yaradıldı. Azərbaycan Xalq Maarif Komissarlığının «Məktəbdənkənar təhsil»

şöbəsinin fəaliyyəti haqqında 29 iyun 1920-ci il tarixli hesabatında həmin şöbənin əsas vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdi: respublikanın yaşlı əhalisinin maarifləndirilməsi; məktəblilərin elm, mədəniyyət və incəsənətin müxtəlif növləri üzrə biliklərinin genişləndirilməsi; məktəblilərin asudə vaxtlarının səmərəli təşkili. Bu şöbədən əlavə, uşaqlarla məktəbdənkənar işi Xalq Maarif Komissarlığının Sosial Tərbiyə Baş İdarəsi, Həmkarlar İttifaqları və digər təşkilatlar da aparırdı.

1920-ci ilin iyununda ilk dəfə Bakının Zavağzal rayonunda tütün fabrikinin nəzdində «Sevinc» uşaq klubu yaradıldı. Klubda xor, ədəbiyyat, xoreoqrafiya dərnəkləri fəaliyyət göstərirdi. Tarixi şəraitin tələbinə uyğun olaraq, tədris işinin yeni forması kimi yaranmış bu klublar sonralar məktəbdənkənar təhsil (tərbiyə) müəssisələrinin təşkili baxımından əhəmiyyətli rol oynadı.

1920-ci ildən başlayaraq *pioner, yeniyetmə* və *komsomol klubları* yaradıldı. Tezliklə bu tipli uşaq klublarının bazasında daha geniş məzmunlu məktəbdənkənar tərbiyə müəssisələri – *pioner evləri və sarayları* meydana gəldi.

Azərbaycanda 20-ci illərdə təşkil olunan məktəbdənkənar tərbiyə müəssisələrinin başqa bir tipi də Bakıda yaradılan *uşaq kitabxanaları* və *Uşaq Teatr Studiyası* idi.

Azərbaycanda ilk uşaq kitabxanası 1920-ci ildə təşkil olundu. Uşaq kitabxanalarında mədəni-kütləvi tədbirlərin həyata keçirilməsi məqsədilə həmin müəssisələrin nəzdində yeniyetmə klubları təşkil edildi.

Məktəbdənkənar təhsilin nəzəri və praktik problemlərini işıqlandırmaq məqsədilə «Məktəbdənkənar təhsil» adlı jurnal nəşr etmək qərara alındı. Sonralar həmin jurnal «Xalq maarifi» adı ilə nəşr edildi *(bax: Azərbaycan arxivi, Bakı, 1983, №1, səh.7–11).*

Xalq Maarif Komissarlığının yaratdığı «Uşaq klubları» məktəbdənkənar tərbiyə işi sahəsində görülən ən ciddi tədbirlərdən biri idi. Məhz həmin vaxt Xalq Maarif Komissarlığının Kollegiyası *«II pillə məktəb şagirdlərinin təşkilatları haqqında»* nizamnamə qəbul etdi. Nizamnamə bu sahədə ilk hüquqi sənəd idi.

1922-ci ildə «Gənc elektrotexniklər», 1923-cü ildə «Aviamodelçilər» dərnəkləri fəaliyyətə başladı. Bakı Maarif Evində isə «Gənc təbiətçilər» dərnəyi yaradıldı.

Artıq 1924-cü ildə respublikanın iri şəhərlərində 6 komsomol klubu fəaliyyət göstərirdi.

Şəhərlərdə yaradılan bu klubların məntiqi davamı kimi kəndlərdə və rayon mərkəzlərində *«Kolxozçu uşaq evləri»* adlı məktəbdənkənar müəssisələr yaradıldı. **«Kolxozçu uşaq evlərinin Əsasnaməsi»**ndə onların vəzifələri aşağıdakı kimi müəyyənləşdirilmişdi:

- uşaqları tərbiyə etmək;
- pioner və məktəblilərin dərsdənkənar mədəni-kütləvi tədbirlərini həyata keçirmək;
- məktəblilərin istirahətini təşkil etməkdə məktəbə yardım etmək.

22 iyul 1923-cü ildə Azərbaycan Ali Bədən Tərbiyəsi Şurası yaradıldı. Respublikada bədən tərbiyəsi və idmana rəhbərlik həmin Şuraya həvalə edildi. Elə həmin il Xanlar (indiki Göygöl), Zaqatala və Qazaxda ilk idman dərnəkləri təşkil edildi.

Üzgüçülük əsas etibarilə Bakının Qaraşəhər sahəsində, Bayıl qəsəbəsində, Xəzər sahilindəki su stansiyalarında inkişaf etdirilirdi.

1925-ci ildə ağır atletika, yüngül atletika və basketbol üzrə respublika yarışları keçirilmişdi.

Respublika Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi 1928-ci il oktyabr ayının 1-də Bakı Bioloji Stansiyası kimi fəaliyyətə başladı. Bakı Xalq Maarif Şöbəsinin qərarı ilə 19 iyun 1929-cu ildə Bioloji Stansiyanın adı dəyişdirilərək «Bakı Pedaqoji Aqrobiostansiyası» adlandırıldı. Artıq həmin illərdə Biostansiyada «Gənc təbiətçilər» dərnəkləri və zooloji sərgi fəaliyyət göstərirdi. Bununla Azərbaycanda gənc təbiətçilər hərəkatının təməli qoyuldu. Məktəblərdə, uşaq evlərində canlı guşələr, təbiəti sevənlər və öyrənənlər üçün dərnəklər yaradılmağa başlandı.

1929-cu ildə Bakıda «Proletar» uşaq kinoteatrı (sonralar «Vətən» adlandırıldı), uşaq və yeniyetmələrin texniki biliklərə, habelə bədii yaradıcılığa olan tələbatını ödəmək məqsədilə Azərbaycan SSR Xalq Maarif Komissarlığının 10 oktyabr 1930-cu il tarixli qərarı ilə Mərkəzi Uşaq Texniki Stansiyası yaradıldı. Bundan az müddət sonra *Bakı Gənc Texniklər Stansiyası* fəaliyyətə başladı. 1931-ci ildə Bakı Kukla Teatrı, böyüməkdə olan nəslin bədii yaradıcılığını inkişaf etdirmək məqsədilə 1932-ci ildə Azərbaycan Mədəni-Kütləvi bədii sənət studiyası, 1935-ci ildə isə Uşaq Dəniz donanması və uşaq stadionları istifadəyə verildi.

1933-cü ildə Bakı Uşaq Bədii Tərbiyə Stansiyası yaradıldı. 1935-ci ildə onun adı dəyişdirilərək *«Bakı Uşaq Bədii Tərbiyə Evi»* adlandırıldı.

Məktəblilər arasında turizm, ekskursiya ədəbi gecələr və viktorinaların təşkili məqsədilə 1933-cü ildə Bakıda *Uşaq Ekskursiya-Turizm Stansiyası* yaradıldı. 1935-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı və Azərbaycan SSR Həmkarlar İttifaqı Şurasının təşəbbüsü ilə Bakıda ilk *Uşaq gimnastika məktəbi* fəaliyyətə başladı. Məktəbdə yüngül atletika, idman oyunları, qılıncoynatma, üzgüçülük üzrə dərnəklər yaradıldı.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 13 sentyabr 1936-cı il tarixli qərarı ilə Bakıda Mərkəzi Pionerlər Evi yaradıldı. (1941-ci ildə isə onun adı dəyişdirilərək Respublika Uşaqların Bədii tərbiyə Evi, 1952-ci ildən Azərbaycan Mərkəzi Pionerlər Evi, 1963-cü ildən isə Yuri Qaqarin adına Bakı Pioner və Məktəblilər Sarayı adlandırıldı.)

1936-cı il fevral ayının 16-da Bakı Fiziki Tərbiyə Şurasının nəzdində yüngül atletika və şahmat – dama məktəbləri təşkil edildi.

1938-ci ildə Gəncə şəhərində Gənc Təbiətçilər Stansiyası yaradıldı. Burada 131 məktəblinin iştirak etdiyi 8 dərnək fəaliyyət göstərirdi.

Ümumilikdə, 1938-ci ilə dair məlumata görə, Azərbaycan SSR-də 5279 məktəbdənkənar müəssisə fəaliyyət göstərirdi.

1939/40-cı illərdə ümumtəhsil məktəblərində fiziki tərbiyə sahəsində müəyyən uğurlar qazanıldı. **Bu nailiyyətlərin daha da inkişaf etdirilməsində Azərbaycan K(b)P Mərkəzi Komitəsinin «Pioner və məktəblilərin Respublika idman yarışları haqqında» 16 aprel 1940-cı il tarixli qərarı müəyyən rol oynadı.** Həmin qərara müvafiq olaraq 1940-cı ilin yazında məktəblilərin I Respublika Spartakiadası keçirildi.

1940-cı ildə Bakı gənc texniklər stansiyasında məktəblilər tərəfindən hazırlanmış itisü-

rətli «Qaranquş» hərbi gəmisi Parisdə Beynəlxalq sərgidə nümayiş etdirilmişdi.

İkinci Dünya müharibəsi məktəbdənkənar tərbiyə müəssisələrinin işində müəyyən durğunluq yaratsa da, onlar öz fəaliyyətlərini dayandırmadılar.

1941-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığının qəbul etdiyi ***«Məktəbdənkənar müəssisələrin iş və vəzifələri»*** adlı sənəddə məktəbdənkənar müəssisələrin fəaliyyət perspektivləri müəyyənləşdirildi.

1943-cü ilin oktyabrında Texniki-Peşə məktəbləri şagirdlərinin mədəniyyət evinin bazasında, Respublika Ehtiyat Əmək Qüvvələrinin Mədəniyyət Evi yaradıldı.

Müharibədən sonrakı dövrdə məktəbdənkənar müəssisələrin fəaliyyəti daha da genişləndirildi, bağlanmış müəssisələr yenidən fəaliyyətə başladı.

1947-ci ildə Bakı Uşaq Dəmiryolu işə düşdü.

1949-cu il aprel ayının 16-da Bakı şəhərində Gənc təbiətçilər stansiyası yaradıldı. Bu dövrdə respublikada fəaliyyət göstərən 3 təbiətçilər stansiyasındakı 34 dərnəkdə 524 məktəbli təcrübələr aparır, təbiəti mühafizə işləri ilə məşğul olurdu.

1949-cu ilin iyulunda Şamxorda (indiki Şəmkir rayonu) gənc aviamodelçilərin XII respublika yarışları keçirildi. Yarışları Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsi, Azərbaycan SSR Maarif Nazirliyi və Hava Donanmasına Könüllü Yardım Cəmiyyəti təşkil etmişdi. Yarışlarda komandalar və ayrı-ayrı uşaqlar öz modellərini nümayiş etdirirdilər. Həmin yarışlarda komanda üzrə birinci yeri Mərkəzi Pionerlər Evinin yetirmələri tutdu.

1949-cu ilin dekabrında Bakıda Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında 92 nəfər gənc aviamodelçini birləşdirən 6 komandanın yarışı keçirildi. Yarışda fuzelyajlı hidro-təyyarə modeli 5 dəqiqə 36 saniyə havada qalaraq, Ümumittifaq rekordu əldə etdi.

Bundan bir az sonra – 1950-ci ilin iyulunda keçirilmiş XIII respublika yarışlarında gənc aviamodelçilərin fuzelyajlı planer modeli 3 saat 18 dəqiqə havada qaldı. Bu haqda Moskvaya, oradan da Parisə – dünya rekordlarını qeydə alan komitəyə teleqram vuruldu.

Parisdən belə bir teleqram gəldi: «Nəticə dünya rekordudur». Gənc aviamodelçilər XV Ümumittifaq yarışlarında da uğurla çıxış etdilər. Onlar SSRİ-nin 78 ən güclü komandası arasında birinci yerə çıxdılar.

Mərkəzi Pioner Evinin təsviri incəsənət dərnəyinin üzvü Fərhad Hüseynov «Çoban» rəsminə görə V Ümumittifaq sərgisində birinci dərəcəli mükafat almış və Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı Mərkəzi Komitəsinin Fəxri Fərmanı ilə təltif edilmişdi. Pioner Firudin Hüseynov bu sərgidə üçüncü dərəcəli mükafat almışdı.

**1952-ci il iyun ayının 19-da Azərbaycan SSR Nazirlər Sovetinin «Məktəbdənkənar tərbiyə müəssisələri şəbəkəsinin nizama salınması qaydalarının müəyyən edilməsi haqqında» qərarı respublikada məktəbdənkənar təhsil müəssisələri şəbəkəsinin inkişafında mühüm rol oynadı.** Azərbaycan Mərkəzi Pionerlər Evinin (1963-cü ildən Yuri Qaqarin adına Bakı Pioner və Məktəblilər Sarayı) rəqs ansamblı 1951-ci ildə Almaniyanın Berlin

*1938–1958-ci illərdə məktəbdənkənar tərbiyə müəssisələrinin inkişaf dinamikası*

| № | 1938 | | 1945 | | 1958 | |
|---|---|---|---|---|---|---|
| | Adı | Sayı | Adı | Sayı | Adı | Sayı |
| 1. | Rayon pioner evləri | 31 | Pionerlər evi | 37 | Pionerlər sarayı | 1 |
| 2. | Mərkəzi pioner evi | 1 | Mərkəzi pioner evi | 1 | Pionerlər evi | 81 |
| 3. | Kolxozçu uşaq evləri | 20 | Kolxozçu uşaq evləri | 25 | Gənc texniklər stansiyaları | 5 |
| 4. | Uşaq stadion və mədə-niyyət parkları | 12 | Uşaq mədəniyyət və istirahət parkları | 9 | Gənc təbiətçilər stansiyası | 5 |
| 5. | Uşaq su stansiyaları | 3 | Uşaq su Stansiyası | 2 | Uşaq ekskursiya-turist stansiyası | 1 |
| 6. | Avtomodel laboratoriya | 5 | Avtomodel laboratoriya | 5 | Uşaq Dəniz donanması | 1 |
| 7. | Uşaq texniki və kənd təsərrüfatı stansiyaları | 21 | Uşaq gənc texniklər və təbiətçilər stansiyaları | 25 | Uşaq Bədən Tərbiyəsi Evi | 1 |
| 8. | Uşaq Ekskursiya Turist Stansiyası | 1 | Uşaq idman bazaları | 20 | Uşaq kinoteatrı | 2 |
| 9. | Məktəblilər üçün İdman bazaları | 16 | İdman atletika klubu | 1 | Uşaq kitabxanası | 71 |
| 10. | Uşaqlarla kütləvi iş aparan meydançalar | 9 | Səyyar uşaq klubu | 12 | Gənc Tamaşaçılar Teatrı | 1 |
| 11. | Uşaq Atıcılıq Klubu | 1 | Uşaq Dəniz donanması | 1 | Kukla Teatrı | 1 |
| 12. | Uşaq Dəniz donanması | 1 | Mərkəzi gənc fiziklər klubu | 1 | Uşaq mədəniyyət və istirahət parkı | 11 |
| 13. | Uşaq teatrları | 2 | Uşaq Bədii Tərbiyə Evi | 2 | Uşaq idman məktəbi | 17 |
| 14. | Uşaq kitabxanaları | 35 | Uşaq kitabxanası | 23 | Uşaq dəmiryolu və aqrobioloji stansiya | 1 |
| 15. | Uşaq kinoteatrı | 2 | Uşaq kinoteatrı | 2 | Şəhər pioner düşərgəsi | 2 |
| 16. | Uşaq Bədii Tərbiyə Evi | 1 | Gənc Tamaşaçılar Teatrı | 1 | Mərkəzi idman məktəbi | 84 |
| 17. | Uşaq klubları | 25 | Uşaq idman məktəbləri | 8 | Mərkəzi futbol məktəbi | 1 |
| 18. | Məktəbyanı yay meydançaları | 81 | | | Mərkəzi pioner və məktəblilər parkı | 1 |
| 19. | Məktəb nəzdində «məktəbdənkənar otaqlar» | 3020 | | | Məktəb kitabxanası | 1 |
| 20. | Məktəb kitabxanaları | 1991 | | | Uşaq yay meydançası | 3431 |
| 21. | Uşaq səyyar klubu | 1 | | | | 63 |

şəhərində qastrol səfərində oldu, 1955-ci ildə Varşavada keçirilən Ümumdünya tələbə və gənclər festivalında iştirak etdi.

1957-ci ildə Mərkəzi Pionerlər Evinin rəqs ansamblı Moskva şəhərində keçirilən VI Ümumdünya festivalında, yaxşı çıxış etdiyinə görə Ümumdünya Həmkarlar Təşkilatı Şurasının və Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının Fəxri Fərmanı ilə təltif edildi. Pionerlər Evinin mahnı və rəqs kollektivi, xalq çalğı alətləri ansamblı 1959-cu ildə Moskva şəhərində keçirilən Azərbaycan incəsənəti ongünlüyündə uğurla çıxış etdiyinə görə SSRİ Ali Sovetinin Rəyasət Heyəti tərəfindən «Şərəf nişanı» ordeni ilə təltif edildi. Elə həmin ildə Mərkəzi Pionerlər Evinin nəzdində məşhur



*Böyükağa Məmmədovun «Cücələrim» ansamblının üzvləri Moskvada. 1968-ci il*



*Sudan maarif işçiləri Respublika Pioner və Məktəblilər Sarayının qonağıdır*



*Aviamodelçilər dərnəyində məşğələ zamanı*



*Bakı şəhər gənc texniklər studiyası. 1969-cu il*



*«Burevestnik» idman cəmiyyətinin boksçuları məşq zamanı. 1972-ci il*



*SSRİ Şahmat Federasiyasının Prezidenti Vitali Sevastyanov məktəblilərin Ümumittifaq Şahmat Festivalının bağlanış mərasimində. 1981-ci il*



*Radiotexniklər dərnəyində məşğələ zamanı. 1984-cü il*

«Cücələrim» rəqs ansamblı yaradıldı. Fəaliyyətini uğurla davam etdirən ansambl dünyanın 50-dən çox ölkəsində Azərbaycanı layiqincə təmsil etdi.

1959-cu ildə «Mərkəzi pioner və məktəblilər parkı»nın (1973-cü ildə Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə adı dəyişdirilərək «Uşaq parkı» adlandırıldı) nəzdində fəaliyyət göstərən ilk «Şən və hazırcavablar komandası» (Süleyman Ələsgərov, Yuli Qusman, Leonid Vaynşteyn və b.) SSRİ-də keçirilən ilk intellekt yarışında I yeri tutdu.

1965-ci ildən etibarən respublikada məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti yenidən qurulmağa başladı.

Azərbaycan SSR Nazirlər Sovetinin 12 may 1966-cı il tarixli qərarı ilə Maarif Nazirliyinin tabeliyində olan idman məktəblərinin iş fəaliyyətini genişləndirmək və onlara metodiki kömək göstərmək məqsədilə Respublika İdman Məktəbi yaradıldı.

Məktəbdənkənar təhsil müəssisələrinin inkişafı və formalaşmasında 70–80-ci illər xüsusi mərhələ təşkil edir. Bu mərhələdə məktəbdənkənar uşaq (gənclər) müəssisələrinin şəbəkəsi xüsusilə genişləndi.

1974-cü ildə Bakıda Futbol Məktəbi üçün idman kompleksinin təməli qoyuldu və 1976-cı ilin sonunda bu kompleks istifadəyə verildi. Həmin ildən məktəb «İxtisaslaşdırılmış Futbol məktəbi» adlandırıldı.

**«Respublikada bədən tərbiyəsi və idmanın daha da inkişaf etdirilməsi tədbirləri haqqında» Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti tərəfindən 1974-cü**




*Aynur Sofiyeva Ümumittifaq turnirində. 1986-cı il*



*Xalçaçılıq studiyasında*

**ilin avqust ayında qərar qəbul edildi.** Qərardan sonra respublikada çoxlu sayda idman qurğuları inşa edildi, idmanın kütləviliyi artırıldı. Yarışlarda uğurlar qazanan idmançılar və onların məşqçiləri dövlət tərəfindən mükafatlandırıldı. Bir qrup məşqçi «Əməkdar məşqçi» fəxri adına layiq görüldü.

Respublika şahmat məktəbinin yetirmələri Aynur Sofiyeva, Firuzə Vəlixanlı və Nigar Sultanova 1986-cı ildə SSRİ Xalqlarının Spartakiadasında Azərbaycan qadınlarından ibarət yığma komandanın tərkibində qalib adına layiq görüldülər. Az sonra Aynur Sofiyeva 20 yaşadək qızlar arasında Dünya Birinciliyində II yeri, həmin ildə tələbələrin Dünya çempionatında I yeri tutdu.

Azərbaycan SSR Nazirlər Sovetinin 15 dekabr 1981-ci il tarixli qərarına əsasən 1968-ci ildən Bakı şəhər Xalq Maarif Şöbəsinin nəzdində fəaliyyət göstərən Şahmat məktəbi 1982-ci ilin yanvar ayının 1-dən Maarif Nazirliyinin nəzdində Respublika Şahmat məktəbinə çevrildi.

Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Sovetinin 24 iyun 1982-ci il tarixli qərarı ilə 1983-cü ilin yanvarın 1-də uşaqların təsviri yaradıcılığı üzrə Respublika Tədris-Metodiki Mərkəz yaradıldı. Bu mərkəz 1986-cı ildən estetik tərbiyə üzrə respublika Tədris-Metodiki Mərkəzi kimi fəaliyyət göstərməyə başladı.

Respublikada 1985-ci ildə 41 gənc təbiətçilər stansiyasında 482 dərnəkdə 7750 gənc təbiətçi məşğul olurdu. Bu illərdə Azərbaycan məktəblərinin təbiəti mühafizə sahəsində iştirakının genişləndirilməsində gənc təbiətçilər stansiyalarının rolu daha da artdı. Yaşıl və mavi patrul dəstələrinin, şagird tədris-istehsalat briqadalarının, düşərgələrin təşkili təbiətə və təbii sərvətlərə qayğıkeş münasibətin formalaşdırılması istiqamətində fəaliyyəti gücləndirildi. Kiçikyaşlı məktəblilər müxtəlif profilli gənc təbiətçilər dərnəklərində, orta və yuxarı sinif şagirdləri isə həm dərnəklərdə, həm də şagird elmi cəmiyyətlərində, klublarda məşğul olurdular.



*Ağdam Maarif İşçiləri Evinin «Ulduz» həvəskar kinostudiyasında məşğələ zamanı*



*«Arzu» estrada orkestri çıxış zamanı. 1971-ci il*



*Cıdır düzündə təşkil olunmuş «Xarı bülbül» festivalının iştirakçıları. Şuşa. 1985-ci il*



*Festival iştirakçılarının çıxışı. Şuşa. 1985-ci il*

*Azərbaycan SSR-də məktəbdənkənar müəssisələr*

| № | Müəssisələrin adı | 1970 | | 1980 | | 1990 | |
|---|---|---|---|---|---|---|---|
| | | Müəssisələrin sayı | Uşaqların sayı (min nəfər) | Müəssisələrin sayı | Uşaqların sayı (min nəfər) | Müəssisələrin sayı | Uşaqların sayı (min nəfər) |
| | **Cəmi o cümlədən:** | **751** | **386** | **1276** | **618** | **1405** | **790** |
| 1. | Pionerlər evi və məktəblilər sarayı | 84 | 26 | 88 | 48 | 91 | 69 |
| 2. | Gənc texniklər mərkəzi | 12 | 3 | 36 | 14 | 69 | 44 |
| 3. | Gənc naturalistlər mərkəzi | 5 | 2 | 32 | 10 | 65 | 40 |
| 4. | Ekskursiya-turistlər stansiyası | 1 | 3 | 3 | 7 | 8 | 5 |
| 5. | Uşaq parkları | 13 | 1 | 9 | 2 | 8 | 4 |
| 6. | Uşaq dəmiryolları | 1 | 1 | 1 | 1 | 1 | 15 |
| 7. | Pioner düşərgələrinin sayı | 347 | 89 | 698 | 170 | 593 | 133 |
| 8. | Uşaq musiqi və rəssamlıq məktəbləri | 84 | 18 | 117 | 28 | 210 | 43 |
| 9. | Müstəqil uşaq kitabxanaları | 94 | 216 | 103 | 286 | 118 | 307 |
| 10. | Uşaq-gənclər idman məktəbləri | 73 | 26 | 125 | 50 | 242 | 130 |
| 11. | Uşaqlara əlavə təhsil verən digər tədris müəssisələri | 37 | 1 | 64 | 2 | – | – |

***Qeyd:** Cədvəl Azərbaycan Respublikası Statistika Komitəsinin məlumatı əsasında hazırlanmışdır.*

Gənc təbiətçilər stansiyalarının və məktəblərin tədris-təcrübə sahələrində bioloji, aqrotexniki, aqrokimyəvi və seleksiya məqsədi ilə təcrübələr və müşahidələr aparılırdı.

80-ci illərin axırlarında respublikada baş verən ictimai-siyasi hadisələr, Azərbaycanın zorla müharibəyə cəlb edilməsi məktəbdənkənar təhsil müəssisələrinin bəzilərinin fəaliyyətində durğunluq yaratdı. Hətta onlardan bir neçəsi öz fəaliyyətini dayandırdı, binalardan başqa məqsədlər üçün istifadə edilməyə başlandı. Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyinin 1990-cı il tarixli əmri ilə Texniki Peşə Məktəblərinin Texniki və Bədii Yaradıcılıq Evinin adı dəyişdirilərək Təhsil Alan Gənclərin Respublika Bədii Yaradıcılıq Evi, 9 aprel 1991-ci il tarixli əmri ilə Gənc təbiətçilər stansiyasının adı dəyişdirilərək Ekoloji Tərbiyə və Təcrübəçilik Mərkəzi adlandırıldı.

1991-ci ildə Respublika Bədən Tərbiyəsi və İdman Mərkəzi yaradıldı.

Təhsil Alan Gənclərin Respublika Yaradıcılıq Evinin kollektivləri müxtəlif illərdə Çində, Afrika ölkələrində, Fransada, Bolqarıstanda, Rumıniyada, Yuqoslaviyada və dünyanın bir çox ölkələrində qastrol səfərlərində olmuşdular.

Respublikada 1970-ci ildə 751, 1980-ci ildə 1276, 1990-cı ildə isə 1405 məktəbdənkənar tərbiyə müəssisəsi fəaliyyət göstərirdi. Həmin müəssisələrə 1970-ci ildə 386 min, 1980-ci ildə 618 min, 1990-cı ildə 790 min uşaq cəlb olunmuşdu.

SSRİ-nin süqutu və Azərbaycanın zorla cəlb olunduğu Qarabağ münaqişəsinin daha da dərinləşməsi, iqtisadi tənəzzül, demək olar ki, məktəbdənkənar təhsil müəssisələrinin

inkişafını iflic etdi. Onların maliyyələşmə imkanları minimuma endi, bu tipli müəssisələrin müəyyən qismi maliyyə çatışmazlığı səbəbindən bağlandı, digər qismi ideoloji cəhətdən rolunu itirdi...

* * *

Məktəbdənkənar təhsil müəssisələri sistemində Respublika Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən 5, 7, 11-illik musiqi məktəblərinin mühüm yeri var idi. Bu qəbildən olan ilk məktəb 1923-cü ildə yaranmışdır. 1923–1991-ci illərdə Mədəniyyət Nazirliyinin tərkibində 184 musiqi və rəssamlıq məktəbi fəaliyyət göstərmişdir. Bu musiqi məktəblərində sonradan Azərbaycan musiqisinin, incəsənətinin inkişafında mühüm xidmətlər göstərən onlarla simalar yetişmişdir.

*Azərbaycan Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən musiqi məktəbləri (1923–1991)*

| № | Məktəbin adı | Yarandığı tarix | Şagirdlərin sayı | Müəllimlərin sayı |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| 1. | Gəncə şəhər F.Əmirov adına 1№-li uşaq musiqi məktəbi | 1923 | 628 | 128 |
| 2. | Bakı şəhər 4№-li uşaq musiqi məktəbi | 1926 | 414 | 107 |
| 3. | Bakı şəhər T.Quliyev adına 12 №-li uşaq musiqi məktəbi | 1929 | 305 | 74 |
| 4. | Şuşa şəhər Niyazi adına uşaq incəsənət məktəbi | 1932 | 294 | 58 |
| 1 | 2 | 3 | 4 | 5 |
| 5. | Bakı şəhər G.Şaroyev ad. musiqi məktəbi | 1934 | 371 | 78 |
| 6. | Bakı şəhər 3№-li uşaq incəsənət məktəbi | 1935 | 542 | 138 |
| 7. | Ağdaş şəhər uşaq musiqi məktəbi | 1936 | 489 | 121 |
| 8. | Bakı şəhər Q.Qarayev adına 8№-li onbirillik uşaq musiqi məktəbi | 1937 | 414 | 71 |
| 9. | Bakı şəhər H.Sarabski adına 7№-li uşaq musiqi məktəbi | 1937 | 425 | 108 |
| 10. | Şəki şəhər F.Əbdürrəhmanov adına uşaq incəsənət məktəbi | 1938 | 547 | 161 |
| 11. | Bakı şəhər Ə.Bakıxanov adına 6№-li uşaq musiqi məktəbi | 1937 | 318 | 81 |
| 12. | Quba rayon uşaq incəsənət məktəbi | 1940 | 409 | 76 |
| 13. | Bakı şəhər R.Behbudov adına 2№-li onbirillik uşaq musiqi məktəbi | 1940 | 388 | 58 |
| 14. | Bakı şəhər V.Mustafazadə adına 2№-li uşaq incəsənət məktəbi | 1940 | 429 | 83 |
| 15. | Gəncə şəhər uşaq rəssamlıq məktəbi | 1946 | 98 | 17 |
| 16. | Ağdam rayon C.Qaryağdıoğlu adına 1№-li uşaq musiqi məktəbi | 1947 | 308 | 66 |
| 17. | Bakı şəhər 10№-li uşaq musiqi məktəbi | 1950 | 277 | 41 |
| 18. | Mingəçevir şəhər U.Hacıbəyov adına 1№-li uşaq musiqi məktəbi | 1953 | 694 | 120 |
| 19. | Zaqatala rayon uşaq incəsənət məktəbi | 1954 | 599 | 131 |
| 20. | Sumqayıt şəhər Q.Qarayev adına uşaq musiqi məktəbi | 1954 | 557 | 172 |
| 21. | Bakı şəhər 14№-li uşaq musiqi məktəbi | 1954 | 177 | 37 |
| 22. | Göygöl (indiki Xanlar) rayon Aşıq Şəmşir adına uşaq musiqi məktəbi | 1954 | 260 | 94 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 23. | Bakı şəhər S.Rüstəmov adına 13№-li uşaq musiqi məktəbi | 1955 | 437 | 75 |
| 24. | Bakı şəhər Niyazi adına 22№-li uşaq musiqi məktəbi | 1955 | 483 | 96 |
| 25. | Bakı şəhər 11№-li uşaq musiqi məktəbi | 1957 | 485 | 102 |
| 26. | Füzuli rayon S.Şuşinski adına 1№-li uşaq incəsənət məktəbi | 1957 | 280 | 109 |
| 27. | Neftçala rayon uşaq incəsənət məktəbi | 1957 | 392 | 54 |
| 28. | Göyçay rayon uşaq musiqi məktəbi | 1957 | 469 | 89 |
| 29. | Lənkəran rayon C.Cabbarlı adına 1№-li uşaq musiqi məktəbi | 1957 | 536 | 107 |
| 30. | Şəmkir rayon uşaq musiqi məktəbi | 1958 | 608 | 102 |
| 31. | Şamaxı rayon Nəsimi adına uşaq incəsənət məktəbi | 1959 | 384 | 71 |
| 32. | Bakı şəhər C.Qaryağdıoğlu adına 9№-li uşaq musiqi məktəbi | 1959 | 446 | 80 |
| 33. | Gəncə şəhər T.Hacıyev adına 2№-li uşaq musiqi məktəbi | 1959 | 645 | 130 |
| 34. | Bakı şəhər R.Hacıyev adına 15№-li uşaq musiqi məktəbi | 1960 | 355 | 68 |
| 35. | Qusar rayon uşaq incəsənət məktəbi | 1960 | 373 | 96 |
| 36. | Qazax şəhər 1№-li uşaq musiqi məktəbi | 1960 | 325 | 61 |
| 37. | Bakı şəhər K.Səfərəliyeva adına 16№-li uşaq musiqi məktəbi | 1961 | 740 | 131 |
| 38. | Daşkəsən rayon uşaq incəsənət məktəbi | 1961 | 420 | 101 |
| 39. | Bakı şəhər 17№-li uşaq musiqi məktəbi | 1961 | 310 | 46 |
| 40. | Salyan rayon Q.Əsgərov adına 15№-li uşaq incəsənət məktəbi | 1961 | 490 | 78 |
| 41. | Şirvan şəhər uşaq musiqi məktəbi | 1961 | 544 | 100 |
| 42. | Bərdə şəhər uşaq incəsənət məktəbi | 1961 | 617 | 180 |
| 43. | Zəngilan rayon 1№-li uşaq musiqi məktəbi | 1961 | 138 | 37 |
| 44. | Bakı şəhər F.Əmirov adına 6№-li uşaq incəsənət məktəbi | 1962 | 473 | 81 |
| 45. | Masallı rayon uşaq incəsənət məktəbi | 1964 | 313 | 67 |
| 46. | Yevlax şəhər 1№-li uşaq musiqi məktəbi | 1964 | 396 | 84 |
| 47. | Gəncə şəhər Bülbül adına 3№-li uşaq musiqi məktəbi | 1964 | 560 | 114 |
| 48. | Ağcabədi şəhər Ü.Hacıbəyov adına uşaq incəsənət məktəbi | 1965 | 450 | 108 |
| 49. | Xaçmaz şəhər uşaq musiqi məktəbi | 1965 | 456 | 101 |
| 50. | Zərdab şəhər uşaq incəsənət məktəbi | 1965 | 379 | 64 |
| 51. | Goranboy şəhər uşaq incəsənət məktəbi | 1965 | 335 | 69 |
| 52. | Bakı şəhər 4№-li uşaq incəsənət məktəbi | 1966 | 302 | 56 |
| 53. | Qax rayon uşaq incəsənət məktəbi | 1966 | 390 | 43 |
| 54. | Tovuz rayon Aşıq Ə.Rzayev adına uşaq musiqi məktəbi | 1966 | 353 | 113 |
| 55. | İmişli şəhər uşaq incəsənət məktəbi | 1966 | 278 | 38 |
| 56. | Balakən rayon Bülbül adına uşaq incəsənət məktəbi | 1966 | 316 | 47 |
| 57. | Oğuz rayon uşaq musiqi məktəbi | 1967 | 356 | 44 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 58. | Bakı şəhər L. və M.Rostropoviçlər adına 21№-li 11-illik uşaq musiqi məktəbi | 1967 | 622 | 128 |
| 59. | Ü.Hacıbəyov adına Sabirabad uşaq musiqi məktəbi | 1967 | 347 | 41 |
| 60. | Laçın şəhər 1№-li uşaq musiqi məktəbi | 1967 | 250 | 61 |
| 61. | Ağsu rayon uşaq musiqi məktəbi | 1967 | 285 | 65 |
| 62. | Gəncə şəhər 4№-li uşaq musiqi məktəbi | 1967 | 608 | 142 |
| 63. | Saatlı uşaq musiqi məktəbi | 1967 | 289 | 36 |
| 64. | Dəvəçi rayon uşaq musiqi məktəbi | 1967 | 350 | 86 |
| 65. | Bakı şəhər Ş.Ələkbərova adına 20№-li uşaq musiqi məktəbi | 1967 | 404 | 75 |
| 66. | Biləsuvar rayon uşaq incəsənət məktəbi | 1967 | 182 | 37 |
| 67. | Cəbrayıl rayon uşaq musiqi məktəbi | 1968 | 312 | 85 |
| 68. | İsmayıllı rayon uşaq incəsənət məktəbi | 1968 | 395 | 64 |
| 69. | Tərtər rayon uşaq musiqi məktəbi | 1968 | 381 | 62 |
| 70. | Naftalan rayon uşaq musiqi məktəbi | 1968 | 399 | 111 |
| 71. | Qəbələ rayon uşaq musiqi məktəbi | 1969 | 413 | 71 |
| 72. | Qubadlı rayon uşaq musiqi məktəbi | 1969 | 134 | 43 |
| 73. | Kəlbəcər rayon uşaq incəsənət məktəbi | 1969 | 226 | 46 |
| 74. | Ağdam rayon, Qaradağlı kənd uşaq musiqi məktəbi | 1969 | 242 | 53 |
| 75. | Ağdam rayon, S.Bayramov adına Xındırıstan kənd uşaq musiqi məktəbi | 1969 | 276 | 54 |
| 76. | Cəlilabad rayon uşaq incəsənət məktəbi | 1969 | 282 | 41 |
| 77. | Gədəbəy rayon uşaq incəsənət məktəbi | 1970 | 324 | 55 |
| 78. | Ucar rayon uşaq incəsənət məktəbi | 1970 | 394 | 84 |
| 79. | Gəncə şəhər 5№-li uşaq musiqi məktəbi | 1971 | 609 | 120 |
| 80. | Şəki şəhəri uşaq musiqi məktəbi | 1971 | 557 | 194 |
| 81. | Sumqayıt şəhər Bülbül adına 2№-li uşaq incəsənət məktəbi | 1971 | 706 | 159 |
| 82. | Qurban Pirimov adına Ağdam 2№-li uşaq musiqi məktəbi | 1972 | 159 | 55 |
| 83. | Samux şəhər uşaq musiqi məktəbi | 1973 | 406 | 86 |
| 84. | Yardımlı rayon uşaq musiqi məktəbi | 1974 | 103 | 15 |
| 85. | Kürdəmir rayon uşaq incəsənət məktəbi | 1975 | 402 | 78 |
| 86. | Ağstafa şəhər uşaq musiqi məktəbi | 1975 | 254 | 62 |
| 87. | Bakı şəhər 24№-li uşaq musiqi məktəbi | 1975 | 275 | 39 |
| 88. | Sumqayıt şəhər S.Rüstəmov adına 3№-li uşaq incəsənət məktəbi | 1976 | 447 | 131 |
| 89. | Bakı şəhər Ə.Bədəlbəyli adına 23№-li uşaq musiqi məktəbi | 1976 | 360 | 87 |
| 90. | Lerik rayon uşaq incəsənət məktəbi | 1976 | 138 | 22 |
| 91. | Siyəzən rayon uşaq incəsənət məktəbi | 1977 | 255 | 49 |
| 92. | Lənkəran şəhər H.Rzayeva adına 2№-li uşaq musiqi məktəbi | 1977 | 299 | 54 |
| 93. | Abşeron rayon Xırdalan şəhər uşaq musiqi məktəbi | 1977 | 594 | 115 |
| 94. | Şəki şəhər uşaq musiqi məktəbi | 1978 | 459 | 138 |
| 95. | Bakı şəhər 26№-li uşaq musiqi məktəbi | 1978 | 493 | 104 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 96. | Bakı şəhər 27№-li uşaq musiqi məktəbi | 1978 | 107 | 16 |
| 97. | Yevlax rayon Xaldan uşaq musiqi məktəbi | 1978 | 229 | 45 |
| 98. | Bakı şəhər R.Babayev adına 25№-li uşaq musiqi məktəbi | 1978 | 436 | 94 |
| 99. | Bakı şəhər S.Ələsgərov adına 1№-li uşaq incəsənət məktəbi | 1979 | 602 | 124 |
| 100. | Ağcabədi rayon Hindarx kənd uşaq musiqi məktəbi | 1979 | 164 | 48 |
| 101. | Ağdam rayon Gülablı kənd uşaq musiqi məktəbi | 1979 | 173 | 25 |
| 102. | Bakı şəhər 28№-li uşaq musiqi məktəbi | 1979 | 351 | 54 |
| 103. | Goranboy rayon Dəliməmmədli şəhər uşaq musiqi məktəbi | 1979 | 241 | 52 |
| 104. | Ağdam rayon Güllücə kənd uşaq musiqi məktəbi | 1979 | 231 | 61 |
| 105. | Bakı şəhər 5№-li uşaq incəsənət məktəbi | 1980 | 288 | 65 |
| 106. | Bakı şəhər 38№-li uşaq musiqi məktəbi | 1980 | 182 | 9 |
| 107. | Bakı şəhər 30№-li uşaq musiqi məktəbi | 1980 | 460 | 98 |
| 108. | Goranboy rayon R.Qarayev adına Xanqərvənd uşaq musiqi məktəbi | 1981 | 164 | 49 |
| 109. | Bakı şəhər Sabunçu rayon 32№-li uşaq musiqi məktəbi | 1981 | 137 | 41 |
| 110. | Şəki rayon Turan qəsəbə 5№-li uşaq musiqi məktəbi | 1981 | 177 | 57 |
| 111. | Abşeron rayon Ceyranbatan qəsəbə uşaq incəsənət məktəbi | 1981 | 271 | 43 |
| 112. | Ağdam rayon Qiyaslı kənd uşaq musiqi məktəbi | 1981 | 122 | 25 |
| 113. | Lənkəran rayon uşaq rəssamlıq məktəbi | 1982 | 62 | 7 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 114. | Ağcabədi rayon Hacıbədəlli kənd uşaq musiqi məktəbi | 1982 | 202 | 38 |
| 115. | Salyan rayon Yenikənd uşaq musiqi məktəbi | 1982 | 145 | 30 |
| 116. | Sumqayıt şəhər Ə.Bakıxanov adına 4№-li uşaq incəsənət məktəbi | 1982 | 370 | 91 |
| 117. | Xaçmaz rayon Xudat şəhər uşaq musiqi məktəbi | 1982 | 293 | 72 |
| 118. | Qobustan şəhər R.Behbudov adına uşaq incəsənət məktəbi | 1983 | 233 | 43 |
| 119. | Cəbrayıl rayon Böyük Mərcanlı uşaq musiqi məktəbi | 1983 | 128 | 28 |
| 120. | Zəngilan rayon 2№-li uşaq musiqi məktəbi | 1983 | 117 | 29 |
| 121. | Ağcabədi rayon Hüsülü kənd uşaq musiqi məktəbi | 1983 | 135 | 35 |
| 122. | Füzuli rayon Horadiz şəhər uşaq musiqi məktəbi | 1983 | 176 | 34 |
| 123. | Cəbrayıl rayon Mahmudlu kənd uşaq musiqi məktəbi | 1984 | 150 | 35 |
| 124. | Bakı şəhər 33№-li uşaq musiqi məktəbi | 1984 | 366 | 96 |
| 125. | Tovuz rayon Düzqırıxlı kənd uşaq musiqi məktəbi | 1984 | 101 | 30 |
| 126. | Tovuz rayon Qovlar qəsəbə uşaq musiqi məktəbi | 1984 | 138 | 41 |
| 127. | Abşeron rayon Mehdiabad uşaq musiqi məktəbi | 1984 | 210 | 52 |
| 128. | Qobustan rayon Təklə kənd uşaq musiqi məktəbi | 1985 | 169 | 32 |
| 129. | Füzuli şəhər 2№-li uşaq incəsənət məktəbi | 1985 | 217 | 40 |
| 130. | Laçın rayon Şəlvə kənd uşaq musiqi məktəbi | 1985 | 201 | 52 |
| 131. | Ağdam rayon X.Şuşinski adına Muğam məktəbi | 1985 | 241 | 56 |
| 132. | Bakı şəhər 34№-li uşaq musiqi məktəbi | 1985 | 286 | 77 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 133. | Yevlax rayon Aran qəsəbə uşaq musiqi məktəbi | 1985 | 196 | 37 |
| 134. | Ağcabədi rayon Bayat kənd uşaq musiqi məktəbi | 1985 | 144 | 34 |
| 135. | Ağdam rayon Əhmədağalı kənd uşaq musiqi məktəbi | 1986 | 185 | 48 |
| 136. | Bərdə şəhər 2№-li uşaq musiqi məktəbi | 1987 | 334 | 80 |
| 137. | Şəki şəhər 3№-li uşaq musiqi məktəbi | 1987 | 436 | 107 |
| 138. | Balakən rayon Qabaqçöl qəsəbə uşaq musiqi məktəbi | 1988 | 50 | 9 |
| 139. | Şuşa şəhər Malıbəyli kənd uşaq musiqi məktəbi | 1988 | 177 | 30 |
| 140. | Abşeron rayon Qobu qəsəbə uşaq incəsənət məktəbi | 1988 | 159 | 29 |
| 141. | Qubadlı rayon Mahmudlu kənd uşaq musiqi məktəbi | 1988 | 154 | 54 |
| 142. | Beyləqan rayon Niyazi adına uşaq musiqi məktəbi | 1988 | 316 | 56 |
| 143. | Bakı şəhər 36№-li uşaq musiqi məktəbi | 1988 | 333 | 107 |
| 144. | Füzuli rayon Araz Yağlıvənd kənd uşaq musiqi məktəbi | 1988 | 208 | 48 |
| 145. | Ağcabədi şəhər uşaq musiqi məktəbi | 1988 | 324 | 61 |
| 146. | Şuşa rayon Turşsu kənd uşaq musiqi məktəbi | 1989 | 112 | 24 |
| 147. | Laçın rayon Ərdəşəvi kənd uşaq musiqi məktəbi | 1989 | 124 | 28 |
| 148. | Yevlax rayon Ə.Həsənov adına Malbinəsi kənd uşaq musiqi məktəbi | 1989 | 216 | 45 |
| 149. | Ağdaş rayon Ləki qəsəbə uşaq musiqi məktəbi | 1989 | 223 | 37 |
| 150. | Cəlilabad rayon Göytəpə kənd uşaq musiqi məktəbi | 1989 | 149 | 18 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 151. | Xocalı şəhər 1№-li uşaq musiqi məktəbi | 1989 | 136 | 39 |
| 152. | Şuşa rayon Xanalılar kənd uşaq musiqi məktəbi | 1990 | 139 | 37 |
| 153. | Şuşa rayon Qaladərəsi kənd uşaq musiqi məktəbi | 1990 | 217 | 34 |
| 154. | Biləsuvar rayon Xırmandalı kənd uşaq incəsənət məktəbi | 1990 | 119 | 25 |
| 155. | Laçın rayon Şamkənd kənd uşaq musiqi məktəbi | 1990 | 179 | 52 |
| 156. | Abşeron rayon Saray qəsəbə uşaq incəsənət məktəbi | 1990 | 291 | 54 |
| 157. | Ağdam rayon Əfətli kənd uşaq musiqi məktəbi | 1990 | 138 | 35 |
| 158. | Bərdə rayon Kolayır kənd uşaq musiqi məktəbi | 1990 | 205 | 48 |
| 159. | Yevlax rayon Qarxun kənd uşaq musiqi məktəbi | 1990 | 202 | 40 |
| 160. | Yevlax şəhər 2№-li uşaq musiqi məktəbi | 1990 | 236 | 55 |
| 161. | Gədəbəy rayon Zəhmət kənd uşaq musiqi məktəbi | 1990 | 112 | 25 |
| 162. | Şamaxı rayon H.Məmmədov adına 2№-li uşaq musiqi məktəbi | 1990 | 200 | 50 |
| 163. | Şuşa şəhər Bülbülcan adına 2№-li uşaq musiqi məktəbi | 1990 | 209 | 49 |
| 164. | Goranboy rayon M.Nazarov adına Qızılhacılı qəsəbə uşaq musiqi məktəbi | 1990 | 277 | 54 |
| 165. | Xocavənd rayon Tuğ kənd uşaq musiqi məktəbi | 1990 | 168 | 47 |
| 166. | Hacıqabul şəhər uşaq musiqi məktəbi | 1990 | 229 | 42 |
| 167. | Şuşa rayon Quşçular kənd uşaq musiqi məktəbi | 1990 | 160 | 35 |
| 168. | Füzuli rayon Böyük Bəhmənli kənd uşaq musiqi məktəbi | 1990 | 168 | 29 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 169. | Mingəçevir şəhər Bülbül adına 2№-li uşaq musiqi məktəbi | 1990 | 478 | 135 |
| 170. | Ağcabədi rayon Kəhrizli kənd uşaq musiqi məktəbi | 1990 | 143 | 32 |
| 171. | Qazax rayon 2№-li uşaq musiqi məktəbi | 1990 | 279 | 60 |
| 172. | Ağcabədi rayon Sarıcalı kənd uşaq musiqi məktəbi | 1990 | 158 | 18 |
| 173. | Xocalı şəhər 3№-li uşaq musiqi məktəbi | 1991 | 70 | 22 |
| 174. | Gədəbəy rayon Düzrəsullu kənd uşaq musiqi məktəbi | 1991 | 41 | 31 |
| 175. | Zəngilan rayon 3№-li uşaq musiqi məktəbi | 1991 | 150 | 33 |
| 176. | Bakı şəhər 37№-li uşaq musiqi məktəbi | 1991 | 214 | 47 |

| 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|
| 177. | Sumqayıt şəhər F.Əmirov adına 5№-li uşaq musiqi məktəbi | 1991 | 653 | 209 |
| 178. | İmişli şəhər uşaq musiqi məktəbi | 1991 | 293 | 46 |
| 179. | Şuşa rayon Xəlfəli kənd uşaq musiqi məktəbi | 1991 | 135 | 35 |
| 180. | Füzuli rayon Aybasanlı kənd uşaq musiqi məktəbi | 1991 | 242 | 50 |
| 181. | Füzuli rayon Qarabulaq kənd uşaq musiqi məktəbi | 1991 | 288 | 53 |
| 182. | Füzuli rayon Şəkərcik kənd uşaq musiqi məktəbi | 1991 | 166 | 35 |
| 183. | Füzuli rayon İnşaatçılar qəsəbə uşaq musiqi məktəbi | 1991 | 253 | 61 |
| 184. | Gəncə şəhər uşaq incəsənət məktəbi | 1991 | 531 | 81 |



*6№-li musiqi məktəbinin xoru*

## 1.27. Naxçıvan Muxtar Respublikasında ümumi təhsilin inkişafı

1920-ci il oktyabr ayının 10-da Naxçıvan İnqilab Komitəsinin qərarı ilə xalq maarif şöbəsi yaradıldı. Bu şöbənin müdiri vəzifəsinə **Əbdüləzim Rüstəmov** (1887–1952) təyin edildi. İnqilab Komitəsinin nəzdində yaradılan həmin şöbə yalnız məktəb məsələlərini deyil, həm də mədəni-maarif və incəsənət sahələrini də əhatə edirdi. Şöbənin əsas vəzifəsi müəllimlərin qüvvəsini xalq maarifinin inkişafına səfərbər etməkdən, məktəbyaşlı uşaqların məktəbə cəlb edilməsini genişləndirməkdən, yaşlılar üçün axşam kursları təşkil etməkdən, savad kursları yaratmaqdan və məktəblərin şəbəkəsini genişləndirməkdən ibarət idi. Qısa bir müddətdə xalq maarifi sayəsində böyük quruculuq işlərinə başlandı, əmək, politexnik və peşə təhsili verən yeni tipli sovet məktəbinin yaradılması sahəsində ilkin nailiyyətlər qazanıldı. İnqilab Komitəsinin 25 avqust 1920-ci il tarixli dekretinə əsasən Naxçıvan əhalisinə ümumi icbari və pulsuz təhsil almaq hüququ verildi.

1922-ci ilin yanvar ayında Naxçıvanda Xalq Komissarları Soveti təşkil edildi. Xalq Maarif Komissarlığı da onun tərkibinə daxil oldu. **Əbdüləzim Rüstəmov maarif komissarı vəzifəsinə təyin edildi.**

1922–1924-cü illərdə Naxçıvan Muxtar Respublikasının məktəblərində aparılan geniş təlim-tərbiyə işləri sahəsində ayrı-ayrı məktəblərdə şagirdlərin sayı artdı. O zaman məktəbyaşlı uşaqların məktəbə cəlb edilməsi işi faiz hesabı ilə aşağıdakı şəkildə idi:

| | | |
|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 80,4 % |
| 2. | Ordubad şəhəri | 85,2 % |
| 3. | Baş Noraşen | 25,5 % |
| 4. | Qıvraq | 41,6 % |
| 5. | Cəhri rayonu | 19,9 % |
| 6. | Tumbul | 10,5 % |
| 7. | Nərimanov rayonu | 6,1 % |
| 8. | Əbrəqunis rayonu | 23,8 % |
| 9. | Culfa rayonu | 52,7 % |
| 10. | Paraqa | 77,1 % |
| 11. | Aza rayonu | 100,0 % |

*(Bax: İbrahim Mollayev. Naxçıvan MSSR-də xalq maarifinin inkişafı. Bakı, 1983, səh.7.)*

Məktəb şəbəkəsinin genişlənməsinə gəlincə demək lazımdır ki, 1917–1920-ci illərdə Naxçıvanın yalnız Cəhri, Nehrəm, Kolanı, Şərur, Yenkicə, Yayçı, Ordubad, Culfa, Ərəfsə, Sədərək kəndlərində məktəb fəaliyyət göstərirdi. Qısa bir müddətdə Xurs, Badamlı, Kərimqulu, Dizə, Təzəkənd, Qazançı, Mahmudkənd, Yurdçu, Danzik, Düdəngə, Sirab, Sələsüz, Axura və Keçili kəndlərində də məktəblər təsis edildi. 1918–1922-ci illər ərzində 45 məktəb binası tikilib istifadəyə verildi. Xeyli mədəni-maarif müəssisəsi yaradıldı. 1929-cu ildə burada 9 klub, 6 qiraət koması, 3 radio qovşağı, 2 uşaq evi fəaliyyət göstərirdi.

Şagird kontingentinin ilbəil artması müvafiq olaraq müəllim kadrlarının sayının artması ilə müşayiət olunurdu. 1917–1920-ci illərdə Naxçıvanda 14 nəfər müəllim çalışdığı halda, 1921–1922-ci illərdə 86 nəfər müəllim fəaliyyət göstərirdi. Sonrakı illərdə də bu artım yüksələn xətlə inkişaf etmişdi. Həmin vəziyyəti aşağıdakı cədvəldə aydın görmək mümkündür:

| Sıra №-si | Tədris illəri | Müəllimlərin sayı | O cümlədən qadınlar |
|---|---|---|---|
| 1. | 1917–1920 | 14 | 1 |
| 2. | 1921–1922 | 86 | 2 |
| 3. | 1924–1925 | 154 | 4 |
| 4. | 1928–1929 | 250 | 64 |
| 5. | 1930–1931 | 277 | 72 |
| 6. | 1934–1935 | 544 | 85 |
| 7. | 1935–1936 | 575 | 91 |
| 8. | 1936–1937 | 733 | 173 |

Müəllimlər məktəbyaşlı uşaqlarla məşğul olmaqla yanaşı, savadsızlığın ləğv edilməsi işinə də cəlb edilmişdilər. 1922-ci ildə Naxçıvanın qəzalarında savadsızlığı ləğv etmək üçün 72 kurs təşkil olundu. Naxçıvan şəhərinin özündə qadınların savadsızlığının ləğvi üçün 10 dərnək təşkil edildi. 1922–1925-ci illərdə 1658 nəfəri əhatə edən 125, 1930–1932-ci illərdə isə 17181 nəfəri əhatə edən 631 savadsızlığı ləğvetmə kursları yaradılmışdı. Yaşlıların savadsızlığının ləğvi, onların siyasi təhsilinin artırılması, partiya-sovet işçiləri hazırlamaq məqsədilə 1922-ci ilin yazında Naxçıvanda partiya məktəbi fəaliyyətə başladı.

Naxçıvanda müəllimlərin fəaliyyətini tənzimləmək, onlara praktik kömək göstərmək, qarşıda duran perspektivləri müəyyənləşdirmək məqsədilə **1922-ci il avqust ayının 28-də Naxçıvan müəllimlərinin ilk qurultayı keçirildi.** Həmid Mahmudov qurultayın sədri, Xəlil Hacılarov katibi seçildi. Qurultayda aşağıdakı məsələlər müzakirə olundu:

1. Müəllimlər qurultayının çağırılmasının məqsədi və əhəmiyyəti (məruzəçi Həmid Mahmudov).
2. Xalq təhsili haqqında əsasnamənin müzakirəsi (təklif və çıxışlar).
3. Naxçıvan müəllimlərinin maddi və əxlaqi vəziyyəti (məruzəçi Xəlil Hacılarov).
4. Gənc nəslin sosial tərbiyəsi və qadın təhsili haqqında (məruzəçi Əbdüləzim Rüstəmov).
5. Xalq maarifinin gələcək vəzifələri (məruzəçi: əməkdar müəllim Həsən Xəlil oğlu Qazıyev (1878–1950).
6. 1922/23-cü tədris ili üçün tədris proqramları haqqında (məruzəçi: Həsən Səfərli).
7. Cari məsələlər.

Üç gün davam edən qurultayda müvafiq qərarlar və qətnamə qəbul olundu. Qətnamədə aşağıdakı məsələlər öz əksini tapmışdı:

1. Naxçıvan şəhərində Müəllimlər Seminariyasının fəaliyyətə başlaması.
2. Naxçıvanda pedaqoji kursların təşkil edilməsi.
3. Məktəblər üçün tədris planlarının hazırlanması.
4. Pedaqoji jurnalın nəşr edilməsi.

1925-ci il fevralın 25-də Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri Həmid Sultanovun sədrliyi ilə Naxçıvan MSSR IV sovetlər qurultayı fəaliyyətə başladı. Qurultay Naxçıvan MSSR **xalq maarif komissarı Vahab Mirzəhəsənzadənin** «Naxçıvan MSSR-də 1923–1924-cü illərdə xalq maarifinin vəziyyəti» haqqında məruzəsini dinləyib müzakirə etdi. Məruzədən məlum olur ki, 1924-cü ilin birinci yarısında respublikada 60-a yaxın məktəb fəaliyyət göstərirdi. Orada 5200 nəfər uşaq təhsil alırdı. Məktəblərdə 161 nəfər müəllimin yalnız 2 nəfərinin ali təhsili var idi.

Müəllimlərdən 87 nəfəri 2–3 aylıq kurs bitirmiş, digərləri şəxsi mütaliə və ev təhsili görmüşdülər.

Qadın müəllimlərindən bir nəfəri Bakıda qadın pedaqoji məktəbini, qalanları isə 10 aylıq pedaqoji kurs bitirmişdilər.

Qurultayda çıxış edən qabaqcıl maarif işçiləri Hüseyn Əsədov, Məmməd Abdullayev, Nazlı xanım Nəcəfova, Ələkbər Əliyev, Rübabə xanım Sadıqova, Zina xanım Budaqova, Mahmud Şirəlizadə, Ayna xanım Sultanova və başqaları Naxçıvanda xalq maarifi və mədəniyyətinin inkişafı ilə bağlı qarşıda duran vəzifələrdən danışıb, bir sıra əməli təkliflər irəli sürdülər.

IV sovetlər qurultayının qərarlarını həyata keçirən Naxçıvan maarif işçiləri 1925/26-cı tədris ilində diqqətəlayiq nailiyyətlər qazandılar. Muxtar Respublikanın məktəblərinin 75%-i təmir edildi, bir çox dağ kəndlərində yeni məktəblər fəaliyyətə başladı, məktəblərin sayı 80-ə, şagirdlərin sayı 5766 nəfərə çatdı ki, bunlardan da 1214 nəfəri qızlar idi.

*1930–1937-ci illərdə Naxçıvanda müəllimlərin sayı və savadlılıq səviyyəsi haqqında məlumat*

| Tədris illəri | Müəllimlərin sayı | Orta təhsilli | Natamam orta təhsilli | Ali təhsilli |
|---|---|---|---|---|
| 1930/31 | 277 | 126 | 134 | 17 |
| 1934/35 | 544 | 391 | 116 | 37 |
| 1936/37 | 733 | 640 | 26 | 37 |

Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS 1930-cu il avqustun 20-də respublikada ümumi icbari ibtidai təhsilin həyata keçirilməsi haqqında qərarı ilə bağlı Azərbaycanın bütün şəhər və kəndlərində, o cümlədən Naxçıvan MSSR-də 8–10 yaşlı uşaqlar təhsilə cəlb edildi.

**1930-cu il sentyabrın 7-də Naxçıvan Vilayət Partiya Komitəsi muxtar respublikada icbari təhsilin həyata keçirilməsi haqqında xüsusi qərar qəbul etdi.**

20–30-cu illərdə Naxçıvan MSSR-də məktəblərin, siniflərin və şagirdlərin sayı ildən-ilə artmışdı.

*1921–1937-ci illərdə Naxçıvanda məktəb şəbəkəsi və şagirdlərin sayı haqqında məlumat*

| Tədris illəri | Məktəblərin sayı | Siniflərin sayı | Şagirdlərin sayı |
|---|---|---|---|
| 1921/22 | 58 | 144 | 4351 |
| 1924/25 | 75 | 210 | 6573 |
| 1928/29 | 78 | 309 | 9298 |
| 1930/31 | 98 | 475 | 10441 |
| 1934/35 | 164 | 981 | 23180 |
| 1935/36 | 173 | 842 | 23311 |
| 1936/37 | 177 | 948 | 24205 |

1939–1940-cı illərdə muxtar respublikada 106 ibtidai, 74 natamam orta, 23 tam orta məktəb fəaliyyət göstərirdi. İbtidai məktəblərdə 171, natamam orta məktəblərdə 472, tam orta məktəblərdə isə 303 müəllim çalışırdı. Ali və orta təhsilli müəllimlərin sayı ildən-ilə artırdı.

Müharibə bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da təhsilin inkişafına öz mənfi təsirini göstərirdi. Respublikanın böyük şəhərlərində şagirdlərin bədən tərbiyəsi dərs-

lərinin səmərəli keçirilməsi, ümumilikdə tərbiyə işlərinin daha düzgün qurulması məqsədilə 1943/44-cü tədris ilində Bakı, Gəncə, Nuxa (Şəki), Stepanakert (Xankəndi) kimi, Naxçıvanda da ayrıca qız və oğlan məktəbləri təsis edildi. Lakin bu tədbir gözlənilən nəticəni vermədiyi üçün bütün respublikada olduğu kimi, Naxçıvanda da 1954-cü ildə qız və oğlan məktəbləri birləşdirildi. 1954/55-ci tədris ilində orta məktəblərin tədris planına əmək məşğələləri və praktikumlar əlavə edildi ki, bu da politexnik təlim sahəsində atılan ən yeni və mühüm addımlardan biri idi. Bununla əlaqədar kənd yerlərindəki orta və yeddiillik məktəblərin, demək olar ki, hamısında, şəhər məktəblərinin isə bir qismində tədris-təcrübə sahələri təşkil olundu. Naxçıvan MSSR Ordubad rayonunun Vənənd kənd orta məktəbinin sahəsində hər hektardan 1953-cü ildə 80 sentner, 1954-cü ildə 90 sentner taxıl əldə olunmuşdu. Bunlar Ordubad rayonunun orta məhsul normasından 10–12 dəfə artıq idi.

50-ci illərin əvvəllərində Naxçıvanda məktəb şəbəkəsi kifayət qədər geniş idi. 1953/54-cü



*Naxçıvan şəhər 5№-li orta məktəbində rus dili dərsi*

tədris ilində 7-ci sinif şagirdlərinin 78%-i VIII siniflərə cəlb olunmuşdu. Həmin illərdə ibtidai məktəblərin yeddiillik məktəblərə çevrilməsi nəticəsində şagirdlərin sayı artsa da, məktəblərin sayında artım müşahidə olunmurdu.

1955/56-cı tədris ilində Naxçıvan MSSR-də yarısı V–X siniflərdə olmaq üzrə 22000 şagirdi əhatə edən 188 məktəb fəaliyyət göstərirdi.

Azərbaycan müəllimlərinin X(VII) qurultayında (14–16 noyabr 1960-cı il) **Naxçıvan MSSR maarif naziri Səfərəlı Babayevin** çıxışından məlum olur ki, həmin dövrdə muxtar respublikada 195 ümumtəhsil, 4 fəhlə gənclər, 27 kəndli gənclər məktəbləri var idi ki, bunlarda da 26827 şagird təhsil alırdı.

1955/56-cı tədris illərində VIII–X siniflərdə oxuyan şagirdlərin cəmi 319 nəfərini qızlar təşkil etdiyi halda, 1960/61-ci tədris ilində qızlar məktəbdə oxuyan şagirdlərin 40%-ni təşkil edirdi. Naxçıvan və Ordubad şəhərlərinin məktəblərində təhsil alan şagirdlərin yarısından çoxu qız idi. 60-cı illərdə də Naxçıvan MSSR-də təhsilin inkişafında nəzərəçarpacaq irəliləyişlər oldu.

1967-ci il 26 yanvar tarixinə olan məlumata görə həmin dövrdə muxtar respublikada 206 ümumtəhsil məktəbi, o cümlədən 51 orta, 86 səkkizillik, 68 ibtidai məktəb fəaliyyət göstərirdi. Bu məktəblərdə 46192 şagird təhsil alırdı. Bundan əlavə, istehsalatdan ayrılmadan 3226 nəfər gənc fəhlə və kəndli, axşam və ümumtəhsil məktəblərində oxuyurdu. Şagirdlərin təlim-tərbiyəsi ilə 3000-ə yaxın müəllim məşğul idi.

Doqquzuncu və onuncu beşillikdə muxtar respublikada xalq maarifinin inkişafına vəsait qoyuluşunun həcmi xeyli artdı. Belə ki, 1970-ci ildə maarif və elmin inkişafı üçün 11 mln. 966 min rubl ayrılmışdısa, 1980-ci ildə bu məqsədlər üçün 24 mln. 723 min rubl, yəni 2 dəfədən çox vəsait xərclənmişdi. Əgər 1966–1970-ci illərdə xalq təhsilinin inkişafına 40,9 mln. rubl xərclənmişdirsə, 1971–1975-ci illərdə bu məbləğ 62,2 mln. rubl, 1976–1980-ci illərdə isə 86,6 mln. rubla qədər artmışdı. Bu isə, öz növbəsində məktəb tikintisinin inkişafını sürətləndirirdi. 1979-cu ildə İliç rayonunun Yaycı kəndində 320 yerlik, Maxta kəndində 624 yerlik, İbadulla kəndində 464, Muğancıq-Mehrab kəndində 320, Çərçiboğan kəndində 624 yerlik, Aşağı Daşarx kəndində 192 yerlik, Babək rayonunun Buzqov kəndində 320 yerlik, Ordubad rayonunun Sabir Dizə kəndində 624 yerlik, Nüsnüs kəndində 400 yerlik məktəb binaları tikilib istifadəyə verildi. 1980-ci ildə Naxçıvan şəhərində 1176 yerlik, Babək qəsəbəsində 1176 yerlik, Culfa rayonunun Ərbəqunis kəndində 320 yerlik, Qazançı kəndində 320 yerlik, Ordubadın Nürs kəndində 320 yerlik məktəb binasının tikintisi başa çatdırıldı. Onuncu beşillikdə məktəb tikintisi daha geniş vüsət aldı.

Orta məktəblərin sayı 1970-ci ildəki 73-dən 1980-ci ildə 121-ə, 1985-ci ildə isə 135-ə çatmış və 15 il ərzində 2 dəfə artmışdı. Həmin illərdə ibtidai məktəblərin sayı isə əksinə, 52-dən 21-ə və 19-a enmişdi. Səkkizillik məktəblərin sayı da azalmağa başlamış, 15 il ərzində onların sayı 85-dən 55-ə düşmüşdü. Bunun əsas səbəbi bütün ölkədə olduğu kimi, muxtar respublikada da məktəblərin orta icbari təhsilə keçid prosesi ilə bağlı idi. 70–80-ci illərdə şagirdlərin sayı artaraq 62,3 mindən 70,7 minə çatmışdı.

Heydər Əliyevin başçılığı ilə Azərbaycanda aparılan təşkilati-siyasi tərbiyəvi və maarifləndirmə işinin ən mühüm nəticələrindən biri qızların təhsilə cəlb edilməsi sahəsində qazanılan müvəffəqiyyətlər idi. Bunu Naxçıvan MR-in timsalında daha aydın görmək olar. Əgər 1970-ci ildə orta ümumtəhsil məktəblərinin I–X siniflərində oxuyanların 45%-ni qızlar təşkil edirdisə, 1980-ci ildə bu rəqəm 51% olmuşdu. Orta məktəbləri bitirən qızların sayı da ilbəil artırdı. 1970/71-ci tədris ilində orta məktəbləri 1026 qız bitirmişdisə, 1980/81-ci ildə onların sayı 2321-ə çatmışdı.

Gənclərin müstəqil həyata və əməyə hazırlanmasında məktəblər əsas rol oynadığından muxtar respublikanın bir sıra məktəblərində şagird istehsalat briqadaları yaradılmışdı. 70–80-ci illərdə onların sayı 65-dən 213-ə çatmışdı. 1980-ci ildə 3992 iş yerində şagirdlər müxtəlif ixtisaslara yiyələnmişdilər.

İşləyən gənclərin ümumtəhsil səviyyəsinin artırılmasında axşam və qiyabi məktəblər mühüm rol oynayırdı. «Hər bir gənc fəhləyə orta təhsil» devizi altında keçirilən hərəkat nəticəsində 1970-ci ildə fəhlə və kəndli gənclər məktəblərində, qiyabi məktəblərdə istehsalatdan ayrılmamaqla 3598 nəfər, 1975-ci ildə 4793 nəfər, 1986-cı ildə isə 5124 nəfər təhsil alırdı.

Həyata keçirilən tədbirlər nəticəsində ölkədə olduğu kimi, Naxçıvanda da qadınların ümumtəhsil səviyyəsi xeyli artmış, hər 1000 nəfərə 1970-ci ildə 96, 1979-cu ildə isə 244 orta təhsilli qadın düşürdü.

İstehsalla məşğul olanların da ümumtəhsil səviyyəsi xeyli artmışdı. Əgər 1970-ci ildə hər 1000 nəfər fəhləyə 273 orta, 324 natamam orta, 198 ibtidai təhsilli düşürdüsə, 1979-cu ildə bu göstəricilər müvafiq olaraq 498, 262, 140 nəfər təşkil etmişdi. Bu tendensiya kolxozçular arasında da müşahidə olunurdu.

Məktəblilərin mənəvi-ideoloji tərbiyəsi sahəsində də muxtar respublikada müəyyən təcrübə toplanmışdı. Məktəblərdə hərbi-vətənpərvərlik guşələri, hərbi şöhrət klubları, faşizm üzərində qələbəyə həsr edilmiş stendlər yaradılır, müharibə və əmək veteranları ilə müntəzəm görüşlər keçirilirdi. Dövrün ruhuna uyğun tərbiyə vasitələrindən biri də gənclərin inqilab, döyüş və əmək şöhrəti yerlərinə yürüşlərinin təşkili idi.

Yeniyetmələrin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində hərbi-idman oyunlarının rolu danılmazdır. Rayonlar və muxtar respublika səviyyəsində müntəzəm olaraq «Qartal balası», «Üfüqdə parıltı» kimi oyunlar və yarışlar keçirilirdi. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, o zamanlar bütün SSRİ məkanında artıq uzun illərdən bəri ənənəvi xarakter daşıyan, çox zaman məktəblərarası, rayonlararası yarışlar kimi keçirilən belə oyunlar gəncliyə qədəm basmış yeniyetmələrin sonrakı həyatının, peşə fəaliyyətinin, vətəndaşlığının formalaşmasında öz əyaniliyi və dinamikliyi ilə çox vaxt müsbət rol oynaya bilirdi *(bax: Ədalət Qasımov. Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan Muxtar Respublikası. Bakı, «Təhsil», 2009)*.

Ümumilikdə, 70–80-ci illərdə Naxçıvanda ümumtəhsil məktəblərinin şəbəkəsi genişləndi, yeni tipli məktəb binaları tikilib istifadəyə verildi. Məktəblərdə yüzlərlə tam təchiz edilmiş laboratoriya və fənn kabinetləri təşkil edilmiş, məktəbin həyatla, istehsalatla əlaqəsi



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvan məktəbliləri ilə. 1975-ci il*

möhkəmləndirilmiş, həm təlimin, həm də tərbiyənin həyatda və cəmiyyətdə gedən quruculuq işləri ilə əlaqəsi təkmilləşdirilmişdi. Şagirdlərin məktəbə cəlb edilməsinə və məktəbyaşlı uşaqların təhsildən kənarda qalmamalarına da xüsusi diqqət yetirildi. 1990/91-ci tədris ilində muxtar respublikada şagird kontingenti 1945/46-cı tədris ilindəki 21 min nəfərdən 63 min nəfərə çatdı və ya 3 dəfə artdı. Bunu sağ tərəfdə verilmiş cədvəldə aydın görmək olar:

*1940–1990-cı illərdə Naxçıvan MR-də ümumtəhsil məktəblərinin, müəllim və şagird sayının artım dinamikası*

| İllər | 1940 | 1970 | 1980 | 1985 | 1990 |
|---|---|---|---|---|---|
| Məktəblərin sayı | 196 | 210 | 209 | 209 | 217 |
| O cümlədən ibtidai | 87 | 52 | 21 | 19 | 18 |
| Əsas | 74 | 85 | 67 | 55 | 34 |
| Orta | 35 | 73 | 121 | 135 | 165 |
| Şagirdlərin sayı | 30453 | 59059 | 65389 | 60752 | 63633 |
| Müəllimlərin sayı | 10039 | 3120 | 5410 | 6271 | 7200 |

## 1.28. Naxçıvan MR-də məktəbdənkənar tərbiyə müəssisələrinin təşkili və inkişafı

Naxçıvan Xalq Komissarları Soveti ümumtəhsil məktəblərinin təşkili kimi məktəbdənkənar tərbiyə müəssisələrinin də açılması üçün müvafiq qərarlar qəbul etdi. Bakıda təşkil olunan məktəbdənkənar tərbiyə müəssisələrinin bir çoxu eyni adla Naxçıvanda da açılmışdı. Onların biri, **Naxçıvan şəhər Pionerlər evi** öz fəaliyyətinə keçən əsrin 30-cu illərində başlamışdır. O zamanlar məktəblilərin bu sevimli məkanı Ernst Telmanın adını daşıyırdı. Burada bir neçə dərnək fəaliyyət göstərirdi. Lakin zaman keçdikcə burada aparılan işlərin əhatə dairəsi genişləndi, dövrün tələbinə uyğun dərnək və məşğələlər təşkil edildi.

50-ci illərdən sonra bu müəssisə öz inkişafının yeni mərhələsinə qədəm qoydu. Dərnəklərin sayı artırıldı, iş metodu o zamankı məktəblilərin maraqlarına və sovet məktəbi ənənələrinə uyğun şəkildə təşkil olundu. «Pionerlər evi»nə şəhər məktəbliləri ilə yanaşı, ətraf kəndlərin məktəblərindən də uşaqlar cəlb edildi.

Pionerlər evində 27 adda 71 dərnək fəaliyyət göstərirdi. Həmin illərdə «Əlvan çiçəklər» mahnı və rəqs ansamblı yaradıldı. Ansamblın repertuarında Azərbaycan bəstəkarlarının əsərləri ilə yanaşı, rus və xarici ölkə bəstəkarlarının da əsərləri yer tuturdu. Ansambl yalnız respublikamızda deyil, o zamankı ittifaqın bir çox şəhərlərində və xarici ölkələrdə Azərbaycan mədəniyyətini layiqincə təmsil etmişdi.

Pionerlər evi onlarla incəsənət xadiminin yetişməsində mühüm rol oynadı.

1979-cu ildə Azərbaycan KP MK-nın I katibi Heydər Əliyevin Sərəncamı ilə Pionerlər evi üçün xüsusi bina tikildi.

Naxçıvanda Gənc Texniklər Stansiyası 1954-cü ildə fəaliyyətə başlamışdır. Burada, ilk olaraq rəsmxət, elektrotexnika, radiotexnika, telefon, rabitə, traktor, gəmiçilik, avtomodel, bacarıqlı əllər dərnəkləri təşkil olunmuşdu. Dərnək üzvləri muxtar respublikada keçirilən yarışlarda, sərgilərdə, tədbirlərdə fəal iştirak etmiş, diplom və fəxri fərmanlarla təltif olunmuşdular.



*«Əlvan çiçəklər» mahnı və rəqs ansamblının çıxışı*




*Naxçıvan şəhər şahmat məktəbində*

**Naxçıvan şəhər Şahmat məktəbi** 1982-ci ildə 28 qrup və 12 nəfərlik pedaqoji kollektivlə fəaliyyətə başlamışdır. Sonralar qrupların sayı 34-ə, şagirdlərin sayı isə 456-ya çatmışdı. Uşaq Gənclər Şahmat məktəbi fəaliyyət göstərdiyi müddətdə böyük uğurlar əldə etmişdir. Məktəbin komandası iki dəfə – 1985-ci ildə Xaçmaz, 1989-cu ildə isə Quba şəhərlərində keçirilən Respublika birinciliyində Azərbaycan çempionu olmuş, Gürcüstanda və Rusiyada keçirilən keçmiş SSRİ çempionatında Azərbaycanı uğurla təmsil etmişlər.

## 1.29. Ermənistandakı azərbaycanlılar arasında təhsilin inkişafı (1920–1988-ci illər)

Azərbaycanlıların öz doğma torpağından, indiki Ermənistan adlanan ərazidən deportasiyasının tarixi hələ erməni millətçilərinin təşkilatlandığı, uydurma «Böyük Ermənistan»ın sərhədlərinin müəyyən edildiyi dövrdə qoyulmuş, XX əsrin əvvəllərindən isə qəddarlıqla həyata keçirilməyə başlanmışdır.

Əgər 1905–1906-cı illərdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri qanlı toqquşmalar azərbaycanlıları doğma yerlərindən qovmaqla yanaşı, öz qüvvələrini sınaqdan çıxarmaq məqsədi güdürdüsə, 1918–1920-ci illərdə həyata keçirilən «türksüz Ermənistan» siyasəti dövlət siyasəti səviyyəsinə qaldırıldı, yüzlərlə azərbaycanlı kəndləri dağıdıldı, yandırıldı, on minlərlə azərbaycanlı məhv edildi, yaxud ölüm təhdidi altında zorla doğma yurdlarından qovuldu. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra da azərbaycanlıların deportasiyası dəyişilmiş formalarda fasilələrlə, demək olar ki, bütün 70 il ərzində davam etdirildi.

Daşnak zülmündən xilas olaraq Azərbaycana pənah gətirmiş qaçqınlar öz doğma kəndlərinə qayıda bilmədikləri üçün uşaqlarını Azərbaycanda, Ermənistanla sərhəddə olan Naxçıvan, Zəngilan, Qazax və digər rayonlarda açılmış məktəblərə qoymaq məcburiyyətində qaldılar.

Sovet hakimiyyətinin qurulması ilə millətlərarası iğtişaşlar səngidi. Yeni rejimin təbliğ etdiyi «xalqlar dostluğu» ideyasına uyğun olaraq erməni millətçiləri öz uydurma «Böyük Ermənistan» xülyalarını gerçəkləşdirmək ehtiraslarını müvəqqəti boğmalı oldular. Bu dövrdən etibarən Ermənistanda maarifin inkişafına dövlət səviyyəsində qayğı göstərildi. Ermənistan İnqilab Komitəsinin 1920-ci il 6 dekabr tarixli dekreti ilə respublikada erməni dili dövlət dili elan edilmişdi. Bunun nəticəsi idi ki, azərbaycanlıların sıx yaşadığı ərazilərdə də bütün kargüzarlıq işləri erməni dilində aparılırdı. Həmin dekretə əsasən azərbaycanlıların sıx yaşadıqları ərazilərdə Azərbaycan dili də dövlət dili kimi qəbul olunmuşdu, bir qədər sonra ermənilər dekretin bu maddəsini ləğv etdilər.

1920-ci il dekabrın 9-da məktəblərin məscid və kilsələrdən ayrılıb, dövlətin ixtiyarına verilməsi, məktəblərin, muzey, kitabxana və əlyazmaları fondlarının, nəşriyyat və başqa mədəni-maarif müəssisələrinin ümumxalq malına çevrilməsi haqqında dekret verildi. Ermənistan Xalq Maarif komissarının 17 dekabr 1920-ci il tarixli əmrində məktəblərdə təlimin ana dilində və pulsuz olacağı, məktəb qapılarının zəhmətkeş balalarının üzünə açıq olacağı elan edildi. Əlbəttə, bütün bunlar, ilk növbədə ermənilər üçün nəzərdə tutulurdu.

Ermənistan XMK-nın 23 aprel 1921-ci il tarixli **«Məktəblərdə dillər və dillərin tədris edilməsi haqqında»** adlı əmri ilə respublikadakı azərbaycanlıların öz ana dilində təhsil almaları, erməni və xarici dillərdən birini məcburi öyrənmələri, 21 sentyabr 1921-ci il tarixli dekreti ilə 15–20 yaşlılar arasında savadsızlığın ləğv edilməsi irəli sürüldü.

Ermənistanda yaşayan digər xalqların – Azərbaycan, rus, yunan, kürd və aysorilərin

mədəni-maarif işlərinə rəhbərlik etmək üçün 1922-ci ildə Ermənistan XMK-nın nəzdində «Azlıqda qalan millətlər bürosu» təşkil edildi. Lakin Ermənistan hökuməti unudurdu ki, azərbaycanlılar heç də azsaylı xalq yox, bu torpağın uzun əsrlərdən bəri yerli sakinləridir. 1923-cü ilin iyununda həmin büro «Azlıqda qalan millətlər şurası»na çevrildi. Şuranın sədri vəzifəsinə tanınmış maarifçi Mehdi Kazımov təyin edildi. Erməni millətçilərinin ciddi maneələrinə baxmayaraq, Şura Ermənistan azərbaycanlıları arasında maarifin genişlənməsində, savadsızlığın ləğvində böyük rol oynadı.

Ciddi çətinlik və müqavimətlərə baxmayaraq, Ermənistanda təlim Azərbaycan dilində aparılan məktəblərin yeni məzmunda təşkili və inkişafı yolunda ilk addımlar atıldı. İbtidai, yeddiillik və orta məktəblərin təşkilinə başlanıldı.

1921/22-ci tədris ilində açılacaq yeni məktəblərin idarə edilməsi və digər məsələlərə dair bir sıra məktəb sənədləri tərtib edilib yerlərə göndərildi.

1922/23-cü tədris ilində Ermənistanda təlim Azərbaycan dilində aparılan 36 məktəbdə 1521 şagird təhsil alırdı. Bu məktəblərdə 40 nəfər azərbaycanlı müəllim dərs deyirdi. Növbəti tədris ilində Ermənistan ərazisində azərbaycanlıların yaşadığı kəndlərin əksəriyyətində ibtidai məktəblər yaradıldı. Qafanın Gığı, Şəhərcik, Sisianın Qızıl Şəfəq (İşıqlar), Vağüdü, Ərəfsə və Mehrinin Aldərə kəndlərində, Basarkeçərin Cil kəndində (1937-ci ilə kimi Cil kəndi Basarkeçər rayonunun tərkibinə daxil idi), Krasnoselonun Toxluca, Gölkənd, Çaykənd, Şorca kəndlərində, Dərələyəzdə yeni ibtidai məktəblər fəaliyyət göstərirdi. 1923/24-cü tədris ilinin əvvəlində Ermənistanda 54, 1924/25-ci tədris ilinin əvvəlində isə təlim Azərbaycan dilində aparılan 62 məktəb fəaliyyət göstərirdi.

Bütün yeni açılan məktəbləri müəllim kadrları ilə təmin etmək üçün dövlət, ilk növbədə köhnə məktəblərin sovet düşüncə tərzinə yaxın olan müəllimlərini işə cəlb etmək, ana dilində dərs deməyi bacaran yeni müəllimlər hazırlamaq məqsədilə kurslar təşkil etməyə başladı.

«Azlıqda qalan millətlər şurası»nın sədri Mehdi Kazımovun o dövrə aid hesabatından məlum olur ki, Ermənistanda yaşayan azərbaycanlılar hökumət qarşısında dəfələrlə məsələ qaldırmış, yaşadıqları kəndlərdə məktəblərin açılmasını tələb etmişlər.

Ermənistandakı təlim erməni dilində aparılan məktəblərindən fərqli olaraq, təlim Azərbaycan dilində aparılan məktəbləri müəllim kadrları ilə təmin etmək üçün, ilk növbədə İrəvan gimnaziyasını və müəllimlər seminariyasını bitirənlər işə cəlb olunurdular. 1923-cü ilin axırlarında İrəvanda, Göyçədə, Zəngibasarda, Vedidə, Zəngəzurda, Gümrüdə, Dərələyəzdə pedaqoji kurslar təşkil edildi. 1924-cü ildə Azərbaycan XMK-nın razılığı ilə 16 nəfər, 1925-ci ildə 38 nəfər gənc pedaqoji təhsil almaq üçün Azərbaycan Dövlət Pedaqoji İnstitutuna göndərildi. Azərbaycanlılar arasında müəllim kadrları hazırlığı zəif getdiyindən məktəblərin müəllimə olan ehtiyacı tam ödənilmirdi.

1923-cü il martın 9-da Ermənistan Kommunist Partiyasının ikinci qurultayında respublikada müəllim çatışmazlığı ətraflı müzakirə

edildi, Ermənistandakı təlim Azərbaycan dilində aparılan məktəbləri müəllim kadrları ilə təmin etmək üçün Azərbaycan SSR-dən müəllim dəvət edilməsi qərara alındı.

1924-cü il dekabrın 25-də Ermənistan müəllimlərinin I qurultayı oldu. Qurultayın qərarı ilə 1926-cı ildən Azərbaycan dilində «Xalq maarifi» jurnalının nəşrinə başlandı.

1925-ci ilin 25 avqustunda Gümrüdə azərbaycanlı müəllimlərin qurultayı çağırıldı. Qurultayın əsas məqsədi ziyalıları mədəni-maarif ocaqları ətrafında səfərbər etməkdən, məktəbləri RSFSR və Azərbaycan SSR təcrübəsi əsasında qurmaq üçün müəllimlərə metodik göstəriş verməkdən, yeni təlim və tərbiyə üsullarının aydınlaşdırılmasından ibarət idi.

Görülən tədbirlərin nəticəsində 1929/30-cu tədris ilində Ermənistandakı təlim Azərbaycan dilində aparılan 112 məktəbdə 5978 şagird təhsil alırdı.

1930/31-ci tədris ilində məktəblərin sayı 162-yə, şagirdlərin sayı isə 9536-ya çatdı *(bax: Ə.Adıgözəlov. Qərbi Azərbaycandakı milli məktəblərimizin tarixindən. Bakı, 2003, səh.52)*.

1932/33-cü tədris ilində Ermənistanda icbari ibtidai təhsil, əsasən, başa çatdırıldı. Lakin əhalisi az olan azərbaycanlılar yaşayan ucqar kəndlərdə heç də uşaqların hamısı icbari təhsilə cəlb olunmamışdı. Ermənistandakı azərbaycanlıların sayı əhalinin ümumi sayının təxminən yarısına bərabər olsa da, onların arasında icbari təhsilə cəlb olunanlar ermənilərlə müqayisədə bir neçə dəfə az idi.

1936-cı ildə azərbaycanlıların təhsil aldığı məktəblərdə 541 müəllim çalışırdı. Orta və yeddiillik məktəbləri ixtisaslı müəllim kadrları ilə təmin etmək məqsədilə 1935-ci ildə Gümrüdə Azərbaycan dilində qiyabi ikiillik Müəllimlər İnstitutu təsis olundu. Bu İnstitut bir qədər sonra Dilicana köçürüldü. Burada Bakıdan gələn müəllimlər dərs deyirdilər. Əhməd Seyidov pedaqogika və pedaqogika tarixindən, Mehbalı Qasımov marksizm və fəlsəfədən, Məzahir Abbasov psixologiyadan, Muxtar Şirəliyev Azərbaycan dilindən dərs deyirdilər.

XX əsrin 40-cı illərində Ermənistanda yeddiillik (az sonra səkkizillik) məktəblərin sayı artdı. Azərbaycanlılar yaşayan böyük kəndlərin əksəriyyətində orta məktəblər fəaliyyət göstərirdi. İlk baxışda çox mütərəqqi görünən bu vəziyyətin neqativ tərəfləri də vardı. Məsələ ondadır ki, ana dilində orta məktəbi bitirən azərbaycanlılar təhsillərini davam etdirmək üçün mütləq Azərbaycan ali məktəblərinə üz tutmaq məcburiyyətində qalırdılar. Bundan sonra isə ermənistanlı məzunların Ermənistana qayıtması hər vasitə ilə əngəllənirdi. Birtəhər geri qayıdanlar Ermənistanda işlə təmin olunmadıqlarından yenidən Azərbaycana qayıtmağa məcbur olurdular. Bu, ermənilər tərəfindən düşünülmüş çox incə bir siyasət idi. Onun zaman-zaman həyata keçirilməsi nəticəsində Qərbi Azərbaycan günbəgün azərbaycanlılardan təmizlənir, oxumuş, dünyagörüşü dəyişmiş gənclər öz doğma ata-baba yurdundan didərgin salınırdı.

1948–1953-cü illərdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılar deportasiya edilərək, Azərbaycan SSR-in Kür–Araz ovalığında yerləşdirildi. Köçürülən əhalinin bir qismi yollarda və məskunlaşdıqları yerlərdə iqlim şəraitinə dözməyərək məhv oldu. Bəzi ailələr



Şəfiqə Avşarova
(1925)

isə yuxarı dairələrə etdikləri çoxsaylı müraciətlərdən sonra doğma yurd-yuvalarına qayıtmaq üçün icazə ala bildilər. Doğma torpağa dönmək üçün icazə alanlardan biri də İrəvan Pedaqoji məktəbinin məzunu, Ermənistan SSR-in ilk azərbaycanlı əməkdar qadın-müəllimi **Şəfiqə xanım Avşarovanın** ailəsi idi.

1953-cü ildə Gəncə dairəsindən ailəsi ilə birlikdə Güllübulağa, Ağbaba-Şörəyel mahalına dönən Şəfiqə xanım Avşarova əvvəl Güllücə, sonra isə Oxçuoğlu və Güllübulaq kənd orta məktəblərində pedaqoji fəaliyyətini davam etdirmiş və düz yarım əsrə yaxın mahalın maarifçilik işində çalışmışdır. 1948–1953-cü il deportasiyası Ermənistanda yaşayan azərbaycanlılara çox ağır zərbə oldu. Onları saysız-hesabsız maddi və mənəvi məhrumiyyətlərlə üz-üzə qoydu. Əhalisi köçürülərək bütöv bir rayonun ləğv edilməsi, təlim Azərbaycan dilində aparılan neçə-neçə məktəbin bağlanması, əslində, azərbaycanlıların mənəvi soyqırımı idi.




*Zəngibasar orta məktəbinin 1948–1949-cu il buraxılışı*

Bütün bunlar ermənilərin millətçilik siyasətinin yeni mərhələsinin başlanmasından xəbər verirdi. Azərbaycanlılar yaşayan ərazilərdə sovet hakimiyyətinin ilk illərində yüksələn xətlə gedən maarifçilik işi bu dövrdə başqa xarakter kəsb etdi. Artıq kəndlərdə məktəb açılması o qədər də asan məsələ deyildi.

1923-cü ildə Gölkənddə açılmış birsinifli ibtidai məktəb savadsızlığın ləğvi yolunda atılan ilk addımlardan biri idi. Məktəbdə 12 şagird təhsil alırdı. Məktəbin ilk müəllim və müdiri Qədir Sultan oğlu idi. Binası olmadığı üçün məktəb xüsusi evlərdə fəaliyyət göstərirdi. Şagirdlərin sayının ildən-ilə artması səbəbindən məktəb binasına və pedaqoji təhsilli müəllimlərə ciddi ehtiyac yarandı. Kənd camaatının təşəbbüsü və köməyi ilə 1937-ci ildə məktəb binası inşa edildi. İki mərtəbədən ibarət olan binada 12 sinif otağı var idi. Əlverişli şəraitinə görə ibtidai məktəb yeddiillik təhsil ocağına çevrildi. El arasında «kiçik akademiya» adı ilə şöhrətlənən Gölkənd yeddiillik məktəbi 1946-cı ildə orta məktəb statusu aldı. 40-cı illərdə ətrafda yalnız Gölkənd kəndində orta məktəb var idi. Alaçıqqaya, Polad, Salah, Haqqıxlı, Ağkilsə, Qaraqaya, Yanıxpəyə, Əmirxeyir, Bəriabad, Çaykənd, aralarında 15–20 km-ə yaxın məsafə olmasına baxmayaraq, hətta anadan olduğum Göyərçin kəndindən də Gölkənd məktəbinə təhsil almağa gələnlər olurdu. Gölkənd orta məktəbinə 1965-ci ildən 1988-ci ilin 3 dekabrına qədər Qaraqoyunlunun tanınmış ziyalılarından olan filologiya elmləri namizədi **Şövkət Kərimov** rəhbərlik etmişdir. Şövkət müəllim hazırda Azərbaycan Texniki Universitetində Azərbaycan dili kafedrasının müdiri vəzifəsində çalışır.

*Ermənistandakı təlim Azərbaycan dilində aparılan (ibtidai, yeddiillik və orta) məktəblərin 1951–1952-ci tədris ili üçün tədris planı*

| № | Fənlərin adları | Siniflər | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | VIII | IX | X |
| 1. | Ana dili və ədəbi qiraət | 12 | 9 | 8 | 7 | 9 | 6 | 4 | 2 | 2 | 1/2 |
| 2. | Ədəbiyyat | – | – | – | – | – | – | – | 3/2 | 3/2 | 4/3 |
| 3. | Erməni dili | – | – | – | – | 2 | 2 | 1/2 | 2 | 2 | 1 |
| 4. | Rus dili | – | 4 | 5 | 5 | 6 | 6 | 6 | 3 | 3 | 3 |
| 5. | Rus ədəbiyyatı | – | – | – | – | – | – | – | 2 | 2 | 2 |
| 6. | Hesab | 7 | 6 | 6 | 6 | 6 | 2 | – | – | – | – |
| 7. | Cəbr, həndəsə, triqonometriya | – | – | – | – | – | 5 | 6/5 | 5 | 6/5 | 7/6 |
| 8. | Təbiət | – | – | – | 3/2 | 2 | 3/2 | 2 | 2 | 2/1 | – |
| 9. | Tarix | – | – | – | 2 | 2 | 2/3 | 2 | 3/4 | 3/4 | 3/4 |
| 10. | SSRİ Konstitusiyası | – | – | – | – | – | – | 2 | – | – | – |
| 11. | Coğrafiya | – | – | – | 2 | 3 | 2 | 2 | 2 | 2 | – |
| 12. | Fizika | – | – | – | – | – | 2 | 2 | 3 | 2/3 | 4 |
| 13. | Astronomiya | – | – | – | – | – | – | – | – | – | 1 |
| 14. | Kimya | – | – | – | – | – | – | 2 | 2 | 2/3 | 3 |
| 15. | Xarici dil | – | – | – | – | – | 1 | 1 | 2 | 2 | 2 |
| 16. | Fiziki tərbiyə | 1 | 1 | 2 | 2 | 2 | 2 | 2 | – | – | – |
| 17. | Çağırışaqədərki hərbi hazırlıq | – | – | – | – | – | – | – | 2 | – | 2 |
| 18. | Rəsmxət | 1 | 1 | 1 | 0/1 | – | – | – | – | – | – |
| 19. | Rəsm | 1 | 1 | 1 | 0/1 | – | – | – | – | – | – |
| 20. | Nəğmə | 1 | 1 | 1 | 1 | – | – | – | – | – | – |
| 21. | Hüsnxət | 2 | 2 | 2 | – | – | – | – | – | – | – |
| | **Cəmi:** | **25** | **25** | **26** | **28** | **32** | **33** | **32** | **33** | **31** | **33** |



**Şövkət Kərimov (1930)**

Yeri gəlmişkən, 50-ci illərdə Ermənistanda orta təhsil aldığım dövrlə bağlı xatirələrimi əziz oxucularımla bölüşmək istərdim.

1953-cü ildə mərkəzi yoldan uzaqlıq səbəbindən doğma Göyərçin kəndimiz qonşu Salah kəndinə köçürüldü. Mən də birinci sinfə Salah kəndində getdim. Mənə əlifbanı sonralar əməkdar müəllim adını almış **Mustafayeva Gülxanım** müəllimə öyrətdi. Kəndimizdə məktəb binası yox idi. Birinci sinfin dərslərinə Bilqeyis xalanın evində başladıq. Onun birotaqlı evi var idi. Səhər ailə evdən çıxıb işə gedirdi. Bundan sonra ev günortaya qədər məktəb olurdu. Sonra təhsilimizi anamın dayısı Seyid kişinin evində davam etdirdik.



**Gülxanım Mustafayeva (1925–1995)**



*İcevan rayonundakı Salah kənd yeddiillik məktəbinin şagirdləri müəllimləri Konsul Abdullayevlə. 1961-ci il*

Bütün çətinliklərə baxmayaraq, təhsildən geri qalmamağa çalışırdıq. Sonralar atam kəndimizdə yaxşı məktəb binası tikdirdi. Mənim atam **Mərdanov Cumayıl** 1934-cü ildə Çaykənd yeddiillik məktəbini bitirib, həmin il İrəvandakı Azərbaycan Pedaqoji Texnikumuna qəbul olmuşdur. 1938-ci ildə həmin texnikumu bitirib öz kəndimizdə – Göyərçin kəndində müəllimlik fəaliyyətinə başlamışdır. Sonralar kənd sovetinin sədri işləmiş, fasiləsiz olaraq iyirmi ilə yaxın kolxoz sədri vəzifəsində çalışmışdı.

VII sinfi Salah kəndində bitirdim. Sonra təhsilimi qonşu Polad kəndindəki orta məktəbdə davam etdirdim. Salah və Polad kəndlərinin arasında 4 km-ə yaxın məsafə var idi. Havalar yaxşı olanda iki kənd arasındakı yolu piyada gedirdik. Havalar soyuq olanda isə piyada gedib-gəlmək mümkün olmurdu. Ona görə də Polad kəndində qalmalı olurdum. İlk vaxtlar evi Polad kəndinə yaxın olan Məsumər nənəmgildə, sonralar isə Polad kəndində Mürşüdün evində qalırdım. Salahda VII sinfə qədər mənə dərs deyən müəllimlərimi həmişə xatırlayıram, onların əksəriyyəti artıq dünyalarını dəyişiblər. Allah rəhmət eləsin!



**Cumayıl Mərdanov (1918–2006)**



*Salah kənd orta məktəbi*



**Mürsəl Budaqov (1930–2006)**

Dursun Qarayev riyaziyyat, məktəbimizin direktoru Kərim Qarayev ədəbiyyat və tarix, Novruz müəllim fizika-riyaziyyat, Mirzə müəllim (Haqqıxlı kəndindən), Konsul Abdullayev, Həbib Alıyev dil-ədəbiyyat, Alı Alıyev və Səyyad Hüseynov rus dili, İbrahim İbrahimov bədən tərbiyəsi müəllimim olublar.

Polad kəndində məktəbimizin direktoru Mehdi Hüseynov dil-ədəbiyyat, Mürsəl Budaqov riyaziyyat, Həsən Mirzəyev və Firudin müəllim fizika, Alı müəllim kimya, Zeynalabdı Qocayev coğrafiya müəllimim olublar. Qəlbimdə onların hər birinin öz yeri var. Polad kənd məktəbində **Mürsəl Budaqov** öz biliyi, bacarığı, pedaqoji ustalığı ilə hamıdan seçilirdi. Mürsəl müəllim ali təhsilini İrəvan Pedaqoji İnstitutunda almışdı. Yaxşı xatırlayıram, o dövrdə orta məktəblərin buraxılış imtahanlarına riyaziyyatdan suallar bağlı zərfdə Yerevandan gəlirdi, bəzən, hətta müəllimlər də həmin zərfin içərisindən çıxan məsələləri həll edə bilmirdilər. Ona görə də zərfin açılması həmişə Mürsəl müəllimə həvalə olunurdu.

Mürsəl müəllim məndə riyaziyyata o qədər həvəs yaratmışdı ki, o dövrün riyaziyyat dərsliklərindəki (cəbr, həndəsə, triqonometriya) bütün məsələ və misalları həll edirdim. Həmin dövrdə, 50–60-cı illərdə əsas təhsil icbari yeddiillik, tam orta təhsil onillik idi. Orta məktəbdə tədris olunan fənlərin sayı indikindən xeyli az idi. Ali təhsilli müəllimləri barmaqla saymaq olardı. Müəllimlərin çoxu Haqqıxlı kəndindən idi. İndikindən fərqli olaraq müəllimlər başqa kəndlərə, hətta başqa rayonlara işləməyə həvəslə gedirdilər. Müəllim peşəsinə çox böyük hörmət var idi.



**Tapdıq Əmiraslanov (1918–1976)**

**Əmiraslanov Tapdıq Muxtar oğlu** Göyçə mahalının Basarkeçər rayonunun Zod kəndində anadan olmuşdur. Ali təhsilini İrəvan şəhərində fəaliyyət göstərən Azərbaycan Pedaqoji məktəbində almışdır (1933–1937). Basarkeçər rayonunda müəllim və məktəb direktoru, Basarkeçər Rayon Partiya Komitəsinin şöbə müdiri (1950–1954), ikinci katibi vəzifələrində çalışmışdır (1954–1959). Basarkeçər Rayon Maarif Şöbəsinə rəhbərlik etmişdir (1959–1976).

Sonralar Salah kənd məktəbi də orta məktəbə çevrildi. Onda mən artıq Bakı Dövlət Universitetinin tələbəsi idim. Məktəb 1988-ci ilə qədər – kəndin əhalisi zorla köçürülənədək fəaliyyətini davam etdirdi. Bu məktəbin məzunlarından 26 nəfər alim, o cümlədən 6 nəfər elmlər doktoru, professor olmuşdur.

70-ci illərdə Ermənistanda bütün erməni məktəbləri üçün yeni məktəb binası tikildi. Bu, azərbaycanlıların ciddi narazılığına səbəb oldu. Ermənistan hökuməti bunun qarşısını almaq üçün azərbaycanlılar yaşayan bəzi rayon və kəndlərdə də yeni məktəb binaları tikməyə başladı. Amasiya rayonunun mərkəzində 1176 yerlik, Güllücə kəndində 320 yerlik,

Basarkeçər rayonunun Əzizli kəndində 320 yerlik müasir məktəb binaları tikildi. Yeri gəlmişkən, qeyd edək ki, Basarkeçər rayonunda ümumi orta təhsilin inkişafında, yeni məktəb binalarının tikintisində, onların tədris avadanlıqları ilə təchiz edilməsində 1959–1976-cı illərdə rayon təhsil şöbəsinə rəhbərlik etmiş **Tapdıq Əmiraslanovun** böyük xidmətləri olmuşdur.

Bunlardan başqa, Quqark rayonunda 624 yerlik, Kalinino rayonunun Mixaylovka kəndində 1176 yerlik, Gorus rayonunun Şurnuxu kəndində 192 yerlik, Krasnoselo rayonunun Cil kəndində 1200, Ardanış, Ağbulaq, Toxluca, Çaykənd, İcevan rayonunun Polad və Salah kəndlərində 740 yerlik müasir məktəb binaları tikilib istifadəyə verildi.




*Krasnoselo rayonunun Gölkənd məktəbinin 1959–1960-cı il məzunları*




*Əzizbəyov adına Razdan orta məktəbinin buraxılışı. 1965/66-cı tədris ili*



*Krasnoselo rayonundakı Cil kənd orta məktəbinin binası*




*Krasnoselo rayonundakı Cil kənd orta məktəbinin 1977–1978-ci il buraxılışı*



*Gorus rayonunun Şurnuxu kənd orta məktəbinin müəllimləri*

*1980–1982-ci illərdə Ermənistan SSR-də təlim Azərbaycan dilində aparılan və beynəlmiləl məktəblər haqqında məlumat*

| № | Rayon və şəhərlər | Azərbaycan məktəbi | | | | | Beynəlmiləl məktəblər | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Məktəb-lərin sayı | Şagird-lərin sayı | O cümlədən | | | Məktəb-lərin sayı | Şagird-lərin sayı | O cümlədən | | |
| | | | | İbtidai | Səkkizillik | Orta | | | İbtidai | Səkkizillik | Orta |
| 1. | Abovyan | – | – | – | – | – | 1 | 9 | – | – | 9 |
| 2. | Əzizbəyov | 7 | 829 | – | 443 | 386 | 1 | 156 | – | – | 156 |
| 3. | Amasiya | 20 | 4932 | – | 916 | 4016 | 1 | 395 | – | – | 395 |
| 4. | Ararat | 2 | 1064 | – | – | 1064 | 9 | 1473 | – | 155 | 1318 |
| 5. | Artaşat | 1 | 38 | – | 38 | – | 1 | 17 | – | – | 17 |
| 6. | Vardenis (Basarkeçər) | 25 | 9218 | – | 1391 | 7827 | 4 | 914 | – | 355 | 559 |
| 7. | Gorus | 3 | 207 | – | 68 | 139 | – | – | – | – | – |
| 8. | Quqark | 5 | 2143 | – | 245 | 1898 | 1 | 210 | – | – | 210 |
| 9. | Yeğenadzor | 10 | 1338 | 32 | 496 | 810 | 4 | 160 | – | 117 | 43 |
| 10. | İcevan | 5 | 795 | 19 | 33 | 743 | – | – | – | – | – |
| 11. | Kalinino | 9 | 1817 | 64 | 224 | 1529 | 1 | 198 | – | – | 198 |
| 12. | Qafan | 19 | 2328 | 30 | 736 | 1562 | 2 | 189 | – | 16 | 173 |
| 13. | Krasnoselski | 11 | 3813 | – | 237 | 3576 | 1 | 245 | – | – | 173 |
| 14. | Masis | 9 | 3766 | – | – | 3766 | 2 | 362 | – | – | 362 |
| 15. | Mehri | 4 | 888 | – | – | 888 | – | – | – | – | – |
| 16. | Noyanberyan | 3 | 862 | 41 | – | 821 | 2 | 303 | – | 154 | 149 |
| 17. | Oktamberyan | – | – | – | – | – | 1 | 29 | – | – | 29 |
| 18. | Razdan | 2 | 293 | – | 57 | 236 | 1 | 125 | – | 125 | – |
| 19. | Sisiyan | 8 | 1342 | – | 365 | 977 | 3 | 601 | – | – | 601 |
| 20. | Spitak | 2 | 1143 | – | – | 1143 | 1 | 52 | – | 52 | – |
| 21. | Tumanyan | 3 | 356 | 28 | 72 | 256 | – | – | – | – | – |
| 22. | İrəvan şəhər | 2 | 176 | – | 36 | 140 | – | – | – | – | – |
| 23. | Dilican şəhər | 1 | 57 | – | 57 | – | – | – | – | – | – |
| 24. | Çermux şəhər | – | – | – | – | – | 2 | 179 | – | – | 179 |
| 25. | Qafan şəhər | 3 | 686 | – | 31 | 655 | – | – | – | – | – |
| 26. | Stepanavan | 1 | 104 | – | 104 | – | – | – | – | – | – |
| **Cəmi:** | | **155** | **38195** | **214** | **5549** | **32432** | **38** | **5617** | – | **974** | **4571** |

Ermənistandakı təlim Azərbaycan dilində aparılan məktəblərin məzunlarından 1988-ci ilə kimi 10 nəfəri Azərbaycan EA-nın akademiki, 9 nəfəri müxbir üzvü seçilmiş, 140 nəfəri elmlər doktoru, professor, 740 nəfəri elmlər namizədi alimlik dərəcəsi almış *(bax: Ermənistan azərbaycanlılarının tarixi coğrafiyası, Bakı, 1995, səh.411)*, 18 nəfər Sosialist Əməyi Qəhrəmanı, 1 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

80-ci illərin əvvəllərində Ermənistandakı təlim Azərbaycan dilində aparılan məktəblərin sayı nisbətən azaldı. Yuxarıdakı cədvəldə Ermənistan Maarif Nazirliyinin 1982/83-cü il üçün verdiyi məlumata əsasən respublikada fəaliyyət göstərən gündüz ümumtəhsil məktəblərinin və həmin məktəblərdə təhsil alan şagirdlərin sayı göstərilmişdir.

XX əsrin 80-ci illərinin axırlarında Ermənistandakı soydaşlarımızın kütləvi deportasiyası başladı. Sovet ordusunun fəal köməyi nəticəsində 1988-ci ildə Ermənistandakı azərbaycanlılar son nəfərinə kimi öz əzəli ata-baba torpaqlarından qovuldular. 200 mindən artıq soydaşımız mənəvi repressiyanın qurbanı oldu. 48681 şagird, onların təlim-tərbiyəsi ilə məşğul olan 3992 müəllim el-obasını tərk etdi. Təlim Azərbaycan dilində aparılan 192 məktəb bağlandı. Həmin məktəblərin, həm də 300-dən yuxarı kəndin kitabxanası dağıdıldı, 100 minlərlə kitab yandırıldı, xalqın min illərlə qoruyub saxladığı maddi və mənəvi abidələr yerlə yeksan edildi *(bax: Fərrux Rüstəmov. Ermənistandakı Azərbaycan məktəbləri necə bağlandı. «Vətən səsi» qəzeti, 1994, №6)*.

## 1.30. Gürcüstan azərbaycanlıları arasında təhsilin inkişafı (1920–1991-ci illər)

Gürcüstanda yaşayan azərbaycanlılar arasında mədəni-maarif işinin aparılmasında Gürcüstan İnqilab Komitəsinin üzvü **Ömər Faiq Nemanzadənin** fəaliyyəti xüsusi qeyd olunmalıdır. 1921-ci ilin mart-aprel aylarında o, Gürcüstanda yaşayan azərbaycanlıların, xüsusilə də Borçalı, Axalsixe və Axalkalaki qəzalarındakı azərbaycanlı əhalinin iqtisadi və mədəni vəziyyətini öyrənib, çox acınacaqlı mənzərələrin şahidi olmuşdu. Ömər Faiq Gürcüstan İnqilab Komitəsinin sədri F.Maxaradzeyə göndərdiyi məktubda yazırdı ki, bizim azərbaycanlılara kommunizm ideyalarını və prinsiplərini şüurlu dərk etməyə imkan yaratmaq üçün onların arasında, hər şeydən əvvəl, milli dil və milli mədəniyyət əsasında maarifi yaymağa çalışmaq lazımdır...

Dövrün maarifçi ziyalılarından **Əli Tağızadə, Hüseynqulu Şabanov, Yusif Axundov, Həsən Qaralov** və başqaları da Gürcüstanda yaşayan azərbaycanlıların mədəni geriliyinin səbəblərini dərindən dərk edir, onu aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər həyata keçirməyi qəza partiya və sovet təşkilatlarının mühüm vəzifəsi hesab edirdilər.

1921-ci il iyulun əvvəllərində Gürcüstan İnqilab Komitəsinin qərarı ilə Gürcüstan Xalq Maarif Komissarlığı nəzdində «Azlıqda qalan millətlərin maarifi üzrə şura» yaradıldı. Bu şuranın tərkibinə azərbaycanlı, rus, osetin və digər millətlərin nümayəndələri daxil idi. Şuranın səmərəli fəaliyyəti nəticəsində milli məktəblərin şəbəkəsi xeyli genişləndirildi. Əgər sovet hakimiyyəti qurulana qədər Gürcüstanda

azərbaycanlılar təhsil aldığı 30 məktəb var idisə, 1923/24-cü tədris ilində onların sayı 70-ə çatdı. Bu məktəblərdən 3-ü yeddiillik, qalanları isə ibtidai məktəb idi. Həmin məktəblərdə 3489 şagird təhsil alırdı. 1924/25-ci tədris ilində isə Azərbaycan məktəblərinin sayı 89-a, şagirdlərin sayı isə 4680 nəfərə çatdı.

1926-cı ilin avqustunda Ümumgürcüstan Mərkəzi İcraiyyə Komitəsi «Azlıqda qalan millətlər üzrə komissiya» yaratmaq haqqında qərar qəbul etdi. Gürcüstan KP MK Rayon Partiya və İcraiyyə komitələri nəzdində də belə komissiyalar yaradıldı.

Ümumgürcüstan Mərkəzi İcraiyyə Komitəsi nəzdində yaradılan komissiyaya on bir millətin nümayəndəsi daxil idi. Mirzə Davud Hüseynov komissiyanın sədri təyin edildi.

Komissiyanın apardığı işlər nəticəsində azlıqda qalan millətlər arasında təhsilin vəziyyəti xeyli yaxşılaşdı. Məktəb şəbəkəsi genişləndirildi, yaşlı əhali arasında savadsızlığı ləğvetmə kursları, qadınlar üçün ayrıca klublar yaradıldı. O dövrdə Gürcüstanda yaşayan azərbaycanlıların sayı 137 mini keçmişdi. Bu qədər əhali arasında tədris müəssisələrinin şəbəkəsi qaneedici deyildi. Mövcud məktəblər məktəbyaşlı uşaqların ancaq 32–33%-ni əhatə edirdi. 89 məktəbdə 160 müəllim işləyirdi, halbuki ən azı 400 müəllimə ehtiyac var idi. Müəllimlər 2, bəzən 3 növbədə işləməli olurdular. Onların 50%-nin hazırlıq səviyyəsi çox aşağı idi.

Qəzalarda və Tiflis şəhərində 20-ci illərdə bütün tiplərdən olan məktəblərdəki azərbaycanlı müəllimlərin sayı aşağıdakı kimi idi.

1925/26-cı tədris ili – 123 nəfər; 1926/27-ci tədris ili – 140 nəfər; 1927/28-ci tədris ili – 166 nəfər; 1928/29-cu tədris ili – 189 nəfər.

Bu müəllimlərin 79,5%-i aşağı və ev təhsilli, 20%-i orta təhsilli, 0,5%-i ali təhsilli idi *(bax: Novruz Bayramov. Gürcüstanda Azərbaycan məktəblərinin tarixi (1921–1940-cı illər. Tbilisi, 2009, səh.107–108).*

Azərbaycanlı uşaqların natamam orta təhsil alması üçün Tbilisi şəhərində 2, Sarvanda (Marneulidə) 1 yeddiillik məktəb fəaliyyətə başladı. 1926/27-ci tədris ilində Gürcüstan Respublikasında, ümumilikdə, Azərbaycan məktəblərinin sayı 87 idi. Bunlardan 3-ü yeddillik, 84-ü dördillik, 1-i isə texnikum idi.

*1926/27-ci tədris ilində azərbaycandilli məktəblərin qəzalar üzrə şəbəkəsi*

| № | Qəzalar | Cəmi | Dördillik | Yeddiillik | Doqquzillik | Kəndli gənclər məktəbi | Texnikum |
|---|---|---|---|---|---|---|---|
| 1. | Borçalı | 35 | 33 | 1 | – | 1 | – |
| 2. | Axalsixe | 24 | 23 | – | – | 1 | – |
| 3. | Tiflis | 16 | 13 | 2 | – | – | 1 |
| 4. | Axalkalaki | 8 | 8 | – | – | – | – |
| 5. | Siqnaxi | 2 | 2 | – | – | – | – |
| 6. | Telavi | 2 | 2 | – | – | – | – |
| **Cəmi:** | | **87** | **81** | **3** | – | **2** | **1** |

*(Bax: Novruz Bayramov. Gürcüstanda Azərbaycan məktəblərinin tarixi (1921–1940-cı illər), 1924. Tbilisi, 2009.)*

30-cu illərdə azərbaycanlılar üçün yeni məktəblərin açılması zərurəti daha da artdı. Əgər 1927/28-ci tədris ilində Gürcüstanda təlim Azərbaycan dilində aparılan cəmi 92 məktəb

(onlardan 3-ü yeddiillik idi) var idisə, 1935/36-cı tədris ilində onların sayı 319-a, şagirdlərin sayı isə 29904-ə çatdı. 1937/38-ci tədris ilində Gürcüstanda azərbaycanlı şagird kontingenti aşağıdakı kimi idi:

*1935/36-cı tədris ilində Gürcüstanda təlim Azərbaycan dilində aparılan məktəblərin şəbəkəsi və şagird kontingenti*

| № | Rayonların adları | Məktəblərin sayı | Şagirdlərin sayı | | | |
|---|---|---|---|---|---|---|
| | | | Hazırlıq və I–IV s. | V–VII s. | VII–X s. | Cəmi |
| 1. | Adıgün | 61 | 5712 | 109 | – | 5821 |
| 2. | Axalsixe | 55 | 3857 | 175 | – | 4032 |
| 3. | Borçalı | 43 | 4151 | 834 | – | 4985 |
| 4. | Aspindza | 42 | 3186 | 212 | – | 3398 |
| 5. | Başkeçid | 39 | 3203 | 521 | – | 3724 |
| 6. | Luksemburq | 29 | 2544 | 531 | 37 | 3112 |
| 7. | Axalkalaki | 9 | 771 | 30 | – | 801 |
| 8. | Qarayazı | 8 | 1273 | 120 | – | 1393 |
| 9. | Gürcani | 7 | 945 | 115 | – | 1060 |
| 10. | Acarıstan MSSR | 6 | 290 | 38 | – | 328 |
| 11. | Zalqa | 5 | 428 | 63 | – | 491 |
| 12. | Laqodexi | 4 | 257 | 48 | – | 305 |
| 13. | Kaspi | 3 | 84 | – | – | 84 |
| 14. | Tiflis | 2 | 176 | 52 | – | 228 |
| 15. | Tiflis şəh. | 1 | 492 | 150 | 68 | 710 |
| 16. | Ağbulaq | 2 | 175 | – | – | 175 |
| 17. | Saqareco | 1 | 215 | 46 | – | 161 |
| 18. | Telavi | 1 | 160 | 47 | – | 207 |
| 19. | Boqdanovka | 1 | 163 | 41 | – | 204 |
| 20. | Qori | 1 | 52 | – | – | 52 |
| Cəmi: | | 320 | 28134 | 3132 | 105 | 31271 |

[1] *Gürc. SSR MDA, f.300, s-b.515, 55–72*

*1935/36-cı tədris ilində Gürcüstanda təlim Azərbaycan dilində aparılan məktəblərdə şagirdlərin siniflər üzrə bölgüsü*

| № | Rayonlar | Hazırlıq və I–IV siniflərdə | V–VII siniflərdə | VIII–X siniflərdə | Cəmi |
|---|---|---|---|---|---|
| 1. | Adıgün | 5609 | 65 | – | 5674 |
| 2. | Axalsixe | 4065 | 278 | – | 4343 |
| 3. | Axalkalaki | 704 | 30 | – | 734 |
| 4. | Aspindza | 3439 | 239 | – | 3678 |
| 5. | Borçalı | 4285 | 802 | – | 5087 |
| 6. | Başkeçid | 3430 | 568 | – | 3998 |
| 7. | Qarayazı | 1452 | 164 | 20 | 1636 |
| 8. | Laqodexi | 205 | 47 | – | 252 |
| 9. | Luksemburq | 2687 | 608 | 37 | 3332 |
| 10. | Saqareco | 229 | 50 | – | 279 |
| 11. | Tiflis | 257 | 52 | – | 309 |
| 12. | Tiflis şəh. | 832 | 260 | 96 | 1188 |
| 13. | Zalqa | 428 | 63 | – | 491 |
| 14. | Acarıstan (Batumi şəhəri) | 446 | 47 | – | 493 |
| Cəmi: | | 29904 | 3509 | 161 | 3357 |

*Cədvəl Gürc. SSR MDA, f.300, s.8, s-b.515, 35–50-ci cədvəllərdəki rəqəmlər əsasında hazırlanmışdır.*

Həmin dövrdə Gürcüstanda azərbaycanlılar üçün məktəblərin sayını əhalinin tələbatına müəyyən qədər uyğunlaşdırmaq mümkün oldu.

40-cı illərin əvvəllərində kənd ibtidai məktəbləri tədricən yeddiillik məktəblərə, şəhər yeddiillik məktəbləri isə orta məktəblərə çevrildi. 40-cı illərin axırlarında Axalsixe

rayonunda yaşayan Mesxeti türklərinin haqsız sürgün olunması ilə əlaqədar olaraq Gürcüstanda təlim Azərbaycan dilində aparılan məktəblərin və şagirdlərin sayı xeyli azaldı.

*1937/38-ci illərdə Gürcüstandakı azərbaycanlılar yaşayan rayonlarda şagird kontingenti*

| № | Rayonlar | Şagirdlərin ümumi sayı | O cümlədən siniflər üzrə | | |
|---|---|---|---|---|---|
| | | | I–IV | V–VII | VIII–X |
| 1. | Adıgün | 7093 | 6204 | 857 | 32 |
| 2. | Axalsixe | 5645 | 4661 | 911 | 73 |
| 3. | Borçalı | 5526 | 4482 | 920 | 124 |
| 4. | Aspindza | 4361 | 3767 | 575 | 19 |
| 5. | Başkeçid | 4290 | 3257 | 960 | 73 |
| 6. | Luksemburq | 3010 | 2949 | 852 | 109 |
| 7. | Qarayazı | 2136 | 1786 | 335 | 15 |
| 8. | Gürcani | 1111 | 964 | 147 | – |
| 9. | Tiflis şəh. | 1039 | 654 | 303 | 82 |
| 10. | Axalkalaki | 889 | 675 | 108 | 16 |
| 11. | Loqodexi | 481 | 402 | 79 | – |
| 12. | Zalqa | 453 | 366 | 87 | – |
| 13. | Ağbulaq | 354 | 275 | 79 | – |
| 14. | Saqareco | 293 | 204 | 89 | – |
| 15. | Tiflis rayon | 269 | 226 | 43 | – |
| 16. | Telavi | 250 | 202 | 48 | – |
| 17. | Boqdanovka | 232 | 178 | 54 | – |
| 18. | Kaspi | 142 | 142 | – | – |
| 19. | Acarıstan MSSR | 77 | 77 | – | – |
| 20. | Qori | 45 | 45 | – | – |
| **Cəmi:** | | **37696** | **31516** | **6447** | **543** |

*1940–1962-ci illərdə Gürcüstandakı azərbaycanlılar yaşayan rayonlarda məktəb şəbəkəsi, onların şagird və müəllim kontingenti*

| Rayonlar | 1940/41-ci tədris ili | 1950/51-ci tədris ili | 1955/56-cı tədris ili | 1959/60-cı tədris ili | 1960/61-ci tədris ili | 1961/62-ci tədris ili |
|---|---|---|---|---|---|---|
| Marneuli | 78 | 78 | 85 | 86 | 86 | 86 |
| Dmanisi | 66 | 60 | 58 | 59 | 59 | 59 |
| Bolnisi | 48 | 49 | 49 | 51 | 51 | 50 |
| **Cəmi:** | **192** | **187** | **192** | **196** | **196** | **195** |
| **Şagirdlərin sayı** | | | | | | |
| | **1940/41** | **1950/51** | **1955/56** | **1959/60** | **1960/61** | **1961/62** |
| Marneuli | 10210 | 10111 | 11220 | 12166 | 12992 | 14038 |
| Dmanisi | 7950 | 8499 | 7292 | 6320 | 6631 | 7028 |
| Bolnisi | 7370 | 7778 | 7593 | 8122 | 8611 | 9234 |
| **Cəmi:** | **25530** | **26388** | **26105** | **26608** | **28234** | **30300** |
| **Müəllimlərin sayı** | | | | | | |
| Marneuli | 368 | 707 | 841 | 1010 | 1059 | 1125 |
| Dmanisi | 392 | 527 | 534 | 573 | 586 | 59 |
| Bolnisi | 258 | 476 | 505 | 628 | 666 | 687 |
| **Cəmi:** | **1018** | **1710** | **1880** | **2211** | **2311** | **1871** |

*(Bax: Народное хозяйство Груз. ССР в 1961 г. Статистический ежегодник. «Гостатиздат». Тбилиси. 1962. стр.468, 470, 472.)*

1972-ci ildə Marneuli rayonunun Qızılhacılı kəndindəki iki məktəbdə 1000-dən artıq şagird təhsil alırdı.




*Tbilisi şəhəri Mirzə Fətəli Axundov adına 73№-li təlim Azərbaycan dilində aparılan orta məktəbin 1975-ci il buraxılış sinfi*



*Tbilisi şəhəri Mirzə Fətəli Axundov adına 73№-li təlim Azərbaycan dilində aparılan orta məktəbin bir qrup şagirdi hərbi idman oyunu zamanı*




*Tbilisi şəhəri Mirzə Fətəli Axundov adına 73№-li təlim Azərbaycan dilində aparılan orta məktəbin 1987-ci il buraxılış sinfi*



*Tbilisi şəhəri Mirzə Fətəli Axundov adına 73№-li təlim Azərbaycan dilində aparılan orta məktəbin 1987-ci il buraxılış sinfi gəzintidə*




*Gürcüstan Respublikası, Bolnisi (Bolus) rayonu, Sol Göyəc kəndinin buraxılış sinfi*

*Gürcüstan SSR-dəki təlim Azərbaycan dilində aparılan məktəblər (1972-ci il)*

| Yaşayış məntəqələri | Məktəblərin sayı | O cümlədən | | | Şagirdlərin sayı | O cümlədən | |
|---|---|---|---|---|---|---|---|
| | | Orta | Natamam orta | İbtidai | | I sinif | II sinif |
| Tiflis | 2 | 2 | | | 324 | 21 | 11 |
| Rustavi | 2 | 1 | | 1 | 552 | 32 | 21 |
| Marneuli | 60 | 35 | 21 | 4 | 15449 | 1486 | 635 |
| Bolnisi | 40 | 12 | 14 | 13 | 7056 | 722 | 299 |
| Dmanisi | 29 | 5 | 12 | 12 | 2237 | 291 | 71 |
| Qardabani | 15 | 10 | 3 | 2 | 6251 | 653 | 204 |
| Zalqa | 3 | | 2 | 1 | 156 | 23 | 0 |
| Tetricğaro | 2 | | 1 | 1 | 190 | 22 | 0 |
| Saqareco | 5 | 3 | 1 | 1 | 2143 | 340 | 27 |
| Laqodexi | 5 | 2 | 1 | 2 | 1411 | 267 | 11 |
| Telavi | 1 | 1 | | | 1002 | 37 | 20 |
| **Cəmi** | **164** | **71** | **55** | **37** | **36771** | **3894** | **1299** |

*Gürc. SSR MDA or. 300, s–8, s–b.536*

1976-cı ildə Marneuli rayonunda fəaliyyət göstərən 100 məktəbdən 70-i təlim Azərbaycan dilində aparılan məktəb idi. Qızılhacılı kəndindən başqa rayonun azərbaycanlılar yaşayan Sadaxlı, Qacağan kimi böyük kəndlərində də iki məktəb: səkkizillik və orta məktəb fəaliyyət göstərirdi.

80-ci illərin axırlarında Gürcüstanın azərbaycanlılar yaşayan rayonlarında baş verən hadisələr əhalinin mənəvi-psixoloji durumunda narahatlığı artırdı. Dmanisi, Bolnisi şəhərlərindən (rayon mərkəzlərindən) azərbaycanlılar bütünlüklə çıxarıldı. Həmin rayon mərkəzlərindəki təlim Azərbaycan dilində

aparılan məktəblər bağlandı. Qeyri-sabit ictimai-siyasi vəziyyət azərbaycanlıların, hətta kəndlərdən Azərbaycana köç etməsinə gətirib çıxardı. Kənd məktəblərinin şagird kontingenti və müəllim heyətinin sayı kəskin azaldı.

### 1.31. Dağıstandakı azərbaycanlılar arasında təhsilin inkişafı

1920-ci ildə Dərbənd şəhərində 5 məktəb var idi. Bunlardan üçündə təhsil rus dilində, birində Azərbaycan dilində, birində isə yəhudi dilində aparılırdı. Sovet hakimiyyətinin ilk illərində bu məktəblər I və II pillə məktəblərə çevrildi.

1920-ci ildə yeni sovet məktəblərində işləmək üçün pedaqoji kadrlar hazırlamaqdan ötrü qısamüddətli pedaqoji kurslar təşkil edildi. Sovet məktəblərinin yaranması və savadsızlığın ləğv edilməsində ilk müəllimlərdən Mirəsədulla Abdullayevin, Molla Feyzulla Əliyevin, Sadıq Əliyevin, Müzəffər Əliyevin, İqlimə Əliyevanın, Əbdülcəlil Əsgərovun, Ayna xanım İbrahimova və başqalarının böyük əməyi oldu.

1929-cu ildə Azərbaycanda ərəb əlifbası latın əlifbası ilə əvəz ediləndə və daha sonra kiril əlifbasına keçiləndə Dağıstandakı azərbaycanlılar da bu əlifbadan istifadə etdilər. Demək olar ki, o illərdə Dağıstanın azərbaycanlılar yaşayan bütün rayonlarında tədrisin Azərbaycan dilində aparıldığı ümumtəhsil məktəbləri fəaliyyət göstərirdi.

Azərbaycan dili Dağıstanda tədris dili statusu daşıyırdı. Tabasaran rayonunun altı, Dərbənd rayonunun üç ibtidai məktəbində bütün fənlər üzrə tədris Azərbaycan dilində aparılırdı. Bu ibtidai siniflərdə ana dili ilə bərabər, rus dili də ayrıca fənn kimi paralel öyrənilirdi. 5-ci sinifdən başlayaraq tədris rus dilində aparılır, Azərbaycan dili isə bir fənn kimi keçilirdi. İbtidai təhsilini Azərbaycan dilində alan şagirdlər yuxarı siniflərə keçəndə təhsillərini rus dilində davam etdirmək onlara çətin olurdu. Bu səbəbdən Dərbənd azərbaycanlıları özləri müraciətlə xahiş etdilər ki, ibtidai təhsilləri Azərbaycan dilində deyil, rus dilində aparılsın. Sovet hakim dairələri, təbii ki, özü də məsələnin bu cür həllində maraqlı idi. Çünki bu, imperiya siyasətindən doğan zərurət kimi nəticə etibarilə milli fərqləri mümkün qədər silmək, imperiyanın bütövlüyünü qorumaq məqsədinə xidmət edirdi.

Tədrisin Azərbaycan dilində aparıldığı ibtidai məktəblər bağlandıqdan sonra Dağıstanda azərbaycanlıların təhsil aldığı məktəblərdə Azərbaycan dili tədris fənni kimi saxlanıldı.

# II FƏSİL

## AZƏRBAYCANDA İNTERNAT TİPLİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN, XÜSUSİ MƏKTƏBLƏRİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

Azərbaycanda internat məktəblərinin tarixi, əslində, 20-ci illərdən başlayır. Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1926-cı il 6 yanvar tarixli Kollegiya qərarı ilə qəbul edilmiş **«Kəndli gənclər məktəbləri haqqında»** Əsasnaməyə görə məktəblərin nəzdində kəndlərdən gələn uşaqlar üçün internat tipli yataqxanalar təşkil edilməsi nəzərdə tutulurdu. Sonralar bu tipli məktəblərin təcrübəsi əsasında internat məktəblər yarandı. Azərbaycanda məktəb şəbəkəsi 30-cu illərin əvvəllərində sürətlə genişləndi və ümumi icbari ibtidai təhsilə keçid başa çatdı. Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qəbul etdiyi *«İbtidai və orta məktəblərin quruluşu haqqında»* qərara görə, məktəb sistemi formalaşdırıldı və yeni tip məktəblərin yaradılması nəzərdə tutuldu. Qərardan bir qədər sonra yetim və valideyn himayəsindən məhrum olmuş, habelə sağlamlıq imkanları məhdud olan uşaqlar üçün uşaq evləri, internatlar və xüsusi məktəblər yaradıldı. Bu da həmin kateqoriyadan olan uşaqların təhsilə cəlb olunmasını təmin etdi. Bütün bunlar təhsil almaq üçün cəmiyyətin hər bir üzvünə bərabər imkanların yaradılmasının təzahürü idi.

50-ci illərdə bir sıra ümumtəhsil internat məktəblərinin bazasında təmayüllü internat məktəblərinin təşkilinə başlandı. Bunlar tamamilə yeni tip ümumtəhsil məktəbləri idi. Respublikanın müxtəlif bölgələrindən gəlmiş, xüsusi istedada malik olan səkkizinci sinfi bitirmiş uşaqlar bu internatlara müsabiqə yolu ilə qəbul edilirdilər. Ehtiyacı olanlar yataqxana ilə təmin olunurdular. Uşaqlara dövlət hesabına yemək verilirdi. Bu məktəblərin maddi-texniki bazası adi orta məktəblərlə müqayisədə daha möhkəm idi, başqa sözlə, bu məktəblər yeni tikilmiş xüsusi binalarda yerləşirdi, laboratoriyalar, avadanlıqlar, əyani vəsaitlərlə daha yaxşı təmin olunurdu. Təhsil dərinləşdirilmiş proqramla həyata keçirildiyindən bu məktəblərdə işləyən müəllimlər qarşısında daha yüksək tələblər qoyulurdu.

### 2.1. Ümumtəhsil internat məktəbləri

Sovet İttifaqında ümumtəhsil internat məktəbləri Sov.İKP-nin XX qurultayının (14–25 fevral 1956-cı il) qərarına müvafiq olaraq yaradılmışdı. **15 sentyabr 1956-cı ildə Sov.İKP MK və SSRİ Nazirlər Soveti «İnternat məktəblərinin yaradılması haqqında» xüsusi qərar qəbul etdi.** 1957-ci ildən başlayaraq internatlar üçün 210, 300, 450 şagird yerlik tədris korpusu, yataqxana və digər köməkçi binaların

tikilməsi barədə SSRİ Dövlət Tikinti Komitəsinə tapşırıq verildi.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin müvafiq qərarına uyğun olaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi və Azərbaycan SSR Nazirlər Soveti **1957-ci il iyulun 3-də «Azərbaycan SSR-də internat məktəblərin açılması haqqında»** qərar qəbul etdi.

Respublikamızda ilk ümumtəhsil internat məktəbləri elə həmin ildə Bakı şəhərində, Şəki və Qusar rayonlarında təşkil olundu. Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin konkret yardımı sayəsində qısa bir müddətdə Azərbaycanda ümumtəhsil internat məktəblərinin şəbəkəsi yaradıldı. 50-ci illərin axırlarında respublikada 37 internat məktəbi fəaliyyət göstərirdi ki, orada da 8973 şagird təhsil alırdı. Bu sahədə təcrübənin az olmasına baxmayaraq, Bakıdakı 8 və 10№-li, Ordubad, Ağdam, Xankəndi, Şuşa və digər internat məktəblərinin pedaqoji işçiləri nümunəvi uşaq kollektivləri yaratmağa nail oldular. Uşaqların təhsil və tərbiyəsinə yaradıcılıqla yanaşaraq, onları əməli fəaliyyətə hazırlamaq işində uğurlar qazandılar.

Həmin illərdə internat məktəblərin təşkilinə o qədər aludəçilik yaranmışdı ki, hətta bəzi rayonlarda birdən-birə 3 internat məktəb açılmışdı *(bax: Azərbaycan müəllimlərinin qurultayları. I–XII. Bakı, 2008, səh.154).*

Sov.İKP-nin XXI qurultayında (25 yanvar – 5 fevral 1959-cu il) ümumtəhsil internat məktəblərinin uşaqların təlim-tərbiyəsində oynadığı müsbət rol yüksək qiymətləndirildi, bu sahədə qazanılmış uğurlar təqdir olundu. İnternat məktəblərin şəbəkəsinin genişləndirilməsi haqqında yeni qərar qəbul edildi. Bu qərarın icrası ilə əlaqədar Sov.İKP MK və SSRİ Nazirlər Soveti **«1959–1965-ci illərdə internat məktəblərin inkişafı üzrə tədbirlər haqqında»** xüsusi qərar qəbul etdi. Qərarda SSRİ Dövlət Plan Komitəsinə, müttəfiq respublikaların Nazirlər Sovetinə 1959–1965-ci illərdə internat məktəblər üçün binaların tikilməsi məqsədilə kapital qoyuluşunu artırmaq və internat məktəblərinin yataqxanalarını ən zəruri avadanlıqla təchiz etmək tapşırıldı.

Qərarların yerinə yetirilməsi Azərbaycanda internat məktəblər üçün yeni binaların tikilməsinə, onların şəbəkəsinin genişlənməsinə, şagird kontingentinin artmasına, peşəkar müəllim heyəti ilə təmin olunmasına şərait yaratdı. Artıq 1966-cı ildə respublikamızda 21 min şagirdi əhatə edən 56 internat məktəb fəaliyyət göstərirdi. Kənd yerlərində internat məktəblərin şəbəkəsini genişləndirmək istiqamətində də müəyyən addımlar atıldı. 60-cı illərin axırlarına kimi hər bir rayonda ən azı bir internat məktəb açılması nəzərdə tutulmuşdu. Lakin 60-cı illərin sonu, 70-ci illərin əvvəllərində günüuzadılmış məktəb və qrupların şəbəkəsinin genişləndirilməsi ilə əlaqədar olaraq ümumtəhsil internat məktəblərə axın azalmağa başladı. Günüuzadılmış məktəb və qruplar valideynlər üçün daha əlverişli idi. Bu tipli məktəblərdə uşaqlar dərsdən sonra müəllimlərin nəzarəti altında sabahkı dərslərə hazırlaşır, nahar və istirahət edirdilər. Günün sonunda isə valideynlər uşaqlarını evlərinə aparırdılar. Uşaqların hər gün öz valideynləri ilə bir yerdə olmaları onların təhsil-tərbiyəsində və inkişafında çox mühüm rol oynayırdı. Aqillər demiş, bir yaxşı ana yüz müəllimə bərabərdir.

70–80-ci illərdə Azərbaycanda ümumi icbari orta təhsili həyata keçirmək məqsədilə yaradılan məktəbyanı internatlar şəbəkəsi fəaliyyət göstərirdi. 1979-cu ilin əvvəllərində 6 min şagirdi əhatə edən 215 belə internat var idi. 1980-ci ilin əvvəllərində şagirdlərin məktəbə daşınmasındakı problemlər tədricən aradan qaldırıldığından, belə məktəblərin sayı da azalmağa başladı.

80-ci illərdə respublikadakı ümumtəhsil internat məktəblərinin şəbəkəsində və şagird kontingentində ciddi dəyişiklik olmadı. 1990-cı ildə ölkədə 19,4 min şagirdi əhatə edən 50 ümumtəhsil internat məktəbi fəaliyyət göstərirdi. Bəzi internat məktəblər öz təcrübəsi ilə nəinki respublikamızda, hətta SSRİ məkanında da sayılıb seçilirdi. Onların elmə, mədəniyyətə və ictimai həyatın ayrı-ayrı sahələrinə öz dəyərli töhfələrini verən neçə-neçə məzunları vardır.

**Fizika-riyaziyyat təmayüllü internat məktəb.** 1957-ci ildə yaradılan 1№-li internat məktəbin bazasında 1964-cü ildə 1№-li fizika-riyaziyyat və kimya-biologiya təmayüllü internat məktəb yaradıldı. 1969-cu ildə kimya-biologiya təmayüllü siniflər ayrıldı, 5№-li kimya-biologiya təmayüllü internat məktəb kimi fəaliyyətə başladı. Fizika-riyaziyyat təmayüllü siniflər



*Fizika-riyaziyyat və informatika təmayüllü internat məktəbin binası*



*Fizika-riyaziyyat və informatika təmayüllü internat məktəbin tələbələri dərs zamanı*

isə 1№-li fizika-riyaziyyat təmayüllü internat məktəb kimi fəaliyyətini davam etdirdi. Bu internat məktəbə respublikanın bütün rayonlarından riyaziyyat və fizika sahəsində qabiliyyəti olan VIII sinfi bitirmiş uşaqlar müsabiqə yolu ilə qəbul olunurdular. Şagirdlərin fizika və riyaziyyat fənlərini öyrənmələri üçün məktəbdə hər cür şərait yaradılmışdı. Rayondan gələn şagirdlər məktəbin yataqxanasında yaşayırdılar. İnternat məktəb Azərbaycan Dövlət Universitetinin baza məktəbi hesab edilirdi. Universitetin tanınmış fizika və riyaziyyat müəllimləri burada dərs deyirdilər. İnternat məktəbin ümumtəhsil məktəblərdən fərqi yalnız onun fizika və riyaziyyat təmayüllü olmasında idi. Əgər ümumtəhsil məktəblərində IX, X siniflərdə riyaziyyat həftədə 4–5 saat keçilirdisə, internat məktəbin fizika təmayüllü qrupunda 5 saat, riyaziyyat təmayüllü qrupunda isə 6–7 saat tədris olunurdu.

Nazirlər Kabinetinin 2 noyabr 1991-ci il tarixli qərarına əsasən məktəbin adı dəyişdirilərək fizika-riyaziyyat və informatika təmayüllü (internat tipli) lisey adlandırıldı.

**Kimya-biologiya təmayüllü internat məktəb.** Bu məktəb 1969-cu ildə 1№-li fizika-

riyaziyyat və kimya-biologiya təmayüllü internat məktəbin bazasında təşkil olunmuşdur. Məktəb o vaxtlar Nəriman Nərimanov adına Tibb İnstitutunun baza məktəbi idi. İnternat məktəb səriştəli və peşəkar ixtisas müəllimləri ilə komplektləşdirilmişdi. Bu məktəbə VIII sinfi bitirmiş şagirdlər müsabiqə yolu ilə qəbul olunurdular. Ayrı-ayrı rayonlardan gələn şagirdlər internat məktəbin yataqxanasında yaşayırdılar. Əgər ümumtəhsil məktəblərində kimya fənni IX–X siniflərdə həftədə 3 saat, biologiya fənni isə 1–2 saat tədris olunurdusa, internat məktəbdə həm kimya, həm biologiya fənləri həftədə 4 saat tədris olunurdu. Əlavə olaraq IX sinifdə sənayedə kimya (1 saat), bitkiçiliyin əsasları (1 saat), X sinifdə kimya və ekologiya (1 saat), heyvandarlığın əsasları (1 saat) tədris olunurdu. İnternat məktəb kimya və biologiya təmayüllü olduğundan məzunların çoxu tibbin müxtəlif sahələrini seçmiş, həkim, bioloq və kimyaçı kimi ad-san qazanmışlar. İnternat məktəbin məzunları yüksəkixtisaslı kadrlar kimi respublikamızla yanaşı, xarici ölkələrdə də uğurla fəaliyyət göstərirlər.

**Seyid Cəfər Pişəvəri adına fars dili təmayüllü internat məktəb.** Seyid Cəfər Pişəvəri adına fars dili təmayüllü internat məktəb 1959-cu ildə Nərimanov rayonunda 4№-li səkkizillik




*Fars dili təmayüllü internat məktəbin şagirdləri*

internat məktəb kimi fəaliyyətə başlamışdır. Məktəbin binası yeni inşa edilmiş iki dördmərtəbəli binadan, tədris və yataqxana korpuslarından ibarət idi. Məktəbdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərirdi.

1966-cı ildən səkkizillik internat məktəbin adı və statusu dəyişdirilmiş, Seyid Cəfər Pişəvəri adına internat məktəbi kimi fəaliyyət göstərməyə başlamışdır. İlk illər burada bütün fənlər yalnız fars dilində, Azərbaycan və rus dilləri isə xarici dillər statusunda tədris olunurdu. İnternat məktəbdə, əsasən, Cənubi Azərbaycan Demokrat Firqəsindən olan iranlı mühacirlərin uşaqları təhsil alırdılar. Lakin yuxarı siniflərdə dərs deyəcək ixtisaslı fənn müəllimlərinin olmaması səbəbindən internat məktəbdə tədris 1971-ci ildən Azərbaycan dilində aparılmağa başladı. II–V sinfə kimi həftədə 4 saat, V–X sinfə kimi həftədə 5 saat fars dili tədris olunurdu. 1991-ci ildə tədris müəssisəsinin adı dəyişilərək Seyid Cəfər Pişəvəri adına humanitar fənlər gimnaziyası adlandırılmışdır.

**Səttar Bəhlulzadə adına ərəb dili təmayüllü internat məktəb.** Bu internat məktəb 1961-ci ildə 9 №-li beynəlmiləl internat məktəb kimi fəaliyyətə başlamışdır. Azərbaycan SSR Nazirlər Sovetinin 4 mart 1976-cı il tarixli qərarı ilə həmin internat məktəbin bazasında incəsənət təmayüllü respublika orta ümumtəhsil məktəbi yaradılmışdır.

1989-cu ildə Azərbaycan SSR xalq rəssamı Səttar Bəhlulzadənin anadan olmasının 80 illik yubileyi şərəfinə internat məktəbə Səttar Bəhlulzadənin adı verildi. Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin 4 iyul 1990-cı il tarixli əmri ilə incəsənət təmayüllü internat məktəbin təmayülü dəyişdirildi, onun bazasında ərəb-ingilis dili təmayüllü internat məktəb yaradıldı.

Məktəbdə ərəb dilinin tədrisi digər ümumtəhsil məktəblərindən fərqli olaraq, II sinifdən başlayırdı. II–IV siniflərdə 4 saat, V–X siniflərdə 5 saat tədris olunurdu.

**Anton Semyonoviç Makarenko adına humanitar təmayüllü internat məktəb.** Bu məktəb səkkizillik internat məktəb kimi fəaliyyətə başlamışdır. İlk buraxılışı 1965-ci ildə olmuşdur. Həmin ildə məktəbi 63 nəfər bitirmişdir. 1973-cü ildə orta ümumtəhsil internat məktəbinə çevrilmişdir. Məktəbdə tədris prosesi ümumtəhsil məktəblərinin tədris planı əsasında qurulmuşdu. Fərq ancaq rus dilinin dərinləşdirilmiş proqramla öyrədilməsi idi. Məktəb 1985-ci ildən 1991-ci ilədək Cəmşid Naxçıvanski adına hərbi məktəbin bazası olmuşdur. Bu dövrdə Rusiyanın və Özbəkistanın eyni təmayüllü internatları ilə sıx əməkdaşlıq əlaqələri yaradılmış, məzunların böyük əksəriyyəti Rusiyanın mülki və hərbi məktəblərində təhsillərini davam etdirmişlər.

**Respublika idman təmayüllü internat məktəb.** SSRİ Nazirlər Sovetinin 1964-cü il tarixli sərəncamı ilə keçmiş İttifaq respublikaları arasında ilk dəfə məhz Azərbaycanda təsis edilmişdi. 6№-li internat məktəbin bazasında yaradılan bu məktəb üçün Sabunçu rayonunda 4,7 *ha* sahə ayrılmışdı.

1989-cu ilə kimi məktəb Maarif Nazirliyinin nəzdində fəaliyyət göstərmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin 21 mart 1989-cu il tarixli qərarı ilə internat məktəb Respublika Olimpiya Ehtiyat Məktəbi adlandırıldı. Azərbaycan SSR Maarif Nazirliyinin tabeliyindən çıxarılaraq,

bütün əmlakı ilə birlikdə Azərbaycan SSR İdman Komitəsinin balansına keçirildi.

Məktəbdə ümumtəhsil fənləri öyrədilməklə yanaşı, idmanın 5 növü (sərbəst və Yunan–Roma güləşi, yüngül atletika, futbol və gimnastika) üzrə də məşğələlər keçirilirdi. Sonralar məktəbin fəaliyyət sahəsi daha da genişləndirildi, buradakı idman bölmələrinin sayı 8-ə (sərbəst güləş, Yunan–Roma güləşi, cüdo, futbol, boks, idman gimnastikası, voleybol, üzgüçülük) çatdırıldı.

İnternat məktəbdə idmançı şagirdlər xüsusi proqram əsasında tədris və təlim-məşqlərə cəlb olunurdular. Qax rayonunda məktəbin şöbəsi, Nabran qəsəbəsində isə İdman Sağlamlıq düşərgəsi var idi.

Bu məktəbin məzunları arasında çoxlu sayda Olimpiya, dünya və Avropa birinciliklərinin qalibi olmuş idmançılar var idi. Yunan–Roma güləş növü üzrə 1988-ci il Olimpiya oyunlarının qalibi, ikiqat dünya və üçqat Avropa çempionu Kamandar Məcidov, 1988-ci il Olimpiya çempionu qılıncoynadan Boris Koretski bu məktəbin yetirmələridir.

**Süleyman Rüstəm adına fars dili təmayüllü natamam internat məktəb.** Bu məktəb 1960-cı ildə natamam orta təhsil bazasında fars dili təmayüllü 3 №-li internat məktəb kimi yaradılmışdır. Fars dili II–IV siniflərdə 4 saat, V–VIII siniflərdə 5 saat tədris olunurdu. 1960/61-ci tədris ilində məktəbdə 632 şagird təhsil alırdı. Onlardan 400 nəfəri internatın yataqxanasında yaşayırdı.

İnternat məktəb dördmərtəbəli əsas binadan (V–X siniflər üçün tədris korpusu), üçmərtəbəli yardımçı binadan (I–IV siniflər üçün tədris korpusu), yataqxana və yeməkxana korpusundan ibarət idi. Məktəbdə fənn kabinetləri, laboratoriyalar, emalatxana, kitabxana, idman və akt zalı fəaliyyət göstərirdi.

**İncəsənət təmayüllü gimnaziya.** Bu gimnaziya 1959-cu ildə Azərbaycan Respublikası Nazirlər Sovetinin sərəncamına əsasən 8№-li Musiqi təmayüllü internat məktəb kimi fəaliyyətə başlamışdır. Tanınmış musiqiçilərdən və məktəbin pedaqoji kollektivindən ibarət nümayəndə heyəti Azərbaycanın müxtəlif bölgələrinə ekspedisiyalar təşkil etmiş, musiqi sahəsində xüsusi istedada malik olan uşaqların məktəbə cəlb olunmasını təmin etmişlər. İlk illər 8№-li internat məktəbin 250 nəfərdən ibarət şagird kollektivi var idi. Məktəbə qəbul zamanı, ilk növbədə uşaqların musiqi sahəsindəki istedadı yoxlanılırdı.

İnternat məktəb ilk dəfə dördmərtəbəli binada fəaliyyətə başladı. Binanın 3 mərtəbəsində dərslər keçirilir, 4-cü mərtəbəsindən isə yataqxana kimi istifadə edilirdi. 1960-cı ilin əvvəllərində beşmərtəbəli yataqxana korpusu istifadəyə verildi.

Təhsil müəssisəsi fəaliyyətə başladığı ilk illərdə məktəbdə 20 sinif var idi. 10 sinif Azərbaycan, 10 sinif isə rus bölməsinə aid idi. İlk illərdən başlayaraq ümumtəhsil fənlərinin günün tələbləri səviyyəsində tədrisi məqsədilə məktəbə ali təhsilli, istedadlı, səriştəli müəllimlər cəlb edildi. Tədricən fənn kabinetləri fəaliyyətə başladı. Onların texniki təchizat məsələləri yüksək səviyyədə həll olundu. Məktəbdə coğrafiya, ədəbiyyat, kimya, riyaziyyat və digər fənlərə aid gecələr təşkil olunur və yüksək səviyyədə keçirilirdi.

Qısa bir müddətdə istedadlı uşaqlardan ibarət 70 nəfərlik uşaq xor kollektivi, milli,



*Azərbaycan İncəsənət Gimnaziyasının binası*



*Kövkəb Səfərəliyeva İncəsənət Gimnaziyasının şagirdlərindən bir qrupu ilə. Sağdan 3-cü Gülarə Əliyeva*




*İncəsənət Gimnaziyasında Əlifba bayramı*



*İncəsənət Gimnaziyasının şagirdləri respublika tədbirində*

beynəlmiləl və bal rəqsləri qrupu, nəfəsli orkestr yaradıldı. Bu kollektivlər tez bir zamanda respublikamızda keçirilən bütün tədbirlərin fəal iştirakçısına çevrildilər. Bir çox dövlət tədbirlərində uğurla çıxış edərək müxtəlif diplom və fəxri fərmanlara layiq görüldülər.

8№-li internat respublikamızda proqramlaşdırılmış təlim üsuluna keçən ilk məktəb olmuşdur. Maarif naziri, akademik Mehdi Mehdizadə bu məktəbə böyük diqqət yetirirdi. Hər il sentyabrın birində internata gəlir və yeni tədris ilinə hazırlıq səviyyəsi ilə tanış olurdu. Sinif otaqlarını, fənn kabinetlərini bir-bir gəzib nəyə ehtiyac olduğunu yoxlayırdı.

İnternatda xalq çalğı alətləri, simli alətlər ansamblı və nəfəs alətləri orkestri fəaliyyət göstərirdi. Respublikada ilk nəfəs alətləri sinfi məhz 8№-li musiqi təmayüllü internat məktəbdə yaradılmışdır. Nəfəs alətləri orkestri respublikada keçirilən bütün dövlət tədbirlərində müntəzəm olaraq iştirak edirdi. 80-ci illərdə ardıcıl olaraq hər il keçirilən Respublika Uşaq Muğam festivalının qalibləri arasında Respublika İncəsənət Gimnaziyasının yetirmələri də olmuşdur.

1980-ci ildə məktəbin kitabxanasında oxu zalı fəaliyyətə başladı. Ən müasir standartlara uyğun fənn kabinetləri yaradıldı.

1990-cı ildə 8 nömrəli Musiqi Təmayüllü İnternat məktəblə 9 nömrəli İncəsənət Təmayüllü orta internat məktəbi birləşdirilərək yeni təhsil ocağı – İncəsənət təmayüllü gimnaziya yaradıldı. Bu, respublikada ilk incəsənət gimnaziyası idi. Musiqi və təsviri sənət profilli iki internat məktəbin bazasında yaradıldığına görə, burada şagirdlər xüsusi musiqi və rəssamlıq təhsili alırdılar. İnternat məktəbdə şagirdlərə




*Musiqi təmayüllü 8№-li internat məktəbin müəllimlərindən bir qrupu*

orta təhsil haqqında attestatla yanaşı, konkret ixtisas üzrə təhsil almaları haqda arayış da verilirdi.

**Cəmşid Naxçıvanski adına Respublika hərbi təyinatlı internat məktəb.** Azərbaycan istər çar Rusiyasının, istərsə də sovet imperiyasının tərkibində olduğu vaxtlarda gənclərimizin hərbi peşələrə yiyələnmələri yolunda ciddi maneələr yaradılırdı. Hətta Bakı şəhərinin özündə yerləşən ali hərbi məktəblərin

kursantları arasında azərbaycanlıları barmaqla saymaq olardı.

Azərbaycanda rəhbərliyə gəldiyi ilk illərdə Heydər Əliyev bir qrup maarif işçisi ilə görüşərək hərbi təyinatlı orta internat məktəb yaratmaq barədə düşüncələrini onlarla bölüşdü və bunu həyata keçirməyin vaxtı çatdığını söylədi. Maarif Nazirliyində də bu fikir böyük ruh yüksəkliyi ilə qarşılandı. Maarif naziri Mehdi Mehdizadə 1971-ci ilin iyununda Azərbaycan KP MK-ya məktubla müraciət etdi:

***Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə***

*Azərbaycan KP MK Bürosunun 29 aprel 1971-ci il tarixli 3 nömrəli «Partiya, sovet, komsomol təşkilatlarının və respublika hərbi komissarlıqlarının gənclərin sovet ordusu sıralarında xidmətə hazırlanması və hərbi məktəblərin komplektləşdirilməsi üzrə işi haqqında» qərarının 7-ci bəndini icra edərək, Maarif Nazirliyi, Azərbaycan SSR Hərbi Komissarlığı və Azərbaycan LKGİ ilə razılaşdırılmış «Bakı şəhəri, Zığ qəsəbəsi 2 nömrəli səkkizillik internat məktəbin respublikanın hərbi təyinatlı orta internat məktəbi kimi yenidən qurulması» barədə qərar lahiyəsini təqdim edir».*

Bir neçə gün sonra Azərbaycan KP MK-nın bürosu Heydər Əliyevin rəhbərliyi ilə həmin layihəni müzakirə edərək qərara aldı:

*Azərbaycan SSR Maarif Nazirliyinə 1971/72-ci tədris ilində Bakı şəhər Zığ qəsəbəsi 2 nömrəli səkkizillik internat məktəbinin respublikanın hərbi təyinatlı orta internat məktəbi kimi yenidən qurulmasına icazə verilsin.*

*Həmin internat məktəbə qəbul hər il 70 nəfərdən ibarət iki beşinci sinif daxil olmaqla təşkil edilsin.*

*Azərbaycan SSR Nazirlər Sovetinə tapşırılsın ki, respublika hərbi təyinatlı orta internat məktəbin şagirdlərinin təchizatının pulsuz təmin edilməsinin maliyyələşdirilməsi məsələlərinə baxsın və həll etsin. Göstərilən məktəb üzərində hamilik Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Hərbi Ümumqoşun Komandirləri Məktəbinə tapşırılsın.*

*Maarif Nazirliyinə Azərbaycan SSR Hərbi Komissarlığı ilə birlikdə 3 ay müddətində «Respublika hərbi təyinatlı orta internat məktəb haqqında əsasnamə»nin hazırlanması və təsdiq olunmaq üçün təqdim edilməsi tapşırılsın.*

Beləliklə, Respublika hərbi təyinatlı orta internat məktəbin yaradılması üçün qızğın iş başlandı. Ən qısa bir vaxtda əsasnamə hazırlanaraq təsdiq olunmaq üçün təqdim edildi. Pedaqoji kollektivin, texniki işçilərin və şagird kontingentinin komplektləşdirilməsinə başlandı. Analoqu olmayan yeni bir təhsil ocağının əsası qoyuldu. O zaman internat məktəb cəmi 5 hektarlıq kiçik bir sahəni əhatə edirdi. Onun yalnız 12 sinif otağından ibarət balaca bir tədris korpusu var idi. Məktəbin tədris bazası 320 nəfər üçün nəzərdə tutulsa da, orada 400 nəfər təhsil alırdı. Dar bir otaqdan ibarət kitabxanasında 5–6 nəfər güclə əyləşə bilirdi. Heydər Əliyev hərbi internat məktəbin maddi-texniki bazasını qısa bir zaman çərçivəsində möhkəmləndirmək üçün bütün əlaqədar təşkilatları və nazirlikləri ayağa qaldırdı. Çox keçmədi ki, kiçik bir məktəb binasının yerində nəhəng bir hərbi şəhərcik salındı. Sonralar Heydər Əliyev bu təhsil ocağının



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev hərbi məktəbin gənc kursantları ilə görüşərkən. 1973-cü il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev hərbi məktəbin müəllimləri ilə. 1973-cü il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev kursantları təbrik edir. 1973-cü il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev internat məktəbin yeməkxanasında. 1973-cü il*

yaranmasını belə xatırlayırdı: «*1971-ci ildə mən Azərbaycanın gələcəyini düşünərək Bakıda xüsusi bir hərbi məktəbin yaranmasına nail oldum. O məktəbə Cəmşid Naxçıvanskinin – bizim qəhrəman generallardan birinin adı verildi...*

*...Mən indi düşünürəm, əgər bu hərbi məktəb olmasaydı, bizim ordumuzdakı o zabitlərdən çoxu, yəqin olmayacaqdı. Çünki bu zabitlərimizin çoxu həmin məktəbin yetirməsidir. Bu məktəbdən sonra biz ildə təxminən 800–900 nəfər gənc azərbaycanlını Sovetlər İttifaqının ali hərbi məktəblərinə göndərirdik (Heydər Əliyevin Azərbaycan gənclərinin I forumundakı nitqindən, 1996-cı il, 2 fevral).*

Heydər Əliyev 1971–1988-ci illərdə 22 dəfə bu təhsil ocağında olmuş, onun maddi-texniki bazası, burada təhsilin təşkili və gələcək zabitlərin hazırlığı ilə maraqlanmış, öz təklif və tövsiyələrini vermişdi.

Bu qiymətli hərbi təhsil ocağı hələ yarandığı ilk illərdə tədrisin keyfiyyət göstəricilərinə görə dəfələrlə SSRİ Maarif Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdi. 1973-cü ildə internat məktəbə ümumrespublika statusu verildi. 1981-ci ildə internat məktəbin 10 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışında Simferopol Ali Hərbi Məktəbinin rəisi demişdi: **«Cəmşid Naxçıvanski adına hərbi məktəbin məzunlarının hazırlıq səviyyəsi o qədər yüksəkdir ki, onları ali hərbi məktəblərə, hətta imtahansız belə qəbul etmək olar».** Onun bu fikrinin SSRİ-nin digər respublikalarının tədris müəssisələrindən mərasimə dəvət olunmuş təcrübəli hərbçilər tərəfindən də dəstəklənməsi məktəbdə təhsilin keyfiyyətinin nə qədər yüksək olduğuna əyani sübut idi.

## 2.2. Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün uşaq evləri və internat məktəblər

Sovet hakimiyyəti illərində Azərbaycanda yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət nəzarətində idi. Onların yaşaması, təhsil və tərbiyə alması üçün uşaq evləri və internat məktəblər təşkil olunmuşdu.

### 2.2.1. Uşaq evləri

Azərbaycanda yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün uşaq evləri 40-cı illərdə Bakı şəhərində və respublikanın ayrı-ayrı rayonlarında təşkil edilmişdi. İlk vaxtlar həmin müəssisələrə II Dünya müharibəsində almanlar tərəfindən işğala məruz qalan respublikalardan yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar gətirilmişdi. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, Bakı şəhərinin 2 №-li uşaq evində 1946-cı ildə 129 uşaq saxlanılırdı ki, onlardan da 91 nəfəri RSFSR, Belorusiya və Ukraynadan gətirilənlər idi.

1943-cü ildə Bakı şəhərində 24, respublikanın digər rayonlarında isə 27 uşaq evi fəaliyyət göstərirdi.

*1943-cü ildə respublikada fəaliyyət göstərən uşaq evləri*

1. Naxçıvan MR 1№-li uşaq evi
2. Ordubad rayonu oğlanlar üçün uşaq evi
3. Ordubad rayonu qızlar üçün uşaq evi
4. Noraşen uşaq evi
5. Nuxa (Şəki) 1№-li uşaq evi
6. Nuxa (Şəki) 2№-li uşaq evi

7. Lerik uşaq evi
8. Masallı uşaq evi
9. Masallı 2№-li uşaq evi
10. Salyan uşaq evi
11. Kirovabad (Gəncə) şəhər uşaq evi
12. Tovuz rayon 1№-li uşaq evi
13. Tərtər uşaq evi
14. Xızı uşaq evi
15. Şamxor (Şəmkir) uşaq evi
16. Şamxor rayon (Şəmkir) 1№-li uşaq evi
17. Şamxor rayon (Şəmkir) 2№-li uşaq evi
18. Xacmaz uşaq evi
19. Xudat uşaq evi
20. Şamaxı uşaq evi
21. İsmayıllı uşaq evi
22. Şuşa 1№-li uşaq evi
23. Şuşa 2№-li uşaq evi
24. Şuşa 3№-li uşaq evi
25. Yardımlı uşaq evi
26. Sabirabad uşaq evi
27. Xaldan uşaq evi

Müharibə minlərlə ailəni başsız qoymuşdu. Valideynlərindən birini və ya hər ikisini itirmiş uşaqların sayı xeyli artmışdı. 1944-cü ildə rayonlarda təşkil olunan uşaq evlərinin sayı 39-a çatmışdı.

**3№-li uşaq evi** 1937-ci ildə təşkil olunmuşdur. Bu uşaq evi ilk vaxtlar Quba şəhərində fəaliyyətə başlamış, sonra Bakı şəhərinin Şüvəlan qəsəbəsinə köçürülmüşdü. 1967-ci ildən 3№-li uşaq evi Şüvəlan qəsəbəsindən Bakı şəhərinin Nizami parkına, 1978-ci ildə Bakı şəhərinin Xətai rayonuna köçürülmüşdür. 1967-ci ildə uşaq evində 160, 1978-ci ildə 130 uşaq yaşamış, təhsil və tərbiyə almışdır. Bu uşaq evində yaşayan uşaqlardan məktəb yaşı çatanlar Xətai rayonundakı 25 və 29 №-li məktəblərdə təhsil alırdılar. Onlar həmin məktəbdə orta təhsillərini başa vurduqdan sonra, ümumi qaydalar əsasında ali məktəblərə, texnikumlara, peşə məktəblərinə daxil olurdular.

**Lənkəran şəhəri qarışıq tipli uşaq evi** 1941-ci ildə yaradılmışdır. 1941–1945-ci illərdə bu uşaq evinə keçmiş SSRİ-nin II Dünya müharibəsində işğala məruz qalmış ərazilərindən yetim və kimsəsiz uşaqlar gətirilmişdi. 1941-ci ildə burada 120, 1945-ci ildə 133 uşaq tərbiyə olunmuşdu.

Bu müəssisədə tərbiyə olunan uşaqlar IX sinfə qədər uşaq evində, sonra isə həmin müəssisəyə yaxın olan şəhər 5№-li orta məktəbdə təhsil alırdılar.

**Şəki şəhər qarışıq tipli uşaq evi** 1941-ci ildə təşkil edilmişdi. 1941-ci ildə uşaq evinə 55 nəfər uşaq qəbul olunmuşdu. Bu müəssisədə tərbiyə olunan uşaqlar uşaq evinə yaxın məsafədə yerləşən Şəki şəhər 2№-li məktəbdə ümumi təhsil proqramı əsasında təhsil alırdılar.

**1970-ci ildən fəaliyyət göstərən Nizami rayonundakı 1№-li uşaq evinə** məktəbəqədər yaşlı yetim və valideyn himayəsindən məhrum olan uşaqlar qəbul edilirdi. Yarandığı ilk ildə məktəbə 58 uşaq qəbul edilmişdi. Məktəb yaşı çatdıqda həmin uşaqlar Bakı şəhərində fəaliyyət göstərən yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün nəzərdə tutulan xüsusi internat məktəblərə göndərilirdilər.



*Şəki qarışıq tipli uşaq evi*



*Əzizbəyov rayon 2№-li internat məktəbin şagirdləri*

### 2.2.2. İnternat məktəblər

Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün **1№-li xüsusi ümumtəhsil internat məktəb** 1963-cü ildə Sabunçu rayonunun Maştağa qəsəbəsində 41 nəfər pedaqoji işçi və 411 şagird heyəti ilə 15№-li internat məktəb kimi fəaliyyətə başlamışdı. İnternat məktəbin ikimərtəbəli tədris korpusu, üçmərtəbəli 2 yataqxanası, yeməkxanası, akt zalı və köməkçi sahəsi var idi. 1985-ci ildə 15№-li internat məktəbi yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 1№-li xüsusi internat məktəbə çevrilmişdi. İnternatda uşaqlar IX sinfə qədər ümumtəhsil proqramı əsasında oxuyur, sonra təhsillərini digər müəssisələrdə davam etdirirdilər.

**2№-li yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün internat məktəb** 1937-ci ildə 6№-li uşaq evi kimi fəaliyyətə başlamışdır. 30-cu illərdə internat məktəbdə 90 nəfər, 1960-cı ildə isə 160 nəfər şagird təhsil-tərbiyə almışdır.

1980-ci ildə 6№-li uşaq evinin yanında üç yataq korpusu, üçmərtəbəli yataqxanası, ikimərtəbəli tədris korpusu, yeməkxanası, xüsusi qazanxanası və camaşırxanası olan 2№-li internat məktəb tikildi. 1985-ci ildən 6№-li uşaq evi 2№-li xüsusi ümumtəhsil internat məktəb kimi fəaliyyətə başladı. Həmin dövrdə internat məktəbdə 320 nəfər şagird həm təhsil alır, həm də yaşayırdı. Burada yaşayan uşaqlar təhsillərini ümumtəhsil proqramı əsasında həmin müəssisədə alırdılar.

### 2.3. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi internat məktəblər

Sovet hakimiyyəti illərində respublikada sağlamlıq imkanları məhdud olan uşaqlar üçün də 16 xüsusi internat məktəb yaradılmışdı.

Bu məktəblərdən biri də yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün **Respublika yardımçı internat məktəbdir.** 1967-ci ildə yaradılmış bu məktəbdə ilk vaxtlar 47 şagird təhsil alırdı. Uzun müddət məktəb uyğunlaşdırılmış binada fəaliyyət göstərmişdir. Burada yaşayan uşaqlar zehni cəhətdən zəif inkişaf etdiyi üçün xüsusi proqramla təhsilə cəlb olunmuşdular. Onlar doqquz il oxusalar da, ibtidai təhsil həcmində bilik alır, sonra öz təhsillərini peşə məktəblərində davam etdirirdilər.

**Gözdən əlil uşaqlar üçün orta internat məktəb.** 1936-cı ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığının əmri ilə gözdən əlil uşaqların təhsil və tərbiyəsini təşkil etmək üçün **Korlar məktəbi** yaradıldı. Fəaliyyətinin ilk illərində məktəbə 90 nəfər şagird cəlb olunmuşdu.

1961-ci ildən Bakı şəhərindəki Fətəli xan Xoyski prospekti, 97№-li ünvanda korlar üçün nəzərdə tutulmuş layihə əsasında yeni bina tikilmişdir. Məktəbdə zəif görən uşaqlar da təhsil alırdılar. Bu səbəbdən 1967-ci ildə məktəbin adı dəyişdirilərək **«Kor və zəif görən uşaqlar üçün Respublika internat orta məktəbi»** adlandırıldı. Burada təhsil ümumtəhsil orta məktəbinin proqramı əsasında həyata keçirilirdi.

**Kar uşaqlar üçün 1№-li internat məktəb** 1932-ci ildə 11 müəllim və 18 şagirdlə təşkil olunmuşdur. 1964-cü ildə internat məktəb

Bakı şəhəri 8-ci km yaşayış sahəsindəki 300 yerlik binaya köçürülmüşdür. Məktəbdə təhsil ümumtəhsil proqramı əsasında həyata keçirilirdi.

**Kar uşaqlar üçün 3№-li xüsusi internat məktəb** 1969-cu ildə açılmışdır. Fəaliyyətə başladığı ilk tədris ilində burada 40 nəfər uşaq təhsil almış, onların təlim-tərbiyəsi ilə 13 nəfər müəllim-tərbiyəçi məşğul olmuşdur. Sonrakı illərdə tədris ocağının şəbəkəsi genişləndi. Burada təhsilə respublikanın müxtəlif regionlarından və qonşu respublikalardan olan kar uşaqlar da cəlb olundular.

Məktəbdə ixtisaslı kadrlara olan ehtiyacı ödəmək məqsədilə müəssisədə işləyən müəllimlərdən bir neçəsi müxtəlif illərdə keçmiş SSRİ-nin defektologiya ixtisası üzrə kadrlar hazırlayan ali təhsil müəssisələrinə kurs keçməyə göndərilmişdi.

**Zəif eşidən və sonradan karlaşmış uşaqlar üçün xüsusi ümumtəhsil internat məktəbi** 1962-ci ildən fəaliyyət göstərir. Əvvəllər uşaq evi, sonradan internat kimi fəaliyyət göstərməyə başlamışdır. Fəaliyyətə başlayarkən burada 104 nəfər şagird təhsil alırdı. Məktəb ümumtəhsil proqramı əsasında fəaliyyət göstərirdi.

**Nitqi qüsurlu uşaqlar üçün E.Mirzəyev adına xüsusi internat məktəb** 1979-cu ildə fəaliyyətə başlamışdır. İlk vaxtlar məktəbə nitqində müəyyən problemlər olan 186 şagird qəbul edilmişdi. 1991-ci ildə məktəbdə 117 nəfər nitqi qüsurlu uşaq təhsil alırdı.

Məktəb ümumtəhsil məktəblərinin proqramı əsasında fəaliyyət göstərirdi.

**Suraxanı rayonundakı 7№-li xüsusi internat məktəb** 1959-cu ildə 2 saylı ümumtəhsil internat məktəb kimi fəaliyyətə başlamışdır. 1966-cı ilə qədər fəaliyyət göstərən 2№-li internat məktəbdə 180 uşaq təhsil almışdır.

1966-cı ildən 1977-ci ilə qədər həmin binada lal-kar uşaqlar üçün internat məktəb fəaliyyət göstərmiş və burada 180–190 uşaq təhsil almışdır.

1970-ci ildə lal-kar uşaqlar üçün internat məktəb başqa yerə köçürüldüyündən, burada əqli cəhətdən qüsurlu uşaqlar üçün internat məktəb təşkil olunmuşdur. 1970-ci ildə internat məktəbdə 220 uşaq təhsil alırdı. Burada təhsil zehni cəhətdən zəif inkişaf etmiş uşaqlar üçün nəzərdə tutulan xüsusi proqram əsasında həyata keçirilirdi.

**Yel xəstəlikli uşaqlar üçün sanatoriya tipli 10№-li internat məktəbin** əsası 1961-ci ildə qoyulmuşdur. 600 yerlik internat məktəb ümumtəhsil proqramı ilə işləmişdir.

1978-ci ildə məktəbdə 400-ə yaxın şagird təhsil alırdı.

**11№-li yardımçı internat məktəb.** 1960-cı ilin 15 fevralında Sov.İKP MK-nın **«Xalq təhsil**



*Respublika yardımçı internat məktəbin 8-ci sinif şagirdləri musiqi proqramına hazırlaşarkən*



*Kor və zəif görən uşaqlar üçün internat orta məktəbi*



*Lal-kar uşaqlar üçün rəngkarlıq studiyası. 1989-cu il*



*Kar uşaqlar üçün 3№-li internat məktəbin müəllim və şagirdləri istirahət zamanı*



*E.Mirzəyev adına nitqi qüsurlu uşaqlar üçün Respublika İnternat məktəbinin şagirdləri gəzinti zamanı*

**sisteminin yenidən qurulması və günüuzadılmış məktəblərin təşkili haqqında»** qərarına müvafiq olaraq mövcud uşaq evləri internat məktəblərə çevrilməyə başladı. Bu qərara uyğun olaraq, 1961-ci ilin oktyabr ayının 3-də Bilgəh qəsəbəsində internat məktəb təşkil edildi.

1961/62-ci tədris ilində internatda 35 şagirdin tərbiyəsi ilə 16 müəllim-tərbiyəçi məşğul olurdu. İnternat məktəb 290 nəfər şagirdə hesablanmış xüsusi layihə üzrə tikilmişdi. Burada tədris binası, yataqxana, yeməkxana, bir yardımçı bina, sanitar qovşaqları, enerji sistemləri var idi. İnternat məktəbdə orta hesabla hər il 200–290 uşaq təlim-tərbiyə almış və yaşamışdır. Məktəbdə təhsil xüsusi inkişafetdirici proqram əsasında həyata keçirilirdi.

**Vərəmin ilkin və sönmüş formasında olan xəstə uşaqlar üçün nəzərdə tutulmuş 13№-li internat məktəb** 1963-cü ildə təşkil olunmuşdur. Sanatoriya tipli internat məktəbdə vərəmin müxtəlif ilkin və sönmüş formasında olan xəstə, valideynləri ilə təmasda olan uşaqlar təhsil alırdılar. İnternat məktəb 290 şagird üçün nəzərdə tutulduğu halda, 1991-ci ilə kimi orada nəinki respublikanın rayonlarından, hətta keçmiş SSRİ respublikalarından vərəm dispanserlərinin göndərişi ilə 360–365 şagird təhsil almaqla yanaşı, həm də sağlamlığını da bərpa etmişdir.

**Qaradağ rayonundakı 14№-li internat məktəb** Maarif Nazirliyinin 4 iyul 1980-ci il tarixli əmrinə əsasən nitqi qüsurlu uşaqlar üçün xüsusi internat məktəb kimi fəaliyyət göstərməyə başlamışdır. Həmin vaxt məktəbdə şagirdlərin sayı 213 nəfər idi.

Məktəb ümumtəhsil məktəblərinin proqramı əsasında fəaliyyət göstərirdi.

**Beyin iflici və polimielit keçirmiş uşaqlar üçün 16№-li xüsusi internat məktəb** 1969-cu ildə Əzizbəyov rayonunun Mərdəkan qəsəbəsində fəaliyyətə başlamışdır. Tədris müəssisəsində 165 şagird xüsusi proqramla təhsil alırdı.

**Lənkəran şəhər xüsusi internat məktəbi** 1978-ci ildən fəaliyyətə başlamışdır. İlk dövrdə məktəbə 150 nəfər şagird qəbul edilmişdi.

İnternat məktəb uyğunlaşdırılmış binada yerləşdirilmişdi. Uşaqlar bu müəssisədə müəyyən adaptasiya prosesi keçir, sağlamlıqlarını bərpa etdikdən sonra Lənkəran şəhərinin digər məktəblərində təhsillərini davam etdirirdilər. Məktəb şagirdlərin zehni inkişafına uyğun xüsusi proqramla fəaliyyət göstərirdi.

**Gəncə şəhər 4№-li sanatoriya tipli əsas internat məktəb** 1961-ci ildə 160 nəfər şagirdlə fəaliyyətə başlamışdır. İnternat məktəbdə aztəminatlı ailələrdən gələn, vərəmin ilkin və sönməkdə olan formalarına tutulmuş şagirdlər təhsil alırdılar. Məktəb ümumtəhsil proqramı əsasında fəaliyyət göstərirdi.

**Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsi.** Azərbaycan SSR Nazirlər Sovetinin 9 sentyabr 1964-cü il tarixli qərarı ilə yetkinlik yaşına çatmayanlar üçün tərbiyə koloniyası xüsusi məktəbə çevrildi.

Məktəb ailə şəraitində tərbiyəsi mümkün olmayan, təhsil aldıqları məktəbin nizamnamə tələblərini pozan və təhsildən müntəzəm yayınan, birgəyaşayış qaydalarına uyğunlaşmayan, səfil həyat tərzi keçirməyə meyil göstərən, habelə hüquq pozuntularına yol verib cinayət törədən uşaq və yeniyetmələrin pedaqoji nəzarət altında saxlanılması, təhsilə davam etməsi məqsədilə yaradılmışdı.



*Oğlanlar üçün açıq tipli xüsusi təlim-tərbiyə müəssisəsinin şagirdləri*

Xüsusi məktəb ilk vaxtlar uyğunlaşdırılmış binada fəaliyyətə başlamışdır. 1978-ci ildə məktəb üçün dördmərtəbəli yataqxana korpusu, 1985-ci ildə isə müasir tələblərə cavab verən tədris binası inşa edilmişdir.

**Qovlar qəsəbə ümumtəhsil internat məktəbi** 1961-ci ildə səkkizillik internat məktəb kimi fəaliyyətə başlamışdır. 1974/75-ci tədris ilinə kimi səkkizillik internat məktəb kimi fəaliyyət göstərmişdir. Məktəbə daxil olan şagirdlərin sayı tədricən azaldığından, zehni cəhətdən zəif inkişaf etmiş şagirdlərin də qəbuluna başlandı. 1974/75-ci tədris ilindən məktəbin adı dəyişdirilərək Qovlar qəsəbə internat məktəbi adlandırıldı. Həmin il məktəbə 183 nəfər (onların 21 nəfəri zehni cəhətdən zəif şagirdlər idi) şagird qəbul edildi.

Bu məktəbdə sağlam uşaqlar ümumtəhsil məktəblərinin proqramı əsasında, zehni cəhətdən zəif inkişaf etmiş uşaqlar isə sadələşdirilmiş xüsusi proqramla təhsil alırdılar.

### 2.3.1. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün xüsusi məktəblər

Sovet hakimiyyəti illərində respublikada sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 6 xüsusi məktəb fəaliyyət göstərmişdir.

**Səbail rayonundakı 219№-li evdə məktəb** 1940-cı ildə yeddiillik məktəb kimi fəaliyyətə



*Qovlar kənd internat məktəbinin müəllim kollektivi*



*10№-li internat məktəbin müəllim və şagirdlərindən bir qrupu*



*13№-li internat məktəbin şagirdləri*



*11№-li internat məktəbdə məşğələ zamanı*




*Lənkəran şəhər xüsusi internat məktəbinin şagirdlərinin əl işlərinin nümayişi*



*Gəncə şəhər 4№-li sanatoriya tipli internat məktəbin şagirdləri Hacıkənddə*



*Qaradağ rayonu 14№-li internat məktəbin şagirdləri gəzinti zamanı*



*16№-li xüsusi internat məktəbin bir qrup şagirdi Moskva şəhərində*



*Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün evdə təhsil*



*11№-li xüsusi təhsil məktəbində dərs*

başlamış, sonralar səkkizillik, 1973/74-cü dərs ilindən isə Azərbaycan SSR Maarif Nazirliyinin əmri ilə onillik, daha sonra isə onbirillik məktəbə çevrilmişdir. Burada ilk illərdə 170 şagird təhsil alırdı. Məktəb Bakı şəhərinin 9 rayonundakı sağlamlıq imkanları məhdud olan uşaqları əhatə edirdi. Məktəb ümumtəhsil proqramı əsasında fəaliyyət göstərirdi.

**Nəsimi rayonundakı 11№-li xüsusi təhsil məktəbi** 1947/48-ci tədris ilində 45№-li ibtidai məktəb kimi fəaliyyətə başlamışdır. İlk vaxtlar məktəbdə 815 şagird təhsil alırdı.

1981-ci ildən bu tədris müəssisəsinin tipi dəyişdirilmiş, xüsusi məktəbə çevrilmişdir. Burada əqli cəhətdən zəif inkişaf etmiş 113 uşaq təhsilə cəlb edilmişdi. Onlar zehni inkişafında gerilik olan uşaqlar üçün nəzərdə tutulmuş proqram əsasında təhsil alırdılar.

**Nəsimi rayonundakı 268№-li xüsusi məktəb** 1927-ci ilin 18 oktyabrında fəaliyyətə başlamışdır. Fəaliyyətinin ilk illərində bu müəssisədə 67 şagird təhsil alırdı. Onların təlim-tərbiyəsi ilə 9 müəllim məşğul olurdu. Burada təhsil zehni cəhətdən zəif inkişaf etmiş uşaqlar üçün nəzərdə tutulmuş proqram əsasında həyata keçirilirdi.

**Nizami rayonunda yerləşən 3№-li xüsusi təhsil məktəbi** 1974-cü ildən fəaliyyət göstərməyə başlamışdır. İlk gündən də məktəbdə əqli və fiziki cəhətdən qüsurlu uşaqlar təhsil almışlar. Məktəbdə 295 şagird xüsusi təhsilə cəlb olunmuşdu. Burada zehni cəhətdən zəif inkişaf etmiş uşaqlar üçün nəzərdə tutulan tədris planından istifadə olunurdu.

Məktəbdə «Kitabsevərlər», «Xalçaçılıq», «Bacarıqlı əllər», «Qönçə» adlı dərnəklər fəaliyyət göstərirdi.

**116№-li kor və zəif görənlər üçün xüsusi axşam, qiyabi orta məktəb** 1964-cü ilin oktyabr ayından gözdən əlillər cəmiyyətinin nəzdində olan binada fəaliyyətə başlamışdır. İlk dövrdə sagirdlərin sayı 360, müəllimlərin sayı isə 65 nəfər idi. Təhsil ümumtəhsil proqramı əsasında həyata keçirilirdi.

**Gəncə şəhərindəki 45№-li əqli və fiziki cəhətdən qüsurlu şagirdlər üçün xüsusi məktəb** 1974-cü ildə 180 nəfər şagirdlə fəaliyyətə başlamışdır. Şagirdlər bu müəssisəyə psixoloji-tibbi-pedaqoji komissiyanın rəyi əsasında qəbul olunurdular. Bu məktəbdə uşaqların təhsil və tərbiyəsi xüsusi proqram əsasında həyata keçirilirdi.

Beləliklə, qeyd etməyi lazım bilirəm ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili və tərbiyəsi, minimum proqram əsasında həyata hazırlanması dövlətin həmişə diqqət göstərdiyi məsələlərdən olmuş, onların cəmiyyətə inteqrasiyası üçün şərait yaradılmışdı.

# III FƏSİL

## AZƏRBAYCANDA TEXNİKİ PEŞƏ TƏHSİLİNİN İNKİŞAFI

XX əsrin 20-ci illərində əhalinin əksər hissəsinin savadsızlığı və ilkin peşə biliklərinə malik olmaması sənaye müəssisələrinin fəaliyyətinə mənfi təsir göstərirdi. Bu problemi həll etmək məqsədilə respublikada texniki peşə təhsilinin yenidən təşkili, xalq təsərrüfatının müxtəlif sahələrinin ixtisaslı fəhlə kadrları ilə təmin edilməsi, fəhlələr arasında texniki savadsızlığın aradan qaldırılması istiqamətində mühüm addımlar atıldı. İlk addım Azərbaycan İnqilab Komitəsinin **5 avqust 1920-ci il tarixli dekreti ilə Xalq Maarifi Komissarlığı tərkibində Baş Texniki Peşə Təhsili Komitəsinin yaradılması oldu. V.A.Lomov Baş Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsinə təyin edildi.**

Dekretdə xalq təsərrüfatının müxtəlif sahələrini, xüsusilə sənayeni ixtisaslı fəhlə kadrları ilə təmin etmək məqsədilə Baş Texniki Peşə Təhsili Komitəsi qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

- ali texniki, peşə-texniki təhsili müəssisələrinin idarə edilməsi;
- yaşlıların və 14 yaşdan yuxarı yeniyetmələrin təhsilin bütün tipləri üzrə sərbəst təhsil almalarının təşkil edilməsi;
- texniki peşə təhsili müəssisələri və kursların təşkili;
- əməyin müxtəlif sahələri üzrə qısamüddətli peşə kurslarının təşkil edilməsi;
- texniki peşə təhsili məsələlərinə dair təbliğat və maarifləndirmə işinin gücləndirilməsi;
- idarə və müəssisələrin texniki peşə təhsili sahəsində kadr hazırlığı üzrə tələbatının öyrənilməsi və əlaqələndirilməsi;
- «Vahid əmək məktəbləri»nə əmək prosesinin təşkilində yardım edilməsi və s.

Baş Texniki Peşə Təhsili Komitəsinin tərkibində Elmi-Texniki Şura fəaliyyət göstərirdi. Şura ixtisaslı fəhlələr hazırlamaq məqsədilə keçmiş sənət məktəblərinin nəzdində kursların açılması, bu məktəblərin Azərbaycan bölmələri üçün tədris proqramlarının hazırlanması, məktəblərin təftiş edilməsi, qəza xalq maarifi şöbələrinin nəzdində texniki peşə təhsili bölmələrinin təşkil edilməsi məsələlərinə baxır və onları həll edirdi.

Respublikada yeniyetmə və gənclərin texniki peşə təhsili sisteminə fəal cəlb olunmasını stimullaşdırmaq məqsədilə **Azərbaycan İnqilab Komitəsi tərəfindən «Azərbaycan SSR texniki peşə məktəb və kurslarında oxuyan tələbələrin (şagirdlərin) hərbi səfərbərlikdən azad edilməsi haqqında» 30 sentyabr 1920-ci il tarixli xüsusi dekret verildi** *(bax: Azərbaycan arxivi, 1978, № 2, səh.17).*

Həmin dekretlə texniki peşə təhsili müəssisələri və kurslarında təhsil alan bütün tələbələr (şagirdlər) və kursantlar hərbi çağırışdan azad edilirdi. Bu dekretdən az sonra Azərbaycan İnqilab Komitəsi tərəfindən **«Texniki peşə təhsili mükəlləfiyyəti haqqında»** 17 dekabr 1920-ci il tarixli dekret verildi *(bax: Azərbaycan arxivi, 1978, №2, səh.18).* Dekretə əsasən 18 yaşından 40 yaşına qədər bütün fəhlələr icbari qaydada texniki peşə təhsilinə cəlb edilməli idilər. Bununla əlaqədar 14 yaşdan yuxarı yeniyetmələr texniki peşə təhsili müəssisələrində təhsilə cəlb edilir, 40 yaşından yuxarı fəhlələr isə müxtəlif sahələr üzrə peşə kurslarına göndərilirdilər. Bütün bu hüquqi-normativ aktlar Azərbaycan SSR-də yeni sovet texniki peşə təhsili sisteminin yaradılmasında mühüm rol oynadı.

Sovet hakimiyyətinin ilk illərində qarşıya çıxan əsas çətinliklərdən biri, mövcud sənaye müəssisələrinin fəaliyyət dairəsini genişləndirmək üçün ixtisaslı fəhlə kadrlarının çatışmaması idi. Məsələn, Azərbaycan SSR-də neft sənayesində ixtisaslı fəhlə kadrları çatışmadığından neft hasilatını artırmaq çətin idi. O zaman neft sənayesindəki ixtisaslı fəhlələr, bu sahədə çalışanların ümumi sayının cəmi 13,8%-ni təşkil edirdi. Buna görə də Bakının bütün neft rayonlarında ixtisaslı fəhlə kadrlarının hazırlanması üçün qısamüddətli kurslar təşkil olundu, fərdi və briqada şagirdliyi qaydasında ixtisaslı fəhlələr hazırlanması prosesi genişləndirildi.

Azərbaycan Komsomol Təşkilatının təşəbbüsü ilə 1921-ci ilin dekabr ayında Bakıda Leytenant Şmidt adına (indiki Səttarxan adına) zavodun nəzdində metalçılar hazırlayan ilk ***Fabrik-Zavod Şagirdliyi*** **(FZŞ)** məktəbi təşkil edildi. Bu FZŞ məktəbinə «Красная молодежь» adı verildi. Həmin ildə məktəbə 84 nəfər qəbul olundu. 1922-ci ildə Azneftin bazasında bu tipli daha 6 məktəb, habelə Əyirici-Toxuculuq Fabrikinin və dəmiryol idarəsinin nəzdində FZŞ məktəbləri fəaliyyətə başladı.

«Bakinskiy raboçiy» qəzetinin 21 iyul 1922-ci il tarixli nömrəsində «Texniki peşə təhsili» haqqında məlumatda yazılmışdı: «...Fabrik-zavod və neft rayonlarının 11 texniki peşə məktəbi Azneftin sərəncamına verilmişdir, bu məktəblərdə tədris işinə rəhbərliyi isə Baş peşə təhsil idarəsi yerinə yetirir. Bu rayonlarda daha 5 texniki peşə məktəbi təşkil etmək nəzərdə tutulur.

... Qəzalarda 8 texniki peşə məktəbi fəaliyyət göstərir. Bunlardan Gəncə, Nuxa (Şəki) və Zaqatala qəzalarındakılar – məktəb, Şuşa, Salyan, Lənkəran və Altıağacdakılar – tədris emalatxanalarıdır. Gəncə texniki peşə məktəbinin sərəncamında 7 desyatin əyani tədris bağı sahəsi vardır ki, burada şagirdlər bağçılıq, bostançılıq, ipəkçilik və müxtəlif bitkilərin yetişdirilməsi üzrə təcrübə keçirlər. Məktəbin nəzdində dülgərlik, çilingərlik, dəmirçilik və konserv emalatxanaları fəaliyyət göstərir».

1922-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığının qərarına əsasən Nuxada (Şəki) II pillə (VI–IX siniflər) məktəb texniki peşə məktəbinə, Bakıda fəaliyyət göstərən texniki peşə məktəbi isə Fabrik-Zavod Şagirdliyi məktəbinə çevrildi *(bax: «Заря Востока» qəzeti, 22 avqust 1922-ci il).*

Azərbaycan SSR Xalq Maarif Komissarlığının 5 mart 1923-cü il tarixli qərarı ilə

**«Fabrik-Zavod Şagirdliyi (FZŞ) məktəbləri haqqında»** Əsasnamə təsdiq edildi. Həmin Əsasnaməyə görə FZŞ məktəblərinin əsas vəzifəsi respublikada fəaliyyət göstərən sənaye müəssisələri üçün ixtisaslı işçi (fəhlə) kadrları yetişdirməkdən və gəncləri texnikum və texniki ali məktəblərdə təhsillərini davam etdirməyə hazırlamaqdan ibarət idi.

FZŞ məktəblərində təhsil müddəti 3–4 il idi. Bu məktəblər başlıca olaraq Bakıda və onun ətraf rayonlarında fəaliyyət göstərirdi. 1923–1924-cü illərdə Gəncə, Zaqatala, Şəki (Nuxa) və Qubada da FZŞ məktəbləri açıldı. FZŞ məktəbləri şagirdlərinin 92,8%-ni fəhlə və kəndli uşaqları təşkil edirdi.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 9 sentyabr 1923-cü il tarixli qərarı ilə «Yeni peşə məktəbləri və qruplarının açılması» planı təsdiq edildi. Bu plana uyğun olaraq Lənkəranda və Qubada peşə məktəbləri fəaliyyətə başladı. Hər iki məktəb üçün ayrı-ayrılıqda 27 nəfər müəllim və texniki heyət nəzərdə tutulmuşdu.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı Baş Peşə Təhsili Komitəsinin respublikanın ali, orta ixtisas və peşə məktəbləri haqqında 1 oktyabr 1923-cü il tarixli rəsmi məlumatına görə, 1921–1922-ci illərdə respublikanın müxtəlif şəhər və qəsəbələrində çilingər, dülgər, dəmirçi, tokar və kənd təsərrüfatı ixtisasları üzrə peşə kursları yaradılmışdı. 1921–1923-cü illərdə artıq 10 Fabrik-Zavod Şagirdliyi məktəbi, 10 texniki peşə kursu fəaliyyət göstərirdi. Həmin peşə təhsili müəssisələrində təlim xüsusi tədris planları əsasında həyata keçirilirdi.

*Bakının peşə təhsili müəssisələri (1923-cü il)*

| № | Rayonlar | Tədris müəssisəsinin adı | Şagirdlərin sayı |
|---|---|---|---|
| 1. | Balaxanı, «Moskva Qafqaz birliyi» 324-cü sahə | «Tornaçı-çilingər» texniki peşə kursu | 45 |
| 2. | Balaxanı, 4-cü mədən | «Çilingər-tornaçı, maşinist» texniki peşə kursu | 47 |
| 3. | Balaxanı, keçmiş Nobel zavodunun emalatxanası | «Elektrik montyoru, çilingər, tornaçı» texniki peşə kursu | 22 |
| 4. | Zavod rayonu, keçmiş Nobel zavodu | Elektrotexnika kursu | 17 |
| 5. | Zavod rayonu, keçmiş Şibayev zavodu | Oktyabr İnqilabı adına FZŞ məktəbi | 30 |
| 6. | Zavod rayonu, keçmiş Levenson zavodu | «Krasnaya molodyoj» FZŞ məktəbi | 93 |
| 7. | Balaxanı, 6-cı mədən | «Yunıy qornyak» FZŞ məktəbi | 74 |
| 8. | Binəqədi, keçmiş Abşeron birliyi | Volodarski adına FZŞ məktəbi | 60 |
| 9. | Bibi-Heybət | Karl Libknext adına FZŞ məktəbi | 118 |
| 10. | Balaxanı 101-ci sahə | Lenin adına FZŞ məktəbi | 112 |
| 11. | Zığ, keçmiş Lenin adına fabrik | FZŞ məktəbi | 33 |
| 12. | Suraxanı, keçmiş Bünyatov emalatxanası | FZŞ məktəbi | 60 |
| 13. | Balaxanı | Gündüz və axşam FZŞ məktəbi | 129 |
| 14. | Suraxanı | «Qazma ustası, maşinist, mexanik» texniki peşə kursu | 44 |
| 15. | Balaxanı, 101-ci sahə, keçmiş Benkendorf emalatxanası | «Çilingər, tornaçı» texniki peşə kursu | 13 |
| 16. | Bibi-Heybət, Bayıl, 53-cü sahə | Maşinist-mexanik kursu | 22 |
| 17. | Balaxanı, Ramana məktəbinin nəzdində | Çilingər, tornaçı, elektrik, qazma ustası, maşinist, mexanik kursu | 82 |
| 18. | Binəqədi, 2-ci mədən, 72-ci məktəb | Maşinist, mexanik kursu | 34 |
| 19. | Zavod rayonu, keçmiş Lianozov adına zavodun nəzdində 2 qrup | Neft sahəsi üzrə mütəxəssis kursu | 18 |
| 20. | Zavod rayonu, 1 qrup | «Yunıy raboçiy» FZŞ məktəbi | 80 |
| Cəmi: | | | 1133 |

*«Krasnaya kuznitsa» FZŞ məktəbinin tədris planı (1922/23-cü tədris ili)*

| № | Fənlərin adı | Siniflər | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | I | I Türk | II «A» | II «B» | III | Cəmi |
| 1. | Rus dili | 5 | 4 | 3 | 3 | 2 | 17 |
| 2. | Hesab | 4 | 6 | 2 | 3 | – | 15 |
| 3. | Həndəsə | 2 | 2 | 3 | 3 | – | 10 |
| 4. | Coğrafiya | 2 | 1 | – | – | 2 | 5 |
| 5. | Türk dili | 2 | 6 | 2 | 2 | 2 | 14 |
| 6. | Siyasi savadlılıq | 2 | 2 | 2 | 2 | 2 | 10 |
| 7. | Fizika | 1 | – | 3 | 3 | 3 | 10 |
| 8. | Rəsmxət | 4 | – | 3 | 3 | 3 | 13 |
| 9. | Rəsm | 1 | – | 3 | 2 | | 6 |
| 10. | Texnologiya | 1 | – | 2 | 2 | 2 | 7 |
| 11. | Təbiət elmləri | 4 | 3 | – | – | – | 7 |
| 12. | Cəbr | – | – | 3 | 3 | 3 | 9 |
| 13. | Maşınşünaslıq | – | – | 2 | 2 | – | 4 |
| 14. | Daxiliyanma mühərrikləri | – | – | – | – | 2 | 2 |
| 15. | İctimaiyyat | – | – | – | – | 2 | 2 |
| 16. | Mexanika | – | – | – | – | 3 | 3 |
| 17. | Triqonometriya | – | – | – | – | 2 | 2 |
| **Cəmi:** | | **28** | **24** | **28** | **28** | **28** | **136** |

1926/27-ci tədris ilinin əvvəlində Azərbaycanın 14 FZŞ məktəbində 2062 şagird təhsil alırdı.

Fabrik-Zavod Şagirdliyi (FZŞ) məktəblərinə natamam orta təhsilli yeniyetmələr qəbul olunurdular. Tədris planı həm ümumtəhsil hazırlığını, həm də peşə hazırlığını əhatə edirdi. Bütün FZŞ məktəblərində təlimin Azərbaycan dilində keçirildiyi qruplarda rus dili, ictimaiyyat, iqtisadi coğrafiya, istehsalın təşkili məsələləri və digər fənlər öyrədilirdi. FZŞ məktəbləri nəzdində yaradıldığı (hami təşkilat) müəssisələrin vəsaiti hesabına saxlanılır və bunlara həmin müəssisələrin tərkib hissəsi kimi baxılırdı.

20-ci illərin sonu və 30-cu illərin əvvəllərində «Коммунистическая Интернациональная молодежь» (KİM) adlı FZŞ məktəbi (indiki Bakı 12№-li peşə liseyi) və Okolesni adına FZŞ məktəbi (indiki Bakı 1№-li peşə liseyi) üçün elə müasir tədris binaları, təlim emalatxanaları inşa olundu ki, bunlar indi də ən yaxşı tədris-təcrübə binaları sırasındadır (sonralar, 2001-ci ildə 1№-li Bakı peşə liseyinin tədris binası yeni yaradılmış Azərbaycan Rəssamlıq Akademiyasına verildi).

14 mart 1927-ci ildə Bakı Şəhər Partiya Komitəsinin **«Texniki peşə təhsilinin inkişaf tədbirləri haqqında»** qərarında deyilirdi: «Peşə təhsilinin idarə olunmasının mövcud sistemini saxlamaq, ixtisaslı fəhlə kadrlarının hazırlığında əsas təlim forması kimi FZŞ məktəbləri, kütləvi peşə kursları şagirdliyi, fərdi briqada şagirdliyi, inşaat məktəbi və texniki peşə kurslarından istifadə etmək nəzərə alınmalıdır» *(bax: Azərbaycan arxivi, 1978, № 1–2, səh.37)*.

Azərbaycan SSR Xalq Maarif Komissarlığı Baş Texniki Peşə Təhsili Komitəsinin «Texniki peşə təhsilinin vəziyyəti haqqında» arayışına əsasən 1928/29-cu tədris ilində texniki

peşə təhsili müəssisələrinin sayı və şagird kontingenti aşağıdakı kimi olmuşdur:

*1928/29-cu tədris ilində respublikadakı texniki peşə təhsili müəssisələri*

| № | Texniki peşə təhsili müəssisəsinin tipi | Sayı | Şagirdlərin sayı |
|---|---|---|---|
| 1. | Peşə məktəbləri | 5 | 458 |
| 2. | FZŞ məktəbləri | 12 | 1910 |
| 3. | Uzunmüddətli peşə kursları | 58 | 3444 |
| 4. | Qısamüddətli peşə kursları | 41 | 2855 |
| **Cəmi:** | | **116** | **8667** |

O dövrdə kənd təsərrüfatı üçün də kadr hazırlığına ciddi fikir verilirdi. Ayrı-ayrı kəndlərdə həmin regionun ehtiyatlarına uyğun mütəxəssis hazırlığı üçün texniki peşə məktəbləri açılırdı. Belə məktəblərdən biri 1928-ci ildə Salyan qəzasının Qaraçala kəndində təşkil olunmuşdu. Məktəbin açılması ilə bağlı «Kommunist» qəzetinin 25 noyabr 1928-ci il tarixli nömrəsində yazılmışdı: *«...Salyan qəzasının Qaraçala kəndində bir ibtidai pambıqçılıq məktəbi açılmışdır. Məktəbə 25 muzdur və çoban qəbul edilmişdir. Bu məktəbin əsas məqsədi şura təsərrüfatında çalışacaq mütəxəssis pambıq işçiləri hazırlamaqdır. Qəbul edilən tələbələrin bütün ehtiyacı (yemək və yatmaq) məktəb tərəfindən ödəniləcəkdir».* Məqalədə göstərilirdi ki, tələbələrin təcrübə keçməsi məqsədilə məktəbə taxıl və pambıq sahələri, üzüm və alma bağları verilmişdir.

Respublikada sənayenin, o cümlədən neft sənayesinin sürətli inkişafı FZŞ məktəbləri şəbəkəsinin, texniki peşə kursları və tədris kombinatlarının əhatə dairəsinin genişləndirilməsini tələb edirdi.

1930–1934-cü illərdə respublikada fəaliyyət göstərən FZŞ məktəblərində yalnız neftçıxarma və neft emalı sahələri üçün 5240 ixtisaslı fəhlə kadrı hazırlanmışdı. Halbuki Azneftin hesablamalarına görə, o dövrdə neft sənayesinin müxtəlif sahələri üçün 60 mindən artıq ixtisaslı fəhləyə zəruri tələbat var idi. Yalnız 1932-ci ildə Bakı şəhərinin neft trestlərinin nəzdindəki FZŞ məktəblərində 6342 şagird təhsil alırdı, 3864 fəhlə isə müxtəlif tədris kombinatlarında peşələrə yiyələnirdi. Azərbaycanda FZŞ məktəbləri şəbəkəsi nə qədər geniş olsa da, onların fəaliyyətinə vahid rəhbərlik yox idi. İxtisaslı kadrlara (fəhlələrə) tələbatın çoxluğu respublikada xalq təsərrüfatının müxtəlif sahələri üzrə ixtisaslı fəhlə kadrlarının hazırlanması sahəsində daha mobil peşə təhsili sisteminin qurulmasını tələb edirdi.

İxtisaslı fəhlə kadrları hazırlanması prosesinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan SSR Xalq Komissarları Sovetinin 28 fevral 1932-ci il tarixli qərarı ilə təsdiq olunmuş **«Respublikada ixtisaslı fəhlə təhsili sisteminə dair»** Əsasnamə texniki peşə təhsilinin sonrakı inkişafına güclü təkan verdi.

Həmin illərdə Azərbaycan SSR-in texniki peşə təhsili müəssisələrinin və orada təhsil alan şagirdlərin sayı əhəmiyyətli dərəcədə artdı. İxtisaslı kadrların hazılanması sənayenin bütün sahələrinin inkişafına öz müsbət təsirini göstərirdi. İqtisadiyyat inkişaf edir, yeni iş yerləri açılır, ixtisaslı kadrlara tələbat daha da artırdı.

*1920–1940-cı illərdə Azərbaycanda texniki peşə təhsili müəssisələri və onların şagird kontingenti*

| Tədris ili | Məktəblərin sayı | Şagird kontingenti (min nəfərlə) |
|---|---|---|
| 1920/21 | 1 | 0,08 |
| 1929/30 | 17 | 2,37 |
| 1939/40 | 32 | 10,0 |

30-cu illərdə respublikada iqtisadiyyatın hərtərəfli inkişafı ixtisaslı fəhlə kadrları hazırlığı sistemini yenidən qurmağı və təkmilləşdirməyi tələb edirdi.

Mövcud Fabrik-Zavod Şagirdliyi məktəblərinin ölkədə həyata keçirilən iqtisadi islahatların tələblərinə cavab verməməsi, onların əvəzinə, yeni tip peşə təhsili müəssisələrinin yaradılmasına ehtiyac doğurdu. Qeyd olunan qərara uyğun olaraq, **1940-cı ilin əvvəllərində, mövcud FZŞ məktəbləri əvəzinə, 3 yeni tipli texniki peşə məktəblərinin (sənət məktəbləri; dəmiryolu məktəbləri; Fabrik-Zavod Təlimi (FZT)) təşkilinə başlandı.** Sənət məktəblərində metalçılar, mədən fəhlələri, neftçilər, dəniz və çay nəqliyyatı, rabitə müəssisələri və bir sıra digər sahələr üçün ixtisaslı fəhlələr hazırlanırdı. Dəmiryolu peşə məktəblərində maşinist köməkçisi, parovoz və vaqon təmiri briqadiri, qazançı və bir sıra digər mürəkkəb peşələr üzrə ixtisaslı fəhlələr hazırlanırdı.

Fabrik-Zavod Təlimi məktəblərində kömür, filiz-mədən, metallurgiya, neft sənayesi və tikintidə ehtiyac duyulan kütləvi peşələr üzrə ixtisaslı fəhlələr hazırlanırdı.

Sənət və dəmiryol məktəblərində təlim müddəti 2 il, Fabrik-Zavod Təlimi məktəblərində isə 6 ay müəyyən edilmişdi. Sənət və dəmiryol məktəblərinə yeddiillik təhsili olan 14–15 yaşlı gənclər, Fabrik-Zavod Təlimi məktəblərinə isə ibtidai təhsili olan 16–17 yaşlı oğlan və qızlar qəbul olunurdular.

1940-cı ilin noyabrında respublikada yeni tipli 32 texniki peşə təhsili müəssisəsi, o cümlədən 12 sənət, 2 dəmiryolu və 18 Fabrik-Zavod Təlimi məktəbi təşkil edildi.

Neft sənayesində ixtisaslı fəhlələrə olan ciddi tələbat nəzərə alınaraq, mövcud texniki peşə təhsili müəssisələrindən 19 sənət və FZT məktəbi yalnız sənayenin bu sahəsi üçün ixtisaslı fəhlə kadrları hazırlamaqla məşğul idi.

20–30-cu illərdən fərqli olaraq, hər üç tip texniki peşə məktəbinin maliyyələşdirilməsini dövlət öz üzərinə götürmüşdü. Bu məktəblərin şagirdləri pulsuz geyim forması, tədris vəsaitləri, gündə üç dəfə yeməklə təmin edilirdilər.

Yeni yaradılan sənət, dəmiryol və FZT məktəbləri 20–30-cu illərdə mövcud olmuş FZŞ məktəblərindən təlimin təşkilinə, təhsilin məzmununa, tədris metodikasına, təlim prosesində nəzəriyyə ilə istehsalatın daha səmərəli qarşılıqlı əlaqəsinə görə də fərqlənirdi.

**1940-cı il oktyabrın 2-də Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Dövlət Əmək Ehtiyatları Baş İdarəsi təsis edildi. SSRİ Ali Sovetinin «SSRİ-nin Dövlət Əmək Ehtiyatları haqqında» qərarına əsasən respublikada texniki peşə təhsilinin yeni sistemi yaradıldı.**



Peşə məktəbinin linqafon kabinəsində

1940-cı ildə respublikada fəaliyyət göstərən bütün tipdən olan texniki peşə təhsili müəssisələri Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Əmək Ehtiyatları Baş İdarəsinin tabeliyinə verildi. Beləliklə, peşə təhsili sisteminin vahid mərkəzdən idarə edilməsinin yeni modeli yaradıldı. Dövlət Əmək Ehtiyatları Baş İdarəsinin fəaliyyətə başlaması ilə əlaqədar peşə təhsili sistemində bir sıra dəyişikliklər baş verdi. Əvvəlki illərlə müqayisədə gənclər ən müxtəlif peşələr üzrə təhsil almaq imkanı əldə etdilər. Peşə təhsili müəssisələrinin şəbəkəsi genişləndi və şagird kontingenti artdı. Bu müəssisələrdə tədrisin keyfiyyəti yüksəldi. Müxtəlif ixtisaslar üzrə tədris planı və proqramları hazırlandı. Qısa bir müddət ərzində (1940-cı ilin noyabrından 1941-ci ilin iyun ayınadək) yerli təşkilatların köməyi ilə texniki peşə təhsili məktəblərində təlim-tərbiyə prosesini təmin edən müvafiq şərait yaradıldı. Belə ki, məktəblər rəhbər və mühəndis-pedaqoji kadrlarla komplektləşdirildi. Müəssisələr tərəfindən sənət və FZT məktəblərinə, təlim emalatxanaları və laboratoriyalarına zəruri avadanlıq ayrıldı. Həmin məktəblərin maddi-texniki bazası

yaxşılaşdırıldı. Şagirdlərin təhsil, istirahət və qidalanma məsələsi qaydaya salındı, respublikanın kənd rayonlarından qəbul edilmiş şagirdlər üçün lazımi şəraiti olan yataqxanalar inşa edildi.

1941-ci ildə müharibənin başlanması ilə əlaqədar ən qısa müddətdə Dövlət Əmək Ehtiyatları Sistemində cəbhənin tələbatını ödəmək üçün ciddi iş rejiminə keçirildi. «Hər şey cəbhə üçün, hər şey qələbə üçün!» şüarı sənət, dəmiryol və Fabrik-Zavod Təlimi məktəbləri şagirdlərinin də konkret əmək fəaliyyətində və mənəvi səfərbərliyində öz ifadəsini tapdı.

1942-ci ilin ikinci yarısında müharibə dövrünün çətinliklərinə baxmayaraq, texniki peşə təhsilinə diqqət azalmadı. Respublikada daha 10 yeni FZT məktəbi yaradıldı. Beləliklə, həmin ildə Dövlət Əmək Ehtiyatları Baş İdarəsinin tabeliyində 42 texniki peşə təhsili müəssisəsi var idi ki, onlardan 28-i FZT, 12-si sənət, 2-si isə dəmiryol məktəbi idi. 18 Fabrik-Zavod Təlimi məktəbində yalnız neft sənayesi üçün ixtisaslı işçilər (fəhlələr) hazırlanırdı.

1942-ci ildə respublikada fəaliyyət göstərən 42 texniki peşə təhsili müəssisəsinə 13 min oğlan və qız qəbul edilmiş, istehsalata 7350 ixtisaslı gənc fəhlə göndərilmişdi. Bakının fabrik və zavodlarının, Abşeron neft mədənlərinin əksəriyyətində orduya çağırılanların iş yerlərini əmək ehtiyatları sisteminin yetirmələri tuturdu. Bu da cəbhəyə zəruri olan avadanlıqların hazırlanmasında, neft məhsullarının emalında fasiləyə yol verməmək üçün çox vacib idi. Araşdırmalar göstərir ki, Bakıda yerləşən ən böyük zavodlardan biri olan Leytenant Şmidt adına Maşınqayırma zavodunda (indiki Səttarxan adına zavod) çalışan fəhlələrin 40%-ə qədərini sənət və Fabrik-Zavod Təlimi məktəblərini bitirmiş yeniyetmələr və gənclər təşkil edirdi. Azneftin neftçıxarma trestlərində çalışan fəhlələrin 35%-dən çoxu texniki peşə məktəblərinin yetirmələri idi.

Əlində silah İkinci Dünya müharibəsi cəbhələrində faşist işğalçılarına qarşı fədakarcasına vuruşanların arasında Əmək Ehtiyatları Sisteminin, texniki peşə təhsili müəssisələrinin yetirmələri də də az deyildi. Onlardan bir çoxu göstərdikləri igidliklərə görə o zaman SSRİ-nin orden və medalları ilə təltif edilmişdi. Məsələn, Bakıdakı 13№-li Fabrik-Zavod Təlimi məktəbinin məzunu Mehdi Quliyev 1943-cü ilin noyabrında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.

Müharibə xalq təsərrüfatının bütün sahələri ilə yanaşı, texniki peşə təhsili müəssisələrinə böyük zərbə vursa da, bütün çətinliklərə baxmayaraq, həmin illərdə fəaliyyət göstərən sənət, dəmiryol və Fabrik-Zavod Təlimi məktəbləri xalq təsərrüfatı üçün 53 mindən artıq ixtisaslı fəhlə, o cümlədən 25 min neftçi yetişdirmişdi.

İkinci Dünya müharibəsi illərində texniki peşə məktəblərinin tədris-istehsalat emalatxanalarında şagirdlər tərəfindən hərbi məhsullar hazırlanırdı. Həmin illərdə respublikanın əmək ehtiyatları məktəblərinin şagirdləri tərəfindən 21 milyon rubl dəyərində hərbi məhsul hazırlanmışdı. 1№-li sənət məktəbinin şagirdləri 255 neft quyusu və müxtəlif tipdə 184 dəzgah-kaçalka, 1 və 2№-li Dəmiryolu sənət məktəblərinin şagirdləri 296 parovoz və 838 vaqon təmir etmişdilər.



67№-li peşə məktəbində avtomobil işi üzrə məşğələ zamanı

Müharibə illərində o dövrün tələblərinə uyğun olaraq bir sıra peşə təhsili müəssisələri birləşdirilmiş, yaxud fəaliyyətləri dayandırılmışdı. 1945-ci ildə respublikada 30 texniki peşə təhsili müəssisəsi fəaliyyət göstərirdi. Lakin bu, müharibədə zəifləmiş və çoxsaylı kadr potensialını itirmiş respublika üçün qənaətbəxş deyildi. Texniki peşə təhsili həmişəkindən daha çox diqqət və qayğı tələb edirdi. Müharibədən sonra bərpa olunmaqda olan iqtisadiyyatın tələbatına uyğun olaraq bu tipli müəssisələrin sayı yenidən artırılmağa başladı. 1948-ci ildə artıq onların sayı 48-ə çatmışdı.

Həmin müəssisələr qısa bir dövrdə, müharibədən sonrakı bərpa illərində (1946–1959-cu illər) Azərbaycanın xalq təsərrüfatının müxtəlif sahələri üçün 95,5 min nəfər ixtisaslı fəhlə hazırlamışdı.

Müharibədən sonrakı illərdə elmi-texniki tərəqqinin inkişafı ilə əlaqədar yeni tipli təhsil müəssisələrinin – orta təhsilli gənclər üçün texniki peşə məktəbləri şəbəkəsinin yenidən qurulmasına başlandı. Texniki peşə təhsilinin idarəetmə sistemində müəyyən islahatlar aparıldı. **1946-cı ilin mayında SSRİ Ali Sovetinin qərarı ilə SSRİ Əmək**



**Əkbər Ənnağıyev (1911–1967)**

**Ənnağıyev Əkbər Əsgər oğlu** Naxçıvan MR-də anadan olmuşdur. Zaqafqaziya Dəmiryolu Fabrik-Zavod Şagirdliyi məktəbində təhsil almışdır (1927–1930). Kiyev artilleriya məktəbində oxumuş (1931), Zaqafqaziya Fabrik-Zavod Şagirdliyi məktəbinə rəis müavini vəzifəsinə təyin edilmişdir (1932). Xalq Daxili İşlər Komissarlığı orqanlarında işləmişdir (1933–1938). Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən Moskva Ali Partiya məktəbinə oxumağa göndərilmişdir (1940). Azərbaycan SSR Nazirlər Soveti yanında Əmək Ehtiyatları Baş İdarəsinin rəisi (1954–1959), Texniki Peşə Təhsili üzrə Dövlət Komitəsinin sədri vəzifələrində işləmişdir (1959–1961).

**Ehtiyatları Nazirliyi yaradıldı və Azərbaycan SSR Dövlət Əmək Ehtiyatları Baş İdarəsi də onun tabeliyinə verildi.**

1947–1949-cu illərdə Bakıda təhsil müddəti 3 il olan 2 xüsusi sənət məktəbi də açıldı. 50-ci illərdə dövlət əmək ehtiyatları sistemi də bir sıra mühüm dəyişikliklərə uğradı. 1953-cü ilə qədər dövlət əmək ehtiyatları sistemi yalnız sənaye, dəmiryol və su nəqliyyatı, tikinti sahələri üçün ixtisaslı fəhlə hazırlayırdı. Sonralar əmək ehtiyatları sisteminə, həm də kənd təsərrüfatının mexanikləşdirilməsi məktəbləri verildi. Həmin məktəblər o vaxta qədər respublika Kənd Təsərrüfatı Nazirliyinin ixtiyarında idi. Bu islahatlar 50-ci illərdə texniki peşə təhsilinin inkişafında müsbət rol oynadı və bu sahədə mövcud şəbəkənin optimallaşdırılması ilə nəticələndi.

Bu illərdə peşə təhsili sistemi qarşısında duran əsas vəzifə əmək bazarının tələblərinə uyğun olaraq yeni tip peşə təhsili müəssisələrinin yaradılması və idarəetmə modelinin təkmilləşdirilməsindən ibarət idi.

1954-cü ilin martında SSRİ Nazirlər Soveti yanında Əmək Ehtiyatları Baş İdarəsi yenidən bərpa edildi. **1954-cü il aprelin 16-da Azərbaycanda da Nazirlər Soveti yanında Əmək Ehtiyatları Baş İdarəsi yaradıldı. Əkbər Ənnağıyev** bu idarənin rəisi vəzifəsinə təyin olundu.

1954-cü ildə Dövlət Əmək Ehtiyatları sistemində yeni tip texniki məktəblər yaradıldı. Təsis edilən belə tədris müəssisələrindən ikisi Bakıda neft sənayesi üzrə, biri Naxçıvanda kənd təsərrüfatı üzrə ixtisaslı kadrlar hazırlayırdı. Texniki məktəblər respublikada yüksəkixtisaslı fəhlə kadrlarının və kiçik texniki işçilərin hazırlanması vəzifəsini həyata keçirirdi. Bu, ölkənin müharibə illərində gücdən düşmüş iqtisadiyyatının bərpası yolunda atılan mühüm addımlardan biri idi. Yeni yaradılmış məktəblər gəmi mexaniki, radiooperator, gəmiçilik üzrə elektrik mexaniki, neftçıxarma üzrə qazmaçı köməkçisi, neft emalı üzrə laborant, elektrik qaz qaynaqçısı, nəzarət ölçü cihazları təmiri çilingəri, heyvandarlıq sahəsi üçün mexanizator və s. kimi mürəkkəb ixtisaslar üzrə kadr hazırlayırdılar. Texniki məktəbin tədris planlarında nəzəri təlim fənləri ilə istehsalat təcrübəsi arasında qarşılıqlı əlaqənin yaradılması prinsipi əsas götürülürdü.

1958-ci ildə müxtəlif tipli peşə təhsili müəssisələrinin əvəzinə təlim müddəti bir ildən üç ilə qədər olan şəhər texniki peşə məktəbləri, təlim müddəti 1–2 il olan kənd texniki peşə məktəbləri və gündüz texniki peşə məktəbləri nəzdində axşam (növbəli) şöbələri yaradıldı.

1958-ci ilin dekabrında SSRİ Ali Soveti tərəfindən qəbul edilmiş «**Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq maarifi sisteminin daha da inkişaf etdirilməsi haqqında**» Qanun Azərbaycanda texniki peşə təhsilinin sonrakı inkişafına güclü təsir göstərdi.

**1959-cu ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Əmək Ehtiyatları Baş İdarəsinin bazasında Texniki Peşə Təhsili üzrə Dövlət Komitəsi yaradıldı. Əkbər Ənnağıyev Azərbaycan Dövlət Texniki Peşə Təhsili Komitəsinin ilk sədri təyin olundu.** 1961-ci ildən 1964-cü ilə qədər həmin Komitəyə **Musa Ağayev** rəhbərlik etmişdir.

1964–1965-ci illərdə Respublika Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsini **Həsən Salman oğlu Ağayev** icra etmişdir.

50-ci illərdə ixtisaslı fəhlələrin hazırlanmasında texniki peşə təhsili müəssisələrinin rolunun lazımınca qiymətləndirilməməsi və bu sahənin idarə edilməsində buraxılan səhvlər nəticəsində respublika üzrə əmək ehtiyatları sistemində hazırlanan ixtisaslı fəhlələrin sayı nəzərəçarpacaq dərəcədə azaldı. Bununla belə, 1960-cı ilin əvvəllərində respublikada əmək ehtiyatları sistemində xalq təsərrüfatı, sənaye və kənd təsərrüfatının müxtəlif sahələri üçün 60 ixtisas üzrə 9 min ixtisaslı fəhlə hazırlandı. Ümumiyyətlə, əmək ehtiyatları sistemi mövcud olduğu dövrdə Azərbaycan SSR-in sənaye və kənd təsərrüfatı üçün 150 min ixtisaslı fəhlə hazırlanmışdı.

Texniki peşə təhsili sistemində təhsil alan şagirdlərin azalma tendensiyası sonrakı illərdə də davam etdi. 1961–1965-ci illərdə texniki peşə təhsili sistemində ixtisaslı fəhlə kadrlarının hazırlanması dinamikası respublikanın xalq təsərrüfatındakı artım sürətindən geri qalırdı. Bu dövrdə peşə məktəblərində hazırlanmış ixtisaslı fəhlələrin sayı respublikada xalq təsərrüfatında işləyənlərin ümumi sayının 20%-ni təşkil edirdi.

1966-cı ilin fevralında Sov.İKP MK və SSRİ Nazirlər Soveti tərəfindən «**1966-cı ildə ümumtəhsil məktəblərini bitirən gənclərin təlimini genişləndirmək və onları xalq təsərrüfatında işə düzəltmək tədbirləri haqqında**» qərar qəbul olundu.

Bu qərar texniki peşə təhsili sistemi qarşısında orta ümumtəhsil məktəblərini bitirmiş məzunlar sırasından ixtisaslı fəhlələr hazırlamağın miqyasını xeyli genişləndirməyi mühüm vəzifə kimi qarşıya qoydu. Bununla əlaqədar olaraq, respublikada yeni tip texniki peşə məktəbləri yaradılması zəruri hesab edildi və bu istiqamətdə əsaslı tədbirlər görülməyə başlandı.



Musa Ağayev
(1914–1965)

**Ağayev Musa İsgəndər oğlu** Şuşa şəhərində anadan olmuşdur. Bakıda fəhlə fakültəsində təhsil almışdır (1930–1933). Sonra təhsilini Sənaye İnstitutunun neft mədəni fakültəsində davam etdirmişdir (1933–1938). Neftçıxarma ustası, quyuların tədqiqi və işlədilməsi üzrə mühəndis, «Azneft» Birliyi normativ-tədqiqat qrupunun baş mühəndisi vəzifələrində çalışmışdır. Bakı şəhər Partiya Komitəsi aparatında rəhbər partiya işində, Azərbaycan KP Kirov rayon komitəsinin birinci katibi vəzifəsində (1946–1961), Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifələrində işləmişdir (1961–1964). «1941–1941-ci illərdə Böyük Vətən müharibəsində əmək igidliyinə görə» medalı və Şərəf nişanı ordeni ilə təltif olunmuşdur.

1967-ci ildə Bakı şəhəri 3 nömrəli (indiki 3 nömrəli Bakı peşə liseyi), 4 nömrəli (1996-cı ildə 4 nömrəli Bakı peşə məktəbi indiki 6 nömrəli Bakı peşə liseyinə birləşdirildi) və 29 nömrəli (indiki 1 nömrəli Bakı peşə liseyi) peşə məktəblərində orta təhsilli ixtisaslı fəhlələr hazırlanması üzrə eksperiment qaydasında üçillik təlim qrupları yaradıldı. **1970-ci ildə bu qrupların birinci buraxılışı oldu. Azərbaycanda ilk dəfə olaraq 425 nəfər məzuna peşə ixtisası ilə yanaşı, orta təhsil haqqında sənəd – kamal attestatı da verildi.**

*40–50-ci illərdə Azərbaycanda texniki peşə təhsili müəssisələri və onlarda təhsil alan şagird kontingenti*

| Tədris ili | Məktəblərin sayı | Şagird kontingenti (min nəfərlə) |
|---|---|---|
| 1939/40 | 32 | 10,0 |
| 1949/50 | 37 | 9,0 |
| 1959/60 | 35 | 7,4 |

1969-cu ilin aprel ayında Sov. İKP MK və SSRİ Nazirlər Soveti *«Texniki peşə təhsili sisteminin təhsil müəssisələrində ixtisaslı*



*Kooperatorların texniki peşə məktəbində dərs zamanı*

*fəhlələr hazırlanmasını daha da yaxşılaşdırmaq tədbirləri haqqında»* xüsusi qərar qəbul etdi. Həmin qərar texniki peşə təhsili müəssisələrini orta təhsilli ixtisaslı fəhlələr hazırlamaq üçün tədricən **3–4 illik təlim müddəti olan orta texniki peşə məktəblərinə** çevirməyin yollarını, Azərbaycanda texniki peşə təhsili sisteminin gələcək inkişaf perspektivlərini, onun qarşısında duran məqsəd və vəzifələri müəyyən etdi. Bu qərar texniki peşə təhsili sisteminin sonrakı inkişafında müstəsna rol oynadı.

70–80-ci illərdə Azərbaycanda digər təhsil pillələri ilə yanaşı, texniki peşə təhsili müəssisələrinin şəbəkəsi də genişləndi. Peşə təhsili sahəsində yeni inkişaf strategiyası və proqramı hazırlanıb həyata keçirildi. 35 şəhər və 54 rayonda yeni texniki peşə məktəbləri yaradıldı.

Ümumiyyətlə, Azərbaycan təhsilinin mühüm tərkib hissəsi olan texniki peşə təhsilinin inkişafı Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə (1969–1982) təsadüf edir. 1970-ci ildən başlayaraq Azərbaycanın texniki peşə təhsili özünün yeni yüksəliş mərhələsinə qədəm qoydu. Bu dövrdə texniki peşə məktəblərinin sayı 1965-ci illə müqayisədə 1,7 dəfə, təhsil alanların sayı isə 2,5 dəfə artdı.

1970-ci ilin sonunda respublikada fəaliyyət göstərən 76 texniki peşə təhsili müəssisəsində 150 ixtisas üzrə 40,9 min şagird təhsil alırdı.

70-ci illərdə texniki peşə təhsilinin inkişafında baş verən kəmiyyət və keyfiyyət dəyişikliyi RSFSR, Ukrayna, Belorusiya, Özbəkistan, Qazaxıstan Respublikaları istisna olunmaqla,

*1965–1976-cı illərdə SSRİ-də gündüz texniki peşə məktəbləri şəbəkəsi və şagirdlərin sayı*

| № | Sovet Sosialist Respublikaları | İllər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 1965 | | 1970 | | 1975 | | 1976 | |
| | | peşə məktəbləri | şagirdlər (min nəfərlə) | peşə məktəbləri | şagirdlər (min nəfərlə) | peşə məktəbləri | şagirdlər (min nəfərlə) | peşə məktəbləri | şagirdlər (min nəfərlə) |
| 1. | SSRİ | 4067 | 1436.1 | 4921 | 2156.4 | 5614 | 2814 | 5777 | 2948,0 |
| 2. | RSFSR | 2474 | 857.4 | 2950 | 1235 | 3235 | 1557.3 | 3293 | 1607.1 |
| 3. | Ukrayna | 698 | 270.3 | 839 | 416.5 | 926 | 518,6 | 949 | 545.4 |
| 4. | Belorusiya | 114 | 52,0 | 146 | 81,5 | 167 | 112,7 | 178 | 120.56 |
| 5. | Özbəkistan | 84 | 24 | 108 | 45.3 | 227 | 110,4 | 249 | 127.34 |
| 6. | Qazaxıstan | 317 | 114,8 | 364 | 154,5 | 391 | 200.1 | 396 | 203.9 |
| 7. | Gürcüstan | 41 | 12,3 | 62 | 30.4 | 82 | 39.6 | 93 | 43,7 |
| 8. | Azərbaycan | 44 | 14.6 | 76 | 40.9 | 125 | 63,3 | 134 | 71,19 |
| 9. | Litva | 53 | 16,2 | 61 | 23 | 71 | 32.5 | 73 | 35,8 |
| 10. | Moldaviya | 29 | 10,5 | 53 | 26.7 | 76 | 36.4 | 80 | 37.9 |
| 11. | Latviya | 49 | 14.1 | 53 | 19.9 | 58 | 22,4 | 59 | 23,4 |
| 12. | Qırğızıstan | 39 | 13,1 | 49 | 25.6 | 64 | 36,7 | 69 | 39,25 |
| 13. | Tacikistan | 41 | 12.0 | 50 | 16,3 | 54 | 22,4 | 57 | 24.62 |
| 14. | Ermənistan | 36 | 10,6 | 53 | 19.2 | 74 | 34.6 | 78 | 38.12 |
| 15. | Türkmənistan | 24 | 7,5 | 31 | 13 | 35 | 15,6 | 39 | 18,06 |
| 16. | Estoniya | 24 | 6,7 | 26 | 8,6 | 29 | 11,3 | 30 | 11.61 |

*Bax: Александр Булгаков. «Профессионально-техническое образование в СССР на современном этапе. М., 1977, стр.147.*



*Texniki peşə məktəbinin şagirdləri toxuculuq fabrikində*

digər müttəfiq respublikalarla müqayisədə Azərbaycanda daha çox hiss olunurdu.

Bununla yanaşı, həmin dövrdə artıq 19 texniki peşə məktəbi orta texniki peşə məktəbinə çevrilmişdi ki, bunlarda da üçillik təhsil proqramı üzrə əsas təhsil bazasından 5821 nəfər və ya bütün şagirdlərin 14,2%-ə qədəri təhsil alırdı.

Həmin illərdə Azərbaycanda gedən iqtisadi quruculuq prosesi, sənaye və kənd təsərrüfatının sürətli inkişafı respublikada yüksəkixtisaslı fəhlə kadrlarının hazırlanması tələbatını ortaya qoydu və bu tələbat texniki peşə təhsilinin inkişafına güclü təkan verdi. 1969/70-ci tədris illərində texniki peşə məktəblərinə 61,8 min şagird qəbul edildi, 43,8 min ixtisaslı kadr hazırlandı.

Texniki peşə təhsili məktəblərini bitirən şəxslərə müvafiq ixtisas dərəcəsi (yaxud kateqoriya) və müəyyən edilmiş növdə peşə attestatı, təlimdə fərqlənən və nümunəvi davranışlı məzunlara isə fərqlənmə attestatı, əsas təhsil bazasından orta texniki peşə məktəblərini bitirən şəxslərə peşə üzrə ixtisas qazanması və orta təhsil əldə etməsinə dair diplom, xüsusi fərqlənənlərə isə fərqlənmə diplomu verilirdi. Texniki peşə məktəblərini bitirmiş şəxslərə verilən dərəcə (kateqoriya) SSRİ-nin bütün müəssisə, idarə və təşkilatları tərəfindən tanınırdı.

1969–1971-ci illərdə respublikada 16 yeni texniki peşə məktəbi yaradıldı, 20 texniki peşə məktəbi orta texniki peşə məktəbinə çevrildi, 3120 şagird yeri olan tədris, 2520 çarpayılıq yataqxana korpusu tikilib istifadəyə verildi. Fəaliyyətdə olan texniki peşə məktəblərinin nəzdində 244 yeni təlim emalatxanası, kabinet və laboratoriya yaradıldı.

Elektrotexnika sənayesinin ən iri müəssisələrində işləyən ixtisaslı fəhlələr hazırlayan texniki peşə məktəbləri üçün müasir komplekslər tikildi və istifadədə olanlar genişləndirildi.

Bu illərdə Bakı şəhərində «Məişət kondisionerləri», «Azelektroterm», «Ulduz», «Azon» və şin zavodları, Gəncədə büllur və çini qablar zavodları, xalça fabriki üçün peşə-ixtisas kadrları hazırlayan texniki peşə məktəbləri kompleksləri tikilib istifadəyə verildi.

Kənd təsərrüfatı sahələrinin inkişafı ilə əlaqədar həmin illərdə Ağdam, Ağcabədi, Bərdə, Göyçay, Puşkin (Biləsuvar), Gədəbəy, Qazax, Qax, Ağdaş, Xaçmaz, Sabirabad, Lənkəran, Şamxor (Şəmkir), Şamaxı, Tovuz, Cəlilabad, Füzuli rayonlarında və Naxçıvan Muxtar Respublikasında texniki peşə məktəbi kompleksləri fəaliyyətə başladı.

1970-ci ilin axırına yaxın kənd texniki peşə məktəblərində 335 traktor, 93 taxılyığan kombayn, 28 pambıqyığan maşın, 49 torpaqqazan texnika, 430 müxtəlif kənd təsərrüfatı maşını var idi. Kənd texniki peşə məktəblərinin 10 təlim təsərrüfatında pambıq və dənli bitkilər yetişdirilirdi.

Bu illərdə ilk dəfə olaraq, Heydər Əliyevin göstərişi ilə 1971–1975-ci illər üçün Azərbaycanda texniki peşə təhsilinin təkmilləşdirilməsi və inkişafı yollarına dair strategiya hazırlandı.

Azərbaycan SSR Ali Soveti tərəfindən 1974-cü ildə qəbul edilmiş *«Xalq maarifi haqqında Azərbaycan SSR Qanunu»*na əsasən texniki peşə təhsili yenidən təşkil olundu *(bax: Məktəblərin və xalq maarifi orqanlarının rəhbər işçiləri üçün məlumat kitabı. Bakı, «Maarif», 1984, səh. 40–103).*

Qanunun VI bölməsi texniki peşə təhsilinə həsr olunmuşdu. 48–55-ci maddələrdə texniki peşə təhsili məktəblərinin başlıca vəzifələri aşağıdakı kimi müəyyən edilmişdi:

- xalq təsərrüfatı üçün hərtərəfli inkişaf etmiş, texniki cəhətdən bilikli və ixtisaslı, peşə ustalığına yiyələnən, müasir istehsalın, elmi-texniki tərəqqinin tələblərinə və bunların inkişaf perspektivlərinə cavab verən fəhlələrin hazırlanması;
- orta texniki peşə məktəblərində həm peşə təhsilinin, həm də ümumi orta təhsilin həyata keçirilməsi;
- şagirdlərdə yüksək mənəvi keyfiyyətlərin tərbiyə edilməsi;
- şagirdlərin estetik və fiziki tərbiyəsi, onların sağlamlığının möhkəmləndirilməsi, vətənin müdafiəsinə hazır olmalarına nail olunması.

Qanunda, həmçinin texniki peşə məktəblərinin baza müəssisələri ilə, idarə və təşkilatlarla qarşılıqlı münasibətləri, habelə bu məktəblərin maddi-tədris bazasının yaradılması və getdikcə daha da möhkəmləndirilməsi, müvəffəqiyyətlə işləmələri üçün lazımi şəraitin təmin edilməsi üzrə müvafiq nazirliklərin, baş idarələrin, müəssisə, idarə və təşkilatların vəzifələri müəyyən edilmişdi.

Yeri gəlmişkən bir məsələni xüsusi qeyd etmək istərdim. Mütəxəssislər Almaniya, Yaponiya, Koreya və s. kimi ölkələrin müasir inkişaf yollarını təhlil edərkən bu inkişafın həmin ölkələrdə texniki peşə təhsilinin inkişafı ilə birbaşa əlaqədar olduğunu qeyd edirlər.

Yəqin elə buna görə də Heydər Əliyev hələ o zaman ölkə iqtisadiyyatının inkişafını texniki peşə təhsilinin inkişafında görürdü və texniki peşə təhsili müəssisələrinin şəbəkəsinin genişləndirilməsinə ciddi fikir verirdi. 1975-ci ildə Azərbaycan Nazirlər Soveti tərəfindən **«Orta kənd texniki peşə məktəblərinin şəbəkəsini genişləndirmək və onların işini yaxşılaşdırmaq tədbirləri haqqında»** qərar qəbul edildi. Qərarın qəbulundan sonra qısa bir müddət ərzində kənd texniki peşə məktəblərinin sayı 18-dən 45-ə çatdırıldı. Bu dövrdə həmin texniki peşə məktəblərində 13370 nəfər ixtisaslı fəhlə kadrları hazırlandı.

*1970–1975-ci illərdə kənd texniki peşə məktəblərində təhsil alan şagirdlərin sayı*

| Kənd texniki peşə məktəbləri | 1970-ci il | 1975-ci il |
|---|---|---|
| Kənd texniki peşə məktəbləri: | 18 | 45 |
| o cümlədən: orta texniki peşə məktəbləri | 2 | 14 |
| Kənd texniki peşə məktəblərində şagirdlərin sayı (nəfər): | 6031 | 16500 |
| o cümlədən: kənd orta texniki peşə məktəblərində şagirdlərin sayı (nəfər) | 647 | 7031 |
| Kənd texniki peşə məktəblərində məzunların sayı (nəfər): | 5736 | 13370 |
| o cümlədən: kənd orta texniki peşə məktəblərində məzunların sayı (nəfər) | – | 619 |

Bu dövrdə kənd orta texniki peşə məktəbləri kəndli gənclərin peşə təhsili və ümumi orta təhsil almaları üçün ən səmərəli yola çevrilmişdi. Kənd yerlərində aparılan böyük quruculuq işləri nəticəsində texniki peşə təhsili sahəsində diqqətəlayiq nailiyyətlər qazanıldı. Kənd texniki peşə məktəbləri şəbəkəsinin genişlənməsi ilə əlaqədar orada çalışan mühəndis-pedaqoji işçilərin sayı artaraq 1097 nəfərə çatdı, onların maşın-sınaq stansiyalarında, traktor istehsal edən zavodlarda və digər kurslarda müntəzəm surətdə yenidən hazırlıq keçməklə təkmilləşdirilməsi işi qaydaya salındı.



*Qocaman müəllimə İqlimə Əliyeva peşə məktəblərinin istehsalat-təlim ustalarına öz iş təcrübəsindən danışır*

Respublikanın peşə təhsili sistemini mühəndis-pedaqoji kadrlarla təmin etmək məqsədilə Bakı Sənaye-Pedaqoji Texnikumunda texniki peşə təhsili müəssisələri üçün sənaye, xidmət və digər peşələrlə yanaşı, kənd təsərrüfatı mexanizatoru peşəsi üzrə də istehsalat təlimi ustalarının hazırlanmasına başlandı.

Bu dövrdə kənd yerlərində texniki peşə təhsili müəssisələrinin maddi-texniki bazasını daha da inkişaf etdirmək məqsədilə geniş proqram təsdiq edildi.

1976–1980-ci illərdə kəndlərdə inşa edilməsi nəzərdə tutulan texniki peşə təhsili obyektlərinin siyahısı müəyyənləşdirildi. Respublika Dövlət Texniki Peşə Təhsili Komitəsinə tapşırıldı ki, kənd texniki peşə məktəblərində kənd təsərrüfatının bütün sahələri üçün ixtisaslı fəhlələr, birinci növbədə, geniş profilli mexanizatorlar hazırlanması genişləndirilsin.

Bu illərdə texniki peşə məktəblərinin tədris-maddi bazası xeyli genişləndirildi, peşəkar mühəndis-pedaqoji işçilər seçilib yerləşdirildi. Texniki peşə təhsili müəssisələri təlim-tərbiyə prosesinin təşkili üçün lazımi avadanlıqla təchiz olundu, onların ixtiyarına 594 tədris kabineti, 100 laboratoriya, 285 istehsalat təlimi emalatxanası verildi.

Bu dövrdə texniki peşə məktəblərində 3286 müəllim və istehsalat təlimi ustası çalışırdı. Bunlardan 1167 nəfərinin ali, 1321 nəfərinin orta ixtisas təhsili var idi. 798 nəfərini isə zəngin istehsalat təcrübəsi və yüksək ixtisas dərəcəsi olan fəhlələr təşkil edirdi.

1976–1979-cu illərdə respublikanın texniki peşə məktəblərinə 240,7 min şagird qəbul edilmiş, xalq təsərrüfatı üçün 195,7 min nəfər ixtisaslı fəhlə kadrı hazırlanmışdı. 1979-cu ildə texniki peşə məktəblərindən məzun olan orta təhsilli ixtisaslı fəhlələrin sayı 28,8 min nəfər oldu. Texniki peşə məktəblərinin maddi-texniki bazası genişləndirildi, yeni tədris kabinetləri, laboratoriya və emalatxanalar yaradıldı, lazımi təlim vasitələri və avadanlıqlarla təchiz edildi.



**Tofiq Allahverdiyev (1917–1982)**

**Allahverdiyev Tofiq Əliheydər oğlu** Bakı şəhərində anadan olmuşdur. Məşədi Əzizbəyov adına Neft və Kimya İnstitutunu (indiki Neft Akademiyası) bitirmişdir. Azərbaycan KP MK-da şöbə müdiri vəzifəsində işləmiş, (1947–1948), Moskva Neft Sənayesi Akademiyasının dinləyicisi olmuş (1953–1955), Bakı şəhər Partiya Komitəsinin birinci katibi (1955–1961), Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifələrində çalışmışdır (1965–1981).

SSRİ Ali Sovetinin 3-5-ci çağırış deputatı olmuşdur.

Həmin dövrdə Azərbaycan Dövlət Texniki Peşə Təhsili Komitəsinə **Tofiq Allahverdiyev** rəhbərlik edirdi (1965–1981).

1981–1982-ci illərdə bir il dörd ay müddətində Dövlət Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifəsini tanınmış partiya işçisi **Zülfüqar Abdullayev** icra etmişdir.

*1960–80-ci illərdə Azərbaycanda texniki peşə təhsili müəssisələri şəbəkəsi və onların şagird kontingenti*

| İllər | Məktəblərin sayı | Şagird kontingenti (min nəfərlə) |
|---|---|---|
| 1960 | 35 | 7,4 |
| 1970 | 76 | 40,9 |
| 1980 | 173 | 99,8 |

1970–1982-ci illərdə respublikada texniki peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, 1970-ci ildə 76 texniki peşə məktəbi fəaliyyət göstərmiş və orada 40,9 min şagird təhsil almışdısa, bu rəqəm müvafiq olaraq, 1980-ci ildə 173 məktəbə və 99,8 min şagirdə, 1982-ci ildə isə 184 məktəbə və 109 min şagirdə çatdırılmışdı. Deməli, bu illərdə məktəblərin sayı orta hesabla 2,5 dəfə, təhsil alanların sayı isə 2,5 dəfədən çox artmışdı *(bax: Heydər Əliyev. Təhsil millətin gələcəyidir... Bakı, «Təhsil», 2002, səh.33)*.

80-ci illərdə respublikada iqtisadiyyatın inkişafı, sənaye və kənd təsərrüfatı sahələrinin modernləşdirilməsi ilə bağlı kadr hazırlığını yaxşılaşdırmaq sahəsində texniki peşə təhsili sisteminin təkmilləşdirilməsi və dövrün tələblərinə uyğun olaraq formalaşdırılması üçün mühüm tədbirlər görüldü. Peşə məktəblərinə şagird qəbulu ildən-ilə artdı, yeni peşələr üzrə kadr hazırlığı genişləndirildi.

Bu dövrdə Naxçıvan MR-də də texniki peşə təhsili sisteminin inkişafına ciddi diqqət yetirilirdi. 1972-ci ilin oktyabrın 18-də Naxçıvan Vilayət Partiya Komitəsi «Naxçıvan MSSR texniki peşə məktəblərində ideya-siyasi tərbiyə işinin vəziyyəti haqqında» məsələni, 31 yanvar 1973-cü ildə isə «Naxçıvan MSSR texniki peşə məktəblərində təhsilin daha da təkmilləşdirilməsi haqqında Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin qərarının yerinə yetirilməsi, gedişi haqqında» məsələni müzakirə etdi. İxtisaslı kadrların hazırlanmasını yaxşılaşdırmaq və tərbiyə işinin səviyyəsini artırmaq məqsədilə muxtar respublika Nazirlər Soveti yanında Texniki Peşə Təhsili İdarəsi yaradıldı.

1970–1982-ci illərdə Naxçıvan MR-də texniki peşə təhsili şəbəkəsinin inkişaf dinamikasının təhlili göstərir ki, həmin illərdə TPM şəbəkəsi genişlənmiş və oradakı şagirdlərin sayı artmışdır. Belə ki, əgər 1970-ci ildə 2 TPM-də 799 nəfər oxuyurdusa, 1975-ci ildə 3 TPM-də 1238, 1980-ci ildə isə 8 TPM-də 2053 nəfər təlim və təhsil alırdı. 1975-ci illə müqayisədə 1980-ci ildə TPM-ə qəbul 1,5 dəfə, 1970-ci il ilə müqayisədə isə 2,5 dəfə artmışdı. Ümumilikdə, 1971–1980-ci illərdə Naxçıvan MR texniki peşə məktəblərində 9849 ixtisaslı fəhlə kadrları hazırlanmışdı ki, bu da 1966–1970-ci illərdəkindən dəfələrlə çox idi. İxtisaslı fəhlə kadrlarının hazırlanması, on birinci beşillikdə də davam etdirildi. Həmin dövrdə texniki peşə məktəblərində 6513 fəhlə hazırlanmışdı ki, bu da 70–80-ci illərdə hazırlanmış bütün fəhlə kadrlarının 54%-ni təşkil edirdi *(bax: Mirdaməd Sadıqov, Həmzə Ziyadov. Azərbaycan Maliyyə İqtisad Kolleci (1934–2004). Bakı, «Səda», 2004, səh.53)*. 1971–1980-ci illərdə sənayeyə 1315, kənd təsərrüfatına 5315, tikintiyə 985, rabitə və nəqliyyat müəssisələrinə 281, xalq təsərrüfatının digər sahələrinə isə 1627 ixtisaslı fəhlə göndərilmişdi. Bu ərəfədə istehsalat sahələrində artıq öz işini dərindən bilən, səriştəli fəhlələr, ustalar çalışırdılar ki, bu da texniki peşə məktəblərinin tədris sahəsində səmərəli işinin nəticəsi idi.

İctimai istehsalda ən yeni texnikanın tətbiqi və bununla əlaqədar, əməyin məzmununda və xarakterində baş verən dəyişikliklər TPM-də öyrədilən ixtisasların sayının artmasına səbəb oldu. Əgər 1970-ci ildə muxtar respublikanın texniki peşə məktəblərində

9 ixtisas üzrə kadrlar hazırlanırdısa, 1975-ci ildə onların sayı 12-yə, 1980-ci ildə isə 22-yə çatdırılmışdı.

Texniki peşə məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların müəllimlərlə, istehsalat təlimi ustaları və tərbiyəçilərlə təmin edilməsi sahəsində atılan addımlar sayəsində emalatxanaların sayı 5-dən 28-ə, kabinə və laboratoriyaların sayı isə 16-dan 49-a çatdırıldı. Əgər 1970-ci ildə texniki peşə məktəblərində 44 müəllim, usta və tərbiyəçi var idisə, 1975-ci ildə onların sayı 146-ya, 1980-ci ildə isə 289-a çatmışdı.

Pedaqoji kadrların keyfiyyət tərkibində də dəyişikliklər baş vermişdi. 1980-ci ildə 62 müəllimdən 56-sı ali, 6-sı orta ixtisas təhsilinə malik idi, halbuki 1970-ci ildə 44 texniki peşə məktəbi işçisindən yalnız birinin ali təhsili var idi. Qalan 18-nin orta ixtisas, 25-nin isə orta təhsili var idi.

1981/82-ci tədris ilində Azərbaycanda orta ümumtəhsil məktəblərinin IX və XI siniflərini



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Naxçıvanın peşə məktəblərindən birində*



*Bakı şəhər 13№-li məktəbdə kargüzarların hazırlanması*

bitirən 203069 nəfərdən 39%-i (79300 nəfər) peşə təhsili müəssisələrinə qəbul olunmuşdu.

Bu dövrdə Azərbaycanda xarici ölkə vətəndaşlarına təhsilin digər pillələrində olduğu kimi, texniki peşə məktəblərində də maneəsiz təhsil almaları üçün xüsusi şərait yaradıldı. Belə ki, 74№-li Bakı peşə məktəbində Vyetnam, Laos («Neft quyularının təmiri və istismarı», «Qazmaçı» peşələri üzrə) və Monqolustan («Xalçanın əl ilə toxunması» peşəsi üzrə) üçün yüzlərlə ixtisaslı kadrlar hazırlandı.

80-ci illərdə texniki peşə təhsilinin inkişafına və kadr hazırlığının təkmilləşdirilməsinə yönəldilmiş bir sıra müşavirələr keçirildi, onların məntiqi davamı olaraq hüquqi-normativ sənədlər qəbul edildi, təlim-tərbiyə prosesinin keyfiyyətinin yaxşılaşdırılması, tədrisin səmərəliliyinin yüksəldilməsi, şagirdlərin peşə və ümumtəhsil hazırlığı səviyyəsinin artırılması sahəsində böyük işlər görüldü.

Həmin illərdə respublikanın texniki peşə məktəblərində 7,5 min mühəndis – pedaqoji

işçi çalışırdı ki, bunların da 3,5 mini istehsalat təlimi ustası, 2,6 mini isə müəllim idi. Onların arasında Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq müəllimi, Azərbaycan SSR-in əməkdar müəllimi, Əməkdar istehsalat təlimi ustası, Əməkdar texniki peşə təhsili işçisi fəxri adlarına layiq görülmüş kadrlar da var idi.

Ümumiyyətlə, texniki peşə təhsili müəssisələrinin məzunlarından 1 nəfəri Sovet İttifaqı Qəhrəmanı, 14 nəfəri Sosialist Əməyi Qəhrəmanı, 1 nəfəri SSRİ xalq müəllimi, 5 nəfəri Azərbaycan SSR-in əməkdar müəllimi, 4 nəfər Azərbaycan SSR-in əməkdar texniki, Əməkdar Peşə təhsili işçisi fəxri adları almışlar.

1982/83-cü tədris ilində 184 texniki peşə məktəbində 230 peşə üzrə 110 min şagird təhsil alırdı. Bu, 1970-ci ildə mövcud olmuş 76 texniki peşə məktəbi və orada təhsil alan 40,9 min şagird kontingenti ilə müqayisədə 2 dəfədən çox idi.

1983-cü ildə Azərbaycan SSR Texniki Peşə Komitəsinin sədri vəzifəsinə **Heydər İsayev** təyin olundu.

1978–1987-ci illərdə Azərbaycanda 5276 şagird yeri olan texniki peşə kompleksləri, 2400 şagird yeri olan tədris binaları, 2800 şagird yeri olan laboratoriya-təcrübə korpusları, ümumi sahəsi 15559 kv.m. olan yataqxana binaları tikilib istifadəyə verilmişdi. Bu illərdə 194 tədris-istehsalat emalatxanası, 786 tədris kabineti və laboratoriya, ümumi torpaq sahəsi 1427 hektar olan 22 təlim təsərrüfatı yaradılmışdı.

80-ci illərdə texniki peşə təhsili sisteminin inkişafında SSRİ Ali Sovetinin 12 aprel 1984-cü il tarixli qərarı ilə təsdiqlənmiş **«Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında»** islahat proqramı əhəmiyyətli rol oynadı.



**Heydər İsayev (1936–1999)**

**İsayev Heydər İsa oğlu** Naxçıvan MR-də anadan olmuşdur. Məşədi Əzizbəyov adına Azərbaycan Neft Kimya İnstitutunda (indiki Neft Akademiyası) təhsil almışdır (1954–1959). Neft Kimya İnstitutunda aspirant (1964–1966), Əlcəzair Demokratik Respublikasının Neft İnstitutunda neft və qazın geologiyası kafedrasının müdiri (1967–1971), Neft Kimya İnstitutunda dekan (1971–1977), xarici tələbələrin işi üzrə prorektor, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili nazirinin birinci müavini (1977–1980), Texniki Peşə Təhsili Komitəsinin sədri vəzifələrində işləmişdir (1983– 1988).

Həmin dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan ümumtəhsil və peşə məktəbi üzrə İslahat Komissiyasının sədri Heydər Əliyev XI çağırış SSRİ Ali Sovetinin sessiyasındakı məruzəsində texniki peşə məktəbləri qarşısında yeni vəzifələr qoydu. O, peşə hazırlığının politexnik təhsillə düzgün əlaqələndirilməsinin əhəmiyyətini yüksək qiymətləndirərək demişdi: *«Elmi-texniki inqilab şəraitində politexnik təhsil işində əmək növünü dəyişdirmək, əlaqədar peşələrə, hətta, bəzən tamamilə yeni peşələrə yiyələnmək, daim özünü təkmilləşdirmək qabiliyyətini xeyli yüksəltməyə imkan verir. Şagirdlərin bütün əmək və peşə hazırlığı ümumtəhsil hazırlığının getdikcə xeyli yaxşılaşdırılmasına əsaslanmalıdır. Məktəblinin müəyyən peşəyə yiyələnməsi onun həyatda yol seçmək imkanını genişləndirməlidir, bu və ya*



*Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Sovetinin birinci müavini Heydər Əliyev Bakıda, 84№-li texniki peşə məktəbində. 1984-cü il*

*digər fənnin daha dərindən öyrənilməsinə istiqamət götürülməsi və eyni zamanda bütün fənlərin ağıllı surətdə öyrənilməsini nəzərdə tutur» (bax: Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, «Təhsil», 2002, səh.240).*

İslahat proqramında təlim-tərbiyənin keyfiyyətinin yüksəldilməsi, əmək tərbiyəsi, təlimin və peşəyönümü işinin kökündən yaxşılaşdırılması, tədrisin keyfiyyəti ilə bağlı şagirdlərin məsuliyyətinin artırılması, tədris müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, müəllimin ictimai nüfuzunun yüksəldilməsi, məktəbin strukturunun və xalq təhsilinin idarə edilməsinin təkmilləşdirilməsi nəzərdə tutuldu.

İslahat proqramında orta texniki peşə məktəblərinə daxil olan IX sinif məzunlarının sayı və xüsusi çəkisinin 2 dəfə artırılması, əmək fəaliyyətinə başlamazdan əvvəl bütün gənclərə peşələrə yiyələnmək imkanının verilməsi, gənclərin ümumi orta təhsilinin onların ümumi peşə təhsili ilə tamamlanması nəzərdə tutulmuşdu. İslahat proqramı respublikada texniki peşə təhsilinin inkişafına və təkmilləşməsinə böyük təkan verdi.

Bu, Heydər Əliyev tərəfindən elə bu cür də planlaşdırılmışdı: *«...İslahat texniki peşə təhsili sisteminin nüfuzunu və əhəmiyyətini nəzərəçarpacaq dərəcədə artırır. Şagirdlərin natamam orta məktəbi qurtardıqdan sonra*



*Bakı şəhər Nərimanov rayonu tədris istehsalat kombinatında teleqrafçıların hazırlanması*

*texniki peşə məktəblərinə qəbulu təqribən 2 dəfə artacaqdır. Elmi-texniki tərəqqi nəticəsində meydana gələn yeni peşələr üzrə fəhlələr hazırlanması xeyli genişləndiriləcəkdir. Tədris müəssisəsinin vahid tipi müəyyən ediləcəkdir – orta texniki peşə məktəbi».*

Bunu nəzərə almalıyıq ki, o illərdə Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində çalışan ixtisaslı fəhlələrin 70–80%-ni məhz texniki peşə məktəblərinin məzunları təşkil edirdi.

Azərbaycan SSR Nazirlər Sovetinin qəbul etdiyi «**Texniki peşə təhsili sistemini daha da inkişaf etdirmək və ixtisaslı fəhlə kadrları hazırlanmasında onun rolunu yüksəltmək haqqında**» 29 may 1984-cü il tarixli qərarı texniki peşə təhsilinin cəmiyyətdəki nüfuzunun artmasında əhəmiyyətli rol oynadı. Bu qərara əsasən peşə təhsili sistemində müəyyən dəyişikliklər baş verdi. Belə ki, peşə məktəblərinin müəyyən edilmiş qaydada işçilərinin sayı 2 min nəfər və daha çox olan istehsalat birlikləri, müəssisələr, tikintilər, təşkilatlar bazasında təşkil edilməsi, kənd yerlərində isə bir qayda olaraq, hər bir inzibati rayonda texniki peşə məktəbinin rayon aqrar-sənaye birliyinin tərkibinə daxil edilməsi nəzərdə tutulurdu.

Qərara əsasən orta texniki peşə məktəbləri şagirdlərinə istehsalat təlimi və istehsalat təcrübəsi dövründə qazandıqları məbləğin azı 50%-ni almağa icazə verilirdi. Şübhəsiz, bu hal şagirdlərin peşə təhsilinə marağının artırılmasına və həmçinin istehsalat təcrübəsi dövründə daha səmərəli işləməsinə şərait yaradırdı.

Orta texniki peşə məktəblərinə daxil olan IX sinif məzunlarının sayının 2 dəfə artırılması, əmək fəaliyyətinə başlamazdan əvvəl bütün gənclərə peşələrə yiyələnmək imkanının verilməsi, gənclərin ümumi orta təhsilinin onların ümumi peşə təhsili ilə tamamlanması məsələsi də 1984-cü ildə qəbul edilən islahat proqramında öz əksini tapmışdı.

80-ci illərdə respublikanın texniki peşə təhsili məktəblərində gənclərin hərtərəfli inkişafı üçün hər cür şərait yaradılmışdı. Texniki peşə məktəblərinin ictimai təşkilatları, mühəndis-pedaqoji işçiləri, Əmək Ehtiyatları Könüllü İdman Cəmiyyətinin Respublika Şurası, texniki peşə məktəbləri şagirdlərinin Respublika Texniki və Bədii Yaradıcılıq Evi, Dövlət Texniki Peşə Təhsili Komitəsinin Ümumittifaq İxtiraçılar və Səmərələşdiricilər Cəmiyyətinin Birləşmiş Şurası tərəfindən hər il şagirdlərin peşə hazırlığına və bədii özfəaliyyətlərinə baxışlar, peşə müsabiqələri, spartakiada və texniki yaradıcılıq sərgiləri keçirilirdi.

Texniki peşə təhsili müəssisələrinin şagirdləri dəfələrlə Ümumittifaq və beynəlxalq sərgilərdə iştirak edərək mükafata layiq yerlər tutmuş, idman və peşə yarışmalarında uğurla iştirak etmişdilər.

Azərbaycan SSR Dövlət Texniki Peşə Təhsili Komitəsinin politexnik muzeyinin 650 kvadratmetrlik sərgi sahəsi var idi. Muzey məktəblilər və onların valideynləri arasında peşəyönümü sahəsində məqsədyönlü iş aparırdı. 80-ci illərdə Bakıda dənizkənarı parkda Texniki Peşə Təhsili Sisteminin Peşəyönümü mərkəzi fəaliyyət göstərirdi. Bu mərkəz əhali arasında peşəyönümü işlərinin aparılmasında, peşə təhsilinin təbliğində və vətəndaşların peşə təhsili almalarına yardımçı funksiyasını həyata keçirirdi.

Respublika Dövlət Texniki Peşə Təhsili Komitəsinin orqanı olan aylıq «Молодой рабочий» – «Gənc fəhlə» bülleteni təlim-tərbiyə prosesinin təşkili sahəsində qabaqcıl təcrübəni təbliğ edir, yeni təlim texnologiyalarını mühəndis-pedaqoji işçilərə çatdırır, onların pedaqoji ustalıqlarının artırılmasına metodiki kömək göstərirdi.

O dövrdə ildən-ilə fəhlə kadrlarının hazırlanmasının həcmi artır, texniki peşə məktəblərinin şəbəkəsi genişlənir, onların maddi-texniki bazası möhkəmlənir, təlim-tərbiyə prosesi təkmilləşir, şagirdlərin peşə hazırlığının səviyyəsi yüksəlirdi. 70-ci illərin sonu, 80-ci illərin əvvəllərində texniki peşə məktəblərinin, orada təhsil alan şagird kontingentinin və şagird qəbulunun artım dinamikasını aşağıdakı cədvəldən aydın görmək olar.

*1978–1986-cı illərdə texniki peşə məktəbləri və onların şagird kontingenti*

| İllər | Məktəblərin sayı | Şagird kontingenti | Qəbul olunan şagirdlərin sayı | İxtisaslı fəhlələr hazırlanmışdır |
|---|---|---|---|---|
| 1978 | 156 | 84935 | 60840 | 52685 |
| 1979 | 159 | 93608 | 66233 | 53771 |
| 1980 | 173 | 99799 | 68239 | 56411 |
| 1981 | 178 | 103998 | 69569 | 58225 |
| 1982 | 184 | 108880 | 73505 | 61499 |
| 1983 | 185 | 109044 | 75947 | 69116 |
| 1984 | 185 | 114331 | 77920 | 67735 |
| 1985 | 185 | 115040 | 79629 | 71816 |
| 1986 | 186 | 115449 | 80026 | 71546 |

80-ci illərdə texniki peşə məktəbi şagirdlərinin təlim-tərbiyəsi ilə 11 minə yaxın rəhbər və mühəndis pedaqoji işçi məşğul olurdu. Mühəndis-pedaqoji işçilər istehsalatdan ayrılmaqla müntəzəm olaraq öz ixtisaslarını artırırdılar.

*İxtisasartırma kurslarına cəlb olunan mühəndis-pedaqoji işçilərin sayı (1978–1986-cı illər)*

| İllər | 1978 | 1979 | 1980 | 1981 | 1982 | 1983 | 1984 | 1985 | 1986 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Mühəndis-pedaqoji işçilərin sayı | 980 | 1200 | 1670 | 1637 | 1792 | 2254 | 2371 | 2130 | 1664 |

80-ci illərin birinci yarısında texniki peşə məktəblərində şagirdlər ümumtəhsil, ümumtexniki və ixtisas fənlərindən dərslərdə aldıqları bilikləri sinifdənxaric tədbirlər zamanı daha da möhkəmləndirir və təkmilləşdirirdilər. Texniki peşə məktəblərində təşkil olunan fənn dərnəklərinin və onlarda iştirak edən şagirdlərin sayı ildən-ilə artırdı.

Texniki peşə məktəblərində şagirdlərin texniki yaradıcılığına xüsusi diqqət yetirilirdi.

80-ci illərdə texniki peşə məktəbi şagirdlərinin əl işləri dəfələrlə SSRİ Xalq Təsərrüfatı nailiyyətləri sərgisində nümayiş etdirilmişdir.

1987-ci ildə Azərbaycan SSR-də 186 texniki peşə məktəbi, o cümlədən 177 gündüz orta texniki peşə məktəbi fəaliyyət göstərirdi ki, onlarda da 200-dən artıq peşə üzrə 115 min şagird təhsil alırdı. Orta texniki peşə məktəbləri 41 nazirlik və baş idarə üçün, o cümlədən 95 məktəb Dövlət Aqrosənaye Komitəsinin müəssisə və təşkilatları, 19 məktəb inşaat, 14 məktəb maşınqayırma və cihazqayırma sahələri, elektronika və elektrotexniki sənaye, 13 məktəb yüngül sənaye üçün ixtisaslı fəhlə kadrları hazırlayırdı.

*1981–1986-cı illərdə texniki peşə məktəblərində fənn dərnəkləri və onlarda iştirak edən şagirdlərin sayı*

| İllər | Texniki yaradıcılığı | | Səmərələşdiricilik və ixtiraçılıq | | | |
|---|---|---|---|---|---|---|
| | Dərnəklərin sayı | Şagirdlərin sayı | ÜİLKGİ təşkilatlarının sayı | Şagirdlərin sayı | Səmərələşdirici təkliflər | Onların tətbiqi |
| 1981 | 255 | 5123 | 93 | 21500 | 32 | 30 |
| 1982 | 287 | 5520 | 107 | 26240 | 88 | 87 |
| 1983 | 295 | 5960 | 109 | 27555 | 102 | 85 |
| 1984 | 305 | 6218 | 115 | 29152 | 120 | 89 |
| 1985 | 315 | 6302 | 120 | 39774 | 125 | 102 |
| 1986 | 340 | 8938 | 136 | 42209 | 185 | 168 |

80-ci illərin sonunda təhsili idarəetmə mexanizmini təkmilləşdirmək məqsədilə bir sıra tədbirlər həyata keçirildi.

**Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti təhsil sisteminin vahid mərkəzdən idarə edilməsi və təhsilə nəzarətin gücləndirilməsi məqsədilə 10 avqust 1988-ci il tarixli Fərmanı ilə Azərbaycan SSR Ali və Orta ixtisas Təhsili Nazirliyi, Maarif Nazirliyi və**

**Texniki Peşə Təhsili Dövlət Komitəsi ləğv edilərək, onların bazasında Azərbaycan SSR Xalq Təhsili Nazirliyi yaradıldı.**

1988-ci ildən başlayaraq, ölkədə hökm sürən ictimai və sosial-iqtisadi böhran, istehsal həcminin kəskin azalması, zavod və fabriklərin işləməməsi, kolxoz və sovxozların dağılması və nəticə etibarilə əmək bazarında ixtisaslı işçi qüvvəsinə tələbatın aşağı düşməsi, büdcədən maliyyələşdirmənin həddindən artıq azalması, həmçinin peşə təhsili müəssisələri ilə sənaye, kənd təsərrüfatı və xidmət sahələri idarə, müəssisə, təşkilatları arasında ənənəvi əlaqələrin qırılması texniki peşə təhsili sisteminin inkişafına mənfi təsir göstərdi. Yaranmış mürəkkəb şərait elm, texnika, xidmət sahələri üçün peşə ixtisas kadrlarının xüsusi çəkisinin və peşə təhsili müəssisələrinə qəbulun kəskin şəkildə azalmasına gətirib çıxardı.

*1987–1990-cı illərdə Azərbaycanda texniki peşə təhsili müəssisələri və onlarda təhsil alan şagird kontingenti*

| İllər | Məktəblərin sayı | Şagird kontingenti (min nəfərlə) |
|---|---|---|
| 1987 | 186 | 115,0 |
| 1990 | 176 | 82,2 |

80-ci illərin sonlarına yaxın keçmiş SSRİ-də başlanan ictimai-siyasi proseslər ölkənin siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində olduğu kimi, texniki peşə təhsili sisteminə də ciddi ziyan vurdu. *«Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri haqqında»* İslahat Proqramı texniki peşə təhsilinin inkişafına, tədris prosesinin təkmilləşdirilməsinə güclü təkan versə də, onun bir çox tələblərini sonadək yerinə yetirmək mümkün olmadı.

# IV FƏSİL

## AZƏRBAYCANDA ORTA İXTİSAS TƏHSİLİNİN İNKİŞAFI

### 4.1. İlk pedaqoji orta ixtisas məktəbləri (20–30-cu illər)

XX əsrin 20-ci illərində Azərbaycanda orta ixtisas təhsilinin yenidən qurulmasına ilk növbədə milli müəllim kadrlarının hazırlanması ilə başlandı. Çünki ümumtəhsil məktəbləri şəbəkəsinin sürətlə genişlənməsi, təhsilə cəlb olunan şagirdlərin sayının artması genişmiqyaslı milli müəllim kadrlarının hazırlanmasını tələb edirdi. Azərbaycan dilində dərs deməyi bacaran müəllimlərə böyük ehtiyac var idi. Müəllim kadrlarının hazırlığı sahəsindəki mövcud çatışmazlığı aradan qaldırmaq məqsədilə Azərbaycan SSR Xalq Maarif Komissarlığı ilk növbədə qısamüddətli – **iki və üçaylıq pedaqoji kursların** təşkilinə başladı.

1920-ci ilin yayında Bakı, Çuxuryurd, Corat, Qusar, Lənkəran, Hacıkənd, Nuxa (Şəki), Şuşa və Zaqatala şəhərlərində qısamüddətli pedaqoji kurslar təşkil edildi. Bu kurslarda 1120 nəfər müəllim hazırlanıb respublikanın ibtidai məktəblərinə dərs deməyə göndərildi.

1920-ci il sentyabrın axırlarında «Kommunist» qəzetinə verdiyi müsahibəsində xalq maarif komissarı Dadaş Bünyadzadə bu münasibətlə deyirdi: *«...Biz indiyə qədər yalnız proqramlar, kommuna həyatına aşina olacaq müəllimlər hazırlamaqla, insan tərbiyəsi üçün, doğru insanlar yetişdirmək planları ilə uğraşmaqdaydıq. İndi isə bir tərəfdən müəllimlər yetişdirmək, bir tərəfdən də yetişmiş müəllimləri məktəblərin başına keçirməyə başladıq.*

*...Azərbaycanın doqquz şəhərində pedaqoji kurslar açılmışdır. Müsəlman müəllimləri yetişdirmək üçün Maarif Komissarlığı xüsusi kurslar açıb və yenə də açacaqdır»* (*bax: Azərbaycan arxivi №1, 1975*).

1920-ci ilin 16 oktyabrında Azərbaycan SSR Xalq Maarif Komissarlığı Kollegiyası Bakı və qəzalarda yeni pedaqoji kurslar açmaq haqqında qərar verdi. Qərara görə Bakı şəhərində qadın pedaqoji kursları, Sabunçu rayonunda, Şuşada, Qazaxda, Nuxada (Şəkidə), Gəncədə kişi pedaqoji kursları yaradıldı.

1920–1923-cü illərdə 2365 müəllim qısamüddətli kurslar vasitəsilə təkmilləşmə keçdi. Onlardan 179 nəfəri qadın idi *(bax: Azərbaycan Mərkəzi Statistika Xəbərləri İdarəsi. 1924-cü il, №112(8), səh.62)*.

1923-cü ildə respublikanın bir çox şəhərlərində – Şuşada, Qubada, Gəncədə, Qazaxda, Nuxada (Şəkidə), Göyçayda, Salyanda, Lənkəranda da pedaqoji kurslar fəaliyyətə başladı.

*Azərbaycan SSR Xalq Maarif Komissarlığının 6 aylıq pedaqoji kurslar haqqında məlumatı (1921-ci il noyabr)*

| № | Kursların yaradıldığı yerlər | Qrupların sayı | Kişilərin sayı | Qadınların sayı | Dinləyicilərin ümumi sayı |
|---|---|---|---|---|---|
| 1. | Bakı (illik) pedaqoji kursları | 8 | 74 | 30 | 104 |
| 2. | Bakı fars pedaqoji kursları | 2 | 70 | – | 70 |
| 3. | Bakı kişi türk pedaqoji kursları | 1 | 29 | – | 29 |
| 4. | Bakı qadın pedaqoji kursları | 1 | – | 18 | 18 |
| 5. | Bakı qadın pedaqoji kursları | 2 | – | 54 | 54 |
| 6. | Nəğmə və bədən tərbiyəsi müəllimləri hazırlayan Bakı qadın pedaqoji kursları | 1 | – | 46 | 46 |
| 7. | Volqa tatarları üçün pedaqoji kurslar | 2 | 7 | 29 | 36 |
| 8. | Bakı rus-erməni-yəhudi pedaqoji kursları | 3 | 30 | 6 | 36 |
| 9. | Şuşa pedaqoji kursları | | | | |
| 10. | Göyçay pedaqoji kursları | 1 | 42 | – | 42 |
| 11. | Tərtər pedaqoji kursları | 2 | 48 | – | 48 |
| 12. | Quba pedaqoji kursları | 1 | 43 | – | 43 |
| 13. | Nuxa (Şəki) pedaqoji kursları | 1 | 40 | – | 40 |
| 14. | Qazax pedaqoji kursları | 1 | 19 | – | 19 |
| 15. | Salyan pedaqoji kursları | 2 | 66 | – | 66 |
| 16. | Qaryagin (Füzuli) pedaqoji kursları | 2 | 50 | – | 50 |
| 17. | Gəncə pedaqoji kursları | 4 | 120 | | |
| 18. | Ağdaş pedaqoji kursları | 2 | 60 | | |
| 19. | Lənkəran pedaqoji kursları | 4 | 74 | 12 | 86 |
| 20. | Yelenendorf (indiki Göygöl) pedaqoji kursları | 1 | 20 | | |

*Bax: Azərbaycan arxivi. №1–2, 1975, səh.49–50.*

*(Вах: Очерки истории развития народного образования в Азербайджане 1920–1940 году, Баку, 1979, стр.72.)*

1924-cü ilin aprel və may aylarında pedaqoji kursların açılması ilə bağlı yeni elan verildi. Qəbul edilmiş ərizələrdən bəlli olurdu ki, əhali arasında pedaqoji təhsil almağa meyil qüvvətlidir. Bu ərizələrin birində yazılmışdı: *«Arzum budur ki, müəllimlər üçün açılmış yay pedaqoji kursunun dinləyicisi olum, xahiş edirəm ərizəmi rədd etməyəsiniz».*

Məktəblərin milli müəllim kadrları ilə təmin edilməsində yay aylarında təşkil olunan bu kursların böyük rolu oldu. Həmin dövrdə I pillə məktəblərdə işləyən müəllimlərin 90%-ni həmin kursların məzunları təşkil edirdi. Amma təəssüf ki, müəllim kadrları hazırlığında kəmiyyət dəyişikliyi keyfiyyət dəyişikliyinə keçmədi. «Yay kursları»nda təhsil alanların əksəriyyətinin səviyyəsi I pillə məktəblərin tələbinə cavab vermirdi. Kurslarda hər il eyni fənlər və mövzular təkrar olunurdu. Orada dərs deyən müəllimlərin özlərinin pedaqoji hazırlığı zəif olduğundan təhsil alanların bilik səviyyəsi yüksəlmirdi. Ona görə də ciddi ehtiyacdan yaranan bu kurslar çox keçmədi ki, öz fəaliyyətini dayandırdı.

### 4.1.1. İlk Müəllim seminariyaları və onların tədris planları

1920-ci ilin yayında Nuxada (Şəkidə) Müəllimlər seminariyası təşkil olundu. Həmin ilin noyabrında görkəmli pedaqoq Rəşid bəy Əfəndiyevin təşəbbüsü ilə bu seminariyanın qadın şöbəsi yaradıldı. 1921-ci ildə həmin şöbə ayrıca seminariyaya çevrildi.



*Nuxa (Şəki) Qızlar Seminariyasının direktoru Rəşid bəy Əfəndiyev tələbələri ilə birlikdə*



*1929-cu ildə Quba şəhərində təşkil edilmiş 3 aylıq müəllimlər kursunun müəllimləri və dinləyiciləri. 1929-cu il*

1920/21-ci tədris ilində Azərbaycanda təlim ana dilində aparılan 4 müəllim seminariyası (Bakı, Gəncə, Qazax, Nuxa (Şəki) fəaliyyət göstərirdi. Bunlar Azərbaycan tarixində tədrisin milli dildə aparıldığı ilk orta ixtisas pedaqoji təhsil müəssisələri idi.

1921-ci il oktyabrın 9-da Xalq Maarif Komissarlığının Kollegiyası ilk dəfə olaraq **«Müəllimlər Seminariyası haqqında»** Əsasnaməni təsdiq etdi. Əsasnamədə seminariyada təhsil müddətinin dörd il olması, tələbələrin təlim və tərbiyəsinin təşkili qaydaları müəyyən edildi, qəbulun demokratik prinsiplər əsasında aparılması xüsusi qeyd olundu.

Kollegiya iclasında müəllim seminariyaları üçün nizamnamə qəbul edildi. Bu nizamnamə seminariyaların qarşısında duran vəzifələri, məktəbin təlim-tərbiyə işlərini, tədris planını və digər məsələləri müəyyən etdi. Nizamnamədə dərslərin ana dilində keçirilməsi nəzərdə tutulurdu. Nizamnaməyə görə seminariyaya I pillə məktəbi bitirmiş hər iki cinsdən olan 13–15 yaşlı şəxslər qəbul edilirdi.

Seminariyaların nizamnaməsi və tədris planı təsdiq edilib yerlərə göndərildi. Bu tədris planı «nahardan əvvəl» və «nahardan sonra» adı ilə iki hissəyə bölünmüşdü.

1923-cü ildə seminariyalar yeni tədris planı ilə işləməyə başladılar. Bu tədris planı əvvəlkindən xeyli fərqlənirdi. Ən başlıcası, tədris planının «nahardan əvvəl» və «nahardan sonra» kimi iki hissəyə bölünməsi ləğv olunmuşdu. 1923-cü ilin tədris planında I və II qruplarda ümumtəhsil, III və VI qruplarda isə ixtisas fənlərinin tədrisi nəzərdə tutulmuşdu. Bu tədris planında pedaqoji təcrübəyə əvvəlki tədris planına nisbətən 6 saat az yer verilmişdi.

*Müəllim seminariyalarının həftəlik tədris planı (1921-ci il)*

| № | Tədris edilən fənlər | I | II | III | IV | Cəmi |
|---|---|---|---|---|---|---|
| | **Nahardan əvvəl** | | | | | |
| 1. | Azərbaycan dili və metodikası | 6 | 4 | 3 | 3 | **16** |
| 2. | Rus dili | 3 | 3 | 2 | 2 | **10** |
| 3. | Fizika | 3 | 3 | 2 | – | **8** |
| 4. | Botanika | 2 | – | – | – | **2** |
| 5. | Zoologiya | – | 2 | – | – | **2** |
| 6. | Kimya | 2 | – | – | – | **2** |
| 7. | Minerologiya və geologiya | – | 2 | – | – | **2** |
| 8. | Riyaziyyat və metodikası | 4 | 3 | 3 | 3 | **13** |
| 9. | Anatomiya və fiziologiya | – | – | 2 | – | **2** |
| 10. | Coğrafiya və təyinat metodikası | – | – | – | – | **1** |
| 11. | Coğrafiya | 2 | 2 | 2 | – | **6** |
| 12. | Mədəniyyət tarixi | 2 | 2 | 2 | – | **6** |
| 13. | İctimaiyyat və sovkonstruksiyası | – | – | – | – | – |
| 14. | Pedaqogika və pedaqogika tarixi | – | – | 3 | 2 | **5** |
| 15. | Didaktika | – | – | 1 | – | **1** |
| 16. | Psixologiya və məntiq | – | – | 2 | – | **2** |
| 17. | Məktəb gigiyenası və ilk yardım | – | – | – | 2 | **2** |
| 18. | Rəsm | 2 | 2 | 1 | 1 | **6** |
| 19. | Təcrübə dərsləri | – | – | – | 10 | **10** |
| | **Nahardan sonra** | | | | | |
| 20. | Botanika | 1 | – | – | – | **1** |
| 21. | Zoologiya | – | 1 | – | – | **1** |
| 22. | Anatomiya və fiziologiya | – | – | 1 | – | **1** |
| 23. | Kimya | 1 | – | – | – | **1** |
| 24. | Minerologiya və geologiya | – | 1 | – | – | **1** |
| 25. | Kənd təsərrüfatı | – | 2 | 2 | – | **4** |
| 26. | Fizika | 1 | 1 | 2 | – | **4** |
| 27. | Texnika və əl zəhməti | 2 | 2 | 4 | 4 | **12** |
| 28. | Bədən tərbiyəsi | 2 | 2 | 2 | 2 | **8** |
| 29. | Musiqi və nəğmə | 2 | 2 | 2 | 2 | **8** |
| 30. | Nümunə dərsinin təhlili | – | – | – | 6 | **6** |
| **Cəmi:** | | **35** | **34** | **36** | **37** | **143** |

*1923-cü ilin tədris planı*

| № | Tədris edilən fənlər | I | II | III | IV | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1. | Azərbaycan dili | 5 | 4 | 3 | 3 | 15 |
| 2. | Azərb. dili metodikası | – | – | 1 | 2 | 3 |
| 3. | Rus dili | 4 | 3 | 3 | 3 | 13 |
| 4. | Mədəniyyət tarixi | 2 | 2 | 2 | – | 6 |
| 5. | Mədəniyyət tarixi metodikası | – | – | – | 1 | 1 |
| 6. | Riyaziyyat | 5 | 4 | 4 | 4 | 17 |
| 7. | Hesab metodikası | – | – | – | 2 | 2 |
| 8. | Kimya | – | 2 | – | – | 2 |
| 9. | Fizika | 2 | 2 | 2 | 2 | 8 |
| 10. | Təbiət | 4 | 4 | 2 | – | 10 |
| 11. | Məktəb tərbiyəsi metodikası | – | – | 1 | 1 | 2 |
| 12. | Coğrafiya metodikası | – | – | – | 1 | 1 |
| 13. | Coğrafiya | 2 | 2 | 2 | – | 6 |
| 14. | Psixologiya | – | – | 2 | – | 2 |
| 15. | Pedaqogika | – | – | 3 | 4 | 7 |
| 16. | Təcrübə dərsləri | – | – | – | 4 | 4 |
| 17. | Kənd təsərrüfatı | 2 | 2 | 1 | 1 | 6 |
| 18. | Əl əməyi | 2 | 2 | 2 | – | 6 |
| 19. | Zəhmət prosesi metodikası | – | – | – | 1 | 1 |
| 20. | Rəsm və gil işi | 2 | 2 | 1 | 1 | 6 |
| 21. | Rəsm metodikası | – | – | – | 1 | 1 |
| 22. | Musiqi savadı | 2 | 2 | 2 | – | 6 |
| 23. | Gigiyena | – | – | – | 2 | 2 |
| 24. | İctimaiyyat | – | – | 1 | 2 | 3 |
| **Cəmi:** | | **32** | **31** | **32** | **35** | **130** |

1925-ci ildə müəllim seminariyaları üçün yeni tədris planı təsdiq edildi. Bu tədris planı 1923-cü ilin tədris planından zəif olduğu üçün o, seminariyanın işində dönüş yarada bilmədi. Tədris planında siyasiləşmə, ruslaşdırma siyasətinin həyata keçirilməsi aydın hiss olunurdu. Rus dilinin tədrisinə ayrılan vaxt 13 saatdan 20 saata, ictimaiyyat fənni üçün ayrılan vaxt isə 3 saatdan 17 saata qaldırılmışdı.

*1925-ci ilin tədris planı*

| № | Fənlərin adı | I | II | III | IV | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1. | Təbiət | | | | | |
| | a) Fizika və kimya | 2 | 5 (2f.3k) | 2 | 2 | 11 |
| | b) Biologiyanın əsasları | – | – | – | 2 | 2 |
| | c) Anatomiya və fiziologiya | – | – | 4 | – | 4 |
| | ç) Botanika və zoologiya | 3 | 2 | – | – | 5 |
| 2. | Pedaqoji | | | | | |
| | a) Əmək məktəbinin nəzəriyyə və təc. | – | – | 2 | 2 | 4 |
| | b) Pedaqoji psixologiya | – | – | 2 | – | 2 |
| | c) Pedaqoji praktika | – | – | – | 2 | 2 |
| 3. | İctimaiyyat | 4 | 4 | 5 | 4 | 17 |
| 4. | Kooperasiya | – | – | – | 1 | 1 |
| 5. | Ümumi fənlər | | | | | |
| | a) Riyaziyyat | 4 | 4 | 4 | 4 | 16 |
| | b) Gigiyena | – | – | – | 2 | 2 |
| | c) Ana dili | 5 | 5 | 4 | 4 | 18 |
| | ç) Əmək texnikası | 2 | 2 | – | – | 4 |
| | d) Rus dili | 5 | 5 | 5 | 5 | 20 |
| | e) Coğrafiya | 3 | 2 | – | – | 5 |
| | q) Rəsm və gil işi | 2 | 2 | 2 | 1 | 7 |
| **Cəmi:** | | **30** | **31** | **30** | **29** | **120** |

*1924/25-ci tədris ilində Azərbaycanda fəaliyyət göstərən pedaqoji yönümlü orta ixtisas təhsili müəssisələri (seminariyalar)*

| № | Seminariyalar | Müəllimlərin sayı | Tələbələrin sayı |
|---|---|---|---|
| 1. | Bakı kişi müəllimlər seminariyası | 22 | 232 |
| 2. | Bakı qadın müəllimlər seminariyası | 29 | 200 |
| 3. | Nuxa (Şəki) kişi müəllimlər seminariyası | 16 | 308 |
| 4. | Nuxa (Şəki) qadın müəllimlər seminariyası | 14 | 113 |
| 5. | Gəncə kişi müəllimlər seminariyası | 15 | 180 |
| 6. | Quba qadın müəllimlər seminariyası | 5 | 42 |
| 7. | Lənkəran kişi müəllimlər seminariyası | 7 | 40 |
| 8. | Zaqatala qadın müəllimlər seminariyası | 5 | 7 |
| 9. | Qazax kişi müəllimlər seminariyası | 13 | 194 |
| 10. | Ordubad kişi müəllimlər seminariyası | 8 | 91 |
| 11. | Naxçıvan kişi müəllimlər seminariyası | 8 | 68 |
| 12. | Naxçıvan qadın müəllimlər seminariyası | 9 | 40 |
| 13. | Şuşa kişi müəllimlər seminariyası | 10 | 189 |
| **Cəmi:** | | **161** | **1704** |

1926-cı ildə müəllim seminariyaları fəaliyyətini tamamilə yeni tədris planı əsasında davam etdirdi. Bu tədris planı əvvəlkilərə nisbətən daha mütərəqqi idi. Ona görə də pedaqoji kadr hazırlığında mühüm rol oynadı.

1921-ci ildə Qazax Müəllimlər Seminariyasının ilk buraxılışı oldu. Seminariyanı 17 nəfər bitirdi. Qazax seminariyasının ardınca Gəncə, Bakı, Şuşa, Nuxa (Şəki) seminariyalarının da (1925/26-cı tədris ilindən seminariyalar pedaqoji texnikum adlandırıldı) buraxılışı oldu.

### 4.1.2. Seminariyalara qəbul qaydaları. Seminariyaların texnikumlara çevrilməsi

1923-cü ildə Azərbaycanda fəaliyyət göstərən seminariyalar haqqında yeni Əsasnamə qəbul olundu. Yeni Əsasnamə qüvvəyə mindikdən sonra Qubada, Lənkəranda və Zaqatalada da müəllim seminariyaları yaradıldı.

1923/24-cü tədris ilində Gəncədə digər bir orta ixtisas təhsili müəssisəsi – Gəncə Türk (Azərbaycan) Pedaqoji Məktəbi təşkil edildi.

1924-cü ildə Azərbaycanda artıq 13 seminariya fəaliyyət göstərirdi. Bunlardan 8-i kişi, 5-i qadın seminariyaları idi. Bu tədris müəssisələrində 1704 nəfər tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 161 müəllim məşğul olurdu. Həmin il darülmüəlliminlərə və darülmüəllimatlara (kişi və qadın seminariyalarına) qəbulun yeni qaydaları təsdiq edildi.

## Azərbaycanda kişi və qadın seminariyalarına qəbul qaydaları

Azərbaycan **darülmüəllimin** (kişi seminariyaları - *M.M.*) və **darülmüəllimatlarına** (qadın seminariyaları - *M.M.*) tələbə qəbul etmək üçün Bakıda Baş İctimai Tərbiyə İdarəsi nəzdində və qəzalarda xüsusi qəbul komissiyası təşkil olunur. Darülmüəlliminlərə və darülmüəllimatlara daxil olmaq istəyənlər bu komissiyaya ərizə verməlidirlər.

**I**

Yaşları 13-dən az və 16-dan artıq olmayan və gələcəkdə müəllimlik vəzifəsi daşımaq istəyən şəxslər darülmüəllimin və darülmüəllimatlara qəbul edilirlər.

**II**

I pillə məktəbləri bitirənlər darülmüəllimin və darülmüəllimatlara qəbul edilirlər.

**Qeyd:** *I pillə məktəblərdən məzun olanların məlumatları səthi yoxlanılacaq və onlar ancaq bundan sonra qəbul ediləcəklər. Kənardan xahiş edənlər isə tərtib olunmuş proqram daxilində imtahan verməlidirlər.*

**III**

Darülmüəlliminlərə və darülmüəllimatlara gündəlik tələbələr də qəbul olunurlar (yəni oxumaları darülmüəllimin və darülmüəllimatda olub, evlərində yaşamaq istəyən tələbələr).

**IV**

Darülmüəlliminlərə və darülmüəllimatlara qəbul üçün ərizələr aşağıda göstərilən materiallarla bərabər, avqust ayının 15-nə qədər mərkəzi qəbul komissiyasına göndərilməlidir.

**Qeyd:** *Avqustun 15-dən sentyabrın 1-nə qədər yoxlama davam edir, sentyabrın 10-dək komissiya işini bitirir.*

1. Qəzalarda isə ərizələr avqust ayının 1-nə qədər qəbul edilir. Qəbul komissiyaları qəbul etdikləri hər namizəd haqqında müfəssəl məlumat verməklə bərabər, onların siyahılarını sentyabr ayının 1-nə qədər mərkəzi komissiyaya göndərirlər.

**V**

Mərkəzi qəbul komissiyasında bu adamlar iştirak edirlər:

- Xalq Maarif komissarının müavini (sədr)
- Baş İctimai Tərbiyə İdarəsinin nümayəndəsi
- Maarif İşçiləri İttifaqının nümayəndəsi
- Mərkəzi Gənclər İttifaqının nümayəndəsi

**Qeyd:** ***Darülmüəllimata*** *tələbə qəbul edilən zaman qadınlar şöbəsinin nümayəndəsi də qəbul komissiyasında iştirak edir.*

VI

Ərizə ilə bərabər veriləcək vəsiqələr bunlardır:
- təsisnamə və yaxud təvəllüdnamə
- təhsilini bitirməsi barədə məzun olduğu məktəb tərəfindən verilən vəsiqə
- ictimai vəziyyətinə aid vəsiqə
- sağlam bədənli olması barədə arayış
- ezam vəsiqəsi (hamıya aiddir)

**Qeyd:** *Ezam vəsiqəsinin əldə edilməsi tələbənin hökmən və qəti surətdə qəbul edilməsinə sübut olmayacaqdır.*

VII

Qəzalarda qəbul komissiyası bu adamlardan ibarət olacaqdır:
- Darülmüəllimin müdiri (sədr)
- Qəza maarif və şöbə müdiri
- Qəza firqə komitəsinin nümayəndəsi
- Qəza gənclər ittifaqı şöbəsinin nümayəndəsi

**Qeyd:** ***Darülmüəllimata*** *tələbə qəbul edilən zaman qəza qadınlar şöbəsi nümayəndələri də qəbul komissiyasında iştirak edir.*

VIII

Qəbul edilmək üçün ərizə **verənlər namizədliyə** bu cür təyin ediləcəklər:
- Firqəvilər, füqəra və əmələ (fəhlə–*M.M.*) sinfinə mənsub olanlar ilə zəhmətkeş kəndlilər şöbəsinə mütləq olanlar
- Beş sənədən az müəllimlik etməyənlərin övladları
- Firqə təşkilatlarının namizədləri
- Həmkarlar ittifaqı tərəfindən göndərilənlər
- Zəhmətkeş ziyalılar ailəsinə mənsub olanlar

IX

Adları aşağıda zikr olan təşkilatlar darülmüəllimin və darülmüəllimatlara namizəd göndərə bilərlər:
- Azərbaycan kommunist firqəsi: qəzalarda isə qəza firqə komitəsi
- Gənclər ittifaqının mərkəzi komitəsi: qəzalarda qəza komitəsi
- Azərbaycan həmkarlar ittifaqı şurası
- Qəza maarif şöbəsi

X

Tələbələr sırasına qəbul və daxil edilmiş şəxslər müəyyən vaxtda dərslərinə davam etmədikləri surətdə bunlar namizədlik siyahısı vərəqəsindən tamamilə çıxarılacaq və boş yerlər isə sonuncu namizədlərə veriləcək.

*Xalq Maarif Komissarlığının*
*Baş İctimai Tərbiyə İdarəsi müdiri*




*Bakı Türk Pedaqoji Texnikumunun ilk buraxılışı. 1925-ci il*

1925/26-cı tədris ilində seminariyaların sayı 16-ya, tələbələrin sayı isə 1998-ə çatdı. Həmin illərdə ibtidai siniflər üçün müəllim hazırlığı prioritet məsələlərdən sayılırdı. Bu, onunla bağlı idi ki, qısa bir müddətdə respublikada 350 ümumtəhsil məktəbi açılmışdı. Onlardan 192-si ibtidai məktəb idi. Bu məktəblərdə 24487 şagird təhsil alırdı. Həmin məktəblər üçün müəllim kadrları hazırlamaq lazım idi.

**1925-ci il martın 23-də Azərbaycan SSR Xalq Maarifi Komissarlığının qərarı ilə «Texnikumlar haqqında» Əsasnamə təsdiq edildi.**

1925/26-cı tədris ilində seminariyaların bazasında dördillik pedaqoji texnikumlar (6 kişi və 5 qadın) yaradıldı.

1926/27-ci tədris ilində respublika ərazisindəki qız seminariyaları ilə oğlan seminariyaları birləşdirildi, qapalılıq aradan qaldırıldı. Pansionatda yaşayan qızlara şəhərə çıxmaq, bayram və tətillərdə evlərinə getmək ixtiyarı verildi. Qaydalar yüngülləşdirildiyindən oxumaq istəyən qızların sayı gündən-günə artmağa başladı.

Oğlan və qız seminariyalarının birləşdirilməsi nəticəsində 1927/28-ci tədris ilində texnikumların sayı azaldı. Bu azalma tələbə kontingentinə ciddi təsir göstərmədi. Əksinə, tələbə qəbulu artırıldı. Əgər 1926/27-ci tədris ilində texnikumlarda təhsil alan tələbələrin sayı 2260 nəfər idisə, 1927/28-ci tədris ilində onların

sayı 2373 nəfər oldu. Bunun 1645 nəfəri oğlanlar, 728 nəfəri qızlar idi.

20-ci illərin II yarısında ümumtəhsil məktəbləri şəbəkəsinin dinamik inkişafı onların ali və orta ixtisas təhsilli müəllimlərlə təminatında qarşıya yeni vəzifələr qoydu. Müvafiq təhsili olmayan şəxslərin müəllimlik fəaliyyətinə cəlb olunmasında çətinliklər yarandı. Digər tərəfdən, məktəblərdə müəllim çatışmazlığını da aradan qaldırmaq lazım idi. Ona görə də müəllimlərin təhsillərini davam etdirmələri üçün müəyyən tədbirlər görüldü. Onların istehsalatdan ayrılmadan pedaqoji təhsil almasına imkan yaratmaq məqsədilə Xalq Maarif Komissarlığı 1927-ci ildə *«Evdə Pedaqoji Texnikum»* adı altında Qiyabi Pedaqoji Texnikum təşkil etdi. Bu texnikumda 4 mindən artıq şəxs (respublikanın ən ucqar rayonlarının nümayəndələri də daxil olmaqla) təhsil alırdı. Onlardan 2175 nəfəri orta ixtisas təhsilini müvəffəqiyyətlə başa vurdu.

20-ci illərin sonu, 30-cu illərin əvvəllərində ümumi icbari ibtidai təhsilə keçid sahəsində qazanılmış uğurlar orta ixtisas təhsilli pedaqoji kadrlara ehtiyacı artırdı. Lakin pedaqoji texnikumlar bu tələbatın yalnız 30%-ni ödəyə bilirdi. Bu məsələyə ÜİK(b)P MK-nın 8 mart 1929-cu il tarixli «**Ali pedaqoji məktəblərdə və pedaqoji texnikumlarda müəllimlərin hazırlanması və yenidən hazırlanması haqqında**» qərarında da toxunulmuş, müəllimlərin sayının artırılması ilə bağlı təcili tədbirlərin görülməsi vurğulanmışdı.

Qərarın icrası ilə bağlı görülən tədbirlər nəticəsində müəllimlərin sayı əhəmiyyətli dərəcədə artdı. 1921–1928-ci illərdə Mirzə Ələkbər Sabir adına Bakı Pedaqoji Texnikumunda 358, Qazax Pedaqoji Texnikumunda 219, Klara Setkin adına Gəncə Pedaqoji Texnikumunda 127 nəfər orta pedaqoji təhsil almışdı.

*1920–1928-ci illərdə Azərbaycanda fəaliyyət göstərən pedaqoji texnikumların və orada təhsil alan tələbələrin sayı*

| Tədris illəri | Təhsil müəssisələrinin sayı | Tələbələrin sayı | O cümlədən qadınların sayı |
|---|---|---|---|
| 1920/21 | 4 | 1069 | 80 |
| 1921/22 | 9 | 717 | 195 |
| 1922/23 | 10 | 952 | 219 |
| 1923/24 | 10 | 2285 | 313 |
| 1924/25 | 13 | 1789 | 487 |
| 1925/26 | 16 | 1998 | 527 |
| 1926/27 | 15 | 2260 | 737 |
| 1927/28 | 11 | 2373 | 728 |

Keyfiyyətli kadr hazırlığında qəbul imtahanlarının mühüm rolunu nəzərə alan Xalq Maarif Komissarlığı Kollegiyası 13 aprel 1929-cu il tarixli qərarı ilə qəbul qaydalarında dəyişikliklər apardı. Təsdiq edilən «**1929/30-cu tədris ilində Azərbaycan SSR-in texnikumlarına qəbul qaydaları**»nda deyilirdi: *«Texnikumlara, birinci növbədə, yeddiillik məktəb həcmində ümumi təhsilə malik olan, yaşı 16-dan az və 25-dən çox olmayan şəxslər qəbul edilirlər. Ərizə vermiş abituriyentlər riyaziyyat, fizika, ictimaiyyat, rus dili və türk (Azərbaycan) dili fənləri üzrə sınaqdan keçirilirlər».*

Regionları orta ixtisas təhsilli kadrlarla təmin etmək məqsədilə 1929/30-cu tədris ilində




*Bakı Türk Pedaqoji Texnikumunun 1927-ci il buraxılışı*




*Bakı Türk Pedaqoji Texnikumunun 1928-ci il buraxılışı*

26 texnikum üçün nəzərdə tutulan 1305 nəfərlik qəbulda qəza və dairələrdən (rayonlardan – *M.M.*) gələn şəxslərə 885 yer ayrıldı.

20-ci illər Azərbaycanda orta ixtisas təhsilinin təşəkkülü kimi səciyyəvidir. Təbii ki, hər işdə olduğu kimi, ilk vaxtlar bu sahədə də müəyyən çətinliklər və nöqsanlar var idi. Bir sıra orta ixtisas təhsili müəssisələrinin nizamnaməsi, proqramları, stabil tədris planları, dərslikləri yox idi. Müəllim kadrları, Azərbaycan dilində tədris vəsaitləri çatışmırdı. Orta ixtisas təhsili müəssisələrinin fəaliyyətində yol verilən bu nöqsanları aradan qaldırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirildi. Tədris müddəti azaldıldı. Texnikumların idarə olunmasının optimallaşdırılması, paralelçiliyin aradan qaldırılması, yeni ixtisaslar üzrə kadr hazırlığı ilə bağlı bir sıra tədbirlər görüldü.

Azərbaycan Xalq Maarif Komissarlığı Kollegiyasının 29 dekabr 1930-cu il tarixli qərarı ilə Ağdam, Göyçay, Füzuli, Xankəndi, Salyan və Ordubadda II pillə və kəndli gənclər məktəblərinin bazalarında pedaqoji texnikumlar təşkil edildi. 1931/32-ci tədris ilində isə Bərdədə, Cəlilabadda, Şamaxıda, Laçında, Sabirabadda pedaqoji texnikumlar fəaliyyətə başladı.

1928–1933-cü illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində 8182 nəfər kadr hazırlanmışdı. Orta hesabla hər il 1636 nəfər buraxılış olmuşdu. Məzunların sayı ildən-ilə çoxalırdı. Amma yerlərdə ibtidai sinif müəllimlərinə olan tələbat ondan da sürətlə artırdı. Digər tərəfdən ümumtəhsil məktəblərinin tədris planlarında rus dilinin tədrisinə ayrılan saatlar artırıldığı üçün rus dili müəllimlərinə böyük ehtiyac yaranmışdı.

*1928–1933-cü illərdə Azərbaycanda fəaliyyət göstərən pedaqoji texnikumlarda qəbul və buraxılış*

| № | Tədris müəssisələrinin adı | 1928/29 | | 1929/30 | | 1930/31 | | 1931/32 | | 1932/33 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Qəbul | Buraxılış | Qəbul | Buraxılış | Qəbul | Buraxılış | Qəbul | Buraxılış | Qəbul | Buraxılış |
| 1. | Bakı pedaqoji texnikumu | 155 | 118 | 179 | 257 | 148 | 261 | 170 | 110 | 127 | 120 |
| 2. | Bakı Xalq Maarif Şöbəsi yanında Texnikum | – | 54 | – | 65 | – | – | 90 | – | 90 | – |
| 3. | Nuxa pedaqoji texnikumu | 70 | 73 | 70 | 60 | 60 | 91 | 60 | 62 | 60 | 61 |
| 4. | Şuşa pedaqoji texnikumu | 60 | 48 | 90 | 52 | 60 | 40 | 150 | 46 | 120 | – |
| 5. | Gəncə pedaqoji texnikumu | 150 | 93 | 146 | 103 | 139 | 122 | 98 | 44 | 165 | 145 |
| 6. | Zaqatala pedaqoji texnikumu | 70 | 7 | 70 | 20 | 60 | 29 | 60 | 20 | 30 | 22 |
| 7. | Quba pedaqoji texnikumu | 48 | – | 52 | 22 | 61 | 57 | 110 | 28 | 92 | – |
| 8. | Göyçay pedaqoji texnikumu | – | – | 34 | – | 36 | – | 30 | 17 | 30 | 15 |
| 9. | Ağdam pedaqoji texnikumu | – | – | – | – | 90 | – | 120 | – | 150 | – |
| | **Yekun:** | **553** | **393** | **641** | **579** | **654** | **600** | **888** | **327** | **864** | **363** |
| | **O cümlədən:** ***oğlanlar*** | **371** | **325** | **415** | **390** | **360** | **369** | **636** | **247** | **668** | **305** |
| | ***qızlar*** | **182** | **68** | **226** | **189** | **294** | **231** | **252** | **80** | **196** | **58** |

*1930–1935-ci illərdə respublikanın pedaqoji texnikumlarında tələbələrin artım dinamikası*

| İllər | Pedaqoji texnikumların sayı | Tələbələrin sayı | O cümlədən qadınlar |
|---|---|---|---|
| 1930/31 | 13 | 4453 | 1173 |
| 1931/32 | 15 | 5095 | 1232 |
| 1932/33 | 23 | 5375 | 1249 |
| 1933/34 | 21 | 4798 | 1046 |
| 1934/35 | 20 | 5854 | 1245 |

*1935–1940-cı illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində pedaqoji kadr hazırlığı*

| İllər | İlin əvvəlində tələbə kontingenti | Texnikumu bitirə bilməyənlər | Qəbul | Buraxılış |
|---|---|---|---|---|
| 1935 | 5964 | 501 | 3600 | 1070 |
| 1936 | 7993 | 439 | 3000 | 1243 |
| 1937 | 9311 | 450 | 2500 | 2088 |
| 1938 | 9272 | 466 | 2500 | 2928 |
| 1939 | 8378 | 614 | 2500 | 2701 |
| 1940 | 7761 | 385 | 2500 | 2420 |

1940-cı il yanvarın 1-nə olan məlumata görə, respublikanın ümumtəhsil məktəblərində 19897 müəllim işləyirdi. Bu müəllimlərin 11253 nəfəri orta pedaqoji təhsilli idi.

Ümumtəhsil məktəbləri kimi, məktəbəqədər təhsil müəssisələrinin də tərbiyəçi müəllimlərə böyük ehtiyacı vardı. 1928/29-cu tədris ilində Bakı Xalq Təhsili Şöbəsi yanında Bakı Pedaqoji Texnikumunda məktəbəqədər tərbiyə müəssisələri üçün cəmi 27 nəfər mütəxəssis hazırlanmışdı. Halbuki həmin ildə müvafiq müəssisələrdə 270 nəfər müəllim-tərbiyəçiyə tələbat var idi. Respublika Xalq Maarif Komissarlığının gördüyü tədbirlər nəticəsində 1930/31-ci tədris ilindən başlayaraq, məktəbəqədər təhsil müəssisələri üçün müəllim hazırlığına diqqət artırıldı. Həmin tədris ilində 70, 1931/32-ci tədris ilində 170, 1932/33-cü tədris ilində 230 mütəxəssis hazırlandı. Qısa bir müddətdə 2035 nəfər tərbiyəçi-müəllim hazırlanması planlaşdırıldı. Bunu nəzərə alaraq, pedaqoji texnikumlarda məktəbəqədər tərbiyə şöbələrinin yaradılması məqsədəuyğun hesab edildi. Müvafiq müəssisələr üçün mütəxəssis buraxılışını artırmaq məqsədilə Bakı, Kirovabad (Gəncə), Ağdam və Nuxa (Şəki) Pedaqoji məktəblərinin tələbə kontingenti artırılaraq 512 nəfərə çatdırıldı. 1941-ci ilin əvvəllərində məktəbəqədər tərbiyə müəssisələrində 2600 tərbiyəçi işləyirdi ki, bunların da əksəriyyətinin orta ixtisas təhsili var idi.

### 4.1.3. Qazax Müəllimlər Seminariyası

Azərbaycanın təhsil tarixində Qazax seminariyasının müstəsna yeri vardır. Bu təhsil ocağı ölkəmizdə fəaliyyətə başlayan ilk orta ixtisas təhsili müəssisəsidir. Bütün Qafqazı müəllim kadrları ilə təmin etmək kimi tarixi missiya

daşıyan Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi əsasında 1918-ci ildə Qazaxda təşkil olunmuş bu təhsil müəssisəsi xalqımızın mədəni həyatında böyük rol oynamışdır.

Sovet hakimiyyəti illərində Azərbaycanda açılan seminariyaların bir çoxu 5–10 il fəaliyyət göstərdikdən sonra bağlandı. Qazax seminariyası isə Qoridən gətirdiyi ənənəsini, varlığını və müstəqilliyini qoruyub saxlaya bildi. Burada işləyənlərin əksəriyyəti Qori Müəllimlər Seminariyasının məzunları idilər. Onlar oxuduqları məktəbin ənənəsini davam etdirərək, sözün həqiqi mənasında, maarif, ədəbiyyat, elm və mədəniyyət ocağı olan bir təhsil müəssisəsi yaratmağa müvəffəq oldular. Bu seminariyanın təməli üzərində neçə-neçə təhsil ocağı yaranıb inkişaf etdi. Ulu öndər Heydər Əliyev Qazax seminariyası haqqında danışarkən onun maarif tariximizdəki rolunu çox gözəl müəyyənləşdirmişdir: ***«Bu təhsil məbədi özündən sonra böyük mədəni irs qoymaqla adını Azərbaycan maarifi tarixinə əbədi həkk etmişdir».*** Bütün bunları nəzərə alıb, Qazax Müəllimlər Seminariyası və onun direktorları barədə xüsusi məlumat verməyi vacib hesab edirəm.

**1920-ci ildə Qazax seminariyası nəzdində qızlar üçün şöbə fəaliyyətə başladı.** 20-ci illərin əvvəllərində savadsızlığa qarşı mübarizə hərəkatı geniş vüsət almışdı. Təhsilə cəlb olunan qadınların sayı günbəgün artırdı. Hələ keçən əsrin lap əvvəllərində ali təhsil ardınca xarici ölkələrə belə gedən azərbaycanlı qadınlar vardı və belə açıqfikirli qadınlarımız haqqında birinci kitabda geniş söhbət açmışıq. O zaman qızlarının yüksək səviyyədə təhsil alması qayğısına qalan tək-tək maarifpərvər adamlar bütün maneələri qırıb qızlarını oxudurdular. Burada isə söhbət qadınların kütləvi şəkildə ixtisas təhsili almasından gedirdi. Azərbaycanın qabaqcıl şəxsiyyətləri burada da nümunə oldular. Seminariyaya ilk növbədə onların qohumları olan qızlar cəlb edildi. Xalq maarifimizin görkəmli nümayəndəsi Əhməd ağa Mustafayevin qohumları *Dilrubə xanım Mustafayeva, Dürrə xanım Mustafayeva, Dilşad xanım Şıxlinskaya, Validə xanım Mustafayeva, Səlimə xanım Əfəndiyeva, Həbibə xanım Mustafayeva və Kövsər xanım Qayıbova* seminariyada qızlar üçün açılmış şöbənin ilk tələbələri oldular. Qızların təhsil aldığı şöbə qapalı idi. Yəni qızlar məktəb binasında yaşayır, orada oxuyur və dərslərinə hazırlaşırdılar. Tərbiyəçi müəllimlər də qadınlar idi. Onlar qızlarla bir yerdə qalır, onların yeməyinə, dərslərinə və otaqlarının səliqə-sahmanına nəzarət edirdilər.

Seminariya 1921-ci ilə kimi Qori seminariyasının nizamnaməsi və Azərbaycan şöbəsinin tədris planı əsasında işlədi. 1921-ci ildə müəllim seminariyaları üçün əsasnamə, nizamnamə və tədris planı təsdiq edildikdən sonra Qazax seminariyası da işini yeni qaydalara uyğun qurdu.

30-cu illərin əvvəllərində pedaqoji texnikumlarda hansı dərsliklərdən istifadə edilməsi məsələsi də problem idi. Bu problemi qismən aradan qaldırmaq üçün Qazax Pedaqoji Texnikumunun müəllim kollektivi müvafiq proqramlar əsasında dərs vəsaitləri hazırlayaraq ondan istifadə edirdilər.

ÜİK(b)P MK-nın 12 fevral 1933-cü ildə dərsliklərlə bağlı qəbul etdiyi qərar pedaqoji texnikumlarda fənlər üzrə stabil dərs kitablarının yazılması işini sürətləndirdi.



*Qazax seminariyasının müəllimləri. Birinci cərgədə soldan: Əli Hüseynov (xalq yazıçısı Mehdi Hüseynin atası), arxada soldan birinci: Əhməd ağa Mustafayev, Mirzə Mehdi Vəlizadə və başqaları*



*Qazax seminariyasının məzunları. Soldan: Səməd Vəkilov və Möhsün Poladov. 1920-ci il*



*Qazax seminariyasının müəllim və tələbələrindən bir qrupu. 1925-ci il*



*Qazax seminariyasında oxuyan ilk qızlar*



*Qazax seminariyasının orkestri*

Qısa bir müddət ərzində Xalq Maarif Komissarlığı tarix, ədəbiyyat, riyaziyyat, fizika, biologiya, botanika, anatomiya, fiziologiya, qeyri-üzvi kimya fənləri üzrə dərsliklər nəşr etdirdi. Pedaqoji seminariyalar üçün vacib olan bir sıra dərsliklər rus dilindən tərcümə edildi.

Qazax seminariyasında öz ixtisasını yaxşı bilən və geniş dünyagörüşünə malik müəllimlər hazırlamaq məqsədilə mütəmadi olaraq sinifdənxaric dərnəklər təşkil olunur, müxtəlif fənlər üzrə məşğələlər keçirilir, müxtəlif mövzularda məruzələr dinlənilirdi.

1918–1935-ci illərə qədər seminariyanın 12 buraxılışı olmuş, buranı 658 müəllim bitirmişdir. Onlardan 592-si oğlan, 66 nəfəri isə qız idi. 1935-ci ilə kimi məktəbdə 21 müəllim işləmişdir. Bu müəllimlərdən 16 nəfəri ali, 5 nəfəri isə orta təhsilli olmuşdur. 1934/35-ci tədris ilindən 1956/57-ci tədris ilinə kimi Qazax Pedaqoji Məktəbində (sonralar bu tədris ocağı belə adlandırıldı) 3000-ə yaxın müəllim hazırlanmışdır. Qazax Müəllimlər Seminariyasının inkişafında onun direktorları olmuş *Firidun bəy Köçərlinin, Əhməd ağa Mustafayevin, Əli Hüseynovun, Əhməd Qurbanovun, Mirqasım Əfəndiyevin, Əli Yaqubovun, Əli Əliyevin, Məcid Tağıyevin, Əhməd Cəlilovun* mühüm xidmətləri vardır.

***Qazax seminariyasının direktorları***

Qazax seminariyasının ilk direktoru **Firidun bəy Köçərli** 1918-ci ildə Qori seminariyasının Azərbaycan şöbəsini Qazağa köçürtmüş və onu Qori seminariyası səviyyəsinə qədər yüksəldə bilmişdir. Firidun bəy Köçərli Azərbaycan xalqının nadir şəxsiyyətlərindən idi. O, müəllim olmaqla yanaşı, ədib-tərcüməçi, yazıçı kimi də Azərbaycan tarixində iz qoymuşdur. A.S.Puşkindən, M.Y.Lermontovdan, L.N.Tolstoydan tərcümələr etmiş, «Azərbaycan ədəbiyyatı» tarixi kitabını yazmış, «Balalara hədiyyə» dərs vəsaitini tərtib etmiş, eləcə də dövri mətbuatda onlarca pedaqoji məqalə ilə çıxış etmişdir. Ancaq çox təəssüf ki, Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Xalq Cümhuriyyətində böyük nüfuz sahibi olan bir çox şəxsiyyətlər kimi, Firidun bəy Köçərli də ağır məhrumiyyətlərə məruz qaldı. 1920-ci il mayın 10-da onu müsavatçı kimi həbs edib Gəncə həbsxanasına apardılar. Heç bir ittiham irəli sürmədən iki həftə həbsxanada saxladılar. Bolşevik məmurları bu iki həftə ərzində Firidun bəy Köçərliyə qara yaxan yalançı arayışlar, donoslar, təqdimatlar hazırladılar.

1923-cü il mayın 23-də Qazax İnqilab Komitəsi Gəncənin Fövqəladə komissarına göndərdiyi təqdimatda yazırdı: *«İnqilab Komitəsi bildirir ki, «Müsavat» partiyası Qazax şöbəsinin sədri Firidun bəy Köçərlinski, vergi müfəttişi Paşa bəy Vəkilov, mülkədar Nadir bəy Dağkəsəmənski və pristav Məcid bəy Vəkilov Qazax qəzasında əks-inqilabçılar və Sovet hakimiyyətini istəməyən şəxslərdir. Çevrilişə qədər (inqilaba qədər – M.M.) geniş imkanları və hakimiyyətləri olan bu şəxslər özlərinin şəxsi burjua məfkurələri naminə hər növ əclaf addımlar atmış və xalqı hər cür üsullarla aldatmışlar...*

*...Firidun bəy Qazağın o vaxtkı general-qubernatoru Əmir xan Xoyskinin möhkəm havadarlığına arxalanaraq özünün Qazax Müəllimlər Seminariyasının tərbiyəçisi kimi müqəddəs*

*vəzifəsini unutmuş, qəza boyu agentlərini yaymış, onların köməyi ilə əhalinin pullarını qarət etmiş, Qazax əhalisini ermənilərə qarşı qaldırmış, pul və qarşıdurmalar vasitəsilə «Müsavat» partiyasının devrilmiş hakimiyyətini möhkəmləndirməyə səy etmişdir. Həmin alçaq fəaliyyətlərinin nəticəsi olaraq, bu il aprelin əvvəlindəki, hamıya məlum olan erməni–azərbaycanlı toqquşmaları baş vermiş, nəticədə 8 azərbaycanlı kəndi müflis olmuş, yuxarıda göstərildiyi kimi, indi onlar İnqilab Komitəsi pəncərələri qarşısında kütləvi halda toplaşaraq, çörək və başqa maddi yardımlar istəyirlər. Eyni zamanda onlar qisas tələb edir, adları çəkilən şəxslərin əhaliyə qarşı törətdikləri həyasız alçaqlıqlara görə ən ciddi şəkildə cəzalandırılmalarını istəyirlər».* Bu əsli olmayan saxta təqdimat əsasında bolşeviklər Azərbaycan xalqına qarşı bağışlanmaz bir cinayət etdilər – Firidun bəy Köçərli Azərbaycan xalqına etdiyi təmənnasız yaxşılıqlara, gənclərin tərbiyəçisi, müəllimlərin müəllimi olmasına rəğmən güllələndi.

* * *

**Əhməd ağa Mustafayev** Azərbaycan məktəbi tarixində maraqlı iz qoymuşdur. Qazaxdan Qori seminariyasına oxumağa gedənlərin əksəriyyətini təhsilə Əhməd ağa Mustafayev cəlb etmiş və qəbul üçün hazırlamışdır. O, təkcə Salahlı kəndindən Qori seminariyasına 28 tələbə göndərmişdi. Onun tələbələrindən İsfəndiyar Vəkilov yazırdı ki, mənimlə bərabər, Əhməd ağa Məmməd Qarayevi, Səlim Əfəndiyevi, Məmməd Qocayevi də Qoriyə oxumağa apardı. Professor Əhməd Seyidov isə müəllimi Əhməd ağanı humanist insan, mehriban, namuslu, mərd ata, insanpərvər, xalqını sevən, öz peşəsinə dərin hörmət bəsləyən bir pedaqoq kimi səciyyələndirmişdir.

1920-ci ildə Firidun bəy Köçərli erməni quldurları tərəfindən güllələndikdən sonra Əhməd ağa Mustafayev Qazax seminariyasının müdiri oldu. O, direktor olduğu müddətdə Firidun bəy Köçərli ənənələrinə həmişə sadiq qaldı.

* * *



Əli Hüseynov
(1886–1940)

**Əli Hüseynov** Qazax qəzasının İkinci Şıxlı kəndində anadan olmuşdur. O, ilk təhsilini öz kəndlərində Qori seminariyasının məzunu İsa Abakarovdan almış və elə onun məsləhəti ilə də Qori seminariyasına daxil olmuşdur. Seminariyanı bitirib Ermənistanın Amasiya kəndində müəllimlik fəaliyyətinə başlamışdır. Amasiya kəndində işlədiyi vaxt Əli Hüseynov dərsləri ana dilində keçdiyi üçün dövlət qanununu pozmaqda təqsirləndirilib işdən kənar edilmiş, müəllimlik fəaliyyətini Kutaisi quberniyasının Abaşi, Şəki qəzasının Padar kəndlərində davam etdirmişdir. Sonralar o, Bakıya köçmüş, «Nicat» cəmiyyətinə daxil olmuşdur.

1918-ci ildə Firidun bəy Köçərli Əli Hüseynovu Qazax seminariyasına dəvət etmişdir. Əli Hüseynov burada müəllimlik etməklə yanaşı, həm də icra komitəsində işləmiş, 1923-cü ildə Qazax seminariyasına direktor vəzifəsinə təyin olunmuşdur.



Əhməd Qurbanov

* * *

**Əhməd Qurbanov** Qazax rayonunun İkinci Şıxlı kəndində anadan olmuşdur. Qazax Pedaqoji Texnikumunu bitirdikdən sonra əvvəlcə müəllim, sonra isə (1930–1931-ci illərdə) Qazax Pedaqoji Texnikumunun müdiri vəzifəsində çalışmışdır. Əhməd müəllim savadlı və bacarıqlı təşkilatçı kimi Moskvaya Ümumittifaq Həmkarlar Təşkilatının Qurultayına nümayəndə göndərilmişdi. Sonralar Bakıya köçmüş, əvvəlcə Həmkarlar təşkilatında, sonra Ali Sovetin Rəyasət Heyətində işləmiş, 1938-ci ildə Daxili İşlər Xalq Komissarlığında arxiv şöbəsinin müdiri olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir. 1941–1942-ci illərdə Mərdəkan Milis Məktəbində şöbə müdiri vəzifəsində çalışmışdır. 1942-ci ildə hərbi xidmətə çağırılmış və cəbhədə həlak olmuşdur.

* * *

**Mirqasım Əfəndiyev** Qazax qəzasının Birinci Şıxlı kəndində anadan olmuşdur. Atası Hacı Ömər mütərəqqi din xadimi olduğundan, oğlu Mirqasıma həm dünyəvi, həm də dini təhsil vermişdi. Mirqasım müəllim Qazax Müəllimlər Seminariyasında Səməd Vurğun, Mehdixan Vəkilov, Mirəli Mirəliyevlə birgə təhsil almışdır. Seminariyanı qurtardıqdan sonra 1924-cü ildə Gəncə Pedaqoji Texnikumuna tədris işləri üzrə direktor müavini göndərilmiş, bir neçə il orada işlədikdən sonra Pedaqoji İnstituta daxil olmuşdur. 1931-ci ildə isə Qazax seminariyasına müdir təyin edilmişdir. Repressiyaya məruz qalmışdır. Sonra Gəncədə işləmiş, 1941-ci ildə Qusar Pedaqoji Məktəbinə tədris işləri üzrə direktor müavini göndərilmişdir. 1943-cü ildə yenidən Qazaxa qayıtmışdır. Qazax və Sabirabad rayonlarında Xalq Maarif Şöbəsinin müdiri, Azərbaycan Respublikası Maarif Nazirliyi Baş Məktəblər İdarəsində şöbə müdiri, Mərdəkandakı 150№-li orta məktəbdə direktor, 4№-li orta məktəbdə direktor müavini vəzifələrində çalışmışdır.



Mirqasım Əfəndiyev (1902–1992)

* * *

**Məcid Tağıyev** Qazax rayonunun Birinci Şıxlı kəndində anadan olmuşdur. 1928-ci ildə Qazax Müəllimlər Seminariyasını bitirib Şamaxı rayonunun Şərədil kəndindəki ibtidai məktəbə direktor təyin edilmişdir. Təhsilini davam etdirmək



Məcid Tağıyev (1908–1981)




*Qazax Müəllimlər Seminariyasının məzunları (1950/51-ci tədris ili)*

məqsədilə 1929-cu ildə Ali Pedaqoji İnstitutuna daxil olmuş, institutu bitirib Tovuz Rayon Xalq Maarif Şöbəsinə müdir təyin edilmişdir. Bu vəzifədə 1934-cü ilə qədər işlədikdən sonra Qazaxa köçmüşdür. 1938-ci ildə Pedaqoji Məktəbə dərs hissə müdiri təyin olunmuşdur. Az sonra direktor vəzifəsinə irəli çəkilmişdir. 1942-ci ilə kimi qısa fasilələrlə bu vəzifəni icra etmişdir. 1942–1945-ci illərdə II Dünya müharibəsi cəbhələrində vuruşmuş, müharibədən sonra Qazax Rayon Xalq Maarif Şöbəsinin müdiri, 1951-ci ildən 1953-cü ilə qədər Qazax Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifələrində işləmişdir.

*Qazax seminariyası haqqında məlumat (1935–1957-ci illər)*

| İllər | Neçənci buraxılışdı | Cəmi tələbə | Qəbul | Buraxılış | | | Müəllim heyəti | | | | | | Direktor və dərs hissə müdiri |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Cəmi | O cümlədən | | Təhsilinə görə | | | Cinsinə görə | | | |
| | | | | | Oğlan | Qız | Cəmi | Ali | Orta | Cəmi | Kişi | Qadın | |
| 1935-ci il | XII | – | – | 658 | 592 | 66 | – | – | – | – | – | – | Mirqasım Əfəndiyev; Bəkir Əfəndiyev |
| 1934/35 | XIII | 795 | 120 | 125 | 118 | 7 | 21 | 16 | 15 | 21 | 21 | – | Mirqasım Əfəndiyev; Bəkir Əfəndiyev |
| 1935/36 | XIV | 800 | 180 | 120 | 91 | 29 | 22 | 19 | 3 | 22 | 20 | 2 | Mirqasım Əfəndiyev; Bəkir Əfəndiyev |
| 1936/37 | XV | 830 | 180 | 164 | 119 | 45 | 28 | 24 | 4 | 28 | 26 | 2 | Mirzə Bağırov; Əli Əliyev |
| 1937/38 | XVI | 880 | 360 | 200 | 173 | 27 | 35 | 31 | 4 | 35 | 33 | 2 | Mirzə Bağırov; Əli Əliyev |
| 1938/39 | XVII | 1100 | 300 | 245 | 212 | 33 | 33 | 30 | 3 | 33 | 30 | 3 | Mirzə Bağırov; Məcid Tağıyev |
| 1939/40 | XVIII | 890 | 180 | 286 | 226 | 60 | 28 | 24 | 4 | 28 | 24 | 4 | Mirzə Bağırov; Məcid Tağıyev |
| 1940/41 | XIX | 210 | 90 | 121 | 90 | 31 | 26 | 24 | 2 | 26 | 22 | 4 | Məcid Tağıyev; Güllüzar Əliyeva |
| 1941/42 | XX | 170 | 60 | 44 | 17 | 27 | 18 | 16 | 2 | 18 | 11 | 7 | Məcid Tağıyev; Güllüzar Əliyeva |
| 1942/43 | XXI | 165 | 60 | 42 | 21 | 21 | 14 | 12 | 2 | 14 | 7 | 7 | Güllüzar Əliyeva; Osman Əfəndiyev |
| 1943/44 | XXII | 181 | 60 | 35 | 9 | 26 | 12 | 9 | 3 | 12 | 4 | 8 | Güllüzar Əliyeva; Osman Əfəndiyev |
| 1944/45 | XXIII | 172 | 90 | 31 | 7 | 24 | 11 | 8 | 3 | 11 | 3 | 8 | Güllüzar Əliyeva; Osman Əfəndiyev |
| 1945/46 | XXIV | | | | | | | | | | | | |
| 1946/47 | XXV | 305 | 90 | 92 | 45 | 47 | 14 | 11 | 3 | 14 | 10 | 4 | Güllüzar Əliyeva; Osman Əfəndiyev |
| 1947/48 | XXVI | 251 | 60 | – | – | – | 14 | 10 | 4 | 14 | 13 | 1 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1948/49 | XXVII | 296 | 60 | 86 | 49 | 37 | 17 | 13 | 4 | 17 | 14 | 3 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1949/50 | XXVIII | 273 | 60 | 76 | 42 | 34 | 19 | 16 | 3 | 19 | 17 | 2 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1950/51 | XXIX | 252 | 60 | 45 | 29 | 16 | 20 | 16 | 4 | 20 | 19 | 1 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1951/52 | XXX | 191 | 30 | 42 | 24 | 18 | 15 | 12 | 3 | 15 | 14 | 1 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1952/53 | XXXI | 157 | 30 | 39 | 24 | 15 | 13 | 10 | 3 | 13 | 12 | 1 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1953/54 | XXXII | 444 | 30 | 47 | 24 | 23 | 13 | 11 | 2 | 12 | 11 | 1 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1954/55 | XXXIII | 149 | 60 | 26 | 6 | 20 | 14 | 13 | 1 | 14 | 11 | 3 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1955/56 | XXXIV | 145 | 30 | 26 | 15 | 11 | 15 | 14 | 1 | 15 | 11 | 4 | Əhməd Cəlilov; Əli Zeynalov |
| 1956/57 | XXXV | 143 | 30 | 64 | 23 | 41 | 17 | 16 | 1 | 17 | 13 | 4 | Əhməd Cəlilov; Əli Zeynalov |

* * *



Əhməd Cəlilov
(1913–1992)

**Əhməd Cəlilov** Qazax qəzasının İkinci Şıxlı kəndində anadan olmuşdur. Qazax Pedaqoji Məktəbini bitirmişdir. Təhsilini Azərbaycan Dövlət Universitetində davam etdirmişdir. 1940-cı ildə Azərbaycan Maarif Komissarlığında metodist vəzifəsində işləmiş, 1941–1945-ci illərdə II Dünya müharibəsi cəbhələrində vuruşmuşdur. 1946-cı ildə Qazax Pedaqoji Məktəbində müəllim və qiyabi şöbənin müdiri, 1947-ci ildən isə direktor vəzifəsində çalışmışdır. 1957-ci ildə şərəfli əməyinə görə «Qabaqcıl maarif xadimi» adına layiq görülmüşdür. 1965-ci ildən etibarən tədris istehsalat sahəsinin direktoru, şəhər mədəniyyət şöbəsinin müdiri vəzifələrində işləmişdir.

33 il ərzində Qazax Müəllimlər Seminariyasını 3000-ə yaxın müəllim bitirmişdir. Qazax seminariyası məzunlarının siyahısında Səməd Vurğun, Mehdi Hüseyn, Osman Sarıvəlli, İsmayıl Şıxlı, Mövsüm Poladov, İlyas Əfəndiyev, Mehdixan Vəkilov, Əhməd Qaravəliyev, Tahir Məhərrəmov, Hacı Hacıyev, Alı Alıyev, Hüseyn Tağıyev, İsmayıl Qasımov, Məmməd Şıxlı, Yunis Eyyubov, Yasin Əfəndiyev, Əsgər Xasməmmədov, Abdulla Babanlı, Əhməd Əhmədov, Osman Cəfərov, Mansır Yaqubov, Qasım Murğuzov, Əli Zeynalov, İkram Eyyubov, Barat Qaravəliyev, Dilşad Şıxlinski, Gülbahar xanım Vəkilova, Pəri İbrahimova, Qənirə xanım Mehdixanlı, Nərgiz Mahmudova, Mirpaşa Nəsibov, İsmayıl Orucov, Ənvər Əfəndiyev, Mədət Məşiyev, Cavad Bağırov, İsaq İsaqov, Həmid Nəsibov, İslam Vəliyev, İsrafil Yaqubov, İsrafil Yusifov, Abbas Mazanov, Məcid Əhmədov, Mürsəl Əfəndiyev, Xanəhməd Bayramov, Yusif Zeynalov, Zöhrə Həsənova, Alı Mustafayev, Mirəli Mirəliyev, Mahmud Süleymanov, Məhəmməd Nəsibov, Mahir Mahmudov, Mehdi Həsənov və b. kimi görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin də adları var.

Qazax Müəllimlər Seminariyasının məzunları özlərinin nadir istedadı ilə müəllim, alim, ədib, mütəfəkkir, ictimai və dövlət xadimi kimi yetişmiş və Azərbaycanda elmin, maarifin və mədəniyyətin inkişafında əvəzsiz rol oynamışlar.

*Qazax seminariyasının tanınmış məzunları*

**Səməd Vurğun Vəkilov** Qazax qəzasının Yuxarı Salahlı kəndində anadan olmuşdur. 1918-ci ildə Mehdixan Vəkilovu nənəsi seminariyaya qəbul olmaq üçün Firidun bəy Köçərlinin yanına aparanda balaca Səməd də onlarla birlikdə getmiş və bu gediş onun sonrakı taleyini həll etmişdi. Kiçik olmasına baxmayaraq, Firidun bəy Köçərli Səmədi seminariyaya



Səməd Vurğun
(1906–1956)

götürmüşdü. Səməd seminariyada əla qiymətlərlə oxumaqla yanaşı, seminariyanın ictimai həyatında fəal iştirak etmiş, kəndlərdə dram dərnəyinin hazırladığı tamaşalarda müxtəlif rollarda oynamışdır. Bir dəfə Səmədin Füzulini tezliklə mənimsəməsindən heyran qalan Firidun bəy Köçərli demişdi: *«Ay Səməd, oğlum, sən bizim darülmüəllimin Füzulisisən, gələcəkdə məşhur bir ədib olacaqsan. Bu mənim yəqinimdir».*

* * *



Osman Sarıvəlli
(1905–1995)

**Osman (Sarıvəlli) Abdulla oğlu Qurbanov** Qazax qəzasının İkinci Şıxlı kəndində anadan olmuşdur. 1926-cı ildə Qazax seminariyasını müvəffəqiyyətlə bitirmiş və Göyçay qəzasının Qaraməryəm və Bığır kəndlərində müəllimlik etmişdir.

Osman Sarıvəlli Qazax Pedaqoji Seminariyası haqqında xatirəsində yazırdı: *«Kəndimizin bir sıra başqa uşaqları kimi, mən də 1920-ci ildə Qazax seminariyasına daxil oldum. Bu məktəb bizim bir neçə ziyalıların, eləcə də mənim çox mehriban və əziz tərbiyə-təhsil beşiyim olmuşdur. Əynimdən sinəsi qara çarpazlı boz arxalığı, başımdan yunlu papağı, ayaqlarımdan cırıq çarıqları ilk dəfə o məktəbdə çıxarmışam. Yeni, təmiz və səliqəli şagird (tələbə) libasını ilk dəfə o məktəbdə geymişəm. Nizam-intizam, məsuliyyət, yoldaşlarla səmimi rəftar və i.a. ilk dəfə o məktəbdə eşitmiş, o məktəbdə görmüşəm. Nikbin, sağlam tələbə mühitini, geniş ictimai yığıncaqları, komsomol özəklərini ilk dəfə orada görmüşəm. Bir sıra elmlərin əlifbasını o məktəbdə öyrənmiş, ədəbiyyatı, incəsənəti orada sevməyə başlamışam.*

*Onlarca aşiqanə, lirik, gənclik şeirlərimi ilk dəfə Qazax seminariyasında oxuduğum illərdə yazmağa başlamışam. Maraqlı gənclik xatirələrim o məktəbin müəllimləri, tələbələri, eləcə də o məktəbin binaları, daşları, divarları, mizləri, dərs kitabları, yazı lövhələri, coğrafiya xəritələri və i.a. ilə sıx surətdə bağlı olduğundan onları bir an da unuda bilmirəm və unuda bilməyəcəm».*

* * *



Mehdi Hüseyn
(1909–1965)

**Mehdi Əli oğlu Hüseynov** (Mehdi Hüseyn) Qazax qəzasının İkinci Şıxlı kəndində anadan olmuşdur.

1920-ci ildə Mehdi Hüseynin ailəsi Qazaxa köçmüşdür. Qazax seminariyasının hazırlıq şöbəsinə daxil olan Mehdi Hüseyn burada Səməd Vurğun, Osman Sarıvəlli ilə tanış olmuş və onların bir-biri ilə dostluğu da buradan başlamışdır.

Mehdi Hüseyn seminariyada oxuyarkən kənddə müşahidə etdiyi həyatı və şahidi olduğu hadisələri qələmə alıb Tiflisdə çıxan «Yeni

fikir» qəzetində çap etdirirdi. Mehdi Hüseynin bir yazıçı kimi yetişməsində Qazax Pedaqoji Məktəbində formalaşmış ədəbi mühitin böyük rolu olmuşdur.

* * *


İsmayıl Şıxlı
(1919–1995)

**İsmayıl Qəhrəman oğlu Şıxlı** Qazax qəzasının İkinci Şıxlı kəndində anadan olmuşdur. 1936-cı ildə Qazax Pedaqoji Məktəbini müvəffəqiyyətlə bitirərək bir il Kosalar kənd məktəbində müəllim işləmiş, 1937-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuşdur.

Yaradıcılığına şeirlə başlayan İsmayıl Şıxlı 1947-ci ildən nəsr yaradıcılığına keçmişdir. Onun «Dəli Kür» romanı Azərbaycan nəsrinə yenilik gətirən, hadisələri sosial-tarixi planda əks etdirən, xalq həyatının mənzərəsini yaradan möhtəşəm bir əsərdir. İsmayıl Şıxlı həm də fransız yazıçısı Gi de Mopassanın və türk yazıçısı Əziz Nesinin əsərlərini doğma dilimizə tərcümə etmişdir.

### 4.1.4. Gəncə orta ixtisas pedaqoji təhsil müəssisələri

**1920-ci ildə Gəncədə də müəllim seminariyası fəaliyyətə başladı.** Bu seminariyaya dahi Azərbaycan şairi Məhəmməd Füzulinin adı verilmişdi. Burada Azərbaycan və rus klassiklərinin yaradıcılığı mükəmməl tədris edilirdi. Gəncə seminariyası daxili intizamına, tədris proqramının zənginliyinə görə Bakı və Qazax seminariyalarından heç də geri qalmırdı. Burada Məmmədiyyə Qiyasbəyli, Ömər Faiq Nemanzadə, Fərrux Həsənzadə, Firəngiz xanım Qarabəyli, Həmid Araslı kimi ziyalılar fəaliyyət göstərirdi. Seminariyada müxtəlif yaradıcılıq dərnəkləri var idi. Ədəbiyyat dərnəyinin məşğələlərində seminariyanın direktoru **Cavad bəy Rəfibəyli** şəxsən iştirak edirdi. İstər kişi, istərsə də qadın seminariyalarında tələbə təşkilatına böyük hüquq verilmişdi. Onların çıxardığı qərarı müdirlər sözsüz yerinə yetirirdilər. Cavad bəy Rəfibəylinin raportlarından birində deyilir: *«Tələbələrlə*


**Cavad bəy Rəfibəyli**
**(1890–1956)**

**Rəfibəyli Cavad bəy Hadı oğlu** Gəncə şəhərində anadan olmuşdur. İlk təhsilini Yelizavetpol (Gəncə) rus gimnaziyasında almış, Kiyev İmperator Universitetinin tarix fakültəsinə daxil olmuşdur (1911). Universiteti bitirib, vaxtilə oxuduğu Gəncə oğlan rus gimnaziyasına latın dili müəllimi təyin edilmişdir (1916). O, bu gimnaziyada latın dilini tədris edən ilk türk müəllimi idi. Pedaqoji sahədəki uğurlarına görə tezliklə Temirxan-Şura müəllimlər seminariyasına direktor təyin edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə xalq maarif naziri Nəsib bəy Yusifbəylinin əmri ilə Gəncə Gimnaziyasının direktoru təyin edilmişdir.

Azərbaycanın mədəniyyətinə aid sanballı əsərlərin müəllifidir.

Ailəsi ilə birlikdə Qazaxıstana sürgün edilmiş (1941), sürgündən azad edildikdən sonra Bakıya qayıtmışdır (1947). Azərbaycan Dövlət Universitetində və Azərbaycan Dövlət Teatr İnstitutunda, daha sonra isə Gəncədə rus dili müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.



*Gəncə Pedaqoji Texnikumunun şagirdlərindən bir qrupu. Müəllim Gövhər Usubova. 1925-ci il*

*biz yox, tələbə təşkilatı işləyir. O, öz kontingentini müdirdən yaxşı tanıyır. Əgər tələbə təşkilatı tələbənin seminariyadan çıxardılmasını məsləhət görübsə, daha mübahisəyə dəyməz və onu icra etmək lazımdır...»*

1920–1924-cü illərdə bu seminariyanın 30-dan çox məzunu olmuşdur.

Gəncə seminariyasının direktoru Cavad bəy Rəfibəyli bir müddət burada işlədikdən sonra 1922-ci il yanvarın 1-də II pillə məktəbə müdir təyin edilmiş, 1923-cü il sentyabrın 17-də yenidən Gəncə seminariyasına qayıdıb direktor vəzifəsini icra etmişdir.

O zaman seminariyalara xüsusi diqqət yetirir, onları yalnız dərs vəsaiti ilə deyil, təcrübə sahəsi ilə də təmin edirdilər. 1924-cü il fevralın 16-da Gəncə Torpaq şöbəsinin iclasında Cavad bəy Rəfibəyli məsələ qaldırmış və bu sahədəki əkindən əldə edilən məbləğin ehtiyacı olan tələbələrə sərf olunacağını söyləmişdi. İclas 10 mart 1924-cü ildə seminariyaya şəhərin yaxınlığında 3 desyatin torpaq verilməsini qərara almışdı.

*Cavad bəy Rəfibəyli tədris proqramlarının hazırlanmasında da böyük fəallıq və əzm göstərirdi.*

*1925-ci il fevralın 14-də XMK kollegiyasında onun təşəbbüsü ilə ana dili və tarix fənlərinin daha yaxşı öyrənilməsini nəzərdə tutan yeni tədris planı hazırlandı və müzakirə olunaraq aşağıdakılar qərara alındı:*

*1) I–II sinifdə «Ana dili» 1 saat artırılıb, 4 saatdan 5 saata çatdırılsın.*

*2) I sinifdə «Coğrafiya» 1 saat artırılıb, 2 saatdan 3 saata çatdırılsın.*

*3) III sinifdə «İctimaiyyatşünaslıq» 1 saat artırılıb, 4 saatdan 5 saata çatdırılsın.*

*4) «Bədən tərbiyəsi» 12 saatdan 8 saata endirilsin, bunun 3 saatı musiqi dərslərinə verilsin.*

*Kollegiyanın qərarı ilə bu tədris planı Maarif evində müəllimlərin iştirakı ilə geniş müzakirə olundu.*

*1925-ci il iyulun 29-da Maarif Komissarlığının kollegiyasında Gəncə II pillə Azərbaycan Qadın Məktəbinin Qadın Pedaqoji Texnikumuna çevrilməsi barədə qərar qəbul edildi.*

*Bu qərara əsasən, I pillə məktəbləri müəllim kadrları ilə təmin etmək məqsədilə Qazaxda 36, Şamaxıda 25, Gəncədə isə 55 nəfərlik pedaqoji kursların açılması planlaşdırıldı. 1925-ci il mayın 25-dən gec olmayaraq sənədlərin göndərilməsi, hər kursda tələbələrin sayının 40-dan artıq olmaması və kursa göndərilənlərə ezamiyyə xərclərinin verilməsi qaydaları müəyyənləşdirildi.*

*Sonralar Gəncədə pedaqoji kursların əsasında Axşam Pedaqoji Texnikumu yaradıldı. XMK-nın kollegiyasında çıxış edən axşam kurslarının müdiri Şərifov bildirmişdi ki, kursun üçillik fəaliyyəti onun pedaqoji texnikuma çevrilməsinə zəmanət verir və bu ilin büdcəsinə (oktyabr ayınadək) heç bir zərər gətirmir. Şərifovun izahatından sonra Axşam Pedaqoji Məktəbinin yaradılması qərara alındı. 1926-cı ildə ciddi maliyyə çətinliklərinə görə Gəncə Axşam Pedaqoji Texnikumu bağlandı.*

*1927/28-ci tədris ilində M.F.Axundov adına Gəncə Türk (Azərbaycan) Pedaqoji Texnikumunda Yusif Məmmədəliyev, Mikayıl Rzaquluzadə və başqaları orta təhsilli müəllim kadrları hazırlığında xüsusi fəallıq göstərirdilər. Texnikumun birinci buraxılışında 30 nəfərə yaxın gəncə müəllimlik diplomu verilmişdi (bax: Sadıq Şükürov. Gəncə məktəblərinin tarixindən. Bakı, 1992, səh. 73).*

### 4.1.5. Naxçıvan Müəllimlər Seminariyası

**Naxçıvan Müəllimlər Seminariyası 10 noyabr 1922-ci ildə fəaliyyətə başlamışdır.** Sonradan texnikuma çevrilən bu seminariya 1938-ci ildə fəaliyyətini dayandırana kimi Naxçıvanda pedaqoji təhsilin inkişafında böyük rol oynadı.

İlk «İstiqlal orden»li müəllim Lətif Hüseynzadə Naxçıvan Seminariyası haqqında xatirələrində yazırdı: *«Bizim texnikum o zaman Azərbaycanda çox tanınmış, nüfuzlu, şərəfli yeri olan bir texnikum idi. Bura respublikanın hər tərəfindən təhsil almağa gəlirdilər. Hər il texnikumun 700-dən artıq tələbəsi olurdu. Burada çox yüksək səviyyəli, dərin bilikli, tələbkar, eyni zamanda qayğıkeş müəllimlər çalışırdı. Texnikumun direktoru Kazım Talıblı idi.*




*Naxçıvan Pedaqoji Texnikumunun binası (hazırda rəssam Bəhruz Kəngərlinin ev-muzeyi)*

*Çox bacarıqlı, işgüzar təşkilatçı və olduqca tələbkar bir şəxs idi.*

*Tofiq Bəktaşi Moskvada təhsil almışdı, Lomonosov adına Universitetin məzunu idi. Çox ciddi, dərin bilikli riyaziyyat müəllimi idi. Əli Əliyev tariximizin, xüsusilə Naxçıvan tarixinin mükəmməl bilicisi, onu tədris və təbliğ edən, tələbələrə böyük qayğıkeşliklə yanaşan müəllim idi. Əsəd Cəfərli təcrübəli bir müəllim kimi təbiət, biologiya dərslərini tədris edirdi. Murad Tutayuq Rusiyada təhsil almış fizika-riyaziyyat müəllimi idi. Cəfər İmanov, Əsgər Əhmədov kimya dərslərini tədris edirdilər. Çox bilikli, ciddi, tələbkar müəllim idilər.*

*Cəlil İskəndərli ədəbiyyat, Abbas Əsgərov Azərbaycan dili müəllimi idi. Həsən bəy Qaziyev İrəvanda təhsil almışdı, anatomiya dərslərini aparırdı. Əbdüləzim bəy Rüstəmov coğrafiya müəllimi idi. Sonralar ordu generalı olmuş Akim Abbasov texnikumun hərbi rəhbəri, Həsən Səfərli və Nəcəf Qəhrəmanov hərbi hazırlıq müəllimləri idilər. Kazımbəy Rəhimbəyov, Həsən Salayev, David İsrafilov, Xədicə xanım Yusifbəyli, Mirzə Musayev və başqaları texnikumun sevimli müəllimləri idilər.*



Heydər Əliyev tələbəlik illərində

*Texnikumda bədən tərbiyəsi və idman işləri yüksək səviyyədə qurulmuşdu. Bu dərsləri İbrahimxəlil Axundov keçirdi. O, zabitlik məktəbini bitirdiyindən tələbələrin hərbi təliminə ciddi fikir verirdi. Çox zaman musiqi sədaları altında idman məşqləri keçirilir, tələbələrin hərbi-fiziki hazırlığına diqqət verilir, silahdan istifadə etmək qaydaları öyrədilirdi. Texnikumda voleybol, güləş, yüngül atletika, ağırlıqqaldırma, boks, futbol kimi idman bölmələri fəaliyyət göstərirdi. 1937-ci ildə SSRİ Ali Sovetinə ilk dəfə keçirilən seçkilər münasibətilə Naxçıvan– Bakı velosiped yürüşü təşkil olunmuşdu. 12 nəfərdən ibarət tərkib noyabrın 1-də Naxçıvandan çıxmış, 7 noyabrda Bakıya çatmışdı.*

*Texnikumumuzda hər gün səhər gimnastikasının keçirilməsi ənənəsi var idi ki, bu, sonralar bütün şəhər məktəblərinə də yayılmışdı.*

*Texnikumun məzunları arasında vətənə, xalqa ləyaqətlə xidmət edən yüksək səviyyəli elm adamları, şair və yazıçılar, dövlət adamları olmuşdur. Onların arasında əməkdar elm xadimi Səfərəli Babayev, istedadlı şair, rəssam, millət vəkili, əməkdar müəllim, «Şöhrət orden»li Dövlət Məmmədov, maarif və mədəniyyətimizin və mətbuatımızın tərəqqisində böyük xidmətləri olan, ictimai xadim, əməkdar müəllim Manaf Xudiyev, istedadlı şair, publisist, jurnalist, mətbuat tariximizdə diqqətəlayiq xidmətləri olan Cavad Cavadlı, görkəmli ədəbiyyatşünaslar, professorlar İnayət Bəktaşi və Firudin Hüseynov, tanınmış alim, psixoloq, ictimai xadim İsa Məmmədov, xalq yazıçısı Hüseyn İbrahimov, şair, yazıçı Həsən Fətullayev, filosof-alim Yunis Qasımov, maarif və mədəniyyətimizin inkişafında xüsusi xidmətləri olan, öz yetişdirmələrinin xoşbəxtliyi yolunda fədakarcasına çalışan əməkdar müəllim Teymur Nağıyev və bir çox başqaları var idi. Texnikumun Səkinə xanım Əliyeva, Səkinə xanım Rzalı, Firuzə xanım Rzayeva, Göyçək xanım Vəzirova, Zəroş xanım Həmzəyeva kimi tanınmış qadın məzunları olmuşdur ki, onlar*

*ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmişlər. Texnikumun məzunları içərisində görkəmli dövlət xadimi, böyük siyasət adamı, dünyada yaxşı tanınmış Heydər Əliyevin xüsusi yeri olmuşdur.*

*Heydər Əliyev pedaqoji texnikuma gələndə dərslər yenicə başlanmışdı. Heydər texnikumdan əvvəl Naxçıvandakı beynəlmiləl rus məktəbində oxumuşdu. O zamanlar bu məktəbə hər kəs gedə bilməzdi. Bu məktəbdə yalnız qabiliyyətli, istedadlı, mütərəqqi düşüncəli uşaqlar təhsil alırdılar. Bizim texnikumumuza qəbul müəllimlərin müsahibəsi, sual-cavabları ilə həyata keçirilirdi. Əlirza kişi (Heydər Əliyevin atası – M.M.) bildirdi ki, övladı müəllim olmaq arzusundadır. Bu qamətli, boylu-buxunlu, ilk baxışdan diqqəti cəlb edən gənclə söhbət etdim. Elə ilk dəqiqədən onun bilikli, qabiliyyətli olduğunu duydum. Ədəbiyyatdan, dildən, tarixdən verdiyim suallara çox gözəl, əhatəli cavablar verirdi. Heydər rusca təhsil almasına baxmayaraq, bir kəlmə də rus sözü işlətməyərək çox təmiz ədəbi Azərbaycan dilində danışırdı. Müsahibədən sonra tələbə qəbul komissiyasının sədr müavini və texnikumun direktor müavini Murad Tutayuqun yanına getdik. Daha sonra da texnikumun direktoru Kazım Talıblının yanında olduq. Kazım Talıblıya bildirdim ki, bu gənclə müsahibə aparmışam və razı qalmışam. Direktor dedi: «Yaxşı, onda riyaziyyatdan da sual-cavab edib, müsahibə aparmaq lazımdır». Texnikumun riyaziyyat müəllimi Tofiq Bəktaşini çağırdılar. O, çox tələbkar bir müəllim idi. Onu razı salmaq heç də asan məsələ deyildi. Tofiq müəllim bir neçə məsələ və misal verdi. Çox çəkmədən verilən tapşırıqlar səhvsiz yerinə yetirildi.*



*Texnikumun dram dərnəyinin hazırladığı tamaşadan səhnə (soldakı Heydər Əliyevdir)*

*Bəktaşi də məmnunluqla gülümsəyərək öz razılığını bildirdi. Beləliklə, bu istedadlı gənci texnikuma qəbul etdik. (Burada mən bir haşiyəyə çıxmaq istəyirəm. Universitetin prorektoru vəzifəsində işləyirdim. Tofiq Bəktaşi vəfat etmişdi. Ölkə başçısı Heydər Əliyev Universitetin rektoru Murtuz Ələsgərova zəng vurub Tofiq Bəktaşinin dəfnini layiqincə təşkil etməyi tapşırmışdı. O, öz müəlliminin son mənzilə necə yola salınmasının detalları ilə ölkə başçısından çox, mərhumun yaxın adamı kimi maraqlanırdı.*

*Həmin vaxt mən Heydər Əliyevin müəllimə olan böyük ehtiram və sayğısının bir daha şahidi oldum.– M.M.)*

*Heydər Əliyev tələbəlik illərində yaşının az olmasına baxmayaraq, özünü bir şəxsiyyət kimi aparırdı. Qətiyyətli, məqsədyönlü, fəal və təşəbbüskar idi. Elmlərə yiyələnmək həvəsi aşıb-daşırdı. Öz düşüncə tərzi, həyata baxışı ilə hamıdan fərqlənirdi. Qoltuğunda çox vaxt kitab görərdim. 1918-ci ildə Türkiyədən Naxçıvana xeyli türk ədəbiyyatı, məcmuələr göndərilmişdi. Naxçıvanda milli kitabxananın əsası bununla qoyulmuşdu. Zəngin türk ədəbiyyatı kitabxanası yaradılmışdı. Bu kitabxana tələbələrimizin ən sevimli yerlərindən biri idi. Heydər boş vaxtlarında tez-tez bu kitabxanaya gedər və buradakı kitabları mütaliə edərdi. Tələbələr də onu çox sevir, ona hörmətlə yanaşırdılar. O, dərs danışanda sinfə sükut çökürdü. Uşaqlar ona diqqətlə qulaq asırdılar. Gözəl nitqi, ifadəli danışıq tərzi var idi. Qədd-qamətli, yaraşıqlı siması, şax duruşu, zabit yerişi var idi. Buna görə bəzi tələbələr ona «general» da deyirdilər. Əlbəttə, sonralar general da oldu. O, fəaliyyətində qətiyyətli, inamlı, məsuliyyətli idi. İfadəli baxışları, nəzakətli rəftarı, mədəni davranışı, hamıya mehribanlıqla, hörmət və qayğı ilə yanaşması və xüsusilə həmişə hər yerdə birinci olmağa səy göstərməsi bu tələbənin səciyyəvi xüsusiyyətləri idi.*

*Mən indi 100 yaşımı keçmiş bir dövrdə o illəri xatırlayarkən düşünürəm ki, Heydər Əliyev sanki o vaxtdan prezident olmaq, xalqa, millətə daha yaxşı, firavan həyat bəxş etmək arzusunda olmuşdur. Heydər Əliyev heç vaxt tək özünü düşünmürdü. O, yoldaşlarının qayğısına qalır, onların problemləri ilə maraqlanır, ehtiyacı olanlara kömək etməyə çalışırdı. Baxmayaraq ki, özünün də ehtiyacları az deyildi.*

*Heydər Əliyev texnikumda keçilən bütün fənləri eyni dərəcədə yaxşı öyrənirdi. Yalnız*



*Naxçıvan Pedaqoji Texnikumunun tələbələri. 1939-cu il*



AzSSR
XALQ MAARİF QOMISSARIATЬ

ATTESTAT

Bu attestat 1923 ildə doqulmuş Hijev Hejdər Hirza oqluna Naxcьvan şəhər internasional pedaqozi məktəbi məktəb şө'bəsinin kylyn qursunu ə'la əxlaq ilə aşaqыda gostərilən elmlərə mьlidijI ycyn verilir:

| | |
|---|---|
| Ana dili | ə'la |
| Ana dilinin tə'limi metodiqasь | ə'la |
| Ədəbijjat | ə'la |
| Azərbajcan dili | — |
| Rus dili və ədəbijjatь | ə'la |
| Rus dili tə'limi metodiqasь | ə'la |
| Arifmetiqa | ə'la |
| Arifmetiqa tə'limi metodiqasь | ə'la |
| Algebra | ə'la |
| Geometrija | ə'la |
| Triqonometrija | ə'la |
| Təbiijjat | ə'la |
| Təbiijjat tə'limi metodiqasь | ə'la |
| Tarix | ə'la |
| Tarix tə'limi metodiqasь | ə'la |
| Geoqrafija | ə'la |
| Geoqrafija tə'limi metodiqasь | ə'la |
| Fiziqa | ə'la |
| Kimja | ə'la |
| Pedaqogiqa | ə'la |
| Məktəb gigijenasь | ə'la |
| SSRI Qonstitusijasь | ə'la |
| Xarici (fransuz.) dil | ə'la |
| Rəsm | ə'la |
| Rəsm tə'limi metodiqasь | ə'la |
| Rəsmxətt | ə'la |
| Fizqultura | ə'la |
| Fizqultura tə'limi metodiqasь | ə'la |
| Nəqmə və musiqi | ə'la |
| Hərbi iş | ə'la |
| Məktəbdə praqtiqa | ə'la |

Vətəndaş Hijev Heidər Hirza oqlu 1938/39-cu tədris planь yzrə myəjjən edilmiş tələbləri ədədijI ycyn, ibtidai məktəbdə, tam olmajan orta və orta məktəbin I-IV sinillərində myəllimlik hyququna malikdir.

25 ijun – июня 1939
№ 2027

Pedaqozi məktəb direqtoru:
Директор педучилища:

АзССР
НАРОДНЫЙ КОМИССАРИАТ ПРОСВЕЩЕНИЯ

АТТЕСТАТ

Настоящий аттестат выдан Алиеву Гейдару Алирза оглы, родивш. в 1923 году в том, что он окончил полный курс обучения школьного отдела Нахичеванского интернацион. педагогического училища и обнаружил, при отличном поведении, следующие знания:

| | |
|---|---|
| По родному языку | отлично |
| „ методике преподавания родного языка | Отлично |
| „ литературе | отлично |
| „ азербайджанскому языку | — |
| „ русскому языку и литературе | Отлично |
| „ методике преподавания русского языка | Отлично |
| „ арифметике | Отлично |
| „ методике преподавания арифметики | Отлично |
| „ алгебре | Отлично |
| „ геометрии | Отлично |
| „ тригонометрии | Отлично |
| „ естествознанию | Отлично |
| „ методике преподавания естествознания | Отлично |
| „ истории | Отлично |
| „ методике преподавания истории | Отлично |
| „ географии | Отлично |
| „ методике преподавания географии | Отлично |
| „ физике | Отлично |
| „ химии | Отлично |
| „ педагогике | Отлично |
| „ школьной гигиене | Отлично |
| „ Конституции СССР | Отлично |
| „ иностранному (французс.) языку | Отлично |
| „ рисованию | Отлично |
| „ методике преподавания рисования | Отлично |
| „ чистописанию | Отлично |
| „ физкультуре | Отлично |
| „ методике преподавания физкультуры | Отлично |
| „ пению и музыке | Отлично |
| „ военному занятию | Отлично |
| „ практике в школе | Отлично |

Гражданин Алиев Гейдар Алирза оглы как выполнивший установленные учебным планом 1938/39 г. требования, пользуется правом преподавания в начальной школе, I-IV классах неполной средней и средней школы.

Myəllimlər:
Учителя:

*Heydər Əliyevə texnikumu bitirmək haqqında verilmiş sənəd*

«əla» qiymətlər alırdı. Müəllimlər tələbələrin fəaliyyəti haqqında danışanda Heydərdən daha çox danışırdılar. Tofiq Bəktaşi deyirdi ki, ondan yaxşı riyaziyyatçı olacaq, onda riyazi təfəkkür çox yüksəkdir. Tarix müəllimi də bildirirdi ki, Heydər tariximizi dərindən öyrənir, ciddi maraqlanır, o yaxşı tarixçi ola bilər. Mən isə fikirləşirdim ki, Heydər Əliyev yaxşı ədəbiyyatçı, dilçi ola bilər. İfadəli, aydın, səlis nitqi, gözəl xətti, savadlı yazısı var idi. Bədii təfəkkürü də çox yüksək idi. İstər türk klassiklərinin əsərlərini, istərsə də rus, Avropa yazıçılarının əsərlərini mütaliə edirdi. Rus dilini gözəl bildiyindən Lev Tolstoyun «Hərb və sülh» romanını oxuyub məzmununu tələbə yoldaşlarına danışırdı. Rəşad Nuri Güntəkinin,



Naxçıvan. Kazım Qara Bəkir Paşa camisinin açılışında. Heydər Əliyev, Vasif Talıbov, Lətif Hüseynzadə, Şeyxülislam Hacı Allahşükür Paşazadə. 2002-ci il

*Əbdülhaq Hamidin əsərlərini də oxuyurdu. Çətin ərəb və fars sözlərini düzgün tələffüz edir, mənasını bilir və yerində də işlədirdi.*

*Heydər Əliyev bizim ən yaxşı tələbəmiz olmaqla bərabər, o həm də çox gözəl rəssam idi. Müəllimlərimiz öz yetişdirmələrinə bilik verməklə yanaşı, onlara təbiəti, doğma vətən torpağının gözəlliklərini sevdirir, müxtəlif yollarla estetik zövqlərini inkişaf etdirirdilər. Doğma diyarımıza ekskursiyalara gedib qayıtdıqdan sonra tələbələrə aldıqları təəssüratdan inşa yazmağı tapşırırdıq. Hamı yazırdı. Amma Heydər fərqli yazırdı. O, ekskursiyadan aldığı təəssüratı çox məzmunlu yazmaqla bərabər,*

*gördüyü gözəlliklərin təsvirini də qələmə alırdı. Tarixi yerlərə, abidələrə getdiyimiz zaman o, oranın tarixi haqqında ərtaflı məlumat toplayır, yazır və abidənin şəklini çəkirdi. Məsələn, Möminə xatun, Yusif İbn Küseyr məqbərələrinin şəkillərini dəftərinə çəkmişdi. Yaxşı xatırlayıram ki, bir dəfə texnikumda onun çəkdiyi rəsmlərin sərgisini də təşkil etmişdik. Bir çoxları düşünürdü ki, Heydər Əliyevdən yaxşı bir aktyor çıxacaq. O, Naxçıvan teatrının ən fəal tamaşaçısı, iştirakçısı və deyə bilərəm ki, aktyorlarından biri idi. İstər teatrın tamaşalarında, istərsə də texnikumun dram dərnəklərində fəal iştirak edirdi. Ədəbiyyat dərnəyində ifadəli oxu müsabiqələri keçirilərkən gözəl diksiya ilə şeirlər söyləyirdi. Heydər Əliyev texnikumumuzun dram dərnəyinin üzvlərini toplayıb tez-tez teatra aparır və orada tamaşalar göstərirdilər. Özü də tamaşalarda baş rollarda çıxış edirdi. O, həmişə kral, padşah, hökmdar rollarında oynayırdı. Hətta İbrahim Həmzəyev, Zəroş xanım Həmzəyeva kimi peşəkar aktyorlarla tərəf-müqabil olurdu. Rejissor İbrahim Həmzəyev deyirdi ki, o, rolları əsl peşəkar aktyor kimi oynayır.*

*Heydər Əliyev texnikumda bədən tərbiyəsi və idman işlərinin də əsas təşkilatçısı idi. Texnikumda idmanın bütün növləri ilə məşğul olmuşdu. Yarışlarda fəal iştirak edirdi. Amma, deyəsən, o, üzməyi daha çox sevirdi.*

*Heydər Əliyev Pedaqoji Texnikumu müvəffəqiyyətlə bitirdi. Onun texnikumu bitirmək haqqında «attestat»ında yalnız «əla» qiymətlərdir. Fəxr edirəm ki, həmin attestatda mənim də imzam vardır» (bax: Lətif Hüseynzadənin ulu öndər Heydər Əliyev haqqında xatirələrindən. Xalqın müəllimi. Bakı, 2007, səh.18–28).*

### 4.1.6. Mirzə Ələkbər Sabir adına Bakı Pedaqoji Texnikumu

**Ölkəmizin qocaman orta ixtisas təhsili müəssisələrindən biri olan M.Ə.Sabir adına Pedaqoji Texnikum 1926-cı ildə Bakı Kişi və Qadın Müəllimlər Seminariyalarının birləşdirilməsi ilə yaranmışdır.** Ona görə də əvvəlcə bu iki seminariya haqqında müəyyən qədər məlumat verməyi lazım bilirəm.

1920-ci ildə yaradılmış Bakı Kişi Seminariyasına Qori Müəllimlər Seminariyasının məzunu Pənah Qasımov rəhbərlik edirdi. Bu məktəb keçmiş Kommunist küçəsində, indiki Əlyazmaları İnstitutunun binasında yerləşirdi. Pənah Qasımov qısa bir müddətdə mütərəqqi ideyalı, demokratik fikirli pedaqoqları öz ətrafına topladı. Ən görkəmli və tanınmış müəllimlərdən Soltan Məcid Qənizadəni, Hüseyn Cavidi, Abdulla Şaiqi, Azad bəy Əmirovu, Səməd bəy Acalovu, Əli bəy Qasımzadəni, Nuruş Şahsuvarovu, Məhəmməd Abdullayevi, Əhməd Kərədi Zəkuzadəni, Camo Cəbrayılbəylini, Qafur Rəşadı, Sultanmurad Əliyevi və başqalarını işə dəvət etdi. Bu səriştəli, güclü kollektivin köməyi ilə məktəbdə nümunəvi nizam-intizam yarandı və təlim-tərbiyə işlərinin səmərəsi yüksəldi. Tezliklə nümunəvi maarif ocağı kimi məktəbin şöhrəti qonşu respublikalara da yayıldı.Yüksək keyfiyyətli pedaqoji kadrlar hazırlamaq məqsədilə tələbələrin bilik və hazırlıq səviyyəsi Pənah Qasımovun sədrliyi ilə işləyən xüsusi komissiya tərəfindən yoxlandı. Komissiya məktəbdəki 90-a qədər tələbədən yalnız 40 nəfərini təhsilini davam etdirməyə layiq gördü. Həmin 40 nəfərdən dördüncü kursda cəmi 9 nəfər tələbə

qaldı ki, onlar da 1922/23-cü buraxılış ilində məktəbin ilk məzunları oldular.

Respublikamızın tanınmış alimlərindən Mirəli Axundov, Məmməd Şıxlı, Akademiyanın Əlyazmaları Fondunda baş elmi işçi vəzifəsində işləmiş şair Fazil Seyidov, uzun müddət Gəncə Şəhər Maarif Şöbəsinin müdiri olmuş, şəxsiyyətə pərəstiş dövrünün qurbanlarından biri Allahverdi Namazov, Bəkir Əfəndiyev və başqaları məktəbin ilk məzunlarındandır. Bu 9 nəfər məzun təyinatla Zaqatala, Cavanşir (Cəbrayıl) və Şuşa qəzalarına göndərildilər.

Məktəbi ikinci buraxılışda 24, üçüncü buraxılışda 28, dördüncü buraxılışda 56 gənc müəllim bitirdi. Onlardan biri Türküstana (Orta Asiya), ikisi Dağıstana, qalanları isə Azərbaycanın qəzalarına işləməyə getdilər.

İndi də bir neçə kəlmə Qadın Müəllimlər Seminariyası barədə. **1920-ci ildə Bakıda köhnə Marinskaya Qız Gimnaziyasının binasında (indiki 132–134 №-li təhsil kompleksində, filarmoniya ilə üzbəüz binada) ilk darülmüəllimat *(Qadın seminariyası – M.M.)* yaradıldı.** Mədinə xanım Qiyasbəyli



*Bakı Kişi Müəllimlər Seminariyasının məzunları*

darülmüəllimata müdir, Gövhər xanım Qayıbova isə tədris hissəsi üzrə müavini təyin olundular. O dövrün qabaqcıl pedaqoqlarından Hüseyn Cavid, Üzeyir Hacıbəyli, Abdulla Şaiq, Azad bəy Əmirov, Atababa Musaxanlı, Məmməd Abdullayev, Səlimə Yaqubova, Şəfiqə xanım Əfəndizadə, Xədicə Ağayeva, Sara Xuramoviç, Zəhra Şahtaxtinskaya, Sara Talışinskaya, Reyhan Topçubaşova, Nəimə Qazıyeva və başqaları darülmüəllimatda pedaqoji və ictimai iş aparırdılar. Bu nümunəvi pedaqoji məktəbdə 120 nəfər qızın öz ana dilində təhsil alması Azərbaycan qadınının həyatında böyük mədəni inqilab idi.

Qısa bir vaxtda məktəbin şöhrəti bütün Güney Qafqaza, Dağıstana, Orta Asiyaya yayıldı.

Darülmüəllimatın 1925-ci ildəki birinci buraxılışında 16 nəfər tələbə qız vəsiqə alaraq ilk dəfə orta pedaqoji təhsillə müəllimlik fəaliyyətinə başladı. 1926-cı il buraxılışında 40 nəfər qız müəllimlik vəsiqəsi aldı. Bu qızlardan 23 nəfəri sonradan ali təhsil almış, 16 nəfəri orden və medallarla təltif olunmuş, 5 nəfərinə əməkdar müəllim adı verilmişdi.

Darülmüəllimatı qurtaran qızlardan Şəfiqə xanım Qiyasbəyli, Ümidə xanım Qafarzadə, Gövhər xanım Seyidova, Ünsiyyə xanım Rüstəmzadə, Mirvarid xanım Dilbazi, Dürrə xa-



*Soldan: Yaqut Dilbazi, Badisəba xanım Köçərli, Mirvarid Dilbazi, Fatma Vəkilova və Pəri Paşayeva. Bakı Darülmüəllimatı. 1922-ci il*

nım Zeynalova və başqaları Azərbaycan xalqının maariflənməsi və mədəni inkişafı sahəsində geniş fəaliyyəti, yüksək və nəcib xidmətləri ilə fərqlənmişlər.

1926-cı ilin sentyabrından Maarif komissarının sərəncamı ilə iki məşhur təhsil ocağı – darülmüəllimin (oğlanlar üçün) və darülmüəllimat (qızlar üçün) birləşdirilərək Bakı Müttəhid (Birləşmiş) Pedaqoji Texnikumu kimi fəaliyyət göstərdi. Texnikum tezliklə respublikanın təhsil ocaqları arasında görkəmli yer tutdu. Pənah Qasımov birləşmiş məktəbin direktoru, Camo Cəbrayılbəyli tədris işləri üzrə direktor müavini təyin olundu.

Həmin məktəbin ilk məzunlarından olan Cəfər Rəmzi o illərlə bağlı xatirələrini «Ədəbiyyat qəzeti»nin 1994-cü il 23 dekabr sayında belə yada salır: *«Qapımızda gözətçi vardı. Həftədə 2 gün oradan çıxmağa icazə verilirdi: şənbə günü dərsdən sonra və cümə günü istəyənlər ailələri ilə görüşə bilərdi. Yemək, dəllək, hamam o binada idi. Qızlar dərsdən sonra əvvəlki binalarına gedərdilər... Hərdənbir müəllim bizi kinoya və teatra aparardı.*



*Mədinə xanım Qiyasbəylinin müdir olduğu Bakı Darülmüəllimatın şagird və pedaqoji kollektivi. 1926-cı il*

*Məktəbimizdə intizam dedikcə möhkəm idi. Məktəblər birləşəndə mən onuncuda (son sinifdə) idim. Sinfimizdə 36 uşaq vardı. Əksəriyyəti qızlar idi. Bu təhsil ocağı ilk vaxtlar ibtidai sinif müəllimləri, məktəbəqədər tərbiyə müəssisələri üçün tərbiyəçilər hazırlayırdı.*

*1927-ci il iyun ayında birləşmiş məktəbin birinci buraxılışı oldu. Bu münasibətlə 25 may 1927-ci ildə «Gənc maarifçi» adlı xüsusi bir qəzet çap olundu. Qəzetdə Mərkəzi İcraiyyə Komitəsinin sədri Səmədağa Ağamalıoğlunun və Xalq Maarif komissarının təbrikləri də var idi. Yüz beş nəfər məzunun rayonlar üzrə siyahısı verilmişdi. Maraqlıdır ki, məktəbi Bakıdan 5 (3 oğlan, 2 qız), Qazaxdan 22 nəfər (çoxu qız) tamamladı...»*

Xalq şairi Mirvarid Dilbazi o illəri xatırlayaraq yazırdı: *«Müəllimlərimiz namuslu, vüqarlı, qeyrət məktəbi bitirmiş ziyalı vətənpərvərlər idi. Burada hər şey şagirdin istedadı ilə ölçülürdü. Odur ki, o illərdə qız və oğlan seminariyalarında oxuyanlar arasında çoxlu istedadlar yetişdi».*

Məktəbi qurtaranların əksəriyyəti şəxsiyyətə pərəstiş dövründə güllələndi və ya həbs düşərgələrində, sürgünlərdə ömürlərini başa vurdular. Cəfər Rəmzinin özü də o dövrün qurbanlarından olmuş, ömrünün 21 il iki ayını zindanlarda, həbs düşərgələrində keçirmişdir...

1930–1931-ci dərs ilində məktəbdə rus və erməni şöbələri yaradıldı. 1930-cu ildə bu təhsil ocağı Beynəlmiləl Pedaqoji Texnikum adlandırıldı. 1936-cı ildə isə ona böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabirin adı verildi. 1938-ci ildən 1968-ci ilədək məktəb Rus Pedaqoji Məktəbi adlandı. 1968-ci ildən isə Bakı Pedaqoji Məktəbi adlandırıldı.

1938/39-cu tədris ilindən pedaqoji məktəb ümumtəhsil məktəblərinin ibtidai sinifləri üçün rus dili müəllimi, 1969-cu ildən isə IV–VIII siniflər üçün əmək və rəsmxət müəllimləri, tədris rus dilində olan məktəblər üçün ibtidai sinif müəllimi və pioner baş dəstə rəhbərləri hazırlayırdı.

Məktəbin məzunları arasında akademik Əlisöhbət Sumbatzadə, akademik Məmmədhüseyn Təhmasib, professorlar Əkrəm Cəfər, Mərdan Muradxanov, Fatma xanım Süleymanova, Əli Sultanlı, Əziz Əsgərov, xalq rəssamı Salam Salamzadə, bəstəkar Səid Rüstəmov, Niyazi, Əfrasiyab Bədəlbəyli, xalq yazıçısı Mehdi Hüseyn, şairlərdən Mikayıl Müşfiq, Mirvarid Dilbazi, Cabir Novruz, yazıçı Əzizə xanım Cəfərzadə, Sabit Rəhman və digər elm, ədəbiyyat və incəsənət xadimləri vardır.

### 4.1.7. Bakı Məktəbəqədər Pedaqoji Texnikumu

20-ci illərdə Azərbaycanda uşaq bağçaları üçün kadrların hazırlanmasının təməli qoyuldu. Bu, respublikada yüksəkixtisaslı kadrlara olan ehtiyacı ödəmək, uşaqların ictimai tərbiyəsini daha da yaxşılaşdırmaq, məktəbəqədər tərbiyə müəssisələrinin şəbəkəsini genişləndirmək və onların maddi-texniki bazasını zənginləşdirmək üçün görülən tədbirlərdən biri idi.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 14 sentyabr 1936-cı il qərarı ilə Əli Bayramov adına klubun nəzdindəki fəhlə fakültəsi 1936/37-ci dərs ilindən məktəbəqədər müəssisələr üçün işçilər hazırlayan məktəbəqədər pedaqoji məktəbə çevrildi.



*Əməkdar müəllimə İqlimə Qazıyeva Məktəbəqədər Pedaqoji Məktəbin I kurs tələbələri ilə məşğələ apararkən. 1957-ci il*

İlk vaxtlar məktəb Bakı Məktəbəqədər Pedaqoji Texnikumu adlanaraq Azərbaycan SSR Xalq Maarif Komissarlığının, sonra isə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyində fəaliyyət göstərdi. Məktəbi ilk buraxılışda 25 nəfər məzun bitirdi.

1937-ci ildə texnikumda 4 fənn komissiyası, 4 fənn kabineti var idi. Fənn komissiyaları tədris prosesinin təkmilləşdirilməsi üçün səmərəli tədbirlərin görülməsində, tədris plan və proqramlarının yenidən hazırlanması və yerinə yetirilməsində, tələbələrin bilik və bacarığının qiymətləndirilməsinin metodiki cəhətdən düzgün təşkil edilməsində fəal iştirak edirdilər.

1940-cı ildə texnikum Bakı Şəhər Xalq Maarif Şöbəsinin tabeliyinə verildi. Məktəbin öz binası olmadığından məşğələlər şəhərin müxtəlif məktəblərində keçirilirdi. 1950-ci ildə məktəb Sovet küçəsindəki 103 nömrəli binada yerləşdirildi.

Azərbaycan SSR Maarif Nazirliyinin 27 mart 1953-cü il tarixli əmri ilə respublika Qiyabi Pedaqoji Məktəbi bir şöbə kimi Məktəbəqədər Pedaqoji Texnikumun tərkibinə daxil edildi və qiyabi təhsil verən şöbə olaraq fəaliyyətə başladı. 1971-ci ildən başlayaraq məktəbdə uşaq bağçaları üçün musiqi rəhbərləri və məktəblər üçün nəğmə müəllimləri hazırlığına başlandı. Eyni zamanda məktəbdə musiqi şöbəsi fəaliyyət göstərmişdir. 1990-cı ilin dekabrından Məktəbəqədər Pedaqoji Texnikum Bakı şəhəri Nərimanov rayonu T.Şıxəliyev küçəsi 23 ünvanında yerləşmişdir.

*Bakı Məktəbəqədər Pedaqoji Texnikumunda 80-ci illərdə qəbul və buraxılışlar*

| İllər | Müəllimlər | Qəbul | Buraxılış | Qız | Oğlan |
|---|---|---|---|---|---|
| 1981 | 141 | 408 | 345 | 343 | 2 |
| 1982 | 149 | 542 | 411 | 411 | – |
| 1983 | 119 | 557 | 444 | 444 | – |
| 1984 | 144 | 544 | 447 | 447 | – |
| 1985 | 169 | 515 | 481 | 481 | – |
| 1986 | 139 | 543 | 491 | 490 | – |
| 1987 | 130 | 510 | 468 | 468 | – |
| 1988 | 136 | 278 | 548 | 548 | – |
| 1989 | 135 | 270 | 506 | 506 | – |
| 1990 | 120 | 390 | 459 | 459 | – |
| 1991 | 135 | 408 | 524 | 524 | – |




*Bakı Məktəbəqədər Pedaqoji məktəbin kollektivi nümayişdə*




*Məktəbəqədər Pedaqoji məktəbin məzunları (1963/65-ci tədris ili)*

### 4.1.8. Şuşa Mədəni-Maarif Texnikumu

Azərbaycanın tanınmış, sayılıb-seçilən təhsil ocaqlarından biri olan **Şuşa Mədəni-Maarif Texnikumu 1922-ci ildə Şuşa Müəllimlər Seminariyası kimi fəaliyyətə başlamışdır.** Həmin il seminariyaya (sonralar pedaqoji texnikum, daha sonra məktəb adlandırılmışdır) 76 nəfər qəbul edilmişdir.

30-cu illərdən 70-ci illərədək Qarabağın müxtəlif rayonlarında – Ağdam, Şuşa, Füzuli və Laçında pedaqoji məktəblər fəaliyyət göstərirdi. Respublika rəhbərliyi bu təhsil ocaqlarını birləşdirmək qərarını qəbul edəndə maddi-texniki baza, əlverişli coğrafi mövqe nəzərə alınaraq Şuşaya üstünlük verildi və həmin məktəblər Şuşa Pedaqoji Məktəbinin bazasında birləşdirildi.

1976/77-ci tədris ilindən təhsil ocağına əlavə iki ixtisas – kitabxanaçılıq və mədəni-maarif işi ixtisasları üzrə tələbə qəbulu keçirildi.

Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili Nazirliyinin 11 noyabr 1981-ci il tarixli əmrinə əsasən pedaqoji məktəb Mədəni-Maarif Texnikumu adlandırıldı, buraya ibtidai sinif müəllimi ixtisası üzrə tələbə qəbulu dayandırıldı. Qəbul yalnız kitabxanaçılıq və mədəni-maarif işi üzrə aparıldı.

Ermənilərin separatçılıq fəaliyyətinin güclənməsi məktəbin tədris və təlim-tərbiyə işlərini pozdu.

1989-cu ildə erməni şöbəsi Xankəndinə köçdü. Bir il Şuşa Mədəni-Maarif Texnikumunun büdcəsindən maliyyələşərək müstəqil qəbul keçirdi.



*Şuşa Mədəni-Maarif Texnikumunun xalq çalğı alətləri ansamblı*

## 4.2. İncəsənət təmayüllü orta ixtisas məktəbləri

### 4.2.1. Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbi

XIX əsrin sonunda neft sənayesinin inkişafı ilə bağlı Bakıda xeyli Avropa və rus sahibkarı cəmlənmişdi. Onlar özlərinin maddi-mənəvi ehtiyaclarını ödəmək üçün burada müəyyən işlər görmüşdülər. Moskva Konservatoriyasının məzunu pianoçu Antonina Yermolayevanın 1895-ci ildə Bakıda açdığı ilk xüsusi musiqi məktəbi də bu istiqamətdə görülən işlərdən biri idi.

**ANTONİNA YERMOLAYEVANIN BAKI ŞƏHƏRİNDƏ TƏSİS ETDİYİ MUSİQİ MƏKTƏBİNİN NİZAMNAMƏSİ**

§ 1.Musiqi məktəbinin məqsədi arzu edənlərə musiqi təhsili almaq imkanı verməkdən ibarətdir.

§ 2. Məktəbə zümrə fərqi qoyulmadan, 6 yaşından kiçik olmayan hər iki cinsdən olan şəxslər qəbul edilir.

§ 3. Musiqi hazırlığı almış şəxslər müvafiq siniflərə qəbul oluna bilərlər.

§ 4. Dərs fənləri: fortepiano, skripka və violençeldə çalma, nəğmə oxuma və musiqi nəzəriyyəsi.

§ 5. Məktəb 6 sinifdən ibarətdir.

§ 6. Dərslər sentyabrdan mayın sonunadək davam edir.

§ 7. Təlim haqqı məktəb müdirinin razılığı ilə ödənilir.

**Qeyd I.** Ödənilmiş vəsait heç bir təqdirdə geri qaytarılmır.

**Qeyd II.** Müəyyən müddət ərzində təyin olunmuş təlim haqqını ödəməyənlər məktəbə getmək hüququndan məhrum olurlar.

§ 8. Ayrı-ayrı cinslərə mənsub olan şəxslər təlimi ayrı-ayrılıqda alırlar.

§ 9. Məktəb müdirinə açıq musiqi gecələri və sınaqlar keçirmək səlahiyyəti verilir.

**Qeyd:** Keçirilən bütün açıq gecələr və sınaqlar haqqında məktəb müdiri əvvəlcədən yerli polis rəisinə məlumat verir və ümumiyyətlə, bu fənn üzrə qəbul olunmuş qaydalara və hökumət sərəncamlarına riayət edir.

§ 10. Məktəbdə musiqi təhsili kursunu əla qiymətlərlə başa vuranlara məktəb müdirinin və bütün pedaqoji heyətin möhürlə təsdiq edilmiş imzaları ilə musiqi biliklərinə yiyələnmələri haqqında şəhadətnamə verilir.

§ 11. Məktəbin «Bakı şəhərində A.Yermolayevanın musiqi məktəbi» yazılmış möhürü var.

İmza: **Vitse-direktor Trepov**

*Əsli ilə düzdür:*

**kargüzarlığın rəisi L.Urvantsov**

*26 sentyabr 1895-ci ildə təsdiq olunmuşdur*

Pianoçu-bacılar Antonina, Yelizaveta və Yevgeniya Yermolayevalar, həmçinin Y.A.Barkovskaya; skripkaçılar P.O.Yuon, İ.Y.Bukinik; müğənni S.K.Lisenko (Qolskaya) bu təhsil ocağının ilk müəllimləri oldular.

Məktəbdə, əsasən, rus sahibkarlarının uşaqları musiqi təhsili alırdılar. Şagirdlərin içərisində azərbaycanlı uşaqlar, demək olar ki, yox idi.

1901-ci ildə həmin məktəbin bazasında «Rus imperator Musiqi Cəmiyyətinin Bakı Şöbəsi»nin musiqi sinifləri yaradıldı. Görkəmli Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin təşəbbüsü və şəxsi səyi ilə həmin məktəb 1916-cı ildə dövlət orta ixtisas musiqi məktəbinə çevrildi.

Bu məktəbin əsasında 1920-ci ildə Xalq Konservatoriyası, 1921-ci ildə Dövlət Konservatoriyası təsis edildi. Bu konservatoriyanın



*İlk məzunlardan Səid Rüstəmov, Asəf Zeynallı, Fuad Əfəndiyev. 30-cu illər*



**Asəf Zeynallı (1909–1932)**

**Zeynallı Asəf Zeynalabdin oğlu** Dərbənd şəhərində anadan olmuşdur. Bakı Musiqi Texnikumunda təhsil almış (1923–26), Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq sinfini bitirmişdir (1931). Bakı Türk İşçi Teatrı musiqi şöbəsinin müdiri (1929–31), Azərbaycan Musiqiçilər Birliyinin sədri (1931) olmuşdur.

Fortepiano üçün yazdığı «Uşaq süitası» ilə Azərbaycan uşaq musiqisinin əsasını qoymuşdur. 50-yə qədər xalq mahnısını nota köçürmüşdür.

tərkibində azərbaycanlı müəllim və tələbələrdən ibarət olan «Şərq şöbəsi» fəaliyyət göstərirdi. 1922-ci ildə bu şöbə Konservatoriyadan ayrıldı və «Şərq Konservatoriyası» adı ilə müstəqil fəaliyyətə başladı. Burada musiqi folklorumuzdan, muğam sənətindən başqa, şagirdlərə Avropa və rus bəstəkarlarının əsərləri də öyrədilirdi. 1924-cü ildə məktəbin adı dəyişdirildi və Azərbaycan Dövlət Türk Musiqi Texnikumu adlandırıldı. Həmin dövrdə məktəbdə fortepiano, skripka, tar, kamança, xanəndəlik sinifləri fəaliyyət göstərirdi. Texnikumun ilk məzunları arasında Səid Rüstəmov, **Asəf Zeynallı,** Əfrasiyab Bədəlbəyli, Xurşid xanım Ağayeva və başqaları var idi. 1926-cı ildə Texnikum Dövlət Konservatoriyasına birləşdirildi. 1932-ci ildən isə 1№-li Dövlət Musiqi Texnikumu kimi müstəqil fəaliyyətə başladı.

30-cu illərdə məktəbin müxtəlif şöbələrində Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli, Bülbül, Səid Rüstəmov, Hüseynqulu Sarabski, Ağası Məşədibəyov kimi sənətkarlar çalışmışdılar. Bu illər texnikumun tarixində bütün şöbələrin ahəngdar və sabit işləməsi, yaradıcılıq axtarışlarının davam etdirilməsi, konsert fəaliyyətinin güclənməsi, gənc musiqiçi kadrların yetişdirilməsinə tələbkarlığın artması, müəllim kollektivinin fəallaşması, tədris keyfiyyətinin daha da artırılması dövrü olmuşdur. Həmin illərdə folklora, xalq musiqisi ənənələrinin öyrənilməsinə, muğamlarımızın tədrisinə və tətbiqinə marağın artması ilə yanaşı, bəstəkarlar tərəfindən yeni musiqi əsərləri də yazılır, klassik musiqiyə meyil güclənirdi. Cövdət Hacıyev, Əfrasiyab Bədəlbəyli, Bülbül, Qurban Pirimov, Seyid Şuşinski,



*Üzeyir bəy Hacıbəyli tələbələri ilə: soldan Qara Qarayev, Səid Rüstəmov, Niyazi, Əşrəf Həsənov. 1946-cı il*



*Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunun binası*




*Müxtəlif illərdə Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumuna rəhbərlik etmiş direktorlar*

Ağası Məşədibəyov kimi sənət fədailərinin məhsuldar əməyi sayəsində tədris prosesi daha da təkmilləşir, ifaçılıq səviyyəsi yüksəlirdi.

40–50-ci illərdə texnikumda müəllim və tələbələrdən ibarət xalq çalğı alətləri orkestri, ansamblı, kamera kollektivləri, muğam üçlüyü yaradıldı. Müəllim və tələbə kontingenti kəmiyyət və keyfiyyət baxımından daha da genişləndi. Texnikumda rus və xarici ölkələrin musiqi nəzəriyyəsi fənləri üzrə yeni metodik vəsaitlər yazılır, ixtisas dərslərini təcrübəli, yüksəkixtisaslı müəllimlər aparırdılar.

1953-cü ilin dekabr ayında Musiqi Texnikumuna bu təhsil ocağının məzunu, ilk professional bəstəkar Asəf Zeynallının adı verildi. Müxtəlif illərdə məktəbə rəhbərlik etmiş Süleyman Ələsgərov, Əşrəf Abbasov, Midhəd Əhmədov, Azər Abdullayev, Vasif Adıgözəlov, Bayandur Mehdiyev və Əvəz Rəhmətovun yüksək səviyyəli pedaqoji fəaliyyətləri və böyük təşkilatçılıq işlərinin sayəsində sonrakı dövrlərdə musiqi məktəbi fəaliyyətini uğurla davam etdirdi, onun maddi-texniki bazası möhkəmləndi.

60-cı illərdə Musiqi Texnikumunun kollektivi səmərəli fəaliyyət göstərərək, Azərbaycan Dövlət Konservatoriyası, uşaq musiqi məktəbləri, bədii özfəaliyyət və digər yaradıcı kollektivlər üçün yüzlərlə ixtisaslı mütəxəssis yetişdirdi.

1978-ci ildə 80 illik yubileyi münasibətilə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbi Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edildi. Yubiley münasibəti ilə 10-a yaxın müəllim «Əməkdar müəllim», «Əməkdar mədəniyyət işçisi» fəxri adlarına layiq görüldü, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif olundu.

Təkcə Azərbaycanda deyil, Şərqdə ilk professional musiqi tədris ocağı olan bu məktəb musiqi mədəniyyətimizə və xalqımıza başucalığı gətirən yüzlərlə dünya şöhrətli bəstəkarlar yetişdirmişdir. Qara Qarayev, Fikrət Əmirov, Cövdət Hacıyev, Soltan Hacıbəyov, Tofiq Quliyev, Cahangir Cahangirov, Arif Məlikov, Hacı Xanməmmədov kimi sənətkarlarımız bu təhsil ocağının yetirmələridir.

Görkəmli Azərbaycan xanəndələrindən Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Həqiqət xanım Rzayeva, Şövkət xanım Ələkbərova, Rübabə xanım Muradova, Sara xanım Qədimova, Əlibaba Məmmədov, Hacıbaba Hüseynov, Nəriman Əliyev, məşhur tarzənlər Qurban Pirimov, Mirzə Mansur Mansurov, Əhməd Bakıxanov, Bəhram Mansurov, Adil Gəray Məmmədbəyov, Əhsən Dadaşov, Baba Salahov və digərləri, kamança ustaları Hafiz Mirzəliyev, Tərlan Qazıyev, Fərhad Dadaşov ilk sənət addımlarını burada atmış, ömürlərini bu qocaman təhsil ocağı ilə bağlayaraq, pedaqoji fəaliyyətlərini sona qədər burada davam etdirmişlər.

Milli mədəniyyətimizin iftixarı olan Müslüm Maqomayev, Firəngiz xanım Əhmədova, Lütfiyar İmanov, Zeynəb xanım Xanlarova, Rafiq Babayev, Vaqif Mustafazadə, Ramiz Mustafayev, Məmməd Quliyev, Habil Əliyev, İslam Rzayev və digər adlı-sanlı sənətkarlar da Asəf Zeynallı adına Musiqi məktəbinin yetirmələridir.

Məktəbin məzunlarından doqquz nəfəri – Qara Qarayev, Fikrət Əmirov, Rauf Hacıyev, Soltan Hacıbəyov, Arif Məlikov, Müslüm Maqomayev, Firəngiz xanım Əhmədova, Zeynəb xanım Xanlarova, Lütfiyar İmanov SSRİ Xalq artisti adına layiq görülmüşlər.

*Bakı Musiqi Məktəbinin*
*1952–1957-ci illərdə buraxılışı*

| № | İxtisaslar | Məzunların sayı |
|---|---|---|
| 1. | Pianoçular | 1312 |
| 2. | Xalq çalğı alətləri ifaçıları | 572 |
| 3. | Nəzəriyyəçilər | 356 |
| 4. | Xor dirijorları | 311 |
| 5. | Vokalistlər | 293 |
| 6. | Simli alətlər ifaçıları | 276 |
| 7. | Nəfəs alətləri ifaçıları | 238 |
| **Cəmi:** | | **3358** |

### 4.2.2. Respublikanın digər orta ixtisas musiqi məktəbləri

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində respublikada bir sıra orta ixtisas musiqi məktəbləri yarandı. Bunlar Gəncə, Ağdam, Şəki, Stepanakert (Xankəndi) və Sumqayıt musiqi məktəbləri idi.

**Gəncə Musiqi Texnikumu** respublikanın musiqi təhsilinin inkişafında özünəməxsus tarixi əhəmiyyəti olan təhsil ocağıdır.

Gəncədə musiqi təhsilinin tarixi 1920-ci ildən başlayır. Gəncə Maarif Komissarlığının incəsənət şöbəsinə sədrlik edən görkəmli

müğənnimiz Bülbül 1920-ci ilin noyabr ayında Bakıda keçirilən Azərbaycan Xalq Maarif Komissarlığının I qurultayında Gəncədə musiqi təhsil ocaqlarının yaradılması haqqında təkliflə çıxış etdi. Qurultayın qərarına əsasən, Gəncədə ilk dəfə olaraq müsəlman müəllimləri üçün 6 həftəlik musiqi kursları təşkil edildi. Kurslar bitdikdən sonra bu siniflərin bazası əsasında Gəncədə Musiqi Studiyası yaradıldı.

Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə 1923-cü il avqust ayının 26-da şəhər İcra Komitəsinin sərəncamına əsasən, Musiqi Studiyası yeddiillik Musiqi Məktəbinə çevrildi. Tədris müəssisəsinin profili təkmilləşdi. Fortepiano, skripka, tar siniflərindən əlavə, nəfəs alətləri sinfi fəaliyyətə başladı. Məktəb 2 bölməyə ayrıldı: Avropa bölməsinə P.A.Xruleviç, Şərq bölməsinə Məşədi Cəmil Əmirov rəhbərlik edirdi. Məktəbə Moskvadan, Sankt-Peterburqdan, Kiyevdən yüksəkixtisaslı müəllimlər dəvət edildi. Tar, muğam-səs siniflərində Məşədi Cəmil Əmirovla yanaşı, Həmzə Əliyev, muğam ustadlarından Musa Şuşinski, Əbdürrəhman Fərəcov (Leyli rolunun ilk ifaçısı) da gənc istedadların yetişməsində böyük qayğı göstərirdilər.

1923-cü ildən 1928-ci ilədək musiqi məktəbində 70 nəfər təhsil almışdı.

1929-cu ildə Gəncə musiqi məktəbi texnikum adlanmağa başladı. Burada violonçel, kamança, vokal sinifləri yaradıldı. Musiqi nəzəriyyəsi tədris planlarına əsas fənn kimi daxil edildi. Tələbələrin sayı tədricən artaraq 150 nəfərə çatdı.

1930-cu ildə Üzeyir bəy Hacıbəylinin təklifi ilə Məşədi Mehdiyev Musiqi Texnikumunda xalq çalğı alətləri ansamblı yaratdı.

1937-ci ildə Orta ixtisas musiqi məktəbi kimi formalaşan təhsil ocağı onbirillik təhsilə keçdi: bunun 7 ili musiqi təhsili, 4 ili orta ixtisas təhsili idi.

II Dünya müharibəsi illərində məktəb Milli musiqiçi kadrların hazırlanması istiqamətində işini davam etdirdi. Müharibənin ilk günlərindən Fikrət Əmirov, İsmət Qayıbov, Eyyub Abdullayev, Cavad Vəlizadə, Abbasəli Vəliyev, Mirsüccə Cəfərov, Nadir Teymurzadə, Məmməd Bağırov cəbhəyə getdilər. Fikrət Əmirov yaralandığına görə və ordudan tərxis olunduqdan sonra 1943-cü ildə Üzeyir Hacıbəylinin məsləhəti ilə Gəncə Musiqi Texnikumuna və Gəncə Dövlət Filarmoniyasına rəhbərlik etməyə başladı.

1954-cü ildə musiqi texnikumu musiqi məktəbindən ayrılaraq orta ixtisas musiqi məktəbi kimi müstəqil fəaliyyətə başladı. Uşaq musiqi məktəbinə mahir tarzən Abbasəli Vəliyev, orta ixtisas musiqi məktəbinə isə Gəncədə ilk ali təhsilli azərbaycanlı pianoçu Ziynət xanım Kərimova rəhbərlik etməyə başladı. Bu illərdə təhsil 5 ixtisas üzrə aparılırdı: fortepiano, simli alətlər, nəfəs alətləri, xalq çalğı alətləri, xanəndəlik.

1956-cı ildə Xor dirijorluğu, 1958-ci ildə isə Musiqi nəzəriyyəsi şöbəsi yaradıldı.

Sonra müxtəlif illərdə Gəncə Musiqi Texnikumuna Asəf Əlizadə, Mübariz Novruzov, Şirin Rzayev, Vahid Mirzəyev kimi istedadlı musiqiçilər rəhbərlik etmişlər.

Gəncə orta ixtisas musiqi məktəbini 1990-cı ilə kimi 2200 tələbə bitirmişdir.

Dünya şöhrətli musiqiçi Fikrət Əmirov, Qənbər Hüseynli, Telman Hacıyev kimi sevilən bəstəkarlar Gəncə orta ixtisas musiqi məktəbinin məzunlarıdır.

Gəncə Musiqi Texnikumunda yaradılan musiqi kollektivlərinin hər biri şəhərin mədəni və ictimai həyatında böyük rol oynamışdır. Müxtəlif illərdə texnikumda simfonik orkestr, xalq çalğı alətləri orkestri, «Məhsəti» qızlar rəqs ansamblı, «Gəncə qızları» vokal kvarteti, «Folklor xoru» fəaliyyət göstərmişdir.

**Ağdam orta ixtisas musiqi məktəbi.** 1958-ci ildə Azərbaycan Respublikası Əmək Ehtiyatları Baş İdarəsinin sərəncamı ilə Üzeyir Hacıbəyov adına Ağdam orta ixtisas musiqi məktəbi fəaliyyətə başlamışdır. 60-cı illərdə məktəbdə 42 müəllim çalışır, 73 nəfər tələbə təhsil alırdı.

Məktəbin ilk direktoru, 50-ci illərin musiqiçiləri arasında xüsusi hörməti olan Əlipaşa Daşdəmirov olmuşdur. O vaxtın musiqiçiləri Con Əliyev, Məşədi Bahadur, Məhəmməd kişi, Məşədi Nəriman burada müəllimlik etmişlər. Sonralar, 1978-ci ilədək məktəbə tarzən Xosrov Fərəcov, 1984-cü ilədək sənətşünaslıq namizədi Əvəz Rəhmətov və 1989-cu ilədək Mais Salmanov rəhbərlik etmişlər.

1986/87-ci tədris ilinədək məktəb 32 otaqdan və sonradan əlavə edilmiş bir salondan ibarət ikimərtəbəli köhnə malikanədə fəaliyyət göstərmişdir. Yalnız 1986/87-ci tədris ilində məktəb üçün yeni beşmərtəbəli yaraşıqlı bina tikilib istifadəyə verilmişdir. Burada 105 sinif otağı, kitabxana, 4 laboratoriya, 4 linqafon kabinəsi, 14 «leti» qurğusu və kinoproyektoru olan kabinələr fəaliyyət göstərirdi. Musiqi məktəbinin avadanlığı siyahısında 65 royal və piano var idi.

Həmin dövrdə məktəbdə 132 müəllim işləyirdi. 200 nəfərdən çox tələbə müxtəlif ixtisaslar üzrə təhsil alırdı. Məktəbin əvvəlki binası yataqxanaya çevrilmiş, burada 150 nəfər tələbənin yaşaması üçün lazımi şərait yaradılmışdı.

Azərbaycanın bir çox tanınmış sənətkarı bu musiqi ocağında təhsil almış və sonralar elə burada da müəllimlik fəaliyyətinə başlamışdır.



*Ağdam orta ixtisas musiqi məktəbinin «Şur» xalq çalğı alətləri ansamblı*

Bu məktəbi bitirənlər uşaq musiqi məktəblərində müəllim, konsertmeyster, orkestr üzvü, xor dirijoru işləyə bilərdilər. Məktəbin bazasında xalq çalğı alətləri orkestri, tələbə xoru fəaliyyət göstərirdi. Bu kollektivlər rayonun bütün bayram tədbirlərində iştirak edirdilər. Məktəb Azərbaycan Dövlət Konservatoriyası ilə sıx əlaqə saxlayırdı və onların arasında yaradıcı əməkdaşlıq haqqında müqavilə var idi. Məktəbin 8 mindən artıq kitab fondu olan kitabxanası var idi. Təhsil Azərbaycan və rus dillərində aparılırdı. Ağdam orta ixtisas musiqi məktəbi ümumtəhsil məktəblərinin VIII sinif bazasında fortepiano, xalq çalğı alətləri (tar, kamança), xanəndəlik (VIII və X sinif bazasında), xor dirijorluğu, musiqi nəzəriyyəsi üzrə orta ixtisaslı mütəxəssislər hazırlayırdı. Təhsil müddəti 3 il 10 ay idi. Fortepiano şöbəsinin tələbələri musiqi məktəblərində müəllim və konsertmeyster ixtisaslarına yiyələnirdilər.

**Şəki Musiqi Texnikumu** 1958-ci ildə yaradılmış, Maqsud Əhmədiyyə oğlu Şirinzadə onun ilk direktoru olmuşdur. Texnikum fortepiano və xalq çalğı alətləri şöbələri ilə fəaliyyətə başlamışdır. İlk qəbulda texnikuma fortepiano ixtisası üzrə 3, xalq çalğı alətləri ixtisası üzrə 7 tələbə qəbul edilmişdir. Tələbələrlə fortepiano ixtisası üzrə Barbina Berkoviç, xalq çalğı alətləri ixtisası üzrə Maqsud Şirinzadə, Nemət Məmmədov, Nüsrət Hüseynov, nəzəriyyə fənləri üzrə Maqsud Şirinzadə məşğul olurdu.

Sonralar burada 4 fənn komissiyasında 66 müəllim fəaliyyət göstərirdi. Şəki orta ixtisas musiqi məktəbi fortepiano, xalq çalğı alətləri, xanəndəlik, xor dirijorluğu, musiqi nəzəriyyəsi, simli alətlər, nəfəs alətləri ixtisasları üzrə orta ixtisaslı mütəxəssislər hazırlayırdı. Məktəbdə xarici dillər, ədəbiyyat və rus dili, fizika, riyaziyyat, hərbi kabinet, həmçinin xarici dil, rus dili, Azərbaycan dili, bədən tərbiyəsi və idman üzrə fənn dərnəkləri yaradılmışdı. Məktəb Azərbaycan Dövlət Konservatoriyası ilə sıx əlaqə saxlayırdı. Tədris rus və Azərbaycan dillərində aparılırdı. Məktəbin kollektivi müsabiqə və festivallarda uğurla çıxış edirdi. 1976-cı ildə Şəki orta ixtisas musiqi məktəbinin xor kollektivi Ümumittifaq festivalında birinci yeri tutmuşdu.

Texnikum fəaliyyətə köhnə karvansara binasında başlamışdı. Bu bina musiqi texnikumu üçün lazımi tələblərə cavab vermirdi. Buna baxmayaraq, 1987-ci ilədək tədris müəssisəsi həmin binada fəaliyyət göstərməyə məcbur olmuş, 1987-ci ildən isə şəhərin yuxarı hissəsində yerləşən köhnə həbsxana binasına köçürülmüşdü.

Növbəti illərdə texnikumda orkestr alətləri, xanəndəlik, musiqi nəzəriyyəsi və xor dirijorluğu şöbələri fəalliyyətə başladı. 60-cı illərin sonunda texnikumda qiyabi şöbə yaradıldı. Həmin illərdə burada 100-dən çox tələbə təhsil alırdı. 70–80-ci illərdə isə texnikumun 100-ə qədər müəllimi, 300-dən çox tələbəsi var idi.

80-ci illərin əvvəllərindən 1990-cı ilədək texnikumun fəaliyyətində durğunluq yaranmağa başladı. Tədricən tələbə qəbulu azaldı. 1989-cu ildə bütün ixtisaslar üzrə texnikuma cəmi 29 tələbə qəbul edilmişdi. Bu isə respublikanın şimal bölgəsində – Şəki–Balakən zonasında fəaliyyət göstərən uşaq incəsənət, musiqi və mədəniyyət ocaqlarında çalışan orta ixtisaslı musiqiçi kadrların sayının kəskin

azalmasına və ümumiyyətlə, bölgədə mədəni həyatın səviyyəsinin aşağı düşməsinə səbəb oldu.

**Stepanakert (Xankəndi) orta ixtisas musiqi məktəbi** 1961-ci ildə Ağdam musiqi məktəbinin filialının bazasında yaranmışdı. Burada təhsil Azərbaycan, rus və erməni dillərində aparılırdı. Məktəbdə 71 müəllim dərs deyirdi. Qəbul 8-ci sinif bazasında idi.

Şuşada və ətraf rayonlarda milli musiqi sənətinin inkişafı üçün gözəl şərait, zəngin ənənə, musiqi mədəniyyətinə məhəbbət olduğunu, habelə məktəblərdə musiqi müəllimlərinin çatışmadığını nəzərə alaraq 1982-ci ildə Xankəndi Musiqi Məktəbinin Şuşa filialının bazasında müstəqil **Şuşa Musiqi Məktəbi** təsis olundu.

Həmin ildə Quba-Xaçmaz zonasını musiqiçi mütəxəssislərlə təmin etmək məqsədilə Qubada Asəf Zeynallı adına Bakı Musiqi Məktəbinin filialı yaradıldı. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin 19 aprel 1984-cü il tarixli qərarı ilə Quba və Sumqayıt ərazilərinin yaxınlığı nəzərə alınaraq, Quba filialı Soltan Hacıbəyov adına Sumqayıt musiqi məktəbinə birləşdirildi.

**Sumqayıt orta ixtisas musiqi məktəbi** 1965-ci ildə yaranmışdır. Ağdam, Şəki musiqi məktəblərindən fərqli olaraq Sumqayıt məktəbinin qiyabi şöbəsi də var idi. Məktəbdə 13 fənn komissiyası mövcud idi. Burada 170 əməkdaş müəllim və konsertmeyster fəaliyyət göstərirdi. İxtisas fənlərinə xüsusi alətlər və solfecio daxil idi. Bu məktəbin tələbələri arasında Moldoviya, RSFSR, Ukrayna, Belorusiya, Litva, Estoniya musiqi məktəblərinin Tiraspol şəhərində keçirilən dostluq müsabiqə-festivalının çoxlu qalibi var idi. Məktəb gündüz və qiyabi təhsil üzrə fortepiano, simli alətlər, nəfəs və zərb alətləri, Azərbaycan xalq çalğı alətləri, xanəndəlik, xor dirijorluğu, musiqi nəzəriyyəsi ixtisasları üzrə mütəxəssislər hazırlayırdı.

**Lənkəran orta ixtisas musiqi məktəbi** 1975-ci il may ayının 5-də Azərbaycan SSR Nazirlər Sovetinin qərarına əsasən yaradılmışdı. Məktəbin yerləşdiyi binanın ümumi sahəsi 1240 kv.m, tədris üçün istifadə olunan sahəsi 800 kv.m idi. Binada qrup və fərdi dərslər üçün 17 sinif, 2 inzibati otaq, 100 nəfərlik konsert zalı və s. otaqlar var idi.

Məktəb Lənkəran və ətraf rayonların (Astara, Lerik, Masallı, Yardımlı, Puşkin (Biləsuvar), Cəlilabad, Salyan, Neftçala) musiqi məktəbləri üçün fortepiano və xalq çalğı alətləri ixtisasları üzrə kadr hazırlığı ilə məşğul olurdu.

Məktəbin «Şənlik» ansamblı bədii özfəaliyyət kollektivlərinin birinci ümumittifaq festivalının laureatı olmuşdu.

**Naxçıvan orta ixtisas musiqi məktəbi** 1975-ci il aprelin 28-də Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin əmri ilə orta ixtisas musiqi məktəbi kimi fəaliyyətə başlamışdır. 1975/76-cı tədris ilində ilk tələbə qəbulu keçirildi və 31 nəfər gənc məktəbə qəbul edildi. Təhsil Azərbaycan və rus dillərində aparılırdı. Tələbələr xalq mahnıları və muğam, simli alətlər, xalq çalğı alətləri və fortepiano ixtisasları üzrə təhsil alırdılar. 1978-ci ildə Naxçıvan MSSR Nazirlər Sovetinin qərarı ilə məktəbə dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin adı verilmişdi. Bu məktəb yarandığı ilk illərdə pedaqoji kadrlarla təmin

olunması işində bir sıra çətinliklərlə qarşılaşdı. Həmin illərdə yüksəkixtisaslı musiqiçi pedaqoqların az olması səbəbindən məktəbin müəllim kollektivi əsas etibarilə Azərbaycanın digər bölgələrindən Naxçıvana göndərilən kadrlardan təşkil olundu. Məktəb musiqi məktəbləri üçün müəllim, orkestrlər üçün solist və bədii rəhbərlər hazırlayırdı.

Naxçıvan orta ixtisas musiqi məktəbinin yetirmələri respublika müsabiqələrində dəfələrlə iştirak edib uğur qazanmışlar. Sonrakı illərdə də məktəbin xalq çalğı alətləri orkestri, birləşmiş xoru, xalq çalğı alətləri üçlüyü, vokal qrupu Azərbaycan, eləcə də dünya bəstəkarlarının əsərlərini yüksək peşəkarlıqla ifa edib, bir çox müsabiqələrin qalibi və diplomantları olmuşlar. Bu illərdə texnikumda fəaliyyət göstərən müəllim və tələbələrdən ibarət «Nəqşicahan» və «Əcəmi naxışları» ansamblları da Azərbaycan miqyasında tanındı. Bu məktəbin hamiləri Azərbaycan Dövlət Konservatoriyası və Ordubad konserv zavodu idi.

### 4.2.3. Azərbaycan Teatr Texnikumu

**1922-ci il noyabrın 1-də Azərbaycan Xalq Maarif Komissarlığı Azərbaycan dövlət teatr məktəbinin açılması barədə qərar verdi. Şövkət xanım Məmmədova** məktəbin ilk müdiri təyin olundu və teatr məktəbinə Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundovun adı verildi. Bu məktəb Azərbaycan tarixində respublikanın teatrları və digər mədəniyyət ocaqları üçün yaradıcı kadrlar hazırlayan ilk tədris müəssisəsi idi. 1923-cü ilin avqustunda məktəbin əsasnaməsi təsdiq edildi. Əsasnaməyə görə məktəbdə təhsil müddəti 3 il müəyyən edilmişdi. Teatr məktəbinə daxil olmaq istəyənlər birinci dərəcəli məktəbi qurtarmaq barədə şəhadətnamə təqdim etməli idilər. Bundan başqa, əsasnamənin qeyd hissəsində göstərilirdi ki, «lüzum olarsa, məktəbin nəzdində az hazırlıqlı olanlar üçün birinci dərəcəli məktəbin tələbi həcmində əlavə kurslar təşkil olunur». Məktəbə qəbul olanlar üçün yaş həddi də müəyyənləşdirilmişdi. Qızların yaşı 13-dən, oğlanların yaşı isə 15-dən az olmamalı idi. 1923-cü ildə aktyorluq bölməsinə ilk qəbul keçirildi, məktəbə 40 nəfər gənc qəbul edildi. Onlardan 12 nəfəri azərbaycanlı qızlar idi.

Nəzəri və təcrübi məşğələlərin siyahısına Azərbaycan, Rus və Avropa teatr tarixi, təsviri sənət və memarlıq tarixi, geyim və qrim tarixi, Azərbaycan dili və ədəbiyyatı,



**Şövkət Məmmədova (1897–1981)**

**Məmmədova Şövkət Həsən qızı** Tiflis şəhərində anadan olmuşdur. Bakıya gəlmiş (1910) və Hacı Zeynalabdin Tağıyevin köməyi ilə İtaliyanın Milan şəhərində musiqi məktəbinə (1911) daxil olmuşdur. Maliyyə çətinliyi üzündən təhsilini yarımçıq qoyub Rusiyaya qayıtmış və Tiflis musiqi məktəbində təhsil almış (1912) və Kiyev Konservatoriyasına daxil olmuşdur (1915). Rusiya, Fransa, İran və Gürcüstanda çıxışlar etmiş (1921), yenidən Milan musiqi məktəbinə daxil olub, yarımçıq qalmış təhsilini başa vurmuşdur (1927–1930). Azərbaycanda ilk not nəşriyyatı idarəsinin və Bakı Teatr Texnikumunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) yaranması onun adı ilə bağlıdır (1923–1925).

İlk professional qadın müğənni kimi yaradıcılığı ilə Azərbaycanın opera sənəti tarixində yeni səhifə açmışdır.

SSRİ xalq artisti adına layiq görülmüşdür (1938).

rus dili və ədəbiyyatı, estetika, psixologiya, ictimaiyyat, səhnə məşğələləri və bədii parçalar, səs və nəfəs quruluşu, ifadəli oxu, deklomasiya, plastika, gimnastika, qılıncoynatma, akrobatika və jonqlyorluq, qrim, not təhsili və solfecio daxil idi. Bu fənlərdən əlavə, pedaqoji şuraya icazə verilmişdi ki, ehtiyac olarsa, tədris planına səhnə sənətinin bu və ya digər bölməsinə dair xüsusi kurs da daxil edilsin.

Teatr məktəbi yarandığı gündən bir çox təşkilati, tədris, metodiki və yaradıcılıq məsələlərinin həllinə başladı. Bütün işləri sıfırdan başlamaq lazım gəlirdi. Hələlik bu sahədə heç bir təcrübə yox idi. Məktəb rəhbərliyi qarşısında duran ən vacib problemlərdən biri yüksəkixtisaslı pedaqoji heyətin formalaşdırılması idi. İlk növbədə ana dilində dərs demək üçün müəllimlər, metodik vəsait çatışmırdı.

Əbdürrəhim bəy Haqverdiyev, Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Azərbaycan Dövlət Dram Teatrının bədii rəhbəri, sonralar respublika teatr təhsilinin inkişafında mühüm xidmətlər göstərmiş Aleksandr Tuqanov və b. teatr məktəbinin işinə cəlb olundular. Sonrakı illərdə tanınmış aktyor və rejissorlardan Fatma xanım Qədri, Rza Təhmasib, Kazım Ziya, Ağasadıq Gəraybəyli, Ədil İsgəndərov, Məhərrəm Haşımov, Süleyman Tağızadə, Həsən Əliyev də teatr məktəbində fəaliyyət göstərirdilər.




*Bakı Teatr Texnikumunun ilk buraxılışı*



*Bakı Teatr Texnikumunun tələbələri*



*Bakı Teatr Texnikumunun tələbələri qrim otağında*

Fəaliyyətinin ilk illərində maddi-texniki bazanın zəifliyi məktəbin işini ləngidirdi. Məktəbin binası məşğələlər üçün yararsız idi. Səhnə üçün meydança yox idi. Zəruri mebel, rekvizit çatışmırdı. Dərsləri kənarda – teatrlarda, klublarda keçirdilər. Çünki teatr məktəbinin cəmi 3 otağı var idi. Məktəbin yataqxanası yox idi. Bakıdan kənarda yaşayan şagirdlər qəbul imtahanlarını müvəffəqiyyətlə versələr də, qalmağa yer olmadığına görə təhsillərini davam etdirə bilmirdilər. 1923-cü ildə daxil olan 40 şagirddən məktəbi yalnız 11 nəfər bitirə bilmişdi. 1924-cü ildə qəbul olan 60 şagirddən isə dərs ilinin sonuna cəmi 21 nəfər qalmışdı. Müəllim çatışmadığından bir çox dərslər rus dilində aparılırdı. Ona görə də mühazirələri tərcümə edib yazdırırdılar. Məktəbin işində görkəmli dramaturq Cəfər Cabbarlı da məsləhətçi və təcrübəçi kimi yaxından iştirak edirdi.

1925-ci ildə təhsil müddəti artırılıb 4 ilə çatdırıldı. Tədris planları genişləndirilib ali məktəbin tədris planına yaxınlaşdırıldı. Respublika teatr məktəbinin yeni nizamnaməsi tərtib olundu. Məktəb Azərbaycan Teatr Texnikumu adlandırıldı. Texnikum aktyor və rejissor kadrlarla yanaşı, təlimatçı, klub işçisi, teatrşünas ixtisasları üzrə mütəxəssis hazırlamaq hüququ qazandı.

Qəbul zamanı yaş məsələsinə yenidən baxıldı və qərara alındı ki, texnikuma qəbul olmaq istəyən oğlanların yaşı 17-dən, qızların yaşı 16-dan az olmamalıdır. Texnikumun ilk buraxılışı 1926-cı ilin iyun ayında oldu və bu müəssisəni dram aktyoru diplomu ilə 11 nəfər bitirdi. Respublikanın xalq artisti Fatma xanım Qədri də onların arasında idi.

*Azərbaycan Teatr Texnikumunun*
*1928–1932-ci illərdə buraxılışı*

| İllər | Məzunların sayı |
|---|---|
| 1928 | 12 |
| 1929 | 13 |
| 1930 | 9 |
| 1931 | 29 |
| 1932 | 16 |

Cədvəldə yalnız Azərbaycan teatrları üçün hazırlanan kadrların sayı göstərilmişdir. Texnikum ittifaqın digər respublikaları üçün də yaradıcı kadrlar hazırlayırdı. 1930-cu il qəbulunda Gürcüstan və Ermənistan respublikalarının hərəsinə – 6, Dağıstan MR-ə – 4, Özbəkistan, Türkmənistan respublikalarının hər birinə – 3 yer, Tacikistana–2 yer ayrılmışdı.

1936-cı ildə İncəsənət İşləri Komitəsi yaradıldı və bütün incəsənət tədris işləri onun ixtiyarına verildi. 1938-ci ilin yayında İncəsənət İşləri Komitəsinin nəzdində Tədris Müəssisələri Baş İdarəsi, onun da nəzdində teatr təhsili üzrə xüsusi komissiya yaradıldı. Komissiya texnikum üçün yeni tədris planı işləyib hazırladı. Tədris planına 23 fənn daxil idi, ümumtəhsil silsiləsini 7 fənn təmsil edirdi. Bunlar ana dili və ədəbiyyat, rus dili, riyaziyyat, iqtisadi-coğrafiya, fizika, kimya, xarici dil idi. Bununla da natamam orta təhsil bazasında olan teatr məktəbinin yeni tədris planı ümumtəhsil hazırlığına görə uyğunsuzluğu aradan götürdü. 1941-ci ildə teatrşünaslıq şöbəsinin ilk və yeganə buraxılışı oldu.

30-cu illərin ortalarında artıq teatr texnikumunun ali təhsil müəssisəsinə çevrilməsi ideyası yaranmışdı. Lakin dövrün repressiyaları və İkinci Dünya müharibəsi bu ideyaların

həyata keçirilməsinə mane oldu. Müharibə qurtardıqdan sonra texnikum öz işini yenidən qurdu və 1945-ci ildə onun bazasında ali təhsil müəssisəsi yaradıldı. Bununla belə, texnikum öz fəaliyyətini 1948-ci ilədək ali məktəblə paralel davam etdirdi. Məktəb mövcud olduğu müddətdə 470-ə qədər mütəxəssis yetişdirmişdir. Bu məktəbin yetirmələrindən Fatma xanım Qədri, Rza Əfqanlı, İsmayıl Dağıstanlı, Məmmədəli Vəlixanlı, Əjdər Sultanov, Ağadadaş Qurbanov, Rəmziyyə xanım Veysəlova, İbrahim Həmzəyev, Həsənağa Salayev, Yusif Vəliyev, Nəsibə xanım Zeynalova, Süleyman Tağızadə, Sofya xanım Bəsirzadə ümumxalq məhəbbəti qazanmışdılar.

Azərbaycan Teatr Texnikumunun ayrı-ayrı buraxışları əsasında Ağdamda, Şəkidə, Qubada, Şuşada, Xankəndində, Füzulidə peşəkar dövlət teatrları yaradılmışdı.

### 4.2.4. Azərbaycan Dövlət Rəssamlıq Məktəbi

Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun və Azərbaycan Xalq Maarif komissarı Dadaş Bünyadzadənin təşəbbüsü ilə **1920-ci ildə Bakıda azad rəssamlıq emalatxanalarının əsasında Azərbaycan rəssamlıq studiyası təşkil edildi. Tezliklə bu studiya Ali Rəssamlıq Məktəbinə çevrildi.** Bu məktəb əvvəl Ali Bədii emalatxanalar, sonra isə Azərbaycan Ali Rəssamlıq Məktəbi adlandırılmışdır. Məktəbdə rəssamlıq, heykəltəraşlıq, qrafik sənət və bədii tikiş peşələri üzrə ixtisaslar var idi. 1923-cü ildə rəssamlıq məktəbinin nəzdində tətbiqi sənət şöbəsi yaradıldı. 1924-cü ildə Ali Rəssamlıq Məktəbi Azərbaycan Rəssamlıq Pedaqoji Texnikumu adlandırıldı. Həmin ildə rəngkar, qrafik və teatr tərtibatçısı rəssamlarının ilk buraxılışı oldu. Məktəbdə pedaqoji, xüsusən milli kadrlara ehtiyac duyulurdu. Bu illərdə Moskva, Kiyev Rəssamlıq İnstitutlarında, Leninqrad (Sankt-Peterburq) və Tbilisi rəssamlıq akademiyalarında azərbaycanlı tələbələrin böyük bir qrupu təhsil alırdı. Onların hamısı Əzim Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbinin məzunları idi.

Texnikum 1937-ci ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbi adlandırıldı və görkəmli rəssam **Əzim Əzimzadə** məktəbə direktor təyin edildi. 1943-cü ildə Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə Azərbaycan SSR xalq rəssamı Əzim Əzimzadənin adı verildi.



*Azərbaycan rəssamlıq məktəbinin banisi Əzim Əzimzadə həmkarları arasında*



*Nəriman Nərimanov, Dadaş Bünyadzadə və Əzim Əzimzadə rəssamlıq məktəbinin müəllimləri arasında*



*Azərbaycanın görkəmli rəssamları: Səttar Bəhlulzadə, Tahir Salahov, Kamil Xanlarov, Toğrul Nərimanbəyov, Tağı Tağıyev və b.*



**Əzim Əzimzadə (1880–1943)**

**Əzimzadə Əzim Aslan oğlu** Bakının Novxanı kəndində anadan olmuşdur. Rus-tatar məktəbində təhsil almış (1895–1899). «Molla Nəsrəddin» satirik jurnalında əməkdaşlıq etmişdir (1906). Kitab qrafikasına keçərək qrafika üsulu ilə işləmişdir (1917). Müasir Azərbaycan qrafikasının təşəkkülü, formalaşması və inkişafı Əzim Əzimzadənin adı ilə bağlıdır. Azərbaycan Maarif Komissarlığının İncəsənət şöbəsinə rəhbərlik etmişdir (1920). Azərbaycan Rəssamlıq Məktəbinin yaranması (1932) onun adı ilə bağlıdır.

Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində 232 əsəri və 3 albomu qorunur.

İkinci Dünya müharibəsi illərində məktəbin müəllim və tələbələrinin bir çoxu cəbhəyə getdi. Onların arasında Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə də vardı. İkinci Dünya müharibəsi başa çatdıqdan sonra rəssamlıq məktəbində işlər tədricən qaydaya düşdü. İttifaqın tanınmış ali məktəblərində yetişən məzunlar geri döndülər. Onların gəlişi ilə rəssamlıq məktəbinin müəllim kollektivinə yeni qüvvələr əlavə olundu. SSRİ xalq rəssamları Tahir Salahov, Mikayıl Abdullayev, Azərbaycan SSR xalq rəssamları Rüstəm Mustafayev, Fuad Əbdürrəhmanov, Səttar Bəhlulzadə, Qəzənfər Xalıqov, Yusif Hüseynov, Nəriman Əbdürrəhmanov, Maral xanım Rəhmanzadə, Tuqay Məmmədov, Elmira xanım Şahtaxtinskaya, Toğrul Nərimanbəyov, Cabbar Qaryağdı, Elbəy Rzaquliyev və b. Azərbaycan Dövlət Rəssamlıq məktəbinin yetişdirmələridir.

### 4.2.5. Bakı Xoreoqrafiya Məktəbi

Bakıda balet studiyası barədə ilk məlumatlar 1922-ci ilə aiddir. Bu, Azərbaycan SSR Xalq Maarif Komissarlığı Kollegiyasının 29 aprel 1922-ci il tarixli iclasının qərarı ilə Əli



*Qəmər Almaszadə səhnədə*



*Q.İ.Yazvinski dərs zamanı*



*Tatyana Pavlova-Amiraqo dərs zamanı*

Bayramov adına Mərkəzi klubun nəzdində Balet Studiyası açılması barədə protokoldur.

1923-cü il avqustun 18-də Xalq Maarif Komissarlığı Kollegiyasının qərarına əsasən, Bakıda təhsil müddəti 4 il olan Balet Studiyası fəaliyyətə başlamışdır. Həmin ilə aid «Bütün Bakı» adlı illik soraq kitabçasında bədii təhsil müəssisələri sırasında «Bakı Studiyası»nın da adı çəkilirdi.

1933-cü ildə Balet studiyası Xalq Maarif Komissarlığının tabeliyinə keçdi və Opera Teatrı nəzdində Dövlət Balet studiyası kimi yenidən təşkil edildi. O vaxt məktəbin cəmi 157 şagirdi vardı. Bu məktəbin pedaqoji kollektivinin özəyi əvvəllər Leninqrad *(Sankt-Peterburq)* Opera və Balet Teatrının solisti olmuş N.R.Soboleva, T.Pavlova-Amiraqo, Bakı teatrının solistləri V.M.Yermolayev, İ.Q.Kostina,



*Qəmər Almaszadə qrim otağında*



*Leyla Vəkilova «Tərlan» baletində*



Qəmər Almaszadə
(1915–2006)

**Almaszadə Qəmər Hacıağa qızı** Bakı şəhərində anadan olmuşdur. Bakı Balet studiyasına daxil olmuş (1923), Leninqrad (Sankt-Peterburq) Xoreoqrafiya məktəbini bitirmiş (1936), həmin ildən ilk azərbaycanlı balerina kimi Azərbaycan Dövlət Opera və Balet Teatrında solist işləmişdir. Baletmeyster (1953), sonra isə balet truppasının bədii rəhbəri vəzifəsinə təyin olunmuşdur (1972). Respublikanın xalq artisti fəxri adına layiq görülmüşdür (1959). 1936-cı ildən 1987-ci ilədək Bakı Xoreoqrafiya məktəbində müəllim işləmişdir. Xalq artistləri Leyla Vəkilova, Tamilla Şirəliyeva, Çimnaz Babayeva onun tələbələri olmuşlar.

N.Dovqelli və Q.Zarovski kimi peşəkar kadrlardan ibarət idi. Həmin dövrdə məktəbdə təhsil müddəti 4 ildən 9 ilə çatdırıldı və məktəbə yeni bina verildi. Balet teatrının bir çox təcrübəli solistləri buraya müəllim qismində daxil edildilər.

1935-ci ildə Azərbaycan SSR Xalq Komissarları Şurasının qərarı ilə Dövlət Opera Teatrının Balet studiyası Xoreoqrafiya məktəbinə çevrildi. 1939-cu ildə məktəbin ilk buraxılışı oldu.

1948-ci ildə bu tədris müəssisəsi ümumi sahəsi 196 m$^2$ olan 4 sinif otağında yerləşirdi. Burada ixtisas təhsili almış 12 müəllim və 6 konsertmeyster işləyirdi. Məktəbdə 120 şagird təhsil alırdı. Onlardan yalnız 17-si oğlan idi. Həmin ildə məktəbin direktoru Aliyə xanım Tahirova, bədii rəhbəri isə sonradan SSRİ xalq artisti adına layiq görülmüş ilk azərbaycanlı balerina **Qəmər xanım Almaszadə** idi.

Aktyor sənəti və rəqs tarixi fənlərini respublikada çox böyük nüfuza malik olan professor Aleksandr Tuqanov tədris edirdi.

1962-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin **«Respublika teatrlarının və konsert təşkilatlarının fəaliyyətini yaxşılaşdırmaq tədbirləri haqqında»** qərarının icrası ilə bağlı Bakı Xoreoqrafiya Məktəbi Azərbaycan SSR Mədəniyyət Nazirliyinin təbeliyinə verildi və hökumətin sərəncamı ilə Kirov prospektindəki (indiki Bülbül prosekti) 16 nömrəli binada 15 otaq məktəbin sərəncamına keçdi.

1986-cı ildə müasir standartlara uyğun layihə üzrə yeni bina tikilib, istifadəyə verildi. Tədris müəssisəsi həmin üçmərtəbəli binada yerləşdirildi.

1931-ci ildən 1991-ci ilədək məktəbin klassik bölməsinin 700 nəfər, xalq bölməsinin isə 160 nəfər məzunu olmuşdur.

### 4.3. Sənaye, kənd təsərrüfatı və tibb kadrları hazırlayan orta ixtisas məktəbləri

20–30-cu illərdə respublikada qeyri-pedaqoji təmayüllü orta ixtisas təhsili müəssisələrinin yaradılması və şəbəkənin genişləndirilməsi istiqamətində də böyük işlər görüldü. Yalnız 1920-ci ildə Azərbaycanda kənd təsərrüfatı, sənaye-texniki, tibb, nəqliyyat və s. sahələr üzrə 7 orta ixtisas təhsili müəssisəsi təşkil olunmuşdu ki, onlarda 4000-dən çox tələbə təhsil alırdı.

Respublikanın sosial-iqtisadi və mədəni inkişafını təmin etmək məqsədilə iqtisadçı kadrların hazırlanmasına böyük ehtiyac yaranmışdı. Qısa müddətdə iqtisadiyyat, mühasibat, statistika və digər ixtisaslar üzrə kadrlar hazırlamaq lazım idi. Bu məqsədlə **1922-ci il oktyabrın 1-də Bakı şəhərində keçmiş Kommersiya Məktəbinin bazasında Sənaye-İqtisad Texnikumu yaradıldı.**

Texnikumda təhsil müddəti 3 il idi. 1922/23-cü tədris ilində bu tədris müəssisəsində 436 tələbə təhsil alırdı. Xalq Maarif Komissarlığı tərəfindən təsdiq olunmuş **«Sənaye-iqtisad texnikumları haqqında»** Əsasnaməyə görə, bu texnikumun başlıca vəzifəsi maliyyə, inzibati-təsərrüfat orqanları, sənaye müəssisələri üçün ixtisaslı kiçik mütəxəssislər hazırlamaqdan ibarət idi.

20-ci illərdə, həmçinin nəqliyyat sahəsi üçün kadrlar hazırlayan orta ixtisas təhsili müəssisələrinin bünövrəsi qoyuldu.

1920-ci ildə Bakıda ***Su Nəqliyyatı Texnikumunun*** 4 şöbəsində (gəmi sürücüsü, mexanik, gəmi tikintisi və su təsərrüfatı) su nəqliyyatı üçün kadrlar hazırlanırdı. Texnikumda ümumtəhsil fənlərini tədris edən şöbə də fəaliyyət göstərirdi. Həmin ildə ***Bakı Su Yolları Rabitəsi Texnikumu*** yaradıldı. Texnikumda şturman (gəmini idarə edən şəxs, yaxud kapitan köməkçisi) hazırlanırdı. Hər iki texnikum Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin tabeliyində idi.

1922-ci ilin mayında Bakıda Nəriman Nərimanov adına ***Bakı Sənaye Texnikumu*** yaradıldı. Bu, respublikada təlim Azərbaycan dilində olan ən böyük texnikum idi. 1924/25-ci tədris ilində həmin texnikumda tələbə və müəllim kontingenti müvafiq olaraq 495 və 57 nəfər idi.

1922-ci ildə Xalq Torpaq Komissarlığının təşəbbüsü ilə Bakıda yaradılmış Hərbi-topoqrafik kursların bazasında Səmədağa Ağamalıoğlu adına ***Kənd Təsərrüfatı Texnikumu*** yaradıldı.

Respublika neft sənayesinin bərpası və inkişafı müvafiq texniki kadrlara ehtiyacın ödənilməsini tələb edirdi. Bu məqsədlə 1922-ci ildə Balaxanıda axşam və qiyabi şöbələri olan ***Fəhlə Texnikumu*** fəaliyyətə başladı. Həmin texnikumda 1924/25-ci tədris ilində 157 tələbə təhsil alır və 28 müəllim çalışırdı.

Azərbaycan SSR Xalq Komissarları Şurasının 9 oktyabr 1923-cü il tarixli qərarı ilə həmin texnikum haqqında yeni Əsasnamə qəbul olundu. Əsasnaməyə görə bu təhsil müəssisəsi ***Bakı Yer Quruluşu Texnikumu*** adlandırıldı. (1924-cü ildə texnikumun adında və məzmununda yenidən dəyişikliklər aparıldı, meşə təsərrüfatı şöbəsi də daxil olmaqla ***Yer Quruluşu və Meliorasiya Texnikumu*** təşkil olundu. 1 oktyabr 1926-cı il tarixdən texnikum Xalq Maarif Komissarlığının tabeliyinə verildi).

1923-cü il iyulun 1-də respublikanın Nuxa (Şəki), Lənkəran və Xankəndi şəhərlərində 3 yeni kənd təsərrüfatı texnikumu fəaliyyətə başladı.

**19 noyabr 1924-cü ildə Ağdam Kənd Təsərrüfatı Texnikumu yaradıldı.** Bu texnikumun yaradılması Azərbaycan Cümhuriyyəti Hökumətinin 1920-ci ildə Almaniyaya oxumağa göndərdiyi tələbələrdən biri, sonralar Azərbaycanın kənd təsərrüfatının inkişafında mühüm xidmətləri olmuş görkəmli mütəxəssis, professor Ələkbər Əliyevə tapşırılmışdı.

Bütövlükdə 1922–1924-cü illərdə respublikada 10 kənd təsərrüfatı texnikumu yaradılmışdı və onlarda 11 ixtisas üzrə kadr hazırlanırdı.

20-ci illərin ikinci yarısında kooperativ təmayüllü II pillə (VI–IX siniflər) məktəbin bazasında *Bakı 1№-li Kooperativ Texnikumu* yaradıldı. Texnikumda təhsil müddəti 5 il idi.

Texnikumların sayı artdıqca tələbə qəbulu da ildən-ilə artırıldı. 1923/24-cü tədris ilində Bakı Sənaye Texnikumuna 181, Quba Kənd Təsərrüfatı Texnikumuna 65, Gəncə Kənd Təsərrüfatı Texnikumuna 60, Bakı Su Nəqliyyatı

Texnikumuna 131 nəfər, sənaye, kənd təsərrüfatı, nəqliyyat və s. profilli texnikumlara 838 nəfər tələbə qəbul olunmuşdu.

İlk illər texnikumlara qəbul plansız həyata keçirilirdi. Vahid qəbul qaydaları, biliyin vahid qiymətləndirmə meyarları da yox idi.

20-ci illərin ortalarında vəziyyət dəyişməyə başladı. Təhsil almaq istəyənlərin sayı artdı. Belə ki, 1925/26-cı tədris ilində Nəriman Nərimanov adına Bakı Sənaye Texnikumuna qəbul olunmaq üçün ərizə vermiş 545 nəfər abituriyentdən 240-ı, Gəncə Kənd Təsərrüfatı Texnikumuna 300 nəfər abituriyentdən 72-si, Səmədağa Ağamalıoğlu adına Bakı Yer Quruluşu Texnikumuna 275 nəfər abituriyentdən 70-i, Bakı Musiqi Texnikumuna 292 nəfər abituriyentdən 198-i qəbul olunmuşdu.

20-ci illərin ortalarından qəbulun planlaşdırılmasına başlanıldı. Hər texnikum üçün qabaqcadan yerlərin miqdarı müəyyən olundu. Bu yenilik bir çox mübahisələrə son qoydu və qəbul prosesini nizama saldı. Bir sıra texnikumlar üçün qəbul qaydaları təsdiq olundu. Bu qaydalarda bəzi güzəşt və imtiyazlar müəyyənləşdirildi. Məsələn, respublikanın musiqi və rəssamlıq texnikumları üzrə Xalq Maarif Komissarlığı tərəfindən 1926/27-ci tədris ili üçün təsdiq olunmuş qəbul qaydalarında deyilirdi: *«Birinci növbədə Azərbaycan SSR-in qəzalarından göndərilmiş şəxslər, ikinci növbədə fəhlə, ortabab kəndli və kasıb balaları, üçüncü növbədə komsomol, həmkarlar və ictimai təşkilatların göndərişləri ilə gələnlər, dördüncü növbədə bütün yerdə qalanlar qəbul olunur».* Lakin qəbul qaydalarında bu dörd dərəcədən olan şəxslərin hansı faizlə qəbulu müəyyən olunmamışdı. Bu baxımdan ÜİK(b)P MK-nın **«Ali məktəblərə, fəhlə fakültələrinə və texnikumlara qarşıdakı qəbul haqqında»** 8 iyun 1926-cı il tarixli təlimat məktubunun mühüm əhəmiyyəti oldu. Məktubda göstərilirdi ki, fəhlə və kəndli gənclər sırasından qəbul olunanlar bütün qəbul edilənlərin ən azı 75%-ni təşkil etməlidir.

Kənd təsərrüfatı və tibb texnikumlarına çoxlu sayda (həmin sahələr üzrə qəbul olunanların 50–60%-indən az olmamaqla) kəndli gənclər cəlb olunmalıdır. Eyni zamanda bu sənəd bir sıra təşkilati məsələlərin (qəbulun plana uyğun aparılması, kontingentin proletarlaşdırılması, azərbaycanlı qızların təhsilə geniş cəlb olunması və s.) də nizama salınmasında müəyyən rol oynadı.

1926/27-ci tədris ilində Xalq Maarif Komissarlığının 9 iyul 1926-cı il tarixli qərarı ilə Gəncə və Nuxa (Şəki) fəhlə fakültələrinin bazasında fəhlə texnikumları yaradıldı. Bu fəhlə texnikumları bir-iki il fəaliyyət göstərdi.

1926/27-ci tədris ilində Bakıda Xalq Səhiyyə Komissarlığı tərəfindən *Diş həkimliyi Texnikumu* yaradıldı.

Ümumiyyətlə, 1927-ci ildə respublikada Farmakologiya, Mamalıq və Diş həkimliyi texnikumları fəaliyyət göstərirdi.

20-ci illərdə yaranan texnikumların əksəriyyəti pedaqoji və kənd təsərrüfatı profilli idi. Respublika üzrə orta ixtisaslı mütəxəssis hazırlığının 54%-i bu iki sahənin payına düşürdü. Belə ki, 1927/28-ci tədris ilində bütün orta ixtisas təhsili müəssisələrinin 29,7%-ni pedaqoji, 24,3%-ni kənd təsərrüfatı, 13%-ni incəsənət, 33%-ni isə digər texniki profilli texnikumlar təşkil edirdi.

*1927/28-ci tədris ilində ayrı-ayrı sahələr üzrə respublikanın orta ixtisas təhsili məktəblərinə tələbə qəbulu*

| № | Tədris müəssisələri | Sənəd verənlərin sayı | Qəbul olanların sayı |
|---|---|---|---|
| 1. | Pedaqoji | 1591 | 711 |
| 2. | Sənaye-texniki | 777 | 370 |
| 3. | Kənd təsərrüfatı | 627 | 229 |
| 4. | Qarışıq | 344 | 243 |
| 5. | Sənaye-İqtisad | 331 | 230 |
| 6. | Nəqliyyat | 93 | 41 |
| 7. | Rəssamlıq | 155 | 61 |
| 8. | Musiqi | 653 | 380 |
| 9. | Teatr | 32 | 20 |
| 10. | Tibb | 313 | 173 |
| **Yekun:** | | **4916** | **2458** |

Cədvəldən göründüyü kimi, 1927/28-ci tədris ilində bütün tələbələrin 29%-i pedaqoji, 9,3%-i kənd təsərrüfatı, 10%-i qarışıq, 19%-i incəsənət, 24%-i sənaye-texniki və sənaye-iqtisadi, 7%-i tibb, 1,7%-i nəqliyyat texnikumlarına qəbul olunmuşdu.

1920–1927-ci illərdə orta ixtisas təhsilli mütəxəssislərin hazırlanmasında böyük nailiyyətlər qazanıldı. Məzunların sayında da artım müşahidə olunurdu. 1920/21-ci tədris ilindən 1927/28-ci tədris ilinə kimi orta ixtisas məktəblərinin sayı 8-dən 37-yə, tələbələrin sayı 5049-dan 7571-ə kimi artmışdı.

Orta ixtisas təhsili müəssisələrinin yenidən qurulmasında və yeni təhsil müəssisələrinin yaradılmasında Azərbaycan SSR Xalq Komissarları Sovetinin və Mərkəzi İcraiyyə Komitəsinin 13 aprel 1929-cu il tarixdə təsdiq etdikləri **«Azərbaycan SSR Xalq Maarif Komissarlığının tabeliyindəki texnikumlar haqqında»** Əsasnamə mühüm rol oynadı. Həmin Əsasnaməyə uyğun olaraq, hər şeydən əvvəl, sənaye və kənd təsərrüfatı texnikumları yenidən quruldu. Nəriman Nərimanov adına Bakı Sənaye Texnikumunun bir sıra şöbələrinin bazasında texniki ixtisaslar üzrə yeni texnikumlar yaradıldı. Təkcə 1929-cu ildə Bakı Soveti tərəfindən 4 texnikum (*Elektrik tikintisi, Sənaye, Sənaye-iqtisad, Pedaqoji*) təşkil olundu. Həmin ildə Gəncə Sənaye-İqtisad Texnikumunun bazasında ***Kooperativ Texnikumu*** yaradıldı. Bununla yanaşı, ***Gəncə Toxuculuq Texnikumu, Gəncə Mexanika Texnikumu*** fəaliyyətə başladı. 1930-cu ildə Bakıda ***Maliyyə-İqtisad Texnikumu, Azərbaycan Balıq Sənayesi Texnikumu, Dəmiryolu Texnikumu*** təsis olundu. ***Bakı Dəmiryolu Texnikumu*** Gəncə İnşaat Texnikumunun bazasında yaradılmışdı.

1930-cu il sentyabrın 14-də Bakıda Səmədağa Ağamalıoğlu adına Kənd Təsərrüfatı Texnikumunun meliorasiya və hidrotexnika şöbəsinin bazasında Azərbaycan Xalq Torpaq Komissarlığının tabeliyində *Azərbaycan Hidromeliorasiya Texnikumu* təşkil olundu. 1932-ci ildə həmin təhsil müəssisəsi *Bakı Hidromeliorasiya Texnikumu* adlandırıldı.

### 4.4. Orta ixtisas təhsili 30-cu illərdə

30-cu illərin əvvəllərində Nəriman Nərimanov adına Bakı Sənaye Texnikumunun Neft-Kimya və Ferdinand Lassal adına Neft Texnikumunun şəhər şöbələrinin bazasında

*Bakı Neft Sənayesi Texnikumu*, Bərdə və Göyçayda *Pambıqçılıq*, Qubada *Heyvandarlıq*, Bakıda *Baytarlıq* texnikumları fəaliyyətə başladı. 1931-ci ildə Şuşada *Xalçaçılıq Texnikumu* təşkil olundu və Bakı Sənaye Texnikumunun xalçaçılıq şöbəsi bu texnikuma birləşdirildi. Həmin ildə Bakı Avtomobil Yolları, 1932-ci ildə Bakı Statistika texnikumları yaradıldı.

Xalq Torpaq Komissarlığı Kollegiyasının 1 oktyabr 1932-ci il tarixli qərarı ilə Ucarda və Kürdəmirdə fəaliyyət göstərən Mexanikləşdirmə texnikumları birləşdirildi.

1929–1931-ci illərdə respublikada 14 yeni kənd təsərrüfatı texnikumu yaradıldı. 1931/32-ci tədris ilində Azərbaycanda 24 belə texnikum fəaliyyət göstərirdi, onlardan 5-i pambıqçılıq və heyvandarlıq sahələrini əhatə edirdi.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 5 may 1930-cu il tarixli qərarına uyğun olaraq 1931/32-ci tədris ilində ***Əczaçılıq*** və ***Mamalıq*** texnikumları birləşdirildi və vahid ***Tibb Texnikumu*** yaradıldı. Texnikumda əczaçılıq, mamalıq və tibb bacısı şöbələri fəaliyyət göstərirdi. 1930-cu ildə Nuxada (Şəkidə), 1931-ci ildə Gəncədə və Naxçıvanda, 1932-ci ildə Xankəndində də tibb texnikumları fəaliyyətə başladı.

1928/29-cu tədris ilində respublikada 44 texnikum var idisə, 1932/33-cü tədris ilində onların sayı 85-ə çatmışdı, tələbələrin sayı 10816-dan 17546-ya qədər yüksəlmişdi.

Respublikada ümumi icbari ibtidai təhsilə keçidlə (1930–1934) əlaqədar olaraq Xalq Maarif Komissarlığı Kollegiyasının 29 dekabr 1930-cu il tarixli qərarı ilə Ağdam, Göyçay, Füzuli, Xankəndi, Salyan və Ordubadda II pillə (VI–IX siniflər) və kəndli gənclər məktəblərinin bazasında pedaqoji texnikumlar yaradıldı. 1931/32-ci tədris ilində Bərdədə, Cəlilabadda, Şamaxıda, Laçında, Sabirabadda da pedaqoji texnikumlar fəaliyyətə başladı.

1928/29–1932/33-cü tədris illərində respublikanın orta ixtisas təhsili müəssisələrində 8182 nəfər kadr hazırlanmışdı. Orta hesabla hər il 1636 nəfər buraxılış olmuşdu. Bunların xeyli

*1928/29–1932/33-cü tədris illərində respublikanın bir sıra pedaqoji texnikumlarına qəbul və buraxılış*

| № | Tədris müəssisələrinin adı | 1928/1929 | | 1929/1930 | | 1930/1931 | | 1931/1932 | | 1932/1933 | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Qəbul | Buraxılış | Qəbul | Buraxılış | Qəbul | Buraxılış | Qəbul | Buraxılış | Qəbul | Buraxılış |
| 1. | Bakı Pedaqoji Texnikumu | 155 | 118 | 179 | 257 | 148 | 261 | 170 | 110 | 127 | 120 |
| 2. | Bakı Xalq Maarif Şöbəsi yanında Texnikum | – | 54 | – | 65 | – | – | 90 | – | 90 | – |
| 3. | Nuxa Pedaqoji Texnikumu | 70 | 73 | 70 | 60 | 60 | 91 | 60 | 62 | 60 | 61 |
| 4. | Şuşa Pedaqoji Texnikumu | 60 | 48 | 90 | 52 | 60 | 40 | 150 | 46 | 120 | – |
| 5. | Gəncə Pedaqoji Texnikumu | 150 | 93 | 146 | 103 | 139 | 122 | 98 | 144 | 165 | 145 |
| 6. | Zaqatala Pedaqoji Texnikumu | 70 | 7 | 70 | 20 | 60 | 29 | 60 | 20 | 30 | 22 |
| 7. | Quba Pedaqoji Texnikumu | 48 | – | 52 | 22 | 61 | 57 | 110 | 28 | 92 | – |
| 8. | Göyçay Pedaqoji Texnikumu | – | – | 34 | – | 36 | – | 30 | 17 | 30 | 15 |
| 9. | Ağdam Pedaqoji Texnikumu | – | – | – | – | 90 | – | 120 | – | 150 | – |
| **Yekun:** | | **553** | **393** | **641** | **579** | **654** | **600** | **888** | **427** | **864** | **363** |

hissəsini pedaqoji kadrlar təşkil edirdi. Cədvəldən göründüyü kimi, 5 il ərzində Bakı Xalq Maarif Şöbəsi yanında fəaliyyət göstərən texnikumda 119, Göyçay Pedaqoji Texnikumunda 32, Quba Pedaqoji Texnikumunda 107 nəfər müəllim hazırlanmış, Ağdam Pedaqoji Texnikumunda isə buraxılış olmamışdır. Bu illər ərzində Gəncə (607 nəfər), Nuxa (Şəki) (347 nəfər) pedaqoji texnikumlarında daha çox müəllim kadrları hazırlanmışdı. Ümumilikdə isə 1928/29–1932/33-cü tədris illərində respublikanın pedaqoji texnikumlarında 3532 orta ixtisas təhsilli müəllim hazırlanmışdı. 1928–1933-cü illər ərzində respublikanın pedaqoji texnikumlarını 2604 (73,7%) oğlan, 928 (26,3%) qız bitirmişdi.

20-ci illərin sonu, 30-cu illərin əvvəllərində məktəbəqədər tərbiyə müəssisələri üçün zəruri olan ixtisaslar üzrə də qəbul genişləndirildi. 1928/29-cu tədris ilində həmin ixtisaslara 734 nəfər qəbul olunmuşdusa, 1930/31-ci tədris ilində 2109, 1931/32-ci tədris ilində 3131 nəfər qəbul olunmuşdu.

1931/32-ci tədris ilində kənd təsərrüfatı texnikumlarına qəbul əhəmiyyətli dərəcədə genişləndi. Əgər 1929/30-cu tədris ilində kənd təsərrüfatı texnikumlarına qəbul 472 nəfər olmuşdusa, 1931/32-ci tədris ilində 1470 nəfər təşkil etdi. 1928/29–1931/32-ci tədris illərində kənd təsərrüfatı texnikumlarında məzunların sayı 5 dəfəyə yaxın (122-dən 567 nəfərədək) artdı.

1932-ci ildə Səmədağa Ağamalıoğlu adına Kənd Təsərrüfatı Texnikumunun Baytarlıq şöbəsi Zaqatalaya köçürüldü və orada fəaliyyətini müstəqil orta ixtisas təhsili müəssisəsi kimi davam etdirdi.

1932/33-cü tədris ilindən başlayaraq, respublikanın texnikumlarında mütəxəssis hazırlığı sahəsində böyük addımlar atıldı. Bu illərdə sənayeləşdirmə və kollektivləşmənin tələblərinə uyğun olaraq yeni ixtisaslar yaradıldı.

1933/34-cü tədris ilində respublikanın texnikumlarına 5305 nəfər qəbul olundu. 1935/36-cı tədris ilində 64 texnikuma 7251, 1936/37-ci tədris ilində 67 texnikuma 8770 nəfər tələbə qəbulu aparıldı. 1937/38-ci tədris ili üçün 10664 nəfər tələbə qəbulu keçirilmişdi. Texnikumlara qəbulun artması məzunların da sayının artmasına səbəb oldu. Buna baxmayaraq, yerlərdə ibtidai sinif müəllimləri hələ də çatışmırdı. 1940-cı il yanvarın 1-nə olan məlumata görə respublikanın məktəblərində 19897 müəllim işləyirdi ki, onların 11253 nəfəri orta pedaqoji təhsilli idi.

*1935–1940-cı illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində pedaqoji kadr hazırlığı üzrə tələbə kontingenti və məzunlar*

| İllər | İlin əvvəlində tələbə kontingenti | Texnikumu bitirə bilməyənlər | Qəbul | İlin sonunda kontingent | Orta illik kontingent | Buraxılış |
|---|---|---|---|---|---|---|
| 1935 | 5964 | 501 | 3600 | 7993 | 6379 | 1070 |
| 1936 | 7993 | 439 | 3000 | 9311 | 8152 | 1243 |
| 1937 | 9311 | 450 | 2500 | 9272 | 8875 | 2088 |
| 1938 | 9272 | 466 | 2500 | 8378 | 8409 | 2928 |
| 1939 | 8378 | 614 | 2500 | 7761 | 7652 | 2701 |
| 1940 | 7761 | 385 | 2500 | 7456 | 7191 | 2420 |

Cədvəldən göründüyü kimi, il ərzindəki buraxılış 1935-ci ildəki 1070 nəfərdən 1940-cı ildə 2420-yə kimi yüksəlmişdir.

1935-ci ildə bir sıra pedaqoji texnikumlarda bədən tərbiyəsi müəllimləri hazırlayan şöbələr təşkil olundu.

1936–1940-cı illərdə respublikanın ümumi təhsil məktəblərində 1627 rus dili müəllliminə ehtiyac var idi. Onlardan 532-nin respublikanın texnikumlarında hazırlanması, 185-nin isə RSFSR-dən və digər respublikalardan dəvət olunması qərara alındı.

30-cu illərdə musiqiçilərin və musiqişünasların hazırlanması sahəsində də nailiyyətlər əldə olundu. Musiqi və incəsənət təmayüllü texnikumlara qəbul, demək olar ki, 2 dəfə artdı və 1932/33-cü tədris ilində 640 nəfər təşkil etdi. Bu sahədə aparıcı təhsil müəssisəsi Asəf Zeynallı adına Bakı Musiqi Texnikumu idi.




*Şamaxı Pedaqoji Texnikumunun müəllim və tələbələrindən bir qrupu. 1938/39-cu tədris ili*

1928-ci ildə təşkil olunmuş Azərbaycan Kooperativ Texnikumu ÜİK(b)P MK və SSRİ XKS-nin **«Şəhərlərdə kooperativ ticarətinin ləğv edilməsi haqqında»** 29 sentyabr 1935-ci il tarixli qərarından sonra ***Bakı Sovet Ticarəti Texnikumu*** adlandırıldı.

1935-ci ildə ***Lənkəran Tibb Texnikumu, Nuxa (Şəki) İpəkçilik Texnikumu*** yaradıldı.

1937–1940-cı illərdə respublikanın incəsənət məktəblərində 475 nəfər təhsil almışdı. Onlardan 190 nəfəri musiqi, 194 nəfəri teatr, 72 nəfəri xoreoqrafiya məktəbini bitirmişdi. 1940-cı ildə respublikanın 24 tibb məktəbində orta ixtisas təhsilli tibb kadrları hazırlanırdı. Həmin ildə orta ixtisas tibb məktəblərində 1561 mütəxəssis hazırlanmışdı. Bu da 1936-cı ildəkindən 1424, 1938-ci ildəkindən 736 nəfər çox idi.

Həmin illərdə yeni texnikumların yaradılması ilə yanaşı, çox da böyük olmayan və bir-birini təkrar edən texnikumların birləşdirilməsi ilə bağlı tədbirlər həyata keçirildi. Laçın və Ağdam, Şamaxı və Quba Kənd Təsərrüfatı texnikumları birləşdirildi. Zaqatala Baytarlıq və Kənd Təsərrüfatı texnikumlarının əsasında vahid bir texnikum yaradıldı. Nuxa (Şəki) Sənaye-İqtisad, Ağdam, Göyçay, Bərdə, Salyan, Naxçıvan pambıqçılıq texnikumlarının fəaliyyəti dayandırıldı. Bütün bu tədbirlərin nəticəsində respublikada orta ixtisas təhsili müəssisələrinin sayı 1936/37-ci tədris ilində 85-dən 69-a qədər azaldıldı. Lakin bu dövrdə tələbələrin sayı təxminən 2 dəfədən çox artaraq 10816 nəfərdən 22230 nəfərə yüksəldi.

Sonrakı tədris ilində respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin sayı yenidən artaraq 74-ə çatdı. Bu təhsil müəssisələrində 23469 tələbə təhsil alırdı.

30-cu illərin ortalarında bir sıra texnikumlar (15 orta ixtisas təhsili müəssisəsi, o cümlədən Bakı Hidromeliorasiya Texnikumu, Lənkəran Subtropik Bitkilər Texnikumu, Bakı Neft-Maşınqayırma Texnikumu, Nuxa İpəkçilik Texnikumu, Bakı Statistika, Rabitə, Neft, Nəqliyyat texnikumları və s.) müvafiq komissarlıqların tabeliyinə verildi.

30-cu illərin sonlarında orta ixtisas təhsili almaq istəyənlərin sayı daha da artdı. Belə ki, 1939/40-cı tədris ilində orta ixtisas müəssisələrinə 9240 nəfər tələbə qəbul edilmişdi.

1940-cı ildə respublikanın orta ixtisas təhsili müəssisələrində 4138 məzun diplom aldı ki, bu da 1933-cü ildəkindən 2564 nəfər, yaxud 2.6 dəfə çox idi. 1940-cı ilin məzunlarının 1389-u tibb işçiləri, 1903-ü müəllim və tərbiyəçilər, 379-u sənaye və tikinti mütəxəssisləri, 247-i kənd təsərrüfatı işçiləri, 120-si iqtisadçılar, 68-i incəsənət, 32-si nəqliyyat və rabitə sahəsinin mütəxəssisləri idi.

1940/41-ci tədris ilində Azərbaycanda 91 orta ixtisas təhsili müəssisəsi fəaliyyət göstərirdi. Bunlardan 24-ü pedaqoji, 24-ü tibb, 16-sı kənd təsərrüfatı, 6-sı incəsənət, 21-i sənaye, tikinti, ticarət, nəqliyyat və rabitə, bədən tərbiyəsi və idman sahələrini əhatə edirdi. Həmin texnikumlarda 23306 tələbə təhsil alırdı.

### 4.5. Orta ixtisas təhsili 40-cı illərdə

İkinci Dünya müharibəsinin ilk illərində mütəxəssislərin əksəriyyəti ordu sıralarına səfərbər olundu. Bununla əlaqədar bir sıra texnikum və məktəblərin bağlanmasına və ya birləşdirilməsinə zərurət yarandı. 1941-ci il iyulun 1-dən noyabrın 15-dək Bakı Meşə və Kənd

Təsərrüfatı, Zaqatala və Nuxa (Şəki) Kənd Təsərrüfatı texnikumları birləşdirildi. Xankəndi Zootexniklik, Ağdam Mexanikləşdirmə, Füzuli Kənd Təsərrüfatı texnikumları, Qusar, Salyan, Naxçıvan pedaqoji məktəbləri bağlandı.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 21 avqust 1941-ci il tarixli qərarı ilə Bakı Xalq Təhsili Şöbəsinin 2№-li pedaqoji məktəbi ilə Mirzə Ələkbər Sabir adına pedaqoji məktəb, Bakı Mədəni-Maarif və Kitabxanaçılıq texnikumları, Nuxa (Şəki) Siyasi Maarif və pedaqoji məktəbləri birləşdirildi. Bütövlükdə 1941–1943-cü illərdə respublikanın bir çox orta ixtisas təhsili müəssisəsi ya birləşdirildi, ya da bağlandı. Nəticədə orta ixtisas təhsili müəssisələrinin sayı 1940/41-ci tədris ilində 91-dən 70-ə, 1942/43-cü tədris ilində isə 61-ə endi. Tələbələrin səfərbərliyə alınması ilə əlaqədar olaraq ayrı-ayrı texnikumlarda təhsil alanların sayı kəskin şəkildə azaldı. Tibb məktəblərinin sayı 24-dən 16-ya endi. Orada oxuyan tələbələrin sayı 1940/41-ci tədris ili (4480 nəfər) ilə müqayisədə 1942/43-cü tədris ilində 2 dəfə azaldı.

1941/42-ci tədris ilində Kirovabad (Gəncə) Toxuculuq Texnikumunu 94, Nuxa (Şəki) İpəkçilik Texnikumunu 38, Ağdam Tibb Məktəbini 45, Şamaxı Pedaqoji Məktəbini 90, Lənkəran Subtropik Bitkilər Texnikumunu 69, Kirovabad (Gəncə) Musiqi Məktəbini 77 nəfər mütəxəssis bitirmişdi. 1942/43-cü tədris ilində orta ixtisas məktəblərinə 5510 nəfər tələbə qəbul olunmuşdu. Respublika tabeliyində olan orta ixtisas təhsili müəssisələrini 1943/44-cü tədris ilində 1677 mütəxəssis bitirmişdi. 1943/44-cü tədris ilindən tələbə qəbulu artmağa başladı. Müharibə illərində Azərbaycan SSR Xalq Maarif Komissarlığının tabeliyində olan orta ixtisas məktəblərində müəllimlərlə yanaşı, kitabxana işçiləri, mədəni-maarif və məktəbəqədər tərbiyə müəssisələri üçün də kadrlar hazırlandı. Müharibə minlərlə uşağı yetim qoymuşdu. Bunu nəzərə alaraq, Azərbaycan SSR Xalq Komissarları Soveti uşaq evlərinin işinin yaxşılaşdırılması haqqında 27 sentyabr 1943-ci il tarixli qərar qəbul etdi. Həmin qərara uyğun olaraq Azərbaycan Xalq Maarif Komissarlığı 65 yeni uşaq evi təşkil etdi. Bundan başqa, 1945-ci ildə respublikada 851 məktəbəqədər müəssisə fəaliyyət göstərirdi ki, onlarda da 37445 uşaq tərbiyə alırdı.

Azərbaycan K(b)P MK bürosunun **«Azərbaycanda musiqi təhsilinin daha da inkişaf etdirilməsi tədbirləri haqqında»** 3 noyabr 1943-cü il tarixli və Azərbaycan K(b)P və XKS-nin **«Azərbaycan SSR-də incəsənət işlərinin yaxşılaşdırılması tədbirləri haqqında»** 11 noyabr 1943-cü il tarixli qərarlarından sonra 1943-cü ildən başlayaraq 4 il ərzində Bakı musiqi, teatr, rəssamlıq, habelə Kirovabad (Gəncə) musiqi məktəblərində 14 ixtisas üzrə 372 incəsənət işçisi hazırlandı.

1944-cü ildə Bakıda ***Sənaye-Pedaqoji və Meşə Sənayesi*** texnikumları, 1944/45-ci tədris ilində kənd təsərrüfatı üçün mütəxəssislər hazırlayan ***Bakı Hidromeliorasiya Texnikumu*** yaradıldı. 1942-ci ildə bağlanmış ***Maliyyə İqtisad Texnikumu*** yenidən fəaliyyətə başladı.

1944/45-ci tədris ilində 5730, 1945/46-cı tədris ilində 6200 nəfər qəbul planlaşdırılmışdı. Bir məsələni də qeyd etmək lazımdır ki, hər il orta ixtisas təhsili məktəblərinə planlaşdırıldığından daha çox tələbə qəbul olunurdu. Belə ki, 1944/45-ci tədris ilində orta ixtisas məktəblərinə 5730 nəfər əvəzinə 7011 nəfər qəbul

olunmuşdu ki, bu da plan üzrə olan göstəricidən 1281 nəfər çox idi. Məsələn, Xalq Səhiyyə Komissarlığının Tibb məktəblərinə 1320 nəfər əvəzinə 1515, Xalq Torpaq Komitəsinin texnikumlarına 800 nəfər əvəzinə 917 nəfər qəbul olunmuşdu. Respublika üzrə qəbul planı 122,1% yerinə yetirilmişdi.

Bütövlükdə 1941–1945-ci illərdə respublikanın orta ixtisas təhsili müəssisələrinə 30190 nəfər (o cümlədən pedaqoji 23,7%, tibb 25%, kənd təsərrüfatı 10,8%) tələbə qəbul edilmiş və 10354 mütəxəssis hazırlanmışdı. Müharibənin son illərində ibtidai siniflərdə şagirdlərin sayının və bununla da müəllimlərə olan tələbatın azalması, qəbul planının hər il ixtisar edilməsinə gətirib çıxardı. Nəticədə 1941–1945-ci illərdə pedaqoji texnikumlara planda nəzərdə tutulan 9400 əvəzinə 5152 nəfər tələbə qəbul olundu. Bu illərdə pedaqoji orta ixtisas təhsili müəssisələrində 3273 ibtidai sinif müəllimi hazırlandı. 1945/46-cı tədris ilində isə orta ixtisas təhsili müəssisələrinə 6200 plan yerinə qarşı 6285 nəfər qəbul olunmuş, orta ixtisas müəssisələrini 2291 mütəxəssis bitirmişdi.

Müharibə illərində (1941–1945) hərbi vəziyyətin çətinliklərinə baxmayaraq, Azərbaycanın orta ixtisas məktəbləri xalq təsərrüfatı və mədəniyyətin müxtəlif sahələri üçün bütövlükdə 12329 mütəxəssis hazırlamışdı.

1945/46-cı tədris ilində Nuxa (Şəki) İpəkçilik Texnikumu bərpa olundu.

1945-ci ildə ölkədəki pedaqoji məktəblər üçün yeni tədris planı təsdiq edildi. Burada müharibədən sonrakı tələblər nəzərə alınmışdı.

Müharibə qələbə ilə başa çatsa da, onun vurduğu yaralar hələ qalmaqda idi. Respublika iqtisadiyyatının bütün sahələrində bərpa işləri aparılmalı idi. Müharibədən sonrakı 5 il ərzində respublikanın xalq təsərrüfatını və mədəniyyətini sürətlə bərpa və inkişaf etdirmək üçün kadrlar hazırlamaq təxirəsalınmaz vəzifə kimi qarşıya qoyulmuşdu. Bu məqsədlə orta ixtisas təhsili məktəbləri şəbəkəsinin genişləndirilməsinə başlanıldı. SSRİ Xalq Komissarları Sovetinin 9 mart 1946-cı il tarixli sərəncamı və Ümumittifaq Ali Təhsil Komitəsinin əmri ilə ***Bakı Maliyyə-Kredit Texnikumu*** təşkil olundu.

SSRİ Ali Sovetinin II çağırış birinci sessiyasında qəbul olunmuş 18 mart 1946-cı il tarixli **«1946–1950-ci illərdə SSRİ xalq təsərrüfatının bərpası və inkişafının beşillik planı haqqında»** Qanuna və Azərbaycan SSR Ali Sovetinin 1946-cı il avqustun 15-də qəbul etdiyi eyniadlı qanuna uyğun olaraq, orta ixtisas təhsilinin inkişafı üçün müəyyən tədbirlər görüldü.

1946/47-ci tədris ilində bəzi pedaqoji məktəblər üçillikdən dördilliyə keçdilər. Pedaqoji məktəblər üçün üç və dördillik olmaq üzrə 2 ayrı-ayrı tədris planı təsdiq edildi, semestr sistemi tətbiq edildi. Tədris planı da semestrlər əsasında tərtib edilərək pedaqoji məktəblərə göndərildi. Hər semestrin sonunda imtahanların aparılması, tədris ilinin sentyabrın 1-dən başlayıb, iyun ayının 28-də qurtarması planlaşdırıldı.

1946/47-ci tədris ilində respublika orta ixtisas təhsili müəssisələri şəbəkəsinə yenidən bərpa olunmuş Ağdam və Göyçay Kənd Təsərrüfatı, Zaqatala Statistika texnikumları, Bakıda və Ağdamda təşkil olunmuş 3 tibb məktəbi də əlavə olundu və orta ixtisas təhsili müəssisələrinin sayı 78-ə çatdı. Həmin il texnikumlarda 15139 nəfər tələbə təhsil alırdı.

1946-cı ildə «Azneft»də yeraltı təmir ustalarının 90%-nin, neftçıxarma ustalarının 60%-nin

və bütövlükdə mühəndis-texniki işçilərin 76%-nin ali və orta ixtisas təhsili yox idi. Neft sənayesi işçilərinin istehsalatdan ayrılmadan təhsil alması məqsədilə 1947-ci ildə Bakı Neft Texnikumunun qiyabi şöbəsi yaradıldı. 1947-ci il yanvarın 17-də ***Kirovabad (Gəncə) Neft Texnikumu*** təşkil olundu.

1947/48-ci tədris ilində Ağdam, 1948/49-cu tədris ilində Nuxa (Şəki) pedaqoji məktəblərində pioner baş dəstə rəhbərləri hazırlayan şöbələr fəaliyyətə başladı.

İbtidai siniflər üzrə müəllim hazırlığını daha da təkmilləşdirmək məqsədilə 1948-ci ildə pedaqoji məktəblər dördillik təhsilə keçdilər. Həmin ildə Bakı Teatr Texnikumu bağlandı.

1948-ci ildə Azərbaycan SSR Nazirlər Soveti Ermənistan azərbaycanlıların təhsil aldığı yeganə pedaqoji məktəbin Ermənistan SSR-dən Azərbaycan SSR-ə köçürülməsi barədə qərar qəbul etdi. Bu qərara uyğun olaraq İrəvan pedaqoji məktəbi 220 nəfərlik tələbə kontingenti ilə Xanlar (indiki Göygöl) rayonuna köçürüldü. Beləliklə, 1947/48-ci illərdə respublikada 17 pedaqoji məktəb fəaliyyət göstərirdi. Bunlar aşağıdakılar idi:

- M.Ə.Sabir adına Bakı Pedaqoji Məktəbi
- Lənkəran Pedaqoji Məktəbi
- Bakı XMŞ-nin Pedaqoji Məktəbi
- Ağdaş Pedaqoji Məktəbi
- Şamaxı Pedaqoji Məktəbi
- Kirovabad (Gəncə) Pedaqoji Məktəbi
- Şuşa Pedaqoji Məktəbi
- Quba Pedaqoji Məktəbi
- Qaryagin (Füzuli) Pedaqoji Məktəbi
- Laçın Pedaqoji Məktəbi
- Göyçay Pedaqoji Məktəbi
- Zaqatala Pedaqoji Məktəbi
- Qazax Pedaqoji Məktəbi
- Xanlar (Göygöl) Pedaqoji Məktəbi
- Ordubad Pedaqoji Məktəbi
- Ağdam Pedaqoji Məktəbi
- Nuxa (Şəki) Pedaqoji Məktəbi

Bu məktəblərdə rus dili, ibtidai sinif müəllimi, bədən tərbiyəsi müəllimi hazırlanırdı. Təhsil müddəti 4 il idi.

Azərbaycan hökumətinin **«Azərbaycan SSR-in qeyri-rus məktəblərində rus dilinin öyrənilməsi işinin yaxşılaşdırılması və gücləndirilməsi haqqında»** 1942-ci ilin oktyabrında qəbul etdiyi qərara uyğun olaraq, 1949/50-ci tədris ilində Lənkəran, Şamaxı və Quba Pedaqoji texnikumlarında qeyri-rus məktəbləri üçün rus dili müəllimləri hazırlığı üzrə şöbələr yaradıldı.

1946–1950-ci illərdə Bakı, Zaqatala və Şamaxıda 4 tibb məktəbi yaradıldı. Nəticədə 1950/51-ci tədris ilində respublikada 20 tibb məktəbi fəaliyyət göstərirdi. Bütövlükdə 1946–1950-ci illərdə respublikada 12 yeni orta ixtisas məktəbi yaradıldı, yaxud bərpa olundu. Bununla yanaşı, bir sıra məktəb və texnikumlarda yeni şöbələr də fəaliyyətə başladı.

1949/50-ci tədris ilində Bakı Elektrik-Maşınqayırma Texnikumunda qiyabi şöbə yaradıldı.

1946–1950-ci illərdə respublikanın orta ixtisas təhsili müəssisələrinin birinci kurslarına 33070, yuxarı kurslarına 3270 nəfər qəbul olunmuşdu. Əgər buna istehsalatdan ayrılmadan qəbul olunan 210 nəfəri də əlavə etsək, onda aydın olar ki, 5 il ərzində qəbul olunanların sayı 36550 nəfər (yaxud il ərzində orta hesabla 7310 nəfər) təşkil etmişdi.

1946–1950-ci illərdə qəbul aparılan ixtisasların sayı artmış, 1948-ci ildə 87, 1950-ci ildə 96 ixtisas üzrə tələbə qəbulu aparılmışdı.

Bütövlükdə 1946–1950-ci illərdə Azərbaycanın orta ixtisas məktəblərində 22049 kiçik mütəxəssis hazırlanmışdı.

Həmin illərdə orta ixtisas təhsili müəssisələrinin inkişafında əldə edilmiş nailiyyətlərlə yanaşı, bu məktəblərin işində çatışmazlıqlar da var idi. Belə ki, istehsalatdan ayrılmadan mütəxəssis hazırlığı günün tələblərinə cavab vermirdi.

*1946/47–1950/51-ci tədris illərində Azərbaycanda fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin sayı və onların tələbə kontingenti*

| Tədris illəri | Təhsil müəssisələrinin sayı | Tələbələrin sayı | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|
| | | | İttifaq tabeliyində | | Respublika tabeliyində | |
| | | | Təhsil müəssisələrinin sayı | Tələbələrin sayı | Təhsil müəssisələrinin sayı | Tələbələrin sayı |
| 1946/47 | 78 | 19544 | 8 | 4405 | 70 | 15139 |
| 1947/48 | 82 | 19855 | 8 | 4756 | 74 | 15099 |
| 1948/49 | 81 | 20144 | 9 | 4808 | 72 | 15336 |
| 1949/50 | 80 | 19527 | 9 | 4462 | 71 | 15065 |
| 1950/51 | 81 | 20264 | 10 | 4747 | 71 | 15517 |

Cədvəldən göründüyü kimi, 5 il ərzində texnikumların da, tələbələrin də sayı 1946-cı illə müqayisədə 1950-ci ildə nisbətən yüksəlmişdir.

## 4.6. Orta ixtisas təhsili 50-ci illərdə

50-ci illərdə də orta ixtisas təhsilli kadrlara tələbat sürətlə artmaqda davam edirdi. Bununla əlaqədar olaraq yeni texnikum və məktəblərin açılması üçün bir sıra tədbirlər həyata keçirildi. 1951/52-ci tədris ilində Kirovabadda (Gəncədə) *Toxuculuq Texnikumu* fəaliyyətə başladı. Bununla bağlı Nuxa (Şəki) Toxuculuq Texnikumu Kirovabad (Gəncə) texnikumunun filialına çevrildi.

1952/53-cü tədris ilində pedaqoji texnikumlar üçün yeni tədris planı təsdiq edildi. Bu tədris planında əvvəlki tədris planına nisbətən bəzi xırda dəyişikliklər var idi.

Sənayenin inkişafı ön plana çəkildiyi üçün fəhlələrin ixtisaslı mütəxəssis kimi hazırlanmasına xüsusi diqqət yetirilirdi. Bu məqsədlə Azərbaycanın iri müəssisələrində texnikumların filialları və tədris qrupları yaradıldı. Həmin dövrdə orta ixtisas məktəblərinin əksəriyyətinin axşam və qiyabi şöbələri yox idi. SSRİ Kənd Təsərrüfatı Nazirliyinin **«Orta ixtisas təhsilli kənd təsərrüfatı mütəxəssislərinin qiyabi yolla hazırlanmasının daha da yaxşılaşdırılması haqqında»** qərarı (1952) qəbul olunduqdan sonra kənd təsərrüfatı texnikumlarında qiyabi şöbələr genişlənməyə başladı.

1952/53-cü tədris ilindən respublikanın 18 kənd təsərrüfatı texnikumundan dördündə (Bakı Kənd Təsərrüfatı, Şamaxı Zoobaytarlıq, Ağdam Kənd Təsərrüfatı, Göyçay Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi texnikumları) qiyabi şöbələr təşkil olundu. Belə ki, 1953/54-cü tədris ilində Bakı Pedaqoji Məktəbində və Bakı Maliyyə-Kredit Texnikumunda qiyabi şöbələr fəaliyyətə başladı. Həmin tədris ilində qiyabi şöbələrin




*Ağdam Pedaqoji Məktəbinin 1952–1956-cı il buraxılışı*

sayı 10-a çatdırıldı. 1953-cü ildə Bakı Neft və Energetika texnikumlarında, habelə Feldşer-Mamalıq Məktəbində axşam şöbələri yaradıldı.

1953-cü ildə Elektrik Maşınqayırma Zavodunun nəzdində Energetika Texnikumunun şöbəsi, «Azneft»in Neft Emalı İdarəsinin nəzdində Bakı Neft Texnikumunun axşam təhsili üzrə filialı təşkil olundu. 1953–1958-ci illərdə Bakı Neft Texnikumunun «Azneft»in idarə və müəssisələrində 11 filialı yaradılmışdı.

1955/56-cı tədris ilində Azərbaycanın 79 orta ixtisas məktəbində 29255 tələbə təhsil alırdı ki, bunun da 2922 nəfəri qiyabi oxuyurdu.

1957-ci ildən Azərbaycanın orta ixtisas təhsili məktəblərində axşam və qiyabi şöbələrin şəbəkəsi daha da genişləndi. Texnikumların filiallarının axşam və qiyabi şöbələrində təhsil

alan fəhlələrin sayı artdı. 1957/58-ci tədris ilində Bakı Neft Texnikumunun filiallarında təhsil alan neftçilərin sayı 3000 nəfərə yaxın idi.

Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin **«Ali və orta ixtisas təhsilli mütəxəssislərin hazırlanması, bölgüsü və onlardan istifadə olunmasının yaxşılaşdırılması haqqında»** qərarında (1954) göstərilirdi ki, mütəxəssis hazırlığının keyfiyyəti xalq təsərrüfatında texnikanın inkişaf səviyyəsindən və müasir tələblərdən geri qalır. Ona görə də 3 ay müddətində xalq təsərrüfatının kadrlara olan tələbatı öyrənilməli və Nazirlər Sovetinə təqdim olunmalıdır, orta ixtisas təhsili müəssisələrinin tədris plan və proqramlarına yenidən baxılmalı, 1955-ci il sentyabrın 1-dən yeni ixtisaslar üzrə kadr hazırlığına başlanılmalı, orta ixtisas təhsili müəssisələrində sənaye, tikinti, nəqliyyat, rabitə sahələri üçün kadr hazırlığı genişləndirilməlidir. Bütün bunları nəzərə alaraq Respublika Dövlət Plan Komitəsi, digər müvafiq nazirlik, idarə və təşkilatlar tərəfindən gənc mütəxəssislər üçün vəzifə nomenklaturası və bunun əsasında kadr hazırlığı üzrə beşillik plan işlənib hazırlandı.

1955-ci ildə Kirovabad (Gəncə) Neft və Sənaye-İqtisad texnikumlarının bazasında ***Kirovabad (Gəncə) İnşaat Texnikumu*** yaradıldı.

Respublikada yeyinti sənayesinin sürətlə inkişaf etdiyini və bu sahə üçün mütəxəssis hazırlığının vacibliyini nəzərə alaraq, 1955-ci ilin avqustunda ***Bakı Yeyinti Sənayesi Texnikumu*** təsis olundu. Respublikada yerli və yüngül sənaye sahələri də inkişaf edirdi. Sənayenin bu sahələrini kadrlarla təmin etmək məqsədilə 1955-ci il avqustun 25-də ***Bakıda Yerli Sənaye Texnologiyası Texnikumu***, 1957-ci ildə axşam təhsili üzrə ***Yüngül Sənaye Texnikumu*** yaradıldı.

1958-ci ildə respublikanın 75 orta ixtisas təhsili məktəbindən 23-ü sənaye, tikinti, rabitə və nəqliyyat müəssisələri üçün kadrlar hazırlayırdı. Onların əksəriyyəti (77%-i) Bakı şəhərində, qalan 23%-i Kirovabadda (Gəncədə), Nuxada (Şəkidə) və respublikanın digər sənaye mərkəzlərində yerləşirdi.

Ümumittifaq Yüngül və Toxuculuq Sənayesi Texnikumunun Bakı filialı, onun Kirovabadda (Gəncədə) və Nuxada (Şəkidə) yerləşən qrupları 1959-cu ildə Bakı Axşam Yüngül Sənaye Texnikumuna birləşdirildi.

1960-cı ilin iyulunda iki orta ixtisas təhsili müəssisəsinin – Azərbaycan Kommunal-Tikinti və Bakı Hidromeliorasiya texnikumlarının bazasında Azərbaycan Politexnik İnstitutunun nəzdində ***Bakı Politexnik Texnikumu*** yaradıldı (1962-ci ildə həmin təhsil müəssisəsi müstəqil texnikuma çevrildi). Bakı Politexnik Texnikumunun yaradılması orta ixtisas təhsilli texniki sahə kadrlarının hazırlanmasına əhəmiyyətli dərəcədə müsbət təsir göstərdi. Texnikumun əyani, axşam, qiyabi şöbələrində 19 ixtisas üzrə kadr hazırlanırdı. Bununla yanaşı, bütövlükdə axşam və qiyabi təhsil formalarının kökündən yaxşılaşdırılması və genişləndirilməsi sahəsində böyük və səmərəli iş aparılırdı.

1958-ci ilin dekabrında qəbul olunmuş **«Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq təhsili sisteminin daha da inkişaf etdirilməsi haqqında»** Qanuna uyğun olaraq, Azərbaycan SSR Ali Sovetinin 26 mart 1959-cu ildə qəbul etdiyi müvafiq Qanunda orta ixtisas təhsili müəssisələrinin

yenidən qurulması və kadr hazırlığının keyfiyyətinin yaxşılaşdırılması məsələləri də öz əksini tapmışdı. Qanunda təhsilin ictimai-faydalı əməklə sıx əlaqəsi, tələbələrin axşam və qiyabi təhsil yolu ilə öz ixtisasları üzrə zəruri nəzəri və praktik hazırlıq keçməsi, onların orta ixtisas təhsili məktəblərində yiyələndikləri ixtisas üzrə dərəcə alması, texnikum və məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, tədris və istehsalat proseslərinin normal həyata keçirilməsi üçün lazımi şərait yaradılması, ixtisaslar üzrə kadrların rasional bölüşdürülməsi, orta ixtisas məktəblərinin yenidən qurulmasına 1959/60-cı tədris ilindən başlanması və 3–5 ildən sonra başa çatdırılması, orta ixtisas təhsili məktəblərində hazırlanan mütəxəssislərin sayının xalq təsərrüfatının tələblərinə uyğunlaşdırılması nəzərdə tutulmuşdu.

Həmin Qanuna uyğun olaraq SSRİ hökuməti tərəfindən 17 iyul 1959-cu ildə qəbul olunmuş **«SSRİ ali və orta ixtisas təhsili məktəblərinə rəhbərliyin yenidən qurulması haqqında»** qərara görə ittifaq tabeliyində olan ali və orta ixtisas təhsili müəssisələrinin müttəfiq respublikaların, o cümlədən Azərbaycan SSR Nazirlər Sovetinin tabeliyinə verilməsi məqsədəuyğun hesab olundu. Texnologiya Texnikumu Yerli Sənaye Nazirliyinin, Kommunal-Tikinti Texnikumu Kommunal Təsərrüfatı Nazirliyinin, 16 texnikum Kənd Təsərrüfatı Nazirliyinin, 10 texnikum Xalq Təsərrüfatı Şurasının, 9 pedaqoji məktəb Maarif Nazirliyinin, 8 texnikum və məktəb Azərbaycan SSR Mədəniyyət Nazirliyinin tabeliyinə verildi. Aşağıdakı pedaqoji məktəblər isə fəaliyyətini dayandırdı.

Bakı XMŞ-nin Pedaqoji Məktəbi;
Ağdaş Pedaqoji Məktəbi;
Kirovabad (Gəncə) Pedaqoji Məktəbi;
Quba Pedaqoji Məktəbi;
Qaryagin (Füzuli) Pedaqoji Məktəbi;
Laçın Pedaqoji Məktəbi;
Göyçay Pedaqoji Məktəbi;
Qazax Pedaqoji Məktəbi;
Ordubad Pedaqoji Məktəbi;
Ağdam Pedaqoji Məktəbi.

Bu mürəkkəb və məsuliyyətli işi tənzimləmək, ali və orta ixtisas təhsili müəssisələrinə tədris-metodiki rəhbərliyi həyata keçirmək məqsədilə Azərbaycan hökumətinin 13 avqust 1959-cu il tarixli qərarı ilə Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsi təşkil edildi, SSRİ Mərkəzi Statistika İdarəsinin Bakı Statistika Texnikumu həmin komitənin tabeliyinə verildi. Akademik Şirəli Məmmədov Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsinin ilk sədri təyin edildi.

1960-cı il sentyabrın 26-da Azərbaycan Respublikası Nazirlər Soveti **«Ali və Orta İxtisas Təhsili Komitəsi haqqında»** Əsasnaməni təsdiq etdi. Əsasnaməyə görə Komitə aşağıdakı vəzifələri yerinə yetirməli idi:

- respublikanın xalq təsərrüfatı və mədəniyyətinin müvafiq sahələri üçün orta ixtisas təhsilli mütəxəssislərin hazırlanması;
- mütəxəssis hazırlığında paralelçiliyin aradan qaldırılması;
- Dövlət Plan Komitəsi ilə birgə respublikanın ali və orta ixtisas təhsilli mütəxəssislərə olan tələbatının öyrənilməsi;
- ali və orta ixtisas müəssisələrinin elmi-pedaqoji kadrlarının və xalq təsərrüfatının müxtəlif sahələrində çalışan mütəxəssislərin hazırlanması və ixtisaslarının artırılmasına rəhbərlik edilməsi;

• ali və orta ixtisas təhsili müəssisələrinin tədris-maddi bazasının möhkəmləndirilməsi.

Respublika Ali və Orta İxtisas Təhsili Komitəsi yaradıldıqdan və onun Əsasnaməsi təsdiq olunduqdan sonra istehsalat müəssisələrində texnikumların tədris qrupları və şöbələrinin yaradılması və yenidən qurulması işi davam etdirildi.

*1950-ci illərdə respublikada fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələrinin sayı və onların tələbə kontingenti*

| Tədris illəri | Təhsil müəssisələrinin sayı | Tələbələrin sayı | O cümlədən təhsil formaları üzrə | | |
|---|---|---|---|---|---|
| | | | Əyani | Axşam | Qiyabi |
| 1951/52 | 81 | 20932 | 19853 | | 1079 |
| 1952/53 | 80 | 22073 | 20907 | | 1166 |
| 1953/54 | 80 | 24177 | 22302 | | 1875 |
| 1954/55 | 78 | 26492 | 24515 | | 1977 |
| 1955/56 | 79 | 29255 | 26333 | | 2922 |
| 1956/57 | 75 | 29571 | 25760 | | 3811 |
| 1957/58 | 75 | 28570 | 20128 | 3723 | 4719 |
| 1958/59 | 72 | 26304 | 16992 | 4358 | 4954 |
| 1959/60 | 67 | 25931 | 15585 | 4140 | 6206 |
| 1960/61 | 66 | 27036 | 15431 | 4401 | 7204 |

Statistikaya görə, 1951–1960-cı illərdə orta ixtisas təhsili məktəblərini 63933 nəfər (orta hesabla hər il 6393 nəfər) mütəxəssis bitirmişdi. Bu illərdə axşam və qiyabi şöbələrində buraxılış müvafiq olaraq 2385 və 3647 nəfər təşkil etmişdi.

Respublikanın texnikumlarında sənaye sahəsi üçün 14639, nəqliyyat, rabitə, tikinti üzrə – 3827, hüquq və iqtisadiyyat sahəsi üzrə 4401, kənd təsərrüfatı sahəsi üzrə 3811, səhiyyə sahəsi üzrə 6273 nəfər kadr hazırlanmışdı. Eyni zamanda 50-ci illərdə 11839 nəfər ibtidai sinif müəllimi və məktəbəqədər müəssisələr üçün tərbiyəçi, 1422 nəfər mədəni-maarif işçisi orta ixtisas təhsili diplomu almışdı.

50-ci illərdə orta ixtisas təhsilli kadrların hazırlanmasında müəyyən nailiyyətlər qazanılsa da, kadrların hazırlanmasında və onlardan istifadə olunmasında bir sıra nöqsanlar mövcud idi. Qəbul edilmiş beşillik plana uyğun olaraq intensiv şəkildə yeni istehsal sahələri yaradılırdı. Yeni yaradılan sahələr üzrə mütəxəssislər, iqtisadçılar, habelə orta məktəblər üçün müəllimlər çatışmırdı. Orta ixtisaslı mütəxəssislərin çatışmaması üzündən kənd təsərrüfatının mütəxəssislərlə təminatında da acınacaqlı vəziyyət yaranmışdı.

1960-cı ildən başlayaraq qeyd olunan nöqsanların aradan qaldırılması istiqamətində müəyyən tədbirlər görüldü. Bu tədbirlərin nəticəsində orta ixtisas məktəblərində mütəxəssis hazırlığı əhəmiyyətli dərəcədə yaxşılaşdı.

1960/61-ci tədris ilinin əvvəllərində Azərbaycan SSR-də 66 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Onlardan 17-si tibb, 16-sı kənd təsərrüfatı, 11-i sənaye, 8-i pedaqoji, 6-sı musiqi və incəsənət, 2-si nəqliyyat, 1-i rabitə, 1-i inşaat, 1-i mədəni-maarif, 1-i ticarət, 1-i kooperativ və 1-i statistika texnikumu idi.

Cədvəllərdən göründüyü kimi, 10 il ərzində orta ixtisas təhsili müəssisələrinin sayı 81-dən 66-ya qədər azalsa da, tələbələrin sayı əksinə, 1951/52-ci tədris ilindəki 20932 nəfərdən 1960/61-ci tədris ilində 27036 nəfərə qədər artmışdır.

## 4.7. Orta ixtisas təhsili 60-cı illərdə

60-cı illərin əvvəllərindən yeni orta ixtisas təhsili müəssisələrinin, filialların, şöbələrin, tədris qruplarının yaradılmasına, müxtəlif texnikum və məktəblərin profillərinin dəyişdirilməsinə başlandı.

Azərbaycan hökumətinin **«Azərbaycan SSR-də orta ixtisas təhsilli mütəxəssislərin hazırlanması vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında»** 19 may 1961-ci il və **«Ali və orta ixtisas təhsilinin daha da inkişaf etdirilməsi, mütəxəssis hazırlığının yaxşılaşdırılması və onlardan istifadə olunması tədbirləri haqqında»** 11 iyun 1963-cü il tarixli qərarlarında qeyd olunurdu ki, son illər ali və orta ixtisas təhsilinin inkişafında böyük nailiyyətlər qazanılmış, ali və orta ixtisas təhsilli mütəxəssis buraxılışı artmış, gənc mütəxəssislərin nəzəri və praktik hazırlıq səviyyəsi yüksəlmiş, xalq təsərrüfatının müxtəlif sahələrində iş təcrübəsi olan gənclərin ali və orta ixtisas təhsili müəssisələrinə qəbulu artmışdır.

1961-ci ilin oktyabrında respublikada 68 orta ixtisas məktəbi (65-i əyani, 3-ü axşam), 3 filial, 15 axşam və 24 qiyabi şöbə fəaliyyət göstərirdi. Onlarda təhsil alan tələbələrin sayı 30965 nəfər təşkil edirdi.

1964-cü ilin yanvarından başlayaraq, yeni orta ixtisas təhsili müəssisələrinin yaradılması, mövcud şöbələrin genişləndirilməsi işi davam etdirildi. Həmin ildə ***Kirovabad (Gəncə) Toxuculuq Texnikumunun*** bazasında ***Politexnik Texnikumu*** yaradıldı. Naxçıvanda ***Pedaqoji Məktəb*** təşkil olundu.

1965/66-cı tədris ilində orta ixtisas məktəblərinin sayı 71-ə, onlarda təhsil alan tələbələrin sayı isə 55,780 nəfərə çatdı.

**Sov.İKP MK və SSRİ Nazirlər Soveti 3 sentyabr 1966-cı ildə «Ölkədə ali və orta ixtisas təhsilinə rəhbərliyin təkmilləşdirilməsi və mütəxəssis hazırlığının yaxşılaşdırılması tədbirləri haqqında» qərar qəbul etdi.**

Həmin qərarın icrasını təmin etmək məqsədilə respublikanın ayrı-ayrı zavodlarında yeni orta ixtisas təhsili müəssisələrinin əsası qoyuldu.

1966–1970-ci illərdə Əli Bayramlı (indiki Şirvan) və Ağdamda yeni *pedaqoji məktəblər*, Balakən və Mingəçevirdə *politexnik texnikumlar*, Qubada və Xankəndində *sovxoz-texnikumlar* yaradıldı. ***Bakı Axşam Yüngül Sənaye Texnikumu*** təhsilin hər üç formasını (əyani, axşam, qiyabi) əhatə edən ***Yüngül Sənaye Texnikumuna*** çevrildi. ***Sumqayıt Metallurgiya Texnikumu*** isə ***Politexnik Texnikum*** adlandırıldı.

60-cı illərdə orta ixtisas məktəblərinə tələbə qəbulunda da irəliləyişlərə nail olundu. Qəbul 1970/71-ci tədris ilində 1961/62-ci tədris ili ilə müqayisədə 2,2 dəfə artdı.

Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun artması mütəxəssis buraxılışına da öz müsbət təsirini göstərdi.

*1960/61-ci tədris ilində Azərbaycan SSR-də fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələri və onların tələbə kontingenti*

| № | Təhsil müəssisəsinin adı | Tələbələrin sayı |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Bakı Neft Texnikumu | 1489 |
| 2. | Bakı Axşam Neft Texnikumu | 1705 |
| 3. | Energetika Texnikumu | 1213 |
| 4. | Bakı Politexnik Texnikumu | 906 |
| 5. | Bakı Yeyinti Sənaye Texnikumu | 742 |
| 6. | Kirovabad (Gəncə) Toxuculuq Texnikumu | 683 |
| 7. | Sumqayıt Texnologiya Texnikumu | 1068 |
| 8. | Bakı Texnologiya Texnikumu | 320 |
| 9. | Bakı Balıq Sənayesi Texnikumu | 158 |
| 10. | Bakı Axşam Yüngül Sənaye Texnikumu | 864 |
| 11. | Kirovabad (Gəncə) İnşaat Texnikumu | 689 |
| 12. | Bakı Sənaye Texnikumu | 364 |
| 13. | Bakı Rabitə Elektrotexnikumu | 618 |
| 14. | Bakı Dəmiryolu Texnikumu | 711 |
| 15. | Bakı Dənizyolu Məktəbi | 1153 |
| 16. | Bakı Kənd Təsərrüfatı Texnikumu | 233 |
| 17. | Ağdam Kənd Təsərrüfatı Texnikumu | 474 |
| 18. | Ağdam Mexanikləşdirmə və Elektrikləşdirmə Texnikumu | 504 |
| 19. | Ağdaş Kənd Təsərrüfatı Texnikumu | 130 |
| 20. | Göyçay Kənd Təsərrüfatının Mexa-nikləşdirilməsi Texnikumu | 745 |
| 21. | Zaqatala Kənd Təsərrüfatı Texnikumu | 324 |
| 22. | Qazax Kənd Təsərrüfatı Texnikumu | 273 |
| 23. | Kirovabad (Gəncə) Kənd Təsərrüfatı Texnikumu | 197 |
| 24. | Quba Kənd Təsərrüfatı Texnikumu | 303 |
| 25. | Lənkəran Sovxoz Texnikumu | 183 |
| 26. | Şəki Kənd Təsərrüfatı Texnikumu | 243 |
| 27. | Salyan Kənd Təsərrüfatı Texnikumu | 350 |
| 28. | Şamaxı Zoobaytar Texnikumu | 723 |
| 29. | Naxçıvan Kənd Təsərrüfatı Texnikumu | 224 |
| 30. | Xankəndi Sovxoz Texnikumu | 290 |
| 31. | Şuşa Kənd Təsərrüfatı Texnikumu | 181 |
| 32. | Bakı Sovet Ticarəti Texnikumu | 962 |
| 33. | Bakı Statistika Texnikumu | 502 |
| 34. | Bakı Kooperativ Texnikumu | 843 |
| 35. | Bakı Tibb Məktəbi №1 | 1549 |
| 36. | Bakı Tibb Məktəbi №3 | 181 |
| 37. | Əczaçılıq Məktəbi | 179 |
| 38. | Bakı Tibb Məktəbi №5 | 187 |
| 39. | Bakı Tibb Məktəbi №8 | 125 |
| 40. | Naxçıvan Tibb Məktəbi | 60 |
| 41. | Xankəndi Tibb Məktəbi | 59 |
| 42. | Ağdam Tibb Məktəbi | 126 |
| 43. | Ağdaş Tibb Məktəbi | 92 |
| 44. | Göyçay Tibb Məktəbi | 61 |
| 45. | Qazax Tibb Məktəbi | 90 |
| 46. | Kirovabad (Gəncə) Tibb Məktəbi | 244 |
| 47. | Quba Tibb Məktəbi | 96 |
| 48. | Lənkəran Tibb Məktəbi | 64 |
| 49. | Şəki Tibb Məktəbi | 119 |
| 50. | Salyan Tibb Məktəbi | 60 |
| 51. | Şamaxı Tibb Məktəbi | 63 |
| 52. | Bakı Kitabxanaçılıq Texnikumu | 736 |
| 53. | Bakı Məktəbəqədər Pedaqoji məktəb | 409 |
| 54. | M.Ə.Sabir adına Bakı Rus Pedaqoji Məktəbi | 323 |
| 55. | Zaqatala Pedaqoji Məktəb | 93 |
| 56. | Lənkəran Pedaqoji Məktəbi | 181 |
| 57. | Şəki Pedaqoji Məktəbi | 121 |
| 58. | Xanlar Pedaqoji Məktəbi | 149 |
| 59. | Şamaxı Pedaqoji Məktəbi | 206 |
| 60. | Şuşa Pedaqoji Məktəbi | 121 |
| 61. | A.Zeynallı adına Bakı Musiqi Məktəbi | 388 |
| 62. | Bakı Rəssamlıq Məktəbi | 146 |
| 63. | Ağdam Musiqi Məktəbi | 126 |
| 64. | Kirovabad (Gəncə) Musiqi Məktəbi | 111 |
| 65. | Şəki Musiqi Məktəbi | 33 |
| 66. | Bakı Xoreoqrafiya Məktəbi | 171 |
| **Cəmi:** | | **27036** |

*1960-cı illərdə respublikanın orta ixtisas təhsili müəssisələrinə ayrı-ayrı təhsil formaları üzrə tələbə qəbulunun artım dinamikası*

| Tədris illəri | Qəbul olunanların sayı | O cümlədən təhsil formaları üzrə | | |
|---|---|---|---|---|
| | | Əyani | Axşam | Qiyabi |
| 1960/61 | 12144 | 6632 | 2184 | 3328 |
| 1961/62 | 14543 | 7552 | 2493 | 4498 |
| 1962/63 | 15641 | 7985 | 2807 | 2807 |
| 1963/64 | 17337 | 8276 | 3325 | 5736 |
| 1964/65 | 18104 | 9106 | 3626 | 5372 |
| 1965/66 | 22474 | 13741 | 3948 | 4785 |
| 1966/67 | 21638 | 13257 | 3989 | 4392 |
| 1967/68 | 22093 | 14135 | 3741 | 4217 |
| 1968/69 | 23964 | 15124 | 3992 | 4848 |
| 1969/70 | 23964 | 16303 | 3747 | 4564 |

*1960-cı illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində ayrı-ayrı təhsil formaları üzrə tələbə kontingentinin artım dinamikası*

| Tədris illəri | Təhsil müəssisələrinin sayı | Tələbələrin sayı | O cümlədən | | |
|---|---|---|---|---|---|
| | | | Əyani | Axşam | Qiyabi |
| 1960/61 | 68 | 30965 | 16831 | 5472 | 8662 |
| 1961/62 | 69 | 36760 | 18871 | 6664 | 11225 |
| 1962/63 | 69 | 43412 | 21570 | 8104 | 13540 |
| 1963/64 | 69 | 49286 | 23280 | 9784 | 16222 |
| 1964/65 | 71 | 55780 | 26349 | 11282 | 18149 |
| 1965/66 | 78 | 65008 | 33878 | 12837 | 18293 |
| 1966/67 | 78 | 69341 | 31953 | 18903 | 18485 |
| 1967/68 | 78 | 69286 | 37945 | 14001 | 17322 |
| 1968/69 | 79 | 68909 | 39909 | 12757 | 16195 |
| 1969/70 | 79 | 70770 | 43300 | 11974 | 15496 |

*1960-cı illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində ayrı-ayrı təhsil formaları üzrə məzunların sayı*

| Tədris illəri | Məzunların sayı | O cümlədən təhsil formaları üzrə | | |
|---|---|---|---|---|
| | | Əyani | Axşam | Qiyabi |
| 1960/61 | 6670 | 4522 | 835 | 1313 |
| 1961/62 | 7022 | 4388 | 1207 | 1427 |
| 1962/63 | 7662 | 4318 | 1190 | 2154 |
| 1963/64 | 9357 | 5636 | 1365 | 2356 |
| 1964/65 | 9448 | 4772 | 1618 | 3058 |
| 1965/66 | 12081 | 6437 | 1947 | 3697 |
| 1966/67 | 14741 | 8247 | 2091 | 4403 |
| 1967/68 | 16633 | 14135 | 3741 | 4604 |
| 1968/69 | 18584 | 9154 | 9154 | 4945 |
| 1969/70 | 18140 | 10378 | 3319 | 4445 |

1970/71-ci tədris ilində respublikada 79 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Bunlardan 38-i Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyində idi.

Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyində olan təhsil müəssisələrində 43,915 (62%) nəfər tələbə təhsil alırdı. Kənd Təsərrüfatı Nazirliyinin 16 texnikumunda 9886 (14%), Səhiyyə Nazirliyinin 16 tibb məktəbində 9827 (11%) nəfər orta pillə kadrı hazırlanırdı. Qalan 13% mütəxəssislər isə digər nazirlik, komitə və idarələrin tabeliyindəki orta ixtisas məktəblərində hazırlanırdı.

*1970/71-ci tədris ilində Azərbaycan SSR-də fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələri və onların tələbə kontingenti*

| № | Təhsil müəssisəsinin adı | Tələbələrin sayı |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Azərbaycan Dəniz Balıq Texnikumu | 1128 |
| 2. | Bakı Plan-Uçot Texnikumu | 1098 |
| 3. | Naxçıvan Kənd Təsərrüfatı Texnikumu | 623 |
| 4. | Xankəndi Kənd TəsərrüfatıTexnikumu | 580 |
| 5. | Şuşa Kənd Təsərrüfatı Texnikumu | 556 |
| 6. | Ağdam Kənd Təsərrüfatı Texnikumu | 561 |
| 7. | Ağdaş Kənd Təsərrüfatı Texnikumu | 423 |
| 8. | Göyçay Kənd TəsərrüfatıTexnikumu | 655 |
| 9. | Zaqatala Kənd Təsərrüfatı Texnikumu | 516 |
| 10. | Qazax Kənd Təsərrüfatı Texnikumu | 556 |
| 11. | Quba Kənd Təsərrüfatı Texnikumu | 572 |
| 12. | Lənkəran Kənd Təsərrüfatı Texnikumu | 518 |
| 13. | Şəki Kənd Təsərrüfatı Texnikumu | 654 |
| 14. | Salyan Kənd Təsərrüfatı Texnikumu | 725 |
| 15. | Şamaxı Kənd Təsərrüfatı Texnikumu | 599 |
| 16. | Kirovabad (Gəncə) Kənd Təsərrüfatı Texnikumu | 548 |
| 17. | Ağdam Kənd Təsərrüfatının Mexanik. və Elektrik. Texnikumu | 702 |
| 18. | Bakı Dəmiryolu Texnikumu | 1079 |
| 19. | Bakı Dənizyolu Məktəbi | 1326 |
| 20. | Bakı Rabitə Elektrik Texnikumu | 2844 |
| 21. | Bakı Kooperativ Texnikumu | 1542 |
| 22. | Bakı Neft Texnikumu | 3527 |
| 23. | Bakı Energetika Texnikumu | 2263 |
| 24. | Bakı Politexnik Texnikumu | 3133 |
| 25. | Bakı Texnologiya Texnikumu | 1171 |
| 26. | Bakı Yeyinti Sənaye Texnikumu | 1846 |
| 27. | Bakı Axşam Neft Texnikumu | 2638 |
| 28. | Bakı Yüngül Sənaye Texnikumu | 1835 |
| 29. | Bakı Plan-İqtisad Texnikumu | 1398 |
| 30. | Bakı Maliyyə-Kredit Texnikumu | 1837 |
| 31. | M.Ə.Sabir ad.Bakı Pedaqoji Məktəbi | 695 |
| 32. | Bakı Məktəbəqədər Pedaqoji Məktəbi | 1372 |
| 33. | Bakı Musiqi Məktəbi | 963 |
| 34. | Bakı Kitabxanaçılıq Texnikumu | 1097 |
| 35. | Əzim Əzimzadə adına Rəssamlıq Məktəbi | 426 |
| 36. | Bakı Sovet Ticarəti Texnikumu | 2896 |
| 37. | Sumqayıt Politexnik Texnikumu | 1376 |
| 38. | Sumqayıt Kimya-Texnologiya Texnikumu | 1968 |
| 39. | Sumqayıt Musiqi Məktəbi | 500 |
| 40. | Kirovabad (Gəncə) İnşaat Baza Texnikumu | 2885 |
| 41. | Kirovabad (Gəncə) Politexnik Texnikumu | 1668 |
| 42. | Kirovabad (Gəncə) Yüngül Sənaye Texnikumu | 916 |
| 43. | Kirovabad (Gəncə) Musiqi Məktəbi | 462 |
| 44. | Mingəçevir Politexnik Baza Texnikumu | 1653 |
| 45. | Şəki Toxuculuq Texnikumu | 232 |
| 46. | Balakən Politexnik Texnikumu | 725 |
| 47. | Şəki Musiqi Məktəbi | 173 |
| 48. | Şəki Pedaqoji Məktəbi | 481 |
| 49. | Əli Bayramlı Pedaqoji Məktəbi | 430 |
| 50. | Şuşa Pedaqoji Məktəbi | 500 |
| 51. | Xanlar Pedaqoji Məktəbi | 68 |
| 52. | Lənkəran Pedaqoji Məktəbi | 269 |
| 53. | Şamaxı Pedaqoji Məktəbi | 425 |
| 54. | Zaqatala Pedaqoji Məktəbi | 286 |
| 55. | Naxçıvan Pedaqoji Məktəbi | 223 |
| 56. | Ağdam Pedaqoji Məktəbi | 388 |
| 57. | Kirovabad (Gəncə) Məktəbəqədər Pedaqoji Məktəbi | 816 |
| 58. | Xankəndi Musiqi Məktəbi | 114 |
| 59. | Ağdam Musiqi Məktəbi | 260 |
| 60. | Bakı Xoreoqrafiya Məktəbi | 157 |
| 61. | Bakı Tibb Məktəbi №1 | 2031 |
| 62. | Bakı Tibb Məktəbi №8 | 1158 |
| 63. | Bakı Tibb Məktəbi №5 | 241 |
| 64. | Bakı Əczaçılıq Məktəbi | 304 |
| 65. | Naxçıvan Tibb Məktəbi | 224 |
| 66. | Xankəndi Tibb Məktəbi | 359 |
| 67. | Ağdam Tibb Məktəbi | 231 |
| 68. | Kirovabad (Gəncə) Tibb Məktəbi | 1268 |
| 69. | Lənkəran Tibb Məktəbi | 269 |
| 70. | Şəki Tibb Məktəbi | 245 |
| 71. | Mingəçevir Tibb Məktəbi | 332 |
| 72. | Sumqayıt Tibb Məktəbi | 445 |
| 73. | Göyçay Tibb Məktəbi | 126 |
| 74. | Şamaxı Tibb Məktəbi | 92 |
| 75. | Qazax Tibb Məktəbi | 178 |
| 76. | Quba Tibb Məktəbi | 142 |
| 77. | Salyan Tibb Məktəbi | 182 |
| 78. | Bakı Sənaye Texnikumu | 494 |
| 79. | Bakı Bədən Tərbiyəsi Texnikumu | 572 |
| **Cəmi:** | | **70770** |

*1960-cı illərdə respublikada fəaliyyət göstərən orta ixtisas məktəbləri və onların tələbə kontingenti*

| Təhsil istiqamətləri | 1961/62 | | 1965/66 | | 1970/71 | |
|---|---|---|---|---|---|---|
| | Tədris müəssisələri | Tələbələrin sayı | Tədris müəssisələri | Tələbələrin sayı | Tədris müəssisələri | Tələbələrin sayı |
| **Cəmi** O cümlədən: | **68** | **30965** | **71** | **55780** | **79** | **70770** |
| Sənaye və tikinti | 13 | 11282 | 14 | 23041 | 17 | 29458 |
| Nəqliyyat və rabitə | 3 | 2785 | 3 | 4734 | 3 | 5249 |
| Kənd təsərrüfatı | 16 | 5137 | 16 | 9384 | 16 | 9885 |
| İqtisadiyyat və hüquq | 3 | 2627 | 3 | 3661 | 4 | 7673 |
| Səhiyyə, bədən tərbiyəsi və idman | 17 | 5311 | 17 | 7615 | 18 | 8399 |
| Maarif | 9 | 2684 | 10 | 5593 | 13 | 7050 |
| İncəsənət və kinematoqrafiya | 7 | 1139 | 8 | 1752 | 8 | 3056 |

Göründüyü kimi, 10 il ərzində həm tədris müəssisələrinin sayı (68-dən 79-dək), həm də tələbə kontingenti (30965-dən 70770-dək) artmışdır.

60–70-ci illərdə orta ixtisas təhsili sisteminin təkmilləşdirilməsi və inkişafı sahəsində müəyyən nailiyyətlər əldə edildi.

1970-ci ildən başlayaraq Azərbaycan hökuməti orta ixtisas təhsili müəssisələrinin inkişafına və orta pillə kadrlarının hazırlanmasına daha ciddi diqqət yetirməyə başladı.

## 4.8. Orta ixtisas təhsili 70–80-ci illərdə

70–80-ci illərdə Azərbaycan SSR-in xalq təsərrüfatının inkişaf perspektivlərinə uyğun olaraq onun ayrı-ayrı sahələrində ixtisaslı kadrlara tələbat yüksəldi və orta ixtisas təhsilinin inkişafı məqsədilə əsaslı tədbirlər həyata keçirildi.

1970-ci ildən başlayaraq orta ixtisas təhsili müəssisələrinin inkişafına və orta pillə kadrlarının hazırlanmasına daha ciddi diqqət yetirilməyə başlandı.

Azərbaycan hökumətinin **«1971–1975-ci illərdə kənd təsərrüfatı üzrə mütəxəssis hazırlığının və kənd təsərrüfatı kadrlarının təhsilinin təşkil edilməsinin yaxşılaşdırılması tədbirləri haqqında»** 7 may 1971-ci il tarixli qərarında Lənkəran, Naxçıvan, Ağdam kənd təsərrüfatı texnikumlarının bazasında sovxoz – texnikumların yaradılması, bir sıra texnikumların profilinin dəyişdirilməsi, habelə yeni ixtisaslar üzrə şöbələrin açılması nəzərdə tutulmuşdu.

Qərarın qəbulundan dərhal sonra, 1971-ci ildə respublikada ***Naxçıvan və Lənkəran sovxoz – texnikumları*** yaradıldı, sovxoz–texnikumların sayı 4-ə çatdırıldı.

1972-ci ildə ibtidai məktəblərin üçillik təlim müddətinə keçməsi ilə əlaqədar ibtidai sinif müəllimlərinə tələbatın azaldığını nəzərə alaraq, həmin ildə ***Naxçıvan Pedaqoji Məktəbinin*** fəaliyyəti dayandırıldı. Naxçıvanda inşaat, elektrotexnika, kimya-texnologiya və s. ixtisaslara olan ehtiyacın ödənməsi üçün ***Naxçıvan Politexnik Texnikumu*** yaradıldı.

Bir sıra orta ixtisas məktəblərinin profilləri dəyişdirildi. 1972-ci ildə Kirovabad (Gəncə)



*Bakı Energetika Texnikumunun laboratoriyasında*



*Bakı Neft Texnikumunda məşğələ zamanı*



*Şuşa Mədəni-Maarif Texnikumunda dərs zamanı*



*Bakı Sənaye Pedaqoji Texnikumunda diplom müdafiəsi*



*Bakı Yeyinti Sənayesi Texnikumu. Təcrübə bazalarının ekspertiza laboratoriyasında*



*Bakı Yeyinti Sənayesi Texnikumunun kimya laboratoriyasında*

Məktəbəqədər Pedaqoji Məktəbi *Məhsəti Gəncəvi adına Kirovabad (Gəncə) Pedaqoji Məktəbi* adlandırıldı. Əli-Bayramlı (Şirvan) Pedaqoji Məktəbi *Sənaye Texnikumu* kimi fəaliyyət göstərməyə başladı.

70-ci illərdə respublikada musiqi məktəblərinin sayı artmağa başladı. 1974-cü ildə Şuşada Xankəndi orta ixtisas musiqi məktəbinin filialı yaradıldı. 1975-ci ildə Naxçıvanda və Lənkəranda da musiqi məktəbləri fəaliyyət göstərməyə başladı.

1975-ci ildə 5№-li və Abbas Səhhət adına 8№-li Tibb məktəblərinin bazasında *Bakı 2№-li Tibb Məktəbinin* əsası qoyuldu.

Həmin ildə *Lənkəran və Quba sovxoz-texnikumları* Meyvə-Tərəvəz Təsərrüfatı Nazirliyinin tabeliyinə verildi.

1977-ci ildə *Tovuz Sovxoz-Texnikumu* yaradıldı.

1980-ci ildə *Bakı Kitabxanaçılıq Texnikumu Mədəni-Maarif Məktəbinə* çevrildi.

70–80-ci illərdə əyani təhsil respublikanın xalq təsərrüfatı və mədəniyyəti üçün kadr hazırlığının əsas forması kimi qalırdı. Əyani təhsilin iqtisadi səmərəliliyini nəzərə alan Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi, digər nazirlik, birlik və idarələr əyani şöbələrdə təhsil alanların sayının artırılması üçün bir sıra tədbirlər həyata keçirdilər. Görülən tədbirlərin nəticəsində əyani şöbədə təhsil alanların sayı artdı.

1971–1985-ci illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində 317415 mütəxəssis hazırlanmışdı. Əgər 1975-ci ildə orta ixtisas təhsili müəssisələrində 18965 kadr hazırlanmışdısa, 1985-ci ildə onların sayı 24300 nəfər təşkil etmişdi.

Əsas artım 1976–1980-ci illərdə olmuşdu. Belə ki, 1980/81-ci tədris ilində 1975/76-cı tədris ili ilə müqayisədə məzunların sayı 5450 nəfər artmışdı.

*1970–1985-ci illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində ayrı-ayrı təhsil formaları üzrə məzunların sayı*

| Tədris illəri | Məzunların sayı | O cümlədən | | |
|---|---|---|---|---|
| | | Əyani | Axşam | Qiyabi |
| 1970/71 | 18500 | 11400 | 3200 | 3900 |
| 1971/72 | 19200 | 12800 | 2800 | 3600 |
| 1972/73 | 18600 | 12400 | 2600 | 3600 |
| 1973/74 | 18800 | 12700 | 2500 | 3600 |
| 1974/75 | 18965 | 13114 | 2132 | 3719 |
| 1975/76 | 17200 | 12600 | 700 | 3900 |
| 1976/77 | 20400 | 13500 | 2600 | 4300 |
| 1977/78 | 21100 | 14100 | 2400 | 4600 |
| 1978/79 | 22200 | 14700 | 2500 | 5000 |
| 1979/80 | 22650 | 14694 | 2808 | 5148 |
| 1980/81 | 23100 | 14800 | 2900 | 5400 |
| 1981/82 | 23500 | 15100 | 2900 | 5500 |
| 1982/83 | 24400 | 15600 | 3000 | 5800 |
| 1983/84 | 24500 | 15500 | 3000 | 6000 |
| 1984/85 | 24300 | 15300 | 2800 | 6200 |

1980-ci ilin sonunda respublikada 75 orta ixtisas məktəbi fəaliyyət göstərirdi. Onlardan 27-si Bakıda, 4-ü Naxçıvanda, 5-i Dağlıq Qarabağ Muxtar Vilayətində, qalan 39 texnikum isə Azərbaycanın 17 şəhər və rayonunda yerləşirdi. Bu texnikumlarda 79000 tələbə təhsil alırdı.

*1980/81-ci tədris ilində Azərbaycan SSR-də fəaliyyət göstərən orta ixtisas təhsili müəssisələri və onların tələbə kontingenti*

| № | Təhsil müəssisəsinin adı | Tələbələrin sayı |
|---|---|---|
| 1 | 2 | 3 |
| 1. | Azərbaycan Dəniz Balıq Texnikumu | 323 |
| 2. | Bakı Plan-Uçot Texnikumu | 894 |
| 3. | Naxçıvan Sovxoz Texnikumu | 641 |
| 4. | Xankəndi Sovxoz Texnikumu | 578 |
| 5. | Şuşa Kənd Təsərrüfatı Texnikumu | 556 |
| 6. | Ağdam Kənd Təsərrüfatı Texnikumu | 407 |
| 7. | Ağdaş Kənd Təsərrüfatı Texnikumu | 637 |
| 8. | Göyçay Kənd Təsərrüfatının Mexanik. və Elektrik. Texnikumu | 615 |
| 9. | Zaqatala Kənd Təsərrüfatı Texnikumu | 466 |
| 10. | Qazax Kənd Təsərrüfatı Texnikumu | 487 |
| 11. | Quba Sovxoz Texnikumu | 710 |
| 12. | Lənkəran Sovxoz Texnikumu | 665 |
| 13. | Şəki Kənd Təsərrüfatı Texnikumu | 535 |
| 14. | Salyan Kənd Təsərrüfatı Texnikumu | 840 |
| 15. | Şamaxı Kənd Təsərrüfatı Texnikumu | 288 |
| 16. | Kirovabad (Gəncə) Kənd Təsərrüfatı Texnikumu | 915 |
| 17. | Ağdam Kənd Təsərrüfatının Mexanik və Elektrik Texnikumu | 796 |
| 18. | Bakı Dəmiryolu Texnikumu | 1206 |
| 19. | Bakı Dənizyolu Məktəbi | 1292 |
| 20. | Bakı Rabitə Elektrotexnikumu | 2473 |
| 21. | Bakı Kooperativ Texnikumu | 1730 |
| 22. | Bakı Neft Texnikumu | 2980 |
| 23. | Bakı Enerji Texnikumu | 2704 |
| 24. | Bakı Politexnik Texnikumu | 3852 |
| 25. | Bakı Texnologiya Texnikumu | 1194 |
| 26. | Bakı Yeyinti Sənaye Texnikumu | 1492 |
| 27. | Bakı Axşam Neft Texnikumu | 2650 |
| 28. | Bakı Yüngül Sənaye Texnikumu | 1727 |
| 29. | Bakı Plan-İqtisad Texnikumu | 1600 |
| 30. | Bakı Maliyyə-Kredit Texnikumu | 2187 |
| 31. | M.Ə.Sabir ad.Bakı Pedaqoji Məktəbi | 1047 |
| 32. | Bakı Məktəbəqədər Pedaqoji Məktəb | 1583 |
| 33. | Bakı Musiqi Məktəbi | 947 |
| 34. | N.K.Krupskaya ad.Bakı Mədəni Maarif Məktəbi | 1364 |
| 35. | Əzim Əzimzadə adına Rəssamlıq Məktəbi | 448 |
| 36. | Bakı Sovet Ticarəti Texnikumu | 2598 |
| 37. | Sumqayıt Politexnik Texnikumu | 2628 |
| 38. | Sumqayıt Kimya-Texnologiya Texnikumu | 2682 |
| 39. | Sumqayıt Musiqi Məktəbi | 575 |
| 40. | Kirovabad (Gəncə) Inşaat Baza Texnikumu | 3101 |
| 41. | Kirovabad (Gəncə) Politexnik Texnikumu | 3383 |
| 42. | Kirovabad (Gəncə) Yüngül Sənaye Texnikumu | 1575 |
| 43. | Kirovabad (Gəncə) Pedaqoji Məktəbi | 1037 |
| 44. | Kirovabad (Gəncə) Musiqi Məktəbi | 640 |
| 45. | Mingəçevir Politexnik Baza Texnikumu | 2367 |
| 46. | Şəki Toxuculuq Texnikumu | 386 |
| 47. | Zaqatala Politexnik Texnikumu | 790 |
| 48. | Naxçıvan Politexnik Texnikumu | 768 |
| 49. | Şəki Musiqi Məktəbi | 377 |
| 50. | Şəki Pedaqoji Məktəbi | 575 |
| 51. | Əli Bayramlı Pedaqoji Məktəbi | 951 |
| 52. | Şuşa Pedaqoji Məktəbi | 616 |
| 53. | Ağdaş Pedaqoji Məktəbi | 209 |
| 54. | Lənkəran Pedaqoji Məktəbi | 438 |
| 55. | Şamaxı Pedaqoji Məktəbi | 305 |
| 56. | Xankəndi Musiqi Məktəbi | 224 |
| 57. | Ağdam Musiqi Məktəbi | 282 |
| 58. | Bakı Xoreoqrafiya Məktəbi | 180 |
| 59. | Bakı Tibb Məktəbi №1 | 1757 |
| 60. | Bakı Tibb Məktəbi №2 | 1505 |
| 61. | Bakı Əczaçılıq Məktəbi | 352 |
| 62. | Naxçıvan Tibb Məktəbi | 215 |
| 63. | Xankəndi Tibb Məktəbi | 303 |
| 64. | Ağdam Tibb Məktəbi | 179 |
| 65. | Kirovabad (Gəncə) Tibb Məktəbi | 1370 |
| 66. | Lənkəran Tibb Məktəbi | 189 |
| 67. | Şəki Tibb Məktəbi | 151 |
| 68. | Mingəçevir Tibb Məktəbi | 209 |
| 69. | Sumqayıt Tibb Məktəbi | 694 |
| 70. | Bakı Sənaye Pedaqoji Texnikumu | 623 |
| 71. | Bakı Bədən Tərbiyəsi Texnikumu | 654 |
| 72. | Lənkəran Musiqi Məktəbi | 86 |
| 73. | Naxçıvan Musiqi Məktəbi | 138 |
| 74. | Tovuz Sovxoz Texnikumu | 591 |
| 75. | Bərdə Pambıqçılıq Texnikumu | 468 |
| **Cəmi:** | | **79000** |

*Azərbaycanın orta ixtisas məktəblərinin strukturu. 1 oktyabr 1982-ci il*




*Respublikanın orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunun artım dinamikası*



*Respublikanın orta ixtisas təhsili müəssisələrində tələbə kontingentinin artım dinamikası*




*Respublikanın orta ixtisas təhsili müəssisələrində mütəxəssis buraxılışının dinamikası*



1981/82-ci tədris ilində Mingəçevir və Ağdam Tibb məktəbləri bağlandı.

Dağlıq Qarabağ Muxtar Vilayətində Xankəndi Pedaqoji İnstitutunun fəaliyyət göstərdiyi nəzərə alınaraq 1981-ci ildə Şuşa Pedaqoji Məktəbinin profili dəyişdirildi və onun bazasında ***Şuşa Mədəni-Maarif Məktəbi*** yaradıldı.

1982-ci ildə Xankəndi Musiqi Məktəbinin Şuşa filialının bazasında müstəqil Şuşa Musiqi Məktəbi təsis olundu. Bununla yanaşı, həmin ildə Quba-Xaçmaz zonasını musiqiçi mütəxəssislərlə təmin etmək məqsədilə Qubada A.Zeynallı adına Bakı Musiqi Məktəbinin filialı yaradıldı.

1981–1985-ci illərdə respublikanın sənaye struktrunda baş verən dəyişikliklərlə bağlı iqtisadiyyatın perspektivli sahələri üçün mütəxəssislər hazırlanması məqsədilə 6 yeni tədris müəssisəsi, 4 filial yaradıldı, bir sıra texnikumların profili dəyişdirildi. Belə ki, Kirovabad (Gəncə) Politexnik Texnikumunun bazasında iki müstəqil orta ixtisas məktəbi – ***Avtomexanika və Elektronika Sənayesi*** texnikumları yaradıldı.

70-ci illərin sonu, 80-ci illərin əvvəllərində Azərbaycanda üzümçülüyün inkişaf etdirilməsi ön plana çəkildi. Respublikanın rayonlarında yeni üzümçülük sovxozları və şərab zavodları yaradıldı. Həmin müəssisələri mütəxəssislərlə təmin etmək məqsədilə 1982-ci ildə Cəlilabad rayon üzümçülük sovxozunun bazasında Sovxoz-texnikum yaradıldı.

70–80-ci illərdə respublikada pambıqçılıq təsərrüfatlarının genişləndirilməsi ilə əlaqədar olaraq digər bir kənd təsərrüfatı texnikumu 1984-cü ildə iri pambıqçılıq rayonlarından biri olan Sabirabadda təşkil edildi. Həmin ildə respublikada maşınqayırma sahəsinin perspektivləri nəzərə alınaraq Bakı Axşam Neft Texnikumunun və Bakı Politexnik Texnikumunun bəzi ixtisaslarının bazasında ***Bakı Maşınqayırma Texnikumu*** yaradıldı.

Orta ixtisas məktəblərinin profilləri üzrə tələbələrin sayında 1971–1985-ci illərdə ciddi dəyişikliklər baş verdi. Bu illər ərzində sənaye və inşaat texnikumlarında tələbələrin sayı 2900, kənd təsərrüfatı texnikumlarında 1900 nəfər artdı. 1985/86-cı tədris ilində bütün tələbələrin 36,7%-i sənaye və inşaat, 16%-i səhiyyə sistemi, bədən tərbiyəsi və idman, 15%-i kənd təsərrüfatı, 12%-i iqtisadiyyat-hüquq, 11,8%-i maarif, 5%-i nəqliyyat və 3,5%-i incəsənət texnikum və ya məktəblərində təhsil almışdılar.

*1971–1985-ci illərdə respublikanın orta ixtisas təhsili müəssisələrində sahələr üzrə məzunların sayı*

| № | Tədris müəssisələri | 1971–1975 | 1976–1980 | 1981–1985 |
|---|---|---|---|---|
| 1. | Sənaye-inşaat | 34518 | 39225 | 45726 |
| 2. | Nəqliyyat və rabitə | 4700 | 5493 | 7567 |
| 3. | Kənd təsərrüfatı | 14248 | 16168 | 19039 |
| 4. | İqtisadiyyat və hüquq | 11214 | 13082 | 15387 |
| 5. | Səhiyyə, bədən tərbiyəsi və idman | 14914 | 15212 | 16476 |
| 6. | Maarif | 11144 | 10180 | 11279 |
| 7. | İncəsənət və kinematoqrafiya | 3308 | 4215 | 4405 |
| **Ümumi buraxılış:** | | **94046** | **103575** | **119879** |

1985/86-cı tədris ilində respublikada 77 orta ixtisas təhsili məktəbi və 5 filial fəaliyyət göstərirdi. 1985/86-cı tədris ilində 1971/72-ci tədris ili ilə müqayisədə tələbə kontingenti 5633 nəfər artmışdı. 1985/86-cı tədris ilində əyani təhsil alanların sayı bütün tələbələrin 59,9%-ni təşkil edirdi.

1971–1985-ci illərdə Bakı neft, energetika, rabitə, kooperativ, dəmiryol, 1 və 2№-li tibb texnikumlarında mütəxəssis hazırlığı genişləndi. Hər üç mütəxəssisdən ikisi əyani şöbələrdə hazırlanmışdı. 1971–1985-ci illərdə əyani şöbələri 208300 nəfər bitirmişdi. İstehsalatdan ayrılmadan təhsil alanların sayı 109100 (bütün məzunların 34,4%-i) nəfər təşkil etmişdi.

Sənaye və tikinti sahələri üzrə daha çox (37,6%) mütəxəssis hazırlanmışdı. Bu da həmin sahələrdə orta pillə kadrlarına ehtiyac olması ilə izah olunmalıdır.

70–80-ci illərdə orta ixtisas məktəblərinin tələbələri arasında qızların sayında da artım baş verdi. 1971–1985-ci illərdə tələbələr arasında qızların sayı 9 min nəfər artdı.

1986–1990-cı illərdə orta ixtisas təhsili müəssisələrinin sayı artsa da, tələbələrin sayı azalmağa başladı.

1986/87-ci tədris ilində 77 orta ixtisas təhsili müəssisəsində 74200 nəfər tələbə təhsil alırdısa, 1989/90-cı tədris ilində 78 təhsil müəssisəsində onların sayı 58800 nəfər təşkil etmişdi. Bu prosesə Sovetlər İttifaqında 1985-ci ildən başlanan böhranlı vəziyyət, eləcə də Azərbaycana qarşı Ermənistan tərəfindən 1988-ci ildən aparılan hərbi təcavüz nəticəsində təhsildə yaranan geriləmələr də təsir etdi.

Beləliklə, 70-ci illərin əvvəllərindən başlayaraq 80-ci illərin sonuna doğru elmi-texniki tərəqqinin tələblərinə uyğun olaraq orta ixtisas təhsilinin əyani formasının inkişafı sürətləndi, təlimin keyfiyyətinə tələblər artdı. Orta ixtisas məktəblərinə nəzarət vasitəsi kimi Azərbaycan Ali və Orta İxtisas Təhsili Nazirliyi nəzdində orta ixtisas təhsili müəssisələri rəhbərlərinin və elmi-pedaqoji işçilərinin attestasiyasını həyata keçirən Dövlət İnspeksiyası yarandı. Maddi istehsal sahələri üzrə tədris müəssisələri yenidən təşkil olundu və orta ixtisas məktəblərinin şəbəkəsi genişləndi.

### 4.9. Orta ixtisas məktəblərində müttəfiq respublikalar və xarici ölkələrlə tələbə mübadiləsi

Sovet hakimiyyətinin ilk illərindən Azərbaycanda orta ixtisas təhsilli mütəxəssis çatışmazlığına baxmayaraq, texnikumlarda digər sovet respublikaları üçün də kadrlar hazırlanırdı. Başqa respublikalardan gənclər, əsasən, pedaqoji və kənd təsərrüfatı sahəsindəki ixtisaslara yiyələnirdilər. 1922/23-cü tədris ilində Azərbaycanın Müəllimlər Seminariyalarında Türkmənistandan 9, Gürcüstandan 6, Dağıstan MSSR-dən 6, Tatarıstan MSSR-dən 9 nəfər təhsil almışdı. Bu təcrübə sonrakı illərdə də davam etdirildi. 1925/26-cı tədris ilində Zaqatala, Gəncə və Quba Kənd Təsərrüfatı texnikumlarında Özbəkistan, Türkmənistan və Dağıstan üçün 9 yer ayrılmışdı. Həmin tədris ilində pedaqoji texnikumlarda Orta Asiya (13 yer), Gürcüstan (3 yer), Ermənistan (2 yer), Dağıstan MSSR (6 yer), Qaraçay–Çərkəz Muxtar Vilayəti (3 yer) üçün də yerlər müəyyənləşdirilmişdi. 1927/28-ci tədris ilində texnikumlarda təkcə Özbəkistan SSR üçün 10 yer ayrılmışdı.

1930-cu ildə Azərbaycan Xalq Maarif Komissarlığının Kollegiyası digər respublika və vilayətlər üçün 330 yer ayrılmasını qərara aldı. Qərara uyğun olaraq Dağıstan MSSR-ə 172, Türkmənistana 72, Özbəkistana 36, Tacikistana 33, Krım vilayətinə 17 yer ayrıldı.



*Bakı Baza Elektroenergetika Texnikumunun linqafon texnikası kabinetində*

1935/36-cı tədris ilində Azərbaycanın orta ixtisas təhsili müəssisələrində müttəfiq respublikaların 32 nümayəndəsi təhsil alırdı.

Azərbaycanlılar da öz növbəsində digər respublikaların orta ixtisas təhsili məktəblərində (Moskva Dövlət Kino Texnikumu, Moskva Sirk Texnikumu, Leninqrad (Sankt-Peterburq) Xoreoqrafiya Texnikumu və s.) təhsil alırdılar.

60–80-ci illərdə də Azərbaycanda xarici ölkələr üçün orta ixtisas təhsilli mütəxəssislər hazırlanması işi davam etdirildi. 60-cı illərdə respublikanın bəzi texnikumları Asiya, Afrika və Latın Amerikasının bir sıra dövlətləri üçün kadr hazırlamağa başladı. 1964-cü ildə Bakı Energetika və Neft texnikumlarına Yəmən, İndoneziya, Əfqanıstan və Kubadan olan ilk

əcnəbi tələbələr dəstəsi gəldi. Onlar, əsasən, elektrik maşınqayırma, neft və qazın texnologiyası, metal emalı dəzgahlarının təmiri və montajı və s. ixtisaslara yiyələnirdilər. Texnikumlarda 1966-cı ildə 19, 1968-ci ildə 45, 1970-ci ildə 31, 1972-ci ildə 60, 1980-ci ildə 176, 1986-cı ildə 248 əcnəbi tələbə təhsil almışdı. 1985/86-cı tədris ilində təkcə Bakı Neft Texnikumunda əcnəbilərin sayı 90, Bakı Maşınqayırma Texnikumunda 92 nəfər olmuşdu. 20 il (1966–1985) ərzində respublikanın orta ixtisas təhsili müəssisələrində dünyanın 36 ölkəsi üçün 450-dən çox ixtisaslı mütəxəssis hazırlanmışdı.

1971–1985-ci illərdə respublikada xarici ölkələr üçün orta ixtisas təhsilli kadr hazırlanmaqla yanaşı, texnikum məzunlarının bir hissəsi işləmək üçün keçmiş ittifaqın ayrı-ayrı respublikalarına göndərilirdi. Belə ki, 70–80-ci illərdə Kirovabad (Gəncə) Məktəbəqədər Pedaqoji Texnikumunun 10 məzunu işləmək üçün Qazaxıstanın Şevçenko şəhərinə göndəriş almışdı. Sumqayıt və Mingəçevir Politexnik Texnikumunun məzunlarından bir qrupu Saratov, Ryazan şəhərlərinə işləməyə göndərilmişdi. 1971-ci ildə Kirovabad (Gəncə) İnşaat Texnikumunun məzunlarından 68-i SSRİ Müdafiə Nazirliyinin, 8-i ittifaqın digər nazirlik və idarələrinin, 10-u RSFSR Meliorasiya və Su Təsərrüfatı Nazirliyinin, 5-i Qazaxıstan SSR-in müəssisələrinə göndərilmişdi. Bakı Mədəni-Maarif, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq texnikumlarının məzunları işləmək üçün Gürcüstan, Ermənistan, Türkmənistan və Dağıstana göndəriş almışdılar. Əgər 1964-cü ildə texnikumların 2369 məzunundan cəmi 32 nəfəri Azərbaycandan kənarda işləmək üçün göndəriş almışdısa, 1979-cu ildə 7833 məzundan 429-u ittifaqın müxtəlif şəhərlərinə işləməyə göndərilmişdi.

1980-ci ildə respublikadan kənarda işləməyə göndərilən gənc mütəxəssislərin sayı daha da artdı. Sovetlər Birliyinin müxtəlif şəhər və rayonlarına Bakı Neft Texnikumunun 159, Bakı Energetika Texnikumunun 129, Zaqatala Politexnik Texnikumunun 76 məzunu göndəriş aldı.

* * *

**71 il ərzində orta ixtisas məktəblərinin geniş şəbəkəsi yaradıldı, burada tədrisin keyfiyyətinə daim nəzarət edildi, bu tip təhsil müəssisələrini bitirmiş məzunlar həyatımızın bütün sahələrində böyük nailiyyətlər əldə etdilər.**

Adı XX əsr Azərbaycan tarixinə əbədi yazılan şəxsiyyətlərin böyük əksəriyyəti ilk ixtisas təhsillərini məhz orta ixtisas məktəblərində almışlar. Onlardan Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov Bakı Dənizçilik Məktəbində, akademiklər Həsən Abdullayev və Həsən Əliyev Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda, akademik Əlisöhbət Sumbatzadə, xalq artisti, bəstəkar Səid Rüstəmov, şair Cabir Novruz, xalq rəssamı Salam Salamzadə və b. Bakı Pedaqoji Texnikumunda, SSRİ Xalq artisti Zeynəb xanım Xanlarova Bakı Məktəbəqədər Pedaqoji Texnikumunda, Sosialist Əməyi Qəhrəmanları Məsmə xanım Atakişiyeva və Ömər Ağayev Şamaxı Pedaqoji Texnikumunda, xalq şairi Bəxtiyar Vahabzadə, yazıçı-dramaturq Sabit Rəhman Şəki Pedaqoji Texnikumunda, Sosialist Əməyi Qəhrəmanı, yazıçı Mirzə

İbrahimov Bakı Neft Texnikumunda, Sosialist Əməyi Qəhrəmanı, akademik İsmayıl İbrahimov, uzun illər Azərbaycana rəhbərlik etmiş akademik Vəli Axundov Bakı Neft Sənayesi Texnikumunda, SSRİ xalq rəssamları Mikayıl Abdullayev, Tahir Salahov, Tokay Məmmədov, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində, Qara Qarayev, Fikrət Əmirov, Soltan Hacıbəyov, Firəngiz xanım Əhmədova, Lütfiyar İmanov, Rauf Hacıyev, Tofiq Quliyev, Cövdət Hacıyev kimi musiqi korifeyləri Asəf Zeynallı adına Bakı Musiqi Məktəbində təhsil almışdılar.

### 4.10. Ermənistanda və Gürcüstanda Azərbaycan məktəbləri üçün orta təhsilli müəllim kadrları hazırlığı

Sovet hakimiyyəti illərində Ermənistanda da azərbaycanlılar üçün orta ixtisas məktəbləri yaradıldı. Erməni məktəblərindən fərqli olaraq, Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək olduqca çətin idi. İlk vaxtlar İrəvan gimnaziyasını və müəllimlər seminariyasını bitirənlərdən maksimum istifadə edilirdi. Lakin şagird kontingenti böyük olduğu üçün pedaqoji kadrlara olan tələbat da böyük idi.

1923-cü il martın 9-da Ermənistan Kommunist Partiyasının II qurultayında respublikada müəllim çatışmazlığı müzakirə olundu. Pedaqoji kadrlara olan tələbatı təmin etmək üçün 1923-cü ilin axırlarında İrəvanda, Göyçədə, Zəngibasarda, Vedidə, Zəngəzurda, Gümrüdə, Dərələyəzdə pedaqoji kurslar təşkil edildi.

1924-cü ildə Azərbaycan XMK-nın razılığı ilə 16 nəfər, 1925-ci ildə 38 nəfər azərbaycanlı gənc pedaqoji təhsil almaq üçün Ermənistandan Azərbaycan Dövlət Pedaqoji İnstitutuna göndərildi. Ermənistanın özündə yerli kadrların hazırlanmasına diqqət yetirmək məsələsini Ermənistan XMK-sı bilərəkdən arxa plana keçirmişdi.

1924-cü ildə dekabrın 25-də Ermənistan müəllimlərinin I qurultayı oldu. Qurultayın qərarı ilə 1926-cı ildən İrəvanda Azərbaycan dilində «Xalq maarifi» jurnalı nəşrə başladı.

Respublikada yeni açılan Azərbaycan məktəblərinin normal işləməsini təmin və təşkil etmək məqsədilə 1925-ci ilin 25 avqustunda Gümrüdə azərbaycanlı müəllimlərin qurultayı çağırıldı. Qurultayın əsas məqsədi azərbaycanlı ziyalıları mədəni-maarif ocaqları ətrafında səfərbər etməkdən, məktəbləri RSFSR və Azərbaycan SSR təcrübəsi əsasında qurmaq üçün müəllimlərə metodik göstəriş verməkdən, yeni təlim və tərbiyə üsullarını aydınlaşdırmaqdan ibarət idi.

Ermənistan Kommunist Partiyasının 1925-ci ilin iyununda keçirilmiş plenumu Ermənistanda Azərbaycan məktəbləri üçün müəllimlər hazırlanmasını qaydaya salmaq üçün İrəvan şəhərində Azərbaycan dilində pedaqoji texnikum açılmasına dair qərar qəbul etmişdi. Bu qərara əsasən, 1925-ci ilin ikinci yarısında azərbaycanlı müəllimlər hazırlayan pedaqoji texnikum fəaliyyətə başladı. 1948-ci ilə qədər fəaliyyət göstərən bu texnikum Ermənistanın Azərbaycan məktəbləri üçün minlərlə müəllim yetişdirdi.

İnternat tipli bu texnikumda ilk illərdə respublikanın müxtəlif rayonlarından gəlmiş 50, sonralar 150, 300, 400 nəfər zəhmətkeş balası

yaşayır və təhsilini davam etdirirdilər. İrəvanda 23 il fəaliyyət göstərən bu tədris müəssisəsinə uzun müddət respublikanın tanınmış maarif işçiləri Bəhlul Yusifov və Mehdi Kazımov rəhbərlik etmişdir. Texnikumun açılmasında nüfuzlu dövlət xadimi Bala Əfəndiyevin böyük xidməti olmuşdur.

Texnikuma respublikanın bütün qəzalarından tələbələr qəbul edilirdi. Yerlərdə Azərbaycan əhalisinin sayına uyğun olaraq qəbul keçirilirdi. Məsələn, 1927/28-ci tədris ilində texnikuma qəbul edilmiş 143 nəfərdən 77 nəfəri İrəvan, 7 nəfəri Gümrü, 14 nəfəri Eçmiədzin, 4 nəfəri Lori-Pəmbək, 5 nəfəri Nor Bayazid, 9 nəfəri Dilican, 20 nəfəri Zəngəzur, 4 nəfəri Dərələyəz, 3 nəfəri Mehri qəzalarından idi.

Texnikumda qabaqcıl maarifpərvər şəxslər dərs deyirdilər. Məşhur alim, akademik Yusif




*İrəvan Pedaqoji Texnikumunun məzunları. 1938-ci il*
*(Tələbələr arasında soldan 3-cü sırada 1-ci – atam Cumayıl Mərdanov)*

Məmmədəliyev ilk əmək fəaliyyətinə burada başlamışdır. O, texnikumda 1925/26-cı tədris ilində kimya-biologiya fənlərini tədris etmişdir. Partiya və dövlət xadimi Bala Əfəndiyev isə ictimaiyyatdan dərs demişdir.

Texnikumun birinci buraxılışında 20 nəfər gənc məktəbi bitirib kəndlərə işləməyə göndərildi. Bundan başqa, az-çox pedaqoji savadı olan müəllimlərlə məktəbləri təmin etmək məqsədilə texnikumun nəzdində birillik kurs təşkil olundu. Burada mollaxana və ibtidai rus məktəbini bitirənlər müəllim kimi təkmilləşdirilərək məktəblərə göndərilirdi. 1925-ci ildə həmin kursu 30 nəfər bitirmiş və müəllimlik fəaliyyətinə başlamışdı.

Tanınmış maarif işçilərindən Cumayıl Mərdanov, Əsəd Məmmədov, Əli Xəlilov, Tamam xanım Axundova, Əjdər Kazımov, Qadir Məmmədov, Məmmədəli Məhərrəmov, Əli Həsənov, Tağı Məhərrəmov, Tapdıq Əmiraslanov, İsmayıl İsmayılov, Qulam Namazov, Əli Qədimov, Cəfər Məmmədov, Əliqulu Səlimov, Heydər Nağıyev, Əkbər Əliyev həmin məktəbin məzunları olmuşlar.

1948-ci ildə Ermənistan azərbaycanlılarının təhsil aldığı yeganə pedaqoji məktəb Xanlar (Göygöl) şəhərinə köçürüldü. Bunun nəticəsində də Ermənistanda azərbaycanlıların orta pedaqoji təhsil almasına son qoyuldu. Çıxılmaz vəziyyətdə qalan azərbaycanlılar orta pedaqoji təhsil almaq üçün Azərbaycana üz tutmaq məcburiyyətində qaldılar. Bu da irəlicədən düşünülmüş məkrli bir siyasət idi ki, tədricən azərbaycanlıların əzəli və əbədi torpaqlarından təmizlənməsinə xidmət edirdi...

* * *

Gürcüstan sovetləşdikdən sonra maarif sistemini yenidən qurmaq sahəsində tədbirlər həyata keçirilməyə başladı. Bununla bərabər, kadrların, o cümlədən pedaqoji kadrların hazırlanmasını da dövrün tələbləri səviyyəsində qurmaq lazım idi. Gürcüstan KP Borçalı Qəza Partiya Komitəsi tez-tez maarif işi ilə maraqlanır, qəzanın iqtisadi çətinliklərinə baxmayaraq, onların həll edilməsi üçün mümkün olan hər şeyi edirdi. Azərbaycanlı bolşeviklər **Əli Tağızadə, Hüseynqulu Şabanov, Yusif Axundov, Həsən Qaralov** və başqaları borçalıların mədəni geriliyinin səbəblərini dərindən dərk edir, onu aradan qaldırmaq üçün təxirəsalınmaz tədbirlər həyata keçirməyi qəza partiya və sovet təşkilatlarının mühüm vəzifəsi hesab edirdilər. Təşkil edilən qısamüddətli kurslar, hazırlıq kursları, konfranslar və digər tədbirlər xalqın mədəni səviyyəsini yüksəltməyə qadir olan, pedaqoji fəaliyyətini sosializm quruculuğu işi ilə sıx birləşdirə bilən müəllimlər hazırlamaq məqsədini güdürdü. 1924-cü ildə respublikada olan 70 azərbaycandilli məktəbdən 3-ü yeddiillik, qalanı isə ibtidai məktəb idi. Mövcud məktəblər üçün 300 müəllim lazım olduğu halda, cəmi 100 nəfər müəllim var idi. Onların da çoxunun təhsil səviyyəsi aşağı idi. 1923-cü ildə Qoçorda, 1925-ci ildə Başkeçiddə təşkil edilən kurslar tələbatı ödəyə bilmirdi. Tiflisdə olan 4 azərbaycandilli məktəb üçün də müəllim çatışmırdı.

«Заря Востока» qəzeti 1924-cü il 28 sentyabr sayında yazırdı ki, *«belə vəziyyətə dözmək olmaz. Qısamüddətli pedaqoji kurslarla yanaşı, azərbaycanlılar üçün bir neçə pedaqoji*

*texnikum yaratmaq lazımdır. Əgər həmin texnikumları bu və ya digər səbəb üzündən yaratmaq mümkün deyilsə, onda Azərbaycan pedaqoji tədris müəssisələrinə hər il onlarla adam göndərmək lazımdır ki, onlar təhsili başa vurduqdan sonra öz doğma kəndlərinə qayıdıb işləsinlər».*

Gürcüstan sovetlərinin IV qurultayında iştirak edən azərbaycanlı nümayəndələr Tiflisdə Azərbaycan Pedaqoji Texnikumunun yaradılması məsələsini qaldırdılar. Qurultay təklifi bəyəndi. 1925-ci ilin noyabrında Azərbaycan Pedaqoji Texnikumu fəaliyyətə başladı. Texnikuma Nəriman Nərimanovun adı verildi. Bu, Gürcüstan azərbaycanlılarının mədəni həyatında mühüm hadisə oldu.

1927/28-ci tədris ilinin axırında, yəni 1928-ci ilin iyununda Respublika Maarif komissarının sədrliyi ilə azərbaycanlı təhsil işçilərinin müşavirəsi keçirildi.

Müşavirədə Tiflisdə nəşr edilən «Qızıl şəfəq» uşaq jurnalının fəaliyyəti, Azərbaycan Pedaqoji Texnikumu, Tiflisdə azərbaycanlılar üçün doqquzillik, Axalsixidə yeddiillik məktəbin açılması və yeni Azərbaycan əlifbası haqqında məsələlər müzakirə olundu. Bütün müzakirə olunan məsələlər üzrə müvafiq qərarlar qəbul edildi. Müşavirənin texnikum haqqında qəbul etdiyi qərar onun həyatının bütün sahələrini (kadr, maddi, tədris, ideya-siyasi) əhatə edirdi.

Gürcüstandakı azərbaycandilli məktəblərin müəllim kadrlarına olan tələbatını daha tez ödəmək məqsədilə Tiflisdəki 97 nömrəli (indi Mirzə Fətəli Axundov adına 73 nömrəli orta məktəb) azərbaycandilli yeddiillik məktəb doqquzillik məktəbə çevrildi və ona pedaqoji təmayül verildi. Qeyd etmək kifayətdir ki, birinci beşillikdə Gürcüstanda 2478 müəllim hazırlanmalı idi. Əgər 1928/29-cu tədris ilində respublikanın bütün məktəblərinin I–IV siniflərində oxuyan şagirdlərin sayı 232857 nəfər idisə, 1930/31-ci tədris ilində onların sayı 317135 nəfər təşkil edirdi. Başqa bir misal: əgər 1919/30-cu tədris ilində Gürcüstan SSR-in ibtidai məktəblərində 5068 müəllim işləyirdisə, 1931/32-ci tədris ilində 10655 müəllim fəaliyyət göstərirdi. Göründüyü kimi, müəllimlərə olan tələbat ildən-ilə artırdı. Pedaqoji kadrların hazırlanması işini sürətləndirmək üçün, 1930-cu ildə pedaqoji texnikumlarda təhsil müddəti 4 ildən 3 ilə endirildi. Həmin ildə 24 orta məktəb pedaqoji texnikumlara çevrildi, yaxud onların yuxarı sinifləri pedaqoji təmayüllü oldu. Bununla əlaqədar olaraq, Tiflisdəki 97 nömrəli azərbaycandilli orta məktəbin yuxarı sinifləri Nəriman Nərimanov adına şəhər Pedaqoji Texnikumuna birləşdirildi.

1931/32-ci tədris ilində azərbaycandilli məktəblərdə 413 müəllim çatışmırdı. Bu çatışmazlığı aradan qaldırmaq üçün 1931-ci ildə Sarvanda, Bolnisidə, Axalsixidə və Tiflisdə 6 aylıq pedaqoji kurslar təşkil olundu. Həmin kursları 360 nəfər bitirdi *(bax: Əmrulla Paşayev. İnkişaf yollarında. «Sovet Gürcüstanı» qəzeti, 23 yanvar 1973-cü il).*

Bununla bərabər, yeni pedaqoji texnikumların təşkilinə də ciddi fikir verilirdi. Belə ki, 30-cu illərin əvvəlində Tiflisdə daha bir Azərbaycan Pedaqoji Texnikumu fəaliyyətə başladı. Bu, əslində pedaqoji təmayüllü fəhlə fakültəsi idi. Axalsixidə və Sarvanda da (Borçalıda) azərbaycanlılar üçün pedaqoji texnikum təşkil edildi.

Borçalı Pedaqoji Texnikumu 1930-cu ildə fəaliyyətə başladı. Texnikumun ilk direktoru Rüstəm Şərifov, tədris işləri üzrə direktor müavini Həsən Qiyasbəyli olmuşdur. Əvvəllər texnikumda təhsil müddəti 3 il idi. Hər il texnikuma yeddiillik məktəbi qurtaran 30 nəfər qəbul olunurdu. Texnikumun yataqxanası, yeməkxanası, kitabxanası, idman zalı və s. var idi. 1941-ci ilə qədər texnikumun tələbələri dövlət hesabına yemək və geyimlə təmin olunurdular. Bu tədris müəssisəsinin ilk buraxılışı 1933-cü ildə oldu. 1941-ci ildən sonra texnikumda təhsil müddəti 4 il oldu. Fəaliyyəti dövründə texnikum 1037 nəfər müəllim hazırlamışdır. 1946-cı ildə Borçalı Pedaqoji Texnikumu Marneuli Pedaqoji Texnikumu adlandı.

Respublikanın azlıq təşkil edən millətləri üçün məktəblərin və bu məktəblərdə oxuyan şagirdlərin sayı artdıqca, müəllim kadrlarına olan ehtiyac da artırdı. Mümkün qədər daha çox pedaqoji texnikum təşkil etmək, qəbul planını artırmaq yeganə çıxış yolu idi. Əgər 1930-cu ildə Gürcüstanda 205 nəfər tələbəsi olan 3 Azərbaycan Pedaqoji Texnikumu fəaliyyət göstərirdisə, 1935-ci ildə artıq 665 tələbəsi olan 7 pedaqoji texnikum mövcud idi. 1938/39-cu tədris ilində həmin texnikumlarda 11189 tələbə təhsil alırdı. Belə texnikumlar Adıgündə, Aspindzada (Toloşda) və Başkeçiddə də fəaliyyət göstərirdi.

Pedaqoji texnikumların maddi-texniki bazasının möhkəmləndirilməsinə və şagirdlərin təqaüdlə təmin olunmasına böyük diqqət verilirdi. İldən-ilə hər şagirdin təlim-tərbiyəsinə xərclənən pul vəsaiti artırdı. Məlumdur ki, pedaqoji texnikumlar ibtidai siniflər üçün müəllim kadrları hazırlayırdı. Məktəbləri kadrlarla təmin etməklə bərabər, həmin kadrların elmi-nəzəri və peşə hazırlığını da yüksəltmək, onlarda marksist-leninçi dünyagörüşü formalaşdırmaq vəzifə kimi qoyulurdu. Bu məqsədlə Tiflisdə Nəriman Nərimanov adına texnikumda yenidənhazırlama kursları təşkil edildi. Bu kurslarda tam orta təhsili olmayan müəllimlər oxuyurdular. Tam orta təhsili olan müəllimlər ali məktəblərə daxil olmaq üçün 1932-ci ildə açılan Pedaqoji İnstitutun nəzdində fəaliyyət göstərən hazırlıq kursunda oxuyurdular.

1934/35-ci tədris ilində həmin institutda azərbaycanlılar üçün qiyabi hazırlıq şöbəsi də fəaliyyətə başladı. Orada 103 nəfər oxuyurdu.

1937/38-ci tədris ilində Axalsixi, Sarvan və Tiflisdə Azərbaycan Pedaqoji Texnikumları üçün yeni binalar tikilib istifadəyə verildi. Bu, təlim-tərbiyə prosesinin keyfiyyətini yaxşılaşdırmağa imkan yaratdı.

Üçüncü beşillikdə ibtidai məktəblər yeddiilliyə, yeddiillik məktəblər isə orta məktəblərə çevrilməyə başladı. Azərbaycandilli məktəblərdə isə bu proses olduqca ləng gedirdi. Məsələn, 1936-cı ildə Gürcüstanda fəaliyyət göstərən 318 azərbaycandilli məktəbdən 51-i natamam (yeddiillik), 3-ü orta, 264-ü isə ibtidai məktəb idi. Bu məktəbləri müəllim kadrları ilə təmin etmək başlıca vəzifə idi. Az sonra pedaqoji texnikumların bir neçəsi Müəllimlər İnstitutuna çevrildi. Azərbaycanlıların təhsil aldığı Marneuli Pedaqoji Texnikumu isə Tbilisi Pedaqoji İnstitutunun fəaliyyətə başlaması ilə əlaqədar olaraq 1952-ci ildə bağlandı.

# V FƏSİL

## AZƏRBAYCANDA ALİ TƏHSİLİN İNKİŞAFI

Sovet hakimiyyəti qurulanda Azərbaycanda yeganə ali təhsil müəssisəsi olan **Bakı Dövlət Universiteti** yeni hökumətin siyasi ideologiyasına uyğun olaraq yenidən təşkil edildi. Respublikada digər ali təhsil müəssisələrinin yaradılması üzrə təkliflər hazırlamaq məqsədilə 1920-ci ilin mayında Azərbaycan Xalq Maarif Komissarlığı xüsusi komissiya yaratdı. Oktyabr ayında komissiya ali təhsil müəssisələrinin təşkil edilməsi barədə təkliflərini Xalq Maarif Komissarlığına təqdim etdi. Həmin təklifləri nəzərə alaraq noyabrın 12-də xalq maarif komissarı Dadaş Bünyadzadə Azərbaycan İnqilab Komitəsinə **Bakı Politexnik İnstitutunun** yaradılması haqqında müraciət ünvanladı. Müraciət müsbət həll edildi və **1920-ci il noyabrın 13-də Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov «Bakı Politexnik İnstitutunun təsis edilməsi haqqında» dekret imzaladı.**

Yeni yaradılan Bakı Politexnik İnstitutu Azərbaycanda ikinci ali təhsil müəssisəsi, Zaqafqaziyada isə ilk ali texniki məktəb idi. Bunun ardınca, yəni 1921-ci ilin mayında üçüncü ali məktəb təşkil olundu – Azərbaycan klassik musiqisinin banisi Üzeyir bəy Hacıbəylinin təşəbbüsü ilə keçmiş musiqi məktəbinin bazasında **Azərbaycan Dövlət Konservatoriyası** yaradıldı *(bax: Азербайджанская государственная Консерватория имени Узеира Гаджибекова. Баку, «Азернешр», 1972, стр.13).*

20-ci illərdə ali təhsilin prioritet istiqamətlərindən biri ali pedaqoji məktəblərin açılması idi. Çünki respublikada ümumtəhsil məktəbləri şəbəkəsinin sürətli inkişafı təxirəsalınmaz vəzifə kimi qarşıya qoyulmuşdu. Bu məsul vəzifənin yerinə yetirilməsi isə minlərlə ali təhsilli müəllim kadrlarının hazırlığını tələb edirdi.

1921-ci ildə ilk pedaqoji ali məktəb yarandı. Avqustun 26-da Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov **«Azərbaycan Kişi Pedaqoji İnstitutunun təsis edilməsi haqqında»** dekret imzaladı. Bu institut 1921-ci ilin noyabrında fəaliyyətə başladı. Elə həmin ildə qadınlar üçün Azərbaycan **Məktəbəqədər Tərbiyə İnstitutu** təşkil olundu.

1921-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı Sovet Rusiyasının Xalq Maarif Komissarlığına müraciətlə respublikamızda ali təhsilin təşkilinə kömək göstərilməsini xahiş etdi.

Sovet Rusiyası bu müraciətə cavab olaraq Azərbaycanın ali məktəblərinə və elmi-tədqiqat müəssisələrinə daimi işləmək üçün alim və müəllimlər göndərdi. RSFSR-dən Sovet Azərbaycanına gəlmiş görkəmli alimlər – Aleksandr Alfonsoviç Qrossheym, Vasili İvanoviç Razumovski,

Sergey Nikolayeviç Davidenkov, Aleksandr Dmitriyeviç Qulyayev, Lev Qavriloviç Qurviç, Aleksandr Nikolayeviç Derjavin, Konstantin Adamoviç Krasusski, Pavel Yuryeviç Rostovsev, Panteleymon Krestoviç Juze, İvan İvanoviç Şirokoqorov, Vasili Vladimiroviç Bartold, İvan İvanoviç Meşşaninov, Nikolay Yakovleviç Marr və b. respublikanın yeni yaranmış ali təhsil müəssisələrinə tədris-təşkilati işlərdə böyük yardım göstərdilər.

Ali təhsilin təşkil edilməsində ilk vaxtlar hətta bu görkəmli alimlərin həll edə bilmədiyi ciddi problemlər var idi. Ən əsası, Azərbaycan dilində dərs vəsaitləri yox idi, azərbaycanlı elmi-pedaqoji kadrlar çox az idi. Ona görə də ali məktəblərdə dərslər rus dilində aparılırdı. Bu isə milli kadr hazırlanması işini çətinləşdirirdi. Bütün bunlara baxmayaraq, tədrisin tədricən Azərbaycan dilində aparılmasına keçmək məqsədilə müəyyən tədbirlər görüldü. I Ümumazərbaycan Sovetlər Qurultayında (may, 1921) bu məsələyə xüsusi diqqət yetirildi. Qurultayın qərarı ilə Bakı Dövlət Universitetinin və Politexnik İnstitutunun bütün fakültələrində türk (Azərbaycan) dilinin tədrisi məcburi hesab olundu.

Azərbaycan Xalq Maarif Komissarlığı da bu istiqamətdə ciddi addımlar atdı və **«Ali təhsil müəssisələrində türk (Azərbaycan) dilinin öyrənilməsinin zəruriliyi haqqında»** 30 iyul 1922-ci il tarixli qərar qəbul etdi.

Bu zamandan etibarən tədrisin Azərbaycan dilində aparılmasına, ali məktəblərin akademik tərkibinin türkləşdirilməsinə (azərbaycanlılaşdırılmasına) xüsusi diqqət yetirilməyə başlandı.

1922/23-cü tədris ilində Azərbaycan Məktəbəqədər Tərbiyə İnstitutu **Ali Pedaqoji Qadın İnstitutuna** çevrildi. 1924-cü ildə Kişi və Qadın institutları vahid **Ali Pedaqoji İnstitutda** birləşdirildi.

1922-ci ildə respublikanın siyasi həyatında baş verən dəyişikliklər təhsil sahəsinə də öz təsirini göstərdi. Belə ki, həmin ilin dekabr ayında SSRİ-nin yaranması ilə bolşevizmin əsl mahiyyəti üzə çıxdı. Hökumətin ideoloji siyasəti ittifaqa daxil olan proletarların bir məslək ətrafında birləşdirilməsi və monolit sovet xalqının yaradılmasına yönəldi. Bu ideologiyanın əsas istiqaməti olan «proletarlaşdırma» siyasəti ali təhsilə də nüfuz etdi. Azərbaycan SSR Xalq Maarif Komissarlığı Kollegiyasının 5 iyun 1923-cü il tarixli qərarı ilə ali məktəblərə tələbə qəbulunun yeni qaydaları müəyyənləşdirildi, tələbələrin sosial tərkibinin proletarlaşdırılması qəbulda prioritet elan edildi. Azərbaycanın ali məktəblərinə qəbul olan tələbələrin sosial tərkibi sürətlə dəyişdi. İlk vaxtlar bunun çox böyük mənfi təsirləri oldu. Çünki ali məktəbə qəbul xüsusi hazırlıq tələb edirdi. Əhalinin proletariat adlandırılan yoxsul təbəqəsinin uşaqları isə bu cür hazırlığa malik olmasalar da, ali məktəbə imtahansız qəbul olunurdular. Ziyalı təbəqənin, maddi vəziyyəti yaxşı olan vətəndaşların uşaqlarının ali təhsil müəssisələrinə daxil olması qarşısında müxtəlif maneələr yaradılırdı. Belə ki, sosial mənşəyinə görə fəhlə və kəndli olmayanların ali məktəbə qəbulu hökumət tərəfindən məhdudlaşdırılmışdı.

1923/24-cü tədris ilindən başlayaraq əvvəllər bilavasitə ali məktəblər tərəfindən keçirilən tələbə qəbulu **Mərkəzi Ali Məktəblərarası Qəbul Komissiyasına** həvalə olundu.

SSRİ-nin təşkil olunması ilə əlaqədar yaranan mərkəzəqaçma qüvvələrinin təsirinə

baxmayaraq, ali təhsildə milliləşmə dayanmadı. Məsələn, Bakı Universitetinin 1923-cü il Nizamnaməsi tələb edirdi ki, Universitetdə assistentlər, onların köməkçiləri, ordinatorlar və elmi işçilər seçilərkən Azərbaycan dilini bilənlərə üstünlük verilsin. Azərbaycan Xalq Maarif Komissarlığı bu Nizamnamədə elə həmin ildə belə bir dəyişiklik etdi: kiçik akademik heyət vəzifələrinə yalnız azərbaycanlılar təyin olunmalıdırlar.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi (MİK) 1924-cü ilin dekabrında respublikanın ali məktəblərində tədrisin rus dili ilə yanaşı, həm də ana dilində aparılmasının həyata keçirilməsi və bunun üçün azərbaycanlılar içərisindən elmi-pedaqoji kadrların hazırlanması vəzifəsini irəli sürdü.

Bu vəzifə iki yolla – bir tərəfdən ali məktəblərdə tədris işinə partiya, dövlət və ictimai xadimlərin, Azərbaycan ziyalılarının cəlb edilməsi, digər tərəfdən isə ali məktəblərin özündə milli elmi-pedaqoji kadrlar hazırlanması yolu ilə yerinə yetirilirdi. Eyni zamanda azərbaycanlı olmayan professor-müəllim heyətinin də Azərbaycan dilinə yiyələnməsi üçün tədbirlər görüldü. Türk (Azərbaycan) dilini öyrənmək və bu dildə mühazirələr oxumaq istəyən müəllimlərin əmək haqlarının artırılması nəzərdə tutuldu. Bu kimi tədbirlər ali məktəblərdə tədrisin Azərbaycan dilində təşkilinə imkan yaradırdı.

Azərbaycan K(b)P-nin VII qurultayı (noyabr, 1927) ali təhsilli mütəxəssis hazırlığı haqqında məsələni müzakirə edərkən ali məktəblərin milliləşdirilməsi probleminə böyük diqqət yetirdi, bu məsələni milli və sosial siyasətin ən vacib problemlərindən biri kimi irəli sürdü.

Ali məktəblərin tələbələri üçün Azərbaycan dilində dərsliklərin hazırlanması işi ildən-ilə genişlənirdi. Bu işdə Azərbaycan SSR XKS-nin nəzdində yaradılan Elmi Terminologiya Komissiyası əhəmiyyətli rol oynadı. 1927-ci ilə qədər fəaliyyət göstərən bu komissiya qısa bir müddətdə müxtəlif fənlər üzrə çoxlu sayda dərsliklər, terminoloji lüğətlər hazırladı. Həmin işlər ali məktəblərdə tədrisin Azərbaycan dilində aparılmasını xeyli asanlaşdırdı.

20-ci illərin ortalarından azərbaycanlı gənclərin ali təhsil almaq üçün Moskva, Leninqrad (Sankt-Peterburq) və Rusiyanın digər iri şəhərlərində yerləşən ali məktəblərə göndərilməsinə başlandı. Təkcə 1925/26-cı tədris ilində Rusiyanın ali məktəblərində 120 azərbaycanlı gənc təhsil alırdı.

20-ci illərdə ali məktəblərdə elmi-tədqiqat işinin inkişafı tədris prosesinin təkmilləşdirilməsinə istiqamətlənmişdi. Həmin illərdə elmi-tədqiqat işinin inkişafı, əsasən, elmlər namizədlərinin və elmlər doktorlarının hazırlanması kimi başa düşülürdü. 20-ci illərdə alimlərin hazırlanmasına olan qayğı ali məktəblərdə elmin təşəkkül tapmasında, elmi potensialın artmasında mühüm rol oynadı, yazılmış dissertasiyalar respublikamızda elmin inkişafına böyük töhfələr verdi.

Sovet hakimiyyətinin ilk illərində müntəzəm olaraq Moskvadan, Leninqraddan (Sankt-Peterburq) və digər elm mərkəzlərindən Azərbaycana gələn görkəmli elm xadimləri – Dmitri Vasilyeviç Qolubyatnikov, İvan Mixayloviç Qubkin, Nikolay Yakovleviç Marr, İvan İvanoviç Meşşaninov, Vasili Vladimiroviç Bartold və başqa alimlər elmi-tədqiqat işlərinin qaydaya salınmasına kömək edirdilər. Məhz onların

səyi nəticəsində bütövlükdə Azərbaycanda, o cümlədən respublikanın ali məktəblərində elmi tədqiqatların təşkilati əsasları qoyuldu.

20-ci illərin əvvəllərində əsas elmi qüvvələrin cəmləşdiyi Azərbaycan Politexnik İnstitutu (indiki Neft Akademiyası) texniki elmlərin mərkəzinə çevrilmişdi. İnstitutun neft geologiyası, hidravlika və hidravlik mühərriklər, buxar mühərrikləri və istilik dinamikası, fizika, neft kimyası kafedralarında və laboratoriyalarında mühüm elmi tədqiqatlar aparılırdı. Elektrik fizikası laboratoriyasında bu sahənin ayrı-ayrı məsələləri işlənmişdi. Sonralar atom fizikasının əsasını qoyanlardan biri olmuş akademik İqor Vasilyeviç Kurçatov bir müddət bu laboratoriyada fəaliyyət göstərmişdi. İnstitutun «Elmi xəbərlər»ində onun ilk məqaləsi dərc edilmişdi.

Azərbaycanda biologiya, kənd təsərrüfatı və tibb elmlərinin inkişafı Azərbaycan Politexnik İnstitutunun kənd təsərrüfatı fakültəsi və Azərbaycan Dövlət Universitetinin tibb fakültələri ilə əlaqədar idi. Bu tədris müəssisələrinin torpaqşünaslıq (professor V.N.Smirnov – Loginov), botanika (professor Aleksandr Alfonsoviç Qrossheym), bitkilərin morfologiyası və sistematikası, zoologiya, hidroqurğular və qiymətli bitkilərin meliorasiyası (professor X.Məlikaslanov), heyvanların anatomiya və fiziologiyası və digər kafedralarında tədrislə yanaşı, o dövrdə biologiya elmi üçün aktual hesab edilən problemlər öyrənilirdi. Artıq 20-ci illərin ortalarında Azərbaycan SSR Xalq Maarif Komissarlığının SSRİ Xalq Komissarları Soveti sədrinin ünvanına göndərilmiş məktubunda qeyd olunurdu ki, respublikanın ali məktəblərində çalışan alimlər tərəfindən ümumi həcmi 1000 çap vərəqinə yaxın olan 73 monoqrafik tədqiqat çapa hazırlanmışdır.

Ali məktəblərdə elmin inkişafında elmi cəmiyyətlərin də böyük rolu oldu. 1925-ci ilin sonunda ali təhsil müəssisələrində 4 belə cəmiyyət fəaliyyət göstərirdi.

1926-cı ildə Xalq Maarif Komissarlığının nəzdində ali məktəblərdə aparılan elmi-tədqiqat işlərini əlaqələndirmək və bu işə rəhbərliyi həyata keçirmək məqsədilə 4 bölmədən (elmi-pedaqoji, elmi-texniki, elmi-bədii və elmi-siyasi) ibarət Elmi Şura yaradıldı. Bu, elmi-tədqiqat işlərinin planlı şəkildə aparılmasına, ali məktəb elminin daha da inkişaf etməsinə səbəb oldu. Şuranın əsas vəzifələrindən biri də professor və dosent adlarının təsdiq edilməsi idi.

20-ci illərdə ali məktəbləri bitirmiş məzunlar sonralar ilk azərbaycanlı alimlər olmuş və ali məktəb elminin əsasını qoyan rus alimlərini əvəz etmişlər. Azərbaycanşünaslığın elmi əsasları da məhz bu dövrdə qoyuldu. Azərbaycan xalqının tarixi ilə bağlı elmi araşdırmalar aparıldı, respublikada nisbətən geniş yayılmış bir çox xəstəliklərin etiologiyası öyrənildi.

Azərbaycanın ali məktəblərində işləyən türksoylu alimlərdən **Bəkir Çobanzadə** Azərbaycan dilçiliyinin əsasını qoydu. Universitetin ilk Azərbaycan dili və ədəbiyyatı müəllimlərindən biri olan **Əbdürrəhim bəy Haqverdiyev** öz bədii və elmi yaradıcılığı ilə Azərbaycan ədəbiyyatşünaslığına böyük töhfələr verdi.

Universitetdə pedaqoji fəaliyyətə başlamış **Sadıq Hüseynov** Azərbaycanda kimya elminin əsasını qoydu. O, ana dilində ilk kimya dərsliyini və kimya terminologiyasını yaratdı, bir çox azərbaycanlı kimyaçılar yetişdirdi.

Yazıçı **Tağı Şahbazi** Universitetin rektoru vəzifəsində işləyərkən ali məktəblərdə elmi

mühitin yaradılması, milli elmi kadrların hazırlanması sahəsində çox işlər gördü.

**1926-cı ildə Azərbaycan K(b)P MK respublikanın ali məktəblərinin nəzdində aspiranturanın yaradılması barədə tapşırıq verdi.** İlk olaraq Azərbaycan Dövlət Universiteti ilə Azərbaycan Politexnik İnstitutunda aspirantura şöbələri yaradıldı. *Aspiranturalar* elmi-pedaqoji kadrların hazırlanmasında mühüm rol oynadı.

Bu dövrdə elmi-pedaqoji kadr hazırlığının qaydalarını, formalarını və müddətini dəqiq müəyyən edən normativ sənədlər yox idi. «Elmi əməkdaş», «elmi işçi», «aspirant» kimi anlayışlar arasında dəqiq fərq qoyulmurdu. Onların hüquq və vəzifələri göstərilmir, elmi işçilərin hazırlanması üçün maliyyə vəsaiti ayrılmırdı.

*1927/28-ci tədris ilində Azərbaycan SSR-in ali məktəblərində elmi kadrların tərkibinin faktiki bölgüsü*

| № | Professor-müəllim heyəti | Cəmi | |
|---|---|---|---|
| | | Kişi | Qadın |
| 1. | Professorlar | 21 | – |
| 2. | Dosentlər | 80 | 1 |
| 3. | Ştatda olmayan dosentlər | 13 | 3 |
| 4. | Assistentlər | 65 | 18 |
| 5. | Ordinatorlar | 59 | 27 |
| 6. | Müəllimlər, mühazirəçilər | 117 | 23 |
| 7. | Laborantlar, preparatorlar | 81 | 15 |
| 8. | Elmi işçilər | 69 | 3 |
| 9. | Digər tədris-köməkçi heyət | 2 | – |
| **Cəmi:** | | **507** | **90** |

*1927/28-ci tədris ilində Azərbaycan SSR-in ali məktəblərində çalışan professor-müəllim heyətinin tərkibi*

| № | Ali məktəblər | Ümumi sayı | | | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Dosentlər | | Professorlar | |
| | | Kişi | Qadın | Cəmi | Kişi | Qadın | Kişi | Qadın |
| 1 | Azərbaycan Dövlət Universiteti | 251 | 59 | 310 | 43 | – | 9 | – |
| 2. | Azərbaycan Dövlət Konservatoriyası | 195 | 13 | 208 | 30 | – | 12 | – |
| 3. | Azərbaycan Politexnik İnstitutu | 31 | 18 | 49 | 7 | 1 | – | – |

1927-ci ildə Ali Pedaqoji İnstitut Bakı Dövlət Universitetinin tərkibinə verildi.

1928-ci ildən RSFSR-in ali məktəblərində Azərbaycan üçün kadr hazırlanması prosesi sistemli xarakter aldı. Əgər 1929/30-cu tədris ilində Azərbaycandan Rusiyada və SSRİ-nin digər respublikalarındakı ali məktəblərdə 249 tələbə təhsil alırdısa, 1930/31-ci tədris ilində onların sayı 492-yə çatmışdı. 1931/32-ci tədris ilində RSFSR-in ali məktəblərinə respublikadan daha 95 nəfərin göndərilməsi nəzərdə tutulmuşdu.

1929-cu ildə **Azərbaycan Kənd Təsərrüfatı İnstitutu** yaradıldı. Bu institut kollektivləşmə dövründə təşkil edilən kolxoz və sovxozlar üçün kənd təsərrüfatı və heyvandarlıq sahələri üzrə mütəxəssislər hazırlayırdı.

Beləliklə, 20-ci illərin sonunda artıq Azərbaycanda 5 ali məktəb fəaliyyət göstərirdi:

*20-ci illərdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri*

| № | Ali məktəbin adı |
|---|---|
| 1. | Azərbaycan Dövlət Universiteti |
| 2. | Azərbaycan Dövlət Konservatoriyası |
| 3. | Azərbaycan Politexnik İnstitutu |
| 4. | Ali Pedaqoji İnstitut |
| 5. | Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |

Sovet hakimiyyətinin ilk 10 ili ərzində Azərbaycanda milli elmi-pedaqoji kadr hazırlığı sahəsində böyük nailiyyətlər əldə olundu. Ali məktəblərdə elmin müxtəlif sahələri üzrə dissertasiya müdafiə etmiş ilk azərbaycanlı alimlər nəsli yetişdi. Mustafa Topçubaşov, Kamil Balakişiyev, Məmmədəmin Əfəndiyev və başqaları tibb sahəsində doktorluq və namizədlik dissertasiyaları müdafiə etdilər. Vəli Xuluflu 1930-cu ildə professor elmi adı aldı və azərbaycanlılar arasında ilk tarixçi professor oldu. Bu illərdə Mikayıl Rəfili, Feyzulla Qasımzadə, İshaq İbrahimov, Mehdi İrəvanski, Məhəmməd Möhsümzadə, Abdulla Qarayev və b. milli kadrlar elmi-pedaqoji fəaliyyətə başladılar.

Respublikanın ali təhsil müəssisələrində tədrisin ana dilində aparılması üçün imkanlar getdikcə genişlənirdi. Görülən işlərin nəticəsində ali məktəblərə qəbul ildən-ilə artırdı. 20-ci illərin sonundan ali məktəblərdə Azərbaycan dilində tədrisə başlandı. Bu proses 30-cu illərdə daha da intensivləşdi.

Azərbaycan Xalq Komissarları Soveti 19 iyun 1930-cu ildə **«Azərbaycan SSR ali məktəblərinin və ali texniki məktəblərin yenidən təşkili və rayonlaşdırılması, onların müvafiq təsərrüfat idarələri və xalq komissarlıqları tərkibinə verilməsi haqqında»** qərar qəbul etdi. Həmin qərarın icrası ilə bağlı Azərbaycan Dövlət Universiteti bağlandı. Universitetin fakültələrinin bazasında müstəqil sahə institutları, o cümlədən **Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi, Azərbaycan Ticarət-Kooperativ** və **Azərbaycan Dövlət Tibb İnstitutları** yaradıldı.

30-cu illərdə Azərbaycan Politexnik İnstitutunun adı iki dəfə dəyişdirildi: 1930-cu ildə Azərbaycan Neft İnstitutu, 1934-cü ildə isə Azərbaycan Sənaye İnstitutu adlandırıldı.

Azərbaycan KP Mərkəzi Komitəsinin **«Azərbaycan SSR-də elmi-tədqiqat işinin vəziyyəti haqqında»** (28 oktyabr, 1931) qərarı respublikanın ali məktəblərində elmin inkişafı üçün təkanverici rol oynadı. Həmin qərarın icrası ilə əlaqədar elmi-tədqiqat işinin inkişafına ayrılan vəsait xeyli artırıldı, həmçinin alimlərin Moskva, Leninqrad (Sankt-Peterburq) və xarici ölkələrin ali təhsil və elm ocaqlarına ezam edilməsi, gənc tədqiqatçıların orada aspirantura xətti ilə hazırlanması təcrübəsi genişləndirildi.

SSRİ MİK-in **«Ali məktəblərdə və texnikumlarda tədris proqramları və iş rejimi haqqında»** 19 sentyabr 1932-ci il tarixli qərarı ali məktəblərdə mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsinə, tədris, elmi-metodiki işlərin yaxşılaşdırılmasına təkan verdi. Qərarda aspirantura yolu ilə elmi-pedaqoji kadrların hazırlanmasının vahid qaydaları müəyyən edildi. Qərara görə, aspiranturaya yalnız ali təhsilli şəxslər qəbul oluna bilərdi. Müsabiqə zamanı ali məktəbi əla qiymətlərlə bitirənlərə üstünlük verilirdi.

**SSRİ Xalq Komissarları Sovetinin «Elmi adlar və elmi dərəcələr haqqında» 13 yanvar**

**1934-cü il tarixli qərarı ilə elmi-pedaqoji kadrların attestasiya sistemi yaradıldı, elmlər namizədi və elmlər doktoru elmi dərəcələri, professor və dosent elmi adları, kiçik və böyük elmi işçi vəzifələri müəyyənləşdirildi.**

30-cu illərin əvvəllərində Azərbaycanda ali təhsil sisteminin «eksperimentlər» meydanına çevrilməsi nəticəsində çoxlu sayda kiçik ali təhsil müəssisəsi yaradıldı. Respublikada ali məktəblərin sayı 19-a, tələbələrin sayı 10600 nəfərə çatdı. Tələbələrin 70%-i fəhlə və kəndli (muzdur) balaları idi.

Ali təhsil sistemində aparılan «proletarlaşdırma» siyasəti, «ayırma-birləşmə» eksperimentləri, sözsüz ki, ali təhsilin inkişafına, yüksəkixtisaslı mütəxəssis hazırlanmasına öz mənfi təsirini göstərirdi.

**1934-cü ildə Azərbaycan Dövlət Universiteti bərpa olundu və ona sosialist inqilabının nüfuzlu xadimlərindən biri olan Sergey Mironoviç Kirovun adı verildi.**

30-cu illərin ortalarında ölkədə kadr hazırlığı sahəsində «proletarlaşdırma» siyasəti öz aktuallığını itirdi. Artıq sosializm ideyaları ilə kifayət qədər silahlanmış yeni nəsil yetişmişdi. Ona görə də SSRİ hökumətinin **«Ali təhsil müəssisələrinə və texnikumlara qəbul haqqında»** 29 dekabr 1935-ci il tarixli qərarı ilə abituriyentlərin sosial mənşəyinə görə ali və orta ixtisas təhsili məktəblərinə qəbulunda tətbiq edilən məhdudiyyətlər aradan qaldırıldı və bütün vətəndaşlara ali təhsil almaq hüququ verildi. Qərarda deyilirdi: *«Ali təhsil müəssisələrinə və texnikumlara mövcud qəbul qaydalarına əsasən səsvermə hüququndan məhrum edilmiş, zəhmətkeş olmayan şəxslərin övladları həmin təhsil müəssisələrinə buraxılmırlar. Hazırda bu məhdudiyyətə zərurət olmadığını nəzərə alaraq SSRİ MİK-i və XKS-i qərara alır:*

*«Ali təhsil müəssisələrinə və texnikumlara qəbul imtahanlarına buraxılış zamanı həmin təhsil müəssisələrinə qəbul edilənlərin sosial mənşəyi, yaxud valideynlərinin hüquqlarının məhdudlaşdırılması ilə bağlı müəyyən edilmiş qaydalar ləğv edilsin.*

*Ali təhsil müəssisələri və texnikumlara həmin təhsil müəssisəsinə qəbul üçün müəyyən edilmiş imtahanlarda uğur qazanan hər iki cinsdən olan bütün vətəndaşlar qəbul edilsin...» (bax: Собрание законов и распоряжений Рабоче-Крестянского Правительства СССР, 1939, №1, стр.1).*

SSRİ hökumətinin 23 iyun 1936-cı il tarixli **«Ali təhsil müəssisələrinin işi və ali məktəbə rəhbərlik haqqında»** qərarından sonra respublikamızda yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasının yeni mərhələsi başlandı. Qərarda tələbələrin ali məktəblərə qəbulunun vahid qaydaları müəyyənləşdirildi. Abituriyentlərin sənədlərinin qəbulu müddəti iyunun 20-dən avqustun 1-nə, qəbul imtahanlarının keçirilmə müddəti avqustun 1-dən 20-nə, tələbələr sırasına qəbul avqustun 21-dən 25-nə kimi müəyyən edildi. Sentyabrın 1-i ölkənin bütün ali təhsil müəssisələri üçün dərs ilinin başlandığı gün kimi müəyyən olundu. Qış və yay tətilləri uyğun olaraq 24 yanvardan 6 fevrala və 1 iyuldan 31 avqusta qədər müəyyənləşdirildi. Qərarda, həmçinin ali təhsil müəssisələrində tədris və tərbiyə işlərinin keyfiyyətinin yüksəldilməsi, yüksəkixtisaslı mütəxəssis hazırlığının yaxşılaşdırılması yolları da müəyyən edilmişdi.

30-cu illərin əvvəllərində Azərbaycan Politexnik İnstitutunda (indiki Neft Akademiyası),

Azərbaycan Pedaqoji İnstitutunda və Kənd Təsərrüfatı İnstitutunda axşam şöbələri açıldı.

1936-cı ildə Azərbaycan Pedaqoji İnstitutunun ayrı-ayrı fakültələrinin qiyabi şöbələrinin bazasında müstəqil **Qiyabi Pedaqoji İnstitut** təşkil olundu.

SSRİ XKS və ÜİK(b)P MK-nın **«Ali təhsil müəssisəsində elmi-tədqiqat işi haqqında»** 23 iyul 1936-cı il tarixli qərarı ölkədə aparılan elmi-tədqiqat işlərinin inkişafında dönüş nöqtəsi oldu. Qərarda qeyd olunurdu ki, elmi-tədqiqat işi ali məktəblərdə çalışan pedaqoji işçilərin fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. Ali təhsil müəssisələrində elmi-tədqiqat işi aparılmadan elmin müasir tələblərinə cavab verən kadr hazırlığının həyata keçirilməsi, eləcə də onların ixtisaslarının artırılması qeyri-mümkündür. Beləliklə, hökumət tərəfindən aparılan məqsədyönlü və ardıcıl iş nəticəsində respublikanın ali məktəblərində yüksək elmi potensial yaranmışdı: milli elmi işçilərin sayı artmış, elmi-tədqiqat işlərinin maddi-texniki bazası xeyli möhkəmlənmiş, elmi axtarışlara ayrılan vəsaitin miqdarı artırılmışdı.

Bundan əlavə, həmin qərara əsasən tələbə və müəllimlərin sayı çox olan ali məktəblərdə elmi işlər (buna qədər ali məktəblərdə tədris və elmi işlər üzrə 1 prorektor vəzifəsi mövcud idi) üzrə prorektor vəzifəsi yaradıldı. Elmi-tədqiqat fəaliyyəti ali məktəb müəllimlərinin fərdi iş planlarına daxil edildi. Kafedralarda elmi-tədqiqat işlərinin planlaşdırılmasına başlandı. Ali məktəblərdə elmi-tədqiqat işi üzrə planların yerinə yetirilməsi haqqında hesabatların yazılması tətbiq olundu.

30-cu illərdə ali məktəblərin elmi-tədqiqat bazası xeyli genişləndirildi. Ali məktəblər üçün çoxlu sayda sovet və xarici ölkə istehsalı olan laboratoriya avadanlığı və cihazlar alındı. Bu da kafedra, laboratoriya və kabinetlərin sayının artmasına müsbət təsir etdi. 1934–1940-cı illərdə Azərbaycan Dövlət Universitetində kafedraların sayı 13-dən 39-a qədər artdı. Bu səbəbdən də ali məktəbdə fəaliyyət göstərən alimlərin tədqiqat işlərinin sayında da artım var idi. Belə ki, 1937/38-ci tədris ilində ADU-da 24 mövzu üzrə tədqiqat aparılmışdı. Elmi-pedaqoji kadr hazırlığının yaxşılaşdırılmasında SSRİ XKS-nin **«Ali məktəblərdə professor-müəllim heyəti üçün vəzifə ştatları və maaşlarının verilməsi haqqında»** 11 noyabr 1937-ci il tarixli qərarının böyük əhəmiyyəti oldu. Bu qərara uyğun olaraq 30-cu illərdə aspirantura yolu ilə ali məktəblər üçün elmi-pedaqoji kadr hazırlığı işi xeyli genişləndi və keyfiyyətcə yaxşılaşdı. Elmi-pedaqoji fəaliyyətlə məşğul olan elmi dərəcəli azərbaycanlıların sayı əhəmiyyətli dərəcədə artdı.

Bu illərdə yerinə yetirilən elmi-tədqiqat işləri xalq təsərrüfatının müxtəlif sahələri ilə sıx bağlı idi. 30-cu illərin ikinci yarısında Azərbaycan elminin gələcək fəxri Yusif Məmmədəliyev böyük praktik əhəmiyyətə malik olan «Təbii və süni qazların kimyəvi tərkibinin və emalının öyrənilməsi», Cümşüd Zülfüqarlı «Neft emalı tullantılarından qiymətli kimya məhsullarının alınması» mövzusunda tədqiqat aparırdılar. 1935–1936-cı illərdə neftçi-mühəndis Firudin Axundov dərin azdebitli neft quyularının istismarı üçün əvəzləyici lift ixtira etmişdi. Səkinə xanım Ələkbərova və Abdulla Tağızadə «Kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılması» mövzusunda tədqiqatlar aparırdılar. 1938-ci ildə ilk kimyaçı azərbaycanlı qadın

İzzət Orucovanın Doraqoldberqlə birgə apardığı tədqiqatların nəticəsində yeni üzvü həlledici kəşf olundu və yağlı distillyatları təmizləyən zavod tikildi.

Bütün bu müsbət addımlarla yanaşı, 30-cu illər həm də qanlı repressiyalarla yadda qaldı. 1937-ci ilin repressiyası Azərbaycan elminə, təhsilinə və mədəniyyətinə böyük zərbə vurdu. O dəhşətli illərdə repressiyaya məruz qalmış görkəmli alim və sənətkarlar arasında dramaturq Hüseyn Cavid, şair Mikayıl Müşfiq, nasir və ədəbiyyat tənqidçisi Seyid Hüseyn, şair Əhməd Cavad, ədib və alim Yusif Vəzir Çəmənzəminli, görkəmli filoloq, professor, poliqlot Bəkir Çobanzadə, Bakı Dövlət Universitetinin ilk azərbaycanlı rektoru, yazıçı Tağı Şahbazi Simurğ, ədəbiyyatşünas Salman Mümtaz, teoloq-alim, Bakı qazisi Mir Məhəmməd Kazım ağa, folklorçu alim Hənəfi Zeynallı, tənqidçilər Əli Nazim, Mustafa Quliyev, Məmmədkazım Ələkbərli, Atababa Musaxanlı, ictimai xadimlər Ömər Faiq Nemanzadə və Hacı Kərim Sanılı, yazıçı Hacıbaba Nəzərli, ilk qadın pedaqoqlarımızdan olan Mədinə xanım Qiyasbəyli, ədib Soltan Məcid Qənizadə, aktyorlar Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb və onlarla başqaları da var idi. Qırmızı terror Azərbaycanın elmi-pedaqoji potensialını ciddi surətdə zəiflətdi.

Sovet imperiyası yerlərdə dayaqlarını daha da möhkəmləndirmək, vahid əqidəli, vahid dilli sovet xalqı formalaşdırmaq məqsədilə ruslaşdırma siyasətinə geniş rəvac verdi. 1938-ci il martın 13-də ÜİK(b)P MK və SSRİ XKS «*Milli respublika və vilayətlərin məktəblərində rus dilinin icbari öyrədilməsi haqqında*» qərar qəbul etdi. Həmin sənədə uyğun olaraq Azərbaycan K(b)P MK və XKS tərəfindən respublikanın bütün ümumtəhsil məktəblərində rus dilinin öyrədilməsi haqqında qərar verildi. Bu zaman respublikanın ümumtəhsil məktəblərində cəmi 441 rus dili müəllimi işləyirdi. Qərarın icrası ilə bağlı 1938/39-cu tədris ilində Azərbaycan Pedaqoji İnstitutunda və Azərbaycan Dövlət Universitetində rus dili və ədəbiyyatı şöbələri açıldı.

**1938-ci ilin mayında «Ali təhsil müəssisələrində Dövlət İmtahan Komissiyaları haqqında» Əsasnamə təsdiq olundu.** Bütün ali məktəblərdə dövlət imtahan komissiyaları təşkil edildi. **1938/39-cu tədris ilindən biliyin dördballı (əla, yaxşı, kafi, qeyri-kafi) sistem üzrə qiymətləndirilməsi tətbiq olunmağa başlandı.** Bütün bu qərarların həyata keçirilməsi mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsində mühüm rol oynadı.

30-cu illərin ortalarında respublikada yeddiillik icbari təhsilə keçilməsi ilə bağlı müəllim kadrlarına tələbat daha da artdı. Azərbaycan Xalq Komissarları Soveti bu ehtiyacı ödəmək məqsədilə müəyyən tədbirlər gördü. 1938-ci ildə **Nadejda Konstantinovna Krupskaya adına ikiillik Kirovabad (Gəncə) Pedaqoji İnstitutunun** açılması da məhz həmin tədbirlərdən idi.

**1939-cu ildə qiyabi aspirantura təhsilinin də əsası qoyuldu.**

Həmin illərdə Moskva Dövlət Universitetinin aspiranturasında təhsil almış İbrahim İbrahimov 1939-cu ildə namizədlik dissertasiyasını müdafiə etdi və fizika-riyaziyyat elmləri sahəsində elmlər namizədi adını alan ilk azərbaycanlı alim oldu.

1939-cu ildə Murtuza Əhmədli Tbilisi Dövlət Universitetində namizədlik dissertasiyasını

uğurla müdafiə etdi və respublikada ilk kimya elmləri namizədlərinin sırasına daxil oldu. Elə həmin il Əhməd Seyidov dissertasiya müdafiə edib ilk azərbaycanlı pedaqoji elmlər namizədi oldu.

30-cu illərin sonunda ali təhsilli dənizçi kadrlara ciddi ehtiyac yaranmışdı. Bunu nəzərə alaraq **SSRİ Hərbi Dəniz Qüvvələri Xalq komissarının 25 iyun 1939-cu il tarixli əmri ilə Bakı şəhərində Xəzər Ali Hərbi Dənizçilik Məktəbi** yaradıldı.

Beləliklə, 30-cu illərin sonunda Azərbaycanda fəaliyyət göstərən ali məktəblərin sayı 10-a çatdı.

*30-cu illərdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri*

| № | Ali məktəbin adı |
|---|---|
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti |
| 2. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu |
| 3. | Azərbaycan Neft İnstitutu (1934-cü ildən M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu) |
| 4. | Azərbaycan Dövlət Tibb İnstitutu |
| 5. | Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutu (1936-cı ildən S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu) |
| 6. | Azərbaycan Ticarət-Kooperativ İnstitutu (1933–1936-cı illərdə K.Marks adına Azərbaycan Sosial-İqtisad İnstitutu, 1936-1959-cu illərdə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu ) |
| 7. | Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |
| 8. | Azərbaycan Dövlət Konservatoriyası |
| 9. | Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu (ikiillik) |
| 10. | Xəzər Ali Hərbi Dənizçilik Məktəbi |

Böyük Vətən müharibəsi başlayana qədər ali məktəblərə tələbə qəbulu yüksələn xətt üzrə inkişaf edirdi. Əgər 1933/34-cü tədris ilində ali məktəblərə 3185 nəfər qəbul olunmuşdusa, 1940-cı ildə qəbul olunanların sayı 4251 nəfər təşkil etmişdi. 1940/41-ci tədris ilində respublikanın ali təhsil müəssisələrində 14600 (o cümlədən 11300 nəfər əyani, 3200 nəfər qiyabi, 100 nəfər isə axşam) tələbə təhsil alırdı.

1941-ci il yanvarın 1-nə olan məlumata görə, Azərbaycanın xalq təsərrüfatında 20100 ali təhsilli mütəxəssis (mühəndislər 6500, aqronomlar 1200, texniklər, baytar həkimlər 3100, müəllimlər, universitet məzunları olan iqtisadçılar, əmtəəşünaslar, hüquqşünaslar, mədəni-maarif işçiləri və s. 9300) çalışırdı.

Azərbaycanın ali məktəblərində tələbə elmi-tədqiqat işinin əsası bu illərdə qoyuldu. 1941-ci ildə ADU-da iki tələbə elmi konfransı keçirilmişdi. Bu konfranslar elmi-tədqiqat işinə qabiliyyəti olan tələbələrin aşkar edilməsi və onların gələcəkdə elmi-pedaqoji fəaliyyətə cəlb olunması məqsədini daşıyırdı. Konfransların iştirakçıları arasından sonralar bir sıra alimlər çıxmışdı. Belə ki, II konfransın iştirakçısı Qoşqar Əhmədov sonralar görkəmli riyaziyyatçı, Azərbaycan SSR EA-nın müxbir üzvü olmuşdur.

1941-ci il iyun ayının 22-də faşist Almaniyası SSRİ üzərinə hücum etdi. SSRİ-nin tərkibində olan bütün xalqlar kimi, Azərbaycan xalqı da düşmənə qarşı mübarizəyə səfərbər olundu. Ali məktəblərin kollektivləri «Hər şey cəbhə üçün, hər şey qələbə üçün» çağırışına ilk qoşulanlar sırasında idilər. Müharibənin ilk günlərində Azərbaycan Dövlət Universitetinin

rektoru **Cəbrayıl Ələsgərov** Qızıl Ordu sıralarına getdi. Universitetdən 200 nəfərdən çox komsomolçu da onunla birlikdə cəbhəyə yola düşdü.

Müharibə bütün sahələrdə olduğu kimi, xalq maarifi sahəsində də ciddi çətinliklər yaratdı. Ali məktəblər öz iş rejimində köklü dəyişikliklər etdi. Onların tədris və elmi fəaliyyətində cəbhənin ehtiyaclarına və hərbi dövrün tələblərinə uyğun yenidənqurma işləri aparıldı.

SSRİ XKS-nin nəzdində Ümumittifaq Ali Məktəblər Komitəsi tərəfindən ali təhsil müəssisələrinin qısamüddətli (beşillik təhsil müddəti olan ali məktəblər üçün üç il yarım, dördillik təhsil müddətli ali təhsil müəssisələri üçün üç il) tədris planları ilə fəaliyyət göstərməsi qərara alındı.

1942/43-cü tədris ilindən Azərbaycan Dövlət Universitetində beşillik təhsil müddəti bərpa olundu.

Müharibə illərində ali məktəblərin elmi-tədqiqat işlərində əsas diqqət vətənin müdafiəsi ilə bağlı olan məsələlərə yönəldilmişdi. Bəzi təhsil müəssisələrinin tədris korpusları hərbi hospitallara verilmiş və onlar tədris üçün yararlı olmayan binalarda yerləşdirilmişdi. Hərbi dövrün çətinliklərinə baxmayaraq, 1941–1945-ci illərdə universitet 1750-dən artıq mütəxəssis, o cümlədən 972 müəllim, Sənaye İnstitutu 1395 mühəndis, 550 kənd təsərrüfatı işçisi, Tibb İnstitutu 3305 həkim hazırlamışdı.

Müharibə illəri incəsənət işçilərinin yaradıcılığında da yeni səhifə açdı. Musiqi, teatr və kino sahəsində inkişaf nəinki dayanmadı, əksinə, daha da sürətləndi. Xalqın sevdiyi sənətkarlar ön cəbhələrdə vuruşan döyüşçülərin, arxa cəbhədə isə zəhmətkeş xalqın vətənpərvərlik və mübarizə ruhunu yüksəltmək üçün əzmlə çalışırdılar. **Azərbaycan Teatr İnstitutu** da məhz bu dövrdə yarandı. **Azərbaycan SSR Xalq Komissarları Soveti 1944-cü il 13 sentyabr tarixli iclasında respublikada teatr təhsilinin vəziyyətini müzakirə edib, Azərbaycan Teatr (İncəsənət) İnstitutunun yaradılması barədə qərar qəbul etdi.**

Müharibə illərində ali məktəblərin elmi fəaliyyətlərində də xüsusi canlanma yarandı. Bu illərdə riyaziyyat, fizika, kimya, biologiya və digər elm sahələrində mühüm nəticələr əldə edildi. Alimlər arasında Zahid Xəlilov, İbrahim İbrahimov, Maqsud Cavadov, Əşrəf Hüseynov öz tədqiqatları ilə fərqlənirdilər.

1945-ci ildə respublikada 3000-ə yaxın elmi işçi var idi. Bunlardan 150 nəfəri professor və elmlər doktoru idi. Bu alimlər 66 elmi tədqiqat müəssisəsində və ali məktəblərdə çalışırdılar.

**1945-ci il martın 27-də Azərbaycan Xalq Komissarları Soveti SSRİ Elmlər Akademiyasının filialı əsasında Azərbaycan SSR Elmlər Akademiyasının təşkil olunması haqqında qərar qəbul etdi.** Azərbaycan SSR Elmlər Akademiyasının 15 nəfərdən ibarət ilk tərkibi təsdiq edildi. Bu tərkibə geoloq alimlər, elmlər doktorları Şamil Əzizbəyov, Mirəli Qaşqay, Əbdülhüseyn Əlizadə, kimya elmləri doktoru Yusif Məmmədəliyev, texnika elmləri doktoru İosif Yesman, şair Səməd Vurğun, yazıçı Mirzə İbrahimov, bəstəkar Üzeyir bəy Hacıbəyli, filosof Heydər Hüseynov, tibb alimləri Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, İvan Şirokoqorov, memar-professorlar Mikayıl Hüseynov və Sadıq Dadaşov,



*SSRİ Elmlər Akademiyasının komissiya üzvləri Azərbaycan EA-nın təsisçiləri arasında (1945) 1-ci sıra (soldan): Üzeyir bəy Hacıbəyli, İosif Yesman, Mirəsədulla Mirqasımov, akad. İvan Meşşaninov, akad. Dmitri Priyanişnikov, İvan Şirokoqorov, akad. Dmitri Belyankin, SSRİ EA-nın müxbir üzvləri: Matvey Kapelyuşnikov, Nikolay Andreyev, Aleksandr Qrossheym; 2-ci sıra (soldan): Yusif Məmmədəliyev, Səməd Vurğun, Mirzə İbrahimov, Şamil Əzizbəyov, Əbdülhüseyn Əlizadə, Heydər Hüseynov, Sadıq Dadaşov və b.*

botanik Aleksandr Qrossheym daxil idi. Akademik Mirəsədulla Mirqasımov akademiyanın ilk prezidenti seçildi. Sonrakı illərdə akademiyanın prezidentləri akademiklər Yusif Məmmədəliyev (1947–1950); (1958–1961), Musa Əliyev (1950–1958), Zahid Xəlilov (1961–1967), Rüstəm İsmayılov (1967–1970), Həsən Abdullayev (1970–1983), Eldar Salayev (1983–1997) olmuşlar.

Azərbaycanda elmi-tədqiqat işlərinin dövrün tələblərinə uyğun formalaşmasında, ümumiyyətlə, elmi mühitin yaranmasında Azərbaycan Elmlər Akademiyası mühüm rol oynadı.

**1945-ci ildə Xalq Təsərrüfatı İnstitutu yenidən təşkil olundu.**

Müharibədən sonrakı dövrdə də elmə, elmi-tədqiqat işlərinə dövlət tərəfindən xüsusi qayğı göstərilirdi. Təsadüfi deyildi ki, respublikada Elmlər Akademiyasının prezidenti qədər yüksək məvacib alan ikinci bir vəzifə sahibi yox idi.

Ali təhsil müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasında Azərbaycan hökumətinin qəbul etdiyi «*Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin işinin yaxşılaşdırılması tədbirləri haqqında*» (aprel, 1945) və «*Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetinin tədris-istehsalat vəziyyəti haqqında*» (noyabr, 1946) qərarlar mühüm rol oynadı. Bu qərarlara uyğun olaraq ali məktəblərə tələbə qəbulu təkmilləşdirildi. Qəbul planlaşdırılarkən artıq respublikanın ayrı-ayrı rayonlarının tələbatı nəzərə alınırdı. Həmin ildə (1946) respublikanın rayonlarını rus dili və ədəbiyyatı müəllimi ilə təmin etmək məqsədilə **Mirzə Fətəli Axundov adına ikiillik Azərbaycan Müəllimlər İnstitutu** yaradıldı.

1948-ci ildə daha bir ali təhsil müəssisəsi təşkil olundu. Bu, **Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutu** idi.

*40-cı illərdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri*

| № | Ali məktəbin adı |
|---|---|
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti |
| 2. | Azərbaycan Dövlət Pedaqoji İnstitutu (19.09.1941-ci ildən 10.10.1943-cü ilə kimi ADU-ya birləşdirilmişdir.) |
| 3. | M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu |
| 4. | K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu |
| 5. | M.F.Axundov adına Azərbaycan Dövlət Müəllimlər İnstitutu (ikiillik) |
| 6. | Azərbaycan Tibb İnstitutu |
| 7. | Azərbaycan Dövlət Konservatoriyası |
| 8. | Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |
| 9. | H.Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu |
| 10. | S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu |
| 11. | Xəzər Ali Hərbi Dənizçilik Məktəbi |
| 12. | Azərbaycan Dövlət Pedaqoji Xarici Dillər İnstitutu |

1946–1950-ci illər xalq təsərrüfatının bərpası illəri oldu. 1950-ci ildə ali məktəblərə 8725 tələbə qəbul olunmuşdu ki, bu da 1940-cı illə müqayisədə 2 dəfə çox idi. Onlardan 2003 nəfəri sənaye və tikinti, 595-i kənd təsərrüfatı, 644-ü iqtisadiyyat və hüquq, 440 nəfəri səhiyyə, bədən tərbiyəsi və idman, 4989 nəfəri maarif, 54 nəfəri incəsənət və kinematoqrafiya ixtisaslarına qəbul olunmuşdu. 1950/51-ci tədris ilində ali məktəblərdə tələbə kontingenti 28632 nəfər təşkil edirdi.

50-ci illərin birinci yarısında xalq təsərrüfatının müxtəlif sahələri üçün hazırlanan mühəndislərin, iqtisadçıların, aqronomların, həkimlərin, müəllimlərin, hüquqşünasların sayı 14262 nəfər təşkil etmişdi.

Texniki sahədə kadrların hazırlığında qazanılan uğurlara baxmayaraq, xalq təsərrüfatının ayrı-ayrı sahələrində hələ də mühəndislər çatışmırdı. Ona görə də 1950-ci ilin noyabrında Sənaye İnstitutunun memarlıq-inşaat, nəqliyyat, mexanika, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun hidromeliorasiya fakültələrinin bazasında **Azərbaycan Politexnik İnstitutu** yaradıldı. Bu, xalq təsərrüfatının metallurgiya, maşınqayırma, nəqliyyat, tikinti və digər sahələrinin yüksəkixtisaslı mütəxəssislərlə təmin olunmasına imkan yaratdı.

Müharibədən sonrakı illərdə ölkədə fəaliyyət göstərən bütün elmi təşkilatların əsas diqqəti ölkənin iqtisadi və mədəni inkişaf planlarının həyata keçirilməsi ilə bağlı məsələlərin həllinə yönəlmişdi. Tanınmış alimlər elmi biliklərin bütün sahələrini inkişaf etdirmək istiqamətində gərgin iş aparırdılar. Həmin dövrdə Azərbaycanın onlarla nüfuzlu alimi elmin müxtəlif sahələrində əldə etdikləri yüksək nəticələrə görə dövlət tərəfindən müxtəlif mükafatlara layiq görüldülər.

Akademik Yusif Məmmədəliyev neft kimyası və üzvi kimya sahəsində apardığı tədqiqatlarla Azərbaycanda neft kimyası və üzvi sintez sənayesinin əsasını qoydu. O, bu sahədə əldə etdiyi nailiyyətlərə görə SSRİ Dövlət mükafatı aldı.

Sürtkü yağları və dizel yanacağı üçün aşqarların sintezi üzrə tədqiqat aparan kimya elmləri doktoru, professor Əli Quliyev Sovetlər İttifaqında ilk dəfə olaraq «AzNİİ depressator» və «AzNİİ–4» aşqarları sintez edərək

respublikamızın neft emalı zavodlarında tətbiq etdi. Bu işlərə görə o, iki dəfə – 1948 və 1950-ci illərdə SSRİ Dövlət mükafatı laureatı adına layiq görüldü.

Akademik Rüstəm İsmayılov 1948-ci ildə neftin emalı üsullarının təkmilləşdirilməsi sahəsindəki xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

Akademiklər Vahab Əliyev və Musa Rüstəmovun rəhbərliyi ilə əvvəlcə Bakıda, sonra isə SSRİ-nin bir çox şəhərlərində, Polşa və Rumıniyada uğurla tətbiq olunan «qaynar lay» texnologiyasına görə 1948-ci ildə SSRİ Dövlət mükafatı aldılar.

Texnika elmləri doktoru Əyyub Tağıyev neft-mədən sahəsində əldə etdiyi yüksək nəticələrə görə üç dəfə (1942; 1947; 1952) SSRİ Dövlət mükafatı almışdı. Akademik Sabit Orucov neft və qaz yataqlarının mənimsənilməsi və işlənməsi sahəsində apardığı tədqiqatlara görə iki dəfə (1950; 1951) bu yüksək mükafatın sahibi olmuşdu. Kompressor qurğularını aşağı təzyiqdə işə salmaq üçün ilk dəfə təklif və tətbiq etdiyi buraxılış klapanına görə Mahmud Abdullayev 1950-ci ildə SSRİ Dövlət mükafatına layiq görüldü.

Respublikanın pambıqçılıq təsərrüfatında yüksək nəticələr əldə etməyə imkan verən yeni pambıq sortları yaratdıqlarına görə İsgəndər Vəlizadə (Şaban Cəfərov, Musa Məmmədovla birlikdə) SSRİ Dövlət mükafatına layiq görüldü.

40-cı illər ilk azərbaycanlı fəlsəfə elmləri doktoru, akademik Heydər Hüseynovun elmi fəaliyyətində çox məhsuldar illər oldu. 250-dən çox elmi əsərin müəllifi olan Heydər Hüseynov Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikrin işıqlandırılmasında əsl novatorluq nümayiş etdirdi. Onun **«XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixinə dair»** fundamental əsəri bu sahədə ilk yaradıcılıq nümunəsi idi. O bu əsərə görə 1948-ci ildə SSRİ Dövlət mükafatına layiq görüldü.

Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda çalışan professor V.P.Smirnov-Loginovun tədqiqatları Azərbaycan torpaqşünaslıq elminin inkişafında mühüm rol oynadı.

Professor Firuz Məlikov Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutunun kollektivi ilə birlikdə (Mirzə Sadıqov, Süleyman Hüseynov, V.Q.Smaraqdov və Qara Haqverdiyevlə birlikdə) Azərbaycan dağ merinosu qoyun cinsi yetişdirmiş və buna görə 1948-ci ildə SSRİ Dövlət mükafatı almışdı.

Cəbrayıl Hüseynov (Əsgər Həsənov və M.Həsənovla birlikdə) neft mənşəli tullantıların əkinçilikdə tətbiqinə, Rəhim Hüseynov Azərbaycan barama cinsini yaratdığına görə SSRİ Dövlət mükafatına layiq görüldülər.

Riyaziyyatçı alimlər çox məhsuldar işləyirdilər. Uzun illər universitetdə çalışmış akademik Zahid Xəlilov öz tədqiqatları ilə respublikada riyaziyyat elminin bir sıra yeni istiqamətlərinin, o cümlədən funksional analizin, xətti normallaşdırılmış fəzada xətti tənliklər nəzəriyyəsinin, xətti operatorlar nəzəriyyəsinin əsasını qoydu.

Professor Əşrəf Hüseynov qeyri-xətti funksional analiz sahəsindəki tədqiqatları ilə Azərbaycanda riyaziyyat sahəsində yeni səhifə açdı. Riyaziyyat elminin inkişafında professorlar İbrahim İbrahimov, Qoşqar Əhmədov, Azərbaycan EA-nın müxbir üzvü Maqsud Cavadov, fizika elminin inkişafında (yarımkeçiricilər

fizikası) Həsən Abdullayev, Abbasqulu Abbaszadə (termodinamika) böyük xidmətlər göstərdilər.

40–50-ci illərdə fəaliyyət göstərən geoloq-alimlərin səyləri nəticəsində Azərbaycanda faydalı qazıntı yataqlarının intensiv işlənməsinə başlanıldı. Akademik Şəfayət Mehdiyev Azərbaycanda neft yataqlarının əmələ gəlməsi və formalaşması barədə fikirləri inkişaf etdirdi və əsaslandırdı.

Akademik Əhəd Yaqubov palçıq vulkanizminin neftvermə qabiliyyəti ilə genetik əlaqəsi barədə mühüm nəticələr əldə etdi. Akademik Mirəli Qaşqay geologiya, petroqrafiya və mineralogiya sahəsində çoxlu sayda əsərlər nəşr etdirdi.

Heydər Əfəndiyev «Azərbaycanın mineral sularının radioaktivliyi» kitabını nəşr etdirdi. Akademik Musa Əliyev 1951-ci ildə Geologiya İnstitutunda mezozoyun paleontologiyası və biostratiqrafiyası laboratoriyasını yaratdı və onun rəhbərliyi altında Kiçik və Böyük Qafqazın yura və tabaşir çöküntüləri ətraflı öyrənildi.

Həbib İsrafilovun rəhbərliyi altında fəaliyyət göstərən ekspedisiya kənd təsərrüfatı sahələrinin suvarılması üçün şirin yeraltı su yataqlarının kəşfiyyatı və işlənməsi ilə bağlı dəyərli tədqiqatlar apardı.

Müharibədən sonrakı illərdə fəlsəfə, pedaqogika, psixologiya və digər elm sahələri ilə bağlı çoxsaylı əsərlər çap olundu. Professor Aleksandr Makovelski Nizami Gəncəvi, Mirzə Fətəli Axundzadə, Mirzə Şəfi Vazeh və başqalarının ictimai, elmi və fəlsəfi irsini tədqiq etdi. Görkəmli pedaqoq-alimlər Mehdi Mehdizadənin, Əhməd Seyidovun, Mərdan Muradxanovun monoqrafik əsərləri nəşr olundu.

Qasım Gül 1952-ci ildə «Xəzər dənizinin hidrologiyası» mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək Azərbaycanda coğrafiya sahəsində ilk elmlər doktoru oldu. O, ADU-nun fiziki coğrafiya kafedrasını, sonralar isə Azərbaycan EA-nın Coğrafiya İnstitutunu əsl xəzərşünaslıq mərkəzinə çevirmiş, bu unikal dənizin problemlərinə aid elmi tədqiqatların geniş miqyasda həyata keçirilməsinə rəhbərlik etmişdir.

Respublikanın ali məktəblərində elmi-pedaqoji kadr hazırlığını yaxşılaşdırmaq məqsədilə Azərbaycan K(b)P MK-nın **«Aspirantura yolu ilə elmi-pedaqoji kadr hazırlığının yaxşılaşdırılması haqqında»** 11 noyabr 1947-ci il tarixli və SSRİ Nazirlər Sovetinin **«Aspirantura yolu ilə elmi-pedaqoji və elmi kadrların hazırlanması haqqında»** 22 may 1948-ci il tarixli qərarları mühüm rol oynadı. Həmin qərarlara uyğun olaraq ali təhsil müəssisələrinin, habelə orta məktəblərin müəllimləri üçün elmi və elmi-pedaqoji kadr hazırlığının yeni forması – *birillik aspirantura* tətbiq olunmağa başlandı. Lakin müharibədən sonrakı ilk illərdə ali məktəblərdə aspirantura yolu ilə elmi-pedaqoji kadr hazırlığında ciddi nöqsanlar var idi. Belə ki, aspiranturaya qəbul üçün müsabiqələr çox aşağı səviyyədə keçirilirdi. Ali məktəblərlə elmi idarələr arasında əlaqə zəif idi. 1947/48-ci tədris ilində Bakı şəhərindəki ali məktəblərin və elmi-tədqiqat institutlarının aspiranturasını bitirmiş 108 aspirantdan yalnız 22-si (20,3%) namizədlik dissertasiyasını vaxtında müdafiə etmişdi. Bir sıra ali məktəblərdə bəzi ixtisaslar üzrə aspiranturanın komplektləşməsi formal həyata keçirilirdi.

*1 may 1948-ci ildə respublikanın ali məktəbləri və Bakı şəhərindəki elmi-tədqiqat müəssisələri üzrə aspirantların sayı*

| № | Ali təhsil və elmi-tədqiqat müəssisələri | Aspirantların sayı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Kişi | Qadın |
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti | 105 | 73 | 32 |
| 2. | V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu | 30 | 21 | 9 |
| 3. | Azərbaycan Tibb İnstitutu | 21 | 11 | 10 |
| 4. | M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu | 32 | 20 | 12 |
| 5. | K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu | 8 | 5 | 3 |
| 6. | Azərbaycan SSR Elmlər Akademiyası | 79 | 55 | 24 |
| 7. | Azərbaycan SSR Neft Sənayesi Elmi-Tədqiqat İnstitutu | 13 | 6 | 7 |
| | **Cəmi:** | **288** | **191** | **97** |

50-ci illərdə SSRİ-də partiya-sovet kadrları hazırlanması sahəsində ciddi dəyişikliklər baş verdi. 1953-cü ildə Azərbaycan K(b)P MK yanında fəaliyyət göstərən ikiillik Respublika Sovet-partiya məktəbində təhsil müddəti üç ilə qədər uzadıldı. 1956-cı ildən bu məktəb Bakı **Ali Partiya Məktəbi** adı ilə fəaliyyət göstərməyə başladı. Həmin zamandan etibarən bu təhsil müəssisəsi artıq respublikalararası ali partiya-sovet təhsili verən tədris mərkəzi kimi Azərbaycan, Gürcüstan, Ermənistan müttəfiq respublikaları və Dağıstan MSSR üçün kadr hazırlığı ilə məşğul olmağa başladı. Bir neçə il sonra onun tərkibində yeni strukturlar yarandı: Bakı Ali Partiya məktəbində rəhbər kadrların ixtisasının artırılması üçün respublikalararası və respublika kursları, habelə Zaqafqaziya Komsomol Məktəbi fəaliyyət göstərməyə başladı.

Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin **«Ali və orta ixtisas təhsilli mütəxəssislərin hazırlanması, bölgüsü və istifadə edilməsinin yaxşılaşdırılması haqqında»** 30 mart 1954-cü il tarixli qərarından sonra respublikanın bütün ali məktəblərində tələbə qəbulunun və mütəxəssis hazırlığının təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirildi. Ali təhsil müəssisələrində tədris və maddi-texniki bazanın bərpası və möhkəmləndirilməsi üzrə geniş iş aparıldı.

50-ci illərin ikinci yarısında kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması mühüm əhəmiyyət kəsb edirdi. Azərbaycan hökumətinin **«1955–1960-cı illərdə Azərbaycan SSR-də kənd təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında»** qərarında göstərilirdi ki, kənd təsərrüfatının əsas çatışmazlıqlarından biri bu sahədə mövcud olan kadr qıtlığı ilə əlaqədardır. Ona görə də kənd təsərrüfatı ilə bağlı təhsil müəssisələrinə, o cümlədən Kənd Təsərrüfatı İnstitutuna qəbul planının artırılması, tədris prosesinin təkmilləşdirilməsi təxirəsalınmaz vəzifələr kimi qarşıya qoyuldu. 1955-ci ildə 431 nəfər kənd təsərrüfatı mütəxəssisi hazırlandı ki, bu da müharibədən əvvəlki səviyyədən (1940-cı ildə 422 nəfər olmuşdu) yüksək idi.

1951–1955-ci illərdə ali texniki məktəblərdə 26156 yüksəkixtisaslı mütəxəssis hazırlanmışdı, bu da 1946–1950-ci illərin müvafiq göstəricisindən 18 dəfə çox idi.

**1956-cı ilin iyununda SSRİ hökuməti «1 oktyabr 1956-cı ildən orta ixtisas və ali təhsil müəssisələrində ödəniş haqqının ləğv**

**olunması barədə» qərar qəbul etdi.** 1957-ci ildə ali məktəblərə qəbul qaydalarında dəyişiklik edildi. Bu dəyişikliyə əsasən, orta məktəbi bitirdikdən sonra praktik iş stajı olanlara və ordu sıralarından tərxis edilən şəxslərə qəbulda üstünlük verilməyə başlandı. Onların qəbul imtahanlarına hazırlaşması üçün geniş hazırlıq kursları şəbəkəsi yaradıldı. Həyata keçirilən tədbirlər nəticəsində respublikanın ali məktəblərinə qəbul olunan tələbələrin sayı artmaqda idi. Bu artımın dinamikası aşağıdakı cədvəldə öz əksini tapmışdır:

*1940–1959-cu illərdə Azərbaycanın ali məktəblərində təhsil alan tələbələrin sayı*

| İllər | Cəmi | Tələbələrin sayı | | |
|---|---|---|---|---|
| | | Əyani | Axşam | Qiyabi |
| 1940/41 | **14600** | 11300 | 100 | 3200 |
| 1950/51 | **28600** | 18400 | 300 | 9900 |
| 1951/52 | **29900** | 19900 | 500 | 9500 |
| 1952/53 | **31300** | 21200 | 700 | 9400 |
| 1953/54 | **32500** | 21600 | 900 | 10000 |
| 1954/55 | **34100** | 22000 | 1100 | 11000 |
| 1955/56 | **34700** | 22800 | 1200 | 10700 |
| 1956/57 | **34600** | 22400 | 1600 | 10600 |
| 1957/58 | **34000** | 21000 | 1900 | 11100 |
| 1958/59 | **36000** | 21200 | 2300 | 12500 |

Göründüyü kimi, 1940/41-ci tədris ili ilə müqayisədə 1950/51-ci tədris ilində tələbələrin sayı 2 dəfə, 1958/59-cu tədris ilində isə 2,5 dəfə artmışdı.

1945/46-cı tədris ilindən 1958/59-cu tədris ilinə qədər xalq təsərrüfatının müxtəlif sahələrinə 56684 nəfər ali məktəb məzunu göndərilmişdi.

*1945/46–1958/59-cu tədris illərində Azərbaycanın ali təhsil müəssisələrindən müxtəlif sahələr üzrə məzun olmuş mütəxəssislərin sayı*

| İllər | Sənaye və tikinti | Kənd təsərrüfatı | İqtisadiyyat və hüquq | Səhiyyə, bədən tərbiyəsi və idman | Maarif | İncəsənət və kinematoqrafiya | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| 1945/46 | 421 | 137 | 179 | 416 | 1431 | 46 | **2630** |
| 1946/47 | 456 | 143 | 157 | 431 | 1624 | 53 | **2864** |
| 1947/48 | 469 | 156 | 164 | 443 | 1695 | 58 | **2985** |
| 1948/49 | 480 | 173 | 202 | 476 | 1804 | 56 | **3191** |
| 1949/50 | 509 | 210 | 164 | 505 | 2010 | 62 | **3460** |
| 1950/51 | 600 | 256 | 386 | 716 | 3620 | 51 | **5629** |
| 1951/52 | 712 | 330 | 175 | 140 | 3620 | 69 | **5046** |
| 1952/53 | 609 | 304 | 251 | 562 | 3726 | 89 | **5541** |
| 1953/54 | 586 | 285 | 239 | 465 | 3210 | 74 | **4859** |
| 1954/55 | 936 | 311 | 277 | 417 | 3901 | 60 | **5902** |
| 1955/56 | 1342 | 431 | 381 | 423 | 2186 | 45 | **4808** |
| 1956/57 | 1372 | 499 | 401 | 494 | 2328 | 60 | **5154** |
| 1957/58 | 1511 | 444 | 436 | 526 | 1627 | 71 | **4615** |
| 1958/59 | 1684 | 529 | 733 | 526 | 1627 | 42 | **5141** |

Cədvəldən göründüyü kimi, mütəxəssislərin sayı sənaye və tikinti sahələri üzrə daha sürətlə artmışdır. Pedaqoji sahədə hazırlanan kadrların sayının azalması 50-ci illərdə pedaqoji ali məktəblərin şəbəkəsində ixtisarlar edilməsi ilə, tibb işçilərinin sayının azalması isə 1951-ci ildən Azərbaycan Tibb İnstitutunda altıillik təlimə keçilməsi ilə əlaqədar idi.

SSRİ Müdafiə Nazirliyinin 21 iyun 1958-ci il tarixli əmrinə əsasən Bakı şəhərində **Ali Ümumqoşun Komandirləri Məktəbi** yaradıldı. Ali təhsilli hərbi kadrlar hazırlayan bu məktəb Bakı şəhərində yerləşsə də, məktəbdə tədris rus dilində aparılırdı. Tələbələr arasında azərbaycanlılar yox dərəcəsində idi.

*50-ci illərdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri*

| № | Ali məktəbin adı |
|---|---|
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu (1959-cu ildən M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu) |
| 3. | K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu |
| 4. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu |
| 5. | Azərbaycan Teatr İnstitutu |
| 6. | Azərbaycan Politexnik İnstitutu |
| 7. | Azərbaycan Tibb İnstitutu |
| 8. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu |
| 9. | Azərbaycan Dövlət Konservatoriyası |
| 10. | H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnstitutu |
| 11. | S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu |
| 12. | Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |
| 13. | Ali Partiya Məktəbi |
| 14. | Xəzər Ali Hərbi Dənizçilik Məktəbi |
| 15. | Bakı Ali Ümumqoşun Komandirlər Məktəbi |

**1959-cu ilin martında «Azərbaycan SSR-də məktəbin həyatla əlaqəsinin gücləndirilməsi və xalq təhsili sisteminin daha da inkişaf etdirilməsi haqqında» Qanun qəbul olundu.** Qanunda ali məktəblər qarşısında aşağıdakı vəzifələr qoyulmuşdu:

- elmin yeni nailiyyətlərinə yiyələnmiş, əmək fəaliyyəti vərdişlərinə və müasir texnikadan istifadə etmək qabiliyyətinə malik olan yüksəkixtisaslı kadr hazırlığının həyata keçirilməsi;
- müasir dövrdə qarşıya qoyulan vəzifələrlə sıx bağlı olan elmi-tədqiqat işlərinin yerinə yetirilməsi;
- elmi-pedaqoji kadr hazırlığının aparılması;
- xalq təsərrüfatının, mədəniyyət və təhsilin müxtəlif sahələrində çalışan mütəxəssislərin ixtisas dərəcələrinin artırılması;
- elmi, siyasi biliklərin xalq kütləsi arasında geniş yayılmasına kömək göstərilməsi.

Azərbaycan KP MK, Azərbaycan SSR Nazirlər Soveti 1958-ci ilin oktyabrında və 1959-cu ilin aprelində respublikada ali təhsilin vəziyyəti, ali məktəb şəbəkəsinin nizama salınması barədə iki qərar qəbul etdi. Həmin qərarların icrası ilə bağlı Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu Rus dili və Ədəbiyyatı İnstitutu ilə birləşdirildi və **Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu** yaradıldı.

Azərbaycan Qiyabi Pedaqoji İnstitutu Vladimir İliç Lenin adına Azərbaycan Pedaqoji İnstitutuna birləşdirildi. Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu isə **Azərbaycan Neft və Kimya İnstitutu** adlandırıldı.

SSRİ Nazirlər Soveti 1959-cu il iyunun 17-də **«SSRİ-nin ali və orta ixtisas təhsili müəssisələrinə rəhbərliyin yenidən qurulması haqqında»**



**Şirəli Məmmədov (1904–1984)**

**Məmmədov Şirəli Nəsirzadə oğlu** Naxçıvan MR Ordubad rayonunun Dəstə kəndində anadan olmuşdur. Moskva Dağ-Mədən Akademiyasını bitirmişdir (1930). Doktorluq dissertasiyası müdafiə etmişdir (1948). Moskva Dağ-Mədən İnstitutunun filiz yataqlarının işlənilməsi kafedrasına rəhbərlik etmişdir. ADU-nun elmi işlər üzrə prorektoru (1953–1954), geofizika kafedrasının müdiri olmuşdur (1956–1959). Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsində işləmişdir (1959–1961). Azərbaycan Neft və Kimya İnstitutunun faydalı qazıntı yataqlarının işlənilməsi kafedrasının müdiri olmuşdur (1965–1970). Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir (1968). Azərbaycan Neft və Kimya İnstitutunun faydalı qazıntıların işlənilməsi kafedrasının professoru olmuşdur (1970–1982).

220-dən çox elmi əsərin, o cümlədən 23 monoqrafiyanın müəllifidir.

qərar qəbul etdi. Həmin qərara uyğun olaraq Azərbaycan SSR Nazirlər Soveti 13 avqust 1959-cu il tarixli qərar verdi. Bu qərara əsasən Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsi yaradıldı. **Şirəli Məmmədov** Komitənin ilk sədri təyin edildi. 10 ali və 48 orta ixtisas təhsili müəssisəsi həmin Komitənin tabeliyinə verildi.

1959-cu il Azərbaycanın ali təhsil sistemi üçün xoşagəlməz bir hadisə ilə də yadda qaldı. Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda baş verən çəkişmələr o qədər böyüdü ki, İttifaq rəhbərliyi işə qarışmalı oldu. Xalq Təsərrüfatı İnstitutu bağlandı və onun bir neçə fakültəsi Azərbaycan Dövlət Universitetinin tərkibinə daxil edildi.

Azərbaycan KP MK və Nazirlər Sovetinin 1959-cu ilin oktyabrında qəbul etdiyi **«Ali təhsilin vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında»** qərarda ali təhsil müəssisələrinin işində yol verilmiş ciddi nöqsanlar qeyd olundu və onların aradan qaldırılması üçün konkret yollar müəyyənləşdirildi. Qərarda ali təhsil müəssisələrinin işini daha da yaxşılaşdırmaq məqsədilə aşağıdakılar nəzərdə tutulmuşdu:

- xalq təsərrüfatının, maarif və mədəniyyətin tələbatını nəzərə almaqla ali təhsilli mütəxəssislərin hazırlanmasının perspektiv planlaşdırılmasının nizamlanması;
- ali təhsil müəssisələrinin maddi-texniki bazasının genişləndirilməsi və möhkəmləndirilməsi, universitetin və respublikanın texniki ali məktəblərinin elektron maşın və digər yeni avadanlıqlarla təchiz olunması;
- tədris-pedaqoji nəşriyyatın yaradılması;
- ali məktəblər üçün zəruri olan laboratoriya və tədris avadanlıqlarının, əyani vəsaitlərin, qurğu və konstruksiyaların hazırlanması məqsədilə istehsalat bazasının yaradılması;
- ali təhsil müəssisələrinin axşam və qiyabi şöbələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi;
- mütəxəssis hazırlığının genişləndirilməsi məqsədilə istehsalatdan ayrılmadan kadrlar hazırlanmasının təşkil edilməsi.

Qeyd olunan vəzifələri yerinə yetirmək məqsədilə Azərbaycanın ali təhsil sistemində bir sıra təşkilati xarakterli tədbirlər həyata keçirildi.

50-ci illərdə respublikadan kənarda yüzlərlə gənc SSRİ-nin tanınmış ali məktəblərində təhsil alırdı. Təkcə 1950-ci ildə Moskva və Leninqradın (Sankt-Peterburq) ali məktəblərində 800-dən artıq azərbaycanlı təhsil alırdı.

1956-cı ildən xarici ölkə tələbələrinin Azərbaycanın ali məktəblərinə qəbulu başlandı. Həmin ildə Almaniya və Bolqarıstandan Azərbaycana 40 tələbə göndərilmişdi.

50-ci illərdə respublikada elmi-pedaqoji kadr hazırlığı da genişləndi və keyfiyyətcə daha yüksək səviyyəyə qalxdı. Aspirantura elmi-pedaqoji kadr hazırlığının başlıca forması kimi qalmaqda davam edirdi. Aspirantların sayı ildən-ilə artırdı. 1950-ci ildə respublikada 191 aspirant vardısa, 1955-ci ildə onların sayı 215 nəfər oldu.

Bu illərdə Azərbaycan dilçiliyi və ədəbiyyatşünaslığı sahəsində geniş tədqiqatlar aparılırdı. Bu tədqiqatlar ilk növbədə Əbdüləzəl Dəmirçizadə, Məmmədağa Şirəliyev, Məmməd Arif Dadaşzadə, Feyzulla Qasımzadə, Həmid Araslı, Mikayıl Rəfili, Əli Sultanlı və digər alimlərin adı ilə bağlıdır.

Həmin illərdə artıq bütün elm sahələrində Azərbaycanın görkəmli nümayəndələri çalışırdı. Onların səyi nəticəsində elmi məktəblər və istiqamətlər yaranmış, yüksəkixtisaslı gənc elmi işçilər nəsli hazırlanmışdı. Bu da elmi-tədqiqat işinin gələcək inkişafı üçün zəmin yaratmışdı.

Elmi-texniki inqilabın nailiyyətlərinin ölkədə tətbiq olunduğu, cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi inkişafını təmin edən məsələlərin miqyasının genişləndiyi dövrdə elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin rolu xeyli artdı.

SSRİ Nazirlər Sovetinin **«Ali təhsil müəssisələrində elmi-tədqiqat işinin yaxşılaşdırılması sahəsində tədbirlər haqqında»** (12 aprel 1956-cı il) qərarı ilə elmi-tədqiqatların aparılması və elmin inkişafı sahəsində ali məktəblərin vəzifələri müəyyənləşdirildi.

Qərarda xüsusi olaraq vurğulanırdı ki, ali təhsil və elmi-tədqiqat müəssisələri üçün elmi işçi hazırlığı ali məktəblərdə elmi-tədqiqat işinin hərtərəfli inkişafı olmadan aparıla bilməz. Elmi-tədqiqat işinin səmərəliliyinin artırılması məqsədilə aşağıdakı işlərin görülməsi vacib hesab edildi:

– sahə və problem elmi-tədqiqat laboratoriyalarının yaradılması;

– istehsalatın texniki səviyyəsinin və xalq təsərrüfatının bütün sahələrinin texniki təkmilləşdirilməsi tempinin artırılması ilə bağlı mühüm nəzəri problemlərin həllində alimlərin səylərinin cəmləşdirilməsi;

– elmi və istehsalat avadanlığının təcrübi və yeni nümunələrini ali məktəblərə verməklə onların maddi-texniki bazasının gücləndirilməsi;

– elmi işin planlaşdırılması və onun yerinə yetirilməsi qaydasının reqlamentləşdirilməsi.

1960-cı ilin sonunda respublikanın xalq təsərrüfatının müxtəlif sahələrində 73 mindən artıq ali təhsilli mütəxəssis çalışırdı. Ali təhsilli mütəxəssislərin sayının sürətlə artmasına baxmayaraq, yenə də onlara tələbat var idi.

1 dekabr 1961-ci ilin statistikasına görə respublikanın ticarət müəssisələrində çalışan bütün işçilərin cəmi 2,5%-nin ixtisas təhsili var idi. Xalq təsərrüfatının başqa sahələrində də vəziyyət belə idi. Nəqliyyat sahəsində çalışan hər 100 nəfər işçiyə 7,4 nəfər, mənzil-kommunal təsərrüfatı müəssisələrində 3,5 nəfər, tikintidə 6,2 nəfər, neft-qazma işlərində 7,7 nəfər ali təhsilli mütəxəssis düşürdü. Xüsusilə kimya sənayesinin sürətli inkişafı ilə əlaqədar ixtisaslı kadrlara daha böyük ehtiyac var idi. Azərbaycan Neft və Kimya İnstitutunun **Sumqayıt**

**Tədris Məntəqəsinin** yaranması da elə həmin dövrə təsadüf edir. Sonralar bu tədris məntəqəsinin bazasında institutun Sumqayıt filialı, daha sonra isə **Sumqayıt Ali Texniki Məktəbi** yaradıldı.

Həmin illərdə kənd təsərrüfatının ali təhsilli kadrlarla təminatı xüsusilə qeyri-qənaətbəxş idi. Kənd təsərrüfatı sahəsində çalışanların cəmi 3%-nin ali təhsili var idi. Sovxozlarda hər 100 nəfər işçiyə 4 nəfər ali və orta ixtisas təhsilli mütəxəssis düşürdü. Rəhbər kadrlar heyətində ali təhsilli mütəxəssislər 6,7%, orta ixtisas təhsillilər 30,5% təşkil edirdi.

1961-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri vəzifəsinə tibb elmləri doktoru akademik **Abdulla Qarayev** təyin edildi.

**1962-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Komitəsi Nazirliyə çevrildi. Həmin vaxtdan etibarən Azərbaycan Ali və Orta İxtisas Təhsili Komitəsi də nazirlik adlandırıldı.**

**1962-ci ildə Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyində Xarici Əlaqələr şöbəsi yaradıldı.** (1961–1971-ci illərdə respublikanın ali məktəblərində 300 əcnəbi tələbə və aspirant təhsil alırdı. 1971-ci ildə əcnəbi tələbələrlə iş üzrə işçi orqan – katiblik təsis edildi).

Azərbaycan hökumətinin **«Ali və orta ixtisas təhsilinin daha da inkişaf etdirilməsinin yaxşılaşdırılması tədbirləri haqqında»** 11 iyul 1963-cü il tarixli qərarında ali təhsilli mütəxəssis hazırlığının xalq təsərrüfatı sahələrinin kadrlara olan tələbatına uyğun aparılması vəzifəsi qarşıya qoyuldu.

Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin 9 may 1963-cü il tarixli «*Ali və orta ixtisas təhsilinin daha da inkişaf etdirilməsi, mütəxəssis hazırlığının yaxşılaşdırılması və onlardan istifadə edilməsi tədbirləri haqqında*» qərarında qeyd olunurdu ki, Sovet İttifaqında ali təhsilin inkişafında böyük nailiyyətlər əldə olunmuşdur. Belə ki, ali təhsilli mütəxəssis buraxılışı artmış, gənc mütəxəssislərin praktik hazırlıq səviyyəsi yüksəlmiş, gənclərin ali təhsil müəssisələrinə qəbulu çoxalmışdır.

Eyni zamanda qərarda göstərilirdi ki, ali təhsilin inkişafında, mütəxəssislərin hazırlanmasında və onlardan istifadə edilməsində bir sıra çatışmazlıqlar da vardır. Yeni texnika sahələri (cihazqayırma, elektronika, kimya, istehsalatın mexanikləşdirilməsi və avtomatlaşdırılması) üzrə mütəxəssislər, iqtisadçılar, habelə ümumtəhsil məktəbləri üçün müəllimlər az hazırlanır. Kadr hazırlığının respublikanın iqtisadi, sosial və mədəni inkişaf tempi ilə əlaqəsi zəifdir.



**Abdulla Qarayev (1910–1968)**

**Qarayev Abdulla İsmayıl oğlu** Bakı şəhərində anadan olmuşdur. Tibb elmləri doktoru elmi dərəcəsi almış (1941), Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş (1949), Əməkdar elm xadimi (1943) fəxri adına layiq görülmüşdür. Azərbaycan Dövlət Universitetinin rektoru (1944–1950), Azərbaycan SSR EA Biologiya və kənd təsərrüfatı bölməsinin akademik katibi (1952–1956), Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri (1961–1963), Fiziologiya İnstitutunun direktoru vəzifələrində çalışmışdır. 300-dən artıq elmi əsərin və 7 monoqrafiyanın müəllifidir. Azərbaycanda ilk eksperimental fiziologiya laboratoriyasının təşkilatçısı, fizioloqlar elmi məktəbinin banisidir.

Adı çəkilən qərarda o da qeyd olunurdu ki, bəzi idarə və təşkilatlar sərəncamlarına göndərilən gənc mütəxəssislərdən təyinatları üzrə istifadə etmir, onlar üçün zəruri mənzil-məişət şəraitinin yaradılmasına diqqətlə yanaşmırlar.

1964/65-ci tədris ilində ali məktəblərdə yeni tədris plan və proqramları hazırlandı və tətbiq olunmağa başlandı. Bu proqramlar elm və texnikanın son nailiyyətlərini özündə əks etdirirdi. Ölkənin iqtisadi həyatının idarə edilməsində mühüm mərhələlər olan beşillik planlar xalq təsərrüfatının yeni-yeni sahələrinin yaradılmasını nəzərdə tuturdu. Xalq təsərrüfatının iqtisadi səmərəlilik probleminə diqqətin artması Xalq Təsərrüfatı İnstitutunun ləğv olunmasının yanlış addım olduğunu göstərdi. Ona görə də **SSRİ Nazirlər Sovetinin qərarı ilə 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat və əmtəəşünaslıq fakültələrinin bazasında Xalq Təsərrüfatı İnstitutu yenidən bərpa edildi.**

Ölkədə icbari ümumi orta təhsilə keçilməsi ilə bağlı olaraq Naxçıvan Muxtar Respublikasında və Dağlıq Qarabağ Muxtar Vilayətində ümumtəhsil məktəblərinin pedaqoji kadrlara olan ehtiyacını ödəmək məqsədilə **Naxçıvanda (1967) və Xankəndində (1968) Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialları yaradıldı.**

Ali təhsilin daha da inkişaf etdirilməsi məqsədilə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin **«Ölkədə ali və orta ixtisas təhsilinə rəhbərliyin təkmilləşdirilməsi və mütəxəssis hazırlığının yaxşılaşdırılması tədbirləri haqqında»** 3 sentyabr 1966-cı il tarixli qərarı böyük rol oynadı. Bu qərar ali təhsilin gələcək inkişaf yollarını müəyyənləşdirdi və yüksəkixtisaslı mütəxəssis hazırlığının yaxşılaşdırılması işində ali təhsil müəssisələrinin kollektivləri qarşısına yeni vəzifələr qoydu.

Azərbaycan KP MK və Nazirlər Sovetinin **«Azərbaycan SSR-in tədris müəssisələrində şagird və tələbələrin mənzil-məişət şəraitinin və tibbi xidmətin vəziyyətinin daha da yaxşılaşdırılması haqqında»** 10 sentyabr 1967-ci il tarixli qərarından sonra respublikanın ali məktəblərinin maddi-texniki bazası genişləndirildi və möhkəmləndirildi. Tələbələrin mənzil və məişət şəraitinin yaxşılaşdırılması sahəsində də əhəmiyyətli işlər görüldü. Bakıda və Gəncədə 22 yataqxana korpusu tikilib istifadəyə verildi. 1959–1969-cu illərdə ali məktəb tələbələrinin yaşayış sahəsi 3 dəfədən çox artdı. Tələbə yeməkxanalarının tikintisi geniş vüsət aldı. Neft və Kimya İnstitutunun tələbə şəhərciyində 200 yerlik, ADU-da 300 yerlik, Politexnik İnstitutu tələbələri üçün 300 yerlik yeməkxana binaları tikilib istifadəyə verildi.

* * *

60-cı illərin əvvəllərində tələbələrin sosial tərkibinin istehsalatdan gələn gənclər hesabına formalaşdırılmasına diqqət və qayğı gücləndi. Bu məsələnin həllində SSRİ Nazirlər Sovetinin **«Sənaye müəssisələri, kolxoz və sovxozların, ali məktəblərin və texnikumların komplektləşdirilməsində və öz müəssisələri üçün mütəxəssis hazırlığında iştirakı haqqında»** 18 sentyabr 1959-cu il tarixli qərarı böyük rol oynadı. Qərarda təsbit edilirdi ki, 1960-cı ildən başlayaraq ali məktəblərin

birinci kursuna tələbə qəbulu ümumi əsaslarla yanaşı, sənaye müəssisələrinin, tikinti təşkilatlarının, kolxoz və sovxozların göndərişləri əsasında da aparılsın. Bu qərar istehsalat müəssisələrində müsbət qarşılandı və hazırlıqlı, yüksək istehsalat göstəricisinə malik olan fəhlə və kolxozçu-gənclər müəssisə rəhbərləri və ictimai təşkilatların seçimi və göndərişi ilə ali təhsil almağa göndərildilər. Həmin tələbələr təhsil müddətində müəssisələrin hesabına təqaüdlə təmin olunurdular. Belə gənclər təhsillərini başa vurduqdan sonra işləmək üçün mütləq həmin müəssisəyə qayıtmalı idilər.

Hər il tələbə qəbulunu yüksək səviyyədə keçirmək, fəhlə və kəndli gəncləri ali təhsil müəssisələrinə cəlb etmək məqsədilə ali məktəblərlə yanaşı, zavodlarda, neft müəssisələrində 6–9 aylıq hazırlıq kursları təşkil olunurdu. Kurslarda məşğələlər istehsalatdan ayrılmamaqla aparılırdı. Kurslara məşğələləri aparmaq üçün ən təcrübəli müəllimlər cəlb olunurdu.

Həmin illərdə (axşam və qiyabi) təhsil formalarının diqqət mərkəzində saxlanılması istehsalat sahələrində çalışan əmək adamlarının peşə və ixtisas səviyyəsinin yüksəldilməsi zəruriyyətindən irəli gəlirdi.

İstehsalatdan ayrılmamaqla mütəxəssis hazırlığının əhəmiyyəti Azərbaycan KP MK və Respublika Nazirlər Kabinetinin **«Qiyabi və axşam təhsili sistemində ali və orta ixtisas təhsilli mütəxəssis hazırlığının vəziyyəti və daha da yaxşılaşdırılması tədbirləri haqqında»** 26 dekabr 1961-ci il tarixli qərarında xüsusi qeyd olunmuşdu. Qərarda göstərilirdi ki, **«Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq təhsili sisteminin daha da inkişaf etdirilməsi haqqında»** Qanun qəbul edildikdən sonra respublikada istehsalatdan ayrılmamaqla mütəxəssis hazırlığının yaxşılaşdırılması istiqamətində müsbət işlər görülmüşdür. Ali təhsil müəssisələrinin axşam və qiyabi fakültə və şöbələri şəbəkəsinin inkişafı, yeni fakültə, şöbə, tədris məntəqələrinin yaradılması məhz həmin dövrə təsadüf edir.

İstehsalatdan ayrılmadan təhsil alan gənclərə kömək göstərmək, onların müstəqil işləmələri üçün əlverişli şərait yaratmaq məqsədilə 60-cı illərdə Kirovabadda (Gəncədə), Mingəçevirdə, Xankəndində, Lənkəranda, Nuxada (Şəkidə) və digər şəhərlərdə 18 tədris-məsləhət məntəqəsi yaradıldı.

60–70-ci illərdə ali məktəblərə tələbə qəbulu 2,6 (o cümlədən sənaye və tikinti üzrə 3,4; kənd təsərrüfatı üzrə 1,6; iqtisadiyyat və hüquq üzrə 3,3; səhiyyə üzrə 2,5; maarif üzrə 1,9; incəsənət üzrə 1,5) dəfə artmışdı. Tələbələrin sayı 1950/51-ci tədris ilində 28600 nəfər olduğu halda, 1965/66-cı ildə 67000 nəfərə çatdırılmışdı. 1960-cı ildə 80 ixtisas üzrə kadr hazırlandığı halda, 1965-ci ildə bu rəqəm 120-yə, 1970-ci ildə isə 138-ə yüksəlmişdi. 1966–1970-ci illərdə respublikada yeni ali məktəblər yaradılmış, mövcud ali məktəblərdə 22 yeni fakültə təşkil edilmişdi.

1959/60-cı tədris ilindən başlayaraq ali məktəblərə qəbul olunanların sayı artmış və əhalinin hər 10 min nəfərinə düşən tələbələrin sayı dinamik olaraq yüksəlmişdi. Əgər 1959/60-cı tədris ilində qəbul olanların sayı 8200, tələbələrin sayı 34600 olmuşdusa, 1964/65-ci tədris ilində bu göstərici uyğun olaraq 12700 və 58700, 1969/70-ci tədris

ilində 19100 və 99400 nəfər təşkil etmişdi. Əhalinin hər 10 min nəfərinə düşən tələbələrin sayı 1959/60-cı tədris ilindəki 88 nəfərdən 1969/70-ci tədris ilində 194 nəfərə çatmışdı. 10 il ərzində qəbul olunanların sayı 2 dəfədən çox, tələbələrin sayı isə 3 dəfəyə yaxın artmışdı. Tələbələrin sayının intensiv artması təbii olaraq məzunların da sayının çoxalmasına səbəb olmuşdu.

*60-cı illərdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri*

| № | Ali məktəbin adı |
|---|---|
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu |
| 3. | Azərbaycan Dövlət Konservatoriyası |
| 4. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu |
| 5. | S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |
| 6. | N.Nərimanov adına Azərbaycan Tibb İnstitutu |
| 7. | D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu (1959-cu ildə ləğv edilən D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu 1966-cı ildə yenidən bərpa olundu) |
| 8. | S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu |
| 9. | H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnstitutu |
| 10. | Azərbaycan Teatr İnstitutu |
| 11. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu |
| 12. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu |
| 13. | Ali Partiya Məktəbi |
| 14. | S.M.Kirov adına Xəzər Ali Hərbi Dənizçilik Məktəbi |
| 15. | Ali Ümumqoşun Komandirləri Məktəbi |

Beləliklə, 50–60-cı illərdə ali məktəblərin sayının əvvəlki illərə nisbətən sabit qalmasına baxmayaraq, hər il tələbə qəbulu, tələbələrin və kadr hazırlığı aparılan ixtisasların sayı artmışdı.

30 sentyabr 1969-cu ildə Azərbaycan hökuməti **«Respublikanın ali təhsil müəssisələrində hazırlıq şöbələrinin təşkili haqqında»** qərar qəbul etdi. Həmin qərara uyğun olaraq Azərbaycan Dövlət Universitetində, Azərbaycan Tibb İnstitutunda, Kirovabad (Gəncə) Pedaqoji İnstitutunda hazırlıq şöbələri yaradıldı.

1970/71-ci tədris ilində daha 5 ali məktəbdə – Vladimir İliç Lenin adına Azərbaycan Pedaqoji İnstitutunda, Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunda, Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunda, Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, Sergey Mironoviç Kirov adına Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda da hazırlıq şöbələri yaradıldı.

1970/71-ci tədris ilində respublikanın ali məktəblərinin 9 hazırlıq şöbəsinə 1288 nəfər qəbul olunmuşdu ki, onların 60,1%-ni fəhlələr, 27,5 %-ni kolxozçular təşkil edirdi.

**1970-ci ildə Kirovabad (Gəncə) şəhərində Çingiz İldırım adına Azərbaycan Dövlət Politexnik İnstitutunun filialı yaradıldı.**

Həmin dövrdə yüksəkixtisaslı qadın kadrların hazırlanması sahəsində də nailiyyətlər qazanılmışdı. Əgər 1960-cı ildə xalq təsərrüfatının müxtəlif sahələrində çalışan qadın mütəxəssislər 28500 nəfər (38,9%) təşkil edirdisə, 1970-ci ildə onların sayı 57000 (44,1%) nəfərə çatmışdı. 1970-ci ilin noyabr ayına olan məlumata görə, bütün respublika üzrə mühəndislərin – 25,8%-ni (8,5 min nəfər), aqronom,

*1959–1971-ci illərdə Azərbaycanın ali məktəblərinə qəbul və tələbə kontingenti barədə məlumat (min nəfərlə)*

| Tədris ili | Ali məktəblərin sayı | Cəmi | Tələbələrin sayı | | | Cəmi | Ali məktəblərə qəbul | | | Hər 10 min nəfərə düşən tələbələrin sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Əyani | Axşam | Qiyabi | | Əyani | Axşam | Qiyabi | |
| 1959/60 | 12 | **34,600** | 19,300 | 2,600 | 12,700 | **8,200** | 3,100 | 2,600 | 2,500 | 88 |
| 1960/61 | 12 | **36,000** | 18,500 | 3,400 | 14,100 | **7,500** | 3,400 | 1,000 | 3,100 | 91 |
| 1961/62 | 12 | **39,000** | 19,000 | 5,100 | 14,900 | **10,100** | 4,100 | 2,100 | 3,900 | 99 |
| 1962/63 | 12 | **55,100** | 30,600 | 7,000 | 17,500 | **13,500** | 5,400 | 2,400 | 5,700 | 110 |
| 1963/64 | 13 | **53,000** | 22,100 | 8,600 | 22,300 | **12,000** | 5,600 | 2,500 | 3,900 | 126 |
| 1964/65 | 11 | **58,700** | 24,300 | 10,700 | 23,700 | **12,700** | 6,100 | 2,700 | 3,900 | 138 |
| 1965/66 | 11 | **67,000** | 26,400 | 12,600 | 28,000 | **15,200** | 6,700 | 3,000 | 5,500 | 144 |
| 1966/67 | 12 | **78,300** | 31,900 | 15,300 | 31,100 | **18,100** | 8,900 | 3,700 | 5,500 | 164 |
| 1967/68 | 13 | **87,500** | 36,400 | 17,100 | 34,000 | **17,800** | 9,100 | 3,600 | 5,100 | 179 |
| 1968/69 | 13 | **95,200** | 40,800 | 18,000 | 36,400 | **19,100** | 10,000 | 3,600 | 5,500 | 190 |
| 1969/70 | 13 | **99,400** | 44,300 | 18,200 | 36,900 | **19,100** | 10,500 | 3,200 | 5,400 | 194 |

*1959–1971-ci illərdə Azərbaycanın ali təhsil müəssisələrində mütəxəssis buraxılışı haqqında məlumat*

| Tədris ili | Sənaye və tikinti | Kənd təsərrüfatı | Ali təhsil müəssisələrinin buraxılışı | | | | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| | | | İqtisadiyyat və hüquq | Səhiyyə və idman | Maarif | İncəsənət və kinematoqrafiya | |
| 1959/60 | 1951 | 502 | 96 | 689 | 3091 | 42 | **6371** |
| 1960/61 | 1558 | 476 | 91 | 703 | 2653 | 64 | **5545** |
| 1961/62 | 1327 | 449 | 79 | 788 | 3362 | 68 | **6073** |
| 1962/63 | 1195 | 513 | 137 | 613 | 3907 | 76 | **6441** |
| 1963/64 | 1171 | 497 | 139 | 577 | 2930 | 46 | **5360** |
| 1964/65 | 1274 | 476 | – | 636 | 2860 | 100 | **5346** |
| 1965/66 | 1714 | 458 | – | 628 | 2860 | 120 | **5780** |
| 1966/67 | 1082 | 500 | 515 | 608 | 3036 | 113 | **5854** |
| 1967/68 | 2817 | 668 | 1192 | 694 | 2876 | 160 | **8407** |
| 1968/69 | 2805 | 1001 | 719 | 774 | 4038 | 248 | **9585** |
| 1969/70 | 3597 | 1063 | 994 | 811 | 5441 | 321 | **12227** |
| 1970/71 | 3823 | 1582 | 1322 | 856 | 5515 | 274 | **13372** |
| **Cəmi** | **24314** | **8185** | **5284** | **8377** | **42569** | **1632** | **90361** |

zootexnik və baytar həkimlərin – 13,3%-ni (1,1 min nəfər), iqtisadçıların – 38,5%-ni (3,5 min nəfər), həkimlərin – 62,2%-ni (7,4 min nəfər), müəllimlərin, kitabxana və digər mədəni-maarif müəssisələri işçilərinin – 58%-ni (33,6 min nəfər) qadınlar təşkil edirdi.

* * *

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin **«Ali təhsil müəssisələrində elmi-tədqiqat işinin daha da inkişaf etdirilməsi haqqında»** 20 fevral 1964-cü il tarixli qərarında ali məktəblərdə çalışan alimlərin istehsalat, tikinti və nəqliyyat, kənd təsərrüfatının inkişafını təmin edən elmi məsələlərin həllində, təbiət və ictimai elmlər sahəsindəki elmi problemlərin tədqiqində daha fəal iştirak etmələrinin vacibliyi vurğulanırdı. Bu dövrdə Azərbaycanda elmin inkişafını səciyyələndirən üç əsas amil qeyd olunmalıdır:

- elmi biliklərin bütün istiqamətlərində mövzuların genişləndirilməsi;
- nəzəri tədqiqatların təcrübə ilə əlaqələrinin möhkəmlənməsi;
- ali məktəb alimləri tərəfindən aparılan elmi tədqiqatların Elmlər Akademiyasında çalışan alimlərin tədqiqat mövzuları və xalq təsərrüfatı planları ilə sıx əlaqələndirilməsi.

1962-ci ildə SSRİ Ali və Orta İxtisas Təhsili Komitəsinin sədri tərəfindən **«Ali təhsil müəssisələrində çalışan elmlər namizədlərinin doktorluq dissertasiyası hazırlamaq məqsədilə elmi işçi vəzifələrinə keçirilməsi haqqında»** təlimatın təsdiq edilməsi respublikamızda elmlər doktorlarının hazırlanmasına təkan verdi. Təlimata uyğun olaraq ali məktəblərdə «elmi işçilər institutu» yaradıldı. Doktorluq dissertasiyası üzərində işləyən 45 yaşadək elmlər namizədləri dosent elmi adı olduğu halda, böyük elmi işçi, olmadığı halda isə iki il müddətinə kiçik elmi işçi vəzifəsinə köçürülürdülər. Həmin müddət ərzində onlar pedaqoji işdən tam azad edilir, iki il başa çatdıqdan sonra yenidən pedaqoji işə qayıdırdılar. Bu təlimatın tətbiqi qısa müddətdə öz müsbət nəticələrini verdi: ali məktəblərdə elmlər doktorlarının sayı artdı, elmlər doktorlarının orta yaşı aşağı endi, elmlər namizədləri üçün SSRİ-nin aparıcı ali məktəblərində doktorluq dissertasiyalarını başa çatdıraraq müdafiə etmək imkanı yarandı.

1963-cü ildən başlayaraq respublikanın ali məktəblərində elmlər doktorlarının hazırlanması geniş vüsət aldı.

*1963-cü ildə Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyindəki ali məktəblərdə müdafiə edilən dissertasiyalar*

| № | Ali məktəblər | Doktorluq dissertasiyası | Namizədlik dissertasiyaları | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | Əməkdaşlar | Aspirantlar |
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti | 9 | 23 | 12 | 11 |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu | 2 | 17 | 17 | – |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 2 | 14 | 7 | 7 |
| 4. | M.F.Axundov adına Azərbaycan Pedaqoji İnstitutu | – | 1 | 1 | – |
| 5. | V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutu | 3 | 10 | 8 | 2 |
| 6. | H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnstitutu | 1 | 1 | 1 | – |
| Cəmi: | | 17 | 66 | 46 | 20 |



**Züleyxa Hüseynova (1924–1996)**

**Hüseynova Züleyxa İsmayıl qızı** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Sənaye İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə Energetika İnstitutunda başlamış (1952). Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili naziri (1963–1970). Azərbaycan Həmkarlar İttifaqları Şurasının sədri (1970). SSRİ Ali Soveti Millətlər Sovetinin Gənclərlə iş üzrə komissiyası sədrinin müavini vəzifələrində işləmişdir. SSRİ Ali Sovetinin (7–8-ci çağırış) deputatı. SSRİ Parlament qrupu komissiyasının üzvü olmuşdur.

1963-cü ildə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Ali və Orta İxtisas Komitəsinin bazasında Ali və orta ixtisas Təhsili Nazirliyi yaradıldı. Ali və Orta İxtisas Təhsili naziri vəzifəsinə **Züleyxa Hüseynova** təyin edildi. O, bu vəzifəni 1970-ci ilə qədər icra etdi.

Elmi-pedaqoji kadrların hazırlanmasında aspiranturanın müxtəlif formalarından, o cümlədən *birillik* və *məqsədli aspiranturadan* geniş istifadə olunurdu.

Azərbaycanın ali məktəblərindən Sovet İttifaqının qabaqcıl elm və təhsil mərkəzlərinə onlarla gənc mütəxəssis aspirantura təhsili almağa göndərildi. SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinin aspiranturalarında təhsil alan azərbaycanlıların sayı artmağa başladı. Əgər 1968-ci ildə Moskva və Leninqradın (Sankt-Peterburq) ali məktəblərinə məqsədli aspiranturaya 22 nəfər qəbul olunmuşdusa, 1970-ci ildə onların sayı 30 nəfər təşkil etmişdi.

1970-ci ildə Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyindəki ali məktəblərin Elmi Şuralarının iclaslarında dissertantura yolu ilə elmlər namizədi elmi dərəcəsi almaq üçün 158 işə baxılmışdı.

1970-ci ildə ali təhsil müəssisələrində 5700 elmi-pedaqoji işçi, o cümlədən 290 elmlər doktoru və professor, 2100 elmlər namizədi və dosent işləyirdi. Onların arasında Mustafa Topçubaşov, Azad Mirzəcanzadə, Şəfayət Mehdiyev, Mirəli Qaşqay, Validə Tutayuk, Mir Cəlal Paşayev, Umnisə Musabəyova, Feyzulla Qasımzadə, Əbdüləzəl Dəmirçizadə, Zülfəli İbrahimov, Mirzağa Quluzadə, Zəki Kazımzadə, Maqsud Cavadov, Əlisöhbət Sumbatzadə, Məhəmməd Möhsümzadə, Yusif Əmənzadə, Kamil Balakişiyev, Qədir Sultanov, Əlövsət Abdullayev, Yəhya Məmmədov, Əli Sultanlı, Cümşüd Zülfüqarlı, İsmayıl Hüseynov, Vahid Qəhrəmanov, Məsumə Məlikova, Abbasqulu Abbaszadə, Vəli Axundov, Faiq Bağırzadə, Arif Babayev, Şamil Əzizbəyov, Xalid Əlimirzəyev, Ağamusa Axundov, Aslan Aslanov, Fuad Qasımzadə, Ədhəm Şıxəlibəyli, Yusif Seyidov, Məmmədağa Şirəliyev, Qoşqar Əhmədov, Əmir Həbibzadə, Məcid Rəsulov, Abdulla Muxtarov, Məmmədəli Hüseynov, Muxtar Hüseynzadə, Əzizə Cəfərzadə, Mübariz Əlizadə, Ələsgər Məmmədov, Mehdi Məmmədov, Fərhad Zeynalov, Pənah Xəlilov, Abbas Zamanov, Bəxtiyar Vahabzadə, Firudin Hüseynov, Cəfər Cəfərov, İsmayıl Şıxlı, Tofiq Hacıyev, Mürsəl Həkimov, İsmixan Rəhimov, Mirzə Rəhimov, Hadı Mirzəzadə, Vasim Məmmədəliyev, Sabir Hacıyev və başqa məşhur alimlər də var idi.

Bu pedaqoq və alimlər Azərbaycanda yüksəkixtisaslı kadrların yetişməsində böyük xidmət göstərmişlər.

*60–70-ci illərdə Azərbaycan SSR-də aspirantura təhsili alanların sayı (min nəfərlə)*

| İllər | Respublika üzrə aspirantlar | Onlardan ali məktəblərdə təhsil alanlar | O cümlədən | | Respublika üzrə buraxılış | Onlardan ali məktəblər üzrə | O cümlədən | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | əyani | qiyabi | | | Əyani | Qiyabi |
| 1960 | 1044 | 471 | 336 | 135 | 118 | 37 | 29 | 8 |
| 1961 | 1618 | 744 | 589 | 1555 | 135 | 56 | 48 | 8 |
| 1962 | 2276 | 979 | 484 | 295 | 282 | 104 | 94 | 10 |
| 1963 | 2665 | 1106 | 689 | 427 | 471 | 215 | 167 | 48 |
| 1964 | 2799 | 1116 | 739 | 367 | 561 | 246 | 202 | 44 |
| 1965 | 2734 | 955 | 570 | 386 | 748 | 324 | 236 | 88 |
| 1966 | 2458 | 790 | 481 | 309 | 780 | 306 | 228 | 78 |
| 1967 | 2259 | 689 | 411 | 271 | 737 | 269 | 165 | 104 |
| 1968 | 2116 | 660 | 248 | 212 | 705 | 208 | 120 | 88 |
| 1969 | 2038 | 664 | 233 | 231 | 625 | 181 | 118 | 63 |
| 1970 | 1991 | 676 | 429 | 247 | 525 | 159 | 125 | 34 |

Bu illərdə alimlərimiz tərəfindən bir sıra mühüm elmi nəticələr əldə edildi. 60-cı illərdə Azərbaycanda fizikaya dair tədqiqatların bərk cisimlər fizikası, bərk cisimlər nəzəriyyəsi və yarımkeçiricilər fizikası, molekulyar fizika və spektroskopiya, elementar zərrəciklər və atom fizikası kimi əsas istiqamətləri müəyyənləşdi. Tədqiqatları ilə bu istiqamətlərin inkişafında mühüm xidmətləri olan alimlərdən Azərbaycan SSR EA-nın müxbir üzvləri Yühənnəs Seyidov, Bəhram Əsgərov, akademiklər Firudin Haşımzadə, Eldar Salayev və başqalarının adları qeyd olunmalıdır. 70–80-ci illərdə Azərbaycan SSR EA-nın müxbir üzvləri Vladımir Tahirov, Təyyar Cəfərov, Bahadır Tağıyev, akademiklər Arif Paşayev, Məhəmmədəmin Şahtaxtinski, Lətif İmanov, Çingiz Qacar və başqa alimlərimiz apardıqları tədqiqatlarla böyük nailiyyətlərə imza atdılar.

Bəhram Əsgərov bərk cisimlərdə termomaqnit hadisələrin kvant nəzəriyyəsini ilk dəfə yaradan alimlərdən biri oldu. O, kvantlayıcı maqnit sahəsində dissipativ termomaqnit cərəyanın hesablanması metodunu təklif etdi. Həmin işin «Bərk cisimlər fizikası» jurnalında çapından sonra termomaqnit effektlərin kvant nəzəriyyəsi sahəsində yeni bir mərhələ başlandı. 1970-ci ildə Leninqradda (Sankt-Peterburqda) «Наука» nəşriyyatı tərəfindən Bəhram Əsgərovun «Кинетические эффекты в полупроводниках» («Yarımkeçiricilərdə kinetik effektlər») monoqrafiyası nəşr olundu. Bəhram Əsgərov yarımkeçiricilərdə kinetik effektlərə həsr olunmuş kompleks tədqiqatlarına görə, 1974-cü ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görüldü. 1985-ci ildə Moskvada «Наука» nəşriyyatı tərəfindən Bəhram Əsgərovun «Электронные явления в полупроводниках» («Yarımkeçiricilərdə elektron köçürmə hadisələri») monoqrafiyası çap edildi. Bu kitab bərk cisimlərdə elektron köçürmə hadisələri ilə məşğul olan bütün fiziklərin stolüstü kitabı oldu. Akademik Bəhram Əsgərovun həmin kitabı 1994-cü ildə dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Sinqapurda ingilis dilində nəşr edilmişdir.

Bu dövrdə respublikada riyaziyyat elminin inkişafında da ciddi uğurlar əldə edilmiş, yüksək səviyyədə tədqiqatlar aparan Zahid Xəlilov, İbrahim İbrahimov, Əşrəf Hüseynov, Qoşqar Əhmədov, Maqsud Cavadov, Məcid Rəsulov, Mirabbas Qasımov, Arif Babayev, Yəhya Məmmədov, Fərəməz Maqsudov və başqa görkəmli riyaziyyat alimləri yetişmişdir.

Həmin dövrdə Azərbaycanda mexanika sahəsində əldə edilən elmi nəticələrdə də akademiklər Zahid Xəlilovun, Azad Mirzəcanzadənin, Qurban Cəlilovun, Azərbaycan SSR EA-nın müxbir üzvü Yusif Əmənzadənin müstəsna xidmətləri olmuşdur.

1975-ci ildə görkəmli neftçi-alim, akademik Azad Mirzəcanzadə «Neft hasilatında qeyri-nyuton sistemlərinin tətbiqi» adlı işinə görə SSRİ Neft Sənayesi Elmi-texniki Cəmiyyətinin İvan Qubkin adına mükafatına layiq görülmüşdü.

Azərbaycanın görkəmli alimlərindən Siyavuş Qarayev, Şövkət Qarayev və Feliks Məmmədovun («Химия гетероатомных пропаргильных соединений», Москва, «Химия», 1993), Rafiq Əliyevin («Методы интеграции в системах управления производством», Москва, «Энергоатомиздат», 1989), Azad Mirzəcanzadə, Əlövsət Qarayev və Siyavuş Şirinzadənin («Гидравлика в бурении и цементировании нефтяных и газовых скважин», Москва, «Недра», 1977), Sabir Babayevin («Надежность нефтепромыслового оборудования», Москва, «Недра», 1987), Tofiq Əliyev, Rafiq Əliyev və Xaldey Zinoviyin («Автоматизация информационных процессов в интегрированных АСУ промышленными предприятиями», Москва, «Энергоатомиздат», 1981), Mirulduz Qarayevin («Гидравлика буровых насосов», Москва, «Недра», 1983), Kamal Abdullayev və İqor Malaxovun («Водоподготовка на ТЭС при использовании городских сточных вод», Москва, «Энергоатомиздат», 1988), Zahid Kərimov və Sabit Bağırovun («Автоматизированное проектирование конструкций», Москва, «Машиностроение», 1985), İsmayıl İbrahimov, Nadir Fərzanə və Leonid İlyasovun («Элементы и системы пневмоавтоматики», Москва, «Высшая школа», 1984), Yaqub Qədimovun («Переходные процессы в системах распределенными параметрами», Москва, «Наука», 1968), Abbas Mustafayevin («Основы механики просадочных грунтов», Москва, «Высшая школа», 1978; «Расчет оснований и фундаментов на просадочных грунтах», Москва, «Высшая школа», 1979; «Деформация засоленных грунтов в основаниях сооружений», Москва, «Высшая школа», 1985; «Фундаменты на просадочных и набухающих грунтах», Москва, «Высшая школа», 1989) monoqrafiyaları Moskva şəhərində dərc olunmuşdur.

Xalq təsərrüfatının praktiki tələbatlarını nəzərə alan kimyaçı alimlər öz tədqiqatları ilə bu elmi əsas etibarilə tətbiqi istiqamətdə inkişaf etdirirdilər. Bu dövrdə kimya texnologiyası nəzəriyyəsinin fundamental əsaslarını işləyib hazırladığına görə akademik Murtuza Nağıyev Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü (1969).

Tibb elmi sahəsində Mustafa Topçubaşovun təklif etdiyi abdominotorakotomiya tumbaldiaqfraqmotamiya periferik sinir zədələnmələrinin cərrahi müalicə metodu, tendoplastika və kranioplastika üsulları, efir yağ inyeksiyaları vasitəsilə uzunmüddətli anesteziya, güllə və qəlpələrin yerini dəqiq müəyyən etmək və onların bədəndən çıxarılmasını asanlaşdırmaq üçün xüsusi cihazların tətbiqi təxirəsalınmaz cərrahlıq praktikasını yeni və daha səmərəli üsullarla zənginləşdirmişdir. Bu üsullardan SSRİ-də və xaricdə geniş istifadə edilmişdir.

Mustafa Topçubaşov cərrahlıq elminə və praktikasına gətirdiyi yeniliklərə görə 1975-ci ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü.

Professor Vasif Babazadə ilk dəfə olaraq Kiçik Qafqaz civəli əyalətinin olmasını elmi əsaslandırdı. Onun Azərbaycanda molibdenporfirli yataqların müəyyən edilməsi, onların əmələgəlmə şəraitləri və yataqlarının yerləşmə qanunauyğunluqları üzrə tədqiqatlarının böyük əhəmiyyəti oldu.

Vasif Babazadə tərəfindən Azərbaycanın müxtəlif struktur-tektonik zonalarında qara, əlvan və nadir metalların filiz yataqlarının aşkar edilməsinin nəzəri amilləri irəli sürüldü. O, «Kiçik Qafqazın civə yataqlarının geologiyası» monoqrafiyasına görə 1978-ci ildə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görüldü.

Professor Əziz Əsgərov ilk dəfə olaraq Azərbaycanın mineral sularının əmələgəlməsinin hidrogeoloji şəraitini, kimyəvi tərkibini və paylama qanunauyğunluqlarını müəyyən etmişdir. 1979-cu ildə üç mineral su yatağını (Vayxır, Badamlı, Sirab) açdığına görə o, Azərbaycanın Dövlət mükafatına layiq görüldü və «İlk kəşfçi» diplomu ilə təltif olundu. Onun tərtib etdiyi layihələr əsasında Azərbaycanda İstisu, Naftalan, Qalaaltı, Nabran, Şuşa və digər su-müalicə və sanatoriya tipli kurortların tikintisinə başlandı.

Azərbaycanda urologiyanın əsası Mirəsədulla Mirqasımov və Mustafa Topçubaşov tərəfindən qoyulmuşdur. Bu elmin sonrakı inkişafında akademik Mirməmməd Cavadzadənin mühüm xidmətləri vardır. O, urologiya sahəsində müasir diaqnostika üsullarının işlənib-hazırlanması və kliniki praktikada tətbiqinə görə, 1982-ci ildə SSRİ Dövlət mükafatı almışdır.

Təbii qazın nəqli sahəsindəki nailiyyətlərinə görə Musa Haşımov 1982-ci ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. 80–90-cı illərdə sənaye komplekslərində texnoloji proseslərin idarəetmə sistemləri yaradıldı və tətbiq edildi. 1983-cü ildə «Sənayenin səmərəliliyinin yüksəldilməsi üçün idarəetmə və informasiya sistemlərinin işlənib hazırlanması və tətbiqi» işinə görə İsmayıl İbrahimov, Tofiq Əliyev, Rafiq Əliyev, İsrayıl Əfəndiyev və başqaları SSRİ Dövlət mükafatına layiq görüldülər.

Onkologiya elminin inkişafında akademiklər Cəmil Əliyev və Əhliman Əmiraslanovun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Cəmil Əliyev Azərbaycanda süd vəzisi xərçənginin diaqnostikası və müalicəsi üzrə elmi məktəbin banisidir. Bu sahədə əldə etdiyi nailiyyətlərə görə o, bir neçə xarici ölkə akademiyasına üzv seçilmişdir.

Akademik Əhliman Əmiraslanov Azərbaycanda dayaq-hərəkət aparatı onkologiyasının əsasını qoymuş, bu sahə üzrə elmi məktəb yaratmışdır. Tibdə əldə etdiyi nailiyyətlərə görə o, 1986-cı ildə SSRİ Dövlət mükafatına layiq görülmüşdür.

Ali məktəblərdə elmi-pedaqoji kadrların ixtisasının artırılmasına da böyük diqqət yetirilirdi. 1967-ci ilin sentyabrında Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetində riyaziyyat, fizika, kimya üzrə ali məktəb müəllimlərinin ixtisasartırma fakültəsi açılmışdı. 1967-ci ildən 1970-ci ilə kimi burada 216 nəfər ixtisasını artırmışdı. Bununla yanaşı, 1967-ci ildən başlayaraq respublika ali məktəblərinin müəllimləri ixtisasartırma məqsədilə SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə göndərilirdi.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev respublikadan kənarda təhsil almağa göndərilən tələbələrlə görüşdə*




*Azərbaycandan kənara təhsil almağa göndərilən tələbələr. 1975-ci il*



**Danil Quliyev (1923–2001)**

**Quliyev Danil Piri oğlu** Bakının Əmircan kəndində anadan olmuşdur. Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda baş elmi işçi (1956–1959), Bakı Ali Partiya məktəbində Sov.İKP tarixi kafedrasının baş müəllimi və müdiri, həmin ali məktəbin direktoru (1961–1970), Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili naziri (1970–1971), Azərbaycan KP MK katibi (1971–1976), 1976-cı ildən Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunun direktoru vəzifələrində işləmişdir.

Azərbaycan KP MK-nın avqust (1969) plenumunda Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev digər məsələlərlə yanaşı, ali təhsil müəssisələrində mənəvi iqlimin sağlamlaşdırılması və neqativ halların aradan qaldırılması yollarının geniş təhlilini verdi. Plenumun qərarında Ali və Orta İxtisas Təhsili Nazirliyinin və ali məktəb rektorlarının qarşısında ali təhsil müəssisələrinin fəaliyyətinin köklü şəkildə yenidən qurulması kimi ciddi və təxirəsalınmaz vəzifələr qoyuldu. Ali təhsilin inkişafının əsas istiqamətləri müəyyənləşdirildi.

1970-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili naziri vəzifəsinə **Danil Quliyev,** 1971-ci ildə isə **Qurban Əliyev** təyin olundu.

1971–1975-ci illər üçün Azərbaycanın xalq təsərrüfatının inkişaf planında respublikanın iqtisadiyyat və mədəniyyət sahələri üçün 85900 ali təhsilli mütəxəssis hazırlanması nəzərdə tutulmuşdu. Bu da 1966–1970-ci illərdəkindən 33400 nəfər çox idi.

*1960–1971-ci illərdə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyində olan ali məktəblərdə təhsil alan tələbələrin sayı (min nəfərlə)*

| № | Ali məktəblər | 1960/61-ci tədris ili | | 1970/71-ci tədris ili | |
|---|---|---|---|---|---|
| | | Tələbələrin sayı | O cümlədən istehsalatdan ayrılmaqla | Tələbələrin sayı | O cümlədən istehsalatdan ayrılmaqla |
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti | 8748 | 5353 | 11466 | 4826 |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu | 6084 | 3653 | 15940 | 10439 |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 3385 | 1697 | 19523 | 11623 |
| 4. | D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu | – | – | 9114 | 5994 |
| 5. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu | 5741 | 3046 | 14093 | 6743 |
| 6. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu | 3527 | 378 | 7402 | 2720 |
| 7. | H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnstitutu | 1026 | 114 | 6767 | 3826 |
| 8. | Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası | 396 | 133 | 845 | 416 |
| 9. | M.Əliyev adına Azərbaycan İncəsənət İnstitutu | 135 | 20 | 993 | 637 |
| Cəmi: | | 29042 | 14394 | 86143 | 47224 |



**Qurban Əliyev (1921–2008)**

**Əliyev Qurban Həsən oğlu** Rusiya Federasiyasının Zabaykalye vilayətinin Çita şəhərində anadan olmuşdur. N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə və profilaktika fakültəsini bitirmişdir (1946). Əmək fəaliyyətinə Xızı rayonunda başlamışdır. Tibb İşçiləri Həmkarlar İttifaqı Təşkilatının Respublika Komitəsində şöbə müdiri, məsul katib və sədr vəzifələrində işləmişdir (1948–1961). 1949-cu ildən etibarən səmərəli elmi və pedaqoji fəaliyyətlə məşğul olmuş, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır (1959). Bakı şəhər 26 Bakı Komissarı (indiki Səbail) adına Rayon Partiya Komitəsinin birinci katibi (1961–1971), Azərbaycan Respublikasının Ali və Orta İxtisas Təhsili naziri, Azərbaycan Tibb Universitetinin professoru vəzifələrində çalışmışdır (1971–1987).

Sov.İKP-nin üç, Azərbaycan KP-nin dörd qurultayına nümayəndə və altı çağırış Azərbaycan Ali Sovetinə deputat seçilmişdir.

Sonralar ali məktəb işçilərinin respublika müşavirəsindəki (1980-ci il 28 may) nitqində ulu öndər Heydər Əliyev həmin dövrdə görülmüş işləri xatırlayaraq demişdi: *«Biz nöqsanları düzəltməyə, onları aradan qaldırmaq uğrunda mübarizə aparmağa başladıqda ilk addımlar sırasında diqqətimizi və səylərimizi ali məktəb ətrafında cəmləşdirdik ki, ən əvvəl ali məktəblərin fəaliyyətini mümkün qədər tez sağlamlaşdıraq, ... biz ən əvvəl ali məktəblərdə qəbul imtahanlarını qaydaya salmağa başladıq. Açığını deyim ki, bununla məşğul olduqda bir çox əyintilər və biabırçılıqlar aşkara çıxartdıq. Qəbul imtahanlarında maksimum obyektivliyə, ədalətə nail olmaq, ən yaxşı gəncləri seçib ali məktəblərə qəbul etmək üçün əsl mənada müsabiqə olmasını təmin etmək vəzifəsini qarşıya qoyduq. Biz ali məktəblərin kollektivlərini, professor-müəllim heyətini vəzifəsinə layiq olmayan, lazımi biliyi və mənəvi keyfiyyətləri olmayan adamlardan, ən başlıcası isə bizə yabançı əhvali-ruhiyyə ilə zəhərlənmiş adamlardan təmizləmək üçün böyük işlər görməyə başladıq».*

Heydər Əliyevin gərgin əməyi və ciddi səyləri nəticəsində qısa bir vaxt ərzində ali məktəblərə qəbul zamanı bilik yeganə meyara çevrildi. Qəbulda aşkarlıq, qəbul imtahanlarında texniki vasitələrdən (radio, televiziya, müxtəlif elektron-hesablama maşınları) istifadə təmin olundu.

Ali məktəblərdə mütəxəssis hazırlığı xeyli genişləndi. Pedaqoji, kənd təsərrüfatı və tibb təhsilinin yaxşılaşdırılmasında və inkişafında böyük nailiyyətlər əldə edildi.

1971–1975-ci illərdə 4 yeni ali məktəb yaradılmışdı–**SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** (1972), **Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu** (1972), **Xankəndi Dövlət Pedaqoji İnstitutu** (1973), **Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** (1975).

1975-ci ilin aprelində 5 ali məktəbdə: Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universitetində, Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda, Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunda, Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda, Mirzə Fətəli Axundov adına Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda ali məktəbə qəbul olmaq istəyənlər üçün axşam lektoriyaları fəaliyyət göstərirdi.

1975/76-cı tədris ilində 13 ali məktəbdə hazırlıq şöbəsi var idi. Bu şöbələrdə 1854 dinləyici

təhsil alırdı. Həmin il 1533 dinləyici buraxılış imtahanlarını müvəffəqiyyətlə verərək tələbə adını aldı.

Həmin dövrdə ali təhsil müəssisələri və onlarda təhsil alan tələbə kontingenti barədə məlumat aşağıdakı cədvəldə verilmişdir:

*1971–1976-cı illərdə respublikada fəaliyyət göstərən ali məktəblərin sayı və onların tələbə kontingenti*

| Tədris illəri | Ali məktəblərin sayı | Tələbələrin sayı (min nəfərlə) | O cümlədən | | | 1000 nəfərə düşən tələbələrin sayı |
|---|---|---|---|---|---|---|
| | | | Əyani | Axşam | Qiyabi | |
| 1971/72 | 13 | 100.100 | 48.400 | 16.900 | 38.800 | 188 |
| 1972/73 | 14 | 99.400 | 51.500 | 16.200 | 31.700 | 183 |
| 1973/74 | 15 | 98.700 | 53.000 | 16.000 | 29.700 | 179 |
| 1974/75 | 16 | 97.700 | 52.700 | 15.800 | 29.200 | 174 |
| 1975/76 | 17 | 99.000 | 53.200 | 16.700 | 29.100 | 173 |

1971–1975-ci illərdə respublikada ali təhsilli mütəxəssislərə tələbatın öyrənilməsi nəticəsində bir sıra yeni ixtisaslar («Avtomatlaşdırılmış idarəetmə sistemləri», «Tətbiqi riyaziyyat», «Yarımkeçiricilər və dielektriklər», «Çoxkanallı elektrik rabitəsi», «Maddi-texniki təchizatın iqtisadiyyatı», «Meşə mühəndisliyi və ağac emalı texnologiyası», «Tətbiqi geodeziya», «Dekorativ-tətbiqi incəsənət», «Təsviri incəsənət və rəsmxət») üzrə mütəxəssis hazırlığına başlandı. Təsnifata «Fiziki elektronika», «Kartoqrafiya», «Entomologiya və mikrobiologiya», «Qiymət və qiymətləndirmənin planlaşdırılması» ixtisasları əlavə olundu.

Kiçik komplektli kənd orta məktəblərini kadrlarla təmin etmək məqsədilə pedaqoji ali məktəblərdə bir sıra ixtisaslar üzrə iki profilli («Biologiya, əlavə kimya», «Kimya, əlavə biologiya», «Ümumi texniki fənlər və əmək, əlavə fizika», «Rəsmxət və təsviri incəsənət, əlavə əmək») müəllim hazırlığına başlanıldı. Yeni ixtisaslar üzrə hazırlıq, əsasən, əyani formada həyata keçirilirdi. 1975-ci ildə ali təhsil müəssisələrində mütəxəssis buraxılışı 15900 nəfərə çatdı. Bu illərdə əyani şöbədə təhsil alanların sayı 7,7% artmışdı.

Ali məktəblərə qəbul olanların 40%-dən çoxunu qadınlar təşkil edirdi.

1975-ci ildə respublikanın ümumtəhsil məktəbləri üçün müəllim hazırlığına böyük diqqət yetirilirdi. Əgər 1971–1975-ci illərdə SSRİ-nin ali məktəblərində müəllim hazırlığı 2% azalmışdısa, Azərbaycanda əksinə, 2420 nəfər artmışdı.

*1971–1975-ci illərdə respublikada ali təhsilli mütəxəssis hazırlığı*

| Tədris illəri | 1971 | 1972 | 1973 | 1974 | 1975 | Cəmi |
|---|---|---|---|---|---|---|
| Ali təhsil müəssisələrində buraxılış (min nəfərlə) | 42,8 | 47,7 | 46,6 | 46,9 | 43,9 | 224,9 |
| O cümlədən: | | | | | | |
| əyani | 7.800 | 8,200 | 9.300 | 10,500 | 10,100 | 45,900 |
| axşam | 2,600 | 2,800 | 2,600 | 2,200 | 2,000 | 12.200 |
| qiyabi | 4,400 | 4,700 | 4,700 | 4.200 | 3,800 | 21.800 |
| Əhalinin hər 10000 nəfərinə düşən məzunların sayı | 28 | 29 | 30 | 30 | 28 | 145 |

*1971–1975-ci illərdə respublikanın ali məktəblərinə qəbul olunanların arasında qadınların sayı*

| № | Tədris illəri | 1971/72 | 1972/73 | 1973/74 | 1974/75 | 1975/76 |
|---|---|---|---|---|---|---|
| 1. | Ali məktəblərdə təhsil alan qadınlar | 37.6 | 38.9 | 40.9 | 40.8 | 40.7 |
| 2. | Ali təhsil müəssisələrinin tərkibində qadınlar (%-lə) | 38 | 39 | 41 | 42 | 41 |
| | **O cümlədən sahələr üzrə** | | | | | |
| 3. | Sənaye və tikinti | 26 | 27 | 27 | 26 | 25 |
| 4. | Kənd təsərrüfatı | 11 | 13 | 14 | 15 | 14 |
| 5. | İqtisadiyyat və hüquq | 25 | 28 | 29 | 30 | 30 |
| 6. | Səhiyyə, bədən tərbiyəsi və idman | 45 | 45 | 47 | 48 | 43 |
| 7. | Maarif və incəsənət | 51 | 53 | 57 | 57 | 59 |

*1971–1975-ci illərdə respublikada müxtəlif sahələr üzrə ali təhsilli mütəxəssis hazırlığı haqqında məlumat*

| İllər | Məzunların sayı | O cümlədən ali məktəbi bitirənlər (sahələr üzrə) | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Sənaye və tikinti | Kənd təsərrüfatı | İqtisadiyyat və hüquq | Səhiyyə və idman | Maarif | İncəsənət | Nəqliyyat və rabitə |
| 1971 | 14846 | 4474 | 1145 | 1297 | 1055 | 6536 | 339 | - |
| 1972 | 15728 | 4297 | 1084 | 1701 | 1265 | 6971 | 410 | - |
| 1973 | 16622 | 4347 | 1001 | 1694 | 1476 | 7763 | 341 | - |
| 1974 | 16928 | 4036 | 883 | 1778 | 1444 | 8429 | 358 | - |
| 1975 | 15935 | 3871 | 902 | 1789 | 1514 | 7491 | 330 | 38 |

70-ci illərdə Azərbaycanın ali məktəbləri böyük inkişaf yoluna qədəm qoydu, 6 ali məktəb, o cümlədən Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu (1970), Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Universiteti (1971), Vladimir İliç Lenin adına Azərbaycan Pedaqoji İnstitutu (1972), Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası (1972), Səmədağa Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutu (1979), Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutu (1980) Heydər Əliyevin şəxsi təşəbbüsü ilə SSRİ-nin yüksək ordenlərinə layiq görüldü, bir çox ali məktəb işçisi dövlət mükafatları ilə təltif olundu.

Respublikanın ali məktəblərində çalışan alimlərin ixtiralarına alınan müəlliflik şəhadətnamələrinin sayı durmadan artırdı: doqquzuncu beşillik ərzində bunların sayı 306, yəni orta hesabla ildə 61, 1976–1979-cu illərdə isə 516, yəni orta hesabla ildə 129 olmuşdur. Bir sıra ixtiralar xarici ölkələrdə də patentlənmişdir. Məsələn, 1977-ci ildə «Suyun duzsuzlaşmasının ləngidilməsi sistemi» və «Buxarlandırıcı» adlı ixtiralar İtaliyada, İspaniyada, Fransada, Yaponiyada, Venesuelada, «Daxili yanma mühərrikinin iş üsulu» ixtirası isə ABŞ-da, İngiltərədə, Fransada, İtaliyada, AFR-də patentlənmişdir.

Ali məktəblərdə aparılan elmi-tədqiqat işinin miqyasının və nəticələrinin durmadan artması çoxsaylı monoqrafiyalarda, əsərlərdə, məqalələrdə, dərsliklərdə, dərs vəsaitlərində və getdikcə artan digər nəşrlərdə öz ifadəsini tapırdı. Respublikanın bir sıra ali məktəblərində nəşriyyat şöbələri yaradılmışdı. Bu şöbələrin fəaliyyət miqyası ildən-ilə genişlənirdi.

Azərbaycan alimlərinin əsərləri təkcə yerli nəşriyyatlar tərəfindən deyil, həm də ümumittifaq nəşriyyatları tərəfindən dərc olunur və onlardan bütün ölkənin müvafiq ali məktəblərində istifadə edilirdi. Məsələn, ADU-nun professoru Məcid Rəsulovun «Kontur inteqralı

metodunun tətbiqi» adlı monoqrafiyası SSRİ Elmlər Akademiyasının «Наука» nəşriyyatı tərəfindən buraxılmış və mexanika-riyaziyyat, fizika fakültələrinin yuxarı kurs tələbələrinin, aspirantların və elmi işçilərin istifadəsi üçün nəzərdə tutulmuşdu. ADU-nun professoru Yusif Əmənzadənin SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən universitetlərin tələbələri üçün dərslik kimi tövsiyə edilmiş «Elastiklik nəzəriyyəsi» kitabı «Высшая школа» nəşriyyatında buraxılmışdı. ADU-nun professoru Niftalı Qocayevin ali məktəblərin fizika ixtisasları üçün «Optika» adlı dərs vəsaiti yenə də həmin nəşriyyatda hazırlanmışdı. Akademik Murtuza Nağıyevin «Əks-əlaqəli kimyəvi sistemlər haqqında etüdlər» adlı monoqrafiyası Moskvanın «Наука» nəşriyyatı tərəfindən çap edilmişdi. ADU-nun dosenti Vahid Ağayevin «Biostratiqrafiya və onun praktik əhəmiyyəti» adlı kitabı mərkəzi nəşriyyatlardan biri olan «Недра» tərəfindən buraxılmışdı. «Мысль» nəşriyyatında buraxılan «Çoxmillətli sovet jurnalistikası» monoqrafiyasının müəlliflərindən biri dosent Şirməmməd Hüseynov idi. «Высшая школа» nəşriyyatı tərəfindən buraxılmış və ali məktəblərin iqtisad ixtisasları üçün nəzərdə tutulmuş «SSRİ-nin və xarici ölkələrin iqtisadi tarixi» dərsliyinin müəlliflərindən biri professor Teymur Vəliyev idi. Ümumittifaq nəşriyyatları tərəfindən buraxılmış kitablar arasında Azərbaycan alimlərindən Azad Mirzəcanzadənin, Tofiq Əliyevin, Abduləli Mustafayevin, Kazım Quluzadənin (Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu) və başqalarının əsərləri də vardır.

1980-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə «Azərbaycan SSR Əməkdar ali məktəb işçisi» fəxri adı təsis edildi. Bütün bu tədbirlər tezliklə ali məktəb həyatında mənəvi-psixoloji iqlimi kökündən dəyişdirdi, ali təhsildə mütəxəssislərin nəzəri və praktik hazırlığının keyfiyyətinin yüksəldilməsi istiqamətində keyfiyyət dəyişikliklərinə gətirib çıxardı. Bu illər ali məktəblərin elmi cəhətdən əsaslandırılmış yeni tədris plan və proqramları, dərslik və dərs vəsaitləri ilə təmin olunması və onların maddi-texniki bazasının möhkəmləndirilməsi ilə xarakterizə olunur. Həmin illərdə respublikanın xalq təsərrüfatı üçün mütəxəssis hazırlığı üzrə ixtisasların sayının artması davam etdirildi.

1976–1980-ci illərdə ali təhsil müəssisələrini 86300 nəfər mütəxəssis bitirmişdi. İstehsalatdan ayrılmadan təhsil alan məzunların xüsusi çəkisi 33600 nəfər, yaxud müvafiq illərdə məzun olmuş şəxslərin 39,0%-ni təşkil edirdi. Həmin illərdə Azərbaycanın ali məktəblərində 40 millətin nümayəndəsi təhsil alırdı.

*1960–1981-ci illərdə Azərbaycanın ali məktəblərində təhsil alan tələbələrin milli tərkibi*

| № | Tələbələrin milli tərkibi | 1960/61-ci tədris ili | | 1980/81-ci tədris ili | |
|---|---|---|---|---|---|
| | | Cəmi tələbələr | Ümumi məktəblərin sayına görə %-lə | Cəmi tələbələr | Ümumi məktəblərin sayına görə %-lə |
| 1. | azərbaycanlılar | 25509 | 70.8 | 87211 | 81.5 |
| 2. | ruslar | 5311 | 14.7 | 8895 | 8.3 |
| 3. | ermənilər | 2915 | 8.1 | 6462 | 6.0 |
| 4. | yəhudilər | 906 | 2.5 | 1043 | 1.0 |
| 5. | Dağıstan xalqları | 395 | 1.1 | 1779 | 1.7 |
| 6. | ukraynalılar | 279 | 0.8 | 421 | 0.4 |
| 7. | tatarlar | 185 | 0.5 | 428 | 0.4 |
| 8. | gürcülər | 166 | 0.5 | 332 | 0.3 |
| 9. | digər millətlər | 354 | 1.0 | 453 | 0.4 |
| **Cəmi:** | | **36020** | **100** | **107024** | **100** |

*70-ci illərdə Azərbaycanda fəaliyyət göstərən ali təhsil müəssisələri*

| № | Ali məktəbin adı |
|---|---|
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu |
| 4. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu |
| 5. | D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu |
| 6. | N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu |
| 7. | S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu |
| 8. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu |
| 9. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu |
| 10. | SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu |
| 11. | Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası |
| 12. | M.Əliyev adına Azərbaycan İncəsənət İnstitutu |
| 13. | S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |
| 14. | H.Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu |
| 15. | Bakı Ali Partiya Məktəbi |
| 16. | Xankəndi Dövlət Pedaqoji İnstitutu |
| 17. | Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu |
| 18. | Sumqayıt Ali Texniki Təhsil Məktəbi |
| 19. | S.M.Kirov adına Xəzər Ali Hərbi Dənizçilik Məktəbi |
| 20. | Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirlər Məktəbi |

70-ci illərdə və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində böyük işlər görüldü. Ali məktəblər üçün yeni tədris korpusları, yataqxana kompleksləri tikildi.

Azərbaycanda ali təhsilin inkişafının 70–80-ci illər mərhələsi ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Məhz o, 70–80-ci illərdə keçmiş SSRİ-nin 50-dən artıq böyük şəhərinin 170-dən çox ən məşhur ali məktəbində respublikamız üçün zəruri ehtiyac duyulan 250-dən çox ixtisas üzrə 15 mindən artıq azərbaycanlı gəncin ali təhsil almasına, yüksəkixtisaslı mütəxəssis kimi hazırlanmasına imkan və şərait yaratdı.

O illərdə görülən işlərin millətin mənəvi təkamülündəki rolunu, dövlətçilik baxımından miqyasını, mahiyyətini və perspektivlərini dərk etmək üçün bəzi statistik məlumatları yada salmaq yerinə düşərdi.

1969/70-ci tədris ilində respublikadan kənara 60 nəfərlik plana qarşı cəmi 47 nəfər təhsil almağa göndərilmişdisə, 1978-ci ildən başlayaraq respublikadan kənara hər il 800–900 tələbə göndərilməsinə nail olundu.

1969/70-ci tədris ilində ölkədən xaricdə təhsil alanların 40%-i azərbaycanlı idisə, 70–80-ci illərdə bu rəqəm 97,6%-ə çatmışdı.

70-ci illərin sonundan başlayaraq hər il 800–900 nəfər, 80-ci illərin əvvəllərindən isə hər il 1000–1400 nəfərə qədər gənc Azərbaycandan kənara təhsil almağa göndərilirdi. Sanki respublikada mövcud olan ali məktəblərdən əlavə, simvolik bir ali məktəb də fəaliyyət göstərirdi. Ulu öndərimiz Heydər Əliyevin 70-ci illərdə əsasını qoyduğu bu rəmzi ali məktəb Azərbaycan üçün 15 mindən artıq mütəxəssis hazırlamışdır.

Ulu öndər hələ o dövrdə məruzə, nitq və çıxışlarında ölkəmizin gənclərinin müstəqil

dövlət sahibi, öz taleyinin sahibi olmaq hissinə yiyələnməsi ideyasını irəli sürürdü. O, müstəqil Azərbaycanın gələcəyi, milli müstəqilliyimizin taleyi üçün belə insanların yetişdirilməsini zəruri hesab edirdi. 1975-ci ilin avqustunda Azərbaycandan kənarda təhsil almağa göndərilən tələbələrlə görüşü zamanı etdiyi çıxışında Heydər Əliyev deyirdi: «*...İxtisasa yiyələnmək, zəngin bilik qazanmaq, seçdiyiniz ali məktəbi qurtarmaq asan iş deyildir. Bunun üçün böyük səy, çalışqanlıq, dözüm, səbir və iradə lazım olacaqdır. Biliklərə mükəmməl yiyələnmək sizin əsas vəzifənizdir.*

*Yeniliyi dərindən mənimsəmək, yaradıcılıqla düşünməyi bacarmaq, özünə çalışqanlıq, axtarış bacarığı, tədqiqat məharəti aşılamaq lazımdır. Bilik pilləkəni ilə yorulmadan və qətiyyətlə yuxarı qalxmaq gərəkdir, tələbəlik həyatının hər günü bu pilləkənin bir pilləsi olmalıdır. Getdikcə zənginləşən bilik xəzinəsindən, geniş elmi məlumat axınından baş çıxarmağı öyrənməlisiniz, bir sözlə, sabahkı günün mürəkkəb məsələlərini həll edə bilən yaxşı mütəxəssis olmalısınız.*

*Bir çoxunuz gələcəkdə istehsalat rəhbəri və təşkilatçı olacaq, əmək kollektivlərinə başçılıq edəcəksiniz. Bu mühüm və məsul işə hazır olmaq üçün iqtisadiyyatı, əməyin təşkili prinsiplərini yaxşı öyrənmək, kollektiv təcrübəni qiymətləndirməyi, başqalarının rəyinə qulaq asmağı, tənqiddən qorxmamağı, öz işinə tənqidi yanaşmağı bacarmaq lazımdır. Tələbəlik illərindən bu keyfiyyətləri özünüzə aşılayın, məsuliyyətə və ciddi intizama özünüzü alışdırın... Sabahkı gün sizə yeni, yüksək tələblər verəcəkdir. Əgər mütəxəssis, həqiqətən, yaradıcı şəxsiyyətdirsə, o, sadəcə olaraq, zamanla ayaqlaşmaq deyil, həmişə zamanı bir qədər qabaqlamalıdır. Bu isə o deməkdir ki, daim öyrənmək lazımdır, buna görə də bilik, bacarıq, vərdiş bünövrəsi möhkəm olmalıdır. Siz tələbəlik illərində bu bünövrəni nə qədər möhkəm, nə qədər davamlı qoysanız, vətənə, respublikamıza bir o qədər çox fayda verərsiniz, həyatınız bir o qədər məzmunlu və gözəl, cəmiyyətin inkişafına köməyiniz bir o qədər sanballı olar.*

*Biz sizi ali məktəblərə ümidlə göndərir və yolunuzu, səmərəli, ciddi əmək fəaliyyətinizi ümidlə gözləyirik. İqtisadi və mədəni quruculuq sürəti də, gələcəkdə respublikamızın ictimai həyatının səviyyəsi də nəticə etibarı ilə sizdən, gənclərin bütün indiki nəslindən, onların bacarığından, qabiliyyətindən, biliyindən asılı olacaqdır» (bax: Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, «Təhsil», 2002, səh.66–67).*

O illəri çox yaxşı xatırlayıram. Azərbaycanlı gənclərin SSRİ-nin nüfuzlu mülki və hərbi ali məktəblərində təhsil almasına çox ciddi və məsuliyyətlə yanaşılırdı. Hər il dərs ilinin başlanmasına bir neçə gün qalmış, indiki Heydər Əliyev Sarayında onların rəsmi yolasalma mərasimi keçirilirdi, bu tədbirdə o dövrdə ölkəyə rəhbərlik edənlərin hamısı, o cümlədən Heydər Əliyevin özü şəxsən iştirak edirdi. Bundan əlavə, SSRİ-nin paytaxtı Moskva şəhərində müxtəlif tədbirlərdə olarkən Ulu öndər həmişə orada təhsil alan azərbaycanlı tələbələrlə görüşür, onların problemləri ilə yaxından tanış olurdu. Hər il ali məktəblərə qəbul ərəfəsində xaricdə təhsil üzrə qəbul planı təsdiq olunurdu və ali məktəblərin rektorları bu planın yerinə yetirilməsi üçün məsuliyyət daşıyırdılar, təhsil almağa gedənlərin xüsusi

*Azərbaycandan SSRİ-nin ali təhsil müəssisələrinə göndərilənlər*

| № | Ali təhsil müəssisələri | İllər | | |
|---|---|---|---|---|
| | | 1983 | 1984 | 1985 |
| | **SSRİ-nin ali təhsil müəssisələrinin I kursuna** | | | |
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti | 153 | 139 | 118 |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu | 207 | 227 | 219 |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 199 | 194 | 203 |
| 4. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu | 94 | 91 | 93 |
| 5. | Azərbaycan Texnologiya İnstitutu | 32 | 34 | 34 |
| 6. | D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu | 14 | 13 | 13 |
| 7. | SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu | 2 | 2 | 2 |
| 8. | M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu | 15 | 15 | 17 |
| 9. | Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası | 1 | 2 | 2 |
| 10. | N.Nərimanov adına Azərbaycan Tibb İnstitutu | 2 | 2 | 2 |
| 11. | S.M.Kirov adına Azərbaycan Dövlət İdman və Bədən Tərbiyəsi İnstitutu | 1 | 2 | 2 |
| | **Kooperasiya yolu ilə** | | | |
| 1. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu | 10 | 10 | 10 |
| 2. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 5 | 5 | – |
| | **SSRİ-nin ali təhsil müəssisələrinin yuxarı kurslarına** | | | |
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti | 19 | 19 | 19 |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu | 11 | 11 | 11 |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 6 | 6 | 6 |
| 4. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu | 7 | 7 | 7 |
| 5. | D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu | 10 | 9 | 10 |
| 6. | Azərbaycan Texnologiya İnstitutu | 1 | – | 1 |
| | **SSRİ-nin ali təhsil müəssisələrinin hazırlıq kurslarına** | | | |
| 1. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu | 21 | 21 | 19 |
| 2. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 27 | 27 | 28 |
| 3. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu | 8 | 8 | 8 |
| | **Cəmi** | **845** | **844** | **824** |

*Bax: Azərbaycan Təhsil Nazirliyinin arxivi. Fond 2672, siyahı 3, iş 349*

istedada malik olması və onların sırasında azərbaycanlıların çoxluq təşkil etməsi daim diqqət mərkəzində idi. Bu hadisələri ona görə dəqiqliyi ilə xatırlayıram ki, 1984–1985-ci illərdə Azərbaycan Dövlət Universitetində xaricdə təhsillə bağlı məsələlərə görə mən məsuliyyət daşıyırdım.

O da yaxşı yadımdadır ki, mən 1998-ci ildə ölkənin təhsil naziri vəzifəsinə təyin olunduqdan sonra indiki Hökumət evinin 7-ci mərtəbəsində, o dövrdə ölkənin Ali və Orta İxtisas Təhsili naziri vəzifəsində çalışan Qurban Əliyevlə görüşdüm. Qurban Əliyev bu vəzifəyə 1971-ci ildə təyin olunmuşdu. Fəaliyyətinin xeyli hissəsi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf etmişdi. Söhbət zamanı Qurban Əliyev dedi ki, hər il avqust ayının ikinci yarısında Heydər Əliyev məni Moskvaya, SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinə göndərirdi və deyirdi ki, Vyaçeslav Petroviç Yelyutinlə (o zaman SSRİ-nin Ali və Orta İxtisas Təhsili naziri) danışmışam, başqa respublikalardan boş qalan yerləri bizə verəcək, bu işin üstündə dayanmaq və yerlərin sayını mümkün qədər artırmaq lazımdır.

Bu vəziyyət mənə yaxşı tanış idi. Çünki mən özüm də bu diqqəti, qayğını şəxsən hiss etmişəm. Ulu öndər 1998-ci ilin mart ayının 25-də məni ölkənin təhsil naziri vəzifəsinə təyin edərkən təhsilin bütün problemləri ilə yanaşı, xaricdə təhsil məsələləri ilə də maraqlandı. Əlbəttə, onda artıq Azərbaycan müstəqil dövlət idi və bu məsələyə başqa müstəvidə yanaşmaq tələb olunurdu.

Həmin görüşdə Heydər Əliyev 70–80-ci illərdə Azərbaycandan kənarda onun bilavasitə təşkilatçılığı ilə təhsil alanların taleyi ilə də maraqlandı və mənə tapşırdı ki, onlar barədə geniş məlumat hazırlamaq və 1998-ci ilin yeni dərs ili ərəfəsində Respublika Sarayında (indiki Heydər Əliyev Sarayında) onlarla görüş keçirmək lazımdır.

31 avqust 1998-ci ildə Heydər Əliyevin iştirakı ilə həmin sarayda 1970–1987-ci illərdə Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısı keçirildi.

Bu tarixi görüşdə ümummilli lider Heydər Əliyevin çıxışından ən mühüm məqamları hörmətli oxucuların diqqətinə çatdırmağı özümə borc bilirəm. Həmin tarixi çıxışında Heydər Əliyev demişdi:

*«Əziz dostlar!*

*lar və cənablar!*

*Güman edirəm, bu görüş həm sizin üçün, həm də mənim üçün tarixi bir görüşdür. Biz çox illər bundan əvvəl bu möhtəşəm sarayda, salonda dəfələrlə görüşmüşük. Ancaq həmin görüşlər sonra kəsilmişdir və böyük fasilədən sonra biz bir daha görüşürük.*

*Mən çox həyəcanlıyam və eyni zamanda böyük sevinc hissi keçirirəm. Çünki bugünkü – 1998-ci ildəki toplantımız 1969-cu ildə Azərbaycanda ilk dəfə əsası qoyulmuş görüşlərin nəticəsidir. Mən həmin görüşlərin təşəbbüskarı, təşkilatçısı olmuşam. Bu görüşlər, o vaxt görülmüş həmin işlər barədə və bunların sizin hər birinizin taleyində oynadığı rol haqqında burada kifayət qədər deyildi. Mən ona görə sevinirəm ki, 29 il bundan əvvəl əsasını qoyduğum xeyirxah işin gözəl bəhrələrini görürəm.*

*Əziz dostlar, siz artıq böyümüş, kişi olmusunuz. Vaxtilə bu salona 16–17 yaşında daxil olmuş insanlar – siz ötən illərdə böyük həyat yolu keçmisiniz, formalaşmısınız, püxtələşmisiniz,*

*Azərbaycanın həyatının müxtəlif sahələrində fəaliyyət göstərirsiniz. Bunların hamısının əsası həmin illərdə qoyulubdur. Ona görə də mən sizin hər birinizin həyatında etdiyim xidmətin nəticəsini görərək bu gün sevinirəm, şadlanıram və iftixar hissi keçirirəm.*

*Mən sizi səmimi-qəlbdən salamlayıram, bu gözəl, məzmunlu görüş münasibətilə təbrik edirəm. Hər birinizə cansağlığı arzu edirəm və gələcək işlərinizdə böyük uğurlar diləyirəm. Mən 16 il bundan əvvəl – 1982-ci ilin avqust ayının ya 29-da, ya da 30-da bu salonda Azərbaycandan kənarda olan ali məktəblərə göndərilən gənclərlə son görüşü keçirmişdim. Bilirsiniz ki, mən ondan sonra Moskvaya işə dəvət olundum, orada çalışdım. Mənim həyatımın sonrakı səhifələri də sizə məlumdur. Nəhayət, 1993-cü ildə yenidən Bakıya gəldim. Son görüşümüzdən 16 il keçir. Düzü, mən belə görüşlər üçün çox darıxmışdım. Çünki o vaxt, o illərdə bu görüşlər artıq ənənəyə çevrilmişdi. Burada danışan gənc qızlardan biri dedi ki, Heydər Əliyev 1974-cü ildən başlayaraq respublikadan kənara gedən tələbələrlə görüşürdü. Yəqin, bir balaca dəqiqsizliyə yol verildi. Mən həmin tələbələrlə ilk dəfə 1969-cu ildə görüşmüşdüm. Ancaq ola bilər, bu səhvin də əsası vardır. Çünki mən 1969-cu ildə görüşərkən nə bu saray, nə bu salon var idi, nə də görüşmək üçün bu qədər adam var idi.*

*...Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. Araşdırmalar apararkən mənə aydın oldu ki, Azərbaycandan kənarda respublikanın özündə hazırlana bilməyən ixtisaslar üzrə ali təhsil almaq üçün respublikaya 50 nəfərlik limit verilib. Mən maraqlandım ki, bəs nə üçün bu qədər azdır? Çünki respublikamız geniş inkişaf yoluna başlamışdı və iqtisadiyyatımızın bir çox sahələrində mütəxəssislər çatışmırdı. Mənə məlumat verdilər ki, respublikamıza hər il 50 nəfərlik limit verirlər. Ona görə də biz bundan artıq bir şey edə bilmərik. Mən dərhal maraqlandım ki, siz kimləri seçmisiniz, kimləri oxumağa göndərirsiniz? Siyahını aldım, çox təəssüfləndim və bu məsələ ilə ciddi məşğul olmağın lazım gəldiyini bir daha dərk etdim. Çünki, birincisi, avqustun sonları idi, sentyabrın 1-də dərslər başlanmalı idi, amma hələ 50 nəfər toplaya bilməmişdilər. İkincisi, siyahıya baxanda gördüm ki, təyin olunmuş namizədlərin içərisində azərbaycanlılar azlıq təşkil edirlər, çoxluğu isə başqa millətlərdən olan gənclər təşkil edirlər. Yenə də maraqlandım ki, nə üçün belədir? Mənə məlumat verdilər ki, bilirsiniz, indi artıq Azərbaycanda ali məktəblər çoxdur, valideynlər öz övladlarını respublikadan kənara göndərmək istəmirlər. Ona görə də kim istəyirsə onu göndəririk. Beləliklə, milli tərkib bu cür olubdur. Həmin il, 1969-cu il avqustun sonunda mən ilk dəfə, sayı 50 nəfərdən az olan gənclərlə o vaxt işlədiyim iş yerimdəki kiçik bir salonda görüşdüm, danışdım, onlara öz tövsiyələrimi verdim. Ancaq bu, mənim üçün böyük bir siqnal oldu ki, bu işlə məşğul olmaq, həm də çox ciddi məşğul olmaq lazımdır.*

*...Nə üçün bununla çox ciddi məşğul olduq və nə üçün onunla bilavasitə Azərbaycanın birinci rəhbəri məşğul olurdu?*

*Yenə də deyirəm, birincisi, ona görə ki, bizə bir çox ixtisaslar üzrə mütəxəssislər lazım idi, onlar Azərbaycanın ali məktəblərində hazırlana*

*bilmirdi. İkincisi, şəxsən mən bu təşəbbüsü göstərərkən Azərbaycan gənclərini öz çərçivəsindən çıxıb dünyaya daha geniş baxış etmək yoluna salmaq istəyirdim.*

*...Bu gün burada çıxış edənlər və buraya toplaşanlar artıq bunu əyani surətdə sübut ediblər. Ona görə də mənim bunu sübut etməyimə ehtiyac yoxdur. Mən, sadəcə, bu məsələnin başlanğıcında bu təşəbbüs üçün olan əsasları, prinsipləri sizə bir daha çatdırıram.*

*...Mən bu işi başladım, genişləndirdim. Özüm də təsəvvür etmədən gördüm ki,* ***Azərbaycan üçün yeni bir ali məktəb*** *(kursiv bizimdir – M.M.) yaratmışıq. Bu nədən ibarətdir? 1969-cu ildə biz respublikadan kənara oxumağa heç 50 nəfər də göndərmədik. 1970-ci ildə 60 nəfər göndərdik. Ondan sonra bunu ilbəil artırdıq. Nəhayət, biz, 1975-ci ildə, gərək ki, 600 nəfər, 1977–1978-ci illərdə hər il 800–900 nəfər gənci respublikadan kənar ali məktəblərə göndərdik.*

*Ali təhsil sahəsində işləyənlər bilirlər – hər bir ali məktəbin illik qəbulu 700–800 nəfər olur. Beləliklə, əgər biz ildə 800–900 nəfər azərbaycanlı balasını o vaxtlar Sovetlər İttifaqının müxtəlif şəhərlərindəki ali məktəblərə göndərirdiksə, demək, biz Azərbaycan Dövlət Universitetinə olan qəbul qədər əlavə tələbə hazırlayırıq. Sonralar bunu Moskvada hiss etmişdilər. Onlar görmüşdülər ki, beləliklə, biz* ***Azərbaycanın ərazisində olmayan, ancaq respublikamız üçün kadr hazırlayan yeni bir ali məktəb*** *(kursiv bizimdir – M.M.) yaratmışıq. Burada doğru deyildi ki, buna çox qısqanclıqla yanaşırdılar. Doğrudur, biz bu işə çox vaxt sərf etdik. Amma bu gün elə bir gündür ki, hamı hər şeyi bilməlidir.*

*...1969-cu ildən 1982-ci ilin avqust ayına qədər bir il də olmayıb ki, mən tələbələrlə görüş keçirməyim. Məsələn, o vaxt Moskvada MXAT teatrının binasında keçirdiyimiz görüş barədə burada kiçik bir kinoxronika verdilər. Mən onu xatırladım. Bəli, o vaxtlar mən Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində tələbələrlə bir neçə dəfə görüşmüşdüm. Ancaq onların sayı artdı, daimi nümayəndəlikdə görüş keçirmək imkanı olmadı. Biz danışıb Moskvada MXAT teatrını götürdük. Tələbələr oraya toplaşdılar. Mən oraya getdim. Ölkənin çox yüksək vəzifəli şəxsləri – SSRİ-nin təhsil naziri və yüksək vəzifəli başqa şəxslər də oraya gəldilər.*

*...Mən sizə dedim ki, 1969-cu ildə respublikadan kənara oxumağa göndərilənlərin siyahısına baxanda gördüm ki, onların əksəriyyəti azərbaycanlı deyildir... O vaxt mən 2–3 ildən sonra hər il respublikadan kənara oxumağa göndərilənlərin 97–98%-nin azərbaycanlılardan ibarət olmasına nail oldum.*

*... O vaxt mən inanırdım: vaxt gələcək ki, bu kadrlar Azərbaycana lazım olacaqdır. Vaxt gələcəkdir ki, nəhayət, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəkdir» (bax: Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı, «Təhsil», 2002, səh. 391–409).*

Təəssüf ki, 80-ci illərin ikinci yarısından ölkədə yenidənqurma siyasətinə başladıqdan sonra bu tarixi missiyaya münasibət dəyişdi. 90-cı illərin əvvəllərində isə tamamilə unuduldu.

70–80-ci illərdə Azərbaycanın ali məktəblərində təhsil alan əcnəbi vətəndaşların sayı da artdı və onların əhatə etdiyi ixtisasların coğrafiyası genişləndirildi. Əgər 1971-ci ildə

respublikanın ali məktəblərində 43 ölkədən 943 əcnəbi tələbə oxuyurdusa, 1979-cu ildə 70 ölkədən 1915 tələbə təhsil alırdı.

Heydər Əliyevin səyləri nəticəsində hərbi ali təhsildə də ciddi irəliləyişlər oldu. Ulu öndərin qayğısı ilə 1972-ci ildən etibarən hər il 300–400 nəfər gənc keçmiş SSRİ-nin ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. Sonralar müstəqil Azərbaycanın ordu quruculuğu və milli hərbi sistemi formalaşan zaman 70–80-ci illərdə yaradılan hərbi baza məktəblərində və respublikadan kənarda təhsil almış milli kadrlardan istifadə olundu. Bu da Ulu öndərin uzaqgörənliyi və Azərbaycan qarşısında göstərdiyi böyük xidmətlərdən biri idi.

Heydər Əliyevin 70–80-ci illərdə Azərbaycanda ali təhsilin inkişafı yolundakı böyük xidmətlərindən biri də bir sıra yeni ali təhsil ocaqlarının yaradılması idi. 1981-ci ildə Gəncədə **Azərbaycan Texnologiya İnstitutu** yaradıldı. Ali məktəblərdə çoxlu sayda yeni ixtisaslar, kafedralar və problem elmi-tədqiqat laboratoriyaları açıldı. Məhz Heydər Əliyevin təşəbbüsü ilə SSRİ Nazirlər Soveti tərəfindən bilavasitə Azərbaycanla bağlı qəbul olunmuş 5 xüsusi qərar respublika iqtisadiyyatında uzun illər ərzində yol verilmiş nöqsanların aradan qaldırılmasına, kənd təsərrüfatının müxtəlif sahələri üzrə yüksəkixtisaslı mütəxəssislərin hazırlanması işinə, məhsuldar qüvvələrin yüksək inkişaf tempinin təmin olunmasına, elmi-texniki tərəqqinin gücləndirilməsinə, əmək adamlarının həyat şəraitinin, mədəni və təhsil səviyyəsinin yüksəldilməsinə təkan verdi.

1970-ci ildə ali məktəblərdə müxtəlif elm sahələri üzrə elmi işçilərin sayı 5023 nəfər olduğu halda, 1980-ci ildə bu göstərici 7156 nəfər təşkil edirdi. Bununla yanaşı, elmi-pedaqoji kadrların keyfiyyət göstəriciləri də yaxşılaşmışdı. Ölkə üzrə elmlər namizədlərinin sayı 1970-ci ildə 1588 nəfər idisə, 1980-ci ildə onların 2762 nəfərə, elmlər doktorlarının sayı isə 221-dən 272-yə çatmışdı.

*70–80-ci illərdə respublikanın ali məktəblərində elmi kadr hazırlığı haqqında məlumat*

| № | Elm sahələri | İşçilərin ümumi sayı | | O cümlədən | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | Elmlər doktoru | | Elmlər namizədi | |
| | | 1970 | 1980 | 1970 | 1980 | 1970 | 1980 |
| 1. | Fizika-riyaziyyat | 624 | 1015 | 18 | 42 | 254 | 519 |
| 2. | Kimya | 293 | 485 | 13 | 16 | 116 | 240 |
| 3. | Biologiya | 125 | 179 | 14 | 16 | 60 | 85 |
| 4. | Geologiya-mineralogiya | 104 | 125 | 13 | 19 | 54 | 57 |
| 5. | Texniki | 1134 | 1549 | 25 | 57 | 356 | 678 |
| 6. | Kənd təsərrüfatı | 22 | 17 | 1 | 3 | 12 | 16 |
| 7. | Tarix | 226 | 329 | 20 | 34 | 134 | 155 |
| 8. | İqtisadiyyat | 313 | 467 | 54 | 21 | 117 | 228 |
| 9. | Fəlsəfə | 158 | 280 | 7 | 21 | 91 | 153 |
| 10. | Filologiya | 897 | 1361 | 22 | 58 | 195 | 345 |
| 11. | Psixologiya | 37 | 62 | 1 | 3 | 14 | 25 |
| 12. | Tibb | 5 | 15 | – | – | 2 | 3 |
| 13. | Baytarlıq | – | 2 | – | – | – | 2 |
| 14. | İncəsənət | 299 | 332 | – | 2 | 12 | 39 |
| 15. | Memarlıq | 28 | 40 | 2 | 3 | 5 | 9 |
| 16. | Hərbi elmlər | 132 | 206 | – | – | – | 3 |
| 17. | Coğrafiya | 69 | 108 | 14 | 6 | 40 | 55 |
| 18. | Hüquq | 40 | 80 | 2 | 9 | 21 | 28 |
| 19. | Pedaqoji | 517 | 504 | 15 | 10 | 105 | 122 |
| **Cəmi:** | | **5023** | **7156** | **221** | **320** | **1588** | **2762** |

*70-ci illərdə Azərbaycanda fəaliyyət göstərən ali məktəblər*

| № | Ali məktəbin adı |
|---|---|
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu |
| 4. | D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu |
| 5. | N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu |
| 6. | S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu |
| 7. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu |
| 8. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu |
| 9. | Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası |
| 10. | M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu |
| 11. | S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |
| 12. | H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnstitutu |
| 13. | SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu |
| 14. | Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu |
| 15. | Xankəndi Pedaqoji İnstitutu |
| 16. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu |
| 17. | Bakı Ali Partiya Məktəbi |
| 18. | Sumqayıt Ali Texniki Təhsil Məktəbi |
| 19. | S.M.Kirov adına Xəzər Ali Hərbi Dənizçilik Məktəbi |
| 20. | Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirlər Məktəbi |

Əgər 1970-ci ildə ali məktəblərdə 450 kafedra var idisə, 1980-ci ildə onların sayı 525-ə çatdı. 70-ci illərdə ali məktəblərdə yeni kafedraların yaradılması tədqiq olunan problemlərin əhatə dairəsinin genişlənməsinə və daha dərindən öyrənilməsinə səbəb oldu.

Alimlərə verilən əsas tələblərdən biri onların apardıqları tədqiqatların maksimal dərəcədə xalq təsərrüfatının ehtiyaclarına yaxın olması idi. Bu məsələnin həlli üçün ali məktəblərlə istehsalat arasında sıx əlaqələr yaradıldı. Müxtəlif təşkilat və müəssisələrlə müntəzəm əlaqələrin saxlanılmasında ali məktəblərdə yaradılmış elmi-tədqiqat müəssisələri – problem və sahə elmi-tədqiqat laboratoriyaları mühüm rol oynayırdı. Nazirlər Sovetinin qərarına əsasən yaradılan problem elmi-tədqiqat laboratoriyalarının fəaliyyəti xalq təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən elmi problemlərin həllinə yönəldilmişdi.

Respublikada ilk problem elmi-tədqiqat laboratoriyası 1957-ci ildə Sultan Mehdiyevin rəhbərliyi ilə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda yaradılmışdı. Bu, neft sənayesinin avtomatlaşdırılması üzrə problem laboratoriya idi. 1959-cu ildə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun nəzdində «Monomerlər və polimerlər» problem laboratoriyası, Azərbaycan Dövlət Universitetinin nəzdində «Neftdən karbohidrogenlərin katalitik ayrılması», 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda «Şagirdlərin peşəyönümü» problem laboratoriyaları yaradıldı.

Respublikada sahə laboratoriyalarının yaranma tarixi isə 60-cı illərdən başlayır.

1962-ci ildə Azərbaycan Dövlət Neft və Kimya və Politexnik institutlarında ayrı-ayrı

nazirlik və təşkilatlar tərəfindən ilk sahə laboratoriyaları yaradıldı. Bu laboratoriyaların yaradılmasının əsas məqsədi müvafiq nazirliklərin sifarişi əsasında elmi tədqiqatların yerinə yetirilməsi və alınan nəticələrin istehsalatda tətbiq edilməsindən ibarət idi. 1979-cu ildə ali məktəblərdə artıq 15 sahə laboratoriyası fəaliyyət göstərirdi.

1980-ci ildə Ali və Orta İxtisas Təhsili Nazirliyinə tabe olan ali məktəblərdə artıq 20 problem elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərirdi.

Ali məktəblərin elmi-tədqiqat fəaliyyətində müxtəlif təşkilat və müəssisələrlə bağlanmış təsərrüfat müqavilələri əsasında yerinə yetirilən işlər də böyük yer tuturdu.

Xalq təsərrüfatının müxtəlif sahələrinə tətbiq edilən təsərrüfat müqaviləli işlər ali məktəblərdə aparılan nəzəri tədqiqatların təcrübədə istifadə edilməsi üçün ən rasional yollardan biri idi. Buna görə də belə işlərin sayı və həcmi artırdı.

Təsərrüfat müqaviləli işlərin sayının artması ali məktəblərin elmi fəaliyyətinin intensivləşdirilməsi üçün stimul yaradırdı. Elmi işin bu forması, bir tərəfdən tədqiqatların yerinə yetirilməsinə müntəzəm olaraq yeni mütəxəssislərin cəlb edilməsinə və ali məktəblərdə çalışan bir çox mütəxəssislərin biliklərindən və təcrübəsindən istifadə olunmasına kömək edir, digər tərəfdən isə ali məktəblərin maddi-texniki bazasının genişlənməsi və möhkəmləndirilməsi üçün böyük imkanlar yaradırdı.

1970–1979-cu illər ərzində ali məktəblərdə təsərrüfat müqaviləli elmi tədqiqatların aparılmasına cəlb olunan işçilərin sayı təxminən 4 dəfə artmışdı. Təkcə 1979-cu ildə elmi-pedaqoji işçilərin–elmlər doktoru və elmlər namizədlərinin 38%-i təsərrüfat müqaviləli işlərin yerinə yetirilməsi ilə məşğul olurdu.

Təsərrüfat müqaviləli elmi işin bir üstünlüyü də ondan ibarət idi ki, tədqiqatların nəticələrinin istehsalata tətbiqindən əldə olunan gəlir, ali məktəblərdə büdcədənkənar vəsaitlərin yaranmasına xidmət edirdi. Bu gəlirdən həm də tədqiqatların daha da genişləndirilməsində istifadə olunurdu. 1977-ci ildə ali məktəblərdə təsərrüfat müqaviləli elmi-tədqiqat işlərindən əldə edilmiş vəsaitdən respublikanın ali və orta ixtisas təhsilinin ehtiyacları üçün 1,3 milyon rubl xərclənmişdi ki, bunun da 1 milyon rublu elmi işləri davam etdirmək üçün zəruri olan avadanlıqların alınmasına sərf olunmuşdu. 1979-cu ildə bu göstərici uyğun olaraq 2,7 və 1,7 milyon rubl təşkil etmişdi.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin **«Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin səmərəliliyinin yüksəldilməsi haqqında»** 6 aprel 1978-ci il tarixli qərarı respublikanın ali məktəblərində aparılan elmi-tədqiqat işlərinin inkişafına yeni təkan verdi. Həmin qərarda aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu:

- ali təhsil müəssisələrinin elmi-texniki nailiyyətlərinin istehsalatda istifadə edilməsinə yönəlmiş sahə və respublika planları üzrə elmi tədqiqatların və tətbiqi işləmələrin yerinə yetirilməsinə geniş şəkildə cəlb olunması;
- ali təhsil müəssisələrində yerinə yetirilən elmi-tədqiqat işinin planlaşdırılması və əlaqələndirilməsinin köklü surətdə yaxşılaşdırılması, tədqiqatların aparılmasında paralelizm və təkrarlanmanın aradan qaldırılması;

– aparıcı ali məktəblərdə fəaliyyət göstərən elmi bölmələrin bazasında elmi işlər üzrə prorektorun rəhbərlik etdiyi elmi hissələrin yaradılması; həmin ali məktəblərdə elmi-tədqiqat institutları üçün qüvvədə olan elmi-tədqiqat işlərinin planlaşdırma, maliyyələşdirmə, maddi-texniki təminatı və elmi-tədqiqat işlərinin təşkili qaydalarının tətbiq edilməsi;

– ali təhsil müəssisələrinin elmi-tədqiqat, layihə-konstruktor və xalq təsərrüfatı müəssisələri ilə əlaqələrinin möhkəmləndirilməsi;

– ali məktəblərdə sahə elmi-tədqiqat laboratoriyalarının yaradılması vasitəsilə onların təsərrüfat müqavilələri əsasında yerinə yetirilən aktual elmi-texniki problemlərin həllinə daha geniş cəlb olunması; həmin laboratoriyaların bilavasitə müəssisə və istehsalat birliklərinin bazasında yaradılmasından daha geniş istifadə olunması;

– elmi-tədqiqat işlərinin yerinə yetirilməsi üçün istehsalat sahələrinə malik olan ali məktəblərin layihələrinin hazırlanmasına dair yeni normaların təsdiq edilməsi.

Qərarda partiya və sovet orqanlarına, elmi-tədqiqat işinin səmərəliliyinə və keyfiyyətinə görə ali məktəb rəhbərlərinin məsuliyyətinin artırılması, elmi-tədqiqatların inkişaf etdirilməsi, onların nəzəri səviyyəsinin və tətbiqi əhəmiyyətinin yüksəldilməsi, ali məktəblərin və kafedraların istehsalatla əlaqələrinin möhkəmləndirilməsi, kadrlarla işin təkmilləşdirilməsi tapşırılmışdı.

**Qərara əlavə olunmuş Sovet İttifaqı üzrə 72 aparıcı ali təhsil müəssisəsinin siyahısına Azərbaycan Respublikasının ali məktəblərindən Azərbaycan Neft və Kimya İnstitutu daxil edilmişdi.**

Elmin rolunun artması ali məktəblərdə elmi-tədqiqat işinin təşkilinə rəhbərliyin təkmilləşdirilməsini tələb edirdi. Buna görə də 1978-ci ilin noyabr ayında Ali və Orta İxtisas Təhsili Nazirliyində fəaliyyət göstərən Elmi-tədqiqat işləri şöbəsinin bazasında 3 şöbədən ibarət (dövlət büdcəsindən maliyyələşən elmi-tədqiqat işləri, təsərrüfat müqavilələi elmi-tədqiqat işləri və elmi-pedaqoji kadrların hazırlanması) təsərrüfat hesablı Elm idarəsi yaradıldı.

Respublika ali məktəblərinin idarə olunmasının yenidən təşkili, onların elmi fəaliyyətində planlaşdırmanın gücləndirilməsi ali məktəb alimlərinin səylərinin elm qarşısında qoyulan mühüm vəzifələrin həlli üzərində birləşdirilməsində böyük rol oynamışdır.

Bu dövrdə elmin inkişafını səciyyələndirən amillər arasında üç əsas amil qeyd olunmalıdır:

- elmi biliklərin bütün istiqamətlərində mövzuların genişləndirilməsi;
- nəzəri tədqiqatların təcrübə ilə əlaqələrinin möhkəmləndirilməsi;
- ali məktəb alimləri tərəfindən aparılan tədqiqatların Elmlər Akademiyasında çalışan alimlərin tədqiqat mövzuları və xalq təsərrüfatı planları ilə sıx əlaqələndirilməsi.

70–80-ci illərdə respublikanın ali məktəblərində elmi-tədqiqat işinin genişləndirilməsi həmin illərdə elmi işçilərin sayının artması və keyfiyyətinin yüksəlməsi ilə bağlı idi.

*70–80-ci illərdə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi üzrə elmi və elmi-pedaqoji kadrlar haqqında məlumat*

| İllər | Professor-müəllim heyəti | O cümlədən | |
|---|---|---|---|
| | | Professorlar və elmlər doktoru | Dosent və elmlər namizədi |
| 1970 | 4794 | 193 | 1635 |
| 1971 | 5052 | 211 | 1801 |
| 1972 | 5163 | 216 | 2015 |
| 1973 | 5299 | 226 | 2075 |
| 1974 | 5369 | 243 | 2097 |
| 1975 | 5427 | 261 | 2200 |
| 1976 | 5548 | 291 | 2442 |
| 1977 | 5601 | 341 | 2429 |
| 1978 | 5677 | 355 | 2416 |
| 1979 | 5897 | 359 | 2563 |
| 1980 | 6062 | 368 | 2687 |

Ali məktəb strukturunda elmi-tədqiqat işini həyata keçirən əsas struktur bölmə kafedradır. 1970-ci ildə ali məktəblərdə 450 kafedra var idisə, 1980-ci ildə onların sayı 525-ə çatmışdı. Kafedraların sayının artması tədqiq olunan problemlərin artmasına və daha dərindən öyrənilməsinə səbəb olurdu.

Professor-müəllim heyəti arasında elmi işlə məşğul olmayan şəxslərin xüsusi çəkisinin azalması ali məktəblərin fəaliyyətində elmin nə qədər böyük yer tutduğunu sübut edirdi.

Elm və texnikanın sürətli inkişafı fəaliyyətdə olan elmi-pedaqoji kadrların ixtisasının artırılmasını və yeni ixtisaslar üzrə mütəxəssislərin və elmi kadrların hazırlanmasını tələb edirdi. Ona görə də SSRİ Nazirlər Soveti tərəfindən qəbul olunmuş **«Ölkədə ali təhsilin daha da inkişaf etdirilməsi tədbirləri haqqında» (18 iyul 1972-ci il), «Elmi və elmi-pedaqoji kadrların attestasiyasının daha da təkmilləşdirilməsi tədbirləri haqqında» (18 oktyabr 1974-cü il), «SSRİ Nazirləri Soveti yanında Dövlət Attestasiya Komissiyasının Əsasnaməsi haqqında» (8 may 1975-ci il), «Elmi adların və elmi dərəcələrin verilməsi qaydaları haqqında»** (29 dekabr 1975-ci il) qərarlarda elmi və elmi-pedaqoji kadrların hazırlanması, attestasiya sisteminin yaxşılaşdırılması və təkmilləşdirilməsi üçün konkret tədbirlər müəyyənləşdirildi. Bütün bu tədbirlərin nəticəsi olaraq aspirantura yolu ilə elmi-pedaqoji kadrların hazırlanması işi xeyli yaxşılaşdı. Aspiranturaya qəbul təkmilləşdirildi. Belə ki, aspiranturaya qəbul olmaq istəyənlər üçün bir aylıq məsləhət günləri təşkil olundu. Ali məktəbi fərqlənmə diplomu ilə bitirən, müəyyən mövzu üzərində işləyən, elmi əsərləri olan, namizədlik imtahanlarını tam, yaxud qismən verən şəxslərə qəbul zamanı üstünlük verilməyə başlandı.

Bütün bunlar müsbət nəticələr verdi. 1972-ci ildə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin tabeliyindəki ali məktəblərə qəbul olan 153 aspirantdan 11-nin elmi əsəri var idi, 22-si artıq mövzu üzərində işləyirdi, 40 nəfəri namizədlik imtahanlarını (tam, yaxud bir hissəsini) vermişdi.

1980/81-ci tədris ilində 18 mülki ali məktəbdə 105968 tələbə təhsil alırdı. Həmin ildə ali məktəblərə qəbul 21458, buraxılış 18141 nəfər olmuşdur. Professor-müəllim heyətinin sayı 7223 nəfərə çatmışdı. Müqayisə üçün qeyd edək ki, əgər 60-cı illərin sonunda respublikada 12 ali məktəb, bunlarda 105 fakültə,

450 kafedra var idisə və burada 139 ixtisas üzrə kadr hazırlığı aparılırdısa, 1981-ci ildə artıq 136 fakültəni və 530 kafedranı birləşdirən 21 ali təhsil müəssisəsi fəaliyyət göstərirdi.

Bunlardan başqa, respublikada (Bakıda) Odessa Dəniz Mühəndisləri, Rostov Dəmiryol Nəqliyyatı, Ümumittifaq Qiyabi Yeyinti Sənayesi, Ümumittifaq Qiyabi Kooperativ, nəhayət, Krasnodar Politexnik İnstitutlarının filialları da fəaliyyət göstərirdi. Bütün bu uğurlar Heydər Əliyevin ali təhsilin inkişafına, respublikanın kadr potensialının gücləndirilməsinə vətəndaş qayğısının nəticəsində mümkün olmuşdu.

Heydər Əliyevin 1987-ci ildə SSRİ rəhbərliyində yüksək dövlət vəzifəsindən uzaqlaşdırılması ilə əlaqədar Azərbaycanda, digər sahələrdə olduğu kimi, təhsilin, o cümlədən ali təhsilin inkişafında da əngəllər, problemlər yarandı.

Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin **«Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda ciddi nöqsanlar haqqında»** 24 sentyabr 1987-ci il tarixli qərarına əsasən SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin 30 oktyabr 1987-ci il tarixli əmri ilə Dadaş Bünyadzadə adına AXTİ-nin bağlanması və Bakıda Nikolay Alekseyeviç Voznesenski adına Leninqrad (Sankt-Peterburq) Maliyyə-İqtisad İnstitutunun Bakı filialının yaradılması qərara alındı. 1987-ci il noyabrın 17-də Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti **«Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun fəaliyyətində ciddi nöqsanlar haqqında»** qərar qəbul etdi. Beləliklə, zəngin tədris-pedaqoji təcrübəyə, güclü professor-müəllim

*80-ci illərdə Azərbaycanda fəaliyyət göstərən ali məktəblər*

| № | **Ali məktəbin adı** |
|---|---|
| 1. | S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutu |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu |
| 4. | D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu |
| 5. | N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu |
| 6. | S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu |
| 7. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu |
| 8. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu |
| 9. | Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası |
| 10. | M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu |
| 11. | S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutu |
| 12. | H.Zərdabi adına Kirovabad (Gəncə) Pedaqoji İnstitutu |
| 13. | SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu |
| 14. | Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu |
| 15. | Xankəndi Pedaqoji İnstitutu |
| 16. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu |
| 17. | Bakı Ali Partiya Məktəbi |
| 18. | Sumqayıt Ali Texniki Təhsil Məktəbi |
| 19. | Azərbaycan Texnologiya İnstitutu |
| 20. | S.M.Kirov adına Xəzər Ali Hərbi Dənizçilik Məktəbi |
| 21. | Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirlər Məktəbi |

heyətinə, lazımi maddi-texniki bazaya malik olan, təkcə respublikamız üçün deyil, hətta xarici ölkələr üçün də iqtisadçı mütəxəssislər hazırlayan institut bağlandı. Halbuki bu institut Azərbaycanda iqtisadçı kadrlar hazırlayan yeganə müstəqil ali məktəb idi.

Azərbaycan Xalq Təsərrüfatı İnstitutu filiala çevrildikdən sonra bütün tədris binaları, avadanlıqlar, maddi-texniki təchizat, professor-müəllim heyəti və tələbə kontingenti Leninqrad (Sankt-Peterburq) Maliyyə-İqtisad İnstitutunun balansına verildi.

Azərbaycan ali məktəbinin 3000 km-dən artıq məsafədə yerləşən şəhərin əyalət statuslu filialına çevrilməsi, Sovetlər birliyi dövründə Azərbaycana və Azərbaycan xalqına münasibətdə mütəmadi olaraq aparılan məkrli siyasətin tərkib hissəsi idi. O vaxta qədər SSRİ-nin heç bir ali məktəbinin işi Sov. İKP MK Siyasi Bürosu səviyyəsində müzakirə obyekti olmamışdı və heç ondan sonra da olmadı.

1987-ci ildə Ali və Orta İxtisas Təhsili naziri vəzifəsinə **Ağalar Abbasov** təyin edildi.

1988-ci ildə Ali və Orta İxtisas Təhsili, Maarif nazirlikləri, Dövlət Texniki Peşə Təhsili Komitəsi ləğv edildi, onların bazasında Xalq Təhsili Nazirliyi yaradıldı və bütün ali və orta ixtisas təhsili müəssisələri həmin nazirliyin tabeliyinə verildi. Həmin dövrdə Leninqrad (Sankt-Peterburq) Maliyyə-İqtisad İnstitutunun Bakı filialının yenidən müstəqil instituta çevrilməsi üçün filialın kollektivi tərəfindən kompleks tədbirlər həyata keçirildi. Bu məqsədlə Leninqrad (Sankt-Peterburq) və Moskvada aparılan danışıqlar, filialın müstəqil instituta çevrilməsi zəruriliyinin elmi cəhətdən əsaslandırılması, nəhayət, öz müsbət nəticələrini verdi.



**Ağalar Abbasov**
**(1941)**

**Abbasov Ağalar Nəriman oğlu** Bakı şəhərində anadan olmuşdur. Moskva Dövlət Universitetini bitirmişdir (1962). Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun Partiya tarixi kafedrasında assistent, baş müəllim işləmişdir (1962–1963).

Moskva Dövlət Universitetinin aspiranturasını bitirmişdir, tarix elmləri doktorudur (1980). Neft və Kimya İnstitutu Partiya Komitəsinin katibi, Bakı şəhər Partiya Komitəsinin katibi vəzifələrində çalışmışdır. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili naziri vəzifəsində işləmişdir (1987–1988).

Bakı Dövlət Universitetində beynəlxalq hüquq və beynəlxalq münasibətlər kafedrasının müdiri vəzifəsində çalışır.

SSRİ Nazirlər Soveti 1990-cı il iyulun 26-da Bakıda Azərbaycan Dövlət İqtisad İnstitutunun təşkil olunması haqqında xüsusi qərar qəbul etdi. Qərarda göstərilirdi ki, Azərbaycan SSR Nazirlər Soveti, SSRİ Dövlət Xalq Təhsili Komitəsi, SSRİ Dövlət Plan Komitəsi, SSRİ Maliyyə Nazirliyi və RSFSR Nazirlər Sovetinin razılaşmasına əsasən Nikolay Alekseyeviç Voznesenski adına Leninqrad (Sankt-Peterburq) Maliyyə-İqtisad İnstitutunun Bakı filialının bazasında Azərbaycan SSR Təhsil Nazirliyinin tabeliyində Bakı şəhərində müstəqil İqtisad İnstitutu yaradılır. Həmin qərara əsasən Azərbaycan SSR Nazirlər Soveti 1990-cı il avqustun 17-də müvafiq qərar qəbul etdi. Qərarda SSRİ Nazirlər Sovetinin 26 iyul 1990-cı il tarixli qərarı icra üçün qəbul olundu. Beləliklə, keçmiş AXTİ Azərbaycan Dövlət İqtisad İnstitutu adı ilə yenidən bərpa edildi.

*1989/90-cı tədris ilində Xalq Təhsili Nazirliyinin tabeliyindəki ali məktəblərdə işləyən professor-müəllim heyəti haqqında məlumat*

| № | Ali məktəblər | Tam ştatda olanlar | O cümlədən | | Bundan əlavə | | Ümumi saydan elmi adı olanlar | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Elmlər doktoru | Elmlər namizədi | Əvəzçiliklə işləyənlər | 0,5 və 0,25 ştatda işləyənlər | Profes-sorlar | Dosent-lər |
| 1. | Bakı Dövlət Universiteti | 1119 | 155 | 645 | 16 | 27 | 146 | 337 |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft Akademiyası | 1332 | 75 | 704 | 28 | 14 | 66 | 542 |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 835 | 35 | 436 | 2 | 233 | 34 | 287 |
| 4. | Azərbaycan Texnologiya İnstitutu | 142 | 6 | 142 | 2 | 6 | 5 | 82 |
| 5. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu | 649 | 28 | 354 | 14 | 6 | 30 | 277 |
| 6. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu | 702 | 43 | 331 | – | 75 | 57 | 273 |
| 7. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu | 364 | 11 | 186 | 5 | 2 | 13 | 121 |
| 8. | SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu | 299 | 12 | 127 | 1 | 21 | 12 | 79 |
| 9. | H.Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu | 252 | 12 | 158 | 1 | 23 | 12 | 102 |
| 10. | Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu | 142 | 2 | 70 | – | 2 | 2 | 41 |
| 11. | Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası | 228 | 1 | 44 | 20 | 16 | 37 | 65 |
| 12. | M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu | 197 | 3 | 141 | 21 | 3 | 12 | 34 |
| **Cəmi:** | | **6261** | **383** | **3338** | **110** | **428** | **426** | **2240** |

*1989/90-cı tədris ilində Xalq Təhsili Nazirliyinin tabeliyində olan ali məktəblərin tələbə kontingenti haqqında məlumat*

| № | Ali məktəblər | Qəbul olunanların sayı | | | | Tələbələrin sayı | | | | Məzunların sayı | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Gündüz | Axşam | Qiyabi | Cəmi | Gündüz | Axşam | Qiyabi | Cəmi | Gündüz | Axşam | Qiyabi |
| 1. | Bakı Dövlət Universiteti | 2084 | 1336 | 327 | 421 | 12658 | 7243 | 2171 | 3244 | 2117 | 1290 | 309 | 518 |
| 2. | M.Əzizbəyov adına Azərbaycan Dövlət Neft Akademiyası | 2203 | 1150 | 614 | 439 | 14483 | 6359 | 4975 | 3149 | 2230 | 1265 | 768 | 197 |
| 3. | Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu | 1668 | 1075 | 405 | 188 | 12253 | 6620 | 4146 | 1487 | 2117 | 1140 | 750 | 227 |
| 4. | Azərbaycan Texnologiya İnstitutu | 718 | 356 | – | 362 | 4383 | 2125 | 276 | 1982 | 806 | 457 | 71 | 278 |
| 5. | Azərbaycan İnşaat Mühəndisləri İnstitutu | 1165 | 712 | 276 | 177 | 9421 | 4586 | 2863 | 1972 | 1654 | 808 | 515 | 331 |
| 6. | V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu | 1266 | 976 | – | 290 | 7156 | 4823 | – | 2333 | 1961 | 1003 | – | 958 |
| 7. | M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu | 1126 | 741 | – | 385 | 5190 | 3387 | – | 1803 | 990 | 619 | – | 371 |
| 8. | SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu | 449 | 397 | 52 | – | 2481 | 1848 | 633 | – | 551 | 353 | 198 | – |
| 9. | H.Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu | 892 | 474 | – | 418 | 4611 | 1854 | – | 2757 | 1009 | 348 | – | 661 |
| 10. | Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu | 475 | 325 | – | 150 | 2190 | 1273 | – | 917 | 331 | 145 | – | 186 |
| 11. | Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyası | 177 | 134 | 11 | 32 | 957 | 630 | 125 | 202 | 202 | 118 | 41 | 43 |
| 12. | M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu | 349 | 198 | – | 151 | 1726 | 964 | – | 762 | 367 | 215 | – | 152 |
| **Cəmi:** | | **12572** | **7874** | **1685** | **3013** | **77509** | **41712** | **15189** | **20608** | **14335** | **7761** | **2652** | **3922** |

80-ci illərdə əvvəlki illərə nisbətən ali məktəblərdə mütəxəssis hazırlığı aparılan ixtisasların sayı artdı. Tələbə qəbulu 1981–1986-cı illərdə, demək olar ki, sabit saxlanıldı, 1987-ci ildən isə azalmağa başladı.

*1981–1991-ci illər üzrə ali məktəblərin, kadr hazırlığı aparılan ixtisasların sayı və tələbə kontingenti*

| Tədris illəri | Ali məktəblərin sayı | İxtisasların sayı | Qəbul olanların sayı | Tələbələrin sayı |
|---|---|---|---|---|
| 1981/82 | 22 | 167 | 21643 | 108600 |
| 1982/83 | 22 | 169 | 21626 | 109500 |
| 1983/84 | 22 | 163 | 21758 | 110000 |
| 1984/85 | 22 | 165 | 21651 | 108100 |
| 1985/86 | 22 | 164 | 21647 | 105900 |
| 1986/87 | 22 | 166 | 21360 | 105700 |
| 1987/88 | 22 | 168 | 20082 | 103400 |
| 1988/89 | 21 | 167 | 15593 | 98800 |
| 1989/90 | 20 | 155 | 16400 | 98700 |
| 1990/91 | 19 | 172 | 15900 | 104607 |

Tələbə heyətinin sayının azalması təbii ki, ali məktəblərdə professor-müəllim heyətinin sayının azalmasına səbəb oldu.

*1981–1991-ci illərdə respublika üzrə ali məktəblərin sayı və professor-müəllim heyəti*

| Tədris illəri | Ali məktəblərin sayı | Professor-müəllim heyətinin sayı |
|---|---|---|
| 1981/82 | 22 | 7400 |
| 1982/83 | 22 | 7500 |
| 1983/84 | 22 | 7600 |
| 1984/85 | 22 | 7700 |
| 1985/86 | 22 | 7700 |
| 1986/87 | 22 | 8500 |
| 1987/88 | 22 | 8600 |
| 1988/89 | 21 | 8600 |
| 1989/90 | 20 | 8500 |
| 1990/91 | 19 | 8541 |

80-ci illərin sonunda yaşı 15-dən yuxarı olan əhalinin hər min nəfərindən 129-u ali təhsilli idi. Lakin, buna baxmayaraq, 1988-ci ildən başlanan proseslər digər sahələrdə olduğu kimi, ali təhsil sistemində də böhranın yaranmasına gətirib çıxardı. Dağlıq Qarabağda başlayan hərbi münaqişələr Azərbaycanın ali təhsilinə də öz zərbəsini vurdu.

1967/68-ci tədris ilində Vladimir İliç Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (hazırda ADPU-nun) Stepanakert (Xankəndi) filialı kimi fəaliyyətə başlayan, 1973-cü ildə müstəqil ali məktəbə çevrilən Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin müəllim və tələbələri Xankəndindən qovuldu və müvəqqəti olaraq Şuşa şəhərində sığınacaq tapdı.

Təhsil Nazirliyi ilə uzun müzakirələrdən sonra 100 nəfərlik professor-müəllim heyəti 1200 tələbə ilə 25 oktyabr 1988-ci il tarixdən Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunda dərslərə başladı. Bir il sonra, 1989-cu il oktyabrın 25-də, həmin pedaqoji kollektivin və tələbələrin böyük əksəriyyətinin təkidi ilə şöbə yenidən Şuşa şəhərinə qayıtdı. Tələbələr dərslərə başlayandan bir neçə gün sonra Xalq Təhsili Nazirliyi Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin bazasında Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa fakültəsini yaratmağa məcbur oldu.

Azərbaycan Respublikası Nazirlər Sovetinin müvafiq qərarına uyğun olaraq Xalq Təhsili Nazirliyinin 22 fevral 1991-ci il tarixli əmri ilə Şuşa fakültəsi Nəsirəddin Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin filialına çevrildi. Şuşa filialı yaradıldıqdan sonra tədris

müəssisəsində struktur dəyişikliyi aparıldı, ştat cədvəli əsasında fakültə, kafedra, şöbə və bölmələrin tərkibi müəyyənləşdirildi.

Qədim Şuşa şəhəri artıq erməni və rus qoşun birləşmələri ilə mühasirəyə alınmışdı. Belə bir vəziyyətdə tədris prosesini davam etdirməyin mümkün olmadığını görən Şuşa filialının rəhbərliyi 1992-ci ildə bu təhsil müəssisəsini Ağcabədi rayonuna köçürməyə və fəaliyyətini rayonun texniki peşə məktəbinin binasında davam etdirməyə məcbur oldu.

Azərbaycan təhsil sisteminə Qarabağ müharibəsinin vurduğu ağır zərbələrlə yanaşı, 1988–1991-ci illərdə Rusiyanın köməyi ilə Ermənistan ərazisindən zorla deportasiya edilən 250000-dən artıq soydaşımızın məcburi köçkün, qaçqın və didərgin vəziyyətində ölkəmizə pənah gətirmələri də müstəqilliyimizin ilk illərində təhsil sahəsində ciddi problemlərin yaranmasına səbəb oldu.

Məlumdur ki, azərbaycanlılar ta qədimdən XX əsrin 90-cı illərinin əvvəllərinə qədər indiki Ermənistan ərazisində yaşamışlar. Bu torpaq Azərbaycan türklərinin ata-baba yurdudur. Onlar zaman-zaman erməni təcavüzünə məruz qalaraq deportasiya olunmuşlar. Təkcə XX əsrdə dörd dəfə (1905–1906, 1918–1920, 1948–1953, 1988–1991) iki milyondan artıq azərbaycanlı indiki Ermənistan ərazisindən – tarixi-etnik torpaqlarından deportasiya olunmuş, soyqırımına məruz qalmışlar.

«Türksüz Ermənistan» uğrunda mübarizə aparan ermənilər və onların ideoloqları, eləcə də yaxın və uzaq xaricdəki havadarları etnik təmizləmə əməliyyatını 1991-ci il avqustun 8-də başa çatdırdılar. Həmin gün Mehri rayonunun ən böyük kəndlərindən biri – Nüvədi soyqırımına məruz qaldı. Kəndin köklü sakinləri olan azərbaycanlılar tarixi-etnik torpaqlarından qovuldular. Ermənistan adlanan tarixi Azərbaycan torpaqlarında bir nəfər belə azərbaycanlı qalmadı, soydaşlarımızın əməyi ilə qurulmuş anadilli Azərbaycan məktəbləri, həmin məktəblərdə on illərlə yaradılmış kitabxana fondları, laboratoriyalar, milli tariximizlə bağlı etnoqrafik muzeylər, minlərlə eksponatlar və digər milli-mənəvi abidələr orada, düşmənin əlində qalmışdır.

Digər tərəfdən Ermənistandan qovulmuş on minlərlə azərbaycanlı şagird, tələbə və müəllimin birdən-birə Azərbaycana axını həm şagirdlərin və tələbələrin təhsilə cəlb olunmasında, həm də müəllimlərin işlə təminatında çoxsaylı problemlər yaratdı. Sözsüz, bütün bu məsələlər Azərbaycan təhsilində, o cümlədən ali təhsil sahəsində onsuz da gərgin olan vəziyyəti daha da çətinləşdirdi və dərinləşdirdi.

1987-ci ildən başlayaraq vətəndaşların böyük əksəriyyətinin yaranmış vəziyyətdən dərhal baş aça bilməməsi, həmin dövrdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, düşünülməmiş daxili və xarici siyasəti qısa müddətdə Azərbaycan təhsilini də acınacaqlı vəziyyətə saldı. Bir neçə il ərzində təhsilin məzmununda aparılan islahatların ziddiyyətliliyi, qeyri-ardıcıllığı və kortəbiiliyi təhsilin maddi-texniki bazasının dağılmasına, pedaqoji və elmi-pedaqoji kadrların xarici ölkələrə və qeyri-təhsil sahələrinə axınına, mütəxəssis hazırlığı strukturunun əmək bazarı tələbləri ilə uyğunsuzluğuna, dərslərin müntəzəm olaraq pozulmasına səbəb oldu. Təhsil işçilərinin əmək haqqının son dərəcə aşağı olması və sair məsələlər də

qədim və zəngin ənənələrə malik olan ölkə təhsilini böhranlı vəziyyətə saldı. Uzun illər ərzində toplanmış zəngin potensial dağılmaqda idi.

**1991-ci ilin iyulunda SSRİ Xalq Təhsili Nazirliyinin qərarı ilə Bakı Ali Partiya Məktəbinin bazasında Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu yaradıldı.**

### Gürcüstanda Azərbaycan dilində ali pedaqoji təhsil

20-ci illərin 2-ci yarısında və 30-cu illərdə Gürcüstanda çoxsaylı Azərbaycan ümumtəhsil məktəblərini müəllim kadrları ilə təmin etmək məqsədilə qısamüddətli pedaqoji kurslar və pedaqoji texnikumlar təşkil edilmişdi. 30-cu illərdə icbari ibtidai təhsil həyata keçirildikdən sonra yeddiillik icbari təhsilə keçid başlandı. Belə bir şəraitdə daha yüksəkixtisaslı müəllimlər hazırlamaq ehtiyacı yarandı.

1939-cu ildə Gürcüstan KP MK-nın və respublika hökumətinin qərarı ilə Tbilisi Azərbaycan və Tbilisi erməni pedaqoji texnikumlarının bazasında ikiillik Azərbaycan-erməni Müəllimlər İnstitutu yaradıldı. İnstitutda Azərbaycan dili və ədəbiyyatı və fizika-riyaziyyat fakültələri təşkil olundu. Sonralar Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti seçilmiş akademik Zahid Xəlilov institutun tədris işləri üzrə direktor müavini təyin edildi. İnstitutda əyani və qiyabi şöbələr fəaliyyət göstərirdi. 1941/42-ci tədris ilində Azərbaycan-erməni Müəllimlər İnstitutu Aleksandr Sergeyeviç Puşkin adına Tbilisi Müəllimlər İnstitutu ilə birləşdirildi. Həmin fakültələr tələbə kontingenti ilə birlikdə Aleksandr Sergeyeviç Puşkin adına ikiillik Tbilisi Müəllimlər İnstitutuna köçürüldü.

1947/48-ci tədris ilində Aleksandr Sergeyeviç Puşkin adına Tbilisi Müəllimlər İnstitutu dördillik pedaqoji instituta çevrildi. İnstitutun Azərbaycan şöbəsi isə 1953/54-cü tədris ilinə qədər ikiillik olmuş, həmin ildən etibarən dördilliyə çevrilmişdir.

1953/54-cü tədris ilindən 1989/90-cı tədris ilinə qədər Azərbaycan bölməsində müxtəlif vaxtlarda tarix-filologiya, pedaqoji, Azərbaycan dili və ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyatı və gürcü dili və ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyatı və rus dili və ədəbiyyatı fakültələri fəaliyyət göstərmişdir.

1975-ci ildə Azərbaycan bölməsində iki fakültə: I–II kurslar Azərbaycan-gürcü filologiyası və III–IV kurslar Azərbaycan dili və ədəbiyyatı fakültələri kimi fəaliyyət göstərmişdir. Hər iki fakültədə cəmi 78 tələbə oxuyurdu. 1953–1990-cı illərdə Azərbaycan bölməsinin gündüz şöbəsini 700 nəfərə yaxın mütəxəssis bitirmişdir. Beləliklə, Gürcüstanda 1939–1990-cı illər arasında ali pedaqoji fakültələrin Azərbaycan bölməsinin gündüz şöbəsindən 1250 nəfərə yaxın, qiyabi şöbəsindən isə cəmi 1000 nəfərə yaxın məzun olmuşdur.

Azərbaycan bölməsində müxtəlif vaxtlarda professorlar Həmid Fərzəlibəyli, Zərifə Budaqova, Hüseyn Əhmədov, Əliheydər Həşimov, Məmmədəli Məmmədov, dosent Sayad Məmmədov və başqaları mühazirələr oxumuşlar. Uzun müddət institutda professorlar



*Akademiklər Kamal Talıbzadə, Əziz Mirəhmədov, Yaşar Qarayev, şair-tərcüməçi Leyla Eradze, professorlar Mədət Çobanov, Əmrulla Paşayev, Arif Mişiyev, dosent Həmid Vəliyev Tbilisi Pedaqoji İnstitutunun azərbaycanlı tələbələri ilə görüşdən sonra*



*Aleksandr Sergeyeviç Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsinin tələbələri. 1985-ci il buraxılışı*

Adil Mişiyev (o, xeyli müddət Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri olmuşdur), Valeh Hacıyev, Əmrulla Paşayev, Məmməd Çobanov, dosentlər Ələddin Həkimov (o, xeyli müddət Azərbaycan bölməsinin dekanı olmuşdur), Fərhad Qarayev, baş müəllimlər Ziya Əfəndiyev, Əziz Mursaqulov, Əlixan Səmədov, dosentlər İbayət Məmmədov, Akif Nuriyev və başqaları işləmişlər.

İnstitutun Azərbaycan şöbəsinin müəllimləri Gürcüstanın azərbaycandilli məktəblərinin müəllimləri üçün Tbilisidə, Bolnisidə, Marneulidə təşkil edilən təkmilləşdirmə kurslarında mühazirələr oxumuşlar.

Professorlar Afad Qurbanov, Mədət Çobanov, Əmrulla Paşayev, Əflatun Məmmədov, Telman Quliyev, Şurəddin Məmmədov və onlarla elmlər namizədi Azərbaycan bölməsinin yetirmələridir.

Aleksandr Sergeyeviç Puşkin adına Tbilisi Dövlət Pedaqoji İnstitutunun Azərbaycan bölməsində tez-tez yazıçı və şairlərlə, incəsənət xadimləri ilə, alimlərlə maraqlı görüşlər keçirilərdi. Mirzə İbrahimov, Süleyman Rüstəm, Rəsul Rza, Osman Sarıvəlli, İmran Qasımov, Xəlil Rza, Qılman Musayev, Məmməd Rahim, Yusif Səmədoğlu, aktrisa Leyla Bədirbəyli, akademiklər Məmməd Cəfər Cəfərov, Kamal Talıbzadə, akademiyanın müxbir üzvü Əziz Mirəhmədov, professor Yaşar Qarayev, şair-tərcüməçi Leyla Eradze və başqaları ilə keçirilən görüşlər tələbələrə Azərbaycan haqqında, onun sosial-iqtisadi və mədəni həyatı barədə informasiya əldə etməyə imkan yaradırdı.

### Ermənistanda Azərbaycan dilində ali pedaqoji təhsil

Sovet hakimiyyətinin ilk illərində Ermənistandakı Azərbaycan ümumtəhsil məktəblərini müəllim kadrları ilə təmin etmək məqsədilə pedaqoji kurslar və pedaqoji texnikum təşkil edildi. Ali pedaqoji təhsilli kadrlar isə Azərbaycandan dəvət olunurdu. Bu kimi tədbirlərlə Ermənistandakı anadilli məktəbləri ali pedaqoji təhsilli kadrlarla təmin etmək olduqca çətin idi. Ona görə də 1925-ci ildə İrəvan Pedaqoji İnstitutunun nəzdində Azərbaycan şöbəsi yaradıldı. Azərbaycanlıların 1948-ci il deportasiyasına qədər bu şöbəni onlarla azərbaycanlı bitirərək müəllim kimi əmək fəaliyyətinə başlamışdır. Etiraf etmək lazımdır ki, həmin illərdə Ermənistandakı Azərbaycan məktəblərinin milli müəllim kadrları ilə təminatına xüsusi diqqət yetirilirdi. Bu işdə Ermənistanda yaşayan digər xalqların – Azərbaycan, rus, yunan, kürd və aysorilərin mədəni-maarif işlərinə rəhbərlik etmək üçün 1922-ci ildə XMK-nın nəzdində yaradılan «Azlıqda qalan millətlər bürosu», xüsusilə onun sədri tanınmış maarifçi Mehdi Kazımov mühüm rol oynayırdı.

SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il və 10 mart 1948-ci il tarixli qərarları ilə azərbaycanlılar Ermənistandan – əsrlər boyu yaşadıqları doğma yurdlarından kütləvi surətdə (100 min nəfərdən çox) deportasiya edildilər. Ermənistan ərazisində etnik təmizləmə tədbirləri həyata keçirildi. Digər təhsil müəssisələri kimi, İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi də bağlandı,

tələbələr Azərbaycan Dövlət Pedaqoji İnstitutunun müvafiq fakültələrinə köçürüldülər. 1954-cü ilə kimi Ermənistandakı Azərbaycan məktəbləri üçün ali pedaqoji təhsilli müəllim kadrları hazırlanmasının bütün ağırlığı APİ-nin üzərinə düşdü. İrəvan ziyalıları İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin bərpasına yalnız İosif Vissarionoviç Stalinin ölümündən sonra nail ola bildilər. Şöbə 1954-cü ildə iki fakültə (fizika-riyaziyyat və Azərbaycan dili və ədəbiyyat-tarix) ilə fəaliyyətə başladı. Burada dərs deyən müəllimlərin hamısının azərbaycanlı olmasına baxmayaraq, fakültə dekanı vəzifəsinə erməni təyin edildi. Bu siyasət uzun müddət davam etdi.

Elə həmin dövrdə, sonralar Poladkənd orta məktəbində mənə riyaziyyatın əsaslarını öyrətmiş Mürsəl Budaqov və atamın bacısı qızı Çimnaz Qarayeva İrəvan Pedaqoji İnstitutunun fizika-riyaziyyat şöbəsini bitirmişdilər.

Ermənistandakı Azərbaycan məktəblərini müəllim kadrları ilə təmin etmək məqsədilə kooperasiya yolu ilə Bakıya təhsil almaq üçün tarix, riyaziyyat, fizika, kimya, biologiya, coğrafiya, məktəbəqədər təhsil, ibtidai təhsilin pedaqogika və metodikası ixtisaslarının hər birinə ildə 2 nəfər tələbə qəbul olunurdu. İnstitutda Azərbaycan dili və ədəbiyyatı ixtisasından başqa bütün ixtisaslar müvafiq erməni kafedralarında təmsil olunmuşdu. Yalnız Azərbaycan dili və ədəbiyyatı kafedrası müstəqil fəaliyyət göstərirdi. Kafedraya əvvəllər tanınmış yazıçı və görkəmli alim Əkbər Yerevanlı, son illərdə isə filologiya elmlər doktoru, professor Knyaz Mirzəyev rəhbərlik edirdi. Kafedrada dosentlər Lətif Hüseynzadə, Məsim Məmmədov, Məhərrəm Hüseynli, Aidə Salahova, Hüseyn İsmayılov, Şövkət Kərimov, baş müəllimlər Zoya Səfərova, Cahangir Hüseynov, Kifayət Qasımova, Azər Bayramov fəaliyyət göstərirdilər. Fəlsəfə elmləri namizədi, dosent Sabir Səfərov fəlsəfə, qocaman müəllim Fərrux Rzayev isə pedaqogikadan dərs deyirdilər. Pedaqoji İnstitutun Azərbaycan bölməsində tədris prosesinin təşkilində Bakıdan dəvət olunmuş professorlar Məmməd Cəfər Cəfərov, Əkbər Bayramov, Firudin Hüseynov, Xalid Əlimirzəyev, İnayət Bəktaşi, Qənbər Hüseynov, Həmid Əliyev, Yəhya Seyidov, Alməmməd Alməmmədov, Nizami Xudiyev, Bayram Əhmədov, Əlisa Şükürov, Hüseyn Əhmədov, Aydın Hacıyev, Müseyib Məmmədov, Vaqif Arzumanlı, dosent Azər Hüseynov, dosent Yunis Məmmədovun böyük xidmətləri olmuşdur. Onlar Azərbaycan dili və ədəbiyyatının, pedaqogika və psixologiyanın ən mühüm məsələləri ilə bağlı tələbələrə mühazirələr oxumuşlar. Ermənistan SSR-in dövlət və hökumət orqanlarında çalışan nüfuzlu azərbaycanlı ziyalılar da tədris prosesinə cəlb olunurdu. Görkəmli dövlət xadimi Rza Vəlibəyov, Ermənistan SSR-in maarif nazirinin müavini Suren Şərifov, «Sovet Ermənistanı» qəzetinin baş redaktoru, filologiya elmləri namizədi Məhərrəm Bayramov, redaktor müavini tarix elmləri namizədi İsrafil Məmmədov, Ermənistan Ali Məhkəməsinin üzvü Həsən Şərifov, Cəfər Cabbarlı adına Azərbaycan Dram Teatrının direktoru Hidayət Orucov, əməkdar rəssam Cabbar Quliyev, Mirzə

Fətəli Axundov adına İrəvan orta məktəbinin direktoru Adil Süleymanov və b. ayrı-ayrı vaxtlarda azərbaycanlı tələbələrə mühazirələr oxumuş, seminar məşğələləri aparmışlar.

1988-ci ildə «Qarabağ komitəsi» pedaqoji institutda imtahan prosesini tam nəzarətə almışdı. Dəhşətli və ağlasığmaz şərait yaratmaqla azərbaycanlı tələbələrin imtahanda iştirakına süni əngəllər törədir, təhdid və təhqirlərdən çəkinmirdilər. Bütün müdaxilələrə baxmayaraq, 9 nəfər tələbə müsbət qiymət aldı. Bu, Pedaqoji İnstitutun Azərbaycan şöbəsinə son tələbə qəbulu oldu.

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Fizika-riyaziyyat və Ədəbiyyat-tarix fakültələri ləğv edildi. 1961-ci ildə yalnız bir fakültə – İbtidai təhsilin pedaqogika və




*İrəvan Pedaqoji İnstitutunun 1960/61-ci il buraxılışı*




*İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin 1969/70-ci il buraxılışı*

metodikası fakültəsi fəaliyyət göstərirdi ki, orada da cəmi 25 nəfər tələbə təhsil alırdı. Fakültə 1970-ci ilə qədər fəaliyyət göstərdi. 1970-ci ildə Ədəbiyyat-tarix fakültəsi öz fəaliyyətini bərpa etdi. Erməni millətçiləri fakültədə azərbaycanlı tələbələrin sayının artmaması üçün müxtəlif maneələr yaradırdılar. Azərbaycan dili və ədəbiyyatı və tarix ixtisaslarına qəbul imtahanları zamanı xarici dil fənnindən imtahanlar aparmaq erməni müəllimlərinə həvalə edilirdi. Onlar da təbii ki, rəhbərliyin sifarişi ilə azərbaycanlı abituriyentlərin əksəriyyətinə «qeyri-kafi» qiymət yazırdılar. Bunun nəticəsi idi ki, 1975-ci ildə Xaçatur Abovyan adına İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinə 25 nəfər tələbə əvəzinə cəmi 18 nəfər qəbul edilmişdi, halbuki həmin ixtisaslara qəbul olunmaq üçün sənəd verən abituriyentlərin sayı qat-qat artıq idi.

## 5.2. AZƏRBAYCANDA ALİ MƏKTƏBLƏRİN İNKİŞAF TARİXİNDƏN

### Azərbaycan Dövlət Universiteti (Bakı Dövlət Universiteti)

1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqutu, bolşeviklərin hakimiyyətə gəlməsi ilə respublikanın, o cümlədən Bakı Universitetinin də tarixində mürəkkəb bir dövr başlandı. İlk addımlarını atan Universitetin elmi fəaliyyəti, təlim-tərbiyə işi sinfilik və partiyalılıq prinsipi ilə ölçülən yeni tələblər üzərində quruldu. Azərbaycan İnqilab Komitəsinin 10 və 22 may 1920-ci il tarixli dekretləri ilə Bakı Universiteti öz işini yenidən təşkil etmək məcburiyyətində qaldı. Universitet tələbələrinin sosial tərkibi dəyişdi. Lakin bununla belə, cəmi iki fakültə – Tarix-filologiya və Tibb fakültələri ilə fəaliyyətə başlayan Bakı Universiteti sürətlə genişlənməyə başladı.

Yarandığı gündən Universitetə rəhbərlik edən Vasili İvanoviç Razumovski *(bax: I cild səh. 230)* sovet hakimiyyətinin ilk günlərində rektor kürsüsündə qaldı. 1920-ci ilin oktyabrında həmişəlik Saratova köçüb, orada özü yaratdığı yerli universitetin Ümumi cərrahlıq kafedrasına rəhbərlik etməyə başladı.



**Sergey Nikolayeviç Davidenkov (1880–1961)**

1920–1923-cü illərdə Universitetin rektoru olmuşdur.

Vasili Razumovskidən sonra Universitetə professor **İvan Şirokoqorov** rektor təyin edildi. O, hələ 1920-ci ilin 15 iyununda rektor seçilmişdi, lakin həmin ilin avqustunda vəba epidemiyası ilə mübarizəni təşkil etmək üçün Batumiyə göndərildi. Universitetə rəhbərlik müvəqqəti olaraq Tibb və Tarix-filologiya fakültələrinin dekanları, professorlar **A.M.Levin** və **N.A.Dubrovskiyə** həvalə edildi. 1920-ci ilin 20 noyabrında tibb professoru **Sergey Nikolayeviç Davidenkov** rektor seçildi. Nizamnaməyə görə o, 1923-cü ilin noyabrına qədər bu vəzifədə qaldı. 1923-cü ilin noyabrından 1926-cı ilin payızına qədər Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsini fəlsəfə professoru **Aleksandr Dmitriyeviç Qulyayev** icra etmişdir.



**Aleksandr Dmitriyeviç Qulyayev (1870–1930)**

1923–1926-cı illərdə Universitetin rektoru olmuşdur.

1920/21-ci tədris ilində Universitetdə Fizika-riyaziyyat fakültəsi yaradıldı.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 13 iyul tarixli dekreti ilə Universitetin bütün professor-müəllim heyəti hərbi mükəlləfiyyətdən azad edildi. Universitetin müəllimləri **«əvəzedilməz işçilər»** elan olundu. XI Qızıl Ordu sıralarında xidmət edən ordinatorlar Mustafa Topçubaşov və Əsəd Hacıyev tərxis olunub Azərbaycan Dövlət Universitetinə işə göndərildilər.

Tarix-filologiya fakültəsinin tərkibində fəaliyyət göstərən şərqşünaslıq şöbəsi Universitet şurasının qərarı ilə 1922-ci il martın 30-dan etibarən müstəqil fakültəyə çevrildi.

**1922-ci il dekabrın 6-da Xalq Maarif Komissarlığı kollegiyasının qərarı ilə Bakı Universiteti Azərbaycan Dövlət Universiteti adlandırıldı.** 1924-cü il 23 yanvarda isə ona Vladimir İliç Leninin adı verildi.

1923-cü ildə Universitetin Tarix-filologiya fakültəsinin İctimai elmlər fakültəsinə çevrilməsi barədə qərar qəbul olundu. Bir il sonra, yəni 1924-cü ildə Fizika-riyaziyyat və İctimai elmlər fakültələrinin bazasında Pedaqoji fakültə yaradıldı. Buraya üç şöbə daxil idi: ictimai, riyaziyyat və təbiət şöbələri.

1927/28-ci tədris ilində Ali Pedaqoji İnstitut Universitetin Pedaqoji fakültəsinin tərkibinə verildi. 1929-cu ildə Şərqşünaslıq fakültəsi də pedaqoji fakültəyə birləşdirildi. L.A.İşkov fakültənin ilk dekanı oldu.

1927-ci ildə Şərqşünaslıq fakültəsinin nəzdində hüquq şöbəsi yaradıldı. Bir il sonra şöbə ayrılıb məhkəmə və inzibati-təsərrüfat şöbələrindən ibarət müstəqil fakültə kimi fəaliyyət göstərməyə başladı. Dövlət və hüquq nəzəriyyəsi üzrə görkəmli mütəxəssis, tanınmış hüquqşünas, Qırmızı Professura İnstitutunun məzunu, professor A.O.Mişel Universitetin Hüquq fakültəsinin ilk dekanı təyin olundu.

Hüquq fakültəsi müstəqil fakültə kimi fəaliyyətə başlayanda onun 11 kafedrası var idi:

1) hüquq və dövlət nəzəriyyəsi; 2) tarixi və dialektik materializm; 3) hüquq fəlsəfəsi; 4) təsərrüfat məişəti tarixi; 5) beynəlxalq hüquq; 6) cinayət hüququ; 7) təsərrüfat hüququ; 8) mülki hüquq; 9) dövlət hüququ; 10) ticarət-sənaye hüququ; 11) statistika.

Hüquq fakültəsi yarananda – 1928-ci ildə burada professorlar V.A.Udintsev, A.O.Mişel, N.V.Diakov, N.N.Polyanski dərs deyirdilər.

1930-cu il iyun ayında Universitetin Hüquq fakültəsinin bazasında Sovet Dövlət Quruculuğu və Hüquq İnstitutu yaradıldı. Bu instituta Böyükağa Talıblı direktor təyin edildi.

Fəaliyyətinin ilk on ilində Universitetin Nizamnaməsi beş dəfə (1919, 1920, 1922, 1923, 1926-cı illər) dəyişdirilmişdi. Azərbaycan SSR-in Xalq Komissarları Sovetinin qərarı ilə Universitetin sonuncu Nizamnaməsi **«Ali məktəblər haqqında»** Əsasnamə kimi təsdiq olunmuşdu. Bu Nizamnaməyə görə Universitetə rəhbərlik 3–5 nəfərdən ibarət idarə heyətinin əlində cəmləşdi, fənn komissiyaları, bölmə büroları və dekanlıqlar kimi Azərbaycan üçün yeni olan ali təhsili idarəetmə orqanları yaradıldı. Nizamnamə, həmçinin fakültə və şuraların səlahiyyətlərini məhdudlaşdırdı, rektorun, dekanın səlahiyyətlərini isə genişləndirdi.

1928-ci ildə Şərqşünaslıq fakültəsində etnoqrafiya şöbəsi yaradıldı. Birinci onilliyinin sonunda Universitetdə İqtisadiyyat fakültəsi də fəaliyyətə başladı.

Tibb fakültəsi Universitetin ilk iki fakültəsindən biri idi. Universitetin ilk rektoru Vasili İvanoviç Razumovski Tibb fakültəsi haqqında yazırdı ki, bu fakültə qısa müddət ərzində (8 ildə) möhkəm baza yaratmışdır. Dörd elmi cəmiyyətin əsası qoyulmuş, sanballı xüsusi elmi jurnal («Nəzəri və praktik təbabət») nəşr edilmiş, Zaqafqaziya cərrahlarının yüksək səviyyədə təşkil olunmuş qurultayı keçirilmiş, professor

Finkelşteynin redaktəsi ilə «Hesabat» dərc edilmişdir.

Universitet yarandığı ilk vaxtlarda daxili xəstəliklər və cərrahiyyə üzrə fakültə klinikaları fəaliyyət göstərirdi. 1920-ci ildə mama-ginekoloji, əsəb və ruhi xəstəliklər klinikaları, daha sonra isə uşaq, dəri-zöhrəvi xəstəlikləri, göz, burun-boğaz-qulaq klinikaları fəaliyyətə başladı.

1929/30-cu tədris ilində Universitetin nəzdində Normal anatomiya, Patoloji anatomiya, Fiziologiya, Histologiya institutları, Əczaçılıq laboratoriyası, cərrahiyyə kabineti fəaliyyət göstərməyə başladı. Həmin dövrdə Tibb fakültəsinin tərkibində 27 kafedra fəaliyyət göstərirdi.

Universitetin fakültələri içərisində tələbələrin sayına görə ikinci yeri Pedaqoji fakültə tuturdu. 1929/30-cu tədris ilində bu fakültənin tərkibində 11 kabinet (pedaqogika, riyaziyyat, botanika, kristalloqrafiya, mineralogiya, geologiya, fəlsəfə, tarix, incəsənət, türkologiya, numizmatika), 7 laboratoriya (pedologiya, qeyri-üzvi və analitik kimya, üzvi kimya, botanika, zoologiya, mikrobiologiya və fiziki kimya) fəaliyyət göstərirdi. Fakültə nəzdində, həmçinin Fizika İnstitutu, Din və Mədəniyyət Tarixi Muzeyi də mövcud idi.

Universitetin o dövr üçün zəngin kitabxanası var idi. 1920-ci ilin əvvəlində Universitet kitabxanasının fondunda 4660 kitab saxlanırdı. XI Qızıl ordunun siyasi idarəsi Universitet kitabxanasına 11 min adda müxtəlif ədəbiyyat bağışlamışdı. 1922-ci ildə Leninqraddan (Sankt-Peterburq) Universitetin ünvanına Elmlər Akademiyasının nəşrlərindən ibarət 200 pud kitab yükü göndərildi. Elə həmin ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı 7 min manat qızıl rubl ayırdı ki, bu vəsait hesabına İstanbuldan iki mindən çox kitab alındı.

1925-ci ildə xarici jurnallara abunə yazılışına başlandı. Həmin ildə Universitet kitabxanası 48 adda jurnala abunə yazıldı. Bu rəqəm 1927-ci ildə 100-ə, 1928-ci ildə 135-ə, 1929-cu ildə isə 176-ya çatdı. 1930-cu ildə Universitet kitabxanası 223 adda xarici jurnala abunə yazılmışdı, kitabxana fondunda isə 100000 nüsxə kitab var idi.

Sovet hakimiyyətinin ilk günlərindən Universitetin tələbə kontingentinin proletarlaşdırılması xətti əsas götürülmüşdü. Fəhlə fakültələrini bitirənlərin hesabına Universitetin tələbələrinin sosial tərkibi fəhlə və kəndlilərin xeyrinə sürətlə dəyişirdi.

Təkcə 1923/24-cü tədris ilində siyasi baxışlarına və sosial mənşəyinə görə 129 tələbə Universitetdən xaric edilmişdi.

*1919–1929-cu illərdə Universitetdə təhsil alanların sayı haqqında məlumat*

| Tədris illəri | Tələbələrin ümumi sayı | Tədris illəri | Tələbələrin ümumi sayı |
|---|---|---|---|
| 1919/20 | 1094 | 1924/25 | 2097 |
| 1920/21 | 1766 | 1925/26 | 2046 |
| 1921/22 | 1830 | 1926/27 | 1608 |
| 1922/23 | 1560 | 1927/28 | 1859 |
| 1923/24 | 1955 | 1928/29 | 1925 |

1922/23-cü tədris ilində tələbələrin sayının azalması yeni iqtisadi siyasətin ilk illərində həyat səviyyəsinin çox aşağı olması ilə, 1926/27-ci tədris ilində baş verən azalma isə tələbələrin bilik səviyyəsinə qoyulan yüksək tələblərlə bağlı idi. Universitetin ilk buraxılışı 1922-ci ildə oldu. 30 nəfər tibb fakültəsini bitirməsi barədə diplom aldı. Məzunların içərisində Adilə

Şahtaxtinskaya və Ceyran Sultanova adlı iki azərbaycanlı qız da vardı.

1929-cu ilə qədər Universitetin 1412 nəfər məzunu olmuşdu. Onlardan 1154 nəfəri Tibb fakültəsini, 156 nəfəri Pedaqoji fakültənin tarix şöbəsini və Tarix-filologiya fakültəsini, 83 nəfəri Pedaqoji fakültənin təbiət və riyaziyyat bölməsini, 19 nəfəri Şərqşünaslıq fakültəsini bitirmişdi.

Universitet ölkənin ilk ali təhsil müəssisəsi idi və onun yetirmələri ölkənin ümumi inkişafında mühüm rol oynayırdılar. 1924-cü ildən başlayaraq Tibb fakültəsində çoxlu sayda yüksəkixtisaslı tibb işçisi hazırlandı. 1930-cu ildə Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsinin bazasında yaradılan Azərbaycan Tibb İnstitutunun professor-müəllim heyətinin 38 nəfəri Universitetin məzunu idi. Onlardan 24 nəfəri kafedralara rəhbərlik edirdi.

Azərbaycanda ictimai elmlərin inkişafında böyük rolu olan Universitet məzunlarından akademiklər Məmməd Arif Dadaşzadə, Feyzulla Qasımzadə, İsmayıl Hüseynov, Əlisöhbət Sumbatzadə, professorlar, pedaqoji elmlər doktoru Əhməd Seyidov, Ağamməd Abdullayev, tarix elmləri doktorları Hətəm Şahmalıyev, Sara Aşurbəyli, maddi mədəniyyətimizin ilk tədqiqatçısı, Qobustan qaya rəsmlərini aşkar etmiş İsaq Cəfərzadə və b. Azərbaycan elminə əvəzsiz töhfələr vermişlər. Ədəbiyyat sahəsində də Universitet məzunlarının öz töhfəsi olmuşdur. Alim, pedaqoq və metodist Abdulla bəy Sübhanverdixanov (Divanbəyoğlu) və Azərbaycanın xalq yazıçısı Mehdi Hüseyn, böyük dramaturqumuz Cəfər Cabbarlı, poetik söz ustası Mikayıl Müşfiq də Universitetdə təhsil almışlar. Azərbaycanın xalq yazıçısı Süleyman Rəhimov «Şamo» roman-epopeyasını Universitetdə tələbə olarkən yazmağa başlamışdır. Görkəmli musiqi xadimləri, Azərbaycanın xalq artistləri Əfrasiyab Bədəlbəyli və Səid Rüstəmov da Universitetin tələbələri olmuşlar.

1922–1924-cü illərdə Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat fakültəsində sonralar çox böyük alim kimi tanınmış nəzəriyyəçi-fizik, Nobel mükafatı laureatı Lev Landau təhsil almışdır. 1926-cı ildə Azərbaycan Dövlət Universitetini bitirənlər arasında Yaxın və Orta Şərq, Zaqafqaziya və Orta Asiya ölkələrinin tanınmış tədqiqatçısı İlya Pavloviç Petruşevski də var idi.

Universitetin tarixində ən əlamətdar hadisələrdən biri ilk azərbaycanlı rektorun – görkəmli yazıçı-alim **Tağı Şahbazinin** təyin edilməsi idi. Tağı Şahbazi 1926-cı ildən 1929-cu ilə qədər Universitetə rəhbərlik etmişdir. Onun ardınca qısa müddət ərzində Universitetin



**Tağı Şahbazi (1892–1938)**

**Şahbazi Tağı Abbas oğlu (Simurq)** Bakıda anadan olmuşdur.

Bakıda realnı məktəbi bitirdikdən sonra üçüncü gimnaziyada (1913) təhsil almışdır. Xarkov darülfününun Fizika və Riyaziyyat fakültəsinin Təbiyyat şöbəsinə qəbul olunmuş, sonra (1914) darülfünunun Tibb fakültəsinə keçmişdir. Bakıda «Hümmət» təşkilatının işində (1917), Xarkovda «Cənub türk-tatar işçisi» hərəkatında (1918) fəal iştirak etmişdir.

RSFSR Xalq Milli İşlər Komissarlığı Zaqafqaziya müsəlmanları şöbəsinin katibi, şərq xalqları kommunist təşkilatları bürosunda məlumat şöbəsinin müdiri, Azərbaycan xalq maarif komissarının müavini (1922– 1923), «Maarif və mədəniyyət» jurnalının redaktoru, Azərbaycan MİK-in katibi (1923–1926), Azərbaycan Dövlət Universitetinin rektoru (1926–1929), Azərbaycan xalq səhiyyə komissarının müavini (1930–1937) vəzifələrində çalışmışdır.



**Vladimir Sergeyeviç Yelpatyevski (1877–1937)**

1929-cu ildə Universitetin rektoru olmuşdur.

rektoru vəzifəsini **Müseyib Şahbazov** (*bax: səh. 45*) yerinə yetirmişdir. 1929-cu ildə Universitetə qısa müddət ərzində görkəmli rus alimi **Vladimir Sergeyeviç Yelpatyevski** rəhbərlik etmiş, elə həmin ildən 1930-cu ilədək bu vəzifəni **Maqsud Məmmədov** (*bax: səh. 38*) yerinə yetirmişdir.

Fəaliyyətinin ilk dövrlərində Universitetin qarşısında duran əsas problemlərdən biri milli kadrlar hazırlamaq və tədricən Azərbaycan dilində tədris prosesinə keçmək idi. Mövcud rejimə və məhdudiyyətlərə baxmayaraq, hər bir ziyalı başa düşürdü ki, bu məsələ həll edilmədən Universitet Azərbaycanın mədəniyyət və təhsilinin həqiqi ocağı ola bilməz.

Hələ 1921-ci ilin mayında keçirilmiş I Ümumazərbaycan Sovetlər Qurultayının qərarında deyilirdi: «*Azərbaycanın Dövlət mədəniyyətini qaldırmaq üçün türk dili (Azərbaycan dili) mədəniyyətini layiq olduğu səviyyəyə qoymaq lazımdır. Bunun üçün: Azərbaycan Dövlət Universitetində və Politexnik İnstitutunda bütün fakültələrin tələbələrinə Azərbaycan dilinin tədrisini zəruri elan etmək lazımdır*». Bu sənəd çox böyük təşkilatçı və səfərbəredici rol oynadı. Qərarın qəbul edilməsindən sonra ali təhsil müəssisələrində, xüsusilə Universitetdə tədrisin Azərbaycan dilində aparılması işi daha da genişləndirildi.

Universitetin müəllim heyətinin azərbaycanlı kadrlarla təmin edilməsi probleminin həlli iki yolla həyata keçirilirdi. Kənardan mütəxəssislər dəvət edilməklə bərabər, Universitetin öz daxili imkanları hesabına da mütəxəssislər hazırlanırdı.

1921-ci ilin noyabrında görkəmli Azərbaycan yazıçısı Əbdürrəhim bəy Haqverdiyev tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı kafedrasına müəllim işləmək üçün dəvət olundu. Həmin dövrdə Abdulla Tağızadə də Universitetdə işləməyə başladı.

Azərbaycanda kimya elminin və təhsilinin əsasını qoyanlardan biri – Sadıq Cavad oğlu Hüseynov 1921-ci ildə Universitetdə işləmək üçün dəvət aldı. Sadıq Hüseynov 1910-cu ildə Almaniyanın Darmştadt şəhərində ali texniki məktəbi bitirmişdi. 1913-cü ildə Kiyev Universitetinə qəbul olunmuş, ikinci diplom almışdı. 1929-cu ilin noyabrında Sadıq Hüseynov Kimya kafedrasının privat dosenti, 1930-cu ildə isə dosenti seçildi, 1939-cu ildə kimya professoru adı aldı. O, bu ada layiq görülən ilk azərbaycanlı müəllim idi.

1923-cü ildən etibarən Universitetin kiçik akademik tərkibi azərbaycanlı kadrların hesabına genişlənməyə başladı. Eyni vaxtda azərbaycanlı tələbələrin də sayı artdı. 1929/30-cu tədris ilində azərbaycanlı tələbələr Universitet tələbələrinin yarıdan çoxunu təşkil edirdi. Əgər fakültələr üzrə inkişaf dinamikasını izləsək, belə bir mənzərə alınar: 1925/26–1929/30-cu tədris illəri arasında azərbaycanlı tələbələrin sayının ümumi tələbələrin sayına olan nisbəti Tarix-filologiya fakültəsində 7%-dən 57,6%-ə, Təbiət-riyaziyyat fakültəsində 6%-dən 76,3%-ə yüksəlmişdi. İqtisad fakültəsində tələbələrin 36%-i azərbaycanlılar idi.

1927-ci ilin payızında Ali Pedaqoji İnstitut Azərbaycan Dövlət Universitetinin Pedaqoji fakültəsinə birləşdirildi.

*Universitetdə fəaliyyət göstərən azərbaycanlı elmi-pedaqoji işçilərin sayı*

| Tədris illəri | Azərbaycanlı elmi-pedaqoji işçilər | Faizlə |
|---|---|---|
| 1919/20 | 9 | 20,5 |
| 1920/21 | 26 | 11,8 |
| 1921/22 | 34 | 15,8 |
| 1922/23 | 53 | 29,1 |
| 1923/24 | 86 | 34,5 |
| 1924/25 | 117 | 36,0 |
| 1925/26 | 126 | 40,5 |
| 1926/27 | 128 | 42,2 |

Universitetə milli kadrların cəlb edilməsi işi Tağı Şahbazi rektor olduqdan sonra daha geniş vüsət aldı. O, Universitet komsomol təşkilatının 1928-ci il fevralın 9-da keçirilən iclasında qeyd etmişdi: *«Axı türkləşməni yüz faiz həyata keçirmək üçün bir əmr və yaxud qərar kifayət eləmir! Türkləşmə o vaxt həyata keçər ki, fənlərin tədrisini tapşırmaq üçün müvafiq kadrlar olsun. İş ondadır ki, bizim bu cür elmi qüvvələrimiz yoxdur. Ona görə də qarşımızda duran məsələlərdən biri türkləşmə ilə əlaqədar elmi əməkdaşların hazırlanmasıdır... Bu cür elmi əməkdaşları biz gündüz çıraqla axtarırıq».*

**1926-cı ildə Azərbaycan K(b)P MK-nın tapşırığı ilə respublikanın ali məktəblərində aspirantura yaradıldı.** 1929-cu ildə Universitetdə artıq 35 aspirant var idi.

Azərbaycanlı elmi-pedaqoji işçilərin sayı ildən-ilə artırdı. Bunu aşağıdakı cədvəldən də görmək olar:

*1919–1929-cu illərdə Azərbaycan Dövlət Universitetinin elmi-pedaqoji tərkibi*

| Tədris illəri | Professorlar | Dosent və privat dosentlər | Müəllimlər, mühazirəçilər və s. | Cəmi |
|---|---|---|---|---|
| 1919/20 | 12 | 3 | 29 | **44** |
| 1920/21 | 25 | – | 131 | **156** |
| 1921/22 | 36 | 6 | 133 | **175** |
| 1922/23 | 41 | 10 | 169 | **220** |
| 1923/24 | 12 | 12 | 173 | **225** |
| 1924/25 | 40 | 19 | 123 | **182** |
| 1925/26 | 43 | 20 | 186 | **249** |
| 1926/27 | 43 | 30 | 246 | **319** |
| 1927/28 | 50 | 25 | 229 | **304** |
| 1928/29 | 52 | 30 | 229 | **311** |

1929-cu ilin yanvarında Universitetdə «Tələbə-Müəllimlər» İnstitutu təşkil olundu. Bununla Universitetin yuxarı kurslarında təhsil alan tələbələrə aşağı kurslarda dərs demək imkanı yaradıldı. Tələbə-Müəllimlər İnstitutunun Əsasnaməsində deyilirdi: *«Ali təhsil müəssisə»lərimiz üçün elmi işçilərin planlı şəkildə hazırlanması məqsədilə namizədlərin seçimində üstünlük türk (Azərbaycan) dilini bilənlərə və türkcə (azərbaycanca) yazmağı bacaranlara verilməlidir».* 20-ci illərdə aparılan çox gərgin iş nəticəsində Azərbaycan Dövlət Universitetinin elmi-pedaqoji tərkibi yalnız kəmiyyətcə deyil, həm də keyfiyyətcə yüksəldi.

Şərqşünaslığın problemləri ilə məşğul olan yüksəkixtisaslı kadrlara böyük ehtiyac hiss olunurdu. Bununla əlaqədar müvəqqəti də olsa, vəziyyətdən çıxmaq üçün Moskvadan və xarici ölkələrdən Azərbaycan dilini bilən tanınmış mütəxəssislər dəvət edildi. Universitetin dəvəti ilə akademiklər – Nikolay Yuryeviç Marr və Vasili Vladimiroviç Bartold Bakıya gəlib öz ixtisasları üzrə mühazirə kursları təşkil etdilər. Akademik Aleksandr Nikolayeviç Samoyloviç və İvan İvanoviç Meşşaninov Bakıda şərqşünaslıq fakültəsində qədim şərqin tarixindən mühazirələr oxumağa başladılar. Görkəmli türk alimi – Şərq Elmlər Akademiyasının həqiqi üzvü Fuad bəy Köprülüzadə Bakıda olarkən Universitetdə qədim türk ədəbiyyatı kursundan mühazirə oxumuşdur.

Beləliklə, Azərbaycan Dövlət Universitetinin birinci onilliyində bir sıra təxirəsalınmaz vəzifələr yerinə yetirildi və bu uğurlar **1930-cu il yanvarın 12-də Bakı Opera Teatrının binasında keçirilən yubiley mərasimində xüsusi qeyd olundu.** Universitetin 10 illik yubileyində xalq maarif komissarı Ağa Sultanov *(bax: səh. 40)* rus dilində, onun müavini Ayna Sultanova *(bax: səh. 40)* isə Azərbaycan dilində çıxış etdilər.

ÜİK(b)P MK-nın 1929-cu il noyabr plenumunun **«Xalq təsərrüfatı kadrları haqqında»** qərarı ali təhsil sistemində ciddi dəyişikliklərə səbəb oldu. Qərarda sənayenin sürətli inkişafı və kənd təsərrüfatının sosialist prinsipləri əsasında yenidən qurulması ilə bağlı ixtisaslı kadrlara ehtiyac olduğu vurğulandı və vəziyyətdən çıxış yolu kimi texniki institut və universitetlərin fakültələrinin bazasında müstəqil sahə institutlarının yaradılmasına qərar verildi. Həmin dövrdə SSRİ-nin bir çox universitetləri – Qorki, Perm, Sverdlovsk, Tbilisi, Yerevan və s. universitetlər kimi **Azərbaycan Dövlət Universiteti də bağlandı.**

Azərbaycan Dövlət Universitetinin 1930-cu ildə bağlanmasını təhsil şəbəkəsinin genişləndirilməsi məqsədilə yox, siyasi səbəblərlə bağlayan tədqiqatçılar da var. Bu tədqiqatçıların fikrincə, sosializm sisteminin uğursuz quruluş, kommunizmin isə xülya olduğunu başa düşən ziyalıların böyük əksəriyyətinin toplaşdığı universitet hər zaman dövlət üçün siyasi partlayış mənbəyi kimi Mərkəzi narahat edirdi. 1926-cı ildə Bakıda keçirilən I Ümumtürk Qurultayı, Universitet divarları arasında milli kadrların sürətlə artması, 1929-cu ildə Azərbaycanda latın qrafikasına keçilməsi və digər bu kimi amillər milli məfkurənin və milli özünüdərkin formalaşması kimi çox «təhlükəli» sindromlar yaradırdı. Bu işıqlı ideyaların mərkəzi isə Universitet idi. Ona görə də, əvvəldə qeyd etdiyim kimi, Universitetin bağlanmasını bir sıra tədqiqatçılar siyasi rejimin təhlükəsizliyi naminə atılmış bir addım hesab edirlər.

Azərbaycan SSR XKS-nin 1930-cu il 10 iyun tarixli qərarı ilə Universitetin ayrı-ayrı fakültələrinin bazasında aşağıdakı müstəqil sahə institutları yarandı:

1) İqtisadiyyat fakültəsinin bazasında Ticarət-Kooperasiya İnstitutu – tədris dili türk (Azərbaycan) dili;

2) Pedaqoji fakültə və Ali Pedaqoji İnstitut vahid Pedaqoji İnstituta çevrildi və Xalq Maarif Komissarlığının tabeliyinə verildi. Burada da tədris dili türk dili idi;

3) Hüquq fakültəsinin bazasında Sovet Quruculuğu və Hüquq İnstitutu yaradıldı. Tədris

türk (Azərbaycan) və rus dillərində aparılan bu institut Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin tabeliyinə verildi;

4) Tibb fakültəsi bazasında Tibb İnstitutu yaradıldı və Xalq Səhiyyə Komissarlığının tabeliyinə verildi. Bu institutda da tədris türk (Azərbaycan) və rus dillərində aparılırdı.

Universitetin sənaye-iqtisad şöbəsi isə Neft İnstitutuna verildi və müstəqil fakültəyə çevrildi. Beləliklə, 1930/31-ci tədris ilində Universitetin bazasında dörd müstəqil institut yaradıldı.

1932/33-cü tədris ilində bağlanmış universitetlər bərpa olunmağa başladı. Azərbaycan Ali Pedaqoji İnstitutu tərəfindən Universitetin bərpa olunması haqqında «Təklif» hazırlandı. «Təklif»də Universitetin bərpa edilməsinin son dərəcə vacib olması əsaslandırıldı. «Təklif» bəyənilsə də, Universitetin bərpa prosesi iki il uzandı. **1934/35-ci tədris ilində Azərbaycan Dövlət Universiteti də bərpa olundu.**

1930-cu ildə fəaliyyəti dayandırılanda Universitetin daşıdığı ad (Vladimir İliç Lenin) Azərbaycan Pedaqoji İnstitutuna verilmişdi. 1934-cü ildə bərpa olunanda Azərbaycan Dövlət Universitetinə sosialist inqilabının nüfuzlu xadimlərindən biri olan Sergey Mironoviç Kirovun adı verildi.

1934-cü ilin yayında Universitet dörd fakültə ilə fəaliyyətə başladı. Bunlar Fizika-riyaziyyat, Kimya, Biologiya və Tarix fakültələri idi. 1935-ci ilin aprelində Universitetin 52 nəfərdən ibarət akademik heyəti təşkil olundu. Bunlardan 10 nəfəri professor, 14 nəfəri dosent, 13 nəfəri assistent, 10 nəfəri müəllim, 3 nəfəri kabinet müdiri, 1 nəfəri məsləhətçi idi, daha 1 nəfəri isə hazırlıq kurslarına rəhbərlik edirdi. Həmin il imtahan verən 444 abituriyentdən 218-i Universitetə qəbul olundu.

Bununla belə, 30-cu illərin amansız repressiyaları Universitetin milli ruhlu kollektivindən də yan keçmədi. Bu illər Universitetin müəllim və tələbə kollektivi üçün də qorxulu, səksəkəli illər oldu. Bu dövrdə neçə-neçə professor, müəllim, işçi və tələbəyə «xalq düşməni», turançı, pantürkist, panislamist damğaları vuruldu.

Təqiblər, hədə-qorxular ziyalılarımızın fəaliyyətini məhdudlaşdırır, onların müstəqilliyini əllərindən alırdı. O illərdə amansız repressiyaların qurbanı olmuş, Sibirin həbs düşərgələrinə sürgün olunmuş və ya güllələnmiş Əli Nazim, A.Bukşpan, Əziz Übeydulin, Vəli Xuluflu, Bəkir Çobanzadə, Tağı Şahbazi, Həmid bəy Şahtaxtinski, Məmmədkazım Ələkbərli kimi unudulmaz ziyalılarımızın xatirəsi bu gün dərin hörmət və ehtiramla yad edilir.

Azərbaycanın elm və mədəniyyət tarixinə qanlı hərflərlə yazılan 1937-ci il Bakı Dövlət Universitetinə ağır zərbələr vurdu. 1937-ci ilin qırmızı terroru Universitetin 100 nəfərədək ziyalısını məhvə məhkum etdi. Elə bu faktı qeyd etmək kifayətdir ki, yalnız 1937-ci ildə Universitetdən iki dekan, iki dekan müavini, dörd kafedra müdiri, kitabxana direktoru, elmi katib, xüsusi hissə müdiri, partiya və komsomol təşkilatlarının rəhbərləri, səkkiz professor, həmçinin Universitetin rektoru olmuş dörd görkəmli ziyalı (Tağı Şahbazi, Məmmədkazım Ələkbərli, Balabəy Həsənbəyov, Maqsud Məmmədov) ən ağır cəzaya – güllələnməyə məhkum edildilər. Repressiya illərində həyatına son qoyulan ziyalılardan biri, yazıçı, publisist,

ictimai xadim Tağı Abbas oğlu Şahbazi gənc yaşlarından məsul işlərdə çalışmış, Azərbaycanda sovet rejimi qurulduqdan sonra bir sıra mühüm vəzifələrdə işləmişdir.

Tağı Şahbazi guya «əks-inqilabi millətçi mövqedə durduğu və əks-inqilabi millətçi təşkilatın tərkibinə daxil olduğu və Sovet hökuməti əleyhinə silahlı üsyana hazırlıq haqqında və əks-inqilabi təşkilatın Azərbaycan K(b)P-nin rəhbərlərinə qarşı terror tətbiq etmək haqqındakı niyyətlərindən xəbərdar olduğu üçün» 1937-ci il noyabrın 2-də Azərbaycan SSR XDİK Dövlət Təhlükəsizlik İdarəsi tərəfindən həbs olundu. 1938-ci il yanvarın 2-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qapalı şəraitdə, müdafiəçisiz, ittihamçısız və şahidlərsiz keçən məhkəmə iclasında Tağı Şahbazi əmlakı müsadirə olunmaqla ən ağır cəzaya – güllələnməyə məhkum edildi.

1929/30 və 1934/35-ci illərdə ADU-nun rektoru vəzifəsini daşıyan ziyalılarımız **Maqsud Məmmədov, Balabəy Həsənbəyov, Məmmədkazım Ələkbərli** də repressiyaya məruz qalmışlar.

1934-cü ildə BDU bərpa edilərkən onun rektoru vəzifəsinə Məmmədkazım Ələkbərli təyin edilmişdi. O, bu vəzifədə 1935-ci ilin yanvarına qədər işlədi.

1935–1937-ci illərdə Universitetə **Balabəy Həsənbəyov** rəhbərlik etmişdir.

Azərbaycan tarixinin ən çətin illərindən olan 1937-ci ildə **Əziz Əliyev** Universitetdə rektor kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Dövlət Universiteti 1934/35-ci tədris ilində fəaliyyətə başladı, Filologiya fakültəsi isə fəaliyyətini 1939-cu ilin avqust ayından davam etdirdi. 1939/40-cı tədris ilində filologiya fakültəsinin nəzdində yeddi kafedra fəaliyyət göstərmişdir: Azərbaycan dilçiliyi; Ümumi dilçilik; Azərbaycan ədəbiyyatı; Azərbaycan dilinin praktik kursu; Rus dilçiliyi; Rus dilinin praktik kursu; Klassik filologiya.

1943-cü ilin oktyabrında Filologiya fakültəsində Şərq şöbəsi açılmış, qısa bir müddətdən sonra Şərq fakültəsi kimi fəaliyyət göstərmişdir.

1945/46-cı tədris ilində Filologiya fakültəsində jurnalistika, 1947/48-ci tədris ilində kitabxanaçılıq, məntiq, psixologiya və Azərbaycan dili şöbələri açıldı.

Bu illərdə Əkrəm Cəfər, Məmmədağa Şirəliyev, Həbibullah Səmədzadə, Cəfər Xəndan Hacıyev, Məmməd Cəfər Cəfərov, Yusif Əliyev, Mikayıl Rəfili, Feyzulla Qasımzadə, Mircəlal Paşayev, Əli Sultanlı, Məmməd Arif Dadaşzadə, Qulam Ələkbərli kimi görkəmli alimlər BDU-nun Filologiya fakültəsində elmi-pedaqoji



**Məmmədkazım Ələkbərli (1905–1937)**

**Ələkbərli Məmmədkazım Ələkbər oğlu** Dərbənddə anadan olmuşdur. Xalq Təhsil Şöbəsində müəllim işlədikdən sonra (1921–1924) Ali Pedaqoji İnstituta daxil olmuş və həmin institutu bitirib Gəncə Xalq Təhsil Şöbəsinin müdiri (1927–1931) vəzifəsində çalışmışdır. Moskvada Qırmızı Professorlar İnstitutunda təhsil almışdır (1931–1934). BDU-ya rektor təyin olunmuş və fəlsəfə kafedrasının müdiri seçilmişdir (1934). 1934-cü ildən Azərbaycan Yazıçılar İttifaqının sədri vəzifəsində çalışmışdır. «Vışka» qəzetinin redaktoru (1935–1937), az bir müddətdə isə Azərbaycan Partiya Nəşriyyatının direktoru vəzifəsində işləmişdir.

1937-ci ilin avqustunda həbs edilmiş, 1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qapalı məhkəmə iclasında əmlakı müsadirə olunmaqla güllələnməyə məhkum edilmişdir.



**Balabəy Həsənbəyov (1899–1937)**

**Həsənbəyov Balabəy Cabbar oğlu** 1899-cu ildə Gəncə şəhərində anadan olmuşdur. Moskvada Qırmızı Professorlar İnstitutunu bitirmiş, qısa müddətdə respublikanın görkəmli iqtisadçı (sovet hakimiyyəti illərində bu elm sahəsi siyasi iqtisad adlanırdı) alimlərindən biri kimi Azərbaycanın hüdudlarından kənarda da tanınmışdır.

ADU-da rektor olmaqla yanaşı, həmçinin siyasi iqtisad kafedrasına da başçılıq edirdi.

1937-ci il yanvarın 28-də Azərbaycan SSR Dövlət Təhlükəsizlik İdarəsi tərəfindən «əks-inqilabi trotskiçi təşkilatının üzvü olması, Rusiya K(b)P-yə və Sovet hökumətinə qarşı silahlı üsyan hazırlanmasında iştirak etməsi, mədəni cəbhədə ziyankarlıq işi aparması, terrorun tərəfində durması» kimi əsassız ittihamlarla həbs olunmuşdur. 1937-ci il oktyabrın 11-də onun işi ilə bağlı SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının saat 17:45-də işə başlayan və cəmi 15 dəqiqə davam edən, ittihamçısız və şahidlərsiz keçən bağlı məhkəmə iclasında əmlakı müsadirə olunmaqla ən ağır cəzaya – güllələnməyə məhkum edilmişdir.

fəaliyyət göstərmişlər.

Azərbaycan dövlət Universitetinin 1934-cü ildən etibarən müstəqil şəkildə fəaliyyətini davam etdirən Tarix fakültəsi yüksəkixtisaslı tarixçi kadrları hazırlayan nüfuzlu elm mərkəzi olmuşdur. Bu fakültənin fəaliyyət göstərdiyi ilk dövrdə burada məşhur alimlər: akademiklər Vasili Vladimiroviç Bartold, Nikolay Yakovleviç Marr, Aqafanyel Yefimoviç Fromski, professorlar Panteleymun Krestoviç Jüze, Əziz Salihoviç Übeydulin, Bəkir Çobanzadə, İsak Cəfərzadə və b. dərs demişlər.

İkinci Dünya müharibəsi başlanan zaman ali məktəb müəllimlərinin və tələbələrinin cəbhəyə getməsi ilə əlaqədar olaraq bir neçə ali məktəb, o cümlədən Azərbaycan Xalq Təsərrüfatı İnstitutu Azərbaycan Dövlət Universitetinə birləşdirildi. Hüquq fakültəsi də o zamandan etibarən ADU-da fəaliyyətə başladı. Müharibə ilə əlaqədar Hüquq fakültəsinin də qiyabi şöbəsi açıldı. 1944-cü il, aprelin 30-dan etibarən bu fakültədə dördillik təhsil müddəti tətbiq edildi. Hüquq fakültəsi ADU-da fəaliyyətə başlayanda onun dörd kafedrası vardı: Mülki hüquq; Cinayət hüququ; Beynəlxalq hüquq; Dövlət hüququ. Bu dövrdə Hüquq fakültəsində istedadlı hüquqşünaslardan Qasım Cəfərov və Məmməd Quliyev pedaqoji fəaliyyət göstərmişlər.



**Əziz Məmmədkərim oğlu Əliyev (1897–1962)**

1937-ci ildə Universitetin rektoru olmuşdur.

Bərpa olunduqdan sonra, 1939-cu ildə Universitetin 98 nəfərdən ibarət ilk buraxılışı oldu. Bu buraxılış Azərbaycan elminə görkəmli simalar bəxş etdi. Akademik, kimya elmləri doktoru, iki dəfə SSRİ Dövlət mükafatı laureatı Əli Quliyev, akademiklər, geologiya-mineralogiya elmləri doktoru Şəfaət Mehdiyev, texnika elmləri doktoru Məcid Mərdanov, tarix elmləri doktoru Məmməd Qazıyev və bir çox görkəmli alimlər Universiteti həmin ildə bitirmişdilər.

Sonrakı iki ildə Universiteti 399 nəfər bitirdi (müvafiq olaraq 1939/40-cı tədris ilində 146, 1940/41-ci tədris ilində 253 nəfər).

1939/40-cı tədris ilində Universitetdə 39 kafedra, 14 laboratoriya və 15 kabinet fəaliyyət



**Cəbrayıl Ələsgərov (1907–1969)**

**Ələsgərov Cəbrayıl Ağəli oğlu** Şamaxıda anadan olmuşdur.

Azərbaycan Sənaye İnstitutunu bitirmişdir.

1937-ci ilin noyabrında Bakı Dövlət Universitetinin rektoru vəzifəsinə təyin edilmişdir.

1938-ci ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir.

Müharibə illərində maarif nazirinin müavini vəzifəsində çalışmışdır.

Azərbaycan K(b)P MK bürosunun 1–3 aprel 1944-cü il tarixli qərarına əsasən Təbrizdə açılmış azərbaycandilli 10 illik məktəbin direktoru vəzifəsinə təyin edilmişdi.

göstərirdi. Universitet kitabxanasının fondu 204613 nüsxə kitabdan ibarət idi.

1940/41-ci tədris ilində Universitetin akademik heyəti 226 nəfərdən ibarət idi. Bunlardan 17 nəfəri elmlər doktoru, professor, 54 nəfəri isə dosent idi.

İkinci Dünya müharibəsi başlayarkən Universitetin müəllim və tələbə kollektivindən 200 nəfər könüllü cəbhəyə yola düşdü. Həmin dövrdə Universitetə **Cəbrayıl Ələsgərov** rəhbərlik edirdi. O, 1937–1941-ci illərdə ADU-nun rektoru vəzifəsində işləmişdi. Müharibə başlayan kimi Cəbrayıl Ələsgərov cəbhəyə getdi. Rektor vəzifəsinə **Şamil Əliyev** təyin olundu və 1941–1944-cü illərdə ADU-ya rəhbərlik etdi.

Müharibənin ilk ilində Azərbaycan Pedaqoji İnstitutu və Qiyabi Pedaqoji İnstitut Universitetə birləşdirildi. Xalq Təsərrüfatı İnstitutu Universitetin İqtisadiyyat fakültəsinə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu Fiziki tərbiyə fakültəsinə çevrildi. Bütün iri şəhərlər kimi, Bakıda da partiya və hökumətin 1937-ci il tarixli qərarı ilə açılmış xarici dil fakültələri də Universitetin tərkibinə daxil edildi. Bu birləşmələr nəticəsində Universitet xeyli genişləndi.

1943/44-cü tədris ilinin birinci yarısında Universitetdə Geologiya-coğrafiya fakültəsi yaradıldı.

1944-cü ilin əvvəlində Azərbaycan Xalq Komissarları Şurası və Kommunist Partiyası Mərkəzi Komitəsi şərq xalqlarının tarixinin və dillərinin öyrənilməsini gücləndirmək barədə qərar qəbul etdi. Bu qərar əsasında Universitetdə 1943/44-cü tədris ilində Filoloji fakültənin şərq şöbəsi fəaliyyətə başladı. Beləliklə, 1943/44-cü tədris ilində Universitetdə 49 kafedra, 10 fakültə fəaliyyət göstərirdi. Bunlar, fizika-riyaziyyat, kimya, biologiya, tarix, filologiya, hüquq, iqtisadiyyat, xarici dillər, fiziki tərbiyə və geologiya-coğrafiya fakültələri idi. Həmin illərdə Universitet bir-birindən təxminən 2 kilometr məsafədə olan 7 binada yerləşirdi.



**Şamil Rəhim oğlu Əliyev (1912–1969)**

1941–1944-cü illərdə Universitetin rektoru olmuşdur.

Müharibənin yaratdığı çətinliklərlə əlaqədar olaraq, Universitetin tədris planlarında dəyişikliklər edildi. Müharibə başlayan il təhsil müddəti 3–4 ilə endirildi. 1942/43-cü tədris ilində isə Universitetdə təhsil müddəti yenidən 5 ilə qaldırıldı.

1943-cü ildə Universitetdə mövcud olan qiyabi Pedaqoji fakültənin bazasında qiyabi şöbə yaradıldı. İlk dövrdə şöbənin tərkibinə 8 fakültə



**Abdulla İsmayıl oğlu Qarayev (1910–1968)**

1944–1950-ci illərdə Universitetin rektoru olmuşdur.

daxil idi. Bunlar Filologiya, Tarix, Hüquq, Şərq, Biologiya, Geologiya-coğrafiya, Fizika-riyaziyyat və Kimya fakültələri idi. Ümumilikdə, bu fakültələrdə 230 qiyabiçi tələbə təhsil alırdı. Bunların arasında Gürcüstan, Ermənistan, Özbəkistan, Türkmənistan və digər sovet respublikalarının nümayəndələri də var idi.

Universitetin həyatında başqa bir əlamətdar hadisə 1944-cü ilin yanvarında onun nəzdində Fizika-Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun yaradılması oldu. Əməkdar elm xadimi, professor Məmməd Əfəndiyev həmin instituta direktor təyin edildi.

1944–1950-ci illərdə Universitetə **Abdulla Qarayev** rəhbərlik etmişdir *(bax: səh. 328)*

Müharibədən sonra 1945/46-cı tədris ilində Universitetin fəaliyyətində böyük dəyişikliklər baş verdi. Bir sıra yeni fakültələr, şöbələr, laboratoriyalar və kabinetlər yaradıldı. Elmi-tədqiqat işlərinin genişləndirilməsi üçün əlavə imkanlar açıldı. 1946/47-ci tədris ilində Universitetin 8 fakültəsi var idi:

- Filologiya fakültəsi (tərkibində filologiya, jurnalistika və sənətşünaslıq bölmələri fəaliyyət göstərirdi);
- Tarix fakültəsi (tərkibində tarix və fəlsəfə bölmələri fəaliyyət göstərirdi);
- Şərqşünaslıq fakültəsi (tərkibində İran və türk bölmələri fəaliyyət göstərirdi);
- Geologiya-coğrafiya fakültəsi (geologiya, coğrafiya və geofizika bölmələrini birləşdirirdi);
- Hüquq fakültəsi;
- Fizika-riyaziyyat fakültəsi;
- Kimya fakültəsi;
- Biologiya fakültəsi.

1948/49-cu tədris ilində yeni kabinet və laboratoriyalar yaradıldı. Bunlar rus dili, paleontologiya, kriminalistika kabinetləri və çökmə süxurlar, rentgenostruktur analizi laboratoriyası və üzvi sintez üzrə xüsusi laboratoriya idi.

50-ci illərin ortalarından başlayaraq hüquq fakültəsi nəinki təkcə Universitetin, ümumiyyətlə, bütün respublika üzrə ali məktəblərin öncül fakültəsinə çevrilmişdi. Fakültənin istər professor-müəllim heyətinin, istərsə də məzunlarının respublikanın elmi-ictimai həyatındakı işləri sürətlə artırdı. Hüquq fakültəsinin alimlərindən professor Vahid Qəhrəmanov, dosentlər Əziz Əsədov, Tofiq Qafarov, İsa Məmmədov, Qasım Manayev, Cəfər Mövsümov, Məmməd Xələfov, Lidiya Şuster və başqaları mülki, cinayət, mülki-prosessual və cinayət-prosessual məcəllələrinin, habelə digər vacib hüquqi aktların, dövlət sənədlərinin, layihələrinin işlənib hazırlanmasında fəal iştirak edirdilər.

Universitetin aparıcı humanitar fakültələrindən biri də 1947/48-ci tədris ilində ADU-nun Filologiya fakültəsinin nəzdində təşkil olunan, 1962-ci ilin oktyabr ayından isə Universitetdə müstəqil fəaliyyətə başlayan Kitabxanaçılıq fakültəsidir. Fakültənin yaranmasında tarix elmləri doktoru, professor Abuzər Xələfovun böyük xidməti olmuşdur.

Kitabxanaçılıq fakültəsinin elmi simasının formalaşmasında görkəmli biblioqraf-alim Əliheydər Qəhrəmanovun, dosentlər Elman Bədəlovun, Sahib Rzayevin, Hacı Həsənovun, Tacəddin Quliyevin, Zöhrab Baxşəliyevin, Fərman Bayramovun, Rasim Kazımovun, Mayıl Həsənovun və b. xidmətləri böyükdür.

70–80-ci illərdə də Universitetin Kitabxanaçılıq-informasiya fakültəsi aparıcı humanitar fakültələrdən biri olmuşdur. 1970–1979-cu illərdə bu fakültəyə əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyev rəhbərlik etmişdir. Bu dövrdə Universitetin Kitabxanaçılıq-informasiya fakültəsində peşəkar kadrların hazırlanmasında alim-pedaqoqlardan Abuzər Xələfovun, Bayram Allahverdiyevin, Hacı Həsənovun, Əşrəf Xələfovun, Xəlil İsmayılov, Əli Rüstəmovun və başqalarının çox böyük xidmətləri olmuşdur.

1959-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun bağlanması ilə əlaqədar olaraq, Universitetdə İqtisadiyyat və Əmtəəşünaslıq fakültələri yarandı.

Yuxarıda qeyd olunduğu kimi, Universitetin fakültələrinin müxtəlif ünvanlarda yerləşməsi onun işinə mənfi təsir göstərirdi. 1952/53-cü tədris ilinin əvvəllərində Hüquq fakültəsi yeni binaya köçürüldü. 1954/55-ci tədris ilində Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutuna aid olan binada Geoloji coğrafiya fakültəsinin 3 kafedrası yerləşdirildi. Artıq 1954/55-ci tədris ilində Universitetin fakültələri 4 binada yerləşmişdi.

50-ci illərdə Universitetə **Cəfər Xəndan Hacıyev** (1950– 1954), akademik **Yusif Məmmədəliyev** (1954–1958), akademik **Şəfaət Mehdiyev** (1958–1965) rəhbərlik etmişlər.



**Cəfər Xəndan Hacıyev (1910–1961)**

**Hacıyev Cəfər Xəndan Zeynal oğlu** İrəvan şəhərində anadan olmuşdur. Müəllimlər İnstitutunda Dil və ədəbiyyat fakültəsinin dekanı. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda kafedra müdiri. Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunda şöbə müdiri, Azərbaycan Yazıçılar Birliyində təşkilat katibi, «Ədəbiyyat» qəzetinin məsul katibi vəzifələrində çalışmışdır. Doktorluq dissertasiyası müdafiə etmiş, filologiya elmləri doktoru (1948) elmi dərəcəsi və professor elmi adı almışdır (1949). Azərbaycan Dövlət Universitetində filologiya fakültəsinin dekanı, rektoru (1950–1954) və Sovet ədəbiyyatı kafedrasının müdiri (1958–1961) vəzifələrində işləmişdir. Qırmızı Ulduz (1942), Qırmızı Əmək Bayrağı (1946) ordenləri ilə təltif edilmişdir. Çoxlu sayda bədii əsərin və tərcümə ədəbiyyatının müəllifidir.

Azərbaycanda bir sıra sahələr üzrə elmi məktəblərin yaranmasında Universitet mühüm rol oynadı. Azərbaycan Elmlər Akademiyasının akademikləri, fizika-riyaziyyat elmləri doktorları Zahid Xəlilov, Əşrəf Hüseynov, İbrahim İbrahimov, Məcid Rəsulov, Azərbaycan EA-nın müxbir üzvləri, professorlar Maqsud Cavadov, Yusif Əmənzadə, Qoşqar Əhmədov və başqaları riyaziyyat sahəsində milli elmi yaradıcılığın pionerləri hesab olunurdular.

Bu alimlərin elmi tədqiqatları sayəsində respublikada riyaziyyat elmi dəyərli nəticələrlə zənginləşmiş, onun beynəlxalq nüfuzu yüksəlmişdi. Akademik Zahid Xəlilov Azərbaycanda funksional analiz məktəbini, akademik Əşrəf Hüseynov sinqulyar inteqral tənliklər nəzəriyyəsini, professor Maqsud Cavadov riyaziyyatın tədrisi metodikasını, akademik İbrahim İbrahimov analitik funksiyalar məktəbini, akademik Məcid Rəsulov



**Yusif Məmmədəliyev (1905–1961)**

**Məmmədəliyev Yusif Heydər oğlu** Ordubad şəhərində anadan olmuşdur.

Azərbaycan Ali Pedaqoji İnstitutunu bitirmişdir (1926). Kimya elmləri doktoru (1942), professor (1942), Azərbaycan SSR EA-nın akademiki (1945) və prezidenti (1947–1951 və 1958–1961), SSRİ EA-nın müxbir üzvü (1958), SSRİ Dövlət mükafatı laureatı (1946) olmuşdur. Azərbaycan SSR EA-nın Fizika, Kimya və Neft bölməsinin akademik-katibi (1951–1954), Azərbaycan Dövlət Universitetinin rektoru (1954–1958) vəzifələrində işləmişdir. Eyni zamanda Dmitri İvanoviç Mendeleyev adına Ümumittifaq Kimyaçılar Cəmiyyəti Azərbaycan İdarə Heyətinin sədri olmuşdur (1957–1961).

Azərbaycanda Astrofizika rəsədxanası, Əlyazmalar fondu, Sumqayıt Kimya elmi mərkəzi və digər müəssisələrin təşkili onun adı ilə bağlıdır.

SSRİ Ali Sovetinin (5-ci çağırış) və Azərbaycan SSR Ali Sovetinin (4-cü çağırış) deputatı olmuş, Lenin ordeni, Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir. 200-dən artıq elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir.

kontur inteqralı nəzəriyyəsini, professor Yusif Əmənzadə elastiklik nəzəriyyəsini, professor Qoşqar Əhmədov qeyri-xətti tənliklərin həlli və budaqlanması, optimal idarəetmənin riyazi üsulları nəzəriyyəsini yaratmışlar. Məhz bu alimlərin səyi nəticəsində Azərbaycanda riyaziyyat elmi yüksək səviyyəyə qalxdı, yeni riyaziyyatçılar nəsli – Azərbaycan EA-nın müxbir üzvləri, professorlar Arif Babayev, Yəhya Məmmədov, Mais Cavadov, akademiklər Fərəməz Maqsudov, Mirabbas Qasımov, Cəlal Allahverdiyev, elmlər doktorları Həşim Ağayev, Qəmbər Namazov, Kazım Həsənov, Camal Məmmədxanov, Rzabala Fərəcov, Rüstəm Sultanov, Valeriy Salayev, Əli Novruzov, Rəşid Məmmədov, Əmir Həbibzadə, Hüseyn Çəndirov, Telman Əliyev, Karlen Xudaverdiyev, Yusif Məmmədov kimi böyük alimlər yetişdi.

Həmin illərdə Azərbaycan Dövlət Universitetində müstəqil fakültəyə çevrilmiş Fizika fakültəsində də yeni milli elmi məktəblər yaranmağa başladı. Professor Rəhim Həşimov, Rəhmi Həsənov, Abdulla Muxtarov, Kəriş Köçərli, Abuzər Rəsulov, Sabir Hacıyev kimi görkəmli alimlərin araşdırmaları və pedaqoji fəaliyyəti respublikamızda fizika elminin yüksəlişi və beynəlxalq səviyyədə təsdiqi ilə nəticələndi. Təsadüfi deyildi ki, AMEA-nın Fizika İnstitutu ADU-nun həmin fakültəsinin bazası və kadrları hesabına təşkil edildi. Azərbaycanın 70–80-ci illərdə beynəlxalq aləmdə tanınan fizik-alimləri: akademiklər Lətif İmanov, Həsən Abdullayev, Arif Paşayev, Maqsud Əliyev, Nəriman Quliyev, Arif



**Şəfaət Mehdiyev (1910–1993)**

**Mehdiyev Şəfaət Fərhad oğlu** Cənubi Azərbaycanın Sarab mahalında anadan olmuşdur.

Azərbaycan Sənaye İnstitutunu (indiki ADNA) bitirmişdir (1934). Geologiya-mineralogiya elmləri doktoru (1950) elmi dərəcəsi almış. Azərbaycan SSR EA-nın müxbir üzvü (1955) və həqiqi üzvü seçilmişdir (1958). Azərbaycan SSR EA-nın Geologiya İnstitutunun direktoru (1950–1954), Sergey Mironoviç Kirov adına ADU-nun rektoru (1958–1965), Məşədi Əzizbəyov adına Neft və Kimya İnstitutunda Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı kafedrasının müdiri (1967–1970) vəzifələrində çalışmışdır.

Respublikanın əməkdar elm xadimi, Respublika Dövlət mükafatı laureatı, SSRİ-nin fəxri neftçisi adlarına layiq görülmüşdür.

Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə, Sergey İvanoviç Vavilov adına qızıl medalla təltif edilmişdir.

400-dən artıq elmi əsərin, o cümlədən 40 monoqrafiyanın müəllifidir.

Həşimov, Eldar Salayev, Bəhram Əsgərov, Rəhim Hüseynov, Vladimir Tahirov, elmlər doktorları, professorlar Abbasqulu Abbaszadə, Niftalı Qocayev, İsmət Nəcəfov, Məmməd Abdullayev, Rəhmi Həsənov, Məmmədəli Haşımzadə və digərləri bu böyük məktəbin yetirmələri hesab edilirlər.

1934-cü ildə ADU-da təşkil edilən kimya fakültəsində isə istehsal edilən neft və neft məhsullarına görə Azərbaycan üçün xarakterik elm sahəsi olduğu üçün daha çox elmi məktəblər yaranmış, görkəmli alimlər yetişmiş və uğurlar əldə edilmişdir. Respublikanın ilk kimyaçı-alimi Sadıq Hüseynovdan başlanan elmi estafet sonrakı illərdə uğurla davam etdirildi. 40–50-ci illərdə akademiklər Yusif Məmmədəliyev, Əli Quliyev, Konstantin Krasuski, Həbib Şahtaxtinski, Murtuza Nağıyev, Soltan Mehdiyev kimi görkəmli alimlərin kəşfləri və elmi tədqiqatları yeni kimya məktəbinin yaranması ilə nəticələndi. Akademik Yusif Məmmədəliyevin rəhbərliyi altında dünyada ilk dəfə yüksək oktan ədədli izopropilbenzonun sənaye miqyasında istehsalı mümkün oldu. Bununla da ən yüksək şaxtada donmayan aviasiya yanacağı və sürtkü yağları əldə edildi. İkinci Dünya müharibəsi illərində həmin kəşfin həlledici hərbi əhəmiyyəti oldu. Bu kəşfinə görə Yusif Məmmədəliyev SSRİ Dövlət mükafatına layiq görüldü.

SSRİ-nin neft emalı zavodlarında geniş tətbiq edilən və səmərəli nəticələr verən aşqarlar sintez etdiyinə görə akademik Əli Quliyev 2 dəfə Dövlət mükafatına layiq görüldü.

Akademik Murtuza Nağıyev neft kimyası və kimya texnologiyası sahəsində resirkulyasiya proseslərinin nəzəriyyəsini hazırladığına görə Sosialist Əməyi Qəhrəmanı adı aldı.

Həmin illərdə professor Sadıq Hüseynov və dosent Ağarəfi Ağayev yerli xammaldan natrium bromidin alınması texnologiyasını işləyib hazırladılar. Bu kəşf sayəsində bütün hərbi hospitallar bəzi defisit dərman preparatları ilə təmin edildi. Professor Sadıq Hüseynov qazma sularından yod əldə edilməsi ideyasının da müəllifi idi. Bu yenilik böyük xalq təsərrüfatı əhəmiyyəti daşıyırdı.

Akademik Həbib Şahtaxtinski analitik və qeyri-üzvi kimya texnologiyası sahəsində, akademik Nadir Seyidov polimer kimyası sahəsində yeni elmi məktəb yarada bildilər. Həmin məktəblərin köməyi ilə Azərbaycan Dövlət Universitetində 60–70-ci illərdə yeni nəsil kimyaçılar yetişdi və bu siyahıda yalnız ADU-nun deyil, həm də Azərbaycan EA-nın aparıcı alimləri var idi. Bunlar akademiklər Bahadur Zeynalov, Rüstəm İsmayılov, Musa Rüstəmov, İzzət Orucova, Toğrul Şahtaxtinski, Tofiq Nağıyev, Ağadadaş Əliyev, Məhərrəm Məmmədyarov, Azərbaycan EA-nın müxbir üzvləri Bilal Dadaşov, Cümşüd Zülfüqarlı, Mustafa Hüseynov, Məmməd Mövsümzadə, Mustafa Salahov, Məcid Mərdanov və digərləridir. Həmin elmi bazanın möhkəm özülləri üzərində bu gün Azərbaycan kimya elmini dünya arenasına çıxarmaq iqtidarında olan üçüncü nəsil alimlər fəaliyyət göstərir.

Biologiya elmi sahəsində də Azərbaycan Dövlət Universitetinin alimləri yeni elmi məktəblər yaratmışlar. Məsələn, akademik Abdulla Qarayev Azərbaycanda fiziologiya elminin banisi, akademik Cəlal Əliyev kənd təsərrüfatı bitkilərinin yetişdirilməsində fotosintetik əsasların araşdırılması məktəbinin yaradıcısı oldu. Akademik Səttar Əsədov məşhur

zooloq-parazitoloq, əməkdar elm xadimi, professor Dəmir Hacıyev görkəmli zooloq-paleontoloq, professor Yusif Əbdürrəhmanov ixtiologiya sahəsində böyük alim, əməkdar elm xadimi, professor Mirəli Axundov təkamül təlimi sahəsində böyük mütəxəssis, professor Tofiq Məmmədov biotexnologiya üzrə görkəmli alim kimi dünyada tanındılar. Bu alimlərin yaratdığı elmi əsaslar üzərində 70–80-ci illərdə respublikamızda biologiya elmi beynəlxalq səviyyəyə yüksəlmiş, akademiklər Hüseyn Həsənov, Urxan Ələkbərov, professorlar Akif Quliyev, Nemət Qasımov, Həbibə Qasımova, Məcnun Babayev, Qara Mustafayev, Ənvər Musayev, Tələt Qayıbov, Əli Əliyev, Ağavəli İbrahimov, Arif İsmayılov kimi alimlər yetişmişdir.

Azərbaycanda geologiya elminin inkişafında da Azərbaycan Dövlət Universitetinin böyük payı vardır. 1943-cü ildən fəaliyyətə başlayan Geologiya fakültəsi respublikamız üçün çox sayda yüksəkixtisaslı geoloq, geofizik, hidrogeoloq, dağ-mədən mühəndisləri yetişdirmişdir. Bu məzunların arasında dünya səviyyəsində tanınmış alimlər və elmi məktəb yaratmış Şəfaət Mehdiyev, Musa Əliyev, Mirəli Qaşqay, Ədhəm Şıxəlibəyli, Əzəl Sultanov, Əziz Əsgərov, Qədir Sultanov, Xudu Məmmədov, Vasif Babazadə, Səttar Süleymanov, Sübhi Bektaşi, Fuad Axundov, Məmməd Çıraqov və s. kimi böyük alimlərin adı vardır.

Geologiya fakültəsi ilə eyni vaxtda yaradılan və uzun müddət paralel fəaliyyət göstərən Coğrafiya fakültəsində də Azərbaycanda bu elmi mühitin formalaşmasına müstəsna xidmətlər göstərən şəxsiyyətlər çalışmışlar.

40–50-ci illərdə bu fakültədə işləyən Həsən Əliyevin, Hadı Əliyevin, Əbdürrəhim Hacızadənin, Qasım Gülün, Rizvan Piriyevin, 60–70-ci illərin yetirmələri Asəf Nadirovun, Müseyib Müseyibovun, Maqbet Məmmədovun, Şövqi Göyçaylının, Rafiq Babayevin və digərlərinin adları bu gün də böyük ehtiramla çəkilir.

1946-cı ildə müstəqil fakültə kimi bərpa olunan, 1950-ci ildə şöbə kimi Filologiya fakültəsinin tərkibinə daxil edilən Şərqşünaslıq fakültəsi, nəhayət, sonuncu dəfə, tərkibində ərəb, fars və türk şöbələri olmaqla 1957-ci ildən müstəqil fakültə kimi fəaliyyətini davam etdirmişdir. 1962-ci ilə qədər kitabxanaçılıq şöbəsi də onun tərkibinə daxil edilmişdir. Eyni zamanda bu fakültədə 3 kafedra: Ərəb dili; Yaxın Şərq dilləri; Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedraları yaradılmışdır.

1957–1960-cı illərdə fakültəyə professor Rəhim Sultanov rəhbərlik etmişdir. Sonrakı illərdə fakültə dekanı vəzifəsində dosent Yusif Əsgərov (1960–1961), professor Ələsgər Məmmədov (1961–1962), professor Məmməd Mübariz Əlizadə (1962–1964), professor Həsən Mahmudov (1964–1977), professor Şulan Şirəliyev (1977–1981), professor Vasim Məmmədəliyev (1981–1999) işləmişlər.

1957-ci ildən fəaliyyət göstərən ərəb, fars, türk şöbələri ilə yanaşı, 1993-cü ildə fakültədə ibri (yəhudi) dili şöbəsi fəaliyyətə başlamışdır.

Şərqşünaslıq fakültəsində tədrisin yüksək səviyyədə aparılmasında xidməti olan alimlərdən biri akademik Həmid Araslı olmuşdur.

Azərbaycan Respublikasının əməkdar elm xadimi, pedaqogika elmləri doktoru, professor

Ələsgər Məmmədov 1962-ci ildən 1990-cı ilədək Şərqşünaslıq fakültəsinin ərəb dili kafedrasının müdiri vəzifəsində işləmişdir.

Şərqşünaslıq fakültəsini respublikada, hətta onun hüdudlarından kənarda tanıdan alimlərdən biri də əməkdar elm xadimi, professor Rəhim Sultanov olmuşdur. O, iranşünaslıq sahəsində çoxsaylı alimlər yetişdirmişdir.

Şərqşünaslıq fakültəsində fars ədəbiyyatının tədrisi və tədqiqi sahəsində əvəzsiz xidməti olan alimlərdən biri də Məmməd Mübariz Əlizadədir. O, uzun müddət Şərqşünaslıq fakültəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1991-ci ildə təşkil edilmiş Ərəb filologiyası kafedrasına yarandığı vaxtdan indiyədək rəhbərlik edən akademik Vasim Məmmədəliyev yalnız Azərbaycanda deyil, onun hüdudlarından kənarda da tanınmış alimdir. O, İraq Elmlər Akademiyasının, Misir Dilçilik Akademiyasının müxbir üzvü, İslam Konfransı Təşkilatı Beynəlxalq Fiqh Akademiyasının akademikidir.

Bu fakültədə elmi nailiyyətlərin əldə edilməsində professorlar Malik Mahmudovun, Əhməd Şəfainin, Neyyərzaman Hatəminin, Həsən Mahmudovun, Aslan Eyvazovun, Təhminə Rüstəmovanın, Rüfət Rüstəmovun çox böyük xidmətləri olmuşdur.

1964-cü ilin 18 sentyabrında, Bakı şəhəri Patris Lumumba 23 ünvanında Universitetin yeni binası istifadəyə verildi. Bu binada Mexanika-riyaziyyat, Fizika, Kimya, Biologiya, Coğrafiya fakültələri və Universitetin rektorluğu, digər idarəetmə qurumları yerləşdirildi.

Həmin il Mexanika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsinə qəbul olmuşdum. Yaxşı xatırlayıram, yeni binanın açılış mərasimində fakültəmizin professoru Maqsud Cavadov da çıxış etdi.

1965-ci ildə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsinə **Mehti Əliyev** təyin edildi (1965–1970).

1966-cı ildə İqtisadiyyat və Əmtəəşünaslıq fakültələri Universitetin tərkibindən çıxarıldı və onların bazasında **Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutu** təşkil olundu.

1968-ci ilin sentyabrında xarici tələbələrin təhsili üzrə ümumuniversitet fakültələrinin dekanlığı yaradıldı. Həmin ildə Universitetdə 25 ilə yaxın müddətdə fəaliyyət göstərən Jurnalistika bölməsi Jurnalistika fakültəsinə çevrildi.



**Mehti Əliyev**
**(1907–1969)**

**Əliyev Mehti Sadıq oğlu** Kirovabad (Gəncə) şəhərində anadan olmuşdur. Gəncə Müəllimlər Seminariyasını (1920–1924) və Azərbaycan Dövlət Universitetinin fizika-riyaziyyat (1925–1930) fakültəsini bitirmişdir.

1931-ci ildən etibarən Azərbaycan Pedaqoji İnstitutunda, Azərbaycan Tibb İnstitutunda, Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda, Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyət göstərmişdir.

Fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi və dosent, professor elmi adlarını almışdır. Azərbaycan Dövlət Universitetində fizika-riyaziyyat fakültəsinin dekanı (1945–1952), tədris işləri üzrə prorektor (1952–1959), molekulyar fizika kafedrasının müdiri, Azərbaycan Pedaqoji İnstitutunun rektoru (1962–1965), Azərbaycan Dövlət Universitetinin rektoru (1965–1970-ci il 26 dekabr) vəzifələrində çalışmışdır.

Onun ilk dekanı Nurəddin Babayev oldu. Sonralar o, Jurnalistikanın Nəzəriyyəsi və Təcrübəsi kafedrasının müdiri vəzifəsində çalışmışdır. 25-ə qədər kitabın müəllifi olan Nurəddin

*Bakı Dövlət Universitetinin məzunlarının sayı*
*(1921–1991)*

| № | Tədris illəri | Məzunların sayı |
|---|---|---|
| 1. | 1921/22 | 31 |
| 2. | 1922/23 | 86 |
| 3. | 1923/24 | 233 |
| 4. | 1924/25 | 250 |
| 5. | 1925/26 | 366 |
| 6. | 1926/27 | 200 |
| 7. | 1927/28 | 207 |
| 8. | 1928/29 | 39 |
| 9. | 1929/30 | 98 |
| 10. | 1939/40 | 130 |
| 11. | 1940/41 | 365 |
| 12. | 1941/42 | 310 |
| 13. | 1942/43 | 74 |
| 14. | 1943/44 | 164 |
| 15. | 1944/45 | 183 |
| 16. | 1945/46 | 283 |
| 17. | 1946/47 | 269 |
| 18. | 1947/48 | 307 |
| 19. | 1948/49 | 486 |
| 20. | 1949/50 | 525 |
| 21. | 1950/51 | 912 |
| 22. | 1951/52 | 747 |
| 23. | 1952/53 | 684 |
| 24. | 1953/54 | 655 |
| 25. | 1954/55 | 824 |
| 26. | 1955/56 | 902 |
| 27. | 1956/57 | 766 |
| 28. | 1957/58 | 761 |
| 29. | 1958/59 | 1271 |
| 30. | 1959/60 | 1121 |
| 31. | 1960/61 | 1563 |
| 32. | 1961/62 | 1161 |
| 33. | 1962/63 | 1191 |
| 34. | 1963/64 | 1191 |
| 35. | 1964/65 | 1180 |
| 36. | 1965/66 | 985 |
| 37. | 1966/67 | 1012 |
| 38. | 1967/68 | 1146 |
| 39. | 1968/69 | 1384 |
| 40. | 1969/70 | 1506 |
| 41. | 1970/71 | 2047 |
| 42. | 1971/72 | 1672 |
| 43. | 1972/73 | 1771 |
| 44. | 1973/74 | 1826 |
| 45. | 1974/75 | 1714 |
| 46. | 1975/76 | 2156 |
| 47. | 1976/77 | 2301 |
| 48. | 1977/78 | 2329 |
| 49. | 1978/79 | 2326 |
| 50. | 1979/80 | 2694 |
| 51. | 1980/81 | 4724 |
| 52. | 1981/82 | 2423 |
| 53. | 1982/83 | 2465 |
| 54. | 1983/84 | 2269 |
| 55. | 1984/85 | 2300 |
| 56. | 1985/86 | 1934 |
| 57. | 1986/87 | 1710 |
| 58. | 1987/88 | 2001 |
| 59. | 1988/89 | 2190 |
| 60. | 1989/90 | 2360 |
| 61. | 1990/91 | 2411 |
| **Cəmi:** | | **73191** |

Babayev 40 ildən artıq bir müddətdə jurnalistikanın nəzəri məsələləri və sənətkarlıq problemləri ilə məşğul olmuş, Azərbaycan Jurnalistlər İttifaqının «Qızıl qələm» mükafatına layiq görülmüşdür.

Fakültənin ikinci dekanı kimi fəaliyyət göstərən Şirməmməd Hüseynov Jurnalistika şöbəsinin ilk məzunlarından olmuş və bu sahədə ilk namizədlik dissertasiyasını müdafiə etmişdir.

Azərbaycan mətbuatının inkişafında çox böyük rolu olan jurnalist-pedaqoqlardan biri də «Bakı» və «Baku» axşam qəzetlərinin yaradıcısı və bu çox populyar mətbu orqanlara 30 il rəhbərlik etmiş Nəsir İmanquliyevdir. Azərbaycan Dövlət Universitetində professor Nəsir İmanquliyev yarım əsrə qədər bir müddətdə dərs demişdir.

70–80-ci illərdə Jurnalistika fakültəsində tanınmış jurnalistlərdən Qulu Xəlilov, Tofiq Rüstəmov, Seyfulla Əliyev, Akif Rüstəmov, Famil Mehdi, Yalçın Əlizadə və b. elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşlar.

1969/70-ci tədris ilində Universitetdə artıq 13 fakültə, 64 kafedra və 86 laboratoriya fəaliyyət göstərirdi. Bunlardan 4-ü problem elmi-tədqiqat laboratoriyası idi. Bundan başqa, Universitetdə 42 kabinet və 2 muzey – Təkamül nəzəriyyəsi və Faydalı qazıntılar muzeyi mövcud idi.

1971-ci ilin 11 fevralında SSRİ Ali Sovetinin Rəyasət Heyəti 50 illik yubileyi münasibətilə və ölkə qarşısında böyük xidmətlərinə görə Azərbaycan Dövlət Universitetini Qırmızı Əmək Bayrağı ordeni ilə təltif etdi. Bu yüksək mükafatı Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev təqdim etdi. Həmin dövrdə Universitetin rektoru geologiya-minerologiya elmləri doktoru professor **Faiq Bağırzadə** idi.

Yubiley mərasimində Heydər Əliyevin Azərbaycan dilində etdiyi çıxış hamıda çox dərin təəssürat yaratdı. O dedi: «*Universitetin tarixi xidməti bundan ibarətdir ki, o, Azərbaycan ali məktəbinin bünövrəsini qoymuşdur. Vladimir İliç Lenin adına Azərbaycan Pedaqoji İnstitutu, Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutu, Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu Universitetin divarları arasında yaranmış, qüvvə toplamış və müstəqil inkişaf yoluna qədəm qoymuşdur. Əgər Universiteti qüvvətli bir ağaca bənzətmiş olsaq, deyə bilərəm ki, bunlar onun öz qol-qanadlarıdır*».

1958/1959-cu tədris ilində Fizika-riyaziyyat fakültəsi iki



**Faiq Bağırzadə (1926–1988)**

**Bağırzadə Faiq Məmməd oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Sənaye İnstitutunu (hazırda ADNA) bitirmişdir (1949). Əmək fəaliyyətinə «Qobustanneftkəşfiyyat» trestində başlamış və həmin ildə aspiranturaya daxil olmuşdur. «Azneft» birliyində və Azərbaycan Elmi-Tədqiqat Neft Geoloji Kəşfiyyat İnstitutunda mühəndis-geoloq (1951–1953), Azərbaycan Sənaye İnstitutunun Neft və qaz yataqlarının geologiyası kafedrasında assistent (1952–1954) vəzifələrində işləmişdir.

Namizədlik (1953), doktorluq (1964) dissertasiyası müdafiə etmişdir.

Azərbaycan Neft və Kimya İnstitutunda (indiki ADNA) müəllim, dekan, kafedra müdiri (1954–1970), 1970-ci ilin 26 dekabrından 1987-ci ilədək Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) rektoru vəzifələrində çalışmışdır.

Azərbaycan Dövlət mükafatı laureatı adına layiq görülmüş, Azərbaycan EA-nın həqiqi üzvü (1983) seçilmişdir.

100-dən artıq əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev 50 illik yubileyi münasibətilə Universitetə Qırmızı Əmək Bayrağı ordenini təqdim edir. 1971-ci il 1 mart*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Universitetdə. 1971-ci il*



*ADU-nun kimya kabinetində məşğələ*

müstəqil fakültəyə – Mexanika-riyaziyyat və Fizika fakültələrinə ayrılmışdır. Mexanika-riyaziyyat fakültəsinin ilk dekanı AMEA-nın həqiqi üzvü, professor Əşrəf Hüseynov, sonrakı illər ərzində isə fakültə dekanı professor Ələddin Mahmudov, AMEA-nın həqiqi üzvü, professor Mirabbas Qasımov, AMEA-nın müxbir üzvü, professor Qoşqar Əhmədov, professor Qəmbər Namazov, dosent Rüstəm Sultanov, AMEA-nın müxbir üzvü, professor Arif Babayev, professor Sadiq Abdullayev olmuşlar.

BDU-nun Mexanika-riyaziyyat fakültəsi yaxın keçmişdə Misir Ərəb Respublikası, İran, Suriya, İraq, Vyetnam, keçmiş İttifaqın Şimali Qafqaz və Orta Asiya respublikaları üçün riyaziyyatın və mexanikanın müxtəlif sahələri üzrə kadr hazırlanması işində fəal iştirak etmişdir.

Respublikada riyaziyyat və mexanika elminin inkişafında xüsusi xidmətləri olan alimlərdən professor Məmmədbəy Əfəndiyev, akademiklər Zahid Xəlilov, Əşrəf Hüseynov, Azad Mirzəcanzadə, İbrahim İbrahimov, Məcid Rəsulov, Fərəməz Maqsudov, Cəlal Allahverdiyev, Mirabbas Qasımov, AMEA-nın müxbir üzvlərindən Maqsud Cavadov, Yusif Əmənzadə, Qoşqar Əhmədov, Arif Babayev, Mais Cavadov, Yəhya Məmmədov, Bala İskəndərov, Əmir Həbibzadə, professorlar Rafiq Əmənzadə, Məmməd Axundov, Əli Əhmədov, Camal Məmmədxanov, Sabir Mirzəyev, Seyidəli Hacıyev, Nadir Süleymanov, Qəmbər Namazov, Kazım Həsənov, Məmməd Quliyev, Vaqif İbrahimov, Karlen Xudaverdiyev, Məmməd Yaqubov, Maarif Əkbərov, Fərhad Tağıyev, Nazim Abbasov və başqaları Mexanika-riyaziyyat fakültəsində elmi-pedaqoji fəaliyyət göstərmişlər.

Mexanika-riyaziyyat fakültəsi yarandığı vaxtdan qabaqcıl elm mərkəzlərindən görkəmli alimlər mühazirələr oxumaq üçün fakültəyə dəvət olunurlar. Fakültənin keçmiş İttifaqın güclü riyaziyyat məktəbləri – Rusiya EA-nın Riyaziyyat İnstitutu, onun Sankt-Peterburq filialı, Sibir şöbəsi, Moskva, Novosibirsk, Kiyev, Rostov, Voronej, Tbilisi Universitetləri, Türkiyə, Almaniya və İran Respublikaları ilə elmi əlaqələri mövcuddur. Fakültə əməkdaşları Rusiya Elmlər Akademiyasının həqiqi üzvləri Andrey Nikolayeviç Tixonov, Aleksandr Andreyeviç Samarski, Olqa Aleksandrovna Ladıjenskaya, Olqa Arsenyevna Oleynik, Viktor Antonoviç Sadovniçiy, Lev Dmitriyeviç Kudryavtsev, Vladimir Aleksandroviç İlyin, Miroslav Lvoviç Qorbaçuk, Sergey Mixayloviç Nikolski və digər tanınmış alimlərin elmi məktəbləri ilə geniş elmi əlaqələr yaratmışlar.

1972-ci ildə Universitetin Mexanika-riyaziyyat fakültəsinin bazasında tətbiqi Riyaziyyat və Kibernetika fakültəsi yaradıldı. Tətbiqi riyaziyyat fakültəsinin yaranması ilə bağlı bir tədbiri həmişə xatırlayıram. Ulu öndərimiz Heydər Əliyevin də iştirak etdiyi bu tədbirdə o dövrdə Mexanika-riyaziyyat fakültəsinin dekanı, eyni zamanda Diferensial və İnteqral Tənliklər kafedrasının müdiri Azərbaycan EA-nın müxbir üzvü Qoşqar Əhmədov çıxış edərək bu fakültənin yaranmasının zəruriliyindən danışdı və sözünün sonunda «Biz bu fakültənin yaradılmasını tələb edirik», – dedi. Ulu öndər Heydər Əliyev bunun cavabında «Siz tələb yox, təklif edə bilərsiniz», – dedi və sonra bu məsələnin müsbət həlli üçün lazım olan hər şeyi etdi. Fakültənin ilk buraxılışı 1973-cü ildə hesablama

riyaziyyatı ixtisası üzrə təhsil alan tələbələr hesabına oldu.

1972-ci ildə yaradılmış Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin ilk dekanı Mustafa Vəliyev olmuşdur. O, bu fakültəyə 17 il fasiləsiz rəhbərlik etmişdir. Akademik Mirabbas Qasımov, professor Rizvan Paşayev, AMEA-nın müxbir üzvü, professor Yusif Məmmədov da bu fakültənin dekanı olmuşlar. Bu fakültəyə 12 il rəhbərlik etmiş mərhum professor Rizvan Paşayevin adını xüsusi qeyd etmək yerinə düşərdi.

O zaman fakültədə indi mövcud olan 11 kafedradan 6-sı fəaliyyət göstərirdi. Bunlar: Tətbiqi riyaziyyat (1972); Riyazi fizika tənlikləri (1964); Optimallaşdırma və idarəetmə (1980); Riyazi kibernetika (1988); Ehtimal nəzəriyyəsi və riyazi statistika (1990); Əməliyyatlar tədqiqi və riyazi modelləşdirmə (1990) kafedraları idi.

Fakültənin aparıcı mütəxəssislərindən biri Moskva Dövlət Universitetinin məzunu – 27 yaşında orada müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmiş görkəmli riyaziyyatçı-alim, akademik Mirabbas Qasımov olmuşdur. O, keçmiş SSRİ miqyasında 70-dən artıq doktorluq və namizədlik dissertasiyalarına opponentlik etmiş, onun rəhbərliyi ilə 80-dən artıq namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. Akademik Mirabbas Qasımov riyaziyyatçıların 3 beynəlxalq konqresində (Moskva – 1966; Nitsa – 1970; Vankuver – 1974; Varşava – 1977) iştirak edərək, iki dəfə məruzə ilə çıxış etmişdir.

Akademik Məcid Rəsulov da bu fakültədə elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur. O, diferensial tənliklər və riyazi fizika tənlikləri sahəsində əldə etdiyi elmi nailiyyətlər nəticəsində 1968-ci ildə Azərb.EA-nın müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Tətbiqi Riyaziyyat və kibernetika fakültəsi 50 nəfər tələbənin təhsil aldığı bir fakültədən 1200 nəfərdən çox tələbəsi olan fakültəyə çevrilmişdir. Bu fakültədə müxtəlif illərdə Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, İordaniya, Misir Ərəb Respublikası, Suriya, Vyetnam və digər ölkələrin vətəndaşları təhsil almışlar.

Yarandığı dövrdən bu fakültədə tanınmış riyaziyyatçı alimlərdən akademiklər Məcid Rəsulov, Mirabbas Qasımov, Cəlal Allahverdiyev, AMEA-nın müxbir üzvləri Məhəmməd Mehdiyev, Yusif Məmmədov, professorlar Həmzəağa Orucov, Hidayət Hüseynov, Adil Qəhrəmanov, Asəf İskəndərov, Asəf Hacıyev, Qabil Yaqubov, Rafiq Tağıyev, Rzabala Fərəcov, Kamil Mənsimov, Tamilla Nəsirova, Ələkbər Əliyev, Namiq Tağıyev, Rizvan Paşayev elmi-pedaqoji fəaliyyət göstərmişlər.

1977/78-ci tədris ilində Universitetin ikinci tədris binası istismara verildi. Patris Lumumba küçəsindəki iki tədris binasında 10 fakültə, Kommunist küçəsindəki binada (indiki İstiqlaliyyət küçəsi) Şərqşünaslıq və Jurnalistika fakültələri yerləşirdi.

70–80-ci illərdə Universitetin ən aparıcı fakültələrindən biri olan Filologiya fakültəsində Müasir Azərbaycan ədəbiyyatı, Türkologiya, SSRİ xalqlar ədəbiyyatı, Klassik rus ədəbiyyatı, Müasir rus ədəbiyyatı kafedraları yaradıldı. Bu dövrdə Universitetin Filologiya fakültəsində çalışan professorlar: Əlövsət Abdullayev, Firidun Cəlal oğlu Hüseynov, Firudun Hüseyn oğlu Hüseynov, Musa Adilov, Fərhad Zeynalov, Əkbər Ağayev, Abbas Zamanov,

Şamil Qurbanov, Təhsin Mütəllimov, Ağamusa Axundov, Tofiq Hacıyev, Əliyar Səfərli, Cəlal Abdullayev, Bayram Tahirbəyov, Yusif Seyidov, Pənah Xəlilov, Seyfulla Əsədullayev, Xalid Əlimirzəyev, Qara Namazov, Nizami Cəfərov, Kamil Vəliyev, Aqil Hacıyev, Azad Nəbiyev kimi görkəmli alimlər elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş və filologiya ixtisası üzrə yüksəkixtisaslı kadrların hazırlanmasında mühüm rol oynamışlar.

70–80-ci illərdə Universitetin Tarix fakültəsində mühüm struktur dəyişiklikləri baş verdi və bu fakültədə yeni kafedralar (Arxeologiya və etnoqrafiya; Qədim dünya və orta əsrlər tarixi; Mətnşünaslıq, tarixşünaslıq və tarixin tədrisi üsulu) və elmi-tədqiqat laboratoriyaları (Azərbaycanın maddi-mədəniyyət tarixi, Dünya azərbaycanlıları) yaradıldı. Nəticədə Tarix fakültəsi 70–80-ci illərdə Universitetin ən qabaqcıl və aparıcı fakültələrindən biri oldu. Bu illər Tarix fakültəsində kadr hazırlığı sahəsində xüsusi mərhələ təşkil edir. 70-ci illərdə Universitetdə ənənəvi elmi istiqamətlərlə yanaşı, arxeoloq və etnoqraf kadrların hazırlanmasına da diqqət artırıldı. Bu dövrdə fakültədə tarix elminin müxtəlif sahələri üzrə yüksəkixtisaslı mütəxəssis hazırlanması işinə professorlar Zülfəli İbrahimov, Zakir Abdullayev, Miryusif Mirhadıyev, Məmmədəli Hüseynov, Məlik Orucov, Yusif Səfərov, Ruhulla Orucov, Aslan Atakişiyev, Seyfəddin Qəndilov, Xəlil Əlimirzəyev, Qurban Bayramov, Səfiyar Musayev, Süleyman Əliyarlı, Yaqub Mahmudov kimi görkəmli alimlər böyük əmək sərf etmişlər.

XX əsrin 70-ci illərindən Universitetin Hüquq fakültəsində elmi-pedaqoji fəaliyyəti peşəkarlığı ilə seçilən professor-müəllim heyəti həyata keçirirdi. XX əsrin 70-ci illərində keçmiş Sovetlər İttifaqında Moskva və Kiyevdən sonra Bakı xarici ölkələrə diplomat hazırlayan üçüncü mərkəz sayılırdı. Fəaliyyət göstərdiyi müddət ərzində fakültə minlərlə yüksəkixtisaslı kadr hazırlamış, respublikanın hüquq-mühafizə orqanlarını, dövlət və hökumət qurumlarını peşəkar hüquqşünas kadrlarla təmin etmişdir. Milli hüquqşünas kadrların hazırlanmasında professorlardan Məsumə Məlikovanın, Tofiq Qafarovun, Məmmədxan Rəsulovun, Murtuz Ələsgərovun, Əziz Əsədovun, İsa Məmmədovun, Cəfər Mövsümovun, Məmməd Xələfovun, Kəmalə Sarıcalinskayanın, Yusif Mehdiyevin, Firudin Səməndərovun böyük xidmətləri olmuşdur.

1985-ci ildə Universitetə 1448 nəfər qəbul planına qarşı 4003 ərizə verilmişdi. Qəbul imtahanlarının nəticələrinə görə 1266 nəfər Universitetə qəbul edildi. Axşam şöbəsinə 375 nəfər tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərə qarşı 857 ərizə verilmişdi.

İmtahanları vermiş 448 nəfərdən 330 nəfəri Universitetin axşam şöbəsinə qəbul edilmişdi.

Qiyabi şöbəyə qəbul planı 500 nəfər idi. Bu şöbəyə ərizə vermiş 1431 abituriyentdən 505 nəfəri qəbul olunmuşdu.

1986/87-ci tədris ilində əyani şöbədə 7036, axşam şöbəsində 2189, qiyabi şöbədə 3244 tələbə təhsil alırdı. Bu, bütövlükdə 12469 tələbə demək idi. Həmin dövrdə ADU-da dünyanın 61 ölkəsindən 500 əcnəbi tələbə təhsil alırdı.

1987-ci ildə Universitetin 3-cü tədris binası – doqquzmərtəbəli korpusu istifadəyə verildi. Bu binada Tətbiqi riyaziyyat, Şərqşünaslıq, Jurnalistika və Kitabxanaçılıq fakültələri yerləşdirildi.



**Yəhya Məmmədov (1930–2000)**

**Məmmədov Yəhya Cəfər oğlu** Naxçıvanda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Hesablama riyaziyyatı kafedrasının müdiri (1965–2000), eyni zamanda ADU-nun (indiki BDU) elmi işlər üzrə prorektoru (1971–1987), daha sonra rektoru (1987–1989) vəzifələrində çalışmışdır.

Namizədlik (1957), doktorluq (1966) dissertasiyaları müdafiə etmişdir.

Sağ tərəfi birtərəfli qiymətləndirməyə tabe olan qeyri-xətti operator-diferensial tənliklərin həllinin tədqiqi üsulunun müəllifi, abstrakt qeyri-xətti Volter operator-tənliklər nəzəriyyəsinin yaradıcısıdır.

Azərbaycan Dövlət mükafatı laureatı (1976) olmuş, Azərbaycanın Əməkdar elm xadimi (1981) fəxri adına layiq görülmüşdür.

Azərbaycan EA-nın müxbir üzvü (1983) seçilmiş, Xalqlar dostluğu ordeni ilə (1981), Akademik Vavilov adına medalla (1988), SSRİ Ali Təhsil Nazirliyinin medalları ilə (1971, 1986), Azərbaycan Respublikası Ali Sovetinin Fəxri Fərmanları ilə (1980, 1981) təltif olunmuşdur.

ABŞ-ın Minneopolis şəhərinin Fəxri vətəndaşı seçilmişdir (1981).

1987-ci ildə 1926-cı ildən sonra ilk dəfə olaraq demokratik yolla, elmi şura tərəfindən Universitetə rektor seçildi. AMEA-nın müxbir üzvü **Yəhya Məmmədov** Universitetin açıq seçki ilə seçilmiş ilk rektoru oldu.

1989-cu ildə tarixçi-alim **Cəmil Quliyev**, 1990-cı ilin fevralında isə görkəmli riyaziyyatçı-alim, akademik **Mirabbas Qasımov** Azərbaycan Dövlət Universitetinin rektoru təyin edildi.

1988/89-cu tədris ilində Universitetin professor-müəllim heyəti 70-ci illərin əvvəlləri ilə müqayisədə kəmiyyət və keyfiyyətcə xeyli inkişaf etdi.

1990/91-ci tədris ilində Bakı Dövlət Universitetində Beynəlxalq münasibətlər və Beynəlxalq hüquq fakültəsi fəaliyyətə başlamışdır. İlk illərdə bu fakültəyə rəhbərlik professor Mahmud Quliyevə həvalə olunmuşdur.

1991-ci ildə bu fakültəyə üç ixtisas üzrə (beynəlxalq hüquq, beynəlxalq münasibətlər, beynəlxalq jurnalistika) 55 nəfər tələbə qəbul edilmişdir. 1991/92-ci tədris ilini fakültənin müstəqil şəkildə fəaliyyətə başladığı tarix hesab etmək olar.

Beynəlxalq münasibətlər və Beynəlxalq hüquq fakültəsinin fəaliyyətə başlaması nəticəsində təhsil sahəsində beynəlxalq əməkdaşlığın təməli qoyuldu. Fakültədə ilk olaraq Avropa dövlətlərinin aparıcı universitetləri ilə əməkdaşlığa, TASİC-TEMPUS proqramları çərçivəsində tədris proqramlarının yeniləşməsinə başlanıldı.

70–90-cı illər arasında Universitetin 40-dan artıq müəllimi Asiya və Afrika ölkələrinə pedaqoji işə göndərilmişdi. Universitetin 30 nəfər müəllimi və elmi işçisi inkişaf etmiş



**Cəmil Quliyev (1927–2011)**

**Quliyev Cəmil Bahadur oğlu** Şuşada anadan olmuşdur. Moskva Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır. Bakı Dövlət Universitetinin müəllimi, professoru (1952–1972), rektoru (1989–1990), Partiya Tarixi İnstitutunda elmi işlər üzrə direktor müavini (1958–1972), AMEA-nın Tarix İnstitutunun direktoru vəzifəsində işləmiş, eyni zamanda Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru vəzifəsini icra etmişdir (1972–1978). AMEA-nın vitse-prezidenti (1981–1990), AMEA-nın İctimai Elmlər bölməsinin akademik-katibi (1997–2001), «Naxçıvan Ensiklopediyası»nın redaktoru (1999–2002), AMEA-nın Rəyasət Heyətinin üzvü (2001–2007) vəzifələrində çalışmışdır. Azərbaycan EA-nın müxbir üzvü (1972), həqiqi üzvü seçilmişdir (1980). Dövlət Mükafatı laureatı (1974) olmuş, Şöhrət ordeni ilə təltif edilmişdir (2000). Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür (1979).



**Mirabbas Qasımov**
**(1939–2008 )**

**Qasımov Mirabbas Göycə oğlu** Şamaxı rayonunda anadan olmuşdur. ADU-nun (indiki BDU) Fizika-riyaziyyat fakültəsində və MDU-nun Mexanika-riyaziyyat fakültəsində təhsil almışdır. Namizədlik (1964), doktorluq dissertasiyası (1967) müdafiə etmişdir. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda şöbə müdiri (1970–1976), ADU-da (indiki BDU) dekan (1969–1970; 1989), kafedra müdiri (1972–2008), rektor (1990–1992) vəzifələrində işləmişdir.

AMEA-nın müxbir üzvü (1980), həqiqi üzvü (1989) seçilmişdir. Azərbaycan Respublikası təhsil nazirinin I müavini vəzifəsinə təyin edilmişdir (1989).

Egey–İzmir və Səlcuq-Konya Universitetlərinin fəxri doktoru seçilmiş, akademik Mstislav Vsevolodoviç Keldış adına qızıl medala layiq görülmüşdür.

Avropa ölkələrində, ABŞ-da və Yaponiyada uzunmüddətli elmi ezamiyyətdə olmuşdu.

Fəaliyyətə başladığı dövrdən bu ali təhsil ocağında ümumuniversitet kafedraları fəaliyyət göstərmişdir. 1919-cu ildən fəaliyyət göstərən Ümumi tarix kafedrasının bazası əsasında 1946-cı ildə Sov. İKP tarixi kafedrası yaradılmışdır.

Bakı Dövlət Universitetində Fəlsəfə kafedrası 1945-ci ildə təşkil edilmişdir. Bütün fakültələrdə fəlsəfə dərslərinin, habelə II Dünya müharibəsindən sonrakı dövrdə müəyyən müddət ərzində həm də fəlsəfə şöbəsinin ixtisas dərslərinin tədrisinin təmin edilməsində və bu ixtisas üzrə dərslik və dərs vəsaitinin yazılmasında Azərbaycanın fəlsəfi, ictimai-siyasi və estetik fikir tarixində sanballı əsərləri ilə tanınan görkəmli alimlər Mehbalı Qasımov, Fuad Qasımzadə, Həsən Şirəliyev, Həmid İmanov və Məmmədağa Zeynalovun böyük xidmətləri olmuşdur.

1976-cı ildə Fəlsəfə kafedrasının bazasında iki kafedra – dialektik materializm və tarixi materializm kafedraları təşkil olunmuşdur. 1988-ci ildə həmin kafedraların adlarında müəyyən dəyişiklik edilmiş, birinci kafedra Təbiət fakültələri üzrə Fəlsəfə kafedrası, digər kafedra isə Humanitar fakültələr üzrə Fəlsəfə kafedrası adlandırılmışdır.

1976-cı ildə Fəlsəfə kafedrası bazasında təşkil edilmiş, ümumuniversitet kafedrası kimi fəaliyyət göstərmiş Tarixi materializm kafedrası 1988-ci ildən etibarən Humanitar fakültələr üzrə Fəlsəfə kafedrası kimi fəaliyyətini davam etdirmişdir.

1971-ci ildə Universitetdə Elmi ateizm kafedrası yaradılmış və müsdəqillik dövrünə qədər həmin adla fəaliyyət göstərmişdir. Sonra kafedra fəaliyyətini Fəlsəfə tarixi və dinşünaslıq adı ilə davam etdirmişdir.

Etika və estetika kafedrası da 1962-ci ildə ümumuniversitet kafedrası kimi yaradılmışdır.

Psixologiya kafedrası 1920-ci ildə ümumuniversitet kafedrası kimi yaradılmış, 1947/48-ci tədris illərində Universitetin Filologiya fakültəsində Məntiq və psixologiya şöbəsi açıldığına görə Məntiq və psixologiya kafedrası kimi fəaliyyət göstərmişdir. 1960-cı ildə bu kafedranın və 1940-cı ildən fəaliyyət göstərən Pedaqogika kafedrasının bazasında Pedaqogika və psixologiya kafedrası yaradılmışdır.

II Dünya müharibəsindən sonra, 1946-cı ildə Siyasi iqtisad kafedrası yaradılmış, ümumuniversitet kafedrası olduğu üçün bütün fakültələrdə Siyasi iqtisad fənninin tədrisi bu kafedraya həvalə olunmuşdur.

*1970/71–1988/89-cu tədris illərində Azərbaycan Dövlət Universitetində kadr potensialı*

| Professor-müəllim heyətinin ümumi sayı | 1970/71-ci tədris ili | 1988/89-cu tədris ili |
|---|---|---|
| Professorlar | 56 | 170 |
| Dosentlər | 223 | 442 |
| Baş müəllimlər | 240 | 342 |
| Müəllim və assistentlər | 191 | 198 |
| **Cəmi:** | **710** | **1137** |

Bakı Dövlət Universitetinin nəinki keçmiş İttifaqda, hətta dünya miqyasında tanınmış məzunları vardır. Azərbaycan xalqının ümummilli lideri, Azərbaycanın dahi dövlət xadimi, dünya şöhrətli siyasətçi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı Heydər Əlirza oğlu Əliyev də Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində təhsil almışdır. O, Bakı Dövlət Universiteti və bir sıra xarici ölkə universitetlərinin fəxri doktoru, beynəlxalq Atatürk mükafatı laureatı, Fransanın, Rusiyanın və Ukraynanın ən yüksək dövlət mükafatlarına layiq görülmüşdür.

Universiteti sovet dövründə bitirmiş məzunların böyük bir hissəsi keçmiş İttifaqın və Azərbaycan SSR-in, müstəqillik illərində isə Azərbaycan Respublikasının dövlət orqanlarında, elm və mədəniyyət mərkəzlərində çalışaraq ölkənin ictimai-siyasi, mədəni həyatında böyük rol oynamışlar. Yeri gəlmişkən, həmin məzunlar barədə qısa məlumatı da oxucuların nəzərinə çatdırmaq istəyirəm.

**1. Abdulla İsmayıl oğlu Qarayev** – Akademik, Azərbaycan və keçmiş SSRİ məkanında fiziologiya elminin görkəmli nümayəndələrindən biri. O, Azərbaycanda eksperimental fizioloji istiqamətin təşəbbüsçüsü olmuş və həmin məktəbin əsasını qoymuşdur *(bax: səh.328)*.

**2. Akif Allahyar oğlu Cəfərov** – Sosialist Əməyi Qəhrəmanı (1930–1992).

**3. Anar Rəsul oğlu Rzayev** (1938) – görkəmli nasir, dramaturq və publisist. 1991-ci ildən Azərbaycan Yazıçılar Birliyinin sədridir.

**4. Arif Nəzər oğlu Heydərov** – general-leytenant, SSRİ-nin Türkiyədəki səfirliyində konsul, 1970–1978-ci illərdə Azərbaycan Daxili İşlər naziri vəzifəsində işləmişdir. Qırmızı Bayraq, Şərəf nişanı ordeni və bir çox sovet və xarici ölkə medalları ilə təltif olunmuşdur.

**5. Bəxtiyar Mahmud oğlu Vahabzadə** (1925–2009) – Akademik, Xalq şairi, Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi. Ölkənin ən ali ordenləri ilə təltif edilmişdir.

**6. Cəlal Əlirza oğlu Əliyev** – Akademik, Rusiya kənd təsərrüfatı EA-nın həqiqi üzvü, Ukrayna və Belarus Aqrar EA-nın xarici üzvü, Azərbaycan Respublikası Milli Məclisinin üzvü.

**7. Elçin İlyas oğlu Əfəndiyev (1943)** – görkəmli nasir, tənqidçi və dramaturq. Filologiya elmləri doktoru, professor. Hal-hazırda Azərbaycan Respublikası Baş nazirin müavini vəzifəsində çalışır.

**8. Eldar Mahmudov** – Azərbaycan Respublikası Milli Təhlükəsizlik naziri.

**9. Əli Məhəmmədəli oğlu Həsənov** – tarix elmləri doktoru, professor. Hazırda Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri vəzifəsində çalışır.

**10. Fatma Hüseyn qızı Abdullazadə** – professor, Prezident Administrasiyasının humanitar məsələlər üzrə şöbə müdiri.



*Azərbaycan Dövlət Universiteti*

11. **Fuad Ələsgərov** – AR Prezidenti Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri.

12. **Kəmaləddin Fəttah oğlu Heydərov** – Fövqəladə Hallar naziri, general-polkovnik.

13. **Murtuza Fətulla oğlu Nağıyev** – Akademik, keçmiş SSRİ Ali Təhsil Nazirliyi nəzdindəki Ali Attestasiya Komissiyasının üzvü, SSRİ-dəki Neft konqresinə dair Beynəlxalq komitənin (1962), Qarşılıqlı İqtisadi Yardım Şurası Kimya Komissiyasının (1960–1975) üzvü.

14. **Ramiz Ənvər oğlu Mehdiyev** – AMEA-nın həqiqi üzvü, Nyu-York EA-nın üzvü. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri. Həqiqi Dövlət müşaviridir. «İstiqlal» ordeni ilə təltif edilmişdir.

15. **Ramiz Rzayev** – Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri.

16. **Vasif Talıbov** – Naxçıvan MR Ali Məclisinin sədri.

17. **Yusif Heydər oğlu Məmmədəliyev** – Akademik, 200-dən çox elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifi. Azərbaycan kimya elminin inkişafında, yüksəkixtisaslı elmi kadrlar hazırlanmasında onun müstəsna xidmətləri vardır *(bax: səh. 380)*.

18. **Yusif Xankişi oğlu Kərimov** – Sosialist Əməyi Qəhrəmanı (1925–1986).

19. **Zakir Qaralov** – Azərbaycan Respublikasının Baş Prokuroru.

20. **Ziyafət Əsgərov** – Azərbaycan Respublikası Milli Məclisi sədrinin I müavini.

**Azərbaycan Neft və Kimya İnstitutu**

**1887-ci il noyabrın 10-da Bakı şəhər Duması Bakıda ilk texniki məktəbin yaradılması haqqında qərar verdi.** 1896-cı ildə həmin texniki məktəb «Bakı aşağı səviyyəli texniki məktəb»ə çevrildi. 1897-ci ildə Hacı Zeynalabdin Tağıyev məktəbin fəxri hamisi olmuş və həmin ildən mütəmadi olaraq bu məktəbə maddi yardım göstərmişdi. O, 1904-cü ilin 22 iyununda Bakı İbtidai Texniki Məktəbinin direktoruna ünvanladığı məktubda təhsil müəssisəsinin orta texniki məktəbə çevrilməsi ilə əlaqədar məktəb binasının genişlənməsi üzrə bütün xərcləri öz üzərinə götürdüyünü bildirirdi. Məktubda deyilirdi: «... *orta təhsilli texniklərə olan tələbatın nəinki Bakı şəhər və Bakı quberniyası, eləcə də bütün Qafqaz diyarı sənayesinin ehtiyaclarını qətiyyən ödəmədiyi indiki zamanda mən nəzərdə tutulan dəyişikliyin vacibliyinə və təxirəsalınmazlığına möhkəm əmin olaraq, indiki binanın orta texniki məktəb üçün uyğunlaşdırılması və genişləndirilməsi üzrə bütün xərcləri öz üzərimə götürmək arzusundayam*». 1896–1905-ci illər ərzində bu məktəbin mexanika şöbəsini 50 nəfər, inşaat şöbəsini 55 nəfər bitirmişdi. 1916-cı ildə burada artıq 494 tələbə təhsil alırdı.



*Bakı Orta Texniki Məktəbin binası*





*Bakı Orta Texniki Məktəbin nəzdindəki heykəltəraş sənəti məktəbinin direktoru Y.İ.Keylixis və onun şagirdləri*





*Bakı Orta Texniki Məktəbinin müəllim heyəti və tələbələrinin bir qrupu*

1918-ci ildə məktəb politexnikum adlandırıldı. Politexnikumda neft sənayesi, elektromexanika və inşaat-memarlıq şöbələri fəaliyyət göstərirdi.

**1920-ci il noyabrın 13-də Azərbaycan İnqilab Komitəsi «Bakıda Politexnik İnstitutunun təsis edilməsi haqqında» dekret qəbul etdi.** Bu dekretin icrası ilə bağlı olaraq, 12 dekabr 1920-ci ildə Xalq Maarif Komissarlığı tərəfindən institutun təsis edilməsi barədə dekret verildi.

Dekretdə aşağıdakılar qeyd olunmuşdu:

1. Bakı politexnikumunun bazasında Neftmədən, Elektromexanika, Mühəndis-inşaat, Kənd təsərrüfatı və İqtisadiyyat fakültələri olan Bakı Politexnik İnstitutu yaradılsın.

2. Bakı politexnikumunun binaları, avadanlıqları, həmçinin rus texniki cəmiyyətinin kimya laboratoriyası Bakı Politexnik İnstitutunun sərəncamına verilsin.

3. Politexnik İnstitutunun tələbə kontingentinin tərkibinə politexnikumun tələbələrinin daxil edilməsi aşağıdakı əsaslarla nəzərdə tutulsun:

– kafi dərəcədə ümumi təhsil hazırlığına malik tələbələr I semestr dərslərinə buraxılsınlar;

– belə hazırlığa malik olmayan yuxarı kurs tələbələri isə onlar üçün əlavə ümumi təhsil fənlərindən xüsusi dərslər təşkil edilməklə tələbələr sırasına daxil edilsinlər.

4. Universitetin tələbələri üçün mövcud olan sosial təminat hüquqları Bakı Politexnik İnstitutunun tələbələrinə də şamil edilsin.

5. Universitetdən və digər müəssisələrdən Politexnik İnstitutunda tədris prosesinə cəlb olunacaq professor-müəllimlərə, əvəzçiliklə işləmələrinə baxmayaraq, Politexnik İnstitutunda tutduğu vəzifəyə uyğun əmək haqqı verilsin.

6. Professor-müəllim heyətinin əməkhaqqı Universitetdə uyğun vəzifədə çalışan əməkdaşların əmək haqqı kimi ödənilsin.

Qəbulun 1 yanvar 1921-ciilədək başa çatdırılması nəzərdə tutulurdu. İnstituta tələbələr aşağıdakı ardıcıllıqla qəbul edilirdi:

- Bakı politexnikumunun və xüsusi ali məktəblərin tələbələri;
- türk (Azərbaycan) dilini bilənlər;
- fəhlələr;
- Azərbaycan K(b)P MK və Bakı Komitəsi tərəfindən göndərilənlər;
- Qızıl ordu nümayəndələri;
- şura qulluqçuları;
- digər vətəndaşlar.

Professor **N.D.Dubrovski** Bakı Politexnik İnstitutunun ilk rektoru təyin olundu. Dərslər 1921-ci il yanvarın 2-də başlandı. Mühəndis Səməd ağa Vəkilov institutun tarixində ilk dəfə olaraq Ali riyaziyyat fənnindən mühazirə oxudu.

1922-ci ildə institutda aşağıdakı fakültələr fəaliyyət göstərirdi:

- Kənd təsərrüfatı;
- İqtisadiyyat;
- Texnologiya (elektrotexnika, dağ-neft və neft-texnoloji şöbələri);
- Mühəndis-inşaat (quru yol, hidrotexniki və mülki inşaat ixtisasları üzrə).

Bu dövrdə, əsasən, ümumi nəzəri hazırlığa geniş yer verilir, ixtisas fənlərinin tədrisinə və istehsalat təcrübələrinin keçirilməsinə isə lazımi nəzarət yetirilmirdi. Təhsil müddəti 5 il idi. Amma tədris planı həddən artıq yükləndiyi üçün tələbələr institutu ən yaxşı halda 7 ilə bitirirdilər.

1922-ci ildə institutun maddi-texniki bazasının və professor-müəllim heyətinin gücləndirilməsinə (təmir, lazımi avadanlıqla təminat və 150 tələbəyə təqaüd verilməsi), «Azneft», Xalq Komissarları Şurası, Maarif, Torpaq, Yeyinti-Ticarət Xalq Komissarlıqları tərəfindən lazımi köməklik göstərilirdi.

Bu illərdə Rusiya Federasiyasının müxtəlif təhsil müəssisələrindən institutda işləmək üçün professorlar S.N.Usatıy, S.M.Romanov, B.P.Albiski, L.S.Leybenzon, İ.V.Kurçatov, L.N.Vannikov, İ.Q.Yesman (1922–1928-ci illərdə rektor vəzifəsini icra etmişdir) və b. dəvət olundular. Rusiya alimlərinin elmi köməyi, milli kadrların yaxından iştirakı ilə institutda elmi-tədqiqat işlərinin aparılmasına, namizədlik dissertasiyalarının mövzularının müəyyənləşdirilməsinə başlanıldı. Təəssüf ki, ilk illərdə elmi-tədqiqat işləri əsaslı planlaşdırma və koordinasiya edilmədən aparılırdı. Yalnız 1934-cü ildə institutda elmi-tədqiqat bölməsi yaradıldıqdan sonra elmi-tədqiqat işlərinin koordinasiyasına, SSRİ və respublika əhəmiyyətli mövzuların tədqiqinə başlanıldı. Bu bölməyə 2 il müddətində 350 elmi-pedaqoji kadr cəlb edilmişdi. Onlar institutun üzvi kimya laboratoriyasında neft və neft məhsullarının tərkib hissələrini tədqiq etmiş, neft məhsullarının polimerizasiyası prosesini öyrənmiş, Bakı neftinin emal məhsulları bazasında üzvi sintezi müəyyənləşdirmiş və s. dəyərli tədqiqatlar aparmışlar. Qeyri-üzvi kimya laboratoriyasında maddənin məhlul halında öyrənilməsini həyata keçirmiş, hidravlika laboratoriyasında özlü mayeləri və onların nəqli xüsusiyyətlərini üzə çıxarmış, qaynar mazut və gilli məhlulun nəqli üçün yeni nasosların yaradılması istiqamətində faydalı işlər görmüşlər.

SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 10 avqust 1923-cü il tarixli qərarında Bakı Politexnik İnstitutunun Ümumittifaq əhəmiyyəti qeyd olundu. SSRİ Maarif Komissarlığına və Azərbaycan SSR Xalq Komissarları Sovetinə institutun maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə tədbirlər görmək tapşırıldı. Bunun nəticəsində «Azneft»in gəlirinin müəyyən faizini institutun fonduna köçürmək və əlavə avadanlıqlar almaq barədə göstəriş verildi.

1923-cü ildə instituta Məşədi Əzizbəyovun adı verildi. Həmin il institutun 3 nəfər, 1924/25-ci tədris ilində 13 nəfər, 1925/26-cı tədris ilində 46 nəfər, 1926/27-ci tədris ilində isə 289 nəfər məzunu oldu.

İnstitutda ilk illərdən başlayaraq yüksəkixtisaslı elmi kadrların hazırlığına xüsusi diqqət yetirilirdi. O dövrdə milli kadrlar olduqca az idi. Bu problemi həll etmək məqsədilə institutda 1928/29-cu tədris ilində aspirantura şöbəsi yaradıldı. 1928–1931-ci illərdə instituta 12 aspirant qəbul edildi.

**1929-cu ildə kənd təsərrüfatı fakültəsi institutdan ayrıldı, onun bazasında müstəqil fəaliyyət göstərən Kənd Təsərrüfatı İnstitutu yaradıldı.**

**1930-cu ildə Azərbaycan Politexnik İnstitutunun adı dəyişdirildi və Azərbaycan Neft İnstitutu (ANİ) adlandırıldı.** Təhsil müəssisəsinin Azərbaycan Neft İnstitutu adlandırılması ilə bağlı mexanika (elektromexanika, avtonəqliyyat, istilik energetikası sahələri üzrə); neft-mədən (qazma, istismar, qazın hasilatı və utilizə olunması və mədən mexanikası sahələri üzrə); geoloji-kəşfiyyat, neft-kimya (neft zavodları, laboratoriya-tədqiqat, mineral maddələrin texnologiyası üzrə); inşaat

(sənaye-zavod inşaatı, mülki memarlıq tikintiləri üzrə); nəqliyyat (süni tikililər, dəmir yolları, dəmir yolunun istismarı və relssiz nəqliyyat üzrə); sənaye iqtisadiyyatı və hidroenergetika fakültələrində yenidənqurma işləri aparıldı. İnstitutun İnşaat fakültəsinin liman şöbəsi Odessa və Leninqrad (Sankt-Peterburq) şəhərlərinə köçürüldü, yol şöbəsi isə 1931-ci ildə Tiflisdə yerləşən Zaqafqaziya Dəmir Yolları İnstitutuna verildi.

**19 iyun 1930-cu ildə institutun İnşaat fakültəsinin bazasında Azərbaycan İnşaat İnstitutu yaradıldı, həmin institut 1934-cü ildə yenidən Memarlıq-inşaat fakültəsi adı ilə Azərbaycan Neft İnstitutuna birləşdirildi.**

Nəqliyyat fakültəsi bazasında Tiflis Dəmir Yolu İnstitutunun Bakı filialı yaradıldı.

30-cu illərdə 3267 tələbəsi, qiyabi təhsil üzrə fəhlə fakültəsində 3000-dən çox dinləyicisi olan Azərbaycan Neft İnstitutu SSRİ-də kontingent və əhəmiyyətinə görə birinci ali texniki təhsil müəssisələrindən idi.

Əgər 1921–1929-cu illər ərzində institutun 422 nəfər tələbəsi mühəndis diplomu almışdısa, təkcə 1929/30-cu tədris ilində institutun 559 nəfər məzunu olmuşdur.

Neft sənayesi üçün mütəxəssis hazırlığında əldə etdiyi nailiyyətlərə görə institut 1931-ci ildə Qırmızı Əmək Bayrağı ordeni ilə mükafatlandırıldı.

**1931-ci ildə Azərbaycan Neft İnstitutunun bazasında Gəncə, Qroznı, Ufa və İşimbayda şöbələri olan Azərbaycan Qiyabi Neft İnstitutu yaradıldı.**

Ölkənin sənayeləşdirilməsi digər sahələr üçün də mühəndis kadrlarının hazırlanmasını tələb edirdi.

1929–1934-cü illərdə Neft İnstitutunun Dağ-mədən fakültəsində Neft və qaz yataqlarının geologiyası və kəşfiyyatı ixtisası üzrə təhsil almış Əhəd Yaqubov elmlər doktoru dərəcəsi almış ilk azərbaycanlı geoloq idi. Həbibulla Şahtaxtinski (1930), Murtuza Nağıyev (1932) də Neft İnstitutunu bu dövrdə bitirmişdilər.

**1934-cü ilin oktyabrında Azərbaycan Neft İnstitutu maşınqayırma, energetika, geologiya və s. sahələr üçün mühəndis kadrları hazırlayan Azərbaycan Sənaye İnstitutuna (AzSİ) çevrildi.**



**İosif Yesman (1868–1955)**

**Yesman İosif Qavriloviç** Minsk şəhərində anadan olmuşdur. Peterburq Politexnik İnstitutunda fakültə dekanı (1917), Vladiqafqaz Politexnik İnstitutunun rektoru (1919–1920), Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Hidravlika və hidravlik mexanizmlər kafedrasının müdiri (1922–1955), rektoru (1922–1928) vəzifələrində işləmişdir. Əməkdar elm xadimi (1927), texnika elmləri doktoru, professor (1933), Azərbaycan SSR Elmlər Akademiyasının akademiki (1945) olmuşdur.

Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni, Qızıl Ulduz ordeni və medallarla təltif edilmişdir.

Keçən əsrin 30-cu illərində Azərbaycanda neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı sahəsində böyük nailiyyətlər əldə edilmişdi. Bu nailiyyətlərdə AzSİ-nin məzunları olan mühəndis kadrların xüsusi xidməti var idi. Fəaliyyətinin 15 ili ərzində 2614, sonrakı 5 ilində isə 2696 nəfər mühəndis kadrların hazırlanması institutun sürətli inkişafını sübut edirdi. Həmin dövrdə instituta akademik **Yesman İosif Qavriloviç**, sonralar isə



Məmməd İsmayıl Axundzadə (1901–1938)

**Axundzadə Məmməd İsmayıl Salah oğlu** Salyan şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunu (indiki Azərbaycan Dövlət Neft Akademiyası) bitirmişdir (1930). Mühəndis-texnoloq ixtisası üzrə əmək fəaliyyətinə başlamışdır. İnstitutda əvvəl tədris işləri üzrə direktor müavini, sonra elmi işlər üzrə direktor müavini və rektor (direktor) vəzifələrində çalışmışdır (1934–1938).

Onun rəhbərliyi dövründə institut yüksəkixtisaslı neftçi kadrlar hazırlamaqla yanaşı, elmi mərkəzlərdən birinə çevrilmişdir.

1937-ci ildə AzSSR Xalq Daxili İşlər Komissarlığı tərəfindən həbs edilmiş, 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Səyyar Hərbi Kollegiyasının hökmü ilə güllələnmə cəzasına məhkum edilmişdir.

1958-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarı ilə əməllərində cinayət tərkibi olmadığından işə xitam verilmiş və o, bəraət almışdır.

**Mixail Vasilyeviç Barinov** (1928–1929), **A.A.Nikişin** (1929–1932), **A.M.Çeqodayev** (1932–1933), **S.P.Kiselyov** (1933–1934), **Məmməd İsmayıl Axundzadə** (1934–1938) rəhbərlik etmişlər.

1940-cı ildə institutda 7 fakültə fəaliyyət göstərirdi: Neftmədən; Geoloji-kəşfiyyat; Texnologiya; Mexanika; Energetika; Mühəndis-iqtisad; İnşaat.

25 dekabr 1940-cı ildə fəaliyyətinin 20 illiyində əldə etdiyi nailiyyətlərə görə institut ikinci dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu.

Onu da qeyd etmək lazımdır ki, Ulu öndər Heydər Əliyev 1939–1941-ci illərdə bu institutda təhsil almışdır. O, bu təhsil ocağını həmişə özünə doğma saymış, sonrakı yüksəlişində bu təhsil illərinin əvəzsiz rolunu aşağıdakı sözlərlə ifadə etmişdi: *«O illər, iki il müddətində burada aldığım təhsil, tərbiyə, nizam-intizam, bilik mənim gələcək həyatımda, sonrakı dövrümdə çox böyük rol oynamışdır».*

1939–1941-ci illərdə instituta akademik **Musa Əliyev** rəhbərlik etmişdir.

1941-ci ildə Böyük Vətən müharibəsinin başlanması ilə bağlı institutun əməkdaşları və tələbələrinin çoxu cəbhəyə getdi. Sənaye müəssisələrində işləyənlər cəbhəyə göndərildiyinə görə mədən və zavodlarda kadr çatışmazlığı yarandı. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə 1943-cü ilin 5–12 martında Azərbaycan KP MK-nın bürosu **«M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda kadr hazırlığının yaxşılaşdırılması tədbirləri haqqında»** qərar verdi. Qərara əsasən, 1943/44-cü tədris ilində instituta 1000–1200 tələbənin



Musa Əliyev (1908–1985)

**Əliyev Musa Mirzə oğlu** Şamaxı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunu bitirmişdir (indiki ADNA) (1931). Azərbaycan Sənaye İnstitutunda dosent, dekan və direktor (1936–1941), SSRİ Neft Nazirliyi nəzdində baş tədris idarəsinin rəisi (1941–1944), Ali məktəblər və elmi müəssisələr üzrə Azərbaycan MK şöbə müdiri, Azərbaycan KP MK-nın sənaye üzrə katibi, Azərbaycan Nazirlər Soveti sədrinin müavini və Dövlət Plan Komitəsinin sədri vəzifələrində işləmişdir (1944–1949). Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti seçilmişdir (1950–1958). SSRİ EA-nın rəhbərliyi tərəfindən Moskvaya, yeni təşkil olunmuş Yanar Qazıntı Yataqlarının Geologiyası və İşlənilməsi İnstitutuna elmi işlər üzrə direktor müavini vəzifəsinə dəvət olunmuş və bu vəzifədə ömrünün sonuna kimi çalışmışdır (1958–1985). Lenin, Qırmızı Əmək Bayrağı (2 dəfə), Şərəf nişanı ordenləri və fəxri fərmanlarla təltif olunmuşdur. Ölümündən sonra – 1989-cu ildə onun «Azərbaycanın Tabaşir faunası» monoqrafiyası Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. 350-yə yaxın elmi əsərin müəllifidir.


Главное Управление Учебными Заведениями

Азербайджанский Краснознаменный Индустриальный Институт им. АЗИЗБЕКОВА

ЛИЧНАЯ КАРТОЧКА № 378

Академическая успеваемость

*Heydər Əliyevin qiymət kitabçasının surəti*

qəbulu planlaşdırıldı. Qiyabi şöbə tələbələrinin əyani şöbəyə keçirilməsi, rayonlarda gənclər arasında təbliğat işinin aparılması, hazırlıq kurslarının genişləndirilməsi və s. işlər görüldü. Həmin illərdə müharibədən qayıdanların arasından instituta tələbə seçmək üçün xüsusi hökumət komissiyası yaradıldı və institutun tələbələri hərbi xidmətə çağırışdan azad edildilər.

Respublika Xalq Komissarları Şurasının 12 noyabr 1943-cü il qərarı ilə tələbələr üçün Azərbaycan dilində dərslik, dərs vəsaitinin nəşr edilməsi işi gücləndirildi. Tələbələr və institutun akademik işçiləri üçün xüsusi – qapalı yeyinti və sənaye malları mağazaları fəaliyyətə başladı.

Böyük çətinliklərə baxmayaraq, müharibə illərində 1000-dən çox yüksəkixtisaslı mühəndis hazırlandı, 1945-ci ildə tələbələrin sayı 4500 nəfərə çatdırıldı. Nəzəri və praktik əhəmiyyəti ilə seçilən elmi-tədqiqat işləri genişləndirildi. Əhəmiyyətli tədqiqat işləri

arasında aviabenzinin və aviayağların istehsalının artmasına, qıt məhsulların yerli xammaldan alınan əvəzedicilərlə dəyişdirilməsinə yönəldilmiş işləri qeyd etmək yerinə düşər. 1942-ci ildən «Türkmənneft» trestinin 26 Bakı Komissarı adına mədənində kompressor istismarının mənimsənilməsi, Qərbi Nebitdağ istismar quyularının tədqiqi və onların mənimsənilməsi planının hazırlanması da bu qəbildən olan işlərdir.

Müharibədən sonra institut fəaliyyətinin yeni mərhələsinə qədəm qoydu. Burada neft quyularının qazılması və istismarı, energetika, iqtisadiyyat, istehsal proseslərinin avtomatlaşdırılması, mexanika və s. sahələrdə yeni elmi istiqamətlər meydana gəldi. Problem və sahə elmi-tədqiqat laboratoriyaları yaranmağa başladı. Bu dövrdə institutun inkişafı SSRİ-nin, o cümlədən respublika sənayesinin, xüsusilə neft sənayesinin inkişafı ilə birbaşa bağlı olduğundan neft mütəxəssislərinə böyük ehtiyac yaranmışdı.

1950-ci ildə institutda fəaliyyət göstərən səkkiz fakültədən altısı bilavasitə neft sənayesi üçün kadr hazırlığı ilə məşğul idi. Müharibədən sonrakı birinci beşillikdə 1966 nəfər mühəndis hazırlandı.

**1950-ci ildə Azərbaycan Sənaye İnstitutunun inşaat-memarlıq, nəqliyyat və mexanika (bir hissəsi) fakültələrinin bazasında Azərbaycan Politexnik İnstitutu yaradıldı.** Azərbaycan Sənaye İnstitutundan Politexnik İnstitutuna 57 nəfərlik professor-müəllim heyətini birləşdirən 11 kafedra verildi. Bununla da Azərbaycan Sənaye İnstitutu əsas etibarilə neft sənayesi üçün mütəxəssis hazırlayan ali təhsil ocağına çevrildi.

1951-ci ildə yaradılmış Tələbə Elmi Cəmiyyəti (TEC) institutun elmi həyatına müəyyən yeniliklər gətirdi. Elə həmin ildə TEC özünün birinci elmi-texniki konfransını keçirdi. O vaxt həmin konfransda çıxış edən tələbələrdən çoxu 70–80-ci illərdə elmlər doktoru, professor kimi yüksək elmi dərəcə və elmi adın sahibi oldular.



**Saleh Qocayev (1899–1984)**

**Qocayev Saleh Bala oğlu** Qax rayonunun İlisu kəndində anadan olmuşdur. Balaxanı rayon Gənclər İttifaqı sədrinin müavini (1918), Zaqatala İnqilab Komitəsinin sədri vəzifələrində işləmişdir. Azərbaycan K(b)P Zaqatala, Şamxor qəza və Kirov rayon komitələrinin katibi, «Kirovneft» «Azərneftmaş» trestlərinin müdiri, Azərbaycan SSR Xalq Avtomobil Nəqliyyatı Komissarı, XKS sədrinin müavini vəzifələrində (1921–1931) çalışmışdır.

Namizədlik dissertasiyası (1949) müdafiə etmişdir. Azərbaycan Neft Kimya İnstitunun rektoru (1941–1960) vəzifəsində işləmişdir.

Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, Qırmızı Əmək Bayrağı (4 dəfə), Qırmızı Ulduz ordenləri və medallarla təltif edilmişdir.

Görkəmli geoloq-alim Ədhəm Şıxəlibəyli institutda 1945–1956-cı illərdə, Əşrəf Əlizadə isə 1944–1959-cu illərdə dərs demişlər.

1957/58-ci tədris ilində institutda 2 problem elmi-tədqiqat laboratoriyası (avtomatika və texniki kibernetika; polimer və monomerlərin kimyası) təşkil edildi.

**14 mart 1959-cu ildə Sənaye İnstitutunun adı dəyişdirilərək Məşədi Əzizbəyov adına *Azərbaycan Neft və Kimya İnstitutu* (AzNKİ) adlandırıldı.** Həmin dövrdə İnstitutun rektoru vəzifəsini **Saleh Qocayev** icra etmişdir. 1941–1960-cı illərdə Azərbaycan Neft və Kimya İnstitutuna rəhbərlik etmiş Saleh Qocayevin adı bu gün də hörmətlə çəkilir. Saleh Qocayevdən sonra



*SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, Mixail İvanoviç Kalinin Azərbaycan Sənaye İnstitutunun (AzNKİ) müəllimləri arasında. 30-cu illər*



*Laboratoriya dərslərində*




*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev, Azərbaycan Ali və Orta İxtisas Təhsili naziri Qurban Əliyev, Azərbaycan SSR Ali Sovetinin sədri Qurban Xəlilov (soldan 1-ci) və Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Əliş Ləmbəranski (sağdan 1-ci) AzNKİ-nin 60 illik yubileyində. 1981-ci il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev AzNKİ-də qəbul imtahanlarının gedişi ilə tanış olur*



**İsmayıl İbrahimov (1915)**

**İbrahimov İsmayıl Əli oğlu** Ordubad şəhərində anadan olmuşdur. Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu (1935–1941) bitirmişdir.

Azərbaycan Sənaye İnstitutunda ölçü-nəzarət cihazları kafedrasında baş laborant (1946–1947), assistent (1947–1949), baş müəllim (1949–1954), dosent (1954–1955), kafedra müdiri (1955–1960), rektor (1960–1969; 1978–1989) və Nazirlər Soveti sədrinin birinci müavini (1970–1978) vəzifələrində çalışmışdır.

Texnika elmləri doktoru, professordur. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir (1980).

SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan Uşaq Fondunun sədri, Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni (üç dəfə) və medallarla təltif edilmişdir. Prezident təqaüdçüsüdür.

Azərbaycan Neft və Kimya İnstitutunun rektoru vəzifəsini institutun məzunu professor **İsmayıl İbrahimov** icra etmişdir. O, iki dəfə 1960–1969-cu və 1978–1989-cu illərdə Azərbaycan Neft və Kimya İnstitutunun rektoru vəzifəsində çalışmışdır.

50–60-cı illərdə AzNKİ-nin qarşısına SSRİ-nin neft və neft-kimya sənayesi üçün yüksəkixtisaslı mühəndis və elmi kadrların hazırlanması vəzifəsi qoyulmuşdu.

1959/60-cı tədris ilindən başlayaraq Texnologiya fakültəsinə tələbə qəbulu artırıldı. Neft və qazın texnologiyası; üzvi sintez və sintetik kauçuk texnologiyası; plastik kütlə, rezin, plastik kütlənin işlənməsi; elektrokimyəvi istehsal ixtisasları üzrə mütəxəssis hazırlığına başlandı. Az sonra fakültənin adı dəyişdirilərək Kimya-texnologiya adlandırıldı. Bu fakültə üzrə tələbə kontingenti 1961/62-ci tədris ilində 488 nəfər olduğu halda, 1964/65-ci tədris ilində 876 nəfər oldu.

60-cı illərdə AzNKİ-də aparılan bu yeniliklər, tələbə qəbulunun artırılması ümumi nəticə etibarilə institut kafedralarının məhsuldar əməyi sayəsində öz bəhrəsini verirdi.

Bu illərdə SSRİ Paleontologiyası və geologiyası kafedrasının müdiri Qambay Əlizadə, Neft yataqlarının işlənməsi və istismarı kafedrasının müdiri Azad Mirzəcanzadə, Neft-qaz yataqlarının geologiyası və kəşfi kafedrasının müdiri Əhəd Yaqubov, Elektronika və neft sənayesinin energetikası kafedrasının müdiri Kazım Quluzadə, Sabit Kərimov və digər alimlərin səyi nəticəsində bu təhsil ocağında yüksəkixtisaslı mütəxəssislər hazırlanırdı.

Həmin illərdə respublika hökumətinin qərarı ilə **Xalq Təsərrüfatı İnstitutundan** Planlı iqtisadiyyat fakültəsinin sənaye iqtisadiyyatı ixtisası, **Azərbaycan Dövlət Universitetindən** isə faydalı qazıntı yataqlarının işlənməsi ixtisası **AzNKİ-yə keçirildi.** Radiotexnika ixtisası isə AzNKİ-dən alınıb, **Politexnik İnstitutuna** verildi.

**AzNKİ-də** İstehsalat proseslərinin avtomatlaşdırılması fakültəsi yaradıldı, avtomatika və telemexanika, neftayırma və neft-kimya sənayesinin avtomatlaşdırılması, məlumat-ölçmə texnikası ixtisasları üzrə mütəxəssis hazırlığına başlandı.

1961-ci ildə Azərbaycan SSR Nazirlər Sovetinin sərəncamı ilə İnstitutda problem elmi-tədqiqat işləri şöbəsi yaradıldı. Həmin şöbədə geologiya, qazma və neft-qaz yataqlarının işlənməsi, kimya və neft emalı, avtomatika, energetika və informasiya-ölçmə texnikası bölmələri fəaliyyət göstərməyə başladı. 1964-cü ildə

daxiliyanma mühərriklərinin zəhərli qazlarının zərərsizləşdirilməsi üçün katalizatorların işlənib hazırlanması və neft və kimya sənayesində istehsal proseslərinin avtomatlaşdırılmasının riyazi üsul və sistemləri problem elmi-tədqiqat laboratoriyaları yaradıldı. Sonrakı illərdə geoloji-geofiziki, böyük dərinlikdə qazma texnologiyası, neft və qazın çıxarılması texnikası və texnologiyası, dəniz suyunun sənayedə istifadəsi, neft sənayesinin energetikası və avtomatlaşdırılmış elektrik intiqalı, layın karbohidrogenlərinin termodinamikası və layın fizikası (1972-ci ildə karbohidrogenlərin istilik fizikası laboratoriyası adlandırılmışdır), korroziya ilə mübarizə, neft hidravlikası laboratoriyaları yaradılmışdır. Bu dövrdə problem elmi-tədqiqat laboratoriyalarının sayı 29-a çatdırılmış və onların arasından seçilən 11 laboratoriyanın bazasında sonralar «Neftin, qazın və kimyanın geotexnoloji problemləri» adlı elmi-tədqiqat institutu yaradılmışdır.

60-cı illərdə institutda aparılan elmi-tədqiqat işlərində 1630 əməkdaş, o cümlədən Azərbaycan SSR Elmlər Akademiyasının 9 akademiki və müxbir üzvü, 30 elmlər doktoru, professor və 145 elmlər namizədi, dosentlər iştirak edirdi. İnstitutda elmi işlər SSRİ-nin və respublikanın xalq təsərrüfatının inkişafının ən mühüm sahələrinə istiqamətlənirdi. İnstitut SSRİ Elm və Texnika Komitəsi və SSRİ Dövlət Plan Komitəsi tərəfindən təsdiq edilmiş 5 məqsədli kompleks proqramın, 6 Ümumittifaq elmi-texniki proqramın, SSRİ Elmlər Akademiyasının əlaqələndirmə planına daxil edilmiş 8 proqramın, Azərbaycan SSR Elmlər Akademiyasının 5 proqramının, 7 sahə proqramının, həmçinin respublikanın Ali və Orta İxtisas Təhsili Nazirliyinin mühüm işlər üzrə proqramlarının yerinə yetirilməsində iştirak etmişdir *(bax: Azərbaycan Dövlət Neft Akademiyası: 80 illik şərəfli yol. Bakı, «Araz», 2000, səh.24).*

Ölkədə təhsil sistemində aparılan islahatlarla əlaqədar ali təhsil müəssisələrində tələbələrin praktiki hazırlıq səviyyəsinin artırılması məqsədilə institutun I və II kurs tələbələri sənaye müəssisələrində işləməklə yanaşı, təhsil alırdılar.

Bu illərdə AzNKİ-də Ümumi texniki fakültə yaradıldı (1965-ci ildə ləğv edildi). Həmin dövrdə axşam və qiyabi şöbələr üzrə təhsil genişləndirildi. **Azərbaycan SSR Nazirlər Sovetinin 30 mart 1960-cı il tarixli qərarı ilə Sumqayıt şəhərində AzNKİ-nin axşam və qiyabi şöbələri üzrə ali təhsil verən tədris-məsləhət məntəqəsi yaradıldı.** Tədris-məsləhət məntəqəsində üzvi sintez və sintetik kauçuk, kimya istehsalında istifadə olunan maşın və aparatlar üçün mütəxəssis hazırlanması nəzərdə tutulmuşdu.

**1962/63-cü tədris ilində Sumqayıt şəhərindəki tədris-məsləhət məntəqəsi axşam və qiyabi şöbə kimi AzNKİ-nin filialına çevrildi.** Filialın axşam şöbəsinə 225, qiyabi şöbəsinə isə 125 nəfər tələbə qəbul olundu.

Bu dövrdə institutun elmi işlər üzrə prorektoru vəzifəsində çalışmış Məmmədpaşa Quluzadə «Maili quyuların turbin üsulu ilə qazılması» adlı əsəri ilə SSRİ-də maili qazmanın bünövrəsini qoydu. Bu üsulun tətbiqinə «Neft daşları» yatağında başlandı və rekord nəticələr əldə olundu. Məmmədpaşa Quluzadə bir qrup müəlliflə birlikdə Azərbaycan Respublikasının Dövlət mükafatına layiq görülür.

Kimya sənayesinin artan tələbatını ödəmək məqsədilə SSRİ Nazirlər Soveti 3 iyun

1965-ci il tarixli qərar verdi. Bu qərara əsasən, filial Sumqayıtdakı sintetik kauçuk zavodunda AzNKİ-nin zavod – ali texniki təhsil məktəbinə (ATTM) çevrildi. Məktəbdə əyani şöbə fəaliyyətə başladı.

1968/69-cu tədris ilinin sonunda filialda təhsil alanların sayı 1391 nəfərə çatdı. Bunların 665 nəfəri əyani şöbədə, 726 nəfəri axşam və qiyabi şöbələrdə təhsil alırdı. Məzunların əksəriyyəti Sumqayıtın sənaye müəssisələrində işləyir, tələbələr isə filialda təhsillərini bitirdikdən sonra öz əvvəlki iş yerlərində fəaliyyət göstərirdilər.

Bütün elmi fəaliyyəti bu institutla bağlı olan Tofiq Alxazov AzNKİ-nin kimya texnologiyası fakültəsinin məzunu, aspirantı, elmlər namizədi və doktoru, sonralar isə professoru olmuşdur. AzNKİ-nin elmi kadrlarının hazırlanmasında həmin ildə neft və qaz yataqlarının axtarışı və kəşfiyyatı kafedrasının müdiri vəzifəsində işləmiş akademik Faiq Bağırzadənin *(bax: səh. 385)* də böyük rolu olmuşdur.

Xarici ölkələr üçün mütəxəssis hazırlığına başlanılması ilə əlaqədar əcnəbi tələbələrə rus dilini öyrətmək məqsədilə 1961/62-ci tədris ilində regionda ilk hazırlıq fakültəsi və ümumi institut fakültəsi yaradıldı. Sonradan bu fakültə «Əcnəbi tələbələrlə iş üzrə dekanlıq» adlandırıldı.

Fakültənin yarandığı ilk illərdə institutda 300–350 xarici vətəndaş təhsil alırdısa, onların sayı ilbəil artaraq 1980-ci ildə 1200 nəfərə çatmışdı. Onlardan 600 nəfərdən çoxu əsas ixtisas fakültələrində təhsil alırdı. Bu illər ərzində hazırlıq fakültəsini Asiya, Afrika və Latın Amerikası ölkələri də daxil olmaqla, dünyanın 83 ölkəsindən 5500 oğlan və qız bitirmişdi. İnstitutu bitirən xarici ölkə vətəndaşlarından bir çoxları öz ölkələrinin dövlət və elm xadimləri kimi yetişmişlər. Anqolanın prezidenti Joze Eduardo Duş Santuş, Almaniya Demokratik Respublikasının (ADR) Mərkəzi Geologiya İnstitutunun direktoru Tselt Frank, Vyetnam Sosialist Respublikasının Hanoy şəhərindəki Geologiya İnstitutunun idarə rəisi Nquen Zaon, Əlcəzairin Bumerdes şəhərindəki Milli İnstitutun dekanı Benyəhya Abdullah, Yəmənin Geologiya Nazirliyində idarə rəisi İsmayıl Əhməd Musa və başqaları AzNKİ-nin məzunlarıdır.

Bu illərdə institutun 178 nəfər əməkdaşı elmi staj keçmələrdə, elmi işlərdə, konqreslərdə, konfranslarda və simpoziumlarda iştirak etmək məqsədilə ABŞ-a, İngiltərəyə, Fransaya, Almaniya Federativ Respublikasına, İtaliyaya, Hollandiyaya, Finlandiyaya, Yaponiyaya, Kanadaya, Polşaya, Macarıstana, Çexoslovakiyaya və Tunisə ezam olunmuşdu. Bu əməkdaşlar arasında 1972–1976-cı illərdə Əlcəzair Neft İnstitutunda professor və geofizika sektorunun müdiri işləmiş Pərviz Məmmədovun, elə bu ölkədə 1969–1971-ci illərdə geoloji kəşfiyyat aparmış Ədhəm Şıxəlibəylinin adlarını çəkmək olar.

AzNKİ 1970-ci ildə 108 nəfəri pedaqoji işə görə Əlcəzairə, Tunisə, Efiopiyaya, Tanzaniyaya, Nigeriyaya, Maliyə, Qvineyaya, Əfqanıstana, Pakistana, Hindistana, Livana, Kubaya, Şri-Lankaya, Monqolustana və Yuqoslaviyaya göndərmişdi.

İnstitut Əlcəzair Neft, Qaz və Kimya İnstitutuna, Kabul Politexnik İnstitutuna (Əfqanıstan) şeflik edənlərdən biri olmuş, institutun 70 nəfərə yaxın alimi bu ölkələrdə milli kadrların hazırlanmasında yaxından iştirak etmişdi.

1966-cı ildən AzNKİ ADR-in Frayberq Dağ Akademiyası ilə əməkdaşlığa başlamış və bu əməkdaşlıq uzun müddət uğurla davam etmişdi. İnstitut təcrübə mübadiləsi aparmaq, ixtisasını artırmaq və mühazirə oxumaq məqsədilə ABŞ, İngiltərə, ADR, Polşa, Rumıniya, Hindistan və digər ölkələrdən gələn 90-a yaxın mütəxəssisi qəbul etmişdi. Tələbələrin istehsalat təcrübəsi ADR-də, Macarıstanda və Polşada keçirilirdi.

1967-ci ildə neft sənayesi işçilərinin ixtisaslarının artırılması üçün kurs yaradıldı və bu kurs 1969-cu ildə İxtisasartırma fakültəsinə çevrildi.

AzNKİ-nin 50-illik yubileyi 6 iyul 1971-ci, 60-illik yubileyi isə 1981-ci ildə təntənəli şəkildə qeyd olundu. Kollektivin 100-dən çox üzvü fəxri ad aldı, fərmanlarla təltif edildi, 30 nəfərə isə hökumət tərəfindən mənzil verildi.

1969–1978-ci illərdə institutun rektoru vəzifəsini professor **Kazım Quluzadə** icra etmişdir.

1972-ci ildən başlayaraq SSRİ hökumətinin qərarı ilə AzNKİ-də neft, qaz, geologiya və neft-kimya sənaye nazirliklərinin rəhbər işçiləri üçün İttifaqda yeganə olan **Sənaye istehsalının təşkilatçıları fakültəsi** fəaliyyətə başladı.

Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin 6 aprel 1978-ci il tarixli **«Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması haqqında»** qərarı ilə respublika ali məktəblərinin içərisində yalnız AzNKİ keçmiş İttifaqın aparıcı 70 ali məktəbi sırasına daxil edildi.

Az.NKİ elmi-texniki konfransların keçirilməsinin təşəbbüskarı olan iri elmi mərkəz kimi tanınmışdır. İnstitutda energetika sistemlərinin fiziki modelləşdirmə və kibernetikası üzrə birləşmiş Ümumittifaq ali təhsil müəssisələrarası konfrans (1972), anomal sistemlərin mexanikası üzrə konfrans (1977), neftmədən avadanlığının dinamikası və etibarlılığı üzrə konfrans (1973, 1977), ehtimal-statistik üsulların qazma və neftçıxarmada tətbiqi üzrə konfrans (1977, 1980), ölçmə-informasiya sistemləri üzrə konfrans (1977), neft və qaz sənayesi ilə bağlı fəaliyyət göstərən ali məktəblərin elmi və elmi-metodik konfransı (1976), maili qazma üzrə Ümumittifaq konfrans (1978), asetilen və onun törəmələrinin kimyası üzrə VI Ümumittifaq konfrans (1979) və bir sıra digər elmi forumlar keçirilmişdir. İnstitutda fəaliyyət göstərən doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış şuralarda 150-dən çox doktorluq və 2500-dən çox namizədlik dissertasiyası müdafiə olunmuşdur ki, bunlardan da 100 doktorluq, təxminən 1000 namizədlik dissertasiyası institutun əməkdaşları tərəfindən müdafiə edilmişdi.



**Kazım Quluzadə (1908–1979)**

**Quluzadə Kazım Novruzəli oğlu** Bakı şəhərində anadan olmuşdur. «Azərneft» Birliyinin baş energetiki (1938–1940), Azərbaycan SSR Elmlər Akademiyası Energetika İnstitutu direktorunun elmi işlər üzrə müavini (1941–1947) vəzifələrində işləmişdir. Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda Elektrotexnika və Neft Sənayesinin energetikası kafedrasına başçılıq etmişdir (1962–1979). Doktorluq dissertasiyası müdafiə etmiş (1961), Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür (1964).

Neft və Kimya İnstitutunun rektoru (1969–1978) vəzifəsində çalışmışdır.

Lenin ordeni və başqa medallarla təltif olunmuşdur.

1979-cu ildə institutda Mütəxəssislərin elm və texnikanın müasir perspektivi istiqamətləri üzrə yenidən hazırlanması fakültəsi fəaliyyətə başladı.

AzNKİ-də tədris-metodiki şura yeni adla – **Mütəxəssis hazırlığında keyfiyyətin artırılması şurası** adlandırıldı.

1979/80-ci tədris ilindən başlayaraq mütəxəssis hazırlığının keyfiyyətinin artırılması istiqamətində sistemli şəkildə genişmiqyaslı işlərin görülməsinə başlandı. Görülmüş işlərlə bağlı SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin 31 mart 1982-ci il tarixli qərarında qeyd edilmişdi: *«Mütəxəssis hazırlığının keyfiyyətinin artırılmasında kompleks sistemin tətbiqi üzrə Azərbaycan Neft və Kimya İnstitutunun təcrübəsi bəyənilsin və İttifaqın bütün ali məktəblərində geniş tətbiq olunsun»*. Bu illərdə mütəxəssis hazırlığında təd-ris prosesi ilə elmin və qabaqcıl təcrübənin vəhdətinə böyük üstünlük verilirdi.

Bu illərdə Neft və Kimya İnstitutunun görkəmli alimlərinin: Siyavuş Qarayevin, Şövkət Qarayevin, Feliks Məmmədovun, Rafiq Əliyevin, Azad Mirzəcanzadənin, Əlövsət Qarayevin, Siyavuş Şirinzadənin, Sabir Babayevin, Tofiq Əliyevin, Rafiq Əliyevin, Xaldey Zinoviyin, Mirulduz Qarayevin, Kamal Abdullayevin, İqor Malaxovun, Zahid Kərimovun, Sabit Bağırovun, İsmayıl İbrahimovun, Fərzanə Nadirin, Leonid İlyasovun monoqrafiyaları Moskvanın tanınmış nəşriyyatlarında dərc olunmuşdur.

1979-cu ildə institutda Azərbaycanda ilk dəfə olaraq ali təhsil müəssisələrinə tələbə qəbulunun elektron hesablayıcı maşınlar vasitəsilə aparılması eksperimenti həyata keçirildi.

1981-ci ildə respublikanın rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə ali məktəblərə qəbul imtahanlarının təşkili məsələsinə həsr olunmuş müşavirə keçirildi. Müşavirədəki çıxışında Heydər Əliyev dedi: *«Biz qəbul imtahanları zamanı müasir texniki vasitələrin tətbiqinə, Azərbaycan Neft və Kimya İnstitutunda hesablayıcı elektron maşınlarından istifadə edilməsi sahəsində aparılan işə böyük əhəmiyyət veririk. İstərdik ki, respublikanın Ali və Orta İxtisas Təhsili Nazirliyi yeni texniki vasitələrin və metodların bütün ali məktəblərdə yayılması üçün tədbir görsün»*. Ulu öndərin bu sözləri respublikada qəbul imtahanlarında elektron hesablayıcı maşınların tətbiqinə böyük təkan verdi. 1982-ci ilin avqust ayında Heydər Əliyev qəbul imtahanlarının təşkili ilə ətraflı tanış olmaq məqsədilə institutda olmuş, hesablayıcı maşın zalına baxmış, abituriyentlərlə və onların valideynləri ilə söhbət etmiş, qəbulun hazırlanmasının və gedişinin yüksək səviyyədə olduğunu razılıqla qeyd edərək demişdi: *«Bütün bölmələri sərbəst və ahəngdar işləyən Neft və Kimya İnstitutunun təcrübəsi Azərbaycanın istisnasız olaraq, bütün ali məktəblərində ən geniş miqyasda tətbiq edilməlidir»*.

1986-cı ildə İttifaqın Qaz Sənayesi ilə Respublika Ali və Orta İxtisas Təhsili nazirlərinin birgə əmrinə əsasən, ölkədə fəaliyyət göstərən ali təhsil ocaqları içərisində ilk dəfə olaraq AzNKİ ilə «Xəzərdənizneftqaz» istehsalat birliyi arasında tədris-elm-istehsalat kompleksi yaradıldı. Yaradılmış kompleksdə İnstitutun 31 kafedrası, 12 problem, 4 sahə elmi-tədqiqat laboratoriyası və 700 nəfərə yaxın əməkdaşı fəaliyyət göstərirdi.



*Tələbələr neftayırma qurğusunu öyrənirlər*



*Əcnəbi tələbələr institutun kitabxanasında*



**Tofiq Əliyev (1928–1993)**

Əliyev Tofiq Məmməd oğlu Gəncə şəhərində anadan olmuşdur.

Azərbaycan Sənaye İnstitutunun Energetika fakültəsini (1945–1950) fərqlənmə diplomu ilə bitirmişdir.

Namizədlik (1954), doktorluq dissertasiyası müdafiə etmiş (1967), professor elmi adı almışdır (1969). «Neftkimyaavtomat» Elmi-Tədqiqat və Layihə İnstitutunun direktor müavini (1959–1971), Azərbaycan Neft və Kimya İnstitutunda kafedra müdiri (1971) və rektor (1989–1992) vəzifəsində işləmişdir.

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü (1980), həqiqi üzvü seçilmişdir (1989).

«Elm və texnika» sahəsində 2 dəfə SSRİ Dövlət mükafatı laureatı adına (1969; 1983) layiq görülmüşdür.

30-dan çox monoqrafiya və dərsliklərin, 250 elmi məqalənin və 200-dən çox ixtiranın müəllifidir.

1988-ci ildə SSRİ Gəmiqayırma Sənayesi Nazirliyi ilə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin birgə əmri əsasında «NORD» Elmi İstehsalat Birliyi ilə Azərbaycan Neft və Kimya İnstitutu arasında ikinci tədris-elm-istehsalat kompleksi yaradıldı.

Bu ali təhsil ocağında ilk günlərdən ümuminstitut kafedraları fəaliyyət göstərmişdir. Rus və Azərbaycan dili kafedrası 1927-ci ildə Xarici dillər kafedrası 1929/30-cu tədris ilindən fəaliyyətə başlamışdır.

Bədən tərbiyəsi və idman kafedrası 1933-cü ildə, Marksizim-leninizm kafedrası 1938-ci ildə, Siyasi iqtisad kafedrası 1942-ci ildə yaradılmışdır.

50-ci illərdən sonra bu ali təhsil müəssisəsində Tarix və Fəlsəfə kafedraları ümuminstitut kafedraları kimi fəaliyyət göstərmişdir.

1967-ci ildə Fəlsəfə kafedrasının əsasında Elmi kommunizm, sonra isə Politologiya kafedrası yaradılmışdır.

Ümumtəhsil kafedralarından olan Fizika və Riyaziyyat kafedraları bu ali təhsil ocağı yaranan gündən fəaliyyət göstərir.

Tərsimi həndəsə kafedrası 1924/25-ci tədris illərində yaradılmışdır. Kafedra 1932-ci ildə Tərsimi həndəsə və rəsmxət adlandırılmışdır. 1932-ci ildən fəaliyyət göstərən Tərsimi həndəsə və rəsmxət kafedrası 1962-ci ildə iki kafedraya bölünmüş, Tərsimi həndəsə və Texniki rəsmxət kafedraları yaradılmış, 1971-ci ildə isə yenidən birləşdirilərək Mühəndis qrafikası adı ilə fəaliyyət göstərmişdir.

1989-cu ildə akademik **Tofiq Əliyev** Azərbaycan Neft və Kimya İnstitutunun rektoru təyin edilmişdi.

1990-cı ildən Azərbaycan Neft və Kimya İnstitutunun Şuşa ümumtexniki fənlər fakültəsi və dayaq-hərəkət aparatı zədələnmiş əlillərin təhsil alması üçün mühəndis-proqramçı hazırlayan ixtisaslaşdırılmış fakültə fəaliyyətə başlamışdır.

**1991-ci ilin fevralında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən institutun adı dəyişdirilərək Məşədi Əzizbəyov adına Qırmızı Əmək Bayrağı ordenli Sənaye Universiteti (AzSU) adlandırıldı.**

24 avqust 1991-ci ildə AzSU-nun Mingəçevir şəhərində filialı fəaliyyətə başladı. Həmin filiala yüngül və toxuculuq sənayesinin iqtisadiyyatı və idarə olunması, inşaatın iqtisadiyyatı və idarə olunması, nəqliyyatın iqtisadiyyatı və idarə olunması, elektrik sistem və şəbəkələri, elektrik nəqliyyatı ixtisasları üzrə 87 tələbə qəbul olundu.

*Azərbaycan Neft və Kimya İnstitutunun kadr potensialı haqqında məlumat*

| İllər | Professor | Dosent | Baş müəllim | Müəllim | Assistent | Cəmi |
|---|---|---|---|---|---|---|
| 1920/21 | 6 | – | – | 56 | 4 | **66** |
| 1930/31 | 25 | 47 | 74 | – | 188 | **334** |
| 1940/41 | 28 | 76 | 16 | 22 | 114 | **256** |
| 1945/46 | 36 | 88 | 54 | 58 | 98 | **334** |
| 1960/61 | 27 | 92 | 44 | 70 | 62 | **295** |
| 1965/66 | 33 | 115 | 169 | 121 | 205 | **643** |
| 1969/70 | 4 | 297 | 190 | 258 | 180 | **929** |
| 1975/76 | 50 | 295 | 235 | 244 | 182 | **1006** |
| 1980/81 | 55 | 310 | 278 | 204 | 171 | **1018** |
| 1985/86 | 62 | 392 | 304 | 192 | 137 | **1087** |
| 1990/91 | 77 | 435 | 332 | 213 | 134 | **1191** |

*Azərbaycan Neft və Kimya İnstitutuna tələbə qəbulu haqqında məlumat*

| İllər | Qəbul olunanların sayı |
|---|---|
| 1960 | 1260 |
| 1970 | 2281 |
| 1980 | 2926 |
| 1981 | 2775 |
| 1982 | 2775 |
| 1983 | 2950 |
| 1984 | 2975 |
| 1985 | 2925 |
| 1986 | 2875 |
| 1987 | 2875 |
| 1988 | 2230 |
| 1989 | 2320 |
| 1990 | 2096 |

1991-ci ildə İttifaqın Ali və Orta İxtisas Təhsil Nazirliyi və ABŞ-ın İBM Korporasiyasının birgə qərarı ilə Respublika Biznes Məktəbi yaradıldı. Sonralar məktəb institutun bir fakültəsinə çevrildi. Fakültədə respublikada ilk dəfə olaraq yanacaq-enerji kompleksi sahələrinin biznesində menecment ixtisası üzrə mütəxəssis hazırlığına başlandı.

*Azərbaycan Neft və Kimya İnstitutunun məzunları haqqında məlumat*

| İllər | Məzunların sayı |
|---|---|
| 1922–1935 | 2614 |
| 1935–1940 | 2696 |
| 1940–1945 | 1071 |
| 1946–1950 | 1953 |
| 1951–1959 | 6695 |
| 1960–1965 | 5116 |
| 1966–1970 | 6095 |
| 1971–1980 | 17335 |
| 1981–1991 | 21456 |

Qətiyyətlə söyləmək olar ki, müxtəlif adlar altında fəaliyyət göstərən bu universitet şərəfli inkişaf yolu keçmiş, həm respublika, həm SSRİ, həm də xarici ölkələr üçün yüksəkixtisaslı kadrlar hazırlamışdır. Akademiklər Şəfaət Mehdiyev, Əli Əşrəf Əlizadə, Qanbay Əlizadə, Musa Əliyev, Əhəd Yaqubov, Şamil Əzizbəyov, Ədhəm Şıxəlibəyli, Faiq Bağırzadə, Azad Mirzəcanzadə, Səftər Quliyev, Məmmədpaşa Quluzadə, Şirəli Məmmədov, Murtuza Nağıyev, Soltan Mehdiyev, Həbibulla

Şahtaxtinski, Rüstəm İsmayılov, Azad Əfəndizadə, Çingiz Cuvarlı, İsmayıl İbrahimov, Tofiq Əliyev, Siyavuş Qarayev, Elmlər Akademiyasının müxbir üzvləri Bağır Bağırov, Tofiq Alxazov, Rza Bədəlov, Firidun Hüseynov, Malik Ramazanzadə, Rafiq Əliyev, Ramiz Qurbanov, Sabit Kərimov, Məmməd Mövsümzadə, Pərviz Məmmədov, professor Kazım Quluzadə və başqaları öz elmi işləri və əmək fəaliyyətləri ilə institutun adını yüksəklərə qaldırmışlar. Yeri gəlmişkən, Neft Akademiyasının nəinki keçmiş İttifaqda, hətta dünya miqyasında tanınmış məzunları barədə qısa məlumatı oxucuların nəzərinə çatdırmaq istəyirəm.

**1. Abasəli Əliməhəmməd oğlu Biləndərli** 1961-ci ildə Lenin mükafatına layiq görülmüşdür. Lenin, 2 dəfə Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**2. Ağadadaş Mahmud oğlu Əliyev** AMEA-nın həqiqi üzvü seçilmişdir. Kimya Problemləri İnstitutunun elmi işlər üzrə direktor müavinidir.

**3. Ağaqurban Qurban oğlu Əliyev** SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. Geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsini, professor elmi adını, Əməkdar mühəndis fəxri adını almış, 2 dəfə Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**4. Akif Ağa Mehdi oğlu Əlizadə** Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvüdür, Geologiya İnstitutunun direktoru, AMEA-nın Rəyasət Heyətinin üzvü, vitse-prezidentidir. Azərbaycan SSR Dövlət mükafatı laureatı və Əməkdar elm xadimi adlarına layiq görülmüş, Şöhrət və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**5. Arif Cəfər oğlu İsmayılzadə** Azərbaycan MEA-nın həqiqi üzvü seçilmiş, Yer elmləri bölməsinin akademik-katibidir. Şöhrət ordeni ilə təltif edilmiş, Respublikanın Əməkdar geoloqudur.

**6. Arif Məmməd oğlu Həşimov** AMEA-nın həqiqi üzvü, birinci vitse-prezidentidir. Azərbaycan SSR Dövlət mükafatı laureatı və Əməkdar elm xadimi adlarına layiq görülmüşdür.

**7. Artur Tahir oğlu Rasi-zadə** Dövlət Plan Komitəsinin sədr müavini, Azərbaycan Respublikasının Baş nazirinin birinci müavini, İqtisadi İslahatlar Fondunda məsləhətçi, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Baş nazirin birinci müavini vəzifələrində işləmişdir. Hazırda Azərbaycan Respublikasının Baş naziridir. SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür, İstiqlal, Şöhrət və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**8. Ayaz Adil oğlu Əfəndiyev** Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, AMEA-nın həqiqi üzvü seçilmiş, AMEA-nın kimya elmləri bölməsinin akademik-katibi, Elmlər Akademiyasının akademik-katibi kimi məsul vəzifələri icra etmişdir. Şöhrət və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**9. Azad Xəlil oğlu Mirzəcanzadə** Ali Attestasiya Komissiyasının, Dövlət Elm və Texnika Komitəsinin sədri vəzifələrində işləmişdir. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, Əməkdar elm və texnika xadimi, SSRİ-nin Fəxri neftçisi, SSRİ Qaz Sənayesinin Fəxri işçisi, 2 dəfə Azərbaycan SSR Dövlət mükafatı laureatı adlarına layiq görülmüş, İstiqlal, Oktyabr İnqilabı, Şərəf nişanı və 2 dəfə Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**10. Baba Qurbanqulu oğlu Babazadə** Azərbaycan EA-nın müxbir üzvü seçilmiş, Sosialist Əməyi Qəhrəmanı və SSRİ Dövlət mükafatı laureatı adlarına layiq görülmüş, Lenin və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**11. Nikolay Konstantinoviç Baybakov** SSRİ Neft Sənaye komissarı, SSRİ-nin Cənub və Qərb Rayonları Neft Sənayesinin naziri, SSRİ Neft Sənayesi naziri, SSRİ Nazirlər Soveti Dövlət Plan Komitəsinin sədri, Dövlət Kimya və Neft Komitəsinin sədri və s. vəzifələrdə işləmişdir. VIII çağırış SSRİ Ali Sovetinə Azərbaycandan deputat seçilmişdir. Sosialist Əməyi Qəhrəmanı adına, Lenin mükafatına layiq görülmüş, 6 dəfə Lenin, Oktyabr İnqilabı, 2 dəfə Qırmızı Əmək Bayrağı, Şöhrət ordenləri ilə təltif edilmişdir.

**12. Bəhmən Əbiş oğlu Hacıyev** Təhlükəsizlik Texnikası üzrə Ümumittifaq Neft Elmi-Tədqiqat İnstitutunun direktoru vəzifəsində işləmişdir. Əməkdar mühəndis, SSRİ-nin Fəxri neftçisi adı almış, Azərbaycan Respublikasının Ali Sovetinin deputatı seçilmiş, Lenin və Azərbaycanın Dövlət mükafatlarına layiq görülmüşdür. Lenin, 2 dəfə Qırmızı Əmək Bayrağı, Oktyabr İnqilabı ordenləri ilə təltif edilmişdir.

**13. Bəxtiyar Məmmədrza oğlu Məmmədov** Neft Sənayesi naziri vəzifələrində çalışmışdır. Sosialist Əməyi Qəhrəmanı, Azərbaycan Dövlət mükafatı laureatı, Respublikanın Əməkdar mühəndisi adlarına layiq görülmüş, Lenin, Qırmızı Əmək Bayrağı, Oktyabr İnqilabı ordenləri ilə təltif edilmiş, IV çağırış Azərbaycan Respublikasının, I çağırış SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

**14. Böyükağa Əliqulu oğlu Əzimov** EA-nın müxbir üzvü seçilmiş, Azərbaycan Respublikasının Dövlət Elm və Texnika Komitəsinin sədr müavini və sədri vəzifələrində, sonralar Respublika Nazirlər Sovetinin şöbə müdiri vəzifəsində işləmişdir.

**15. Cavanşir Rəşid Cəmil oğlu** Bir neçə nüfuzlu beynəlxalq neft şirkətlərində rəhbər vəzifələr tutmuş, BP-Azərbaycan şirkətinin prezidenti təyin edilmişdir. AMEA-nın müxbir üzvüdür.

**16. Çingiz Mehdi oğlu Cuvarlı** EA-nın həqiqi üzvü seçilmiş, SSRİ-nin Fəxri energetiki, Azərbaycanın Əməkdar elm xadimi fəxri adlarına, SSRİ və Azərbaycan SSR Dövlət mükafatlarına layiq görülmüşdür.

**17. Dalin Mark Aleksandroviç** Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmiş, 1934–1988-ci illərdə Elmi-Tədqiqat «Olefinlər» İnstitutunun, onun təcrübə zavodunun direktoru vəzifəsində işləmiş, SSRİ Dövlət mükafatına layiq görülmüşdür. Lenin, 2 dəfə Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**18. Dinkov Vasiliy Aleksandroviç** SSRİ Qaz Sənayesi Nazirliyinin baş idarəsi rəisi, SSRİ Qaz Sənayesi naziri, SSRİ Neft Sənayesi naziri vəzifələrində işləmişdir. Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı adlarına layiq görülmüş, II çağırış SSRİ Ali Sovetinin deputatı seçilmiş, 3 Lenin, Oktyabr İnqilabı, 1-ci dərəcəli «Vətən müharibəsi», Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**19. Eyyub İsmayıl oğlu Tağıyev** SSRİ Neft Sənayesi Nazirliyinin texniki idarəsinin rəis müavini, Ümumittifaq Qazma Elmi-Tədqiqat İnstitutunun direktoru, Rusiya Neft-Qaz İnstitutunun

prorektoru vəzifələrində işləmişdir. 3 dəfə SSRİ Dövlət mükafatı laureatı adlarına layiq görülmüş, 2 Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**20. Əhəd Ələkbər oğlu Yaqubov** Azərbaycan EA-nın həqiqi üzvü və geologiya bölməsi üzrə akademik-katibi seçilmişdir. SSRİ-nin Fəxri neftçisi adı almış, 2 dəfə SSRİ Dövlət mükafatına layiq görülmüş, III çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, Lenin, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**21. Əhməd İsmayıl oğlu Dünyamalıyev** Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş və Lenin ordeni ilə təltif edilmişdir.

**22. Əkrəm Məmmədəmin oğlu Şəkinski** II çağırış Azərbaycan Respublikasının Ali Sovetinin deputatı seçilmiş, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmiş, Əməkdar geoloq adına layiq görülmüşdür.

**23. Ələddin Musa oğlu Quliyev** Ümumittifaq Elmi-Tədqiqat Qaz İnstitutunun Azərbaycan filialının direktoru, Azərbaycan SSR EA-nın kimya elmləri bölməsinin akademik-katibi, Təbii Qazın Nəqlə Hazırlanması və Emalı Elmi-Tədqiqat və Layihə İnstitutunun direktoru vəzifəsində işləmişdir. Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

**24. Əli Cabbar oğlu Əmirov** SSRİ Dövlət mükafatı laureatı Əli Əmirov Qırmızı Əmək Bayrağı, 2 Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**25. Əliəşrəf Əbdülhüseyn oğlu Əlizadə** 1945-ci ildə Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. 2 dəfə SSRİ Dövlət mükafatı laureatı, SSRİ-nin Fəxri neftçisi, Türkmənistanın Əməkdar elm və texnika xadimi adlarına layiq görülmüşdür.

**26. Əli İsmayıl oğlu İbrahimov** Azərbaycan Dövlət Plan Komitəsinin sədrinin 1-ci müavini və sədri, Azərbaycan Respublikası Nazirlər Sovetinin sədri vəzifələrində işləmişdir. IV çağırış SSRİ Ali Sovetinin, VI çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmiş, 3 Lenin, 3 Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**27. Əli Şamil oğlu Həsənov** «Azərkimya» Dövlət şirkətinin prezidentinin 1-ci müavini, Dövlət Ekologiya və Təbiətdən İstifadəyə Nəzarət Komitəsinin sədri vəzifələrində işləmişdir. Azərbaycan Respublikası Baş nazirin müavini – Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. Şöhrət ordeni ilə təltif edilmişdir.

**28. Əliş Cəmil oğlu Ləmbəranski** SSRİ Nazirlər Soveti yanında Baş Mikrobiologiya Dövlət Komitəsinin sədrinin birinci müavini, Azərbaycan Nazirlər Sovetinin sədr müavini vəzifələrində işləmiş, 3 dəfə Lenin, 2 Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmiş, SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

**29. Ənvər Nəzər oğlu Əlixanov** 1959–1961-ci illərdə AzKP MK-nın katibi, 1961–1970-ci illərdə Respublika Nazirlər Sovetinin sədri, Lenin mükafatı laureatı fəxri adını almış, 2 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur.

**30. Əsgər Ələkbər oğlu Abdullayev** Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan SSR Əməkdar mühəndisi, SSRİ Dövlət mükafatı laureatıdır. Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**31. Əzəl Cəfər oğlu Sultanov** Geologiya İnstitutunun direktoru, Azərbaycan Dövlət

Universitetinin prorektoru vəzifələrində işləmişdir. Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

**32. Faiq Məmməd oğlu Bağırzadə** *(bax: səh. 385)* 1970–1985-ci illərdə Azərbaycan Dövlət Universitetinin rektoru olmuşdur. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmiş, Əməkdar elm xadimi və Azərbaycan SSR Dövlət mükafatı laureatı adlarına layiq görülmüşdür.

**33. Fərman Qurban oğlu Salmanov** Tümen Baş Geologiya İdarəsinin rəisi, SSRİ Geologiya nazirinin 1-ci müavini vəzifələrində işləmişdir. Rusiya EA-nın müxbir üzvü, Rusiya Federasiyasının Ali Sovetinin və dumasının deputatı seçilmiş, Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüş, Lenin, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**34. Fuad İbrahim oğlu Səmədov** Lenin mükafatına layiq görülmüş, Lenin və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**35. Həbibulla Baxşəli oğlu Şahtaxtinski** Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş, Əməkdar elm xadimi adını almış, Oktyabr İnqilabı ordeni ilə təltif edilmişdir.

**36. Həsən Əbdüləli oğlu Əhmədov** Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş, iki dəfə Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

**37. Xain Viktor Yefimoviç** SSRİ Elmlər Akademiyasının həqiqi üzvü, AMEA-nın fəxri üzvü seçilmişdir. SSRİ və Rusiya Dövlət mükafatlarına layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**38. Xoşbəxt Bağı oğlu Yusifzadə** Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidentinin müşaviri, birinci vitse-prezidentidir. Milli Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycan Respublikasının Əməkdar mühəndisi, SSRİ-nin Fəxri neftçisi, Yer təkinin fəxri kəşfiyyatçısıdır. 2 dəfə Qırmızı Əmək Bayrağı, Şərəf nişanı, İstiqlal, Şöhrət və Şərəf ordenləri ilə təltif edilmiş, 2 dəfə Azərbaycan Respublikası Dövlət mükafatlarına layiq görülmüşdür.

**39. İbrahim Səid oğlu Quliyev** Azərbaycan MEA-nın həqiqi üzvü seçilmişdir. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır.

**40. İsmayıl Əli oğlu İbrahimov** *(bax: səh.406)* Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini, Azərbaycan Dövlət Neft Akademiyası rektorunun elmi müşaviri vəzifələrində çalışmışdır. AMEA Kibernetika İnstitutunun elmi məsləhətçisidir. Azərbaycan Uşaq Fondunun sədri, Uşaq Fondları Beynəlxalq Assosiasiyasının vitse-prezidentidir. Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmiş, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, SSRİ-nin Fəxri neftçisi, Əməkdar elm xadimi adlarına layiq görülmüş, 2 dəfə Lenin, 3 dəfə Qırmızı Əmək Bayrağı, Oktyabr İnqilabı, Qırmızı Ulduz ordenləri ilə təltif olunmuşdur.

**41. İsrafil Piri oğlu Quliyev** Lenin mükafatı laureatı adına layiq görülmüş, Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

**42. İsrafil Sami oğlu Hüseynov** Respublikanın Dövlət mükafatına, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. II çağırış SSRİ Ali Sovetinin deputatı seçilmiş, 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

**43. İzzət Əhməd oğlu Nəbiyev** SSRİ Dövlət mükafatı laureatı, Fəxri ixtiraçısı, Azərbaycan SSR Əməkdar elm və texnika xadimi adlarına layiq görülmüşdür.

**44. İzzət Mirzağa qızı Orucova** Azərbaycan EA-nın Qeyri-Üzvi və Fiziki Kimya İnstitutunun direktoru vəzifəsində işləmişdir. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, Azərbaycan SSR Dövlət mükafatı laureatı, Əməkdar elm və texnika xadimi adlarına layiq görülmüş, Lenin, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**45. Vitaliy Mixayloviç Jolobov** Lenin adına Hərbi-Siyasi Akademiyanı bitirmiş, 1976-cı ildə «Soyuz» kosmik gəmisində kosmosa uçmuş, həmin il Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, Lenin ordeni ilə təltif edilmişdir.

**46. Kamil Əlisoltan oğlu Akimov** Azərbaycan Respublikası Neft Emalı Sənayesi naziri vəzifəsində işləmişdir. Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmiş, II çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, Əməkdar mühəndis adına layiq görülmüşdür.

**47. Kamran Əsəd oğlu Hüseynov** Respublika Həmkarlar Şurasının sədri, Ümumittifaq Həmkarlar İttifaqları Mərkəzi Şurasının katibi, Azərbaycan Respublikası Nazirlər Sovetinin sədrinin müavini, Respublika Ticarət və Sənaye Palatasının prezidenti vəzifələrində işləmişdir. VII çağırış Azərbaycan Respublikası Ali Sovetinin, Rusiya Federasiyasının Ali Sovetinin deputatı seçilmiş, 4 Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**48. Kərim Əli oğlu Kərimov** Baş Kosmos idarəsinin rəisi, Pilotlu Uçuşlar üzrə Dövlət Komissiyasının sədri vəzifəsində işləmişdir. Sosialist Əməyi Qəhrəmanı adına, Lenin və Dövlət mükafatlarına layiq görülmüş, 2 Lenin ordeni, Şərəf və çoxsaylı digər ordenlərlə təltif edilmişdir, AMEA-nın fəxri üzvü seçilmişdir.

**49. Kərim Səlim oğlu Əliverdizadə** SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan SSR Əməkdar mühəndisi adlarına layiq görülmüş, 2 dəfə Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

**50. Qambay Əsgər oğlu Əlizadə** Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, Əməkdar elm xadimi adına layiq görülmüşdür.

**51. Qurban Abbasqulu oğlu Abbasov** «Neft Daşları»nda ilk quyunun qazılmasında xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları laureatı, Azərbaycan SSR Əməkdar mühəndisi adlarına layiq görülmüşdür. İki dəfə Lenin, Qırmızı Əmək Bayrağı, Oktyabr İnqilabı və Şərəf nişanı ordenləri ilə təltif edilmiş, IV çağırış SSRİ və IV çağırış Azərbaycan Respublikasının Ali Sovetinin deputatı seçilmişdir.

**52. Qurban Əli oğlu Xəlilov** Tikinti Materiallar Sənayesi nazirinin müavini, Yerli Sənaye naziri, Maliyyə naziri, Azərbaycan Respublikasının Ali Sovetinin Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir. Az SSR və II çağırış SSRİ Ali Sovetinin deputatı seçilmiş, 4 Lenin, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**53. Viktor Stepanoviç Qutırya** SSRİ Dövlət mükafatına layiq görülmüş, Azərbaycan EA-nın həqiqi üzvü, SSRİ EA-nın müxbir üzvü, Ukrayna EA-nın həqiqi üzvü, Ukrayna EA-nın vitse-prezidenti seçilmişdir. 2 dəfə Lenin ordeni, Oktyabr İnqilabı, 2 dəfə Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif olunmuşdur.

**54. Məcid Zahid oğlu Kərimov** Əməkdar elm xadimidir. «Dənizneftqazlayihə» Dövlət Elmi-Tədqiqat və Layihə İnstitutunun direktoru, Azərbaycan Respublikasının Yanacaq və Energetika naziri, Azərbaycan Respublikasının Sənaye və Energetika naziri, «Azərkimya» Dövlət Şirkətinin prezidenti vəzifələrində işləmiş, Milli Məclisin deputatı seçilmişdir.

**55. Məmməd Abdul oğlu İsgəndərov** Azərbaycan SSR Nazirlər Sovetinin sədri, Azərbaycan Respublikasının Ali Sovetinin Rəyasət Heyətinin sədri vəzifələrində işləmişdir. Dəfələrlə Azərbaycan və SSRİ Ali Sovetlərinin deputatı seçilmiş, 2 dəfə Lenin ordeni, Qırmızı Ulduz ordeni və medallarla təltif edilmişdir.

**56. Məmmədcavad Süleyman oğlu Qasımzadə** Lenin mükafatı laureatı adına layiq görülmüş, Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, 2 Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**57. Məmmədpaşa Piri oğlu Quluzadə** Azərbaycan SSR-nin Əməkdar elm və texnika xadimi, Əməkdar mühəndisi, SSRİ-nin Fəxri neftçisi, Azərbaycan SSR Dövlət mükafatı laureatı adlarına layiq görülmüş, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, Lenin ordeni ilə təltif edilmişdir.

**58. Mikayıl Ələsgər oğlu Hüseynov** Azərbaycan Memarlar İttifaqının sədri, SSRİ Memarlar İttifaqı Rəyasət Heyətinin katibi vəzifələrində işləmişdir. Azərbaycan EA-nın və SSRİ Memarlar Akademiyasının həqiqi üzvü seçilmiş, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan SSR Dövlət mükafatları laureatı, Əməkdar elm xadimi, SSRİ-nin Əməkdar memarı adlarına layiq görülmüş, II çağırış SSRİ, III çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmiş, 3 dəfə Lenin ordeni, 2 dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**59. Mirəli Seyidəli oğlu Qaşqay** Azərbaycan SSR Elmlər Akademiyasının təsisçilərindən biri kimi onun akademiki və ilk akademik-katibi seçilmişdir. Əməkdar elm xadimi adına layiq görülmüş, Oktyabr İnqilabı, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**60. Mirkazım Mirəhəd oğlu Məmmədov** Lenin mükafatı laureatı, Azərbaycan SSR-in Əməkdar mühəndisi, SSRİ-nin Fəxri neftçisi adlarına, geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsinə layiq görülmüş, Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir.

**61. Mirzə Mustafa oğlu Mustafayev** Sosialist Əməyi Qəhrəmanı və Əməkdar mühəndis adlarına layiq görülmüş, Azərbaycan Respublikasının Ali Sovetinin deputatı seçilmiş, Lenin və Qırmızı Əmək Bayrağı, 2 dəfə Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**62. Mithəd Teymur oğlu Abasov** EA-nın Yer elmləri bölməsinin akademik-katibi, EA-nın vitse-prezidenti, Azərbaycan Respublikasının Dövlət katibi vəzifəsində çalışmışdır. AMEA Geologiya İnstitutunun baş elmi işçisidir. SSRİ Ali Sovetinin deputatı, Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü seçilmiş, SSRİ-nin Fəxri neftçisi, SSRİ Qaz sənayesinin Fəxri işçisi, SSRİ İxtiraçısı, Azərbaycan SSR Dövlət mükafatı laureatı və Əməkdar elm xadimi adlarına layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**63. Murtuza Fətulla oğlu Nağıyev** Azərbaycan EA-nın kimya elmləri bölməsinin akademik-katibi, EA-nın vitse-prezidenti, baş elmi katibi vəzifələrində işləmişdir. III çağırış

Azərbaycan Respublikası Ali Sovetinin deputatı seçilmiş, Sosialist Əməyi Qəhrəmanı və Əməkdar elm xadimi adlarına layiq görülmüş, Lenin, Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**64. Musa İsmayıl oğlu Rüstəmov** Azərbaycan SSR EA Neft-Kimya Prosesləri İnstitutunun direktoru vəzifəsində çalışır. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, Şöhrət ordeni ilə təltif edilmiş, Azərbaycan SSR Dövlət mükafatı laureatı və Əməkdar elm xadimidir.

**65. Musa Mirzə oğlu Əliyev** *(bax: səh. 402)* 1950–1958-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti olmuş, 1958–1967-ci illərdə Rusiya Elmlər Akademiyasının Yanar Faydalı Qazıntıların Geologiyası və kəşfiyyatı İnstitutunun direktor müavini, Əlcəzairdə neft kontraktları müşavirlərinin rəhbəri vəzifələrində çalışmışdır. Akademik, Fəxri neftçi, Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, III çağırış SSRİ Ali Sovetinin deputatı seçilmiş, Lenin, 2 Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**66. Mübarək Əbdüləli oğlu Məmmədov** SSRİ Dövlət mükafatı laureatı olmuş, 3 dəfə Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmiş və prezident təqaüdünə layiq görülmüşdür.

**67. Müslüm Məşədi Müseyib oğlu İmanov** Azenerji ASC prezidenti vəzifəsində işləmişdir. 2 dəfə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmiş, II çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir.

**68. Namiq Nəsrulla oğlu Nəsrullayev** Azərbaycan SSR EA-nın Kibernetika İnstitutunun direktor müavini, «Ulduz» Elmi-İstehsalat Birliyinin baş direktoru, Azərbaycan Respublikası İqtisadi İnkişaf naziri, Hesablama Palatasının sədri vəzifələrində çalışmışdır. SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

**69. Natiq Ağaəmi oğlu Əliyev** «İPESKO İnternational» Şirkətinin Bakı nümayəndəliyinin baş direktoru, ARDNŞ-ın prezidenti vəzifələrində işləmişdir. Azərbaycan Respublikasının Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının fəxri mühəndisidir, Şöhrət, Gürcüstanın Şərəf və Fransanın Fəxri legion ordenləri ilə təltif edilmişdir.

**70. Vsevolod Fyodoroviç Neqreyev** Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmiş, Lenin mükafatı laureatı adına layiq görülmüşdür. Əməkdar elm və texnika xadimi, Lenin, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**71. Nəsrulla Hidayət oğlu Nəsrullayev** Dövlət Plan Komitəsinin sədr müavini, Rabitə naziri, Yüngül Sənaye naziri vəzifələrində işləmiş, dəfələrlə SSRİ və Azərbaycan Ali Sovetlərinin deputatı seçilmişdir.

**72. Nəsrulla Xanbaba oğlu Babayev** SSRİ Dövlət mükafatı laureatıdır. 1967-ci ildə Azərbaycan Ali Sovetinin deputatı seçilmiş, Lenin, Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**73. Oqtay Sabir oğlu Əsədov** Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, «Azərsu» Səhmdar cəmiyyətinin sədri vəzifələrində çalışmışdır. 2-ci və 3-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmiş, Azərbaycan Respublikası Milli Məclisinin sədridir.

**74. Rüstəm Əziz oğlu Rüstəmov** Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, SSRİ Ali Sovetinin deputatı seçilmiş, 3 dəfə Lenin

ordeni, Qırmızı Əmək Bayrağı və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**75. Rüstəm Hacıəli oğlu İsmayılov** Neft Emalı və Neft-Kimya Sənayesi naziri, Azərbaycan EA-nın prezidenti vəzifələrində işləmişdir. IV çağırış Azərbaycan Respublikasının Ali Sovetinin deputatı seçilmiş, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi adlarına layiq görülmüş, 4 Lenin və Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**76. Rüstəm Məmməd İbrahim oğlu İbrahimbəyov** Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, MDB və Baltikyanı ölkələrin Kinematoqrafçılar İttifaqları Konfederasiyasının sədri, Rusiya Kinematoqrafçılar İttifaqının katibidir. Onun əsərləri əsasında 40-dan çox bədii film, televiziya filmləri və tamaşaları çəkilmişdir. Professor, Oskar mükafatı və bir neçə nüfuzlu Beynəlxalq Film Festivallarının laureatı, Azərbaycan xalq yazıçısı, Rusiyanın və Azərbaycanın Əməkdar incəsənət xadimi, Lenin komsomolu, SSRİ və Azərbaycan Respublikasının Dövlət, Rusiyanın ədəbiyyat və incəsənət üzrə 4 Dövlət mükafatlarının laureatıdır.

**77. Sabit Atababa oğlu Orucov** SSRİ Neft Sənayesi Nazirliyi nəzdində Baş dəniz neft idarəsinin rəisi, SSRİ Neft Sənayesi nazirinin müavini, Azərbaycan Xalq Təsərrüfatı Şurasının sədri, Azərbaycan Respublikası Nazirlər Sovetinin sədr müavini, SSRİ Kimya, Neft və Yanacaq Sənayesi Dövlət Komitəsi sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsi nəzdində Dövlət Neftçıxarma Sənayesi Komitəsi sədrinin birinci müavini, SSRİ Neft Sənayesi nazirinin birinci müavini, SSRİ Qaz Sənayesi naziri vəzifələrində işləmişdir. Azərbaycan EA-nın müxbir üzvü seçilmiş, Sosialist Əməyi Qəhrəmanı, Lenin və 2 dəfə SSRİ Dövlət mükafatı laureatı, Əməkdar elm və texnika xadimi adlarına layiq görülmüş, 2 dəfə Lenin, Oktyabr İnqilabı, 4 dəfə Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**78. Sabit Qasım oğlu Abbasəliyev** 1974–1979-cu illərdə Mərkəzi Statistika İdarəsinin rəisi, Azərbaycan Respublikasının Nazirlər Soveti sədrinin müavini, Dövlət Plan Komitəsinin sədri vəzifələrində işləmişdir. Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, Qırmızı Əmək Bayrağı və Xalqlar Dostluğu ordenləri ilə təltif olunmuşdur.

**79. Sadıq Ələkbər oğlu Dadaşov** Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş, SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan SSR Əməkdar incəsənət xadimi adlarına layiq görülmüş, Lenin və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

**80. Səftar Mehdi oğlu Quliyev** Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, Əməkdar elm xadimi və SSRİ-nin Fəxri neftçisi adlarına layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**81. Sübhi Həşim oğlu Salayev** Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. Sübhi Salayev Əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı adlarına layiq görülmüş, Xalqlar Dostluğu, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**82. Süleyman Azad oğlu Vəzirov** SSRİ Neft Sənayesi Nazirliyinin texniki idarəsinin rəis müavini, Azərbaycan Neft Sənayesi naziri, Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri, Azərbaycan Nazirlər Sovetinin sədrinin

müavini, Azərbaycan Respublikasının Ali Sovetinin Rəyasət Heyətinin sədrinin müavini vəzifələrində işləmişdir. Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı, Azərbaycan SSR Əməkdar elm və texnika xadimi adlarına layiq görülmüş, III çağırış SSRİ Ali Sovetinin, III çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmiş, 4 Lenin ordeni, 6 Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

**83. Şamil Əbdürrəhim oğlu Əzizbəyov** SSRİ EA-nın Azərbaycan filialının Rəyasət Heyəti sədrinin müavini vəzifəsində çalışmış, EA-nın həqiqi üzvü və vitse-prezident seçilmiş, Əməkdar elm xadimi adına layiq görülmüşdür.

**84. Şəfaət Fərhad oğlu Mehdiyev** *(bax: səh. 380)* Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində işləmişdir. Əməkdar elm xadimi, Azərbaycan SSR Dövlət mükafatı laureatı, SSRİ-nin Fəxri neftçisi, SSRİ Qaz Sənayesinin Fəxri işçisi adlarına layiq görülmüş, 2 dəfə Qırmızı Əmək Bayrağı, Şərəf nişanı, 2-ci dərəcəli «Vətən müharibəsi» ordenləri ilə təltif edilmişdir.

**85. Şıxəli Ələsgər oğlu Dadaşov** 1942-ci ildə Türkmənistan Respublikasının neft sənayesinə işə dəvət edilmişdir. «Türkmənneft» İstehsalat Birliyinin baş direktoru olmuşdur. IV çağırış Türkmənistan Respublikasının Ali Sovetinin deputatı seçilmişdir. Şıxəli Dadaşov SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, 2 dəfə Lenin, Oktyabr İnqilabı, 2 dəfə Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif olunmuşdur.

**86. Tahirə Əkbər qızı Tahirova** Azərbaycan Həmkarlar İttifaqı şurasının sədri, Dövlət Elm və Texnika Komitəsinin sədri, Azərbaycanın Xarici İşlər naziri vəzifələrində çalışmışdır. Dəfələrlə Azərbaycan və SSRİ Ali Sovetlərinin deputatı seçilmiş, Lenin, 5 dəfə Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu, Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**87. Telman Abbas oğlu Əliyev** AMEA-nın həqiqi üzvü seçilmişdir. Azərbaycan EA Kibernetika İnstitutunda direktor müavini, Azərbaycan SSR EA fizika-riyaziyyat və texnika elmləri bölməsinin akademik-katibi vəzifələrində çalışmışdır. Kibernetika İnstitutunun direktorudur. Şöhrət ordeni ilə təltif olunmuşdur.

**88. Tofiq Məmməd oğlu Əliyev** *(bax: səh. 412)* Azərbaycan Neft və Kimya İnstitutunun rektoru vəzifəsində çalışmışdır. Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmiş, SSRİ (2 dəfə) və Azərbaycan SSR Dövlət mükafatları laureatı, Əməkdar elm və texnika xadimi adlarına layiq görülmüş, Şərəf nişanı ordeni ilə təltif edilmişdir.

**89. Toğrul Nemət oğlu Şahtaxtinski** Azərbaycan SSR EA Neft-Kimya Prosesləri İnstitutunda elmi işlər üzrə direktor müavini, Naxçıvan Elmi Mərkəzinin rəhbəri, EA-nın kimya elmləri bölməsinin akademik-katibi vəzifələrində çalışmışdır. Hazırda EA-nın Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunun (indiki Kimya Problemləri İnstitutu) direktorudur. Əməkdar elm xadimi, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Gürcüstan Elmlər Akademiyasının xarici üzvüdür. İstiqlal, Şöhrət, Şərəf nişanı, Xalqlar Dostluğu ordenləri ilə təltif olunmuşdur.

**90. Vahid Cümşüd oğlu Axundov** Azərbaycan SSR Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İqtisadiyyat və Planlaşdırma İnstitutunda direktor, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Xalq Təsərrüfatı

İdarəetmə İnstitutunda elmi işlər üzrə prorektor vəzifələrində çalışmışdır. Azərbaycan Prezidenti Administrasiyasının İqtisadi Siyasət Məsələləri üzrə dövlət müşaviridir.

**91. Vahid Yusif oğlu Ələkbərov** SSRİ Neft və Qaz Sənayesi nazirinin müavini vəzifəsində çalışmış, Rusiyada ilk neft konsernini yaratmışdır. LUKOYL neft şirkətinin prezidentidir. 2 dəfə Rusiya hökumətinin mükafatına layiq görülmüş, Şərəf nişanı, «Vətən qarşısında xidmətlərinə görə», Dostluq və Azərbaycanın Şöhrət və Şərəf ordenləri ilə təltif edilmişdir.

**92. Vaqif Əlibala oğlu Axundov** Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin rəisi vəzifəsində işləyir. General-polkovnikdir, «Azərbaycan Bayrağı» və 2-ci dərəcəli «Vətənə xidmətə görə» ordenləri ilə təltif edilmişdir.

**93. Valeh Feyruz oğlu Ələsgərov** «Azneft» İstehsalat Birliyinin vitse-prezidenti, ARDNŞ-nin birinci vitse-prezidenti, ARDNŞ-nin prezidentinin xarici iqtisadi əlaqələr üzrə müşaviri, ARDNŞ-nin Xarici Sərmayələr İdarəsinin rəisi vəzifələrində işləmişdir. AR Milli Məclisinin deputatı və sədrin müavini vəzifəsinə seçilmişdir. Əməkdar mühəndis adına layiq görülmüş, Şöhrət ordeni ilə təltif edilmişdir.

**94. Yavər Talıb oğlu Camalov** Azərbaycan Respublikasının Müdafiə Sənayesi naziridir, Şöhrət ordeni ilə təltif edilmişdir.

**95. Yusif Əmən oğlu Əmənzadə** 1972-ci ildə SSRİ-nin «Mexanika» üzrə Milli komitəsinin üzvü olmuşdur. Bakı Dövlət Universitetində deformasiya olunan bərk cisim mexanikasının əsasını qoymuşdur. Y.Ə.Əmənzadə N.İ.Musxelişvili və D.İ.Şermanla birlikdə məsələlərin həlli prosesində xətti cəbri tənliklərin sonsuz sistemlərinin kvazitəkrarlanmasını sübut edən ilk azərbaycanlı alim olmuşdur.

**96. Yusif Əliqulu oğlu Səfərov** 2 dəfə SSRİ Dövlət mükafatı laureatı, Əməkdar mühəndis adlarına layiq görülmüş, Qırmızı Əmək Bayrağı, 3 dəfə Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**97. Zaytsev Yuri Vasilyeviç** SSRİ Neft Sənayesi Nazirliyinin idarə rəisinin müavini və rəisi, SSRİ Qaz Sənayesi nazirinin müavini və birinci müavini vəzifələrində işləmişdir. Rusiyanın Əməkdar elm xadimi adına layiq görülmüş, SSRİ orden və medalları ilə təltif edilmişdir.

**98. Züleyxa Həbib qızı Seyidməmmədova** 1936-cı ildə Azərbaycan İndustrial İnstitutunu, 1941-ci ildə Jukovski adına Hərbi Hava Akademiyasını bitirmiş, 1941–1945-ci illərdə qırıcı təyyarəçi qadınlar aviasiya polkunun komandir müavini vəzifəsində çalışmış, 500 döyüş uçuşu keçirmişdir. Azərbaycan Respublikasının İctimai Təminat naziri vəzifəsində işləmiş, Azərbaycanın xarici ölkələrlə dostluq və mədəni əlaqə cəmiyyəti sədrinin müavini vəzifəsində çalışmışdır. Azərbaycan Respublikası Ali Sovetinin III çağırış deputatı seçilmiş, Lenin, Vətən müharibəsi, 2 Qırmızı Əmək Bayrağı, 2 Şərəf nişanı ordenləri ilə təltif edilmişdir.

**99. Züleyxa İsmayıl qızı Hüseynova** *(bax: səh.334)* Azərbaycan Respublikasının Ali və Orta İxtisas Təhsili naziri, Azərbaycan Həmkarlar İttifaqı Şurasının sədri vəzifələrində işləmiş, IV çağırış SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

### Azərbaycan Dövlət Konservatoriyası

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəlləri Azərbaycanın musiqi mədəniyyəti tarixində əhəmiyyətli dövrdür. Çünki bu dövrdə Azərbaycan incəsənətinə rus və Avropa incəsənətinin daxil olması prosesi başlayır.

Üzeyir bəy Hacıbəylinin və bütün sonrakı bəstəkarlıq məktəbi nümayəndələrinin yaradıcılığında mədəniyyət ənənələrinin qarşılıqlı təsiri, onların bədii sintezi Azərbaycan professional musiqisinin sürətli inkişafına geniş meydan açdı. Azərbaycanda musiqi təhsilinin inkişafına da məhz bu illərdə xüsusi diqqət göstərilməyə başladı.

O zaman artıq Bakıda Opera teatrı, simfonik orkestr, Rus Musiqi Cəmiyyətinin musiqi sinifləri üzrə bölməsi mövcud idi. Bura tez-tez görkəmli musiqiçilərin, opera truppalarının qastrol səfərləri olurdu.

Azərbaycanda sistemli musiqi təhsilinin tarixi 1895-ci ildən başlayır. Həmin ildə Moskva Konservatoriyasının məzunu pianoçu Antonina Yermolayeva neft sənayesinin inkişafı ilə bağlı Bakıda məskunlaşmış rusların və avropalıların uşaqları üçün musiqi məktəbi təsis etmişdi. O zaman bu məktəbdə yalnız əcnəbilərin uşaqları təhsil alırdılar.

Milli musiqi təhsilimizin yaranması və inkişafı isə bilavasitə **Üzeyir bəy Hacıbəylinin** adı ilə bağlıdır. Görkəmli bəstəkarımızın yaradıcılıq fəaliyyətinə başlaması Azərbaycanda musiqi təhsilinin təşəkkülü və inkişafı ilə, demək olar ki, eyni vaxta düşür. Azərbaycanda musiqi təhsilinin ən mötəbər ocağı olan Azərbaycan Dövlət Konservatoriyasının (ADK) yaradılmasında Üzeyir bəy Hacıbəylinin müstəsna



**Üzeyir bəy Hacıbəyli**
**(1885–1948)**

**Üzeyir bəy Əbdülhüseyn oğlu Hacıbəyli (Hacıbəyov)** 18 sentyabr 1885-ci ildə Ağcabədidə anadan olmuşdur. İbtidai təhsilini Şuşada rus-Azərbaycan məktəbində almış, 1899-cu ildə Qori Müəllimlər Seminariyasına daxil olmuşdur. Qori seminariyasını 1904-cü ildə bitirərək Cəbrayıl qəzasının Hadrut kənd məktəbində ilk əmək fəaliyyətinə başlamışdır.

Üzeyir bəy Hacıbəyli Azərbaycanın mədəniyyət tarixində ən parlaq simalardan biridir. O, milli mədəniyyətimizin inkişafında bu gün də ədəbi-bədii dəyərini itirməmiş yazıları ilə tanınan publisist, felyetonçu, ictimai xadim, dramaturq, alim, folklorçu və pedaqoq kimi misilsiz xidmətlər göstərmişdir.

Üzeyir bəy Hacıbəyli Azərbaycan musiqi mədəniyyətinin inkişafında, milli musiqimizin formalaşmasında böyük əməyi olmuş dahi sənətkardır. Azərbaycan professional musiqisinin təşəkkülü və inkişafı, bir çox janrların yaranması və təkamülü məhz onun adı ilə bağlıdır.

Azərbaycan musiqi mədəniyyəti tarixində yeni inkişaf yollarının və milli bəstəkarlıq məktəbinin əsasını qoyması, Azərbaycan musiqi tarixində ilk opera, ilk musiqili komediya və bir sıra digər janrlarda ilk nümunələrin yaradıcısı olması ilə o, XX yüzilliyin I yarısında dünya musiqi mədəniyyətində öz sözünü demiş, öz yeni dəst-xətti ilə seçilən böyük bəstəkarlardan biri kimi tanınmışdır. Üzeyir bəy Hacıbəyli ilk azərbaycanlı folklorçu-bəstəkar, Azərbaycan musiqisinin lad (məqam) nəzəriyyəsini araşdırıb üzə çıxarmış və əsaslandırmış ilk azərbaycanlı musiqişünas-alimdir.

Üzeyir bəy Hacıbəyli öz yaradıcılığı və geniş fəaliyyəti ilə Şərq və Qərb musiqi mədəniyyətlərinin yaxınlaşması və qarşılıqlı faydalanması yolunda ən böyük və ən cəsarətli addımlar atmış ilk sənətkar-musiqiçilərdəndir. O, Şərqin ilk operası olan «Leyli və Məcnun» operasının, «Şeyx Sənan», «Rüstəm və Söhrab», «Şah Abbas və Xurşid banu», «Əsli və Kərəm», «Arşın mal alan», «O olmasın, bu olsun», «Ər və arvad» musiqili komediyalarının, «Sənsiz», «Sevgili canan» romanslarının, «Vətən və cəbhə» kantatasının, «Uğurlu yol», «Şəfqət bacısı», «Ananın oğluna öyüdü» və s. qəhrəmanlıq mahnılarının, Azərbaycan xalq çalğı alətləri orkestri üçün «Cəngi» pyesi və Azərbaycan musiqi sənətinin şedevri olan «Koroğlu» operasının və s. əsərlərin müəllifidir. Onun «Azərbaycan xalq musiqisinin əsasları» kitabı Azərbaycan musiqişünaslığında əhəmiyyətli rol oynamışdır.

Üzeyir bəy Hacıbəyli Azərbaycanda ən böyük musiqiçi, ictimai xadim, Şərqdə ilk musiqili teatrın, ilk Konservatoriyanın yaradıcısı kimi, Azərbaycan xalqının tarixində və mədəniyyətində yaşayır və əbədi yaşayacaqdır.

xidmətləri vardır. Üzeyir bəy Hacıbəyli həmin dövrdə Xalq Maarif Komissarlığının (XMK) incəsənət bölməsində Musiqi Pedaqoji Cəmiyyətinə rəhbərlik edirdi. O, cəmiyyətin adından məruzə hazırlayaraq XMK-ya təqdim etdi. Məruzə, demək olar ki, yeni yaradılacaq Konservatoriyanın layihəsi idi.

Üzeyir bəy Hacıbəyli məruzəsində qeyd edirdi: *«Xüsusi musiqi təhsil kompleksi ixtisaslı musiqiçilərin – instrumentalist solistlər, orkestr musiqiçiləri, musiqi müəllimləri, opera müğənniləri, bəstəkarlar və b. hazırlanması və hər il məzun edilməsini nəzərdə tutur. Bu məqsədlə Konservatoriya adlanan musiqi təhsili müəssisəsində təhsil sistemi üçpilləli olmalıdır:*

***I pillədə*** *uşaqların xüsusi musiqi təhsili üzrə hazırlığı nəzərdə tutulur. Bu pillənin məktəbinə 8–12 yaşlı uşaqlar qəbul olunurlar. Onlar dördillik kurs keçərək II pilləyə qəbul olunmaq imkanı əldə edirlər... I pillədə 4 il müddətində qəbul olunanların musiqi qabiliyyətlərinin dərəcəsi müəyyən edilir və onlara müvafiq göndəriş verilir.*

***II pilləyə*** *I pilləni bitirmiş, tələb olunan musiqi hazırlığına malik şagirdlər daxil ola bilər. II pillə orta musiqi təhsili statusuna malikdir.*

***III pillə*** *ali musiqi məktəbidir. Bu kursu bitirən məzun ali musiqi təhsilini bitirmiş sayılır. III pillə Musiqi Akademiyası adlanır və onun rəhbərliyini professor heyəti təşkil edir».*

Üzeyir bəy Hacıbəyli məruzəsində bu üç pillənin Konservatoriya daxilində birləşdirilməsi fikrini irəli sürürdü. O, rəhbərliyin professor tituluna malik insanlara həvalə olunmasını, geniş xalq kütlələri arasında musiqi təhsilinin yayılmasının zəruriliyini, Bakının



**Matvey Leontyeviç Pressman (1870–1941)**

1921–1922-ci illərdə Konservatoriyanın rektoru olmuşdur.

bütün rayonlarında musiqi kurslarının təşkilinin əhəmiyyətini qeyd edirdi.

**Azərbaycan SSR XKS 1921-ci ilin avqustunda Azərbaycan Dövlət Konservatoriyasının təşkil edilməsi barədə dekret verdi.** İlk dərslər həmin ildə, oktyabrın 15-də başlandı. Burada ali məktəbə hazırlığın I mərhələsi kimi musiqi məktəbi, II mərhələsi kimi texnikum təşkil olundu. Təhsil ocağında fortepiano, vokal, orkestr, nəzəriyyə və bəstəkarlıq fakültələri, həmçinin 100 tələbənin təhsil aldığı «Şərq Akademiyası» adlı şöbə fəaliyyət göstərirdi.

Konservatoriyaya 5 şöbə daxil idi: fortepiano, vokal, orkestr alətləri (skripka, violonçel, kontrabas, fleyta, qoboy, klarnet, faqot, valtorna, truba, trombon); nəzəriyyə – bəstəkarlıq və Şərq şöbəsi (milli alətlərdə ifanın öyrənilməsi).

1922-ci il yanvarın 1-nə olan məlumata görə, Konservatoriyada 300 tələbə təhsil alırdı. O dövrdə ADK-da yalnız bir ifaçılıq fakültəsi mövcud idi. Peşəkar musiqiçi **Matvey Leontyeviç Pressman** Konservatoriyanın rektoru və ADK Şurasının ilk sədri seçilmişdi.

Bu yerdə bir haşiyə çıxmaq istəyirəm. Nə üçün rektor vəzifəsinə bütün hazırlıq işlərini həyata keçirən, bu vacib iş uğrunda can qoyan tanınmış bəstəkar və ictimai xadim, milliyyətcə azərbaycanlı olan Üzeyir bəy deyil, məhz Matvey Leontyeviç Pressman təyin edilmişdi? Bu sualla Bakı Musiqi Akademiyasının indiki rektoru, görkəmli musiqiçi, SSRİ və Azərbaycan Respublikasının xalq artisti, professor Fərhad Bədəlbəyliyə müraciət etdim. Fərhad müəllim dedi ki, mən də həmin sualı vaxtilə rəhmətlik maestro Niyaziyə, Əfrasiyab və Şəmsi Bədəlbəylilərə vermişdim. Cavabları da bu olmuşdu ki, həmin dövrdə qardaşı Ceyhun bəy Parisdə yaşadığına, özü isə Azərbaycan Xalq Cümhuriyyətinin fəal qurucularından biri olduğuna görə Üzeyir bəy bolşeviklərin ciddi nəzarəti altında idi. İkinci maneə ondan ibarət idi ki, həmin dövrdə milli musiqiyə və milli musiqi alətlərinə (tar, kamança, saz) qarşı böyük kampaniya keçirilirdi. Üzeyir bəy isə qəti şəkildə buna qarşı idi.

Konservatoriyanın professor-müəllim heyətinin tərkibinə respublikanın nüfuzlu pedaqoqları ilə yanaşı, Moskvadan dəvət olunmuş çoxsaylı musiqiçilər daxil idilər. Bu müəllimlər Konservatoriyanın hər 3 pilləsində fəaliyyət göstərirdilər.

*1920/21–1927/28-ci tədris illərində Konservatoriyada təhsil alan tələbələrin ümumi sayı*

| İllər | Tələbələrin ümumi sayı |
|---|---|
| 1920/21 | 3060 |
| 1921/22 | 623 |
| 1922/23 | 370 |
| 1923/24 | 270 |
| 1924/25 | 366 |
| 1925/26 | 407 |
| 1926/27 | 524 |
| 1927/28 | 507 |



**Bülbül**
**(1897–1961)**

**Məmmədov Murtuza (Bülbül) Məşədi Rza oğlu** Şuşa şəhərində anadan olmuşdur.

Bakı Dövlət Konservatoriyasını bitirmiş (1927), İtaliyada təhsil almışdır (1924; 1927–1931).

Azərbaycan professional vokal məktəbinin banisidir.

Onun təşəbbüsü və rəhbərliyi ilə Azərbaycan Dövlət Konservatoriyası nəzdində xalq musiqisini öyrənən elmi-tədqiqat kabineti yaradılmışdır (1932). Kabinetin fəaliyyəti nəticəsində Bülbülün redaktəsi ilə «50 Azərbaycan el mahnısı» (1938) və «Azərbaycan xalq mahnıları» (1956–1958) topluları çap edilmişdir.

SSRİ xalq artisti (1938) fəxri adına, SSRİ Dövlət mükafatı laureatı (1950) adına layiq görülmüşdür. Lenin ordeni (2 dəfə), Qırmızı Əmək Bayrağı ordeni (2 dəfə), Şərəf nişanı ordeni, İtaliyanın Haribaldi ordeni və bir sıra medallarla təltif edilmişdir.

1922-ci ildə respublika Xalq Maarif Komissarlığının qarşısında Konservatoriyanın Şərq bölməsinin müstəqil təhsil müəssisəsinə çevrilməsi barədə məsələ qaldırıldı. Bu tədris ocağı 1926/27-ci tədris ilinə qədər Türk Musiqi Texnikumu adı altında fəaliyyət göstərərək Azərbaycanın musiqi mədəniyyətinin inkişafında mühüm rol oynadı. Bu məktəbdə ilk milli musiqi kadrları yetişdi. Bu, elə bir dövr idi ki, milli kadrlara böyük ehtiyac var idi. Konservatoriyanın akademik heyəti Moskvadan, Leninqraddan (Sankt-Peterburq) və b. şəhərlərdən dəvət olunmuş müəllimlərin hesabına komplektləşdirilmişdi.

Konservatoriyanın idarə heyəti rektor, prorektor, Xalq Maarif Komissarlığının 4 üzvü və nümayəndələrdən təşkil olunmuşdu. Nümayəndələr professor-müəllim heyəti və tələbələrin yığıncağında seçilirdi.

1923/24-cü tədris ilindən rektor Matvey Leontyeviç Pressmanı istedadlı pianoçu və metodist **İlya Semyonoviç Aysberq** (1923–1928) əvəz etdi.

1923-cü ildə Konservatoriyanın cəmi 1 nəfər, 1924-cü ildə 5 nəfər, 1927-ci ildə 2 nəfər, 1929-cu ildə isə 2 nəfər məzunu oldu. Həmin il Konservatoriyaya **Ə.Əbdürrəhmanov** (1929–1933) rektor təyin edildi. Onilliyin sonuna yaxın burada, əsasən, yerli musiqiçi kadrlar işləyirdilər. 30-cu illərin əvvəllərində Asəf Zeynallı, Kövkəb Səfərəliyeva, **Bülbül, Səid Rüstəmov** və bir çox istedadlı gənc Konservatoriyada müəllim kimi fəaliyyətə başladı. Bu dövrdə türk (azərbaycanlı) oğlan və qızların təhsilə cəlb olunmasına xüsusi diqqət yetirilirdi. Dövrün tələbələri içərisində böyük sənətkarları var idi.



**Səid Rüstəmov**
**(1907–1983)**

**Rüstəmov Səid Əli oğlu** İrəvan şəhərində anadan olmuşdur. Bakı Musiqi məktəbinin tar sinfini və Bakı Pedaqoji Texnikumunu (hər iki məktəb eyni binada yerləşirdi) bitirmişdir (1926). Müəllimlik fəaliyyətinə I pillə musiqi məktəbində başlamışdır. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir (1932).

İlk «Tar məktəbi» dərs vəsaitinin müəllifi, musiqi məktəbləri üçün «Not savadı» dərsliyinin əsas tərtibçilərindən biridir. İlk xalq çalğı alətləri orkestrinin bədii rəhbəri, baş dirijoru, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri və s. vəzifələrdə işləmişdir. Əməkdar incəsənət xadimi (1938), Azərbaycan Respublikasının xalq artisti (1957) fəxri adlarına, SSRİ Dövlət mükafatına (1957) layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni (iki dəfə), Xalqlar Dostluğu ordeni və bir sıra medallarla təltif olunmuşdur.

Səid Rüstəmov Azərbaycan Dövlət Konservatoriyasında Xalq musiqisi kafedrası yaranan gündən bu kafedrada işləmiş, Azərbaycan Bəstəkarlar İttifaqının sədri (1948–1953) vəzifəsində çalışmışdır.



*Konservatoriyanın müəllim və tələbələrindən bir qrupu. 1930-cu il.*
*İkinci cərgədə soldan prof. Georgi Şaroyev, dos. Xeyfits, prof. S.Strasser, Ə.Əbdürrəhmanov (rektor), prof. M.A.Kolotova, prof. M.L.Pressman, prof. İ.S.Aysberq, kitabxanaçı E.S.Xocayeva, üçüncü cərgədə sağdan birinci Asəf Zeynallı*



*Üzeyir bəy Hacıbəyli özünün yaratdığı xalq çalğı alətləri ansamblının üzvləri ilə. 1932-ci il*



*Konservatoriyanın Bədii Şurası. 1971-ci il*



*Bəstəkarlıq kafedrasının əməkdaşları. 1971-ci il.*
*Birinci cərgədə soldan: Cövdət Hacıyev, Əşrəf Abbasov, Xəyyam Mirzəzadə, Soltan Hacıbəyov, Qara Qarayev*
*Arxada soldan: Emin Sabitoğlu, Fərəc Qarayev, Aqşin Əlizadə*



**Tofiq Quliyev
(1917–2000)**

**Quliyev Tofiq Ələkbər oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasında təhsil almış (1934–1936), Moskva Konservatoriyasını (1951) və onun aspiranturasını bitirmişdir (1954).

Azərbaycan Dövlət Konservatoriyasında orkestr sinfinə rəhbərlik etmiş (1954–1958), Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri (1958–1959), direktoru (1961–1964), Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi (1968), birinci katibi (1973) vəzifələrində işləmişdir.

Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1958), Azərbaycan SSR xalq artisti (1964) fəxri adlarına layiq görülmüşdür.

Azərbaycan SSR Ali Sovetinin (6-cı çağırış) deputatı olmuş, Qırmızı Əmək Bayrağı ordeni (2 dəfə), Şərəf nişanı ordeni, Şöhrət ordeni ilə təltif olunmuşdur.

Respublikanın xalq artisti, bəstəkar **Tofiq Quliyev**, Dövlət mükafatı laureatı, SSRİ xalq artisti, məşhur dirijor və bəstəkar Niyazi Tağızadə, SSRİ xalq artisti Bülbül də həmin dövrdə təhsil almışdılar.

1933/34-cü illərdə Konservatoriyada 8 nəfəri professor, 1 nəfəri dosent, 21 nəfəri müəllim olmaqla 30 müəllim işləyirdi. Burada artıq 4 müstəqil fakültə – xüsusi nəzəriyyə və bəstəkarlıq, fortepiano, orkestr alətləri və vokal fakültələri fəaliyyət göstərirdi.

30-cu illərin əvvəllərində Konservatoriyada fəhlə fakültəsi təşkil olundu. Bu fakültə 1936-cı ilə qədər fəaliyyət göstərdi. Qara Qarayev, Cövdət Hacıyev, Tofiq Quliyev, Zakir Bağırov, Adilə Hüseynzadə, Qəmbər Hüseynli, Ağabacı Rzayeva, Hacı Xanməmmədov və b. bu fakültənin məzunlarıdır.

30-cu illərdə Konservatoriyaya **V.V.Tovstolujski** (1933–1938), **Z.X.Səfərov** (1938–1939) rəhbərlik etmişlər.

Konservatoriya onillik fəaliyyətinin sonunda respublikanın ən nüfuzlu incəsənət ocağına çevrildi. Bu tədris müəssisəsi Azərbaycanın digər mədəniyyət ocaqları (opera teatrı, filarmoniya, yaradıcılıq ittifaqı) ilə qarşılıqlı əlaqədə inkişaf edirdi.

1937-ci ildə Konsertmeyster ustalığı sinfi, 1939-cu ildə Ümumi fortepiano kafedrası təşkil olundu. Üzeyir bəy Hacıbəyli 1939-cu ildə Konservatoriyaya rektor təyin edildi. Çox güman ki, bunun da əsas səbəbi «Koroğlu» operasının İosif Stalin tərəfindən yüksək qiymətləndirilməsi idi. Üzeyir bəy 1939-cu ildən ömrünün sonuna kimi bu vəzifəni şərəflə yerinə yetirdi. Həmin ildə Konservatoriyaya gələcəyin görkəmli bəstəkarları – **Fikrət Əmirov,** Soltan Hacıbəyov və Əşrəf Abbasov qəbul olundular.

1941–1945-ci illərdə müharibənin bütün çətinliklərinə baxmayaraq, Konservatoriyada tədris prosesi pozulmadı. Üzeyir bəy bu ali təhsil



**Fikrət Əmirov
(1922–1984)**

**Əmirov Fikrət Məşədi Cəmil oğlu** Gəncə şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasının (1948) bəstəkarlıq sinfini bitirmişdir. Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri (1947), Azərbaycan Opera və Balet Teatrının direktoru (1956–1959) vəzifələrində işləmişdir. SSRİ Dövlət mükafatı laureatı (1949), Respublika Komsomol mükafatı laureatı (1967), Azərbaycan SSR Dövlət mukafatı laureatı (1974) olmuş, SSRİ xalq artisti (1965) adına layiq görülmüşdür. Azərbaycan Bəstəkarlar İttifaqının (1959), SSRİ Bəstəkarlar İttifaqının katibi vəzifələrində işləmişdir (1974).

Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, Lenin ordeni və Qırmızı Əmək Bayrağı ordeni (2 dəfə) ilə təltif edilmiş, Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülmüşdür.



**Rauf Hacıyev**
**(1922–1995)**

**Hacıyev Rauf Soltan oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasında və Moskva Dövlət Konservatoriyasında təhsil almışdır. Azərbaycan Dövlət estrada orkestrini təşkil etmiş və həmin kollektivə 70-ci illərə qədər rəhbərlik etmişdir. Azərbaycan Dövlət Dram Teatrında, Səməd Vurğun adına Rus Dram Teatrında, Abdulla Şaiq adına Gənc Tamaşaçılar Teatrında tamaşaya qoyulan bir sıra pyeslərə, dram əsərlərinə, 15-dən artıq bədii və sənədli filmə musiqi yazmışdır. Operettalarından beşi Moskva Dövlət Operetta Teatrının səhnəsində tamaşaya qoyulmuşdur. Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasına direktor (1964), Azərbaycan Respublikasının mədəniyyət naziri vəzifələrinə təyin olunmuşdur (1965). Nazir işlədiyi illərdə Azərbaycan Dövlət xor kapellası, Mahnı Teatrı, Azərbaycan Dövlət Rəqs ansamblı, eləcə də dünyada birinci xalçaçılıq muzeyi açılmışdır.

ocağında ciddi nizam-intizamı və yaradıcılıq ab-havasını qoruyub saxlaya bildi.

Müharibə başlayan kimi Konservatoriyanın bir çox tələbəsi, o cümlədən 1941-ci ildə tələbələr sırasına daxil olmuş **Rauf Hacıyev** könüllü olaraq cəbhəyə getdi.

1945-ci ildən sonra simli alətlər kafedrasının işi genişləndi. Əvvəlki illərdə qazanılmış pedaqoji təcrübə parlaq ifaçı-solistlərin meydana çıxmasına təkan verdi. Heç təsadüfi deyil ki, Zaqafqaziya müsabiqələrində bu kafedranın yetirmələri çox yüksək nəticələr göstərirdilər.

1948-ci il noyabrın 23-də Üzeyir bəy Hacıbəyli vəfat etdi. Xatirəsini əbədiləşdirmək məqsədilə Konservatoriyaya onun adı verildi.

1949-cu ilin fevralında **Qara Qarayev** Konservatoriyaya rektor təyin edildi. 1951-ci ildə onun təşəbbüsü ilə simli kvartet yaradıldı. Elə həmin ildə Tarix-nəzəriyyə fakültəsinin nəzdində xor kollektivləri üçün dirijorlar hazırlayan xor dirijorluğu şöbəsi fəaliyyətə başladı. Bunlardan başqa, Konservatoriyada Bədən tərbiyəsi və idman, dillər kafedraları da fəaliyyət göstərirdi.

Azərbaycan fortepiano sənətinin bünövrəsinin qoyulmasında və inkişafında müstəsna rol oynamış iki görkəmli pedaqoq **Georgi Şaroyev** və **M.R.Brennerin** ərsəyə gətirdikləri pianoçular nəsli XX əsrin 30-cu illərindən müasir dövrümüzə qədər yeni-yeni parlaq simalar yetişdirmişlər. Ümumi fortepiano kafedrası 1952-ci ilə qədər fortepiano ixtisası kafedrasının tərkibinə daxil idi. Həmin kafedra 1952/53-cü tədris ilindən etibarən müstəqil fəaliyyət göstərməyə başlamışdır.

Nəfəs alətləri kafedrasının həmin dövrdəki fəaliyyəti də böyük uğurlarla yadda qalmışdır.



**Qara Qarayev**
**(1918–1982)**

**Qarayev Qara Əbülfəz oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasında təhsil almış (1933-1938), Moskva Konservatoriyasını bitirmişdir (1946). Azərbaycan SSR EA-nın akademiki seçilmiş (1959), SSRİ xalq artisti (1959), Sosialist Əməyi Qəhrəmanı (1978) fəxri adlarına layiq görülmüş, SSRİ Dövlət mükafatı laureatı (1946; 1948), M.F.Axundov adına respublika mükafatı laureatı (1968) olmuşdur.

Görkəmli Azərbaycan bəstəkarları Rauf Hacıyev, Hacı Xanməmmədov, Arif Məlikov, Xəyyam Mirzəzadə, Vasif Adıgözəlov və b. onun yetirmələridir.

Öz dövrünün ən yüksək mükafatı olan Lenin mükafatı laureatı olmuşdur. Lenin ordeni (2 dəfə), Oktyabr İnqilabı ordeni və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. SSRİ Ali Sovetinin deputatı olmuşdur.



Əşrəf Abbasov
(1920–1992)

**Abbasov Əşrəf Cəlal oğlu** Şuşa şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasını (1948), Moskva Dövlət Konservatoriyasının aspiranturasını (1952) bitirmişdir.

Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi (1963), Azərbaycan SSR-in xalq artisti (1968) fəxri adlarına layiq görülmüşdür. Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində çalışmışdır (1953–1957).

Bir çox operettaların, instrumental əsərlərin, xor, mahnı və romansların müəllifidir.



Cövdət Hacıyev
(1917–2002)

**Hacıyev Əhməd Cövdət İsmayıl oğlu** Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Konservatoriyasında (1935–1938) və Moskva Konservatoriyasında (1938–1941) təhsil almışdır. Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyətə başlamış (1947), bu tədris müəssisəsinin professoru (1963), rektoru (1957–1969) olmuşdur.

SSRİ Dövlət mükafatı laureatı (1946; 1952), Azərbaycan SSR xalq artisti (1960) fəxri adlarına layiq görülmüşdür. 1985-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi vəzifəsində işləmişdir.

Bu illərdə kafedranın səyləri nəticəsində müxtəlif konsertlər, müsabiqələr keçirildi ki, bu da musiqi təhsilinin inkişafında əhəmiyyətli addımlardan idi.

1953–1957-ci illərdə Konservatoriyaya **Əşrəf Abbasov,** 1957–1969-cu illərdə **Cövdət Hacıyev** rəhbərlik etmişlər. Bu dövrdə bütün ifaçılıq ixtisasları İfaçılıq fakültəsində birləşdi. Onun tərkibinə dörd şöbə – fortepiano, orkestr alətləri, vokal və xor dirijorluğu şöbələri daxil idi.

50–60-cı illərdə opera səhnəsində yeni əsərlər, yeni operalar tamaşaya qoyulurdu. ADK-nın məzunları artıq opera səhnəsinin parlaq ulduzlarına çevrilmişdilər. Bu illər SSRİ Xalq artistləri Bülbülün və Şövkət Məmmədovanın pedaqoji fəaliyyətinin zirvəsi hesab olunur. Vokal fakültəsinin tələbələri öz bacarıqlarını müxtəlif Ümumittifaq və Zaqafqaziya müsabiqələrində layiqincə nümayiş etdirir, çoxsaylı mükafatlar əldə edirdilər.

1959-cu ildə ADK Azərbaycanın Mədəniyyət Nazirliyinin tabeliyindən alınıb respublikanın Ali və Orta İxtisas Təhsili Komitəsinin tabeliyinə verildi. Konservatoriyanın tələbələrinin sayı əhəmiyyətli dərəcədə artdı. Qiyabi və axşam şöbələri də fəaliyyət göstərməyə başladı.

ADK-da digər respublikaların nümayəndələri – RSFSR, Gürcüstan, Ukrayna, Orta Asiya respublikalarından, habelə Bolqarıstan, Albaniya, Monqolustan və Suriyadan olan tələbələr də təhsil alırdılar. Həmin illərdə bir sıra kafedraların, o cümlədən vokal kafedrasının əhəmiyyətli uğurlarını qeyd etmək yerinə düşər. 50-ci illərdə bu Konservatoriyanın məzunları sırasında Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, SSRİ xalq artisti Firəngiz Əhmədova da var idi.

ADK pedaqoji heyətini böyük səylə öz məzunlarından təşkil edirdi. Elə bu məqsədlə də 50-ci illərdə müəllimlərin bir qismi təhsillərini davam etdirmək üçün Moskva və Leninqrad (Sankt-Peterburq) Konservatoriyalarının aspiranturalarına, həmçinin Azərbaycan SSR Elmlər Akademiyasının Arxitektura və İncəsənət İnstitutuna göndərilirdilər.



**Soltan Hacıbəyov (1919–1974)**

**Hacıbəyov Soltan İsmayıl oğlu** Şuşa şəhərində anadan olmuşdur.

Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsini bitirmişdir. Azərbaycan Musiqili Komediya Teatrının dirijoru (1938–1940), Sazçı Qızlar ansamblının bədii rəhbəri (1940–1942), Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru (1948–1962), Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi (1963–1968) vəzifələrində işləmişdir.

Azərbaycan Dövlət Konservatoriyasında pedaqoji fəaliyyət göstərmişdir (1948). Professor (1964), Konservatoriyanın rektoru (1969–1974) vəzifələrində çalışmışdır.

SSRİ Dövlət mükafatı laureatı (1952), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1970) adına layiq görülmüş, SSRİ xalq artisti fəxri adı almışdır (1973).

1961-ci ildən əsası qoyulmuş opera hazırlığı kafedrası da vokal fakültəsinin işinin uğurla davam etdirilməsində əhəmiyyətli rol oynadı. Kafedranın rus, Qərbi Avropa və Azərbaycan bəstəkarlarının ən məşhur əsərlərinin səhnələşdirilməsində böyük xidməti olmuşdur.

1964-cü ildə Kamera ansamblı kafedrası yaradıldı. Bu kafedra müxtəlif ixtisaslı gənc musiqiçilərin kamera ifaçılığına olan marağını daha da artırdı. Məhz bu illərdə respublikada yeni kamera kollektivləri təşkil olundu.

1969–1974-cü illərdə Konservatoriyaya **Soltan Hacıbəyov** rəhbərlik etmişdir.

ADK-nın ən sürətli inkişafı 70–80-ci illərə təsadüf edir. Həmin dövrdə bu elm ocağının maddi-texniki bazasının möhkəmləndirilməsi, onun yüksəkixtisaslı peşəkar kadrlarla təmin edilməsi, kollektivdə mənəvi-psixoloji iqlimin sağlamlaşdırılması istiqamətində ciddi addımlar atıldı. Bu, Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətdə olduğu illər idi. Məhz Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə Konservatoriyanın tədris bazasının genişləndirilməsi işi başlandı və Şövkət Məmmədova adına Opera studiyası inşa edildi. Konservatoriyaya müxtəlif çalğı alətləri alındı.

1970/71-ci tədris ilində ADK-da bəstəkarlıq ixtisası üzrə aspirantura fəaliyyətə başladı. Bunun nəticəsində ADK-nın müəllimlərinin bir neçəsi namizədlik dissertasiyası müdafiə etdi. İxtisaslarının yüksəldilməsi məqsədilə onlar üçün stajkeçmə sistemi tətbiq olundu. Dövrün çoxsaylı çətinliklərinə baxmayaraq, Konservatoriyanın müəllim-bəstəkarları – Qara Qarayev, Soltan Hacıbəyov, Cövdət Hacıyev, Cahangir Cahangirov, Azər Rzayev, Arif Məlikov, Xəyyam Mirzəzadə və b. dəfələrlə xarici ölkələrə ezam olunmuşdular.

70-ci illərin əvvəlində Konservatoriyada Azərbaycan xalq musiqisi kabineti və folklor kabineti yaradıldı.

1972-ci ildə Konservatoriyanın yubileyi keçirildi. Yubileydə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev də iştirak etdi.

1974–1977-ci illərdə Konservatoriyanın rektoru vəzifəsini **Bilqeyis Məmmədova** icra etmişdir, 1977-ci ildə isə **Elmira Abbasova** ADK-nın rektoru təyin edilmiş və 1991-ci ilədək bu vəzifədə çalışmışdır.

ADK-nın bəstəkarlıq kafedrası o dövrdə SSRİ respublikaları konservatoriyalarının ən güclü kafedraları sırasında idi. Görkəmli musiqiçi Boris İsaakoviç Zeydmanın rəhbərliyi ilə Azərbaycan musiqi mədəniyyətində öz sözünü demiş bəstəkarlar (Soltan Hacıbəyov, Fikrət Əmirov, Əşrəf Abbasov, Süleyman Ələsgərov,



**Bilqeyis Məmmədova (1931–2010)**

**Məmmədova Bilqeyis Mir Əbdülqəni qızı** Bakıda anadan olmuşdur.

Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir (1957). Həmin ildən konservatoriyanın musiqi nəzəriyyəsi kafedrasında çalışmışdır, professor (1997).

Azərbaycan Dövlət musiqi nəşriyyatının baş redaktoru (1953–1962), «Azərnəşr»də İncəsənət redaksiyasının müdiri (1962–1966), Azərbaycan Dövlət Konservatoriyasında tədris və elmi işlər üzrə prorektor olmuş (1969–1979), həmçinin konservatoriyanın rektoru vəzifəsini icra etmişdir (1974–1977).

Bir sıra elmi yazıların, dərs vəsaitlərinin müəllifidir.

«Şərəf nişanı» ordeni ilə təltif edilmişdir.

Cahangir Cahangirov, Şəfiqə Axundova, Elmira Nəzirova, Azər Rzayev, Ramiz Mustafayev, Murad Kajlayev və b.) nəsli yetişmişdi.

Azərbaycanın görkəmli bəstəkarları Rauf Hacıyev, Hacı Xanməmmədov, Arif Məlikov, Xəyyam Mirzəzadə isə Qara Qarayev məktəbinin yetirmələridir.

70–80-ci illərdə Azərbaycanın bir sıra görkəmli musiqi xadimlərinə SSRİ-nin fəxri adları və mükafatları verildi. Qara Qarayev bu sahədə respublikada, ilk dəfə olaraq Lenin mükafatına və Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldü. Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov Sosialist Əməyi Qəhrəmanı və SSRİ xalq artisti adını aldılar. Cövdət Hacıyev, Arif Məlikov, Firəngiz Əhmədova isə SSRİ xalq artisti adına layiq görüldülər.

Konservatoriyanın tələbələrinin xarici ölkələrdə keçirilmiş beynəlxalq müsabiqələrdə əldə etdikləri böyük nailiyyətlər də ali məktəbin bazasının yüksək səviyyədə olmasından xəbər verirdi. Brenner sinfinin istedadlı tələbəsi Fərhad Bədəlbəyli 1967-ci ildə Bedrjix Smetana adına (Çexoslavakiya) Beynəlxalq müsabiqədə III yerə, 1968-ci ildə Viana Da Motta adına Beynəlxalq müsabiqədə (Lissabon) Qran-priyə layiq görüldü. Azərbaycan pianoçusunun beynəlxalq müsabiqədə laureat adını qazanması ölkəmizdə fortepiano sənətinin yüksək səviyyəsinin bariz nümunəsi idi.

1983-cü ildə ənənəvi «Varşava payızı» festivalında bəstəkar Firəngiz Əlizadənin «Habilsayağı» əsəri böyük uğur qazandı.

70–80-ci illər Azərbaycanda mədəniyyətin inkişafında yaddaqalan illərdir. Həmin illərdə Konservatoriyada tədris prosesi daha da yaxşılaşdı. Kafedralara yeni-yeni müəllimlər cəlb olundu. Burada artıq üç ixtisas – fortepiano, fortepiano metodika və pedaqogikası, konsertmeyster ustalığı kafedraları da fəaliyyət göstərirdi.



**Elmira Abbasova (1932–2009)**

**Abbasova Elmira Əbdülhəmid qızı** Bakı şəhərində anadan olmuşdur. Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir (1955).

Azərbaycan EA Memarlıq və İncəsənət İnstitutunun elmi işçisi (1958–1971), həmin institutun Azərbaycan musiqi sənəti bölməsinin rəhbəri (1971–1977), Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının müəllimi (1955–1970), dosenti (1970–1972) və rektoru (1977–1991) vəzifələrində işləmişdir.

Azərbaycan Bəstəkarlar İttifaqı İdarə Heyətinin üzvü (1962) və katibi (1973) seçilmişdir. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi (1967) fəxri adına layiq görülmüşdür. Azərbaycan musiqi sənətinin inkişaf yolları, Üzeyir bəy Hacıbəyli, Qara Qarayev yaradıcılığına həsr olunmuş çoxsaylı məqalə, monoqrafiya və kitabların müəllifidir.

*Azərbaycan Dövlət Konservatoriyasının kadr potensialı*

| İllər | Vəzifə | Say |
|---|---|---|
| 1921–1931 | Professor | 5 |
| | Dosent | 7 |
| | Baş müəllim | 10 |
| | Müəllim | 6 |
| | Assistent | 1 |
| | **Cəmi:** | **29 nəfər** |
| 1931–1941 | Professor | 10 |
| | Dosent | 8 |
| | Baş müəllim | 22 |
| | Müəllim | 29 |
| | Assistent | 1 |
| | **Cəmi:** | **70 nəfər** |
| 1941–1951 | Professor | 10 |
| | Dosent | 6 |
| | Baş müəllim | 10 |
| | Müəllim | 17 |
| | Assistent | 2 |
| | **Cəmi:** | **45 nəfər** |
| 1951–1961 | Professor | 11 |
| | Dosent | 14 |
| | Baş müəllim | 15 |
| | Müəllim | 32 |
| | Assistent | 10 |
| | **Cəmi:** | **82 nəfər** |

| İllər | Vəzifə | Say |
|---|---|---|
| 1961–1971 | Elmlər namizədi | 3 |
| | Professor | 8 |
| | Dosent | 10 |
| | Baş müəllim | 52 |
| | Müəllim | 43 |
| | Assistent | 1 |
| | **Cəmi:** | **117 nəfər** |
| 1971–1981 | Elmlər namizədi | 5 |
| | Professor | 31 |
| | Dosent | 60 |
| | Baş müəllim | 59 |
| | Müəllim | 45 |
| | Assistent | 1 |
| | **Cəmi:** | **201 nəfər** |
| 1981–1991 | Elmlər doktoru | 2 |
| | Professor | 38 |
| | Dosent | 67 |
| | Baş müəllim | 95 |
| | Müəllim | 50 |
| | Assistent | 3 |
| | **Cəmi:** | **255 nəfər** |

70–80-ci illərdə musiqi sənətinin inkişafında Müslüm Maqomayevin, Fidan və Xuraman Qasımova bacılarının (vokal), Sərvər Qəniyevin (skripka), Sabir Əliyevin (violonçel), Rauf Atakişiyevin (fortepiano), Simuzər Quliyevanın (piano), Elmira Səfərovanın, Zöhrab Adıgözəlzadənin (fortepiano), Ramiz Quliyevin (tar) və başqalarının böyük xidmətləri vardır.

Yarandığı vaxtdan Azərbaycan mədəniyyətinə görkəmli musiqi xadimləri bəxş etmiş bu ali təhsil ocağı 80-ci illərin sonu, 90-cı illərin əvvəlində də böyük yaradıcı potensiala, yüksəkixtisaslı pedaqoji kollektivə malik idi.

**Azərbaycan Dövlət Pedaqoji İnstitutu**

Azərbaycanda sovet hakimiyyətinin ilk illərində II pillə məktəblər və orta ixtisas təhsili müəssisələri üçün pedaqoji kadrlar hazırlamaq məqsədilə təcili tədbirlər həyata keçirildi. **Azərbaycan Xalq Maarif Komissarlığının 1920-ci il 17 noyabr tarixli qərarı ilə Bakıda təbiyyat-coğrafiya, fizika-riyaziyyat və tarix-filologiya şöbələri olan birillik ali pedaqoji kurslar təşkil olundu.** Kurslarda tədris xüsusi proqram üzrə, Azərbaycan və rus dillərində aparılırdı. Gündüz məktəblərində çalışan müəllimlərin kurslara cəlb olunması məqsədilə dərslər axşam keçirilirdi.

O dövrün qabaqcıl maarifçi-ziyalıları Həbib bəy Mahmudbəyov, Məmməd Əfəndiyev, Sadıq Hüseynov, Rəhim Cəfərov və başqaları kursların təşkilində yaxından iştirak etməklə yanaşı, bu kurslarda müxtəlif ixtisaslar üzrə dərs də deyirdilər.

Bir il ərzində müəllim hazırlığı istiqamətində ali pedaqoji kurslar çox səmərəli fəaliyyət göstərdi. Lakin bu kurslar qısamüddətli olduğundan, respublika üçün yüksəkixtisaslı pedaqoji kadrlar hazırlanması bütövlükdə bu kurslarda həyata keçirilə bilməzdi. Ona görə də ali pedaqoji institutun yaradılmasına başlanıldı. Bu məqsədlə 1920-ci ilin sonunda Təşkilat Komitəsi (hazırlıq komissiyası) yaradıldı. Təşkilat komitəsinin sədri Fətulla bəy Rzabəyli, üzvləri isə Həbib bəy Mahmudbəyov və Rəhim Cəfərov idilər. Əməli kömək göstərmək məqsədilə komitənin tərkibinə Abdulla Şaiq Talıbzadə, Məmməd Əfəndiyev, Sadıq Hüseynov da cəlb edildi. Təşkilat komitəsi institut açılana qədər tədris planı layihəsini hazırlayıb Azərbaycan Xalq Maarif Komissarlığına təqdim etməli, yüksəkixtisaslı müəllim kadrları seçməli, eləcə də tədris ləvazimatı və bina məsələsini həll etməli idi.

Azərbaycan Xalq Maarif Komissarlığının 1921-ci il iyun ayının 13-də keçirilən kollegiyası Ali Pedaqoji Kişi İnstitutunun ilk Əsasnaməsini və Nizamnaməsini təsdiq etdi. Əsasnamədə ali təhsil ocağının strukturu, vəzifələri və hüquqları müəyyənləşdirildi.

**1921-ci ilin 26 avqustunda, nəhayət, Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanov «Azərbaycan Dövlət Pedaqoji Kişi İnstitutunun təşkili haqqında» dekret imzaladı.** Dekretdə deyilirdi:

*«Respublikanın vahid əmək məktəbinin ideyalarını həyata tətbiq etməyə qabil yüksəkixtisaslı maarif işçiləri hazırlamaq məqsədilə bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində II pillə şura məktəbləri üçün türk dilində müəllimlər hazırlayan Azərbaycan Dövlət Pedaqoji Kişi İnstitutu təsis edilsin. İnstitutun təşkilinə həmin dekretin nəşrindən dərhal sonra başlanılsın».*

İnstitutda təhsil müddəti 3 il idi. Tədris ili 40 həftə müəyyən edilmişdi. İnstitutun nəzdində tələbələr üçün 40 nəfərlik pansionat və təcrübə aparmaq üçün orta məktəbə bərabər «Nümunə məktəbi» təşkil edilməsi qərara alınmışdı. Həmin məktəbi yaratmağı Abdulla Şaiq öz üzərinə götürdü. Görkəmli yazıçı uzun müddət «Nümunə məktəbi»nə rəhbərlik etdiyindən ora «Şaiq məktəbi» adlanırdı. Sonralar (1925-ci ildə) «Nümunə məktəbi» **Abdulla Şaiq adına Pedaqoji Texnikuma** çevrildi *(bax: Ali Pedaqoji İnstitutun salnaməsi. Bakı, 1924, səh.12).*



Fətulla bəy Rzabəyli
(1885–1968)

İnstituta 18 yaşından yuxarı zəhmətkeş balaları, ilk növbədə, müəllimlər seminariyasını, yaxud II pillə məktəbləri bitirənlər imtahan verməklə qəbul olunurdular.

İnstitutun təşkilinin ilk dövründə maddi-təchizat və tələbə qəbulunda çətinliklər var idi. Orta təhsilli gənclər çox az idi. Eləcə də institutu müəllim kadrları ilə təmin etmək problem olaraq qalırdı. Bu səbəbdən Ali Pedaqoji İnstitutda dərslər oktyabrın 1-də deyil, noyabrın 15-də, cəmi 6 nəfər tələbə ilə: Əbdülhüseyn Rəhimzadə (Salyan), Atababa Musaxanlı (Bakı), Vəli Axundzadə (Ağdam), Mahmud Süleymanzadə, Veyis Mustafazadə (Göyçay) və Əbdülmənsur Əlizadə ilə (Orta Asiya) başladı. İnstitutun rəhbərliyi və müəllim heyəti Xalq Maarif Komissarlığı tərəfindən aşağıdakı tərkibdə təsdiq olunmuşdu: Odessa Universitetini bitirmiş Fətulla bəy Rzabəyli institutun direktoru, Tiflis Müəllimlər İnstitutunun məzunu Həbib bəy Mahmudbəyov direktor müavini, Abdulla Şaiq Talıbzadə dil-ədəbiyyat, Peterburq Universitetinin məzunu Məmməd Əfəndiyev fizika-riyaziyyat, Odessa Universitetinin məzunu Həmid Şahtaxtinski psixologiya və ilahiyyat, Almaniyanın Darmştadt Ali Texniki Məktəbini bitirmiş Sadıq Hüseynov kimya, Qafur Rəşad coğrafiya, V.Pismennaya isə rus dili müəllimi kimi Ali Pedaqoji İnstitutun bünövrəsini qoydular.

İnstitut ilk illər tarix-filologiya, təbiyyat-kimya, fizika-riyaziyyat ixtisasları üzrə müəllim kadrları hazırlayırdı.

1921-ci ilin payızında tarix-ictimaiyyat-ədəbiyyat şöbəsi yaradıldı. Yeni şöbədə ixtisas fənləri ilə yanaşı, fəlsəfə, məntiq, pedaqogika, didaktika, siyasi iqtisad, dövlət hüququnun əsasları və s. fənlər də tədris olunurdu.

1922-ci ilin yazında yeni fənlərin tədrisə daxil edilməsi ilə əlaqədar Kiyev Universitetinin məzunu Davud Şərifov (antropologiya və rus dili üzrə), Hüseyn Mirzəcamalov (siyasi iqtisad üzrə), Kazan Universitetinin məzunu Fətulla Əlizadə (anatomiya üzrə), Fransa Rəssamlıq Akademiyasının məzunu Kelxis (rəsm üzrə), Bəkir Çobanzadə (dilçilik üzrə), N.Berq (fizika təcrübə məşğələləri üzrə) instituta dəvət olundular.

Xalq Maarif Komissarlığının qərarı ilə Bakı şəhəri Lebedinski döngəsində (Şövkət Ələkbərova küçəsinin solunda) yerləşən Turgenev məktəbi (indiki 6 №-li məktəb) institut üçün boşaldıldı.

1922/23-cü tədris ilində Ali Pedaqoji İnstitut keçmiş realnı məktəbin (indiki Üzeyir Hacıbəyov küç., 34) binasına köçürüldü.

1922/23-cü tədris ilində Kazan Universitetinin məzunu Rəhim bəy Məlikov (fizika ixtisası üzrə), Azərbaycanın Xalq Maarif komissarının müavini Mustafa Quliyev (siyasi iqtisad üzrə), Odessa Universitetinin məzunu Mirəsədulla Mirqasımov və Kiyev Universitetini bitirən Cəlil Məmmədzadə (anatomiya üzrə), Peterburq Ali Qadınlar kursunun məzunu **Səlimə Osmanzadə** (botanika üzrə – o, Azərbaycanın ilk qadın elmlər namizədi, dosent, əməkdar müəllimi olmuşdur – *M.M.*), Paris



Səlimə Yaqubova-Osmanzadə (1890–1982)

Universitetini bitirən Mirzə Möhsün İbrahimov (fars dili üzrə), Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutunu bitirmiş Abdulla Azadbəyli (psixologiya və məntiq üzrə), Süleyman Səlimov (coğrafiya üzrə) və b. müəllim heyətinə qatıldılar.

**1923/24-cü tədris ilində Ali Pedaqoji İnstitutun 28 nəfərdən ibarət ilk buraxılışı oldu.**

Azərbaycan hökumətinin 20-ci illərdə pedaqoji təhsil sahəsində gördüyü tədbirlərdən biri də qadınların ali pedaqoji təhsilinin təşkili idi. Yeni həyat quruculuğunda qadınların iştirakını təmin etmək, xüsusilə təhsil almaları üçün geniş imkanlar yaratmaq vacib məsələlərdən biri sayılırdı. Nəriman Nərimanov respublikada ali pedaqoji qadın təhsili müəssisəsinin yaradılmasına xüsusi əhəmiyyət verirdi. Onun təşəbbüsü və köməyi ilə Bakıda **Məktəbəqədər Qadın Tərbiyə İnstitutu** fəaliyyətə başladı. Azərbaycan Xalq Komissarları Sovetinin 1920-ci il 25 dekabr tarixli, 11 saylı dekretində deyilirdi: *«Məktəbəqədər tərbiyə sahəsində təcrübəli kadrlar və rəhbər işçilər hazırlamaq, həmçinin qadınlar arasında tərbiyə işlərini yaymaqdan ötrü 1921-ci ilin mart ayının 1-dən etibarən Bakıda birinci Azərbaycan Qadın Məktəbəqədər Tərbiyə İnstitutu açılsın»*.

İnstitut II pillə məktəblər üçün qadın müəllimlər hazırlayırdı. Orada üç hazırlıq qrupu və iki ixtisas: ədəbiyyat və ictimaiyyat-təbiyyat şöbələri var idi. İnstitutda təhsil müddəti 3 il idi. Fəaliyyətə başladığı il, yəni 1921-ci ildə instituta 30 nəfər qadın qəbul olundu.

Azərbaycan Qadın Məktəbəqədər Tərbiyə İnstitutunun tələbələrinin çoxu oxumağa qəzalardan göndərilirdilər. İlk illər respublikada qadın kadrlara ciddi ehtiyacı və tam orta təhsilli qadınların azlıq təşkil etməsini nəzərə alaraq, instituta orta təhsili olmayanlar da qəbul edilirdilər. İnstitutun rəhbəri A.N.Maginskaya, müəllim heyəti – Həsən Mirzə Camalov, Azad Əmirov, Həmid Şahtaxtinski, bir qədər sonra isə A.N.Lukyanova, K.A.Ordubadskaya, Sara Xuramoviç (Talışinskaya), Səlimə Osmanzadə, Zümrüd Şahtaxtinskaya və başqaları idilər. Məktəbə xüsusi tədris korpusu ayrılmadığından dərslər darülmüəllimatın (qadın seminariyası) binasında keçilirdi.

1921/22-ci tədris ilində institutda 54 tələbə var idisə, bir il sonra onların sayı 115 nəfərə çatdı. Həmin il Məktəbəqədər Qadın Tərbiyə İnstitutu **Qadın Pedaqoji İnstitutuna** çevrildi.

İnstitutun ilk direktoru vəzifəsinə Sara Xuramoviç (Talışinskaya) təyin edildi. Məktəbəqədər Qadın Tərbiyə İnstitutunun bütün müəllim heyəti oraya köçürüldü.

1923/24-cü tədris ilində Azərbaycan xalq maarifi tarixində ilk dəfə olaraq Azərbaycan Qadın Pedaqoji İnstitutunu 17 nəfər ali təhsilli müəllim qadın bitirdi və Azərbaycan qəzalarına işə göndərildi (Ağahəsən *Rzayev. Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişaf tarixindən. Bakı, «Azərnəşr», 1960, səh.27–28*). Bu o dövr üçün böyük nailiyyət və son dərəcə fövqəladə hadisə idi.

Təsərrüfat-inzibati və maliyyə məsələləri ilə bağlı yaranan çətinliklər, pedaqoji təhsil ocaqlarının birləşməsi zərurətini gündəmə gətirirdi. Odur ki, **Azərbaycan SSR XMK Kollegiyasının 1923-cü il 3 aprel tarixli iclasında 1924/25-ci tədris ilindən Ali Pedaqoji Kişi İnstitutu və Ali Pedaqoji Qadın İnstitutunun inzibati cəhətdən Azərbaycan Pedaqoji İnstitutu şəklində birləşdirilməsi barədə qərar qəbul edildi.** Bu institutlar birləşdirilənə qədər orada təhsil alanların sayı aşağıdakı kimi idi:

| Təhsil müəssisəsinin adı | Şöbələr | Tələbələrin sayı |
|---|---|---|
| Ali Pedaqoji Kişi İnstitutu (üçillik) | Riyaziyyat | 29 |
| | Təbiyyat | 90 |
| | Ədəbiyyat | 23 |
| Ali Pedaqoji Qadın İnstitutu (üçillik) | | 114 |
| **Cəmi:** | | **256** |

Bu dövrdə Əhməd Kərədi və Zəhra Şaxtaxtinskaya elmi-pedaqoji fəaliyyətə başlamışlar. 1924/25-ci tədris ilindən etibarən **Azərbaycan Pedaqoji İnstitutu** dördillik tədris planı ilə işə başladı. Həmin vaxt orada 142 tələbə oxuyurdu. Ali pedaqoji təhsil müəssisəsinə təkcə respublikamızdan deyil, həmçinin qonşu müttəfiq və muxtar respublikalardan da oxumağa gələnlər var idi. 1925-ci ildə institutun pansionatında yaşayan tələbələrin 125 nəfəri Azərbaycanın müxtəlif rayonlarından, 12 nəfəri Dağıstandan, 9 nəfəri Özbəkistandan, 5 nəfəri Türkmənistandan, 8 nəfəri Krımdan, 3 nəfəri Ermənistandan, 1 nəfəri isə Gürcüstandan gəlmişdi.

1924/25-ci tədris ilində institutun 27 nəfərdən ibarət, 1925/26-cı dərs ilində isə 56 nəfərdən ibarət buraxılışı oldu. 1925/26-cı tədris ilində institutda tarix-ədəbiyyat (dekan professor Əziz Übeydulin), təbiyyat-aqronomiya (dekan Səlimə Osmanzadə) və fizika-riyaziyyat (dekan Məmməd Əfəndiyev) şöbələri var idi. Həmin tədris ilinin əvvəlində tarix-ədəbiyyat şöbəsi iki müstəqil şöbəyə: ədəbiyyat və tarix şöbələrinə ayrıldı. Tarix-ictimaiyyat şöbəsinin dekanı vəzifəsinə professor Əziz Übeydulin təyin edildi. Həmin dövrdə institutda tələbələrin sayı 172 nəfərə çatmışdı.

Növbəti tədris ilinin (1926/27) sonunda Ali Pedaqoji İnstitutun 75 nəfərdən ibarət buraxılışı oldu. Məzunların 18-i ədəbiyyat, 24-ü təbiyyat, 17-si riyaziyyat, 16-sı isə tarix-ictimaiyyat şöbələrini bitirdi. Bu, institutun Bakı Dövlət Universitetinin pedaqoji fakültəsinin tərkibinə verilməsi ərəfəsində son buraxılışı idi.

Xalq Maarif Komissarlığının təşəbbüsü ilə istedadlı milli elmi-pedaqoji qüvvələrin ali məktəblərə cəlb edilməsi nəticəsində Ali Pedaqoji İnstitutun müəllim heyətinin tərkibi azərbaycanlı müəllimlər hesabına daha da möhkəmlənirdi. İnstitutun ilk direktoru Fətulla bəy Rzabəylidən (1921–1924) sonra həmin vəzifədə çalışan Məmməd Əfəndiyev (1924), Həbib bəy Mahmudbəyov, Şərif Manafov və Cəlil Məmmədzadə (1925–1927) kollektivin tədris və elmi fəaliyyətinə, ali məktəbin təşkilatca möhkəmlənməsinə xeyli qüvvə sərf etdilər.

1926-cı ildə Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunun beşilliyi respublika ictimaiyyəti tərəfindən geniş qeyd edildi.



*Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunun bir qrup müəllimi. 1925–1926-cı illər*



*1926–1927-ci illərdə Pedaqoji İnstitutun müəllimlərindən bir qrupu: Məmməd Əfəndiyev, Z.Hüseynov, Mirzə Möhsün İbrahimov, Həbib bəy Mahmudbəyov, Tağı Şahbazi, Səlimə Yaqubova*



*Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutunun bir qrup müəllim və tələbəsi. 1926-cı il*




*Pedaqoji İnstitutun məzunları. 1927-ci il*


A. S. S. C.
Xalk Məarif Komisarlıgı
Ali və sənət məqtəbləri baş mudirliəti
Azərbajcan Dəvləti Ali Pedagozy
INSTITYTY
1 ijyn 1926 il.
№ 70
Baqı

# Şəhadətnamə

1896 nci jil maj ajının 10 ində Şysada dogylmyş vətəndaş Bəhmən Qərim oglı Məhəmmədzadə Ali Pedagozy Instityty fizik rijazijjat fakyltəsinin butun kyrsyny dinləjərəq atidəqi fənnlərdən imtihan verimişdir:

həndəsəji təhlilijjə, analizə giriş, hisabi təfazuli, hisabi təmami, fizik, mexaniq, kosmografija, grafik tərsimati, qimjəji qeiri uzvi rijazijjat ysyl tədrisi, fizik ysyl tədrisi, psixolozi, pedagozi, tarix pedagozi, diduktik, fəlsəfəjə giriş, tarixi madijjət və rys lisanı.

Byndan başka tədris planı uzrə mөvcyd butun təcrubə işlərini icra etmiş və nımynə dərslərini qafi dərəcədə verməqlə fizik-rijazijjat fakyltəsinin tədris planı moəlbincə butun tələbatını ifa etmiş oldygyndan 1926 nci jil maj ajının 26 gunu vaki Instityt Pedagozy Şyrasında vətəndaş Bəhmən Məhəmməd-zadə Azərbajcan Ali Pedagozy Instityty fizik-rijazijjat fakyltəsinin butun kyrsyny bitirmişədd edilərəq iqinci dərəcə məqtəblər (pedagozy və sənaje texnikymları, işçi fakyltələri, gənd cavanlar məqtəbləri və sairə) də dərs verməq hykykuna malik oldygy içün işby şəhadətnamə ona verilmişdir.

Instityt Rektory: [signature]
Fizik rijazijjat Fakyltəsi Dekanı: [signature]
Şyra Qatibi: S. Hüseynov

А. С. С. Р.
НАРОДНЫЙ КОМИССАРИАТ ПРОСВЕЩЕНИЯ
Главпрофобр
Азербайджанский Высший Государственный Педагогический
ИНСТИТУТ
1 июня 1926 г.
№ 70
Баку

# Свидетельство

Настоящее свидетельство выдано гр. Бахману Керим оглы Мамед-заде родившемуся 10 числа мая месяца 1896 года в городе Шуше в том, что он прослушал полный курс наук физико-математического факультета Высшего Педагогического Института и сдал нижеследующие предметы:

аналитическую геометрию, введение в анализ, дифференциальн. исчисление, интегральное исчисление, физику, механику, космографию, неорганическую химию, графическое черчение, методику математики, методику физики, психологию, педагогику, историю педагогики, дидактику, введение в философию, исторический материализм и русский язык.

Кроме того выполнил все положенные по учебному плану практические занятия и дал пробные уроки, признанные удовлетворительными.

Как выполнивший все требования учебного плана физико-математич. факультета, гр. Бахман Мамед-заде в заседании Педагогического Совета Института от 26 числа мая месяца 1926 года, признан окончившим полный курс физико-математич. факультета Высшего Педагогического Института с правом преподавания в школах второй ступени (педтехникумах, профтехникумах, рабфаках, в школах крестьянской молодежи и пр.).

Ректор Института: [signature]
Декан физико математич. Факультета: [signature]
Секретарь Совета: С. Гусейн[ов]

*1926-cı ildə Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutu tərəfindən Şuşa sakini Məhəmmədzadə Bəhmən Qərim oğluna verilmiş Şəhadətnamə*

Azərbaycan hökumətinin «*Ali pedaqoji institutların yenidən təşkili haqqında*» 1926-cı il 16 iyun tarixli qərarına əsasən Bakı Universitetinin fakültələri (Tibb fakültəsi istisna olmaqla) Azərbaycan məktəbləri üçün müəllim hazırlamağa istiqamətləndirildi. 1920–1927-ci illərdə respublikanın orta ixtisas və ali məktəblərini 1347 nəfər müəllim bitirmişdi ki, onlardan 578 nəfəri ali təhsilli idi. Bunlardan 389 nəfəri Bakı Universitetinin pedaqoji fakültəsinin, 189 nəfəri isə Ali Pedaqoji İnstitutunun payına düşürdü.

1927/28-ci tədris ilində **Ali Pedaqoji İnstitut Universitetin** pedaqoji fakültəsinin tərkibinə verildi.

*1927–1930-cu illərdə pedaqoji fakültədə təhsil alan tələbələrin illər üzrə sayı*

| Tədris ili | Tələbələrin ümumi sayı | O cümlədən: | |
|---|---|---|---|
| | | Azərbaycan bölməsi | Rus bölməsi |
| 1927/28 | 880 | 283 | 597 |
| 1928/29 | 916 | 383 | 533 |
| 1929/30 | 1345 | 731 | 614 |

Ali pedaqoji təhsilli kadrların hazırlanmasına verilən diqqət və göstərilən qayğı nəticəsində ali təhsilli müəllim kadrlarının sayı əhəmiyyətli dərəcədə artdı. 1920/21-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərində çalışan 3279 müəllimdən yalnız 141 nəfərinin ali təhsili var idisə, 1928/29-cu tədris ilində artıq 5339 müəllimdən 524 nəfərinin ali pedaqoji təhsili var idi. Lakin bu da ali təhsilli pedaqoji kadrlara olan tələbatı ödəmirdi.

**Azərbaycan XKS-nin 1930-cu il 19 iyun tarixli *«Azərbaycan SSR ali məktəblərinin və ali texniki məktəblərinin yenidən təşkili və rayonlaşdırılması, onların müvafiq təsərrüfat idarələri və Xalq Komissarlıqları tərkibinə verilməsi haqqında»* qərarı əsasında Vladimir İliç Lenin adına BDU-nun ayrı-ayrı fakültələrinin bazasında müstəqil sahə institutları, o cümlədən Azərbaycan Dövlət Pedaqoji İnstitutu (pedaqoji fakültəsinin bazasında) yaradıldı.** Pənah Qasımov instituta direktor, professor Boris Borisoviç Komarovski isə direktor müavini təyin edildi. Ayrı-ayrı fakültələrdə dərs deyəcək müəllimlər müəyyənləşdirildi.

İnstitutun ali riyaziyyat kafedrasına Azərbaycanın ilk ali təhsilli riyaziyyatçısı Məmməd Əfəndiyev müdir təyin edildi. Məmməd Əfəndiyev 1908-ci ildə Peterburq Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsinin riyaziyyat şöbəsinə daxil olmuşdu.

Sonralar institutda «Azərbaycan dili və ədəbiyyatın tədrisi metodikası» kafedrasının müdiri işləmiş Ağaməmməd Abdullayev, İbrahim İsmayılov, Əbdürrəhim Ağayev həmin illərdə institutun tələbələri olmuşdur.

Azərbaycanda ilk pedaqoji elmlər namizədi və ilk Əməkdar elm xadimi adlarına layiq görülmüş Əhməd Seyidovun da elmi-pedaqoji fəaliyyəti ADPİ ilə bağlı olmuşdur.

**Ali Pedaqoji İnstitutun** Bakı Universitetinin tərkibinə verilmiş professor-müəllim heyəti ilə yanaşı, universitetin pedaqoji fakültəsində çalışan elmi-pedaqoji kadrların xeyli hissəsi ADPİ-yə müəllimliyə cəlb olundular. Pedaqoji İnstitutda tədris prosesi və elmi işləri nizama salmaq kimi ciddi təşkilati işlər yerinə yetirildi. 1931-ci ilin sentyabr ayının 29-da institutun Elmi Şurasının iclası keçirildi və orada kafedraların təşkil edilməsi məsələsi müzakirə edildi. Ali məktəbdə ilk olaraq 26 kafedra yaradıldı.

20-ci illərdə respublikada məktəbəqədər tərbiyə müəssisələri də fəaliyyət göstərirdi. Məktəbəqədər müəssisələrin pedaqoji kadr ehtiyacını ödəmək məqsədilə 1930/31-ci tədris ilində Azərbaycan Pedaqoji İnstitutunun pedaqoji fakültəsi nəzdində məktəbəqədər şöbə yaradıldı və bura 9 nəfər tələbə qəbul edildi. Şöbədə tədris Azərbaycan dilində aparılırdı.

30-cu illərdə dövlətin və partiya orqanlarının bütün səyləri ali məktəblərdə, xüsusən pedaqoji institutlarda təhsilin tamamilə siyasiləşdirilməsinə yönəldi. SSRİ Mərkəzi İcraiyyə Komitəsinin «**Ali məktəblərdə və texnikumlarda tədris proqramları və iş rejimi haqqında**» 1932-ci il 19 sentyabr tarixli qərarında tədris planı və proqramları ciddi təftişə məruz qaldı. Gəncliyi «sosializm prinsipləri ruhunda tərbiyə etmək» məqsədilə SSRİ-nin bütün pedaqoji institutlarında yeni fakültə – Siyasi maarif fakültəsi yaradıldı.

ADPİ-nin əsas fakültələrindən biri olan pedaqoji fakültədə ibtidai məktəblər üçün ixtisaslı müəllimlər hazırlanırdı. Yenidən təşkil edilib müstəqil instituta çevriləndən sonra – 1930/31-ci tədris ilində ADPİ-nin ilk buraxılışı oldu. Pedaqogika fakültəsini 19 nəfər, Təbiyyat-kimya fakültəsinin kimya ixtisasının Azərbaycan bölməsini 17 nəfər, rus bölməsini 14 nəfər, biologiya şöbəsini 14 nəfər, riyaziyyat şöbəsini 31 nəfər bitirdi. İnstitutun İctimaiyyat və ədəbiyyat fakültəsinin tarix şöbəsinin Azərbaycan bölməsini 71 nəfər, rus bölməsini 35 nəfər, ədəbiyyat şöbəsini 25 nəfər bitirib respublikanın rayonlarına işləməyə göndərildilər.

Azərbaycan Dövlət Pedaqoji İnstitutu 30-cu illərin əvvəllərində Qafqazda ən iri ali pedaqoji təhsil müəssisəsinə çevrilmişdi. 1930/31-ci dərs ilində Azərbaycan Pedaqoji İnstitutunun nəzdində müfəttiş-inspektor fakültəsi təşkil edildi. 1931/32-ci tədris ilində institutda türkləşdirilmə xətti (tədrisin və elmi işlərin ana dilində – Azərbaycan dilində aparılması nəzərdə tutulur - *M.M.*) tamamilə başa çatdırıldı. Ali təhsil ocağına qəbul olunanların 80%-i azərbaycanlılar idi, qalan 20%-i də Azərbaycan dilində sərbəst danışırdı.

20-ci illərdən fərqli olaraq 30-cu illərin ortalarında institutda humanitar və ictimai elmlər üzrə fənlərin saatları artırıldı və partiya tarixi, siyasi iqtisad kafedraları təşkil olundu. Yeni kafedraların tərkibinə təcrübəli və istedadlı elmi-pedaqoji qüvvələr cəlb edildi.

Bu dövrdə Abbasqulu Abbaszadə, Zəhra Şaxtaxtinskaya, Əhməd Seyidov da bu elmi-pedaqoji qüvvələrin sırasında institutun kadr hazırlığı işində böyük əmək sərf edirdilər.

* * *

Dövlət Universiteti 1930-cu ildə müstəqil sahə institutlarına bölünəndə qiyabi Pedaqoji fakültə ayrıca Azərbaycan **Dövlət Qiyabi Pedaqoji İnstitutuna** çevrilmişdi. Müstəqil fəaliyyət göstərdiyi illərdə orada 4 ixtisasdan əlavə, kimya-biologiya şöbəsi də təşkil edildi.

Həmin şöbənin ilk tələbələrindən biri olan Allahverdi Verdizadə sonralar ADPİ-də Analitik və fiziki kimya kafedrasının yaradıcısı oldu.

1931/32-ci tədris ilində institutda daha üç yeni ixtisas üzrə şöbələr yaradıldı və təhsil alanların sayı 3 mindən artıq oldu *(bax: Nəzər Paşayev. Azərbaycanda qiyabi ali pedaqoji təhsilin təşkili və inkişafı tarixindən. Azərbaycan Qiyabi Pedaqoji İnstitutunun xəbərləri.1958, №5, səh.39)*.

Qiyabi institutun sessiyaları əvvəllər Gəncə, Şəki və Şuşada keçirilirdi. Sonralar sessiya Bakı məktəblərində də keçirilməyə başladı. 1932-ci ildə Qiyabi Pedaqoji İnstitut Xalq Maarif Kadrlarının İxtisasını Artırma İnstitutunun tərkibinə daxil edildi. Xalq Maarif Kadrlarının

İxtisasını Artırma İnstitutu isə 1933-cü ilin əvvəlində ADPİ-yə birləşdirildi. Bundan sonra Azərbaycan Pedaqoji İnstitutunda qiyabi təhsil yolu ilə tarix, dil-ədəbiyyat, fizika-riyaziyyat, kimya-biologiya və ibtidai sinif müəllimlərinin hazırlanmasını nəzərdə tutan yeni şöbələr təşkil edildi.

İnstitutda tədris işlərinin yaxşılaşması nəticəsində təlim keyfiyyəti yüksəldi. 1933/34-cü tədris ilində ADPİ tədris keyfiyyətinə görə Ümumittifaq ali pedaqoji məktəbləri içərisində üçüncü yeri tutdu.

30-cu illərin II yarısından başlayaraq institutun maddi-texniki bazası da möhkəmləndi. Artıq 1934/35-ci tədris ilində tələbələrin 96%-i təqaüdlə təmin edilir, ailəli tələbələr üçün yüksək təqaüd müəyyən olunurdu.

1935-ci ilin yanvar ayında çağırılmış VIII Ümumazərbaycan Sovetlər Qurultayının çıxardığı qərara əsasən, 1936-cı ildə ADPİ-nin Filoloji fakültəsi nəzdində rus dili və ədəbiyyatı şöbəsi yaradıldı. Həmin dövrdə respublikanın ali pedaqoji institutlarını vahid bir mərkəzdə birləşdirmək qərara alındı. Qiyabi Pedaqoji İnstitutun və Pedaqoji Kadrların İxtisasartırma İnstitutunun ardınca tarix-filoloji, fizika-riyaziyyat və təbiyyat şöbələrindən ibarət İkiillik Müəllimlər İnstitutu da ADPİ-nin tərkibinə daxil edildi. ADPİ-də iki ali məktəb fəaliyyət göstərməyə başladı:

a) təhsil müddəti dörd il olan Pedaqoji İnstitut;

b) təhsil müddəti iki il olan Müəllimlər İnstitutu.

1936-cı ildə Pedaqoji fakültənin nəzdində fəaliyyət göstərən məktəbəqədər şöbənin bazasında məktəbəqədər fakültə təşkil olundu. Fakültədə məktəbəqədər pedaqogika kafedrası yaradıldı. Kafedra 1941-ci ilin yayınadək fəaliyyət göstərdi. On il ərzində məktəbəqədər fakültəni 120 nəfər tələbə bitirdi.

1936-cı ildə ADPİ-nin xarici dillər fakültəsinin bazasında Xarici Dillər İnstitutu təşkil edildi.

30-cu illərdə ali pedaqoji təhsilin məzmununda müəyyən dönüş yarandı. Nəticədə ümumtəhsil məktəblərində ali təhsilli müəllimlərin tərkibində əsaslı kəmiyyət və keyfiyyət dəyişiklikləri baş verdi. Əgər 1932/33-cü dərs ilində respublikada çalışan 10432 müəllimin 693-ü ali, 6772-si orta, 2967-si natamam orta təhsilli idisə, 1935/36-cı tədris ilində 11106 müəllimin 1142-si ali, 8272-si orta, 1692-si natamam orta pedaqoji təhsilə malik idi. Göründüyü kimi, tam orta təhsili olmayan müəllimlərin nisbəti ilbəil azalır, ali və orta ixtisas üzrə pedaqoji təhsil alanların hesabına dəyişirdi. Yüksəkixtisaslı pedaqoji kadrların sayının 2 dəfə artması orta məktəblərdə tədrisin keyfiyyətini də xeyli yüksəltdi.

Orta məktəblərdə xarici dil fənlərindən dərs deyən yüksəkixtisaslı müəllimlər hazırlamaq məqsədilə **Azərbaycan Xalq Maarif Komissarlığının 1937-ci il 5 mart tarixli əmri ilə Xarici Dillər İnstitutu yenidən ADPİ-nin xarici dillər fakültəsinə çevrildi.** Fakültədə ingilis, fransız, alman dili şöbələri fəaliyyətə başladı. Şöbələrə rəhbərlik professor O.Neffə tapşırıldı.

İkiillik Müəllimlər İnstitutu 1938-ci ilə kimi ADPİ-nin nəzdində fəaliyyət göstərdi. Respublikada yeddiillik icbari təhsilə keçidlə əlaqədar məktəblərdə müəllimlərə olan ehtiyac artdığından Azərbaycan Xalq Maarif Komissarlığının 1938-ci il 2 noyabr tarixli əmrinə

əsasən İkiillik Müəllimlər İnstitutu ADPİ-dən ayrılıb müstəqil instituta çevrildi.

1937/38-ci tədris ilində Azərbaycan Pedaqoji İnstitutunda 1533 tələbə təhsil alırdı. 1938/39-cu tədris ilinin əvvəlində isə tələbələrin sayı 1934 nəfər idi.

İnstitutun tarixində ilk dəfə idi ki, tələbə qəbulunda müsabiqə üsulundan istifadə olunurdu. Tələbələrin sayı artdıqca ayrı-ayrı ixtisaslar üzrə kadr hazırlığı da genişlənirdi. Həmin illər Azərbaycan Pedaqoji İnstitutunda ondan artıq ixtisas üzrə kadr hazırlanırdı.

1938/39-cu tədris ili bir də onunla əlamətdardır ki, həmin tədris ilində ədəbiyyat şöbəsi müstəqil fakültəyə çevrildi. Dil və ədəbiyyat fakültəsinin nəzdində qeyri-rus məktəblərində dərs demək üçün rus dili müəllimi hazırlayan beynəlmiləl şöbə fəaliyyətə başladı. Xeyli genişləndirilən şöbədə 118 nəfər tələbə təhsil alırdı. Eyni zamanda xarici dillər üzrə müəllim kadrlarının hazırlanması yaxşılaşdırıldı. 1941-ci ilin iyun ayında Xarici dillər fakültəsində 190 nəfər tələbə oxuyurdu.

1940/41-ci tədris ilində Azərbaycan Pedaqoji İnstitutunda 95 nəfər tələbə xarici dil ixtisası üzrə ali təhsilini başa çatdırdı.

Əgər 1932/33-cü tədris ilində ADPİ-də cəmi 3 fakültədə 921 tələbə oxuyurdusa, 1940/41-ci tədris ilində orada təhsil alanların sayı təxminən iki dəfə artaraq 2055 nəfərə çatmışdı.

30-cu illərin ikinci yarısından etibarən institutun fakültələrində və ixtisas profillərində ciddi dəyişikliklər edildi, şöbələr şəklində birləşmiş fakültələrin bazasında müstəqil fakültələr yaradıldı. Nəticədə müəllim kadrlarının hazırlanmasında kəmiyyət və keyfiyyət dəyişikliyi baş verdi.

Görülən tədbirlər nəticəsində institutda elmi-tədqiqat işlərinin səmərəsi yüksəldi və o, elmi-pedaqoji kadr hazırlayan elmi mərkəzə çevrildi. Kafedralarda elmin müxtəlif sahələrində ciddi elmi axtarışlar geniş vüsət aldı.

Azərbaycan Pedaqoji İnstitutu 30-cu illərdə tədris işinin yenidən təşkilini başa çatdırmaqla, ixtisaslı pedaqoji kadrlar hazırlamaqla respublikada əsas və aparıcı ali məktəbə çevrildi. Xalq maarifi sistemi üçün kadrlar hazırlayan pedaqoji təhsil ocaqlarının səyi nəticəsində respublikada yeni müəllimlər nəsli yetişdi. 1939/40-cı tədris ilində Azərbaycan məktəblərində çalışan 21310 müəllimin 4386 nəfəri ali təhsilli idi. Bunun da əsas hissəsini Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirənlər təşkil edirdi.

*1930–1941-ci illərdə tələbə kontingenti, qəbul və buraxılışın dinamikası*

| Tədris illəri | Dərs ilinin əvvəlində tələbə kontingenti | Qəbul | Buraxılış |
|---|---|---|---|
| 1930/31 | 1039 | 350 | 126 |
| 1931/32 | 1531 | 455 | 265 |
| 1932/33 | 921 | 555 | 256 |
| 1933/34 | 1015 | 500 | 63 |
| 1934/35 | 1339 | 800 | 224 |
| 1935/36 | 1867 | 960 | 389 |
| 1936/37 | 2154 | 1030 | 365 |
| 1937/38 | 1533 | 560 | 218 |
| 1938/39 | 1934 | 1050 | 334 |
| 1939/40 | 2045 | 600 | 261 |
| 1940/41 | 2055 | 600 | 571 |

30-cu illərdə və 40-cı illərin əvvəllərində ADPİ-də təşkilati məsələlərin həllində, tədris və elmi tədqiqat işlərinin düzgün qurulmasında

direktor vəzifəsində çalışmış Pənah Qasımovun (1929–1930), Məmməd Bayramovun (1930–1933), Bəşir Bünyadovun (1933), Mirzə Məmmədovun *(bax: səh. 63)* (1933–1936), Davud Rəsulzadənin (1936–1937), Hüseyn Musayevin (1937), Aqil Salayevin (1937–1939), Camal Əliyevin (1939– 1940), Ələsgər Həşimovun (1940–1942) böyük xidmətləri oldu. Onların fəaliyyət göstərdikləri dövr tariximizin çox mürəkkəb, ziddiyyətli və faciəli bir mərhələsidir. Sərt və ciddi qanunların tətbiqi ilə səciyyəvi olan həmin dövrdə Pedaqoji İnstitutda təhsilin tamamilə siyasiləşdirilməsi, sinfi mübarizənin kəskinləşməsi haqqında Stalin ideyası ali pedaqoji təhsildə demokratik ənənələrin inkişafını ləngitdi və yeni arzuolunmaz istiqamət formalaşdırdı.

30-cu illərdə başlanan repressiya dalğası bir çox Azərbaycan ziyalıları kimi Pedaqoji İnstitutun da ən yaxşı müəllimlərinin cismən məhv olmasına və ya sürgünə göndərilməsinə səbəb oldu. Milli kadrlarla yanaşı, bəzi görkəmli rus alimləri də sıradan çıxarıldı və onların yerinə maneəsiz olaraq ermənilər yerləşdirildi. 1940/41-ci tədris ilinin əvvəlində ADPİ-nin 240 nəfərlik akademik heyətinin tərkibində 109 nəfər azərbaycanlı var idi.

Müharibənin ağır və dəhşətli dövründə – 1941-ci ilin ikinci yarısı və 1942-ci ilin əvvəlində 2,5 mindən artıq ali məktəb tələbəsi tədris işini pozmadan gündə 5–6 saat Bakının sənaye müəssisələrində, xüsusən cəbhə üçün neft emal edən mədən və zavodlarda çalışırdı. İstirahət günlərində isə ali məktəblərin müəllim və tələbələri zavodlarda, fabriklərdə cəbhəyə getmiş fəhlə, mühəndis-texniki işçilərini əvəz edirdilər.

Hərbi sınaq illərində tədris prosesi, əsasən, müharibənin tələblərinə uyğun quruldu. Hərbi təlim məsələlərinə diqqət artırıldı, xüsusilə Kimya-biologiya, Fizika-riyaziyyat fakültələrinin tədris plan və proqramlarına hərbi fənn və xüsusi kurslar daxil edildi. Tələbələrə ballistika, aerodinamika, hava və dəniz astronomiyası, hərbi topoqrafiya və kartoqrafiya, bakteriologiya və cərrahiyyənin əsasları haqqında ətraflı məlumat verilməyə başlandı.

Müharibə illərində respublikanın bütün ali məktəblərinin tam və səmərəli tədris və elmi fəaliyyətini qoruyub saxlamaq imkanları məhdud idi. Bu səbəbdən də1937-ci ildən müstəqil fəaliyyət göstərən Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutu Azərbaycan Xalq Komissarları Sovetinin 5 sentyabr 1941-ci il tarixli əmri ilə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsinə çevrildi.

Müharibə əməliyyatları genişlənib ciddi xarakter aldıqca respublikanın bir çox ali məktəblərinin, o cümlədən ADPİ-nin maliyyə imkanları tükənir, tələbə və müəllim heyətinin vəziyyəti ağırlaşırdı. Ona görə də Azərbaycan XKS və Azərbaycan K(b)P MK 19 sentyabr 1941-ci il tarixdə **«Vladimir İliç Lenin adına ADPİ-nin Sergey Mironoviç Kirov adına ADU ilə birləşdirilməsi haqqında»** qərar qəbul etdi.

Pedaqoji İnstitut bir ildən artıq Bakı Universitetinin pedaqoji fakültəsi tərkibində fəaliyyət göstərdi. 1942-ci ilin sonu, 1943-cü ilin əvvəllərində müvafiq ali məktəblərin tərkibinə verilmiş sahə institutlarının ayrılıb təzədən müstəqil fəaliyyət göstərmələri gündəmə gəldi.

**Azərbaycan Dövlət Pedaqoji İnstitutu** 1943-cü ilin oktyabr ayının 1-dən etibarən **Bakı Dövlət Universitetinin** tərkibindən ayrıldı,



**Əhməd Seyidov (1892–1977)**

**Seyidov Əhməd Yusif oğlu** Qazax qəzasının Aslanbəyli kəndində anadan olmuşdur. Qori Müəllimlər Seminariyasında təhsil almışdır (1911–1917). 1930-cu ildə ADU-nu bitirmişdir. 1937-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. Qazax qəza xalq maarif şöbəsində inspektor, Aslanbəyli, Musaköy və Kosalar kənd məktəbində direktor, Lənkəran qəza xalq maarif şöbəsinin müdiri, Azərbaycan XMK-da dəmiryolu məktəbləri üzrə inspektor vəzifələrində çalışmışdır. 1947-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. ADPİ-də dosent, professor, fakültə dekanı, kafedra müdiri, elmi işlər üzrə prorektor, rektor (1944–1948) vəzifələrində çalışmışdır. Əməkdar elm xadimi adına layiq görülmüşdür. 2 monoqrafiyanın, «Pedaqogika tarixi» dərs vəsaitinin və 200-dən artıq elmi məqalənin müəllifidir.

müstəqil ali təhsil ocağı kimi beş fakültə ilə fəaliyyətini davam etdirdi.

1943-cü ilin oktyabrında yenidən təşkilindən sonra ADPİ-nin direktoru vəzifəsində dosent **Ağaməməd Abdullayev** (01.10.1943–18.01.1944), **Məmmədkazım Ələkbərli** (01.01.1944–03.06. 1944) *(bax: səh. 375)*, **Əhməd Seyidov** (24.06.1944–07.05.1948) işləmişlər.

Müharibə şəraitinin doğurduğu maddi çətinliklər tələbələrin böyük bir qismini təhsili yarımçıq qoymağa məcbur etdi. Əgər 1943/44-cü tədris ilinin əvvəlində institut 936 nəfər tələbə ilə tədrisə başlamışdısa, ilin sonunda orada oxuyanların sayı cəmi 610 nəfər idi. Sonrakı iki ildə vəziyyət dəyişmədi. Belə ki, 1944/45-ci tədris ilinin əvvəlində institutda təhsil alan 756 tələbənin yalnız 550 nəfəri, 1945/46-cı tədris ilində isə 879 tələbənin 647 nəfəri axıradək dərslərə davam edə bildi.

1943/44-cü tədris ilində coğrafiya fakültəsi yenidən təşkil edildi. 1944/45-ci tədris ilində isə hazırlıq şöbəsi yaradıldı və oraya 230 nəfər tələbə qəbul olundu.

İnstitutun yenidən təşkilindən sonra ADPİ-də 25 kafedra yaradıldı. Həmin kafedralara tanınmış alimlərlə bərabər, gənc istedadlı milli elmi-pedaqoji qüvvələr rəhbərlik etməyə başladılar.

Müharibənin sonuna yaxın – 1944-cü ildə institutda aspirantura yenidən təşkil edildi və elmi pedaqoji kadrlar probleminin həlli yolları tapıldı.

1948/49-cu dərs ilində ADPİ-nin Xarici dillər fakültəsi yenidən müstəqil Xarici Dillər Pedaqoji İnstitutuna çevrildi. Bununla əlaqədar ADPİ-yə tələbə qəbulu azaldıldı. Həmin tədris ilində institutda Rus dili və ədəbiyyatı fakültəsi, 1949/50-ci tədris ilində isə Bədən tərbiyəsi fakültəsi təşkil edildi. Bu dövrdə İsmayıl Şıxlı, Şükür Sadıqov, Hüseyn Əhmədov institutun aspiranturasında təhsil alırdılar.

1945–1950-ci illərdə institutun müəllimlərindən 6 nəfər doktorluq, 29 nəfər isə namizədlik dissertasiyası müdafiə etdi.

*1945–1950-ci illərdə ADPİ-də doktorluq və namizədlik dissertasiyası müdafiələrinin vəziyyəti*

| Tədris ili | Cəmi | Namizədlik dissertasiyası | Doktorluq dissertasiyası |
|---|---|---|---|
| 1945/46 | 5 | 4 | 1 |
| 1946/47 | 4 | 2 | 2 |
| 1947/48 | 10 | 7 | 3 |
| 1948/49 | 7 | 7 | – |
| 1949/50 | 9 | 9 | – |
| **Cəmi:** | **35** | **29** | **6** |

*1945–1950-ci tədris illərində ADPİ-də tələbə qəbulu, tələbələrin sayı və buraxılışı*

| Tədris ili | Qəbul | Cəmi (ilin əvvəli üçün) | Buraxılış |
|---|---|---|---|
| 1945/46 | 340 | 879 | 53 |
| 1946/47 | 608 | 1168 | 171 |
| 1947/48 | 655 | 1497 | 176 |
| 1948/49 | 600 | 1532 | 200 |
| 1949/50 | 600 | 1858 | 337 |

Azərbaycan Dövlət Pedaqoji İnstitutu 1946-cı ildə özünün 25 illiyini təntənə ilə bayram etdi. Respublikamızda maarifin, elm və mədəniyyətin inkişafında böyük xidmətlər göstərən ali pedaqoji təhsil müəssisəsi 25 illik fəaliyyəti müddətində müxtəlif bölmə və ixtisaslar üzrə 7000 nəfərə qədər müəllim hazırlamışdı. Bu o demək idi ki, o zaman respublikanın orta məktəblərində dərs deyən ali təhsilli müəllimlərin 80%-dən çoxu ADPİ-nin məzunları idilər.

ADPİ-də Tarix, Dil-ədəbiyyat, Fizika-riyaziyyat, Təbiyyat-kimya, Rus dili və ədəbiyyatı, Coğrafiya fakültələri fəaliyyət göstərirdi. Bədən tərbiyəsi fakültəsi tələbələrinin sayı az olduğuna görə (cəmi 32 nəfər) müvəqqəti olaraq Coğrafiya fakültəsinin tərkibinə verildi.

Respublikanın bütün ali məktəblərində 50-ci illərin ortalarından başlayaraq struktur dəyişiklikləri edildi. Belə dəyişikliklər ADPİ-də də aparıldı. 1952-ci ildə ADPİ-nin rus dili və ədəbiyyatı fakültəsi **Mirzə Fətəli Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunun** tərkibinə verildi.

1954-cü ilin oktyabr ayında ADPİ-də yenidən Bədən tərbiyəsi fakültəsi yaradıldı. Pedaqoji institutlar 1956/57-ci tədris ilindən beşillik təhsil müddətinə keçdi və fakültələrin ixtisaslaşdırma təmayülü genişləndirildi. İnstitutda Tarix-filoloji, Fizika-riyaziyyat, Təbiyyat-coğrafiya və Bədən tərbiyəsi fakültələri (sonuncuda təhsil 4 il idi) yenidən təşkil olundu. Bu tədbirlərin həyata keçirilməsi nəticəsində institutu bitirən gənclər təhsil müddəti ərzində iki ixtisas qazanmaq imkanı əldə etdilər.

*1951–1958-ci tədris illərində ADPİ-də tələbələrin ümumi sayı və buraxılışı*

| Tədris ili | Qəbul | İnstitut üzrə tələbələrin ümumi sayı | Buraxılış |
|---|---|---|---|
| 1950/51 | 600 | 1987 | 370 |
| 1951/52 | 600 | 2057 | 407 |
| 1952/53 | 700 | 2230 | 478 |
| 1953/54 | 807 | 2509 | 690 |
| 1954/55 | 800 | 2490 | 387 |
| 1955/56 | 625 | 2661 | 478 |
| 1956/57 | 628 | 2734 | 681 |
| 1957/58 | 675 | 2623 | 691 |
| 1958/59 | 775 | 3256 | 621 |

Pedaqoji institutlar vasitəsilə müəllim kadrları yetişdirilməsinin keyfiyyətini yaxşılaşdırmaq işində respublika Nazirlər Sovetinin 1959-cu il 26 may tarixli **«Azərbaycanda ali pedaqoji məktəblərin profilləri haqqında»** qərarının böyük əhəmiyyəti oldu. ADPİ-nin bədən tərbiyəsi fakültəsi **Bədən Tərbiyəsi İnstitutuna** verildi. Təbiyyat-coğrafiya fakültəsinin coğrafiya və biologiya ixtisasları ADU-nun



**Cəfər Xəndan Hacıyev (1910–1961)**

1948–1950-ci illərdə institutun rektoru olmuşdur.

müvafiq fakültələri ilə birləşdirildi. **Azərbaycan Qiyabi Pedaqoji İnstitutu** bütünlüklə, **Gəncə Pedaqoji İnstitutunun** isə Tarix-filologiya fakültəsi ADPİ-yə birləşdirildi. İnstitutda bir sıra yeni fakültə, şöbə, kafedra, laboratoriya və kabinələr təşkil edildi. Tədrisin və elmin səviyyəsini yüksəltmək imkanları artdı. Eləcə də qiyabi təhsil yenidən qurulub genişləndirildi. Ali qiyabi təhsilə nəzarəti gücləndirmək məqsədilə qiyabi şöbə üzrə prorektor vəzifəsi yaradıldı.

50–60-cı illərdə ADPİ-nin direktoru (rektoru) vəzifəsində tanınmış elm və maarif xadimləri **Cəfər Xəndan Hacıyev** (1948–1950) *(bax: səh. 379)*, **Mehdi Mehdizadə** (1950–1951) *(bax: səh. 74)*, **Həmid Qədirov** (1951–1954), **Cəbrayıl Ələsgərov** (1954–1956) *(bax: səh. 377)*, **Mehdixan Vəkilov** (1956–1962), **Mehti Əliyev** (1962–1965) *(bax: səh. 383)*, **Şövqi Ağayev** (1965–1970) çalışmışlar.

ADPİ-nin yenidən qurulması onun maddi-texniki bazasının xeyli möhkəmlənməsinə, tələbələrin sayının artmasına imkan verdi. Əgər 1958/59-cu tədris ilində institutda cəmi 3256 nəfər tələbə oxuyurdusa, 1959/60-cı tədris ilində burada təhsil alanların sayı 7208 nəfərə çatdı. Tədrisin təşkili xalq maarifi orqanlarının yüksəkixtisaslı müəllimlərə ehtiyacını təmin etməyə istiqamətləndirildi.

1958/59-cu tədris ilində institutu 621 nəfər bitirmişdisə, 1959/60-cı tədris ilində respublikanın orta məktəbləri üçün 962 nəfər müəllim hazırlanmışdı ki, onlardan da 486 nəfəri qiyabi yolla təhsilini başa vuranlar idi.

İbtidai məktəblər üçün müəllimlər hazırlanması işini yaxşılaşdırmaq məqsədilə 1958/59-cu dərs ilində institutda İbtidai təhsil pedaqogikası və metodikası fakültəsi yaradıldı.

1960/61-ci dərs ilində institutun nəzdində axşam şöbəsi və 1962-ci ildə Pedaqogika fakültəsi nəzdindəki məktəbəqədər tərbiyə şöbəsi əsasında yeni fakültə fəaliyyətə başladı. İnstitutda ibtidai məktəb pedaqogikası və metodikası, pedaqogika tarixi, əmək təlimi və onun tədrisi metodikası, rəsm, musiqi və onların tədrisi metodikası kimi mürəkkəb və çoxcəhətli fənləri



**Həmid Qədirov (1909–1990)**

**Qədirov Həmid Musa oğlu** Şamaxı şəhərində anadan olmuşdur. 18 saylı Pedaqoji təmayüllü orta məktəbi bitirmişdir (1921). Azərbaycan Politexnik İnstitutunun Kənd Təsərrüfatı fakültəsində (1927–1929), Daşkənd şəhərindəki Pambıq İnstitutunda təhsil almışdır (1930–1932). Azərbaycan SSR EA-nın Botanika İnstitutunun aspiranturasını bitirmişdir. Botanika bağının direktoru (1943–1949), Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru (1951–1954), elmi işlər üzrə prorektoru (1954–1962), Botanika kafedrasının müdiri (1950–1984), həmin kafedranın professoru (1968) vəzifələrində fəaliyyət göstərmişdir.

65-dən artıq elmi əsərin müəllifidir. Pedaqoji və elmi-pedaqoji kadr hazırlığındakı xidmətlərinə görə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür. Qırmızı Əmək Bayrağı, Şərəf nişanı ordenləri və medallarla təltif olunmuşdur.



**Mehdixan Vəkilov**
**(1902–1975)**

**Vəkilov Mehdixan Yusif oğlu** Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur. Qazax Müəllimlər Seminariyasını və Azərbaycan Dövlət Universitetini bitirmişdir.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunda rektor (1956–1962). Sov. İKP tarixi kafedrasının müdiri (1956–1969), həmin kafedranın professoru (1969–1975) işləmişdir. 1969-cu ildə doktorluq dissertasiyası müdafiə etmiş, elə həmin ildə də professor seçilmişdir. 1973-cü ildə Əməkdar elm xadimi fəxri adını almışdır.

Azərbaycanın sovet dövrü tarixinin tədqiqatçılarındandır. Azərbaycan SSR Ali Sovetinin (5-ci çağırış) deputatı olmuşdur. Müxtəlif orden və medallarla təltif olunmuşdur.

özündə birləşdirən İbtidai təhsil pedaqogikası kafedrası fəaliyyət göstərirdi. Bu qədər müxtəlif fənləri əhatə etmək kafedra üçün çətin idi. Ona görə də 1962/63-cü tədris ilində məktəbəqədər tərbiyə fakültəsində musiqi və rəsm kafedrası, 1966/67-ci tədris ilində isə hesab və onun tədrisi metodikası kafedrası təşkil edildi.

Qiyabi və axşam şöbələrində oxuyan tələbələr üçün nəzərdə tutulan güzəştlər gənclərin istehsalatdan ayrılmadan ali təhsil almasına imkan verdi. Axşam şöbəsinə daxil olanların sayı artdıqca, yeni-yeni ixtisaslar da yaradılırdı.

1966-cı ildə Tarix-filologiya fakültəsi bazasında müstəqil Tarix və filologiya, Fizika-riyaziyyat fakültəsi bazasında Fizika və riyaziyyat, Kimya-biologiya fakültəsi bazasında isə Kimya və Biologiya-coğrafiya fakültələri yaradıldı. Coğrafiya şöbəsi 1968-ci ildə Biologiya fakültəsindən ayrılıb müstəqil fakültəyə çevrildi. Bu tədbirlər institutu bitirənlərə konkret bir ixtisas üzrə daha ətraflı bilik qazanmaq imkanı verdi. Ümumtəhsil məktəblərinin müəllimə olan ehtiyacını tez və səmərəli şəkildə ödəməyə geniş imkanlar açıldı.



**Şövqi Ağayev**
**(1926–1975)**

**Ağayev Şövqi Süleyman oğlu** Şamaxı şəhərində anadan olmuşdur. Azərbaycan Tibb İnstitutunu və Bakıda ikiillik Müəllimlər İnstitutunu bitirmişdir. 1954-cü ildə namizədlik, 1967-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. ADPİ-də kafedra müdiri, tədris işləri üzrə prorektor və rektor (1965–1970) vəzifələrində çalışmışdır. 5 kitabın və 100-dən artıq elmi məqalənin müəllifidir.

1967/68-ci tədris ilində ADPİ-nin Naxçıvan, 1969/70-ci tədris ilində isə Xankəndi filialı yaradıldı. 1970/71-ci tədris ilində institutda yeni kafedralar (Azərbaycan tarixi, ümumi riyaziyyat, ümumtexniki fənlər və məktəb gigiyenası) təşkil olundu. 1972/73-cü tədris ilində isə Ümumi tarix, Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası, Ümumtexniki fənlər kafedralarının bazasında yeni kafedralar (Tarix və ictimaiyyətin tədrisi metodikası, xarici və rus ədəbiyyatı kafedrası və Elektrotexnika kafedraları) fəaliyyətə başladı. Tibbi hazırlıq və Mülki müdafiə kafedraları birləşdirildi.

60-cı illərin sonu, 70-ci illərin əvvəllərində respublikada elmi-pedaqoji kadrların hazırlanmasında ADPİ-də yaradılan müdafiə şurasının böyük rolu oldu. Həmin illərdə ADPİ-də dörd müdafiə şurası yaradılmışdı. 1965–1967-ci tədris ili ərzində həmin şuralarda 101 nəfər, 1967/68-ci tədris ilində isə 49 aspirant və dissertant elmlər namizədi alimlik



*Pedaqoji fakültənin ilk tələbələri*

dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir. Bunlardan 61 nəfəri institutun aspirantları və müəllimləri, 40 nəfəri isə respublikanın başqa elmi müəssisələrindən və digər respublikalardan gələnlər idi. Ümumiyyətlə, 1970-ci ilə qədər institutun müdafiə şurasında 240 nəfərdən artıq aspirant və müəllim müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə etmişdir. 60–70-ci illərdə ADPİ-nin dosentlərindən Nəzər Paşayev, Allahverdi Verdizadə, Şükür Sadıqov, Şərif Haqverdiyev, Teymur Vəliyev, Şövqü Ağayev, Afad Qurbanov, Fərhad Fərhadov, Əkbər Bayramov, Mehdixan Vəkilov, Rafiq Rəcəbov, Cahid Quliyev, Məmməd Məmmədov, Əli Fərəcov müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etdi. Həmin illərdə pedaqoji elmlər sahəsində də elmlər doktorlarının sayı artdı. Hüseyn Əhmədov, Aben Kərimov, Yusif Talıbov doktorluq dissertasiyaları müdafiə etdilər.

1971/72-ci tədris ilində institutun Naxçıvan filialı, 1973-cü ildə isə Xankəndi filialı müstəqil institutlara çevrildi. İnstitutda tədris və elmi fəaliyyətin səviyyəsini yüksəltmək, yüksəkixtisaslı müəllim kadrları hazırlamaq, maddi-texniki bazanı genişləndirmək, yeni tədris korpusları və tələbə yataqxanaları inşa etmək istiqamətində konkret tədbirlər həyata keçirildi. ADPİ-nin rəhbərliyi dəyişdirildi. **Həşim Ağayev** instituta rektor vəzifəsinə təyin edildi.

1500 yerlik tələbə yataqxanası istifadəyə verildi. Kimya, fizika, biologiya və digər tədris



**Həşim Ağayev (1916–1988)**

**Ağayev Həşim Nizami oğlu** Lənkəranda anadan olmuş. Azərbaycan Dövlət Universitetinin Fizika-riyaziyyat fakültəsini (1936–1941) bitirmişdir.

1943-cü ildən 1970-ci ilədək Elmlər Akademiyasının Riyaziyyat və Mexanika İnstitutunda kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və direktor vəzifələrində çalışmış, eyni zamanda respublikanın müxtəlif institutlarında pedaqoji fəaliyyətini davam etdirmişdir.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun rektoru (1970–1981) vəzifəsində işləmişdir. 50-dən artıq elmi işin, çoxsaylı dərslik və dərs vəsaitinin müəllifidir. 1947-ci ildə namizədlik dissertasiyası müdafiə etmiş, 1972-ci ildə professor elmi adı almışdır. 1975-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

laboratoriyaları yeni avadanlıqlarla komplektləşdirildi. Pedaqoji təcrübənin təşkilinə və tələbə müstəqil işlərinə diqqət artırıldı.

Azərbaycan Dövlət Pedaqoji İnstitutunun SSRİ-nin digər ali pedaqoji məktəbləri, SSRİ Elmlər Akademiyasının müvafiq institutları və SSRİ Pedaqoji Elmlər Akademiyası ilə elmi pedaqoji əlaqələri gücləndirildi. Görkəmli rus alimləri (B.A.Sadoviç, A.İ.Busev, A.İ.Sokolov, M.İ.Vişkin, B.A.Qorin, Y.A.Saukin, V.F.Nozdrev və b.) mühazirə oxumaq üçün instituta dəvət olundular.

1970-ci illərin sonunda ADPİ-nin on fakültəsində 20 ixtisas üzrə kadr hazırlığı həyata keçirilirdi. *(bax: Афад Курбанов и др. Первый педагогический институт Азербайджана. Баку, «Азернешр», 1981, стр.91).* İnstitutda 53 kafedra fəaliyyət göstərirdi. SSRİ Nazirlər Sovetinin 25 avqust 1978-ci il tarixli qərarına əsasən orta ümumtəhsil məktəblərində ibtidai hərbi hazırlığın inkişafı məqsədilə ADPİ-də «İbtidai hərbi və fiziki təlim» adlı fakültə təşkil olundu.

1970/71-ci tədris ilində institutda hazırlıq şöbəsi fəaliyyətə başladı. Bu şöbə fəhlə və kəndli gənclərin ümumtəhsil hazırlığı səviyyəsinin yüksəlməsində əsaslı rol oynadı. Tələbə hazırlıq şöbəsinin işi institutun elmi şurasında, rektorluğun və partiya komitəsinin iclaslarında müzakirə edilirdi. Hazırlıq şöbəsində tədris prosesinə rəhbərlik edən müstəqil pedaqoji şura fəaliyyət göstərirdi.

Fəaliyyətinin 10 ili müddətində (1970/71–1980/81-ci illər) hazırlıq şöbəsinə qəbul olunmuş 1639 dinləyicidən 1542 nəfəri müvəffəqiyyətlə buraxılış imtahanı verərək institutun I kursuna qəbul olundu. İnstitutun tələbələrinin 70%-i fəhlə və kəndli ailələrindən idi.

O dövrdə ADPİ-də istehsalatdan ayrılmadan təhsilalmanın zəngin ənənələri, forma və üsulları mövcud idi. Bu kateqoriyadan olanlar üçün tədris prosesi qiyabi və axşam şöbələri vasitəsilə həyata keçirilirdi. Bu təhsil forması böyük sayda istehsalatda çalışan gənclərin əməyini təhsillə əlaqələndirirdi, onlara istehsalatdan ayrılmadan təhsilalma imkanı yaradırdı. 1970-ci illərdə ADPİ-nin tarix, filologiya, riyaziyyat, fizika, biologiya, ibtidai təhsil və məktəbəqədər fakültələrində qiyabi şöbə fəaliyyət göstərirdi. 1980/81-ci tədris ilində qiyabi şöbədə 3997 dinləyici ali təhsil alırdı *(bax: Афад Курбанов и др. Первый педагогический институт Азербайджана. Баку, «Азернешр», 1981, с.98).*

*1970/71–1980/81-ci tədris ilində ADPİ-nin hazırlıq şöbəsində təhsil alan dinləyicilərin inkişaf dinamikası*

| Tədris illəri | Qəbul | Kontingent | Buraxılış | Partiyalılıq | | | Sosial tərkibi | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Sov. İKP üzvləri və üzvlüyə namizədlər | ÜLKGİ üzvləri | Bitərəflər | Sənaye işçiləri | Kolxozçu və fəhlələr | Sovxoz işçiləri | Ordudan tərxis olunanlar |
| 1970/71 | 44 | 119 | 44 | 7 | 109 | 3 | 27 | 60 | 17 | 15 |
| 1971/72 | 125 | 150 | 123 | 19 | 124 | 7 | 34 | 53 | 28 | 10 |
| 1972/73 | 150 | 150 | 145 | 18 | 123 | 9 | 42 | 66 | 34 | 8 |
| 1973/74 | 145 | 145 | 145 | 21 | 111 | 9 | 37 | 46 | 32 | 48 |
| 1974/75 | 175 | 175 | 158 | 14 | 148 | 13 | 33 | 74 | 56 | 12 |
| 1975/76 | 175 | 146 | 126 | 15 | 105 | 6 | 31 | 46 | 25 | 24 |
| 1976/77 | 175 | 133 | 117 | 13 | 104 | 16 | 22 | 40 | 28 | 27 |
| 1977/78 | 175 | 175 | 145 | 33 | 134 | 8 | 29 | 51 | 64 | 31 |
| 1978/79 | 175 | 194 | 167 | 24 | 136 | 7 | 37 | 43 | 64 | 23 |
| 1979/80 | 200 | 178 | 175 | 25 | 145 | 5 | 36 | 57 | 46 | 37 |
| 1980/81 | 200 | 197 | 197 | 26 | 164 | 7 | 51 | 55 | 71 | 20 |

1970–1981-ci illərdə ADPİ respublikamızın ümumtəhsil məktəbləri üçün 25870 nəfər yüksəkixtisaslı kadr hazırlamışdır ki, onlardan da 8494 nəfəri əyani şöbənin məzunu idi. Pedaqoji kadr hazırlığında 660 nəfər çalışırdı ki, onlardan da 42 nəfəri elmlər doktoru, professor, 340-ı elmlər namizədi, dosent idi.

Pedaqoji institutun həyatının səciyyəvi cəhətlərindən biri də professor-müəllim heyətinin ixtisaslarının artırılması sahəsində səmərəli işlərin görülməsi idi. O dövrdə müəllimlərin sistematik olaraq ixtisasartırma kurslarına göndərilməsi institutun yüksəkixtisaslı kadr hazırlığının mühüm tərkib hissəsi olmaqla bütün tədris-tərbiyə prosesinə həlledici təsir göstərirdi. İnstitutun professor-müəllimləri sistematik olaraq Bakı, Moskva, Leninqrad (Sankt-Peterburq), Kazan, Kiyev, həmçinin SSRİ Pedaqoji Akademiyasının müvafiq institutlarında öz ixtisaslarını artırırdılar. 1976–1980-ci illərdə institutun 678 müəllimi ixtisasartırma kurslarına cəlb edilmişdi.

*1976–1980-ci illərdə ADPİ-nin ixtisasartırma kursundan keçən əməkdaşlarının sayı*

| İllər | Professor-müəllim heyəti | İxtisasartırma kursundan keçənlər |
|---|---|---|
| 1976 | 698 | 104 |
| 1977 | 673 | 121 |
| 1978 | 670 | 134 |
| 1979 | 676 | 127 |
| 1980 | 665 | 192 |

Həmin illərdə ADPİ-də 20-dən artıq yeni kabinet, elmi-tədqiqat və tədris laboratoriyaları təşkil olundu: ali məktəb pedaqogikası (rəhbəri prof. Hüseyn Əhmədov), təlimin texniki vasitələri (rəhbəri prof. Həsən Balıyev), texniki vasitələrin proqramlaşdırılmış tədrisi (rəhbəri prof. Sədi İmanov), linqafon kabinetləri (rəhbərləri Afad Qurbanov, Həsən Mirzəyev, Balaxan Hüseynov) və s.

1971-ci ildə ADPİ-də ali təhsil müəssisələrinə qəbul olunmaq istəyənlər üçün kurslar təşkil edildi. 10 il ərzində həmin kursları 4757 nəfər dinləyici bitirdi. Həmin illərdə institutun əməkdaşları tərəfindən Əli Bayramlı

(Şirvan), Neftçala, Kürdəmir, Salyan şəhər və rayonlarında hazırlıq kursları təşkil olundu ki, orada 2288 nəfər dinləyici ali məktəblərə hazırlıq kursları keçdi.

1974-cü ildə institutda orta məktəb müəllimlərinin ixtisasartırma fakültəsi təşkil edildi. Fakültəyə 5 il professor Hüseyn Əhmədov rəhbərlik etdi. Fakültənin fəaliyyət göstərdiyi illərdə 5 mindən artıq orta məktəb müəllimi Azərbaycan dili və ədəbiyyatı, tarix, riyaziyyat ixtisasları üzrə bir aylıq kurs keçdilər. 15 mart 1976-cı ildə ümumtəhsil məktəb direktorlarının ixtisasartırma kursları təşkil olundu. 5 il müddətində həmin kursları 1641 dinləyici bitirdi.

1975-ci ildə institutda «Şagirdlərin peşəyönümü» elmi-tədqiqat laboratoriyası (elmi rəhbər professor Hüseyn Əhmədov) təşkil olundu. Laboratoriyada həmin illərdə aşağıdakı problemlər araşdırılmışdır:

1) Şagirdlərin peşəseçməyə istiqamətləndirilməsində məktəbdənkənar müəssisələrin rolu (1975–1980-ci illər);

2) Şagirdlərin məktəblərarası, tədris-istehsalat kombinatlarında öyrədilən əmək təlimi profilini seçməyə hazırlanması (1980–1985-ci illər);

3) Məktəbdə pedaqoji peşəyönümünün sistemi (1985–1990-cı illər).

70-ci illərdə ali pedaqoji təhsilin məzmununda müəyyən dəyişikliklər edildi. Yeni tədris plan və proqramları tətbiq edildi. Əsas fənlərlə yanaşı, xüsusi kursların, seminarların, fakültativ məşğələlərin aparılması planlaşdırıldı. Respublikanın ali pedaqoji məktəblərində «Pedaqogikaya giriş» adlı xüsusi kursun tədrisinə başlandı. Professor Hüseyn Əhmədovun rəhbərliyi ilə kursa dair dərs vəsaiti hazırlandı və nəşr edildi. Bu illərdə Azərbaycanda pedaqogika tarixinin tədrisində ciddi dönüş yarandı.

SSRİ məkanında ilk dəfə respublikamızda professor Hüseyn Əhmədovun təşəbbüsü, professor Mərdan Muradxanovun, dosent Əyyub Tağıyevin iştirakı ilə milli məktəb və pedaqoji fikir tarixindən xüsusi kurs hazırlandı. Kursun proqramı Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi tərəfindən təsdiq edildikdən sonra Azərbaycan və rus dillərində nəşr olundu. Milli məktəb və pedaqoji fikrimizin öyrənilməsi sahəsində ilk təşəbbüs elmi-pedaqoji ictimaiyyət tərəfindən təqdir edildi. Həmin proqram ən qədim dövrlərdən başlayaraq zəmanəmizə qədər Azərbaycanda təlim, tərbiyə, məktəb təhsilinin meydana gəlməsi və inkişafı, görkəmli maarifpərvərlərin və pedaqoqların fikirlərinin sistemli tədrisində mühüm rol oynadı. Həmin proqram üzrə indiki ADPU-da, Naxçıvan Dövlət Universitetində, Tbilisi Dövlət Pedaqoji İnstitutunda xüsusi kurs və seminar sınaqdan keçirilmişdi. Proqram İttifaq Maarif Nazirliyinin pedaqogika üzrə elmi-metodik şurasının pedaqogika tarixi komissiyasının 1981-ci il 15 dekabr tarixli iclasında xüsusi müzakirə edilərək bəyənilmiş, qabaqcıl təcrübə kimi digər regionlarda da yayılması məsləhət bilinmişdi.

Tədris işlərinin yüksək səviyyədə qurulmasının nəticəsi idi ki, institutda ildən-ilə imtahan sessiyasında tələbələrin müvəffəqiyyət göstəriciləri artırdı. 1970-ci illərin axırında imtahan verən əyani şöbənin tələbələrinin 40%-i əlaçı və zərbəçi idi. Ali məktəbi

fərqlənmə diplomu ilə bitirənlərin sayı xeyli artmışdı. Əgər 1976-cı ildə institutu tələbələrin yalnız 4%-i fərqlənmə diplomu ilə bitirmişdisə, 1980-ci ildə bu rəqəm 8,5%-ə yüksəlmişdi. O dövrdə respublika üzrə orta göstərici (Ali və Orta İxtisas Təhsili Nazirliyi üzrə) 6,8% idi. *(bax: Афад Курбанов и др. Первый педагогический институт Азербайджана. Баку, «Азернешр», 1981, стр.98).*

Belə yüksək nailiyyətlər qazanan professor-müəllimlərin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, professorlar Afad Qurbanov, Roza Qafarova, Nəzər Paşayev, Mais Cavadov Əməkdar elm xadimi, Nəmidə Abbasova, Kövhər Tarverdiyeva, Hüseyn Əhmədov əməkdar ali məktəb işçisi fəxri adlarına layiq görülmüşdülər.

O dövrdə ADPİ-də filologiya, riyaziyyat, fizika, kimya, biologiya, tarix, pedaqogika və psixologiya elmlərinin inkişafında, pedaqoji və elmi-pedaqoji kadr hazırlığında Əhməd Seyidov, Abbasqulu Abbaszadə, Tələt Qayıbov, Feyzulla Qasımzadə, Mikayıl Rəfili, Ağaməd Abdullayev, İsmayıl Şıxlı, Əbdüləzəl Dəmirçizadə, Allahverdi Verdizadə, Şövqi Ağayev, Zəhra Şahtaxtinskaya, Həmid Qədirov, Mais Cavadov, İbrahim İbrahimov, Əhməd Kərədi Zəkuzadə, Mərdan Muradxanov, Nəzər Paşayev, Şükür Sadıqov, Roza Qafarova, Əli Cəfərov, Bəylər Ağayev, Afad Qurbanov, Yusif Yusifov, Hüseyn Əhmədov, Əbdül Əlizadə, Həsən Mirzəyev, Nəmidə Abbasova, Dərgah Qüdrətov, Fərhad Fərhadov, Zeynal Tağızadə, Süleyman Məmmədov və b-nın mühüm xidmətləri olmuşdur. Qeyd etmək lazımdır ki, SSRİ Pedaqoji Elmlər Akademiyasının üzvləri seçilmiş 4 nəfər azərbaycanlı alimin hamısı (Mehdi Mehdizadə (həqiqi üzv), Abbasqulu Abbaszadə, Sədi İmanov, Hüseyn Əhmədov (müxbir üzvlər)) ADPİ-nin əməkdaşlarıdır.

ADPİ-nin 70-ci illərdəki inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun ADPİ-yə ilk gəlişi 1971-ci ilin dekabrına təsadüf edir. O, kollektivin yığıncağında böyük və dərin məzmunlu nitq söylədi, institutun fəaliyyətini təhlil etdi, professor-müəllim heyəti qarşısında duran vəzifələrdən ətraflı şəkildə söz açdı. Müəllimlik peşəsini yüksək qiymətləndirərək dedi: *«Müəllimlik işi həm şərəfli, həm də çətin işdir. Ali məktəb müəllimi olmaq, müəllimlər hazırlamaq, yəni müəllimlər müəllimi olmaq ikiqat şərəfli və eyni zamanda ikiqat məsuliyyətli işdir. Biz yaxşı bilirik ki, 65 min nəfərdən artıq müəllim hazırlamaq üçün professor və müəllimlərin bütün nəsilləri nə qədər zəhmət çəkmişdilər. Azərbaycan Dövlət Pedaqoji İnstitutu böyük və çətin yol keçmişdir. Onun kollektivi Azərbaycan ümumtəhsil məktəbinin inkişafında böyük xidmət göstərmiş, institut xalq maarifi üçün yüksəkixtisaslı kadrlar bazasına çevrilmişdir» (bax: «Kommunist» qəzeti, 24 dekabr 1971-ci il).*

Heydər Əliyev bildirdi ki, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun və digər ali məktəblərin inkişafı üçün bütün bilik və bacarıqlarını sərf edəcəkdir.

Ulu öndərin ADPİ-yə ikinci dəfə gəlişi 1973-cü ilin mart ayının 2-nə təsadüf edir. Həmin vaxt institutun 50 illiyi münasibətilə Dzerjinski adına Mədəniyyət sarayında (indi Dövlət Təhlükəsizlik Nazirliyinin mədəniyyət sarayı) təntənəli yığıncaq keçirildi. Heydər Əliyev yubileydə iştirak etdi və pedaqoji institutun yarıməsrlik yubileyi münasibətilə nitq

söylədi. Sonra ADPİ-nin yüksək dövlət mükafatı – Qırmızı Əmək Bayrağı Ordeni ilə təltif edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanını elan etdi və ordeni institutun bayrağına sancdı. Sonra institutun bir qrup professor-müəllim və əməkdaşlarını Azərbaycan Ali Sovetinin fərmanı ilə fəxri adlar almaları münasibətilə təbrik etdi. Bundan sonra Ulu öndər daha iki dəfə – respublika ali məktəblərində keçirilən qəbul imtahanlarının vəziyyəti ilə tanış olmaq üçün 1978-ci ilin avqust ayında, institutun 60 illik yubileyi ilə əlaqədar 1981-ci ilin dekabr ayının 23-də ADPİ-yə gəldi. Təntənəli mərasimdən əvvəl İnstitutu gəzib onun həyatı, tədris və elmi fəaliyyəti ilə tanış oldu. Sonra Dzerjinski adına Mədəniyyət sarayında (indi Dövlət Təhlükəsizlik Nazirliyinin mədəniyyət sarayı) təşkil olunmuş təntənəli yığıncaqda dərin məzmunlu geniş nitq söylədi, 60 ildə institutun keçdiyi çətin və şərəfli yolun bəzi məqamlarını xatırlayaraq bu ali təhsil ocağının respublikanın mədəni və elmi həyatındakı xidmətlərini yüksək qiymətləndirdi.

70-ci illərin ikinci yarısından inşasına başlanılan 14 mərtəbəli tədris korpusu 80-ci illərin əvvəllərində istifadəyə verildi. Auditoriya fondunun vəziyyəti xeyli yaxşılaşdı. Riyaziyyat, Fizika, Kimya-biologiya fakültələri həmin tədris korpusuna köçürüldü. Tədrisin vəziyyəti yüksəldi. Təcrübi məşğələləri aparmaq üçün laboratoriyalar yenidən təşkil və təchiz edildi. Şəhərin Bakıxanov və Səməd Vurğun küçələrinin kəsişdiyi yerdə institutun 2 saylı tələbə yataqxanası yenidən quruldu, təmir edilib tədris korpusu vəziyyətinə gətirildi. Pedaqoji, Coğrafiya, Ümumi texniki fənlər fakültələri həmin tədris korpusuna köçürüldü. İnstitutda tədrisin səmərəli təşkili üçün geniş imkanlar açıldı. Üçüncü tədris korpusu isə 1985-ci ildə yararlı vəziyyətə gətirildi, Hərbi hazırlıq fakültəsi (o zaman belə adlanırdı) həmin korpusa köçürüldü.

1979-cu ildən fəaliyyət göstərən İbtidai hərbi və Fiziki təlim fakültəsi 80-ci illərdə tələbə kontingentinin sayına görə digər fakültələrdən fərqlənirdi. 1979–1985-ci illərdə fakültənin 2500-dən çox məzunu zabit rütbəsinə layiq görülmüşdü.

Həmin vaxt institutda rektor vəzifəsində professor **Afad Qurbanov** (1981–1989) çalışırdı. O, dilçiliyin müxtəlif sahələrini əhatə edən çoxşaxəli elmi yaradıcılığa malik bir alim idi.

1980/81-ci tədris ilində respublikada ilk dəfə ADPİ-də



**Afad Qurbanov (1929–2009)**

**Qurbanov Afad Məhəmməd oğlu** Ermənistan SSR-in Kalinino rayonunda anadan olmuşdur. Tbilisi Müəllimlər İnstitutunu (1946–1948), ADPİ-ni (1949–1952) bitirmişdir. Namizədlik (1962), doktorluq (1968) dissertasiyası müdafiə etmiş. ADPİ-nin Filologiya fakültəsinin dekanı (1968–1981), rektoru (1981–1989). Azərbaycan dilçiliyi kafedrasının müdiri (1979–2009) vəzifələrində çalışmışdır. Əməkdar elm xadimi adına layiq görülmüşdür (1981).

Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir (1983).

Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur (1990–1995).

AMEA-nın Terminologiya Komitəsinin, Adlar və Soyadlar üzrə Xüsusi Komissiyanın, Dövlət dili haqqında qanun layihəsinin hazırlanması üzrə Komissiyanın və digər komissiyaların üzvü olmuşdur (1980–2009).

Dilçiliyə dair 70-dən artıq kitabı, 500-ə qədər məqaləsi dərc olunmuşdur. Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür (1989). Azərbaycan Əlifba Komissiyasının sədri (1990) olmuşdur.






*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev ADPİ-nin 60 illik yubileyində. 1981-ci il*





*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Azərbaycan Dövlət Pedaqoji İnstitutunda qəbul imtahanları zamanı. 1981-ci il*




*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Afad Qurbanova Fəxri fərman təqdim edərkən. 1981-ci il*

musiqi və nəğmə ixtisası üzrə müəllim hazırlığına başlanıldı. İnstitutda ən müasir avadanlıqla, diopozitiv, diafilm və kinofilmlərlə təchiz edilmiş 14 ixtisaslaşdırılmış kabinet təşkil olundu. O dövrdə institutun filmotekasında 15,5 min tədris diafilmləri və kinofraqmentlər saxlanılırdı. Tədris prosesində televiziyadan və elektron hesablama maşınlarından geniş istifadə olunurdu. Riyaziyyat, Fizika, Biologiya, Kimya fakültələrinin tələbələrinin elmin son nailiyyətləri ilə tanış olmasında ADPİ-nin elmi-tədqiqat hesablama mərkəzi mühüm rol oynayırdı. O dövrdə institutda əyani, qiyabi və axşam şöbələrində 9867 nəfər tələbə təhsil alırdı.

1980/81-ci tədris ilində institutda 67 laboratoriya, 8 tədris emalatxanası, milyon nüsxədən artıq kitab fondu olan elmi kitabxana, nəşriyyat, mətbəə, Zoologiya muzeyi fəaliyyət göstərirdi.

1981/82-ci tədris ilində ADPİ-nin I kursuna 2205 nəfər tələbə qəbul olunmuşdu ki, onun da böyük əksəriyyəti regionlardan gələn gənclər idi. Əgər 1970-ci illərin ortalarında institutda 15 ixtisas üzrə kadr hazırlanırdısa, 1980/81-ci tədris ilində ixtisasların sayı 20-yə çatmışdı. 5 il müddətində (1975–1980) 500-dən artıq tələbə eyni zamanda iki ixtisas üzrə (kimya və biologiya, biologiya və kimya, riyaziyyat və fizika, fizika və riyaziyyat) təhsil alırdı.

*1970/71–1980/81-ci tədris illərində ADPİ-də tələbə kontingentinin inkişaf dinamikası*

| Tədris illəri | Əyani şöbə | | | Qiyabi şöbə | | | Axşam şöbəsi | | | İnstitut üzrə | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Qəbul | Kontingent | Burax. | Qəbul | Kontingent | Burax. | Qəbul | Kontin gent | Burax. | Qəbul | Kontingent | Burax. |
| 1970/71 | 2258 | 7350 | 1113 | 238 | 1445 | 291 | 50 | 191 | 136 | 2546 | 8986 | 1540 |
| 1971/72 | 2260 | 8203 | 1318 | 794 | 4671 | 833 | 175 | 873 | 254 | 3229 | 13747 | 2405 |
| 1972/73 | 1878 | 7862 | 1560 | 742 | 4371 | 919 | 160 | 671 | 292 | 2780 | 12904 | 2771 |
| 1973/74 | 1822 | 7837 | 1627 | 575 | 3430 | 720 | 175 | 746 | 60 | 2572 | 12013 | 2407 |
| 1974/75 | 1682 | 7189 | 1648 | 606 | 3351 | 617 | 152 | 779 | 72 | 2440 | 11359 | 2337 |
| 1975/76 | 1625 | 6950 | 1512 | 625 | 3342 | 553 | 100 | 722 | 132 | 2350 | 11014 | 2197 |
| 1976/77 | 1675 | 6775 | 1598 | 770 | 3480 | 622 | – | 565 | 158 | 2445 | 4722 | 2378 |
| 1977/78 | 1508 | 6551 | 1404 | 818 | 3555 | 717 | – | 326 | 137 | 2326 | 10432 | 2258 |
| 1978/79 | 1483 | 6516 | 1668 | 850 | 3804 | 539 | – | 252 | 150 | 2333 | 10572 | 2357 |
| 1979/80 | 1429 | 6106 | 1480 | 684 | 3840 | 580 | – | 191 | 156 | 2113 | 10137 | 2216 |
| 1981/82 | 1428 | 5899 | 1398 | 725 | 3176 | 596 | – | – | – | 2153 | 9075 | 1994 |

1981–1990-cı illərdə əvvəlki illərlə müqayisədə tələbə kontingentində elə də ciddi fərq yaranmamış, 9945 nəfər gənc ADPİ-nin məzunu olmuşdur.

*1981/82–1990/91-ci tədris ilində institutda tələbə kontingentinin inkişafı*

| İllər | Qəbul | | Buraxılış | | Cəmi: | |
|---|---|---|---|---|---|---|
| | Əyani | Qiyabi | Əyani | Qiyabi | Qəbul | Buraxılış |
| 1981/82 | 1480 | 725 | 1028 | 728 | 2205 | 1756 |
| 1982/83 | 1298 | 610 | 1126 | 814 | 1908 | 1940 |
| 1983/84 | 1110 | 503 | 1225 | 784 | 1613 | 2009 |
| 1984/85 | 1113 | 470 | 1051 | 664 | 1583 | 1715 |
| 1985/86 | 991 | 605 | 1403 | 797 | 1596 | 2200 |
| 1986/87 | 950 | 569 | 1238 | 999 | 1519 | 2237 |
| 1987/88 | 842 | 295 | 1230 | 914 | 1137 | 2144 |
| 1988/89 | 815 | 335 | 1192 | 972 | 1150 | 2164 |
| 1989/90 | 1403 | 710 | 1151 | 849 | 2113 | 2000 |
| 1988/89 | 1068 | 592 | 1052 | 675 | 1660 | 1727 |

80-ci illərin axırlarında Azərbaycanın müstəqillik yolunda əzablı və ağrılı irəliləyişi, Qarabağ münaqişəsinin törətdiyi fəlakətlər ADPİ-nin fəaliyyətinə ciddi təsir göstərdi. Yüzlərlə tələbə müharibə əməliyyatı aparılan regionlarda vətənin azadlığı və istiqlaliyyəti uğrunda döyüşlərdə igidlik nümunəsi göstərdi. Elman Qəhrəmanov, Hilal Ələkbərov, Ehtiram Hüseynov və b. məzunları böyük rəşadət göstərməklə canlarından keçdilər. ADPİ-nin tələbə yataqxanalarında yerləşdirilən 300 nəfərdən artıq qaçqın və köçkün institutun rəhbərliyinin diqqət və qayğısı ilə əhatə olundu.

1981-ci ildən 1989-cu ilədək ADPİ-nin elmi-pedaqoji kadr potensialı yüksələn xətlə inkişaf etmiş, 1990-cı ildə məlum hadisələrlə bağlı elmlər doktoru və elmlər namizədlərinin sayında azalma müşahidə edilmişdir.

*1981–1991-ci illərdə ADPİ-də elmi-pedaqoji kadr potensialı*

| İllər | Kafedraların sayı | Əməkdaşların sayı | O cümlədən: | | Baş müəllim və müəllim |
|---|---|---|---|---|---|
| | | | Elmlər doktoru, professor | Elmlər namizədi, dosent | |
| 1981 | 54 | 694 | 36 | 327 | 331 |
| 1982 | 55 | 684 | 38 | 270 | 376 |
| 1983 | 57 | 692 | 34 | 399 | 259 |
| 1984 | 58 | 709 | 29 | 269 | 411 |
| 1985 | 58 | 705 | 43 | 340 | 322 |
| 1986 | 58 | 686 | 35 | 333 | 318 |
| 1987 | 58 | 595 | 53 | 335 | 307 |
| 1988 | 58 | 690 | 47 | 344 | 299 |
| 1989 | 58 | 692 | 56 | 352 | 284 |
| 1990 | 58 | 709 | 45 | 346 | 318 |
| 1991 | 58 | 701 | 57 | 387 | 257 |

*(Faktlar ADPU-nun pasportu əsasında tərtib edilmişdir. İnv. №285)*

ADPİ-də bir neçə ümuminstitut kafedraları da fəaliyyət göstərmişdir. Bu kafedralardan biri 1930-cu ildə yaradılmış ÜİK(b)P tarixi kafedrası olmuşdur. Həmin kafedra 1937/38-ci tədris ilində Marksizm-leninizm kafedrasına çevrilmişdir. 1956-cı ildə kafedranın adı dəyişdirilərək Sov.İKP tarixi adlandırılmışdır.

Fəlsəfə kafedrası 1930/31-ci tədris ilində Dialektik materializm adı ilə fəaliyyətə başlamışdır. 1937/38-ci tədris ilində Marksizm-leninizm kafedrası ilə birləşdirilmişdir. 1950/51-ci tədris ilində kafedra müstəqil fəaliyyət göstərməyə başlamışdır.

Siyasi iqtisad kafedrası da 1930-cu ildə təşkil olunmuşdur. 1990-cı ildən İqtisadi nəzəriyyə kafedrası adı ilə fəaliyyətini davam etdirir.

Ümumi pedaqogika kafedrası 1930-cu ildə təşkil olunmuşdur.

Ümuminstitut kafedrası olan Rus dili kafedrası 1936/37-ci tədris ilində, Xarici dillər kafedrası 1937/38-ci tədris ilində, Ümumi psixologiya kafedrası 1941-ci ildə yaradılmışdır.

Bədən tərbiyəsi kafedrası da institut fəaliyyətə başladığı ilk illərdə təşkil olunmuşdur.

Tibbi biliklərin əsasları kafedrası 1971-ci ildə Məktəb gigiyenası adı ilə yaradılmışdır. 1975-ci ildə yaradılan Mülki müdafiə və Tibbi hazırlıq kafedraları 1991-ci ildə birləşdirilərək Tibbi biliklərin əsasları şəklində formalaşdırılmışdır.

1989-cu ildə institutun rəhbərliyi dəyişdirildi, professor **Səlvər Aslanov** rektor vəzifəsinə təyin olundu.

Respublikanın iqtisadiyyatında, sosial-mədəni həyatında olduğu kimi, ali məktəblərdə, o cümlədən ADPİ-nin tədris prosesi və elmi- tədqiqat işlərində də geriləmə 80-ci illərin sonu və 90-cı illərin əvvəlində davam etdi.

ADPİ respublika ümumtəhsil məktəblərini müəllim kadrları ilə təmin edən ən qocaman ali təhsil müəssisəsi kimi Azərbaycanın ictimai həyatında mühüm rol oynamışdır. 1930-cu ildə müvəqqəti bağlananda Azərbaycan Dövlət Universitetinə qəbul olunmuş tələbələrin xeyli hissəsi təhsilini Azərbaycan Dövlət Pedaqoji İnstitutunda davam etdirmişdir. Bu mənada onlar həm Universitetin, həm də ADPİ-nin tələbəsi olmuşlar. Elə bu səbəbdən görkəmli ziyalılarımızın bir çoxu, məsələn, görkəmli kimyaçı Yusif Məmmədəliyev, böyük riyaziyyatçı Zahid Xəlilov və başqaları haqqında yazılarda onların gah ADPİ-ni, gah da Universiteti bitirdiyi göstərilir.

Genişprofilli ali təhsil müəssisəsi kimi Azərbaycanın həyatının bütün sahələrində ADPİ-nin tanınmış məzunları vardır və yeri gəlmişkən, mən onlardan bir neçəsi haqqında məlumat verməyi lazım bilirəm.

**1. Əlisöhbət Sumbat oğlu Sumbatzadə** – Azərbaycan SSR EA akademiki (1958; müxbir üzvü 1955), Azərbaycan SSR Əməkdar elm xadimi (1958). Azərbaycan SSR EA-nın vitse-prezidenti (1957–1959), Azərbaycan SSR Ali Sovetinin (V çağırış) deputatı və Rəyasət Heyətinin üzvü (1959–1963), 12 cildlik «SSRİ tarixi»nin baş redaksiya heyətinin ASE elmi redaksiya şurasının üzvü olmuşdur. Qırmızı Əmək Bayrağı Ordeni və medallarla təltif edilmişdir.

**2. Əşrəf İsgəndər oğlu Hüseynov** – ilk dəfə analitik funksiyalar üçün qeyri-xətti Hilbert məsələsini tədqiq etmişdir. Qeyri-xətti sinqulyar inteqral tənliklər sahəsində elmi istiqamət yaratmışdır.

**3. Heydər Nəcəf oğlu Hüseynov** – Azərbaycan SSR EA-nın həqiqi üzvü. Azərbaycanda fəlsəfə kadrlarının yetişməsində onun mühüm xidmətləri olmuşdur.

**4. Həsən Məmmədbağır oğlu Abdullayev** – SSRİ EA-nın üzvü (1970), Azərbaycan SSR EA akademiki (1967), Azərbaycan SSR EA prezidenti (1970–1983), Azərbaycan SSR Əməkdar elm xadimi (1974), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1982), SSRİ Ali Sovetinin deputatı olmuş, Qırmızı Əmək Bayrağı ordeni və S.İ.Vavilov adına medalla təltif edilmişdir.

**5. İbrahim İbiş oğlu İbrahimov** – Fizika-riyaziyyat elmləri doktoru, professor, Əməkdar elm xadimi. Azərbaycanda funksiyalar nəzəriyyəsi üzrə elmi istiqamətin rəhbəri olmuşdur.

**6. İsmayıl Qəhrəman oğlu Şıxlı** – Azərbaycan sovet yazıçısı, ədəbiyyatşünas, Azərbaycan SSR Xalq yazıçısı (1984), filologiya elmləri namizədi (1954), dosent (1956), Azərbaycan

Lenin komsomolu mükafatı laureatı (1976), Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin katibi olmuşdur (1966–1968), 1981-ci ildən birinci katibdir. Azərbaycan jurnalının baş redaktoru olmuşdur (1976–1978).

Azərbaycan SSR Ali Sovetinin (XI çağırış) deputatıdır. Qırmızı Əmək Bayrağı, 2-ci dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz, Şərəf nişanı ordenləri və medallarla təltif edilmişdir.

**7. Mehdi Məmməd oğlu Mehdizadə** – pedaqoq-alim və maarif xadimi. Pedaqoji elmlər doktoru, professor (1956). Azərbaycanda məktəb təhsilinin tarixi və inkişafı problemlərini tədqiq etmişdir, xalq maarifi və pedaqogikanın və elmi kadrlar hazırlanmasında xidməti vardır *(bax: səh.74)*.

**8. Məcid Lətif oğlu Rəsulov** – Azərbaycan SSR EA akademiki, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir.

**9. Məmməd Arif Dadaşzadə** – Az. SSR Dövlət mükafatı laureatı (1974), EA-nın vitse-prezidenti (1960-cı ildən) Terminologiya komitəsinin sədri (1957) olmuşdur.

Lenin ordeni, oktyabr inqilabı ordeni, 2 başqa orden və medallarla təltif edilmişdir.

**10. Məmməd Zeynalabidin oğlu Cəfərov** – Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, Azərbaycanın Əməkdar elm xadimi.

**11. Məmmədağa Şirəli oğlu Şirəliyev** – Azərbaycanın Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Azərbaycanda çağdaş dilçilik elminin banilərindəndir. O, Azərbaycan dialektoloji məktəbinin əsasını qoymuş görkəmli tədqiqatçı kimi tanınır. Türkologiyada ilk dəfə olaraq «Azərbaycan dilinin dialektoloji atlası» da M.Ş.Şirəliyevin rəhbərliyi altında hazırlanmışdır.

**12. Süleyman Hüseyn oğlu Rəhimov** – Azərbaycan SSRİ Xalq yazıçısı (1960), Sosialist Əməyi Qəhrəmanı (1975). Lenin ordeninə (3 dəfə); 1946, 1970, 1975), Qırmızı Əmək bayrağı (1959), Şərəf nişanı (1942) ordenlərinə layiq görülmüşdür. Azərbaycan sovet nəsrinin, xüsusilə onun irihəcmli formalarının inkişafında Süleyman Rəhimovun mühüm xidməti var.

AKP MK təbliğat və təşviqat şöbəsinin müdiri, Bakı şəhər partiya komitəsinin katibi, Azərbaycan yazıçılar İttifaqı idarə heyətinin sədri (1939–1941) (1944–1945), I katib (1954–1958), UİK (b) PMK yanında Marks Engels-Lenin İnstitutu Azərb. SSRİ Nazirlər soveti yanında Mədəni Maarif Müəssisələri Komitəsinin sədri (1945–1953) olmuşdur.

**13. Şıxəli Qurban oğlu Qurbanov** – Azər Ü.Hacıbəyov adına respublika Dövlət mükafatı laureatı (1967), AKP MK Təbliğat və təşkilat şöbəsinin müdiri (1957–1961), AKP MK katibi və Büro üzvü (1966-cı ildən) olmuşdur. Uzunmüddətli fasilədən sonra 1967-ci ildə Azərbaycanda ilk dəfə Novruz bayramının dövlət səviyyəsində keçirilməsinə müvəffəq olmuşdur. Azərbaycan SSR Ali Sovetinə (V və VII çağırış) deputat seçilmişdir. Lenin ordeni (ölümündən sonra) və medallarla təltif olunmuşdur. Azərbaycan Musiqili Komediya Teatrına, Bakı küçələrindən birinə Şixəli Qurbanovun adı verilmişdir.

**14. Zahid İsmayıl oğlu Xəlilov** – Azərbaycan SSR əməkdar elm və texnika xadimi, Funksional analizə dair SSRİ-də ilk dərsliyin müəllifidir.

**Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutu**

Azərbaycanda kənd təsərrüfatı təhsilinin təşkilinə dair fikir XIX əsrin sonlarında meydana gəlmişdir. Bu mütərəqqi ideyanın təməli xalqımızın böyük oğlu, maarifpərvər ziyalı Həsən bəy Zərdabi tərəfindən qoyulmuşdur. Onun 1875-ci ildə təsis etdiyi «Əkinçi» qəzetində «Ziraət xəbərləri» adlı bölmə var idi. Bölmədə kənd təsərrüfatına aid maraqlı yazılar dərc olunurdu.

Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Məmmədtağı Cəfərovun Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının 75 illik yubileyinə həsr etdiyi «Azərbaycan Kənd Təsərrüfatı Akademiyası 75 ildə» kitabından oxuyuruq: *«Ölkəmizdə təbiətşünaslığın əsasını qoyan bu görkəmli alim (Həsən bəy Zərdabi nəzərdə tutulur – M.M.) kənd təsərrüfatı təhsilinin dövlət səviyyəsində təşkilinə və kəndlilərin aqrar biliklərə yiyələnməsinə xüsusi fikir verirdi. O, xalqı daha məhsuldar bitki sortları və heyvan cinsləri yaradılması üsulları ilə tanış etmək məqsədilə elmi məqalələr yazır, kitablar nəşr etdirirdi. Onun «Torpaq, su və hava», «Baramaqurdunun saxlanılması» adlı əsərləri xüsusi maraqla qarşılanmışdı.*

*Həsən bəy Zərdabi dağ süxurlarının aşınması prosesi, torpaq əmələ gətirən amillər, onun bir sıra fiziki, kimyəvi xüsusiyyətləri, torpaq analizinin əhəmiyyəti, əlverişli sahələrin yaxşılaşdırılması üsulları və digər məsələlər barədə çox dəyərli fikirlər irəli sürmüşdür. Mexaniki tərkibinə görə o, torpaqları üç qrupa bölmüşdü: qum, gil, əhəngdaşı birləşmələri...*

*... H.Zərdabinin təbiətşünaslıq sahəsindəki bir çox dəyərli işləri 1889-cu ildə Zaqafqaziya kənd təsərrüfatı və sənaye sərgisində bəyənilmiş, sərginin medalına və fəxri diploma layiq görülmüşdür».*

Ədalət naminə qeyd etmək lazımdır ki, uzun illər arzu şəklində mövcud olan bu mütərəqqi ideya yalnız 20-ci illərin əvvəllərində həyata keçirilməyə başladı. 1920-ci il dekabrın 14-də Bakı şəhərində Azərbaycan Politexnik İnstitutunun (indiki Neft Akademiyası) nəzdində Kənd təsərrüfatı fakültəsi yaradıldı.

1921-ci ildə həmin fakültəyə ilk tələbə qəbulu keçirildi. Yanvar ayında cəmi 24 nəfər tələbə qəbul olunmuşdusa, həmin ilin payızında tələbələrin sayı 98-ə çatdı.

İlk illərdə Kənd təsərrüfatı fakültəsinin maddi-texniki bazası çox zəif idi. Laboratoriya məşğələləri və mühazirələr, əsasən, Bakı Dövlət Universitetinin binasında keçirilirdi.

1922-ci ildə fakültə üçün Bakının köhnə məktəblərindən birinin binasını ayırdılar və burada Botanika, Zoologiya, Kənd təsərrüfatı maşınları, Kənd təsərrüfatı heyvanlarının anatomiyası və fiziologiyası, Meteorologiya, Torpaqşünaslıq və Ümumi əkinçilik kafedraları yaradıldı. Elə həmin ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə fakültəyə tədris-təcrübə təsərrüfatı yaratmaq üçün sahə ayrıldı. Bakı gimnaziyasının Qusar qəzasındakı yaylaq sahəsi Kənd təsərrüfatı fakültəsinə verildi. Yeni kafedraların açılması məqsədilə vəsait ayrıldı, Ümumi və xüsusi heyvandarlıq, Xüsusi bitkiçilik kafedraları təsis olundu.

1924-cü ildə kənd təsərrüfatı mütəxəssislərinin ilk buraxılışı oldu. 1926/27-ci tədris

ilində fakültəyə 126 nəfər tələbə qəbul olundu və tələbələrin ümumi sayı 588 nəfərə çatdı. Həmin il fakültəni aqronomluq, üzümçülük və zootexniklik ixtisasları üzrə 32 nəfər, 1928-ci ildə isə 4 ixtisas üzrə 34 nəfər bitirdi.

Yeni yaradılmış MTS-lərə, kolxozlara çoxlu sayda mütəxəssis lazım idi. Kənd təsərrüfatı fakültəsi bu ehtiyacı ödəyə bilmədiyindən, onun əvəzinə müstəqil institutun yaradılmasına ehtiyac var idi. Bu səbəbdən **1929-cu il mayın 12-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Kənd təsərrüfatı fakültəsi Azərbaycan Politexnik İnstitutunun tərkibindən çıxarıldı. Onun bazasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutu təşkil edildi və yeni yaradılmış İnstitut Xalq Torpaq Komissarlığının tabeliyinə verildi.**

Azərbaycanın Xalq torpaq komissarı **Dadaş Bünyadzadə** *(bax: səh. 14)* institutun ilk direktoru oldu. Sonra bu vəzifəyə institutun təşkilatçılarından biri olan professor **İslam Datıyev** təyin edildi.

İnstitutun professor-müəllim heyətinin formalaşdırılmasında rus alimləri ilə birlikdə Azərbaycan ziyalılarının görkəmli nümayəndələri Məmməd Mirzəyev, Əli Xudaverdiyev, İmran Kaşıyev, Murtuz Vəzirov, Yusif Məmmədəliyev, İslam Datıyev, Fətulla Rzabəyli, Əlisöhbət Sumbatzadə, Hacı Poladzadə, Asim Dadaşov, Hüseyn Musayev, Yusif Tahirov, Tağı Nağızadə, Firuz Məlikov, Cəfər Cəfərov, Məmmədtağı Əsgərbəyli və başqaları bilavasitə iştirak etmişlər.

Azərbaycanda kənd təsərrüfatının sürətli inkişafı ilə əlaqədar instituta tələbə qəbulu (əsasən, kənd rayonlarının nümayəndələrinin hesabına) artırıldı. 1930-cu ilin payızınadək instituta 1097 nəfər tələbə qəbul edildi. Sonralar da qəbul planı artırılaraq 1200 nəfərə (750 nəfər əyani) çatdırıldı. İnstitutda Bitkiçilik, Heyvandarlıq, Pambıqçılıq və Balıq təsərrüfatı fakültələri yaradıldı. 1930-cu ildə bu ali məktəbi 244 nəfər bitirmişdi.

**1930-cu ildə Gəncədə pambıqçılıq fakültəsinin bazasında Zaqafqaziya Pambıqçılıq İnstitutu yaradıldı.**

**1931-ci ilin əvvəlində Zootexnika fakültəsi Kənd Təsərrüfatı İnstitutundan ayrılaraq Gəncədə müstəqil ali məktəb kimi fəaliyyətə başladı.** Bu illərdə AKTİ-də professorlar Məmməd Hüseynov, Ələsgər Ağabəyli, Əli Məlikov fəaliyyət göstərmişlər.

Yaranmış təzə institutda Baytarlıq fakültəsi təşkil olundu və ali məktəb **Zoobaytarlıq İnstitutu** adlandırıldı. Elə həmin ildə AKTİ Bakıdan, Zaqafqaziya Hidromeliorasiya İnstitutu isə Tiflisdən Gəncəyə köçürüldü. Bununla da, Gəncədə 4 müstəqil institut fəaliyyət göstərməyə başladı. **1933-cü ildə onların hamısı Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə birləşdirildi və vahid Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tərkibinə verildi.**

1932–1935-ci illərdə Kənd Təsərrüfatı İnstitutuna **Hüseyn Məmməd oğlu Musayev** başçılıq edirdi. Gəncədə fəaliyyət göstərən 4 ali məktəbin Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tərkibində birləşdirilməsi təşəbbüsü də Hüseyn Musayevə məxsus idi. Həmin vaxt institutda 6 fakültə (Tarlaçılıq, Meyvə-tərəvəzçilik, Zootexniklik, Baytarlıq, Kənd təsərrüfatının mexanikləşdirilməsi və



**Möhsün Poladov (1905–1966)**

**Poladov Möhsün Musa oğlu – 1936–1941-ci və 1953–1954-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun rektoru vəzifəsində çalışmışdır. İnstitutun inkişafında xeyli işlər görmüş, 1941-ci ildə könüllü cəbhəyə getmiş, bir sıra təltiflərə layiq görülmüş, müharibədən qayıtdıqdan sonra məsul dövlət vəzifələrində çalışmışdır.**

Hidromeliorasiya) fəaliyyət göstərirdi.

1935-ci ildə institutu 319 nəfər bitirmişdi. 1936-cı ildən AKTİ-nin rektoru vəzifəsinə **Möhsün Musa oğlu Poladov** təyin edildi. (O, 1941-ci ilə qədər bu vəzifədə çalışdı. Möhsün Poladov 1953-cü ildə ikinci dəfə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun rektoru vəzifəsinə təyin olunmuş və 1954-cü ilə qədər bu vəzifəni icra etmişdir).

30-cu illərdə çayçılığın, sitrus bitkilərinin inkişafı ilə əlaqədar olaraq onların texnologiyasını həyata keçirməyi bacaran ixtisaslı mütəxəssislərə tələbat yarandı. Bu tələbatı ödəmək məqsədilə 1939-cu ildə Meyvə-tərəvəz fakültəsində subtropik bitkilər şöbəsi təşkil edildi.

Elə həmin ildə Tarlaçılıq fakültəsinin nəzdində ipəkçilik şöbəsi yaradıldı. Bu dövrdə institutda 61 kafedra və ayrıca qiyabi şöbə fəaliyyət göstərirdi.

30-cu illərin sonundan etibarən Azərbaycan Kənd Təsərrüfatı İnstitutu inkişafının yeni mərhələsinə qədəm qoydu. İnstitutda tədris prosesinin yaxşılaşdırılması, laboratoriyaların və kafedraların fəaliyyətinin canlandırılması üçün köklü işlər həyata keçirilirdi. İnstitutun elmi potensialı artdı və SSRİ Xalq Komissarları Soveti elmlər namizədi alimlik dərəcəsi vermək üçün instituta tam səlahiyyət verdi. O illərdə elmi dərəcə və elmi ad almaq məqsədilə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qonşu respublikalardan da mütəxəssislər müraciət edirdilər.

1938–1941-ci illərdə institutun 36 müəllimi Sovet İttifaqının müxtəlif şəhərlərində dissertasiya müdafiə edərək, elmlər namizədi alimlik dərəcəsi aldı.

Sonralar respublikanın kənd təsərrüfatı sahəsində yüksək nailiyyətləri olan Xeyrulla Səttarzadə, Mustafa Miriyev, Rüstəm Məmmədəliyev, Məmmədbağır Hacıyev, Qasım Qəniyev öz elmi-pedaqoji fəaliyyətlərini həmin institutla bağlamış və bu elm ocağında müxtəlif vəzifələrdə çalışmışlar.

*Kənd Təsərrüfatı İnstitutunun 1938/39-cu tədris ilinə aid göstəriciləri*

| № | Göstəricilər | 1938 | 1939 |
|---|---|---|---|
| 1. | Tədris planının yerinə yetirilməsi | 100% | 100% |
| 2. | Dərslərin mütləq mənimsənilməsi | 86% | 87% |
| 3. | Yaxşı və əla qiymətlə oxuyanlar | 50,7% | 67% |
| 4. | Əlaçı və zərbəçilər | 24,6% | 26,7% |
| 5. | Elmi işçilər | 121 nəfər | 168 nəfər |
| 6. | Aspirantlar | 22 nəfər | 26 nəfər |
| 7. | Müdafiə edənlər | 8 nəfər | 26 nəfər |
| 8. | Hazırlanan mütəxəssislər | 157 nəfər | 287 nəfər |
| 9. | Kitab fondunun artımı | 112000 nüsxə | 140000 nüsxə |
| 10. | Təsərrüfatlarda oxunan mühazirələr | 154 | 283 |
| 11. | Təkmilləşdirmə kursu keçənlər | 217 nəfər | 268 nəfər |

1940-cı ildə respublikada ali kənd təsərrüfatı təhsilinin 20 illiyi ilə əlaqədar yubiley tədbiri keçirildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə institutun bir qrup müəllimi kənd təsərrüfatı istehsalının və elminin inkişafındakı böyük xidmətlərinə görə Sovet İttifaqının orden və medalları ilə təltif edildi.

1938-ci ilə kimi institutda dərslər Azərbaycan və rus dillərində keçirilirdi, sonralar institutda çalışan milli kadrların sayı artdı. 1941-ci ilin əvvəlində onların sayı 142 nəfərə çatmışdı ki, bunların da 2-si elmlər doktoru, 34-ü elmlər namizədi, 10-u professor, 40-ı dosent idi. Milli kadrların sayının artması tədrisin, əsasən, Azərbaycan dilində aparılmasına imkan verdi.

İldən-ilə tələbələr və məzunlar arasında da azərbaycanlıların sayı artdı. İnstitutun ilk məzunları sırasında 1 nəfər belə azərbaycanlı olmadığı halda, 1941-ci ildə onların böyük əksəriyyəti azərbaycanlılar idi. Milli kadrların hazırlanmasında Həsən Əliyev, Firuz Məlikov, Məmmədtağı Qəniyev, Ağaxan Ağabəyli, Validə Tutayuk, İmam Mustafayev, Cəbrayıl Hüseynov, Həsən Seyidov və başqaları böyük rol oynadılar.

Böyük Vətən müharibəsi başlananda institut kollektivinin böyük bir hissəsi könüllü olaraq cəbhəyə yola düşdü. Onların arasında ilk azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov da var idi. O, institutun hazırlıq kursunda təhsilini yarımçıq qoyaraq cəbhəyə getdi. Novqorod yaxınlığındakı döyüşlərdə İsrafil Məmmədov xüsusi igidlik göstərdiyinə görə SSRİ hökuməti tərəfindən bu şərəfli ada layiq görüldü.

İnstitutun məzunu Əhmədiyyə Cəbrayılov Fransada müqavimət və partizan hərəkatında misilsiz igidliklər göstərdiyinə görə həmin ölkənin ən yüksək mükafatı olan «Legion» ordeni ilə təltif edilmişdi.



**Bala Ağayev (1910–1989)**

**Ağayev Bala Məmməd oğlu** Şuşa şəhərində anadan olmuşdur. 1944–1953-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun rektoru vəzifəsində çalışmışdır. Professor, torpaqşünaslıq və meliorasiya üzrə görkəmli alim olmuşdur. Macarıstan Elmlər Akademiyasına müxbir üzv, Təbriz Universitetinə fəxri professor seçilmişdir.

1942–1944-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun rektoru vəzifəsini **Soltan Abbas oğlu Mirzəyev,** 1944–1953-cü illərdə isə **Bala Məmməd oğlu Ağayev** icra etmişdir.

1941–1945-ci illərdə tələbə qəbulu və məzunların sayı xeyli azalsa da, 1950-ci ildən başlayaraq tədricən artdı. Belə ki, 1951-ci ildə 333 məzunu olan bu ali məktəbi 1956-cı ildə 509 nəfər mütəxəssis bitirmişdi.

Azərbaycan SSR-in Əməkdar elm xadimi İvan Fiqurovski institutda işlədiyi 16 il ərzində Qafqaz iqliminin öyrənilməsinə həsr edilmiş irili-xırdalı 32 əsər yazmışdı. Professor İvan Kaluqinin 5 cilddən ibarət elmi irsinə isə təbiət, kənd təsərrüfatı şəraiti və kənd təsərrüfatı heyvanlarının saxlanılması barədə dəyərli tədqiqatlar daxil idi.

Azərbaycan torpaqşünaslıq elminin inkişafında professor S.P.Smirnov-Loginovun tədqiqat işləri mühüm rol oynadı. Onun «Abşeron



**Məmməd Mehdiyev (1911–1988)**

**Mehdiyev Məmməd Əsəd oğlu** Şamaxıda anadan olmuşdur. 1954-1960-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun rektoru vəzifəsində çalışmışdır. Rektor işlədiyi dövrdə onun təşəbbüsü ilə Hidromeliorasiya və İqtisadiyyat fakültələri fəaliyyətə başlamışdır. Sonralar Azərbaycan SSR Elmlər Akademiyasında rəhbər vəzifədə çalışmışdır.

yarımadasının torpaqları», «Bakı qəzasının aran və sahil hissələrinin torpaqları», «Dağlıq Qarabağın cənub-şərq hissəsinin torpaqları», «Kür çayı vadisinin torpaqları» kitabları və digər əsərləri Azərbaycan torpaqşünaslıq elminə dəyərli töhfə oldu.

Alimlərin sıraları milli kadrlar hesabına ildən-ilə artırdı. Belə nüfuzlu alimlərdən biri də Heyvandarlıq kafedrasının professoru Firuz Məlikov idi. O, yerli qoyunların yununa təsir edən amilləri araşdırmış və qiymətli elmi əsər yazmışdı.

Professorlar Firuz Məlikov, Mirzə Sadıqov və Süleyman Hüseynov seleksiya və fərdi seçmə yolu ilə Gədəbəy dağ merinosu cinsini yaratdıqları üçün, professor Cəbrayıl Hüseynov neft mənşəli tullantıların əkinçilikdə tətbiqinə, Rəhim Hüseynov Azərbaycan barama cinsini yaratdığına görə SSRİ Dövlət mükafatına layiq görüldülər.

Kənd Təsərrüfatı İnstitutu məzunlarından 20 nəfəri, o cümlədən Bəsti Bağırova, Şamama Həsənova, Manya Kərimova, Fərzəli Abbasov, Firuz Mustafayev və başqaları əmək sahəsində qazandığı böyük uğurlara görə Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldülər.

Seleksiya və toxumçuluq kafedrasının dosenti İmam Mustafayevin işləyib hazırladığı yeni metod da elmi ictimaiyyətin ciddi marağına səbəb olmuşdu.

İnstitutun Heyvandarlıq kafedrasının əməkdaşlarının tədqiqatları onlara çox böyük uğurlar gətirdi. Kafedranın əməkdaşları Qarabağ qoyunlarını qaragül qoyunları ilə mələzləşdirməklə gözəl nəticələr əldə etdilər.



**Niyaz Səfərov (1926)**

**Səfərov Niyaz Əli oğlu** Gədəbəydə anadan olmuşdur. 1962–1973-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun rektoru vəzifəsində çalışmışdır. Onun rektorluğu dövründə bir sıra tikinti-abadlıq işləri aparılmış – Kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsinin yeni korpusu, baytarlıq klinikası, tədris emalatxanası, tələbələr üçün beş yataqxana binası inşa edilmişdir.

1953-cü ildə Azərbaycan Politexnik İnstitutunun Hidromeliorasiya fakültəsi, 1959-cu ildə isə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Kənd təsərrüfatının iqtisadiyyatı fakültəsi Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun tərkibinə verildi. Həmin dövrdə AKTİ-nin rektoru vəzifəsində **Məmməd Əsəd oğlu Mehdiyev** (1954–1960) işləyirdi.

1963–1967-ci illərdə Kənd təsərrüfatının elektrikləşdirilməsi fakültəsi, aqrokimya və torpaqşünaslıq, kənd təsərrüfatında mühasibat uçotu, şərabçılığın texnologiyası şöbələri yaradıldı.

1962–1973-cü illərdə isə instituta **Niyaz Əli oğlu Səfərov** başçılıq etmişdir. 1973-cü ildən



**Bəhman Xəlilov**
**(1930)**

**Xəlilov Bəhman Bəhram oğlu** Gəncə şəhərində anadan olmuşdur. 1973–1983-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun rektoru vəzifəsində çalışmışdır. Bitki mühafizəsi ixtisası üzrə biologiya elmləri doktoru, professor. Əməkdar elm xadimi adına layiq görülmüşdür. Onun rəhbərliyi dövründə instituta tələbə qəbulu xeyli artırılmış, yeni kompleksin inşası üçün Azərbaycan KP MK, SSRİ Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qərarı qəbul olunmuş, qərara əsasən bir sıra tikinti işləri aparılmışdır.

etibarən rektor vəzifəsinə **Bəhman Bəhram oğlu Xəlilov** təyin edilmişdir (1973–1983).

1969-cu ildə Heydər Əliyevin Respublikada siyasi hakimiyyətə gəlişi ilə Azərbaycan kəndlərinin həyatında əsaslı yeniliklər baş verdi. Təsərrüfatın bütün sahələrində coşqun inkişafa nail olundu. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin böyük səyi nəticəsində 1970, 1975, 1979-cu illərdə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafına dair qəbul etdiyi qərarlar ölkə iqtisadiyyatının köklü şəkildə dəyişməsi üçün geniş imkanlar açdı. Qısa müddət ərzində kənd təsərrüfatı kadrlarının ixtisaslaşması, heyvandarlığın və əkinçiliyin intensivləşdirilməsi, ümumən aqrar-sənaye kompleksinin inkişafı sahəsində əsaslı dəyişikliklər baş verdi. Bütün bunlarla yanaşı, həmin illərdə Kənd təsərrüfatı istehsalında rəhbər kadrların ixtisasının artırılması fakültəsi də fəaliyyətə başladı.

Ulu öndərin böyük diqqət və qayğısı nəticəsində, 1978-ci ildə Azərbaycan KP MK, SSRİ Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan SSR Nazirlər Sovetinin birgə qəbul etdiyi **«Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda kadr hazırlığının daha da yaxşılaşdırılması və onun tədris-maddi bazasının möhkəmləndirilməsi tədbirləri haqqında»** qərarın tələblərinə uyğun olaraq Gəncə–Xanlar (Göygöl) şəhərləri arasında 300 hektarlıq sahədə AKTİ üçün böyük kompleksin tikilməsi planlaşdırıldı.

1979-cu ildən bu işlərə ciddi şəkildə başlanıldı, xeyli tikintilər və kommunikasiya işləri həyata keçirildi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 16 may 1979-cu il tarixli fərmanı ilə zəngin tarixə malik bu tədris və elm ocağı yüksəkixtisaslı mütəxəssis hazırlığında və kənd təsərrüfatı elminin inkişafında xidmətlərinə görə Şərəf nişanı ordeni ilə təltif edildi. Təntənəli mərasimdə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev yüksək mükafatı institutun bayrağına sancdı.

80-ci illərdə institutun müasir avadanlıqla təchiz olunmuş iki tədris binası, üç yataqxana korpusu, yeməkxanası, atıcılıq kompleksi (ippodrom), istilik mərkəzi, dendroloji parkı, təcrübə-kolleksiya sahəsi yaradılıb istifadəyə verildi. Təhsilin keyfiyyətini yüksəltmək məqsədilə bir çox kafedralarda struktur dəyişiklikləri aparıldı. İlboyu təsərrüfat işlərində tələbələrin fəal iştirakını təmin etmək məqsədilə Qovlarsarı kəndində hər biri 200 yerlik olmaqla 2 tələbə yataqxanası tikildi.

1983–1989-cu illərdə instituta **Məmmədtağı İbrahim oğlu Cəfərov** rəhbərlik etmişdir.



**Məmmədtağı Cəfərov (1936–2007)**

**Cəfərov Məmmədtağı İbrahim oğlu** Ermənistanın Amasiya rayonunun Oxçuoğlu kəndində anadan olmuşdur. İrəvan Kənd Təsərrüfatı Texnikumunu (1950–1954) və Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirmişdir (1959). 1965-ci ildə namizədlik, 1974-cü ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 2002-ci ildə həqiqi üzvü seçilmişdir. 1983–1989 və 1995–2007-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (Akademiyasının) rektoru vəzifəsində çalışmışdır.

1996-cı ildə Beynəlxalq Enerji-İnformasiya Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

157 elmi əsərin, 15 dərslik və monoqrafiyanın müəllifidir.

1990-cı ildə AKTİ-nin rektoru vəzifəsinə **Raul Abdulla oğlu Qədimov** təyin edildi.

1991-ci ildə institutа akademiya statusu verildi.

İnstitutda 1991-ci ilədək aşağıdakı fakültələr fəaliyyət göstərmişdir:

- Aqrokimya və torpaqşünaslıq;
- Aqronomluq;
- Meyvə-tərəvəzçilik və üzümçülük;
- Bitkilərin mühafizəsi;
- Zoomühəndislik;
- Baytarlıq;
- Kənd təsərrüfatının mexanikləşdirilməsi;
- Kənd təsərrüfatının elektrikləşdirilməsi;
- Kənd təsərrüfatının iqtisadiyyatı.

Bu fakültələrdə və 55 kafedrada aqrar sahə üçün aqrokimya və torpaqşünaslıq, aqronomluq, meyvə-tərəvəzçilik və üzümçülük, bitkilərin mühafizəsi, ipəkçilik, aqrar təsərrüfatı bitkilərinin seleksiyası və genetikası, yer quruluşu, meşə və meşə-park təsərrüfatı, bitkiçilik məhsullarının saxlanılması və emalı texnologiyası, zootexniklik, baytarlıq, aqrar istehsalatın mexanikləşdirilməsi, aqrar istehsalatın elektrikləşdirilməsi, aqrar istehsalatın iqtisadiyyatı və idarə edilməsi, mühasibat uçotu və audit və s. ixtisaslar üzrə mütəxəssis hazırlığı aparılmışdır.



**Raul Qədimov (1939–2000)**

**Qədimov Raul Abdulla oğlu** İrəvan şəhərində anadan olmuşdur. 1972–1978-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru, 1990–1995-ci illərdə isə rektoru vəzifəsində çalışmışdır. Baytarlıq elmləri doktoru, professor, Əməkdar elm xadimi olmuşdur. Baytarlıq elminə aid fundamental əsərlərin müəllifidir. Elmi nailiyyətlərinə görə Akademik Skryabin adına qızıl medalla təltif edilmişdir.

Fəaliyyətə başladığı dövrdən bu ali təhsil ocağında ümuminstitut kafedraları fəaliyyət göstərmişdir. Siyasi iqtisad kafedrası 1931-ci ildə, Marksizm-leninizm kafedrası 1936-cı ildə yaradılmışdır.

Fəlsəfə və elmi kommunizm kafedrası 1964-cü ildə fəaliyyətə başlamışdır.

Fiziki tərbiyə və idman kafedrası, Rus dili kafedrası 1939-cu ildə yaradılmışdır. Rus dili kafedrası 1949-cu ildən Rus, Azərbaycan və xarici dillər kafedrası adlandırılmışdır.

İnstitutda kənd təsərrüfatı mütəxəssislərinin hazırlanmasında və bu sahədə elmin inkişafında böyük xidmətləri olan akademiklər Rəhim Səttərzadə, Ələkbər Quliyev, Validə Tutayuk, Məmmədtağı Cəfərov, Əməkdar elm xadimləri, professorlar Cahangir Axundov, Məmməd Nuriyev, Ələddin Əsgərov, Ağaxan

Ələsgərov, Hacı Hacıyev, Xalis Güləhmədov, Məmmədəli Məmmədəliyev, Mamed Mehdiyev, Zülfüqar Verdiyev, Nadir Hüseynov, Füzuli Axundov və başqalarının adlarını iftixarla çəkmək olar.

1991-ci ilədək Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda 40000-dək kənd təsərrüfatı mütəxəssisi hazırlanmışdır.

İnstitutda ayrı-ayrı illərdə tələbələrin və professor-müəllim heyətinin sayı aşağıdakı kimi olmuşdur:

*1929–1991-ci illərdə AKTİ-də kənd təsərrüfatı mütəxəssislərinin buraxılışı*

| İllər | Məzunlar |
|---|---|
| 1929–1934 | 1709 |
| 1935–1939 | 1255 |
| 1940–1944 | 806 |
| 1945–1949 | 616 |
| 1950–1954 | 1494 |
| 1955–1959 | 2513 |
| 1960–1964 | 2407 |
| 1965–1969 | 3762 |
| 1970–1974 | 5666 |
| 1975–1979 | 4488 |
| 1980–1984 | 5612 |
| 1985–1989 | 6692 |
| 1990–1991 | 1949 |
| **Cəmi:** | **38969** |

*1929–1990-cı illərdə Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun tələbə və professor-müəllim heyətinin inkişaf dinamikası*

| İllər | Tələbələrin sayı | Professor-müəllim heyəti |
|---|---|---|
| 1929 | 550 | 46 |
| 1940 | 1500 | 193 |
| 1950 | 1506 | 186 |
| 1960 | 4150 | 218 |
| 1970 | 5878 | 348 |
| 1980 | 6924 | 426 |
| 1990 | 9171 | 588 |

*1929–1991-ci illərdə AKTİ-yə tələbə qəbulunun dinamikası*

| İllər | Bölmələr | |
|---|---|---|
| | Azərbaycan | Rus |
| 1929–1934 | 2050 | |
| 1935–1939 | 1500 | |
| 1940–1944 | 1145 | |
| 1945–1949 | 1795 | |
| 1950–1954 | 2620 | 960 |
| 1955–1959 | 1465 | 1600 |
| 1960–1964 | 1885 | 2925 |
| 1970–1974 | 2725 | 2300 |
| 1975–1979 | 3475 | 2250 |
| 1980–1984 | 4796 | 2665 |
| 1985–1989 | 4777 | 2474 |
| 1990–1991 | 1995 | 1291 |
| **Cəmi:** | **30228** | **16465** |

### Azərbaycan Dövlət Tibb İnstitutu

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 9 may 1930-cu il qərarına əsasən 1919-cu ildən Bakı Dövlət Universitetinin tərkibində fəaliyyət göstərən Tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu yaradıldı (ADTİ) və Respublika Xalq Səhiyyə Komissarlığının tabeliyinə verildi.

Bakı Dövlət Universitetinin tibb fakültəsinin müstəqil institut kimi fəaliyyətə başladığı dövrdə institutun rektoru vəzifəsini müvəqqəti olaraq o zaman Xalq Səhiyyə komissarı vəzifəsində çalışan **Möhsün Qədirli** icra edirdi. Bir neçə aydan sonra bu vəzifəyə Nadir Məmmədli təyin edildi. O, 1931–1932-ci illərdə ATİ-nin rektoru vəzifəsində çalışmışdır.

Fəaliyyətə başladığı ilk ildə Tibb İnstitutunun 2 fakültəsi var idi: müalicə-profilaktika; sanitariya-profilaktika. Az sonra ləğv edilmiş Diş Həkimliyi İnstitutunun bazasında Müalicə-profilaktika fakültəsinin nəzdində stomatologiya şöbəsi yaradıldı.

30-cu illərdən başlayaraq Tibb İnstitutuna qəbul olan tələbələrin sayı ildən-ilə artmağa başladı. Əgər 1928/29-cu tədris ilində Bakı Dövlət Universitetinin tibb fakültəsinin bütün kurslarında cəmi 535 tələbə təhsil alırdısa, 1930/31-ci tədris ilində institutun I kursuna 300 tələbə qəbul edilmiş, fəhlə və kəndli övladlarını ali təhsilə hazırlamaq məqsədilə Bakı, Gəncə, Lənkəran, Nuxa (Şəki) şəhərlərində təqaüdlə təmin edilən fəhlə fakültələri yaradılmışdı. Bu fakültələri müvəffəqiyyətlə bitirənlər Tibb İnstitutuna imtahansız qəbul edilirdi. Bundan əlavə, instituta qəbul zamanı tələbə yerlərinin bir hissəsi Gürcüstan, Ermənistan, Türkmənistan, Özbəkistan respublikalarından və Dağıstan MSSR-dən göndərilən azərbaycanlılar üçün ayrılırdı. Beləliklə, yeni yaradılmış Azərbaycan Tibb İnstitutu digər respublikalar üçün də həkimlər hazırlayırdı.

1930/31-ci tədris ilindən etibarən institutun bütün fakültələrində Azərbaycan və rus bölmələri fəaliyyət göstərirdi. Lakin Azərbaycan dilində tibb terminologiyasının yaradılmaması, dərsliklərin və milli dili yaxşı bilən pedaqoji kadrların çatışmazlığı Azərbaycan bölməsində dərslərin keyfiyyətini aşağı sala bilərdi. Buna görə də, tədricən Azərbaycan dilində tədrisə keçilməsi nəzərdə tutulurdu. Dərslərin Azərbaycan dilində aparılmasına ilk dəfə 1930-cu ildə sosial-gigiyena və patoloji anatomiya kafedrasında



**Möhsün Qədirli**
**(1893–1941)**

**Qədirli (İsrafilbəyov) Möhsün Nəcməddin oğlu** Şamaxı şəhərində anadan olmuşdur. 1917-ci ildə Kiyev Universitetinin Tibb fakültəsini bitirmişdir. 1918-ci ildən RSFSR Xalq Milli İşlər Komissarlığı Zaqafqaziya şöbəsinin müdiri, RK(b)P Həştərxan Quberniya Komitəsinin üzvü, Quberniya İcraiyyə Komitəsinin sədr müavini, Səhiyyə Şöbəsinin müdiri, Azərbaycan Xalq Hərbi Dəniz İşləri Komissarlığı siyasi idarəsinin rəisi (1920–1921), Azərbaycan SSR Xalq İctimai Təminat komissarı (1921–1922), Xalq Səhiyyə komissarı (1922–1935) vəzifələrində çalışmışdır. ATİ-nin yaradıldığı ilk aylarda – 1930-cu ildə Azərbaycan Respublikası Xalq Səhiyyə Komissarı olmaqla yanaşı, həm də müvəqqəti olaraq institutun rektoru vəzifəsini icra etmişdir.

1935-ci ildən etibarən Azərbaycan Tibb İnstitutunun səhiyyənin təşkili kafedrasının professoru və müdiri vəzifələrində işləmiş, eyni zamanda Azərbaycan SSR XSK-sı yanında Tropik Xəstəliklərə qarşı Mübarizə Komitəsinin sədri olmuşdur. Repressiyaya məruz qalmış, ölümündən sonra bəraət almışdır.




*BDU-nun Tibb fakültəsinin 2 klinik kafedrası Basin küçəsindəki (indiki Füzuli) bu binada yerləşirdi. 1919-cu il*



*Bakı Universitetinin Tibb fakültəsinin ilk akademik heyəti. 1921-ci il*

başlanıldı. Bir il sonra normal anatomiya və sinir xəstəlikləri, 1932-ci ildə dəri-zöhrəvi xəstəlikləri və oftalmologiya, 1933-cü ildə daxili xəstəliklərin propedevtikası və ümumi gigiyena kafedralarında da dərslər Azərbaycan dilində keçilməyə başlandı.

1932-ci ilin fevral ayında Tibb İnstitutunda ana və uşağın mühafizəsi fakültəsi fəaliyyətə başladı. Həmin ildə Tibb İnstitutunun 5 fakültəsində 10 ixtisas üzrə həkim kadrları hazırlanırdı:

- Müalicə-profilaktika fakültəsi terapevt, cərrah, stomatoloq ixtisasları verirdi;
- Sanitar-profilaktika fakültəsi qida gigiyenası, mənzil-kommunal gigiyenası, istehsalat müəssisələrinin sanitariyası və epidemiologiya üzrə mütəxəssis hazırlayırdı;
- Ana və uşaqların mühafizəsi fakültəsi mama-ginekologiya və pediatr ixtisasları verirdi;
- Tropik təbabət fakültəsi – tropik xəstəliklər üzrə həkimlər hazırlayırdı;
- Tədris axşamlar aparılan Müalicə-profilaktika fakültəsində də terapevt, cərrah, stomatoloq ixtisasları üzrə mütəxəssis hazırlanırdı.

1933-cü ilin mart ayında sanitar-profilaktika və tropik təbabət fakültələri birləşdirildi. Yeni yaradılan fakültə sanitar-gigiyena fakültəsi adlandırıldı. 3 ildən sonra Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığı tərəfindən Sanitar-gigiyena fakültəsi ləğv edildi.

İlk vaxtlar Tibb İnstitutuna daxil olan fakültələrin və institutların verdiyi ixtisasların sayının tez-tez dəyişməsi, bir tərəfdən kafedraların elmi-pedaqoji kadrlarla komplektləşməsinin vəziyyəti ilə, digər tərəfdən isə səhiyyə müəssisələrinin tələbatı ilə əlaqədar idi. Səhiyyə müəssisələrinin tələbatına müvafiq sayda klinik və gigiyenik ixtisaslar üzrə mütəxəssislər hazırlamaq məqsədilə institutun tədris plan və proqramları tez-tez dəyişdirilirdi. Bu şəraitdə institutun işini dövrün tələblərinə müvafiq şəkildə qurmaq məqsədilə yüksək təşkilatçılıq qabiliyyətinə malik olan rəhbərə böyük ehtiyac var idi. Bundan əvvəl Azərbaycan Klinik İnstitutunun direktoru vəzifəsində işləmiş görkəmli dövlət xadimi və səhiyyə təşkilatçısı **Əziz Əliyevin** rektor vəzifəsinə təyin edilməsi Tibb İnstitutunun fəaliyyətində böyük canlanma yaratdı. O bu vəzifədə qısa fasilə ilə 1932-ci ilin iyun ayından 1938-ci ilin sentyabrına qədər işləmişdir. 1933-cü ildə 8 ay müddətində instituta rəhbərlik Müseyib Hüseynova həvalə edilmişdi.

Milli kadrların yetişdirilməsi üçün əməli tədbirlərin həyata keçirilməsi, institutda ilk tibbi kitabxananın yaradılması, Azərbaycan dilində ilk dərslik və dərs vəsaitlərinin, monoqrafiya və elmi məqalələrin çap edilməsi, «Tibb kadrları uğrunda» qəzetinin, «Azərbaycan tibb jurnalı»nın nəşri, tələbə və məzunların, elmi iş aparan tədqiqatçıların digər respublikaların tanınmış tibb ocaqlarında təcrübə toplamalarına diqqət yetirilməsi, ölkə daxilində yayılmaqda olan epidemiyaların qarşısının alınması məqsədilə keçirilən genişmiqyaslı tədbirlər Əziz Əliyevin Tibb İnstitutuna rəhbərlik etdiyi dövrü səciyyələndirən xüsusiyyətlərdəndir.

Tibb İnstitutu təşkil edildikdən sonra burada təhsil alan tələbələrin sayı ildən-ilə artırdı, ona görə də kafedralarda elmi-pedaqoji işçilərin də



**Əziz Əliyev**
**(1897–1962)**

**Əliyev Əziz Məmmədkərim oğlu** İrəvan quberniyasının Hamamlı kəndində anadan olmuşdur. 1917-ci ildə gimnaziyanı bitirərək Sankt-Peterburqdakı Hərbi-Tibb Akademiyasına daxil olmuş, təhsilini BDU-nun Tibb fakültəsində davam etdirmişdir. Azərbaycan Klinik İnstitutunun direktoru (1929–1932), Azərbaycan Tibb İnstitutunun rektoru (1932–1938) vəzifələrində çalışmışdır.

Bakı şəhər Səhiyyə Şöbəsinin müdiri vəzifəsində işləmişdir (1934–1935). 1937-ci ildə Tibb İnstitutunun rektoru vəzifəsi ilə yanaşı, Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsini də yerinə yetirmişdir. 1938-ci ildən etibarən Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK katibi (1941–1942), Dağıstan MSSR Vilayət Partiya Komitəsinin birinci katibi (1942–1948), ÜİK(b)P MK-nın məsul işçisi, Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini (1950–1951), Azərbaycan ET Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru (1952–1956) və s. məsul vəzifələrdə, 1956-cı ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru vəzifəsində çalışmışdır. Respublikanın əməkdar həkimi fəxri adına layiq görülmüşdür.

Dəfələrlə SSRİ və Azərbaycan SSR-in Ali Sovetinə deputat seçilmişdir.

sayını artırmaq lazım gəlirdi. Yeni fakültələrin təşkil edilməsi isə əlavə kafedralar açılması zərurətini qarşıya çıxarırdı. Təbii ki, həmin kafedraları da elmi-pedaqoji heyətlə təmin etmək zərurəti yaranırdı. Buna görə də 1930-cu ildə institutda aspirantura şöbəsi yaradıldı.

İnstitutda tədris işləri, o cümlədən aspirant hazırlığı Azərbaycan və rus dillərində aparılırdı. Aspiranturaya daxil olanların həm rus, həm də Azərbaycan dillərini bilməsi tələb edilirdi. Aspirantların 2/3 hissəsinə dərslər Azərbaycan dilində, 1/3 hissəsinə isə rus dilində keçilirdi. Pedaqoji kadrların çatışmadığı və aspirantların əksəriyyətinin maddi vəziyyətinin aşağı olması aspiranturada dərslərin keyfiyyətinə mənfi təsir göstərirdi. 1930-cu ildə Azərbaycan Tibb İnstitutunun 8 aspirantı olduğu halda, 1940-cı ildə onların sayı 42 nəfərə çatdı ki, bunlardan da 27 nəfəri azərbaycanlı idi. İnstitutda ordinatorların sayı da ildən-ilə artırdı.

30-cu illər üçün səciyyəvi olan maddi çətinliklərlə əlaqədar olaraq, kafedralar elmi-texniki avadanlıqla kifayət qədər təchiz edilməmişdi. Səriştəli elmi rəhbərlər çatışmırdı. Bu, dissertasiya işlərinin böyük hissəsinin vaxtında başa çatdırılmasına mane olurdu. Bütün bunlara baxmayaraq, dissertasiya müdafiə edərək alimlik dərəcəsi alanların sayı zəif sürətlə olsa da artırdı. Müqayisə üçün qeyd edək ki, Bakı Dövlət Universitetinin Tibb fakültəsində onun mövcud olduğu 10 il ərzində 27 dissertasiya müdafiə edildiyi halda, Tibb İnstitutunun fəaliyyətinin ilk 10 ili ərzində 104 dissertasiya müdafiə edilmişdi ki, onlardan 51-i doktorluq, 53-ü namizədlik dissertasiyası idi *(bax: Əhliman Əmiraslanov, Fuad İslamzadə. Azərbaycan Tibb Universiteti (1930–2000). Bakı, «Təbib», 2000, səh.47).*

Müdafiə edənlərin 65 nəfəri azərbaycanlı həkim idi. Əgər 1930-cu ildə Tibb İnstitutunun 24 professoru arasında yalnız bir azərbaycanlı var idisə, 1940-cı ildə burada çalışan 40 professordan 20 nəfəri azərbaycanlı idi. Azərbaycanlı mütəxəssislərin sayının artması yerli əhalinin dilini bilən həkimlərin hazırlıq səviyyəsinə müsbət təsir göstərirdi.

1937-ci ildə keçirilən gənc tədqiqatçıların Ümumittifaq müsabiqəsində Azərbaycan Tibb İnstitutunun gənc alimlərindən 21 nəfəri iştirak etmişdi. Onlardan 8 nəfərinin elmi işi mükafata layiq görülmüşdü.

XX əsrin 20–30-cu illərində Bakı Universitetinin Tibb fakültəsində və Azərbaycan Dövlət Tibb İnstitutunda işləyərək doktorluq dissertasiyası müdafiə etmiş və professor elmi adı almış alimlərimizin əksəriyyəti uzun illər səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, müxtəlif kafedralara, elmi-tədqiqat müəssisələrinə, klinikalara rəhbərlik etmişlər. Onlardan Əziz Əliyev, Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, Cəlil Hüseynov, Abduləhəd Həsənov, Ümnisə Musabəyova, Əlibəy Əlibəyov, Məmmədəmin Əfəndiyev, Kamil Balakişiyev, Hüseyn Əliyev, Mustafa Əfəndizadə, Mirmehdi Mirsəlimov, İbrahim İsmayılzadə və b. alimlərimiz Azərbaycanda milli tibb təhsilinin əsasını qoymuş, tibb elminin inkişafında xidmətlərinə görə Azərbaycanın hüdudlarından kənarda da şöhrət qazanmışdılar.

1937-ci ildə maddi çətinliklə bağlı olaraq Tibb İnstitutunun fəaliyyətdə olan 5 fakültəsindən 3-nün fəaliyyəti dayandırıldı, yalnız Müalicə və pediatriya fakültələri öz işini davam etdirdi. O dövrdə 5 fakültənin olması onların çoxsaylı kafedralarının tədris binaları, klinik bazaları və müəllimlərlə təmin edilməsində çətinliklər törədirdi. Həmin dövrlərdə tələbələrin klinik vərdişlərə yiyələnmələrini yaxşılaşdırmaq məqsədilə klinik fənlər üzrə imtahanların xəstənin yatağı yanında aparılmasına başlanıldı. Klinik bazası kiçik olan bəzi kafedralara dərsləri poliklinika şəraitində müalicə alan xəstələrin nümayişi ilə aparılmasına və hətta klinik bazası kiçik olan bəzi kafedraların müxtəlif tibb müəssisələrində filiallarının yaradılmasına icazə verildi.

Həmin il Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş SSRİ-nin birinci kateqoriyalı ali təhsil müəssisələri siyahısına daxil edildi. İnstitutun 250 tələbə yerlik yataqxanası istifadəyə verildi. 1938-ci ildə isə 2-ci yataqxana korpusunun tikintisi başa çatdırıldı və 600 nəfər tələbə yataqxana ilə təmin olundu.

**1937-ci ildə Tibb İnstitutundan ayrılan bir neçə kafedranın bazasında Azərbaycan Əczaçılıq İnstitutu yaradıldı.**

Tələbələri dərslik və dərs vəsaitləri ilə təmin etmək məqsədilə institutun kitabxanası da ildən-ilə genişləndirilirdi. 1939-cu ildə onun əsaslı kitabxana fondunda 91452 nüsxə kitab var idi. Milli kadrlar tələbələr üçün Azərbaycan dilində dərslik və dərs vəsaitlərinin hazırlanmasına xüsusi diqqət verirdilər. O dövrdə Mirəsədulla Mirqasımovun Azərbaycan dilinə tərcümə etdiyi «Ümumi cərrahlıq», Kamil Balakişiyevin «Normal anatomiya üzrə praktik məşğələlərə rəhbərlik» (3 cilddə), Əziz Əliyevin «Klinik analizlər» kitabı nəşr olunmuşdu. Ümumiyyətlə, 1933–1935-ci illərdə respublikada müxtəlif tibb ixtisasları üzrə 38 adda dərslik və dərs vəsaiti çap edilmişdi.

Maddi-texniki təchizatın zəif olması və İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar

kadr çatışmazlığına görə 1942-ci ildə Əczaçılıq İnstitutu ləğv edildi, onun bazasında Tibb İnstitutunun Əczaçılıq fakültəsi yaradıldı.

Fəaliyyətinin ilk 10 ili ərzində (1930–1940) Tibb İnstitutu ali təhsilli 2267 həkim hazırladı ki, bunun nəticəsində də respublikada əhalinin hər 10 min nəfərinə 10 həkim (hər min nəfərə 1 həkim) düşürdü.

1938–1943-cü illərdə Tibb İnstitutuna **Mahmud İsmayıl oğlu Əliyev** rəhbərlik etmişdir.

25 kafedra ilə fəaliyyətə başlayan institutda 1938-ci ildə artıq 45 kafedra var idi. Bəzi kafedraların təşkili yerli şəraitlə əlaqədar idi. Məsələn, yoluxucu xəstəliklərin profilaktikasının aktuallığı ilə əlaqədar institutda tropik xəstəliklər kafedrası, ölkənin kurort amillərinin müalicəvi təsirinin öyrənilməsi ilə əlaqədar fizioterapiya kafedrası təşkil edilmişdi.

İkinci Dünya müharibəsi Tibb İnstitutunun qarşısında çox mürəkkəb və həlli çətin vəzifələr qoymuşdu. Müharibənin ilk günlərindən etibarən tədris proqramlarında dəyişikliklər edildi və həkim kadrlarının hazırlığını sürətləndirmək məqsədilə xüsusi tədbirlər kompleksi işlənib hazırlandı. 1941-ci ildə institutun II–V kurslarında dərslərə sentyabr ayında deyil, avqust ayının 1-də başlanıldı.

Bu dövrdə SSRİ Xalq Səhiyyə Komissarlığı III kurs tələbələrinin respublikada yerləşən hospitallarda istehsalat təcrübəsi keçməsinə icazə verdi. Bu, tələbələrdə praktik vərdişlər yaranmasına böyük kömək göstərdi.

Müharibə digər ali təhsil müəssisələri kimi, Tibb İnstitutu üçün də əlavə problemlər yaratmışdı. Ümumi səfərbərliklə əlaqədar olaraq, kafedraların əməkdaşlarının bir hissəsi, xüsusən də cərrahlar SSRİ-nin müxtəlif şəhərlərində yerləşən hospitallara və ya cəbhə xəttində olan tibbi hissələrə göndərilmişdi. Tələbələrin bir hissəsi səfərbərliyə alınıb orduya cəlb edilmişdi. Buna görə Bakı şəhərinin səhiyyə müəssisələrində işləyən həkimlərin bir qrupu tədrisə cəlb edildi və gündüzlər istehsalatda çalışan tələbələr üçün axşam təhsili qrupları yaradıldı.

İnstitutun yataqxanaları səyyar hospitallara çevrilərək hərbi hissələrə verilmişdi. Kafedralar şəhərin müxtəlif yerlərində 40-a qədər tibb müəssisəsinə səpələnmişdi. Məsələn, normal anatomiya kafedrası yerləşdiyi geniş binadan bir-birindən uzaqda yerləşən 4 kiçik binaya köçürülmüşdü.

1942-ci ilin sentyabr ayında hərbi vəziyyətlə əlaqədar olaraq, Sanitariya-gigiyena fakültəsinin işi



**Mahmud Əliyev (1908–1958)**

**Əliyev Mahmud İsmayıl oğlu** 1931-ci ildə Azərbaycan Tibb İnstitutunu bitirmişdir. Kəlbəcər rayon xəstəxanasının müdiri vəzifəsində işləmiş (1931–1933), Cəbrayıl rayonu ərazisində sərhəd qoşunlarında xidmət etmiş (1933–1936), sinir xəstəlikləri ixtisası üzrə aspiranturaya daxil olmuş (1936), pedaqoji fəaliyyətlə məşğul olan kadrlara tələbat artdığına görə aspiranturanı bitirmədən assistent vəsifəsinə seçilmişdir (1937). Elə həmin ildə Azərbaycan Xalq Səhiyyə Komissarlığında elm, tibb təhsili və ali təhsil idarəsinin rəisi vəzifəsinə irəli çəkilmiş, sonra Azərbaycan Tibb İnstitutunun rektoru (1938–1943) vəzifəsində çalışmışdır. SSRİ xarici işlər komissarının müavini (1943), Azərbaycan SSR xarici işlər komissarı (1944), eyni vaxtda Azərbaycan SSR xarici işlər və səhiyyə naziri (1950–1953) vəzifələrini icra etmişdir. Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru (1953–1956) olmuşdur.

Azərbaycan SSR Ali Sovetin deputatı seçilmiş, Qırmızı Əmək Bayrağı ordeni (2 dəfə), Şərəf nişanı ordeni və medallarla təltif edilmişdir.

bərpa olundu. Bu ərəfədə həm də Əmək gigiyenası, Qidalanma gigiyenası və Kommunal gigiyena kafedraları təşkil edildi.

Müharibə dövründə instituta qəbul 1940–1941-ci tədris ilindəkinə nisbətən 2 dəfədən də çox artırıldı. Müharibənin birinci ili VI kurs məzunları ilə birlikdə V kurs tələbələrinə də vaxtından əvvəl institutu bitirmək haqqında diplom verildi və onlar cəbhəyə göndərildi. Beləliklə, 1941–1942-ci tədris ilində həkim diplomu alanların sayı təxminən 2 dəfə artaraq 680 nəfərə çatdı. Alman faşizminə qarşı vuruşan orduda Azərbaycanda təhsil almış həkimlərin böyük bir qrupu qulluq edirdi. O dövrdə Smolensk vilayətində «partizan həkim» ləqəbli Aliyə Fətulla qızı Rüstəmbəyovanın adı dillər əzbəri olmuşdu.

1941-ci ildə institutun elmi-tədqiqat planına yenidən baxıldı. Bu plana Azərbaycanın yerli ehtiyatları arasından dərman mənbələrinin aşkar edilməsinə, hərbi travmatizmə, müharibə şəraitində respublikada malyariya xəstəliyinin müalicə və profilaktikasının xüsusiyyətlərinə, yaralıların müalicəsində Naftalan neftinin tətbiqinə, kəskin infeksion xəstəliklərinin profilaktikası və müalicəsinə aid olan 36 elmi-tədqiqat işi daxil edildi. Bu dövrdə Mustafa Topçubaşov insan bədəninə daxil olmuş yad cismin lokalizasiyasını dəqiq təyin etməyə imkan verən portativ cihaz icad etdi. Onun təklif etdiyi efir-yağ narkozu uzunmüddətli anesteziya məqsədilə hospitallarda geniş istifadə edilirdi. Bakıda yerləşən 1543 nömrəli səyyar hospitalda Mustafa Topçubaşovun təklifi əsasında ixtisaslaşdırma və tibbi yardımın növbələşdirilməsi tətbiq edildi. Bu üsulun tətbiqi 600 xəstə yeri olan səyyar hospitalın eyni vaxtda 1200 xəstəyə yardım göstərməsinə şərait yaratdı. Sonralar SSRİ Xalq Səhiyyə Komissarlığının qərarı ilə Mustafa Topçubaşovun bu təcrübəsindən SSRİ-nin başqa regionlarında yerləşən səyyar hospitallarda da istifadə olunurdu.

Tibb İnstitutunun professoru Fuad Əfəndiyev donor qanının konservləşdirilməsi üçün yeni üsul təklif etmişdi. Bu üsulun tətbiqi konservləşdirilmiş qanın saxlanma müddətinin 35–40 günə qədər uzadılmasına şərait yaratmışdı. Kütləvi travmatizmlə nəticələnən müharibə şəraitində bu üsulun əhəmiyyəti ölçüyəgəlməz dərəcədə böyük idi.

Müharibə illərində Tibb İnstitutunun əməkdaşlarından 52 nəfəri dissertasiya müdafiə etdi, 11 nəfərə Azərbaycan SSR Əməkdar elm xadimi, 10 nəfərə isə Əməkdar həkim adı verildi.



**Zülfüqar Məmmədov (1903–1971)**

**Məmmədov Zülfüqar Mehdi oğlu** Gəncə şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Tibb fakültəsini bitirmiş (1926), doktorluq dissertasiyası müdafiə etmiş (1936), professor elmi adı (1938) almışdır. Azərbaycan Tibb İnstitutunun Ümumi cərrahlıq kafedrasının müdiri (1931–1971) vəzifəsində, müxtəlif vaxtlarda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru, Eksperimental və Klinik Təbabət İnstitutunun endokrinologiya şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

Azərbaycan Tibb İnstitutunun rektoru (1943–1946) vəzifəsində işləmişdir.

Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü (1961) və həqiqi üzvü (1968) seçilmişdir.

Azərbaycan Cərrahlar Cəmiyyətinin sədri olmuşdur (1947–1971).

Lenin, Qırmızı Ulduz, Qırmızı Əmək Bayrağı ordeni və müxtəlif medallarla təltif edilmişdir.

1943–1946-cı illərdə institutun rektoru vəzifəsində professor **Zülfüqar Məmmədov,**



**Bahadur Eyvazov**
**(1907–1998)**

**Eyvazov Bahadur Əsgər oğlu** Füzuli rayonunda anadan olmuşdur. Doktorluq dissertasiyası müdafiə etmiş (1936), professor elmi adı (1940) almışdır. Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığında elm və tibb təhsili idarəsinə rəhbərlik (1935–1937) etmişdir. Azərbaycan Elmi-Təd-qiqat Dəri-Zöhrəvi Xəstəlikləri İnstitutunun direktoru vəzifəsində (1938–1946) işləmişdir.

Azərbaycan Tibb İnstitutunun rektoru (1946–1964), 1973-cü ildən ömrünün sonuna qədər Azərbaycan Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

Əsas elmi tədqiqatları dərizöhrəvi xəstəliklərinin klinikası və epidemiologiyasına, respublikanın kurort amillərinin (Naftalan nefti, Suraxanı kükürdlü suyu, Şıx mineral suyu, Şuşa iqlim kurortu və s.) öyrənilməsinə həsr edilmişdir.

Azərbaycan SSR-in əməkdar həkimi (1940) və əməkdar elm xadimi fəxri adlarına (1956) layiq görülmüşdür.

2-ci və 5-ci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

1946–1964-cü illərdə isə professor **Bahadur Eyvazov** işləmişdir.

1945-ci ildə təşkil edilən Azərbaycan SSR Elmlər Akademiyasına üzv seçilmiş ilk 14 akademikdən 3 nəfəri Tibb İnstitutunun əməkdaşı idi. Bunlardan Mirəsədulla Mirqasımov akademiyanın ilk prezidenti olmuş, Mustafa Topçubaşov və İvan Şirokoqorov isə sonradan SSRİ Tibb Elmləri Akademiyasının həqiqi üzvü seçilmişdi.

1945-ci ildən institutun Pediatriya fakültəsində 742, Sanitariya-gigiyena fakültəsində 521, Əczaçılıq fakültəsində 220, Müalicə-profilaktika fakültəsində isə 1845 nəfər tələbə təhsil alırdı. Sonuncuların arasında gələcəyin görkəmli oftalmoloq-alimi, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əliyeva da var idi.

1946-cı ildən etibarən institutun Müalicə-profilaktika və Pediatriya fakültələrində altıillik təhsil müddətinə keçildi.

1946-cı ildə Tibb İnstitutunda 11 aspirant olduğu halda, cəmi bir il sonra onların sayı 2 dəfə artaraq 22-yə çatdı.

Müharibədən sonrakı 5 ildə 5 doktorluq və 50 namizədlik dissertasiyası müdafiə edildi. SSRİ-də, o cümlədən Azərbaycanda olan ictimai-siyasi şərait institutda aparılan tədqiqat işlərinin mövzularına da təsir göstərirdi. 1946–1950-ci illərdə institutda aparılan tədqiqatlar döş qəfəsi cərrahlığına, müharibə zamanı hərbi təbabət sahəsində toplanan təcrübənin ümumiləşdirilməsinə, Azərbaycanın patologiyasına, kurort amillərinin müalicəvi təsirinə və dərman bitkilərinin ehtiyatının öyrənilməsinə həsr edildi. 50-ci illərdə sənaye və kənd təsərrüfatında işləyən zəhmətkeşlərin əmək şəraitinin yaxşılaşdırılması imkanlarının öyrənilməsinə diqqət artırıldı. 60-cı illərdə dərman bitkisi xammalı ehtiyatlarının aşkar edilməsi və respublikanın xammal ehtiyatlarından yeni dərmanlar hazırlanması sahəsində aparılan tədqiqatların miqyası genişləndirildi. Həmin illərdə klinik kafedraların əməkdaşlarının elmi ideyalarının eksperimental şəraitdə sınaqdan çıxarılmasına şərait yaratmaq məqsədilə Mərkəzi Elmi-Tədqiqat Laboratoriyası yaradıldı. Bu, institut əməkdaşlarının elmi-tədqiqat potensialının reallaşdırılması işində əhəmiyyətli hadisə oldu.

1954-cü ildə institutda Stomatologiya fakültəsinin fəaliyyəti bərpa olundu. İlk illərdə fakültəyə 100 nəfər qəbul edildi. 1957-ci ildən isə Əczaçılıq fakültəsinin qiyabi şöbəsi təşkil olundu.

1955-ci ildə institutda 2400 tələbə təhsil alırdı. İnstitutun tədris binalarında Bakı tibb məktəblərinin tələbələri də dərs keçirdi. Bu çətinlikləri aradan qaldırmaq məqsədilə Azərbaycan SSR Nazirlər Soveti 1955-ci ilin yanvar ayının 20-də *«Azərbaycan Dövlət Tibb İnstitutunun maddi-texniki bazasının yaxşılaşdırılması tədbirləri haqqında»* qərar verdi. Qərar qəbul edildikdən sonra tezliklə instituta əlavə binalar ayrıldı, müxtəlif məqsədlərlə işlədilən yardımçı binalar boşaldılaraq kafedraların tabeliyinə verildi və təchizat xeyli yaxşılaşdırıldı.

1957-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutuna Nəriman Nərimanovun adı verildi.

1958-ci ildə Türkmənistan, Tacikistan və Ermənistan respublikalarının tibb kadrlarına olan ehtiyacın ödənilməsinə kömək etmək məqsədilə Pediatriya, Sanitariya-gigiyena, Stomatologiya və Əczaçılıq fakültələrinə həmin respublikaların sakinləri üçün plandan əlavə tələbələr qəbul edildi.

50-ci illərdə iqtisadi vəziyyətin ağır olması bir sıra qərarların həyata keçməsinə mane oldu. 1950-ci ildə SSRİ Tibb Elmləri Akademiyasında doktorantura hazırlığı keçmək üçün 25 nəfərin göndərilməsi nəzərdə tutulduğu halda bir nəfər də göndərilmədi. Yalnız 1959-cu ildə 15 nəfər, 1960-cı ildə isə 14 nəfər SSRİ Tibb Elmləri Akademiyasının doktoranturasına göndərildi. Doktorluq dissertasiyası müdafiə etdikdən sonra həyatını yenidən Azərbaycan Tibb İnstitutuna bağlayanlar arasında Tağı Tağızadə, Zəhra Quliyeva, Qəhrəman Qəhrəmanov, Roza Bayramova da var idi. Bu dövrdən etibarən Tibb İnstitutunda elmi-pedaqoji kadrların hazırlanması işi tədricən qaydaya düşdü. İnstituta tələbə qəbulu xeyli artırıldı və 1964-cü ildə onların sayı 1000 nəfərə çatdırıldı. Həkim kadrların hazırlanması sahəsində əldə edilən yüksək nəticələrə görə, 1959-cu ildə institutun 72 əməkdaşına «Səhiyyə əlaçısı» döş nişanı təqdim edildi.

60-cı illərin əvvəllərində nəzəri kafedralar əsasən 3 iri tədris korpusunda yerləşdirilmişdi. Klinik fənlər üzrə dərslər isə şəhərdə olan 6 klinik xəstəxanada, 4 Elmi-Tədqiqat İnstitutunda, 2 doğum evində, 30 poliklinikada, məsləhətxanalarda və dispanserlərdə keçilirdi.

*50–70-ci illərdə Azərbaycan Tibb İnstitutuna qəbul olunan tələbələrin sayı*

| İllər | Ümumi | O cümlədən xarici |
|---|---|---|
| 1950 | məlum deyil | |
| 1951 | 316 | – |
| 1952 | 466 | – |
| 1953 | 469 | – |
| 1954 | 517 | – |
| 1955 | məlum deyil | |
| 1956 | 426 | – |
| 1957 | məlum deyil | |
| 1958 | məlum deyil | |
| 1960 | 1023 | 29 (Türkmənistan)<br>10 (Tacikistan)<br>5 (Çeçen) |
| 1961 | məlum deyil | |
| 1962 | 629 | 30 (Türkmənistan)<br>3 (Yəmən) |
| 1963 | 669 | 30 (Türkmənistan)<br>6 (Yəmən) |
| 1964 | 689 | 10 (Türkmənistan)<br>10 (Tacikistan)<br>2 (İraq) |
| 1965 | 859 | 30 (Türkmənistan) |
| 1966 | məlum deyil | |
| 1967 | məlum deyil | |
| 1968 | 1181 | 15 (Türkmənistan) |
| 1969 | 1253 | 5 (Türkmənistan) |
| 1970 | 1290 | 3 |

*50–70-ci illərdə Azərbaycan Tibb İnstitutunu bitirənlərin sayı*

| İllər | Məzunlar |
|---|---|
| 1950 | 636 |
| 1951 | 457 |
| 1952 | 483 |
| 1953 | 374 |
| 1954 | 346 |
| 1955 | 329 |
| 1956 | 388 |
| 1957 | 416 |
| 1958 | 415 |
| 1959 | 555 |
| 1960 | 519 |
| 1961 | 514 |
| 1962 | 387 |
| 1963 | 355 |
| 1964 | 448 |
| 1965 | 504 |
| 1966 | 507 |
| 1967 | 563 |
| 1968 | 584 |
| 1969 | 622 |
| 1970 | 642 |
| **Cəmi:** | **10044** |

Keçmiş SSRİ Nazirlər Sovetinin 60-cı illərdə ölkədə elm və təhsilin inkişafının daha da səmərələşdirilməsi haqqında qərarına uyğun olaraq Tibb və Həkimləri Təkmilləşdirmə İnstitutları nəzdində Mərkəzi Elmi-Tədqiqat Laboratoriyası (METL) təşkil olunmuşdur. Bu laboratoriyaların əsas məqsədi tibbi və bioloji elmlər sahəsində çalışmaq və elmi-tədqiqat işləri aparmaq üçün Tibb İnstitutunun müxtəlif profilli kafedralarının professor-müəllim heyətinə müvafiq elmi-laborator şərait yaratmaq, onları elmi işə cəlb etməkdən ibarət olmuşdur. Bu laboratoriyada klinik və eksperimental araşdırmaları müstəqil yerinə yetirməyi bacaran, alınmış nəticələri sərbəst təhlil etmək bacarığı olan tədqiqatçılar nəsli yetişmişdir. Laboratoriyanın məhsuldar fəaliyyətində professorlar Ənvər Səmədovun, Zakir Qarayevin, İsmayıl Abbasovun, Sabir Əliyevin, Əşrəf Əşrəfovun, İbrahim Topçubaşovun, Saleh Salehovun, Amalya Eyyubovanın xüsusi xidmətləri olmuşdur.



**Xamiz Həsənov (1928–1999)**

**Həsənov Xamiz Abdulhüseyn oğlu** Şamaxı şəhərində anadan olmuşdur. Azərbaycan Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirmişdir (1948). Moskva şəhərində professor Serbski adına Elmi-Tədqiqat Məhkəmə Psixiatriyası İnstitutunda aspiranturaya daxil olmuşdur (1951). «Məhkəmə psixiatriyasında ağ isitmə və onun klinik variantları» mövzusunda namizədlik (1954), «Kəskin alkoqol psixozlarının klinikası» mövzusunda doktorluq dissertasiyası (1960) müdafiə etmiş, dosent (1962) və professor (1963) elmi adı almışdır. Azərbaycan Tibb İnstitutunun elmi işlər üzrə prorektoru (1963), rektoru (1964–1968) vəzifələrində çalışmışdır.

1968-ci ildən ömrünün sonuna qədər Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda Psixiatriya kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1964-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutunda rektor vəzifəsinə professor **Xamiz Həsənov** təyin olundu.



**Balababa Məcidov (1912–1975)**

**Məcidov Balababa Fərəc oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Tibb İnstitutunu bitirmişdir (1935). «Bakı şəhərində bəzi xəstəliklərin yayılmasında gəmiricilərin rolu» mövzusunda namizədlik (1945), «Azərbaycan SSR-də bakterial dizenteriyanın epidemiologiyası» mövzusunda doktorluq dissertasiyası (1957) müdafiə etmiş, professor elmi adı almışdır (1958).

Müxtəlif illərdə Azərbaycan SSR Elmi-Tədqiqat Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru, Azərbaycan SSR Səhiyyə nazirinin birinci müavini, Azərbaycan Tibb İnstitutunun rektoru (1968–1972) vəzifələrində çalışmışdır. 1972-ci ildən ömrünün sonuna qədər Qəzənfər Musabəyov adına Elmi-Tədqiqat Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunda epidemiologiya şöbəsinin müdiri olmuşdur.

Azərbaycan SSR-in Əməkdar həkimi (1960), Əməkdar elm xadimi (1964) fəxri adlarına layiq görülmüşdür.

Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, Azərbaycan SSR Epidemioloqlar cəmiyyəti idarə heyətinin sədri olmuşdur.

1968-ci ildən 1972-ci ilə qədər isə rektor vəzifəsini professor **Balababa Məcidov** icra etmişdir. Bu dövrdə Azərbaycan Dövlət Tibb İnstitutunda elmi-pedaqoji kadrların hazırlanması işində müəyyən dönüş yarandı. 70-ci illərdə isə artıq bu sahədə ciddi irəliləyiş müşahidə edildi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi respublikada elm, təhsil, mədəniyyət və səhiyyənin inkişafına əsaslı təsir göstərdi. 70-ci illərin əvvəllərində institutun yeni 4№-li tədris korpusu istifadəyə verildi. Kafedralara yeni laboratoriya avadanlığı alındı, əsas klinik bazaların yerləşdiyi 1№-li şəhər klinik xəstəxanası yenidən quruldu. Bütün bunlar tədrisin keyfiyyətinin xeyli yaxşılaşdırılmasına əsaslı zəmin yaratdı. Bu illər ərzində instituta tələbə qəbulunun ildən-ilə artırılaraq 1300 nəfərə çatdırılması, istər-istəməz tədris korpuslarında darısqallığa səbəb olur, tədris prosesinin normal təşkilinə mənfi təsir göstərirdi. Ona görə də əlavə tədris binasına ehtiyac hiss olunurdu. Həmin dövrdə indiki Elmi-Tədqiqat Mərkəzi yerləşən bina tikilib istifadəyə verildikdən sonra tədris laboratoriyaları bu binaya köçürüldü və onun yerləşdiyi sahə Farmakologiya kafedrasının tabeliyinə verildi.

70-ci illərdə institutda elmi-tədqiqat işləri xüsusilə geniş vüsət aldı. Bu dövrdə ölkədə infeksion xəstəliklərə qarşı aparılan profilaktik tədbirlərlə və əhalinin maddi rifahının nisbətən yaxşılaşması ilə əlaqədar olaraq, dünyanın bir sıra ölkələrində olduğu kimi, Azərbaycanda da orta ömür müddəti xeyli artmış, ölüm və əlilliyə səbəb olan xəstəliklər arasında ürək-damar sistemi patologiyası və şiş xəstəlikləri ön plana keçmişdi. Bununla əlaqədar olaraq, tibb elmində həmin xəstəliklərin öyrənilməsi əsas problemə çevrilmişdi. O dövrdə morfoloji elmlər kafedralarında aparılan elmi-tədqiqatların əsas istiqamətləri aşağıdakılardan ibarət olmuşdur:

- bəzi periferik sinirlərin strukturunun yaş xüsusiyyətləri (Gülağa Hacıyev, Rafiq Əsgərov, Vaqif Şadlinski və b.);
- uşaq orqanizminin anatomik xüsusiyyətləri (Məmmədsadıq Abdullayev və b.);
- insan dərisində epitel hüceyrələrin histokimyəvi xüsusiyyətlərinin embriogenezin mərhələlərindən asılılığı (Hacı Əbiyev, Baradin Qorxmazov və b.);
- periferik reseptorlarda, neyronlararası sinapslarda və sinir-toxuma terminallarında

müxtəlif patoloji proseslər zamanı törənən dəyişikliklərin kompensasiya-uyğunlaşma proseslərinin intensivliyindən asılılığı (Qüdrət Səlimxanov, Şükufə Sultanova, İbrahim İsayev və b.).

Tibbi biologiya kafedrasında müxtəlif vəhşi heyvanların sümük sisteminin morfogenezi və vaskulyarizasiya xüsusiyyətləri öyrənilmiş, əvvəllər başlanılmış paleobioloji tədqiqatlar davam etdirilmişdi (Dəmir Hacıyev, Sabir Əliyev və b.). Nəzəri kafedralarda və Mərkəzi Elmi-Tədqiqat Laboratoriyasında fiziologiya və təbabətin aktual problemləri üzrə tədqiqat aparılmış, narkoz, uzunmüddətli analgeziya və xolinoreaktiv sistemə müxtəlif amillərlə təsir edilmə şəraitində beyin qabığı neyronlarının fəaliyyəti (Qəhrəman Qəhrəmanov, Maqsud Köçərli və b.), emosiya və motivasiyaların formalaşmasında neyropeptidlərin rolu (Faiq Cəfərov, Rəşid Mahmudov və b.) öyrənilmiş, miokard infarktının cərrahi müalicə üsulları ekperimental şəraitdə (Qalib Qarayev və b.) tədqiq edilmiş, tromboz və emboliya şəraitində qanın və limfanın laxtalanma, əks-laxtalanma və fibrinoliz sisteminin dəyişiklikləri və onların korreksiya üsulları müəyyənləşdirilmiş (Yaqub Məmmədov və b.), məhkəmə-tibb ekspertizasında tüklərin tədqiqi (Rafiq Yusifli), allergik və iltihablı proseslərin patogenezində mikroelementlərin rolu (Sabir Əliyev, Cavad Təqdisi, Tariyel İsmayılov və b.) araşdırılmışdır. Bundan əlavə, bir sıra ferment sistemlərinin fəallığının və izoferment spektrinin dəyişməsinin orqanizmin yaşı ilə əlaqəsinin gerontoloji aspektləri, prostaqlandin mübadiləsinin bəzi xüsusiyyətləri, ürək əzələsi hipertrofiyasının fizioloji və patoloji növləri zamanı kardiomiositlərdə baş verən ferment dəyişiklikləri öyrənilmişdir (Arif Əfəndiyev, Faiq İslamzadə və b.). Gigiyenik elmlər sahəsində kənd təsərrüfatında istifadə edilən pestisidlərin insan sağlamlığına təsiri (İsmayıl Səmədov və b.), bir sıra kimyəvi amillərin uşaq və yeniyetmə orqanizminə təsirinin öyrənilməsi sahəsində tədqiqat aparılmış (Əbülfəz Məmmədov, Vaqif Əliyev və b.), Azərbaycan üçün səciyyəvi olan tropik xəstəliklərin epidemiologiyası (Tağı Tağızadə, İbadulla Ağayev) tədqiq edilmişdir. Əczaçı alimlərimizin səyləri nəticəsində Azərbaycan florasına daxil olan bir sıra dərman bitkilərinin farmakoloji keyfiyyətləri öyrənilmişdir (Dursun Hüseynov, Rəcəb Abdullayev, İsrafil Dəmirov, Rustəm Əliyev və b.).

Ötən illər ərzində klinisist alimlərimizin elmi-tədqiqatları ürək-damar sistemi xəstəliklərinin patogenetik müalicə vasitələrinin (Sədrəddin Kərimov, Zərifə Zeynalova, Həsən İsazadə, Zərəngiz Tağızadə və b.), şəkərli diabet xəsləliyinin ağırlaşmalarının profilaktikasına (Tamerlan Əliyev, Rafiq Məmmədhəsənov və b.), allergik dermatozların müalicəsinə (Rasim Hacıyev, Mina Davatdarova və b.), uşaqlarda və yaşlılarda ağciyər xəstəliklərinin və allergik proseslərin müalicə və profilaktikasına (Lətifə Hüseynova, Amalya Əyyubova, Cəbrayıl Məmmədov və b.), revmatizmin müalicə və profilaktikasına (Adilə Namazova, Surxay Musayev, L.Livanov və b.) yönəlmişdir. Nevropatoloq alimlərimiz nefroinfeksiyalar zamanı sinir sistemi funksiyasında baş verən dəyişikliklərin dinamikasını (Zəhra Salayeva, Yadigar Yunusov, Şərif Mahalov və b.), uşaqlarda baş-beyin hipoksiyası ilə əlaqədar törənən dəyişikliklərin klinikasını və müalicə perspektivlərini (Törə Qədirova, Zakir Əliyev



**Zəhra Quliyeva (1923–2007)**

**Quliyeva Zəhra Tahir qızı** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Tibb İnstitutunu bitirdikdən (1944) sonra Göz xəstəlikləri kafedrasının ordinatoru vəzifəsinə qəbul edilmişdir. Namizədlik (1958) və doktorluq dissertasiyası (1967) müdafiə etmiş, Göz xəstəlikləri kafedrasının professoru elmi adını almışdır (1968). Azərbaycan Tibb İnstitutunun tədris işləri üzrə prorektoru (1971–1972), rektoru (1972–1983), eyni zamanda həmin institutun Göz xəstəlikləri kafedrasının müdiri vəzifələrində (1975–1992) işləmişdir. 1992-ci ildən ömrünün sonuna qədər həmin kafedranın professoru olmuşdur.

Zəhra Quliyeva Azərbaycan SSR-in Əməkdar elm xadimi fəxri adına (1982) layiq görülmüşdür.

8–9-cu çağırış SSRİ Ali Sovetinin deputatı olmuşdur.

Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri (1998) vəzifəsinə təyin edilmiş, həyatının sonuna qədər bu vəzifədə çalışmışdır. Azərbaycan Oftalmoloqlar Cəmiyyətinin sədri (1976) seçilmişdir.

100-dən artıq elmi əsərin, 2 monoqrafiyanın müəllifidir.

və b.) tədqiq etmişlər.

Tibb İnstitutunun Psixiatriya kafedrasında şizofreniya xəstəliyi zamanı immunoloji statusun dəyişməsi öyrənilmişdir (Əhməd Abbasquluyev, Hacı Ağabəy Sultanov, Nadir İsmayılov və b.). Cərrahlıq kafedralarında öd daşı xəstələyinin klinikası, diaqnostikası və cərrahi müalicəsi üzrə kompleks tədqiqatlar aparılmış (Böyükbəy Mahmudbəyov, Böyükkişi Ağayev, Surxay Hadıyev, Əşrəf Əşrəfov, İsmayıl Məmmədov, Məmməd Nəsirov və b.), damar travmalarının və döş boşluğu orqanlarının cərrahi müalicə üsulları təkmilləşdirilmiş (Bəybala Abbasov, Çərkəz Cəfərov, Cabbar Hacıyev və b.), proktologiya sahəsi (Həsən Sultanov və b.) inkişaf etdirilmiş, uşaqlarda anadangəlmə qüsurların və diafraqma yırtıqlarının cərrahi müalicə perspektivləri (Babaş Babaşov, Çingiz Quliyev və b.) araşdırılmışdır. Bunlardan əlavə, Tibb İnstitutunun əməkdaşları apardıqları tədqiqat sayəsində görmə orqanının fiziologiyasına və patologiyasına dair yeni məlumatlar əldə etmiş (Zəhra Quliyeva, Paşa Musayev), neft sənayesində işləyən qadınların orqanizminə iş şəraitinin təsirini, eləcə də reproduktiv orqanların patologiyalarını öyrənmiş (Məhbubə Mahmudbəyova, Turan Mehdiyeva, Naziyyə Şəmsəddinskaya, Zemfira Topçubaşova və b.), vərəm xəstəliyinin cərrahi müalicəsinin perspektivlərini araşdırmış (Fuad İsmayılov), kesson şəraitində işləyən fəhlələrdə peşə zərərvericilərinin törətdiyi karlığın diaqnostika və müalicəsinə dair məlumatlar əldə etmişlər (Zeynal Cəfərov, Oskar Hüseynov və b.).

1972-ci ildən 1983-cü ilə kimi Azərbaycan Dövlət Tibb İnstitutuna professor **Zəhra Quliyeva** rəhbərlik etmişdir.

Keçən əsrin 60-cı illərində SSRİ-nin ali tibb məktəblərində altıillik diplomaqədərki təhsildən sonra birillik internatura kursunun da keçilməsinə başlandı. ATİ-də internatura 1973-cü ildən etibarən müalicə-profilaktika və pediatriya fakültələrində tətbiq edildi. İnternatura keçmək üçün Bakı şəhər Səhiyyə Şöbəsinin 60 müalicə-profilaktika müəssisəsinin bazasında yer ayrıldı. Lakin bu da kifayət etmədiyinə görə Gəncə, Sumqayıt, Xankəndi, Mingəçevir, Əli-Bayramlı (Şirvan), Şəki və b. şəhərlərin müalicə müəssisələrində ixtisaslaşma keçməyə şərait yaradıldı.

1970–1982-ci illərdə Tibb İnstitutunda 29 elmlər doktoru və 140 elmlər namizədi hazırlandı. 1986-cı ildə 919 nəfərlik elmi-pedaqoji

heyətdən 97 nəfəri elmlər doktoru, 468 nəfəri elmlər namizədi idi.

*1930–1980-ci illərdə Azərbaycan Tibb İnstitutunda çalışan professor-müəllim heyəti*

| İllər | Elmlər doktoru | Professor | Elmlər namizədi | Dosent | Müəllim |
|---|---|---|---|---|---|
| 1930 | – | 24 | – | 16 | 35 |
| 1940 | 43 | 40 | 57 | 48 | 61 |
| 1950 | 44 | 38 | 77 | 53 | 180 |
| 1960 | 35 | 33 | 155 | 80 | 120 |
| 1970 | 92 | 88 | 299 | 205 | 242 |
| 1980 | 87 | 87 | 431 | 277 | 245 |

80-ci illərdə institutun maddi-texniki bazası gücləndirildi, kadr potensialı lazımi səviyyəyə çatdırıldı. Bu, elmi-tədqiqatların intensivliyinin və səviyyəsinin yüksəldilməsinə şərait yaratdı. Bu illər ərzində institutda aparılan elmi-tədqiqatların əsas istiqamətlərini ürək-damar və sinir sistemi xəstəliklərinin qarşısının alınması, onların erkən diaqnostikası və yeni müalicə üsullarının işlənib hazırlanması, ana və uşaqların sağlamlığının mühafizəsi, uşaq xəstəliklərinin səbəblərinin aşkara çıxarılması, onların müalicə və profilaktikası, travmotologiya cərrahlığının aktual problemləri, ölkənin ekoloji vəziyyətinin öyrənilməsi və b. problemlər təşkil etmişdir.

80-ci illərdə institutun əməkdaşlarının xarici ölkələrin görkəmli tibb işçiləri ilə əlaqələri genişlənmiş, onlar beynəlxalq elmi konqreslərdə, simpoziumlarda, qurultaylarda çoxsaylı məruzələr etmiş, xarici ölkələrin universitetlərində mühazirələr oxumağa dəvət edilmişdilər.

*1971–1990-cı illərdə Azərbaycan Tibb İnstitutuna qəbul olan tələbələrin sayı*

| İllər | Ümumi | O cümlədən xarici |
|---|---|---|
| 1971 | 1396 | – |
| 1972 | 1409 | – |
| 1973 | 1405 | – |
| 1974 | 1401 | – |
| 1975 | 1323 | 20 (Türkmənistan) |
| 1976 | 1327 | 20 (Türkmənistan)<br>1 (İran) |
| 1977 | 1317 | 10 (Türkmənistan) |
| 1978 | 1309 | – |
| 1979 | 1314 | 10 (Türkmənistan)<br>7 (İran) |
| 1980 | 1306 | 3 (İran) |
| 1981 | 1308 | – |
| 1982 | 1306 | 10 (Türkmənistan) |
| 1983 | 1300 | 10 (Türkmənistan) |
| 1984 | 1301 | 10 (Türkmənistan) |
| 1985 | 1302 | 10 (Türkmənistan) |
| 1986 | 1300 | 10 (Türkmənistan) |
| 1987 | 1300 | 10 (Türkmənistan) |
| 1988 | 1207 | 10 (Türkmənistan)<br>2 (İran) |
| 1989 | 1340 | – |
| 1990 | 1326 | – |
| **Cəmi:** | **26497** | **130** |





*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Tibb İnstitutunda.*
*1976-cı il*

1971–1990-cı illərdə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olan 26497 nəfər tələbədən 24353 nəfəri məzun olmuşdur.

*1971–1990-cı illərdə Azərbaycan Tibb İnstitutunu bitirənlərin sayı*

| İllər | Ümumi | O cümlədən başqa respublikalardan |
|---|---|---|
| 1971 | 775 | – |
| 1972 | 936 | – |
| 1973 | 1013 | – |
| 1974 | 1084 | – |
| 1975 | 1185 | – |
| 1976 | 1300 | – |
| 1977 | 1241 | – |
| 1978 | 1393 | – |
| 1979 | 1382 | – |
| 1980 | 1354 | – |
| 1981 | 1343 | 1 |
| 1982 | 1307 | – |
| 1983 | 1316 | 3 |
| 1984 | 1150 | 1 |
| 1985 | 1388 | – |
| 1986 | 1428 | 3 |
| 1987 | 1277 | – |
| 1988 | 1292 | 17 |
| 1989 | 1163 | 21 |
| 1990 | 1026 | 32 |
| **Cəmi:** | **24353** | **78** |

70–80-ci illərdə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun sürətli inkişafı Heydər Əliyevin adı və çoxşaxəli fəaliyyəti ilə bağlı olmuşdur. Ulu öndər həm Azərbaycan KP MK-nın birinci katibi, həm də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışarkən Tibb İnstitutunun gündəlik həyatı ilə daim maraqlanmış, Azərbaycanda ali tibb təhsilinin yaranması və inkişafını tarixi hadisə hesab etmişdir. 1976-cı ildə qəbul imtahanları zamanı instituta gələn Heydər Əliyev professor-müəllim və abituriyentlərlə görüşmüş, imtahanın gedişi ilə maraqlanmış, «Bilik yeganə meyardır» prinsipinə əməl etməyi tələb etmişdir.

İnstitutun 1980-ci ildə keçirilən 50 illik yubileyində Ulu öndər şəxsən iştirak etmiş, geniş təbrik nitqi söyləmiş, Qırmızı Əmək Bayrağı ordenini institutun bayrağına sancmışdır.

80-ci illərin ikinci yarısında SSRİ-də «yenidənqurma» adı altında aparılan bəzi tədbirlər digər tədris müəssisələrində olduğu kimi, Tibb İnstitutunda da təhsilin keyfiyyətinə müəyyən qədər mənfi təsir göstərmiş, tədris plan və proqramları tez-tez və əsassız dəyişdirilmişdi.

Respublikada ali təhsilli həkim kadrları hazırlığını həyata keçirən Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun professor-müəllim heyətinin əsas vəzifələrindən biri də tələbələri yüksəkkeyfiyyətli dərslik və dərs vəsaitləri ilə təmin etməkdən ibarət olmuşdur. 1945–1950-ci illər ərzində tələbələr üçün 11 adda dərslik çap edilmişdi. Bunların arasında Kamil Balakişiyevin «Normal anatomiya», Cəlil Hüseynovun «Xüsusi patoloji anatomiya», M.D.Çernorutskinin



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Nəriman Nərimanov adına Azərbaycan Tibb İnstitutunun 50 illik yubiley tədbirində. 1980-ci il*

«Daxili xəstəliklərin diaqnostikası» (rus dilindən tərcümə) və b. əsərləri var idi. Sonrakı illərdə müttəfiq respublikalarda milli kadrlar tərəfindən yazılan dərsliklərin çapına məhdudiyyətlər qoyulmuş, onların nəşri üçün SSRİ-nin müvafiq nazirliklərindən icazə tələb edilmişdir. Yaranmış vəziyyətdən çıxmaq üçün institutun mütəxəssisləri mümkün olan hər vasitədən istifadə etmiş, proqramların ayrı-ayrı hissələrini əhatə edən vəsaitlər yazmış, rus müəlliflərinin ən yaxşı dərsliklərini dilimizə tərcümə etmişlər. Bütün bürokratik maneələri keçərək SSRİ Səhiyyə Nazirliyindən çapına icazə alınan bir neçə fundamental dərslik nəşr olmuşdur.

1971–1982-ci illərdə Kamil Balakişiyevin 3 cildlik «İnsanın normal anatomiyası» dərsliyi dəfələrlə nəşr edilmişdi. Cəlil Hüseynovun 2 cildlik «Patoloji anatomiya» dərsliyi 1979-cu ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdü. Azərbaycan SSR EA-nın müxbir üzvü Abduləhəd Həsənovun öz əməkdaşları ilə (Nail Rzayev, Faiq İslamzadə, Arif Əfəndiyev) birlikdə yazdığı «Bioloji kimya» dərsliyi 1974-cü ildə 2 dəfə nəşr edilmişdi. Ötən illər bu kitabın böyük elmi əhəmiyyətə malik olduğunu sübut etmiş və dərslik 1989-cu ildə yenidən işlənmiş və təkmilləşdirilmiş şəkildə təkrarən böyük tirajla çap edilmişdi. Elə həmin ildə Yaqub Məmmədov, Cavad



**Yaqub Məmmədov (1941)**

**Məmmədov Yaqub Cavad oğlu** Gədəbəy rayonunda anadan olmuşdur. 1966-cı ildə Azərbaycan Tibb İnstitutunu bitirmişdir. 1969-cu ildə namizədlik, 1981-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1979-cu ildən Patoloji fiziologiya kafedrasının müdiri vəzifəsində işləmişdir. 1989-cu ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir. Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuş (1990–1995). Azərbaycan Tibb İnstitutunun rektoru (1983–1992). 1992-ci ilin fevralından mayınadək Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsində çalışmışdır.

1981-ci ildə Əməkdar həkim, 1991-ci ildə Əməkdar elm xadimi fəxri adlarına, Xalqlar dostluğu ordeninə layiq görülmüşdür.

Hazırda ATU-nun Patoloji fiziologiya kafedrasının professoru vəzifəsində çalışır.

Təqdisi və Fuad İslamzadənin irihəcmli «Patoloji fiziologiya» dərsliyi çap edilib tələbələrin istifadəsinə verilmişdi. Bu illər ərzində ilk alternativ dərsliklər də meydana gəldi. Bunlara akademik Zülfüqar Məmmədovun və professor Bəybala Abbasovun eyniadlı «Ümumi cərrahlıq» dərsliyini, akademik Mustafa Topçubaşov və akademik Böyükkişi Ağayevin «Xüsusi cərrahlıq» dərsliyini misal göstərmək olar. Bu dövrdə həkim kadrlarının hazırlığında böyük rol oynamış Xamis Həsənovun «Psixiatriya», Cahangir Abdullayevin «Daxili xəstəliklər», Musa Abdullayevin «Daxili xəstəliklərin propedevtikası», Adilə Namazovanın «Uşaq xəstəliklərinin propedevtikası», Nəriman Əliyevin «Mikrobiologiya» adlı dərslikləri və rus dilindən tərcümə olunan «Gigiyena», «Ginekologiya», «Daxili xəstəliklər», «Daxili xəstəliklərin propedevtikası» adlı dərsliklər nəşr edilmişdi.

İnstitutun əməkdaşlarının elmi-tədqiqat işlərinin nəticələri ayrı-ayrı monoqrafiyalarda, elmi-metodik tövsiyələrdə, elmi jurnalların səhifələrində və müxtəlif elmi konfransların, simpoziumların materiallarında öz əksini tapmışdır. İnstitutun daimi fəaliyyət göstərən elmi-mətbuat orqanının («Azərbaycan Dövlət Tibb İnstitutunun Elmi Əsərləri») olması burada çalışan tədqiqatçılar üçün olduqca əlverişli mühit yaratmış, əməkdaşların elmi inkişafında mühüm rol oynamışdı.

1983-cü ildən Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru vəzifəsinə **Yaqub Məmmədov** təyin olundu və 1992-ci ilə qədər bu vəzifəni icra etdi.

1978–1988-ci illərdə Mərkəzi Elmi-Tədqiqat Laboratoriyasının elmi məqalələr toplusu və institutun monotematik məcmuələri çap edilmişdir.

İnstitutda tələbələrin müxtəlif elmi dərnəklərə cəlb edilməsi həmişə diqqət mərkəzində olmuş, bu məqsədlə 1947-ci ildə institutda Tələbə Elmi Cəmiyyəti (TEC) yaradılmışdı. Onun ilk rəhbəri professor Məmmədəmin Əfəndiyev olmuşdu.

TEC yarandığı ilk gündən perspektivli tələbələrin elmi-tədqiqat işlərinə istiqamət vermək və istedadlı tələbələri elmi işə həvəsləndirməklə məşğul olmuşdur. TEC vaxtaşırı olaraq elmi-tədqiqatla məşğul olan gənclərin konfransını keçirmiş, burada fəal iştirak edən tələbə-tədqiqatçıları aşkar etmiş, konfrans materiallarını məcmuə şəklində çap etdirmişdir.

Tibb İnstitutunun TEC-i 70–80-ci illərdə respublikada geniş nüfuz qazanmışdı. Onun üzvü olan tələbələr SSRİ-nin müxtəlif şəhərlərində keçirilən konfranslarda dəfələrlə elmi

məruzələrlə çıxış etmiş, diplom və fəxri fərmanlar almışlar.

1990-cı ildə ADTİ-də 7533 tələbə təhsil alırdı ki, onlardan da 206 nəfəri əcnəbi tələbələr idi. XX əsrin 90-cı illərinin əvvəllərində Tibb İnstitutunun professor-müəllim heyəti 937 nəfərdən ibarət olmuşdur. Bunlardan 114 nəfəri elmlər doktoru, 430 nəfəri elmlər namizədi idi. 1991-ci ilin fevralında Azərbaycan Dövlət Tibb İnstitutuna Universitet statusu verildi.

Azərbaycan Tibb Universitetinin nəinki keçmiş İttifaq, hətta dünya üzrə tanınmış məzunları vardır. Həmin məzunlar barədə qısa məlumatı oxucuların nəzərinə çatdırmaq istəyirəm.

**1. Abdulla İsmayıl oğlu Qarayev (1910–1968)** – *(bax:səh. 328)*, Əməkdar elm xadimi.

**2. Aydın Salar oğlu İmaməliyev** – 1932–1936-cı illərdə ATİ-də təhsil almışdır. 1947-ci ildə Müalicə-profilaktika fakültəsini bitirmişdir. Ayrı-ayrı vaxtlarda Moskvada Semaşko adına Tibbi Stomatologiya İnstitutunda Travmatologiya, Ortopediya və Hərbi-səhra cərrahiyyəsi kafedrasının müdiri, RF-nin baş ortopedi, Moskva Səhiyyəsinin baş mütəxəssisi olmuş, SSRİ Dövlət mükafatına, N.Piroqov adına mükafata, Rusiyanın Əməkdar ixtiraçısı, Əməkdar elm xadimi adlarına layiq görülmüşdür.

**3. Cəmil Əziz oğlu Əliyev** – 1968-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdir.

1978-ci ildə tibb elmləri doktoru elmi dərəcəsini, 1988-ci ildə professor elmi adını almışdır. 2001-ci ildə Azərbaycan Milli Elmlər akademiyasının həqiqi üzvü seçilmişdir.

2001-ci ildən Rusiya Tibb Elmləri Akademiyasının akademiki və bir sıra digər xarici akademiyaların üzvüdür. UNESCO-nun «Bioetika, elmi biliklərin və texnologiyaların etikası» Azərbaycan Milli Komitəsinin üzvü, İngiltərənin Hammersmit Kral Universitetinin və Anderson Xərçəng Əleyhinə Mərkəzin professorudur.

SSRİ TEA-nın akademik N.N.Petrov adına medalı və mükafatı, akademik Y.Məmmədəliyev adına medalı və mükafatı, «Topçubaşov mühazirələri» mükafatı ilə təltif olunmuş, Şöhrət ordeninə layiq görülmüşdür.

Əməkdar elm xadimidir.

**4. Əhliman Tapdıq oğlu Əmiraslanov** – 1971-ci ildə ATİ-ni cərrah-onkoloq ixtisası üzrə bitirmişdir. 1984-cü ildə tibb elmləri doktoru elmi dərəcəsini, 1990-cı ildə professor elmi adını almışdır. 2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir. 2007-ci ildən AMEA-nın Biologiya Elmləri Bölməsinin akademik katibidir.

SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkoloji Elmi Mərkəzində elmi işçi, şöbə müdiri, professor (1974–1992) vəzifələrində çalışmışdır. 1992-ci ildən ATU-nun rektoru və onkologiya kafedrasının müdiridir.

Polşa Tibb Elmləri Akademiyasının həqiqi üzvü, Rusiya Tibb Elmləri Akademiyasının akademiki, Ümumdünya Ortoped, Travmatoloq və Onkoloqlar Assosiasiyasının, Avropa Bərpa Cərrahlığı Assosiasiyasının, Amerika Klinik Onkoloqlar Cəmiyyətinin, Yunanıstan, Macarıstan, Çexiya Onkoloqlar cəmiyyətlərinin üzvüdür.

Şöhrət ordeninə, SSRİ Tibb Elmləri Akademiyasının akademik N.N.Petrov adına medalı və mükafatına, SSRİ Dövlət mükafatına, Polşa Tibb Elmləri Akademiyasının Albert Şvaytzer mükafatına və Böyük Qızıl Medalına,

«Topçubaşov mühazirələri» mükafatına, akademik N.N.Bloxin adına qızıl medala, Rusiyanın «XXI yüzilliyin liderləri» proqramı çərçivəsində «Millətin intellekti» adlı beynəlxalq təltifə layiq görülüb.

**5. Məmməd Cavad oğlu Əliyev** – Rusiya Tibb Elmləri Akademiyasının (RTEA) akademiki, tibb elmləri doktoru, professor.

M.C.Əliyev 1955-ci il aprelin 8-də Tacikistanda anadan olmuş, 1979-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirmişdir.

1998-ci ildə Rusiya Federasiyası Dövlət mükafatı laureatı olub, 2005-ci ildə Rusiya Federasiyası Hökuməti mükafatına layiq görülüb, 2004-cü ildə RTEA-nın müxbir, 2007-ci ildə isə həqiqi üzvü (akademik) seçilmişdir.

2009-cu ildə M.C.Əliyevin təşəbbüsü ilə sarkomanın öyrənilməsi üzrə Şərqi-Avropa Qrupu (East–European Sarkoma Group) yaradılmışdır. O, RTEA-nın N.N.Bloxin adına Rusiya Onkoloji Elmi Mərkəzinin doktorluq dissertasiyası müdafiəsi üzrə Elmi Şurasının Uşaq Onkologiyası və Hematologiyası Elmi-Tədqiqat İnstitutunun Elmi Şurasının, həmçinin «Sümük, yumşaq toxuma sarkomaları və dəri şişləri» jurnalının redaksiya heyətinin sədridir.

Hazırda N.N.Bloxin adına Rusiya TEA-nın ROEM-in direktorunun elm və müalicə işləri üzrə müavini, N.N.Bloxin adına Rusiya OEM-in Elmi-Tədqiqat Uşaq Onkologiyası və Hematologiyası İnstitutunun direktoru, N.N.Bloxin adına Rusiya TEA-nın ROEM-in Ümumi Onkologiya Klinikasının rəhbəridir.

**6. Mirməmməd Cavad oğlu Cavadzadə** – 1948-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki ATU) həkim-uroloq ixtisası üzrə bitirmişdir.

1962-ci ildə tibb elmləri doktoru elmi dərəcəsi, 1964-cü ildə professor elmi adı almışdır. 1980-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir.

SSRİ və Azərbaycan SSR Dövlət Mükafatı laureatı, Respublikanın Əməkdar elm xadimi adına layiq görülmüşdür.

**7. Oqtay Kazım oğlu Şirəliyev** – 1973-cü ildə İnstitutu müalicə işi ixtisası üzrə bitirmişdir. Hazırda Azərbaycan Respublikasının Səhiyyə naziridir.

**8. Vəli Yusif oğlu Axundov** – Tibb elmləri doktoru, professor. ATİ-ni 1937-ci ildə bitirmişdir. 1969-cu ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

Azərbaycan SSR Səhiyyə nazirinin müavini (1949–1952), Səhiyyə naziri (1954–1958), Azərbaycan SSR Nazirlər Sovetinin sədri (1958–1959), AKP MK-nın birinci katibi (1959–1969), Azərbaycan EA-nın vitse-prezidenti (1969–1972), Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru vəzifələrində çalışmışdır.

**9. Zərifə Əziz qızı Əliyeva** – Tibb elməri doktoru, professor. Azərbaycan Dövlət Tibb İnstitutunu 1947-ci ildə bitirmişdir. 1983-cü ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir. Azərbaycan EA-nın həqiqi üzvü seçilmiş ilk qadın oftalmoloqdur.

Qırmızı Əmək Bayrağı ordeni və SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatı ilə təltif olunmuş, Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

## Azərbaycan Xalq Təsərrüfatı İnstitutu

Azərbaycanda ali təhsilli iqtisadçı kadrlar hazırlanmasına 1920-ci ildən başlanmışdır. 1920-ci ilin noyabrında fəaliyyətə başlayan Politexnik İnstitutunda mövcud beş fakültədən biri İqtisad fakültəsi idi. Fakültədə 3 bölmə vardı:

- ümumi iqtisadiyyat;
- kooperativ ticarət;
- sənaye.

1922-ci ildə Bakı Dövlət Universitetində də İqtisad fakültəsi təşkil olundu. Bununla yanaşı, 1923-cü ildən 1930-cu ilə qədər müxtəlif iqtisad yönümlü qısamüddətli kurslar, Sənaye-İqtisad (1923-cü il) və Kooperativ-Ticarət (1925-ci il) texnikumları da fəaliyyət göstərmişdi. **1928-ci ildə Bakı Sosialist Uçotu İnstitutu yaradıldı.**

20-ci illərin ikinci yarısında müxtəlif iqtisadi eksperimentlərin (sosialist sənayeləşdirilməsi, kənd təsərrüfatının kollektivləşdirilməsi və s.) tətbiqinin genişləndirilməsi ilə bağlı iqtisadçı mütəxəssislər hazırlanmasına nəzarət gücləndirildi. Məsələn, 1926-cı ilin noyabrında respublikanın ali məktəblərində sosial-iqtisadi fənlərin öyrənilməsinin vacibliyi barədə xüsusi qərar qəbul edilmiş, 1928-ci ilin may ayında Azərbaycanda Əməyin Elmi Təşkili İnstitutunun təsis edilməsi haqqında məsələ müzakirə olunmuşdu.

SSRİ Xalq Komissarları Sovetinin **«Azərbaycan SSR ali məktəblərinin və ali texniki məktəblərin yenidən təşkili və rayonlaşdırılması, onların müvafiq təsərrüfat idarələri və xalq komissarlıqlarının tərkibinə verilməsi haqqında» 1930-cu il 19 iyun tarixli qərarından** sonra yaranan institutlardan biri də **ADU-nun İqtisad fakültəsi bazasında təşkil olunan müstəqil Azərbaycan Ticarət-Kooperativ İnstitutu (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin ilk sələfi) idi. Mehdi İsmayılov** yeni təşkil edilən instituta direktor (rektor) təyin edildi.



**Mehdi İsmayılov (1888–1951)**

İsmayılov Mehdi Əsəd oğlu İrəvan şəhərində anadan olmuşdur. Ailəsi sonralar Şəki şəhərinə köçmüşdür. Doqquzillik Kommersiya məktəbini bitirmiş (1910), sonralar təhsilini Kommersiya İnstitutunda iqtisadçı ixtisası üzrə davam etdirmişdir. Qusar şəhərində axşam məktəbində müəllim işləmiş (1918–1920), Bakıda partiya məktəbində direktor vəzifəsində (1920–1925), digər partiya işində (1925–1928) çalışmışdır.

Mehdi İsmayılov 1930-cu ildə yeni yaranmış Ticarət-Kooperativ İnstitutuna, Sosial-İqtisad İnstitutuna (1932–1934) rəhbərlik etmiş, sonralar müxtəlif vəzifələrdə çalışmışdır.

1930-cu ildən fəaliyyətə başlayan Azərbaycan Ticarət-Kooperativ İnstitutunda üç fakültə mövcud idi. 30-cu illərin əvvəllərində Azərbaycanda iqtisadçı kadrlar hazırlayan İstehlak Kooperasiyası (az sonra Sovet Ticarəti) İnstitutu və digər maliyyə-plan yönümlü kiçik sahə institutları da fəaliyyət göstərirdi. Təəssüf ki, həmin dövrdə mövcud olmuş Sosialist Uçotu, Maliyyə, Plan-İqtisad kimi kiçik sahə institutları ilə bağlı heç bir məlumat əldə edə bilmədik.

1931–1932-ci illərdə Ticarət-Kooperativ İnstitutuna hər il 240 nəfər tələbə qəbul olunmuşdur.



**Rəşid Qayıbov (1889–1937)**

**Qayıbov Rəşid Abdulla oğlu** Qazax rayonunun Salahlı kəndində anadan olmuşdur. Qazax Müəllimlər Seminariyasında təhsil almış (1916–1920), sonra Tiflis Kişi Seminariyasını bitirmişdir. Qazax Pedaqoji Texnikumunda müəllim işləmiş, Bakıda mərkəzi partiya orqanlarında məsul işdə çalışmışdır (1920–1922). Georgi Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda təhsil almışdır (1922–1926).

Şəki, Ağdam, Kəlbəcər rayonlarında partiya orqanlarında məsul vəzifələrdə işləmiş (1927–1931), Zaqafqaziya Pambıqçılıq İnstitutunun direktoru vəzifəsində çalışmışdır (1931–1934). Azərbaycan Sosial-İqtisad İnstitutunun direktoru (1934–1936) və institut Azərbaycan Xalq Təsərrüfatı İnstitutu adlandırıldıqdan sonra da rektor vəzifəsində çalışmışdır (1936–1937).

1937-ci ilin yazında repressiyaya məruz qalmış, 1938-ci il iyulun 3-də «xalq düşməni» damğası ilə güllələnmişdir. 1957-ci ildə ölümündən sonra bəraət almışdır.

**1932-ci ildə İnstitutun adı dəyişdirilərək Azərbaycan Sosial-İqtisad İnstitutu adlandırıldı.** Həmin dövrdə institutda Plan-iqtisad; Maliyyə-kredit; Sosialist uçotu; Sovet quruculuğu və hüquq fakültələri fəaliyyət göstərirdi:

1934-cü ildə Azərbaycan Sosial-İqtisad İnstitutunun direktoru vəzifəsinə **Rəşid Qayıbov** təyin edildi. O bu vəzifədə 1937-ci ilin yazına qədər çalışmışdır. 1937-ci ildə instituta qısa müddətə haqqında heç bir məlumat tapa bilmədiyimiz Əfəndiyev soyadlı şəxs, ondan sonra isə bir neçə aylığa **Məcid Quliyev** rəhbərlik emişdir.

**Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1936-cı il 20 dekabr tarixli qərarı** ilə iqtisadçı kadrlar hazırlamaq sahəsindəki pərakəndəliyə son qoyuldu. **Azərbaycan Sosial-İqtisad İnstitutu Sovet Ticarəti İnstitutu ilə birləşdirildi və onların bazasında Azərbaycan Xalq Təsərrüfatı İnstitutu (AXTİ) yaradıldı.** Respublikada iqtisadi təhsilin sistemli inkişafına başlandı. Bu sahədə RSFSR-dən gəlmiş iqtisadçı-alimlərlə yanaşı, azərbaycanlı alimlərin də böyük xidmətləri var idi.

*1933–1936-cı illərdə Azərbaycan Sosial-İqtisad İnstitutunun tələbə kontingentinin dinamikası*

| İllər | Tələbələrin sayı | O cümlədən azərbaycanlılar |
|---|---|---|
| 1933 | 619 | 399 |
| 1934 | 532 | 258 |
| 1935 | 623 | 357 |
| 1936 | 871 | 456 |

1937-ci il oktyabrın 25-də AXTİ-yə yeni direktor təyin edildi. Bu, AXTİ-nin öz məzunu **Həbib Hüseynov** idi. O, 1939-cu ilin may ayınadək instituta rəhbərlik etdi.

Həmin illərdə Azərbaycanın ali məktəblərində iqtisadiyyat fənnini Azərbaycan və rus dillərində tədris edən ilk müəllimlərdən biri Ağaməmmədhəsən Dadaşov idi. Doğma dildən başqa o, rus, ingilis, fransız, italyan, alman dillərini mükəmməl bilir, öz natiqlik qabiliyyəti və mühazirəsinin dərinliyi ilə dinləyicilərini heyran edirdi.

1930-cu ildə Ağaməmmədhəsən Dadaşova dosent, 1959-cu ildə isə doktorluq dissertasiyası müdafiə etmədən professor elmi adı verilmişdi.



**Məcid Quliyev (1905–?)**

**Quliyev Məcid Yusif oğlu** Bakı şəhərində anadan olmuşdur. Bakı fəhlə fakültəsində (1921–1925), Moskva Dövlət Universitetinin Sovet hüququ fakültəsində təhsil almış (1925–1929), Azərbaycan SSR Ali Məhkəməsinin üzvü (1930–1931), Cinayət Komissiyasının sədri olmuşdur. Azərbaycan Dövlət Sovet quruculuğu və Hüquq İnstitutunda kafedra müdiri (1929–1931), direktor müavini (1932), AXTİ-nin direktoru (1937) vəzifələrində işləmişdir. Bir neçə ay sonra tutduğu vəzifədən azad olunmuşdur.

Onun sonrakı həyatı haqqında məlumat yoxdur.

Dünyasını dəyişdiyi ildə (1966) Ağaməmmədhəsən Dadaşovun redaktəsi və müqəddiməsi ilə R.Barbenin fransız dilindən tərcümə olunmuş «Qara Afrikada ictimai siniflər» kitabı çap olundu. Müqəddimə aşağıdakı sözlərlə başlayır: *«XX əsrin ikinci yarısını xarakterizə edən ən qabarıq əlamətlərdən biri milli-azadlıq hərəkatının güclü yüksəlişidir...»* Görəsən, o zaman Ağaməmmədhəsən Dadaşov fikirləşirdimi ki, əsrin sonunda onun doğma Azərbaycanı da azad və müstəqil olacaq? Bəlkə də, kim bilir...

30-cu illərin ikinci yarısında institutda fakültələrin sayı artdı.

AXTİ-də 1936/37-ci tədris ilində beş fakültə – Plan-iqtisad, Sovet ticarəti, Maliyyə-iqtisad, Xalq təsərrüfatının uçotu, Hüquq fakültələri fəaliyyət göstərirdi:

1938-ci ildən bu fakültələrin sırasına Kredit-iqtisad fakültəsi də əlavə olundu. Həmin dövrdə AXTİ-də aşağıdakı ümumi institut yönümlü Siyasi iqtisad, Leninizm və tarix, sonralar Fəlsəfə və leninizm, İqtisadi coğrafiya, Dillər, Fizika və riyaziyyat, Kimya, Hərbi-müdafiə kafedraları mövcud idi.

30-cu illərin sonunda Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda kifayət qədər yüksəkixtisaslı pedaqoji heyət fəaliyyət göstərirdi. Tələbə qəbulu, buraxılış və tələbə kontingenti üzrə göstəricilər yüksələn xətlə inkişaf edirdi.

1939-cu ilin may ayından etibarən (AXTİ-nin ADU tərkibinə qatılmasına qədər) AXTİ-yə **Bilqeyis xanım Haşımzadə** rəhbərlik edirdi. O bu vəzifəni 1941-ci ilin payızına qədər icra etmişdir.



**Həbib Hüseynov (1909–1968)**

**Hüseynov Həbib Hüseyn oğlu** Naxçıvan Muxtar Respublikasının Norasen (Şərur) rayonunda anadan olmuşdur. AXTİ-ni fərqlənmə diplomu ilə bitirmiş və burada müəllimlik etmişdir (1936). AXTİ-nin direktoru (rektoru) vəzifəsində çalışmışdır (1937–1939). Tarix elmləri namizədi alimlik dərəcəsi (1959), dosent elmi adı almışdır (1967).

*1937–1939-cu illərdə AXTİ-nin professor-müəllim heyəti*

| İllər | Ümumi sayı | Professor | Professor əvəzi | Dosent | Dosent əvəzi | Elmlər namizədi | Müəllim və baş müəllim | Assistent |
|---|---|---|---|---|---|---|---|---|
| 1937 | 87 | 4 | 10 | 18 | 25 | – | | 30 |
| 1938 | 91 | 2 | 2 | 15 | 28 | 2 | | 42 |
| 1939 | 106 | 4 | 1 | 19 | 1 | – | 71 | 10 |

*1938–1941-ci illərdə*
*AXTİ-nin tələbə qəbulu və buraxılışı*

| İllər | 1938 | 1939 | 1940 | 1941 |
|---|---|---|---|---|
| Qəbul | 241 | 250 | 300 | 400 |
| Buraxılış | 157 | 179 | 182 | 170 |

*1939–1940-cı illərdə*
*AXTİ-nin tələbə kontingenti*

| № | Fakültələr | 1939 | 1940 |
|---|---|---|---|
| 1. | Plan-iqtisad | 59 | 684 |
| 2. | Maliyyə-iqtisad | 142 | 622 |
| 3. | Kredit-iqtisad | 65 | 377 |
| 4. | Ticarət-iqtisad | 113 | 402 |
| 5. | Xalq təsərrüfatının uçotu | 58 | 316 |
| 6. | Hüquq | 232 | 885 |
| **Cəmi:** | | **669** | **3286** |

II Dünya müharibəsinin (1941–1945) ilk dörd ili ərzində institutun fəaliyyəti dayandırıldı və o, Azərbaycan Dövlət Universitetinin fakültəsinə çevrildi.

**1944-cü il sentyabrın 16-da Azərbaycan XKS və AK(b)P MK-nın qərarı ilə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun fəaliyyəti yenidən bərpa edildi.**

1945-ci il yanvarın 1-dən AXTİ-nin müstəqil fəaliyyəti başlandı. O vaxta qədər İnstitutda müxtəlif vəzifələr aparmış professor **Əliqulu Fərəcov** direktor vəzifəsinə təyin olundu və bu vəzifədə 1950-ci ilə qədər çalışdı.

1945/46-cı tədris ilində AXTİ-də 69 nəfərlik professor-müəllim heyəti çalışırdı. Onlardan 4 nəfəri professor, 20-si dosent, 16-sı elmlər namizədi idi.

İnstitutun beş fakültəsində müxtəlif ixtisaslar üzrə 420 tələbə təhsil alırdı. Həmin dövrdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun 372 nəfər məzunu olmuşdur.



**Bilqeyis Haşımzadə (1900–1961)**

**Haşımzadə Bilqeyis Əhməd qızı** Şəki şəhərində anadan olmuşdur. Hüquqşünas idi. AXTİ-yə rəhbərlik etmiş (1939–1941). Azərbaycan SSR Vəkillər Kollegiyasının sədri vəzifəsində işləmiş (1941–1945), hüquq elmləri namizədi alimlik dərəcəsi (1946), dosent elmi adı (1950) almışdır. Uzun müddət Azərbaycan Dövlət Universitetinin Cinayət hüququ kafedrasında çalışmışdır.

*1945–1949-cu illərdə AXTİ-nin fakültələri və tələbə kontingenti haqqında məlumat*

| № | Fakültələr | Kurslar | | | | Cəmi |
|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | |
| 1. | Sənayenin iqtisadiyyatı | 38 | 45 | 35 | 11 | **129** |
| 2. | Kənd təsərrüfatının iqtisadiyyatı | 53 | – | – | – | **53** |
| 3. | Ticarətin iqtisadiyyatı | 55 | 30 | – | – | **85** |
| 4. | Mühasibat uçotu və statistika | 36 | 9 | 10 | – | **55** |
| 5. | Maliyyə-kredit | 30 | 39 | 27 | 2 | **98** |



**Əliqulu Fərəcov (1889–1981)**

**Fərəcov Əliqulu Səttar oğlu** Ordubad şəhərində anadan olmuşdur. Tiflisdə mühasibat və kommersiya bilikləri kursunda təhsil almış (1914). Bakıda mühasib, baş mühasib vəzifəsində çalışmış (1916–1920), Ərzaq Kommissarlığında Kooperativ maarifçiliyi şöbəsinə başçılıq etmişdir (1920–1922). Naxçıvan MSSR Ərzaq və Xarici Ticarət komissarının müavini (1921–1922) vəzifəsində işləmişdir. Bakıda «Əliqulu Fərəcovun mühasibat və ticarət bilikləri kursları»nı açmışdır (1923–1930). Sosialist Uçotu, Ticarət-Kooperativ İnstitutunda kafedra müdiri, AXTİ-nin direktoru, kafedra müdiri (1945–1950), professoru (1951–1958), AMEA iqtisadiyyat bölməsində şöbə müdiri vəzifələrində çalışmışdır.

Azərbaycan dilində ilk elmi terminlər lüğətinin müəllifidir. 20-ci illərdə iqtisad texnikumlarının, iqtisad institutunun və ayrı-ayrı institutlardakı iqtisadiyyat fakültələrinin təşkilatçılarından biri olmuşdur.

1950-ci ilin dekabr ayından 1955-ci ilədək Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna **Xurşud Məmmədov** rəhbərlik etmişdir.

1950–1955-ci illərdə institutda sonralar elmi-pedaqoji fəaliyyətlə məşğul olan Ağasəlim Ələsgərov (1946–1950), Teymur Vəliyev (1947–1951) fərqlənmə diplomu ilə, İsmayıl Feyzullabəyli (1947–1951), Sədi Hacıyev (1948–1952), Əbülfəz Qasımov (1949–1953) və başqaları təhsil almışdılar.

1955-ci ildə Xurşud Məmmədovu tarix elmləri namizədi dosent **Şamil Əliyev** əvəz etmişdir. O, 1959-cu ilədək Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun direktoru vəzifəsində çalışmışdır.

Bu dövrdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda 15 kafedrada 67 nəfər pedaqoji kadr fəaliyyət göstərirdi.

1954/55-ci tədris ilində Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna 560 tələbə qəbul olunmuşdu. Həmin vaxt institutda dörd fakültə (Ticarət-uçot, Plan-iqtisad, Maliyyə-kredit, axşam Plan-iqtisad fakültələri), 124 pedaqoji işçi (3 nəfəri professor, 38 nəfəri dosent, qalanları müəllim və baş müəllim) fəaliyyət göstərirdi. Onlardan biri də 1958-ci ildə Moskva İqtisadi Statistika İnstitutunda statistika üzrə namizədlik dissertasiyası müdafiə edən ilk azərbaycanlı **Sədi Hacıyev** idi. Sədi Hacıyev səmərəli pedaqoji və elmi fəaliyyət göstərmiş, statistika kafedrasının təşkilində iştirak etmiş və həmin kafedranın müdiri seçilmişdi. O, 70-ci illərin əvvəllərində doktorluq dissertasiyası müdafiə edərək nəinki Azərbaycanda, həm də Zaqafqaziyada statistika üzrə ilk iqtisad elmləri doktoru olmuşdu.



**Xurşud Məmmədov (1906–1987)**

**Məmmədov Xurşud Bayram oğlu** Füzuli rayonunun Qaratelli kəndində anadan olmuşdur. Zaqafqaziya Kommunist İnstitutunu və aspiranturasını bitirmiş, Tiflis və Bakının ali məktəblərində Sov.İKP tarixi, Siyasi İqtisad və Fəlsəfə fənlərini tədris etmişdir. Azərbaycan KP MK-da təlimatçı, Azərbaycan K(b)P MK yanında fəaliyyət göstərən Respublika Sovet Partiya Məktəbində prorektor və rektor, Astara və Lənkəran Rayon Partiya Komitəsinin birinci katibi (1944–1948), AzXTİ-nin rektoru (1950–1955) və Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi (1955–1962) Respublika tədarük nazirinin birinci müavini (1962–1964), Azərbaycan SSR Kənd Təsərrüfatı Birliyində şöbə müdiri (1964–1976) vəzifələrində işləmişdir.

Dəfələrlə SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, orden və medallarla təltif edilmişdir.



**Şamil Əliyev**
**(1912–1969)**

**Əliyev Şamil Rəhim oğlu** Ağdam şəhərində anadan olmuşdur. Şuşa Müəllimlər Seminariyasında (1924–1928), Azərbaycan Dövlət Universitetinin Tarix və Şərqşünaslıq fakültəsində (1928–1931) təhsil almışdır. Ağdam Pedaqoji Texnikumunda müəllim (1931–1933) işləmiş, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspirantı olmuş (1933–1937), iqtisad elmləri namizədi elmi dərəcəsi almışdır (1936). Azərbaycan Dövlət Müəllimlər İnstitutunda direktor müavini və direktor (1937–1939) vəzifəsində işləmişdir. Moskvada Ali Partiya Məktəbində müdavim olmuş. Ümumittifaq Radio Komitəsində şöbə müdiri (1939–1941), Azərbaycan Dövlət Universitetində rektor vəzifəsində (1941–1945), müxtəlif partiya vəzifələrində çalışmışdır (1945–1953). Azərbaycan KP MK yanındakı partiya məktəbində iqtisad elmləri kafedrasının müdiri vəzifəsində işləmiş (1953–1955), Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun direktoru (1955–1959), ADU-nun siyasi iqtisad kafedrasının dosenti kimi pedaqoji fəaliyyətini davam etmişdir (1959–1969).

50-ci illərdə səmərəli elmi-tədqiqat işi aparan alimlərin sırasında **Bəhmən Axundovun** xüsusi yeri vardır. O, SSRİ EA-nın İqtisadiyyat İnstitutunun doktoranturasına ezam edilmiş və 1951-ci ildə həmin institutda «İnqilabaqədərki Bakı neft sənayesində inhisarçı kapital» mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək, iqtisadiyyat sahəsində respublikada ilk elmlər doktorlarından biri olmuşdur. Gərgin elmi axtarışların məhsulu olan bu əsərin Moskvada monoqrafiya şəklində nəşr edilməsi qısa müddət ərzində alimi Ümumittifaq miqyasında tanıtdı.

O, 1966–1974-cü illərdə AXTİ-də elmi işlər üzrə prorektor, 1974-cü ildən ömrünün sonuna qədər həmin ali məktəbin siyasi iqtisad kafedrasının professoru kimi fəaliyyət göstərmişdir. Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. Həmin dövrdə SSRİ EA-nın İqtisadiyyat İnstitutunun (Moskva ş.) məqsədli aspiranturasında təhsil almış **Ağasəlim Ələsgərov** 1958-ci ildə SSRİ-də «Pambığın maya dəyəri və onun aşağı salınması yolları» mövzusunda namizədlik dissertasiyası müdafiə etdi və ona iqtisad elmləri namizədi alimlik dərəcəsi verildi. O, SSRİ-nin ən məşhur aparıcı nəzəriyyəçi alimləri ilə birlikdə ilk dəfə iqtisad elmində kolxozlarda maya dəyəri kateqoriyasının hesablanması üsulunun işlənməsinin mümkünlüyünü isbat etmişdi.

Ağasəlim Ələsgərov AXTİ-nin elmi işlər üzrə prorektoru və Siyasi iqtisad kafedrasının müdiri vəzifələrində çalışmış, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

1958-ci ildə AXTİ-də çalışmağa başlayan **Sofiya Haqverdiyeva** iqtisadi tarix ixtisası üzrə Azərbaycanda elmlər doktoru alimlik dərəcəsi almış ilk qadın alimlərindən biri olmuşdur.

İqtisadiyyat elmi üzrə ilk doktorluq dissertasiyası müdafiə edənlərdən (1966) biri də **Teymur Vəliyev** idi. O, 1951-ci ildə AXTİ-ni fərqlənmə diplomu ilə bitirdikdən sonra aspiranturada saxlanılmış və namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. 1955-ci ildən ali məktəblərdə pedaqoji fəaliyyətini, eyni zamanda aktual iqtisadi nəzəri problemlər üzrə elmi-tədqiqat işlərini fasiləsiz davam etdirmişdir. Azərbaycan EA-nın müxbir üzvü seçilmişdir. O, İttifaqda ilk dəfə nəzəri-metodoloji əsaslarla respublikaların iqtisadi inkişaf səviyyələrinin tarazlaşması qanunauyğunluqlarını araşdırmış və respublikamız üçün

əhəmiyyətli problemə həsr edilmiş doktorluq dissertasiyası müdafiə etmişdir. Problemin araşdırılması ilə əlaqədar onun bir sıra monoqrafik əsərləri və elmi məqalələri nəşr edildi, o cümlədən sabiq SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin qrifi ilə Moskvanın «Высшая школа» nəşriyyatı tərəfindən bir monoqrafiyası çapdan çıxdı.

1955-ci ildə AXTİ-nin 5 fakültəsində 9 ixtisas üzrə iqtisadçı mütəxəssis hazırlığı davam etdirilirdi. Qiyabi bölmənin açılışı ilə birinci kurslara qəbul planı daha da artırılaraq bütövlükdə 600 nəfərə çatdırıldı. Əyani bölməyə 275 nəfər, qiyabi bölməyə 325 nəfər qəbul olunmuş, həmin il institutu 298 nəfər bitirmişdi.

1958-ci ildə əyani bölməyə 105 nəfər, qiyabi və axşam bölmələrinə 300 nəfər qəbul edilmişdi. Bütövlükdə AXTİ-də 1958-ci ildə 2481 nəfər tələbə təhsil alırdı. 1959-cu ildə tələbələrin sayı 2345 nəfər olmuşdu. Bunlardan 975 nəfər gündüz, 575 nəfər axşam, 795 nəfər qiyabi təhsil alırdı.

**1959-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun fəaliyyəti dayandırıldı.** Bunun çox xoşagəlməz və acı səbəbləri var idi. İnstitutun professor-müəllim heyəti iki cəbhəyə ayrılmışdı və bu iki cəbhə bir-birindən Sov.İKP MK-ya yazılı və şifahi şikayətlər göndərirdilər. Şikayətlərin ucu-bucağı görünmürdü. Mərkəzi Komitə bu qarşıdurmaya son qoydu. Azərbaycan üçün iqtisadçı kadrlar hazırlayan Xalq Təsərrüfatı İnstitutu ləğv edildi. Bu, institutun həyatında ikinci bağlanış idi (çox təəssüf ki, sonuncu olmadı. Azərbaycan Xalq Təsərrüfatı İnstitutu bütün SSRİ məkanında yeganə institut idi ki, üç dəfə açılıb-bağlanmışdı – *M.M.*). Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun sənaye iqtisadiyyatı üzrə ixtisaslaşan tələbə kontingenti Azərbaycan Neft və Kimya İnstitutuna, kənd təsərrüfatının iqtisadiyyatı üzrə təhsil alanlar Kənd Təsərrüfatı İnstitutuna, iqtisadiyyatın qalan sahələri üzrə, o cümlədən sovet ticarətinin iqtisadiyyatı, əmtəəşünaslıq, maliyyə, statistika, mühasibat uçotu üzrə təhsil alan tələbələr Azərbaycan Dövlət Universitetinə köçürüldülər. Universitetdə iki bölmədən ibarət olan (əmtəəşünaslıq və xalq təsərrüfatının iqtisadiyyatı) İqtisad fakültəsi yaradıldı.

1961-ci ildə institutun İqtisad fakültəsini fərqlənmə diplomu ilə bitirən Ziyad Səmədzadə bütün həyatını iqtisadiyyat elminə həsr etmiş, elmlər doktoru, professor elmi adı almış, institutun müəyyən dövrdə elmi işlər üzrə prorektoru vəzifəsində işləmiş (1978–1982), Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü (1980), sonra isə həqiqi üzvü (1989) seçilmişdir.

İnstitutun daha bir məzunu **Həsən Qasımov** da ömrünü bu elmin inkişafı üçün sərf etmiş, qısa bir müddətdə institutun (1992–1994) rektoru vəzifəsində işləmişdir.

1965-ci ildə Sov.İKP MK-nın növbəti plenumundan sonra ölkədə bir sıra iqtisadi islahatlar aparıldı. **1966-cı il fevralın 10-da SSRİ Nazirlər Soveti Bakıda Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun yaradılması haqqında qərar qəbul etdi.** AXTİ yenidən müstəqil fəaliyyətə başladı və professor **Səlvər Aslanov** institutun rektoru təyin olundu.

İnstitut yenidən təşkil olunarkən Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsinin, Azərbaycan Neft Kimya İnstitutunun Mühəndis-iqtisad fakültəsinin tələbələrinin bir



**Səlvər Aslanov (1930–2000)**

**Aslanov Səlvər Rza oğlu** Bakıda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinə daxil olmuş (1949), ikinci kursdan Moskva Dövlət Universitetinə köçürülmüşdür. Azərbaycan KP Bakı şəhər Partiya Komitəsinin katibi (1964–1966), Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun rektoru (1966–1973), Azərbaycan Dövlət Pedaqoji İnstitutunda professor, kafedra müdiri (1973), rektor vəzifələrində çalışmışdır (1989–1994).

AMEA-nın müxbir üzvü seçilmiş, Milli Münasibətlər İnstitutunda böyük elmi işçi vəzifəsində fəaliyyət göstərmişdir (1995–2000).

1970 və 1990-cı illərdə Azərbaycan SSR Ali Sovetinə deputat seçilmişdir.

hissəsi buraya köçürüldü. Ümumiyyətlə, hər iki ali təhsil müəssisəsindən Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna 3679 tələbə köçürüldü. 1966-cı ilin dekabrında Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə instituta görkəmli partiya və dövlət xadimi Dadaş Bünyadzadənin adı verildi. Həmin dövrdə institutda 252 nəfər professor-müəllim fəaliyyət göstərirdi.

1966–1986-cı illərdə institutda tələbələrin ortaillik sayı 8161 nəfər olmuşdur. Bu illər ərzində ən yüksək göstərici 1971-ci ildə qeydə alınmışdır. Tələbələrin sayı həmin il 9045-ə çatmışdı. Bunlardan 3084-ü əyani, 2162-si axşam, 3799-u qiyabi təhsil alırdı. Həmin ildə 1412 nəfər instituta qəbul edilmiş, 1869 nəfər isə institutu bitirmişdi. Bütövlükdə isə 20 il ərzində Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda 25 mindən artıq ali təhsilli iqtisadçı hazırlanmış və istehsalatın müxtəlif sahələrinə göndərilmişdir.

Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna 1973-cü ildən 1986-cı ilədək professor **Zeynal Ələkbərov** rəhbərlik etmişdir.

80-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun 7 fakültəsində 12 ixtisas üzrə kadrlar hazırlanırdı. 30 kafedrada 442 müəllim, o cümlədən bir nəfər Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 27 nəfər elmlər doktoru, professor, 166 nəfər elmlər namizədi, dosent fəaliyyət göstərirdi. İnstitutda elmi-pedaqoji kadrların hazırlığına da xüsusi diqqət yetirilirdi. İnstitutun aspiranturasında iqtisadiyyatın müxtəlif sahələri üzrə 65 aspirant təhsil alırdı. 1966–1986-cı illərdə AXTİ-nin aspiranturasında təhsil alan 500-ə qədər gəncin 62%-i müdafiə edib alimlik dərəcəsi almışdı.



**Zeynal Ələkbərov (1920–1996)**

**Ələkbərov Zeynal Məmməd oğlu** Mahaçqala şəhərində anadan olmuşdur. Dağıstan Pedaqoji İnstitutunda təhsil almışdır. Partiya işinə göndərilmiş (1946), Dağıstan vilayəti üzrə ÜİLKGİ-nin birinci katibi seçilmişdir. Dağıstan Pedaqoji İnstitutunda direktor müavini vəzifəsinə təyin olunmuşdur (1956). Azərbaycan KP MK-da mühazirəçi (1960–1964), Üzeyir Hacıbəyov adına Konservatoriyada kafedra müdiri (1964–1973) vəzifələrində çalışmışdır. Azərbaycan KP MK bürosunun qərarı ilə Xalq Təsərrüfatı İnstitutuna rektor vəzifəsinə təyin olunmuşdur (1973–1986). Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür (1981).

70-dən artıq elmi əsərin, kitab və monoqrafiyanın müəllifidir.

Bu işin səmərəli təşkilində həmin dövrdə elmi işlər üzrə prorektor vəzifəsində işləmiş Bəhmən Axundovun (1966–1974), Ağasəlim Ələsgərovun (1974–1978), Ziyad Səmədzadənin (1978–1982) böyük xidmətləri olmuşdur.

*1966–1986-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda tələbə sayının inkişaf dinamikası*

| İllər | Tələbələrin ümumi sayı | O cümlədən: | | | Tələbə qəbulu | O cümlədən: | | | Buraxılış | O cümlədən: | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | əyani | axşam | qiyabi | | əyani | axşam | qiyabi | | əyani | axşam | qiyabi |
| 1966 | – | – | – | – | 1829 | 900 | 429 | 500 | 106 | 43 | 63 | – |
| 1967 | 6044 | 1440 | 1507 | 3097 | 1648 | 723 | 375 | 550 | 661 | 116 | 276 | 271 |
| 1968 | 7030 | 2039 | 1604 | 3387 | 1872 | 817 | 478 | 577 | 632 | 122 | 190 | 320 |
| 1969 | 8058 | 2721 | 1819 | 3518 | 1905 | 755 | 500 | 650 | 853 | 230 | 208 | 415 |
| 1970 | 8921 | 3199 | 2012 | 3710 | 1945 | 775 | 520 | 650 | 1016 | 384 | 221 | 407 |
| 1971 | 9045 | 3084 | 2162 | 3799 | 1869 | 725 | 543 | 601 | 1412 | 573 | 218 | 621 |
| 1972 | 8752 | 3139 | 2260 | 3353 | 1832 | 718 | 510 | 604 | 1423 | 698 | 311 | 414 |
| 1973 | 8839 | 3144 | 2335 | 3360 | 1756 | 706 | 500 | 550 | 1555 | 727 | 343 | 485 |
| 1979 | 8197 | 2546 | 2460 | 3191 | 1502 | 351 | 476 | 675 | 1637 | 618 | 484 | 535 |
| 1980 | 8547 | 2668 | 2405 | 3384 | 1618 | 475 | 518 | 625 | 1715 | 658 | 520 | 537 |
| 1983 | 8414 | 2527 | 2510 | 3377 | 1714 | 534 | 582 | 598 | 1680 | 647 | 548 | 485 |
| 1986 | 8273 | 8273 | 2646 | 3655 | 1776 | 624 | 545 | 607 | 1589 | 350 | 462 | 777 |

*Cədvəl institutun illik hesabları əsasında tərtib edilmişdir.*

Tələbə Elmi Cəmiyyəti isə 1000 nəfərdən artıq tələbəni birləşdirirdi.

Bu təhsil müəssisəsində peşə təhsilinin inkişaf problemlərini araşdıran sahə elmi-tədqiqat laboratoriyası və yüksək maddi-texniki bazaya malik 9 tədris laboratoriyası fəaliyyət göstərirdi.

1987-ci ildə Heydər Əliyevin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsindən uzaqlaşdırılması ilə SSRİ rəhbərliyində özlərinə isti yuva qurmuş ermənilərin əl-qolu açıldı. Onlar hər vasitə ilə Azərbaycanın ictimai-siyasi həyatının ritmini pozmağa çalışdılar. İlk zərbə təhsilimizə dəydi.

Sov.İKP MK və SSRİ Nazirlər Soveti **«Dadaş Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun fəaliyyətində ciddi nöqsanlar haqqında» 24 sentyabr 1987-ci il tarixli qərar verdi. Bu qərara əsasən SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi**



**Raqib Quliyev**
**(1949)**

**Quliyev Raqib İsmayıl oğlu** Dadaş Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutunun Sənaye iqtisadiyyatı fakültəsini bitirmişdir (1970). Moskva Universitetinin aspirantı olmuş, namizədlik dissertasiyası müdafiə etmişdir (1973). Professordur (1983). Azərbaycan Dövlət Universitetində müəllim, baş müəllim, dosent vəzifələrində çalışmışdır (1974–1985). Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun rektoru (1986–1987), Leninqrad (Sankt-Peterburq) Maliyyə İqtisad İnstitutunun Bakı filialının direktoru (1988–1989) vəzifələrində işləmişdir.

**Dadaş Bünyadzadə adına AXTİ-nin bağlanması haqqında 30 oktyabr 1987-ci il tarixli əmr imzaladı.** Həmin qərara və əmrə uyğun olaraq, 1987-ci il noyabrın 17-də AKP MK və Azərbaycan SSR Nazirlər Soveti **«Xalq Təsərrüfatı İnstitutunda Sov.İKP MK və SSRİ Nazirlər Sovetinin «Ali məktəblərin daha da inkişaf etdirilməsi və mütəxəssislər hazırlanmasının keyfiyyətinin yaxşılaşdırılması haqqında»** qərarının yerinə yetirilməsindəki ciddi çatışmazlıqlar haqqında» qərar qəbul etdi.

1986–1987-ci illərdə instituta professor **Raqib Quliyev** rəhbərlik etmişdir.

Həmin dövrdə AXTİ-də kafedra müdiri vəzifəsində işləyən iqtisad elmləri doktoru, professor **Fuad Ələsgərov** öz xatirələrində yazır: *«İnstitutda baş alıb gedən qruplaşma, münaqişələr, mərkəzə anonim məktubların axını, nəhayət ki, ölkə rəhbərliyini də təngə gətirdi və bu rüsvayçılıq «Pravda» qəzetinin 25 sentyabr 1987-ci il tarixli sayında təkcə institutun deyil, bütünlüklə respublikanın şöhrətinə xələl gətirdi». Yazıda göstərilirdi: «...Kollektivdə qeyri-sağlam mənəvi-psixoloji mühit yaranmışdır. Siyasi Büro SSRİ Nazirlər Sovetinin Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun ləğvi haqqında təklifi ilə razılaşmışdır. Azərbaycan SSR-in iqtisadçı kadrlara tələbatının ödənilməsi məqsədilə Bakıda Leninqrad Maliyyə-İqtisad İnstitutunun filialının yaradılması barədə qərar qəbul olunmuşdur».*

Beləliklə, **1987-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutu Nikolay Alekseyeviç Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun filialına çevrildi.** Professor Fuad Ələsgərov 1989-cu ildə filialın direktoru təyin edildi.

Ulu öndər Heydər Əliyev Azərbaycan Dövlət İqtisad Universitetinin 70 illik yubileyi ilə bağlı çıxışında



**Fuad Ələsgərov**
**(1937)**

**Ələsgərov Fuad Nəsrulla oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsini bitirmişdir (1959). Aspiranturaya daxil olmuş (1961). Praqada Ali İqtisad Məktəbinin Daxili ticarət fakültəsində staj keçmişdir. İqtisad elmləri namizədi (1964), iqtisad elmləri doktoru elmi dərəcəsi (1976), professor elmi adı almışdır (1978). AXTİ-də müəllim, dekan müavini, dekan və Azərbaycan SSR Nazirlər Soveti yanında Xalq Təsərrüfatının İdarə edilməsi İnstitutunun prorektoru vəzifələrində işləmişdir (1987–1989). Nikolay Alekseyeviç Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialının direktoru təyin olunmuşdur (1989). Filialın bazasında Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Azərbaycan Dövlət İqtisad İnstitutu adı ilə bərpa edilməsinə nail olmuş və həmin institutun rektoru vəzifəsində işləmişdir (1990–1992).

Azərbaycan Respublikasının Ali Sovetinin deputatı olmuşdur (1990). Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür (1991).



*Xalq Təsərrüfatı İnstitutunun binası*

bu barədə danışarkən demişdi: «... *Biz 70-ci illərdə çalışdıq ki, bu institutu lazımi səviyyəyə qaldıraq və onu qaldıra da bildik. 80-ci illərdə artıq bu institut yüksək səviyyəyə qalxmışdı. Sonra yenə həmin institutun daxilində, həm də onun ətrafında bəzi mafioz qüvvələr öz şəxsi məqsədlərinə nail olmaq üçün intriqalar, çəkişmələr yaratdılar. Onlar Moskvaya dalbadal ərizələr, anonim məktublar, şikayətlər yazmaqla, bir-birini günahlandırmağa başladılar. Dəhşətli bir vəziyyət idi...*»

Üç il müddətində Leninqrad Maliyyə-İqtisad İnstitutunun filialı kimi fəaliyyət göstərdikdən sonra **1990-cı ilin sentyabrında elə həmin filialın bazasında Azərbaycan Dövlət İqtisad İnstitutu adı ilə yenidən bərpa olundu.** Professor Fuad Ələsgərov instituta rektor təyin edildi.

## Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu

Ümumittifaq Kommunist Bolşeviklər Partiyasının Mərkəzi Komitəsinin (ÜİK (b) P MK) qərarı əsasında SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti 1930-cu ilin aprelində dövlət orqanı hüququnda Ümumittifaq Bədən Tərbiyəsi Şurası təsis olunması haqqında qərar qəbul etdi. 1930-cu ilin noyabrında həmkarlar ittifaqlarının bədən tərbiyəsinə həsr olunmuş I Ümumittifaq konfransı keçirildi. Konfrans bədən tərbiyəsi təşkilatlarının klub-ərazi prinsipindən istehsalat prinsipinə keçməsi haqqında xüsusi qərar qəbul etdi. Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə 1930-cu ildə Zaqafqaziyanın sənaye mərkəzi olan Bakı şəhərində, Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının indiki binasında Zaqafqaziya Dövlət Cismani Mədəniyyət İnstitutu yaradıldı. Bu, Zaqafqaziyada ali bədən tərbiyəsi təhsili verən ilk tədris müəssisəsi idi. İnstituta dosent **Parsadanov Paruir Gerasimoviç** (1930–1941) rektor təyin olundu.




*Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutunun ilk binası. 1930-cu il*

İnstitutun nizamnaməsində göstərilirdi ki, əsas vəzifə bədən tərbiyəsi müəllimləri, məşqçilər, kütləvi bədən tərbiyəsi və idman işləri üzrə təşkilatçılar, müalicə bədən tərbiyəsi metodistləri hazırlamaqdır. İnstitutda fakültələr əvəzinə şöbələr fəaliyyət göstərirdi. Şöbələrə ümumi rəhbərlik isə tədris hissəsi tərəfindən həyata keçirilirdi.

1931-ci il üçün ştat cədvəli təsdiq olundu. Həmin ildən institutda Hərbi elmlər, İnsan morfologiyası, İctimai elmlər, Biologiya, Kimya, Gigiyena, Fizika və riyaziyyat, Fiziologiya, Bədən tərbiyə texnikası və metodikası kafedraları və elmi-tədqiqat şöbəsi təşkil edildi.

Tanınmış idman mütəxəssisləri və müəllimlər (Əli Şuşinski, Emin Rəhimov, Nikolay Anserov, İvan Kravçuk, Əli Nuriyev, Aleksandr Qolşteyn, Nikolay Strokin, Aleksey Semyanistiy, İvan Merkuris, Qriqori Kozlov,

Aleksandr Şepelev, Rüstəm Rüstəmov, Qəhrəman Səfərov və b.) institutda pedaqoji fəaliyyətə cəlb olundular.

İnstitutun fəaliyyətinin yenidən qurulması və genişləndirilməsi ilə əlaqədar rektorun 19 yanvar 1932-ci il tarixli əmrinə əsasən 3 illik təhsil müddəti 4 il ilə əvəz olundu.

1933-cü ildə Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutunun 39 nəfərdən (6 qız, 33 oğlan) ibarət ilk buraxılışı oldu. Məzunlar arasında Naxçıvan Muxtar Respublikasından gəlmiş **Məsumə Fərzəliyeva** da var idi.

1933/34-cü tədris ilində institutun Azərbaycan şöbəsi yaradıldı. Həmin ildə institutda 265 nəfər təhsil alırdı.

1936-cı ildən bu ali məktəb Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu kimi fəaliyyətini davam etdirmişdir. Bu dövrdə institutda İctimai elmlər, Anatomiya, Biologiya, Kimya, Gigiyena, Fizika, Fiziologiya, Riyaziyyat, Bədən tərbiyəsinin texnikası və metodikası kafedraları açılmışdır.

1943-cü ildə respublikanın idman həyatında böyük dönüş yarandı. İdman işlərində canlanma başlansa da, kadr hazırlığına olan ehtiyac lazımi səviyyədə təmin edilmirdi. Məhz buna görə Azərbaycan K(b)P MK və Xalq Komissarları Sovetinin 20 iyul 1943-cü il tarixli 53 saylı qərarı ilə Bədən Tərbiyəsi İnstitutu adı ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu müstəqil ali təhsil müəssisəsi kimi fəaliyyətə başladı.

1945-ci ildə institutda 9 idman ustası, 36 birinci, 56 ikinci və 99 üçüncü dərəcəli idmançı hazırlandı.

II Dünya müharibəsində respublikamızın idmançıları odlu cəbhələrdə çox böyük hünər göstərdilər. Alman-faşist işğalçılarına qarşı qəhrəmanlıqla vuruşan, komandanlığın döyüş tapşırıqlarını şərəflə yerinə yetirən 10 min nəfərdən çox Azərbaycan idmançısı və bədən tərbiyəçisi orden və medallarla təltif olundu. Yeddi nəfər idmançı Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

*1933–1945-ci illərdə*
*ADBTİ-nin məzunlarının sayı*

| Buraxılış ili | Məzunlar | Kişilər | Qadınlar | Azərb. qadınları |
|---|---|---|---|---|
| 1933 | 39 | 33 | 6 | 1 |
| 1935 | 47 | 33 | 14 | – |
| 1936 | 24 | 12 | 12 | – |
| 1937 | 40 | 27 | 13 | – |
| 1939 | 87 | 58 | 29 | 3 |
| 1940 | 97 | 92 | 5 | – |
| 1941 | 47 | 36 | 11 | – |
| 1942 | 19 | 16 | 3 | 2 |
| 1944 | 12 | 7 | 5 | – |
| 1945 | 10 | 6 | 4 | – |
| **Cəmi:** | **422** | **320** | **102** | **6** |

Respublikamızın məşhur futbolçusu və voleybolçusu Səlahəddin Kazımova SSRİ Ali Sovetinin Rəyasət Heyətinin qərarı ilə Sovet İttifaqı Qəhrəmanı fəxri adı verildi. Bundan başqa, digər qorxmaz idmançı döyüşçülər Tofiq Abbasov, Abbas Ağalarov, Hacı Ağayev, Hacı Ələsgərov, Fyodor Aranov, İsa Aslanov, Mirzə Əliyev, Mamed Əliyev, Dora Barkaya, Rza Baxşəliyev, Boris Deykun, Oleq Zeyts,

İvan Zorkin, Mariya Kislyakova, Azər Qasımov, Cavad Məmmədov, Dadaş Mirzəyev, Ənvər Seyidov, Zeynəb Rzayeva, Ənvər Babayev, Aleksey Semyanistiy, Nikolay Sostavkin, Vladimir Xomutov və b. orden və medallarla təltif olunmuşdur.

1945-ci ilin yayında keçirilən Ümumittifaq bədən tərbiyəsi paradı ölkənin idman həyatında mühüm hadisə oldu. Ümumittifaq Bədən Tərbiyəsi və İdman Komitəsi (ÜİBİK) institutun nümayəndə heyətini fəxri fərmanla təltif etdi.

Həmin illərdə Azərbaycanda bədən tərbiyəsi və idman hərəkatı yeni vüsət aldı. İdmançılarımız SSRİ çempionatlarında uğurla çıxış etdilər. İnstitutun məzunu yüngül atlet Xandadaş Mədətov ilk dəfə uzununa tullanmaqda SSRİ rekordunu təzələdi (7 m 50 sm). Güləşçilər və boksçular ümumittifaq və beynəlxalq yarışlarda nailliyətlər qazandılar.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu 1946-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Bədən Tərbiyəsi və İdman işləri üzrə Komitənin qərarı ilə Sergey Mironoviç Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu adlandırıldı.

*1946–1950-ci illərdə ADBTİ-nin məzunlarının sayı haqqında*

| Tədris illəri | Məzunlar | Kişilər | Qadınlar | Azərb. qadınları |
|---|---|---|---|---|
| 1946 | 15 | 3 | 12 | – |
| 1947 | 55 | 28 | 27 | 1 |
| 1948 | 72 | 30 | 42 | 3 |
| 1949 | 81 | 40 | 41 | 2 |
| 1950 | 47 | 14 | 33 | – |
| **Cəmi:** | **270** | **115** | **155** | **6** |



**Səlim Əliyev**

**Əliyev Səlim Qəni oğlu** – Tibb elmləri namizədi, dosent Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun Gigiyena və tibbi nəzarət kafedrasında müəllim (1933), kafedra müdiri əvəzi (1934), kafedra müdiri (1939) vəzifələrində çalışmışdır. Dosent Səlim Əliyevin «Müalicə bədən tərbiyəsi» dərs vəsaiti (1961), dosent Ənvər Babayevlə birgə «Həkim nəzarəti və idman travmatizmi» (1965) tədris vəsaiti çap edilmişdir. 1941-ci ildə Dövlət Bədən Tərbiyəsi İnstitutu Azərbaycan Dövlət Universitetinə birləşdirildikdən sonra Səlim Əliyev müəllim kimi həmin universitetdə işləmişdir. 1946–1950-ci illərdə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun rektoru vəzifəsində işləmişdir.

Müharibədən sonrakı illərdə idmançılarımız SSRİ çempionatlarında uğurla çıxış etdilər. Güləşçilər və boksçular ümumittifaq və beynəlxalq yarışlarda nailiyyətlər qazandılar. 1952-ci ildə SSRİ-nin iştirak etdiyi ilk XV Yay Olimpiya oyunlarında sərbəst güləşçi Rəşid Məmmədbəyov ölkəmizə ilk gümüş medalı gətirdi.

50-ci illərdən başlayaraq bədən tərbiyəsi və idman kadrlarının hazırlanmasında yeni bir mərhələ başlandı. Azərbaycan idmançılarının uğurları ilbəil artdı. Qazanılmış bu uğurlarda ADBTİ-nin məzunlarının böyük əməyi olmuşdur. Həmin dövrdə instituta **Ənvər Babayev** (1950–1972) rəhbərlik etmişdir.

50–60-cı illərdə Azərbaycan idmanı daha da inkişaf etdi. İnstitutun müəllimləri, tələbə və müdavimləri SSRİ-də bir çox yarışların qalibi və mükafatçıları oldular.

İbrahimpaşa Dadaşov sərbəst güləş üzrə 4 dəfə SSRİ çempionu oldu (1949, 1951, 1952,



1956). O, 1952-ci ildə 15-ci Yay Olimpiya Oyunlarında 6-cı yerə layiq görülmüşdür.

Musa Babayev sərbəst güləş üzrə 4 dəfə SSRİ (1949, 1950, 1951, 1952), 2 dəfə ümumdünya tələbə oyunları (1949, 1951) çempionu olmuşdur.

Muxtar Dadaşov sərbəst güləş üzrə 3 dəfə ümumdünya tələbə oyunlarının qalibi (1954 – Çepel, 1955 – Varşava, 1957 – Moskva), 4 dəfə SSRİ çempionatının gümüş mükafatçısı (1952, Bakı, 1953, Tbilisi, 1955, Minsk, 1957, Kiyev) adına layiq görülmüşdür.

*Uzununa tullanmaqda SSRİ rekordunu təzələmiş Xandadaş Mədətov*



*Tibb elmləri namizədi, dosent Səlim Əliyev institutun yığma komandası ilə birlikdə. 1946-cı il*

*1951–1971-ci illərdə ADBTİ-nin məzunlarının sayı haqqında*

| Buraxılış ili | Məzunlar | Kişilər | Qadınlar | Azərb. qadınları |
|---|---|---|---|---|
| 1951 | 87 | 45 | 42 | 2 |
| 1952 | 72 | 50 | 22 | 2 |
| 1953 | 89 | 57 | 32 | 5 |
| 1954 | 66 | 32 | 34 | 4 |
| 1955 | 193 | 174 | 19 | |
| 1956 | 85 | 66 | 19 | 1 |
| 1957 | 112 | 94 | 18 | 1 |
| 1958 | 98 | 73 | 25 | |
| 1959 | 118 | 94 | 24 | 3 |
| 1960 | 162 | 140 | 22 | 2 |
| 1961 | 160 | 88 | 72 | 3 |
| 1962 | 227 | 210 | 17 | 2 |
| 1963 | 73 | 70 | 3 | 3 |
| 1964 | 162 | 120 | 42 | |
| 1965 | 125 | 66 | 59 | |
| 1966 | 147 | 126 | 21 | |
| 1967 | 124 | 72 | 52 | 1 |
| 1968 | 171 | 139 | 32 | 2 |
| 1969 | 199 | 172 | 27 | 7 |
| 1970 | 214 | 201 | 13 | 5 |
| 1971 | 271 | 250 | 21 | 3 |
| **Cəmi:** | **2955** | **2339** | **616** | **46** |

70-ci illərdə Azərbaycanda bədən tərbiyəsi və idmana dövlət qayğısı nəticəsində idmançı qadın kadrları artmağa başlamışdır. 1971-ci ildə bədən tərbiyəsi və idman sahəsində 4507 nəfər fəaliyyət göstərirdi ki, onların 70%-nin xüsusi bədən tərbiyəsi təhsili var idi. Həmin illərdə Azərbaycanın 5569 bədən tərbiyəsi kollektivlərində 750 min nəfər bədən tərbiyəsi və idmanla məşğul olurdu. Bunlardan 22%-ni qadınlar və qızlar təşkil edirdi. Respublikamızda bədən tərbiyəsi və idman sahəsində müxtəlif vəzifələrdə 1786 nəfər qadın işləyirdi ki, bu da 1961-ci ildə olduğundan 1494 nəfər çox idi. İnstitutun məzunlarından Məsmə Fərzəliyeva, Zeynəb Rzayeva, Sara Əliyeva, Əminə Nurullaqızı, Sima Dəmirova, Ülkər Qasımova,



**Ənvər Babayev (1918–1993)**

**Babayev Ənvər Əbdülcabbar oğlu** Bakıda anadan olmuşdur. 1941-ci ildə Leninqrad Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsini bitirmişdir. Böyük Vətən müharibəsi cəbhələrində hərbi həkim, hərbi cərrah kimi qulluq etmişdir. 900 günlük Leninqrad mühasirəsinin iştirakçısı olmuşdur. Bu illər ərzində o, leytenant rütbəsindən mayor rütbəsinə qədər yüksəlmiş, ikinci dərəcəli Böyük Vətən müharibəsi ordeni, Leninqrad mühasirəsinə görə və faşist Almaniyası üzərində qələbə medalları ilə təltif edilmişdir.

Azərbaycan Həmkarlar İttifaqı Şurası şöbə müdiri, Tibb İşçilərinin Mərkəzi Komitə İttifaqının sədri, Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun rektoru (1950–1972) vəzifələrində çalışmışdır. Bir neçə dərsliyin, metodik vəsaitin və elmi məqalələrin müəllifidir. Onun əsərləri Azərbaycan, rus, gürcü və fransız dillərində çap olunmuşdur.

Müalicə-bədən tərbiyəsi, gigiyena və idman təbabəti kafedrasında müdir (1972–1984), həmin kafedrada dosent vəzifəsində çalışmışdır (1987–1990).

Məsmə Məmmədova və b. respublikamızda bədən tərbiyəsi hərəkatının inkişafına böyük əmək sərf etmişlər.

70-ci illərin əvvəllərində institutda bədən tərbiyəsi sahəsində ali təhsilli kadrların hazırlanması ilə 16 kafedranın əməkdaşları məşğul olurdu. Bunlar aşağıdakı kafedralar idi – Sov.İKP tarixi, Marksizm-leninizm fəlsəfəsi və elmi kommunizm, Pedaqogika, psixologiya və dillər, Bədən tərbiyə nəzəriyyəsi (BTN), – Müalicə bədən tərbiyəsi (MBT), Bədən tərbiyə tarixi (BTT), Anatomiya, Fizilogiya, Gimnastika, İdman oyunları, Atletika, Tətbiqi idman növləri, Ağır atletika və boks, Futbol, Üzgüçülük, Güləş.

1973-cü ildə instituta **Ananyev Vladimir Vasilyeviç** rəhbərlik etmişdir.

Azərbaycan Bədən Tərbiyəsi İnstitutuna 1974-cü ildən **Rafiq Rəcəbov** rektor təyin edildi. İnstitutun inkişafında, maddi-texniki bazasının möhkəmləndirilməsində, müəllim və tələbələrin müxtəlif idman yarışlarında uğur qazanmasında onun böyük xidmətləri olmuşdur. Rafiq Rəcəbov bu vəzifədə 1980-ci ilə qədər çalışmışdır.

1976-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda 3 fakültədə – Pedaqoji, İdman, Qiyabi fakültələrdə ali təhsilli bədən tərbiyəsi və idman mütəxəssisləri hazırlanırdı.

İnstitutda 20 kafedra, idman kompleksi, kabinetlər və kitabxana fəaliyyət göstərir, 2000-ə yaxın tələbə təhsil alırdı. 180 müəllim, o cümlədən 5 professor və elmlər doktoru, 57 elmlər namizədi, dosent, SSRİ-nin, habelə Azərbaycan SSR-in 13 əməkdar məşqçisi, 4 əməkdar bədən tərbiyəsi və idman xadimi, 31 idman ustası çalışırdı.

1976-cı ilə qədər institut 6 mindən çox mütəxəssis hazırlamışdı.

*1972–1976-cı illərdə ADBTİ-nin kadr hazırlığının dinamikası*

| Buraxılış ili | Məzunlar | Kişilər | Qadınlar | Azərb. qadınları |
|---|---|---|---|---|
| 1972 | 310 | 272 | 38 | 4 |
| 1973 | 425 | 370 | 55 | 21 |
| 1974 | 346 | 329 | 17 | 17 |
| 1975 | 359 | 329 | 30 | 18 |
| 1976 | 231 | 176 | 55 | 15 |
| 1977 | 445 | 375 | 70 | 24 |
| 1978 | 394 | 329 | 65 | 17 |
| 1979 | 462 | 423 | 39 | 39 |
| **Cəmi:** | **2972** | **2603** | **369** | **155** |

70-ci illərin ikinci yarısı və 80-ci illərdə Bədən Tərbiyəsi İnstitutunda yüksəkixtisaslı kadr hazırlığı davam etmiş, respublikanın ümumtəhsil və idman məktəbləri üçün 5836 idman müəllimi və məşqçilər hazırlanmışdır.

80-ci illərdə ADBTİ-də fəaliyyət göstərən kafedralar aşağıdakı istiqamətləri əhatə edirdi:

– nəzəri və pedaqoji fənlər;
– idman-pedaqoji;
– tibbi-bioloji;
– ictimai fənlər.



**Vladimir Ananyev (1919-?)**

**Ananyev Vladimir Vasilyeviç** Sergey Mironoviç Kirov adına Bədən Tərbiyəsi İnstitutunda anatomiya və biomexanika kafedrasının dosenti olmuş, 1967-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

1973–1974-cü illərdə institutun rektoru vəzifəsində çalışmışdır.

19 elmi əsərin müəllifi olmuşdur. SSRİ İdman Komitəsi tərəfindən Fəxri Fərmanla mükafatlandırılmışdır.

Azərbaycanda idmançıların hazırlığının yaxşılaşdırılması işində respublika fəallarının bədən tərbiyəsi və idmana həsr olunmuş 21 iyun 1974-cü il tarixli yığıncağı həlledici rol oynadı. Həmin yığıncaqda respublikada bədən tərbiyəsi və idman işinin vəziyyətinə ətraflı və işgüzar təhlil verildi.

1974-cü il avqustun 6-da Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin «Respublikada bədən tərbiyəsi və idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında» qərarı qəbul olundu.

1972-ci il sentyabrın 1-dən Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu yeni inşa olunmuş binada fəaliyyətini davam etdirdi.

1974-cü il avqustun 6-da Azərbaycan KP MK və Respublika Nazirlər Sovetinin «Respublikada bədən tərbiyəsi və idmanın vəziyyəti və onun daha da inkişaf etdirilməsi tədbirləri haqqında» qərarı qəbul olundu. Qərarda idman qurğularının tikilməsi, kənddə və digər yaşayış yerlərində bədən tərbiyəsi və idmanın inkişafı, respublikanın qabaqcıl idmançılarının ustalığının yüksəldilməsi, bədən tərbiyəsi, idman işi rəhbərliyinin kökündən yaxşılaşdırılmasının mühüm məsələləri öz əksini tapmışdır.

1976-cı ildə Monrealda keçirilən Olimpiya oyunlarında iştirak edən həndbolçular Rəfiqə Şabanova və Lyudmila Şubina respublikaya iki qızıl medal gətirdilər. İnstitutun məzunu məşhur voleybolçu İnna Rıskal isə Olimpiya oyunlarından gümüş medalla qayıtdı.

İnstitutun idmançıları 1977-ci ildə Lvovda qadınlar arasında güllə atıcılığı üzrə SSRİ çempionatında yüksək səviyyədə çıxış etdilər. L.Yemelyanova 5 kiçikçaplı tüfəngdən 50 metr məsafədə qoyulmuş hədəfə atəş açmaqda çıxış etmişdir. O, yarışlarda 587 xal toplayaraq (bu nəticə dünya rekordundan cəmi 2 xal geri qalır) SSRİ çempionatının qızıl medalını qazanmışdır.



**Rafiq Rəcəbov (1930–2006)**

**Rəcəbov Rafiq Əbdül oğlu** Bakı şəhərində anadan olmuşdur. 1954-cü ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. ADU-da müəllim (1954), Azərbaycan Kommunist Partiyasının Mərkəzi Aparatında təlimatçı, şöbə müdirinin müavini, şöbə müdiri (1956–1967), Vladimir İliç Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda elmi işlər üzrə prorektor (1967–1974), Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda rektor (1974–1980), Azərbaycan Dövlət Neft Akademiyasının Tarix kafedrasında müdir (1989–1995) vəzifələrində çalışmışdır. Elmlər namizədi (1965) elmi dərəcəsi və dosent (1968), professor (1971) elmi adlarını almışdır.

4 monoqrafiya, 8 kitabın müəllifidir. 6 nəfər elmlər doktoru, 12 nəfər elmlər namizədi hazırlamışdır.

Rafiq Rəcəbov 1991-ci ilə «Azərbaycanşünasların Müstəqil Birliyi» adlı elmi cəmiyyət yaratmış və ömrünün sonuna kimi həmin cəmiyyətin sədri olmuşdur. Qırmızı Əmək Bayrağı ordeni və Xalq Təhsili Nazirliyinin Fəxri fərmanı ilə təltif olunmuşdur (2000).



**Samur Novruzov (1938–2001)**

**Novruzov Samur Həsən oğlu** Gəncə şəhərində anadan olmuşdur. ADU-nun Filologiya fakültəsini, Moskva İctimai Elmlər Akademiyasının İdeoloji işin nəzəriyyəsi və metodları kafedrasının aspiranturasını bitirmişdir (1971–1974).

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun rektoru (1980–1987), eyni zamanda həmin institutun Tarix və siyasi iqtisad kafedrasının müdiri, Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsi müdirinin 1-ci müavini (1987–1989), Azərbaycan Respublikası Xalq Təhsili nazirinin müavini, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində təşkilat şöbəsi müdirinin müavini, Azərbaycan Respublikası Prezident Aparatında ərazi hakimiyyət və idarəetmə orqanları şöbəsinin müdiri (1990–1994), Azərbaycan Respublikası Xarici Turizm Şurasının sədri (1994–2001) vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikası Ali Sovetinə və Milli Məclisinə deputat seçilmiş, siyasi elmlər doktoru, Rusiya Sosial Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. ABŞ-ın Nebreska ştatının və Linkoln şəhərinin fəxri vətəndaşı idi.

İnstitutun nümayəndələri «Universiada-77»-də də uğurla çıxış etmişlər. Tennisçilər Y.Biryukova qarışıq qoşa görüşlərdə yüksək nailiyyətlər əldə etmişdir.

Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda tədrisin yüksək səviyyədə təşkilində, ixtisaslı bədən tərbiyəsi və idman kadrlarının hazırlığında 1980–1987-ci illərdə bu institutda rektor vəzifəsində işləmiş **Samur Novruzovun** böyük xidmətləri olmuşdur.

1980–1982-ci illərdə ADBTİ-nin 17 nümayəndəsi müxtəlif Ümumittifaq yarışlarının çempionu və mükafatçısı olmuşdur. 1980-ci ildə institutda 260 idman ustası (o cümlədən 95 qadın) çalışırdı.

1987-ci ildən ADBTİ-yə professor, Əməkdar elm xadimi **Ağacan Əbiyev** rəhbərlik edir.

*1982–1987-ci illərdə ADBTİ-də kadr hazırlığının dinamikası*

| Buraxılış ili | Məzunlar | Kişilər | Qadınlar | Azərb. qadınları |
|---|---|---|---|---|
| 1982 | 413 | 359 | 54 | 32 |
| 1983 | 447 | 391 | 56 | 48 |
| 1984 | 469 | 434 | 35 | 26 |
| 1985 | 454 | 412 | 42 | 24 |
| 1986 | 237 | 193 | 44 | 38 |
| 1987 | 271 | 31 | 40 | 45 |
| **Cəmi:** | **3228** | **2668** | **360** | **277** |

1988-ci ildən bu ali məktəb Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu adlandırıldı.

Bu dövrdə institutda fəaliyyət göstərən kafedralar 4 qrupa bölünürdü:

I. Nəzəri və pedaqoji fənlər kafedraları;
II. İdman-pedaqoji kafedraları;
III. Tibbi-bioloji kafedralar;
IV. İctimai fənlər kafedrası.

Birinci qrupa Bədən tərbiyəsi metodikası və nəzəriyyəsi kafedrası, Bədən tərbiyəsi tarixi və idarəolunması kafedrası, Pedaqogika və psixologiya kafedrası, Rus dili kafedrası, Xarici dillər kafedrası, Ali riyaziyyat və hesablama texnikası kafedraları daxil idi. İkinci qrup Gimnastika və akrobatika, Güləşmə və onun metodikası kafedrası, Basketbol və həndibol, Volleybol və stolüstü tennis, Boks və ağır atletika, Tətbiqi idman növləri, Atletika və Futbol kafedralarından ibarət olmuşdur. Üçüncü qrupa Fiziologiya, Anatomiya, İdman gigiyenası və təbabəti kafedraları, dördüncü qrupa isə İctimai elmlər kafedrası daxil idi.

*1952–1988-ci illərdə ADBTİ-nin tələbə və məzunlarının SSRİ yığma komandası tərkibində Yay Olimpiya Oyunlarında iştirakı və əldə etdikləri medallar*

| № | Olimpiadanın keçirildiyi illər | İştirakçıların sayı | Medallar: | | |
|---|---|---|---|---|---|
| | | | qızıl | gümüş | bürünc |
| 1. | XV–1952 | 3 | | 1 | |
| 2. | XVI–1956 | 1 | | 1 | |
| 3. | XVII–1960 | 2 | | 2 | |
| 4. | XVIII–1964 | 5 | 1 | 1 | 3 |
| 5. | XIX–1968 | 3 | 2 | | |
| 6. | XX–1972 | 3 | 1 | 1 | |
| 7. | XXI–1976 | 3 | 2 | 1 | |
| 8. | XII–1980 | 5 | 1 | 3 | 1 |
| 9. | XXIV–1988 | 18 | 3 | 1 | 2 |
| | **Cəmi:** | **43** | **10** | **11** | **6** |

1952-ci ildən 1988-ci ilədək Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun tələbə və məzunlarından SSRİ yığma komandasının tərkibində Yay Olimpiya Oyunlarında 43 idmançı iştirak etmiş, 24 medal (10 qızıl, 11 gümüş və 6 bürünc) qazanmışlar.

70–80-ci illərdən Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda peşəkar idmançıların hazırlanması ilə bərabər, bədən tərbiyəsi və idman sahəsində əsaslı tədqiqatlar aparılmış, dərsliklər və metodiki tövsiyələr hazırlanmışdır.

Elmi tədqiqat işləri dörd istiqamətdə aparılmışdır:

1. Bədən tərbiyəsi və idman-sağlamlığın möhkəmləndirilməsinin və tərbiyə edilməsinin mühüm amili kimi.
2. Yüksəkdərəcəli idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi.
3. Bədən tərbiyəsi və idman üzrə kadrların hazırlanması və ixtisas artırma sisteminin təkmilləşdirilməsi.
4. Bədən tərbiyəsi və idmanın idarə edilməsinin təkmilləşdirilməsi.

*1988–1990-cı illərdə ADBTİ-də kadr hazırlığının dinamikası*

| Tədris illəri | Məzunlar | Kişilər | Qadınlar | Azərb. qadınları |
|---|---|---|---|---|
| 1988 | 354 | 294 | 60 | 31 |
| 1989 | 394 | 324 | 70 | 39 |
| 1990 | 328 | 249 | 79 | 39 |
| **Cəmi:** | **1076** | **1067** | **209** | **109** |

İnstitutun Fiziologiya kafedrasında müxtəlif illərdə «Yüksək dərəcəli idmançıların hazırlıq sisteminin təkmilləşdirilməsi» problemi üzrə əsaslı tədqiqat işləri aparılmışdır. Burada kafedranın əməkdaşları professor Rafiq Qayıbov, dosentlər Mir Qarayev, Dilsuz Novruzov, Hüseyn Həsənov, Əsmər Seyidzadə, Ellada Sadıqova uzun illər çalışmış, respublika və ümumittifaq səviyyəli konfranslarda, fizioloqların qurultaylarında, beynəlxalq konqreslərdə çıxış etmişlər.

İnstitutun əməkdaşları elmi-tədqiqat işlərində alınmış nəticələrin təcrübəyə tətbiqinə, xüsusilə respublika seçmə komandalarının təlim – məşq və mühüm yarışlarda – Avropa, dünya çempionatında və Olimpiya oyunlarında müvəffəqiyyətli çıxış etmələri

üçün çalışmışlar. Fiziologiya kafedrasının müdiri professor Rafiq Qayıbovun rəhbərliyi ilə ustalardan ibarət Neftçi futbol komandasında ilk dəfə elmi-metodiki iş tətbiq edilmişdir (1980–1983).

70–80-ci illərdə institutda bədən tərbiyəsi sahəsində gənc elmlər namizədlərinin sayı artmışdır. İnstitutun müəllim və tələbə heyəti respublikanın ictimai-idman həyatında yaxından iştirak edərək, istehsalat kollektivlərində, zəhmətkeşlərin yaşayış yerlərində ictimai əsaslarla məşqçilik etmişlər. Onların əksəriyyəti hakimlər kollegiyası heyətinin, müxtəlif idman növləri üzrə respublika federasiyalarının, məşqçilər və elmi-metodiki şuraların, habelə digər ictimai bədən tərbiyəsi təşkilatlarının fəal üzvləri olmuşlar.

Ümummilli lider Heydər Əliyevin bədən tərbiyəsi və idmana diqqəti və qayğısı nəticəsində 1970–1982-ci illərdə institutun 22 əməkdaşı Moskva və SSRİ-nin başqa şəhərlərində tədqiqatlarını davam etdirmiş, müxtəlif mövzularda namizədlik dissertasiyaları müdafiə etmişlər.

80-ci illərdə institut bədən tərbiyəsi və idman sahəsində mühüm elmi mərkəz və tədris ocağına çevrilmiş, həmin illərdə orada 186 nəfəri qız olmaqla 2000-ə yaxın tələbə təhsil almışdır. Tələbələrin təhsili və elmi işləri ilə 211 nəfər professor-müəllim məşğul idi.

1990-cı ildə Ümumittifaq spartakiadası proqramına daxil olan idmanın iyirmi doqquz növü üzrə yarışlarda qələbə uğrunda institutun idmançı qızları mübarizə aparmışlar. Spartakiadada respublikamızı 420 idmançı, o cümlədən 136 qız təmsil etmişdir. Cüdoçu qızlardan İnna Sokolovskaya qızıl medala layiq görülmüşdür. Gülşən Şirinova və Mətanət Süleymanova gümüş, Olqa Voronova və Mariya Qvozdeva isə bürünc medallar qazanmışlar.

1990-cı ilin ən yaxşı idmançıları siyahısına institutun tələbə və məzunlarından sambo üzrə dünya çempionatının mükafatçısı Zülfiyyə Hüseynova, beynəlxalq dərəcəli idman ustası, stend atıcılığı üzrə dünya çempionatının bürünc mükafatçısı Zemfira Meftahəddinova, sambo üzrə Arzu Atayeva və b. daha çox xal toplayaraq Azərbaycanın bir nömrəli idmançısı adını qazanmışlar.

İnstitut Olimpiya oyunlarının qızıl (Viktor Mineyev, İnna Rıskal, Vera Lantratova, Lyudmila Şubina, Rəfiqə Şabanova, Larisa Savkina, Boris Koretski, İqor Ponamaryov), gümüş (Rəşid Məmmədbəyov, Yuri Konovalov, Yevgeni Saltsin, Aleksandr Kornelyuk, Aleksandr Lukyanov), bürünc (Aydın İbrahimov, Zenon Bortkeviç, Tatyana Şvıqanova, Elina Quseva) mükafatçıları, dünya (Xəzər İsayev, Məhyəddin Allahverdiyev, Arif Niftullayev, Samir İbrahimov, Hafiz Süleymanov, İlqar Məmmədov, Ceyhun Məmmədov, Zülfiyyə Hüseynova, İradə Aşumova, Valeri Belenki və b.), Avropa (Ələkbər Məmmədov, Valentina Popova, Sergey Lixaçov, Valeri Timoxin, Zemfira Meftahəddinova və b.), SSRİ (İbrahimpaşa Dadaşov, Musa Babayev, Rəhim İsmayılov, Muxtar Novruzov, Həsrət Məmmədyarov, Firudin Qurbanov, Ziba Ələsgərova, Xandadaş Mədətov, Süleyman Nəbiyev, Xanhüseyn Bağırov, Elşad Mürsəlov, Mirzə Orucov və başqaları), SSRİ-nin əməkdar məşqçiləri (Ağakişi İskəndərov, Çingiz Şamilov, Hafiz Cəfərov, İsax Cəfərov, Əsgər Bağırov, Fikrət Tahirov, Nikolay Novikov və başqaları) və Əməkdar bədən tərbiyəsi və idman xadimləri (Rza Baxşəliyev,



*Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun binası*

Şua Hüseynov, Sabir Hüseynov, Əbülfəz Əliyev, Əbdülağa Sadıqov, Şövkət Orduxanov, Kamal Kəbirlinski, Sona Qasımova, Mahmud İskəndərov, Həsən Ağa Qarayev, Məhbub Səadətxan, Fikrət Hüseynov, Pərviz Həsənov, Əhəd Quliyev, Fazil Rzayev, Yaşar Məmmədov, Ələkbər Məmmədov, Mirrəhim Vahabov, Oqtay Ağayev, Tofiq Abbasov, Ülkər Qasımova, Rafiq Bədirzadə və başqaları) olan məzunları ilə haqlı olaraq fəxr edir.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun bir çox məzunları bacarıqlı müəllim və məşqçi, elmi işçi, bədən tərbiyəsi hərəkatının təşkilatçısı kimi yetişmişdir. Onların hazırlanmasında Abbas Ağalarov, Rza Baxşəliyev, İbrahimpaşa Dadaşov, Ehsan Kərimov, Tofiq Abbasov, Şamil Şamxalov, Ənvər Babayev, Zeynəb Rzayeva, Boris Batyaykin, Miri Vahabov, Boris Deykun, İvan Dyaçkov, Kamal Rzayev, Ağacan Əbiyev, Oqtay Ağayev, Hacıbaba Ağayev, Tofiq Bəhramov, Cavad Qurbanov, Məsmə Məmmədova, Bəhram Nərimanov və başqalarının xidmətləri xüsusi qeyd olunmalıdır.

### Gəncə Dövlət Pedaqoji İnstitutu

Gəncə şəhərini, ətraf rayonları, Ermənistan və Gürcüstandakı Azərbaycan məktəblərini milli müəllim kadrları ilə təmin etmək məqsədilə **Azərbaycan Xalq Komissarları Sovetinin 14 aprel 1938-ci il tarixli qərarı ilə Gəncədə İkiillik Müəllimlər İnstitutu fəaliyyətə başladı**. İnstitut 1 oktyabr 1938-ci ildə 23 müəllim və 244 tələbə ilə fəaliyyətə başladı. **Əli Bünyadzadə** institutun direktoru, Kərim Tağıyev isə direktor müavini təyin edildi.

1938/39-cu tədris ilində instituta qəbul olunan 244 nəfər tələbənin 130 nəfəri fizika-riyaziyyat, 114 nəfəri isə təbiyyat ixtisası üzrə təhsil almağa başladı.

İnstitutun direktoru Əli Bünyadzadə yeni yaranmış ali təhsil ocağının maddi-texniki bazasının möhkəmləndirilməsi və onun ixtisaslı müəllim kadrları ilə təmin olunmasında faydalı işlər gördü. İlk növbədə Bakıdakı ali məktəblərlə işgüzar əlaqə yaradıldı, instituta müxtəlif ixtisaslardan olan müəllimlər cəlb olundu. İnstitutun maddi-texniki bazası möhkəmləndikcə burada yeni fakültələr yaradıldı.

1939-cu ildə institutda daha iki fakültə – Tarix, Azərbaycan dili və ədəbiyyat fakültələri yaradıldı. Mövcud Təbiyyat fakültəsi Təbiyyat-coğrafiya fakültəsi kimi yenidən quruldu. 1939/40-cı tədris ilində artıq institutda dörd fakültə fəaliyyət göstərirdi.

İnstitutun ilk buraxılışı 1940-cı ildə oldu. Həmin il təbiyyat ixtisası üzrə 93 nəfər imtahanlara buraxıldı. Bunlardan 70 nəfəri institutu adi, 13 nəfəri isə fərqlənmə diplomu ilə bitirdi. Fizika-riyaziyyat fakültəsi üzrə isə imtahanlara buraxılan 61 nəfərdən 39 nəfəri adi, 10 nəfəri fərqlənmə diplomu aldı. 1941-ci ildə Tarix, Azərbaycan dili və ədəbiyyat fakültələrinin ilk buraxılışında Tarix fakültəsi üzrə 35, Azərbaycan dili və ədəbiyyat fakültəsi üzrə 32 gənc diplom alaraq respublikanın müxtəlif rayonlarında natamam ali təhsilli müəllim kimi fəaliyyətə başladı.

O vaxt institutun maddi-texniki bazası yüksək səviyyəli kadr hazırlığının tələblərinə cavab vermirdi. İnstitutda cəmi bir kabinet, üç laboratoriya var idi *(bax: Bağır Bağırov. Gəncə Dövlət Universiteti–60. Gəncə, 2001)*. Şübhəsiz ki, bütün bunlar yüksək elmi-pedaqoji hazırlığa malik müəllim kadrlarının hazırlanmasına mənfi təsir göstərirdi.

1940/41-ci tədris ilində Gəncə İkiillik Müəllimlər İnstitutunda 14 kafedra, 36 müəllim fəaliyyət göstərirdi. İkinci Dünya müharibəsinin başlanması institutun inkişafını xeyli ləngitdi. Belə ki, institutda tələbə kontingenti xeyli azaldı, kafedraların bir çoxu ixtisara düşdü, institutun kollektivi müharibə dövrünün qayda-qanunları ilə işləmək məcburiyyətində qaldı. Təsadüfi deyil ki, mövcud şəraitlə əlaqədar olaraq 1941–1943-cü illər ərzində rəhbərlik bir neçə dəfə dəyişməli oldu. Davud Əsədov (1941), Kərim Tağıyev (1941), Zahid Hüseynov (1941–1943) direktor vəzifəsini icra etdilər.

1 oktyabr 1943-cü ildən etibarən respublikada fəaliyyət göstərən ikiillik müəllimlər institutları ləğv edildi. Gəncə İkiillik Müəllimlər İnstitutunun bazasında tam ali təhsil verən, ümumtəhsil məktəbləri üçün müxtəlif fənlərdən yüksəkixtisaslı müəllim kadrları hazırlayan **dördillik Gəncə Dövlət Pedaqoji İnstitutu** yaradıldı. Təcrübəli və işgüzar maarif işçisi



**Hacıbala Hacıyev**
**(1901–?)**

**Hacıyev Hacıbala Ocaqverdi oğlu** Ağstafa rayonunun Qıraqkəsəmən kəndində anadan olmuşdur. Ali Pedaqoji İnstitutu bitirmişdir. Gəncə Pedaqoji Texnikumunda direktor müavini, Xalq Maarif Komissarlığında inspektor-metodist (1925–1928), Şəki Pedaqoji Texnikumunda direktor (1928–1930), Qiyabi Pedaqoji İnstitutda direktor müavini (1940/41), Gəncə Dövlət Pedaqoji İnstitutunda direktor (1943–1949) vəzifələrində çalışmışdır.

1950-ci ildən sonra pedaqoji fəaliyyətini Bakıda davam etdirmişdir.

kimi tanınan **Hacıbala Hacıyev** rektor vəzifəsinə təyin edildi. Azərbaycan Xalq Maarif Komissarlığının 14 oktyabr 1943-cü il tarixli əmri ilə Gəncəyə göndərilən dosent Muxtar Hüseynzadə Azərbaycan dili (həm də Azərbaycan dili və ədəbiyyatı fakültəsinə dekan təyin olundu), Hüseyn Əfəndiyev Fizika, Saleh Xəlilov Pedaqogika, İsgəndər Kərəməliyev Marksizm-leninizm, Əli Sultanlı Azərbaycan ədəbiyyatı kafedrasına müdir təyin olundu. Az sonra professorlar Məmməd Əfəndiyev, Məmmədağa Şirəliyev, Sadıq Hüseynov institutda müəllimlik fəaliyyətinə başladılar. Tanınmış alimlərin instituta gəlmələri professor-müəllim kollektivi arasında yaradıcılığın və elmi mühitin canlanmasına səbəb oldu.

1943/44-cü tədris ilinin payızında instituta görkəmli maarifpərvər, Azərbaycanda torpaqşünaslıq və aqrokimya elmlərinin banisi Həsən bəy Zərdabinin adı verildi.

Müharibənin ağır şəraitinə baxmayaraq, tələbə qəbulu mütəşəkkil keçirildi. Belə ki, 1944/45-ci tədris ilində instituta dörd ixtisas üzrə: Azərbaycan dili və ədəbiyyatı fakültəsinə 42 nəfər, Tarix fakültəsinə 24 nəfər, Fizika-riyaziyyat fakültəsinə 11 nəfər, Təbiyyat fakültəsinə 8 nəfər tələbə qəbul edildi.

Həmin ildə institutda Azərbaycan dili və ədəbiyyatı, fizika-riyaziyyat ixtisaslarını əhatə edən axşam şöbəsi təşkil olundu. 1947-ci ilin iyun ayında tam ali təhsil verən institutun ilk buraxılışı oldu. Təbiyyat fakültəsi üzrə 14 nəfər, Fizika-riyaziyyat fakültəsi üzrə 7 nəfər, Azərbaycan dili və ədəbiyyatı fakültəsi üzrə isə 24 nəfər dövlət imtahanlarını müvəffəqiyyətlə verdi. İnstitutun ilk buraxılışına həsr olunmuş təntənəli gecə ilə bağlı «Kirovabad bolşeviki» qəzeti yazırdı: *«Həsən bəy Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu Böyük Vətən müharibəsinin ən ağır illərində təşkil olunmuşdur. Müharibə illərinin bir sıra çətinliklərinə baxmayaraq, institut gündən-günə böyümüş, tələbələrinin sayı artmış və o, şəhərin ən görkəmli mədəni-maarif ocaqlarından birinə çevrilmişdir».*

Rus dilinin öyrədilməsinin zəruriliyi dövlət əhəmiyyətli məsələ kimi irəli sürüldüyünə görə rus dili müəllimlərinin hazırlanmasına xüsusi diqqət yetirilirdi. Elə bu məqsədlə də 1948/49-cu tədris ilindən etibarən Gəncə Pedaqoji İnstitutunda rus dili və ədəbiyyatı şöbəsi təşkil olundu. Həmin ildə şöbəyə 51 nəfər gənc qəbul edildi. Şöbə fəaliyyət göstərdiyi illərdə (1948–1955) respublikanın ümumtəhsil məktəbləri üçün 200-dən artıq rus dili və ədəbiyyatı müəllimi hazırladı.

*Həsənbəy Zərdabi adına Gəncə DPİ-nin 1948/49-cu tədris ilində tələbə kontingenti*

| № | Fakültələr | Kurslar | | | | Əlaçılar | Cəmi: |
|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | | |
| 1. | Azərbaycan dili və ədəbiyyatı | 67 | 52 | 37 | 21 | 32 | **177** |
| 2. | Tarix | 38 | 49 | 28 | 17 | 24 | **132** |
| 3. | Təbiyyat (kimya təbiyyat) | 16 | 24 | 31 | 8 | 17 | **79** |
| 4. | Fizika-riyaziyyat | 8 | 11 | 15 | 13 | 11 | **47** |
| 5. | Rus dili və ədəbiyyatı | 51 | – | – | – | – | **51** |
| | **Cəmi:** | **129** | **136** | **111** | **59** | **84** | **486** |

Bu illərdə Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutuna dosent **Həmid Mirzəyev** rəhbərlik edirdi. Bir ildən sonra rektor vəzifəsinə dosent **Hacı Hacıyev,** 1951-ci ildən isə dosent **Xanməmməd Mirzəyev** təyin edildi.

Müharibədən sonrakı dinc quruculuq illərində institutun həyatında mühüm dəyişikliklər baş verdi. Professorlar İbrahim İbrahimov, Əlisöhbət Sumbatzadə, Həzrət Səfərov, Muxtar Hüseynzadə, Məmmədağa Şirəliyev, dosentlər Şəmil Məmmədbəyli, Məmmədyusif Axundzadə, Səlim Cəfərov və başqalarının gərgin əməyi nəticəsində institut üçün xeyli elmi-pedaqoji kadr hazırlandı.

1950/51-ci tədris ilində institutda 696 nəfər tələbə təhsil alırdı. Tələbələrin tərkibində azərbaycanlılarla yanaşı, 46 nəfər rus, 9 nəfər ukraynalı, 4 nəfər gürcü, 6 nəfər yəhudi, 5 nəfər udin var idi (*bax: Bağır Bağırov. Gəncə Dövlət Universiteti–60. Gəncə, 2001, səh.26).*



**Nazim Axundov (1924–1994)**

**Axundov Nazim Fərrux oğlu** Şuşa şəhərində anadan olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunu (1940–1944) və onun aspiranturasını bitirmişdir. Quba Müəllimlər İnstitutunda direktor (1950–1951), Kirovabad (Gəncə) Pedaqoji İnstitutunda kafedra müdiri (1951), direktor müavini (1952) və direktor (1953–1956) vəzifələrində çalışmışdır.

Doktorluq dissertasiyası müdafiə etmişdir. 100-dən artıq kitabın müəllifidir.

Dosent **Nazim Axundovun** (1953–1956), **Məmməd Məmmədovun** rektor (1956–1959) işlədiyi müddətdə institutda tədris və elmi-tədqiqat sahəsində xeyli irəliləyişə nail olundu.

1954-cü ildən etibarən İnstitutda müntəzəm olaraq «Elmi qeydlər» jurnalı nəşrə başladı. Bu jurnal institutda elmi mühitin formalaşmasında, müəllim heyətinin elmi səviyyəsinin yüksəlməsində özünəməxsus rol oynadı.

1957/58-ci tədris ilində institutda çalışan 86 nəfər müəllimin 18 nəfərinin elmi dərəcəsi və elmi adı var idi.

1959-cu ildə tarix-filologiya fakültəsi Bakı şəhərinə köçürüldü. Bununla əlaqədar tələbə kontingenti azaldı. Azərbaycan SSR Nazirlər Sovetinin **«Həsən bəy Zərdabi adına Kirovabad Dövlət Pedaqoji İnstitutuna kömək edilməsi haqqında»** 9 iyun 1965-ci il tarixli qərarı institutun işində dönüş yaratdı, tədrisin, təlim-tərbiyənin keyfiyyəti yüksəldi, elmi-tədqiqat və elmi metodiki işlər yenidən quruldu. Həmin tədris ilində Azərbaycan SSR Nazirlər Sovetinin 29 iyun 1966-cı il tarixli sərəncamı ilə problem xarakterli elmi tədqiqat işlərini yerinə



**Məhəbbət Nəcəfov**
**(1929–2001)**

**Nəcəfov Məhəbbət Səməd oğlu** Cəbrayıl rayonunun Süleymanlı kəndində anadan olmuşdur. Ali təhsilini başa vurduqdan sonra taleyini Kirovabad (Gəncə) Pedaqoji İnstitutu ilə bağlamışdır, namizədlik (1959), doktorluq (1972) dissertasiyası müdafiə etmişdir. Kirovabad (Gəncə) Pedaqoji İnstitutunda rektor (1961–1965), psixologiya kafedrasının müdiri vəzifələrində çalışmışdır.

10-dan artıq kitabın, 100-dən artıq məqalənin müəllifidir.

yetirdiyinə, 2000-dən artıq tələbə kontingentinə malik olduğuna görə Həsən bəy Zərdabi adına Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutu ikinci kateqoriyalı ali məktəblər sırasına daxil edildi.

1966-cı ildə institutda fəaliyyət göstərən 4 fakültədə 2536 nəfər təhsil alırdı ki, onların 1198 nəfəri əyani, 1338 nəfəri isə qiyabi şöbənin tələbələri idi. Həmin ildə institutda 13 kafedra fəaliyyət göstərirdi. Bu irəliləyişdə o vaxtlar instituta rəhbərlik etmiş professorlar **Ələkbər Quliyevin** (1959–1960), **Davud Hacıyevin** (1960–1961), **Məhəbbət Nəcəfovun** (1961–1965) böyük zəhməti olmuşdur. Dosent **Yusif Qasımovun** rektor işlədiyi dövrdə də institut yüksək nailiyyətlər əldə etdi. 1966-cı ildə institutda 7 ixtisası əhatə edən axşam şöbəsi yaradıldı. Bunun çox böyük ictimai-siyasi əhəmiyyəti var idi. Birinci dəfə idi ki, şəhərin sakinləri işləməklə yanaşı, həm də ali təhsil almaq imkanına malik oldular. Həmin il şəhərin müxtəlif müəssisələrində işləyən 195 gənc istehsalatdan ayrılmadan birinci kursa qəbul olundu.

1968-ci ildə institutun yaranmasının 30 illiyi təntənə ilə qeyd olundu. Yubiley tədbirləri ilə bağlı hazırlanmış sənədlərdən birində deyilirdi: *«Keçən 30 il ərzində institut həm Azərbaycan Respublikası, həm də Gürcüstan və Ermənistanın azərbaycanlılar yaşayan bölgələri üçün 10000 nəfərdən artıq ali təhsilli müəllim hazırlamışdır. Onların bir çoxu hazırda görkəmli maarif və mədəniyyət işçisi kimi geniş hörmət və şöhrət qazanmışdır. İnstitutun məzunlarından təxminən 30 nəfəri elmlər doktoru və elmlər namizədi kimi yüksək elmi ada layiq görülmüşdür. Bir çox məzunlarımız respublikamızın şair və yazıçıları sırasında özlərinə layiqli yer tutmuş, partiya və sovet təşkilatlarında rəhbər vəzifələrdə çalışırlar».* İnstitutun arxivində saxlanılan və 1968-ci ilə aid digər bir məlumatda deyilir: *«Son illər hər il instituta 1500 nəfərə yaxın tələbə qəbul edilir. İndi institutun gündüz, axşam və qiyabi şöbələrində 7 ixtisas üzrə 5732 nəfər tələbə təhsil alır. İnstitutda 400 nəfərdən artıq professor-müəllim və tədris texniki köməkçi heyət gənclərin təlim-tərbiyəsi ilə məşğul olur.*



**Yusif Qasımov**
**(1928–1970)**

**Qasımov Yusif Həsən oğlu** Füzuli rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsinin fəlsəfə şöbəsində təhsil almışdır (1945–1950). Namizədlik dissertasiyası müdafiə etmişdir (1963). Azərbaycan LKGİK-də təlimatçı, şöbə müdiri, Azərbaycan KP MK-da partiya orqanları şöbəsinin məsul təşkilatçısı, Azərbaycan SSR Nazirlər Sovetində baş referent, Kirovabad (Gəncə) Pedaqoji İnstitutunun rektoru (1965–1969) vəzifələrində çalışmışdır.



**Qabil Seyidov**
**(1929–2007)**

**Seyidov Qabil Saleh oğlu** Bərdə rayonunun Ləmbəran kəndində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini bitirmişdir (1947–1952). Ağdam Müəllimlər İnstitutunda (1952/53), Kirovabad (Gəncə) Dövlət Pedaqoji İnstitutunun Şəki filialında (1953–2007) işləmişdir. Moskva Dövlət Universitetinin aspiranturasını bitirmiş, 1960-cı ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir.

Kirovabad (Gəncə) Pedaqoji İnstitutunun rektoru (1972–1975) vəzifəsində çalışmışdır.

*Müəllimlərdən 7 nəfəri elmlər doktoru, professor, 50 nəfərə yaxını elmlər namizədi, dosentdir. Onların çoxlu monoqrafiyaları, tədris vəsaitləri, elmi məqalələri çap olunmuşdur. Bu əsərlərin bəziləri nəinki respublikamızda, hətta ittifaq miqyasında və xarici ölkələrdə elmi ictimaiyyətin rəğbətini qazanmışdır» (bax: Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun arxivi, 1968-ci il üçün əmr kitabı).*

60-cı illərin sonu, 70-ci illərin əvvəllərində institutda elmi- tədqiqat, elmi-metodiki işləri canlandırmaq, professor-müəllim heyətini elmi axtarışlara həvəsləndirmək məqsədilə görkəmli alimlər (akademik Firidun Köçərli, professor Məmmədyusif Axundzadə, SSRİ Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, professor Abbasqulu Abbaszadə və b.) mühazirə oxumaq və məsləhət vermək üçün instituta dəvət olundular. Bu dövrdə orta məktəblərlə əlaqələr genişləndi. İnstitutun maddi-texniki bazasının möhkəmlənməsi, professor-müəllim heyətinin səmərəli işi, tələbə kontingentinin dinamik artımı nəticəsində Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutu Azərbaycan SSR Nazirlər Sovetinin 18 iyun 1969-cu il tarixli sərəncamı ilə birinci kateqoriyalı ali məktəblər sırasına daxil edildi. Qısa bir müddətdə institutun 30 nəfər əməkdaşı namizədlik, 7 nəfər əməkdaşı isə doktorluq dissertasiyası müdafiə etdi. Tədrisin keyfiyyətini yüksəltmək məqsədilə yeni kafedralar təşkil olundu. Həmin vaxt instituta dosent **Əliheydər Həşimov** (1969–1971) rəhbərlik edirdi.



**Şaiq Şıxkərimov**
**(1932–2007)**

**Şıxkərimov Şaiq Nacimaddin oğlu** Qusar rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin fəlsəfə fakültəsini bitirmişdir (1953). Texniki peşə və ümumtəhsil orta məktəblərində müəllim, Rus dili və ədəbiyyatı İnstitutunda baş müəllim (1964–1968), Bakı Ali Partiya məktəbində Marksizm-leninizm fəlsəfəsi kafedrasının müdiri (1970–1977), Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru (1977–1986), Marksizm-leninizm Universitetinin direktoru, Bakı Sosial Elmlər və Politologiya İnstitutunun prorektoru (1992) vəzifələrində çalışmışdır.

İnstituta professor **Tofiq Qazıyevin** rəhbərlik etdiyi müddətdə (1971/72) burada artıq 21 kafedra fəaliyyət göstərirdi.

1972-ci ildə **Qabil Seyidov** instituta rektor təyin olundu və 1975-ci ilə kimi bu vəzifəni icra etdi. Həmin illərdə institutda elmlər doktorlarının sayı 6-ya, elmlər namizədlərinin sayı isə 101 nəfərə çatmışdı.

Tələbələrə təhsil üçün normal şərait yaratmaq məqsədilə 70-ci illərin əvvəllərində dördmərtəbəli tədris kompleksi, 50 000 kitab fondu olan 100 yerlik kitabxana istifadəyə verildi.

*1978/79-cu tədris ilində institutda tələbə kontingenti*

| № | Fakültələr | Kurslar | | | | | Cəmi: |
|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | |
| 1. | Dil-ədəbiyyat | 174 | 174 | 173 | 215 | – | 736 |
| 2. | Tarix | 51 | 50 | 73 | 77 | | 251 |
| 3. | Fizika (ixtisas) | 25 | 25 | 24 | 24 | | 98 |
| 4. | Riyaziyyat | 150 | 173 | 196 | 191 | | 710 |
| 5. | Kimya (ixtisas) | – | 25 | 26 | – | | 51 |
| 6. | Biologiya-kimya | 25 | 25 | 25 | 28 | 22 | 125 |
| 7. | Kimya-biologiya | 23 | – | – | 48 | 48 | 119 |
| 8. | İb.təh.ped. və metodikası | 50 | 50 | 51 | 25 | | 176 |
| **Cəmi:** | | **498** | **522** | **568** | **608** | **70** | **2266** |

İnstitutun həmin dövrlərini yaxşı xatırlayıram. 1969-cu ildə Azərbaycan Dövlət Universitetini bitirdikdən sonra təyinatımı Gəncə Pedaqoji İnstitutunun riyaziyyat fakültəsinə vermişdilər. Riyazi analiz kafedrasına baş laborant vəzifəsinə təyin olunmuşdum. O zaman riyazi analiz kafedrasının müdiri Hidayət Abdullayev idi. O həm də tədris işləri üzrə prorektor vəzifəsində çalışırdı. Hidayət Abdullayev mənim yaddaşımda çox ədalətli, öz peşəsinə hörmət edən və ətrafındakılara da bu peşəyə qarşı böyük ehtiram aşılayan bir müəllim kimi qalmışdır.

*1978/79-cu tədris ilində institutun kafedralarının və elmi dərəcəsi olan əməkdaşların sayı*

| № | Kafedralar | Müəllimlərin sayı | Professorlar | Dosentlər | Elmlər namizədləri | Baş müəllimlər | Müəllimlər |
|---|---|---|---|---|---|---|---|
| 1. | Sov.İKP tarixi | 10 | – | 4 | 1 | 3 | 2 |
| 2. | Fəlsəfə | 10 | 1 | 2 | 4 | 1 | 2 |
| 3. | Elmi kommunizm | 7 | – | 2 | 2 | 2 | 1 |
| 4. | Siyasi iqtisad | 6 | – | 2 | – | 4 | – |
| 5. | SSRİ tarixi | 17 | – | 5 | 4 | 4 | 4 |
| 6. | Psixologiya | 8 | 1 | – | 2 | 2 | 3 |
| 7. | Pedaqogika | 15 | – | 1 | 3 | 4 | 7 |
| 8. | Riyazi analiz | 14 | – | 4 | 2 | 5 | 3 |
| 9. | Həndəsə və cəbr | 14 | – | 2 | 4 | 7 | 1 |
| 10. | Riyaz. təd. üsulu | 16 | – | 2 | 3 | 4 | 7 |
| 11. | Fiz. və onun təd. üsulu | 13 | – | 6 | 3 | 3 | 1 |
| 12. | Azərb. əd. və onun tədrisi metodikası | 14 | 1 | 1 | 7 | 1 | 4 |
| 13. | Azərb. dili və onun tədrisi metodikası | 19 | 2 | 11 | 3 | – | 3 |
| 14. | Azərb.dilçiliyi | 8 | – | 3 | 3 | – | 2 |
| 15. | Botanika | 7 | 1 | 3 | 2 | – | 1 |
| 16. | Zoologiya | 8 | – | 5 | – | 2 | 1 |
| 17. | Ümumi kimya | 10 | – | 4 | 3 | 1 | 2 |
| 18. | Üzvi kimya | 5 | – | 2 | 2 | – | 1 |
| 19. | Rus dili | 15 | – | 1 | 1 | 2 | 11 |
| 20. | Xarici dillər | 15 | – | – | – | 4 | 11 |
| 21. | Bəd.tər. və idman | 14 | – | – | – | 5 | 9 |
| 22. | Mülki müdafiə | 1 | – | – | – | 1 | – |
| **Cəmi:** | | **271** | **6** | **60** | **49** | **55** | **76** |




*Gəncə Dövlət Pedaqoji İnstitutunun binası*

1975–1990-cı illərdə instituta professorlar **Əlləddin Qədirov** (1975–1977, rektor əvəzi), **Şaiq Şıxkərimov** (1977–1986, rektor), **Əhməd Aslanov** (1986–1987, rektor əvəzi), dosent **Qurban Qurbanov** (1987–1990, rektor), professor **Niyazi Rəsulov** (1990–1992, rektor) rəhbərlik etmişlər.

80–90-cı illərdə respublikamızda ali təhsilin yenidən qurulması ilə əlaqədar Həsən bəy Zərdabi adına Gəncə Dövlət Pedaqoji İnstitutunun strukturunda əsaslı dəyişikliklər baş verdi, yeni kafedralar fəaliyyət göstərməyə başladı və yeni ixtisaslar üzrə tələbə qəbulu keçirildi.

1988-ci ildə aşağıdakı yeni ixtisaslar üzrə tələbə qəbulu keçirilmişdir: rəsmxət və təsviri incəsənət, ümumi texniki fənlər, riyaziyyat, informatika və hesablama texnikası, ümumi texniki fənlər və əmək, maşınşünaslıq. Profilə uyğun olaraq İbtidai təlimin metodikası, Ümumi texniki fənlər kafedraları fəaliyyətə başladı.

## Azərbaycan Dövlət İncəsənət İnstitutu

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 13 sentyabr 1944-cü il tarixli iclasında respublikada teatr təhsilinin vəziyyəti müzakirə edildi və belə bir nəticəyə gəlindi ki, 1923-cü ildən fəaliyyət göstərən Teatr Texnikumu müasir tələblərə cavab verən yeni aktyor və rejissor nəslinin yetişdirilməsi ilə bağlı qarşıya qoyulan vəzifəni tam həll edə bilməz. Ona görə də ali teatr məktəbinin yaranması vacibdir. Həmin qərar əsasında **1945-ci ilin iyun ayında Azərbaycan SSR Xalq Komissarları Sovetinin yanında İncəsənət idarəsinə Bakıda Azərbaycan Dövlət Teatr İnstitutu yaradılması haqqında göstəriş verildi.** Beləliklə də, Azərbaycanda Teatr İnstitutu yaradıldı. Bu, Azərbaycan teatr sənəti tarixində mühüm hadisə idi. İnstitut Teatr Texnikumunun (bu məktəb paralel olaraq 1948-ci ilə kimi fəaliyyət göstərmişdir) bazasında yarandı. Onun ilk müəllim kadrları da həmin texnikumdan gəldilər. Əvvəllər Teatr Texnikumunun direktoru işləmiş əməkdar müəllim **Musa Musayev** Teatr İnstitutunun ilk direktoru, professor P.Fridolin isə tədris və elmi işlər üzrə prorektoru təyin edildi.

Respublika hökuməti Azərbaycanda ilk ali teatr məktəbinin fəaliyyətə başlaması üçün böyük təşkilati işlər gördü. İnstituta maddi vəsait, zəruri ştatlar ayrıldı, əsasnamə işlənib hazırlandı və təsdiq edildi. Yeni yaranmış institutun tədris planı və proqramlarla təmin olunması üçün tədbirlər görüldü. Kitabxana, oxu zalı, mühazirə salonu yaradıldı, ehtiyacı olan tələbələrə yataqxanada 40 yer ayrıldı.

Teatr İnstitutuna ilk qəbul 1945-ci ilin sentyabr ayında keçirildi. SSRİ Xalq Komissarları Sovetinin sərəncamında instituta 60 nəfər tələbənin qəbulu nəzərdə tutulsa da, 40 nəfər abituriyent tələbə adını qazandı. Aktyorluq və rejissorluq ixtisaslarının hər birinə 15 nəfər, teatrşünaslıq ixtisasına isə 10 nəfər qəbul olundu. Sonrakı iki ildə hər il institutun aktyorluq və rejissorluq ixtisaslarının hər birinə 30 nəfər tələbə qəbul olundu.

Dərslər 1945-ci ilin oktyabrın 1-də başlandı. İnstitut 30 nəfərdən ibarət müəllim heyəti ilə fəaliyyətə başladı. Onlardan 7 nəfəri professor, bir neçə nəfəri xalq artisti, Əməkdar incəsənət xadimi, 3 nəfəri dosent, 4 nəfəri baş müəllim, qalan 16 nəfəri isə müəllim, assistent, tədris köməkçi heyəti idi. Müəllimlər arasında Bakı teatr məktəbinin məzunu Mehdi Məmmədov da var idi. O, aktyor və rejissor sənətindən dərs deyirdi. Zəngin elmi təfəkkürə malik olan Mehdi Məmmədov sonralar respublikanın Əməkdar incəsənət xadimi və SSRİ xalq artisti fəxri adlarına layiq görülmüşdü.

İlk olaraq institutda 3 fakültə – Aktyorluq, Rejissorluq və Teatrşünaslıq fakültələri yaradıldı, nəzərdə tutulmuş 9 kafedradan 5-i – Marksizm-leninizm, Aktyor sənəti, Teatrşünaslıq, Dil və ədəbiyyatşünaslıq, Hərbi kafedra fəaliyyətə başladı. Görülən tədbirlərə baxmayaraq, tələbə qəbulu planı yerinə yetirilmədi. Bunun əsas səbəbi, bəlkə də, ölkədəki iqtisadi vəziyyətin ağır, təhsilin pullu olması idi. 1945/46-cı tədris ili üçün tələbə qəbulu haqqında verilən elanda illik təhsil haqqının 500 manat olması göstərilmişdi. O zaman üçün böyük məbləğ olmasa da, maddi imkanı zəif olan gənclərə bu məbləği ödəmək o qədər də asan deyildi.

Hətta maddi vəziyyəti ilə bağlı institutun 12 tələbəsi birinci semestrdən sonra təhsilini yarımçıq qoymuşdu.

İlk illərdə professor-müəllim heyətinin çatışmazlığı tədris prosesinin təşkilində müəyyən çətinliklər törədirdi. İnstitut üçün 31 professor-müəllim yeri ayrıldığı halda, birinci tədris ilində ştatda yalnız 7 nəfər işləyirdi. Müəllimlərin əksəriyyəti, əsasən ADU-dan dəvət edilmişdilər, əvəzçilik və ya saathesabı ilə dərs aparırdılar. Bu da təbii ki, tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi.

1946/47-ci tədris ilində institutun rəhbərliyi ştatda olan müəllimlərin sayını 18-ə çatdırdı. Onlardan 1 nəfəri professor, 3 nəfəri elmlər namizədi, dosent, 1 nəfəri dərəcəsi olmayan dosent, 5 nəfəri baş müəllim, 8 nəfəri isə müəllim idi. Bunlardan başqa, tədris köməkçi heyəti tərkibinə 6 nəfər laborant, 2 nəfər də konsertmeyster daxil idi. Tələbələrin təhsil-tərbiyəsi ilə Azərbaycan SSR xalq artistləri Aleksandr Tuqanov, Kazım Ziya, Azərbaycan SSR əməkdar müəllimi O.N.Şerbina və başqa tanınmış mütəxəssislər məşğul olurdu. Bütün çətinliklərə baxmayaraq, həmin tədris ilində institutun 63 nəfər tələbəsinin əksəriyyəti tədris ilini «əla» və «yaxşı» qiymətlərlə başa vurdu. Müəllim kollektivinin səyi ilə institutun darısqal binasında, kiçik də olsa, tamaşa zalı və qrim otağı təşkil edildi.

1946-cı ildə Azərbaycan Teatr İnstitutu Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət idarəsinin tabeliyinə verildi. 1947/48-ci tədris ilində institutun həyatında müəyyən canlanma yarandı. Bu dövrdə tələbələrin sayı 90 nəfərə çatmışdı. İnstitutun birinci kursunda istedad və qabiliyyəti ilə seçilən 35 gənc təhsil alırdı. Professor-müəllim heyətinin tərkibi də nəzərəçarpacaq dərəcədə dəyişmişdi. Müəllimlərin 90%-nin 10 ildən artıq pedaqoji iş stajı var idi. Müəllim heyətinin böyük əksəriyyəti sənətinin ustası olan təcrübəli mütəxəssislər idi. Onların 4 nəfəri professor, 6 nəfəri dosent idi. Bütün bunlara baxmayaraq, bəzi çətinliklər qalmaqda davam edirdi. Yeni yaranmış institutun maddi-texniki bazası zəif idi, köhnə, qəza vəziyyətində olan birmərtəbəli binada yerləşirdi. İnstitutun strukturunun təkmilləşdirilməsinə də böyük ehtiyac hiss olunurdu. Kafedralar arasında vəzifə bölgüsündə qeyri-mütənasiblik mövcud idi. İşin həcminə görə böyük olan aktyor sənəti və rejissorluq kafedrası özündə bütün ixtisas fənlərini cəmləşdirmişdi. İnstitut müəllimlərinin yarısı bu kafedranın əməkdaşları idi. Məhz buna görə 1948-ci ilin noyabr ayında institutun Elmi Şurasının iclasında həmin kafedra rejissorluq və aktyorluq kafedralarına bölündü.

1947/48-ci tədris ilində tələbələrin iştirakı ilə Bakı şəhərinin müxtəlif klub və mədəniyyət evlərində 60-dan artıq konsert və tamaşa göstərildi. Teartşünaslıq fakültəsinin tələbələri həmin dövrdə Azərbaycan teatrının tarixinə dair qiymətli materiallar topladı.

1949-cu ildə Azərbaycan SSR xalq artisti Rza Təhmasibin bədii rəhbərliyi ilə aktyorluq fakültəsinin IV kurs tələbələri Nəcəf bəy Vəzirovun «Ağakərim xan» komediyasını Gənc Tamaşaçılar Teatrında uğurla nümayiş etdirdilər.

Azərbaycan Dövlət Teatr İnstitutunda ilk buraxılış 1949-cu ilin iyul ayında oldu. İlk ali teatr məktəbini dram teatrı aktyoru ixtisası üzrə 14 nəfər bitirdi.

1950-ci ildə institutu 6 teatrşünas və 8 aktyor, 1951-ci ildə dram teatrları üzrə 7 rejissor və 10 aktyor bitirdi. Məzunların çox hissəsi kənd rayonlarına göndərildi. Azərbaycanın ayrı-ayrı rayonlarında yaranan teatrların təməlini məhz həmin məzunlar qoymuşlar.

Təhsildə fərqlənən bir neçə tələbə Moskva Dövlət Teatr Sənəti İnstitutuna və Leninqrad (Sankt-Peterburq) İnstitutuna göndərildi. İnstitutun ilk məzunları içərisində tanınmış səhnə ustaları Leyla Bədirbəyli, Məlik Dadaşov, Nəcibə Məlikova, Tamilla Ağamirova, Rauf Kazımovski, Müxlis Cənizadə, Ulduz Əliyeva, Kamil Rüstəmbəyov və b. var idi. 40-cı illərin sonu, 50-ci illərin əvvəllərində dövlət teatrlarının sayı kəskin şəkildə azaldı. Bu azalma tendensiyası institutu bitirənlərin iş yerləri ilə təmin olunmasında ciddi maneələr yaratdı. Öz ixtisası üzrə iş tapmayan bir çox məzun başqa ixtisas üzrə işləmək məcburiyyətində qaldı. Yaranmış vəziyyət tələbə qəbuluna da ciddi təsir göstərdi.

1949–1951-ci illərdə instituta, ümumiyyətlə, tələbə qəbulu aparılmadı. 1952/53-cü tədris ilində qəbul keçirildi.

Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə 1953-cü ildə Azərbaycan Dövlət Teatr İnstitutu Mədəniyyət Nazirliyinin tabeliyinə keçirildi. 1954-cü ildə instituta SSRİ xalq artisti Mirzağa Əliyevin adı verildi.

1954/55-ci tədris ilində qəbul yenidən dayandırıldı. Bu, hər tədris ilində 40–45 nəfərdən çox olmayan tələbə kontingentini daha da azaltdı. Elə illər oldu ki, institutda cəmi 34 (1954/55-ci tədris ilində) və ya 36 (1957/58-ci tədris ilində) nəfər təhsil alırdı. 1954-cü ildə institutu cəmi 6 aktyor və 1 rejissor bitirmişdi. Tələbələrin arasında qızlar olduqca az idi. İnstitutu bitirmiş bəzi qızları isə valideynləri səhnəyə buraxmırdı.

50-ci illərdə respublikada mədəniyyətin müxtəlif sahələrində ixtisaslı kadrlara ciddi ehtiyac hiss olunduğu halda, institutda yalnız teatrlar üçün mütəxəssislər hazırlanırdı. Ona görə də 1954-cü ilin mayında institutun rəhbərliyi Azərbaycan SSR Nazirlər Soveti qarşısında institutun profilində əsaslı dəyişiklik edilməsi, burada təsviri sənət üzrə də mütəxəssislər, kino aktyorları, mədəniyyət evləri və sarayları üçün işçilər hazırlanması məsələsini qaldırdı.

1956-cı ildə institutun 6-cı buraxılışı oldu. Tələbələr Gənc Tamaşaçılar Teatrının səhnəsində Nazim Hikmətin «Qəribə adam» və Cəlil Məmmədquluzadənin «Ölülər» pyeslərindən ibarət diplom tamaşaları göstərdilər. Tamaşalar uğurla keçdi, 14 nəfər gənc aktyora ali təhsil haqqında diplom verildi. Sonralar institutun elmi işlər üzrə prorektoru işləmiş Mahmud Allahverdiyev də bu məzunların sırasında idi.

Kadr hazırlığının keyfiyyətini yaxşılaşdırmaq üçün 1956/57-ci tədris ilində Bakı teatrlarının təcrübəli mütəxəssisləri, görkəmli dram-kino rejissorları Ədil İskəndərov, Mehdi Məmmədov, Məhərrəm Haşımov və Lətif Səfərov tədris işinə cəlb olundular. Onlar tanınmış rejissor və aktyor olmaqla yanaşı, həm də yeni aktyor nəslinin yetişməsinə gərgin əmək sərf etdilər. Onların diqqət və qayğısı nəticəsində institutu fərqlənmə diplomu ilə bitirən Turan Cavid, Cabir Səfərov, Ələmdar Quluzadə, Müxlis Qənizadə, Adil Babayev, Tamilla Yusifbəyli institutda müəllim saxlanıldı.



**Rahib Hüseynov**
**(1931–1994)**

**Hüseynov Rahib Abuzər oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Teatr İnstitutunun Teatrşünaslıq ixtisasını fərqlənmə diplomu ilə bitirmiş (1953) və institutda pedaqoji fəaliyyətə başlamışdır.

1954-cü ildə Bakı şəhəri Caparidze rayonu komsomol komitəsinin birinci katibi (1954–1957), Azərbaycan Elmlər Akademiyasında kiçik elmi işçi (1957–1958) vəzifələrində çalışmışdır.

Namizədlik (1967) və doktorluq (1973) dissertasiyaları müdafiə etmişdir.

Teatr İnstitutunun direktor müavini (1958–1960), rektor (1960–1977) vəzifələrində çalışmışdır. Bir çox dövlət mükafatlarına layiq görülmüş, orden, medallarla təltif edilmişdir. Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür (1974).

50-ci illərin axırlarında institutun Elmi Şurasının təqdimatı əsasında SSRİ Ali Attestasiya Komissiyası tərəfindən Aleksandr Tuqanova və Rza Təhmasibə professor, Ədil İskəndərova və Mehdi Məmmədova dosent elmi adları verildi. Yeri gəlmişkən, bir fakta xüsusi diqqət yetirmək istərdim: o zamanlar Azərbaycan SSR Mədəniyyət Nazirliyinin qərarına əsasən Teatr İnstitutunun müəllimlərinin və tələbələrinin teatr və konsert tamaşalarına pulsuz getmələrinə icazə verilirdi. Şübhəsiz ki, bu, institutda peşəkar teatr-kino aktyorlarının hazırlanmasının keyfiyyətinə əsaslı təsir göstərir, gənclərin aktyor peşəsinə həvəsini artırırdı. Bu, yaxşı bir ənənə olsa da, təəssüf ki, sonralar unuduldu.

1958-ci ilin aprel ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosu respublikada teatr sənəti sahəsində mütəxəssis hazırlığının vəziyyəti məsələlərini müzakirə edib Teatr İnstitutunun işində lazımi dəyişikliklər etmək və ixtisasların sayını artırmaqla institutu İncəsənət İnstitutuna çevirmək haqqında qərar qəbul etdi. Həmin qərarda Bakı şəhər İcraiyyə Komitəsinə həvalə olundu ki, institutu münasib bina ilə təmin etsin.

Azərbaycan KP MK bürosunun 1958-ci ilin aprelində qəbul etdiyi qərar Teatr İnstitutunun fəaliyyətində köklü dəyişikliklər yaratdı. İnstitutun işi yenidən quruldu, yeni fakültələr və ixtisaslar meydana gəldi, tələbə qəbulu artırıldı. 1959-cu ildə mədəni-maarif işçisi ixtisasına ilk qəbul keçirildi.

60-cı illərdə respublikada teatrların səviyyəsini yüksəltmək, teatr üçün yüksəkixtisaslı aktyor və rejissor nəsli yetişdirmək məqsədilə bir sıra tədbirlər həyata keçirildi.

1960-cı il aprelin 8-də Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Komitəsinin qərarı ilə **Rahib Hüseynov** instituta rektor (1960–1977) təyin edildi.

1961-ci ildə Rejissorluq və Teatrşünaslıq kafedraları fəaliyyətə başladı. Dram teatrı, kino aktyoru ixtisası ilə yanaşı, musiqili komediya aktyorları da hazırlanmağa başlandı. Axşam və qiyabi şöbələr təşkil edildi. Tələbələrin sayı xeyli artdı.

1962-ci il avqustun 6-da Azərbaycan SSR Nazirlər Soveti Azərbaycan Dövlət Teatr İnstitutunun fəaliyyətinin yaxşılaşdırılması haqqında xüsusi qərar qəbul etdi. Qərarda milli mədəniyyətimizin inkişaf istiqamətləri müəyyənləşdirildi, teatrlarımız üçün istedadlı və səriştəli kadr hazırlığının genişləndirilməsi və yaxşılaşdırılması yolları müəyyən edildi. 1962-ci ildə instituta əlavə bina verildi. Sonralar institut

daha böyük binaya köçürüldü. Teatr tarixi, səsyazma kabinetləri təşkil olundu. Qrim, foto, kino və s. kabinetlər ən yeni texniki vəsaitlə və avadanlıqla təchiz edildi. İnstitutun tədris teatrı yaradıldı. Teatrın quruluş, kostyum, tikmə, işıq, rekvizit sexləri fəaliyyət göstərməyə başladı.

1964-cü ildə institutun Teatr fakültəsini 39 nəfər gənc bitirdi, onlardan 21 nəfəri Azərbaycan, 18 nəfəri Dağıstan teatrları üçün hazırlanmışdı. Məzunların arasında gələcəyin görkəmli aktyor və rejissorları Şahmar Ələkbərov, Həsən Əbluc, Səfurə İbrahimova, Tariyel Qasımov da var idi.

1964-cü ildə institutun Dram və kino aktyorluğu fakültəsini fərqlənmə diplomu ilə bitirmiş Bayram Hacıyev həmin ildən bu ali təhsil ocağında müəllimlik fəaliyyətinə başladı.

Bu illərdə institutun teatr və kino şöbəsinin müdiri Cəfər Cəfərov da burada pedaqoji fəaliyyət göstərirdi. Onun elmi kadrların hazırlanmasında böyük xidməti olmuşdur.

1965-ci il institutun həyatına yubiley ili kimi daxil oldu. Həmin ildə respublikanın teatr ictimaiyyəti Azərbaycan Dövlət Teatr İnstitutunun yaradılmasının 20 illiyini qeyd etdi. O dövrdə Teatr İnstitutunun tələbə kontingenti genişlənmiş, 756 nəfərə çatmışdı. Teatr sənəti üçün ixtisaslı kadr hazırlığına 116 nəfər professor-müəllim və yaradıcı heyət cəlb olunmuşdu. Elə həmin illərdə Məryəm Əlizadə, İlham Rəhimli və başqaları Teatrşünaslıq fakültəsində təhsil alırdılar. Onlar bu institutu fərqlənmə diplomu ilə bitirdilər.

1966-cı ilin yanvar-fevral aylarında institutun tələbələri Moskvada vokal təhsilinə həsr edilmiş Ümumittifaq konfransda uğurla çıxış etdilər.

Artıq 1967/68-ci tədris ilində institutda 14 kafedra: Aktyor sənəti, Rejissorluq, Teatr və ədəbiyyat tarixi, Səhnə danışığı, Səhnə hərəkəti, Vokal, Marksizm-leninizm, Təsviri sənət, Musiqi fənləri, Dillər, Mədəni-maarif işi, Rəsm, Rəngkarlıq və s. fəaliyyət göstərirdi. İnstitutda 1021 tələbə təhsil alır, onların təhsil-tərbiyəsi ilə yüksəkixtisaslı müəllimlər məşğul olurdu.

**Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin 2 aprel 1968-ci il tarixli əmrinə müvafiq olaraq institut Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutu adlandırıldı.**

İncəsənət İnstitutunun həyatında əsaslı canlanma 60–70-ci illərə təsadüf edir. O vaxt institut İttifaqın başqa ali məktəbləri ilə möhkəm əlaqələr yaratdı. Həmin illərdə tələbə kontingentinin keyfiyyəti yaxşılaşdı. Tələbələrin əksəriyyəti institutda fəaliyyətə başlayan müxtəlif dərnəklərdə, klublarda, müsabiqələrdə, elmi-nəzəri və praktik konfranslarda iştirak edirdilər.

Ali məktəbə 1977-ci ildən professor **Aslan Aslanov** rəhbərlik etməyə başladı. Onun təşəbbüsü ilə pedaqoji fəaliyyətə yeni kadrlar cəlb olundu, tədris prosesinin inkişafı üçün yeni tədbirlər həyata keçirildi. Aktyorluq fakültəsində tədrisin təşkilini yüksək səviyyəyə qaldırmaq üçün geniş imkanlar yarandı, texniki təchizat gücləndirildi.

1978/79-cu tədris ilində institutun filmotekasında 68 tədris filmi və 198 diafilm var idi. Burada tədris filmləri və diafilmlər nümayiş etdirilən xüsusi kino kabineti fəaliyyət göstərirdi. Səsyazma kabineti xaricdə istehsal olunmuş



**Aslan Aslanov**
**(1926–1995)**

**Aslanov Aslan Məhəmməd oğlu** Ağstafa şəhərində anadan olmuşdur. Ağstafa dəmiryol məktəbini bitirdikdən sonra (1942) bir müddət həmin məktəbdə müəllimlik etmişdir.

Azərbaycan Dövlət Universitetinin fəlsəfə şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir (1945–1950). Azərbaycan Dövlət Universitetinin Fəlsəfə kafedrasında müəllim, baş müəllim, dosent, Estetika və etika kafedrasının müdiri (1961–1988) vəzifələrində işləmiş, iki dəfə ADU-nun partiya komitəsinin katibi (1963–1966, 1975–1977) seçilmişdir.

Azərbaycan Dövlət İncəsənət İnstitutunun rektoru (1977–1987), Azərbaycan Elmlər Akademiyasında akademik-katib və Fəlsəfə və Hüquq İnstitutunun direktoru vəzifəsində (1987–1995) çalışmışdır.

Namizədlik (1956) və doktorluq (1973) dissertasiyaları müdafiə etmiş, Azərbaycan Respublikası EA-nın həqiqi üzvü, ictimai elmlər üzrə vitse-prezident olmuşdur. Əməkdar elm xadimi fəxri adına və bir sıra orden və medallara layiq görülmüşdür.

müasir texnika ilə təchiz olunmuşdu. Tələbələrin hazırladıqları tamaşalar, musiqi nömrələri, monoloqlar bu kabinetdə lentə yazılır, əyani vəsait kimi məşqlərdə istifadə olunurdu. Görülən bu kimi tədbirlər tələbələrin peşəkarlıq səviyyəsinin yüksəlməsinə təsir edirdi. Onlar həm institut, həm də kənarda keçirilən müxtəlif tədbirlərdə, müsabiqələrdə fəal iştirak edir, diqqətəlayiq uğurlar qazanırdılar. Məsələn, tələbələrdən Yaqut Abdullayeva, Sahib Kərimov və Azad Zamanov «Oxu tar» respublika müsabiqəsində iştirak etmiş və onun qalibləri olmuşdular.

70-ci illərdə institutda bu elmi kadrların yetişdirilməsində professorlar Aydın Dadaşovun, Niyazi Mehdinin də rolu olmuşdur.

1982-ci ildə institutda 13 kafedra (marksizm-leninizm, teatr tarixi, xoreoqrafiya, səhnə texnikası və linqafon kabinetləri və s.) fəaliyyət göstərirdi. Tədrisin təşkilində və onun keyfiyyətinin yüksəldilməsi işində Tədris Teatrı, kino-foto və texniki vasitələr laboratoriyası mühüm rol oynayırdı. Yüksəkixtisaslı kadr hazırlığı ilə 135 nəfər professor-müəllim, o cümlədən 2 nəfər SSRİ xalq artisti, 1 nəfər SSRİ xalq rəssamı, 3 nəfər Azərbaycan SSR EA-nın müxbir üzvü, 2 nəfər SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, 5 nəfər respublikanın xalq artisti məşğul olurdu. Müəllimlərdən 6 nəfəri professor, 33 nəfəri elmlər namizədi və dosent idi. Tədrisin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə teatr təhsilinin məzmununda dəyişikliklər edilir, proqramlar, dərslik və dərs vəsaitləri yeniləşdirilirdi. Respublika teatrları üçün yüksəkixtisaslı kadr hazırlığı ildən-ilə genişlənirdi. İnstitut təşkil edildiyi dövrdən 1982-ciilədək 850 nəfər dram-kino aktyoru, 185 nəfər musiqili komediya aktyoru, 200 nəfər rejissor hazırlanmışdı.

80-ci illərin əvvəllərində institut rəhbərliyi əldə edilmiş nailiyyətləri möhkəmləndirmək, müəllimlərin tərkibini yaxşılaşdırmaq və gəncləşdirmək məqsədilə aspirantura yolu ilə kadr hazırlığına xüsusi diqqət yetirirdi. 1983-cü ildə institutun 10 nəfər gənc əməkdaşı Moskva, Leninqrad (Sankt-Peterburq) və Bakının ali təhsil müəssisələrinin məqsədli aspiranturalarında təhsil alırdı. 32 nəfər müəllim SSRİ-nin müxtəlif ali məktəblərindəki ixtisasartırma və təkmilləşdirmə kurslarına göndərilmişdi. Kafedralara yeni-yeni istedadlı gənc qüvvələr cəlb olunurdu. Bunu səhnə danışığı və nitq mədəniyyəti kafedrasının fəaliyyətində aydın görmək

olardı. İnstitutun yetirmələri olan əməkdar artistlər Səməndər Rzayev, Hamlet Xanızadə, Mikayıl Mirzəyev kimi istedadlı aktyorlar və bədii qiraət ustaları kafedraya pedaqoji işə dəvət olunmuşdular.

1981–1991-ci illərdə burada rəngkarlıq, qrafika, heykəltəraşlıq, sənətşünaslıq ixtisasları, habelə teatr, kino və bədii sənaye incəsənəti üzrə bir sıra yeni ixtisaslar yaradılmışdı.

1987-ci ilin aprelində institutun rəhbərliyində dəyişiklik edildi. İnstituta rektor vəzifəsinə professor **Timuçin Əfəndiyev** təyin edildi. İnstitutun maddi-texniki bazası genişləndirildi, institutda ixtisaslaşdırılmış auditoriyalar, kino-foto, səsyazma, qrim kabinetləri təşkil edildi. Universitetin özünün Tədris teatrı, mətbəəsi və zəngin kitabxanası yaradıldı. Respublikada tanınmış sənət və elm adamları, Azərbaycan EA-nın 2 müxbir üzvü, 10-dan artıq elmlər doktoru və 100-ə yaxın elmlər namizədi, dosentlər pedaqoji prosesə cəlb olundular. Yeni ixtisaslar üzrə qəbul aparıldı, rəssamlıq və musiqi təmayüllü ixtisasların sayı artırıldı. Bu zamana qədər respublikada hazırlanmayan sənətşünaslıq, reklam işi, dizayn, xalçaçılıq ixtisasları üzrə ilk tələbə qəbulu həyata keçirildi.

1988–1991-ci illərdə institutun ixtisas şəbəkəsi növbəti dəfə genişləndi, kino rejissorluğu, kinoşünas-operator sənəti, ədəbi iş və ekran dramaturgiyası, muzey işi, xoreoqrafiya sənəti və s. kimi respublikamızın mədəni həyatı üçün çox zəruri olan yeni ixtisaslar, aspirantura şöbəsi, nəzəri ixtisaslar üzrə müdafiə şuraları yaradıldı. Artıq hər il 200 çap vərəqi həcmində dərslik, dərs vəsaiti, elmi-metodiki işlər çap olunmağa başlandı. İncəsənət İnstitutunun müəllim və tələbə kollektivi bir çox ümumittifaq elmi-nəzəri və bədii yaradıcılıq tədbirlərində uğurla iştirak etdilər. İnstitutun tələbələri bir neçə il bədii qiraətçilərin Leninqrad (Sankt-Peterburq) şəhərində keçirilən V.Yaxuntov adına ümumittifaq müsabiqəsinin, «Tələbə və elmi texniki tərəqqi» adlı ümumittifaq olimpiadasının qalibi oldular. Bu dövrdə institutun beynəlxalq əlaqələri genişlənməyə başladı. Türkiyənin, İran İslam Respublikasının ali məktəbləri ilə müəllim və tələbə mübadiləsi haqqında protokollar imzalandı. İnstitutda xarici tələbələr incəsənətin müxtəlif sahələrinin sirlərini öyrənməyə başladılar.

Azərbaycan SSR Nazirlər Sovetinin 04.06.1990-cı il tarixli qərarı ilə Azərbaycan Dövlət İncəsənət İnstitutu 1-ci kateqoriyalı ali məktəblər sırasına daxil edildi. 1991-ci ilin əvvəllərində respublikanın Nazirlər Soveti İncəsənət İnstitutunun mühüm struktur dəyişikliklərini, onun çoxprofilli ixtisaslar üzrə mütəxəssis yetişdirdiyini, elmi-texniki və yaradıcılıq bazasının möhkəmləndiyini nəzərə alaraq, bu ali təhsil müəssisəsinin Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) adlandırılması haqda qərar qəbul etdi. İnstitut respublikamızda Bakı Dövlət Universitetindən sonra Universitet statusu alan ikinci ali məktəb oldu.

1991-ci ildə də ali məktəbin strukturunda əsaslı dəyişiklik edildi. Yeni şöbələr və ixtisaslar üzrə qəbul aparıldı, kino rejissoru, televiziya rejissoru, kino dramaturgiyası ilə əlaqədar ədəbi iş, teatr rəssamı ixtisasları üzrə kadr hazırlığına başlandı.

### Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu

40-cı illərdə Azərbaycanın ümumtəhsil məktəblərində rus dili və ədəbiyyatı müəllimlərinə ciddi ehtiyac yaranmışdı. Bu ehtiyacı ödəmək məqsədilə 1946-cı ildə SSRİ Xalq Komissarları Sovetinin 2 fevral tarixli sərəncamı və **Azərbaycan SSR Nazirlər Sovetinin 15 may 1946-cı il tarixli qərarı əsasında Mirzə Fətəli Axundov adına ikiillik Azərbaycan Müəllimlər İnstitutu yaradıldı. Aleksey Spiridonoviç-Loginov** instituta ilk direktor təyin edildi.

Respublikada rus dili və ədəbiyyatı müəllimləri hazırlayan elm və tədris mərkəzinin əsası qoyuldu.

Yeni yaranmış institut qarşısında Azərbaycanın yeddiillik məktəbləri üçün rus dili və ədəbiyyatı müəllimlərinin hazırlanması vəzifəsi qoyulmuşdu.

İlk tədris ilində institutda 4 kafedra – Marksizm-leninizm, Rus ədəbiyyatı, Azərbaycan dili, Pedaqogika və Psixologiya kafedraları yaradıldı. Kafedralarda 28 əməkdaş (8 elmlər namizədi və dosent, 9 baş müəllim, 9 müəllim, 2 assistent) çalışırdı.

1946/47-ci tədris ilində institutun I kursuna 108 nəfər tələbə qəbul olundu. 1947/48-ci tədris ilində I kursa qəbul olunan 100 tələbənin hamısı azərbaycanlı idi.

1948-ci ildə institutun ilk məzunları rus dili və ədəbiyyatı fənnini tədris etmək üçün Azərbaycan məktəblərinə göndərildilər. Məzunların arasında institutu fərqlənmə diplomu ilə bitirən Adilə Bayramova, Qeysi Məmmədov, Qurban Abışov da var idi.



**Aleksey Loginov (1895–1959)**

**Loginov Aleksey Spiridonoviç** 1916-cı ildə Həştərxan Dövlət Universitetinin Tarix-filologiya fakültəsini bitirmişdir. Nəriman Nərimanov Həştərxanda quberniya xalq maarifi idarəsinin müdiri işləyəndə Aleksey Loginov həmin idarədə vahid əmək məktəbi şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Məktəb direktoru, ali məktəb müəllimi, Maarif Nazirliyi ali məktəblər və pedaqoji texnikumlar idarəsinin rəisi, Azərbaycan SSR maarif nazirinin müavini, ikiillik Azərbaycan Müəllimlər İnstitutunun direktoru (1946–1959) vəzifələrində çalışmışdır.

Əməkdar müəllim fəxri adına layiq görülmüş, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif edilmişdir. Bakı şəhərindəki 8 nömrəli orta məktəb Aleksey Loginovun adını daşıyır.

Həmin tədris ilində institutda qiyabi şöbə yaradıldı və oraya 200 tələbə qəbul olundu. Əyani şöbəyə də 200 tələbənin qəbulu planlaşdırıldı. Qiyabi şöbənin yaradılması ilə əlaqədar olaraq tədris planında əsaslı dəyişiklik edildi, tələbələrə 60 saat həcmində praktik rus dili fənninin tədrisi nəzərdə tutuldu. Həmin fənnin yarımqruplarla keçirilməsi planlaşdırıldı.

İnstitutun yarandığı ilk günlərdən müəllimlərin elmi-pedaqoji hazırlığına xüsusi diqqət yetirilirdi. Bu məqsədlə 1947-ci ilin sentyabrından institutun nəzdində Azərbaycan Respublikası Maarif Nazirliyinin mətbu orqanı «Azərbaycan məktəbi» jurnalına əlavə «В помощь учителю русского языка в нерусской школе» («Qeyri-rus məktəbində rus dili müəlliminə kömək») adlı məcmuə nəşrə başladı. Məcmuənin 45 səhifədən ibarət olan ilk nömrəsi 3000 tirajla

nəşr olundu. Məcmuənin redaktoru tanınmış metodist Anatoli Qriqoryeviç Daxnoviç idi. Məcmuə tez bir zamanda nəinki Azərbaycanda, eləcə də bütün Zaqafqaziyada rus dili və ədəbiyyatı müəllimlərinin yaxın köməkçisinə çevrildi.

1949-cu ilin oktyabrından 1970-ci ilin aprelinədək məcmuə «Русский язык и литература в нерусской школе» («Qeyri-rus məktəblərində rus dili və ədəbiyyatı») adı altında çıxmışdır.

1949-cu ildə institutu bitirən 50 nəfər məzundan 12 nəfəri fərqlənmə diplomu almışdı. 1950-ci ildə institutun əyani şöbəsinin hər iki kursunda 315, qiyabi şöbəsində isə 316 tələbə təhsil alırdı.

Fəaliyyət göstərdiyi 6 il ərzində Müəllimlər İnstitutu 427 rus dili və ədəbiyyatı müəllimi hazırladı.

*1948–1952-ci illərdə ikiillik Azərbaycan Müəllimlər İnstitutunun əyani şöbəsinin məzunları haqqında*

| İllər | Məzunlar | Əlaçılar | Cinsi: | |
|---|---|---|---|---|
| | | | kişi | qadın |
| 1948 | 66 | 3 | 37 | 29 |
| 1949 | 50 | 12 | 38 | 12 |
| 1950 | 98 | 10 | 59 | 39 |
| 1951 | 104 | 9 | 51 | 53 |
| 1952 | 109 | 11 | 33 | 76 |
| **Cəmi:** | **427** | **45** | **218** | **209** |

*(Bax: Азербайджанский Педагогический Институт русского языка и литературы им. М.Ф.Ахундова (1946–1996). Баку, «Мутарджим», 1996, стр.10.)*

**SSRİ Nazirlər Sovetinin 24 iyun 1952-ci il tarixli qərarına uyğun olaraq Azərbaycan SSR Nazirlər Soveti Mirzə Fətəli Axundov adına Azərbaycan Müəllimlər İnstitutunun orta məktəblər üçün rus dili və ədəbiyyatı müəllimləri hazırlayan dördillik tədris müddətli pedaqoji instituta çevrilməsi barədə qərar qəbul etdi.** İlk tədris ilində ali məktəbə 200 nəfər tələbənin qəbulu planlaşdırılsa da, qəbul 300 nəfərə qədər artırıldı.

1 iyun 1953-cü ildə institutda 445 tələbə (154-ü oğlan, 291-i qız) təhsil alırdı ki, onlardan da 221 nəfəri azərbaycanlı idi.

*Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunda təhsil alan tələbələrin tərkibi (1 iyun 1953)*

| Kurslar | Tələbələr | Cinsi: | |
|---|---|---|---|
| | | kişi | qadın |
| I | 288 | 98 | 190 |
| II | 157 | 56 | 101 |
| **Cəmi:** | **445** | **154** | **291** |

*(Bax: Азербайджанский Педагогический Институт русского языка и литературы им. М.Ф.Ахундова (1946–1996). Баку, «Мутарджим», 1996, стр.12.)*

1953/54-cü tədris ilində institutda 12 kafedra (Rus dilçiliyi, Rus ədəbiyyatı, Xarici ədəbiyyat, Rus dili və ədəbiyyatının tədrisi metodikası, Praktik rus dili kursu, Marksizm-leninizmin əsasları, Siyasi-iqtisad və fəlsəfə, Pedaqogika, Azərbaycan dili, Xarici

dillər, Psixologiya, Bədən tərbiyəsi) fəaliyyət göstərirdi.

1956/57-ci tədris ilində institut beşillik tədris planına keçdi. Həmin il SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyi institutun kateqoriyasını artıraraq, onu ikinci kateqoriyalı institutlar sırasına daxil etdi.

İnstitutda təhsil alan tələbələrin sayı ildənilə artırdı. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür:

*1952–1959-cu illərdə Azərbaycan Rus dili və Ədəbiyyatı İnstitutunda təhsil alan tələbələr haqqında məlumat*

| Tədris illəri | Tələbələrin ümumi sayı |
|---|---|
| 1952/53 | 445 |
| 1953/54 | 960 |
| 1954/55 | 1063 |
| 1955/56 | 1072 |
| 1956/57 | 1004 |
| 1957/58 | 1032 |
| 1958/59 | 1012 |

**1959-cu ildə bu institutun və Azərbaycan Xarici Dillər İnstitutunun bazasında Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutu yaradıldı. Qulam Məmmədov** instituta rektor (1959–1966) təyin edildi. İnstitutda rus dili və ədəbiyyatı, 3 şöbədən ibarət (ingilis-Azərbaycan, alman-Azərbaycan, fransız- Azərbaycan) Avropa dilləri, qiyabi rus dili və ədəbiyyatı fakültələri fəaliyyət göstərirdi.



**Qulam Məmmədov (1904–1985)**

**Məmmədov Qulam Kərim oğlu** Ordubad rayonunun Yuxarı Əylis kəndində anadan olmuşdur. 1913-cü ildə Bakıya köçmüş, Sabunçu qəsəbəsindəki orta məktəbdə təhsil almışdır. Azərbaycan SSR Maarif Nazirliyi Bakı şəhər Xalq Təhsili Şöbəsinin müdir müavini (1931–1933), Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktoru (1934–1935), Azərbaycan SSR Maarif Nazirliyinin ibtidai və orta məktəblər idarəsinin rəisi (1935–1936), Naxçıvan MSSR-in maarif naziri (1936–1939) vəzifələrində çalışmışdır.

İkiillik Azərbaycan Müəllimlər İnstitutuna direktor müavini (1952), Azərbaycan Pedaqoji Dillər İnstitutunun prorektoru (1952–1959), rektoru (1959–1966) və həmin institutda pedaqogika və psixologiya kafedrasının müdiri (1966–1979) vəzifələrində çalışmışdır.

Namizədlik dissertasiyası müdafiə etmiş (1959), dosent elmi adını almışdır (1960).

40-dan artıq elmi əsərin müəllifidir.

1960-cı ilə qədər institutda 15 kafedra fəaliyyət göstərirdi. Bunlar Sov.İKP tarixi, Fəlsəfə və siyasi iqtisad, Pedaqogika və psixologiya, Rus və xarici ölkə ədəbiyyatı, Rus dilçiliyi, Praktik rus dili kursu, Fonetika Azərbaycan dili, Azərbaycan dilçiliyi və ədəbiyyatı, Rus dilinin tədrisi metodikası, İngilis dilinin qrammatikası, İngilis dilinin leksikası, Fransız dili, Alman dili, Bədən tərbiyəsi və idman kafedraları idi.

1960-cı ildə Müasir rus dili kafedrasına ehtiyac yarandığına görə dil kafedraları yenidən təşkil edildi. Metodika kafedrası isə Praktik rus dili kursu kafedrası ilə birləşdirildi.



**Ağamməd Abdullayev (1908–1976)**

**Abdullayev Ağamməd Səməd oğlu** Bakı şəhərində anadan olmuşdur. Bakı Pedaqoji Texnikumunu bitirmiş (1926), Azərbaycan Dövlət Universitetinin Ədəbiyyat fakültəsinə qəbul olmuşdur. Orta məktəb və texnikumlarda Azərbaycan dili və ədəbiyyatı müəllimi (1929). Azərbaycan K(b)P MK-nın nəzdindəki kommunist ali məktəbində kafedra müdiri. Azərbaycan Pedaqoji İnstitutunda dekan (1939–1941), direktor (1943–1944), Azərbaycan Qiyabi Pedaqoji İnstitutunda kafedra müdiri (1944–1949), APDİ-də rektor vəzifələrində işləmişdir (1966–1970).

Elmlər namizədi (1942), elmlər doktoru alimlik dərəcələrini (1959), professor elmi adını almışdır (1960).

APİ-də Azərbaycan dilinin tədrisi metodikası kafedrasının müdiri olmuşdur (1970–1976).

Azərbaycan dilinin tədrisi metodikası ilə bağlı 150-dən çox elmi əsərin müəllifidir. Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı, müxtəlif orden və medallarla təltif edilmişdir.

Həmin ilin 1 sentyabrında Asiya və Afrika ölkələrindən gələn tələbələr üçün rus dilinin təlimi üzrə birillik hazırlıq kursları (fakültə) yaradıldı.

1961-ci ildə Rus dili və ədəbiyyatı fakültəsi nəzdində internat məktəblərdə rus dili müəllimləri və tərbiyəçiləri hazırlığı üzrə axşam şöbəsi fəaliyyətə başladı.

1966-cı ildə **Ağamməd Abdullayev** instituta rektor təyin edildi. Həmin tədris ilində institutda yeni fakültə və kafedralar təşkil edildi. Rus dili və ədəbiyyatı fakültəsi iki istiqamətdə – Rus dili fakültəsi və Azərbaycan dili fakültəsi kimi fəaliyyətə başladı. Sonrakı illərdə institutda 4 fakültədə pedaqoji kadr hazırlığı həyata keçirilirdi:

- Rus və Azərbaycan dilləri fakültəsi;
- İngilis və Azərbaycan dilləri fakültəsi;
- Alman, fransız və Azərbaycan dilləri fakültəsi (alman və Azərbaycan dilləri, fransız və Azərbaycan dilləri, ispan və Azərbaycan dilləri şöbələri ilə);
- Qiyabi və axşam təhsili fakültəsi (rus və Azərbaycan dilləri, ingilis dili (rus bölməsi), ingilis və Azərbaycan dilləri şöbələri ilə).

Bu illərdə institutda fəaliyyət göstərən kafedraların sayı 26-ya çatdırıldı. Pedaqogika və psixologiya, rus dili və ədəbiyyatının tədrisi metodikası kafedralarının hər biri iki müstəqil kafedraya bölündü, Azərbaycan və xarici ölkə ədəbiyyatı kafedrası təşkil edildi. Bundan əlavə, institutda sovet ədəbiyyatı, müasir Azərbaycan dili və Azərbaycan dilinin tədrisi metodikası kafedraları fəaliyyətə başladı, fəlsəfə kafedrası fəlsəfə və elmi kommunizm kafedrasına çevrildi.

Həmin illərdə instituta **Məmməd Tağıyev** rəhbərlik (1970–1972) edirdi.

1971-ci ildə institutda hazırlıq şöbəsi fəaliyyətə başladı. Hazırlıq şöbəsinə ilk qəbul 125 nəfər idi.

1972-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin təşəbbüsü və Azərbaycan SSR Nazirlər Sovetinin 2 noyabr 1972-ci il tarixli qərarı ilə Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun bazasında 2 müstəqil institut yaradıldı. Bunlardan biri SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu, digəri Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu idi. **Əliağa Məmmədov** Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutuna rektor (1972–1982) təyin edildi. Bu, keçmiş



**Məmməd Tağıyev**
**(1921–1994)**

**Tağıyev Məmməd Tağı oğlu** Samux rayonunda anadan olmuşdur. Gəncə Pedaqoji Texnikumunda təhsil almışdır (1936–1939). Əmək fəaliyyətinə Samux rayonundakı orta məktəbdə başlamışdır (1939). İkinci Dünya müharibəsinin iştirakçısı olmuşdur. Azərbaycan Pedaqoji Dillər İnstitutunda (1947–1951), SSRİ Elmlər Akademiyasının Dilçilik İnstitutunun aspiranturasında təhsil almışdır (1951–1954).

Namizədlik (1954), doktorluq (1967) dissertasiyaları müdafiə etmiş, dosent, professor (1968) elmi adlarını almışdır. Azərbaycan Dövlət Universitetində rus dili kafedrasının müdiri (1964–1970), Azərbaycan Pedaqoji Dillər İnstitutunun rektoru (1970–1972) və həmin institutun müasir rus dili kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Onun rəhbərliyi ilə 3 nəfər doktorluq, 20 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Rus dilinə və ədəbiyyatına aid 130-dan çox elmi əsərin müəllifidir.

Sovet İttifaqında rus dili və ədəbiyyatı müəllimləri hazırlığı üzrə ilk ixtisaslaşmış ali təhsil ocağı idi.

1972-ci ildə rus dili və ədəbiyyatı institutunun əyani şöbəsində 3266, qiyabi şöbəsində isə 2848 tələbə təhsil alırdı. Onların təhsil-tərbiyəsi ilə 280 professor-müəllim məşğul olurdu. Onlardan 6 nəfəri elmlər doktoru, professor, 84 nəfəri elmlər namizədi, dosent idi.

1973-cü ildə institutda bəzi kafedralar 18 kafedrada birləşdirildi. Bunlar Sov.İKP tarixi, Fəlsəfə, Elmi kommunizm, Siyasi iqtisad, Pedaqogika, Psixologiya, Sovet ədəbiyyatı, Rus və xarici ölkələr ədəbiyyatı, Azərbaycan dili və ədəbiyyatı, Ümumi dilçilik, Rus dilçiliyi, Rus dili, Praktik rus dili kursu, Rus dilinin fonetikası, Rus dili və ədəbiyyatının tədrisi metodikası, Xarici dillər, Mülki müdafiə, Bədən tərbiyəsi və idman kafedraları idi.

1974-cü ildə institutda iki fakültə fəaliyyət göstərirdi:

- Təlim rus dilində aparılan orta məktəblər üçün rus dili və ədəbiyyatı müəllimi hazırlayan fakültə;
- Təlim Azərbaycan dilində aparılan orta məktəblər üçün rus dili və ədəbiyyatı müəllimi hazırlayan fakültə.

Həmin ildə institutda daha bir fakültə: Ümumtəhsil məktəbləri müəllimlərinin ixtisasartırma fakültəsi yaradıldı.

Bu illərdə müəllimlərin elmi-tədqiqat işlərinə cəlb olunmasına xüsusi diqqət yetirilirdi. Dörd elmi istiqamətdə tədqiqatlar aparılır, rus dili və ədəbiyyatının tədrisinin müxtəlif problemləri araşdırılır, ümumtəhsil və ali məktəb tələbələri üçün rus dilində dərslik və dərs vəsaitləri hazırlanırdı. 1979-cu ildə



**Əliağa Məmmədov**
**(1922–1994)**

**Məmmədov Əliağa Novruzəli oğlu** Əli-Bayramlı (Şirvan) rayonunun Nəvahi kəndində anadan olmuşdur. Sabirabadda pedaqoji məktəbə daxil olmuş (1936), təhsilini Kirovabad (Gəncə) pedaqoji məktəbində başa çatdırmışdır. 1939-cu ildə pedaqoji fəaliyyətə başlamışdır.

1951-ci ilin yanvarından etibarən məktəb direktoru, Azərbaycan dəmiryolu təhsil idarəsində şöbə müdirinin müavini, Azərbaycan KP MK-nın elm və təhsil şöbəsində təlimatçı, Respublika Ali və Orta İxtisas Təhsili nazirinin müavini, Azərbaycan KP MK-nın elm və təhsil şöbəsinin müdir müavini və müdiri vəzifələrində işləmişdir.

Namizədlik dissertasiyası müdafiə etmişdir.

1972–1982-ci illərdə Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda rektor vəzifəsində çalışmışdır.

1982–1994-cü illərdə Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutunda pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

20-dən artıq elmi əsərin müəllifidir.



**Fəridə Sultanzadə (1928–1992)**

**Sultanzadə Fəridə Teymur qızı** Vladiqafqaz şəhərində (Şimali Osetiya) anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir (1951). ADU-nun Rus dili kafedrasında əmək fəaliyyətinə başlamışdır (1952).

LDU-da təcrübə keçmişdir (1953–1954). Rostov Dövlət Universitetinin aspiranturasına qəbul olmuşdur (1962). ADU-nun partiya komitəsinin katibi vəzifəsinə seçilmiş (1969–1973), universitetin Rus dili kafedrasına rəhbərlik etmişdir (1973–1982). Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda rektor vəzifəsində çalışmışdır (1982–1988).

Elmlər namizədi alimlik dərəcəsi (1970), dosent elmi adını (1972) almışdır. Bir sıra medallarla təltif olunmuşdur.

Azərbaycan bölmələri üçün rus dili dərsliyinin həmmüəllifi, bir sıra əsərlərin müəllifidir.

institutun əməkdaşlarının 100-dən artıq elmi əsəri nəşr olunmuşdu.

1980-ci ildə institutun 19 kafedrasında 15 elmi istiqamət üzrə tədqiqatlar aparılırdı. Müasir rus dilinin leksikası kafedrasının əməkdaşları SSRİ Elmlər Akademiyasının və Azərbaycan SSR Elmlər Akademiyasının koordinasiya planına daxil edilmiş 3 mövzu – Azərbaycanca-rusca lüğət, Rusca-azərbaycanca lüğət, İkidilli leksikoqrafiyanın nəzəri məsələləri üzərində işləyirdilər.

Bu illərdə institutun maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsində, yüksəkixtisaslı kadr hazırlığında rektor **Fəridə Sultanzadənin** (1982–1988) xüsusi əməyi olmuşdur.

İnstitutda tələbələrin elmi-tədqiqat işləri də diqqət mərkəzində idi. Tələbələr müxtəlif tələbə konfranslarında iştirak edir və uğurlu nəticələr qazanırdılar.

1985-ci ildə keçirilən Azərbaycan ali məktəb tələbələrinin XI Respublika konfransında institutun 25 nəfər tələbəsindən 15 nəfəri müxtəlif diplom və fəxri fərmanlarla təltif olundu. Tələbələr A.S.Puşkin adına Tbilisi Pedaqoji İnstitutunda, Həştərxan Pedaqoji İnstitutunda keçirilən tələbə konfranslarında da uğurla çıxış etdilər. Ümumittifaq olimpiadalarının qalibləri sırasında institutun tələbələri də var idi.

1989-cu ildə institutda elmi-pedaqoji kadr hazırlığını gücləndirmək məqsədilə doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə ixtisaslaşdırılmış şura yaradıldı. 1992-ci ilə qədər fəaliyyət göstərən həmin şurada 7 nəfər doktorluq, 55 nəfər namizədlik dissertasiyası müdafiə etmişdir. Bu dövrdə instituta əvvəlcə **Bayram Tahirbəyov** (1988–1989), sonra isə **Firudin Hüseynov** (1990–1997) rəhbərlik etmişdir.

*1946–1990-cı illərdə Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda tələbələrin inkişaf dinamikası*

| İllər | Qəbul | Buraxılış |
|---|---|---|
| 1946 | 108 | – |
| 1950 | 196 | 99 |
| 1960 | 582 | 350 |
| 1970 | 877 | 680 |
| 1980 | 4453 | 2533 |
| 1990 | 2025 | 1134 |

*1946–1990-cı illərdə Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda kadr potensialı*

| İllər | Professor-müəllim heyəti | Professorlar | Dosentlər | Elmlər namizədləri | Baş müəllimlər, müəllimlər | Kafedraların sayı |
|---|---|---|---|---|---|---|
| 1946 | 22 | 2 | 5 | – | 15 | 6 |
| 1950 | 40 | 2 | 5 | – | 33 | 9 |
| 1960 | 247 | 1 | 37 | – | 209 | 14 |
| 1970 | 329 | 13 | 96 | 11 | 209 | 16 |
| 1980 | 291 | 10 | 83 | 6 | 192 | 20 |
| 1990 | 444 | 23 | 133 | 24 | 264 | 23 |

1970-ci ilin may ayından «Русский язык и литература в нерусской школе» («Qeyri-rus məktəblərində rus dili və ədəbiyyatı) məcmuəsi, «Русский язык и литература в азербайджанской школе» («Azərbaycan məktəblərində rus dili və ədəbiyyatı»), 1985-ci ildən isə «Русский язык и литература в Азербайджане» («Azərbaycanda rus dili və ədəbiyyatı») adı ilə nəşr olundu. Məcmuə 1979-cu ildən Azərbaycan SSR Maarif Nazirliyinin müstəqil jurnalı kimi fəaliyyət göstərmişdir.

İnstitutun rus dili və ədəbiyyatı üzrə aparıcı mütəxəssisləri – professorlar Məmməd Tağıyev, Leyla Vəkilova, Lidiya Qranovskaya, Abdulla Şabanov, Çingiz Bədəlov, Murtuz Sadıqov, Rasim Mirzəyev, Məmməd Qocayev və b. redaktor və yaxud redaksiya heyətinin üzvləri kimi jurnalların maraqlı materiallarla zənginləşməsinə, orada müəllimlərin iş təcrübəsinin əks etdirilməsinə xüsusi diqqət yetirmişlər.

Jurnalın səhifələrində azərbaycanlı metodist alim və müəllimlərlə yanaşı, Rusiya, Ukrayna, Belorusiya, Qırğızıstan, Özbəkistan, Moldova, Gürcüstan, Çin, Bolqarıstan mütəxəssislərinin məqalələri də çap edilmişdir. Bu ənənə indi də davam edir.

Uzun illərdir ki, institutda dil və ədəbiyyat seriyası üzrə «Elmi əsərlər» məcmuəsi nəşr olunur.

İnstitutun nəzdində 1971-ci ildən fəaliyyət göstərən «Lüğət mərkəzi» professor Məmməd Tağıyevin rəhbərliyi altında dördcildlik Azərbaycanca–rusca lüğətin hazırlanması ilə məşğul olmuşdur. 1990-cı ilədək lüğətin iki cildi işıq üzü görmüşdür.

İnstitutun professor və müəllimləri orta məktəblərə kömək məqsədilə respublikanın müxtəlif rayonlarında dəfələrlə elmi-praktik konfranslar, seminarlar təşkil etmiş, rus dili və ədəbiyyatının tədrisi metodikasının daha da təkmilləşməsi işinə öz layiqli töhfələrini vermişlər.

1990-cı ildə 300-dən çox elmi-metodik vəsait, monoqrafiya, dərslik və dərs vəsaiti, elmi məqalələr nəşr edilmiş, bir neçə beynəlxalq elmi konfrans keçirilmişdir.

Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutunda yüksəkixtisaslı kadr hazırlığında Mikayıl Rəfili, Fuad İbrahimbəyov, Əkrəm Cəfər, Murtuz Sadıqov, Boris Komarovski, Leyla Vəkilova, Əkrəm Əliyev, Heydər Aslanov,




*Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı İnstitutu*

Sabir Şəfiyev, Lidiya Qranovskaya, Aleksandr Svariçevski, Həbib Babayev, Bəşir Əhmədov, Çingiz Bədəlov, Oqtay Rzaquliyev, Seyfulla Əsədullayev, Arif Hacıyev, Yusif Rüstəmov, Rasim Mirzəyev, Aydın Ələkbərov, Məmməd Qocayev, Rafiq Novruzov, İlyas Həmidov, Leyla Cəfərova, Bella Musayeva, Aza Əsədova, Aidə Şahbazova, Svetlana Cəbrayılova, Cahangir Məmmədov, Qeysi Məmmədov, Eldar Zeynalov, Rəhilə Quliyeva, Lalə Quliyeva, Təvəkkül Şükürov və başqalarının böyük əməyi olmuşdur.

**Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu**

30-cu illərdə respublikada ali təhsilli xarici dil mütəxəssislərinə yaranmış böyük ehtiyacı nəzərə alaraq Xalq Maarif Komissarlığı respublika hökumətinə müraciət edərək Azərbaycan Pedaqoji İnstitutunda Xarici dillər fakültəsinin açılmasını xahiş etdi. Azərbaycan SSR Xalq Komissarları Soveti XMK-nın təklifini müzakirə edərək 1937-ci il oktyabr ayının 9-da **«Azərbaycan Pedaqoji İnstitutunda xarici dillər fakültəsinin təşkil edilməsi haqqında»** qərar qəbul etdi.

Fakültənin ilk buraxılışı 1941-ci ildə oldu. 1937-ci ildə qəbul olunmuş 175 tələbədən 100 nəfəri dövlət imtahanına buraxılmışdı.

SSRİ Xalq Komissarları Soveti 16 sentyabr 1940-cı ildə **«Alman, fransız və ingilis dillərinin tədrisi haqqında»** qərar qəbul etdi. Qərarda orta məktəbi bitirənlərin, eləcə də ali məktəb tələbələrinin məcburi olaraq xarici dillərdən birini bilmələri haqqında ÜİK(b) P MK-nın 25 avqust 1932-ci il qərarına uyğun olaraq 1943-cü ilə qədər bütün orta məktəblərdə 5-ci sinifdən başlayaraq xarici dillərdən birinin tədris olunması tələb kimi irəli sürüldü və müttəfiq respublikaların xalq maarif komissarlıqlarına bunu təmin etmək, pedaqoji institutların nəzdində praktiki olaraq xarici dili bilən və ya orta məktəb proqramı həcmində xarici dil biliklərinə malik olan şəxslər üçün ikiillik xarici dil (ingilis, alman, fransız) kurslarının təşkil edilməsi, həmin kursları bitirənlərə orta məktəblərin V–VII siniflərində dərs demək hüququnun verilməsi tapşırıldı. Bunlarla yanaşı, qərarda qeyd edilirdi ki, ali məktəblərdə xarici dil həftədə 2–3 saat olmaqla 4 il ərzində tədris olunsun, sonuncu kursda xarici dildən imtahan verməyən tələbə dövlət imtahanına buraxılmasın.

Qərarda SSRİ Dövlət Plan Komitəsinə tövsiyə edilmişdi ki, yeddi müttəfiq respublikada, o cümlədən Azərbaycan SSR-də Pedaqoji Xarici Dillər İnstitutu üçün orta məktəb tipli (880 yerlik) binanın tikintisini 1941-ci ilin planında nəzərdə tutsun.

Həmin qərara müvafiq olaraq Azərbaycan SSR XKS-nin 1940-cı ilin oktyabrında qəbul etdiyi qərara əsasən, Vladimir İliç Lenin adına ADPİ-nin nəzdində fəaliyyət göstərən Xarici dillər fakültəsinin bazasında 1941/42-ci tədris ilində Pedaqoji Xarici Dillər İnstitutunun yaradılması və 90 nəfər alman, 30 nəfər ingilis, 30 nəfər fransız dilləri üzrə Azərbaycan bölməsinə 30 nəfər, rus bölməsinə 120 nəfər (cəmi 150 nəfər) tələbə qəbulu nəzərdə tutulmuşdu.

İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar institutun müstəqil fəaliyyəti baş tutmadı. XMK-nın əmrinə əsasən 1941-ci il sentyabrın 1-dən Xarici Dillər İnstitutu yenidən ADPİ ilə birləşdirilərək fakültə kimi fəaliyyət göstərdi. Həmin əmrlə ikiillik xarici dillər kursu da öz fəaliyyətini ADPİ-nin tərkibində davam etdirdi.

**1948-ci il iyun ayının 28-də SSRİ Nazirlər Soveti tərəfindən «Bakı şəhərində Pedaqoji Xarici Dillər İnstitutunun yaradılması haqqında» fərman imzalandı.**

Respublika Maarif Nazirliyi yeni yaradılmış institutun fəaliyyətə başlaması üçün geniş tədbirlər planı hazırladı.

İnstituta qəbul olunmuş tələbələrin baza bilik səviyyəsi aşağı olduğundan dərsdən sonra



**Əfşan Qədimbəyova (1915–1980)**

**Qədimbəyova Əfşan Ələkbər qızı** İrəvan şəhərində anadan olmuşdur. 1920-ci ildə ailəsi ilə birgə Bakıya köçmüşdür. Pedaqoji Texnikumda təhsil almış (1926–1929), Şəki şəhər uşaq evində tərbiyəçi işləmişdir (1929–1931). ADPİ-nin Pedaqoji fakültəsini bitirmiş (1935), 2 il Moskva Pedaqoji İnstitutunun aspiranturasında təhsil almışdır. ADPİ-nin məktəbəqədər fakültəsində (1937), eyni zamanda Bakı şəhər Xalq Təhsili Şöbəsində inspektor və məktəbəqədər bölmənin müdiri vəzifələrində işləmişdir. Azərbaycan LKGİ MK-nın katibi (1942–1946), Tibb İnstitutunda Partiya Bürosunun katibi (1946–1947), Azərbaycan KP MK-nın Təşkilat şöbəsi müdirinin müavini (1947–1949), Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun rektoru vəzifələrində işləmişdir (1949–1955). Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş. Azərbaycan SSR Ali Soveti Sədrinin müavini vəzifəsində çalışmışdır (1951–1956).

40-a qədər elmi əsərin müəllifidir.

onlarla əlavə məşğələlər aparılmasına xüsusi diqqət yetirilirdi. Bu məqsədlə bir çox dərnəklər fəaliyyət göstərirdi.

İnstitutda altı fənn kabineti təşkil edilmişdi. Bunların arasında ingilis dili kabineti xüsusilə fərqlənirdi.

SSRİ Ali Təhsil Nazirliyinin **«Ali məktəblərdə tədrisi rus dilində aparılmayan milli qruplarda xarici dillərin və rus dilinin tədrisi haqqında»** 29 noyabr 1948-ci il tarixli əmrində xarici dil institutlarında həmin vaxta qədər ikinci ixtisas kimi öyrədilən xarici dillərin əvəzinə, rus dilinin tədrisi tövsiyə edildi. Ona görə də institut rəhbərliyi dil və ədəbiyyat kafedrasının bazasında Azərbaycan dili və ədəbiyyatı, Rus dili və ədəbiyyatı kafedralarının yaradılması haqqında Maarif Nazirliyinə müraciət etdi.

1949-cu il oktyabrın 1-dən Qiyabi Pedaqoji İnstitutun Xarici dillər fakültəsinin bazasında APXDİ-də qiyabi şöbə təşkil edildi. Elə həmin il **Əfşan Qədimbəyova** (1949–1955) instituta rektor təyin edildi.

Qiyabi Pedaqoji İnstitutda təhsil alan tələbələrin 1947/48-ci tədris ilindəki buraxılışı APXDİ-nin qiyabi şöbəsində həyata keçirildi və həmin il dövlət imtahanına buraxılmış 16 tələbədən 11 nəfəri imtahanları müvəffəqiyyətlə verərək diplom aldı. Çətinliklərə baxmayaraq, APXDİ ilk tədris ilini uğurla başa vurdu, respublikanın ali təhsil sistemində öz mövqeyini möhkəmləndirə bildi. Həmin il əyani şöbəni 33, qiyabi şöbəni 11 nəfər tələbə bitirdi.

ADPİ-nin Xarici dillər fakültəsinin fəaliyyət göstərdiyi on bir il ərzində yetişdirdiyi 300-dən artıq müəllimin hamısı, eləcə də Qiyabi Pedaqoji İnstitutun əlliyə qədər məzunu bütövlükdə rayonlara göndərilsəydi belə, xarici dil müəlliminə olan ehtiyacı ödəyə bilməzdi. Halbuki həmin mütəxəssislərin heç yarısı da rayonlara getmirdi. Buna görə də rayon və kənd məktəblərində mütəxəssis çatışmazlığından xarici dillər ya tədris olunmurdu, ya da bir müəllim bir neçə məktəbdə dərs deməyə məcbur olurdu.

1950/51-ci tədris ilində instituta qəbul iki dəfə artırılaraq 400 nəfərə çatdırıldı, qiyabi şöbəyə isə 105 nəfər qəbul edildi. Lakin qəbul planının artırılması, heç də keyfiyyət dəyişikliyi demək deyildi. Belə ki, tədris ilinin sonuna qədər təkcə əyani şöbədən 110 nəfər müxtəlif səbəblərə görə institutu tərk etmişdi. İnstitutdan xaric edilənlər arasında ixtisas fənlərini həddən artıq zəif bilən I kurs tələbələri əksəriyyət təşkil edirdi.

1949/50-ci tədris ilinin əvvəlində institutda cəmi 58 nəfər professor-müəllim işləyirdi. 1951/52-ci tədris ilində institutda professor-müəllim heyəti 96 nəfərə çatdırıldı.

SSRİ Ali Təhsil Nazirliyi 21 iyun 1951-ci ildə **«Azərbaycan SSR Maarif Nazirliyi sistemindəki pedaqoji institutlarda fakültə və şöbələrin birləşdirilməsi haqqında»** əmr verdi. Həmin əmrin icrası ilə əlaqədar olaraq Alman və Fransız dilləri fakültələri birləşdirilərək Xarici dillər fakültəsi adlandırıldı.

Qazanılan nailiyyətlərə baxmayaraq, respublikanın məktəblərində xarici dil müəllimlərinə böyük ehtiyac var idi. Xüsusən yeddiillik kənd məktəblərində xarici dil müəllimləri həddən artıq az idi. 1955-ci ildə 232 kənd orta məktəbində və 1230 kənd yeddiillik məktəbində xarici dil tədris olunmurdu.

50-ci illərin əvvəllərindən bu işi daha yüksək səviyyədə qurmaq və tələbələrə ixtisasından əlavə, başqa dil öyrətmək məsələsi ciddi şəkildə qoyuldu. Buna görə də institutun rəhbərliyi ikinci ixtisas kafedrasının açılması haqqında Respublika Maarif Nazirliyinə müraciət etdi və 1953/54-cü tədris ilindən həmin kafedra fəaliyyətə başladı. Ancaq kafedranın ömrü çox da uzun olmadı.

APXDİ-nin xarici dil, Azərbaycan dili və ədəbiyyatı ixtisasları üzrə genişprofilli müəllim hazırlığını təkmilləşdirmək məqsədilə beşillik tədrisə keçildi. Bununla əlaqədar olaraq, mövcud tədris planlarında müəyyən dəyişikliklər edildi.

Ən mühüm dəyişiklik isə 1956/57-ci tədris ilindən Azərbaycan dili və ədəbiyyatının tədrisi ilə bağlı oldu. Bu işi lazımi səviyyədə həyata keçirmək məqsədilə 1956-cı ilin noyabrından Azərbaycan dili və ədəbiyyatı kafedrası bərpa olundu.

*1948–1958-ci illərdə APXDİ-yə tələbə kontingenti*

**1948-ci il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi | | Rus bölməsi | | Cəmi: |
|---|---|---|---|---|---|---|
| | | Tələbələrin sayı | I kursa qəbul | Tələbələrin sayı | I kursa qəbul | |
| 1. | İngilis dili | 44 | 50 | 96 | 25 | 215 |
| 2. | Alman dili | 30 | 25 | 15 | – | 70 |
| 3. | Fransız dili | 13 | 50 | 18 | – | 81 |
| | Cəmi: | 87 | 125 | 129 | 25 | 366 |

**1949-cu il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi | | Rus bölməsi | | Cəmi: |
|---|---|---|---|---|---|---|
| | | Tələbələrin sayı | I kursa qəbul | Tələbələrin sayı | I kursa qəbul | |
| 1. | İngilis dili | 105 | 65 | 62 | 25 | 257 |
| 2. | Alman dili | 40 | 27 | 15 | – | 82 |
| 3. | Fransız dili | 49 | 49 | 24 | – | 122 |
| | Cəmi: | 194 | 141 | 101 | 25 | 461 |

**1950-ci il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi | | Rus bölməsi | | Cəmi: |
|---|---|---|---|---|---|---|
| | | Tələbələrin sayı | I kursa qəbul | Tələbələrin sayı | I kursa qəbul | |
| 1. | İngilis dili | 175 | 225 | 23 | 25 | 448 |
| 2. | Alman dili | 42 | 45 | – | – | 87 |
| 3. | Fransız dili | 85 | 105 | – | – | 190 |
| | Cəmi: | 302 | 375 | 23 | 25 | 725 |

**1951-ci il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbələrin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 332 | 75 | 21 | 25 | 453 |
| 2. | Alman dili | 72 | 50 | – | – | 122 |
| 3. | Fransız dili | 124 | 50 | – | – | 174 |
| | Cəmi: | 528 | 175 | 21 | 25 | 749 |

**1952-ci il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbə lərin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 354 | 75 | – | 25 | 454 |
| 2. | Alman dili | 94 | 50 | – | – | 144 |
| 3. | Fransız dili | 128 | 50 | – | – | 17 |
| | Cəmi: | 576 | 175 | – | 25 | 776 |

**1953-cü il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbələrin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 355 | 101 | 23 | 26 | 505 |
| 2. | Alman dili | 117 | 24 | – | 28 | 169 |
| 3. | Fransız dili | 133 | 25 | – | – | 158 |
| | Cəmi: | 605 | 150 | 23 | 54 | 832 |

**1954-cü il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbələrin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 298 | 75 | 17 | 25 | 415 |
| 2. | Alman dili | 137 | 25 | – | 27 | 189 |
| 3. | Fransız dili | 91 | 50 | – | – | 141 |
| | Cəmi: | 526 | 150 | 17 | 52 | 745 |

**1955-ci il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbələrin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 261 | 50 | 40 | – | 351 |
| 2. | Alman dili | 119 | 50 | 28 | – | 197 |
| 3. | Fransız dili | 90 | 25 | – | – | 115 |
| | Cəmi: | 470 | 125 | 68 | – | 663 |

**1956-cı il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbələrin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 222 | 51 | 40 | – | 313 |
| 2. | Alman dili | 116 | 51 | 30 | – | 197 |
| 3. | Fransız dili | 77 | 25 | – | – | 102 |
| | Cəmi: | 415 | 127 | 70 | – | 612 |

**1957-ci il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbələrin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 150 | 125 | 40 | – | 315 |
| 2. | Alman dili | 103 | 50 | 30 | – | 183 |
| 3. | Fransız dili | 74 | 75 | – | – | 149 |
| | Cəmi: | 327 | 250 | 70 | – | 647 |

**1958-ci il**

| № | Fakültələrin adı | Azərbaycan bölməsi: Tələbələrin sayı | Azərbaycan bölməsi: I kursa qəbul | Rus bölməsi: Tələbələrin sayı | Rus bölməsi: I kursa qəbul | Cəmi: |
|---|---|---|---|---|---|---|
| 1. | İngilis dili | 275 | 125 | – | – | 400 |
| 2. | Alman dili | 153 | 50 | – | – | 203 |
| 3. | Fransız dili | 149 | 75 | – | – | 224 |
| | Cəmi: | 577 | 250 | – | – | 827 |



**Rəfiqə Hüseynova (1923)**

**Hüseynova Rəfiqə Mirəli** qızı Bakı şəhərində anadan olmuşdur. ADPİ-nin Xarici dillər fakültəsini bitirmişdir. Azərbaycan KP MK-ya təlimatçı vəzifəsinə təyin olunmuşdur (1954). Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun rektoru vəzifəsində işləmişdir (1955–1959). Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu Rus dili və Ədəbiyyatı İnstitutuna birləşdirildikdən sonra Azərbaycan SSR Nazirlər Sovetində məsul vəzifədə işləmiş (1959–1962). Respublika Maarif Ali Məktəb və Elmi Müəssisə İşçiləri Həmkarlar İttifaqı Komitəsinin sədri seçilmişdir (1962–1969). Azərbaycan SSR maarif nazirinin birinci müavini vəzifəsində çalışmış (1969–1980). ADPİ-nin məktəbəqədər pedaqogika kafedrasında baş müəllim işləmişdir (1980–2000).

Bu dövrdə instituta **Rəfiqə Hüseynova** (1955– 1959) rəhbərlik edirdi.

Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Soveti 1958-ci ilin oktyabrında **«Azərbaycan SSR-də ali təhsilin vəziyyəti və onun yaxşılaşdırılması tədbirləri haqqında»** və 1959-cu il aprelin 14-də **«Azərbaycan SSR-də ali məktəblər şəbəkəsinin nizama salınması haqqında»** iki çox mühüm qərar qəbul etdi. Bu qərarlara görə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər içərisində maddi-texniki bazası zəif olan, kifayət qədər yüksəkixtisaslı müəllim kadrlarına, müvafiq elmi laboratoriyalara malik olmayan, kadr hazırlığında paralelçiliyə yol verən ali məktəblərin, eləcə də ayrı-ayrı fakültələrin bağlanması, birləşdirilməsi də var idi. Respublika maarif nazirinin 11 may 1959-cu il tarixli əmrinə əsasən, **Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu Rus Dili və Ədəbiyyatı İnstitutu** ilə birləşdirildi və yeni yaranan **Azərbaycan Pedaqoji Dillər İnstitutuna Mirzə Fətəli Axundovun** adı verildi. İnstitut fəaliyyətə başlayanda burada üç fakültə mövcud idi: rus dili və ədəbiyyatı – əyani, rus dili və ədəbiyyatı – qiyabi və Avropa dilləri.

Beləliklə, 11 il müstəqil institut kimi fəaliyyət göstərmiş Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu bağlandı. Respublikadakı məktəblərin xarici dil müəllliminə olan ehtiyacını ödəmək məqsədilə 1961-ci ildən Mirzə Fətəli Axundov adına APDİ-də Avropa dilləri üzrə qiyabi şöbə yaradıldı və 1961/62-ci tədris ili üçün ilk qəbul keçirildi.

Fikrət Seyidov (1962), Sərxan Abdullayev (1965) və institutun məzunu Bilal İsmayılov (1968) bu illərdə ali məktəbin elmi potensialının yüksəlməsinə xidmət etmişlər.

1965/66-cı tədris ilində institutda respublikanın rayonlarından, eləcə də RSFSR, Gürcüstan, Ukrayna, Özbəkistan, Estoniya və s. respublikalardan tələbələr təhsil alırdı.

1970/71-ci tədris ilində kafedraların sayı təxminən 2 dəfə artırılaraq (birinci il 14 kafedra var idi) 27-yə çatdırıldı.

Həmin dövrdə institutun maddi-texniki bazasının möhkəmləndirilməsində, təhsil-tərbiyə işlərinin təşkilində, elmi-tədqiqat işlərinin yeni istiqamətdə inkişafında rektor **Qulam Məmmədovun** (1959–1966) *(bax: səh. 531)*, **Ağamməd Abdullayevin** (1966–1970) *(bax: səh. 532)* mühüm xidmətləri olmuşdur.

**Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan SSR Nazirlər Soveti 4 noyabr 1972-ci ildə «Mirzə Fətəli Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun yenidən təşkil olunması haqqında» qərar qəbul etdi.** Nazirlər Sovetinin bu qərarından ay yarım



*Azərbaycan Pedaqoj Xarici Dillər İnstitutunda təcrübə dərslərinin müzakirəsi*

sonra 1972-ci il dekabrın 19-da Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti SSRİ-nin yaradılmasının 50 illiyi münasibətilə müəssisələrə, kolxozlara, sovxozlara və tədris müəssisələrinə SSRİ-nin 50 illiyi adının verilməsi haqqında fərman verdi. Həmin adı alan müəssisələr sırasında Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu da var idi.

1972-ci ildə Azərbaycanda **SSRİ-nin 50 illiyi adına Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu** yaradıldı. Bir il sonra instituta **Zemfira Verdiyeva** (1973–1993) rektor təyin edildi.

Ali və Orta İxtisas Təhsili Nazirliyi institutun müstəqil fəaliyyətə başlaması üçün lazım olan bütün tədbirləri ardıcıl şəkildə həyata keçirirdi. Nazirliyin 6 iyun 1973-cü ildə keçirilmiş kollegiya iclasında yeni yaranmış institutun strukturu təsdiq edildi. İnstitutda 3 fakültə fəaliyyət göstərirdi:

- Xarici dillər fakültəsi (əyani və qiyabi təhsil);



**Zemfira Verdiyeva (1935–2010)**

**Verdiyeva Zemfira Nadir** qızı Tiflisdə anadan olmuşdur. Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun İngilis dili fakültəsində təhsil almışdır (1953–1957). Namizədlik (1966), doktorluq (1971) dissertasiyası müdafiə etmiş, professor elmi adı almışdır (1972). Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun rektoru vəzifəsində işləmişdir (1973–1993).

20-yə qədər monoqrafiya, dərslik, dərs vəsaiti, lüğət, proqram, 350-dən çox məqalənin müəllifidir.

Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir (1989). 70-ci illərdə dəfələrlə Nəsimi rayon, 1980–1985-ci illərdə Bakı şəhər, sonrakı illərdə Respublika Ali Sovetinin deputatı seçilmişdir.

Azərbaycan Qadınlar Cəmiyyətinin sədri (1989), İngiltərənin kraliçası Yelizavetanın himayədarlıq etdiyi cəmiyyətin fəxri üzvü seçilmişdir.

– İngilis dili fakültəsi (axşam təhsili)

– Hazırlıq şöbəsi.

Fakültələrin nəzdində 20 kafedranın fəaliyyəti nəzərdə tutulmuşdu.

1974/75-ci tədris ilində institut ikiprofilli beşillik təhsilə keçdi. Həmin ildən I və II kurs tələbələrinin aşağıdakı ixtisaslar üzrə 5 il təhsil almaları planlaşdırıldı: ingilis və alman dilləri; ingilis və fransız dilləri; ingilis və Azərbaycan dilləri; fransız və ingilis dilləri; fransız və alman dilləri; alman və ingilis dilləri; alman və fransız dilləri.

Dördillik tədris planına əsasən təhsil alan tələbələrin sonuncu buraxılışı 1975/76-cı tədris ilində olmuşdur. İnstitutun fəaliyyətə başladığı ilk tədris ilində əyani şöbəyə 600 nəfər, axşam şöbəsinə 230 nəfər qəbul olunmuşdu.

Həmin il Mirzə Fətəli Axundov adına APDİ-dən əyani şöbəyə 2531 nəfər, axşam şöbəsinə 850 nəfər tələbə köçürülmüşdü. Bu dövrdə institutda 327 nəfərlik professor-müəllim heyəti çalışırdı.

1974-cü il oktyabrın 1-dək institutda tələbələrin sayı azalmışdı, çünki məzunların sayı tələbə qəbulundan artıq idi. 1973/74-cü tədris ilində 136 nəfər, 1974/75-ci tədris ilində isə 75 nəfər zəif oxuduqları üçün institutdan xaric edilmiş və ya başqa institutlara köçürülmüşdü.

1975/76-cı tədris ilində institutda tamamilə beşillik təhsilə keçilməsi tələbələrə ikinci ixtisasın öyrədilməsi məsələsini gündəmə gətirdi. İngilis dili üzrə təhsil alan tələbələr öz arzularına əsasən alman, yaxud fransız dilini, Alman və Fransız dilləri fakültəsinin tələbələri isə ingilis dilini öyrənirdilər. Bu işi lazımi səviyyədə qurmaq üçün müvafiq kafedralar təşkil olunmuşdu.

Hər il institut 400–500 nəfər xarici dil müəllimi hazırlayırdı. Məzunların əksəriyyəti təyinatla orta məktəblərə göndərilirdi. Təyinat alan hər məzun öz iş yerində azı 3 il işləməli idi. Onların təyinat yerinə getməsi ciddi nəzarətdə saxlanılırdı.

70–80-ci illərdə professorlar Cəfər Cəfərov, Fuad İbrahimbəyov, Fəxrəddin Veysəlli, Mehparə Qayıbova, Oruc Musayev, Nurəddin Kazımov, Muxtar Həmzəyev bu ali təhsil ocağında elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşlar.

70-ci illərin sonlarından başlayaraq institutun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində real addımlar atıldı. Yeni laboratoriyalar yaradıldı. Şifahi nitq laboratoriyası yeni avadanlıqla təchiz edildi. Dərslərin texniki vasitələrdən istifadə edilməklə keçirilməsinə xüsusi diqqət yetirildi. 1989-cu ildə institut üçün kompyuterlər, bir qədər sonra «IBM» markalı EHM alınaraq quraşdırıldı.

1974-cü ildən 1991-ci ilə qədər institutda tələbələrin qəbul planını nəzərdən keçirdikdə aydın olur ki, tələbələrin sayının dinamikası qeyri-sabit olmuşdur: gah artmış, gah da azalmışdır. Tələbələrin sayının sonrakı illərdə azalmasının başlıca səbəbi, hər şeydən əvvəl, tələbə qəbulunun azaldılması, 1987-ci ildə isə axşam şöbəsinə tələbə qəbulunun tamamilə dayandırılması olmuşdur. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür.

*1974–1991-ci illərdə tələbə kontingentinin inkişaf dinamikası*

| İllər | İngilis dili | | Fransız dili | | Alman dili | | Cəmi: |
|---|---|---|---|---|---|---|---|
| | əyani | axşam (qiyabi) | əyani | axşam (qiyabi) | əyani | axşam (qiyabi) | |
| 1974 | 614 | 99 | 112 | – | 72 | – | **897** |
| 1975 | 420 | 109 | 68 | – | 54 | – | **651** |
| 1976 | 399 | 145 | 73 | – | 54 | – | **671** |
| 1977 | 75 | 200 | 5 | – | 2 | – | **282** |
| 1978 | 435 | 200 | 67 | 11 | 51 | 8 | **772** |
| 1979 | 421 | 211 | 82 | 11 | 73 | 10 | **808** |
| 1980 | 418 | 224 | 62 | 12 | 45 | 11 | **772** |
| 1981 | 413 | 203 | 66 | 11 | 44 | 11 | **748** |
| 1982 | 362 | 199 | 63 | 8 | 43 | 15 | **690** |
| 1983 | 339 | 208 | 59 | 9 | 44 | 11 | **670** |
| 1984 | 335 | 208 | 58 | 10 | 51 | 11 | **673** |
| 1985 | 334 | 218 | 48 | 11 | 62 | 8 | **681** |
| 1986 | 334 | 217 | 57 | 5 | 45 | 10 | **668** |
| 1987 | 291 | 213 | 50 | 9 | 47 | 9 | **619** |
| 1988 | 281 | 198 | 53 | 8 | 42 | 6 | **588** |
| 1989 | 277 | 199 | 50 | 10 | 35 | 11 | **582** |
| 1990 | 286 | 159 | 49 | 9 | 48 | 12 | **563** |
| 1991 | 257 | 157 | 39 | 15 | 41 | 10 | **519** |

Həmin illərdə Bakı və rayon məktəbləri ilə əlaqələr genişləndirildi. Təkcə 1986-cı ildə 17 orta məktəb üçün V–VII sinif ingilis dili dərsliklərinin mətnləri maqnitofon lentinə yazılmışdı. 1987/88-ci tədris ilində V–VIII siniflər üçün dərslik mətnləri maqnitofon lentinə yazılaraq 20 kənd məktəbinə göndərildi.

Hələ 70-ci illərin sonlarında xarici dillərin tədrisi metodikası kafedrasının nəzdində məktəb metodikası üzrə təlim məşğələləri üçün məktəb tipli linqofon kabineti yaradılmış və lazımi texniki avadanlıqla təchiz edilmişdi. 80-ci illərin əvvəllərində həmin kabinetdə hazırlanan 4000-ə yaxın mətn tələbələrin istifadəsinə verilmişdi.

İnstitutda 1980-ci ildən başlayaraq sosioloji tədqiqatlar laboratoriyası da fəaliyyət göstərirdi. Tədris prosesinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər (maddi-texniki bazanın gücləndirilməsi, yeni laboratoriyaların yaradılması, dərslik və dərs vəsaitlərinin hazırlanması, eksperimental tədqiqatların aparılması, ümumtəhsil məktəbləri ilə əlaqənin genişləndirilməsi, pedaqoji praktikanın təkmilləşdirilməsi və s.) institutda təhsilin səviyyəsinin yüksəlməsinə xidmət edirdi. Belə ki, institutun yaradıldığı ilk illərdə tələbələr tərəfindən biliklərin mənimsənmə faizi o qədər də yüksək olmamışdı. Lakin bu göstərici ilbəil yüksəlmiş, beləliklə də, institut digər ali məktəblərin arasında qabaqcıllar sırasına çıxmışdı.

Həmin illərdə institutda dərs deyən professor-müəllim heyətinin tərkibi ildən-ilə yaxşılaşmış, elmi dərəcəlilərin sayı artmışdır. Bunu aşağıdakı cədvəldən görmək mümkündür:

*1973/74–1979/80-ci tədris illərində professor-müəllim heyətinin inkişaf dinamikası*

| № | Pedaqoji kadrlar | 1973/74 | 1974/75 | 1978/79 | 1979/80 |
|---|---|---|---|---|---|
| | | **Kafedra müdiri:** | | | |
| 1. | Professor | 6 | 8 | 5 | 5 |
| 2. | Dosent | 14 | 12 | 18 | 18 |
| 3. | Baş müəllim | 3 | 4 | 1 | 1 |
| | **Cəmi:** | **23** | **24** | **24** | **24** |
| | | **Kafedra üzvləri:** | | | |
| 1. | Professor | 1 | – | 2 | 2 |
| 2. | Dosent | 42,5 | 44 | 55,5 | 55,5 |
| 3. | Baş müəllim | 101 | 95 | 107 | 114,5 |
| 4. | Müəllim | 143,5 | 124 | 120,5 | 113,5 |
| 5. | Assistent | 16 | 10 | 9,5 | 9,5 |
| | **Cəmi:** | **327** | **297** | **294,5** | **295** |

Cədvəldən də göründüyü kimi, 70-ci illərin ikinci yarısında APXDİ-də elmi kadrların hazırlanması sahəsində mühüm nailiyyətlər əldə edilmişdir. İnstitutun müstəqil fəaliyyətə başlamasından keçən 10 il ərzində 3 nəfər doktorluq, 49 nəfər namizədlik dissertasiyası müdafiə etmişdi.

1983-cü il dekabrın 31-nə olan məlumata görə, institutda 10 nəfər elmlər doktoru, professor, 88 nəfər elmlər namizədi, o cümlədən 70 nəfər dosent işləyirdi. Pedaqogika kafedrasında 9 nəfərdən 2-si elmlər doktoru,




*Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu*

professor, 4-ü elmlər namizədi, 3 nəfəri baş müəllim. Psixologiya kafedrasındakı 5 nəfərdən 1-i elmlər doktoru, professor, 4-ü elmlər namizədi, Azərbaycan dili kafedrasındakı 7 nəfərdən 2-si elmlər doktoru, professor, 5-i elmlər namizədi, Roman-german filologiyası kafedrasındakı 16 nəfərdən 8-i elmlər namizədi idi.

1986–1990-cı illər ərzində institutda 48 nəfər namizədlik, 3 nəfər doktorluq dissertasiyası müdafiə etmişdir. Elmi-pedaqoji kadr potensialı artdıqca institutda aparılan elmi-tədqiqat işləri də təkmilləşir, yazılan əsərlər öz yüksək elmi dəyəri ilə seçilirdi. Artıq dilçilik elmində professor Oruc Musayev, Zemfira Verdiyeva, Fəxrəddin Veysəlli, Sərxan Abdullayev, Mehparə Qayıbova, Əli Musayev, Həsən Quliyev, Ələkbər Qubatov, Kamal Abdullayev, Adil Babayev, Firəngiz Ağayeva, ədəbiyyatşünaslıqda Qorxmaz Quliyev, Zeydulla Ağayev, pedaqogikada Nurəddin Kazımov, Əliheydər Həşimov, psixologiyadan Muxtar Həmzəyev, Səməd Seyidov kimi orijinal elmi-nəzəri konsepsiyaların yaradıcıları formalaşırdı. Onlardan bir çoxunun elmi ümumiləşdirmələri elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Elə bunun nəticəsidir ki, 80-ci illərdə institutun tələbələrinin müxtəlif elmi dərnəklərə cəlb edilməsinə xüsusi diqqət yetirilirdi. 1988-ci ildə professor Kamal Dadaşov institut TEC-inin idarə heyətinin sədri, baş müəllim Vahid Ərəbov isə onun müavini seçildilər. TEC-in işini daha da canlandırmaq, buraya daha qabiliyyətli və istedadlı tələbələrin cəlb edilməsi istiqamətində səmərəli tədbirlər görüldü.

80-ci illərin axırları, 90-cı illərin əvvəllərində SSRİ miqyasında gedən qlobal proseslər respublika həyatının bütün sahələrinə, o cümlədən ali təhsilə də çox ciddi təsir göstərdi. Respublikada başlanmış milli azadlıq hərəkatı bütün ali məktəblərin, o cümlədən APXDİ-nin müəllim və tələbə kollektivini də bu proseslərin fəal iştirakçısına çevirdi.

### Azərbaycan Politexnik İnstitutu

İkinci Dünya müharibəsindən sonra xalq təsərrüfatının bütün sahələrinin yenidən qurulmasına başlanıldı. Müxtəlif sahələr üzrə mühəndis kadrlarının hazırlanmasına olan ehtiyac Azərbaycanda yeni institutun yaradılmasını zəruri etdi. SSRİ Xalq Komissarları Soveti 1945-ci il 20 oktyabrda Azərbaycan Politexnik İnstitutunun yaradılması barədə qərar verdi. **1950-ci il noyabr ayında Bakı şəhərində Azərbaycan Sənaye İnstitutunun (əvvəlki Neft İnstitutu) İnşaat-memarlıq, Nəqliyyat və mexanika fakültələrinin bazasında Azərbaycan Politexnik İnstitutu (AzPİ) təşkil edildi. İlk vaxtlar institutun tərkibində üç fakültə – İnşaat, Mexanika, Dəmiryol və hidromeliorasiya fakültələri var idi.**

SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin əmri ilə texnika elmləri namizədi, dosent **Mahmud Məmmədov** institutun ilk direktoru, texnika elmləri namizədi, dosent Andrey Filippoviç Qolubitski isə tədris və elmi işlər üzrə direktor müavini təyin edildi.

Azərbaycan Sənaye İnstitutundan Politexnik İnstitutuna 11 kafedra verildi. 1951-ci ildə institutda artıq 31 kafedra fəaliyyət göstərir, 1480 tələbə təhsil alırdı. Bu kafedralarda Həbib Məmmədov, Ənvər Qasımzadə, Niyazi Kərimov, Almaz Acalov, Abuzər Əliyev müxtəlif ixtisaslar üzrə mühazirələr oxuyurdular. «Maşın detalları, mexanizmlər nəzəriyyəsi və yükqaldırma-nəqliyyat maşınları» kafedrasının müdiri vəzifəsinə dosent İsrafil Qarayev (1951) təsdiq edildi. Kafedraya rəhbərlik etməklə yanaşı, o, həm də Mexanika fakültəsinin dekanı (1952) vəzifəsini icra edirdi.

Politexnik İnstitutunun ilk buraxılış 1951-ci ildə oldu, 251 nəfər tələbə institutu bitirərək mühəndis adı aldı. Azərbaycanlı pedaqoji kadrların sayını artırmaq məqsədilə institutun rəhbərliyi təhsilini başa vurmuş azərbaycanlı tələbələrin bəzilərini müvafiq kafedralarda saxladı.

Bu institutun məzunları Rəhim Şükürov 1953-cü, Ayaz Kəngərli isə 1957-ci ildən doğma ali təhsil ocaqlarının professor-müəllim heyətinin tərkibində fəaliyyət göstərməyə başladılar.

1954-cü ilin iyun ayından professor **Abuzər Əliyev** Azərbaycan Politexnik İnstitutunun direktoru, professor Hüseynağa Muradxanov isə tədris və elmi işlər üzrə direktor müavini təyin edildi. 1957-ci ildə institut I kateqoriyalı ali məktəblər sırasına daxil edildi.

1955-ci ilin sentyabrında institutun Bakı şəhərinin müxtəlif ünvanlarında yerləşən bütün



**Mahmud Məmmədov (1909–1964)**

Məmmədov Mahmud Tağı oğlu Azərbaycan Kənd Təsərrüfatı İnstitutunu bitirdikdən sonra (1933) orada müəllim və fakültə dekanı vəzifəsində çalışmışdır. Moskvada Kənd Təsərrüfatının Mexanikləşdirilməsi və Elektrikləşdirilməsi İnstitutunun aspiranturasını bitirərək (1939) namizədlik dissertasiyası müdafiə etmişdir.

Azərbaycan SSR kənd təsərrüfatı nazirinin müavini, Azərbaycan KP MK-da məsul vəzifələrdə (1942–1950), Azərbaycan Politexnik İnstitutunun direktoru vəzifəsində (1950–1954) çalışmışdır.

Azərbaycan SSR kənd təsərrüfatı nazirinin birinci müavini təyin edilmiş (1954), qısa müddətdən sonra Azərbaycan Respublikası Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Politexnik İnstitutuna qayıtmış (1960), burada kafedra müdiri və fakültə dekanı vəzifələrində çalışmışdır.



**Abuzər Əliyev**
**(1911–1980)**

**Əliyev Abuzər Əsgər oğlu** Azərbaycan Sənaye İnstitutunun Memarlıq-inşaat fakültəsini bitirmişdir (1937). Aspiranturanı bitirərək Azərbaycanda tikinti sahəsi üzrə ilk namizədlik dissertasiyası müdafiə etmişdir (1945). İkinci Dünya müharibəsi illərində Bakı şəhərində tikilən hərbi zavodda baş mühəndis və Respublika tikinti nazirinin müavini vəzifələrində işləmişdir. Azərbaycan Politexnik İnstitutunda tikinti istehsalatı kafedrasında assistent, dosent, İnşaat fakültəsində dekan müavini, dekan və kafedra müdiri (1938–1940; 1944–1980), institutun rektoru (1954–1962) vəzifələrində işləmişdir.

Bir çox orden və medallarla, o cümlədən Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuş, Azərbaycan SSR-in əməkdar mühəndisi fəxri adına layiq görülmüşdür.

struktur bölmələri bir binaya (H.Cavid prospekti, 25) köçürüldü. Tədris auditoriyalarının çatışmazlığını nəzərə alaraq, professor-müəllim və tələbə kollektivinin gücü ilə institutun əsas binası rekonstruksiya olundu. Kitabxana, ikimərtəbəli tədris binası, stadion, tələbələr üçün yataqxana, müəllimlər üçün 60 mənzilli yaşayış binası sürətlə tikilərək istifadəyə verildi.

İnstitutun axşam şöbəsində istehsalatdan ayrılmamaq şərtilə Bakı şəhərinin maşınqayırma, avtomobil təmiri zavodlarının əməkdaşları və dəmir yol işçiləri oxuyurdular. Axşam şöbəsinin Bakı Elektromexanika və Şmidt (indiki Səttarxan) adına zavodlarındakı filiallarda 50 nəfər tələbə təhsil alırdı. İnstitutun texnikanın müxtəlif sahələrinə aid 120 min nüsxədən çox kitabı olan əsaslı kitabxanası və oxu zalı var idi.

1957-ci ildə institutda 8 professor, 78 dosent, 186 baş müəllim və assistentin çalışdığı 41 kafedra fəaliyyət göstərirdi.

Ali məktəblərdə tələbələrin istehsalat təcrübəsini genişləndirmək məqsədilə, 1960-cı ilin əvvəlində SSRİ üzrə keçirilən islahata uyğun olaraq, əyani şöbənin birinci kursuna qəbul edilən tələbələr, eyni zamanda müvafiq sənaye sahələrində işləyirdilər. Belə təlim prosesi 1964-cü ilə qədər davam etdi.

1962–1968-ci illərdə AzPİ-nin rektoru vəzifəsini Azərbaycan SSR EA-nın müxbir üzvü, memarlıq doktoru, professor **Ənvər Qasımzadə** icra etmişdir.

1962-ci ildə institutda I–III kurs qiyabiçi tələbələri birləşdirən Ümumtexniki fakültə yaradıldı. Tələbələr III kursu bitirdikdən sonra müvafiq ixtisas fakültələrinə paylanır, inşaat, mexanika, hidromeliorasiya, avtomatika və hesablama texnikası,



**Ənvər Qasımzadə**
**(1912–1969)**

**Qasımzadə Ənvər Əli oğlu** Salyan rayonunda anadan olmuşdur. Azərbaycan Sənaye İnstitutunun Memarlıq-inşaat fakültəsini bitirmişdir (1936). Azərbaycan Dövlət Layihə İnstitutunda və paralel olaraq Azərbaycan Sənaye İnstitutunda müəllim işləmişdir (1936–1942).

Müxtəlif illərdə Azərbaycan Dövlət Layihə İnstitutunda memar, baş mühəndis (1947), Azərbaycan SSR Nazirlər Soveti yanında memarlıq işləri idarəsinin rəisi (1951), Bakı Soveti sədrinin birinci müavini, Azərbaycan SSR Dövlət Plan Komitəsi sədrinin tikinti və layihə məsələləri üzrə müavini (1957), Azərbaycan Politexnik İnstitutunda arxitektura-layihələndirmə kafedrasında dosent (1959) və rektor (1962–1968) vəzifələrində çalışmışdır.

Azərbaycan SSR-in əməkdar inşaatçısı fəxri adını almışdır. Metropolitenin «Ulduz» stansiyasının, bir çox yaşayış və ictimai binaların layihələrinin müəllifidir.

İkinci Dünya müharibəsinin fəal iştirakçısı olmuş, Qırmızı Ulduz, Qırmızı Bayraq ordeni və medallarla təltif olunmuşdur.

texnologiya, elektrotexnika, metallurgiya və başqa ixtisaslara yiyələnirdilər. Ümumtexniki fakültədə Bakı və Abşeronda yaşayan qiyabiçi tələbələr axşam şöbəsinin tələbələri kimi həftədə 16 saat dərs keçirdilər. Dərslərə davam etmək imkanı olmayan qiyabiçi tələbələr isə hər tədris ilində qış və yaz imtahan-yoxlama sessiyasına dəvət edilirdilər. Dərsə davam etmək imkanı olmayan qiyabiçilərə kömək məqsədilə Gəncə və Mingəçevir şəhərlərində tədris-məsləhət məntəqələri təşkil edilmişdi. Ümumtexniki fakültə 1975-ci ildə fəaliyyətini dayandırdı, tələbələr isə uyğun fakültələrin axşam və qiyabı şöbələrinə köçürüldü.

60–70-ci illərdə SSRİ məkanında və respublikada yüksəkixtisaslı mütəxəssislərin və elmi kadrların hazırlanmasına olan ehtiyac AzPİ-nin daha sürətlə inkişaf etməsinə səbəb oldu. Bu illərdə aspirantura xətti ilə onlarla gənc müəllim SSRİ-nin Moskva, Leninqrad (Sankt-Peterburq) və başqa şəhərlərinə göndərildi. Onlar orada tanınmış rus alimlərinin rəhbərliyi ilə aspirantura hazırlığı keçdikdən sonra, elmi və pedaqoji fəaliyyətlərini davam etdirmək üçün yenidən AzPİ-yə qayıtdılar.

1961-ci ildə AzPİ-də avtomatika və hesablama texnikası fakültəsi yaradıldı. Bu fakültədə radiotexnika, rabitə və sənaye elektronikası kafedrası fəaliyyətə başladı. Bununla da respublikada müasir istiqamətli yeni radiotexnika və rabitə üzrə ixtisaslaşmış elmi kadrların hazırlanmasının təməli qoyuldu.

1961-ci ildə instituta dəvət olunmuş Ulduz Kəngərli dünyada ilk dəfə olaraq neft quyularının qazma prosesinin dərinlik parametrlərinə əsasən avtomatlaşdırılması məqsədilə ölçmə informasiyasını quyunun dibindən üstünə vermək üçün elektromaqnit dalğaları vasitəsilə rabitə kanalını işləyib hazırlamışdır.

1962-ci ildə institutda Texnologiya fakültəsi yaradıldı. Bu fakültədə lifli materialların ilkin emalı, konservləşdirmənin texnologiyası, trikotaj istehsalı, toxuculuq sənayesi maşın və avadanlıqları, yeyinti məhsulları istehsalı maşın və avadanlıqları, poliqrafiya istehsalatı texnologiyası, dəri məmulatlarının texnologiyası və s. ixtisaslar üzrə mütəxəssis hazırlığına başlandı. Fakültədə lifli materialların texnologiyası, tikiş və ayaqqabı istehsalı adlı ixtisas kafedraları da fəaliyyət göstərirdi.

1964-cü ildə Elektrotexnika fakültəsi təşkil edildi. Elektrotexnika fakültəsində radiotexnika, avtomatik elektrik rabitəsi, radiorabitə və radio verilişləri, elektroizolyasiya və kabel texnikası, çoxkanallı elektrik rabitəsi və s. ixtisaslar üzrə mühəndis kadrları hazırlanırdı. Həmin ildə fakültədə elektrik maşınları və Elektrik intiqalları kafedrası fəaliyyətə başladı. Kafedranın müdiri Azərbaycan SSR EA-nın müxbir üzvü, texnika elmlər doktoru, professor Yaqub Qədimovun rəhbərliyi ilə burada müasir elmi məktəb yaradıldı və çoxlu sayda elmi kadrlar hazırlandı.

Azərbaycanda qara və əlvan metallurgiyanın inkişafı, Azərbaycan boruyayma, Gəncə, Sumqayıt alüminium və maşınqayırma zavodlarının istehsalat gücünün artırılması, SSRİ məkanında metallurq mütəxəssislərin çatışmazlığı ilə bağlı AzPİ-də 1964-cü ildə Metallurgiya fakültəsi yaradıldı. Professor Nadir Qasımzadə fakültənin ilk dekanı təyin edildi. Bu fakültədə əlvan metalların metallurgiyası, tökmə istehsalının maşınları və texnologiyası (sonuncu ixtisas üzrə mütəxəssislərin hazırlanması 1956-cı



**Rza Bədəlov**
**(1915–1987)**

**Bədəlov Rza Əbdül oğlu** Bakının Sabunçu kəndində anadan olmuşdur. Azərbaycan Sənaye İnstitutunu (1935–1941) və Marksizm-Leninizm Universitetini (1951–1953) bitirmişdir. Texnika elmlər doktoru (1966) elmi dərəcəsi almışdır.

Neft və Kimya İnstitutunda assistentdən baş müəllimə, dosentə, kafedra müdirinə, Neft-mexanika fakültəsinin dekanına qədər bir çox vəzifələr tutmuşdur (1944–1968). Azərbaycan Politexnik İnstitutunun rektoru (1968–1976) vəzifəsində çalışmışdır. Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

28 elmi əsərin və monoqrafiyanın müəllifidir.

ildən başlanmışdı), qara və əlvan metalların tökmə istehsalı, qaynaq istehsalı avadanlığı və texnologiyası, qara metalların metallurgiyası, metalların təzyiqlə emalı, metalşünaslıq və termiki emal ixtisasları üzrə mühəndis hazırlığına başlandı.

1968-ci ildə AzPİ-nin rektoru vəzifəsinə Azərbaycan SSR EA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor **Rza Bədəlov** təyin edildi.

1969-cu ilin dekabr ayında Azərbaycan Politexnik İnstitutuna inqilabçı metallurq Çingiz İldırımın adı verildi.

1970-ci ildə İnşaat fakültəsində memarlıq üzrə fəaliyyət göstərən ixtisas kafedralarının əsasında Memarlıq fakültəsi yaradıldı. Bu zaman artıq AzPİ-nin 9 fakültəsi var idi. Fəaliyyət göstərdiyi 20 il ərzində (1950–1970) institut xalq təsərrüfatı, layihə və elmi-tədqiqat institutları üçün 40 ixtisas üzrə 15140 mütəxəssis hazırlamışdı. Bu illərdə AzPİ ölkənin çoxprofilli mühəndis və elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil müəssisələrindən birinə çevrildi.

*1951–1970-ci illərdə Azərbaycan Politexnik İnstitutunun tələbə kontingentinin inkişaf dinamikası*

| İl | Qəbul | Buraxılış |
|---|---|---|
| 1951 | 600 | 251 |
| 1952 | 600 | 201 |
| 1953 | 750 | 194 |
| 1954 | 800 | 267 |
| 1955 | 750 | 524 |
| 1956 | 600 | 550 |
| 1957 | 650 | 521 |
| 1958 | 650 | 654 |
| 1959 | 650 | 712 |
| 1960 | 750 | 576 |
| 1961 | 800 | 994 |
| 1962 | 1350 | 520 |
| 1963 | 1800 | 439 |
| 1964 | 2400 | 491 |
| 1965 | 2500 | 646 |
| 1966 | 3100 | 682 |
| 1967 | 3200 | 1124 |
| 1968 | 3200 | 1554 |
| 1969 | 3460 | 2052 |
| 1970 | 3750 | 2188 |
| **Cəmi:** | **32360** | **15140** |

Gənc fəhlə və kolxozçuların ümumtəhsil hazırlığını artırmaq, onların ali məktəblərə qəbul olunmasına kömək etmək məqsədilə SSRİ Nazirlər Sovetinin qərarına əsasən 1970-ci ildə



**Mirzə Bağırov (1927)**

**Bağırov Mirzə Əyyub oğlu** Azərbaycan Sənaye İnstitutunun energetika fakültəsini bitirmişdir (1949). SSRİ Elmlər Akademiyasının Moskva Energetika İnstitutunun aspiranturasını bitirdikdən (1953) sonra həmin institutda çalışmışdır. Azərbaycan SSR Elmlər Akademiyasının Energetika və Fizika İnstitutunda laboratoriya müdiri (1956–1963). Azərbaycan SSR Elmlər Akademiyası partiya komitəsinin katibi (1959–1967) vəzifələrində işləmişdir. Moskva Neft-Kimya və Qaz İnstitutunda doktorluq dissertasiyası müdafiə etmiş, professor elmi adı almışdır (1966). Azərbaycan Elmlər Akademiyası radiasiya tədqiqatları bölməsinin direktoru (1974–1976), AzPİ-nin rektoru (1976–1989), Lənkəran Dövlət Universitetinin rektoru (1997–2005), Azərbaycan EA-da laboratoriya müdiri vəzifələrində çalışmışdır.

AzPİ-də təhsil müddəti bir il olan hazırlıq şöbəsi yaradıldı.

**1 sentyabr 1970-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Gəncə şəhərində AzPİ-nin filialı təşkil olundu.** Filialda maşınqayırma texnologiyası, metalkəsən dəzgahlar və alətlər, yeyinti məhsulları istehsalı maşın və avadanlığı, toxuculuq sənayesi maşın və avadanlığı və s. ixtisaslar üzrə mütəxəssislər hazırlığına başlandı.

1973-cü ildə AzPİ-nin idman sarayı istifadəyə verildi. 8 idman zalı olan bu müasir, möhtəşəm binada Bədən tərbiyəsi və idman kafedrası, idman klubunun əsas seksiyaları yerləşdirildi.

70-ci illərin ortalarında Azərbaycan Politexnik İnstitutu fakültələrinin, elm və texnika üzrə müasir ixtisaslarının sayına görə respublikamızın ən iri ali təhsil ocaqlarından biri idi. İnstitutun 11 fakültəsində 50-dən artıq ixtisas üzrə 22 mindən çox tələbə təhsil alırdı. Hər il instituta orta hesabla 4 minə qədər gənc qəbul edilirdi. Professor-müəllim heyətinin sayı artaraq 1150 nəfərə çatmışdı. Onlardan 33 nəfəri elmlər doktoru, professor, 471 nəfəri isə elmlər namizədi, dosent idi.

1975-ci ilə kimi AzPİ xalq təsərrüfatı üçün müxtəlif ixtisaslar üzrə 25 mindən çox mühəndis kadrları hazırlamışdı.

**1975-ci ildə SSRİ və Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə AzPİ-nin Memarlıq, İnşaat, Hidromeliorasiya və Nəqliyyat fakültələrinin bazasında Azərbaycan İnşaat Mühəndisləri İnstitutu yaradıldı.**

Yeni yaradılan Azərbaycan İnşaat Mühəndisləri İnstitutu AzPİ-nin korpuslarında yerləşdirildiyindən burada auditoriya fondu xeyli azaldı. İnstitutun maddi-texniki bazasını genişləndirmək məqsədilə 1978–1985-ci illərdə geniş tikinti işləri aparıldı. İnstitutun həyətindəki ikimərtəbəli tikililər söküldü, yerində Avtomatika və hesablama texnikası fakültəsi üçün altımərtəbəli binanın inşasına başlandı.

1976-cı ildə Azərbaycan Politexnik İnstitutuna texnika elmləri doktoru, professor, Əməkdar elm xadimi **Mirzə Bağırov** rektor təyin edildi.

1977-ci ildə institutun 6 fakültəsində 33 ixtisas üzrə mühəndis kadrları hazırlanırdı. Təhsil alan 9400 tələbədən 4 min nəfəri gündüz, qalanları isə axşam və qiyabi şöbələrdə oxuyurdu. İnstitutun 39 kafedrasında 600 müəllim işləyirdi. Onlardan 21 nəfəri elmlər doktoru, professor, 250 nəfəri isə elmlər namizədi, dosent idi.

1977–1980-ci illərdə təhsilin keyfiyyətini yüksəltmək məqsədilə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin qərarına əsasən, Azərbaycan Politexnik İnstitutunda xeyli




*Politexnik İnstitutunun əsas binası*

daxili struktur dəyişikliyi həyata keçirildi, fakültələrin və kafedraların istiqamətləri dəqiqləşdirildi.

1977-ci ildə Radiotexnika və elektrik rabitəsi fakültəsi bazasında iki müstəqil fakültə – Elektrotexnika və Radiotexnika fakültələri yaradıldı. Bir il sonra Mexanika fakültəsindən yeni bir fakültə – Avtonəqliyyat fakültəsi ayrıldı.

**1981-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Nazirlər Sovetinin qərarı ilə yüngül və yeyinti sənayesi üçün yüksəkixtisaslı kadrlar hazırlamaq məqsədilə AzPİ-nin Gəncə filialının bazasında Azərbaycan Texnologiya İnstitutu yaradıldı**, AzPİ-nin Texnologiya fakültəsi oraya köçürüldü. Həmin illərdə respublikada maşınqayırma texnologiyası ixtisası üzrə mütəxəssislərin hazırlanması yalnız AzPİ-yə, avtomatika və telemexanika ixtisası üzrə mütəxəssislərin hazırlanması isə o zamankı Azərbaycan Neft və Kimya İnstitutuna tapşırıldı.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Politexnik İnstitutunda. 1981-ci il*

1982-ci ildə Mexanika fakültəsinin bazasında Maşınqayırma fakültəsi, 1986/87-ci tədris ilində isə Mexanika və maşınqayırma fakültələrinin bazasında Robot texnikası fakültəsi yaradıldı.

80-ci illərdə Azərbaycan Politexnik İnstitutu iri istehsalat müəssisələri ilə tədris-elm-istehsalat birlikləri (TEİB) yaratdı. Bu birliklərdə tələbələrin istehsalın idarə edilməsi vərdişlərinə yiyələnmələri, istehsalat prosesləri ilə yaxından tanış olmaları, onların peşə hazırlığının hərtərəfli inkişafı üçün geniş imkanlar yaradılmışdı. Burada tələbələr yeni texnika, texnologiya, materiallar, şəbəkə və mexanizmlər, sxem və modellərlə əyani şəkildə tanış olurdular.

TEİB-lər Bakı şəhər telefon şəbəkəsində, Mingəçevir Kabel zavodunda, Bakı Radio zavodunda, Bakı Elektroştamp birliyində, Ümumittifaq Elmi-Tədqiqat Layihə və Texnologiya İnstitutunda, Bakı kondisioner Elm İstehsalat Birliyində (EİB), Azərelektromaş zavodunda, Sumqayıt


МИНИСТЕРСТВО ВЫСШЕГО И СРЕДНЕГО СПЕЦИАЛЬНОГО ОБРАЗОВАНИЯ СССР

ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ ПРОФСОЮЗА РАБОТНИКОВ ПРОСВЕЩЕНИЯ, ВЫСШЕЙ ШКОЛЫ И НАУЧНЫХ УЧРЕЖДЕНИЙ

ЗА ДОСТИЖЕНИЕ ВЫСОКИХ РЕЗУЛЬТАТОВ ВО ВСЕСОЮЗНОМ СОЦИАЛИСТИЧЕСКОМ СОРЕВНОВАНИИ, ЗА ВЫПОЛНЕНИЕ И ПЕРЕВЫПОЛНЕНИЕ ЗАДАНИЙ 1983 ГОДА И БОЛЬШУЮ РАБОТУ ПО ПОДГОТОВКЕ ВЫСОКОКВАЛИФИЦИРОВАННЫХ СПЕЦИАЛИСТОВ, ПОВЫШЕНИЮ ЭФФЕКТИВНОСТИ И КАЧЕСТВА ИДЕЙНО-ВОСПИТАТЕЛЬНОЙ, УЧЕБНО-МЕТОДИЧЕСКОЙ И НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКОЙ РАБОТЫ

ПРИСУЖДАЮТ КОЛЛЕКТИВУ

АЗЕРБАЙДЖАНСКОГО ПОЛИТЕХНИЧЕСКОГО ИНСТИТУТА им. ИЛЬДРЫМА

ПЕРЕХОДЯЩЕЕ

КРАСНОЕ ЗНАМЯ

И ПЕРВУЮ ДЕНЕЖНУЮ ПРЕМИЮ

*1983-cü ildə Politexnik İnstitutu SSRİ Maarif işçiləri, ali məktəb və elmi idarələrin Həmkarlar İttifaqı Şurasının Keçici Qırmızı Bayrağı və pul mükafatı ilə təltif olunmuşdur*

alüminium zavodunda, Azərbaycan Elmlər Akademiyasında, Azərbaycan Respublikası Dəmiryol İdarəsində, Bakı dəzgahqayırma istehsalat Birliyində və s. müəssisələrdə yaradılmışdı.

Bütövlükdə 1980–1991-ci illərdə institut tərəfindən 30 TEİB yaradılmış və fəaliyyət göstərmişdi.

Azərbaycan Politexnik İnstitutunun 1970-ci ildən başlayaraq qazandığı bütün uğurlar Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin həmin dövrdə elmə və təhsilə diqqət və qayğısının nəticəsi idi. Heydər Əliyev 1981-ci ilin yayında qəbul imtahanları zamanı AzPİ-də olmuş, institutun professor-müəllim heyəti, valideynlər və abituriyentlərlə görüşmüş, qəbul imtahanlarının gedişi ilə maraqlanmışdı.

Məhz Ulu öndərin təşəbbüsü ilə 1984-cü ildə Azərbaycan SSR Nazirlər Soveti AzPİ-nin maddi-texniki bazasının gücləndirilməsi haqqında qərar qəbul etdi. Qərarda institutun ərazisində Avtomatika və hesablama texnikası fakültəsi üçün binanın tikilməsi, instituta yeni hesablayıcı maşınların, tədris işləri üçün mebelin alınması, müəllimlərə hər il 5 mənzilin verilməsi, 96 mənzilli kooperativ evin inşa edilməsi, tələbə şəhərciyinin sahmana salınması məqsədilə vəsait ayrılması nəzərdə tutulmuşdu.

70–80-ci illərdə Heydər Əliyevin şəxsi təşəbbüsü ilə respublikanın ali təhsil müəssisələrindən SSRİ-nin qabaqcıl ali təhsil müəssisələrinə oxumaq üçün tələbələr göndərilməsinə ciddi fikir verilirdi. Bu cəhətdən AzPİ öndə gedən institutlardan idi.

*1983–1985-ci illərdə Azərbaycan Politexnik İnstitutundan SSRİ-nin ali təhsil müəssisələrinə göndərilənlər*

| № | Təyinat | İllər | | |
|---|---|---|---|---|
| | | 1983 | 1984 | 1985 |
| 1. | SSRİ-nin ali təhsil müəssisələrinin I kursuna göndərilənlər | 199 | 194 | 203 |
| 2. | SSRİ-nin ali təhsil müəssisələrinə koorperasiya yolu ilə göndərilənlər | 5 | 5 | - |
| 3. | SSRİ-nin ali təhsil müəssisələrinin yuxarı kurslarına göndərilənlər | 6 | 6 | 6 |
| 4. | SSRİ-nin ali təhsil müəssisələrinin hazırlıq kurslarına göndərilənlər | 27 | 27 | 28 |
| | **Cəmi:** | **237** | **232** | **237** |

1987-ci ildən etibarən elmin, texnikanın və texnologiyanın yeni istiqamətləri üzrə mütəxəssislərin yenidən hazırlanması məqsədilə AzPİ-də təsərrüfat hesabı ilə işləyən İxtisasartırma fakültəsi fəaliyyət göstərməyə başladı. Burada mütəxəssislər 8 ixtisas üzrə yenidən hazırlanırdı.

1989-cu ildə Çingiz İldırım adına AzPİ-nin rektoru vəzifəsinə Azərbaycan SSR EA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor **Ramiz Qurbanov** təyin edildi.

*1971–1991-ci illərdə Azərbaycan Politexnik İnstitutunun tələbə kontingentinin inkişaf dinamikası*

| İl | Qəbul | Buraxılış |
|---|---|---|
| 1971 | 3760 | 2776 |
| 1972 | 2900 | 2606 |
| 1973 | 3900 | 2660 |
| 1974 | 3900 | 2362 |
| 1975 | 3589 | 2161 |
| 1976 | 2246 | 1169 |
| 1977 | 2400 | 1256 |
| 1978 | 2650 | 1434 |
| 1979 | 2895 | 1378 |
| 1980 | 3550 | 1507 |
| 1981 | 2525 | 1540 |
| 1982 | 2502 | 1583 |
| 1983 | 2450 | 1909 |
| 1984 | 2620 | 1920 |
| 1985 | 2395 | 2139 |
| 1986 | 2400 | 2262 |
| 1987 | 2534 | 1569 |
| 1988 | 1933 | 1721 |
| 1989 | 1567 | 2117 |
| 1990 | 1670 | 2210 |
| 1991 | 1832 | 1966 |
| **Cəmi:** | **56218** | **40245** |

1989-cu ilin sonunda Azərbaycan Politexnik İnstitutunun tərkibinə 8 fakültə (Mexanika, Maşınqayırma, Robot texnikası, Metallurgiya, Avtomatika və hesablama texnikası, Avtonəqliyyat, Elektrotexnika, Radiotexnika) xarici tələbələrlə iş üzrə dekanlıq, hazırlıq və aspirantura şöbələri, problem laboratoriyaları daxil idi. Bu fakültələrdə 24 ixtisas üzrə mühəndis kadrları hazırlayan 49 kafedra fəaliyyət göstərirdi. İnstitutda 903 nəfərdən ibarət professor-müəllim heyəti çalışırdı ki, onlardan 47 nəfəri elmlər doktoru, professor, 457 nəfəri isə elmlər namizədi, dosent idi.

İnstitutda təhsil alan 12893 nəfər tələbədən 6966 nəfəri əyani şöbədə oxuyurdu.

1991-ci ildə AzPİ-nin rektoru vəzifəsinə **Əli Sadıqov** təyin edildi.

1971–1991-ci illər ərzində AzPİ xalq təsərrüfatı üçün 62 ixtisas üzrə 40245 nəfər mühəndis kadrları hazırlamışdı.

Əgər 1965–1975-ci illərdə institutda 15 doktorluq, 171 namizədlik dissertasiyası müdafiə olunmuşdusa, 1976–1991-ci illər ərzində 41 doktorluq, 300-ə qədər namizədlik dissertasiyası hazırlanmışdır. Müdafiə edənlərin əksəriyyəti institutun məzunları idi.

İnstitutun alimlərinin bir çox ixtiraları ABŞ, Almaniya, Yaponiya, Fransa, Böyük Britaniya, Kanada, Çin kimi ölkələrdə patentləşdirilmişdir. İnstitutun 25-dən artıq müəllimi «SSRİ ixtiraçısı» döş nişanı ilə təltif edilmişdir. Müəllimlərin yaratdığı qurğu və stendlər vaxtaşırı sərgilərdə nümayiş etdirilərək mükafatlandırılmışdır. 1968-ci ildə SSRİ xalq təsərrüfatı nailiyyətləri sərgisində nümayiş etdirilən 11 eksponatdan 6-sı medal və diplom almışdı. Azərbaycan Politexnik İnstitutunda

xarici ölkələr üçün mütəxəssislərin hazırlanmasının tarixi 1969-cu ildən başlayır. Bu illər ərzində universitetdə Türkiyə, Pakistan, İran, Əfqanıstan, Misir, Vyetnam, Hindistan, Kuba, Koreya, Suriya, Çili, Ekvador, Bolqarıstan, Efiopiya, Banqladeş, Zambiya, Sudan, Kampuçiya, Monqolustan, Somali, Cənubi Afrika Respublikası və s. dövlətlərin vətəndaşları təhsil almışlar.

1991-ci ilə qədər institutda 20 xarici ölkə üçün 1350 nəfər mühəndis hazırlanmışdır.

Fəaliyyətə başladığı dövrdən bu ali təhsil ocağında Ümuminstitut kafedraları fəaliyyət göstərmişdir. Marksizm-leninizm və siyasi iqtisad kafedrası 1950-ci ildə yaradılmışdır.

Ümuminstitut kafedralarından olan Ali riyaziyyat, Fizika, Kimya, Xarici dillər, Rus dili və pedaqogika, Bədən tərbiyəsi və idman kafedraları 1950-ci ildə yaradılmışdır.

Fəlsəfə kafedrası 1965-ci ildən fəaliyyətə başlamışdır.

Siyasi iqtisad kafedrası 1967-ci ildən fəaliyyətə başlamışdır.

Xarici tələbələr üçün rus dili kafedrası 1983-cü ildə yaradılmışdır.

Azərbaycan Politexnik İnstitutunun inkişaf edərək yüksək səviyyəyə çatmasında bütün şüurlu həyatını ixtisaslı mühəndis kadrlarının hazırlanmasına həsr etmiş görkəmli alimlərin, şöhrət qazanmış müəllimlərin adları həmişə böyük iftixar hissi ilə çəkilir. Bunlardan Mahmud Məmmədovun, Abuzər Əliyevin, Ənvər Qasımzadənin, Mirzə Bağırovun, Mikayıl Hüseynovun, Ağasəməd Əlizadənin, İsrafil Qarayevin, Yaqub Qədimovun, Nadir Qasımzadənin, Həbib Məmmədovun, Hüseynağa Muradxanovun, Fyodor Yaroşevskinin, Mənsur Şəfiyevin, Şıxbala Əliyevin, Yakov Duninin, Almaz Acalovun, Murtuz Qacarovun, Zahid Əlizadənin, Rəhim Şükürovun, Niyazi Kərimovun, Dilavər Bayasanovun, Ənvər Nəcəfovun, Hümbət Hüseynovun, Fatma Süleymanovanın, Yaşar Nazıyevin, Əbdül-Mabut Abdullayevin, Ayaz Kəngərlinin, Ulduz Kəngərlinin, Fərrux Ramazanovun, Şamil Səmədzadənin, uzun illər Ali riyaziyyat kafedrasına bacarıqla rəhbərlik etmiş Əli Novruzovun və başqalarının adlarını xüsusi qeyd etmək lazımdır.

Azərbaycan Politexnik İnstitutu qısa bir müddətdə (18 fevral – 24 sentyabr 1991-ci il) Azərbaycan Mühəndis-Texniki Universitet adlandırıldı, burada üç axşam və qiyabi fakültə (Avtomexanika, Maşınqayırma, Elektroradioavtomatika) fəaliyyət göstərməyə başladı.

**24 sentyabr 1991-ci ildən isə bu təhsil müəssisəsi Azərbaycan Texniki Universiteti adlanır.**

### Sumqayıt Ali Texniki Təhsil Məktəbi

60-cı illərdə SSRİ-nin müxtəlif ərazilərində, o cümlədən Sumqayıtda nəhəng kimya zavodları tikilir, iri sənaye kompleksləri inşa edilirdi. Azərbaycanın bütün guşələrindən, eləcə də keçmiş SSRİ-nin müxtəlif yerlərindən gənclik şəhərinə sürətli işçi axını var idi. Bu isə yeni problemlər, yeni tələblər yaradırdı. Belə zəruri məsələlərdən biri də Sumqayıtdakı sənaye müəssisələrini yüksəkixtisaslı kadrlarla təmin etmək idi. Şəhərin iri sənaye komplekslərində ixtisaslı kadrlara böyük ehtiyac duyulurdu.

1960-cı ildə Sumqayıt şəhər Partiya Komitəsinin birinci katibi Firudin Əliyev Sumqayıtda Azərbaycan Neft və Kimya İnstitutunun filialının yaradılması barədə təşəbbüs qaldırdı. Bu təşəbbüs ölkə rəhbərliyi tərəfindən bəyənildi və **1960-cı ildə Sumqayıtda AzNKİ-nin** tədris məntəqəsi yaradıldı. **Tədris məntəqəsi kimi fəaliyyət göstərən təhsil ocağı SSRİ Nazirlər Sovetinin «Kimya sənayesi və kimyəvi maşın aparatlarının qurulması və idarə olunması üçün mütəxəssislərin hazırlanması» haqqında 23 aprel 1962-ci il tarixli qərarına əsasən Məşədi Əzizbəyov adına Az.NKİ-nin filialına çevrildi.** Bu filialın yaradılmasında 1960-cı ildə Az.NKİ-yə rektor təyin edilmiş görkəmli təhsil təşkilatçısı, akademik İsmayıl İbrahimovun böyük xidmətləri oldu. İttifaq əhəmiyyətli bir ali təhsil müəssisəsinin filialının Sumqayıtda yaradılması şəhərin mədəni həyatında və sosial inkişafında mühüm rol oynadı. Yarandığı vaxtdan 1992-ci ilədək bu ali məktəb aşağıdakı adlar altında fəaliyyət göstərmişdir:

- Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt tədris məntəqəsi (1960–1961);
- Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialı (1962–1975);
- Sumqayıt Ali Texniki Təhsil Məktəbi (ATTM) (1975–1992).

1962-ci ildə texnika elmləri namizədi, dosent **İslam Abbasov** filiala direktor vəzifəsinə təyin edildi. Heç bir binası, lazımi avadanlığı olmayan filiala rəhbərlik etdiyi dövrdə o, təcrübəli professor-müəllim heyətini işə cəlb etməklə tədrisin normal gedişinə nail olmuş, nizam-intizamı möhkəmləndirməklə təhsil müəssisəsinin inkişafını təmin edə bilmişdi.

Sumqayıt filialına ilk qəbul 1962/63-cü tədris ilində keçirildi. Həmin tədris ilində 250 nəfər tələbə müxtəlif ixtisaslar üzrə Azərbaycan və rus bölmələrinə qəbul olundu. Bu dövrdə əyani şöbəyə qəbul keçirilməmiş, axşam şöbəsinə 200 nəfər, qiyabi şöbəyə isə 50 nəfər tələbə qəbul edilmişdi.

Az.NKİ-nin rektoru, akademik İsmayıl İbrahimovun filialın rəhbərliyi ilə müntəzəm şəkildə əlaqə saxlaması, dəyərli məsləhət və tövsiyələr verməsi bu ali məktəbdə özünəməxsus ənənələrin yaranması ilə nəticələndi.

Filialın fəaliyyət göstərdiyi ilk dövrlərdə müvafiq bina olmadığından dərslər şəhərin müxtəlif orta məktəblərində (əsasən, 11 nömrəli orta məktəbdə) keçirilirdi. Həmin çətinlikləri uzun müddət burada işləmiş AMEA-nın müxbir üzvü, professor Firudin Məmmədov belə xatırlayır: *«Bu məktəblərdə tələbələrə ancaq mühazirələr oxunur, məşğələlər aparılırdı.*



**İslam Abbasov (1924)**

**Abbasov İslam Qara oğlu** Tovuz rayonunda anadan olmuşdur. Neft və Kimya İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir (1959).

Texnika elmləri namizədi alimlik dərəcəsi almışdır (1970).

Neft və Kimya İnstitutunun Sumqayıt filialının direktoru vəzifəsində işləmişdir (1962–1970).

Qısa bir müddətdə Azərbaycan Neft və Kimya İnstitutunun qaz yataqlarının işlənməsi kafedrasında, daha sonra isə Neft və Kimya Avtomat Elmi-Tədqiqat Layihə İnstitutunda böyük mühəndis, şöbə müdiri və baş elmi işçi, «Xəzər» Səhmdar Cəmiyyətinin baş direktorunun kadr və sosial məsələlər üzrə müavini vəzifələrində çalışmışdır.

Müxtəlif orden və medallarla təltif edilmişdir.

*Laboratoriya dərsləri Sumqayıtda təşkil olunmadığı üçün tələbələr bu dərsləri Bakıda Azərbaycan Neft və Kimya İnstitutunda uyğun kafedralarının tədris laboratoriyalarında keçməli olurdular. Sumqayıt şəhərində təhsil alan tələbələrə dərs deyən müəllimlərin əksəriyyəti Bakıdan onlar üçün ayrılmış avtobusla gəlib-gedirdilər. Bu filialda oxuyan tələbələrin, demək olar ki, hamısı Sumqayıt zavodlarında gündüz işləyib, axşam isə oxuyurdular. Belə tələbələrə yüksək təhsil vermək biz müəllimlərin qarşısında duran əsas məsələ idi. Bu məqsədlə mən tələbələrin gücündən istifadə edib Ximstroy adlanan yerdə filial üçün ayrılmış binada elektrotexnika və elektromexanikanın nəzəri əsasları fənlərindən tədris laboratoriyalarını yaratdım və beləliklə, tələbələrin işi xeyli asanlaşdı. Onlar laboratoriya məşğələlərini burada keçir, daha Bakıya getmirdilər...»*

*1962–1965-ci illərdə AzNKİ-nin Sumqayıt filialında təhsil alan tələbələrin sayı haqqında məlumat*

| Tədris illəri | Tələbələrin ümumi sayı | Axşam şöbəsi | Qiyabi şöbə |
|---|---|---|---|
| 1962/63 | 250 | 200 | 50 |
| 1963/64 | 250 | 200 | 50 |
| 1964/65 | 280 | 220 | 60 |
| **Cəmi:** | **780** | **620** | **160** |

1965-ci ilin mart ayında Azərbaycana gələn SSRİ Ali və Orta İxtisas Təhsili nazirinin birinci müavini professor Mixail Alekseyeviç Prokofyev, Respublikanın Ali və Orta İxtisas Təhsili naziri Züleyxa Hüseynova, Az.NKİ-nin rektoru İsmayıl İbrahimov, Sumqayıt şəhərinin rəhbərləri Nadir Balakişiyev və Kamal Axundov filialın fəaliyyəti ilə tanış olmaq məqsədilə ali təhsil müəssisəsinə gəlmişdilər. Həmin görüş zamanı filialın Sumqayıt Sintez-kauçuk (SK) zavodu nəzdində Ali Texniki Təhsil Məktəbinə çevrilməsinə və ona ayrıca bina tikilməsinə kömək göstərməsi professor Mixail Prokofyevdən xahiş edildi. O, cavabında bildirdi ki, SSRİ-nin digər şəhərlərində fəaliyyət göstərən zavod tipli ali texniki məktəblərin maddi-texniki bazalarının möhkəmləndirilməsi məqsədilə SSRİ Nazirlər Sovetinin xüsusi qərarı hazırlanır. Əgər Azərbaycan Nazirlər Soveti rəsmi müraciət edərsə, Sumqayıtda ATTM üçün tədris korpusunun tikilməsi barədə vəsait ayrılması da həmin qərarda öz əksini tapa bilər. Mixail Alekseyeviç Prokofyev SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin



*Tələbə inşaat dəstəsi Uzaq Sibirdə. 1976-cı il*

və şəxsən özünün bu məsələyə lazımi köməklik göstərəcəyini vəd etdi. Çox keçmədi ki, bir sıra çətinliklərə baxmayaraq, Kiyev şəhərində yerləşən Layihə İnstitutunun hazırladığı standart layihə ilə Sumqayıt ATTM üçün tədris korpusu və 200 nəfərlik tələbə yataqxanasının inşa edilməsi barədə SSRİ Nazirlər Soveti qərar qəbul etdi.

Zavod-ATTM sisteminin mahiyyəti bundan ibarət idi ki, bu sistemlə təhsil alan tələbələr dərs ilinin bir semestrini əyani, digər semestrini isə axşam oxuyurdular. Əyani şöbədə oxuyan tələbələr axşam, axşam şöbəsində oxuyan tələbələr isə gündüz öz ixtisaslarına uyğun olaraq Sumqayıtdakı iri sənaye müəssisələrində işləyir, nəzəri biliklərini praktikada tətbiq edirdilər. ATTM sistemi həmin dövrdə Sumqayıtdakı zavod və fabrikləri müvafiq kadrlarla təmin etmək işində böyük rol oynadı, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində mühüm xidmət göstərdi.

60-cı illərdə filialda «Kimya sənayesinin maşın və aparatları», «Proses aparatları», «Nəzarət-ölçü cihazları və texnoloji proseslərin avtomatlaşdırılması» tədris laboratoriyaları, bütün ixtisas qruplarında tədris olunan fizika fənni üçün tədris laboratoriyası yaradıldı.

1968-ci ildə filialın birinci buraxılışı oldu. Səməd Vurğun adına Mədəniyyət Sarayında keçirilən təntənəli tədbirdə 240 nəfərə – filialın ilk məzunlarına diplom təqdim olundu. Diplomları məzunlara Az.NKİ-nin rektoru, akademik İsmayıl İbrahimov təqdim etdi.

Şəhər təşkilatlarının, ictimaiyyət nümayəndələrinin, müəllim və tələbələrin iştirakı ilə keçirilən bu tədbirdə respublikanın tanınmış müğənnilərinin, mədəniyyət işçilərinin çıxış etdiyi bayram konserti təşkil olundu.

1969-cu ildə Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsi respublikanın ictimai həyatının bütün sahələrində olduğu kimi, təhsil sistemində də böyük dəyişikliklərə səbəb oldu. Filialın müstəqil instituta çevrilməsi üçün əlverişli şərait yarandı. 1971-ci ilin oktyabrında filialda ilk dəfə olaraq mühasibatlıq, dəftərxana, kadrlar və tədris şöbəsi yaradıldı. 1962-ci ildən filialda təhsil almış tələbələrin şəxsi tədris kartoçkaları və dövlət imtahan komissiyasının sənədləri həmişəlik saxlanılmaq üçün filiala verildi. İlk baxışdan əhəmiyyətsiz görünən bu kimi faktlar, əslində, filialın müstəqil ali məktəbə çevrilməsi yolunda mərhələ-mərhələ həyata keçirilən tədbirlər idi.

Sonrakı illər ərzində minlərlə insan bu ali təhsil ocağından həyata vəsiqə almış, ixtisaslı mütəxəssis kimi Azərbaycanın, Tümenin, Qazaxıstanın, Ukraynanın, Özbəkistanın, başqa vilayət və respublikaların sənaye mərkəzlərində çalışmışdır.

1970-ci ilin I rübündə tədris korpusu, tələbə yataqxanası artıq hazır idi. Yeni ixtisas və fakültələrin yaranması ilə əlaqədar olaraq filial öz inkişafının yeni bir mərhələsinə qədəm qoymuşdu. Bu mərhələdə filialın yerli kadrlara olan böyük ehtiyacı ön plana çəkildi. Sumqayıtdan burada cəmi 40 nəfər işləyirdi. İllər keçdikcə bu sahədəki boşluq da yavaş-yavaş doldu, yerli kadrlar tədricən filiala işə cəlb olundu. Dissertasiya müdafiə edərək alimlik dərəcəsi alanların sayı ildən-ilə artdı. Artıq burada Bakıdan gələn alimlərlə yanaşı, xeyli sumqayıtlı müəllim də işləməyə başladı, doğma şəhərin gələcək inkişafına, onun elm və təhsilinə öz töhfələrini verdilər. Biləndər Əliyev, Emin Şabanov, Qəndab Əliyeva, Əşrəf Əsədov (ali riyaziyyat), Eldar Qocayev, Əziz Yaqubov, Osman Osmanov, Bəhmən Rəhimov (fizika), Nadir İbrahimov, Nəcməddin Abdullayev, Veniamin Klapişey (cizgi-çertyoj), Həsən Sadıqov, İsaməddin Qədimov (fəlsəfə), İsaməddin Fərhadov (tərsimi həndəsə), Həmid Məmmədov, Nazim Qarayev, Fərhad Rüstəmov (kimya), Firudin Məmmədov, Nazim Balayev, Nazim Sədiyev, Oqtay Babayev (elektrotexnika, energetika, neft-kimya mexanikası) və b. ziyalılar Sumqayıtda ali təhsilin inkişafında böyük əmək sərf etmişlər. AMEA-nın müxbir üzvü, professor Firudin Məmmədov, professor Həsən Sadıqov, professor Həqiqət Aslanov, dosent Rəna Dadaşova və b. doğma kollektivlə birgə ucalmış, yüksək elmi rütbələrə nail olmuşlar.

1970-ci ilin may ayında institutun rəhbərliyi dəyişdirildi, İslam Abbasovu Ulduz Qarayev əvəz etdi. O, cəmi 2 ay bu vəzifədə işlədi. 1970-ci ilin sentyabrında **Murad Mahmudov** filiala direktor təyin edildi. Həmin ildə filialda əyani və qiyabi şöbə yaradıldı və 100 nəfər tələbə əyani şöbəyə qəbul edildi. Yeni direktorun təşəbbüsü ilə Sənaye elektronikası, Kimya texnologiyası, Mexanika, Fizika və riyaziyyat, Kimya sənayesinin maşın və aparatları, Xarici dillər kafedraları yaradıldı, Ali Texniki Təhsil Məktəbinin Nizamnaməsi hazırlanıb zavodun rəhbərliyi və SSRİ Kimya Nazirliyi tərəfindən təsdiq edildi.



**Murad Mahmudov (1930)**

**Mahmudov Murad Nəbi oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Sənaye İnstitutunun neft sənayesi fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə neft mədənində operator vəzifəsində başlamışdır. Texnika elmləri doktoru alimlik dərəcəsi almışdır.

AzNKİ-də elmi-tədqiqat işləri şöbəsinin müdiri, daha sonra elmi işlər üzrə prorektor, Sumqayıt Ali Texniki Təhsil Məktəbinin direktoru (1970–1979). Nazirlər Kabinetinin və SSRİ Elm və Texnologiyalar üzrə Dövlət Komitəsinin qərarı ilə «Tatneft» istehsalat birliyinin yaradılması üzrə elmi rəhbər vəzifəsində (1981–1985) çalışmışdır.

1972-ci ilə qədər filialda iki fakültə mövcud idi:

- Kimya-texnologiya və energetika;
- Avtomatika və mexanika.

Fakültələrin tərkibində 15 kafedra mövcud idi. Bu fakültələrdə tələbələr 5 ixtisas üzrə: kimya texnologiyası, neft-kimya mexanikası, kimya proseslərinin avtomatlaşdırılması, energetika, iqtisadiyyat ixtisasları üzrə Azərbaycan və rus dillərində təhsil alır, təcrübi məşğələlərdə fəal iştirak edirdilər.

1981-ci ildən başlayaraq elektron hesablama texnikasının, Sumqayıtdakı zavod və fabriklərdə yeni texnologiyaların yaranması ilə əlaqədar ATTM-də avtomatlaşdırma sahələri üzrə yeni ixtisaslara tələbə qəbulu başlandı və ilbəil qəbul olan tələbələrin sayı artdı. Həmin il ixtisas kafedrası kimi İdarəetmənin avtomatlaşdırılması kafedrası yaradıldı. Kafedraya yüksəkixtisaslı kadrların cəlb olunmasında, onun maddi-texniki bazasının möhkəmləndirilməsində ATTM-in direktoru professor **Rafiq Əliyevin** böyük əməyi oldu. Fakültədə təsərrüfat hesablı müqavilələr bağlanmaqla Sumqayıtın zavod və fabrikləri ilə sıx əməkdaşlıq yarandı, elmi-tədqiqatların nəticələri uğurla istehsalata tətbiq olundu.

1971-ci ildə filialda 103 nəfərlik professor-müəllim heyəti fəaliyyət göstərirdisə, 1988-ci ildə 154 nəfər, 1991-ci ildə 200 nəfər çalışırdı. AMEA-nın müxbir üzvü, professor Firudin Məmmədov, professorlar Həsən Sadıqov, Həqiqət Aslanov, dosentlər Qüdrət Rəhimov, Rəna Dadaşova və başqa pedaqoqlar gənc nəslin təlim-tərbiyəsində əllərindən gələni əsirgəmədilər.



**Rafiq Əliyev (1942)**

**Əliyev Rafiq Əziz oğlu** Ağdam rayonunun Novruzlu kəndində anadan olmuşdur. Neft və Kimya İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir (1963). SSRİ Elmlər Akademiyasının İdarəetmə Problemləri İnstitutunun aspiranturasında təhsil almışdır (1964–1967). Texnika elmləri namizədi (1967) və texnika elmləri doktoru alimlik dərəcəsi almışdır (1975). Elm və texnika üzrə SSRİ Dövlət mükafatına layiq görülmüşdür (1983).

Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir (1989).

Neft və Kimya İnstitutunun Sumqayıtda yerləşən Ali Texniki Təhsil Məktəbinə rəhbərlik etmişdir (1979-1988).

Sumqayıtda fəaliyyət göstərən bu təhsil müəssisəsinə ayrı-ayrı vaxtlarda dosentlər İsmayıl Sadıqov (1960–1961) və İslam Abbasov (1962–1970), professorlar Murad Mahmudov (1970–1979), Rafiq Əliyev (1979–1988), Cahid Kərimov (1989), Eldar Qocayev, Elmar Fərhadzadə (1989–2000) rəhbərlik etmişlər.

### Naxçıvan Dövlət Pedaqoji İnstitutu

1967-ci ildə **Naxçıvanda Azərbaycan Dövlət Pedaqoji İnstitutunun filialı** fəaliyyətə başladı. **Əli Əliyev** filiala direktor (1967–1970) təyin edildi. Pedaqoji İnstitutun Naxçıvan filialına aşağıda göstərilən ixtisaslar üzrə (əyani şöbəyə) tələbə qəbulu aparıldı:

1. Azərbaycan dili və ədəbiyyatı – 51 nəfər;
2. Tarix – 29 nəfər;
3. Riyaziyyat – 25 nəfər.

Filialda bütün ixtisaslar bir fakültədə cəmləşmişdi. İctimai əsaslarla Ümumi tarix, Dil və ədəbiyyat, Riyaziyyat kafedraları təşkil olunmuşdu.

1968-ci ildə institutda kitabxana təşkil olundu və ayrıca struktur bölmə kimi fəaliyyətə başladı. Riyaziyyat ixtisası üzrə həm də qiyabi şöbəyə tələbə qəbuluna başlandı.

1969-cu ildən tarix, Azərbaycan dili və ədəbiyyatı ixtisaslarının da qiyabi şöbəsinə tələbə qəbul edildi. 1970-ci ildə kadr hazırlanan ixtisaslar sırasına coğrafiya da əlavə olundu. Beləliklə, 1970-ci ildə 4 ixtisas üzrə tələbə qəbulu aparıldı. Həmin dövrdə filiala **Səfərəli Babayev** (1970–1972) rəhbərlik edirdi.

1970-ci ildə mövcud kafedralar sərbəst fəaliyyətə başladı, həmçinin Pedaqogika və psixologiya, İctimai elmlər, Rus dili və Xarici dillər kafedraları da yaradıldı.

Ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan Dövlət Pedaqoji İnstitutu ilə əlaqələri bu təhsil ocağının tarixində və taleyində mühüm yer tutur. Ulu öndərin bu ali məktəbdə dörd dəfə olması da deyilənlərə sübutdur. 4 oktyabr 1972-ci ildə filialın kollektivi qarşısında çıxış edərkən görkəmli dövlət xadimi Heydər Əliyev regionda müstəqil institutun yaradılması zərurəti ideyasını irəli sürdü.



**Əli Əliyev**
**(1904–1997)**

**Əliyev Əli İbrahim oğlu** Naxçıvan Muxtar Respublikası Şərur rayonunda anadan olmuşdur.

Tbilisidəki Zaqafqaziya Kommunist Universitetini bitirmişdir (1932).

Naxçıvan Pedaqoji Texnikumunun direktoru (1934–1935, 1941–1942), Naxçıvan MSSR maarif naziri (1942–1947), Naxçıvan İkiillik Müəllimlər İnstitutunda müəllim işləmişdir (1947–1952). Naxçıvan MSSR Ali Sovetinin katibi (1952–1967), Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının direktoru (1967–1970) vəzifələrində işləmişdir.

1972-ci ildə bu filialın bazasında müstəqil ali məktəb – **Naxçıvan Dövlət Pedaqoji İnstitutu** yaradıldı və **İsrafil Məmmədov** instituta rektor (1972–1977) təyin edildi.

Müstəqil pedaqoji institutun təşkili ilə əlaqədar burada yeni fakültələrin yaradılmasına başlandı və üç fakültə təşkil olundu: Tarix-ədəbiyyat; Fizika-riyaziyyat; Təbiyyat-coğrafiya.

Kadr hazırlığının şəbəkəsi də genişləndi. Kimya, biologiya, fizika, riyaziyyat və əlavə fizika, ümumi texniki fənlər və əmək, ibtidai təhsilin pedaqogikası və metodikası ixtisasları üzrə də kadr hazırlığına başlandı. Biologiya, riyaziyyat, ibtidai təhsilin pedaqogikası və metodikası ixtisasları üzrə qiyabi şöbəyə də tələbə qəbulu aparıldı. Bu dövrdə institutda Həmzə Cəfərov, Yasin Babayev, Asif Şirəliyev kimi bacarıqlı pedaqoqlar dərs deyirdilər.

1975–1980-ci illərdə coğrafiya, əlavə biologiya, biologiya, əlavə kimya ixtisasları üzrə



**Səfərəli Babayev (1923–2003)**

**Babayev Səfərəli Yaqub oğlu** Babək rayonunda anadan olmuşdur. Naxçıvan Pedaqoji Texnikumunu, Naxçıvan Dövlət Müəllimlər İnstitutunu, Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunu və Azərbaycan KP MK yanında Respublika partiya məktəbini bitirmişdir. Azərbaycan LKGİ Naxçıvan Vilayət Komitəsinin ikinci katibi, Naxçıvan MSSR maarif naziri, Naxçıvan rayon Partiya Komitəsinin birinci katibi, Naxçıvan MSSR Radio və Televiziya verilişləri Komitəsinin sədri, MR Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində işləmişdir. Naxçıvan Dövlət Pedaqoji İnstitutunda direktor (filial dövrü) (1970–1972), dosent, dekan və kafedra müdiri vəzifələrində çalışmışdır. AMEA-nın müxbir üzvü seçilmişdir. 2 monoqrafiyanın, 70-dən artıq elmi əsərin müəllifidir.

də kadr hazırlanmışdır. Ümumiyyətlə, 1980-ci ildə kadr hazırlanan ixtisasların sayı 12-yə çatmışdı.

1980-ci ildə institutda 12 kafedra fəaliyyət göstərirdi. Bu kafedralarda Sevindik Vəliyev və Hüseyn Həşimli elmi-pedaqoji fəaliyyətlə məşğul idilər.

1980-ci ildə coğrafiya ixtisasına tələbə qəbulu dayandırıldıqdan sonra Təbiyyat- coğrafiya fakültəsi Kimya-biologiya fakültəsinə çevrildi. Həmin dövrdə instituta **İsak Məmmədov** (1978–1984) rəhbərlik edirdi.

1985-ci ildə İbtidai təhsil və məktəbəqədər tərbiyə fakültəsi yaradıldı. Həmin il həm pedaqogika və psixologiya (məktəbəqədər), həm də ümumi texniki fənlər və əlavə fizika ixtisasları üzrə rus bölməsində də kadr hazırlığına başlandı. 1985–1989-cu illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna fizika-riyaziyyat elmləri doktoru, professor **İsgəndər Cəfərov** başçılıq edirdi.

80-ci illərin ortalarında Naxçıvan Dövlət Pedaqoji İnstitutunun profilini dəyişmək, yaxud burada kadr hazırlığının şəbəkəsini genişləndirmək barədəki müzakirələr 1989-cu ildə yeddi yeni ixtisas üzrə tələbə qəbuluna başlanılması ilə nəticələndi. Bu ixtisasların hamısı qeyri-pedaqoji profilli idi:

- istehsalın iqtisadiyyatı və idarə olunması;
- mühasibat uçotu, nəzarət və təsərrüfat fəaliyyətinin təhlili;
- konservləşdirmənin texnologiyası;
- meyvə-tərəvəzçilik və üzümçülük;
- zootexniklik;
- baytarlıq;
- məlumat-ölçmə texnikası.

İlk iki ixtisasın həm də qiyabi şöbəsi var idi.

1989-cu ildə yuxarıda adları çəkilən yeddi qeyri-pedaqoji ixtisas üzrə kadr hazırlığına başlanması ilə əlaqədar həmin ixtisasların ilk 6-nı özündə birləşdirən Ümumi texniki fakültə təşkil olundu. Məlumat-ölçmə texnikası, ÜTF və əmək, ÜTF və fizika ixtisasları isə Mühəndis-



**İsrafil Məmmədov (1927–1995)**

**Məmmədov İsrafil Allahverdi oğlu** Ordubad şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetini bitirmişdir (1946–1951). Azərbaycan EA Kimya İnstitutunun aspiranturasını bitirmiş və doktorluq dissertasiyası müdafiə etmişdir. Naxçıvan Dövlət Pedaqoji İnstitutunun rektoru (1972–1977) vəzifəsində işləmişdir. Kosmik Tətqiqatlar İnstitutunun Elm İstehsalat Birliyində laboratoriya müdiri (1986–1991). Ordubad şəhərində xüsusi konstruktor bürosunun direktor müavini və baş mühəndisi (1991–1992) vəzifələrində. Azərbaycan EA Neft-Kimya Prosesləri İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışmışdır (1992–1995).

4 monoqrafiyanın və 200-dən çox elmi əsərin müəllifidir.



**İsak Məmmədov (1925)**

**Məmmədov İsak Məmməd oğlu** Qubadlı rayonunda anadan olmuşdur. Şuşada təşkil edilmiş pedaqoji kursu (1942), Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir (1949). 25 il Bakı Dövlət Universitetində müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir. BDU-da kafedra müdirinin müavini (1958–1968), Azərbaycan Dövlət Tibb Universitetində kafedra müdiri (1977–1978), Naxçıvan Dövlət Pedaqoji İnstitutunda rektor (1978–1984), Azərbaycan Dövlət Neft Akademiyasında kafedra müdiri vəzifələrində işləmiş, doktorluq dissertasiyası müdafiə etmişdir.

Əməkdar elm xadimi adına layiq görülmüşdür (1981).

pedaqoji fakültə adı altında birləşdirildi. 1990-cı ildə aqronomluq ixtisasına da qəbul aparıldı. Bəzi ixtisaslara qəbul dayandırıldı, yaxud onlar yaxın ixtisasla əvəzləndi, nəticədə 1990-cı ildə tarix, Azərbaycan dili və ədəbiyyat, kimya, biologiya, fizika, riyaziyyat, riyaziyyat və əlavə informatika, ümumi texniki fənlər (ÜTF) və əmək, ibtidai təhsilin pedaqogikası və metodikası, pedaqogika və psixologiya (məktəbəqədər), istehsalın iqtisadiyyatı və idarə olunması, mühasibat uçotu, nəzarət və təsərrüfat fəaliyyətinin təhlili, konservləşdirmənin texnologiyası, meyvə-tərəvəzçilik və üzümçülük, zootexniklik, baytarlıq, məlumat-ölçmə texnikası ixtisasları üzrə tələbə qəbulu aparıldı. İnstitutda bəzi struktur dəyişiklikləri də edildi, nəticədə 1990-cı ildə universitetdə fakültələrin sayı 5-ə (Tarix-filologiya, İbtidai təhsil və məktəbəqədər tərbiyə, Mühəndis-pedaqoji, Təbiətşünaslıq-riyaziyyat, Ümumtexniki) çatmışdı.

Müxtəlif xarakterli qeyri-pedaqoji ixtisaslara tələbə qəbulunun aparılmasına başlanması Pedaqoji İnstitutun Naxçıvan Dövlət Universitetinə çevrilməsini şərtləndirdi. **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 1990-cı il tarixli qərarı ilə Pedaqoji İnstitut Naxçıvan Dövlət Universitetinə çevrildi.**

Ümumtexniki fakültənin bazasında 1991-ci ildə Kənd təsərrüfatı və İqtisad fakültələri yaradıldı, Kitabxanaçılıq və biblioqrafiya ixtisasına qəbul aparıldı.

Ali məktəb fəaliyyətə başlayarkən burada ştatda cəmi iki nəfər elmlər namizədi var idi. Sonrakı illərdə bu istiqamətdə böyük irəliləyişlər oldu. 1970-ci ildə filialdakı müəllimlərdən 8-i elmlər namizədi idi. 1980-ci ildə bu ali məktəbdə 3 elmlər doktoru, professor, 32 elmlər namizədi, dosent fəaliyyət göstərirdi.



**İsgəndər Cəfərov (1940)**

**Cəfərov İsgəndər Həsən oğlu** İmişli rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Fizika fakültəsini bitirmişdir (1962). Moskva Dövlət Universiteti (MDU) Nəzəri fizika kafedrasının aspirantı olmuş (1962–1965), namizədlik (1966) və doktorluq (1979) dissertasiyaları müdafiə etmişdir. Azərbaycan Dövlət Politexnik İnstitutunda baş müəllim (1966), Azərbaycan Elmlər Akademiyası Fizika İnstitutunun Nüvə fizikası laboratoriyasında baş elmi işçi və laboratoriya müdiri (1969–1985), Naxçıvan Dövlət Pedaqoji İnstitutunda rektor (1985–1989), Azərbaycan Dövlət Pedaqoji Universitetində Fizika fakültəsinin dekanı (1990–1995) vəzifələrində çalışmışdır. 1995-ci ildən həmin universitetdə Nəzəri fizika kafedrasının müdiri vəzifəsində çalışır. AMEA yanında fizika problemləri üzrə Koordinasiya Şurasının, ADPU-nun Elmi Şurasının üzvüdür. Dərslik və dərs vəsaitlərinin, 150-dək elmi məqalənin müəllifidir.

1990-cı ildə isə həmin rəqəmlər müvafiq surətdə 5 və 69 olmuşdur. Elmlər doktorları, professorlardan Yavuz Axundov, Yunis Səfərov, Ənvər Nəsirov, Vəliyyəddin Əliyev Naxçıvan Dövlət İnstitutunda pedaqoji kadr hazırlığında səmərəli fəaliyyət göstərmişlər.

*Naxçıvan Dövlət Pedaqoji İnstitutunun professor-müəllim heyətinin 1967–1991-ci illərdə inkişaf dinamikası*

| İllər | Professor-müəllim heyəti |
|---|---|
| 1967 | 3 |
| 1968 | 18 |
| 1969 | 22 |
| 1970 | 28 |
| 1971 | 29 |
| 1972 | 34 |
| 1973 | 49 |
| 1974 | 69 |
| 1975 | 81 |
| 1976 | 91 |
| 1977 | 105 |
| 1978 | 114 |
| 1979 | 116 |
| 1980 | 122 |
| 1981 | 123 |
| 1982 | 126 |
| 1983 | 126 |
| 1984 | 127 |
| 1985 | 127 |
| 1986 | 130 |
| 1987 | 130 |
| 1988 | 133 |
| 1989 | 137 |
| 1990 | 141 |
| 1991 | 154 |

*1967–1991-ci illərdə tələbə qəbulu və məzunlar*

| İllər | Qəbul edilən tələbələrin sayı | Məzunların sayı |
|---|---|---|
| 1967 | 105 | – |
| 1968 | 132 | – |
| 1969 | 173 | – |
| 1970 | 208 | – |
| 1971 | 245 | 104 |
| 1972 | 265 | 112 |
| 1973 | 472 | 158 |
| 1974 | 520 | 196 |
| 1975 | 543 | 219 |
| 1976 | 539 | 265 |
| 1977 | 475 | 547 |
| 1978 | 412 | 535 |
| 1979 | 433 | 458 |
| 1980 | 437 | 592 |
| 1981 | 450 | 531 |
| 1982 | 475 | 409 |
| 1983 | 475 | 401 |
| 1984 | 425 | 326 |
| 1985 | 450 | 433 |
| 1986 | 450 | 440 |
| 1987 | 475 | 491 |
| 1988 | 425 | 482 |
| 1989 | 490 | 331 |
| 1990 | 466 | 459 |
| 1991 | 713 | 442 |

### Xankəndi Pedaqoji İnstitutu

Yuxarı Qarabağın və ərazi cəhətdən ona bitişik olan başqa rayonların gənclərinin ali pedaqoji təhsilə yiyələnmələrində Xankəndi Pedaqoji İnstitutunun xüsusi rolu olmuşdur. **1968/69-cu tədris ilində Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Xankəndi filialı fəaliyyətə başladı.** 1973-cü il noyabrın 28-də Azərbaycan hökumətinin qərarı ilə həmin filialın bazasında **Xankəndi Pedaqoji İnstitutu** təşkil edildi. İlk vaxtlar burada 3 dildə (Azərbaycan, rus və erməni), 3 fakültədə (Filologiya, Tarix, Fizika-riyaziyyat) 8 ixtisas (Azərbaycan dili və ədəbiyyatı, erməni dili və ədəbiyyatı, riyaziyyat, riyaziyyat və əlavə fizika, fizika, tarix, ümumi-texniki fənlər (ÜTF) və əlavə fizika, ibtidai təhsilin pedaqogikası) üzrə ali pedaqoji təhsilli kadrlar hazırlanırdı.

Qısa bir müddətdə Xankəndi Pedaqoji İnstitutu ümumtəhsil orta məktəbləri üçün 1704 nəfər ixtisaslı müəllim kadrları hazırladı.

80-ci illərdə Xankəndi Pedaqoji İnstitutunda fəaliyyət göstərən 10 kafedrada 102 nəfər müəllim çalışırdı ki, onlardan da 4 nəfəri elmlər doktoru, professor, 36 nəfəri elmlər namizədi, dosent idi. 17 nəfər gənc müəllim isə aspirantura hazırlığı keçmişdi.

İnstitutda yaxşı təchiz olunmuş elmi-tədqiqat və tədris laboratoriyaları (mexanika, molekulyar fizika, optika, elektrotexnika, ümumi və üzvi kimya, zoologiya, botanika və s.), hesablama mərkəzi, linqafon və ictimai elmlər kabineti fəaliyyət göstərirdi. İnstitutun əyani şöbəsində təhsil alan tələbələrin 950 nəfəri (yəni 32%-i) müxtəlif elmi dərnəklərdə elmi-tədqiqat işlərinə cəlb olunmuşdu. İnstitutda hər il «Elm həftəsi» keçilir, tələbə elmi-tədqiqat işlərinə yekun vurulurdu.

Xankəndində başlayan erməni qiyamı Xankəndi Pedaqoji İnstitutunun işinə də ağır zərbə vurdu. 1988-ci ilin may ayında İnstitutun Azərbaycan şöbəsinin müəllim və tələbə kollektivi Xankəndindən qovuldu. Pedaqoji kollektiv müvəqqəti olaraq Şuşa şəhərində sığınacaq tapdı və Şuşa Mədəni-Maarif Texnikumunun tədris və yataqxana binasında yerləşdirildi. 1979-cu ilin sonuna qədər Xankəndi Pedaqoji İnstitutunun prorektoru vəzifəsində işləmiş Nəcəf Quliyev Şuşada müvəqqəti fəaliyyət göstərən institutun Azərbaycan şöbəsinə rəhbərlik edirdi.

SSRİ Xalq Təhsili Nazirliyinin 1988-ci il 17 oktyabr tarixli qərarında Azərbaycanın və Ermənistanın xalq təhsili nazirlərinə tapşırılmışdı ki, Xankəndi Pedaqoji İnstitutunun müvəqqəti (2 il müddətinə) bağlanması ilə əlaqədar institutun tələbələri həmin il noyabr ayının 1-nə kimi Azərbaycanda Kirovabadın (Gəncə), Ermənistanda Yerevanın, Leninakanın və Kirovakanın pedaqoji institutlarına köçürülsünlər. Erməni şöbəsi qərarın icrasını lazım bilməyib, dərslərini Xankəndində, institutun öz binasında davam etdirdi. Azərbaycan şöbəsinin isə Xankəndində qalması qeyri-mümkün idi. Ona görə də Azərbaycanın xalq Təhsili naziri Müslüm Məmmədov Azərbaycan şöbəsinin bir hissəsini Gəncəyə, digər hissəsini isə Naxçıvan Pedaqoji İnstitutuna göndərmək qərarına gəldi. Azərbaycan şöbəsinin professor-müəllim heyəti kollektivin iki hissəyə bölünməsinə qəti etiraz etdi və bu etirazı Xalq Təhsili Nazirliyinə bildirdi. Xalq təhsili naziri iki gündən sonra professor-müəllim heyətinə cavab verdi ki, nazirlik Xankəndi Pedaqoji İnstitutunun bütünlüklə

Gəncəyə köçürülməsinə etiraz etmir. Beləliklə, 1200 nəfərlik tələbə və 100 nəfərlik professor-müəllim heyəti noyabr ayının 25-dək dərslərə başlamaq üçün Gəncəyə gəldi.

Bir ildən sonra hadisələrin daha da kəskinləşdiyini görən pedaqoji kollektiv Xankəndinə tezliklə qayıtmağın qeyri-mümkün olduğunu başa düşərək, şöbənin fəaliyyətini Şuşa şəhərində davam etdirmək arzusunda olduqlarını lazımi təşkilatlara bildirdi.

1989-cu il oktyabrın 25-də pedaqoji kollektiv Şuşa şəhərinə köçdü. Bir gün sonra dərslərə başlanıldı. Bu qayıdış kollektivə o qədər də asan başa gəlmədi. 100-ə yaxın tələbə Şuşaya qayıtmadı. Tələbələr Şuşada dərslərə başlayandan 15 gün sonra Respublika Xalq Təhsili Nazirliyi Xankəndi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsinin Azərbaycan Pedaqoji İnstitutunun Şuşa fakültəsi kimi fəaliyyət göstərməsi barədə qərar verdi.

Yaxşı xatırlayıram, bu əmrin icrasına nəzarət həmin illərdə Xalq Təhsili Nazirliyinin ali məktəblər idarəsinin rəisi kimi mənə və Azərbaycan Pedaqoji İnstitutunun rektoru professor Səlvər Aslanova həvalə edilmişdi.

Şuşa internat məktəbinin maddi-texniki bazasında Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Şuşa fakültəsi təşkil edildi. Dosent **Mail Alıcanov** Şuşa fakültəsinin dekanı təyin olundu.

Bu müddətdə ixtisaslar və qruplar üzrə tələbə qəbulu müvəffəqiyyətlə başa çatdı. Fakültənin normal fəaliyyət göstərməsi üçün tədris binası əsaslı şəkildə təmir edildi, professor-müəllim və tədris-köməkçi heyətin tərkibi yeni qüvvələrlə tamamlandı. Respublika Nazirlər Soveti Şuşa rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsi və Respublika Xalq Təhsili Nazirliyinin təkliflərini nəzərə alaraq, Şuşa fakültəsinin əsasında Azərbaycan Pedaqoji İnstitutunun **Şuşa filialının** təşkili haqqında sərəncam verdi. Azərbaycan SSR Nazirlər Sovetinin bu sərəncamını yerinə yetirmək məqsədilə respublikanın xalq təhsili naziri 22 fevral 1991-ci il tarixində əmr imzaladı. 22 maddədən ibarət olan bu əmrdə filialın təşkili və fəaliyyəti üçün, demək olar ki, hər şey nəzərə alınmışdı. 2 ay müddətində icraçılar hazırlanmış planı rektorluğa və Xalq Təhsili Nazirliyinin müvafiq şöbələrinə təhvil verdilər. 1991-ci ilin aprel ayına qədər görülmüş əsaslı təmir işlərindən əlavə, yeni tədris otaqları və kabinetlərin təşkili üçün yüz minlərlə manat vəsait ayrıldı.

Dosent **Mail Alıcanov** filialın direktoru, dosent **Zəfər Hüseynov** tədris və elmi işlər üzrə direktor müavini təsdiq edildi.

Filialda riyaziyyat, Azərbaycan dili və ədəbiyyat, tarix, ibtidai təhsilin pedaqogikası və metodikası üzrə mütəxəssislər hazırlanırdı.

Şuşa filialının Şuşa şəhərində ömrü çox qısa oldu. O dövrdə artıq ermənilər vilayətin azərbaycanlılar yaşayan kəndlərinin işğalına başlamışdılar. Şuşa şəhəri artıq mühasirədə idi. Tələbələrin və müəllimlərin həyatı üçün təhlükə yaranmışdı. Məhz belə bir şəraiti nəzərə alıb ADPU-nun Şuşa filialının təhlükəsiz yerə köçürülməsi qərara alındı. 1992-ci ilin mart ayının 25-də filialın kollektivi Ağcabədi şəhərinə köçürüldü və fəaliyyətini 114 nömrəli Texniki Peşə Məktəbinin binasında davam etdirdi.

### Azərbaycan İnşaat Mühəndisləri İnstitutu

Respublikada mühəndis kadrların hazırlanmasında mühüm xidmətləri olan bu ali təhsil ocağının tarixi keçən əsrin 20-ci illərindən başlayır. 1920-ci ilin may ayında Azərbaycan Xalq Maarif Komissarlığının sərəncamına əsasən Bakıda açılan Politexnik İnstitutunun (indiki Neft Akademiyasının) əsas fakültələrindən biri də Mühəndis-tikinti fakültəsi idi. Mühəndis-tikinti fakültəsi memarlıq, yol, liman və hidrotexnika ixtisasları üzrə mütəxəssis hazırlayırdı.

1920-ci ildə həmin fakültədə 110 tələbə təhsil alırdı ki, onlar da buraya texniki məktəbdən köçürülmüşdülər. Tələbələrin sayı ildən-ilə artmağa başladı. Fakültədə 1921-ci ildə 170, 1922-ci ildə 216, 1923-cü ildə 267, 1925-ci ildə isə 454 nəfər tələbə təhsil alırdı. Sovet İttifaqının digər şəhərlərindən dəvət olunan yüksəkixtisaslı müəllimlərin hesabına institutun professor-müəllim heyəti də tədricən artırdı.

1930-cu ildə institutun Mühəndis-tikinti fakültəsinin liman şöbəsi Odessaya, bir hissəsi də Leninqrada (Sankt-Peterburqa) köçürüldü. 1931-ci ildə yol şöbəsi Zaqafqaziya Dəmiryolu İnstitutuna verildi. Hidrotexniki şöbənin meliorasiya ixtisası bazasında Bakıda Pambıq İnstitutu yaradıldı və sonralar Gəncəyə köçürüldü.

**1932-ci ildə Mühəndis-tikinti fakültəsi əsasında Azərbaycan Tikinti İnstitutu təşkil olundu.** İnstitutda memarlıq, mülki tikililər, sənaye-zavod tikililəri, tikinti konstruksiyaları kimi ixtisaslar üzrə mütəxəssislər hazırlanırdı.

1934-cü ildə Azərbaycan Tikinti İnstitutu Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutuna birləşdirildi. Bununla da Azərbaycan Tikinti İnstitutu 4 ixtisası ilə Azərbaycan Sənaye İnstitutunun bir fakültəsi kimi fəaliyyətə başladı. 1940-cı ildə Azərbaycan Sənaye İnstitutunun Tikinti fakültəsində 383 nəfər tələbə təhsil alırdı. Fakültənin nəzdində Memarlıq-layihələndirmə, Memarlıq kompozisiyası və memarlıq tarixi, Tikinti konstruksiyaları, Binaların arxitekturası, Təsviri sənət, İnşaat mexanikası və s. kafedralar fəaliyyət göstərirdi.

**1950-ci ildə Məşədi Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun bir sıra fakültələri və ixtisas kafedraları bazasında Azərbaycan Politexnik İnstitutu yaradıldı.** Yeni yaradılmış institutun İnşaat fakültəsində respublikamız üçün yeni olan su təchizatı və sanitariya texnikası, istilik, qaz təchizatı və ventilyasiya kimi ixtisaslar üzrə qəbul aparıldı.

1957/58-ci tədris ilində İnşaat fakültəsində 1300 nəfər tələbə təhsil alırdı. Bu illərdə fakültədə təhsil alan gənc mühəndis kadrların hazırlanmasında həmin illərdə böyük əməyi, zəhməti olmuş görkəmli alimlərdən akademik Mikayıl Hüseynovun, Ənvər Qasımzadənin, Abuzər Əliyevin, Hüseynağa Muradxanovun, Andrey Qolubitskinin, Zahid Şabanbəyovun və başqalarının adları xüsusi qeyd olunmalıdır.

1970-ci ildə Azərbaycan Politexnik İnstitutunda yeni fakültə – Memarlıq fakültəsi yaradıldı. Qısa müddət ərzində fakültəyə yüksəkixtisaslı mütəxəssislər, istedadlı memarlar, rəssam və heykəltəraşlar, rəngkarlar və sənətşünaslar cəlb olundu. Fakültənin nəzdində təşkil olunmuş Tələbə Layihə-Konstruktor Bürosu öz ətrafına ən qabiliyyətli, bacarıqlı tələbələri topladı.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1975-ci ildə Azərbaycan SSR



**Sənan Mustafayev (1929)**

**Mustafayev Sənan Məmmədəmin oğlu** İsmayıllı rayonunda anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunu fərqlənmə diplomu ilə bitirdikdən (1951) sonra institutda baş laborant, assistent vəzifələrində işləmişdir. Texnika elmləri namizədi alimlik dərəcəsi (1961), dosent (1962), professor (1971) elmi adı almışdır. Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyində elm idarəsinin rəisi, ali məktəblər idarəsinin rəisi, nazir müavini vəzifələrində (1961–1975), Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun rektoru (1975–1978) vəzifəsində çalışmışdır. Azərbaycan SSR Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, Şöhrət ordeni və bir sıra medallarla təltif edilmişdir.

80-dən artıq dərslik, dərs vəsaiti, monoqrafiya və bir çox elmi məqalələrin müəllifidir.

Nazirlər Soveti ölkədə memarlıq, tikinti və iqtisadiyyatın digər sahələri üçün yüksəkixtisaslı kadrlar hazırlamaq məqsədilə **Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun yaradılması haqqında qərar verdi.** Bu qərara əsasən, 1975-ci ildə Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun 4 fakültəsi və bir neçə ixtisas kafedrasının bazasında yaradılan Azərbaycan İnşaat Mühəndisləri İnstitutu müstəqil fəaliyyətə başladı. Elə həmin ildə Mürsəl Nəcəfov bu institutun Təsviri incəsənət, İbrahim Bəxtiyarov Materiallar müqaviməti, Davud Axundov Memarlıq konstruksiyaları və abidələrin bərpası, Abbas Mustafayev Qruntlar mexanikası, bünövrələr və özüllər, Qəzənfər Əlizadə Memarlıq layihələndirilməsi kafedrasının müdiri vəzifəsində çalışmağa başladılar. Fəaliyyətinin ilk illərində İnstituta **Sənan Mustafayev (1975–1978)** rəhbərlik edirdi.

Ulu öndər Heydər Əliyev 1976-cı və 1981-ci illərdə institutda olmuş, professor-müəllim heyətilə görüşlər keçirmişdir. Onun tövsiyələri sayəsində bu tədris ocağı sonrakı illər ərzində böyük nailiyyətlər qazanmış və şərəfli inkişaf yolu keçmişdir.

1978–1981-ci illərində instituta tədris işləri üzrə prorektor **İdris Miriyev** rəhbərlik etmişdir. 1981-ci ildə isə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun rektoru vəzifəsinə **Bünyad Sərdarov** təyin edildi.

1980-ci illərdə institutun maddi-texniki bazası xeyli möhkəmləndirildi. Bu dövrdə tələbə şəhərciyində iki doqquzmərtəbəli yataqxana binası tikildi. Bu binaların nəzdində böyük konsert zalı, yeməkxana, tələbə klubu fəaliyyət göstərirdi.

1986-cı ildə Hidromeliorasiya fakültəsinin tədris korpusu tikildi və zəruri laboratoriya və tədris avadanlığı ilə təchiz edildi. 1989-cu ildə ümumi sahəsi 28 min kvadratmetr olan yeni on üç mərtəbəli tədris korpusu istifadəyə verildi.



**Bünyad Sərdarov (1944)**

**Sərdarov Bünyad Sərdar oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun İnşaat fakültəsini bitirmişdir (1966). Valerian Kuybışev adına Moskva İnşaat Mühəndisləri İnstitutunun aspiranturasında təhsil almış (1969–1973), namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır (1973). Böyük Britaniyanın London Universitetində elmi-tədqiqat işi aparmış (1975–1976), Azərbaycan KP MK-nın Elm və təhsil müəssisələri şöbəsinin müdir müavini (1978–1981), Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun rektoru (1981–1993) vəzifələrində çalışmışdır.

180-dən artıq elmi-metodik əsərin, o cümlədən 4 dərsliyin müəllifidir.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin müəllim və tələbələrlə görüşü. 1976-cı il*



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev institutun auditoriyasında. 1976-cı il*

Burada mühazirələrin və məşğələlərin keçirilməsi üçün avadanlıqla təchiz olunmuş yüzdən çox auditoriya, kabinet, laboratoriya tələbələrin ixtiyarına verilmişdi.

1975-ci ildən müstəqil ali məktəb kimi fəaliyyətə başlayan Azərbaycan İnşaat Mühəndisləri İnstitutu 1991-ci ilədək xalq təsərrüfatının müxtəlif sahələri üçün 23000-dən artıq mütəxəssis hazırlamışdır.

1991-ci ildə institutda 16 ixtisas üzrə kadr hazırlığı aparılırdı. Mühəndis kadrlarının hazırlanmasında institutun 45 kafedrasının 660 nəfər professor-müəllim heyəti iştirak edirdi.

Bu illər institutun istehsalatla əlaqələrinin möhkəmlənməsi və tələbələrin təcrübi biliklərinin artırılması istiqamətində xeyli iş görülmüşdür. AzİMİ-nin tələbələri yalnız respublika daxilində deyil, eyni zamanda Moskvanın, Leninqradın (Sankt-Peterburq), Kiyevin, Minskin və başqa şəhərlərin böyük tikinti təşkilatlarında təcrübə keçirdilər.

AzİMİ respublikada yeganə memar və inşaatçı mühəndislər hazırlayan ali məktəb olmaqla yanaşı, həm də nüfuzlu elm mərkəzi idi. İnstitutda çalışan alimlər bir sıra mühüm elmi-tədqiqat problemləri üzərində çalışır, inşaat kompleksinin inkişafı və tərəqqisi üçün dövlət büdcəsindən maliyyələşən və təsərrüfat hesablı elmi işlər həyata keçirirdilər. 1983-cü ildə istehsalatla bağlanan müqavilələr əsasında görülən elmi-tədqiqat işlərinin həcmi 1 milyon rubla çatmışdı. İnstitutda büdcədən maliyyələşən 5 elmi-tədqiqat laboratoriyası inşaat və ətraf mühitin mühafizəsi ilə bağlı mövzulara həsr edilmiş elmi işlər aparırdı.

İnstitutda çalışan bir sıra alimlərin, o cümlədən professorlar İbrahim Bəxtiyarovun «Bərk cisimlər mexanikası», Abbas Mustafayevin «Qruntlar mexanikası», Davud Axundovun «Qafqaz Albaniyasının memarlıq tarixi» problemləri üzrə elmi məktəbləri formalaşmış, bir sıra aktual, tətbiqi əhəmiyyətli elmi problemlər dərindən tədqiq edilmiş və çoxsaylı gənc alimlər yetişmişdir.

*1975–1991-ci illərdə*
*İnşaat Mühəndisləri İnstitutunda*
*professor-müəllim heyətinin inkişaf*
*dinamikası*

| Tədris illəri | Elmlər doktorları | Professorlar | Elmlər namizədləri | Dosentlər | Müəllim-assistentlər |
|---|---|---|---|---|---|
| 1975/76 | 13 | 15 | 230 | 220 | 482 |
| 1976/77 | 15 | 15 | 235 | 224 | 474 |
| 1977/78 | 15 | 17 | 237 | 228 | 479 |
| 1978/79 | 18 | 19 | 272 | 240 | 461 |
| 1979/80 | 18 | 20 | 271 | 240 | 450 |
| 1980/81 | 19 | 20 | 285 | 244 | 446 |
| 1981/82 | 20 | 20 | 295 | 260 | 452 |
| 1982/83 | 22 | 21 | 315 | 295 | 473 |
| 1983/84 | 24 | 22 | 328 | 302 | 505 |
| 1984/85 | 26 | 25 | 336 | 320 | 507 |
| 1985/86 | 27 | 25 | 320 | 320 | 510 |
| 1986/87 | 27 | 26 | 322 | 320 | 494 |
| 1987/88 | 28 | 26 | 318 | 315 | 500 |
| 1988/89 | 28 | 28 | 316 | 318 | 510 |
| 1989/90 | 30 | 28 | 331 | 322 | 490 |
| 1990/91 | 30 | 28 | 347 | 330 | 486 |

Professor İbrahim Bəxtiyarov on ildən artıq bir müddətdə SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyində materiallar müqaviməti, inşaat mexanikası, elastik və plastiklik nəzəriyyəsi sahələri üzrə elmi-metodik şuranın sədr müavini vəzifəsində çalışmışdır. Onun elmi rəhbərliyi ilə 70-dən çox elmlər namizədi və 10 elmlər doktoru dissertasiyası müdafiə edilmişdir.

Professor Abbas Mustafayevin rəhbərliyi ilə İnşaat Mühəndisləri İnstitutunda regionda ilk dəfə olaraq qrunt mexanikası və özülləri üzrə alimlik dərəcəsi almaq üçün elmi şura yaradılmışdı. Abbas Mustafayevin elmi məktəbində 50-dən çox elmlər namizədi yetişmişdir.

Professor Davud Axundovun elmi əsərlərində ilk dəfə olaraq Azərbaycanın qədim və erkən orta əsrlər dövrünün memarlığı tədqiq edilmişdir. Azərbaycanın ərazisində olan çoxsaylı xristian memarlıq abidələrinin etnik mənsubiyyəti müəyyənləşdirilmiş və onlar xalqımızın tarixi irsinə daxil edilmişdir. Davud Axundovun sədrliyi ilə 1986-cı ildən başlayaraq memarlıq elmi üzrə regional ixtisaslaşdırılmış şura fəaliyyət göstərmiş, onun rəhbərliyi altında 10-dan çox namizədlik və doktorluq dissertasiyaları müdafiə edilmişdir. Alimin «Azərbaycanın qədim və orta əsrlər dövrünün memarlığı» monoqrafiyası 1990-cı ildə respublikanın Dövlət mükafatına layiq görülmüşdür.

Akademik Telman Əliyevin İnstitutda informatika kafedrasının qurulmasında və inkişafında böyük rolu olmuşdur. 30 elmlər namizədi, 4 elmlər doktoru hazırlamış, 300-dən artıq elmi əsərin müəllifi olan alim AzİMİ-də informasiya texnologiyalarının tətbiqinin əsasını qoymuşdur.

İstilik texnikası kafedrasında professor Həsən Feyziyevin rəhbərliyi altında həyata keçirilən «İstilik təchizatı sistemləri üçün tullantısız su hazırlama texnologiyaları» tədqiqat işinin tətbiqi ölkə iqtisadiyyatına külli miqdarda gəlir gətirmişdi.

İnstitutun elmi-pedaqoji potensialının formalaşmasında və inkişafında 1978-ci ildə yaradılmış aspirantura şöbəsinin böyük rolu olmuşdur. Bu illər ərzində institutda aspirantura vasitəsilə 140-dan çox gənc alim hazırlanmışdır. Bu alimlərin arasında Suriya, İraq, Misir, Rusiya, Gürcüstan, İordaniya və başqa ölkələrin vətəndaşları da var idi. Həmin dövrdə institutun çoxsaylı əməkdaşları Moskvada və başqa şəhərlərdə Sovetlər ölkəsinin ən nüfuzlu elm və təhsil ocaqlarında namizədlik və doktorluq dissertasiyaları müdafiə etmiş və alimlik dərəcələri almışlar. Bununla yanaşı, bir sıra gənc alimlər Polşa, Almaniya, Macarıstan, Böyük Britaniya, Yaponiya, Amerika Birləşmiş Ştatları və digər xarici ölkələrdə ixtisaslarını artırmışlar.

Bu illər ərzində institutun Tələbə Elmi Cəmiyyətinin də fəaliyyətində irəliləyiş olmuşdur. Tələbə Elmi Cəmiyyətinin nəzdində «İnşaatçı» və «Memarlıq-layihə-tədqiqat» tələbə konstruktor-büroları fəaliyyət göstərirdi. 1975–1991-ci illərdə institutda tələbə elmi işlərindən 42-si Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin medalına layiq görülmüş, 225 tələbə isə diplomlarla təltif olunmuşdu. 1976-cı ildə Tələbə memarlıq-layihə-tədqiqat bürosu Azərbaycan Lenin Komsomolu mükafatı laureatı adına layiq görülmüşdür.

1991-ci ildə AzİMİ-də Memarlıq, İnşaat, Hidromeliorasiya, Yol-inşaat, Mühəndis sistemləri və İnşaat texnologiyası fakültələri fəaliyyət

göstərirdi. Bu fakültələrdə memarlıq, sənaye tikintisi və mülki tikinti; istehsalatın və texnoloji proseslərin avtomatlaşdırılması; tikintinin iqtisadiyyatı və idarə edilməsi; meliorasiya işlərinin mexanikləşdirilməsi; hidrotexniki tikintilər; hidromeliorasiya; inşaat, yol maşınları və avadanlığı; avtomobil yolları və təyyarə limanlarının tikintisi; körpülər və nəqliyyat tunelləri; istilik-qaz təchizatı və ventilyasiya; su təchizatı; kanalizasiya, su mənbələrinin qorunması və istifadə edilməsi; kommunal tikinti və təsərrüfatı; tikinti məmulatı və konstruksiyası istehsalı; çətinəriyən qeyri-metal və silikat materialların kimyəvi texnologiyası; ağac emalı texnologiyası ixtisasları üzrə kadr hazırlığı aparılırdı.

1991-ci ildə AzİMİ-nin tələbə şəhərciyində yerləşən 5 yataqxana korpusunda 1750 tələbə yaşayırdı. Gənclərin asudə vaxtlarının səmərəli keçməsini təmin etmək məqsədilə tələbə şəhərciyində «Ocaq» tələbə klubu, «Cəngi» eksperimental-idman və bədii-istehsalat birliyi, şahmat klubu, konsert zalı, tələbə kafesi və sanatoriya-profilaktoriya fəaliyyət göstərirdi.

Həmin dövrdə İnşaat Mühəndisləri İnstitutunda təşkil olunmuş tələbə inşaat dəstələri respublikamızda və onun hüdudlarından kənarda aparılan tikinti, quruculuq və abadlıq işlərində yaxından iştirak edirdilər. Əmək və inşaat meydançalarında inşaatçı tələbələr nəzəri biliklərini praktika ilə əlaqələndirir və bütün bunlar onların mütəxəssis kimi, ictimai-siyasi fəallığının artırılmasında, əməyə düzgün münasibətin aşılanmasında və dünyagörüşlərinin formalaşmasında əhəmiyyətli rol oynayırdı. AzİMİ-nin tələbə inşaat dəstələri əldə etdikləri uğurlara görə dəfələrlə mükafatlandırılmış və SSRİ səviyyəsində keçici qırmızı bayraqlarla təltif olunmuşlar.

*1976–1991-ci illərdə İnşaat Mühəndisləri İnstitutunda tələbə qəbulu və buraxılışının dinamikası*

| İllər | Qəbul | Buraxılış |
|---|---|---|
| 1976 | 1550 | 1255 |
| 1977 | 1550 | 1368 |
| 1978 | 1590 | 1210 |
| 1979 | 1550 | 1444 |
| 1980 | 1680 | 1406 |
| 1981 | 1668 | 1444 |
| 1982 | 1876 | 1509 |
| 1983 | 1985 | 1547 |
| 1984 | 1727 | 1501 |
| 1985 | 1966 | 1633 |
| 1986 | 1918 | 1657 |
| 1987 | 1902 | 1244 |
| 1988 | 1533 | 1155 |
| 1989 | 1550 | 1668 |
| 1990 | 1550 | 1658 |
| 1991 | 1460 | 1441 |

1991-ci ildə İnşaat Mühəndisləri İnstitutunda təhsil alan tələbə kontingenti 9184 nəfər təşkil edirdi. Bu tələbələrdən 4527 nəfəri gündüz şöbəsində, 2500 nəfəri axşam şöbəsində, 2136 nəfəri isə qiyabi şöbədə oxuyurdu. Yerli tələbələrlə yanaşı, dünyanın 30 ölkəsindən 244 nəfər əcnəbi tələbə də təhsil alırdı. 1982-ci ildən institutda fəaliyyət göstərən xarici vətəndaşlar üçün hazırlıq şöbəsi yalnız Azərbaycanın yox, eləcə də başqa respublikaların ali məktəblərində oxumaq üçün tələbə hazırlayırdı.

1991-ci ildə institutda 450 mindən çox kitab fonduna malik olan əsaslı kitabxana fəaliyyət göstərirdi. Həmin il 4 şöbə, 2 bölmə və 5 filialdan



*Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun binası*

ibarət olan kitabxananın fondundan 12 minə yaxın oxucu istifadə etmişdi. Bütün bunlar tələbələrin asudə vaxtlarının təşkilində, elmi biliklərinin artmasında böyük rol oynayırdı.

Düşünürəm ki, ötən illər ərzində institutda memar və inşaatçı-mühəndis kadrlarının hazırlanmasında böyük rolu və müstəsna xidmətləri olan əməkdar memar və əməkdar mühəndis adına layiq görülmüş onlarla müəllimin adlarını qeyd etmək yerinə düşər. Onlardan SSRİ xalq memarı Mikayıl Hüseynovun, 100-dən çox layihə müəllifi olan memarlıq doktoru, professor Qəzənfər Əlizadənin, professor Davud Axundovun, tanınmış memarlar Həsən Məcidovun, Niyazi Rzayevin, Eldar Kanukovun, tanınmış sənətşünas, professor Mürsəl Nəcəfovun, texnika elmləri doktorları, professorlar Abuzər Əliyevin, Abbas Mustafayevin, İbrahim Bəxtiyarovun, Qəni Məmmədovun, Andrey Qolubitskinin, Süleyman Əbdülrəşidovun, Maarif Abdullayevin, Qanbay Xanməmmədovun, Tofiq Sadıqovun, Nəsir İsrafilovun, Əsgər İsayevin, Yaqub Eyyubovun, İsmayıl Sadıqovun, Knyaz Əliyevin, Həsən Feyziyevin, elmlər doktoru professorlar Nurqələm Mikayılovun, Telman Əliyevin, professorlar Hüseynağa Muradxanovun, Zahid Şabanbəyovun, uzun müddət Ali riyaziyyat kafedrasına rəhbərlik etmiş professor Allahverən Cəbrayılovun, Fizika kafedrasına rəhbərlik etmiş professor Abdulla Mehrabovun və başqalarının xidmətləri daha böyükdür. Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda çalışan bir sıra alimlərin əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, onlar orden və medallarla təltif edilmişlər.

**Azərbaycan Texnologiya İnstitutu**

1981-ci ildə Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Çingiz İldırım adına **Azərbaycan Politex-nik İnstitutunun Kirovabad (Gəncə) filialı, Krasnodar Politexnik İnstitutunun Bakı filialı və Səmədağa Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun «Şərabçılığın texnologiyası» ixtisasının bazasında Kirovabadda (Gəncədə) Azərbaycan Texnologiya İnstitutu (AzTİ) yaradıldı.**

**Rəhim Rəhimov** institutun ilk rektoru vəzifəsinə təyin edildi (*bax: səh 72*). Professor Rəhim Rəhimov 1981-ci ilin martından 1987-ci ilin 15 yanvarınadək bu təhsil ocağına rəhbərlik etdi.

İnstitutun yaradılmasında məqsəd SSRİ məkanında, o cümlədən Zaqafqaziya respublikalarında yeyinti (qida), toxuculuq və yüngül sənaye məhsullarının texnologiyası üzrə mühəndis-texnoloqlar və mühəndis-mexaniklər hazırlamaq idi. Texnologiya İnstitutunda ilk vaxtlar üç fakültə fəaliyyət göstərirdi:

- Yeyinti istehsalının texnologiyası;
- Toxuculuq və yüngül sənayenin texnologiyası;
- Mexanika.

Burada aşağıdakı ixtisaslar üzrə kadr hazırlığına başlandı:

- yeyinti istehsalının maşın və aparatları;
- toxuculuq istehsalının maşın və aparatları;
- şərabçılığın texnologiyası;
- konservləşdirmənin texnologiyası;
- ictimai iaşə məhsullarının texnologiyası;
- təbii və kimyəvi liflərin əyrilməsi;
- toxuculuğun texnologiyası;
- tikiş məmulatlarının texnologiyası;
- trikotajın texnologiyası;
- gön-dəri məmulatlarının texnologiyası və konstruksiya olunması.

Bu fakültələrin tərkibində 12 kafedrada 130 nəfərdən ibarət professor-müəllim heyəti çalışırdı. 54 nəfərin elmi dərəcəsi var idi. Bunlardan 1 nəfəri elmlər doktoru, professor, 53 nəfəri elmlər namizədi, 29 nəfəri dosent, 41 nəfəri baş müəllim və 59 nəfəri assistent idi.

İnstitutun fəaliyyətinin ilk illərində kadr potensialının yaxşılaşdırılması istiqamətində mühüm işlər görüldü. Müxtəlif ixtisaslar üzrə 20-dən artıq gənc mütəxəssis SSRİ-nin qabaqcıl universitetlərinin aspiranturalarına göndərildi.

İnstitutda tədrisin ayrılmaz hissəsi olan elmi-tədqiqat işlərinə də böyük diqqət yetirilirdi. Ali məktəbdə aşağıdakı problem mövzular üzrə səmərəli tədqiqatlar aparılırdı:

- şərab məhsullarının elektrofiziki xassələrinin öyrənilməsi (rəhbər – professor Bayram Əliyev);
- yüksək temperaturlu termoelektrik materialların tədqiqi (rəhbər – professor Emin Namazov).
- ətraf mühitin radiasiya vəziyyətinin öyrənilməsi (rəhbər – professor Həsən Məmmədov).

İnstitutda kimya elmləri doktoru, professor Əbdürrəhman İsmayılovun rəhbərliyi altında «Maye-kristal» problem laboratoriyasında da ciddi elmi-tədqiqat işləri aparılırdı.

Bütün bunlarla yanaşı, institutda tədrisin keyfiyyətinin yüksəldilməsi, tələbə-müəllim münasibətlərinin saflaşdırılması, nizam-intizamın yaxşılaşdırılması üçün səmərəli tədbirlər



**Tofiq Qocayev (1944)**

**Qocayev Tofiq Bayram oğlu** Tovuz rayonunun Qovlar kəndində anadan olmuşdur. Azərbaycan Politexnik İnstitutunun Mexanika fakültəsini bitirmişdir (1967).

Azərbaycan Politexnik İnstitutunun Kirovabad (Gəncə) filialında assistent, baş müəllim (1973–1984), Azərbaycan Texnologiya İnstitutunda dosent, kafedra müdiri, tədris işləri üzrə prorektor (1984–1987), rektor (1987–1992) və dekan vəzifələrində işləmişdir.

Texnika elmləri namizədi (1979), texnika elmləri doktoru (1991) elmi dərəcələrini almışdır.

114 elmi və elmi-metodiki əsərin, o cümlədən 6 dərslik və dərs vəsaitinin müəllifidir. Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür (1992).

həyata keçirildi. Həmin dövrdə institut tələbələrinin ictimai və idman həyatı çox maraqlı idi. İnstitutun tələbələri müxtəlif idman yarışlarında institutun şərəfini ləyaqətlə qoruyurdular. İnstitutun müəllimləri qrafik üzrə mütəmadi olaraq SSRİ-nin qabaqcıl ali məktəblərinə (Moskva Dövlət Universitetinə, Ali Texniki Universitetə, Moskva Toxuculuq İnstitutuna, Moskva Yeyinti Sənayesi İnstitutuna və s.) ixtisasartırma kurslarına göndərilirdilər.

1980–1983-cü illərdə institut üçün beşmərtəbəli bina inşa edildi. İnstitutun 30000 $m^2$ sahəsi olan 8 korpusdan ibarət tədris şəhərciyi yaradıldı. 2 tələbə yataqxanası, 1 idman kompleksi, 3 iaşə obyekti, 1 tibb məntəqəsi inşa edilərək istifadəyə verildi.

İnstitutun maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Avropanın qabaqcıl ölkələrindən, o cümlədən Polşadan, Baltikyanı respublikalardan və digər ölkələrdən tədris və elmi-tədqiqat laboratoriya avadanlığı alındı.

1983-cü ildən Azərbaycan Texnologiya İnstitutunda çoxtirajlı «Texnoloq» qəzeti nəşr olunmağa başladı. 1985-ci ildən instituta nəşriyyat hüququ verildi və müasir avadanlıqla təchiz olunmuş mətbəə yaradıldı.

İnstitutun ikinci rektoru respublikanın əməkdar elm xadimi, professor **Tofiq Qocayev** olmuşdur. O, 1987-ci il yanvarın 15-də Azərbaycan Texnologiya İnstitutunun tədris işləri üzrə prorektoru vəzifəsinə təyin olunmuşdu. Bununla yanaşı, ona institutun rektoru vəzifəsini icra etmək tapşırıldı. Tofiq Qocayev 1987-ci il dekabrın 23-də rektor vəzifəsinə təsdiq edilmiş və bu vəzifədə 1992-ci ilin oktyabrınadək işləmişdir.

1990-cı ilin sentyabrından institutun nəzdində «Təbiət elmləri üzrə ixtisaslaşdırılmış məktəb» fəaliyyət göstərirdi. Sonralar bu məktəb «Xüsusi hazırlıq məktəbi» kimi öz fəaliyyətini davam etdirdi. Həmin məktəb riyaziyyat, fizika və kimya fənləri üzrə orta məktəblərin yuxarı sinif şagirdlərini, həmçinin orta təhsilli gənclərin ali məktəbə hazırlanmasına kömək etmişdir.

İnstitutun kafedraları SSRİ-nin və respublikamızın qabaqcıl elmi-tədqiqat institutları, konstruktor büroları, ali məktəbləri, sənaye müəssisələri ilə birgə elmi-tədqiqat işləri apararaq müəlliflik şəhadətnamələri və patentlər aldı. Tələbələrin geniş miqyasda elmi-tədqiqat və təcrübə-konstruktor işlərinə cəlb olunması, müəssisələrin sifarişi ilə real diplom və kurs layihələrinin yerinə yetirilməsi işi müvəffəqiyyətlə həyata keçirildi.

1981–1984-cü illərdə tədrisdə qazanılan uğurlara görə AzTİ Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin və Sahə Həmkarlar



*Ulu öndərimiz Heydər Əliyev Gəncə ziyalıları ilə görüşdə. 1982-ci il*



*Akademik Həsən Əliyev Gəncə şəhərinin rəhbər işçiləri və Azərbaycan Texnologiya İnstitutunun bir qrup professor-müəllim heyəti ilə. 1984-cü il*

İttifaqı Komitəsinin Fəxri Fərmanı ilə təltif edilmişdir. 1984-cü ildə elmi-tədqiqat işlərinin səmərəliliyinin və istehsalata tətbiqinin, xalq təsərrüfatı üçün mütəxəssis hazırlığının keyfiyyətinin yüksəldilməsini təmin etdiyinə görə AzTİ Azərbaycan KP MK-nın Azərbaycan SSR Nazirlər Sovetinin və Azərbaycan LKGİ MK-nın Keçici Qırmızı Bayrağı ilə təltif edilmişdir.

1986/87-ci tədris ilində institut əldə olunan nailiyyətlərə görə Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyinin Kollegiyasının qərarı ilə Fəxri Fərmanla təltif edilmişdir.

**23 yanvar 1990-cı il Xalq Təhsili nazirinin 77 nömrəli əmri ilə Bakı şəhərində institutun Əmtəəşünaslıq fakültəsi yaradıldı.**

1990-cı ildə institutun 6 fakültəsində 18 ixtisas üzrə kadr hazırlanırdı. Bu fakültələr aşağıdakılar idi:

- Yeyinti istehsalının mexanika-texnologiyası;
- Konservləşdirmənin və şərabçılığın texnologiyası;
- Toxuculuq sənayesinin texnologiyası;
- İctimai iaşə məhsullarının texnologiyası;
- Yüngül sənayenin mexanika-texnologiyası;
- Əmtəəşünaslıq;

Fəaliyyətə başladığı dövrdən bu ali təhsil ocağında Ümuminstitut kafedraları fəaliyyət göstərmişdir. Bu kafedralardan biri Dillər kafedrasıdır. Kafedra 1974-cü ildə Azərbaycan Politexnik İnstitutunun Gəncə filialında yaradılmışdı.

İctimai elmlər kafedrası da bu ali məktəbin ümuminstitut kafedralarından olmuşdur. Kafedra 1981–1991-ci illərdə Fəlsəfə və politologiya adı altında fəaliyyət göstərmişdir. Bədən tərbiyəsi və idman kafedrası 1981-ci ildən ictimai əsaslarla fəaliyyət göstərmişdir.

İnstitutda kadr hazırlığında elmlər doktoru, professorlar Nadir Hüseynov, Marat-Yaşar Bədəlov, Əbdürrəhim İsmayılov, Əmir Əhmədov, Bayram Əliyev, Ənvər Bayramov, Emin Namazov, Rauf Hüseynov, dosentlər Ələmdar Əlbəndov, Lətif Kərimov, Telman Məlikov, Rəfail Maçanov, Rövşən Hüseynov, Namiq Əsgərov, Yaqub Abbasov, Yunis Salahov, Edisson Cabbarov və b. mühüm xidmətləri olmuşdur.

İnstitutun fəaliyyətinin ilk 10 ili ərzində tələbələrin və məzunların sayı ilbəil artmış, 1981-ci ildə I kursa qəbul olan tələbələrin sayı 775 nəfər olduğu halda, 1990-cı ildə bu rəqəm 1164-ə çatmışdır.

*1981–1990-cı illərdə Azərbaycan Texnologiya İnstitutunun tələbə kontingentinin inkişaf dinamikası*

| İllər | Qəbul olunanlar | Məzunlar |
|---|---|---|
| 1981 | 775 | 197 |
| 1982 | 775 | 389 |
| 1983 | 775 | 371 |
| 1984 | 771 | 461 |
| 1985 | 775 | 643 |
| 1986 | 775 | 722 |
| 1987 | 821 | 552 |
| 1988 | 761 | 641 |
| 1989 | 680 | 617 |
| 1990 | 1164 | 735 |

## 5.3. PEDAQOJİ KADRLARIN İXTİSASARTIRMA, YENİDƏN HAZIRLANMA VƏ ELMİ-PEDAQOJİ TƏDQİQAT İNSTİTUTLARI

### Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutu

Sovet hakimiyyətinin ilk illərində müəllim kadrlarının çatışmaması, onların ixtisas səviyyəsinin aşağı olması məktəb quruculuğunda əsas problemlərdən biri idi.

**Müəllimlərə elmi və metodik kömək göstərilməsi məqsədilə 1922-ci ildə Bakı Xalq Maarifi İnstitutu yaradıldı.** Həmin institut 1924-cü ilə kimi fəaliyyət göstərdi.

1920–1927-ci illərdə qısa və uzunmüddətli pedaqoji kursların, pedaqoji texnikumların, müəllimlər institutları və pedaqoji institutların qarşısında, az bir vaxtda, ibtidai və natamam orta məktəbləri ixtisaslı müəllim kadrları ilə təmin etmək vəzifəsi qoyulmuşdu. Həmin illərdə 1347 müəllim hazırlanmışdı ki, onların da yalnız 587 nəfərinin ali təhsili var idi. Ancaq 1920-ci illə müqayisədə müəllimlərin sayı təxminən 3 dəfə artmış, onların intellektual səviyyələri, elmi-metodik hazırlıqları xeyli yüksəlmişdi. Müəllimlər arasında orta və ali təhsilli kadrların xüsusi çəkisi 3%-dən 42,6%-ə qədər yüksəlmişdi. Bunlar da, təbii ki, respublikada ümumi icbari ibtidai təhsilə keçməyə imkan yaratdı. Onu da etiraf etmək lazımdır ki, həmin dövrdə müəllim kadrlarının hazırlığı, onların ixtisasının artırılması və seçilib yerləşdirilməsi pərakəndə şəkildə həyata keçirilirdi.

**1927-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı «Evdə pedaqoji texnikum» adlı yeni tipli tədris müəssisəsi təşkil etdi.** «Evdə pedaqoji texnikum»un məqsədi qiyabi təhsil yolu ilə orta pedaqoji səviyyəli müəllimlər hazırlamaqdan ibarət idi. Bu tip tədris müəssisəsinə 1500-ə yaxın müəllim cəlb edildi. Həmin dövrdən etibarən müəllimlərin yenidən hazırlanması işində müəyyən sistem yarandı. Yenidən hazırlanma kursları üçün vahid tədris proqramları işlənib hazırlandı. Həmin proqramlara əsasən eyni dinləyici kontingenti 3 il ardıcıl bu kurslara cəlb edilərək yeddiillik məktəb səviyyəsində bilik qazanırdı.

**Müəllimlərin yenidən hazırlanması və ixtisasının artırılmasında Xalq Maarif Komissarlığı Kollegiyasının 13 iyul 1929-cu il tarixli qərarı ilə yaradılan Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması İnstitutu mühüm rol oynadı.** O vaxta qədər pərakəndə halda fəaliyyət göstərən tədris müəssisələri («Evdə pedaqoji texnikum», qiyabi pedaqoji fakültə, qiyabi metodik kurslar və s.) yeni yaradılan instituta birləşdirildi.

İlk vaxtlar institut yalnız pedaqoji kadrların yenidən hazırlanması ilə məşğul olurdu. İnstitut yarandığı illərdə qiyabi təhsilə daha çox diqqət yetirilirdi. Bu məqsədlə, qiyabiçi aylıqları keçirilirdi.

1930–1932-ci illərdə institut əməkdaşları tərəfindən 3363 qiyabiçi ilə iş aparılırdı. Həmin dövrdə 1645 nəfər müəllim 6 aylıq kurslardan keçmişdi. Yeni hazırlanan müəllimlərin elmi-metodik səviyyəsinin yüksəldilməsinə xüsusi diqqət yetirilirdi. Bu məqsədlə bir sıra dərslik və dərs vəsaitləri hazırlanıb nəşr edildi. Qulam Bağırovun «Elmi qrammatikanın əsasları»

və «Azərbaycan SSR məktəblərində türk (Azərbaycan) dilinin tədrisi metodikası», Məmməd Əfəndiyevin «Riyaziyyatdan məsələlər», Firuz Məlikovun «Heyvandarlıq» adlı kitabları müdavimlərin stolüstü kitabına çevrilmişdi. Bu dövrdə respublikada yaşayan azsaylı xalqlar üçün də pedaqoji kadrlar hazırlamaq məqsədilə qiyabi kurslar təşkil edilmişdi. Kurslarda ibtidai məktəb müəllimləri ilə yanaşı, məktəbəqədər tərbiyə müəssisələri işçiləri, kəndli gənclər məktəbinin müdirləri, aqronom-pedaqoqlar, pioner baş dəstə rəhbərləri, əmək təlimi metodistləri hazırlığına xüsusi diqqət yetirilirdi. İnstitutda qısa bir müddətdə (1930–1935-ci illər ərzində) 2676 müəllim ixtisasartırma kurslarından keçdi.

Bu kimi tədbirlərə baxmayaraq, ibtidai və natamam orta məktəblərin tələbinə cavab verən müəllim kadrları hazırlamaq işində hələ də müəyyən çətinliklər var idi. 1938-ci ildə pedaqoji kadrların attestasiyası zamanı məlum olmuşdu ki, müəllimlərin xeyli hissəsi intellektual və peşə hazırlığı səviyyəsinə görə dövrün tələblərinə cavab vermir. Azərbaycan SSR Xalq Maarif Komissarlığı sistemində işləyən 15071 nəfər müəllimdən 11714 nəfərinin ixtisas və metodiki hazırlığı yoxlanılarkən onların yalnız 6029 nəfəri attestasiyadan keçib orta məktəb müəllimi (1170 nəfər) və ibtidai məktəb müəllimi (4859 nəfər) adını ala bilmişdi. Attestasiyadan keçə bilməyən müəllimlərdən 5079 nəfərinə müvafiq təhsil almaq üçün möhlət verilmiş, qalan 606 nəfəri pedaqoji işin öhdəsindən gələ bilmədiyi üçün işdən azad edilmişdi.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin 25 may 1939-cu il tarixli qərarına əsasən, ali qiyabi təhsili və müəllimlərin ixtisasının artırılması vəziyyətini yaxşılaşdırmaq məqsədilə Pedaqoji Kadrların İxtisasının Artırılması İnstitutu **Müəllimləri Təkmilləşdirmə İnstitutuna (MTİ)** çevrildi. İnstitutun elmi-metodik potensialı gücləndirildi. Həmin dövrdə Xalq Maarifi Komissarlığının əmrinə əsasən, rayon mərkəzlərində pedaqoji kabinetlər təşkil edildi və institutla rayon kabinetləri arasında sıx əlaqə yaradıldı.

Bu illərdə instituta **Artyom Aznaurov** (1939–1943) rəhbərlik etmişdir. 1941–1945-ci illərdə İkinci Dünya müharibəsi ilə əlaqədar maarif sahəsində ciddi çətinliklər yaranmışdı. Xeyli müəllimin cəbhəyə getməsi ilə əlaqədar olaraq pedaqoji kadrlara tələbat son dərəcə artdı. İnstitutun əməkdaşları öz işlərini müharibə dövrünün tələbləri səviyyəsində yenidən quraraq məktəblərin normal işləməsi üçün var qüvvələri ilə çalışırdılar.

1943/44-cü tədris ilində V, VII siniflərdə dərs deyəcək müəllimlərin 600 nəfəri Gəncə, Şəki, Ağdam, Quba və Lənkəranda təşkil olunan kurslara cəlb edildi. Müharibəyə səfərbər olunmuş müəllimləri əvəz etmək məqsədilə VII–X sinifləri bitirən hazırlıqlı şagirdlər kurslardan keçərək ibtidai məktəbdə dərs demək hüququ qazandılar. Onların sayı 300 nəfər idi. Təşkil edilən kursların tədris proqramlarında müharibə ilə əlaqədar olaraq müəyyən dəyişikliklər edilmişdi. Proqramlara kimya üzrə partlayış və zəhərləyici maddələr, riyaziyyat üzrə riyaziyyatın hərbi texnikada tətbiqi, təbiət üzrə dərman bitkiləri, fizika üzrə elektrotexnika və müharibədə onların rolu, coğrafiya üzrə SSRİ-nin təbii sərvətləri və onun iqtisadi gücü, ibtidai hərbi hazırlıq üzrə isə taktika, topoqrafiya, silahlı və əlbəyaxa döyüş və s. mövzular daxil edilmişdi.

1943-cü ildə işində zəiflik göstərən müəllimlər üçün 15 rayonda 45 günlük kurslar təşkil edildi ki, buraya 8, 9, 10-cu sinifləri bitirərək ibtidai məktəblərdə dərs deyən müəllimlər cəlb olundular. Kursları 300 nəfər bitirdi.

Müharibənin çətinliklərinə baxmayaraq, institutda elmi-pedaqoji kadrların hazırlığına xüsusi diqqət yetirilirdi. 1943–1944-cü illərdə institutda 11 nəfər aspirantura hazırlığı keçmişdi ki, onların da 9 nəfəri institutun öz əməkdaşları idi.

Bu illərdə İnstituta **Əsədulla Əbdürrəhimov** (1944–1947), **Teyfur Xasməmmədov** (1948–1952) rəhbərlik etmişdir.

Müharibədən sonra institutun beşillik (1946–1950) perspektiv planı hazırlandı. Bu planda institut əməkdaşlarının sayının 70 nəfərə çatdırılması, 200 çarpayılıq yataqxana tikilməsi, Naxçıvan, Dağlıq Qarabağ Muxtar Vilayəti, Gəncə və Şəkidə institutun filiallarının yaradılması nəzərdə tutulmuşdu.

O dövrdə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunda 5 fakültə (ibtidai məktəb, dil və ədəbiyyat, fizika və riyaziyyat, kimya və təbiyyat, tarix və coğrafiya) yaradıldı. Fakültələrdə Azərbaycan, rus və erməni bölmələri fəaliyyət göstərirdi. İlbəil kurslara cəlb olunan müəllimlərin sayı artırdı. 1948/49-cu tədris ilində bu kursları 3912 müəllim bitirmişdi.

50-ci illərdə 8587 nəfəri əhatə edən 227 saat seminar keçirilmiş, 1184 nəfəri əhatə edən 457 saat məsləhət verilmiş, 12751 nəfəri əhatə edən 646 saat mühazirə oxunmuşdu.

50-ci illərdə kurslarda dərs demək üçün ali məktəblərin elmi dərəcəli müəllimlərinin dəvət olunmasına xüsusi diqqət yetirilməyə başlandı. 1954/55-ci tədris ilində kənardan dəvət edilən mühazirəçilərin 14 nəfəri elmlər doktoru, professor, 58 nəfəri elmlər namizədi, dosent, 40 nəfəri isə baş müəllim idi. Həmin illərdə institut tərəfindən 88 nəfər müəllim və məktəb rəhbəri təcrübə keçmək məqsədilə Leninqrad (Sankt-Peterburq), Moskva, Kiyev, Xarkov, Tbilisi və Batumi şəhərlərinə göndərilmişdi. 1957-ci ildə 2918 nəfər, 1958-ci ildə isə 2861 nəfər institutun özündə kurslara cəlb edilmişdi. Kursların müddəti fərqli idi. Belə ki, 1959/60-cı tədris ilində illik kursları 845 nəfər, aylıq kursları 2265 nəfər, 15 günlük kursları 299 nəfər, 7 günlük kurs-seminarları 932 nəfər (cəmi 4341 nəfər) müəllim bitirmişdi. Bu illərdə Müəllimləri Təkmilləşdirmə İnstitutuna **Əkbər Əkbərov** (1953–1955), **Qurban Həsənov** (1956–1960) rəhbərlik etmişdir.

60-cı illərin əvvəllərində institutda 14 kabinet (pedaqogika və psixologiya, dil və ədəbiyyat, xarici dillər, tarix, coğrafiya, ibtidai sinif, fizika və riyaziyyat, kimya və biologiya, rəsmxət, bədən tərbiyəsi, uşaq evləri və internat məktəblər, məktəbdənkənar işlər, texniki təlim, fəhlə-kəndli gənclər) fəaliyyət göstərirdi. Bu illərdə ixtisasartırma və təkmilləşdirmə kurslarında mühazirə oxumaq məqsədilə respublikanın tanınmış alimlərindən Bəşir Hüseynov, Cəfər Xəndan, Qasım Gül, Əşrəf Hüseynov, Mehdi Mehdizadə, Feyzulla Qasımzadə, Bəylər Ağayev, Əli Sultanlı, Məmməd Qazıyev, İqrar Əliyev, Əbdüləzəl Dəmirçizadə, Muxtar Hüseynov, Abbas Abbaszadə, Şövqi Ağayev, Mərdan Muradxanov, Əliyar Qarabağlı, Əziz Əfəndizadə, Fikrət Seyidov, İsfəndiyar Vəlixanlı və b. dəvət olunurdular.

Həmin dövrdə İnstituta **İbrahim Hacıyev** (1961–1962), **Bəşir Bəşirov** (1963–1966) rəhbərlik etmişdir.



**Balaəli Vəliyev (1925–2005)**

**Vəliyev Balaəli Vəli oğlu** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsini bitirmişdir. Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunda tədris işləri üzrə direktor müavini (1963–1967), direktor (1967–1976), dosent, professor və kafedra müdiri (1976–2005) vəzifələrində çalışmışdır.

17 kitabın, 100-dən artıq elmi məqalənin müəllifidir.

1960/61-ci tədris ilində müxtəlif kurslara 3838 nəfər müəllim cəlb edilmişdi ki, onların da 1125 nəfəri illik, 1262 nəfəri aylıq, 1319 nəfəri 15 günlük, 348 nəfəri isə 7 günlük kursları bitirmişdi. Həmin vaxt, yəni 1956–1960-cı illərdə SSRİ-nin müxtəlif şəhərlərinə 420 nəfər müəllim 15–20 günlük istehsalat ekskursiyasına, 41 nəfər müəllim isə ixtisasartırma kurslarına (aylıq və ikiaylıq) göndərilmişdi. İldən-ilə kurslara cəlb olunan müəllimlərin sayı artır, onlar mütəmadi olaraq öz ixtisasları ilə bağlı tanınmış alimlərin mühazirələrini dinləyirdilər.

1964/65-ci tədris ilində ixtisasartırma kurslarını 3211 nəfər, 1965/66-cı tədris ilində 3230 nəfər, 1967/68-ci tədris ilində isə 7815 nəfər müəllim bitirmişdi. Onlara 2 akademik, 16 professor, 41 nəfər dosent yüksəksəviyyəli mühazirələr oxumuşdu. 68 nəfər müəllim və maarif işçisi isə Moskva, Leninqrad (Sankt-Peterburq), Xarkov, Varonej, Penza, Armavir şəhərlərinə istehsalat təcrübəsinə göndərilmişdi.

1966–1970-ci illərdə kurslara 41200 nəfər cəlb edilmiş, tədris-metodika kabinetlərinin sayı isə 20-yə çatdırılmışdı.

**1972-ci ildə Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutu Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutuna (MMTİ) çevrildi** və bundan sonra struktur dəyişiklikləri baş verdi. İnstitutda ilk Pedaqogika və psixologiya kafedrası təşkil edildi. Sonralar 4 yeni kafedra (Azərbaycan dili, ədəbiyyatı və onun tədrisi metodikası, Kimya-biologiya və onun tədrisi metodikası, Fizika-riyaziyyat və onun tədrisi metodikası, Əmək təlimi və peşəyönümü) yaradıldı. Həmin kafedralarda 62 nəfər professor-müəllim çalışırdı.



**Yusif Talıbov (1929–2005)**

**Talıbov Yusif Rəhim oğlu** Füzuli rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Xarici Dillər İnstitutunu bitirmişdir (1953). Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun aspiranturasında təhsil almışdır. Həmin İnstitutda kiçik elmi işçi, şöbə müdiri və ADPİ-nin pedaqogika kafedrasında dosent (1967–1973), Azərbaycan Müəllimləri Təkmilləşdirmə İnstitutunun Pedaqogika və Psixologiya kafedrasında müdir (1973), direktor (1976–1979) vəzifələrində çalışmış, Azərbaycan Bədən Tərbiyəsi İnstitutunda Pedaqogika kafedrasına rəhbərlik etmişdir (1979–2005).

100-dən çox kitab və elmi məqalənin müəllifidir.

1977-ci ildə institut yeni binaya köçürüldü və maddi-texniki bazası xeyli möhkəmləndirildi. Bu illərdə instituta **Balaəli Vəliyev** (1967–1976), **Yusif Talıbov** (1976–1979) və **Məmmədhənifə Musayev** (1979–1984) rəhbərlik etmişdir.

1984-cü ildə İnstitutun direktoru vəzifəsinə tanınmış partiya işçisi **Ramiz Məmmədzadə** (1984–1997) təyin edildi.



**Məmmədhənifə Musayev (1941–2004)**

**Musayev Məmmədhənifə Ramazan oğlu** Şəki rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu bitirmişdir (1962). Oğuz rayon Təhsil Şöbəsində inspektor vəzifəsində işləmişdir. Azərbaycan ETPEİ aspiranturasında (1970–1972) təhsil almışdır. Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun kafedra müdiri (1973–1978), direktor əvəzi (1979–1984). Maarif Nazirliyinin Əmək təlimi, peşəyönümü şöbəsinin rəisi (1984–1986), Baş İnspeksiya rəisinin müavini (1986–1990) və Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutunda rektor əvəzi kimi fəaliyyət göstərmişdir.

1973-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

50-dən çox dərslik, metodik vəsait və çoxsaylı məqalələrin müəllifidir.

1985-ci ildə ali məktəblərin fənn müəllimlərinin ixtisasartırma fakültələrinin instituta verilməsi Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun vahid təkmilləşdirmə mərkəzinə çevrilməsini təmin etdi. Elə həmin il pedaqoji kadrların təkmilləşdirilməsinin beşillik baş planı təsdiq edildi. Həmin plana əsasən fənn müəllimləri ilə yanaşı, respublikanın bütün rəhbər təhsil işçiləri (maarif müdirləri, inspektor və metodistlər, məktəb direktorları və s.) MMTİ-də kurslar keçməyə başladılar.

1985-ci ilin dekabr ayında institutun 8 mərtəbəli tədris korpusu, 9 mərtəbəli «Maarif sanatoriyası» yeni binaya köçdü. İnstitutun 1987-ci ildə Lənkəranda filialı yaradıldı.

1987-ci ildə İttifaq üzrə təkmilləşdirmə institutları arasında Mərkəzi Müəllimlərin Təkmilləşdirmə İnstitutu sosializm yarışının qalibi olaraq keçici bayraq aldı.

1989-cu ildə İnstitutun Şuşada filialı təşkil edildi. Həmin ilin oktyabrında Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Mərkəzi Müəllimləri Təkmilləşdirmə institutunun adı dəyişdirildi. İnstitut **Azərbaycan Baş Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması İnstitutu** adlandırıldı. İnstitut ali məktəb statusu aldı. Yeni struktur yaradıldı, rektorluq təşkil olundu, institutun fəaliyyət dairəsi xeyli genişləndi.

1989–1990-cı illərdə tədris kabinetləri ləğv edildi. Onların əvəzinə 4 fakültə: Xalq təhsili təşkilatçılarının ixtisaslarının artırılması və yenidən hazırlanması, İbtidai təlim və tərbiyə, Dil və ədəbiyyat, Dəqiq elmlər və əmək fakültələri və Təhsilin təşkili və idarəedilməsi kafedrası yaradıldı.

1991-ci ildə İnformatika və EHM-in əsasları kafedrası təşkil olundu.



**Ramiz Məmmədzadə (1930)**

**Məmmədzadə Ramiz Hüseynqulu oğlu** Bakı şəhərində anadan olmuşdur. Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin məntiq-psixologiya şöbəsini bitirmişdir (1952). Qaradağ rayon komsomol komitəsinin birinci katibi, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi, Sov.İKP MK Aparatında rəhbər vəzifələrdə çalışmışdır. Dövlət Təhlükəsizlik Komitəsində idarə rəisi (1967–1970), Respublika Peşə Təhsili Komitəsinin sədr müavini (1978–1984), Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunda direktor (1984–1997) vəzifələrində çalışmışdır. Hazırda Azərbaycan Müəllimlər İnstitutunun Təhsilin İdarə edilməsi kafedrasının müdiridir. Azərbaycan SSR Ali Sovetinin 3-cü çağırış deputatı olmuşdur. Pedaqoji elmlər namizədi, professor, əməkdar müəllimdir.

50-dən çox elmi əsərin müəllifidir.

**Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutu**

30-cu illərdə Bakı şəhərinin ümumtəhsil məktəblərində işləyən müəllimlərin ixtisasının artırılmasına, təkmilləşdirilməsinə və müəyyən hallarda bu və ya digər ixtisas sahiblərinin yenidən hazırlanmasına böyük ehtiyac var idi. Bu ehtiyacı nəzərə alaraq, Azərbaycan SSR Xalq Komissarları Sovetinin 15 aprel 1939-cu il tarixli qərarı ilə **Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutu** təşkil olundu. Həmin qərara əsasən İnstitut Bakı Xalq Maarifi Şöbəsi yanında ali məktəb statusunda fəaliyyətə başladı.

İkinci Dünya müharibəsi illərində müəllimlərin böyük bir hissəsi səfərbərliyə alındığı üçün məktəblərdə pedaqoji kadr çatışmazlığı yarandı. Bu çatışmazlığı aradan qaldırmaq məqsədilə natamam və tam orta təhsilli məzunlardan (intellektual səviyyəsi yüksək olan VII, X sinif şagirdləri) müxtəlif müddətli kurslarda, seminarlarda pedaqoji kadr hazırlığına başlanıldı.

İnstitut 1945-ci ildən etibarən fəaliyyətini Bakı Maarif Şöbəsinin yanında metodkabinet kimi davam etdirdi. Kabinetin əməkdaşları müxtəlif fənlər üzrə mütəxəssislər idilər və pedaqoji kollektivlərlə daima təmasda olur, metodik göstərişlərlə fənn müəllimlərinə, məktəb rəhbərlərinə kömək edirdilər.

Bir qədər sonra Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun bütün funksiyaları bərpa olundu və o, Ümumittifaq Əsasnaməsinə uyğun olaraq öz Əsasnaməsini işləyib hazırladı. Kifayət dərəcədə mükəmməl nəzəri biliklərə, praktik pedaqoji bacarıqlara və vərdişlərə malik olan metodistlərlə komplektləşdirildi. Bütün ümumtəhsil fənləri üzrə auditoriyalar yaradıldı və texniki vasitələrlə, elmi-metodik ədəbiyyatla, əyani vəsaitlə təchiz olundu. İstehsalatdan ayrılmamaqla – illik və ayrılmaqla – aylıq ixtisasartırma kurslarının kütləvi təşkilinə başlanıldı.

İxtisasartırma kurslarında mühazirələri təkcə institutun metodist mütəxəssisləri oxumurdular. Respublikanın tanınmış alimpedaqoqları, alim-metodistləri, praktik-pedaqoqları, yüksəkixtisaslı mütəxəssisləri də bu mühüm işə cəlb olunurdular. Onların sırasında Azərbaycanın tanınmış alimləri Cəfər Xəndan, Mehdi Mehdizadə, Əşrəf Hüseynov, Əbdüləzəl Dəmirçizadə, Abbas Abbaszadə, Şövqi Ağayev, Mərdan Muradxanov, Zahid Xəlilov, Fikrət Seyidov, Əliheydər Həşimov və başqalarının adını xüsusi qeyd etmək lazımdır. Məhz bu cür yanaşma kurs mühazirələrinin elmi səviyyəsini artırır, praktik miqyasını genişləndirirdi.

Təbii ki, o vaxtlar respublikanın təhsil sistemində sosial tələbdən asılı olaraq həyata keçirilməli olan təşkilati tədbirlər, struktur-funksional vəzifələr Moskvadan, İttifaq mənafeyi mövqeyindən diktə edilirdi.

Sovet dövründə təhsil sistemi qarşısında SSRİ-ni dünya miqyasında aparıcı mövqeyə çıxara bilən nəhəng miqyaslı islahatların həyata keçirilməsinə hesablanmış qlobal vəzifələr qoyulmuşdu. Çünki islahat xarakterli yeni quruculuq işlərinin həyata keçirilməsi üçün, ilk növbədə respublikamızın o vaxtkı partiya-sovet orqanları, o cümlədən Azərbaycan

Maarif Nazirliyi məsuliyyət daşıyırdı. Bütün ixtisasartırma işləri istisnasız olaraq respublikamızda fəaliyyət göstərən müəllimləri təkmilləşdirmə institutlarına, o cümlədən Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutuna həvalə olunmuşdu. İnstitut beşillik, illik planlar, bölgü qrafikləri işləyib hazırlayaraq ona nail olmuşdu ki, hər bir rəhbər və sıravi pedaqoji işçi beş ildə bir dəfə ixtisasartırma kursuna cəlb olunsun. Sovet dövründə hər tədris ilində orta hesabla 5000–6000 nəfər kurslardan keçirdi.

İnstitutda tez-tez Azərbaycan Elmlər Akademiyasının görkəmli alimlərinin, Maarif Nazirliyi işçilərinin, rəhbərlərinin, digər kateqoriyalı mütəxəssislərin bilavasitə iştirak etdikləri elmi-praktik konfranslar, seminarlar, müşavirələr, maarifləndirmə tədbirləri keçirilirdi.

Fəaliyyətinin birinci onilliyində institutun əməkdaşları əsasən reproduktiv xarakterli pedaqoji-təşkilati və elmi-metodik xidmət tədbirləri həyata keçirmişlər. Onlar məktəb, məktəbəqədər və məktəbdənkənar uşaq tərbiyə müəssisələrinin tədris proqramları, müxtəlif təlimat və tövsiyələrlə təmin edilməsində bilavasitə iştirak etmiş, təlim-tərbiyə mexanizmlərinin, nəzəriyyələrinin, texnologiyalarının həyata keçirilməsini təmin etmiş, şagirdlərlə, valideynlərlə, ictimaiyyətlə geniş əlaqələr saxlamışlar.

İkinci onillikdə institut kollektivinin fəaliyyəti nisbətən yaradıcı məzmun kəsb etdi. 50-ci illərin sonunda Sovetlər İttifaqında Ümumtəhsil məktəbində islahatlar aparılması prosesinə başlandı. Məktəbin ictimai istehsalata inteqrasiyası konkret pedaqoji vəzifə kimi qarşıya qoyuldu. İslahatla bağlı dövlət qərarları pedaqoji prosesin maddi-texniki təchizatını, pedaqoji fəaliyyətin yeni profillərinin yaranmasını, pedaqoji-təşkilati, elmi-metodik işin regional miqyasda orijinal və səmərəli mexanizmlərinin tətbiqini tələb edirdi. Bu elmi-pedaqoji vəzifə ilk növbədə müəllimləri təkmilləşdirmə institutlarına həvalə edildi. İslahatların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün təkmilləşdirmə institutlarının ştat vahidləri artırıldı, maddi-texniki bazası gücləndirildi, yerli təhsil şöbələrinin nəzdində bilavasitə təkmilləşdirmə institutu ilə birgə fəaliyyət göstərməli olan metodkabinetlər, məktəblərdə isə metodbirləşmələr və onların metodbölmələri təşkil edildi. Sinif kabinetlərinin, şərait olan məktəblərdə fənn kabinetlərinin modelləşdirilməsi istiqamətində işlər canlandırıldı. Beləliklə, institut başda olmaqla, Bakı Xalq Təhsili Şöbəsində vahid elmi-metodik xidmət qurumu yaradıldı. Məhz bu dövrdə metodist əməyi ilə müəllim əməyinin inteqrasiyasına başlanıldı.

Bu illərdə Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutuna **Validə Mirzəyeva** (1964–1972) rəhbərlik etmişdir.

Ümumtəhsil məktəbinin tədris planına ilk dəfə olaraq əmək təlimi və bədən tərbiyəsi fənni daxil edildiyindən həmin tip məktəblərdə texniki əmək emalatxanası yaradıldı, politexnik məktəb ideyası reallaşdı. Yoxsul ailələrin uşaqları üçün internat məktəblər təşkil olundu. Bunlar yeni pedaqoji-metodik fəaliyyət sahələri idi və müvafiq mütəxəssis kadrlarla təmin edilməli idi. Bu kateqoriya pedaqoji kadrların və əmək təlimi müəllimlərinin

ixtisas hazırlığına başlamaq üçün onları digər ixtisaslı kadrlardan seçmək, ixtisasartırma kurslarına cəlb etmək lazım idi. İnstitut kifayət dərəcədə çətin olan bu problemi özünün zəngin iri emalatxanalarını (metal emalı üzrə, ağac emalı üzrə) yaratmaqla, onları peşəkar kadrlarla komplektləşdirməklə həll etdi.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra təhsilin bütün pillələrinə, o cümlədən ixtisasartırmaya xüsusi əhəmiyyət verildi. Təhsilin keyfiyyətinə təsir edən ən mühüm amili ixtisasartırma təhsili hesab edən Heydər Əliyev Azərbaycan müəllimlərinin IX qurultayında demişdi: «*Müasir şəraitdə pedaqoji kadrların təkmilləşdirilməsi və onların ixtisasının artırılması sisteminin rolu yüksəkdir. Bu sistem qabaqcıl təcrübəni yaymaq, müasir tədris metodologiyasını öyrənmək, müəllimin bilik səviyyəsini yüksəltmək üçün səmərəli vasitədir. Lakin Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutunun, onun zona şöbələrinin fəaliyyətində, ümumiyyətlə, pedaqoqların təkmilləşdirilmə sisteminin işində nöqsanlar çoxdur...*

*...Bu yaxınlarda Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi institutun maddi-tədris bazasını möhkəmləndirmək, orada tədrisin səviyyəsini yüksəltmək haqqında qərar qəbul etmişdir. MK-nın qərarında nəzərdə tutulan tədbirlər qısa müddətdə həyata keçirilməli, partiya orqanlarımız və sovetlər, Respublika Maarif Nazirliyi, yerli xalq maarif orqanları müəllimlərin təkmilləşdirilməsinə və onların ixtisasının artırılmasına ciddi nəzarət etməlidirlər*».



**Validə Mirzəyeva (1921–2006)**

**Mirzəyeva Validə Mirzə** qızı Tiflis şəhərində müəllim kimi əmək fəaliyyətinə başlayıb, Bakı şəhəri, Suraxanı rayonu Maarif Şöbəsində metodist (1949), 208 №-li məktəbin direktoru (1950–1961), Suraxanı rayon Maarif Şöbəsinin müdiri (1961–1964), Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutun direktoru (1964–1972), 26-lar (indiki Səbail) rayon Maarif Şöbəsinin müdiri (1972–1977), Bakı şəhər 7 №-li orta məktəbinin direktoru (1977–1987) vəzifələrində çalışmışdır.

Təhsil sahəsindəki uğurlarına görə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalı, Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuş, əməkdar müəllim fəxri adına layiq görülmüşdür.

1975-ci ildən başlayaraq SSRİ Maarif Nazirliyi İttifaq məktəblərində fənn kabinetlərinin təkmilləşdirilməsini bir vəzifə kimi qarşıya qoydu. Bu dövrdən başlayaraq kabinet sistemi məktəb praktikasında aparıcı təşkilati-metodik atribut oldu. İnstitut İttifaq tərəfindən tərtib edilən nomenklatur siyahı əsasında səkkizillik və orta məktəblərdə fənn kabinetlərinin təşkili, onları dövrün tələbinə, elm və texnikanın inkişafına uyğun xüsusi cihazlarla, təlimin texniki vasitələri ilə təchiz edilməsində Bakı məktəblərinə metodik kömək göstərirdi. Ümumiyyətlə, bu illərdən başlayaraq institutun əməkdaşları normativə uyğun sinif-kabinetlərin, fənn kabinetlərinin yaradılmasında müəllimlərin, məktəb rəhbərlərinin ən yaxın məsləhətçiləri oldular. Bu dövrdən institutda ixtisasartırma kursları ilə yanaşı, qısamüddətli kurslar, mühazirə-məsləhətlər, seminarlar, təlimati müşavirələr, məruzələr, söhbətlər, elmi-praktik konfranslar və s.

operativ tədris-metodik və elmi-informativ tədbirlər geniş vüsət aldı.

70-ci illərdə institut əməkdaşlarının məktəblərdə, məktəbəqədər və məktəbdənkənar uşaq tərbiyə müəssisələrində analitik xidmət fəaliyyəti daha da genişləndi. Açıq dərslər, dərsdinləmələr, müəllimlərin fəaliyyət sisteminin, şəxsi təhsilinin, şagirdlərlə münasibətlərinin tədqiqi, məktəblərdə psixoloji mühitin öyrənilməsi və normallaşdırılması, bütün fənlərin tədrisinin vəziyyətinin və qabaqcıl təcrübənin müfəssəl öyrənilməsi, institutun şura iclasına çıxarılması, gənc müəllimlərə, məktəb rəhbərlərinə, şagird özünüidarə orqanlarına elmi-praktik köməkliyin göstərilməsi istiqamətində işlər intensiv xarakter aldı.

Metodist personal məktəblərdə fənlərin tədrisi vəziyyətini müntəzəm və sistematik olaraq öyrənir, təhlil edərək ümumiləşdirirdi.

1975-ci ildə Sovet İttifaqında müəllimlərin kütləvi attestasiyasına başlanıldı. Həmin ildən etibarən hər dərs ilində keçirilən və az qala İttifaqın süqutuna qədər davam edən bu kampaniyanın başlıca məqsədi birinci beş ildə ümumtəhsil məktəblərində çalışan müəllim korpusunun professional hazırlıq keyfiyyətinin yüksəldilməsinə nail olmaq idi. Bu illərdə Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutuna **Kazımov Qurban Əli oğlu** (1972–1978) rəhbərlik etmişdir.

Sonrakı beşilliklərdə də ümumtəhsil müəssisələrinin bütün kateqoriya pedaqoji işçiləri elə həmin məqsədlə kütləvi attestasiyadan keçirilirdilər.

İnstitutun metodistləri altı yaşdan təlimə başlamaqla əlaqədar 70-ci illərdə və 80-ci illərin əvvəllərində İttifaqda on ildən artıq keçirilən eksperimentdə SSRİ Pedaqoji Elmlər Akademiyasının Təlimin məzmunu və metodları elmi-tədqiqat və Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutlarının alimləri ilə əməkdaşlıq şəraitində yaxından iştirak etmiş, Bakıda 50-dən çox məktəbdə bu problem sınaqdan keçirilmişdir. Bu illərdə institut İttifaqın qabaqcıl müəllimləri təkmilləşdirmə institutları – Moskva, Leninqrad (Sankt-Peterburq), Kiyev, Minsk, Tbilisi, Alma-Ata, Lvov və Ryazan vilayət institutları ilə elmi-metodik əməkdaşlıq edir, təcrübə mübadiləsi aparırdı.



**Qurban Kazımov (1927–2003)**

**Kazımov Qurban Əli oğlu** Astara rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Təbiyyat fakültəsini (1951) fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatla Lerik rayonuna göndərilmiş və orada məktəb direktoru kimi əmək fəaliyyətinə başlamışdır.

1950-ci illərin sonundan 1961-ci ilə qədər keçmiş Lenin rayonunda (Suraxanı rayonu) Rayon Maarif şöbəsinin müdiri vəzifəsində işləmişdir. Pedaqoji elmlər üzrə namizədlik dissertasiyasını müdafiə etmişdir (1965).

Bakı şəhəri Xalq Maarif şöbəsinin məktəblər üzrə müavini (1961–1972). Bakı şəhəri Təkmilləşdirmə İnstitutunun direktoru (1972–1978) vəzifələrində çalışmışdır.

Bakı şəhər 44 №-li orta məktəbində kimya müəllimi işləmişdir.

Həmin illərdə İnstituta **Arif Muradov** (1978–1985) rəhbərlik etmişdir. 1985-ci ildə Arif Muradov Azərbaycan SSR Maarif Nazirliyi idarə rəisi vəzifəsinə təyin olunanda İnstituta bir il müddətinə (1985–1986) direktor müavini **Kurkina Qalina Afanasyevna** rəhbərlik etdi.



**Arif Muradov**
**(1938)**

**Muradov Arif Şahmurad oğlu** Şamaxı rayonunda anadan olmuşdur. ADPİ-nin Tarix fakültəsini bitirmişdir (1961). Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsində metodist (1969-1970). Bakı şəhər Nəsimi rayon Maarif Şöbəsinin müdiri (1970-1978), Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktoru (1978-1985). Azərbaycan SSR Maarif Nazirliyinin Proqram-Metodika İdarəsinin rəisi (1985–1988). Təhsil Nazirliyində şöbə müdiri, ümumtəhsil və Məktəbəqədər Tərbiyə Baş İdarəsində rəis müavini və rəis vəzifələrində (1988-2002) işləmişdir. 2002-ci ildən Təhsil Nazirliyinin şəhərlər üzrə Ümumtəhsil və Məktəbəqədər Tərbiyə şöbəsinin müdiri vəzifəsində çalışır.

100-ə qədər elmi-metodik əsərin müəllifidir.

Azərbaycan Respublikasının əməkdar müəllimidir.

1986–1989-cu illərdə institutun direktoru vəzifəsini **İsa Əli oğlu Məmmədov** icra etmişdir. Müstəqillik illərində İsa Məmmədov ikinci dəfə həmin vəzifəyə təyin olunmuş və ömrünün sonuna kimi instituta rəhbərlik etmişdir.

1982-ci ildən başlayaraq Sovet İttifaqının ali rəhbərliyi ümumtəhsil məktəbində əsaslı islahat keçirilməsini zəruri saydı. Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin 1983-cü il iyun plenumunda təhsil islahatı üzrə dövlət komissiyası yaradıldı. Həmin ərəfədə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini, xalq təsərrüfatının mühüm əhəmiyyətli böyük bir hissəsinə, o cümlədən təhsilə, səhiyyəyə, mədəniyyətə, nəqliyyata rəhbərlik edən Heydər Əliyev Komissiyanın sədri təyin edildi.

Az bir müddətdə ümumtəhsil məktəbi islahatının Dövlət Proqramı və digər bütün sənədlər toplusu Heydər Əliyevin bilavasitə rəhbərliyi altında işlənib hazırlandı.

İslahatın sənədlər toplusunun nəzərdə tutduğu tədbirlər içərisində pedaqoji kollektivlərə elmi-metodik xidmətlərin göstərilməsinə xüsusi əhəmiyyət verilirdi.

İslahatın qarşıya qoyduğu ümdə vəzifələrindən biri də altıyaşlıların məktəb təliminə cəlb olunması idi. Heydər Əliyev bu çətin işin İttifaqda birinci olaraq Azərbaycanda yerinə yetirilməsi üçün qüvvəsini əsirgəmədi.

Bu problemin həllində institutun öhdəsinə olduqca mürəkkəb vəzifələr düşürdü. 1985-ci ildə institutda pedaqogika-psixologiya kabineti yaradıldı və fəaliyyətə başladı. Bakı ümumtəhsil məktəblərində praktik psixoloji xidmətin təşkili, bu istiqamətdə ilk eksperimentlərin aparılması həmin kabinetin fəaliyyəti ilə bağlı idi.

İslahatın tələblərinə uyğun olaraq ümumi orta təhsilin məzmununda müvafiq yeniliklər edilirdi. 1985/86-cı dərs ilindən «İnformatika və hesablama texnikasının əsasları» fənninin tədrisinə başlamaqla əlaqədar, bu fənn üzrə müəllim kadrları olmadığına görə, əsasən, riyaziyyat, fizika, kimya fənlərini tədris edən müəllimlər 1983–1985-ci illərdə institutda müvafiq kurslardan keçməklə informatika müəllimləri kimi hazırlanırdı. Bu işə Azərbaycan EA-nın, ADU və ADPİ-nin alimləri cəlb edilmişdilər.

1988-ci ildən institutda məktəb praktik psixoloqlarının hazırlanmasına başlanıldı. İki dərs ilini əhatə edən xüsusi kurslarda institutun öz proqramı əsasında məktəb praktik psixoloqları hazırlandı. İkiillik kursun Azərbaycan bölməsini 24 nəfər, rus bölməsini 19 nəfər bitirdi.

Həmin dövrdə daim yeniləşdirilən, təkmilləşdirilən dövlət tədris proqramlarının, dərsliklərin, pedaqoji-psixoloji, elmi-metodik nəzəriyyələrin və praktikanın geniş müəllim auditoriyasına mənimsədilməsi istiqamətində institut böyük səylə çalışmışdır.

İnstitut, həmçinin ali təhsil müəssisələrinin həyata keçirdikləri təşkilatı-metodik tədbirlərdə fəal iştirak edirdi. Elmi-praktik konfransların, pedaqoji mühazirələrin, «dəyirmi masa»ların, tədris proqramlarının və dərsliklərin müzakirəsinin, müxtəlif təyinatlı digər tədbirlərin bünövrəsi məhz sovet dövründə qoyulmuşdur. İnstitutun ixtisasartırma kurslarına, müəllimlər korpusu üçün elmi-metodik tədbirlərinə respublikamızın alim-pedaqoqlarının, görkəmli mütəxəssislərinin, təhsil orqanı işçilərinin cəlb olunması təmin edilmişdir.

İnstitutda 1983-cü ildə yaradılmış pedaqogika-psixologiya kabineti Bakı Dövlət Universitetinin və Azərbaycan Dövlət Pedaqoji Universitetinin müvafiq kafedraları ilə sıx əməkdaşlıq edərək ümumtəhsil məktəblərində praktik psixoloji xidmətin təşkili istiqamətində konkret işlər görmüşdür. Kabinetin əməkdaşları «Psixoloji biliklərin öyrənilməsi» mövzusunda tədqiqatlar aparmışlar. Bu tədqiqatların uğurlu nəticələri nəzərə alınaraq Təhsil Nazirliyinin 16 fevral 1988-ci il tarixli əmri ilə institutun bazasında ikiillik ixtisasdəyişmə kursları təşkil edilmişdir. Bu illərdə Müəllimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsində **Aydın Qarayev** (1989–1992) işləmişdir.



**Aydın Qarayev**
**(1949)**

**Qarayev Aydın Camal oğlu** Gədəbəy rayonunda anadan olmuşdur. Əmək fəaliyyətinə 1972-ci ildə Bakı şəhəri 82 nömrəli orta məktəbində coğrafiya müəllimi kimi başlamışdır.

Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutu coğrafiya kabinetinin (1979–1989) müdiri, həmin institutun direktoru (1989–1992) vəzifələrində işləmişdir. Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır (1992).

Təhsil Nazirliyində baş mütəxəssis (1992–1993), Bakı şəhəri, Nizami Rayon Təhsil Şöbəsinin müdiri (1993–2001), Təhsil Nazirliyinin Kadrlar şöbəsində böyük məsləhətçi (2002–2004), Şəhərlər üzrə Ümumtəhsil və Məktəbəqədər Tərbiyə Şöbəsində böyük məsləhətçi (2004–2008) vəzifələrində çalışmışdır.

2008-ci ildən Tərtər rayon Təhsil Şöbəsinin müdiri vəzifəsində çalışır.

90-cı illərin əvvəllərində institutun psixologiya kabinetinin məqsədyönlü fəaliyyəti sayəsində Bakının 40-dan çox məktəbində psixoloji xidmət kabineti yaradıldı.

1991-ci ilə qədər institutda 20 tədris-metodik kabinet (rəhbər kadrlar, pedaqogika, psixologiya, Azərbaycan dili və ədəbiyyatı, ibtidai təlim, məktəbəqədər tərbiyə, kimya, biologiya, riyaziyyat, fizika, xarici dillər, coğrafiya, rus dili və ədəbiyyatı, tarix, əmək təlimi və tərbiyəsi, estetika, təlimin texniki vasitələri, ibtidai hərbi hazırlıq, informatika və EHM kabinetləri) fəaliyyət göstərmişdir.

**Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu**

**Azərbaycan Respublikası Xalq Maarifi Komissarlığının 1931-ci il 29 iyun tarixli əmrinə əsasən Bakı şəhərində Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutu yaradıldı.** Mövcud olduğu müddətdə institutun adı və onun fəaliyyət istiqamətləri bir neçə dəfə dəyişdirilmişdir:

- 1931-ci il iyulun 1-dən 1932-ci il oktyabradək Azərbaycan Elmi-Tədqiqat Pedologiya İnstitutu;
- 1932-ci il oktyabr ayından 1934-cü ilin oktyabrınadək Azərbaycan Pedologiya və Pedaqogika İnstitutu;
- 1934-cü il oktyabr ayından 1934-cü ilin dekabrınadək Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu;
- 1934-cü ilin dekabrından 1936-cı ilin avqustunadək Azərbaycan Pedologiya və Pedaqogika İnstitutu;
- 1936-cı ilin avqustundan 1937-ci ilin dekabrınadək Vladimir İliç Lenin adına Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu;
- 1938-ci ilin yanvarından 1938-ci ilin iyununadək Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu;
- 1938-ci ilin iyunundan 1946-cı ilin yanvarınadək Azərbaycan SSR Maarif Nazirliyinin Azərbaycan Dövlət Elmi-Tədqiqat Məktəblər İnstitutu;
- 1946-cı ilin yanvarından 1951-ci ilin yanvarınadək Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutu;
- 1951-ci ilin yanvarından 1977-ci ilin martınadək Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqogika İnstitutu;
- 1977-ci ilin martından 2000-ci ilin iyununadək Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu;
- 2000-ci ilin iyunundan indiyədək Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu kimi fəaliyyət göstərir.

İnstitutun təşkilatçısı və ilk direktoru **Surxay Hacıyev** olmuşdur.

10 elmi işçi və 6 laborantla fəaliyyətə başlayan institut əməkdaşları 30-cu illərdə respublikada müxtəlif şəhər, rayon, kənd məktəblərinin açılmasında, savadsızlığın ləğvi kampaniyasında və təhsil quruculuğu sahəsində fəal iştirak etmişlər.

İlk vaxtlar institutda elmi dərəcəsi olan milli kadrlar yox idi. Ona görə də, 1932-ci ildə institutda aspirantura təşkil olundu. Əhməd Seyidov, Mehdi Mehdizadə, Məmmədsəlim Tahirli, Zümrüd Axundova kimi baracıqlı və istedadlı gənclər aspiranturaya qəbul olundular.

**1933-cü ildə Naxçıvan MSSR-də institutun filialı yaradıldı** (müdir Məmmədəli Əlizadə), institutun əməkdaşlarından bir qrupu filialın təşkilinə və kadrların hazırlanmasına kömək məqsədilə həmin müəssisəyə göndərildi.

1933-cü ilin axırlarında müəllimlərlə, xüsusilə Bakı məktəblərinin müəllimləri ilə əlaqəni möhkəmləndirmək, onlara praktik kömək göstərmək, qabaqcıl müəllimləri tədqiqatlara cəlb etmək məqsədilə institutun nəzdində pedaqoji kabinet yaradıldı.

1934-cü ildə **Qulam Məmmədov** instituta direktor təyin edildi. İnstitutun strukturunda

əsaslı dəyişiklik aparıldıqdan sonra o, aşağıdakı kimi müəyyənləşdirildi:

**I. Pedaqogika bölməsi:**
- dillərin tədrisi qrupu;
- Azərbaycan ədəbiyyatının tədrisi metodikası;
- türk (Azərbaycan), talış, tat məktəblərində savad təlimi metodikası;
- riyaziyyatın tədrisi metodikası;
- fizikanın tədrisi metodikası;
- təbiyyat və kimyanın tədrisi metodikası;
- tarix və ictimaiyyatın tədrisi metodikası;
- coğrafiyanın tədrisi metodikası;
- politexnik əmək təlimi;
- məktəb müvəffəqiyyətinin uçota alınması;
- pedaqoji təbliğat;
- xalq maarifinin tarixi.

**II. Məktəbdənkənar tərbiyə bölməsi:**
- uşaq ədəbiyyatı;
- məktəbdə uşaq təşkilatının işinin öyrənilməsi.

**III. Çətin uşaqlar bölməsi:**
- rəhbərlik və fərdiləşdirmə (istedadlı uşaqların öyrənilməsi);
- psixologiya və pedaqogika laboratoriyası.

30-cu illərin ortalarında pedologiyanın tələblərindən irəli gələn şəxsiyyətin öyrənilməsi və tədris prosesində testlərdən istifadə olunma mexanizmi işləndi, kiril əlifbasına keçilməsinin layihəsi hazırlandı, ilk dərsliklər (xüsusilə Azərbaycan dilində) yaradıldı, onlara metodik göstərişlər hazırlandı.

1935-ci ildə elmi kadr hazırlığına diqqət artırıldı, aspiranturaya qəbul zamanı institutda bir neçə illik təcrübəsi olan müəllimlərə (Mərdan Muradxanov, Vəlixan Mustafazadə, Əliş Həsənov, Əmir Tağıyev, İsmayıl Mərdəliyev, Surxay Hacıyev, Mirzağa Quluzadə) üstünlük verildi.

1936–1940-cı illərdə institutda «Uşaqlarda təlimə şüurlu münasibət», «Uşaqların təlim və tərbiyəsində ailə və məktəbin əlbir işi», «Şagirdlərin gələcək praktik əməyə hazırlanması», «Təlim prosesində təkrar», «Təlim prosesində şagirdlərin kommunist tərbiyəsi» və s. problemlər tədqiqat predmetinə çevrildi.

İlk illərdə institut əməkdaşlarının elmi səviyyəsinin artırılması institutun qarşısında duran ən mühüm vəzifələrdən biri oldu. İnstitut əməkdaşlarının elmi səviyyəsinin yüksəldilməsi məqsədilə professorlar Boris Komarovski və Aleksandr Makovelskinin iştirakı ilə xüsusi komissiya yaradıldı.

1941–1945-ci illərdə gənc nəslin vətənə məhəbbət, düşmənə nifrət ruhunda tərbiyəsi ön plana çəkildi. Yalnız humanitar fənlər deyil, riyaziyyat, təbiət fənlərinin tədrisi də tədqiq olunmağa başladı **(Vəlixan Mustafazadə, Boris Komarovski, T.Cabbarlı, Əsədulla Əbdürrəhimov və b.)**. Təlimin məzmununa yenidən baxıldı, amansız müharibənin yaraları, xalqın qələbə azmi, müharibədə uşaqların iştirakı, arxa cəbhənin vuruşan orduya yardımı haqqında materiallar təlimin məzmununa daxil edildi **(Məmməd İsaxov, Cəmo Cəbrayılbəyli, Abbasqulu Abbaszadə, Həmid Fərzəlibəyli və b.)**.

Müəllimlərin çatışmadığı, uşaqların təhsildən yayındığı bölgələrdə institutun əməkdaşları tərəfindən geniş təşkilatçılıq işləri aparıldı. Həmin illərdə instituta qısa müddətdə Y.Hacıyev, İ.Şeyxzaman, D.Rəsulzadə, İ.Musayev və A.Salayev rəhbərlik etmişdir.

1939-cu ildə aspirantura xətti ilə elmi kadrların hazırlanmasına diqqət daha da artırıldı. Aspirantların bir qrupu (Mərdan Muradxanov,

Vəlixan Mustafazadə, Əmir Tağıyev, Əliş Həsənov və b.) bir il müddətinə Leninqrada (Sankt-Peterburq) Aleksandr İvanoviç Gertsen adına Pedaqoji İnstitutun aspiranturasına göndərildi. Onların yüksəkixtisaslı alimlərin rəhbərliyi altında formalaşmaları üçün hər cür şərait yaradıldı. Görkəmli rus alimləri Ş.İ.Qanelin, Y.Y.Qoland, L.Y.Raskin, İ.V.Svadkovski və M.M.Rubinşteynin elmi köməyi ilə onlar bacarıqlı tədqiqatçı kimi yetişə bildilər. Leninqraddan (Sankt-Peterburq) qayıtdıqdan sonra ciddi elmi-tədqiqat işinə girişdilər, pedaqogikanın nəzəri problemləri və Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin tədqiqi ilə bağlı maraqlı araşdırmalar apardılar, dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi aldılar.

40-cı illərdə institutda tədqiqat işləri yeni istiqamət, yeni məzmun aldı. Böyüyən nəslin beynəlmiləlçilik tərbiyəsi tədqiqatların predmetinə çevrildi. Didaktika sahəsində axtarışlar da konkret və elmi xarakter aldı, proqram və dərsliklərin təkmilləşdirilməsi istiqamətində müəyyən işlər görüldü. Xalq təsərrüfatının bərpası sahəsində əhalinin, o cümlədən müəllimlərin vəzifələrinə dair tədqiqatlar gücləndirildi. Uşaq gənclər təşkilatlarının (oktyabryat, pioner və komsomol) rolunun artırılması, gənc nəslin tərbiyəsində onların gücündən istifadə ön plana çəkildi və bu istiqamətdə təhsil tədqiqatları gücləndirildi.

**1947-ci ilin mart ayında I Respublika «Pedaqoji mühazirələr»i keçirildi.** O vaxtdan pedaqoji mühazirələrin keçirilməsi ənənə şəklini almışdır. Respublika pedaqoji mühazirələrində fərqlənən müəllimlər Ümumittifaq pedaqoji mühazirələrində iştirak edir, maraqlı və məzmunlu məruzə ilə çıxış edirdilər. O dövrdə «Pedaqoji mühazirələr» respublika müəllimlərinin pedaqoji axtarışlara cəlb edilməsi və kütləvi pedaqoji təbliğatın aparılmasının qüdrətli vasitəsinə çevrilmişdi.

50-ci illərdə institutda Avropa və rus klassik pedaqoqlarının (Yan Amos Komenski, Konstantin Dmitriyeviç Uşinski, Nadejda Konstantinovna Krupskaya, Anton Semyonoviç Makarenko və b.) əsərlərinin Azərbaycan dilinə tərcümə və çap edilməsi sahəsində xeyli iş görüldü.

1957-ci ildə institutda politexnik təlim və əmək tərbiyəsi, 1958-ci ildə isə psixologiya laboratoriyası yaradıldı. Müasir avadanlıqlarla təchiz olunmuş psixologiya laboratoriyasına Surxay Hacıyev rəhbərlik edirdi. Fuad İbrahimbəyli, Əkbər Bayramov, Əbdül Əlizadə, Muxtar Həmzəyev laboratoriyaya işə cəlb olundular. Laboratoriyada məktəblilərin fərdi xüsusiyyətlərinin öyrənilməsi, təlim və inkişaf, ikinci dilin mənimsənilməsi psixologiyası, Azərbaycan dilinin qrammatikasının mənimsənilməsi psixologiyası və s. problemlər tədqiq edilməyə başlandı. Az müddət ərzində laboratoriya elmi kadrların hazırlanması və inkişafında mühüm rol oynadı.

**Sov.İKP MK-nın 1958-ci ildə qəbul etdiyi «Məktəbin həyatla əlaqəsinin möhkəmləndirilməsi və SSRİ-də xalq maarifi sistemini daha da inkişaf etdirilməsi haqqında»** qərarının yerinə yetirilməsi institutun fəaliyyətində böyük dönüş yaratdı. Bu illərdə institutda, kənd məktəblərində istehsalat təliminin təşkili, şagird briqadalarının, istehsalat sexlərinin, tədris emalatxanalarının yaradılması, ictimai-faydalı, məhsuldar əməyin təşkili, politexnik təlim, peşəyönümü üzrə məktəblərə

praktik köməyin göstərilməsi sahəsində tədqiqatlar üstünlük təşkil edirdi. İnstitutun əməkdaşları həm də bu qurumların təşkilində bilavasitə iştirak edirdilər.

Məktəb haqqında qərarda irəli sürülmüş vəzifələrin həllini təmin etmək məqsədilə Azərbaycan KP MK-nın göstərişinə əsasən 1960-cı ildə institutun «Elmi əsərləri»nin nəşrinə (redaktor Nurəddin Kazımov) başlandı.

İnstitutun 40–60-cı illərdəki inkişafı o dövrdə direktor işləmiş **T.Cabbarlı (1940– 1941), C.Əfəndiyev (1941–1944), Məmməd İsaxov (1944–1946), Cəmo Cəbrayılbəyli (1946–1950), Mərdan Muradxanov (1950–1951; 1952), Bəylər Ağayev (1951), Əsədulla Əbdürrəhimov (1952–1955), Məmməd Ələkbərov (1955–1959)** və **Mirzə Məmmədovun** *(bax: səh. 63)* **(1959–1974)** təşkilatçılıq fəaliyyəti ilə bağlıdır.

1961-ci ildə institutun strukturunda müəyyən dəyişikliklər edildi. Elmi işçilərin sayı 29 nəfərdən 43 nəfərə çatdırıldı. Əmək təlimi şöbəsi genişləndirildi, ibtidai təlim və pedaqoji fikir tarixi bölməsi yaradıldı. Pedaqoji fikir tarixi bölməsinin qarşısında ən qədim dövrdən Azərbaycanda məktəb və pedaqoji fikir tarixinin öyrənilməsi vəzifəsi qoyuldu.

1966–1976-cı illərdə Sov.İKP MK-nın **«Orta ümumtəhsil məktəbinin işini daha da yaxşılaşdırmaq tədbirləri haqqında»** (10.XI.1966-cı il) qərarına uyğun olaraq institutda orta ümumi təhsilin X(XI) siniflərdə başa çatdırılması, şagirdlərə elmin əsaslarına dair möhkəm biliklərin verilməsi, politexnik təlimin gücləndirilməsi, gənclərin peşə seçməyə hazırlanması, təhsilin məzmununun elmin, texnikanın və mədəniyyətin inkişafı tələblərinə uyğunlaşdırılması, yüksəkkeyfiyyətli, stabil dərsliklərin hazırlanması sahəsində elmi axtarışlar gücləndirildi və xeyli səmərəli işlər görüldü. Bu illər ərzində təlimin texniki vasitələri və proqramlaşdırılmış təlim laboratoriyası, peşə oriyentasiyası, xarici dillərin tədrisi bölmələri yaradıldı. Elmi işçilərin sayı 60 nəfərə çatdırıldı.

1972-ci ildə gənclərin hamılıqla orta təhsilini başa çatdırması, 1973-cü ildə kənd ümumtəhsil məktəbləri haqqında qərarlar institutun fəaliyyətinə istiqamət verdi. 1973-cü ildə institutda yaradılmış kənd məktəbləri şöbəsi regionlardakı orta təhsil müəssisələrində təlim-tərbiyə işinin qaydaya salınması sahəsində xeyli iş gördü. Ümumtəhsil məktəblərinin ehtiyacını nəzərə alaraq bədən tərbiyəsi və ibtidai hərbi hazırlıq, estetik tərbiyə, defektologiya, axşam məktəbləri, texniki peşə təhsili bölmələri yaradıldı.

70-ci illərin əvvəllərində institut əməkdaşları yeni proqram, dərslik, dərs vəsaiti və dərsliklərə metodik rəhbərliklərin hazırlanması sahəsində uğurlu işlər gördülər.

70-ci illərdə institutun genişlənməsi, ali pedaqoji məktəblərin sayının artması, pedaqoji-psixoloji tədqiqatlara tələbatın artması respublikada pedaqoji və psixoloji tədqiqatların əlaqələndirilməsi zərurətini yaratdı. Azərbaycan SSR Maarif Nazirliyi və Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin birgə əmrinə əsasən 1974-cü ildə Respublika Pedaqoji və Psixoloji Tədqiqatları Əlaqələndirmə Şurası yaradıldı. Bu şuranın institutun nəzdində təşkil olunması onun elmi mərkəz kimi fəaliyyətini daha da gücləndirdi.

70-ci illərdə tədqiqatların istiqaməti, əsasən təhsilin məzmunu ilə bağlı idi. Həmin illərdə

təhsilin məzmununda müəyyən yeniləşmələr aparıldı. Bu dövrdə fundamental elmlər sürətlə inkişaf edir, təlim materialları isə bu inkişafla ayaqlaşmırdı. Belə ki, elmi nailiyyətlər hər beş ildən bir təxminən 25–30% yeniləşirdi. Elm və texnikanın inkişafı öz əksini fənn proqramlarında, dərsliklərdə tapa bilmirdi. Bu, bir problem kimi dəfələrlə SSRİ Pedaqoji Elmlər Akademiyasının iclaslarında müzakirə edilmiş, məşhur alimlərin, akademiklərin dərsliklərin hazırlanmasına cəlb edilməsi tələb olunmuşdu. Lakin bunun da başqa mənfi cəhətləri oldu. Görkəmli nəzəriyyəçilərin hazırladıqları dərsliklərin elmi səviyyəsi məktəblilərin real səviyyəsindən yüksək olduğundan şagirdlər həmin dərsliklərdə verilən materialları qavramaqda çətinlik çəkirdi. İslahat böyük çətinliklərlə qarşılaşdı, onun nəticəsi qənaətbəxş olmadı. Ona görə də həm SSRİ Pedaqoji Elmlər Akademiyası, həm də Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda məktəblilərin təlim yükünün azaldılması istiqamətində axtarışlara başlandı.

1977-ci ildən institutun qabaqcıl müəllimləri, məktəb rəhbərlərini, kənd məktəblərində və digər müəssisələrdə çalışan alimləri əməkdaşlığa dəvət etdi.

**1978-ci ilin mayında Azərbaycan müəllimlərinin IX(VI) qurultayı oldu.** Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev respublika müəllimlərinin elmi məclisindəki məruzəsində demişdi: *«Pedaqogika elminin qarşısında duran vəzifələrin ölçüyəgəlməz dərəcədə artması Respublika Elmi-Tədqiqat Pedaqogika İnstitutunun işini xeyli yaxşılaşdırmağı tələb edir. Alimlərimiz müasir pedaqogika elminin aktual problemlərini dərindən işləyib hazırlamalı, qabaqcıl təcrübəni ümumiləşdirməli və yaymalı, pedaqoji kollektivlərə, xüsusən kənd məktəblərinin pedaqoji kollektivlərinə metodik yardımı gücləndirməlidirlər» (bax: Heydər Əliyev. Möhkəm ideyalı, hərtərəfli inkişaf etmiş kommunizm qurucuları tərbiyə etməli. Bakı, «Azərnəşr», 1978, səh. 23).*

Ulu öndərin proqram xarakterli bu çıxışından sonra institutun əməkdaşları məktəb, uşaq bağçası və digər maarif müəssisələrinin ehtiyaclarını daha diqqətlə öyrənməyə, məktəb təcrübəsini geniş miqyasda ümumiləşdirməyə, elmin nailiyyətlərini istehsalata tətbiqini təkmilləşdirməyə xüsusi diqqət yetirdilər. Uşaqların məktəbə hazırlanması sayəsində kompleks tədqiqatlara başlandı, təlim metodlarının təkmilləşdirilməsinin nəzəri və praktiki məsələləri, müəllimin ideya-siyasi və pedaqoji hazırlığı tədqiqatların predmetinə çevrildi. Yaşlıların ümumi təhsilinin pedaqoji və metodik problemlərinin hərtərəfli tədqiq etmək məqsədilə 1979-cu ildə yaşlıların ümumi təhsili şöbəsinin fəaliyyəti genişləndirildi. Şöbənin əməkdaşları axşam (növbəli) və qiyabi məktəblərdə gənclərin təhsilinin məzmununu, xüsusiyyətlərini öyrənməklə həmin məktəblərdə tədrisin səmərəli təşkilinin metodikasını işləyib hazırladılar.

1981/82-ci tədris ilində institutda ibtidai siniflərdə 5 günlük tədris həftəsinə keçirilməsinə hazırlıqla əlaqədar eksperimental tədqiqatlara başlanıldı.

70–80-ci illərdə instituta **Nurəddin Kazımov (1974–1976), Zahid Qaralov (1977–1984; 1987–1996), Yəhya Kərimov (1984–1987)** rəhbərlik etmişlər. İnstitut təşkil ediləndən



**Nurəddin Kazımov (1926)**

**Kazımov Nurəddin Mustafa oğlu** Kirovabad (Gəncə) şəhərində anadan olmuşdur. Leninqrad (Sankt-Peterburq) Dövlət Universitetini bitirmişdir (1950). Nuxa (Şəki) Müəllimlər İnstitutunda baş müəllim (1950-1952), Bakı Vilayət Maarif Şöbəsində və Azərbaycan SSR Maarif Nazirliyində inspektor (1952-1957). Rus Dili və Ədəbiyyatı İnstitutunda baş müəllim. Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda direktor müavini, direktor (1957-1976) vəzifələrində işləmişdir. Namizədlik (1958), doktorluq (1969) dissertasiyaları müdafiə etmiş, professor elmi adı (1970) almışdır. ADPİ-də elmi işlər üzrə prorektor (1976-1982), Azərbaycan İncəsənət İnstitutunda professor (1982-1984) vəzifələrində çalışmışdır. Çox sayda monoqrafiya, dərslik, dərs vəsaiti və elmi-pedaqoji məqalənin müəllifidir.

Əməkdar elm xadimidir (1990). Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsüdür. Azərbaycan Dillər Universitetində Pedaqogika kafedrasının müdiri vəzifəsində çalışır.

1981-ci ilə kimi 231 (95 nəfər əyani, 126 nəfər qiyabi) nəfər aspirantura hazırlığı keçmişdir. Onlardan 199 nəfəri namizədlik dissertasiyası müdafiə etmiş, elmlər namizədi alimlik dərəcəsi almışdır. İnstitutun aspiranturasının məzunlarından olan 16 nəfər ayrı-ayrı vaxtlarda pedaqoji elmlər doktoru alimlik dərəcəsi almışdır *(bax: Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu (1931-1981). Bakı, «Maarif», 1982, səh.146).*

Sov.İKP MK-nın 2 fevral 1984-cü il tarixli plenumunda **«Ümumtəhsil və peşə məktəbi islahatının əsas istiqamətləri»** haqqında qərarın qəbulundan sonra, 1984-1990-cı illərdə bu qərarın tələblərinə uyğun olaraq, gənc nəslin həyata və əməyə hazırlanmasının kökündən yaxşılaşdırılması istiqamətində axtarışlar gücləndirildi. Təlimin məhsuldar əməklə əlaqələndirilməsi sahəsində xeyli iş görüldü. Bununla bağlı 6 yaşdan təlimə başlanması üzrə təşkil olunmuş eksperimental tədqiqatın uğurları xüsusi qeyd edilməlidir.

Dərslik və dərs vəsaitlərinin əsaslı şəkildə yaxşılaşdırılması, təlimdə yüklənmənin qarşısının alınması sahəsində xeyli uğurlu tədqiqatlar aparıldı, lakin 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları respublikamızda sabitliyi pozdu. Bu təcavüz Azərbaycan məktəbini, pedaqoji ictimaiyyətini ciddi pedaqoji-psixoloji sınağa çəkdi. Bu illərdə dövrün tələbinə uyğun olaraq, institutda elmi-tədqiqat işləri gənclər arasında vətənpərvərlik hissinin gücləndirilməsi sahəsində praktik əhəmiyyətli axtarışlara, müəllimlərin fəaliyyətinə kömək göstərən metodik tövsiyələrin hazırlanmasına, məktəblərə metodik rəhbərliyin gücləndirilməsinə yönəldildi.

İnstitut tarixən öz fəaliyyətinin nəticələrini müxtəlif informasiya vasitələri ilə geniş pedaqoji



**Zahid Qaralov (1934)**

**Qaralov Zahid İbrahim oğlu** Gürcüstan SSR-in Dmanisi rayonunun Ormeşən kəndində anadan olmuşdur. ADPİ-ni bitirmişdir. Pedaqoji elmlər doktoru, professor, respublikanın əməkdar müəllimidir. Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun direktoru (1977-1984; 1987-1996). Azərbaycan SSR maarif nazirinin müavini (1984-1987) vəzifələrində çalışmışdır.

Milli Məclisin deputatı və komissiya sədri olmuşdur. 3 cildlik «Tərbiyə» monoqrafiyasının, ümumtəhsil məktəbləri üçün dərsliklərin və çoxlu sayda elmi məqalənin müəllifidir. Şöhrət ordeni ilə təltif edilmişdir (2004).

ictimaiyyətə çatdırmağa çalışmışdır. Minlərlə kitab və kitabça, on minlərlə jurnal və qəzet məqaləsi müəllimlərlə əlverişli ünsiyyət yaratmağa imkan vermişdir.

Əməkdaşların bir qismi müxtəlif elmi-pedaqoji jurnal və qəzetlərin redaksiya heyətinin üzvü olmuşlar. Professor Əjdər Ağayevin «Azərbaycan məktəbi», professor Yəhya Kərimovun «İbtidai məktəb və məktəbəqədər tərbiyə» jurnalının, professor Zahid Qaralov, professor Əziz Əfəndizadə, İbrahim Mayılov, Məzahir Quliyev, Məmməd Nəsrullayev, Ramazan Babayevin «Azərbaycan məktəbi» jurnalına əlavələrin, Mirabbas Aslanovun «Azərbaycan müəllimi» qəzetinin redaktoru olması institutun fəaliyyətində, ümumiyyətlə, respublikada təhsilin inkişafında mühüm rol oynamışdır.



**Yəhya Kərimov (1927)**

**Kərimov Yəhya Şəfi oğlu** Qax rayonunun İlisu kəndində anadan olmuşdur. ADPİ-ni bitirmişdir. Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunda direktor müavini və direktor vəzifələrində işləmişdir (1976–1987). Hazırda Təhsil Problemləri İnstitutunun nəzəri tədqiqatlar mərkəzində direktor müavinidir.

Pedaqoji elmlər doktoru, professor, əməkdar müəllim, Prezident təqaüdçüsüdür. Şərəf nişanı, Qırmızı Əmək Bayrağı və Şöhrət ordenləri ilə təltif olunmuşdur.

100-dən artıq dərslik, dərs vəsaiti, monoqrafiya, kitab və proqramların, 500-dən artıq elmi məqalənin müəllifidir. 45 ildən artıq bir müddətdə «Əlifba» kitabının, I–III siniflər üçün «Oxu» və «Azərbaycan dili» dərsliklərinin müəllifi olmuşdur.

Azərbaycanda təhsilin nəzəri və praktik problemlərinin işlənilməsində, elmi-pedaqoji kadrların hazırlanmasında mühüm xidmətləri olan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu 27 oktyabr 1981-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. Ayrı-ayrı onilliklərdə cəmiyyətin tələblərinə uyğun olaraq institutun qarşısına qoyulmuş vəzifələrin həyata keçirilməsində Surxay Hacıyev, Boris Komarovski, Aleksandr Makovelski, Mehdi Mehdizadə, Əhməd Seyidov, Mərdan Muradxanov, Saleh Xəlilov, Əmir Tağıyev, Əliş Həsənov, Mirabbas Aslanov, Camal Əhmədov, Fuad İbrahimbəyov, Əhməd Kərədi Zəkuzadə, Məmmədəli Məhərrəmov, Yusif Zeynalov, Şövqi Ağayev, Bəkir Çobanzadə, Feyzulla Qasımzadə, Ağamməd Abdullayev, Əbdüləzəl Dəmirçizadə, Əziz Əfəndizadə, Əliyar Qarabağlı, Səlim Cəfərov, Leyla Vəkilova, Abasqulu Abbaszadə, Mirzağa Quliyev, Mirəli Axundov, Bəylər Ağayev, Məmməd İsaxov, Cəmo Cəbrayılbəyli, Əsədulla Əbdürrəhimov, Zahid Qaralov, Yəhya Kərimov, Aben Kərimov, Hüseyn Əhmədov, Yusif Talıbov, Zəkəriyyə Mehdizadə, Bəşir Əhmədov, Çingiz Bədəlov, Rasim Əsədov, Nürəddin Kazımov, Əliheydər Həşimov, Şəmistan Mikayılov, Əjdər Ağayev və başqalarının səmərəli elmi və pedaqoji fəaliyyətlərini qeyd etmək yerinə düşərdi.

## 5.4. AZƏRBAYCANDA ALİ SİYASİ VƏ ALİ HƏRBİ TƏHSİLİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

### Bakı Ali Partiya Məktəbi

1920-ci ilin noyabrında Azərbaycan KP MK yanında təhsil müddəti iki ay olan **partiya məktəbi** fəaliyyətə başladı. Bu məktəbi 172 nəfər bitirib qəza partiya təşkilatlarına işə göndərildi. Daha hazırlıqlı məzunlar müəllim işləmək üçün partiya məktəbində saxlanıldı. 60–70 nəfərdən ibarət müdavim və qısamüddətli təhsil Azərbaycan partiya təşkilatının kadr hazırlığını təmin etmirdi. Bunu nəzərə alaraq, Azərbaycan KP-nin 1921-ci ilin fevralında keçirilən III qurultayı **Mərkəzi Türk** (Azərbaycan) **Sovet-Partiya Məktəbinin** yaradılması haqqında qərar qəbul etdi. Məktəb 1921-ci ilin dekabrında Azərbaycandan, Gürcüstandan, Dağıstandan, İran və Hindistandan olan 131 müdavimlə fəaliyyətə başladı. 1922-ci ilin iyununda Mərkəzi Türk (Azərbaycan) Sovet-Partiya Məktəbinin ilk buraxılışı oldu.

Sovet hakimiyyətinin ilk illərində yerlərdə qəza Sovet-partiya məktəblərinin yaradılması üçün xeyli iş görüldü. Bu illərdə Azərbaycan üzrə 8 partiya məktəbi yaradıldı. Bunlardan 2-si Bakıda, 6-sı qəzalarda idi.

1921-ci ildə Azərbaycan KP MK-nın şöbəsinin nəzdində qadın sovet-partiya məktəbi yaradıldı. Azərbaycan və rus bölmələri olan bu məktəbdə 1922-ci ildə 64 qadın təhsil alırdı. Məktəbin proqramı 9 ay üçün nəzərdə tutulmuşdu. Bunun 6 ayı ümumi təhsil fənlərinin, 3 ayı isə qadın hərəkatının öyrənilməsinə həsr olunurdu. 1924-cü ildə məktəb Azərbaycan KP MK-nın bir şöbəsinə çevrildi.

30-cu illərdə sovet kəndlərində ciddi sosial dəyişikliklər baş verirdi. Buna uyğun olaraq kənd partiya təşkilatları qarşısında partiya təşkilatlarını möhkəmləndirmək vəzifəsi qoyulmuşdu. Bu dövrdə kəndlərdə partiya özəklərinin geniş şəbəkəsi yaradıldı. Partiya məktəblərinin müdavimlərinin sayı sürətlə artdı. Bu məktəblərin tədris planına sosial-iqtisadi və ümumi təhsil fənlərindən başqa, kolxoz, sovxoz və MTS-lərdə istehsalın və əməyin təşkili, kənd təsərrüfatının mexanikləşdirilməsi, aqronomluq, heyvandarlıq kimi kənd təsərrüfatı fənləri də daxil edilmişdi. Tədris vaxtının 50%-i ixtisas fənlərinə, 30%-i sosial-iqtisadi fənlərə, 20%-i ümumi təhsil fənlərinə ayrılmışdı.



**Tofiq Köçərli (1929–2007)**

**Köçərli Tofiq Qasım oğlu** Gədəbəy rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir (1959).

Ağdam Müəllimlər İnstitutunda kafedra müdiri (1952–1953), Gəncə Pedaqoji İnstitutunda dosent, prorektor (1953–1956) vəzifələrində çalışmışdır.

Moskva Dövlət Universitetində İxtisasartırma İnstitutunun müdavimi olmuş (1951–1952), tarix elmləri namizədi (1955), tarix elmləri doktoru elmi dərəcəsi almışdır (1965).

Azərbaycan KP MK yanında Partiya Tarixi İnstitutunda baş elmi işçi (1957–1965), Bakı Ali Partiya Məktəbinin kafedra müdiri (1965–1972), rektoru (1972–1990), professoru (1990–1992), Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar İnstitutunun elmi işçisi (1993–2001), Akademiyanın Arxeologiya və Etnoqrafiya İnstitutunda baş elmi işçi (2002–2007) vəzifələrində işləmişdir.

Azərbaycan EA-nın müxbir üzvü (1981), həqiqi üzvü (1989) seçilmişdir.

İkinci Dünya müharibəsindən sonra SSRİ miqyasında partiya-sovet kadrları hazırlanması sahəsində ciddi dəyişikliklər baş verdi və bu proses Azərbaycandan da yan keçmədi.

1946-cı ildə Azərbaycan K(b)P Bakı Komitəsinin nəzdində **üçillik partiya məktəbi və ikiillik respublika, vilayət ali partiya məktəbləri, habelə İctimai Elmlər Akademiyası** yaradıldı. Partiya məktəbləri yanında partiya işçilərinin yenidən hazırlanması kursları, ali məktəblərdə ictimai fənləri tədris edən müəllimlərin ixtisasının artırılması üçün İctimai Elmlər Akademiyasının nəzdində 9 aylıq kurslar təşkil olundu.

1953-cü ildə Azərbaycan K(b)P MK yanında fəaliyyət göstərən **ikiillik Respublika Sovet-Partiya Məktəbi üçillik Respublika Sovet-Partiya məktəbinə** çevrildi.

1956-cı ildən məktəb **Bakı Ali Partiya məktəbi** adı ilə fəaliyyət göstərməyə başladı. Bu zamandan etibarən təhsil müəssisəsi respublikalararası ali partiya-sovet təhsili verən tədris mərkəzi kimi Azərbaycan, Gürcüstan, Ermənistan müttəfiq respublikaları və Dağıstan MSSR üçün kadr hazırlığı ilə məşğul olurdu. Bir neçə il sonra onun tərkibində yeni strukturlar: Bakı Ali Partiya məktəbinin rəhbər kadrlarının ixtisasının artırılması üçün respublikalararası və respublika kursları, habelə Zaqafqaziya komsomol məktəbi fəaliyyət göstərməyə başladı.

Müxtəlif illərdə bu təhsil müəssisəsinə Əlişir Hüseynov, Xurşud Məmmədov *(bax: səh.497)*, İlyas Bağırov, İsrafil İsmayılov, Danil Quliyev *(bax: səh.339)*, Nikolay Potseluyev və başqaları rəhbərlik etmişlər. Uzun illər – 1972-ci ildən 1990-cı ilədək Bakı Ali Partiya Məktəbinin rektoru akademik **Tofiq Köçərli** olmuşdur.

70-ci illərin ortalarından etibarən Bakı Ali Partiya məktəbi öz təhsil xidmətinin coğrafiyasını daha da genişləndirdi. Artıq burada yalnız Zaqafqaziya respublikalarından deyil, həmçinin Rusiya Federasiyası, Ukrayna, Belorusiya, daha sonralar isə Özbəkistan və Türkmənistan respublikalarından partiya-sovet işçiləri, habelə Almaniya Demokratik Respublikasında yerləşən mərkəzi ordu qrupundan, Odessa, Şimali Qafqaz, Zaqafqaziya və Orta Asiya hərbi dairələrindən siyasi işçilər təhsil alırdılar. Onların arasında kolxoz və sovxozların partiya təşkilatı katiblərindən tutmuş yüksək rütbəli hərbi işçilərə, rayon, şəhər partiya komitələri katiblərinə, müttəfiq respublikaların mərkəzi komitələrinin yüksək vəzifələrində çalışan şəxslərədək dinləyicilər var idi.

1991-ci ildə SSRİ Xalq Təhsili Nazirliyinin sərəncamı ilə ölkədə fəaliyyət göstərən 14 Ali Partiya Məktəbi, o cümlədən Bakı Ali Partiya Məktəbi **Sosial İdarəetmə və Politologiya İnstitutuna** çevrildi.

### Xəzər Ali Hərbi Dənizçilik Məktəbi

**Xəzər Ali Hərbi Dənizçilik Məktəbi (XAHDM)** 1939-cu ildə Bakıda yaradılmışdır. 1939-cu ilin may ayında diviziya komandiri Q.A.Buriçenkov məktəbin rəisi təyin edilmişdir. Məktəbin şəxsi heyəti də elə həmin dövrdə komplektləşdirilmiş, Frunze adına Hərbi Dənizçilik Məktəbindən Bakıya böyük təcrübəsi olan bir qrup müəllim və starşina, 1-ci kursu bitirmiş iki qrup müdavim göndərilmişdir. Eyni zamanda məktəbin 1-ci kursuna 675 nəfər müdavim qəbul olunmuşdur. Məktəbdə tədris gəmiləri dəstəsi yaradılmışdır. 1940-cı ildə isə məktəbin 1-ci kursuna 350 nəfər müdavim qəbul olunmuşdur.

SSRİ Xalq Komissarları Sovetinin qərarı və Dəniz Donanması Xalq Komissarlığının **5 iyun 1940-cı il tarixli əmrinə əsasən məktəbin statusu artırılaraq, I dərəcəli hərbi dənizçilik müəssisəsinə çevrilmiş və «Xəzər Ali Hərbi Dənizçilik Məktəbi» adlandırılmışdır.**

İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq, ölkənin bütün xalq təsərrüfatında, təhsil müəssisələrində olduğu kimi, XAHDM-də də tədris işləri müharibə dövrünün tələblərinə əsasən yenidən quruldu.

Müharibənin ilk günlərindən etibarən məktəbin qarşısında Hərbi Dəniz Qüvvələri üçün qısamüddətli, sürətli proqramlarla komandir kadrları hazırlamaq kimi yeni və daha məsul tapşırıqlar qoyuldu. Məktəb yalnız hərbi dənizçilər yox, eyni zamanda quru qoşunları üçün də kadrlar hazırlığına başladı. Bu məqsədlə məktəbdə qısamüddətli kurslar açıldı.

1941-ci ilin oktyabrında müdavimlər «Azərbaycan komsomolu» adına eskadrilya, tank kolonnası təşkil etmək üçün pul vəsaiti toplamışdılar. Ümumilikdə, məktəbin müdavimləri tərəfindən sentyabr-dekabr aylarında Müdafiə Fonduna 193 min manat pul toplanmışdı.

Müharibənin ilk aylarında, yəni 1941-ci ilin 29 sentyabrında məktəbin ilk fövqəladə buraxılışı, oktyabr ayında isə IV kursların yeni buraxılışı oldu. II kursun tədris proqramını öyrənmiş 196 nəfər müdavimə «baş çavuş» hərbi rütbəsi verildi və dəniz piyada hissələrinin komplektləşdirilməsi üçün birbaşa döyüş bölgələrinə göndərildi. Elə həmin ilin noyabr ayında daha 130 nəfər müdavim müxtəlif hərbi hissələrə göndərildi. Ümumilikdə, 1942-ci ilin avqust ayına kimi məktəbin şəxsi heyətindən 1341 nəfəri döyüş cəbhələrinə göndərilmişdi.

1945-ci ildə məktəbdə donanma zabitlərinin iki buraxılışı oldu.

XAHDM-in məzunları Uzaq Şərqdə Yaponiya ilə müharibədə də döyüş əməliyyatlarında fəal iştirak etmişlər. Onların arasında həmyerlimiz, Qırmızı Bayraq ordeni ilə təltif olunmuş leytenant **Həmid Həbib oğlu Qasımbəyov** da var idi.

SSRİ Hərbi Dəniz Donanması üçün komandir kadrlarının hazırlanması sahəsində məktəbin fəaliyyəti və əldə etdiyi nailiyyətlər hökumət tərəfindən yüksək qiymətləndirilmişdir. Hələ 1944-cü ilin 18 dekabrında XAHDM-in böyük bir qrup hərbiçisi SSRİ Hərbi Dəniz Donanmasında uzunmüddətli qüsursuz xidmətlərinə görə orden və medallarla təltif olunmuşdur.

İkinci Dünya müharibəsinin başa çatmasına bir neçə ay qalmış 1945-ci il mart ayının 4-də SSRİ Ali Soveti Rəyasət Heyəti adından müharibə illərindəki fəaliyyətinə görə məktəbə

hərbçilərin şərəfi, şan-şöhrəti rəmzi olan hərbi hissə Qırmızı Bayrağı verilmişdir. Bu, «SSRİ Silahlı Qüvvələrinin daxili xidmət nizamnaməsi»ndə qeyd olunduğu kimi, məktəbin fəaliyyətinə verilən ən yüksək qiymət idi.

Müharibədən sonrakı ilk ildən etibarən orduda aparılan islahatlara uyğun olaraq, hərbi məktəblər, o cümlədən Xəzər Ali Hərbi Dənizçilik Məktəbi də öz işini əsasən yenidən qurdu. Məktəbdə zabit kadrlarının qısamüddətli kurslarda hazırlanması sistemindən sabit tədris planı üzrə işləyən dəqiqləşdirilmiş ali tədris sisteminə keçildi. Məktəbin sabitləşmiş tədris planında və proqramlarında, həmçinin tədris prosesində İkinci Dünya müharibəsinin döyüş təcrübəsinin öyrənilməsinə və yayılmasına geniş yer verilirdi. Məktəbin tədris-maddi texniki bazası yenidən təşkil olundu. Məktəbin zabit, professor-müəllim heyəti mülki vətəndaşlar hesabına yenidən komplektləşdirildi. Professor-müəllim heyətinin əksəriyyəti geniş tədris-metodiki işlə yanaşı, elmi-tədqiqat işləri ilə də məşğul olurdular. Müharibədən sonrakı ilk üç ildə professor-müəllim heyətinin 10 nəfəri elmin müxtəlif sahələri üzrə namizədlik dissertasiyası müdafiə etdi. Pedaqoji heyət dövrün çətinliklərinə baxmayaraq, 1948–1959-cu illərdə müxtəlif fənlər üzrə 10 dərslik, 100-ə yaxın dərs vəsaiti hazırlamışdı. Yalnız 1958–1959-cu illərdə məktəbdə 59 dərs vəsaiti çap olunmuşdu. Həmçinin 1957–1959-cu illərdə zabitlər tərəfindən 8 monoqrafiya hazırlanmış və onların bir neçəsi namizədlik dissertasiyası kimi müdafiə olunmuşdur.

1953–1954-cü tədris ilindən məktəb tamamilə fakültə tədris sisteminə keçdi. Məktəbdə üç fakültə yaradıldı: şturman, artilleriya, mina-torpedo. Sonrakı illərdə isə Hərbi Dəniz Qüvvələrinin zabit kadrlarına olan ehtiyacdan asılı olaraq, bəzən fakültələrin sayı artırılmış, bəzən isə azaldılmışdır; həmçinin bəzi ixtisaslar ləğv edilmiş, bəziləri isə yeni təsis olunmuşdur. Məktəbdə tədris prosesini dövrün tələbləri səviyyəsində qurmaq məqsədilə «Əsaslı kitabxana» yaradılmışdır. 1959-cu ildə kitabxananın fondunda 180 min nüsxə kitab olduğu halda, 90-cı illərdə bu rəqəm 300 minə çatdırılmışdır. Bundan başqa, məktəbdə radioqəzet fəaliyyət göstərmişdir. Həmçinin məktəbin 700 yerlik klubu istifadəyə verilmişdir. Klubda müdavimlərin, zabitlərin, fəhlə və qulluqçuların özfəaliyyət dərnəyi, uşaq musiqi və balet məktəbi, mədəniyyət universiteti, paltar biçmə və tikmə kursları fəaliyyət göstərirdi.

60–70-ci illərdə Sovet Hərbi Dəniz Qüvvələrinin Dünya okeanını mənimsəməsində keyfiyyətcə yeni dəyişikliklər baş verdi. Bu dəyişikliklər Hərbi Dəniz Qüvvələri üçün zabit kadrları hazırlayan hərbi dənizçilik məktəblərinin də tədris fəaliyyətində böyük dəyişikliklər aparılmasını tələb edirdi. Məhz buna görə də həmin dövrdə XAHDM-i də öz tədris işlərini donanma zabitlərinin fəaliyyətinin əsas istiqamətlərinə uyğun şəkildə yenidən qurdu. Hərbi məktəblərdə aparılan dəyişikliklərlə əlaqədar olaraq, XAHDM-in tədris planlarında da dövrün tələbinə uyğun şəkildə dəyişikliklər edilmiş və tədris fənləri dörd əsas bölmədə qruplaşdırılmışdı. Bunlardan biri «İctimai elmlər» bölməsi idi. Bu bölmədə SSRİ-də sosializmin qurulmasının tarixi təcrübəsi; marksist-leninçi fəlsəfə; siyasi iqtisad; elmi kommunizm; hərbi pedaqogikanın və psixologiyanın əsasları; Silahlı Qüvvələrdə partiya-siyasi işlər daxil idi.

«Ümumi mühəndis fənləri» bölməsinə radioelektronikanın əsasları, hesablama texnikasının quruluşu və tətbiqi əsasları və bu ixtisasa uyğun olan digər fənlər daxil idi.

Məktəbin tədris planına əsasən, ayrı-ayrı ixtisas fakültələrində orta hesabla 35 fənn öyrənilirdi. Tədris planında nəzərdə tutulan dərs yükünün (2800 saat) əsas hissəsi – 65%-i ixtisas fənlərinin öyrənilməsinə verilmişdi.

Məktəbdə tədris prosesi 28 tədris planı, 919 fənn proqramı və 11 plan-proqram əsasında aparılırdı.

60-cı illərin ortalarında məktəbdə tədris işləri ilə 22 kafedra və 158 nəfər professor-müəllim heyəti məşğul olurdu.

70–80-ci illərdə məktəbin professor-müəllim heyəti tərəfindən 15 sanballı monoqrafiya hazırlanıb nəşr edilmişdir ki, onun da 9-u Moskvada «Hərbi nəşriyyat»da çap olunmuşdur. Bu dövrdə məktəbin professor-müəllim heyətindən elmin müxtəlif sahələri üzrə 1 nəfər doktorluq, 70 nəfərdən çoxu isə namizədlik dissertasiyaları müdafiə etmişlər. Məhz bu dövrdə də məktəbin «Elmi əsərlər»inin nəşrinə başlanmış və həmin məcmuədə ən aktual problemlərə həsr olunmuş məqalələr çap olunmuşdur. Həmçinin 1958-ci ildə məktəbdə təşkil olunmuş Səmərələşdirici və İxtiraçılar Komissiyasına 85 səmərələşdirmə təklifi daxil olmuşdur ki, onun da 70-i istehsalatda tətbiq edilmişdir.



*Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbində*

50-ci illərdə məktəbdə Müdavim Elmi dərnəkləri təşkil edilmişdi. Həmin dövrdə 12 dərnəkdə 160 nəfər müdavim fəal iştirak etdiyi halda, 1981/82-ci tədris ilində dərnəklərin sayı 33-ə, dərnəklərdə iştirak edən müdavimlərin sayı isə 1654 nəfərə çatmışdı.

1983/84-cü tədris ilində professor-müəllim heyətinin 21%-nin elmi dərəcəsi var idi, həmçinin müəllimlərin 60%-nin pedaqoji stajı 5 ildən az idi.

1991/92-ci tədris ilində XAHDM-in sonuncu – 50-ci buraxılışı oldu. Məktəbin fəaliyyəti dövründə 14,5 min nəfərdən çox zabit kadrları hazırlanmış, həmçinin Hərbi Dəniz Donanmasının bir neçə min zabit və starşinası müxtəlif kurslarda və siniflərdə təhsil almış və yenidən ixtisaslaşmışdır. Bundan başqa, XAHDM 30 ilə yaxın bir dövr ərzində Avropa, Asiya, Afrika və Latın Amerikasının 32 ölkəsinin Hərbi Dəniz Qüvvələri üçün 29 ixtisas üzrə 5 mindən çox hərbi-dəniz mütəxəssisləri hazırlamışdır. Məktəbin 100 nəfərdən çox məzunu sonralar ilk zabit rütbəsindən general və admiral rütbələrinə qədər şərəfli bir yol keçmişdir. Həmçinin məktəbin yüzlərlə məzunu birinci dərəcəli kapitan rütbəsinə layiq görülmüş və görkəmli alimlər olmuşlar. Məktəb məzunlarının 20 nəfəri yüksək fəxri rütbəyə – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər (onlardan 2 nəfəri iki dəfə). XAHDM-in məzunları arasında, az da olsa, azərbaycanlılar da var idi. Onlardan sualtı mütəxəssislərindən birinci dərəcəli kapitan Vaqif Quliyevin, ikinci dərəcəli kapitan Rabil Səfərovun adlarını fəxrlə qeyd etmək olar. Onlar ötən əsrin 70–80-ci illərində Şimal Donanmada yüksək vəzifələrdə işləmişlər. Kontr-admiral M.Əliyev hazırda Kamçatka Donanmada sualtı birləşmələrə komandanlıq edir.

70-ci illərin axırlarında XAHDM-in Muzeyi yaradılmışdır. Bu muzeyin zəngin eksponatlarında məktəbin yaranması tarixi, döyüş yolu, məktəbin tədris prosesinin inkişafı geniş şəkildə öz əksini tapmışdır ki, bu da müdavimlərin ideoloji və vətənpərvərlik ruhunda tərbiyə olunmasında başlıca rol oynayır.

SSRİ Hərbi Dəniz Donanması üçün zabit kadrlarının hazırlanmasında qazandığı böyük nailiyyətlərə görə XAHDM müharibədən sonrakı əmin-amanlıq dövründə bir neçə dəfə yüksək təltiflərə layiq görülmüşdür. O cümlədən 1968-ci ildə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə XAHDM Qırmızı Bayraq ordeni, 1979-cu ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı, 1980-ci ildə Azərbaycan SSR-in yaradılmasının 60 illiyi münasibətilə Azərbaycan KP MK-nın, Ali Sovetin Rəyasət Heyətinin, Nazirlər Sovetinin və Azərbaycan Həmkarlar İttifaqının Xatirə Qırmızı Bayrağı ilə təltif olunmuşdur. Həmçinin XAHDM xarici ölkələrin Hərbi Dəniz Qüvvələri üçün yüksək dərəcəli mütəxəssislər hazırladığına görə bir neçə ölkənin ən yüksək dövlət orden və bayraqları ilə də təltif olunmuşdur.

## Azərbaycan SSR Ali Soveti adına Bakı Birləşmiş Komandirlər Məktəbi

1939-cu ilin noyabrında SSRİ xalq müdafiə komissarının əmri ilə Qroznı şəhərində **Qroznı Hərbi Piyada Məktəbi** yaradılmışdır. 1942-ci ildə bu məktəb Bakı şəhərinə köçürülmüşdür.

1945-ci ildə SSRİ Silahlı Qüvvələri Baş Qərargah rəisinin direktivinə əsasən məktəbə Bakı Piyada Məktəbi adı verildi. Həmin vaxtadək Azərbaycandan ön cəbhəyə göndərilən 9000-dən çox zabit bu məktəbdə hazırlanmışdı.

Bakı Piyada Məktəbinin məzunlarından 22 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür ki, bunlardan da 3 nəfəri – Həzi Aslanov, Ziya Bünyadov və Aslan Vəzirov azərbaycanlıdır. 1941–1944-cü illər ərzində məktəbdə üç buraxılış olmuş, 1945-ci ildə isə buraxılış olmamışdır. Həmin ilin aprel ayından tədris ocağında üçillik proqram tətbiq olundu. 1947-ci ilin oktyabrında Bakı Piyada Məktəbində üçillik proqramla hazırlanmış kursantların ilk buraxılışı oldu.

1946-cı ilin may ayının 15-də Bakı Hərbi Dairəsi komandanının əmri ilə tam komplektləşdirilməsi üçün Kirovabad (Gəncə) Piyada Məktəbindən Bakı Piyada Məktəbinə 145 kursant, 10 zabit və müəllim köçürüldü.

Hərbi məktəbin Bakıda fəaliyyət göstərməsi milli zabit kadrlarının hazırlanmasına müəyyən mənada təsir göstərirdi. Belə ki, 1952-ci ilin məzunlarının 32%-i azərbaycanlı idi. Siyasi rejimin təsirini nəzərə alaraq, bu rəqəm o dövr üçün heç də pis göstərici deyildi.

Azərbaycan Ali Soveti Rəyasət Heyətinin 28 noyabr 1966-cı il tarixli Fərmanı ilə məktəb Azərbaycan SSR Ali Soveti adına Bakı Piyada Məktəbi, SSRİ müdafiə nazirinin 1966-cı il 22 dekabr tarixli əmrinə əsasən isə **Azərbaycan SSR Ali Soveti adına Bakı Birləşmiş Komandirlər Məktəbi** adlandırıldı.



**Valeh Bərşadlı (1927–1999)**

**Bərşadlı Valeh Əyyub oğlu** Bakı şəhərində anadan olmuşdur. Kiyev hərbi məktəbini (1948), Zirehli Tank Qoşunları Hərbi Akademiyasının komandirlik fakültəsini (1956) bitirmişdir. SSRİ silahlı qüvvələrində komandir vəzifəsində çalışmışdır. SSRİ Silahlı Qüvvələri Baş Qərargahının Hərbi Akademiyasını bitirmişdir (1969). Bakı Birləşmiş Komandirlər Məktəbinə rəis təyin edilmişdir (1977).

Azərbaycan Respublikasının müdafiə naziri olmuşdur (1991-ci il sentyabr–dekabr).

Xalqının taleyini düşünən böyük tarixi şəxsiyyət, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev məktəbdə azərbaycanlı zabit kadrların hazırlanmasını həmişə diqqət mərkəzində saxlayırdı. O, 1973-cü ilin aprel ayında Bakı Birləşmiş Komandirlər Məktəbində olmuş, təhsil müəssisəsinin fəaliyyəti ilə yaxından maraqlanmışdı. Respublika rəhbərinin bu gəlişi məktəbin dinamik fəaliyyəti üçün bir stimul oldu. Respublikada azərbaycanlı ali təhsilli hərbçi kadrların hazırlanması işinə böyük diqqət və qayğı ilə yanaşan Heydər Əliyev 1977-ci ildə general-mayor **Valeh Bərşadlının** Bakı Birləşmiş Komandirlər Məktəbinə rəis təyin edilməsinə nail oldu. Az vaxt ərzində məktəbdə təhsil alan kursantlar arasında azərbaycanlılar böyük əksəriyyət təşkil etdi.

## VI FƏSİL

# AZƏRBAYCANDA PEDAQOJİ MƏTBUATIN, ELMİ-PEDAQOJİ KİTABXANANIN, XALQ MAARİFİ MUZEYİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAFI

### Pedaqoji mətbuat

Azərbaycanda uzunömürlü pedaqoji mətbuat orqanları keçən əsrin 20-ci illərində yarandı. Həmin dövrdə Azərbaycanda yeni məktəb təhsilinin təşkili, onun məzmunu, təlim üsulları və digər maarif məsələləri üzrə ciddi tədbirlər həyata keçirilməyə başlandı. Məktəblərdə təlim-tərbiyə işinin təşkilinə rəhbərlik etmək, müəllimləri, tərbiyəçiləri yeni pedaqoji metodlarla tanış etmək, məktəb haqqında rəsmi dövlət sənədlərini (qərar və göstərişləri, təlimati məktubları) müəllimlərə çatdırmaq üçün pedaqoji mətbuatın yaradılması zərurəti yarandı. Azərbaycan XMK-sı bütün çətinliklərə (kağız qıtlığı, mürəttib və jurnalist kadrların olmaması) baxmayaraq, pedaqoji xarakterli mətbuat orqanlarının yaradılması təşəbbüsünü reallaşdırdı. **1920-ci ilin oktyabrında Azərbaycan XMK *«Xalq maarifi»* jurnalının nəşrinə başladı.** Təəssüf ki, jurnalın ancaq bir nömrəsi çap edildi.

**1923-cü ilin yanvarında yazıçı Tağı Şahbazinin redaktorluğu ilə nəşrə başlayan *«Maarif və mədəniyyət»* jurnalı pedaqoji mətbuatda canlanmaya səbəb oldu.** «Maarif və mədəniyyət» jurnalı Azərbaycan XMK-nın təşəbbüsü, daha doğrusu, kollegiyanın 1922-ci il oktyabr ayının 14-də keçirilmiş iclasının qərarı ilə yaradıldı, 1923–1927-ci illərdə Azərbaycan XMK-nın orqanı oldu. 1928-ci ilin yanvar ayından «Maarif və mədəniyyət» jurnalının adı dəyişdirilib «İnqilab və mədəniyyət» adlandırıldı və o, Azərbaycan Yazıçılar Cəmiyyətinin orqanına çevrildi.

Bütün məzmunu və mündəricəsi ilə pedaqoji mahiyyət daşıyan **elmi-pedaqoji və metodik jurnal *«Yeni məktəb»* olmuşdur. Jurnalın ilk sayı 1924-cü ilin aprelində nəşr edilmişdir.** Jurnal Azərbaycan XMK-nın elmi-metodik şurasının aylıq orqanı idi. Bu şura məktəblərə elmi-metodik rəhbərlik etməli, tədris proqramları və planları hazırlamalı, tədris kitabları və metodik rəhbərlik nəşri ilə məşğul olmalı idi. Jurnal pedaqoji, psixoloji, tərbiyə tarixi, tədris üsulu, metodoloji didaktika, fəlsəfə, ictimaiyyat, bədiiyyat, sənət və bunlar kimi yaxın elmləri müəllimin ixtisası dairəsində tədqiq və təhrir etməli, qabaqcıl təcrübəni yaymalı idi. «Yeni məktəb» jurnalının məsul redaktoru Mustafa Quliyev böyük inamla bildirirdi ki, jurnal hər bir pedaqoqun yaxın köməkçisi, bütün pedaqoji maarif ocaqlarını, texnikum və nümunə məktəblərini ruhən birləşdirən mərkəzi bir vasitə olacaq və müəllim heyətinin

yeniləşməsi ilə maarif ocaqlarının əsas məsələsi – zəhmət məktəbi təşkilatının, həqiqətən, vücuda gətirilməsinə rəhbərlik edəcəkdir. «Yeni məktəb» jurnalı «Maarif və mədəniyyət» məcmuəsinin bir sahəsinin – elmi-pedaqoji sahəsinin davamçısı idi. Jurnalın 1925-ci ildə nəşr olunan 1-ci sayında verilmiş yazıda oxuyuruq: *«Azərbaycanda müəllimlərə xidmət üçün xüsusi pedaqoji mətbuat («Yeni məktəb») bulunduğundan, «Maarif və mədəniyyət» məcmuəsində pedaqoji məqalələr dərc etmək daha əlverişli olmadığı üçün, təlim və tərbiyə qisminin qaldırılmasına qərar verildi. Yəni jurnalın «Təlim və tərbiyə» şöbəsi ləğv edildi. Ancaq nədənsə, uzun müddət «Azərbaycan məktəbi» jurnalının mənşəyi* ***«Maarif işçisi»*** *jurnalından götürülmüşdür. Azərbaycanda pedaqogika elminin inkişafına, sovet məktəbində təlim-tərbiyə işlərinin yenidən qurulmasına müəyyən xidmətlər göstərmiş «Maarif işçisi» (1925–1929) «Yeni məktəb» jurnalı ilə eyni vaxtda, paralel nəşr edilirdi. «Maarif işçisi» Maarif İşçiləri Həmkarlar İttifaqının orqanı idi. 1925-ci ilin mayından nəşr olunan jurnalın cəmi 42 sayı işıq üzü görmüşdür. Onun son sayı 1929-cu ilin martında nəşr olunmuşdur. Jurnalın redaktoru Pənah Qasımov idi. Jurnal pedaqogika, məktəbşünaslıq, metodika və məktəb həyatının işıqlandırılmasında, maarif işçilərinin ictimai-siyasi biliklərə yiyələnməsində mühüm rol oynamışdır». (bax: Rüstəmov F. Pedaqoji jurnalistika: təşəkkülü və inkişafı (1920–1991). Pedaqoji tədqiqatlar. Elmi məqalələr məcmuəsi. Bakı, APDU, 2004. səh.3).*

1924-cü ildən Azərbaycan XMK-nın rəsmi bülleteni də nəşr olunmuşdur ki, burada məktəb və maarifə dair rəsmi sənədlərlə yanaşı, məktəbdə təlim-tərbiyə işini düzgün qurmağa istiqamət verən təlimati məktublar da çap olunurdu. Məlum olduğu kimi, o zamanlar pedaqoji elmlərin nüfuzunun xeyli zəifləməsi, elmi-tədqiqat işlərində əlaqələndirilmənin olmaması yetişməkdə olan gənc nəslin təlim-tərbiyə işinə böyük ziyan vururdu. Bu səbəbdən də pedaqoji mətbuatın qarşısında qoyulan vəzifə həm mürəkkəb, həm də məsuliyyətli idi.

20-ci illərdə pedaqoji mətbuat Azərbaycanda mədəni inqilabın həyata keçirilməsində, savadsızlığın ləğvində, şagird özünüidarə təşkilatlarının yaradılmasında, müəllimlərin ideya-siyasi səviyyələrinin yüksəlməsində, təhsilin məzmununun təkmilləşdirilməsində, təlim üsullarının yeniləşdirilməsində müəllimlərə kömək etmiş, düzgün istiqamət vermiş, pedaqogika elminin təşəkkülündə və inkişaf prosesində mühüm rol oynamış, şagirdlərin ictimai-siyasi tərbiyəsi işlərinin təşkili məsələlərinin həyata keçirilməsində təşkilatçılıq və təbliğatçılıq missiyasını yerinə yetirmişdir.

30-cu illər ictimai-siyasi hadisələrin kəskin dəyişməsi, məktəb təhsilinə yeni tələblərin verilməsi, ümumi icbari təhsilin həyata keçirilməsi və digər pedaqoji problemlərlə səciyyəvidir. Bu dövr pedaqoji mətbuatın inkişafında, onun məzmununun genişlənməsində, təsir dairəsinin artmasında, tərbiyə nəzəriyyəsi ilə məktəb təcrübəsinin yaradıcı surətdə əlaqələndirilməsində, ictimai inkişafdan doğan yeni problemlərin nəzəri cəhətdən işlənilməsində və əməli cəhətdən tətbiq olunmasında, müəllimlərin elmi-pedaqoji

səviyyəsinin yüksəlməsində xüsusi bir mərhələdir. Pedaqoji problemlərlə məşğul olan elmi-tədqiqat və tədris-pedaqoji müəssisələrinin yaradılması, pedaqoji fikir sahəsində elmi-pedaqoji əlaqələrin genişlənməsi, yüksəkixtisaslı kadrların hazırlanması məsələləri, elmi-pedaqoji tədqiqatların yeni istiqamətlərinin formalaşması problemləri pedaqoji mətbuatda öz elmi-pedaqoji həllini tapırdı.

Bu dövrün pedaqoji problemləri ***«Müəllimə kömək»*** jurnalında («Yeni məktəb» jurnalı 1930-cu ilin noyabrından 1941-ci ilin noyabrınadək «Müəllimə kömək» adlanmışdır, 1933-cü ildə və 1941-ci ilin aprelindən 1943-cü ilin aprelinədək nəşr olunmamışdır), ***«Kommunist tərbiyəsi uğrunda»*** elmi-pedaqoji jurnalında və ***«Kommunist maarifi»*** qəzetinin səhifələrində elmi diskussiya materialına çevrilirdi. 1938-ci ilə kimi «Müəllimə kömək» jurnalı sırf metodik xarakter daşıyırdı, onun səhifələrində fənlərin tədrisi metodikası geniş yer tuturdu. Jurnalın 1930-cu ildə nəşr olunan birinci nömrəsindəki baş məqalədə yazılırdı: *«Məcmuənin məqsədi, bir tərəfdən I dərəcəli məktəblərdə qoyulan ümumi və metodik məsələləri aydınlaşdırmaq, digər tərəfdən yeni proqramlarda verilən materialları mövzular üzrə qrup üçün ayrıca olaraq təhlil edib məktəbdə tətbiq ediləcək surətdə müəllimlərə verməkdir». (bax: «Müəllimə kömək» j., 1930, №1, səh.3).*

«Müəllimə kömək» jurnalı mədəni inqilabın qələbəsindən ümumi icbari ibtidai təhsilin necə həyata keçirilməsindən, qabaqcıl təcrübənin öyrənilib yayılmasından, pedaqogika sahəsində qazanılan nailiyyətlərdən bəhs edən çox dəyərli məqalələr dərc etmişdir. Jurnal bu illərdə Aleksandr Makovelskinin, Boris Komarovskinin, Fətulla bəy Rzabəylinin, Abbasqulu Abbaszadənin, Cəmo Cəbrayılbəylinin, Bəylər Ağayevin, Mərdan Muradxanovun və başqalarının pedaqogika və psixologiya elminin müxtəlif məsələlərdən bəhs edən məqalələrini, Azərbaycan maarifpərvərlərinin pedaqoji fikirlərini oxuculara çatdırmaqla bərabər, görkəmli dövlət xadimləri Nadejda Krupskayanın, Mixail Kalininin məqalə və çıxışlarını, məşhur sovet pedaqoqlarının – Anton Makarenkonun, Anatoli Lunaçarskinin, Stanislav Şatskinin, Pavel Blonskinin əsərlərindən tərcümələrə də geniş yer vermişdir.

Pedaqoji mətbuatda aparılan diskussiyalar pedaqogikanın metodoloji məsələləri, pedaqogika və siyasət, pedaqogika və fəlsəfə problemləri, icbari ibtidai təhsilin həyata keçirilməsi ətrafında gedirdi. «Müəllimə kömək» jurnalı pedaqoji kollektivlər üçün qızıl fond hesab olunan qabaqcıl təcrübənin ümumiləşdirilməsində, qabaqcıl iş üsullarının geniş yayılmasında, metodiki xarakterli məsələlərin verilməsində fəaliyyətini genişləndirdiyi halda, «Kommunist tərbiyəsi uğrunda» məcmuəsi daha çox pedaqogikanın elmi-nəzəri problemlərinin şərhinə girişir, pedaqoji cərəyanların mahiyyətinin açılmasına çalışırdı.

«Kommunist tərbiyəsi uğrunda» məcmuəsinin ayda bir dəfə çıxması nəzərdə tutulmuşdu *(bax: Yeni məcmuə haqqında bir neçə söz. «Kommunist tərbiyəsi uğrunda» məcmuəsi, 1930, №1–2, səh.5).*

Azərbaycan XMK-nın tədris-metodik şöbəsinin orqanı olan məcmuənin ilk nömrəsi 1930-cu ilin noyabr-dekabr (№1–2) ayında

nəşr olundu. Məcmuənin ilk sayında «Yeni məcmuə haqqında bir neçə söz» adlı baş məqalədə onun məqsəd və məramı açıqlanmış, pedaqoji ədəbiyyatda əmələ gələn təbəddülat olduqca əhəmiyyətli hadisə hesab olunmuş, qarşıya qoyulmuş məsələ çox məsuliyyətli və mürəkkəb vəzifə kimi səciyyələndirilmişdi. Jurnalda verilən məlumata görə, bu mətbuat orqanı «Yeni məktəb» jurnalının davamı kimi nəzərdə tutulmuşdu. Baş məqalədə «Yeni məktəb» jurnalının adının dəyişdirilərək «Kommunist tərbiyəsi uğrunda» adlandırılmasının səbəbi aşağıdakı kimi əsaslandırılmışdı: *«Məcmuə 1924-cü ildə «Yeni məktəb» adı ilə ortaya çıxdı. İndiyə qədər bu adı daşımışdır. Diqqət edilsə, daşıdığı ad ilə jurnalın mündərəcatı daha o zamandan uyğunlaşmırdı. Həmin ildən, pedaqojinin obyekti artıq uşaq deyil, bütün kütlə olmağa başladı. Sonralar isə məktəbəqədər və məktəb xaricində tərbiyə və təhsil şura pedaqojisinə daxil oldu. «Yeni məktəb» adı isə bu geniş məsələlər sahəsini zor ilə dörd divar arasına sıxışdırmaq idi. Həmin ad dardır. Yeni pedaqoji məqsəd və mündəricatı qavrayan isə «Kommunist tərbiyəsi uğrunda»dır (bax: «Kommunist tərbiyəsi uğrunda» məcmuəsi, 1930, №1–2, səh.3.).*

Diqqəti cəlb edən cəhət «Kommunist tərbiyəsi uğrunda» elmi-pedaqoji məcmuəsi ilə paralel olaraq «Yeni məktəb» jurnalının davamı kimi «Müəllimə kömək» jurnalının nəşridir. Hər iki jurnal 1930, 1931, 1932, 1934-cü illərdə paralel olaraq çap edilmişdi. Təəssüf doğuran cəhət isə pedaqoji mətbuat tarixindən yazanların heç birinin «Kommunist tərbiyəsi uğrunda» elmi-pedaqoji məcmuəsinə toxunmaması, onun haqqında, hətta Azərbaycan Sovet Ensiklopediyasında qısa bir məlumatın verilməməsidir. Halbuki jurnalı cəsarətlə dövrünün *pedaqoji ensiklopediyası və ya pedaqogika dərsliyi* adlandıra bilərik.

Dövrün aparıcı pedaqoq-alimləri Aleksandr Makovelski, Boris Komarovski, Mikayıl Rəhimli, Abdulla bəy Əfəndizadə, Ə.Hacızadə, Ə.Kazımzadə, N.M.Maqarik, Xəlil Fikrət, Surxay Hacıyev, Saleh Xəlilov, Veysəl Mustafayev, Ə.Hüseynov, Ə.Qasımzadə və b. məcmuədə ardıcıl çıxış etmiş, Azərbaycanda pedaqoji elmlərin yeni istiqamətdə inkişafını təmin etmişlər. Məcmuədə daha çox sovet məktəbinin məqsəd və vəzifələri, politexnizmin mahiyyəti, pedaqoji cərəyanların təsnifatı, pedaqogika və siyasət, pedaqogika və fəlsəfə, xarici ölkələrdə məktəb və pedaqoji fikir, böyüyən nəslin tərbiyəsi, qabaqcıl pedaqoji təcrübənin öyrənilməsi, məktəbşünaslıq, məktəbin iş metodları və digər problemlər şərh edilmişdir.

1930–1934-cü illərdə fəaliyyət göstərən məcmuə, Mikayıl Rəhimlinin təbirincə desək, «qüvvətli müəllimə praktiki işdə yaxından yardım ola bilmək, müəllimə pedaqoji ustalığı əldə etmək işində konkret rəhbərlik etmək məqsədilə» sistemli iş aparmış, bir sözlə, «Azərbaycan müəllimlərinə sistematik yardım göstərmiş, tədris işi keyfiyyəti uğrunda, «məktəbin ölüm» nəzəriyyəsini ortaya atmış «sol» əyintilərə qarşı amansız mübarizə aparmış, yerli pedaqoji praktiki işləri hesaba almaq və öz səhifələrində nəşr etmək üçün» *(bax: «Kommunist tərbiyəsi uğrunda», 1933, №1–2, səh.41)* əməli fəaliyyət göstərmişdir.

«Kommunist tərbiyəsi uğrunda» jurnalı özünün olduqca kəskin çıxışları ilə «məktəbin ölməsi» barəsində yalançı elmin qalıqlarına, hər cür pedaqoji təhriflərə qarşı mübarizə aparmış, bir elm sahəsi kimi pedaqogikanın və bir peşə sahibi kimi pedaqoqun hüquqlarının tamamilə bərpa edilməsinə, pedaqogika və psixologiyanın vacib problemlərinin işlənməsi uğrunda mübarizənin gücləndirilməsinə çalışmışdır. 20-ci illərin ikinci yarısında və 30-cu illərin əvvəllərində pedaqoji elmlərin nüfuzunun zəifləməsi elmi-tədqiqat işlərində əlaqələndirmənin olmaması yetişməkdə olan gənc nəslin təlim-tərbiyə işinə böyük ziyan vururdu. Bu səbəbdən də elmi-nəzəri orqan olan bu jurnalın qarşısında qoyulan vəzifə həm mürəkkəb, həm də məsuliyyətli idi.

Azərbaycanda pedaqoji elmlərin inkişafında, təhsilin nəzəri və praktik problemlərinin həllində «Azərbaycan müəllimi» qəzetinin də xüsusi mövqeyi vardır. «Azərbaycan müəllimi» qəzetinin nəşri xalq maarifimizin 30–90-cı illər inkişaf tarixi ilə qırılmaz surətdə bağlıdır.

30-cu illərdə nəşrə başlayan qəzet ildən-ilə öz fəaliyyətini genişləndirmiş, respublikamızda «maarif və məktəbin aynası» olmuşdur. **Qəzetin ilk nömrəsi 1934-cü ilin sentyabrın 2-də «Kommunist maarifi» adı ilə nəşr olunmuşdur.** Onun nəşri pedaqoji fikrin inkişafına təkan vermiş, çoxmillətli müəllimlər və xalq maarifi işçilərinin pedaqoji tribunasına çevrilmişdir. «Kommunist maarifi» ilk gündən xalq maarifinin dəyərinin yüksək pilləyə qaldırılması, məktəbdə təlimin keyfiyyətinin yüksəldilməsi, yeni insan tərbiyəsi, müəllimlərin materialist dünyagörüşünə yiyələnməsi uğrunda maarif işçilərinin həqiqi və kütləvi təbliğatçısı, təşviqatçısı və təşkilatçısı missiyasını yerinə yetirmişdir.

Qəzet 1938-ci ildən 1941-ci ilin iyulunadək ***«Müəllim qəzeti»*** adı ilə nəşr olunmuş, 1941-ci ilin iyulundan 1946-cı ilin aprelinədək çap edilməmiş, 1946-cı ilin aprelindən isə «Azərbaycan müəllimi» kimi fəaliyyətini davam etdirmişdir. 1958-ci ilin fevralınadək həftəlik olan qəzet, sonralar həftədə 2 dəfə buraxılmışdır.

***«Azərbaycan müəllimi»*** qəzeti təhsil sistemi işçilərinin etibarlı köməkçisi kimi müəllimlərin yeni məktəb quruculuğu işinə, böyüyən nəslin tərbiyəsinin həyata keçirilməsinə cəlb edilməsində mühüm rol oynamış, ümumi icbari yeddiillik, səkkizillik, 70–80-ci illərdə isə ümumi orta təhsilin həyata keçirilməsində fəal iştirak etmiş, müəllimlərə nəzəri, metodik və praktik cəhətdən faydalı materiallar vermiş, pedaqoji ictimaiyyətin qüvvəsini məktəb və maarifin tərəqqisinə, vahid əmək və politexnik məktəbin tələblərini həyata keçirməyə istiqamətləndirə bilmişdir.

«Azərbaycan müəllimi» qəzetində tanınmış görkəmli pedaqoq-alimlər (Mehdi Mehdizadə, Əhməd Seyidov, Mərdan Muradxanov, Nurəddin Kazımov, Hüseyn Əhmədov, Əliheydər Həşimov, Yusif Talıbov və b.), məktəb direktorları (Zahid Şöyübov, Aliyə Təhmasib) pedaqoji əməyin ustaları olan müəllimlər, metodistlər, xalq təhsili işçiləri çıxış etmiş, pedaqogika elmini zənginləşdirən maraqlı ideyalar, nəzəri fikirlər irəli sürmüş, məktəbin yenidən qurulmasının mühüm



**Şahin Səfərov (1928–1995)**

**Səfərov Şahin Tağı oğlu** Naxçıvan MR Şərur rayonunun Qarabağlar kəndində anadan olmuşdur. İkiillik Naxçıvan Müəllimlər İnstitutunu və Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsini bitirmişdir. «Xəzər» dənizçilik qəzetində müxbir (1952), «Azərbaycan müəllimi» qəzetində ədəbi işçi, şöbə müdiri, redaktor müavini, baş redaktoru (1974–1992) vəzifələrində çalışmışdır. «Azərbaycan dünyası» Beynəlxalq Əlaqələr Mərkəzi Nəşriyyatının direktoru (1993), «Şəhriyar» qəzetinin redaktoru vəzifəsində işləmişdir (1994–1995).

Namizədlik (1969), doktorluq (1983) dissertasiyası müdafiə etmiş, professor elmi adı (1987) almışdır.

15 kitabın, 300-ə qədər məqalə və publisistik yazının müəllifidir.

problemlərini müzakirə etmiş, elmi diskussiyalar açmışlar. Qəzetdə məktəb rəhbərlərinin işinin xüsusiyyətləri, şagird özünüidarəsinin inkişafı, məktəbin bütün həyatının demokratikləşdirilməsi kimi problemlər də geniş işıqlandırılmışdır.

30-cu illərdə mətbuat tariximizdə pedaqoji biliyin təfəkkür mərkəzi rolunu oynayan «Müəllimə kömək», «Kommunist tərbiyəsi uğrunda», «Kommunist maarifi» kimi pedaqoji mətbuat orqanları ilə yanaşı, ayrı-ayrı elmi məcmuələr də nəşr olunurdu. Hətta Ermənistanda və Dağıstanda yaşayan və fəaliyyət göstərən müəllimlər də unudulmamışdı. Onlara metodiki kömək göstərmək məqsədilə İrəvanda «Müəllimə yardım», Mahaçqalada «Kommunist maarifi» məcmuələri nəşr olunurdu.

Pedaqoji mətbuat məktəb quruculuğunun və inkişafının bütün mərhələlərində, pedaqogika elminin təşəkkülü və inkişafı prosesində – mədəni inqilabın həyata keçirilməsində, savadsızlığın ləğvində, ümumi icbari ibtidai, yeddiillik və səkkizillik, habelə ümumi orta təhsilin başa çatdırılmasında, təlim-tərbiyənin məzmun, forma və metodlarının təkmilləşdirilməsində, şəxsiyyətin hərtərəfli, ahəngdar inkişafının əsası kimi politexnik təhsil, təlimlə məhsuldar əməyin birləşdirilməsi ideyasının tətbiq olunmasında yaxından iştirak etmiş, müəllimlərə, xalq maarif işçilərinə istiqamət vermişdir.

Pedaqoji təfəkkürün xəzinəsi olan pedaqoji mətbuatın (xüsusilə ***«Azərbaycan məktəbi»*** jurnalının) Azərbaycanda pedaqoji fikrin inkişafında, dünyanın klassik pedaqoqlarının (Yan Amos Komenski, Jan Jak Russo, Con Lokk, Adolf Disterveq və b.), Azərbaycanın görkəmli maarifçilərinin (Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Firidun bəy Köçərli, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Nəriman Nərimanov və b.), yazıçı və şairlərinin (Nizami Gəncəvi, Nəsimi, Şah İsmayıl Xətai, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Mirzə Ələkbər Sabir və b.) pedaqoji fikir və ideyalarının təbliğində, xalqımızın zəngin mədəniyyət tarixinin ayrılmaz hissəsi olan məktəb və pedaqoji fikir tarixinin müxtəlif problemlərinin araşdırılmasında xidmətləri təqdirəlayiqdir.

30-cu illərdə məktəbdə politexnik təlim, əmək təlimi və peşəyönümü məsələləri, yeni proqramlara keçidin səbəbləri, mahiyyəti, əhəmiyyəti, onların politexnik xarakteri pedaqoji mətbuatın ana xəttini təşkil edirdisə, 40–50-ci illərdə pedaqoji mətbuat aktual

pedaqoji, psixoloji və metodik problemlərin şərhinə, aparılan elmi-tədqiqatların mühüm nəticələrinin müəllimlərə çatdırılmasına, pedaqogika elminin nailiyyətləri ilə onların tanış edilməsinə xüsusi diqqət yetirilmiş, respublikada pedaqoji fikrin daha da inkişaf etməsi üçün digər region və ölkələrin pedaqoji fikir və təcrübələrinə öz səhifələrində geniş yer vermişdir, ən yaxşı məqalələri tərcümə edərək dərc etmişdir.

Respublikada fənlərin tədrisi metodikası bir elm kimi 50-ci illərdən inkişaf etməyə başlamışdır. Bu dövrdə bütün fənlər sahəsində elmi axtarışlar genişlənmiş, təlim üsulları, fənlərin tədrisinin elmi əsaslar üzrə qurulması məsələləri metodist alimlərin tədqiqat obyektinə çevrilmişdir. Bütün bu axtarışların nəticələri daha geniş mətbuat vasitəsi ilə məktəblərə çatdırılmalı idi. 20–40-cı illərdə nəşr olunan müxtəlif pedaqoji mətbuat orqanları fənlərin tədrisi metodikasına aid nəzəri materiallara geniş yer versələr də, bu, tələbatı ödəmirdi. Həmin səbəbdən də müəllimlərə metodik cəhətdən daha yaxşı kömək etmək məqsədilə «Azərbaycan məktəbi» jurnalına əlavə olaraq məcmuələrin nəşr edilməsinə başlanıldı.

1947-ci ildə **«Русский язык в нерусской школе»** məcmuəsinin ilk nömrəsi çap olundu. 1970-ci ildə **«Русский язык и литература в Азербайджанской школе»** adlanan məcmuə 1979-cu ildən müstəqil jurnala çevrildi. 1951-ci ildən **«Azərbaycan dili və ədəbiyyat tədrisi»** (redaktorları Ağamməd Abdullayev, Əziz Əfəndizadə), **«Fizika və riyaziyyat tədrisi»** (redaktorları Abbasqulu Abbaszadə, Zahid Qaralov), 1956-cı ildən




*Azərbaycanda nəşr olunan pedaqoji mətbuat nümunələri*

«Kimya və biologiya tədrisi» (redaktoru Rəcəb Əliyev), 1958-ci ildən **«Əmək və politexnik təlim»** (redaktoru İbrahim Mayılov), 1964-cü ildən **«Tarix, ictimaiyyət və coğrafiya tədrisi»** (redaktoru Nizaməddin Allahverdiyev), 1970-ci ildən **«İbtidai məktəb və məktəbəqədər tərbiyə»** (redaktoru Yəhya Kərimov), 1975-ci ildən **«Məktəbdə bədən tərbiyəsi»** (redaktoru Baloğlan Quliyev) məcmuələri nəşr olunmuşdur.



**Əjdər Ağayev (1937)**

**Ağayev Əjdər Abdulhüseyn oğlu** Salyan rayonununda anadan olmuşdur. ADPİ-nin Tarix-filologiya fakültəsini (1960), Azərb. AETPEİ-nin aspiranturasını (1969) bitirmişdir. Namizədlik (1970), doktorluq dissertasiyası (1996) müdafiə etmişdir. Azərb. AETPEİ-də şöbə müdiri (1970–1974), «Azərbaycan məktəbi» jurnalında baş redaktor (1974–1981) vəzifələrində çalışmışdır.

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun şöbə müdiri, Azərbaycan Təhsil Şurasının sədri, «Təhsil və zaman» qəzetinin baş redaktoru, Respublika Prezidentinin fərdi təqaüdçüsü, əməkdar müəllimdir.

10-dan artıq monoqrafiya və dərsliyin, 300 elmi pedaqoji-publisistik məqalənin müəllifidir.



**Zəhra Əliyeva (1928–2006)**

**Əliyeva Zəhra Cabbar qızı** İrəvan şəhərində anadan olmuşdur. İrəvan Pedaqoji Texnikumunu bitirmiş (1944), İrəvan Pedaqoji İnstitutunun Azərbaycan dili və ədəbiyyat fakültəsinə daxil olmuş (1946), azərbaycanlıların Ermənistandan deportasiyası ilə əlaqədar təhsilini APİ-də davam etdirmişdir. Bir müddət Bakı məktəblərində müəllim işləmiş, Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur (1961). Namizədlik dissertasiyası müdafiə etmişdir (1966).

Azərbaycan Respublikasının Maarif Nazirliyində inspektor (1968–1972), baş məktəblər idarəsinin rəisi (1972–1981), «Azərbaycan məktəbi» jurnalının baş redaktoru (1981-2006) vəzifələrində çalışmışdır.

15 dərslik, dərs vəsaitinin və 60-dan çox məqalənin müəllifidir.

Əlavə metodik məcmuələrin yaranması respublikada pedaqoji fikrin inkişaf spektrlərini genişləndirməklə yanaşı, fənlərin tədrisi metodikasının bir elm kimi inkişafının stimuluna çevrildi. Xüsusi metodikalar üzrə yeni ideyaların əsas daşıyıcıları olan əlavə metodik məcmuələr pedaqoji mətbuatın zənginləşməsində, mündəricəsinin genişlənməsində mühüm rol oynamaqla yanaşı, respublikada ən yaxşı müəllimlərin zəngin iş təcrübəsinin sistemli əks olunmasında, ümumiləşdirilməsində, qabaqcıl təcrübə ilə elmi ideyaların birləşməsinin təmin edilməsində öz missiyasını uğurla həyata keçirdi. Zəngin təcrübə xəzinəsi olan bu məcmuələr pedaqogika nəzəriyyəçilərinin əsas elmi ideya mənbəyi olmuş, minlərlə müəllimin işini istiqamətləndirmiş, fəaliyyətini tənzimləmişdir.

Məcmuələrin nəşrinə qədər (xüsusilə 30–40-cı illərdə) «Azərbaycan məktəbi» jurnalında müəllimlərə, əsasən metodik göstərişlər verilirdi, yəni daha çox metodik xarakter daşıyan məqalələr dərc olunurdu, məcmuələrin nəşrindən sonra jurnalın imkanları genişləndi, elmi-nəzəri, pedaqoji-psixoloji məsələlər üstünlük təşkil etdi. Yeni elmi qüvvələrin formalaşmasına, püxtələşməsinə şərait yarandı, yeni imzaların sayı artdı. Cəsarətlə demək olar ki, pedaqoq-alimlərin hamısı «Azərbaycan məktəbi» jurnalının «cildləri arasından çıxmışdır».

Jurnalın səhifələrində SSRİ EA-nın həqiqi üzvü, vitse-prezidenti Yuriy Babanski, akademiklər E.İ.Monosson, D.B.Elkonin, Mehdi Mehdizadə, P.M.Yakobson, A.B.Petrovski və P.R.Atutovun, həmçinin Azərbaycanın görkəmli pedaqoq və psixoloqlarının (Abbasqulu Abbaszadə, Əhməd Seyidov, Əhməd Kərədi Zəkuzadə, Mərdan Muradxanov, Camal Əhmədov, Hüseyn Əhmədov, Əziz Əfəndizadə,



*Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvləri professorlar Z.İ.Ravkin və Hüseyn Əhmədov «Azərbaycan məktəbi» məcmuəsinin redaksiya heyəti ilə görüş zamanı*

Nurəddin Kazımov, Bəşir Əhmədov, Yusif Talıbov, Əliheydər Həşimov, Zahid Qaralov, Əjdər Ağayev, Süleyman Zeynalov, Əkbər Bayramov, Əbdül Əlizadə, Muxtar Həmzəyev, Məhəbbət Nəcəfov, Zəkəriyyə Mehdizadə və b.), SSRİ və Azərbaycan SSR Maarif Nazirliklərinin, yerli xalq maarif orqanlarının, məktəb rəhbərləri və müəllimləri, məktəbəqədər və məktəbdənkənar tərbiyə müəssisələri, rəhbər partiya, sovet, komsomol işçilərinin məqalələri dərc olunmuşdur.

70–80-ci illərdə 12 fənni, ibtidai və orta məktəb, məktəbəqədər tərbiyə məsələlərini əhatə edən 7 məcmuə müntəzəm yeniləşdirilən və təkmilləşdirilən tədris planı, proqramları, dərsliklər və metodik vəsaitlərin məzmununun mənimsənilməsində, müasir dərsin, təlim-tərbiyə prosesinin səmərəli təşkilində, mütərəqqi metod və üsulların tətbiqində praktiklərin ən yaxın köməkçisi olmuşdur.

80-ci illərdə əlavələri ilə birlikdə 200 çap vərəqi həcmində və 700 min nüsxəyə yaxın tirajla nəşr olunan «Azərbaycan məktəbi» jurnalında və «Azərbaycan müəllimi» qəzetində aparıcı xətti məktəbdə təlimin, əmək tərbiyəsi və mənəvi tərbiyənin keyfiyyətini

yüksəltmək, şagirdləri ictimai-faydalı əməyə hazırlamaq, böyüyən nəsildə fəal həyat mövqeyi tərbiyə etmək təşkil etmişdir. Aktual pedaqoji, psixoloji və metodiki problemlərin şərhi, elmi tədqiqatların ən mühüm nəticələrinin pedaqoji ictimaiyyətə çatdırılması sahəsində vəzifələrin yerinə yetirilməsində fəal iştirak edən pedaqoji mətbuat, şərəfli inkişaf yolu keçmiş, respublikada xalq maarifinin salnaməsinə çevrilmişdir. Didaktika, tərbiyə nəzəriyyəsi, məktəbşünaslıq və pedaqogika tarixi sahəsində aparılan elmi-pedaqoji axtarışlar, yeniliklər məhz pedaqoji mətbuatın köməyi ilə təbliğ olunmuşdur.

Rüstəm Hüseynov, Əkbər Mirzəyev, Əjdər Ağayev, Zəhra Əliyeva «Azərbaycan məktəbi» jurnalının, Ağaəli Bədəlov, Mirabbas Aslanov, Şahin Səfərov isə «Azərbaycan müəllimi» qəzetinin baş redaktorları kimi Azərbaycanda pedaqoji jurnalistikanın inkişafında mühüm xidmətlər göstərmişlər.

Sovet hakimiyyəti illərində Azərbaycanda uşaq mətbuatının inkişafına da xüsusi diqqət yetirilmiş, ***«Azərbaycan pioneri»*** qəzeti (1927), ***«Pioner»*** (1927), ***«Göyərçin»*** (1958), ***«Gənclik»*** (1988) jurnalları nəşr olunmuşdur. Bu mətbuat orqanları, həm də o dövrdə fəaliyyət göstərən müxtəlif nəşriyyatların («Gənclik» və «Maarif») çap etdiyi elmi-bədii, publisistik əsərlər uşaq və gənclərin təlim-tərbiyəsində, onların yüksək əqidəli şəxsiyyət kimi formalaşmasında müəyyən rol oynamışdır.




***«Maarif»*** nəşriyyatı 1960-cı ildə «Azərnəşr»in tədris-pedaqoji ədəbiyyatı redaksiyası əsasında yaradılmışdı. Nəşriyyat orta ümumtəhsil, ali, orta ixtisas və texniki peşə məktəbləri üçün dərslik, metodik vəsait, elmi-kütləvi ədəbiyyat, məktəb kitabxanaları üçün bədii əsərlər, rus dili və xarici dilləri öyrənənlərə kömək seriyasından kitabçalar, əyani vəsait, məktəb proqramları nəşr etmişdir.

### Respublika Elmi Pedaqoji Kitabxanası

Respublika Elmi Pedaqoji Kitabxanası (REPK) Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 24 iyun 1982-ci il tarixli birgə qərarına əsasən yaradılmış və Maarif Nazirliyinin tabe-liyinə verilmişdır.

Respublika Elmi Pedaqoji Kitabxanasında ilk vaxtlar 4 şöbədə 39 nəfər işçi fəaliyyət göstərirdi:

- elmi komplektləşdirmə, kitabişləmə, kataloqlaşdırma və kitab mübadiləsi;
- elmi məlumat və biblioqrafiya;
- oxuculara xidmət;
- elmi metodik şöbə.

1983-cü ildə Maarif Nazirliyi Respublika Elmi Pedaqoji Kitabxanasının Əsasnaməsini təsdiq etdi. Əsasnamədə göstərilirdi ki, Respublika Elmi Pedaqoji Kitabxanası elmi sahəvi kitabxanadır. Respublikanın təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən müəssisələrə, Nazirliyin kitabxana şəbəkəsinə məlumat-biblioqrafiya xidmətini həyata keçirən elmi-metodik və əlaqələnirmə mərkəzidir. REPK vahid elmi-pedaqoji məlumat sisteminə daxildir. Respublikada elmi-pedaqoji ədəbiyyatın əsas kitabsaxlayıcısıdır.

Elə həmin il **Tamilla İsmixanova** maarif nazirinin əmri ilə Respublika Elmi Pedaqoji Kitabxanasına direktor təyin edildi.

Kitabxana ilk vaxtlar 161№-li məktəbin birinci mərtəbəsində kiçik bir sahədə, 1985-ci ildən isə Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun doqquzmərtəbli binasının 2-ci mərtəbəsində 1,5 min $m^2$ sahədə yerləşdirildi və özünün bütün strukturlarını yaradaraq geniş fəaliyyətə başladı.



**Tamilla İsmixanova (1942)**

**İsmixanova Tamilla Əşrəf** qızı İrəvan şəhərində anadan olmuşdur. 1948-ci ildə məcburi deportasiya nəticəsində ailəsi Bakı şəhərinə köçürülmüşdür. Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsində təhsil almışdır (1961–1966). Maarif Nazirliyinin təyinatı ilə Mirzə Fətəli Axundov adına Respublika Dövlət Kitabxanasında kitabxanaçı (1967). Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyasında redaktor-biblioqraf (1967–1979). Azərbaycan Təmir Tikinti İdarəsində kadrlar üzrə baş inspektor vəzifələrində işləmişdir (1979–1981). Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunda kitabxana müdiri vəzifəsində işləmişdir (1982).

1983-cü ildən Respublika Elmi-Pedaqoji Kitabxanasının direktoru vəzifəsində çalışır.

1983-cü ildə Respublika Elmi Pedaqoji Kitabxanasına III dərəcəli kitabxana statusu verildi Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İnstitutunun və Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun kitabxanaları Respublika Elmi Pedaqoji Kitabxanasının filiallarına çevrildi. Həmin filiallar 1993-cü ilə qədər fəaliyyət göstərdi.

80-ci illərdə kitabxana işinin yaxşılaşdırılması ilə bağlı qəbul edilmiş bir sıra qərarlar, görülən tədbirlər, SSRİ-nin müxtəlif şəhərlərinin əsaslı kitabxanaları ilə elmi və mədəni əlaqələr Respublika Elmi Pedaqoji Kitabxanasının fəaliyyətinə müsbət təsir göstərmiş, onun bir sıra nailiyyətlər əldə etməsinə səbəb olmuşdur. Bu sahədə kitabxana fondunun dinamik inkişafı daha çox diqqəti cəlb edir.

*Respublika Elmi Pedaqoji Kitabxanasının 1983–1986-cı illərə aid əsas göstəriciləri*

| № | Göstəricilər | İllər | | | |
|---|---|---|---|---|---|
| | | 1983 | 1984 | 1985 | 1986 |
| 1. | Fondun miqdarı | 6570 | 33982 | 74246 | 113469 |
| 2. | O cümlədən kitablar: | 5449 | 29.668 | 69662 | 93408 |
| | Elmi-metodiki | 1942 | 12241 | 24599 | 31174 |
| | Bədii | 1333 | 10898 | 26254 | 36130 |
| | Tədris | 621 | 2635 | 3870 | 4693 |
| | Mikrodaşıyıcılar | 512 | 1980 | 3166 | 3742 |
| | Digər | 1042 | 1914 | 11773 | 17669 |
| | Qəzet və jurnallar | – | 1110 | 1405 | 9.374 |
| | Digər çap məhsulları | 1121 | 3204 | 3179 | 10687 |
| 3. | Oxucuların sayı | – | – | – | 11220 |
| 4. | Kitab verilişi | – | – | – | 145426 |

Cədvəldən görünür ki, 1983–1986-cı il-lərdə kitabxananın fəaliyyəti üçün normal şəraitin olmadığına görə Respublika Elmi Pedaqoji Kitabxanası oxucu qəbul edə bil-məmişdir, lakin həmin müddətdə kitab fondunun formalaşması istiqamətində səmərəli işlər görülmüşdür.

1986-cı ildən isə oxucuların kitabxanaya cəlb edilməsində və onlar arasında elmi-pedaqoji ədəbiyyatın təbliği sahəsində çox böyük işlər görülmüşdür. Belə ki, 1983-cü ildə Respublika Elmi Pedaqoji Kitabxanasının fondunda 6570 nüsxə kitab və digər ədəbiyyat var idisə, 1986-cı ildə onların sayı 113469 nüsxəyə çatmışdı.

Respublika Elmi Pedaqoji Kitabxanası çoxsaylı qiyabi oxuculara kitabxana-biblioqrafiya xidməti göstərmişdir. Oxucuların tələbatının ödənilməsi Kitabxanalararası Abonement (KAA) vasitəsilə təmin edilirdi.

Oxuculara xidmət işinin düzgün təşkili kitabxana fonduna 300 mindən çox ədəbiyyatın əlavə edilməsinə, onun sistemləşdirilməsi, elmi-texniki cəhətdən işlənməsi və mühafizəsinə imkan yaratmışdı.

Respublika Elmi Pedaqoji Kitabxanası respublika sahəvi kitabxanaları arasında yeganə kitabxana idi ki, 80-ci illərdə SSRİ-də nəşr olunan pedaqoji ədəbiyyatların məcburi nüsxələrini alırdı. Eyni zamanda Moskvadan mikrolent və mikrofişlərdəki materiallar əldə edilirdi. Respublika Elmi Pedaqoji Kitabxanasının fondunda avtoreferatlar, dissertasiyalar, pedaqogika və psixologiya sahələrinə aid elmi-tədqiqat hesabatları, mikrolent və mikrofişlərdə olan materiallar, habelə XIX–XX əsrlərdə nəşr olunmuş ədəbiyyat və digər nəşrlər toplanırdı. Burada Azərbay-can, rus və xarici ədəbiyyat fondu, qəzet və jurnal fondları təşkil olunmuşdu. Kitabxana əməkdaşları bu fondları əks etdirən mükəmməl *baş*, *əlifba* və *sistemli* kataloq yaratmağa nail olmuşdular.

Həmin illərdə Respublika Elmi Pedaqoji Kitabxanası məktəb kitabxanalarının fəaliyyətləri haqqında məlumatları toplayıb təhlil etməyə və onların kartotekasını yaratmağa başlamışdı. Kartotekaların hazırlanması respublikadakı məktəb kitabxanaları haqqında, onların problemləri barədə ilkin məlumatı əldə etməyə imkan verirdi.

Kitabxananın metodistləri müntəzəm olaraq ezamiyyələrə gedərək regionların ümumtəhsil məktəblərinin kitabxanalarının vəziyyəti ilə yaxından tanış olmuş, onlara metodik köməklik göstərmişlər.

Dağlıq Qarabağ Muxtar Vilayəti ermənilər tərəfindən işğal olduqdan sonra bu ərazi ilə əlaqə kəsildi. Dağlıq Qarabağın Martuni, Mardakert, Əsgəran, Xankəndi, Hadrut, Şuşa rayonlarında 126 məktəb və onların 904410 nüsxə kitab fondu olan kitabxanaları işğal altında qaldı.

*Dağlıq Qarabağ Muxtar Vilayətində məktəb kitabxanalarının fondu*

| № | Adları | Ümumi kitab fondu | O cümlədən: | | |
|---|---|---|---|---|---|
| | | | bədii ədəbiyyat | siyasi ədəbiyyat | metodiki ədəbiyyat |
| 1. | Martuni | 109798 | 53973 | 51083 | 4742 |
| 2. | Mardakert | 117789 | 94523 | 15703 | 7563 |
| 3. | Əsgəran | 64384 | 43822 | 10305 | 10257 |
| 4. | Stepanakert (Xankəndi) | 113520 | 80497 | 15023 | 18000 |
| 5. | Hadrut | 51295 | 41760 | 6275 | 3260 |
| 6. | Şuşa | 71479 | 22393 | 47371 | 1715 |
| **Cəmi:** | | **528265** | **336968** | **145760** | **45537** |

Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin **«Ümumtəhsil, internat və texniki peşə məktəbləri kitabxanalarının attestasiyası haqqında»** 1990-cı il 2 fevral tarixli əmrinə müvafiq olaraq Respublika Elmi Pedaqoji Kitabxanası 1990/91-ci tədris ilində ilk dəfə olaraq məktəb kitabxanaçılarının attestasiyasını keçirmişdi.

Qeyd etmək lazımdır ki, məktəb kitabxanaçılarının attestasiyası SSRİ məkanında ilk dəfə olaraq respublikamızda təşkil olunmuşdur. Attestasiya işçi qrupunun qərarına əsasən 59 nəfər məktəb kitabxanaçısına iş keyfiyyətinə görə yüksək maaş təyin edilmiş, 29 kitabxanaçı isə Xalq Təhsili Nazirliyi tərəfindən müxtəlif formalarda rəğbətləndirilmişdir. Respublika Elmi Pedaqoji Kitabxanasının iki əməkdaşı məktəb kitabxanalarına göstərdikləri metodik köməyə və attestasiyanın keçirilməsində xidmətlərinə görə «Azərbaycan SSR Xalq Təhsili Əlaçısı» döş nişanı ilə təltif edilmişdir.

Respublika Elmi Pedaqoji Kitabxanasının fəaliyyət istiqamətlərindən biri də məktəb kitabxana sisteminə elmi-metodik rəhbərlik işini təşkil etmək olmuşdur.

Kitabxana Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutu və Respublika Müəllimləri Təkmilləşdirmə İnstitutu ilə birgə məktəb kitabxanaçıları üçün kurslar təşkil etmişdir. Kitabxana həm də öz bazasında məktəb kitabxanaçıları üçün aylıq seminarlar və kurslar təşkil etmişdir. Bu kurslar ali təhsilli ixtisasçılar, ali qeyri-ixtisas təhsilli kitabxanaçılar və orta təhsilli kitabxanaçılar üçün ayrı-ayrılıqda keçirilmişdir.

80-ci illərin ikinci yarısında Elmi Pedaqoji Kitabxana sürətlə inkişaf etmiş, elm, mədəniyyət və maarif ocağı kimi tanınmış, onun fondu sürətlə artmışdır. Belə ki, 1987-ci ildə kitabxananın fondunda 163782 nüsxə kitab və digər ədəbiyyat var idisə, 1991-ci ildə onların sayı 356368 nüsxəyə çatmışdı.

*Respublika Elmi Pedaqoji Kitabxanasının 1987–1991-ci illərə aid əsas göstəriciləri*

| № | Göstəricilər | İllər | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1987 | 1988 | 1989 | 1990 | 1991 |
| 1. | Fondun miqdarı | 163782 | 201536 | 252890 | 307413 | 356368 |
| 2. | O cümlədən kitablar: | 115175 | 141410 | 190553 | 205828 | 250709 |
| | Elmi-metodiki | 39071 | 48366 | 59722 | 63478 | 75041 |
| | Bədii | 43475 | 52042 | 70994 | 77747 | 97642 |
| | Tədris | 5680 | 6678 | 14037 | 15160 | 19529 |
| | Mikrodaşıyıcılar | 4324 | 4823 | 6040 | 6788 | 8486 |
| | Digər | 22625 | 29501 | 39760 | 42655 | 50011 |
| | Qəzet və jurnallar | 12100 | 11250 | 1086 | 12738 | 12527 |
| | Digər çap məhsulları | 36507 | 48876 | 52251 | 88847 | 93132 |
| 3. | Oxucuların sayı | 15010 | 17562 | 15150 | 15246 | 15014 |
| 4. | Kitab verilişi | 150230 | 195286 | 211315 | 209187 | 220566 |

Ona görə də Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin 1990-cı il 28 sentyabr tarixli əmri ilə kitabxana III dərəcəli kitabxana statusundan II dərəcəli kitabxana statusuna keçirildi.

Respublika Elmi Pedaqoji Kitabxanası məktəb kitabxanalarının kitab fondunu və soraq məlumat aparatını düzgün şəkildə qurmaq məqsədilə kitabxana-biblioqrafiya təsnifatının (KBT) məktəb kitabxanaları üçün qısaldılmış variantını, buna uyğun olaraq «İkirəqəmli cədvəl»in Azərbaycan variantını hazırlamışdır. Bundan əlavə, Respublika Elmi Pedaqoji Kitabxanasında məktəb kitabxanalarının fəaliyyətini yaxşılaşdırmaq məqsədilə «Məktəb kitabxanalarının işinin planlaşdırılması» (1985), «Kitabxana fondunun və kataloqlarının təşkili» (1985), «Kiçikyaşlı məktəblilərlə iş» (1986), «Məktəblilərin mütaliəsinə rəhbərlik» (1987), «Valideynlərlə iş» (1988), «Məktəblərdə kitabxana şurası» (1990), «Siyasi aktuallığını itirmiş və məzmunca köhnəlmiş nəşr və materialların kitabxana və məlumat-informasiya fondlarından çıxarılması haqqında təlimat» (1991) və s. adda bir sıra metodik vəsait, tövsiyə və təlimatlar (müəlliflər: Tamilla İsmixanova, Hidayət Musayev) hazırlanmışdır.

Kitabxana abunə vasitəsilə aldığı 300 addan çox (Azərbaycan və rus dillərində) dövri nəşrlərin elmi-analitik məzmunu açaraq ümumi və mövzu xarakteri zəngin soraq-məlumat aparatı təşkil edə bilmişdir. Oxuculara xidməti asanlaşdırmaq məqsədilə xeyli cari tövsiyə və fərdi biblioqrafik göstəricilər tərtib olunmuşdur. Pedaqogika sahəsinin görkəmli nümayəndələrinin şəxsi biblioqrafik göstəriciləri hazırlanmışdır. Bunlardan «Xalq Maarifi Pedaqogika. Pedaqoji elmlər» (1983), «Namizədlik və doktorluq dissertasiyalarına dair avtoreferatların biblioqrafik göstəriciləri» (1990), «İllik məlumat göstəricisi» (1990), «Əhməd Seyidov» (1990), «Qəzet və jurnalların cari biblioqrafik göstəricisi»ni (1990) qeyd etmək olar.

Məlumdur ki, kitabxananın fəaliyyətinin müəyyən edilməsində fondun zənginliyi müstəsna rol oynayır. Fondun dinamikliyi onun komplektləşdirilməsi ilə sıx surətdə bağlıdır. Burada əsas aparıcı amil yeni ədə-

biyyatın alınmasıdır. Cari və retrospektiv nəşrlər kitabxanalara müxtəlif yollarla daxil olurdu.

Respublika elmi-pedaqoji ictimaiyyətinin geniş oxucu kütləsinin maraq və sorğularının təminatında kitabxananın «Yeni kitablar, Xalq maarifi, Pedaqogika, Pedaqoji elmlər» seriyası ilə nəşr etdirdiyi göstəricilər mühüm yer tutur. Bu göstəricilər sahəvi xarakter daşısa da, məzmun cəhətdən geniş və əhatəlidir. Azərbaycan və rus dillərində birgə buraxılan cari biblioqrafik göstərici Respublika Kitabxanasının fondunun inkişafı və məzmunu haqqında oxuculara zəngin və maraqlı məlumat verir. Burada on iki mühüm sahəyə aid ədəbiyyat verilir: xalq maarifi, pedaqoji elmlər, xalq maarifi və pedaqoji fikir tarixi, xalq maarifinin təşkili, məktəbəqədər tərbiyə, məktəbəqədər pedaqogika, ümumtəhsil məktəbi, məktəb pedaqogikası, ümumtəhsil məktəblərində ayrı-ayrı fənlərin tədrisi metodikası, xüsusi məktəblər; defektologiya, xüsusi pedaqogika, yaşlıların ümumi təhsili, şəxsi təhsil, peşə və xüsusi təhsil, ailə tərbiyəsi, ideya-siyasi tərbiyə, şagirdlərin ictimai fəallığının formalaşması, xalq maarifi, pedaqoji elmlər və psixologiyaya dair biblioqrafik vəsaitlər.



*Respublika Elmi-Pedaqoji kitabxanasında*

Kitabxana işçiləri yaratmış olduqları soraq-məlumat aparatının mühüm hissəsini təşkil edən kartoteka sistemini yaratmış, onu ilbəil təkmilləşdirmiş və daha da zənginləşdirmişlər.

Respublika Elmi Pedaqoji Kitabxanasının kollektivi sovet dövründə onun üzərinə düşən vəzifələri böyük məsuliyyət hissi ilə yerinə yetirərək kitabxana işinin təşkili və yaxşılaşdırılması sahəsinə öz töhfəsini vermişdir. Bu işdə kollektivin üzvlərindən Tamilla İsmixanovanın, Ramazan Heydərovun, Şəfiqə Məmmədovanın, Hidayət Musayevin, Həqiqət Əsədovanın, Sevil Soltanovanın xidmətləri xüsusi qeyd olunmalıdır.

## Xalq Maarifi Muzeyi

**Azərbaycan SSR XKS-nin 27 aprel 1932-ci il tarixli qərarına əsasən 15 iyul – 1 sentyabr 1930-cu ildə Leninqrad şəhərində (indiki Sankt-Peterbruq) təşkil edilmiş I Ümumittifaq pedaqoji sərginin bazasında Xalq Maarifi Muzeyi yaradıldı.** Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarında deyilirdi: *«Azərbaycan SSR Xalq Komissarları Soveti ibtidai və orta məktəblərdə təhsilin inkişafını təmin etmək sahəsində ÜİK(b)P MK-nın qərarlarının həyata keçirilməsi və Azərbaycanda muzey işinin inkişaf etdirilməsi ilə əlaqədar qərara alır: «Xalq Maarif Komissarlığına Zaqfederasiyanın və Azərbaycan SSR-in 10 illiyi ilə əlaqədar təşkil edilmiş yubiley sərgisinin bazası əsasında Bakıda Zaqfederasiyanın 10 illiyi adına Xalq təhsili muzeyinin yaradılması həvalə olunsun. Muzeyin müvafiq bina ilə təmin olunması Bakı Sovetinə və Xalq Maarif Komissarlığına tapşırılsın. Muzey onun nizamnaməsinə əsasən Azərbaycan SSR XMK-sının elmi-tədqiqat idarəsi, Azərbaycan K(b)P-nin və hökumətin respublikada xalq maarifi və mədəni quruculuq sahəsindəki siyasətini Xalq Maarifi Komissarlığı orqanlarının köməyi ilə yerlərdə öyrədən, həyata keçirilən tədbirləri təbliğ edən mərkəzdir. Onun əsas vəzifəsi toplanan, qorunan və tədqiq olunan tarixi və müasir materiallar əsasında Azərbaycanda xalq təhsilinin inkişafı tarixini hərtərəfli öyrənmək, bu tədqiqatların nəticələrini həm mətbuatda, həm də ekspozision materiallar şəklində aşkarlamaq, müxtəlif elmi-tədqiqat müəssisələri ilə birgə fəaliyyət göstərməkdir».*

Lakin bütün bunlara və rəhbərliyi tərəfindən dəfələrlə vəsatət qaldırılmasına baxmayaraq, muzeyə bina ayrılmadı. Azərbaycan MİK Rəyasət Heyətinin 22 mart 1938-ci il tarixli iclasında bu məsələ yenidən müzakirə olunaraq qərara alındı ki, 1 ay müddətində Bakı Soveti və Xalq Maarif Komissarlığı muzey üçün bina ayırsın. Nəhayət, muzeyin Çkalov küçəsi, 11 (indiki Niyazi küçəsi,11) ünvanında yerləşdirilməsi qərara alındı. Bu binada 1917-ci ilə qədər Marinski qız gimnaziyası, daha sonra qadın pedaqoji seminariyası və Xalq Maarifi Komissarlığı yerləşmişdi.

Muzeyin xronoloji ardıcıllıqla, elmi-tarixi əsaslarla qurulan çox zəngin ekspozisiyasında təhsil sahəsində böyük xidmətləri olan maarifçilər, elm xadimləri, pedaqoq-alimlər, ziyalılar, iş təcrübəsi geniş yayılan qabaqcıl müəllimlərə və təhsil müəssisələrinə dair sənəd və materiallarla yanaşı, tədris prosesini əks etdirən fotoşəkillər, nadir dərs vəsaiti və ləvazimatları, müxtəlif illərə məxsus dərslik və proqramlar, tədris müəssisələrində istifadə edilən texniki vəsaitlər, şagird, tələbə və müəllimlərin əl işləri, albomlar, maketlər və digər eksponatlar nümayiş etdirildi.

30-cu illərdə muzeyə **Mixail İsayev** (1932–1934), **Kamil Hüseynov** (1937), **Yelena Kuznetsova** (1937–1939) rəhbərlik etmişlər.

1939-cu ildə muzeyin 14, 1941-ci ildə 23 əməkdaşı olmuşdur.

40-cı illərin əvvəllərində muzeyin ekspozisiyasında 847 eksponat nümayiş etdirilirdi. O vaxt muzeydə 2715-ə qədər kitab və jurnal da saxlanılırdı. Muzeyin ekspozisiya materialları sahəsi 320 $m^2$ olan böyük bir salonda yerləşdirilmişdi.



**Əli Kazımzadə**
**(1907–1959)**

**Kazımzadə Əli Saleh oğlu** Cənubi Azərbaycanın Ərdəbil şəhərinin Aralı kəndində anadan olmuşdur. Ailəsi ilə Bakıya köçmüşdür (1915). Atası Bibiheybət mədənlərində işləyərkən həlak olmuşdur (1916). Azneftin tikinti idarəsində fəhlə işləmiş, N.Nərimanov adına Yol Texnikumunda (1925–1931) təhsil almış, Bakı tikinti idarəsində texnik-müəllim kimi fəaliyyət göstərmişdir (1927–1935). Azərbaycan Sənaye Şurası Tədris Kombinatında və Oktyabr rayonu Fəhlə-gənclər məktəbində müəllim işləmişdir (1936–1937). APİ-nin Xarici dillər fakültəsində təhsil almışdır (1937–1942).

Balakən rayon orta məktəbinin (1942–1944), Xalq Maarifi muzeyinin direktoru (1944–1959) vəzifələrində çalışmışdır.

Müharibənin başlanması və səfərbərliklə bağlı işçilərin sayı 11 nəfərə kimi azaldıldı.

40–50-ci illərdə ayrı-ayrı vaxtlarda muzeyə **Mixail İsayev** (1941), **Sara Ələsgərova** (1941–1943), **Teyfur Xasməmmədov** (1943–1944), **Əli Kazımzadə** (1944–1959), **Cəfər Cəfərov** (1959–1960) rəhbərlik etmişlər.

1961-ci ildən 1998-ci ilə qədər isə muzeyin inkişafı tanınmış maarif və ictimai xadim, əməkdar müəllim **Tahirə Əhmədzadənin** fəaliyyəti ilə bilavasitə bağlıdır. Onun direktor olduğu dövrdə muzey hərtərəfli inkişaf etmiş, burada yenidənqurma işləri aparılmış, həm sənəd və materialların, həm də işçilərin sayı artmışdır.

1961–1964-cü illərdə muzeyin ekspozisiyasında yenidənqurma işləri aparıldı. Muzeyin yenidən tərtib olunmuş tematik ekspozisiya planı aşağıdakı kimi idi:

- **I salon** – «Azərbaycan xalq maarifi 1830–1920-ci illərdə»;
- **II salon** – «Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra xalq maarifinin inkişafı»;
- **III salon** – «Pedaqoji təhsilin inkişafı və müəllim kadrlarının hazırlanması məsələləri, pedaqoji texnikum və institutların açılması»;
- **IV salon** – «Partiya və hökumət tərəfindən İkinci Dünya müharibəsi dövründə və müharibədən sonra xalq təsərrüfatının bərpası və inkişafı illərində respublikada maarifin inkişafına göstərilən qayğı»;
- **V–VI salonlar** – «Sov.İKP XXIII qurultayının qərarlarının yerinə yetirilməsində məktəblərin fəaliyyəti, müxtəlif fənlər üzrə əyani vəsaitlər, albomlar, dərsliklər, tətbiqi sənət nümunələri və s.»
- **VII salon** – «Komsomol və pioner təşkilatlarının fəaliyyəti».



**Tahirə Əhmədzadə**
**(1923–1998)**

**Əhmədzadə Tahirə Zülfüqar qızı** Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Pedaqoji İnstitutunu (1949), Mərkəzi Komsomol Məktəbini (1954) bitirmişdir. Azərbaycan LKGİ BK-də təlimatçı, Azərbaycan LKGİ MK Pionerlər və məktəbli gənclər şöbəsində müdir müavini (1943–1946), Azərbaycan LKGİ şöbə müdirinin müavini (1949), Azərbaycan LKGİ Bakı Vilayət Komitəsinin katibi (1952), Azərbaycan LKGİ MK-nın katibi (1954), Azərbaycan KP MK-da təlimatçı (1956), Azərbaycan SSR maarif nazirinin müavini (1957), Maarif Nazirliyi kadrlar idarəsinin rəisi (1959–1961), Azərbaycan Respublikası Xalq Maarif Muzeyinin direktoru (1961–1998) vəzifələrində çalışmışdır.

60-cı illərdə muzeydə valideynlər üçün «Ailə və məktəb» və yuxarı sinif şagirdləri

üçün «Hər şeyi bilmək istəyirəm» pedaqoji bilikləri yayan Xalq Universiteti fəaliyyət göstərmiş və apardığı işə görə keçmiş İttifaq miqyasında təşkil edilən xalq universitetlərinin yarışında I dərəcəli diplomla təltif edilmişdir.

Sənəd və materialların artımı ilə əlaqədar 1970-ci ildə reekspozisiya zamanı məktəbdənkənar müəssisələr, uşaq və gənclər təşkilatlarının işini əks etdirən yeni materiallar əlavə olunmaqla muzeyin VIII salonu təşkil edildi.

Azərbaycan SSR Nazirlər Sovetinin **«Respublikada muzey işinin vəziyyəti və yaxşılaşdırılması tədbirləri haqqında»** 30 yanvar 1977-ci il tarixli qərarına əsasən Maarif Nazirliyi tərəfindən muzeyə bütün növ təhsil müəssisələri ilə daimi əlaqələrin yaradılması, muzeyə gələnlərin sayının artırılması, muzey işinə qocaman maarif işçilərinin cəlb edilməsi, muzey haqqında bukletin çap etdirilməsi, muzey eksponatının daim zənginləşdirilməsi, müntəzəm səyyar sərgilərin hazırlanması, görüşlərin keçirilməsi tapşırıldı. Bundan sonra muzey öz işini həmin əsasda qurmağa başladı. Bu müddətdə muzeyin zəngin fondu və kitabxanası yaradıldı, əsas və elmi-köməkçi fond daxil olmaqla minlərlə sənəd, neqativ, fotoşəkil, dərslik və metodik ədəbiyyat toplandı. Onların arasında nadir biblioqrafik ədəbiyyat da var idi. Muzeyin fondunda Azərbaycan təhsilinin inkişafında xidmətləri olan görkəmli şəxsiyyətlər, Azərbaycanda qadın təhsilinin inkişafı, Qori seminariyasının tatar (Azərbaycan) şöbəsi, məktəbəqədər tərbiyə və s. haqqında zəngin materiallar saxlanılır və öyrənilir.

Muzeydə uzun illər Azərbaycan maarifinə rəhbərlik etmiş akademik Mehdi Mehdizadə, ilk azərbaycanlı pedaqoji elmlər doktoru, professor Əhməd Seyidov, professor Mərdan Muradxanov və akademik Hüseyn Əhmədov haqqında qiymətli sənəd və materiallar vardır.

1970-ci ildə muzeydə 10 nəfər işçi çalışırdı.

